# AZƏRBAYCAN TARİXİ

(ən qədim zamanlardan XX əsrədək)

# I CİLD

## ALİ MƏKTƏBLƏR ÜÇÜN DƏRSLİK

*Azərbaycan Respublikası Təhsil Nazirliyi tərəfindən tövsiyə edilmişdir.*

*Z. M.Bünyadovun və Y.B. Yusifovun redaktəsilə*

**«APOSTROFF»**
**BAKI – 2014**

*Redaksiya heyəti:*

Akademik Z.M. Bünyadov, akademik **T.Ə. Bünyadov**,
Azərbaycan MEA müxbir üzvü **Ə.Q. Səfərli**,
T.e.d. prof. Y.B. Yusifov,
Azərbaycan MEA müxbir üzvü **İ.H.Nərimanov**

Dərsliyin müvafiq fəsil və bölmələri aşağıda göstərilən müəlliflər tərəfindən yazılmışdır.

Giriş – tarix elmləri doktoru, prof. Y.B. Yusifov, I fəsil tarix elmləri doktoru, prof. **H.F. Cəfərov**, II –VI fəsillər- prof. Y.B. Yusifov, VII- IX fəsillər tarix elmləri namizədi, dos. R.I.Əliyev, X fəsil tarix elmləri doktoru, prof. **V.Z. Piriyev**, XI-XIV fəsillər tarix elmləri doktoru, prof. **S.A.Məmmədov** (XIV fəslin «Şəki xanlığı» bölməsi, prof. S.A.Məmmədov), XV-XXI fəsillər AMEA-nın müxbir üzvü M.Ə.İsmayılov («Azərbaycanın işğalı» bölməsi-prof. M.Ə.İsmayılov və prof. **S.A. Məmmədov**), XXII fəsil- tarix elmləri namizədi, dos. **S.Z.Bayramzadə**.

*Rəyçilər:*

Bakı Dövlət Universiteti Azərbaycanın qədim və orta əsrlər tarixi kafedrasının professoru S.S. Əliyarov, Azərbaycanın yeni və ən yeni tarixi (kafedra müdiri prof. Q.M. Bayramov) və AMEA-nın müxbir üzvü **İ.A. Babayev**.

**Azərbaycan tarixi.** I cild. Dərslik.
**Bakı,** «Apostroff» nəşriyyatı, 2014, -720 səh.

Dərslikdə Azərbaycanın qədim və orta əsrlər etnik tarixindən, dövlət quruluşlarından, sosial-iqtisadi və siyasi həyatından, mədəniyyətindən, dini görüşlərindən, həmçinin Rusiya tərəfindən işğal edilməsindən, regionda kapitalist münasibətlərinin yaranması və inkişafından bəhs edilir. Dərslikdə dövrlər üzrə xəritələr verilmişdir.

Azərbaycan dilində nəşr olunan bu dərslik müəllimlər, tələbələr, aspirantlar və geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

© Apostroff 201
© M.Bəhmənli, dizayn 201

ISBN 978-9952-404-48-7

Çapa imzalanmış 10.10.2014,formatı 60x84 1/16,
fiziki ç.v 45,ofset kağızı, Times qarnituru, Sayı 300

Kitab «APOSTROFF»
nəşriyyatında nəşrə hazırlanmış və ofset üsulu ilə çap olunmuşdur.
AZ1000, Azərbaycan, Bakı, H.Zərdabi 71A.
Tel. 00994124325104
E-mail: apostroffprinthouse@bk.ru

# MÜNDƏRICAT

Ön söz ........ 15
Azərbaycan tarixinə giriş
§ 1. Azərbaycan tarixi kursunun mövzusu və əhəmiyyəti ........ 17
§ 2. Azərbaycan tarixinin qaynaqlan ........ 17
Ən qədim və qədim arxeoloji abidələr ........ 18
Qədim yazili mənbələr ........ 18
Şumer-Akkad, Assur və Urartu mixi yazıları (e.ə. 111—I minilliklər) ........ 18
Antik mənbələr ........ 19
Erkən orta əsr yazılı mənbələri (IV-X əsrlər) ........ 19
Bizans qaynaqlan ........ 19
Qədim alban və erməni mənbələri ........ 19
Ərəb mənbələri ........ 20
Epiqrafık abidələr ........ 20
Orta əsr yazılı mənbələri (XI-XVIII əslər) ........ 20
Kapitalizm və imperializm dövrünün mənbələri ........ 21
§ 3. Azərbaycan tarixşünaslığı ........ 22
Arxoloji və epiqrafık araşdırmalar ........ 22
Qədim dövrün öyrənilməsi ........ 23
Orta əsrlərin öyrənilməsi ........ 24
Kapitalizm dövrünün öyrənilməsi ........ 24
§ 4. Azərbaycan tarixinin xronologiyas! və dövrləşdirilməsi ........ 27
§ 5. Təbii və coğrafi şərait ........ 27
§ 6. Ölkənin adı ........ 29

## ƏN QƏDİM DÖVR

*Ifəsil.* Azərbaycanda ibtidai icma quruluşu
§ 1. Qədim daş dövrü (Quruçay mədəniyyəti). İbtidai surü icması ........ 32
Nəsli qəbilə quruluşunun təşəkkülü ........ 32
Orta paleolit və erkən mustye dövrü ........ 36
§ 2. Mezolit dövrü. Mənimsəmə təsərrüfatından istehsal təsərrüfatına keçid (e. ə. XII-VIII minilliklər) ........ 37
§ 3. İstehsal təsərrufatinin təşəkkülü. Neolit dövrü. (e.ə. VII-VI minilliklər) ........ 39
§ 4. Eneolit dovrü (e.ə. VI-IV minilliklər) ........ 40
Əhalinin məşğuliyyəti ........ 42

Əhalinin sosial-ictimai həyatı və dünyagörüşü..........................45
§ 5. Azərbaycan tunc dövründə
(e.ə. IV minilliyin sonu~II minillik) ........................................47
Erkən Tunc dovrü (Kür-Araz mədənİ3/yəti)
(e.ə. rv minilliyin sonu-III minillik)..........................................47
Təsərrüfat birinci böyük ictimai əmək bölgüsü .........................49
Sənətkarlıq.........................................................................50
Əhalinin dünyagörüşü. İctimai quruluş.......................................51
§ 6. Azərbaycan orta Tunc dövründə
(e.ə. II minilliyin birinci yarısi) ................................................52
İlkin şəhər mədəniyyətinin təşəkkülü .......................................52
Təsərrüfat həyatı ..................................................................54
Sənətkarlıq. İkinci böyük ictimai əmək bölgüsü.......................55
İctimai quruluş və dünyagörüşü................................................57
İqtisadi-mədəni əlaqələr..........................................................58
§ 7. Azərbaycan son Tunc və ilk Dəmir dövründə
(e.ə. XIV-VIII əsrlər)..............................................................59
Xocalı-Gədəbəy mədəniyyəti (e.a. XIV-VIII əsrlər) .................59
Talış-Muğan mədəniyyəti (e.ə. XIV-VII əsrlər)...... ... ............61
Naxçıvan mədəniyyəti
(e.ə. II minillik və I minilliyin əvvəli) ......................................62
Təsərrüfat sahələri.................................................................63
Sənətkarlığın inkişafı .............................................................65
Tikinti işi və incəsənət ...........................................................68
Dünyagörüşü.........................................................................69
Mədəni-iqtisadi əlaqələr .........................................................70
§ 8. İbtidai-icma quruluşunun dağılması və sinifli
Cəmiyyətin meydana gəlməsi...................................................71
QƏDIM DÖVR
*//fəsiL* Azərbaycan quldarlıq quruluşu dövründə
§ 1. Sinifli cəmiyyətin meydana gəlməsi ........................................73
Azərbaycanın qədim şərq mədəniyyət mərkəzilə əlaqəsi ..........73
Azərbaycanda qeyri-bərabər ictimai-iqtisadi inkişaf.................75
§ 2. Azərbaycanın ən qədim dövlətləri ...........................................76
E. ə. 111 minillikdə ikicayarası
(Mesopotamiya) ilə münasibətlər ............................................76
İlk dövlət qurumu Aratta..........................................................76

Arattanin Şumer ilə siyasi və iqtisadi əlaqələri ............................78
Aratta əhalisinin məşğuliyyəti......................................................80
Arattanin coğrafi mövqeyi ..........................................................82
Lullubum (Lullubi) dövləti ..........................................................83
Kutium (Qutium) dövləti.............................................................85
§ 3. E.ə. II minillikdə qədim Azərbaycanın siyasi vəziyyəti................89
Yeni tayfa ittifaqları ...................................................................89
Assurların qədim Azərbaycan torpaqlarına yürüşləri ................92
§ 4. Etnik tərkib..............................................................................94
Prototürklər ...............................................................................94
Lullular.......................................................................................95
Turukkilər...................................................................................96
Sular ..........................................................................................96
Kutilər (Qutilər) .........................................................................97
Qonşu etnoslar............................................................................99
Hind-avropalılar .........................................................................99
Şumerlər ...................................................................................100
Samilər, kassilər və elamlar ......................................................101
Kassilər.....................................................................................102
Elamlar .....................................................................................102
§ 5. Manna dövləti .......................................................................103
Xırda dövlət birləşmələri...........................................................103
Manna dövlətinin yaranması .....................................................105
Assurların Mannaya müdaxiləsi.................................................107
Mannada Urartu işğalları...........................................................108
Mannanın yüksəlişi ...................................................................111
İranzunun dövləti mərkəzləşdirmə siyasəti ................................112
Daxili ixtilaflar..........................................................................114
II Sarqonun Mannaya böyük yürüşü.........................................116
Manna dövlətinin süqutu ..........................................................119
§ 6. Kimmer-skit-sak padşahlığı ....................................................120
Kimmer, skit və saklar ilkin məskənləri.....................................120
Kimmer, skit və saklar Azərbaycanda .......................................121
Kimer-skit və sak padşahlığının yaranması və süqutu ...............122
§ 7. Mannanın ictimai-iqtisadi və mədəni həyatı ..............................124
Təsərrüfat ..................................................................................124
Maldarlıq və atçılıq ...................................................................124

Sənətkarlıq....................................................................125
Memarhq və incəsənət...........................................................128
Din və əfsanələr...................................................................129
Dövlət quruluşu .................................................................. 131
Yazı və dil ...........................................................................133
/// *fəsil* Azərbaycan quldar imperiyalar dövründə
§ 1. Azərbaycan Midiya dövlətinin hakimiyyəti illərində................138
§ 2, Azərbaycan Əhəməni sülaləsinin hakimiyyəti illərində............141
§ 3. Azərbaycan Makedoniyalı İskəndərin Şərqə yürüşü
dövründə.................................................................147
*IVfəsil* Qədim Azərbaycan dövlətləri
§ I. Azərbaycan (Atropatena) dövləti...........................................149
Əhalisi ..................................................................................149
Adı.......................................................................................151
Müstəqil Azərbaycan dövlətinin yaranması.............................154
Azərbaycan Seləvki, Roma va Parfiya münaqişələri arasında... 156
§ 2. Albaniya dövləti................................................................ 164
Əhalisi və adı..........................................................................164
Alban dövlətinin yaranması.....................................................169
Albaniya-Armeniya münasibətləri ...........................................171
Albaniya Roma-Pont hərc-mərcliyi zamanı..............................173
Albanların Roma işğalçılarına qarşımübarizəsi.........................174
§ 3. İqtisadiyyat və din ...............................................................178
İctimai-iqtisadi münasibətlər....................................................178
Təsərrüfat ..............................................................................180
Maldarlıq ...............................................................................182
Sənətkarlıq.............................................................................183
Ticarət....................................................................................184
Din ........................................................................................185
ORTA ƏSRLƏR
DÖVRÜ *Vfəsil.* Azərbaycan ilkin feodalizm
dövründə
§ 1. Feodal münasibətlərinin bərqərar olması ..................................190
§ 2. Azərbaycan feodal dövləti.......................................................192
§ 3. Məzdəkilər hərəkatı................................................................194
§ 4. Alban feodal dövləti...... ... .....................................................196
Aranilər sülaləsi............ ... ...................................................196
Albaniya Bizans-Sasani hərc-mərcliyi dövründə
(510-630-cu illər) ...................................................................210

Mehranilər sülaləsi ............................................................ 217
§ 5. İqtisadiyyat və mədəniyyət .................................................... 220
İqtisadi va sosial həyat ........................................................... 220
Mədəniyyət ............................................................................... 223
§ 6. Azərbaycanda xristianlıq ........................................................ 223
Köhnə dini etiqadlar. ................................................................ 223
Xristianlığın ilk addımları ......................................................... 225
Xristianlığın yayılması ............................................................. 227
*VIfasU.* Azərbaycan xalqının və dilinin yaranması
Erkən orta əsrlərdə Azərbaycan əhalisi .................................. ..232
Türk tayfaları Hun ittifaqında ................................................... 234
Azərbaycan dili və yazısı ......................................................... 235
Arran dili ................................................................................... 237
Azəri dili .................................................................................... 245
Azərbaycan türklərinin mənşəyi .............................................. 249
Azərbaycan xalqının təşəkkülü ................................................ 252
*VIIfəsil.* Azərbaycan Xilafətin tərkibində
§ 1. Ərəblərin Azərbaycanı işğal etməsi ........................................ 257
Siyasi vəziyyət .......................................................................... 257
İqtisadi vəziyyət ........................................................................ 258
§ 2. Xilafətin meydana gəlməsi və Sasanilər imperiyasının
süqutu ....................................................................................... 260
Ərəb qoşunlarının Azərbaycana soxulması və
onlara qarşı mübarizə ............................................................... 262
Cavanşirin xarici siyasəti ... ..................................................... 264
Azərbaycan uğrunda ərəb-xəzər müharibələri.... ...................... 268
§ 3. Azərbaycanda ərəb istilası ...................................................... 270
İstilanın başa çatması və islam dininin yayılması .................... 270
inzibati idarə sistemi ................................................................. 273
Vergilər ..................................................................................... 274
Torpaq mülkiyyəti formaları ..................................................... 276
Xilafət əleyhinə çıxışlar ............................................................ 277
§ 4. Xürrəmilər hərəkatı ................................................................. 279
Xürrəmilərin təlimi və onun mahiyyəti ..................................... 279
«Xürrəm» termini haqqında ..................................................... 281
Xürrəmilərin rəhbərləri. Babək ................................................. 281
Xürrəmilərin ilk uğurları və üsyanın genişlənməsi .................. 284

Hərəkatın son mərhələsi. Feodalların hərəkatdan uzaqlaşması ... 286
Üsyanın məğlubiyyəti və Bəzz qalasının süqutu ... 287
Babəkin son günləri ... 289
Xürrəmilər hərəkatının əhəmiyyəti ... 291
§ 5. VII əsrin ikinci yarısı və IX əsrdə təsərrüfat ... 292
Ticarət ... 293
Şəhərlər ... 294
*VIII fəsil,* Azərbaycanda müstəqil feodal dövlətlərinin yaranması
§ I. Azərbaycanda yeni müstəqil Feodal dövlətləri ... 296
Azərbaycanın Xilafət hakimiyyətindən azad olması ... 296
Şirvanşahlar ... 296
Sacilər dövləti ... 299
Salarilər dövləti ... 301
Ruslar Azərbaycanda ... 303
Şaddadilər dövləti ... 305
Rəvvadilər dövləti ... 308
§ 2. Kənd təsərrüfatı ... 309
ictimai münasibətlər ... 310
§ 3. Azərbaycanda səlcuq türklərinin hakimiyyəti ... 312
*IXfəsil.* Azərbaycanda orta əsr feodal dövlətlərinin yenidən bərpası və fəaliyyəti
§ l. Səlcuqilər imperiyasının tənəzzülü şəraitində
Şirvan feodal dövlətinin yüksəlişi ... 318
Şirvan-Gürcüstan münasibətləri ... 318
§ 2. Azərbaycan Atabəylər dövləti ... 323
§ 3. İqtisadiyyat və mədəniyyət ... 331
Kənd təsərrüfatı ... 331
Şəhərlər. Sənətkarlıq və ticarət ... 332
ictimai münasibətlər ... 334
Məktəb və elm ... 337
Ədəbiyyat və incəsənət ... 341
*Xfəsil,* Azərbaycanda monqol hakimiyyəti
§ 1. XIII əsrin birinci yarısında Azərbaycanda siyasi vəziyyət ... 347
§ 2. Azərbaycanda Hülakulər dövləti ... 350
Çobanilərin Azərbaycanda siyasi fəaliyyəti ... 354
§ 3. Azərbaycanda Cəlairilərin hakimiyyəti ... 354

Teymurun və Toxtamışın Azərbaycana yürüşləri .......................... 355
§ 4. Şirvanşahlar dövləti XIII-XİV əsrlərdə .......................................... 358
§ 5. İctimai və siyasi quruluş ................................................................... 359
Azərbaycanın hüdudları ........................................................................ 359
Dövlət quruluşu və idarə sistemi ........................................................ 361
Etnik dəyişmələr..................................................................................... 363
Monqollann dini siyasəti və islam dininin mövqeyi........................ 364
§ 6. İqtisadiyyat və mədəniyyət .............................................................. 366
Monqol yürüşlərinin Azərbaycan iqtisadiyyatınatəsiri.................. 366
Monqolların Azərbaycanda iqtisadi siyasəti ................................... 367
Qazan xanın islahatları ........................................................................ 368
Çobanilər və Cəlairilər dövründə Azərbaycan
iqtisadiyyatinda dəyişikliklər .............................................................. 371
Elm və mədəniyyət................................................................................ 372
*XIfəsiL* Azərbaycan Feodal dövlətləri
§ 1. Azərbaycanın daxili siyasi vəziyyəti ............................................... 374
Şirvanşah I İbrahimin siyasəti ............................................................ 374
Teymur və Qızıl Orda xanı Toxtamışın Azərbaycana
Hücumları.................................................................................................. 375
Əlincə qalasının müdafiəsi .................................................................. 377
Təbrizin fəthi ......................................................................................... 381
Hürufilik .................................................................................................. 382
Şirvanşah I İbrahimin birləşdirmə siyasətində yeni addım .......... 384
§ 2. Qaraqoyunlu dövləti ......................................................................... 385
Qaraqoyunluların Təbrizi tutması ...................................................... 387
Qara Məhəmmədin Qara Pirhəsənlə davası ..................................... 387
Qaraqoyunlu Kəmaləddin Qara Yusif (1389-1421)........................ 388
Qara Yusifin və Sultan Əhmədin Misirə qaçması............................ 388
Qara Yusif və Sultan Əhmədin Azərbaycana qayıtması ................ 389
Qaraqoyunluların Cənubi Azərbaycanda və
Qarabağda möhkəmlənməsi ............................................................... 390
Şirvan və Qaraqoyunlu dövləti........................................................... 391
XV əsrin 20-30-cu illərində Qaraqoyunlu dövləti.
Şirvanşahlar və Teymurilər ................................................................. 392
Qaraqoyunlu dövlətinin daxili və xarici siyasəti.............................. 395
§ 3. Ağqoyunlu dövləti ............................................................................. 397
Ağqoyunlular və Teymurilər ............................................................... 398

Ağqoyunlu dövlətinin daxili və xarici siyasəti ............................ 399
§ 4. Azərbaycanın xarici əlaqələri ...................................................... 402
Agqoyunlu-Turkiyə münasibətləri ................................................ 403
Ağqoyunlu dövlətinin süqutu ........................................................ 411
Azərbaycan-Rusiya münasibətləri ................................................. 414
Dövlət quruluşu, inzibati idarələr, hərbi qüvvələr ......................... 418
Torpaq sahibliyi, vergilər və mükəlləfiyyətlər .............................. 419
Kəndli hərəkatı ............................................................................... 419
*XIIfəsil.* Azərbaycan Səfəvilər dövləti
§ 1. Səfəvilərin Ərdəbil hakimliyi ....................................................... 421
Azərbaycan XV əsrin sonunda ...................................................... 428
İsmayılın Ərzincan səfəri ............................................................... 428
Şirvanşah Fərrux Yaşarla döyüş .................................................... 429
İsmayılın Bakını tutması ................................................................ 430
§ 2. Azərbaycan Səfəvilər dövlətinin yaranması ................................. 431
Ağqoyunlu Əlvəndin darmadağın edilməsi ................................... 431
Ağqoyunlu Muradın məğlubiyyəti. Azərbaycan Səfəvilər dövlətinin genişlənməsi ....................................................... 433
I Şah İsmayılın xarici siyasəti ......................................................... 434
Çaldıran döyüşü və onun nəticələri ................................................ 435
Səfəvilər, Gürcüstan və Şəki münasibətləri439
§3.1 Təhmasibin dövründə Səfəvi dövlətinin vəziyyəti ......................... 441
Türkiyə ilə münasibətlər .................................................................. 441
Türkiyə və Səfəvilər müharibəsinin yenidən başlanması ............... 443
Şirvanın Səfəvi dövlətinə birləşdirilməsi ........................................ 444
I Süleymanın Azərbaycana üçüncü yürüşü .................................. 445
Şirvanda Səfəvilər əleyhinə üsyanlar ............................................. 446
Şəkinin Səfəvi dövlətinə birləşdirilməsi ........................................ 446
Səfəvilərin Osmanlı ərazisinə yürüşü ............................................. 447
I Süleymanın Azərbaycana dördüncü yürüşü. Qasım Mirzənin Şirvanda Səfəvilər əleyhinə üsyanı ............................................... 448
Səfəvilərin Avropa ölkələri ilə əlaqələri ......................................... 449
Məhəmməd Xudabəndinin vaxtında Səfəvi dövlətinin daxili vəziyyəti ...................................................................................... 454
1677-ci il kürd qiyami ..................................................................... 455
1578-ci ildə Osmanlı qoşununun Ön Qafqaza yürüşü. (Çildir döyüşü) ............................................................................. 456

Türklərin Gürcüstana və Şirvana yürüşləri................................456
Krim tatarlarının Şirvana və Qarabağa hücumu ........................459
1580-ci ildə qızılbaş əyanları içərisində ara müharibələri .........460
§ 4. Səfəvi-Osmanlı münasibətləri və Azərbaycan uğrunda mübarizə 461
Azərbaycan Səfəvi dövlətinin süqutu ....................................... 474
§ 5. XVI əsrdə Azərbaycanın sosial-iqtisadi həyatı................................476
Kənd təsərrüfatı ........................................................................ 476
Hakim feodal siniflər ................................................................ 477
Şəhərlər, sənətkarlıq, ticarət..................................................... 478
Dövlət quruluşu ........................................................................ 486
Sinfi mübarizə........................................................................... 489
§ 6 XV-XVI əsrlərdə Azərbaycan mədəniyyəti.....................................490
Məktəb və elm .......................................................................... 490
Ədəbiyyat.................................................................................. 491
İncəsənət .................................................................................. 492
§ 7. Şah Abbasın hakimiyyətə gəlməsi ............................................ 494
Səfəvi-Turkiyə müqaviləsi (1590498
§ 8. Azərbaycan Səfəvi-Osmanlı hakimiyyəti altında........................ 499
Yəni inzibati bölgü və vergi siyasəti.......................................... 499
Azərbaycan xalqının azadlıq mübarizəsi .................................. 502
Cəlalilar hərəkatı....................................................................... 503
Koroğlu..................................................................................... 507
§ 9. Səfəvi-Osmanlı müharibələri və Azərbaycan .................................. 508
1639-cu il sülhü ........................................................................ 515
Hakimiyyət idarələri ................................................................. 521
§ 10. XVII əsrdə Azərbaycanın sosial-iqtisadi həyatı ......................... 522
Kənd təsərrüfatının vəziyyəti.................................................... 522
Şəhərlər..................................................................................... 523
Daxili və xarici ticarət .............................................................. 527
§ 11 Azərbaycan-Rusiya münasibətləri ................................................ 529
Pul tədavülü .............................................................................. 531
§12. Feodal istismarına qarşı xalq kütlələrinin çıxışları ...................... 532
*XIIIfasiL* Azərbaycan XVIII əsrin birinci yarısında § 1.
XVIII əsrin əvvəllərində Azərbaycanın
daxili və xarici vəziyyəti........................................................ 536
Xəzərsahili vilayətlərin Rusiya tərəfindən zəbt edilməsi........... 538
Türkiyənin Qafqaza hərbi müdaxiləsi........................................ 540

Xəzərsahili vilayətlər Rusiyanın hakimiyyətialtında............... 543
§ 2. XVIII əsrin 30-cu illərində Azərbaycan uğrunda
İran-Türkiyə müharibələri .................................................... 545
Azərbaycan iran hakimiyyəti altında....................................... 550
iran zülmünə qarşı kəndli iğtişaşları
*XIVfəsil.* Azərbaycan xanlıqlan
§ 1. Şəki xanlığı ......................................................................... 560
§ 2. Qarabağ xanlığı.................................................................... 568
Şuşanın qəhrəman müdafiəsi................................................. 577
Aga Məhəmməd şahın Azərbaycana yeni hücumu 578
§ 3. Quba xanlığı......................................................................... 580
Salyan, Dərbənd, Bakı xanlıqlarının Quba xanlığına
birləşdirilməsi ...................................................................... 581
Şamaxı, Şəki və Cavad xanlıqlarının Qubayabirləşdirilməsi ...585
§ 4. Azərbaycan XVIII əsrin sonunda. Rusiya ilə münasibətlər......... 577
§ 5. Xanlıqların sosial-iqtisadi həyatı ........................................ 593
Kənd təsərrüfatı və kəndlilərin vəziyyəti ................................ 593
Sinfi mübarizə ...................................................................... 597
§ 6. Mədəniyyət ......................................................................... 597
Məktəb və maarif ................................................................. 597
Dil və ədəbiyyat ...................................................................599
Elm və incəsənət................................................................... 603
Kitab və xattatlıq ................................................................. 604
XVIII əsr mədəniyyəti ......................................................... 605
*XVfəsiLŞıməM* Azərbaycanın çar Rusiyası tərəfindən işğalı
§ 1. İşğalın başlanması ............................................................... 608
XIX yüzilliyin başlanğıcında Azərbaycanın
xarici siyasi vəziyyəti .......................................................... 608
İşğalın başlanması ................................................................ 609
Birinci Rusiya-İran müharibəsi,
Qarabağ və Şəki xanlıqlarının tabe edilməsi ............................ 611
Şirvan, Bakı va Quba xanlıqlarının işğalı ................................ 613
Gülüstan müqaviləsi.............................................................. 615
§ 2. Azərbaycanın iki hissəyə parçalanması .................................. 616
İkinci Rusiya-İran müharibəsi. Türkmənçay müqaviləsi ........ 616
*XVIfəsil* Azərbaycan XIX əsrin 30-40-ci illərində § 1. İnzibati idarə sistemi
..................................................................................................... 619

Təsərrüfat həyatı ................................................................ 620
Şəhərlər, sənətkarlıq, sənaye, ticarət ................................... ...622
§ 2. Azərbaycanda aqrar münasibətlər. Sinfi mübarizə ........................624
Kənddə sosial münasibətlar ... ......... ... ......... ..........................624
Müstəmləkə və feodal zülmünə qarşı mübarizə ................ .......625
§ 3. 40-ci illərin islahatları ................................................................ 626
Komendant idarə üsulunun ləğvi..............................................626
Aqrar islahatlar ........................................................................ 627
*XVIIfəsiL* XDC əsrin birinci yarısında Azərbaycan mədəniyyəti
§ 1. Maarif və elm ............................................................ ........629
Maarif........................................................................................ .629
Elm .................................................................................... 630
§ 2. Ədəbiyyat və incəsənət ..............................................................631
Ədəbiyyat................................................................................ :631
İncəsənət ............................................................................. 633
*XVIIIfəsil* Azərbaycan kəndi XIX əsrin ikinci yarısında
§ 1. 60-70-ci illərin burjua islahatları ........................................... 634
1870-ci il kəndli islahatı........................................................... 634
Digər islahatlar.......................................................................... .636
§ 2. islahatdan sonra kənd təsərrüfatının vəziyyəti
Sosial münasibətlər. Sinfi mübarizə...................................... ....638
Kənd təsərrüfatının vəziyyəti... .... ........................................... 638
Sosial münasibətlər ............................................................ 640
Sinfi mübarizə......................................................................... 642
*XIXfəsil.* XIX əsrin ikinci yarısında Azərbaycan sənayesi.
Sənətkarlıq və ticarət
§ 1. Sənaye......................................................................................645
Neft sənayesi ....................................... ... ....................: ........645
Başqa sənaye sahələri............................................................. ...647
§ 2. Sənətkarlıq, ticarət, şəhərlər ................................................... 648
*XXfəsiL* Azərbaycanda burjua cəmiyyətinin təşəkkülü və
sinfi mübarizə
§ 1. Burjuaziya və proletariat..........................................................650
Burjuaziya ..................................................................................650
Fəhlələr .....................................................................................651
§ 2. Azərbaycan burjua millətinin formalaşması, ictimai
həyatdakı cərəyanlar ............................................................... .652

§ 3. Fəhlə sinfinin vəziyyəti və inqilabi mübarizəsi ..............................654
Fəhlələrin vəziyyəti ....................................................................654
Fəhlə hərəkatının başlanması.........................................................655
*XXIfəsil.* XIX yüzilliyin ikinci yarısında Azərbaycan mədəniyyəti
§ 1. Maarif, səhiyyə, mətbuat, elm........................................................656
Maarif va səhiyyə ........................................................................656
Mətbuat .......................................................................................658
Elm. ictimai fikir...........................................................................658
§ 2. Ədəbiyyat və incəsənət..................................................................659
Ədəbiyyat ....................................................................................659
incəsənət .....................................................................................660
*XXIIfəsil* Cənubi Azərbaycan (1828-1917)
§ 1. Cənubi Azərbaycanın inzibati-siyasi quruluşu................................662
Türkmənçay sülh müqaviləsi və «Cənubi Azərbaycan»
siyasi məfhumunun meydana gəlməsi ..........................................662
Cənubi Azərbaycamn inzibati-ərazi bölgüsü, əhalinin sayı............663
Siyasi idarəetmə sistemi ...............................................................663
§ 2. Cənubi Azərbaycanda sosial-iqtisadi vəziyyət................................665
Kənd təsərrüfatı və sənətkarlıq .....................................................665
Xarici kapitalın nufuzunun artması və yeni sənaye
sahələrinin yaranması ..................................................................665
Sosial vəziyyət: aqrar münasibətlər, vergi sistemi,
kəsbkarlığın başlanması................................................................667
§ 3. Cənubi Azərbaycanda siyasi vəziyyət.............................................668
Hakim dairələrin Azərbaycanda zülm siyasəti.
Babilər hərəkati.............................................................................668
XIX əsrin sonu-XX əsrin əvvəllərində geniş xalq kütlələrinin
imperializmə qarşı ilk çıxışları .....................................................670
Cənubi Azərbaycan 1905-1913-ci illər Məsruta inqilabında...........672
Cənubi Azərbaycan birinci dünya müharibəsidövründə..................675
§ 4. Cənubi Azərbaycanda mədəniyyətin inkişafı..................................677
Maarif ..........................................................................................677
Mətbuat.........................................................................................678
Ədəbiyyat .....................................................................................678
Teatr.............................................................................................679
Xronologiya..................................................................................681
İstifadə olunmuş ədəbiyyat..................................................!.......701

# ON SOZ

Son zamanlar Azərbaycan tarixinin müxtəlif sahələri üzrə sanballı elmi araşdırmalar aparılmış, siyasi, iqtisadi, etnik problemlərin, o sıradan mədəniyyət məsələlərinin tədqiqində müəyyən nailiyyətlər əldə edilmişdir. Lakin qədim qaynaqların azlığı, həm də onların birtərəfli tədqiqi Azərbaycan xalqının tarixinin subyektiv izahına gətirib çıxarmışdır. Ölən müddət ərzində bu sahənin də öyrənilməsində yeni addımlar atılmış, qaynaqlann araşdırılması, elmi təhlili xeyli genişlənmiş və dərsliyin yazılması üçün kifayət qədər elmi-pedaqoji imkanlar yaranmışdır.

Əlbəttə, yazılı qaynaqların kifayət qədər olmaması Azərbaycan tarixinin bütün sahələrini və dövrlərini eyni səviyyədə tədqiq etməyə, qaranlıq məsələləri işıqlandırmağa imkan vermir. Ən çətin və mübahisəli problem azərbaycanlıların soykökünün tarixidir. Həmin problemin bə’zi məsələləri üzrə hələ də vahid fikir yoxdur. Çünki bir tərəfdən xalqımızın etnik tarixini subyektiv baxımdan izah edən və müəyyən siyasi məqsədlər güdən tendensiyalar uzun müddət öz mövqeyini saxlamış və təəssüf ki, indi də saxlamaqdadır. Guya «ızərbaycanlılar türk dillərinin birində danışan xalq kimi bu torpaqlara yaxın keçmişdə gəlmişlər. Digər tərəfdən qədhn zamanlardan azərbaycanlıların soykökünün bu ərazi ilə bağlı olması, Azərbaycan xalqının yaranması və fomıalaşmasında bilavasitə iştirak edən türk etnoslarının qədimdən burada yaşamaları barəciə mövzular 60-cı illərdən başlayaraq tədqiqat obyektinə çevrilmiş və son illər dnha da genişləndirilmişdir. Bu müddəanın əsas məzmununu qədim zamanlardan Azərbaycanda və qonşu əmzilərdə türk etnoslarının məskun olması fikri təşkil edir. Qaynaqların təhlili bu müddəanı təsdiqləyir. Tarix boyu Azərbaycanda məskunlaşan və müxtəlif dillərdə danışan emoslar islam dini çərçivəsində azərbaycanlılarla yaxın iqtisadi və mədəni əlaqədə olmuşlar. Onlar indi də dillərini saxlamaqla Azərbaycan xalqı ilə sıx təmasdadırlar. Bu səbəbdən də keçən uzun müddət ərzində sülhsevər, müdrik və ərazisindəki azsaylı etnik qrupların adət-ən’ənəsinə hörmətlə yanaşan bir xalq kimi azərbaycanlılar arasında beynəlmiləl ən'ənə yaranmış vö inkişaf etmişdir. Dərslikdə, qaynaqlann verdiyi imkan daxilində, bu etnik azlıqların da erkən tarixinə nəzər yetirilmişdir. Azərbaycan

xalqının etnik azlıqlan öz etrafmda toplaması qarşılıqlı tə’sire də səbəb olmuşdur. Həmin lə’sir Azərbaycan medəniyyəlinin çoxşaxəli zənginləş* məsinə şərait yaratmışdır. Bu barədə mövcud müddəalar imkan daxilində oxuculara təqdim olunan «Azərbaycan tarixi» dərsliyində öz əksini tapmışdır.

«Azerbaycan tarixi» dərsliyi yazılarkən müəyyən çətinliklər ortaya çıxdı: ya hazır materiai/an ünıumiləşdirmək, ya da ki, baş vermiş dəyişikliklərlə bağlı yeni səpkidə dərslik yazmaq. Sonuncu fikri əsas götürən müəlliflər bir-birindən fərqlənən müddəaları müqayisə etmiş, ehknmçı- lıqdan uzaqlaşmış, mövcud ədəbiyyatla yanaşı, ilk qaynaqların nıə’luma- tına da əsaslanmışlar. Onlar bə'zi tarixi problemlərin həllinin vəziyyəti barədə oxucuda təsəvvür yaratmağa, onların diqqətini araşdırılacaq məsələlərə yönəltməyə çalışmış, dərsliyin yazılmasında müqayisəli tədqiqat üsulunu üstün tutmuş, xüsusilə etnik, qismən de siyasi və iqtisadi tarix sahəsində mövcud olan ikili, yaxud mübahisəli müddəaları da qeydə almışlar. Şübhə yoxdur ki, tarixi materiala yeni baxım, bu və ya digər mülahizələrin üstünlük təşkil etməsi, tarixi hadisələrə əvvəlkindən fərqli münasibət müəyyən elmi mübahisə doğura bilər. Bir sıra, xüsusilə qədim və erkən orta əsr tarixinə aid fikir və mülahizələr uzun illərdən bəri tarix- şünaslıqda kök salmış müddəaları təkzib edir və qismən də ehtimal şək-t lində qoyur. Lakin elm bir yerdə dayanmır, inkişaf edir, buna göro də Azərbaycan xalqının vacib tarixi problemlərinin yeni istiqamətdə qoyuluşunu və həllini zəruri hesab etməklə bu münasibəti ancaq alqışlamaq olar. Şübhəsiz, tarixşünaslığımızda təhlil edilmiş faktlarla yanaşı, kifayət qədər araşdırılmamış, mübahisəli, bə’zən də ziddiyyətli mülahizələr də vai'dır. Aydındır ki, mübahisələr obyektiv və elmi mübadilə səpkisində aparılmalıdır.

Oç cildlik «Azərbaycan tarixi»nin akademik nəşrindən 30 ildən artıq vaxt keçmişdir. Bu müddətdə müddəaların çoxu köhnəlmiş, bir sıra tədqiqat *əsərləri yazılmış,* Azərbaycan tarixinin *xeyli* vacib problemləri *yeni* baxımdan araşdırılmış, həm də onun geniş tədrisilə əlaqədar dərsliklərin yazılmasma ehtiyac artmışdır. Buna görə də professor Yusif Yusifovun rəhbərliyi altında elmi-pedaqoji kadrların iştirakı ilə ali məktəblər üçün ilk dərsliyin nəşri oxuculara görəkli hədiyyə sayıla bilər.

# AZƏRBAYCAN TARİXİNƏ GİRİŞ

## 11. AZƏRBAYCAN TARİXİ KURSUNUN MÖVZUSU VƏ ƏHƏMİYYƏTİ

Azərbaycan tarixi kursunun mövzusu çox genişdir, çünki o bir ölkənin ən qedim dövrlərdən günümüzədək mövcud olan ictimai* iqtisadi, siyasi, etnik, mədəni tarixini şərh edir. Elmi ədəbiyyatda Azərbaycan tarixinin müxtəlif dövrləri və problemləri eyni səviyyədə araşdırılmamış, subyektiv, həqiqətdən uzaq mülahizələr irəli sürülmüşdür. Uzun müddət və elə indi də Azərbaycan xalqının etnik tarixi, mənşəyi, yaranması və təşəkkülü, Azərbaycanın tarixi coğrafiyası və bir sıra siyasi hadisələr, burada meydana gəlmiş bə'zi dövlətlərin etnik mənsubiyyəti və s. məsələlər mübahisələrə səbəb olmuşdur. Son illər Azərbaycan tarixinin müxtəlif problemləri barədə yeni müddəalar ııəli sürülmüş, onları sübuta yetirən araşdırmalar çap edilmişdir. Yeni elmi nəticələr Azərbaycan tarixi kursunda öz əksini tapmışdır. Bununla yanaşı, Azərbaycan tarixi kursu (I cild) Azərbaycanda ibtidai icma quruluşunu və ilk insan düşərgələrini, əkinçilik, maldarlıq, sənətkarlıq və dini təsəvvürlərin meydana gəlməsi və inkişafını, ibtidai icma təşkilatlannın yaranmasını, sinifli cəmiyyətin qədim (quldarlıq qumluşu), orta əsr (tcodalizın quruluşu) və yeni (kapitalizm) dövrlərini, bu dövrlər ilə əlaqədar siyasi hadisələri, dövlətləri, ictimai-iqtisadi münasibətləri, mədəniyyəti və s. öyrədir.

Azərbaycan tarixi kursunun başlıca əhəmiyyəti ondan ibarətdir ki, xalqın tarixi yaddaşının möhkəmlənməsinə yaxından kömək edir, tarixi keçmişi barədə təsəvvür yaradır, etnik və dil köklərini müəyyən edir, mədəniyyəti aşıladır. [§]

## § 2. AZƏRBAYCAN TARİXİNİN QAYNAQLARI

Azərbaycan tarixi müxtəlif qaynaqlar, yə’ni mənbələr əsasında tədqiq olunur və həmin qaynaqlar iki hissöyə DOlünur: arxeolöfi və yazılı abidələr.

Ən qədim vo qədim arxeoloji abidələr. Arxeoloji qaynaqlar, adətən, qazıntılar zamanı yeraltı mədəni təbəqələrdən, qəbir abidələrindən, qədim məskənlərdən aşkar edilmiş müxtəlif əmək alətlərindən, sadə silah növlərindən, məişət və bəzək-düzək əşyalarından, dini təsəvvürləri ifadə edən heykəlciklərdən, göz muncuq In- nndan ve s. ibarətdir. Arxeoloji qazıntılar ən qədim və qədim dövrün mədəniyyəti, yaşayış binalarının fonnası (dördbucaq, yaxud dəyirmi), dəfn ayini (meyiti yandırma, yaxud basdırma, ölünü müxtəlil' vəziyyətdə dəfnetmə və s.), qədim insanların antropoloji görkəmi, istehkamtikmə məharəti (Həsənli, Qəbələ və b.) və s. haqqında geniş təsəvvür yaratmaq üçün zəngin abidə qalıqlarını aşkara çıxardır. Azərbaycanın, xususilə Şimali Azərbaycanın ən qodim və qədim döv- lü əsasən arxeoloji materiallar əsasında öyrənilmiş və Öyrənilmok- dədir.

Qədim yazılı mənbolər. Mə’lum olduğu kimi, yazı siniili cəmiy- yəiin mohsıludiır. Sinifsiz cəmiyyətdə bəlkə də şəkli işarələr yazının ilk növünü təşkil etmişdir. Şərqin sinifli cəmiyyətinin erkən mərhələsində piktoqrafik yazı işlədilirdi. Ən qədim mədəniyyət mərkəzi olan İkiçayarasında (Mesopotamiyada) piktoqrafıya (piktos «şəkil», qrafo «yazı» deməkdir) mixi (bə’zən «mismari» adlandırırlar) yazı növü ilə əvəz olunmuşdu. Qədim Azərbaycanın öz qaynaqlan olmadığından (yaxud bizə gəlib çatmadığından) onun tarixi barədə az-çox mə’lu- matlar mixi yazılarda əks olunmuşdur. Nisbətən sonrakı qədim dövr barədə isə antik (yunan və lalın qaynaqlan) mənbələr məMumat saxlamışdır. Deməli, Azərbaycanın qədim tarixi yadelli yazılı mənbələrdə əks olunmuşdur.

Şumer-Akkad, Assur və Urartu mixi yazıları *{c.ə. Ul - / nünil- likhr).* Şumer, Akkad və Assuriya İkiçayarasında (Mesopotamiyada) ardıcıl mövcud olmuş qədim dövlətlər idi. Erkən Şumer dövlətləri qədim Azərbaycan (Urmiya gölü hövzəsi) ərazisi ile siyasi ve iqtisadi əlaqələr yaratmışdı. Bə’zi şumer dastanları bu haqda mə’lumat saxlamışdır. Akkad hökmdarları qədim Azərbaycan ərazisində yaşayan tayfaların İkiçayarasına hücumlarını dəf etməli olurdular. Bu tayfalar ilə döyüşlər Akkad hökmdarlannın salnamələrində öz əksini tapmışdır. Assur hökmdarları bilavasitə Azərbaycanın qərb torpaqlarına və həmçinin ərazinin daxilinə hərbi yürüşlər təşkil edir, ölkəni çapıb-talayırdılar. Qədim Azərbaycan ərazisi barədə daha çox Assur mixi yazılan me’lumat verir. Urartu hökmdarları həmçinin Azərbaycan

ərazisinə işğalçı yürüşlər edir və hadisələri öz salnamələrində və başqa abidələrdə canlandırırdılar. Kimmer, skit və sak tayfalarının Azərbaycana gəlməsi barədə ilk mə'lumatlan özündə hifz edən mixi yazılar qədim Azərbaycan (cənubi) ərazisində mövcud olmuş Araıta. Kutium, Lullubum, Manna dövlətləri barədə təsəvvür yaratmağa imkan verir. Eyni zamanda mixi yazılar qədim Azərbaycanın hökmdar, yer və məkan adlannı saxlamışdır ki, bu adların elmi təhlili əsasında əhalinin etnik tərkibi barədə təsəvvür yaratmaq mümkün olmuşdur.

Antik mənbələr *{e.ə. V-e. Ul əsrhri).* Hələ qədim yunanlar Şərq aləmi ilə maraqlanmış və bu ölkələr barədə müxtəlif mə'lumalları yazıya almışdılar. Azərbaycanın ərazisi və qədim tayfaları barədə ilk və nisbətən geniş mə'lumat qədim yunan tarixçisi Herodotun «Tarix» əsərində verilmişdir. Makedoniyalı İskəndərin Şərqə yürüşündən (e.ə. IV əsr) sonra bu ölkələrə maraq daha da artdı. Qədim yunan, Roma tarixçi və coğrafiyaçıları Strabon, Ptolemey, Plini, An ian, Kursi Ruf, Ammian Marsellin, Tassit, Yuli Solin və başqaları Şərq aləminə həsr etdikləri əsərlərdə qodim Azərbaycanın əhalisi, coğrafiyası, bə'zi siyasi hadisələri, əhalinin məşğuliyyəti, ölkənin adları və s. barədə mə'lumatlar verir.

## ERKƏN ORTA ƏSR YAZILI MƏNBƏLƏRİ
## *{IV ~X ƏSRLƏR)*

Bizans qaynaqları. Azərbaycan hadisələri, xüsusilə hun və türk tayfalarının Ön Qafqaza axını barədə, onların qədim etnik adları barədə Bizans qaynaqları (Menandr, Prokopi, Aqatı, Simokatta, lordan vo b.) müxtəlif mə'lumallar saxlamışlar.

Qədim Alban və erməni mənbələri. Qədim erməni dilində yazılmış Moisey Kalankətlinin' «Alban tarixi» erkən orta əsrdə Azerbaycanda iqtisadi, siyasi, dini hadisələri şərh etmişdir. O, mənşə e'tibar ilə alban olmuş, lakin xristian dinini qəbul etmişdi. Erkən ona əsr Albaniya tarixi onun əsərində nisbətən geniş əksini tapmışdır. Azərbaycanın ərazisi ilə əlaqədar qədim erməni müəllitlərinin əsərlərində, xüsusilə Moisey Xorenasi və Favstos Buzandın tarix kitablarında müxtəlif etnik adlar, siyasi hadisələr yad edilmişdir. Xüsusilə xristianlığın Azərbaycanda yayılması barədə mə'lumat verilmişdir. *

* Moisey Kiilnnkotlinin adı qadim erməni qaynaqlarında Moisey Katan- katv.ısi (yaxud Kalankatvatsi) kimi yazılır.

«VII əsr erməni coğrafiyası» Azərbaycan torpaqları barədə az da olsa mə’lumat saxlamışdır. Lakin bu qaynaqda tarixi həqiqət təhrif' olunmuş, Azərbaycan (Albaniya) ərazisinə iddia ilə yanaşılmış, Albaniyanın qərb torpaqları Ermənistana şamil edilmişdir.

Ərəb mənbələri. Ərəb müəllifləri VII əsrdən e’tibarən Azərbaycan hadisələrinə diqqət yetirmiş və nisbətən müfəssəl mə’lumatlar saxlamışlar. Onlar (Belazuri, İbn Xordadbeh, tbn Havkel, Təbəri. Müqəddəsi, Yaqut Hərnovi, Mə’sudi və başqaları) Azərbaycanda mövcud olan dillər (azəri və arran dilləri), ölkənin adı, siyasi hadisələri və s. barədə mə’lumat vermişlər. Həmin mənbələrdə Azərbaycan şəhərləri, yollan və ərazisi barədə də mə’lumatlar var. Bu mənbələr. Azərbaycan adının mənşəyi barədə ırfövcud olan mülahizələri saxlamış, burada türklərin ta qədimdən yaşadığım qeyd etmişlər.

Epiqraflk abidələr. Pəhləvi dilində daş, qala divan üzərində həkk olunan bir sıra epiqraflk yazılarda Azərbaycanın ölkə adları əksini tapmışdır. Bə’zən belə yazılar iki dildə (pəhləvi və yunan) daşa həkk olunurdu. Daş və saxsı üzərində yazılmış, alban dilinə aid edilən epiqraflk yazılar da mövcuddur. Cəmi yeddi-səkkiz qısa cümlədən ibarət alban epiqraflk yazılarının oxunuşu və anlayışı çətindir. Böyük Yazı mətninin olmaması onun oxunub açılmasına və başa düşülməsinə əngəl törədir. Buna baxmayaraq, alban yazılannı udin dili əsasında oxumaq cəhdləri göstərilmiş, lakin tam müvəffəqiyyət əldə olunmamışdır. Alban yazılarını türk dilləri baxımından oxumaq cəhdləri də göstərilir. Azərbaycanda (Qobustan) l2-ci Roma legionu Domisianın dövrünə aid (I əsr) latın, həmçinin bir sıra yunan yazısı aşkar edilmişdir.

## ORTA ƏSR YAZILI MƏNBƏLƏRİ *{XI -XVIU ƏSRLƏR)*

Bu dövrün qaynaqları müxtəlif dillərdə, o cümlədən ərəb, fars, türk dillərində yazılmışdır.

Əı-əb müəllifi İbn əl-Əsir sələflərinin əsərlərindən istifadə edərək Azərbaycan ərazisi və tarixi barədə müxtəlif mə’lumalları qeydə almışdır. Həmdullah Qəzvini Azərbaycanın coğrafiyası - şəhər, dağ, çay və təbii sərvətləri, əhalisinin etnik tərkibi barədə mə’lumat verir. Rəşid əd-Din əsərlərində Azərbaycanda monqol hakimiyyəti dövriinü və həmin dövrün siyasi, iqtisadi və etnik məsələlərini işıqlandırmışdı. Səlcuq sülaləsinin Azərbaycanda hakimiyyəti və o dövrün siyasi

tarixi Sədr əd-Din Hüseyninin əsərində öz əksini tapmışdı. Əbdüı- 'i'əşid əl-Bakuvi isə Azərbaycanın çoğrafı şəraiti və əhalisindən bəhs etmişdir. Orta əsrlərdə yazıb-yaratmış müəlliflərin əsərləri Azərbaycan tarixinin müxtəlif məsələləri barədə ayn-ayn mə'Iumatlar saxlamışdır. Bunlardan Cuveyni, ən-Nəsəvi, Məhəmməd Naxçıvani, Həsənbəy Rumlu, Xondəmir (Qiyas əd-Din Hüseynli), Mir Yəhya Qəzvini, Şərəfxan Bitlisi, İsgəndər Münşi, Hüseyn Burhan, Mirzə bəy Həsən Hüseynli, Məhəmməd Tahir Vahid, Əylisli Zəkəriyyə, Mustafa Əfəndi, övliya Cələbi və başqalarını göstərmək olar. Bu orta əsr tarixçiləri Azərbaycanda və Azərbaycan ilə bağlı baş verən hadi- seləıə, siyasi tarixə, Ağqoyunlu və Qaraqoyunlu dövlətlərinin, Səfə- vilər sülaləsinin hakimiyyətinə, iqtisadi həyatına, müharibələrə, feodallara qarşı çıxışlara, dövlət idarəsinə diqqət yetirmişlər. Azərbaycana gələn Avropa səyyahlan Adam Oleari, Peter de Valli, Jnn Şarden, Kempfer, İ.Lerx, Tomas Herbert, Jan Batist Tavemye, Rafael dü Man və başqalan Azərbaycanın siyasi, iqtisadi və mədəni həyatı barədə müxtəlif mə’Iumatlar toplamışlar.

## KAPİTALİZM VƏ İMPERİALİZM DÖVRÜNÜN MƏNBƏLƏRİ

xıx əsrdə yaşamış tarixçilər orta əsr tarixçilərinin ən’ənələrini davam etdirərək əsərlərində Azerbaycanın bu və ya digər erazisindən bəhs etmişlər. Mirzə Adıgözəl bəy Qarabaği, Mirzə Yusif Qarabaği, Mir Mehdi Xəzani, Əhməd bəy Cavanşir, Həsənəli xan Qaradaği və Mirzə Camal Qarabaği Qarabağ tarixindən əsərlər yazmışlar. Kərimağa Fateh və Hacı Seyid Əbdül Həmid Şəki xanlığının, A. Bakıxanov isə Azərbaycanın və Dağıstanın («Gülüstani-İrəm» əsərində) qedim zamanlardan ta öz dövmııə kimi baş vermiş tarixi hadisələrini şərh etmişlər.

Azərbaycan tarixinin işıqlandırılması üçün o dövrün qəzet və jurnal materiallarının böyük əhəmiyyəti vardır. Dövri mətbuat Azərbaycan tarixinə və mədəniyyətinə, kənd təsən üfatı və sənayesinə, gündəlik hadisələrə dair məqalələrdə tarixi biliyi təbliğ edirdi. Azərbaycan sənayesinə, xüsusilə neft sənayesinə dair mə’Iumatlar «Bakı neft sənayesi icmalı» (I891-l915-ci illər), «Neft sənayeçilərinin arayış kitabçaları» (1891-1915-ci illər), «Rus texniki cəmiyyətinin Bakı şö’bəsinin əsərləri» (l886-19l7-ci illər) və s. öz geniş əksini tapmışdır. 1866-1904-cii illərdə Titlisdə «Qafqaz Arxeoqrafiya komissiya-

sının sənədləri» nəşr olunmuşdu. Burada Qafqaz Baş idarəsi canişininin arxiv sənədləri çap edilmişdir. Arxiv sənədləri Azərbaycan tarixinin müxtəlif sahələrini tədqiq etmək üçün mühüm əhəmiyyətə malikdir.

Azerbaycanın iki hissəyə parçalanması ilə əlaqədar Gülüstan və Türkmənçay müqavilələrinin sənədləri mühüm mənbələrdir. Cənubi Azerbaycanın parçalanmadan sonrakı tarixi İran dövri mətbuatında, icmal və jurnallarda, dövlət sənədlərində öz əksini tapmışdır.

## § 3. AZƏRBAYCAN TARİXŞÜNASLIĞI

### *ARXEOLOJİ VƏ EPİQRAFİK ARAŞDIRMALAR*

Azerbaycan tarixi elmi baxımdan XIX əsrdən öyrənilməyə başlamışdır və həmin dövrdə ilk arxeoloji qazıntılar aparılmışdır. Son zamanlar Azərbaycan tarixinin tədqiqi və aracoloji araşdırmalar genişləndi. Bu müddətdə ən qədim daş dövründən orta əsrlərədək olan dövra aid müxtəlif arxeoloji abidələr aşkar edilmişdir. Arxeoloji abidələr əsasında Azərbaycanda ibtidai icma qunıluşunun ilkin ünsürlərinin yaranması, inkişafı və süqutunu şərtləndirən səbəblər, cəmiyyətin iqtisadi, siyasi həyalı, dünyagömşü, ətraf aləmə münasibəti, dini ayinləri, dəfn qaydaları və s. məsələlər tədqiq olunmuşdur. Azərbaycanın ən qədim Daş döviü (Paleolit) və bununla bağlı problemləri

M.M.Hüseynov, Ə.Cəfərov, M.Mənsurov tədqiq etmişlər. Azərbay-canda Mezolit (orta Daş dövı*ü) dövrünün tədqiqi İ.M.Cefoi'zado və

C. Rüstəmovun əsərlərində öz əksini tapmışdır. Neolit (yeni Daş dövrü) və Eneolit (Mis-Daş döviü) dövrlərinin müxtəlif problemlərini İ.H.Nərimanov, O.A.Həbibullayev araşdırmışlar. Tunc dövrü abidələrinin, həmçinin onun ilk dövrünə aid «Kür-Araz mədəniyyəti»nin, bu və ya digər məsələləri Q.S.İsmayılov, Y.H.Hummel, Q.M.Aslanov, R.M.Vahidov, İ.H.Nərimanov, F.R.Mahmudov, O.A.Həbibullayev, F.Muradova, V.H.Əliyev, T.Axundöv və başqalarının əsərlərində əks olunmuşdur. Son Tunc və Dəmir dövrünün ilkin arxeoloji qazıntıları ve müxtəlif problemləri müvafiq surətdə S.M.Qazıyev, C.Ə.Xəlilov, T.Ə.Bünyadov, H.F.Cəfərov, H.P.KəsəmənlI, Ş.H.Sadıqzadə və başqalarının əsərlərində araşdırılmışdır. Antik dövrün müxtəlif məsələlərini və arxeoloji abidələrini O.Ş.İsmizadə, M.M.Rəsulova,

i. A.Babayev, A-Qarehmədova və bir sıra alimlər öyrənmiş və tədqiq etmişlər. Azərbaycanın son qədim dövr ve orta əsr arxeologiyası və bununla əlaqədar maddi mədəniyyət tarixi məsələlərinin tədqiqi Q.M.Əhmədov, R.M.Vahidov, R.B.Göyüşov, F.L.Osmanov, A.B.Nu-riyev, H.Ə.Ciddi, F.İbrahimov və başqalanmn əsərlərində öz əksini tapmışdır. Azərbaycanın orta əsr epiqrafiyası sahəsində M.S.Ne’mə-tova, numizmatika sahəsində Y.A.Paxomov, M.A.Seyfəddini, Ə. Rəcəbli, etnoqralıya ilə arxeoloji materiallan uzlaşdınb tədqiq edilməsi sahəsində Ə.K.Ələkbərov, T.Ə.Bünyadov müəyyən tədqiqatlar aparmışlar.

Qədim dövrün öyrənilməsi. Azərbaycan tarixinin qedim dövrünün öyrənilməsinə XIX əsrdən başlanmış, lakin tədqiqatlar ardıcıl aparılmamışdır. Cənubi Azərbaycanın arxeoloji baxımdan öyrənilməsi qədim istehkamlar, mə’bed və saray bina qalıqları, müxtəlif rəngli saxsı qablar, bəzək-düzək ve məişət əşyaları, zərgərlik nümunələri və s. aşkar etmişdi.

Qədim Azərbaycan ərazisində meydana gəlmiş dövlətlərin tarixi, etnik və dil məsələləri, iqtisadi və təsərrüfat heyatı, siyasi tarixi bir çox alimlərin, o cümlədən Q.A.Melikişvilinin, İ.M.Dyakonovun, İ.H.Əliyevin, E.A.Qrantovskinin, S.M.Qaşqayın, Y.B.Yusitbvun ve b. alimlərin elmi araşdınnalarında öz əksini tapmışdır. Azərbaycan əhalisinin etnik və dil tarixi tədqiqatçılar tərəfindən müxtəlif istiqamətlərdə yozulmuşdu. Buradakı qədim əhalinin höni, kassi, elam, iran- dilli, türkdilli olmalan elmi araşdırmaların mövzusuna çevrilmişdi. Qədim Azərbaycanın tarixi coğrafiyası yuxanda adı çəkilən bir sıra müətlitlərin, o cümlədən F.Ture-Danjen, L.D.Levin və başqalanmn tədqiqatlannda araşdırılmışdır.

Şimalı Azərbaycanın qedim tarixi, iqtisadiyyatı, etnik tərkibi, əhalinin dili və dini təsəvvürləri, tarixi coğrafiyası, təsərrüfat həyatı, əhalinin antropoloji xüsusiyyətləri ayrı-ayrılıqda və cem halında bir sıra tədqiqatçıların, o cümlədən K.V.Treverin, Z.I.Yampolskinin, K.H.Əliyevin, R.M.Qasımovanın araşdırmalannda tədqiq olunmuşdur. Azerbaycan tarixinin qədim və orta əsrlər dövründən bəhs edən dəı*s vəsaitini isə Ə.Haqverdiyev yazmışdır.

Azerbaycanın en qədim ve qedim dövrünün tarixi hələ deməк olar ki, tam və ətraflı öyrənilməmişdir. Bir çox qədim yaşayış məskənlərinin arxeoloji cəhətdən ciddi tədqiqata ehtiyacı vardır. Qedim Azərbaycanın siyasi və iqtisada tarixi bir çox hallarda yazılı mənbə

lərin azlığı üzünden həle kifayət qədər açılmamışdır. Azərbaycanın qedim əhalisinin etnik tərkibi və dili problemləri geniş mübahisələrə səbəb olur. Bu sahədə ən'ənəvi müddəalara uyğun gəlməyən yeni addımlar atılır. Qədim ve erkən orta əsr Azərbaycanının tarixi coğrafiyası, həmçinin mübahisəli problemlərdən biri kimi qalır.

Orta əsrlərin öyrənilməsi. Azərbaycanın erkən orta əsr tarixi, xüsusilə Şimali Azəıbaycanın (Albaniya, Arran) tarixi üzrə geniş elmi ədəbiyyat mövcuddur K.V.Trever və Z.M.Bünyadovun əsərlərində Azərbaycan tarixinin müxtəlif məsələləri araşdırılmışdır. Z.M.Bünyadov türk etnoslarının azərbaycanlıların bir xalq kimi yaranmasında əsas etnik qüvvə olduğunu və lap qədim dövrlərdən burada məskunlaşdığını söyləmişdir. Albanların dili ve etnik mənsubiyyəti mübahisəli problemlərdən birini təşkil edir. Onların Qafqaz və türk mənşəli olması barədə müddəalar mövcuddur. Albaniyada xristian, qeyri-xristian və islam dinlərinin təmsil olunması, siyasi hadisələr və iqtisadi həyat, əhalinin etnik və dil tərkibi, ölkənin tarixi coğrafiyası, türk .nənşəli tayfalann Azərbaycana yeni axını, Azərbaycan xalqının və dilinin yaranması və s. problemlər bir çox müəlliflərin tədqiqatlarında bu ve ya digər şəkildə öz əksini tapmışdır. Erkən Orta əsr Azerbaycan taixi sahəsində çalışan, yaxud dövrün problemlərinə münasibət bildirenler içərisində M.İ.Artamonov, Ə.S.Sumbatzade, S.B.Aşurbəyli, F.C.Məmmədova, D.L.Musxelişvili, T.M.Memmədov, Y.R.Cəferov, Q.A.QeybuUayev, R.Ə.Hüseynov, Y.B.Yusifov və başqalarını göstərmək olar.

Azərbaycan tarixinin orta əsr dövrü nisbətən zəngin və müxtəlif dillərdə tərtib olunmuş qaynaqlar əsasında bərpa edilir. Azərbaycanın orta əsr tarixi, siyasi hadisələri, dövlət quruluşu və torpaq münasibətləri, iqtisadiyyatı ve ticarəti, şəhərləri və sənətkarlığı, qaynaqlan, mədəniyyəti, xarici əlaqələri və s. vacib problemləri üzrə İ.P.Petruşevski, Ə.Ə.Əlizade, M.H.Şərifli, Z.M.Bünyadov, S.B.Aşurbəyli, N.M.Vəlixanlı, M.S.Ne'metova, M.X.Heyderov, O.Ə.Əfendiyev, F.M.Əliyev, Ə.Ə.Rəhmani, T.M.Musəvi, Y.M.Mahmudov, S.A.Məmmədov, C.İbrahimov, H.B.Abdullayev və başqalan elmi araşdınnalar aparmış, S.A.Məmmədov ve R.İ.Əliyev ayn-ayrılıqda Azerbaycanın orta əsr tarixinin müəyyən dövrünü əks etdirən dərs vəsaitləri yazmışlar.

Kapitalizm dövrünün Öyrənilməsi. XIX əsrin lO-20-ci illərində Azərbaycanın Araz çayından şimalda yerləşən hissəsi Rusiya ilə

birləşdirildi, cənub hissəsi isə tran dövlətinin tərkibində qaldı. Bununla əlaqədar Şimali Azerbaycanın siyasi və iqtisadi quruluşu, tesənil- fatı, idarə üsulu, inzibati bölgüsü dəyişdirildi, mədəniyyət sahəsində yeni istiqamət meydana gəldi, kənd təsərrüfatı və sənayedə kapita- ' tizm istehsal üsulu bərqərar olmağa başladı, Azərbaycan türk milləti təşəkkül tapdı, inqilabi hərəkat vüs’ət aldı. Bu və digər məsələlər Azərbaycan tarixşünaslığında geniş əksini tapdı. Həmin dövr Azərbaycan tarixinin müxtəlif problemlərini Ə.S.Sumbatzadə, Ə.N.Quli- yev, M.Ə.tsmayılov, l.M.Hesenov, t.A.Talıbzadə, Ə.A.Umayev, Z.İ.İbrahimov, M.A.Qazıyev, S.S.Əliyarov, X.S.Köçərli, T.Vəliyev,
D. Seyidzade və başqalan araşdırmışlar. Cənubi Azərbaycanın eyni dövr tarixi inkişaf proseslərinin ayrı-ayrı dövrləri, müxtəlif ictimai-siyasi, iqtisadi və mədəni problemləri Z.Abdullayev, Ş.Ə.Tağıyev, R.Ə.Seyidov, T.A.tbrahimov və başqalarının eserlərində işıqlandırılmışdır. «Azerbaycan tarixi» (t.A.Hüseynov, Ə.S.Sumbatzadə, Z.İ.İb- rahimöv; B., 1960) dərs vəsaitində XX əsrə qederki hadisələr təəssüf ki, çox qısa verilmişdir.

## § 4. AZƏRBAYCAN TARİXİNİN XRONOLOGİYASI VƏ DÖVRLƏŞDİRİLMƏSİ

Tarixi hadisələrin vaxtını müəyyənləşdirmək və onlann ardıcıl şərhini tə'min etmək üçün xronologiya («xronos» yunanca zaman, vaxt, «loqos» - söz, anlayış, təTim) fənnindən istifadə edilir. Hadisələrin baş verdiyi vaxtı bilmədən ölkənin tarixi barədə.mükəmməl və ardıcıl təsəvvür yaratmaq mümkün deyil. Əks halda dövrlər qanşdı- rılar və tarix elmi sahəsində bilik sadəcə olaraq faktlar yığımına çevrilər.

Tarixi hesablama adətən müəyyən başlanğıc nöqtəsindən aparılır. Belə başlanğıc nöqtəsinə «era» adı verilmişdir. Era həqiqi və qeyri-həqiqi tarixi hadisə ilə bağlanıla bilər. Qədim zamanlarda müxtəlif «eralar» mövcud olmuş, lakin heç biri kütləvi səviyyəyə çatmamışdı. Hal-hazırda işlətdiyimiz təqvim eranı tarixi şəxsiyyət olmayan və xristian dininin banisi, yaxud allahı hesab edilən İsus Xristosun^ adı ilə bağlayırlar. Bu era xristian din xadimlərinin təbliği və rəsmiləşdirilməsi nəticəsində vaxtilə Avropada işlədilmiş, sonra isə başqa ölkələrə keçmişdir. Eranın başlanğıcı İsusun təvəllüdü, yə’ni doğum

2İsIaın dinində və Qur’anda o, allah yox, İsa peyğəmbər adlandırılmışdır,-

günü kimi qeyd edilir. Bu gün həmçinin «milad» (anadanolma) adlandırılır. Hal-hazırda tarixi hesablama həmin eradan (miladdan), yə’ni başlanğıc nöqtəsindən müasir dövrə doğru hesablanır. Bu başlanğıc nöqtəsindən qabaq baş vermiş hadisələr «eradan (yaxud miladdan) əvvəl» anlayışı ilə qeyd edilir. Qədim dövrün hadisələri xronoloji ardıcıllıqla eradan ən qədimə doğru hesablanır, çünki bəşəriyyət tarixinin en qedim və qədim dövrləri barədə dəqiq xronologiya müəyyən edilməmişdir. Bəşəriyyət tarixinin ən qədim dövrləri milyonlar, minilliklər, yüzilliklər və eranın başlanğıc nöqtəsinə yaxınlaşdıqca əksər hallarda şərti olsa da illər ilə ölçülür.

Azərbaycan tarixinin hadisələri də bu xronologiya üzrə apanlır.^ Lakin Azərbaycan tarixinin eradan əvvəlki, bir sıra hallarda eradan sonrakı hadisələrinin dəqiq xronoloji vaxtını, yə’ni hadisələrin illərini dəqiq vermək mümkün olmur. Cox hallarda bu illər təxmini göstərilir. Məsələn, qedim Azərbaycanda mövcud olmuş Kuti və Lullubi dövlətlərinin hakimiyyəti dövründəki yazılı mə’lumatlann müqayisəsi, həmçinin Manna dövlətinin hökmdan İranzunun hakimiyyəti illəri təxmini müəyyənləşdirilmişdir. Assur hökmdarı II Sarqon salnaməsində İranzunu, oğlu Azanı və Ullusununu e.ə. 716-cı il hadisələri ilə əlaqədar yad etmişdir. Belə ki, həmin il (e.ə. 716-cı il) Aza sui-qəsd nəticəsində öldürülmüş, qardaşı Ullusunu hakimiyyətə gəlmişdir. Onun hakimiyyətinin sonu da (e.ə. 680-ci il) təxmini müəyyənləşdirilmişdir. II Sarqonun mə’lumatına görə, e.ə. 719-cu ildə İranzııya qarşı üsyan qaldırılmışdı. Deməli, bu zaman o sağ imiş, lakin bir il sonra hakimiyyətdə onun oğlu Aza yad edilir. Görünür, Iranzu e.ə. 719 - 718-ci illərdə vəfat etmişdir. Onun hakimiyyətinin başlanğıcı isə təxminən Assur hökmdarı III Tiqlatpalasarın (e.ə. 744 - 727-ci illər) dövrünə, yə'ni e.ə. 740-cı ilə aid edilir. Erkən orta əsr alban hökmdarlarının hakimiyyət illəri mübahisə doğurur. Qaynaqların mə’lumatına uyğun olaraq alban dövrü hadisələrinin tarixi dəqiqləşdirilmişdir.
>L' Azerbaycan tarixinin dövrləşdirilməsi ictimai-iqtisadi formasiyalar üzrə aparılır. Digər tə’limlərdən fərqli olaraq bəşəriyyət tarixinin ictimai-iqtisadi formasiyalara bölünməsi tarixi prosesin qanunauyğun inkişafına daha uyğun gəlir. İctimai-iqtisadi quruluşa daxil olan hadisələr də müxtəlif dövrlərə bölünür. Lakin ikinci feslin daxilində dövr-

^Azərbaycanda uzun müddət hicri təqvim də işlədilmişdir. Hicri təqvimdə eranın başlanğıcı 622-ci ildən hesab olunur, şəmsi və qəməri təqvimlərə bölünür.

‘lər üzrə bölgü mueyyen dərəcədə ilk dəfə aparılmış, Azərbaycanda feodalizm cəmiyyəti dövrünü öyrənmək üçün bir sıra yeni mühüm bölmələr əlavə olunmuşdur. Dərslikdə Azərbaycan tarixi əsrlər üzrə dövrləşdirilməmiş, hadisələr ilə əlaqədar müvafiq başlıqlar verilmişdir.

«Cənubi Azərbaycan (1828 - 1917)» adlı fəsil yazılarkən, əsasən, ən’ənəvi dövrləşmədən istifadə edilmişdir. Belə ki, həmin fəsildə Cənubi Azərbaycanın tarixi inkişafının Türkmənçay sülh müqaviləsindən (1828) XX əsrə qədərki dövıii əhatə edilir, İranın ən böyük əyalətlərindən biri olan Azərbaycanın XIX əsrin II yarısı ərzindəki sosial-iqtisadi, siyasi-mədəni vəziyyəti öz əksini tapır.

Cənubi Azerbaycanda gösterilən konkret tarixi dövrdə baş verən hadisələr səbəb və nəticə məntiqinə uyğun şəkildə bir-birini izləyir. Belə ki, Türkmənçay müqaviləsindən sonra əyalətdəki sosial-iqtisadi vəziyyət, onun yaratdığı siyasi şərait, Babilər hərəkatı, XIX əsrin sonu və s. hadisələr müəyyən dövrlər üzrə bölünmüşdür.

## § 5. TƏBİİ VƏ COĞRAFİ ŞƏRAİT

Türk dilləri qrupuna mənsub dildə danışan azəri türklərinin yaşadığı ərazi Azərbaycan adlanmışdır. Tarixən Azərbaycan şimalda Dağıstan, qərbdə Kürdüstan, cənub-qərbdə Armeniya, şərqdə Xəzər dənizi, cənubda Mərkəzi İran ile həmsərhəd olmuşdur, Araz çayı Azərbaycanın erazisini iki hissəyə bölmüşdür. Arazdan başqa şimalda Kür, cənubda isə Qızıl Üzən (yaxud fars. Sefıdrud) Azərbaycanın ərazisindən axan ən böyük çaylardır. Ölkənin daxilindəki digər çaylar və çay qolları öz başlanğıcını dağlardan götürür. Azərbaycanın cənubunda şor sulu Unniya gölü yerləşmişdir. Urmiya gölünə şərqdən Acıçay, cənubdan Ceqetu (fars. Zərrinemd), Tatayu (fars. Siminrud) və Gedər çayları tökülür. Azərbaycan tarixən dağlıq ölkə kimi me’lumdur. Böyük Qafqaz dağlarının şərq qolu Azərbaycanın ərazisinə daxil olduqdan sonra cənub istiqamətində uzanır və Kiçik Qafqaz dağ silsiləsini təşkil edir. Silsiləni cənuba doğm uzanan, İraq və İranın sərhədini təşkil edən Zaqroş dağları davam etdirir. Azərbaycanın Urmiya gölü hövzəsindəki qərb sərhədləri Zaqroş dağlarına söykənir. Azərbaycanda Murovdağ, Şahdağ, Qarabağ yaylası. Talış, Qaradağ, Səhənd, Savalan və s. dağlar, böyük ovalıqlar - Kür-Araz, Lənkəran, cənubda Ərdəbil, həmçinin Urmiya gölü hövzəsi düzənliyi, Sulduz, Miyanə, Zəncanrud vadiləri və s. yerləşir. Dağlararası çay vadiləri hələ qədim

dən yararlı toıpaqlara malik idi, Azerbaycanın təbii mənzərəsini dağ və çaylar ilə yanaşı, məhsuldar ovalıq və vadilər, geniş aran hissələri təşkil edirdi ki, bu da qədim zamanlarda burada əkinçilik və maldarlığın inkişafı üçün əlverişli şərait yaratmışdı. Azərbaycanın təbii şəraiti ölkədə geniş miqyasda suvarma sisteminin yaradılmasına imkan verməmiş, yalnız ayrı-ayrı regionlarda, vadi və ovalıqlarda yerli əhəmiyyəti olan xırda suvaima şəbəkələri mövcud olmuşdur. Buna görə də Azərbaycanın ərazisində yaranmış ilk qədim dövlətləiin siyasi tə*sir dairəsi ayrı-ayrı regionlar ile məhdudlaşırdı.

tndi kontinental iqlimə malik Azərbaycanda ən qədim zamanlarda mtubətli, isti və qum iqlim mövcud olmuşdur. Azərbaycanın ərazisində yayı isti, qışı soyuq, yaxud qışı yumşaq subtropik regionlar vardır. Bə’zi regionlarda hələ yanvar ayında torpaq göy örtüyə bürünür. Azerbaycan təsən-üfatmın və iqtisadiyyatının tarixən inkişafını dağ ilə aranın qarşılıqlı əlaqəsi tə’min etmiş, dağlarda yerləşən otlaqlar, yaylaqlar maldarlığın ən’ənevi təsərrüfat foımasına çevrilməsinə şərait yaratmışdı’. Azərbaycanın ərazisində meşəli, kol-koslu və bitkisiz dağ silsilələri qədim zamanlardan mövcuddur.

Azərbaycanın flora (heyvanat) və fauna (bitki) aləmi xeyli zəngin olmuşdur. Dağlarda, xüsusilə məşəli dağlarda müxtəlif vəhşi və yımcı ov heyvanları vardı. Dağ meşələrində bitən dəmirağaç, qarağac və başqa növ ağaclardan qedim zamanlarda tikintidə, qab-qacaq hazırlanmasında, nəqliyyat vasitələri, o cümlədən qoşqu ləvazimatı və be’zi silahların düzəldilməsində istifadə olunurdu. Artıq qədim zamanlardan bitkilərin müalicəvi xüsusiyyətlərini müşahidə edir, mal-qaraya ziyanlı olan otlaq yerlərini müəyyənləşdirirdilər.

Azərbaycan öz faydalı qazıntıları ilə fərqlənir. Mis, dəmir, qurğuşun, sink,^ arsen,^ qiymətli metallardan qızıl, gümüş, minerallardan müxtəlif rəngli çaxmaq daşı, yəşəm daşı, mərmər yə s. daş və duz yataqları vardır. Tarixi qaynaqlar göstərir ki, Azərbaycanın ərazisində qızıl, gümüş, qurğuşun, müxtəlif mineral daşlar və rənglər (duz, ame-tist,^ arsen, civə oxra^) lacivərd,^ mərmər, tikinti daşlan hasil edilirdi.

^ Göyümtül-ağ rəngə çalan metal.
^ Bərk kimyəvi maddə.
^ Şəffaf göy və ya bənövşəyi rəngli qiymətli daş.
^ San və ya qırmızı rəngli boyaq.
^ Lapis - lazuli, lazurit - açıq mavi rəngə çalan qiymətli daş.

## § 6. ÖLKƏNİN ADI

Çox nadir hallarda bu və ya digər ölkəyə qədimdə şamil edilən adlar müasir dövrə kimi öz varlığını saxlaya bilir. Qedim dövrlərdə Azərbaycanın yığcam, bütöv bir əraziyə şamil edilən coğrafi adı olmamışdır. Ölkəyə şamil edilən bu və ya digər ad müxtəlif amillər əsasında meydana gəlirdi. Ya etnik, ya şəxsi, ya da ərazinin müəyyən bir coğrafi səthini, mənzərəsini əks etdirən mətlium şəraitdən asılı olaraq tədricən, ümumiyyətlə, ölkənin adına çevrilirdi. E.e. III minillikdə Cənubi Azərbaycanın ərazisini bildirən adlardan bin Aratta idi. Aratta Urmiya gölünün cənub və cənub-şərqini əhatə edən ölkənin adı imiş. Sadəcə, «dağ» mə'nasım daşıyan Aratta sözü, heç şübhəsiz, ərazinin dağlıq coğrafi mənzərəsini əks etdirən məfhum kimi meydana gəlmişdi.

E. ə. III minilliyin ikinci yarısı şumer-akkad^ qaynaqlarında Azərbaycanın ərazisini bildirən digər adlar işlənmişdir. Azəi'baycanın qərb hissəsi, Unniya gölünün qərbi və cənub-qərbi Kutium, həmin gölün cənubu isə Lullubum adlandırılmışdı. Bunlar müvafiq sürətdə kuti və lullubi etnik adlannin əsasında meydana gəlmişdi. Təxminən keçmiş Arattanm bütün erazisi Lullubum adlanırdı. Azərbaycanın şərq *tor*-paqlarına verilən adlar isə o dövrün mixi qaynaqlarına mə’lum deyildi. E.ə. II minillikdə ölkənin yığcam adları tayfa adlan ilə əvəz olunmağa başlanmış və turulcki tayfasının adına əsasən Urmiya gölü hövzəsinin bir hissəsi Tumkkum adlanmışdı. Tunjkkum ölkə adı da Azərbaycanın «dağ», «dağlıq ölkə» (keçmiş Aratta) hissəsinə şamil edilirdi.

E.e. I minilliyin əvvəlində tkiçayarasmda Assuriya dövləti siyasi üstünlüyə malik olmuşdu. Assur mixi qaynaqlan Azərbaycan erazisini bildiran əvvəlki adları artıq işlətmirdi. Assur hökmdarlarının salnamə və yazılarında Azerbaycan ərazisi Manna,*® əslində 'unannalılar ölkəsi» adlandırılmışdır. Unniya gölünün cənubuna və cənub-şərqinə həmçinin Alatey adını şamil edirdilər. Nə Midiyanın, nə də Əhəməni- lərin siyasi yüksəlişi dövründə Azərbaycanla bağlı ölkə adı qaynaqlarda işlədilməmişdi.

^ Şumerlər və akkadlar - İkiçayarasının *(yun. Mesopotamiya)* qədim sakinləri. Onların qaynaqlan mixi işarələr - tarixdə mə’lum olan ilk yazı növü ilə tərtib olunmuşdur.

*® Bə’zi hallarda Mannaş və Münna formalan işlədilirdi.

Antik qaynaqlar Azerbaycanın cənub hissəsini Atropatena, şimal hissəsini isə Albaniya adlandırmışlar. E.ə. II əsrə qədər bu adlar qaynaqlarda yad edilmirdi. Həmin əsr müəllifi Lolibi Azərbaycanın cənub hissəsini «Artabazanın vilayəti» (hökmdann adı ilə) adlandırmışdı. Lakin Artabazanın adı ölkəni bildirən ada çevrilmədi. İlk dəfə e.ə. I - e. 1 əsrində yaşamış Strabon bu ölkəni Atropatın adı ilə bağlamışdı. Strabon, şübhəsiz ki, irandilli etnoslann ən’enəsinə əsaslanan mə’lu- matlardan istifadə etmişdi. Yəqin ki, ölkənin həqiqi adı Atropat adına oxşar səslənirmiş və buna görə irandilli etnoslar arasında mövcud olan xalq yozumu Atropat adının bütün ölkəyə şamil edilməsinə əsas vermişdi. Atropatena adı erkən orta əsr qaynaqlannda Aturpatakan şəklində də işlədilirdi. Lakin Suriya və Bizans qaynaqlannda Adorbiqan/ Adarbaqan, orta fars yazılannda Aturpatakan və Adarbadaqan, Azərbaycan, ərəb qaynaqlannda Adirbican, Azərbican və Azərbaycan, sonrakı qaynaqlarda Adirbican, Aderbijan və s. formalar əks olunmuşdur. «Azərbaycan» adının qədim formaları göstərir ki, xoronimin • • əmələ gəlməsində iki **komponent• 2** - atr (atur və adir) adər sözləri iştirak etmişdir. Birinci söz qədim tran dillərində «od» mə’nasını daşıyırdı və tbnetik dəyişikliyə uğrayaraq «zən> formasına düşmüşdü. İkinci söz isə türk toponimiyasında indi «adır» şəklini saxlayır, lakin xoronimin tərkibində «azən> fonetik dəyişikliyinə mə’ruz qalmışdır. Mövcud fonnalardan çıxış edərək qeyd etmək lazımdır ki, Azərbaycan adının erkən formasında adır /adər/adir komponenti əks olunmuşdur. Türk toponimiyasında «adın> dağlıq coğrafi mənzərəni əks etməklə «yüksəklik, təpəlik, təpəli dağ ətəyi, dağ silsiləsi» mə’nalarını daşıyır.

Cənubi Azərbaycan hələ qədimdə dağlıq ölkə kimi məlum idi. Bu erazinin bir qisnıi Aratta «dağ» «dağlıq ölkə» və Ala tey «dağ» «dağlıq ölkə» adlandırılırdı. Ümumiyyətlə, həm qədimdə, həm də sonralar toponimlər əsasən erazinin coğrafi mənzərəsinə uyğun yaranırdı. E.ə. Vlll - VII əsr mixi qaynaqlannda təxminən Mannanın Midiya ilə sərhəd hissəsində. Qızıl Üzən çayının cənub-qərb başlan-

^ I Xoronim ***(yun.*** xoros «yen>, onima «ad») «yer adı», «ölkə adı» mə*na- smı daşıyır.

Komponent ***(lat.*** komponens «yanaşdmimış, quraşdırılmış») «nəyinsə tərkib hissəsb) mə’nasını verir. Dilçilikdə mürəkkəb adların bir hissəsini bildirir.

ğıc axannda Andirpatianu/Andarpatian yer adı çəkilmişdir. Be’zi aİimler bu adı Atropatena adı ile eyniləşdirmiş, bə'ziləri isə bu oxşatmanı qəbul etməmişlər. Mixi işarələrin xüsusiyyətini nəzərə alaraq addakı nadir/andar komponentini adir/ader/adır sözünün əksi kimi qəbul etmək olar. Andirpatianu/Andarpatian adı Azərbaycan adının sonrakı Adərbadqan/Adirbadqan, Adərbayqan/Adirbayqan və nəhayət, Adirbican/Azirbican və Azərbaycan formalarının başlanğıcını təşkil etmişdir. Xoronimin ilkin forması fars mənşəli sülalənin hakimiyyəti zamanı forma və mo’naca Midiya canişini Atropatın adına uyğunlaşdı-nlmışdır.

Beləliklə, mixi qaynaqlardakı Andirpatianu/Andarpatian (yaxud Adirpatyan/Aderpatyan) məskən adını «Azerbaycan» adının ən qədim və ilkin forması kimi qəbul etmək olar. Qədimdə Mannanın Midiya ilə sərhədində bir məskənə şamil edilən ad tədricən şimala doğru uzanan və eyni, dağlıq coğrafi mənzərəni əks etdirən əraziyə aid edilmiş və xoronim şəklini almışdır, ye’ni böyük bir ərazini bildirən ölkə adma çevrilmişdir. Bununla yanaşı. Midiya adının da şimala doğm tətbiqi genişlənmişdi. Ümumiyyətlə, yer və ölkə adlannm tədrisən geniş bir ərazini bürüməsi tarixdə nadir hal deyildir. Hələ erkən orta əsrlərdə «Azərbaycan» məfhumunun həm coğrafi, həm də siyasi tətbiqi Araz çayından şimala doğıxı genişlənmişdi. Azərbaycan (Aturpatakan) canişini Dərbənddə otururdu. Ərəb qaynaqları Dərbəndə qədərki ərazini «Azərbaycan» anlamına daxil edir və buranı bə’zən «Yuxan Azərbaycan» adlandırırdılar. Sonrakı dövrlərdə ta «birləşməyə» qədər (fərdi rayonlaşdırmaları nəzərə almasaq) Azərbaycan şimalda Dərbəndə, cənubda Qəzvin və Zencana kimi, qərbdə İrəvan, Göyçə mahalı və Tiflisə qədərki əı*azi daxil olmaqla geniş bir sahəni əhatə edirdi.

# ƏN QƏDİM DÖVR

## *I fəsil*

## AZƏRBAYCANDA İBTİDAİ İCMA QURULUŞU

### § I. QƏDİM DAŞ DÖVRÜ (QURUCAY MƏDƏNİYYƏTİ), İBTİDAİ SÜRÜ İCMASI

### *NƏSLİ QƏBİLƏ QURULUŞUNUN TƏŞƏKKÜLÜ*

Azərbaycan ərazisində ibtidai içma quruluşunun təşəkkülü daş dövrünün (paleolit) en qədim mərhələlərindən başlamış, uzun və mürəkkəb inkişaf yolu keçmiş və üst paleolitə (son paleolit) keçid dövründə başa çatmışdır.

Azərbaycan dünyanın ən qədim mədəniyyət ocaqlarından biridir. Əlverişli təbii-coğrafi şəraitə, zəngin fauna və flora aləminə, mülayim iqlimə malik olan Azərbaycan yer kürəsində ibtidai insanın formalaşdığı rayonlar sırasına daxildir. Apanimış tədqiqatlarla müəyyən olunmuşdur ki, hələ 12 milyon il əvvəl Azərbaycan ərazisində insanabən- zər meymunlar yaşamışlar. 1939-cu ildə Qərbi Azərbaycanla Şərqi Gürcüstanın sərhədində, Ceyrançöl və Eldar düzənliyinin mərkəzində Udabno adlanan yerdə insanabənzər meymunun qalıqlarının (dişlərinin) tapılması buna subutdur. Həmin dövr geoloji bölgüdə üçüncü dövrə uyğun gəlir* 3. Beləliklə, hələ üçünçü dövrdə Ön Qafqaz, o cümlədən Azərbaycan ərazisi insanın təşəkkülü üçün əlverişli şəraitə malik olmuşdur. İnsanın təşəkkülü və formalaşması dördüncü - geoloji dövrlə bağlıdır.*^

Son vaxtlar elmi ədəbiyyatda «üçüncü dövr» termini «Paleogen» və «Neogen» ifadələri ilə əvəz edilmişdir. «Neogen»də ibtidai insanların bilavasitə əcdadları olan insanabənzər meymunlar meydana gəlir.

Bu dövrün 4 milyon ildən artıq tarixə malik olması müəyyənləşdirilmişdir.

Azərbaycanda Azıx, Tağlar (Qarabağ), Zar (Kəlbəcər rayonu), Qazma (Naxçıvan), Daşsalahh və Aveydağ (Qazax rayonu) kimi mağara düşərgələri və Qədir dərə, Caxmaqlı, Kəkilli kimi (Qazax rayonu) açıq düşərgələrdə aparılan arxeoloji tədqiqatlarla qədim daş dövrü insanlannın təşəkkülü və inkişafı, ibtidai insan sürü icmasının yaranması, ilkin əmək alətlərinin formalaşması, ibtidai məşğuliyyət sahələri və s. haqqında mə'lumatlar əldə olunmuşdur.

Tədqiqatlar nəticəsində Azərbaycanda dünyada hələlik mə'lum olan ən qədim insan mədəniyyəti izlərindən biri öyrənilmişdir. Bu, abidənin ilkin tapıldığı yerin adı ilə Quruçay arxeoloji mədəniyyəti adlanır. Quruçay mədəniyyəti üç mərhələyə bölünür. Birinci mərhələ Paleolitin*^ ilk təşəkkül (Aşelə qədərki) dövrünü əhatə edir. İkinci mərhələ erkən və orta Aşel dövrünü, üçüncü mərhələ isə son Aşel və Must^ dövrünü əhatə edir*^. Bu mədəniyyətin 1,5 milyon ildən artıq yaşı var. Quruçay mədəniyyəti insanları əvvəl Qumçay hövzəsində açıq düşərgədə yaşamış, sonralar iqlim şəraitinin dəyişməsi ilə bağlı yaxınlıqdakı Azıx*^ mağarasına köçmüşlər.

Azıx mağarasında aparılmış arxeoloji tədqiqatlar göstəmiişdir ki, qədim insanlar buraya 1-1,2 milyon il əvvəl köçmüşlər. Quruçay mədəniyyətinin ilkin dövrü Afrikada öyrənilmiş Olduvay*^ paleolit mədəniyyəti ilə eyni tarixə malikdir. Həmin dövr arxeoloji bölgüdə Aşelə qədərki mərhələyə uyğun gəlir. İlkin mərhələnin əmək alətləri adi çay daşlanndan çox kobud hazırlanmışdır. İnsanın ilkin vərdişlərinin məhsulu olan bu alətlər qeyri-adi ölçüsü və çəkisi ilə (4-5 kq-a qədər) fərqlənir. Bu mərhələnin insanları təbii daşlardan qəlpələr

Paleolit - yunanca (paleos - «qədim», litoe - «daş») «Qədim daş» dövrü deməkdir.

Arxeoloji dövriəşmədə bu və ya digər dövrə aid abidələrin ilk dəfə tapıldığı yerin adı əsas götürülür. Məsələn, Aşel dövrü Fransadakı Sent-Aşel kəndinin, Mustye La Mustye mağarasının adından götürülmüşdür

Azıx Dağlıq Qarabağda, Füzuli şəhəri yaxınlığında Quruçay dərəsinin kənarında yerləşir. Mağara 1960-cı ildə prof. M.Hüseynov tərəfindən qeydə alınmışdır. Mağarada öyrənilmiş 10 mədəni təbəqənin (yə'ni yaşayış izi qalmış təbəqənin) qalınlığı 14 m-dir.

Olduvay - Şərqi Afrikada (Tanzaniya) Nayrobi şəhərindən 600 km cənubda yerləşmiş dərənin adıdır. Burada ingilis aıxeoloqları Likilər (ər və aıvad) uzun illər tədqiqat aparmış və qədim insanlann təşəkkülü tarixinin 2,5 milyon ildən artıq olmasını sübut etmişlər.

qoparmağı və onlardan kəsmək, doğramaq aləti kimi istifadə etməyi bacarırdı. Alətlər əsasən kvars və çaxmaqdaşından hazırlanırdı. Azıx mağarasının alt təbəqələrində (Quruçay mədəniyyətinin ilk dövrü) kobud daş alətlərlə yanaşı,^aşlaşmış heyvan sümükləri də tapılmışdır. Bə’zi sümüklər itiağızlı alətlər ilə çapılıb sındırılmışdı. Sümük qalıqları Quruçay mədəniyyətinin ilk pilləsinin heyvanat aləmi haqqında təsəvvür yaradır.

Bu dövrdə ovçuluq bəsit idi. Əsasən xırda heyvanlar, iri heyvan balaları, habelə kirpi, tısbağa və s. ovlanırdı. Çox güman ki, insanlar aıtıq təbii oddan istifadə edə bilirdilər. İbtidai ovçuluqla yanaşı, giləmeyvə yığmaq vərdişi də təşəkkül tapmağa başlamışdı.

Quruçay mədəniyyəti dövründə yaranan ibtidai sürü icmasının nəsli icma dövrünə qədəm qoyması ibtidai icma quruluşunun başlanğıcına təsadüf edir. İbtidai icma quruluşu isə Mustye dövründə (120- 100 - 40-30 minilliklər)formalaşır. Beləliklə, ibtidai insan sürü icması qədim daş dövrünün böyük bir hissəsini, yə’ni 1,5 milyon ildən artıq bir vaxtı əhatə etmişdir.

İbtidai insan icması kiçik qruplarda birləşmiş kollektivlərdən ibarət olmuşdur.

Quruçay mədəniyyətinin ikinci inkişaf mərhələsi erkən və orta Aşel dövrünü əhatə edir. Bu dövrün tarixi 700-150 min il arasındadır. Erkən və orta Aşel dövründə əmək alətləri xeyli təkmilləşmiş, eyni zamanda yeni növ alətlər meydana gəlmişdir. İnsanların fiziki inkişafındakı təkmilləşmə onun əmək vərdişlərinin formalaşmasına da tə’sir göstərmişdir.. '

Azıx mağarasının müvafiq təbəqələrindən tapılmış çoxsaylı qəlpələr və istehsal tullantıları əmək alətlərinin elə yerindəcə, yə’ni düşərgədə hazırlanmasını sübut edir. Əmək alətləri çay daşlarından, çaxmaqdaşı və başqa daş növlərindən hazırlanırdı. Bunların içərisində əl çapacaqlan, habelə itiuclu alətlər, müxtəlif növ qaşovlar, dişli-gəzli iskənəyə bənzər alətlər və s. vardı. Bu alətlər kəsmək, deşmək, sıyırmaq işlərində tətbiq olunurdu.

Erkən daş dövründə insanlar sün’i yolla od əldə edirmişlər. Ocaqdan isinmək, vəhşi heyvanlardan qorunmaq, yemək hazırlamaq üçün istifadə olunurdu. Azıx mağarasında aşkar olunmuş ən qədim ocaq qalığının 700 min ilə yaxın yaşı var.

Birinci rəqəmlər Mustye döviünün başlanğıcını, axırıncılar isə sonunu göstərir.

Aşel dövrü adamiannın fiziki tipi Azıx mağarasında tapılmış ibtidai insana məxsus alt çənə parçasının əsasında müəyyən edilmişdir. Çənə sümüyü ilə yanaşı, qədim emək alətləri (kobud əl çapacaqları, sadə quruluşlu qaşov ve bıçaqlar), habelə nəsli kəsilmiş heyvanın sümükləri də tapılmışdır. Bu insan tipi pitekantropdan^® sonrakı və neandertaldan^l əvvəlki dövrə aiddir. Tapıldığı yerin adı ilə əlaqədar bu dövr adamı şərti olaraq azıxantrop22 adlandırılmışdır. Azıxantrop təkcə Azərbaycanda deyil, həm də ön Qafqazda Aşel dövrü insanla- nnın fiziki quruluşunu öyrənməyə əsas vermişdir. Bu tapıntı hələlik- keçmiş SSRİ ərazisində tapılmış ən qədim insan tipi nümunəsidir. Azıxantrop təxminən 400 min il əvvəl yaşamışdır. Azıx mağarasının Aşel təbəqəsində qedim tikinti qalığı tapılmışdır. Onun yaşı 350 min ilə yaxındır. Ocaqdan istifadə və yaşayış binasının tikintisi bəşər tarixmin en qədim nailiyyəti sırasına daxildir. Aşel dövründə insanlar tədricən ətraf alemi dərk edir, ibtidai dini təsəvvürlər yaradır və sadə incəsənətlə məşğul olurdular. Azıx mağarasında xüsusi düzəldilmiş gizli taxçalarda tapılmış ayı kəllələrindən bə'zilərinin üzərində xüsusi işarələr cızılmışdı. Bu, yəqin ki, dini ayinlərin və totemik gömşlərin təşəkkülü ilə bağlı olmuşdur.

Quruçay mədəniyyətinin üçüncü inkişaf mərhələsi son Aşel və erkən Mustye dövrlərini əhatə edir. Üçüncü mərhələnin tarixi 150- 120 min il arasındadır. Bu dövrdə insanların fiziki və zehni inkişaf səviyyəsi artmış, əmək alətlərinin yeni növləri meydana gəlmiş, əmək vərdişləri təkmilləşdirilmişdir. Alətlərin hazırlanmasında çaxmaqdaşı, felzit, bazalt tipli daşlarla yanaşı, dəvəgözü^^ daşından da geniş istifadə olunurdu. Son Aşel və erkən Mustye insanları ətraf aləmə yaxşı bələd olmuş, təbii sərvətlərdən xammal kimi istifadə etmişlər. Bu dövrdə nukleuslardan^^ qoparılmış qəlpələrdən dişli, dişli- gəzli, ucu oymalı, qaşov tipli alətlər, kəsicilər hazırlayırdılar.

20 «Pitekantrop» - yunan sözüdür, «pitekos» - meymun, «antropos» ~ insan deməkdir. Bu lip insanlar təxminən 1,6 rnilyon il əvvəl yaşamışlar.

2* «Neandertal» - Almaniyada yer adıdır. İlk dəfə tapıldığı yerin adı ilə bu tip insanlar Neandertal adamı adlanır. Neandertal adamı Must> e dövründə (e.ə. 120-100 - 40-30 minilliklər) yaşamışdır.

22 «Azıxantrop» - yə’ni «Azıx adamı».

23 Dəvəgözü daşı vulkanik şüşə cisimdir. Azərbaycanda onun təbii yataqları Kəlbəcər rayonundakı Keçəl dağ massivində yerləşir.

2^ «Nukleus» - əmək aləti hazırlamaq üçün seçilmiş müxtəlif növlü daş- lann xüsusi texnika ile qəlpələr qopaniması nəticəsində yaranmış nüvəyə (və ya özəyə) deyilir.

Bu dövrdə insanlar Azərbaycan ərazisində daha geniş yayılmış, Kiçik Qafqazın cənub yamacında, Qarabağdan tutmuş Ceyrançölə qədər məskən salmışdılar.

Bu zaman Azərbaycanda ovçuluq əsas peşəyə çevrilmişdi. İnsanlar əsasən Qafqaz maralı, mağara ayısı, boz ayı, tur, dağ keçisi, vəhşi at və s. ovlayırdılar. Şübhəsiz, Mustye insanları meyvələrdən, həmçinin yabam bitkilərdən ərzaq məhsulu kimi istifadə etməyə başlamışdılar.

İnsanlann zehni inkişafı ilə əlaqədar olaraq bu dövrdə dini görüşlərdə və ətraf aləmə münasibətdə dəyişikliklər baş venniş, məsələn, ilk bəsit dəfn mərasimi meydana gəlmişdi. Orta paleolit dövründə totem, ovsun (magiya), heyvanlara sitayiş kimi dini təsəvvür formaları da təşəkkül tapmışdı.

Mustye (orta paleolit) dövrü insanların ümumi inkişaf prosesində mühüm dönüş çağı olmuşdur. Homo sapiens (ağıllı adam) insan tipi məhz neandertal insanı əsasında, onun sonrakı inkişaf mərhələsi kimi təşəkkül tapmışdır. Lakin neandertal insanı hələlik kollektiv ictimai həyat üçün vacib olan morfoloji xüsusiyyətlərə malik deyildi. Bu xüsusiyyətlər yalnız paleolitin son **mərhələsində**^^ formalaşmış və artıq bu dövrdə müasir insan tipi meydana gəlmişdir.

Paleolitin son mərhələsi təxminən 40-30 min il əvvəl başlamış və e.ə. 12-ci minilliyə qədər davam etmişdir. Bu dövrdə iqlim mülayimləşmiş, bitki və heyvanat aləmində yaşayış üçün əlverişli dəyişikliklər baş vermişdir. Qədim daş dövründə yaşamış bir çox heyvanların (kərgədanlar, nəhəng maral, mağara ayısı, zubr və s.) nəsli kəsildiyindən son paleolit dövründə insanlar əsasən Qafqaz maralı, ceyran, cüyür, dağ keçisi və s. ovlamışlar.

Son paleolit dövrünün əmək alətləri içərisində uclu qaşovlar, biz, kəsiçi, dairəvi, yanmdairəvi və uzun qaşovlar, gəzli və üçbucaq

25 Mustye dövı-fmdə (e.ə. 120-100 - 40-30 minilliklər) «neandertal» tipli insanlar yaşamışlar. Azərbaycanda Mustye dövrü Azıx mağarasının müvafiq təbəqəsi. Tağlar, Daşsalahlı, Qazma və Zar rhağaraları, habelə Qədirdərə, Caxmaqlı, MaralU kimi açıq paleolit düşərgələri əsasında öyrənilmişdir.

26 Paleolitin son mərhələsinin maddi qalıqlarına Tağlar, Damcılı, qismən Zar mağarası düşərgələrində və Yataq yeri adlı açıq paleolit düşərgəsində təsadüf olunmuşdur.

alətlər, prizmatik nukleuslar, habelə istehsal tullantılan geniş yer tuturdu. Alətlərin dişəklənməsində (kənarlannda göz açılmasında) yeni üsulların tətbiqi ilə insanlar çox mükəmməl vo davamlı əmək alətləri hazırlamaq vərdişlərinə yiyələnə bilmişlər.

Üst Paleolit dövründə Azərbaycan ərazisində müasir insan tipinin formalaşması başa çatmış və ibtidai icma qumluşunun ilkin pilləsi yaranmışdır. Bu formalaşma paleolitin son mərhələsində yaşamış adamlann əqli və fiziki cəhətdən kamilləşməsi, onlann sosial obyekt kimi təşəkkülü, şüurlu birgəyaşayış qaydalarına əməl etməyə qadir- liyi və məhsuldar qüvvələrin inkişafı nəticəsində mümkün olmuşdur. Məhsuldar qüvvələrin inkişafı obyektiv olaraq ictimai həyatda da öz əksini tapmalı idi. Əqli və fiziki cəhətdən daha da inkişaf etmiş insan kollektivi birgə fəaliyyət göstərə biləcək daimi qruplarda birləşmiş, ibtidai sürü icması ibtidai nəsli - qəbilə quruluşu ilə əvəz olunmuşdu. Nəsli - qəbilə qumluşunun əsasım qan qohumluğuna malik insanların qəbilə birliyi təşkil edirdi. Nəsli - qəbilə quruluşu dövründə insanlar ana xətti üzrə qohumluq əlaqələri əsasında birləşmişdi. Nəsli - qəbilə quruluşunun matriarxat, ana nəsli (və ya ana xaqanlığı) quruluşu adlanması da bununla bağlıdır.2‘7

## § 2. MEZOLİT DÖVRÜ. MƏNİMSƏMƏ TƏSƏRRÜFATINDAN İSTEHSAL TƏSƏRRÜFATINA KEÇİD
**(£.a. *XII - VIII miiüUikldr)***

Azərbaycan ərazisində 10-12 min il əvvəl qədim Daş dövrü orta Daş dövıü ilə, yə’ni Mezolit^s dövrü ilə əvəz olunur. Mezolit abidələrində təsadüf olunan çox kiçik ölçülü, mikrolit^^ adlanan daş alətlərin ilkin variantları hələ paleolitin son inkişaf mərhələsinin axırlannda təşəkkül tapmış, Mezolit dövründə isə mükəmməl fonnaya salınmışdır.

Mezolit dövründə insanların əmək fəaliyyətində, dünyagörüşündə, ətraf aləmə münasibətində mühüm dəyişikliklər baş verir, qədim

Son vaxtlar bir çox tədqiqatçılar, iimumiyyətiə, ana nəslinin, yə’ni ınatriarxatın varlığını inkar edir. Bə’ziləri isə, matrİarxatla yanaşı və onunla bir vaxtda ata nəslinin, patmarxatın da mövcudluğunu iddia edirlər.

2* «Mezos» - yunanca orta, «litoe» - daş deməkdir.

2^ «Mikrolit» - yunanca «mikros» - kiçik, «litos» daş deməkdir.

insanların ən mühüm ixtiralarından biri olan ox və yay meydana gəlir. Şübhəsiz, ox və yayın kəşfi insanların min illər boyu eldə etdikləri bir çox vərdişlər sayəsində, müxtəlif texniki üsullara bələd olmaları nəticəsində mümkün olmuşdur.

Ox və yaym kəşfilə ovçuluq sahəsində əsaslı dəyişiklik yarandı və heyvanlan uzaq məsafədən ovlamaq mümkünləşdi. Bununla daha çox ərzaq ehtiyatı əldə etməyə nail olan insanlar eyni zamanda heyvanlan əWileşdirməyə başlayırlar. İlk vaxtlar heyvanları yem ehtiyatı kimi saxlayırdılar. Beləliklə, ibtidai heyvandarlığın əsası qoyulur. Əlbəttə, bu heyvanlan hələ ev heyvanları hesab etmək olmazdı. Vəhşi heyvanlann əhliləşdirilməsi, heyvandarlığın təşəkkülü və inkişafı çox uzun və mürəkkəb yol keçmişdir. Lakin heyvanlann bir qisminin ehtiyat üçün saxlanması və bu işin vərdiş halına keçməsi obyektiv surətdə ibtidai maldarlığın bünövrəsini qoymuşdur. Mezolit dövründə ibtidai maldarlıqla yanaşı, ilkin əkinçilik vərdişləri də təşəkkül tapmışdır. Ət ehtiyatının artması ərzağa olan tələbatı ödədiyindən yabanı bitki toxumlarının bir hissəsinin ehtiyat üçün saxlanmasına şərait yaratmış, bu isə öz növbəsində ibtidai əkinçiliyin təşəkkülünə səbəb olmuşdur.

Mezolit dövründə mühüm prosesin, yə’ni təbiətin hazır məhsullarını mənimsəməkdən onların bilavasitə istehsalına keçidin əsası qoyulmuşdur. Çox uzun və mürəkkəb yol keçmiş bu proses yalnız Heolit dövründə əsaslı surətdə formalaşmışdı. Mezolit dövründə yaşamış insanların həyat tərzi Qobustan abidələri əsasında öyrənilmişdir. Arxeoloji qazıntılar göstərmişdir ki, burada həyat 12 min il əvvəl başlamışdır. Mezolit dövründə Qobustanda insanlann məşğuliyyəti ovçuluq, balıqçılıq, yığım, zaman keçdikcə isə ibtidai maldarlıq vo əkinçilik olmuşdur. Burada «öküzlen>, «Ana Zağa», «Firuz» və başqa Mezolit dövrü düşərgələrində çaxmaqdaşı və çay daşından, habelə sümükdən hazırlanmış müxtəlif əmək alətləri tapılmışdır. Qobustan sakinləri mikrolit lövhələrindən itiuclu, gəzli, bıçaqvari, kiçik qaşov və s. tipli iskənəyə bənzər kəsici alətlərin istehsalını mənimsəmişdilər.

Sümükdən biz, ox ucu, balıq torunun toxunulmasında istifadə olunan alətlər hazırlanırdı. Qedim qobustanlılar bəzək əşyalarını müxtəlif dəniz ilbizlərinin çanaq hissəsindən, ayn-ayn heyvanlann sümük və dişindən düzəldirdilər.

Qobustanın Mezolit dövrü qayaüstü rəsmlərinin ibtidai incəsənətin və əhalinin dini görüşlərinin, xüsusilə ovsun - totem inamlarının

öyrənilməsində əhəmiyyəti çox böyükdür. Burada qadın rəsmləri, müxtəlif siluetlər həkk olunmuşdur. Qayaaltı sığınacaqlarda qayalanrı sethindəki rəsmlərin çoxu Mezolit dövrünün mədəni təbəqələri ilə örtülmüşdür. Qobustan rəsmlərinin böyük əksəriyyəti isə sonrakı tarixi dövrlərə aiddir. «Firuz» düşərgəsində Mezolit dövrünün son^ mərhələsinə aid edilən 11 insan skeletinin qalıqları tapılmışdır, ölülərin yanında çoxlu əmək alətləri və bezək eşyalan (balıq toru üçün alətlər, qarpun uduğu, çaxmaqdaşından alətlər, balıqqulaqlartndan muncuqlar, qaban dişi və s.) qoyulmuşdur. Damcılı (Qazax rayonu) mağara düşərgəsində çaxmaqdaşından hazırlanmış kiçik ölçülü ox uclan, müxtəlif tipli mikrolitlər, səthi cilalanmış dişli lövhələr və s. aşkar olunmuşdur. Həmin lövhələrdən hazırlanmış ibtidai orqanlardan dənli bitkilərin biçilməsində istifadə olunurdu.

## § 3. İSTEHSAL TƏSƏRRÜFATININ TƏŞƏKKÜLÜ NEOLİT DÖVRÜ

***{E.Ə. VII - VI minUiikİar)***

Neolit^o dövrü Azərbaycanda e.ə. VII minilliyin əvvəllərindən başlamış və VI minilliyə qədər davam etmişdir. Neoliti başqa dövrlərdən fərqləndirən əsas xüsusiyyət bu dövrdə əkinçilik və maldarlığın əsaslı surətdə təşəkkülü və inkişafı ilə bağlıdır. Bu dövrdə insanlar istehsalı mənimsəyir, təbiətdə hazır şəkildə mövcud olmayan yeni materialların istehsalına başlayır. Toxuculuğun kəşfi və gil qablann hazırlanması istehsalda mühüm yer tutur. İlk vaxtlar toxuculuq materialı kimi yabanı texniki bitkilərdən (gicitkən, kətan və s.) istifadə olunurdu.

Neolit dövründə əhali oturaq həyat sürmüş, ovçuluq, balıqçılıqla da məşğul olmuşdur. Əmək alətləri əsasən çaxmaqdaşından hazırlanır, bıçaqlar, iskənə və deşici alətlər və s. üstün yer tuturdu. Dövrün tələblərinə uyğun olaraq, xüsusilə istehsal təsərrüfatının inkişafı ilə

30 Neolit - yunanca «neos» - yeni, «litos» daş deməkdir, ön Asiya və Yaxın Şərqin qədim mədəniyyət ocaqlarında - Anadolu, Şimali Mesopotamiya, Fələstində (Cayönü təpəsi, Tel Maqzaliyyə, terixon) Neolit daha erkən, yə*ni VIII minillikdən təşəkkül tapmışdır. Azərbaycanda Neolit dövrü Damcılı (Qazax rayonu) mağarasının müvafiq təbəqəsi, Gəncə yaxınlığındakı Gillidağ və 133 №-li düşərgə. Qobustanda «Ovçular zağası», «Ana Zağa», «Firuz» düşərgəsi əsasında öyrənilmişdir.

əiaqedar yeni aletlər meydana gəlirdi. Bu alətlərdən əkin (daş toxa; və biçin (oraq dişi) işlərində» məhsul e’malmda istifadə olunurdu.

Gillidağ (Gəncə yaxınlığında) adlı yerdə qədim çaxmaqdaşı istehsalı ile bağlı izlər, istehsal tullantıları və çoxlu hazır məhsullar tapılmışdır. Burada daş çəkic, balta, müxtəlif lövhələrə daha çox təsadüf olunmuşdur. 133№-Ii düşərgədə çaxmaqdaşından bıçaqvari lövhələr, qaşovlar, daş toxa, dəvəgözündən əmək alətləri aşkar edilmişdir. Bu alətlərdən təsərrüfatın müxtəlif sahələrində və məişətdə, Damçıh mağarasında tapılmış ağzı dişli və pardaqlanmış lövhələrdən isə biçində istifadə olunmuşdur. Toxuculuq və saxsı qablar istehsalı ilə bağlı sahələrin meydana gəlməsi qədim insanların həyatında mühüm rol oynamışdır. Saxsı qablar istehsalı ərzaq ehtiyatının saxlanılmasını asanlaşdırmış, məişətin bütün sahələrində əsaslı dəyişikliyə şərait yaratmışdır. Saxsı qablar 133 №-li Gəncəçay düşərgəsində, Təbriz yaxınlığındakı Yanıqtəpə və Urmiya gölü yaxınlığındakı Firuztəpə abidələrinin müvafiq təbəqələrində daha çox mə Tumdur.

Qobustanın müvafiq dövr qayaüstü təsvirləri Azərbaycanda Neolit dövrü insanlarının dünyagörüşü, ətraf alemə münasibəti və onu dərketmə qabiliyyəti, habelə ilkin inçəsənət vərdişləri haqqında müəyyən təsəvvür yaradır. Bu təsvirlərnn bir çoxu Neolit düşərgələrinin divarlarında: Böyükdaş və Kiçikdaş qayalarında həkk olunmuşdur. Qobustan tesvirləri mövzu müxtəlifliyi ilə yanaşı, kompozisiya e’tibarilə də çox zəngindir. Burada kollektiv rəqs, ov səhnələri, müxtəlif heyvan və insan tesvirləri xüsusi yer tutur. «Firuz» düşərgəsində qaya səthində tesvir olunan rəsmlərdən biri e.e. VII minilliyin əvvəllərinə aid edilir. Rəsmlərin bir çoxu ovsunla bağlıdır və ovun uğurlu olması ilə əlaqədar çəkilmişdir. Neolit Daş dövrünün axırıncı mərhələsidir. Bu dövrdə insanlar qəbilə icması şəraitində yaşamış, ana xaqanlığı (ma- dərşahhq, matriarxat ana nəsli) hÖkm sümıüşdür.

## § 4. ENEOLİT DÖVRÜ
## (£.a. *VI-4V miniUikhr)*

E.ə. VI minillikdən başlayaraq Azerbaycanda Neolit Eneolit^' dövrü ile əvəz olunmağa başladı.

«Eneo.s» - latınca mis; «litos» - yunanca daş deməkdir. Bu dövr habelə «xalkolit» («xalkos» - yunanca mis mə*nasındadır) dövrü kimi də mə’lumdur.

Eneolit dövrü istehsal tosərrüfatmın esaslı surətdə formalaşması və onun dövrünə görə sur'ətli inkişafı ilə xarakterizə olunur. Eneolit dövrünü tarixin əvvəlki inkişaf mərhələlərindən fərqləndirən əsas xüsusiyyətlərdən biri bu dövrdə məişətdə daş mə'muİatı ile yanaşı, metaldan istifadə olunmasına başlanmasıdır. Görünür, metalla ilkin tanışlıq əmək alətləri hazırlanması üçün daha davamlı və sərfəli xammal axtarışı ilə bağlı olmuşdur. İlk vaxtlar mis külçələrindən soyuq döymə üsulu ilə müxtəlif əşyalar hazırlanırdı. Zaman keçdikcə əmək vərdişlərinin təkmilləşməsi və müxtəlif texniki qaydalara yiyələnmə sayəsində mis külçələrdən əvvəlcə ocaqda qızdırma yolu ilə, sonralar isə xüsusi qablarda əritməklə ibtidai metalişləmənin sirlərinə beləd olan insanlar təsənrüfat həyatında mühüm dəyişikliklərin təməlini qoymuşdular. Mə'lumdur ki, Azərbaycanda mis filizi ehtiyatlan Gədəbəy, Daşkəsən, habelə Qarabağın Dağlıq zonasında və Naxçıvanda mövcuddur. Şübhəsiz, Eneolit dövrü insanları bu yataqlardakı mis külçələrindən istifadə etməyə başlamışdılar. Eneolit dövrü yaşayış məskənlərindən tapılmış müxtəlif mis əşyalar (biz, iynə, bıçaq və s.) da bunu sübut edir.

Məhsuldar qüvvələrin sonrakı inkişafı ilə əlaqədar olaraq Eneolit dövründə Azərbaycan ərazisində əhali artımı yüksək idi. Azərbaycan ərazisində bu dövr abidələrinə Gəncə-Qazax (Şomutəpə, Babadərviş, Qarğalartəpəsi), Mil-Qarabağ (İlanlı təpə, Calağantəpə, Leylatəpə), Muğan (Əliköməktəpə), Naxçıvan (Kültəpə) zonalarında. Kür və Araz çayları hövzəsində daha çox rast gəlinir. Son illər Eneolit abidələri Qobustan, Quba - Xaçmaz və Şəki - Zaqatala zonalarında da qeydə alınmışdır. Cənubi Azərbaycanda, Urmiya gölü rayonunda, Təbriz yaxınlığında öyrənilmiş Eneolit abidələri (Yanıqtəpə, Dolmatəpə, Göytəpə və s.) Azərbaycanın qədim əkinçi və maldar tayfalannın həyatını öyrənmək üçün qiymətli mənbələrdir. Bu dövr abidələri elmi ədəbiyyatda Kültəpə və Şomutəpə arxeoloji mədəniyyəti kimi bəllidir.

Azərbaycanda Eneolit dövrü e.ə. VI - IV minillikləri əhatə edir. Eneolit yaşayış məskənləri oturaq həyat keçirən əkinçi maldar tayfalara məxsus olmuşdur. Yaşayış məskənləri üçün bir qayda olaraq çay kənarı, yeraltı qaynamalara və kiçik bulaqlara yaxın sahələr seçilirdi. Yaşayış məskənləri 0,5-2 ha sahəni əhatə edirdi. Möhrə və ya çiy kərpicdən hörülən evlər dairəvi (Eneolitin ilkin mərhələsində) və ya düzbucaqlı (son mərhələsində) planda tikilirdi. Bundan başqa,

qazma tipli evlər də mövcud olmuşdur. Yaşayış binalan 10-15 kv.m.; bə'zen 24-28 kv.m-ə kimi sahəyə malik, təsərrüfat tikililəri isə kiçik ölçülü idi. Vahid planla deyil, pərakəndə halda tikilən yaşayış binalarının davamlığını artırmaq və qoşa çatlı damın ağırlığına tab gətirməsi üçün evlərin divarlarının qarşısında xüsusi dayaqlar (pilyastr) hörülürdü. Belə tikililərə daha çox Əliköməktepə yaşayış məskənində təsadüf olunmuşdur. Divarları suvanmış, döşəməsinə həsir salınmış mənzilləri qızdırmaq, həmçinin yemək hazırlamaq üçün evin ortasında və ya divar dibində oçaq qalayırdılar. Çox vaxt mənzillər və onlara bitişik anbar-binalar başqa sahələrdən xüsusi divarla ayrılırdı. Göıünür, ayrı-ayrı ev dəstləri (kompleksləri) qoşa nikaha əsaslanan ailələrə məxsus olmuşdur. İcma torpağında birgə çalışan və qəbilə- tayfa quruluşunun tərkib hissəsi olan bu ailələr ümumi mülkiyyət bölgüsündən aldıqları pay hesabına dolanırdılar.

Əhalinin məşğuliyyəti. Eneolit dövrü əhalisi əkinçilik və maldarlıq, ev sənətkarlığının müxtəlif sahələri (dulusçuluq, daş və sümükiş- lemə, toxuculuq və s.), habelə balıqçılıqla məşğul olurdu.

Əkinçilik, əsasən dəmyə xüsusiyyəti daşımış, qismən sün'i suvarma tətbiq edilmişdi. Toıpaq toxa ilə əkilir ve becərilirdi. Taxıl ehtiyatı böyük ölçülü saxsı küplərdə və anbarlarda saxlanılırdı. Azərbaycanın Eneolit dövrü əhalisi bir neçə buğda növü (bərk və yumşaq buğda), pərinc (polba), habelə arpa əkib-beçərirmiş.

İstehsal təsərrüfatının mühüm sahələrindən olan maldarlıq da xeyli inkişaf etmişdi.

Ev heyvanları içərisində aparıcı yeri xırdabuynuzlu heyvanlar tutmuşdu. Töyrətəpə yaşayış məskənində (Qazax) tapılmış sümüklərin 32,5%-i qoyun-quzuya, 25%-i iribuynuzlu mal-qaraya məxsusdur. Qarğalar təpəsində sümük qalıqlarının 49,3%-i qoyun-quzuya, 23,4%-i mal-qaraya aiddir. Babadərviş abidəsində bu göstəricilər müvafiq surətdə 49 və 36,5%-dir, Mil - Qarabağ və Gəncə - Qazax bölgəsindən fərqli olaraq Muğanda iribuynuzlu mal-qara üstünlük təşkil edirdi. Eneolit dövrünün son mərhələsinə aid (e.e. V minilliyin sonu - rv minilliyin birinci yansı) Əliköməktepə abidəsində (Cəlilabad) birinci yeri iribuynuzlu mal-qara (43,7%), sonrakı yerləri xırda davar (36,2%), at (7,5%), donuz (6,1%) və s. heyvanlar tutur. Burada tapılmış vəhşi heyvan sümükləri 5-6%-den artıq deyil. Əhliləşdirilmiş it sümüklərinə də (2,5-9,8) təsadüf edilir. Bu rəqəmlər heyvandarlıq sahələri ve onlann nisbəti haqqında təsəvvür yaratmağa imkan verir.

Əliköməktəpə abidəsində tapılmış at sümüklərinin xeyli hissəsi əhliləşdirilmiş atlara məxsusdur. Həmin mərhələdə azı iki at tipinin olması müəyyənləşdirilmişdir.

Əkinçilik və maldarlıqla yanaşı, Eneolit dövrü əhalisi ərzağa olan tələbatın bir qismini ovçuluq və balıqçılıq vasitəsilə tə’min edirdi. Lakin bu dövrdən başlayaraq ovçuluq və balıqçılıq köməkçi və ikinci dərəcəli təsərrüfat sahəsinə çevrilir.

Eneolit dövründə daş alətlərin hazırlanma texnologiyası daha da təkmilləşdirilmiş, en’ənəvi əmək alətləri sırasına yeniləri əlavə olunmuşdu. Çaxmaqdaşı və dəvəgözündən hazırlanmış əmək alətləri içərisində lövhəvari bıçaqlar, ərsin, qaşov, deşici alətlər, oraq dişləri aparıcı yer tuturdu. Bununla yanaşı, sıyırğaclar, kəsicilər, burğular və iskənəvari alətlərdə işlədilirdi. Müxtəlif lövhə və qəlpələrdən düzəldilmiş oraq dişləri xüsusi qətran vasitəsilə sümük əsasa bərkidilir və bu üsulla hazırlanan quraşdırma oraqlardan sakinlər taxıl biçinində istifadə edirdilər. Əliköməktəpə abidəsində bu növ oraqlar, həmçinin iri heyvanın kürək sümüyündən hazırlanmış bütöv oraqlar da tapılmışdır. Taxılın e’malı ile bağlı başqa alətlər sırasına dən daşları, həvəng- desteler de daxil olmuşdu. Azərbaycanın Eneolit yaşayış məskənlərində bu alətlərin bir neçə növünə təsadüf olunmuşdur. Bununla beı*a- ber üzəri cilalanmış daş baltalardan təsərrüfatın müxtəlif sahələrində istifadə edirdilər.

Dövrünə görə yüksək sənətkarlıqla hazırlanmış əmək alətlərinin başqa qmpunu sümük mo’mulatı təşkil edir. Eneolit dövrü ev sənətkarlığının xüsusi sahəsi olan sümük alətlər və ümumiyyətlə, sümük işləmə içərisində yer şumlamaq üçün hazırlanmış toxalar, tikiş işində istifadə olunan biz və iynələr, balıq toru toxumaq üçün nəzərdə tutulmuş alətlər, qaşovvari bıçaqlar xüsusilə seçilir. Sümükdən müxtəlif bəzək və məişət əşyaları da hazırlanırdı. Həmin dövrdə gön-dəri e’malı və bununla bağlı sahələrin də inkişaf etməsi nəticəsində aşılanmış dəridən ayaqqabı, paltar və s. hazırlayırdılar.

Hələ Eneolit dövründə təşəkkül tapmış toxuculuq sənəti daha da inkişaf etmişdi. Azərbaycanın bir sıra Eneolit abidələrindən (Kültəpə I, Hacı Firuz, İlanlitəpə, Babadərviş, Leylatepə və s.) tapılmış iy uclan, habelə saxsı qabın (Əliköməktəpə) səthində qalmış toxuma izi bunu sübut edir. Toxuculuğun inkişafına təkan verən amillərdən biri xırda heyvandarlığın inkişafı və yun istehsalının artması olmuşdur. Bu dövrdə toxuculuqda texniki bitki lifindən, daha çox yundan istifadə

olunurdu. Görünür, Eneolit sənətkarları toxuma işində artıq sadə quruluşlu toxuculuq dəzgahını tətbiq etməyə başlamışdılar.

Eneolit dövrü ev sənətkarlığının müxtəlif sahələri içərisində dulusçuluq daha kütləvi istehsal xüsusiyyətləri ile fərqlənirdi. Neolit dövrünün bəsit və kobud formalı qablarından fərqli olaraq Eneolit dövründə istehsal olunmuş saxsı qablar həm forma, həm də hazırlanma texnologiyasına görə diqqəti cəlb edir. Əhalinin artan tələbatına uyğun yeni qab növlərinin istehsalı mənimsənilirdi. Onların davamlılığını artırmaq və keyfiyyətini yüksəltmək üçün yeni texniki üsullardan istifadə olunurdu. Bu dövrün ən mühüm yeniliklərindən biri saxsı qabları bişirmək üçün kürələrin meydana gəlməsidir. Küitepə, Şomutəpə, İlanlitəpə, Əliköməktəpə, Calağantəpə yaşayış yerlərində dulus kürələri qalıqlarına daha çox təsadüf olunmuşdur. Burada dulus kürələri əsasən ikiqatlıdır; alt qatda ocaq qalanır, üst qatda isə saxsı qablar yığılınnış. Əliköməktəpə və Leylatəpə abidələrində dulus kürələri yaşayış yerinin kənarında çəmləşmişdi. Tədqiqatçıların fikrincə, bu aktı e.ə. V minilliyin axırı və IV minilliyin birinci yarısında meydana çıxan «icma sənətkarlığı»nın varlığı kimi qiymətləndimıək lazımdır. Maraqlıdır ki, bu abidələrdə tapılmış saxsı qabların bir hissəsi sadə quruluşlu dulus çarxında hazırlanmışdır. Xatırladaq ki, son vaxtlara qədər elmi ədəbiyyatda dulus çarxının Azərbaycanda yalnız son Tunc dövründən tətbiq olunmasını iddia edən müddəa hökm sürürdü. Son tapıntılar bu müddəanı təkzib edir və dulus çarxının e.ə. IV minilliyin əvvəllərindən meydana gəldiyini göstərir. Dulus çarxının tətbiqi keramika istehsalının sonrakı inkişafına əsaslı təkan vermişdi.

Dulusçular qabların davamlığını tə’min etmək məqsədilə gilin tərkibinə xırda doğranmış saman və başqa qatışıqlar əlavə etmişlər. Süfrə üçün hazırlanmış qablann səthi xüsusi səliqə ilə sığallanmış, bə’zi hallarda müxtəlif boyalarla naxışlanmışdı.

Mis-daş dövrünün son mərhələsində yeni qab növləri, habelə naxışlamada yeni üsul və motivlər yaranırdı (qabların səthinin daraqvari işlənməsi, qulplu qabların istehsalı və s.). Bu yeniliklər Eneolit dövlündən ilk Tunc dövrünə keçid mərhələsi üçün daha səciyyəvidir.

Eneolit dövründə metalişləmənin və metallurgiyanın meydana gəlməsi və inkişafı qədim tayfaların həyat tərzinə mühüm tə’sir göstərmişdir.

İlk vaxtlar mis külçələrdən soyuq döymə üsulu ilə müxtəlif bəzək əşyaları (muncuqlar) və kiçik əmək alətləri (biz, iynə, bıçaq tiyəsi)

hazırlayırdılar (Kültepe, Çalağantepe, Əliköməktəpə, Leylatepe və s.). Qədim metalişləmə sənətkarları bu sahədə texniki vərdişlərini təkmilləşdirərək metaləritmənin sirlərinə vaqif oldular. Leylatəpədə (Ağdam) əldə olunmuş yeni dəlillər (metal əşyaların sayca çoxluğu, metal ərintisi qalıqları və s.) Azərbaycanda metaləritmənin qədim tarixə malik olmasını sübut edir.

Azərbaycanın Eneolit dövrü əhalisi qonşu tayfalarla, həmçinin Ön Asiyanın qədim mədəniyyət mərkəzləri ilə ünsiyyətdə olmuşdur. Yaşayış və təsənüfat binalarının quruluşunda, tikinti texnikasında, təsərrüfatda və məişətdə işlədilən avadanlıqlann oxşarlığı bu ünsiyyət və əlaqələr nəticəsində mümkünləşmişdir.

ƏhaHnnn sosial-ictimai həyatı və dünyagörüşü. Eneolit döv- mndə sosial-ictimai həyat tər*zi və dünyagörüşündə də mühüm dəyişikliklər baş vermişdi. Qoşa nikahlı ailənin meydana çıxması və möhkəmlənməsi istehsal vasitələri üzərində irəliyə doğru mühüm addım idi. İqtisadiyyatın müxtəlif sahələrinin, birinci növbədə maldarlıq və əkinçiliyin sür’ətli inkişafı ilə təsərrüfatda, habelə ictimai həyatda kişilərin mövqeyi möhkəmləndi. Bununla yanaşı, ilkin əkinçilik mədəniyyəti dövmndə ana hüququ və ümumiyyətlə, qadınlann mövqeyi hələ də möhkəm idi.

Qadına nəslin yaradıcısı, tayfa ocağını qoruyub saxlayan ilahi qüvvə, bərəkət, əmin-amanlıq və firavanlıq mənbəyi kimi baxılması təsadüfi deyil. Eneolit abidələrindən (Qarğalar təpəsi və Çalağantəpə) çoxlu qadın heykəllərinin tapılması da qadına sitayişlə bağlıdır. Qadın bərəkət, rifah rəmzi olmaqla yanaşı, həm də təmizlik, paklıq, müqəddəslik nümunəsi kimi yüksək qiymətləndirilirdi.

Otlaq, su, əkilib-becərilən torpaq sahələri, mal-qara və alınan məhsul icmanın ümumi malı hesab olunurdu. Lakin bununla belə qoşa nikahlı ailənin varlığı məhsulun bu ailələr arasında bölünməsini labüdləşdirirdi. Azərbaycanın Eneolit dövrü yaşayış yerlərində ailəyə mənsub mənzil və anbarların xüsusi divarla başqalarından ayrılması müşahidə edilmişdir. Hesablanmışdır ki, belə evlərdə 5-7 nəfərdən ibarət qoşa nikaha əsaslanan ailə üzvləri yaşamışlar. Buradakı anbarlarda ailənin birillik azuqəsini saxlamaq olardı.

Eneolit dövıündə icma ağsaqqalları şurası cəmiyyətin həyatında mühüm rol oynayırdı. İcmanın tərkibinə bir neçə yaşayış məskəninin sakinləri daxil idi. Azərbaycanda həmin mərhələni əks etdirən Polu- təpə (3 hektardan artıq) və Xınıtəpə (5 hektara yaxın) yaşayış məskənlərində belə icmalar yaşamışdı.

ümumiyyətlə, bu dövrdə məhsuldar qüvvələrin inkişaf səviyyəsi ile cəmiyyətin istehsal münasibətləri bir-birinə uyğun gəlirdi. Lakin Eneoiitin müəyyən inkişaf mərhələsində əmlak və sosial bərabərsizliyin rüşeymieri meydana gəlməyə başlayır.

Defiı mərasiminə xüsusi diqqət verilmişdi. Həmin dövrdə meyitlər yaşayış məskənində, evin döşəməsi altında və ya tikililər arasında boşluqda dəfn edilirdi. Bu adət təkcə Azərbaycan ərazisində yox, qədim Şərqin bir sıra ölkələrində də mövcud olmuşdur. Ölüləri qırmızı oxra (rəng) ilə boyayırdılar. Əliköməktəpə və Qarğalar təpəsi abidələrində hətta heyvan sümüklərinin de oxra ilə boyanması müşahidə olunmuşdur. Kültepe, Çalağantəpə və Əliköməktəpədə azyaşlı uşaqlar mənzilin döşəməsi altında, yaşlılar isə binalar arasındakı boşluqda dəfn olunurdu. Eneoiitin son mərhələsində ölülərin gil küplərdə dəfn olunması mərasimi də yayılmışdı. Ümumiyyətlə, İki- çayarasının (Mesopotamiya) Şimali Ubeyd mədəniyyəti üçün səciyyəvi olan bu mərasimə hələlik Azərbaycanda Leylatəpə yaşayış məskənində rast gəlinmişdir. Bu faktı e.ə. IV minilliyin birinci yarısında yerli tayfaların Şimali İkiçayarası əhalisi ilə sıx ünsiyyəti kimi izah etmək olar.

Azerbaycanın Eneolit dövrü əhalisinin həyatında dini ayin və ovsun mərasimləri de müəyyən yer tutmuşdur. Qarğalar təpəsində kiçik çalada tapılmış və odun tə'sirinden qaralmış daş topasını tədqiqatçılar quraqlıq zamanı yağış «çağırmaq» mərasimi ilə bağlayırlar. Əliköməktəpə yaşayış məskənində möhrəden tikilmiş dairəvi ev qalığı açılmışdır. Bu tikinti qeyri-adi ölçüsü ilə başqa bina qalıqlarından fərqlənir. Onun divarı səliqəli suvanmış, əhənglə ağardılmış və üstdən rəngli boya ilə naxışlanmışdır. Belə binalarda dini mərasimlər icra olunurdu.

Dövrün qadın heykəllərinin səthində çəkilmiş müxtəlif naxışlar yağış, sünbül, bir sözlə, bərəkətlə bağlı rəmzi mə’na daşımışdı. Qobustanın Eneolit dövrü qayaüstü rəsmlərinin çoxu ovsun və dini mərasimlərlə bağlıdır. Rəsmlərdə insanlar ətraf aləmi olduğu kimi əks etdirməyə çalışmışlar.

Göründüyü kimi, Eneolit dövründə Azərbaycanda həm ictimai-sosial, həm iqtisadi, həm də mədəni həyatda mühüm dəyişikliklər və irəliləyiş baş vermişdi. Əhalinin sayı artmış, yeni ərazilər mənimsənilmiş, yeni məskənlər salınmışdır. Eneoiitin son mərhələsində metallurgiya sahəsində baş verən dəyişiklik yerli tayfalann həyatında yeni, daha mütərəqqi mərhələnin - Tunc dövrünün başlanğıcını qoydu.

## § 5. AZƏRBAYCAN TUNC DÖVRÜNDƏ
*{E.ə. IV mmiUiyin sonu -II minillik)*

Eneolitin son mərhələsində metallurgiya sahəsindəki yeniliklər Azərbaycanda yeni dövrün, ye'ni Tunc dövrünün təşəkkülü və inkişafına şərait yaratdı. Mə'lumdur ki, təmiz misdən hazırlanmış alətlər çox kövrək olub, tez sıradan çıxırdı. Onun davamlığını artırmaq üçün uzun illər boyu çıxış yolu axtarmış qədim sənətkarlar nəticədə məqsədlərinə çatdılar. Misin tərkibinə sünuə, mərgümüş və nikel qatmaqla onun davamlığını artıraraq istehsal qüvvəsini yüksəltdilər. Tuncun sonrakı mərhələsində misin davamlığını artırmaq üçün isə aşqar (qatı- şıq) kimi qalaydan daha çox istifadə olunmuşdu.

Tərkibinə aşqarlar (sümıə, mərgümüş, nikel, qalay) qatılmış ərimi tunc adlanır. Son mə'lumatlara əsasən, Azərbaycanda Tunc dövrü e.ə. IV minilliyin ikinci yarısında başlamış və e.ə. II minilliyin sonuna qədər davam etmişdir. Əmək alətləri və məişətdə işlədilən əşyaların əksəriyyəti, habelə bəzək əşyaları tuncdan hazırlandığı üçün bu dövrə tunc dövrü deyilir.

Tunc dövrü məhsuldar qüvvələrin sür'etli inkişafı, istehsal münasibətlərində əsaslı dəyişikliklərin başlanması, təsərrüfatın bütün sahələrində köklü dəyişikliklərin və yeniliklərin meydana gəlməsi ilə xarakterizə olunur. Toxa əkinçiliyi xış əkinçiliyi ilə əvəz olunmuş, yeni heyvan növləri əhliləşdirilmiş, yaylaq maldarlığı təşəkkül tapmış, sənətkarlıq tərəqqi etmişdi. Tunc dövründə sosial-iqtisadi sahədə, ətraf aləmə münasibətdə de mühüm dəyişikliklər baş vermişdi.

### ERKƏN TUNC DÖVRÜ (KÜR-ARAZ MƏDƏNİYYƏTİ)
*(E.ə. IV minilliyin sonu— II! minillik}*

Azerbaycan ərazisində Tunc dövrü bir neçə inkişaf mərhələsi keçmişdir. Şərti olaraq həmin mərhələlər ilk, orta və son Tunc dövrü adlanır. İlk Tunc dövrü Kür-Araz mədəniyyəti də adlanır. Bu mədəniyyətin əsas təşəkkül və yayılma sahəsi Kür-Araz ovalığıdır. Lakin Kür-Araz mədəniyyətinə xas olan əlamətlər daha geniş ərazidə təmsil olunmuşdur. Bu mədəniyyətin izlərinə Ön Qafqazdan başqa, cənubda Anadolu yaylası, İran, Suriya, şimalda isə Dağıstan, Ceçen-İnquş və Şimali Osetiyaya qədər ərazidə təsadüf olunmuşdur. Şübhəsiz, bu mədəniyyət Kür-Araz ovalığında formalaşmış və tədricən ətraf ölkələrə yayılmışdır.

Kür-Araz mədəniyyəti (ilk Tunc dövrü) Azərbaycanda e.ə. IV minilliyin ikinci yarısından III minilliyin sonuna qədərki dövrü əhatə edir,

Azərbaycanın Kür-Araz mədəniyyəti dövrünün yaşayış məskənləri (Babadərviş, Göytəpə, Qarahacılı, Ağtəpə, Üçoğlan, Cüttəpə, Də- yirmanyeri, Mişarçay, Qaraköpəktəpə, Günəştəpə, Xantəpə, Kültəpə, Sərkərtəpə və s.) bir qayda olaraq çay kənarında, bulaqlann yaxınlığında, başqa sözlə, yaşayış və təsərrüfat üçün əlverişli sahələrdə, strateji baxımdan yaxşı mühafizə olunan təbii təpə üzərində salınırdı. Bə’zən yaşayış məskənləri (Füzuli rayonundakı Qaraköpəktəpə, Təbriz yaxınlığındakı Yanıqtəpə, Urmiya ətrafındakı Göytəpə yaşayış məskənləri) qalın müdafiə divan ilə əhatə edilmişdi.

Bu dövrün yaşayış məskənləri əvvəllər yaşayış olmayan sahələrdə (Cüttəpə, Üçoğlan, Qarahacılı, Qaraköpəktəpə, Qobustanda «Dairə» və s.), bə’zən Eneolit kəndlərinin yerində (Kültəpə, Babadərviş) yaranmışdı. Belə kənd yerlərində bir neçə \arm dövrün izləri qalmışdır. İlk Tunc dövründə əhalinin sayı artmış və təbii ki, yaşayış məskənləri daha böyük sahəyə (çox halda 3 ha-dan artıq) malik olmuşdur. Tikinti texnikasında Eneolit dövrünün ən’ənələri, yə’ni dairəvi və düzbucaqlı binaların inşası davam etdirilmişdir. Lakin binalar həm ölçü, həm də davamlılıq baxımından xeyli fərqlənirdi. Əsasən evlərin və təsərrüfat tikililərinin bünövrəsi daşdan, divarı çiy kərpicdən inşa edilmiş (Qaraköpəktəpə, Kültəpə və s.), binalann bir qismi çubuqdan höıülüb suvanmışdır. Yanmqazma tipli evlərə də (Mingəçevir) təsadüf olunur. Binanı qızdırmaq və yemək hazırlamaq üçün nəzərdə tutulmuş ocaqlar evin mərkəzində və ya künclərində qurulurdu. Xüsusi quruluşlu ocaq qurğuları Kür-Araz mədəniyyətinin səciyyəvi əlamətlərindən biridir. Gildən hazırlanmış ocaq qurğuları əsasən nal şəkillidir. Başqa tip ocaq qurğuları da geniş yayılmışdı.

Binalar və onlara bitişik inşa olunmuş təsərrüfat tikililən çox halda müəyyən dəst (kompleks) təşkil edir və təbii ki, bu dəstlər ayn- ayrı ailələrə məxsus ohnuşdur. Yaşayış və təsərrüfat tikililəri ilə yanaşı, ibadət və dini ayinlərin icrası üçün də xüsusi binalar mövcud olmuşdur. Məsələn, Sərkərtəpədə çiy kərpicdən tikilmiş dairəvi qum- luşlu böyük ibadət evi açılmışdır. Bina səliqəli suvanmış, əhənglə ağardılmışdı, divarının qarşısında mehrab ucaldılmış, dini ayinlər zamanı istifadə olunmuş saxsı qablar düzülmüşdü. İbadətlə bağlı başqa bir bina («pir»), Babadərviş yaşayış məskənində də tapılmışdır.

Yaşayış məskənlərində xüsusi sənətkarlıq məhəllələri yaranırdı. Əslində sənətkarlıq sahələrinin meydana gəlməsi hələ Eneolit dövrünün son mərhələsində (Əliköməktepə) başlanmış, ilk Tunc dövründə isə həm dulusçuluğun və həm də metallurgiyanın inkişafı ilə əlaqədar xüsusi sənətkarlıq məhəllələri meydana gəlmişdi.

Təsərrüfat, birinci böyük ictimai əmək bölgüsü. İlk Tunc dövründə əkinçilik və maldarlığın inkişafında yeni mərhələ başlanır, toxadan xeyli müddət istifadə olunsa da, tədricən toxa əkinçiliyi xış əkinçiliyi ilə əvəz olunur. Əkin sahələri genişlənir, şumlamada işlədilən sümük və daş toxalar tədricən sıradan çıxır. Qoşqu qüvvəsindən istifadə əkinçilikdə məhsuldarlığı xeyli yüksəldir. Yerli əhali əkinçilikdə Eneolit dövrü ən’ənələri ilə yanaşı, yeni mütərəqqi üsullar da tətbiq edərək yeni bitki növlərini mənimsəyir, sadə sün’i suvarma şəbəkələri yaradır, torpağı xışla şumlayırdılar.

Biçin və e’mal prosesində işlədilən alətlər getdikçə təkmilləşdirilirdi, Sümük və ağacdan quraşdırılmış oraqlarla yanaşı, tuncdan bütöv biçin alətləri də hazırlanırdı. Tunc oraq məhsulun daha tez və itkisiz toplanmasını asanlaşdırırdı. Dənin döyülməsində ən’ənevi dən daşlarından (uzunsov, oval, qayıqvarı və s.) və həvəngdestələrdən istifadə olunurdu. Taxıl xüsusi quyularda və ya böyük təsərrüfat küplərində saxlanırdı. Babaderviş yaşayış məskəninin Kür-Araz mədəniyyəti təbəqəsində 20-dən artıq xüsusi quruluşlu, çiy kərpicdən olan və suvaqla üzlənmiş təsərrüfat quyuları tapılmışdır. Bu quyularda icmanın taxıl ehtiyatı saxlanılırdı.

Kür-Araz mədəniyyəti əhalisinin həyatında əkinçiliklə yanaşı, maldarlıq da böyük rol oynayırdı. Yeni heyvan növlərinin əhliləşdirilməsi, xüsusilə də təsərrüfatda atdan istifadə olunması maldarlıqda böyük əhəmiyyət kəsb edən yeniliyə şərait yaratmışdı. Heyvandarlıqda ən mühüm yenilik yarımköçəri və ya yaylaq maldarlığının yaranması idi. Yeni otlaq sahələrinə ehtiyac dağətəyi və dağlıq zonaların məskunlaşmasını sür’ətləndirirdi. Yaylaq maldarlığının təşəkkülündə əsası hələ Eneolit dövmnde qoyulmuş atçılığın sür’ətlə inkişafı mühüm rol oynamışdır. Atın əhliləşdirilməsi və ondan minik vasitəsi kimi istifadə olunması köç işini asanlaşdırırdı. Bu dövrün bir sıra abidələrində (2-ci Kültəpə, Qaraköpəktəpə, Qobustan) əhliləşdirilmiş atlara məxsus sümüklərin tapılması atçılığın varlığını sübut edir. Kür - Araz mədəniyyətinin son inkişaf mərhələsində artıq Azərbaycanın bütün dağlıq zonalannm (Xaçbulaq kurqanlan, İstisu yaylaqlarında

yaşayış məskəni, qayaüstü rəsmlər) məskunlaşması əsasən başa çatmışdı. Yaylaq maldarlığı mövsümi xarakter daşıyırdı. Qışda əhali heyvan sürülərini düzənlikdə, qışlaqlarda saxlayır, yayın əvvəlindən başlayaraq dağlıq zonalarda bəsləyirdi. Heyvandarlıqda inkişaf bu sahəyə daha çox qayğı tələb etdiyi üçün əhalinin bir qismi yalnız maldarlıqla məşğul olur, əkinçilik və başqa təsərrüfat sahələrindən əl çəkirdi. Bu da tarixdə birinci böyük ictimai əmək bölgüsünün yaranmasına gətirib çıxartdı. Maldar tayfalar əkinçilərdən aynldı. Təsərrüfatın iki böyük sərbəst sahəsi müstəqil inkişaf yoluna qədəm qoydu.

Arxeoloji tədqiqatlann nəticələri Azərbaycanda bu prosesin ilk Tunc dövründə başlandığım göstərir.

Maldarlığın sür'ətlə inkişafı şəxsi tələbatdan artıq məhsul istehsalına şərait yaradır, mübadilənin genişlənməsinə, maldar tayfaların varlanmasına səbəb olurdu. Bununla yanaşı, maldar tayfaların öz daxilində də əmlak bərabərsizliyi artır, tayfanın var-dövleti^tedricon ayrı-ayrı şəxslərin (tayfa başçıları, hərbi rəhbəri və b.) əlində cəmləşirdi. Varlı tayfa ağsaqqalları və tayfa başçılarına «axiret dünyası» üçün möhtəşəm kurqan abidələri ucaldılırdı. Tayfanın varlı üzvlərini böyük təntənə ilə dəfn edirdilər. Dəfnetmə mərasiminin izləri ilk Tunc dövrünə aid Öçtəpə, Qəbələ, Xaçınçay, Xankəndi, Borsunlu, Osman bozu kurqanlarında aşkar olunmuşdur.

Əmlak va sosial bərabərsizliyin təşəkkülü və dərinləşməsi yaşayış məskənlərinin xüsusiyyətində də öz əksini tapmışdı. Var-dövlət hərisliyi, başqa tayfaların malını, ərazisini zəbt etmək təhlükəsinin artması üzündən yaşayış məskənlərinin ətrafına hasar çəkilir, möhkəmləndirilirdi. Məsələn, bu dövrün bir sıra yaşayış məskənləri (Cənubi Azərbaycanda Yanıqtəpə və Göy təpə, Qarabağda Qaraköpəktəpə, Qobustanda «Dairə» və s.) qalın divarlı müdafiə istehkamlan ilə mühafizə olunmuşdu. Tayfa icmaları öz ərazisini və əhalisini başqalarının təcavüzündən qorumaq qayğısına qalırdı.

Sənətkarlıq. Kür-Araz mədəniyyəti əhalisi sənətkarlığın müxtəlif sahələri ilə məşğul olmuş, ən'ənevi sənət nümunələrini yeni dövrün tələbləri səviyyəsində yaratmış və inkişaf etdirmişdir. Onların içərisində dulusçuluq (gil qablar istehsalı) sənəti xüsusi yer tuturdu. Kür-Araz mədəniyyətinin dulusçuluq mə’mulatı bir çox əlamətləri (forma, tip və hazırlanma xüsusiyyəti texnologiyası) ilə seçilirdi. Dulus çarxından istifadə nəticəsində bu dövrdə məhsuldarlıq daha da artmışdı. Qablann forma və növ müxtəlifliyi, estetik dəyərinin yük-

şəkliyi, dulus çaı*xının varlığı sənətkarlığın yeni inkişaf mərhələsinə qədəm qoyduğunu gösterir. Qabların səthinin pardaqlanması və şuyrələnməsinin (hamarlanması) yeni sirlərinə bələd olmaqla dulusçular əsl sənət nümunələri yaratmışdılar. Dövrün saxsı qabları üçün səciyyəvi olan xüsusiyyətlər yanmşar quruluşlu qulpların, müxtəlif süjetli naxışların olması idi.

Bu dövrün mühüm yeniliklərindən biri metallurgiya və metalişləmənin sür'ətlə inkişafıdır. Azərbaycanın ilk Tunc dövrü yaşayış məskənlərində metallurgiya və metalişləmə ilə bağlı texnoloji proseslərin bütün mərhələlərini əks etdiran aı-xeoloji materiallar (soba, buta, parç, qəliblər və hazır məhsul) tapılmışdır. Məsələn, Babadərviş yaşayış məskənində metalərıdən soba açılıb öyrənilmişdir. Tuncdan bəzək (muncuq, qolbaq və s.) və məişət əşyaları (biz, iynə, bıçaq və s.), əmək alətləri və silah nümunələri, qızıldan isə bəzək əşyaları (Xan- kənd və Xaçmçay kurqanları) düzəldirdilər. Metallurgiyanın inkişafı ilə əlaqədar olaraq daş alətlərin təsərrüfat və məişətdə istifadəsi getdikcə azalırdı. Lakin Tunc dövründə, xüsusən onun erkən mərhələsində daş alətlər hələ də təsərrüfatda mühüm rol oynayırdı. Bir müddət daş toxalardan istifadə davam etdirilir, quraşdırma oraq üçün devegözü və çaxmaqdaşından lövhələr, ox ucluqlan hazırlanırdı. Dən daşlan, həvəngdəstələr ilə yanaşı, daş baltalardan da istifadə olunurdu. Ümumiyyətlə, Kür-Araz mədəniyyəti abidələrində külli miqdarda daşdan hazırlanmış mə'mulatların tapılması daşişləmənin hələ də yüksək səviyyəyə malik olmasını sübut edir.

Eneolit dövrü ilə müqayisədə sümükdən hazırlanmış alətlərin sayı azalsa da, sümükişləmə sənətinin inkişafını göstərən çoxlu dəlillər var. Sümükdən biz, iynə, müxtəlif bəzək əşyalan, iy ucluqlan (oyicik- lər) hazırlanmışdı.

Əhalinin dünyagörüşü. İctimai quruluş. Tunc dövründə yerli əhalinin dünyagörüşündə və bədii təfəkkürünün inkişafında mühüm yeniliklər baş verir və bunlar ətraf aləmə, axirət dünyasına, mifik aləmə inam, qəbir abidələri (qəbirlər, kurqanlar), dəfn mərasimi (ölü- yandırma, kollektiv və ya tək dəfnetme, ölülərin yanına müxtəlif avadanlığın qoyulması və s.), habelə məişət və təsərrüfat avadanlığının naxışlanmasında, nəhayət, çoxsaylı qayaüstü rəsmlərdə (Qobustan, Gəmiqaya, Kəlbəcər) özünü göstərir.

İlk Tunc dövründə təsərrüfatın bütün sahələrinin intensiv inkişafı cəmiyyətin sosial-ictimai həyatına da öz tə'sirini göstərməyə bilməz

di. Əvvəlki səhifələrdə göstərildiyi kimi, bu dövrün son inkişaf mərhələsində (e.ə. III minilliyin ikinci yarısı) əmlak və sosial bərabərsizliyin əlamətləri artmış, patriarxal münasibətlər güclənmişdi. Təsərrüfatda və ümumiyyətlə, tayfanın idarə olunmasında kişilərin rolunun güclənməsi ilə ana nəsli quruluşu aradan çıxmış, onun yerini patriarxal (ata nəsli vo ya ata xaqanlığı) tutmuşdu.

## § 6. AZƏRBAYCAN ORTA TUNC DÖVRÜNDƏ

*{E.Ə, II minilliyin birinci yanst)*

E. ə. III minilliyin axırlarında Ön Qafqazda, o cümlədən Azərbaycanda Kür-Araz mədəniyyəti birliyinin parçalanması prosesi gedir. Məhsuldar qüvvələrin güclü inkişafı təsərrüfatın bütün sahələrində, xüsusilə maldarlıqda, metallurgiya və metalişləmədə baş vermiş yeniliklər cəmiyyətin ictimai quruluşunda əsaslı dəyişikliklərə yol açdı. Həmin dövr tarixi bölgüdə orta Tunc dövrünə uyğun gəlir. Bu dÖvr e.ə. 111 minilliyin axınncı rüblərindən başlayaraq e.ə. II minilliyin ortalarına qədər davam etmişdir. Orta Tunc dövrü əkinçilik, maldarlıq və sənətkarlığın böyük sür’ətlə inkişafı, hələ ilk Tunc dövründə təşəlckül tapmış əmlak və sosial bərabərsizliyin dərinləşməsi, Yaxın Şərqin mədəniyyət mərkəzləri ilə mədəni-iqtisadi əlaqələrin müntəzəm xarakter alması və bu əsasda Azerbaycanda ilkin şəhər mədəniyyətinin formalaşması, beləliklə, sinifli cəmiyyətə keçid mərhələsinin başlanması ilə xarakterizə olunur.

Azərbaycanın orta Tunc dövrü Qarabağda tədqiq olunmuş Üzərliktəpə. Göy təpə (2-ci təbəqə), Çinartəpə, Qaraköpektəpə (2-ci təbəqə), Nərgiztepə, Ağtəpe, Toxmaqtəpə yaşayış məskənləri və Bor- sunlu kurqanlan; Qobustan, Gəncəçay, Xaçbulaq, Küdürlü kurqanları; Əlikömektepə, Şamxor torpaq qəbir abidələri; Muğanda Mişarçay-l və Cəfərxanlı yaşayış məskənləri; Naxçıvanda I və II Kültəpənin müvafiq təbəqələri, Şortəpə, Nəhərcir yaşayış məskənləri, Oğlanqala, Çalxanqala, Vayxır qalaları və s. arxeoloji abidələr əsasında ətraflı öyrənilmişdir.

İlkin şəhər mədəniyyətinin təşəkkülü. Eneolit və Kür-Araz mədəniyyəti yaşayış məntəqələrindən fərqli olaraq orta Tunc dövrünün yaşayış məskənləri daha böyük sahəni əhatə etmişdir. Məsələn, Üzerliktəpə və Göytəpə yaşayış məskənləri 3 ha, Çinartəpə 7 ha-ya yaxın sahəyə malik olmuşdur. Naxçıvan zonasında öyrənilmiş yaşayış

məskənləri möhtəşəmliyi ile fərqlənərək qədim Şərqdəki şəhər dövlətlərini xatırladırdı.

Bu dövrdə Azərbaycan ərazisində yaşamış kiçik qəbilə və tayfalar daha qüvvətli birləşmələrə qovuşaraq böyük tayfa ittifaqlarında cəmləşirdilər. Yaşayış məskənləri əsasən təbii təpələr üzərində, dərin yarğanlı çay kənarlarında, strateji cəhətdən əlverişli yerlərdə salınmışdır. Bununla əhalinin təhlükəsizliyi tə’min olunurdu. Naxçıvandakı 2-ci Kültəpə yaşayış yeri bu cəhətdən çox maraqlıdır. O, Naxçıvan- çayla Cəyriçayın qovuşduğu 10 ha-ya yaxın sahədə yerləşirdi. Narın- qala 3 ha (hektar) sahəni əhatə edirdi. Yaşayış məskəni düzbucaqlı bürcləri olan möhtəşəm müdafiə divarı ilə möhkəmləndirilmişdi.

Qarabağda, Qarqarçaydan azacıq kənarda salınmış Üzərliktəpə yaşayış məskəni çiy kərpicdən hörülmüş, eni 2 m olan müdafiə divan ilə mühafizə olunmuşdu. Çox güman ki, 7 ha-dan artıq sahəni əhatə edən Çinartəpə yaşayış məskəni də belə müdafiə istehkamına malik olmuşdur. Oğlanqala (sahəsi 40 ha) böyük daş bloklardan hörülmüş enli divarla əhatələnmişdi. Mərkəz hissədə yerləşmiş Narınqala 3400 m^ sahəni tuturdu. Oğlanqala, Vayxır və b. yaşayış məskənləri strateji mövqeyi ve topoqrafik xüsusiyyətləri ilə müdafiə xarakterli olub qədim Şərqin şəhər qalalarını xatırladır. Bu əlamətlərə əsaslanan tədqiqatçılar Azərbaycanda e.ə. II minilliyin birinci yarısından başlayaraq ilkin şəhərsalma mədəniyyətinin təşəkkül tapması mülahizəsini irəli sürmüşlər. Görünür, bu ən’ənə öz kökləri ilə ilk Tunc dövrü mədəniyyətilə bağlı olmuşdur.

Orta Tunc dövründə tikinti texnikasındakı yenilik təkcə mürəkkəb quruluşlu (xüsusilə 2-ci Kültəpədə) müdafiə istehkamlarının varlığı ilə bitmir. Bu dövrdə yaşayış binalan və təsərrüfat tikililərinin daha planlı qaydada yerləşdirilməsi, evlərin daha davamlı inşa edilməsi müşahidə olunur. Evlər bir qayda olaraq düzbucaqlı quruluşda tikilir, özülü isə əsasən çay daşı və ya əhəngdaşından, divan isə çiy kəıpic- dən (II Kültəpə) hörülürdü. Bununla yanaşı, mehrə və çubuqdan hörülüb, divarı gil məhlul ilə suvanmış tikililərə də (Üzərliktəpə, Serkərtəpə) təsadüf olunur. 2-ci Kültəpədə vahid plan əsasında tikilmiş binalan bir-birindən 2 m eni olan daş döşənmiş küçələr ayınrdı. Binaların çoxu iki-üç otaqlıdır. Bu binalar patriarxal və varlı ailələrə məxsus olmuşdu.

Üzərliktəpədə yaşayış binalan və təsərrüfat tikililəri daha sıx planda inşa edilmişdi. Yaşayış binalanm ve yaşayış məskənini əhatə-

ləyən müdafiə divan çiy kərpicdən hörülmüşdü. Binanın davamlılığını artırmaq üçün divarların arxası əlavə dayaqlarla möhkəmləndirilmişdi.

Qaraköpəktepenin orta Tunc dövrü yaşayış binaları və müdafiə divarı iri qaya parçalan və çay daşlanndan hörülmüşdü. Buradakı binalar düzbucaq quruluşlu olub, əsasən patriarxal ailə üçün nəzərdə tutulmuşdu.

Ümumiyyətlə, orta Tunc dövrü yaşayış məskənlərinin topoqrafiyası və tikinti texnikasında yerli ən'enelərlə yanaşı, Ön Asiya me*marlığınm tə*siri de böyük rol oynamışdır. Monumental binalann, möhtəşəm müdafiə istehkamlarmın varlığı bu tə* sirlə bağlı olmuşdu.

Təsərrüfat həyatı. Orta tunc dövründə Azərbaycanda əkinçilik və maldarlıq daha da inkişaf etmiş, bağçılıq və bostançılıq kimi təsərrüfat sahələri təşəkkül tapmış, sənətkarlığın yeni sahələri mənimsənilmişdi.

^

Əmək alətlərinin təkmilləşdirilməsi, torpağın xışla şumlanması və bu işdə qoşqu heyvanlarından istifadə, taxılın yığılmasında' tunc oraqlann tətbiqi, taxılın daş vəl vasitəsilə döyülməsi - bütün bunlar orta Tunc dövründə məhsuldarlığın artmasına şərait yaratmışdı. Ən’ə- nəvi dəmyə əkinçiliyi ile yanaşı, sünM suvarmanın tətbiqi nəticəsində daha çox məhsul toplanırdı. Bu yeniliklərlə bərabər en’ənevi əkinçilik və e’mal alətlərindən, o cümlədən daş toxa, quraşdırma oraq, den daşı və süitgəc, hevengdəstədən və s. istifadə olunurdu. Daş vəllər öküz və ya ata qoşulurdu. Qobustan qayalannda həkk olunmuş rəsmlərdən birində taxıl biçini əks etdirilmişdir. Bu rəsm Tunc dövrünə aid edilir.

Taxıl ehtiyatı böyük ölçülü saxsı küplərdə saxlanırdı. Üzerliktəpə- də və Kültəpədə belə küplərdə arpa, buğda və dan qalıqları tapılmışdır. Bu tapıntılara əsasən məTum olur ki, orta Tunc dövründə Azərbaycanda arpa və buğdanın bir neçə növü becərilirmiş.

Azərbaycanda orta Tunc dövründə üzümçülüyün və şərabçılığın inkişafı Ozərliktəpə və Naxçıvan (Qarabağlar, 2-ci Kültepə) abidələrindən tapılmış üzüm dənələri və şərabçılıqda istifadə olunan alətlər (məsələn: daş məngənə) ilə sübut olunur. Şübhəsiz, bağçılığm başqa sahələri de inkişaf etmişdi.

Orta Tunc dövründə maldarlıq təsərrüfatın mühüm sahələrindən biri olmuşdur. Mal-qaranın sayı əvvəlki dövrlərlə müqayisəedilməz dərəcədə artmış, yanmköçəri və ya yaylaq maldarlığı yeni inkişaf

mərhələsinə qədəm qoymuşdu. Yaylaq maldarlığının geniş yayıldığı zonalarda qoyun-quzu apancı yer tuturdu. Lakin be"zi yerlərdə (məsələn, 2-ci Kültəpə) iribuynuzlu mal-qara sayca başqa heyvanlardan daha üstün idi. Bu dövrdə atçılığın da inkişafını sübut edən çoxlu qalıqlar tapılmışdır (Üzərliktəpə, 2-ci Kültəpə, Qaraköpektəpə, Üçoğlan, Göytepə və s.).

Qoyunçuluğun inkişafı ilə əlaqədar yun e'malı təkmilləşmiş və yun parçaların (təbii ki, kobud halda) istehsalı mənimsənilmişdi. Ovçuluq və balıqçılıq əvvəlki əhəmiyyətini itirsə də, yerli tayfalann həyatında köməkçi təsərrüfat sahəsi kimi mühüm rol oynayırdı.

Maldarlığın yüksək inkişafı əhalinin ət və süd məhsullarına tələbatını ödəməklə yanaşı, mübadilə üçün əlavə məhsul əldə olunmasına da şəmit yaradırdı. Bundan başqa, toxuculuq və dabbaqlığın ehtiyacım ödəmək üçün yun və gön-dəri tədarükü, qoşqu və minik vasitələrinin varlığı da heyvandarlığın müxtəlif sahələrinin inkişafı ile bağlı idi.

Sənətkarlıq. İkinci böyük ictimai əmək bölgüsü. Orta Tunc dövründə Azerbaycanda sənətkarlıq peşəkar sahəyə çevrilmişdi. Yaşayış yerlərində sənətkarlıq məhəllələrinin varlığı xususi sənətkar zümrələrinin formalaşması ilə bağlı olmuşdur. Bu dövrdə səvətkarlıq başqa təsərrüfat sahələrindən ayrılaraq müstəqil inkişaf edir. Sənətkarlıq məhsullarına artan tələbatı ödəmək üçün bu və ya diger sənət sahəsi ilə məşğul olan şəxs başqa işlərdən el çəkir, bütün diqqətini yalnız öz sənətinə verirdi. Cəmiyyətin həyatında mühüm rol oynayan ikinci böyük ictimai emək bölgüsü, sənətkarlığın bütün sahələrinin (dulusçuluq, metalişləmə, ağac və sümükişləme və s.) sür'ətle inkişafı nəticəsində baş vermişdi.

Bu dövrün sənət sahələri içərisində dulusçuluq xüsusilə fərqlənirdi. Dulus çarxından geniş istifadə edilməsi saxsı qablar istehsalında yeni mərhələ açmışdı. Dulus çarxının tətbiqi əmək məhsuldarlığının yüksəlməsinə və məhsul istehsalının intensivliyini artırmağa şərait yaradırdı. 2-ci Kültəpədə dulusçuluq məhəlləsi və mükəmməl quruluşlu dulus kürələri aşkar olunmuşdur. Qədim Kültəpədə fəaliyyət göstərmiş dulusçular bütövlükdə tayfanın tələbatını ödəməklə yanaşı, mübadilə üçün də məhsul istehsal edirdilər. Orta Tunc dövründə (Qa- raköpəktəpə, Üzərliktəpə, Borsunlu, Küdürlü, Əliköməktəpə) saxsı qabların quruluşu, üzərindəki naxışlann mürəkkəbliyi və estetik baxımı bu qablan peşəkar ustalann hazırladığını sübut edir. Qablann səthi müxtəlif həndəsi fiqurlar, məişət və kosmoloji süjetlərdən ibarət

kompozisiya, heyvan ve bitki aləmini əks etdirən səhnələrlə naxışlanmışdır. Orta Tunc dövründə Azərbaycanda monoxrom (bir rəngli) və polixrom (çox rəngli) boyalarla rənglənmiş qabların istehsalı geniş yayıldığından orta Tunc dövrü bə’zon «Boyalı qablar mədəniyyəti» adı ilə də tanınmışdır.

Bu dövrdə metallurgiya və metalişləmə sənətinin inkişafında yeni mərhələ başlanır. Orta Tunc dövründə arsen (mərgümüş) qatışıqlı tuncla bərabər qalaylı tuncdan da istifadə edilirdi. Lakin qalay qatışıqlı tunc daha keyfiyyətli və davamlı olması ilə fərqlənirdi. Belə qatışığa malik tuncdan hazırlanmış əmək alətləri və silahlar davamlığı və möhkəmliyi ilə seçilirdi. Tuncun tərkibinə qalaydan əlavə qurğuşun, sürmə və başqa aşqarlar da qatılırdı.

MəMumdur ki, Qafqazda qalay ehtiyatları yoxdur. Buna görə də yerli ustalar mübadilə yolu ilə başqa ölkələrdən gətirilmiş qalaydan istifadə etmişlər. Qəbul olunmuş ümumi müddəaya əsasən, qedim dövrlərdə Ön Asiya, habelə Azərbaycana qalay Cənub-Şərqi Asiya (Hindistan, Çin, Malayya) ölkələrindən gətirilmişdir. Son tədqiqatlar nəticəsində qalayın başqa yolla - Böyük Britaniya - İspaniya - Balkan yarımadası - Kiçik Asiya - Qafqaz estafeti yolu ilə alınması da müəyyənləşdirilmişdir.

Bu dövrdə metallurgiya sobaları təkmilləşdirilmiş, metalişləmədə ən’ənəvi döymə üsulu ilə yanaşı, ərintiləri xüsusi qəliblərə tökməklə müxtəlif mə’mulatlann hazırlanması, habelə lehimləmə və s. kimi yeniliklər tətbiq edilmişdir. Orta Tunc dövründə yüksək səviyyəli metalişləmənin mövcudluğu Küdürlü və Əliköməktəpənin varlı qəbir abidələrindən tapılmış metal əşyalarla da sübut olunur. Tuncdan hazırlanmış məişət əşyaları (qazan), əmək alətləri (biz, iskənə, yastı baltalar), silahlar (xəncər, ox və nizə ucluqlan, asimmetrik döyüş baltası), müxtəlif bəzək əşyaları yerli sənətkarların metalişləmənin incəliklərinə dərindən bələd olduğunu göstərir. Qızıl və gümüşdən hazırlanmış əşyalar zərgərlik işinin səviyyəsi haqqında təsəvvür yaradır. Qiymətli metallardan (qızıl, gümüş) bəzək əşyalannm hazırlanmasında zərbəiəmə, lehimləmə və s. kimi mürəkkəb texniki üsullar tətbiq edilirdi.

Toxuculuq, sümükişləme, dəri və gönişləme kimi sənət sahələri də xeyli inkişaf etmişdi. Şübhəsiz ki, bu dövrdə sadə toxuculuq dəzgahından istifadö olunurdu. Qoyunçuluğun inkişafı xammal ehtiyatlarının artmasına, bu isə öz növbəsində toxuculuğun inkişafına təkan

verirdi. Arxeoloji tədqiqatlar zamanı toxuculuqla əlaqədar çoxlu əmək alətləri (sümükdən əyircəklər, daraqvarı əşya, metal və sümükdən iynə, biz və s.), metal və keramika səthində toxuma izləri, həsir qalıqları və s. tapılmışdır. Toxucu sənətkarlar həm icmanın tələbatını ödəyir, həm də mübadilə üçün məhsul hazırlayırdılar.

Metallurgiyanın inkişafı ilə daşişləmə sənəti tədricən ikinci plana keçir. Lakin bu dövrdə, xususilə II minilliyin ilk əsrlərində daşişləmə sənəti müəyyən qədər öz mövqeyini saxlaya bilmişdi. Dəvəgözü və çaxmaqdaşmdan quraşdırma oraq lövhələr (Üzəriiktəpə), ox uclan (Əliköməktəpə, Küdürlü), mərmərdən daş toppuz ve balta (Əlikö-məktəpə) düzəldilirdi. Daş alətlər içərisində vəl, dən daşlan və sürt-gəclər, həvəngdəste ve s. xüsusi yer tutmuşdur.

Orta Tunc dövründə ovçuluq və balıqçılıq əvvəlki əhəmiyyətini itirsə də, köməkçi sahə kimi əhalinin həyatında müəj^'ən qeder yeri var idi. Arxeoloji tədqiqatlar zamanı tapılmış sümük qalıqları sübut edir ki, yerli əhali maral, ceyran, çöl donuzu, qulan ovlamış, çay və dənizkənarı zonalarda balıqçılıqla məşğul olmuşdu. Ovçuluqda müxtəlif Lizaqvuran silahlarla (ox, nizə) yanaşı, sapand, lələ (qarmaqdan) ve s. istifadə olunurdu.

İctimai quruluş və. dünyagörüşü. Məhsuldar qüvvələrin, təsərrüfatın bütün sahələrinin, sənətkarlığın inkişafı ilə cəmiyyətin sosial- ictimai və iqtisadi həyatında əsaslı dəyişikliklərə şərait yarandı. Orta Tunc dövründə əmlak və ictimai bərabərsizlik daha da dərinləşmiş, ibtidai icma quruluşunun əsaslan sarsılmış, böyük tayfa ittifaqları yaranmışdı. Tayfanın var-dövlətini qorumaq məcburiyyəti qarşısında böyük yaşayış məskənlərinin ətrafı müdafiə divan ilə möhkəmləndirilmiş (2-ci Kültəpə, Qaraköpəktəpə, Üzorliktəpə, Çinartəpə), müdafiə qalaları (Oğlanqala, Çalxanqala) tikilmişdi. Tayfa başçıları öz patriarxal ailələri, silahlı dəstələri, kahin və sərkərdələm ilə birlikdə yaşayış məskənlərinin narınqalasında (Çalxanqala, 2-ci Kültəpə) yaşayırdı. Əmlak və ictimai bərabərsizliyin varlığı həmin dövrün bə’zi abidələri ilə də sübut olunur. Küdürlü, Borsunlu, Şahtaxtı, Əli- köməktəpənin varlı qəbir abidələrində tayfa başçıları və ya tayfanın nüfuzlu üzvləri dəfn olunmuşdu. Təmtəraqlı dəfn mərasimi, zəngin qəbir avadanlığı (daş toppuz, döyüş baltaları, xəncər, ox və nizə ucu, qızıl və gümüş əşyalar və s.) yerli əhali arasında təbəqələşmənin varlığını göstərir.

Orta Tunc dövrü (e.ə. II minilliyin birinci yansı) bir çöx qədim Şərq ölkələrində sinifli cəmiyyətin yüksək inkişaf mərhələsinə təsadüf edir. Şərq ölkələrində, xüsusilə Ön Asiya ilə coğrafi yaxınlıq, habelə intensiv iqtisadi-mədəni əlaqələr qonşu Azərbaycana da öz tə'sirini göstərməyə bilməzdi. Əlimizdə həmin dövrün yazılı mənbələri olmadığı üçün ictimai-iqtisadi quruluşun xüsusiyyəti və səviyyəsi haqqında yalnız arxeoloji abidələr və maddi mədəniyyət qalıqları əsasında mülahizə yürütmək olur. Öyrənilmiş yaşayış məskənləri (2- ci Kültəpə, Üzərliktəpə, Çinartəpə və s.) və qəbir abidələri (Əlikö- məktəpə, Küdürlü, Şahtaxtı, Borsunlu və s.) Azərbaycanda orta Tunc dövründə ibtidai icma quruluşunun dağılması və sinifli cəmiyyətə keçid mərhələsinin başlanmasını sübut edir. Sənətkarlığın xüsusi sahə kimi ayrılması, yə'ni ikinci böyük ictimai əmək bölgüsünün baş verməsi sinifli cəmiyyətə məxsus əsas əlamətlər sırasına daxildir. Bu proses son Tunc dövründə en yüksək inkişaf səviyyəsinə çatır.

Orta Tunc dövründə ictimai-iqtisadi sahədə baş vermiş dəyişikliklər əhalinin dünyagörüşünə və ətraf aləmə münasibətinə tə'sir göstərmişdi. Dini görüşlər, astral təsəvvürlər qəbir abidələrinin quruluşunda (kromlex, kurqan), dəfn mərasimində (ölüyandırma, qəbir və ölünün oxra ilə boyanması, tayfa başçıları və kahinlərin təntənəli dəfn olunması, zəngin qəbir avadanlığı və s.) xüsusi ibadət binalarının varlığında, qayaüstü və maddi mədəniyyət nümunələrinin səthində hekl< olunmuş işarə, simvol, kompozisiyalarda əks olunmuşdur.

Orta Tunc dövrü Azerbaycanda qədim incəsənətin çiçəklənmə mərhələsidir. Saxsı qabların forma müxtəlifliyi ilə yanaşı, onların səthində çəkilmiş naxışlar (həndəsi, nəbati) qədim rəssamların bədii təfəkkürünü nümayiş etdirir. Qobustan (Böyükdaş, Yazılitepə və s.), Gəmiqaya və Kəlbəcərin qayaüstü rəsmlərində heyvanat aləmi, məişət və ov səhnələri, əyləncə və magiya (şamanhq) təsvir olunmuşdur.

İqtisadi-mədəni əlaqələr. Orta Tunc dövründə yerli əhali ətraf aləmlə mədəni-iqtisadi əlaqələrin yeni inkişaf mərhələsinə qədəm qoymuşdu. Qonşu Qafqaz tayfalan və Ön Asiyanın qabaqcıl mədə-' niyyət mərkəzləri ile sıx mədəni-iqtisadi əlaqələr saxlanır, həm hazır məhsul (boyalı qablar, bəzək nümunələri), həm de xammal mübadiləsi edilirdi. Ön Asiya ölkələri ilə ünsiyyət me'marlığın təşəkkülünə səbəb olmuşdu. Bu baxımdan Naxçıvan zonası xususile fərqlənir. Coğrafi mövqeyi ilə Ön Asiyada Hett, Mitanni, Assuriya kimi qədim mədəniyyət izləri ilə daha çox bağlı olan Naxçıvan, şübhəsiz ki, e.ə.

II minilliyin tarixi hadisələrində yaxından iştirak etmişdir. Naxçıvanda qedim mədəniyyət mərkəzlərinə bənzər yaşayış məskənlərinin (2-ci Kültəpə, Oğlanqala və s.) varlığı da bununla əlaqədardır. Qarabağın Üzerliktəpə, Göytepə, Çinartepe və s. kimi irihəcmli yaşayış məskənləri də strukturuna görə Naxçıvanın həmin tip abidələri sırasına daxildir.

## § 7. AZƏRBAYCAN SON TUNC VƏ tLK DƏMİR DÖVRÜNDƏ *{E.Ə, XIV -Vm əsrlər)*

Son Tunc dövrü e.e. XIV-X əsrləri (be’zi yerlərdə XIV-XII əsrlər) əhatə edir. Bu dövrə be’zən son Tunc və ilk Dəmir dövrü deyilir. Bütövlükdə son Tunc və ilk Demir dövrü e.e. XIV-VIII əsrləri əhatə edir. Arxeoloji tədqiqatlar nəticəsində müəyyənləşdirilmişdir ki. Azərbaycanda ilk dəmir alətlər e.ə. II minilliyin axıdan və I minilliyin əvvəllərində meydana gəlmişdir.

Son Tunc və ilk Demir dövrü bir sıra xüsusiyyətlərilə əvvəlki tarixi mərhələlərdən əhəmiyyətli dərəcədə fərqlənirdi. Cəmiyyətin obyektiv inkişaf qanunauyğunluğu ilə əlaqədar olaraq məhsuldar qüvvələrin, təsərrüfatın bütün sahələrinin, xüsusilə sənətkarlığın o vaxta qədər görünməmiş sür'ətlə inkişafı ictimai quruluşda əsaslı dəyişiklik yaratdı. Hələ erkən Tunc dövründə yaranmağa başlayan tayfa ittifaqları yeni ictimai-iqtisadi şəraitdə daha da güclənir, ibtidai icma quın- luşunun əsasları dağılır, sinifli cəmiyyət formalaşırdı.

Son Tunc və ilk Dəmir dövründə (e.e. XIV-VIII əsrlər) Şimali Azerbaycan ərazisində çox böyük etnik (arxeoloji cəhətdən dərindən öyrənilmiş, lakin obyektiv səbəblər üzündən adı belli olmayan) birləşmələrin ictimai-iqtisadi və siyasi həyatını əks etdirən bir neçə arxeoloji mədəniyyət öyrənilmişdir. Onlar aşağıdakılardır:

Xocalı-Gədəbəy mədəniyyəti; Talış-Muğan mədəniyyəti; Naxçıvan mədəniyyəti.

Xocalı-Gədəbəy mədəniyyəti. *{E.ə. XIV--VIII əsrlər).* Ərazicə Kiçik Qafqaz və Kürün sağ sahil zonasını əhatə edir. Gəncə-Qarabağ mədəniyyəti kimi də bəlli olan bu mədəniyyətə aid ilk arxeoloji abidələr XIX əsrin axırlannda Xocalı və Gədəbəy yaxınlığında tədqiq olunmuş və öyrənilmişdir. Sonralar Xocalı-Gədəbəy mədəniyyətinə aid abidələr Qarabağda (Ballıqaya, Dovşanlı, Axmaxı, Şuşa, Bor-

sunlu, Sarıçoban Bəyimsarov, Üçtəpə, Qaratəpə və s.), Gənceçay hövzəsində, Mingəçevir, Daşkəsən, Gədəbəy və Qazax bölgələrində müəyyən edilmişdir.

Xocalı-Gədəbəy mədəniyyətini xarakterizə edən abidələr müxtəlif tip qəbir (daş qutu, torpaq qəbri, kurqan və kromlexler^^ və yaşayış məskənlərindən ibarətdir. Yaşayış məskənləri sırasına ətrafı möhkəmləndirilmiş (Qaratəpə, Misir qışlağı), mövsümü xüsusiyyəti! (Üçtəpə), ətrafı hasarsız yaşayış məskənləri (Bitdili, Sarıtəpə, Xanlar, Mingəçevir, Şəkercik, Zərgertəpə və s.), habelə siklop^^ tikililəri (Daşkəsən, Gədəbəy) adı ilə mə'lum olan qalaçalar daxildir.

Xocalı - Gədəbəy mədəniyyətinə aid qəbir abidələri daha ətraflı öyrənilmişdir. Burada kremasiya və inqumasiya^^, kollektiv və tək, bükülü və ya uzadılmış vəziyyətdə, bə'zən parçalanıb hissələrə bölünmüş halda dəfnetınə kimi müxtəlif adətlər mövcud olmuşdur.

Saysız-hesabsız maddi mədəniyyət nümunələri içərisində tuncdan təbərcin ve ya yastı baltalar, dəstəyi şəbəkəli, bəzəkli xəncər və qılınclar, yabalar, qaytarğanlı at cilovlan, sallaq qanadlı ox və yarpaq şəkilli nizə uclan, kəmərlər, quş fiqurlan, saysız-hesabsız bəzək əşyaları (tuncdan qolbaq, üzük, sırğa və s., əqiq, şüşə, sümük, metal, misir pastasından muncuqlar) daha geniş yayılmışdır. Bu mədəniyyətin son inkişaf pilləsində (e.ə. II minilliyin axırı və I minilliyin əvvəlində) meydana gələn dəmir alətlər formaca əsasən tunc mə'mu- latım təkrar edir.

Xocalı-Gədəbəy mədəniyyətinin keramika mə'mulatı dulus çarxında hazırlanmış qara və boz cilalı müxtəlif qab nümunələrindən (küpə, küp, xeyrə, cam, çölmək və s.) ibarətdir. Əsas fərqləndirici xüsusiyyətlərdən biri qablann üzərinə həndəsi, nəbati, antropomorf və zoomorf (insan və heyvan) naxışlann ağ rəngli xüsusi maddə ilə mina-lanmasıdır. Diqqəti cəlb edən başqa bir əlamət saxsı qab nümunələrində qulpdan əlavə «göbələkvan çıxıntı»nın da olmasıdır.

Kromlex - bretan dilində «krom» - dairə, «lex» - yer deməkdir, yə'ni dairəvi yer.

Şİklop - qədim yunan əsatirlərində qeyri-adi gücə malik təpəgözlər. Rəvayətə görə, əski dövrlərdə böyük ölçülü daş bloklardan hörülmüş qalaları həmin «sikioplar» tikmişlər. Buna götə də belə qalalar «siklop tikililəri» adlanır.

Kremasiya - ölüyandırma, inqumasiya - adi dəfnetməyə deyilir.

Xocalı-Gədəbey mədəniyyəti Qarabağ, Gədəbəy (Gədəbəy, Daşkəsən, Şamxor, Qazax abidələri) və Gəncə-Xanlar kimi üç böyük qrupa bölünür. Bu qruplardan hər biri yerli şəraitlə bağlı fərqləndirici xüsusiyyətlərə malikdir.

Xocalı-Gədəbey mədəniyyəti tayfaları əkinçilik və yaylaq maldarlığı ilə məşğul olmuşlar. Atçılıq və dəvəçilik təsərrüfat həyatında mühüm yer tutmuşdu. Sənətkarlıq, metallurgiya və metalişləmə yüksək səviyyədə inkişaf etmişdir. Tayfalararası və başqa erazilərlə müntəzəm iqtisadi-mədəni əlaqələr saxlanılmışdır.

Talış—Muğan mədəniyyəti *{E.ə. XIV - VII əsrlər).* Talışın dağlıq zonası, Cənubi Muğan və Lənkəran düzənliyində yayılmışdır. İlkin arxeoloji qazıntılar XIX əsrin axırı və XX əsrin əvvəllərində dağlıq zonada, 60-80-ci illərdə isə dağlıq zona ile yanaşı, Lənkəran düzənliyi və Muğanda aparılmışdır. Bu mədəniyyət başlıca olaraq qəbir abidələri (kurqan, daş qutu, dolmen^^ tipli sərdabələr) əsasında Öyra- nilmişdir.

Qəbir abidələri dağlıq zonada (Həsən Zəmini, Ağaevlər, Xoca Davudkörpü, Veri və s.) daha çoxdur. Lənkəranın dağətəyi və düzənlik hissəsində dağlıq zona üçün səciyyəvi olan daş qutu və sərdabələrlə (Sığın) yanaşı, torpaq qəbirlər (Divəlona) və kurqanlar da geniş yayılmışdır. Muğan düzənliyində torpaq qəbirləri (Uzuntəpə, Boyan- lıq) və kurqanlar üstünlük təşkil edir. Nəzərə çarpacaq bu müxtəliflik coğrafi təbii mühit və tarixi ən’ənələrlə bağlı olmuşdur. Lakin bu xüsusiyyətlərə baxmayaraq həm dağlıq, həm də düzənlik zona abidələrində, dəfn mərasimində və avadanlığın tərkibində əsasən ümumilik var. Talış-Muğan mədəniyyətinin fərqləndirici əlamətləri sıra- sıra arxeoloji abidələrin tipləri və dəfn mərasimi ilə yanaşı, xüsusi quruluşlu (yəhərvarı dəstəkli, relyefli, aypara bəzəkli) tımc qılınc və xəncərlər (o cümlədən «Ön Asiya» tipli), yastı baltalar, o;^ və nizə uclan, qiymətli daşlardan və qızıldan bəzək əşyaları, silindrik möhürlər, qara cilalı saxsı qablar və s. də daxildir. E.ə. II minilliyin sonu -1 minilliyin əvvəllərindən demir alətlərin istehsalı başlanır.

Talış-Muğan mədəniyyəti tayfaları əkinçilik (düzənlik və qismən dağətəyi hissədə) və maldarlıqla (dağlıq hissədə) məşğul olmuşlar. Sənətkarlıq, xüsusilə metallurgiya və metalişləmə inkişaf etmiş, əmlakçılıq və sosial bərabərsizlik dərin kök salmışdı.

35 Daşla hörülmüş yerüstü qəbir.

Azerbaycanın son Tunc və ilk Dəmir dövrü mədəniyyətinin ümumi tərkib hissəsi olan bu zona həm qonşu tayfalar (xüsusilə Xocalı- Gədəbəy mədəniyyəti tayfaları, Qobustan-Abşeron, habelə Quba- Xaçmaz zonası ilə), həm də Ön Asiyanın qabaqcıl mədəniyyət ocaqları (İran, Assuriya, Suriya-Fələstin, Hett dövləti və s.) ile sıx əlaqələr saxlamışdır.

Naxçıvan mədəniyyəti *(E.ə. II minillik və I minilliyin əvvəli).* Naxçıvan MR erazisində yayılmışdır. Bu mədəniyyətə aid abidələr ilk dəfə 1895-ci ildə aşkar olunmuşdur. XX əsrin 20-30-cu və 50-80- ci illərində Naxçıvan mədəniyyəti ilə bağlı onlarca arxeoloji abidə araşdırılmışdır.

Naxçıvan mədəniyyəti orta Tunc dövründə formalaşmış, son Tunc və ilk Demir dövründə yüksək inkişaf səviyyəsinə çatmışdı.

Çox böyük sahəli (bə’zen 30-40 hektara qədər), ətrafı müdafiə hasarlı, Nannqalası olan yaşayış məskənlərinin (Kültəpə, Oğlanqala, Çalxanqala, Qarabağlar və Şahtaxtı, Govurqalası, Qalaçıq, Damlama və s.) varlığı bu mədəniyyəti fərqləndirir.

Naxçıvan mədəniyyətində monoxrom^^ və polixrom^^ boyalı saxsı qablar (küpə, cam, bəmi və xüsusilə «çayniklən>) çoxluq təşkil edir. Onu Xocalı-Gədəbəy mədəniyyəti ilə yaxınlaşdıran xüsusiyyət- . ler də az deyil. Bu yaxınlıq dəfn mərasimi, qəbir abidələrinin tipləri, ' həm də arxeoloji avadanlıq, xüsusilə də metal əşyaların oxşarlığında aydın görünür. Qəbir abidələri daş qutular, torpaq qəbirləri, kromlex və kurqanlardan ibarətdir.

Naxçıvan medennyyəti tayfaları əkinçilik və maldarlıqla, habelə sənətkarlığın bir çox sahələri ilə məşğul olmuşlar. Dulusçuluq, metallurgiya və metalişləmə, toxuculuq, me’marlıq yüksək inkişaf etmişdir.

Yaxın Şərqin qabaqcıl mədəniyyət mərkəzləri ilə coğrafi yaxınlıq Naxçıvan mədəniyyəti tayfalarının heyatma çox böyük tə*sir göstərmiş, burada erkən şəhər mədəniyyəti və sinifli cəmiyyətin ünsürləri daha tez meydana gəlmişdir.

Göstərilən mədəniyyət nümunələri ilə yanaşı, Azərbaycanın Qobustan-Abşeron, Quba-Xaçmaz və Şəki-Zaqatala zonalarında da bu dövrün mədəniyyət izləri öyrəni Imişdnr. Bunların içərisində Abşeron (Ağdaş düzü, Bəndovan və s.) abidələri xüsusilə seçilir. Qobustan,

Monoxrom - «bin'əngli». 3”^ Polixrom - «çoxrəngli»

Kəlbəcər və Gəmiqaya qayaüstü rəsmlərinin xeyli hissəsi də bu dövrə aiddir.

Şimali Azərbaycanın e.ə. VII - V əsrlər dövrü tarixini əks etdirən bir sıra arxeoloji abidələr də tədqiq olunmuşdur. Bunların içərisində Mingəçevirin e.ə. VII - V əsrlərə aid toıpaq qəbirləri, Şamxor nekropolu^® (Şamxor SES), Mil düzündəki «Kiçik kurqan», Beyləqan rayonundakı Qaratəpə kompleksi və Aşıqlı nekropolu, habelə bir çox başqa abidələr mühüm yer tutur. Bu dövrə arxeoloji ədəbiyyatda «inkişaf etmiş dəmir dövrü» və ya «dəmirdən geniş istifadə dövrü» də deyilir. Həmin dövrdə demir həm məişət, həm təsərrüfat, həm də hərbi işdə başqa materialları sıxışdırıb aradan çıxannışdır.

Təsərrüfat sahələri. Son Tunc və ilk Dəmir dövründə əkinçilik və maldarlığın sür’ətlə inkişafı, habelə sənətkarlığın yüksəlişi və bun- lann əsasında tayfalararası əlaqələrin daha da genişlənməsi nəticə e’tibarilə Azərbaycanda ictimai inkişafın nisbətən yüksək pilləsinə keçməsi üçün şərait yaratdı.

Bu dövrdə əkinçilik yeni inkişaf mərhələsi keçirirdi. Əmək alətlərinin, birinci növbədə torpağın şumlanmasında istifadə olunan alətlərin (xışın) təkmilləşməsi, ye’ni əkin sahələrinin yararlı hala alınmasında tunc və daha sonra demir alətlərdən istifadə, taxılın biçilməsində tunc orağın tətbiqi və s. əkinçilikdə məhsuldarlığı artırmağa imkan verən amillərdən idi. Əkin sahələri genişləndirilir, məhsulun becəriUnəsi, toplanması və e’malı işi yaxşılaşdırılırdı. Torpağın şumlanmasında qoşqu qüvvələrindən (at, öküz) geniş istifadə olunurdu.

Taxılın döyülməsində orta Tunc dövründə daş vəllərlə (Xankəndi, Dolanlar, Naxçıvan) yanaşı, mükəmməl quruluşlu taxta vəl də tətbiq edilirdi (Xanlar, 2 №-li kurqan).

Metallurgiyanın inkişafı ilə əmək alətlərinin təkmilləşməsi də böyük rol oynamışdı. Tuncdan hazırlanmış oraqlardan (Gədəbəy, Xaçbuiaq) istifadə əmək məhsuldarlığını müqayisəedilməz səviyyəyə yüksəltmişdi. E.ə. I minilliyin birinci yarısında dəmir oraqlar (Mingəçevir) daha geniş şəkildə yayılmışdı.

Taxıl ehtiyatı böyük ölçülü küplərdə (Santəpə, Bitdili, Mingəçevir, Qaratəpə və s.) və xüsusi quyularda saxlanırdı. Qazax rayonundakı Santəpə yaşayış yerində böyük ölçülü küplərin içərisində un qalığı və taxıl dənələri tapılmışdır. Dənin döyülməsində işlədilən

Yunanca nekros - «ölü», polis - «şəhər», yo’ni «ölülər şəhəri». Qədim dövr qəbiristanlığını bildirmək üçün işlədilən məfhumdur.

dairəvi dən daşlan əsasında sonraiar əl dəyinnanları (kirkirə) meydana gəldi.

Azərbaycanın təbii coğrafi şəraitindəki müxtəliflik ayn-ayrı zonalarda əkinçiliyin inkişafına öz təfsirini göstərməyə bilməzdi. Dağlıq və dağətəyi zonalarda dəmyə əkinçiliyi, düzənlikdə, çay vadilərində isə sün*i suvarmadan istifadə olunur, müxtəlif kanal sistemləri, quyu və kəhrizlər insanlann dadma çatırdı. Naxçıvanda, Şərur düzündə Qarabağlar. Şahtaxtı, Damlama, Qarabağda Vəlitəpə, Şamxorda Keçili və s. abidələr yerləşən sahələrdə qədim suvanua izlərinin varlığı müəyyənləşdirilmişdir. Qarabağ düzənliyində indiyə qədər mövcud olan kəhriz sistemləri də çox qədim tarixə malikdir. Sün'i suvarma sayəsində taxılçılıqla yanaşı, bağçılıq və bostançtlıq kimi mühüm əkinçilik sahələri geniş inkişaf tapırdı. Xanlar rayonunda son Tunc dövrünə aid 1 №-li yaşayış yerində badam, gilas, nar, şaftalı toxumları, üzüm dənələri tapılmışdır. Badam toxumlarına e.ə. XI - X əsrlərə aid Beyimsarov kurqanında da təsadüf olunmuşdur.

Son Tunc və ilk Dəmir dövründə maldarlıq təsərrüfatın ən mühüm sahəsinə çevrilmişdi. Xanlar, Şamxör, Sarıtəpə, Mingəçevir, Borsun- lu, Sançoban və başqa abidələrdən tapılmış sümük qalıqlarına əsasən xırdabuynuzlu heyvanların sayca üstünlük təşkil etməsi müəyyənləşdirilmişdir.

Qoyunçuluqla yanaşı, iribuynuzlu mal-qaranın inkişafına xüsusi diqqət verilir, həm ət və süd məhsullan əldə edilir, həm də onlardan qoşqu vasitəsi kimi istifadə edilirdi. Yer şumlanmasında, ağac və yem ehtiyatı daşınmasında geniş istifadə olunurdu.

Xocalı, Borsunlu, Bəyimsarov, Sançoban, Sarıtəpə, Üçtepə abidələrində iribuynuzlu heyvanların sümüklərinə daha çox təsadüf olunmuşdur. Mingəçevir materialları əsasında bu dövrdə iribuynuzlu mal- qaranın bir neçə növünün olması müəyyənləşdirilmişdir.

Son Tunc və ilk Dəmir dövründə atçılıq heyvandarlığın əsas sahələrindən birinə çevrilmişdir. Azərbaycan atçılığın təşəkkül tapdığı ən qədim ölkələrdəndir. Atdan təkcə minik vasitəsi kimi deyil, habelə yük və qoşqu vasitəsi kimi de istifadə olunurdu.

Atçılığın inkişafı ilə at totemi, ata sitayiş kimi yeni ünsürlər meydana çıxırdı. Tayfa başçılarına və üzvlərinə məxsus zəngin qəbir abidələrində Qarabağ (Boi'sunlu, Bəyimsarov, Sançoban, Xocalı, Dovşanlı, Ballıqaya), Gəncə, Naxçıvan (Şahtaxtı), Mingəçevir, Xaçbulaq, Talış kurqanlannda böyük təmtəraqla müşayiət olunan at dəfninə tez- tez təsadüf olunması da bununla bağlıdır.

Bu dövrdə heyvandarlığın yeni sahələrindən olan dəvəçilik təşəkkül tapmışdır. Südü, yunu, əti həmişə yüksək qiymətləndirilən dəvənin dözümlüyü və daha çox yükgötürmə qabiliyyətinə malik olması ondan köç vaxtı, habelə uzaq səfərlər zamanı daha səmərəli istifadə etməyə imkan verirdi. Azərbaycanda son Tunc dövründə dəvəçi- liyin inkişafı arxeoloji tapıntılarla (Qarabulaq, Xanlar, Mingəçevir kurqanları, Daşlitəpə siklop tikintisi, Naxçıvan abidələri və s.) da sübut olunur.

Sənətkarlığın inkişafı. Son Tunc və ilk Dəmir dövründə Azərbaycanda sənətkarlıq yüksək inkişaf etmişdi. Orta Tunc dövmndə baş vermiş ikinci böyük ictimai əmək bölgüsü sənətkarlıqda əsaslı dəyişikliklər üçün zəmin yaratdı. Sənətkarlığın mə’nəvi növlərinin təkmilləşməsi ilə yanaşı, yeni sahələr yaranır, sənətkarların təbəqələşməsi başlanır. Onların içərisindən peşəkar tacirlər, yaxud sənətkar tacirlər zümrəsi ayrılır. Bu təbəqə sənətkarlığın bu və ya digər növü ilə məşğul olmaqdan daha çox hazır məhsulların satışı ilə məşğul olurdu. Sənətkarlıqda baş verən təbəqələşmə, ticarətlə məşğul olan qrupların yaranması əslində üçüncü emək bölgüsü, başqa sözlə, tacir, alverçi zümrələrin sənətkarlıqdan ayrılması yolunda mühüm addım idi. Lakin bu proses uzun inkişaf yolu keçmiş və sonrakı tarixi dövrdə formalaşmışdır.

Sənətkarlıqda peşə bölgüsünün təşəkkülü ayrı-ayn sənət sahələrinin mükəmməlləşməsinə, əmək məhsuldarlığının yüksəlişinə şərait yaratdı. Başqa sahələrdən, xüsusilə məhsulun istehlakçılara çatdırılmasından azad olmuş sənətkar, məhsulun kəmiyyəti ile yanaşı, onun keyfiyyətinə xüsusi diqqət verir, alıcıların tələbatını daha dolğun ödəyə bilirdi.

Bu dövrün sənət sahələri içərisində dulusçuluq xüsusilə seçilirdi. Mükəmməl qunıluşlu, ayaqla hərəkətə gətirilən dplus çarxının tətbiqi ilə saxsı qab istehsalı yüksək inkişaf səviyyəsinə çatır. Qablann çeşidləri genişlənir, işlənəcəyi sahədən asılı olaraq onun quruluş və gözəlliyinə diqqət artırılırdı.

Taxıl ehtiyatı və başqa məhsullar üçün olan nəhəng küplərlə yanaşı, ərzaq, süd məhsullarını saxlamaq və e’mal etmək üçün qab növləri (bərni, cam, xeyrə, çölmek, nehrə və s.), təsərrüfat və məişətdə işlədilən külli miqdarda müxtəlif dulusçuluq me’mulatı tapılmışdır. Saxsı qablann səthi sığallanmış, pardaqlanmış, həndəsi, nəbati naxışlarla, məişəti və dini görüşləri əks etdirən süjetlərlə bəzədilmişdir. Gənceçay vadisi sənətkarları saxsı qabların səthini bəzəyən naxışlan

xüsusi tərkibli ağ maddə ilə inkrustasiya (minalama) etməyin sinini uzun müddət qoruyub saxlaya bilmişlər. Mingəçevir dulusçulan zoomorf qablar, Qarabağ ustalan qara cilalı, həndəsi naxışlı qablar, Naxçıvan dulusçulan monoxrom və polixrom boyalı qablar hazırlamaqda mahir idilər. Qobustan-Abşeron ustalan isə yerli şəraitə uyğun saxsı qab nümunələri hazırlayırdılar.

Mingəçevir, Kültopə, Bitdili və Babadərviş yaşayış yerlərində ikiqatlı, texniki imkanlan ilə əvvəlki dövr kürələrindən fərqlənən dulus kürələri qalıqları tapılmışdır. Bu kürələrdə bişirilmiş saxsı mə’mulatı davamlılığı ilə fərqlənirdi.

Son Tunc və ilk Dəmir dövründə metallurgiya və metalişləmə sahəsində köklü dəyişikliklər baş vermişdi. Talış, Qarabağ, Gədəbəy, Balakən filiz yataqları bu dövrdə daha intensiv istismar olunurdu. Metalla işləyən sənətkarlar yüksək keyfiyyətli tunc ərintisi almaq işini daha da təkmilləşdirmişdilər. Filizəritmə sobalarında (Mingəçevir) yeni texnoloji üsulların tətbiqi ile təmiz metal ərintisi alınırdı. Misin tərkibinə arsen (mərgümüş), sürmə, qurğuşun, habelə qalay aşqarlan qatılmaqla davamlı metal alınırdı. Bu da tuncdan davamlı əmək alətləri, silah nümunələri, at əsləhələri, bəzək əşyalan istehsal etməyə imkan verirdi. Metallurgiya və metalişləmənin müvəffəqiyyətinə yerli filiz ehtiyatlarının mövcudluğu müsbət tə’sir göstərmişdi. Bu dövrdə müxtəlif silah növləri (tebərzin və yastı baltalar, ox ucu, nizə, qılınc və xəncərlər), əmək alətləri (oraq, isgənə, iynə, biz, xış ucu, bıçaq və s.), bəzək əşyaları (kəmər, hemayil, qolbaq, sırğa, üzük, muncuq, düymə və s.), at əsləhələri (cilov, kəm, qaytarğan) kimi mə’mulatların kütləvi istehsalı qaydaya salınmışdı. Arxeoloji tədqiqatlar zamanı göstərilən tunc əşyaların çoxlu nümunələri tapılmışdır.

Metalişləmə ustaları bu və ya digər mə'mulatı hazırlamaq üçün mum, daş və odadavamlt gildən düzəldilmiş xüsusi qəliblərdən istifadə edirdilər. Qəlibdən çıxmış mə’mulat üzərində çox vaxt əlavə tamamlama işləri aparmaq lazım gəlirdi. Arxeoloqlar dəfələrlə müxtəlif xarakterli metal əşyalar hazırlamaq üçün nəzərdə tutulmuş qəliblər (Şamxor, Gədəbəy, Mingəçevir) tapmışlar.

Metal əşyaların hazırlanmasında müxtəlif texniki üsullar, o cümlədən zərbetme, oyma, lehimləmə, qaynaqlama, həkketmə və s. tətbiq olunurdu. Müxtəlif metallardan istifadə ilə minalama tətbiq olunurdu. Qarabulaq və Borsunlu kurqanlarından fıl sümüyü, qızıl, gümüş və tuncdan istifadə ilə hazırlanmış bəzək əşyalan tapılmışdır.

Toxuculuq sənətkarlığın mühüm sahələrindən birinə çevrilmişdi. Toxuculuq alətlərinin (əyircək, iy uçu, biz) təkmilləşməsi və xammal (qoyun və dəvə yunu, keçi tiftiyi) tədarükünün artması, habelə bu sahə ile bağlı əmək vərdişlərinin təkmilləşməsi nəticəsində əhalinin toxuculuq məhsullarına olan tələbatı daha da yaxşı ödənilirdi. Toxıı- culuqla bağlı əmək alətlərindən başqa yun və kətandan hazırlanmış parça qalıqlarının, toxuma izlərinin (Mingəçevir, Borsuiılu, Sançoban və s.) tapılması da toxuçuluğun inkişafını sübut edir.

Tuncdan və onun ardınca dəmirdən istifadə yüksək inkişaf mərhələsini keçirsə də bu dövrdə daşişləmə sənəti bir çox sahələrdə hələ öz əhəmiyyətini saxlamışdı. Taxılın biçilməsi, sünbüldən ayrılması, un üyüdülməsi kimi sahələrdə daş alətlər hələ də mühüm yer tutur. Daş- işləmədə yeni sahələr də meydana gəlmişdi. Əqiq, mənnər və başqa daş növlərindən əşyalar (muncuq, sırğa, üzük qaşları), habelə toppuz, yüksək bədii gözəlliyə malik qablar hazırlanır, daş muncuqların deşilməsi, yonulub pardaqlanması işi yüksək səviyyədə aparılırdı.

Sənətkarlığın sümükişləmə və ağac e’malı sahələrində də dönüş yaranmışdı. Əgər əvvəlki dövrlərdə (Eneolit, ilk və Orta Tunc) sümükdən, əsasən, şum aləti (toxa), biçin, dəri aşılanmasında, toxuculuq və s. sahələrdə tətbiq olunan alətlər hazırlanmasında daha çox istifadə olunurdusa, son Tunc döviiində əsasən bəzək əşyaları, incəsənət nümunələri hazırlanırdı. Sümükişləmənin inkişafı metal alətlərin təkmilləşməsi ilə sıx bağlı olmuşdur. Yalnız metal alətlərin köməyilə sümük lövhələr üzərində incə cizgilər, naxışlar, bütöv kompozisiyalar yaratmaq mümkün olurdu. Xocalı-Gədəbəy mədəniyyəti abidələrinin əksəriyyətində (Xocalı, Gəncə, Borsunlu, Sançoban, Mingəçevir, Qarabulaq və s.) tapılmış sümük əşyalar bədii dəyəri ilə xeyli fərqlənirdi. Borsunluda tapılmış at qaytarğanlarının səthi insan təsviri ilə bəzədilmişdi.

Bu dövrdə ağacişləmə, dəriaşılama, dabbaqlıq kimi sənət sahələri də inkişaf etmişdi. Ağacdan araba hazırlanmasında (Kültəpə və Santəpədən tapılmış təkər modelləri, Mingəçevirdən tapılmış gil araba modelləri və s.), ox və nizə, qılınc və xəncər dəstəyinin bərkidilməsində, oraq və bıçaq dəstəyi hazırlanmasında, qəbirlərin örtülməsində və bir çox başqa sahələrdə istifadə olunurdu.

Gön-dəri me’mulatına aid olan tələbat genişləmənin tərəqqisi üçün geniş imkanlar açmışdı. Dərinin aşılanması işi təkmilləşdirilir, ayaqqabı, at esləhələri, yeyinti və süd məhsullan üçün tuluq, torba və

s. tikilirdi. Sançoban, Borsunlu və Mingəçevir kurqanlarında genişləmənin varlığını sübut edən çoxlu materiallar tapılmışdır.

Son Tunc və ilk Dəmir dö,vı-ündə ovçuluq və balıqçılıq, habelə yığma işi əvvəlki əhəmiyyətini itirmiş və köməkçi təsərrüfat sahəsinə çevrilmişdi. Bu dövrün yaşayış məskənlərində (Mingəçevir, Qara- təpə) tapılmış heyvan sümüklərinin bir hissəsi vəhşi ov heyvanlarına aiddir. Onların içərisində ceyran, maral, vəhşi qaban üstünlük təşkil edirdi. Quş ovu da xüsusi yer tuturdu. Ovçuluqda uzaqvuran silahlarla (ox, yay, nizə) yanaşı, tələ qurmaq üsulundan da istifadə edilirdi. Balıqçılıqda tunc və dəmirdən hazırlanmış qarmaqlar, habelə tor və s. tətbiq olunurdu. Mingəçevir yaşayış yerində balıqçılıqla bağlı alətlər və bir neçə balıq sümükləri tapılmışdır. Meyvələrin (cır üzüm, əncir, nar, badam və s. ) toplanması ilə məşğul olan əhali ərzaq ehtiyatını tam tə'min etmək üçün təbii ne'mətlərə üstünlük vermişdir. Arxeoloji tədqiqatlar zamanı çoxlu cır meyvə toxumlarının tapılması (Xanlar, Bəyimsarov və s.) bunu sübut edir.

Tikinti işi və incəsənət. Bu dövrdə tikinti işi və tikinti texnikası daha da təkmilləşdirilmişdi. Evlər düzənlik zonasında daş özül üzərində çiy kəıpicdən, dağlıq və dağətəyi zonalarda çay daşı və qaya parçalarından tikilirdi. Bu döviün evləri və teseiTüfat tikililəri düzbucaqlıdır. Evlər çox halda bir neçə otaqdan, vahid dəstdən ibarət olmuşdur (Xanlar). Yaşayış yeri ətrafında qalın (4 m) müdafiə divarının (Ağdam, Qaratəpə) tikilməsi bu dövr me'marlığında mühüm dəyişikliyin meydana gəlməsini göstərir. Həmin dövrün siklop tikililəri (böyük ölçülü qaya parçalarından hörülmüş qalaçalar) və möhtəşəmliyi ilə diqqəti cəlb edir. Naxçıvan siklop tikililəri səliqə ilə yonulmuş böyük daş bloklardan, Daşkəsən və Gədəbəy zonasının tikililəri isə yonulmamış qaya parçalarından hörülmüşdü. Tikinti texnikasında qazanılmış vərdişlər Azərbaycanda sonrakı şəhərsalma, istehkam və qalaların inşası işində böyük rol oynamışdı. İbtidai me'marlıqda əldə edilmiş bu yeniliklər Azərbaycanda tikinti sənətinin, incəsənətin bu sahəsinin yüksək inkişafını göstərir.

İncəsənətin başqa sahələri içərisində metalişləmə, xüsusilə ilkin torevtikamn (metalın bədii işlənməsi) təşəkkülü müəyyən yer tuturdu. Metalişləmə ustaları döymə, lehimləmə, minalama kimi texniki vərdişləri daha da təkmilləşdirməklə qiymətli bəzək əşyalan, silah, kəmər və fil sümüyü, qızıl, sədəf, gümüş, mənnər, tunc və s. metallardan istifadə etməklə müxtəlif bəzək nümunələri düzəldirdilər (Qarabulaq, Boı-sunlu, Sançoban). Son Tunc dövrü saxsı qablarının

səthini bəzəyən süjetlər, bundan başqa bədii, həndəsi və ətsanevi süjetlərlə bəzədilmiş kəmərlər qedim Azərbaycanın incəsənət nümunələridir. Qobustan, Kəlbəcər və Gəmiqaya qayaüstü rəsmlərinin xeyli hissəsi son Tunc və ük Dəmir dövrü «rəssamlarının» əli ile həkk olunmuşdur. Bu dövrün incəsənət nümunələri qədim əcdadlanmızın bədii təfəkkürünün, ətraf aləmi dərketmə və onu bədii cəhətdən əks etdirmə qabiliyyətinin daha da inkişaf etdiyini göstərir.

Dünyagörüşü. Son Tunc və ilk Dəmir dövründə əhalinin dünyagörüşündə əsaslı dəyişikliklər baş vermişdir. Təsərrüfatın ayrı-ayrı sahələrinin, sənətkarlığın inkişafı, ictimai quruluşdakı dəyişikliklər əhalinin dünyagörüşünə də öz tə’sirini göstərirdi. Ayrirayn şəxslərin varlanması, tayfa ağsaqqalının nüfuzunun artması, dünyəvi və hərbi işin, bə’zi hallarda dini rəhbərliyin də onların əlində cəmləşməsi bu şəxslərin ilahiləşdirilməsinə şərait yaradırdı. Tayfa başçıları üçün ucaldılmış kurqan abidələri, buradakı təmtəraqlı dəfn mərasimi (Qarabağ, Gəncə, Talış, Mingəçevir, Şəki kurqanlan və s.) bunu sübut edir. Axirət dünyasına inam daha da güclənirdi. Bu, dini e'tiqadlann daha sabit və ardıcıl forma almasında da müşahidə edilirdi. Kişi və qadınların cəmiyyətdəki rolu və yeri də dini e’tiqadlarda aydın əks olunurdu. Kişinin təsərrüfatda, ictimai-sosial həyatda rolunun yüksəlməsi ilə ona sitayiş də artır və yeni forma alırdı. Kişi bütləri meydana gəlir, kişi təsvirinə daha çox (tuncdan kişi heykəlləri, saxsı qablar, at ələhəsi üzərində kişi təsviri və s.) yer verilirdi. Kişilər üçün nəzərdə tutulmuş qəbir abidələri ölçüsü, dəfn mərasimi, avadanlığı, təmtərağı ilə kəskin fərqlənirdi. Hələ erkən Tunc dövründə meydana gəlmiş bu proses son Tunc dövründə yüksək inkişaf mərhələsinə çatmışdır. Bu dövrün dəfn mərasimində artıq sabitləşmiş müəyyən qanunauyğunluq izlənirdi. Ölülər əsasən bükülü vəziyyətdə (ana bətnində olduğu kimi), sağ və sol yanı üstə, günbatan istiqamətində basdırılırdı. Həmçinin arxası üstə, ayn-ayn hissələrə parçalanaraq (Xanlar, Xaçbulaq, Şəki) dəfnetmə, tonqalda yandırma (Mingəçevir, Xocalı, Gəncə) kimi adətlər də geniş yayılmışdı. İnsanlar axirət dünyasına inanır və bununla bağlı bütün ayinləri sə’ylə yerinə yetirirdilər.

Azərbaycanda tarixən oda möhkəm inam və sitayiş olmuşdur, hələ e.ə. III minillikdə təşəkkül tapmış ölüyandırma adəti son Tunc və ilk Demir dövründə də davam etmişdir. Qedim əcdadlarımız oda qoruyucu, müqəddəs, təmizləyici qüvvə kimi baxmışlar. Xaç, svastika (çərxi-fələk) kimi işaralər odun, işığın simvolu rolunu oynayırdı. Gənçəçay və Borsunlu abidələrində bu işarələrin həkk olunduğu

əşyalar daha çoxdur. Varlı Borsunlu kurqanında (e.ə. XIII - XII əsr> lər) tapılmış derin boşqabların səthi xaç nişanının müxtəlif variantları ile bəzədilmişdir. Sançoban (e.ə. XII - XI əsrlər) kurqanındakı qəbir xaç şəklində qazılmışdır. Göstərilən misallar - xaç işarəsinin xristian- lıq dinindən çox-çox əvvəl mövcud olmasını, onun tamamilə başqa rəmzi mə'na daşıdığını subut edir. Ümumiyyətlə, xaç rəmzinin meydana gəfməsi qədim tarixə malikdir. Yaxın Şərqdə xaç rəmzi hələ Eneolit dövründə təşəkkül tapmış, sonralar Qədim Misir, Assuriya və bir çox başqa regionlarda geniş yayılmışdır.

Səma cisimlərinə (ay, ulduz, günəş), suya, meşəyə (bə*zi ağaclar, məsələn, arçan - ardıc, şam - sənubər ağadan qədim dövrlərdə müqəddəs hesab olunurdu), ayrı-ayn heyvanlara (at, öküz və s.) sitayiş edilirdi. Suya, suyun müqəddəsliyi və paklığına inam dərin köklərə malikdir. Bu dövr saxsı qab nümunələrinin (dini ayinlər üçün) səthində yağış, çay və ya denizi əks etdirən süjetlər dəfələrlə qeydə alınmışdır. Varlı qəbir abidələrində tapılmış ağac qalıqlan, habelə qəbirin ağac tirlərlə örtülməsi ağaca inamı sübut edir. Silah, əmək alətləri və məişət əşyaları üzərində həkk olunmuş heyvan rəsmləri, yaxud aynca heyvan fiqurları (at, öküz, keçi, quş, pələng və s.) müxtəlif heyvan növlərinə sitayişlə bağlı olmuşdur.

Mədəni-iqtisadi əlaqələr. Son Tunc və ilk Dəmir dövründə təsərrüfatın bütün sahələrində, xüsusən maldarlıq və metallurgiyada qazanılmış nailiyyətlər Azerbaycan tayfalanna öz tələbatlannı ödəməklə yanaşı, qonşu, hətta uzaq mədəniyyət ocaqları ilə geniş mədəni-iqtisadi əlaqə saxlamalarına imkan yaratmışdı. Mədəni-iqtisadi əlaqələrin miqyasının genişlənməsində minik vasitəsi kimi at və dəvə, habelə araba mühüm rol oynamışdır.

Azərbaycan tayfalarının bu dövrdə mədəni-iqtisadi əlaqə saxladıqları ölkələr içərisində Qafqaz, habelə Yaxın Şərqin qabaqcıl mədəniyyət mərkəzləri (İran, Assuriya, Het, Fələstin, Suriya, Misir və s.) mühüm yer tuturdu. Arxeoloji tədqiqatlar zamanı Azərbaycanın bu dövr abidələrindən həmin ölkələrdən gətirilmiş «ön Asiya tipli» xəncərlər, silindrik möhürlər, e'mallı qablar, şüşə və xüsusi tərkibli pasta- dan düzəldilmiş muncuqlar, fil sümüyündən və qızıldan hazırlanmış əşyalar və s. tapılmışdır.

Qeyd etdiyimiz kimi, mis Qərb ölkələrindən (İngiltərə, İspaniya) estafetyolu ilə (Balkanlar-Kiçik Asiya-ÖnAsiya-Qafqaz) gətirildi, öz növbəsində Azərbaycanda istehsal olunan mə’mulatlar (xəncər və at əsləhəsi, xususi quruluşlu ox uclan və s.), habelə xammal müba-

dildsi yolu ilə Ön Asiya ölkələrinə və qonşu Qafqaza ixrac olunurdu. Mədəni-iqtisadi əlaqələr gedişində hazır məhsullarla yanaşı, metal, mal-qara, at və dəvə də mübadilə vasitəsi olmuşdur. Azərbaycan hələ qədim dövrlərdən zənkin filiz yataqlan, seçmə at cinsləri, saysız-hesabsız heyvan sürüləri ilə şöhrət qazanmışdır.

## § 8. İBTİDAİ İCMA QURULUŞUNUN DAĞILMASI VƏ SİNİFLİ CƏMİYYƏTİN MEYDANA GƏLMƏSİ

Əkinçilik və maldarlığın intensiv inkişafı, habelə sənətkarlığın, xüsusilə metallurgiya və metalişləmənin yüksəlişi, bunlann əsasında isə mədəni-iqtisadi əlaqələrin daha sur'ətlə genişlənməsi, nəticə e'tibarı ilə cəmiyyətin ictimai inkişafın daha yüksək pilləsinə keçməsi üçün şərait yaratmış oldu. Son Tunc və ilk Dəmir dövründə Azərbaycanda məhsuldar qüvvələrin inkişaf səviyyəsi ilə mövcud istehsal münasibətləri arasında kəskin təzad yaranır. Bu vaxta qədər ibtidai icma quruluşunu yaşadan amillər indi həmin inkişaf yolunda buxova çevrilirdi. Hələ ilk Tunc dövrünün axırlarından müşahidə olunan, orta Tunc dövründə isə xeyli dərinləşən əmlak və sosial bərabərsizlik son Tunc və ilk Dəmir dövründə son həddə çatmışdı. İri tayfa ittifaqları yaranır (Xocalı-Gədəbəy, Talış-Muğan, Naxçıvan, Qobustan-Abşeron, Quba-Xaçmaz, Şoki-Balakən zonalarının iri etnik birləşmələri), bu ittifaqa nüftızlu tayfa başçıları rəhbərlik edirdi.

Bununla yanaşı, tayfanın daxilində güclü təbəqələşmə gedir, var-dövlət ayrı-ayrı ailələrin əlində cəmləşirdi. Varlı fərdi ailələr icmanın daha münbit torpaq və oturaq sahələrini, mal-qaranı, at ilxılannı mənimsəyirdi. Belə ailələrin varlığı Gəncəçay vadisində, Qarabağ və Xaçbulaqda mövcud olmuş yaşayış binaları ilə sübut edilir. Orada bir neçə otaqdan ibarət evlər həyətyanı sahə ile başqalanndan aynimış- dir.

Eyni qəbiristanlıqda avadanlıq, dəfn mərasimi və quruluşuna görə bir-birindən kəskin fərqlənən qəbirlərə təsadüf olunması sinfi təbəqələşmənin varlığını təsdiq edir. Xocalı, Dovşanlı, Borsunlu, Bəyim-sarov, Sarıçoban, Mingəçevir, Gəncə, Naxçıvan, Talış, Şəki abidələrində yoxsul, avadanlığı çox az, kiçik ölçülü kurqanlarla yanaşı, təmtəraqlı dəfn mərasimi, böyük ölçülü qəbir kamerası, zəngin avadanlığı ilə seçilən kurqanlar da aşkar edilmişdir.

Ayn-ayn şəxslərin varlanması, yeni təsərrüfat sahələrinin təşəkkülü və inkişafı işçi qüvvəsi tələb edirdi. Bu işçi qüvvəsini təşkil

edenler var-yoxdan çıxmış icma üzvləri və qullar idi. Müharibələr və tayfalararası toqquşmalar zamanı əsir tutulmuş hərbçilər de qul halına salınırdı.

Son Tunc və ilk Dəmir dövründə yoxsul zümrələrlə yanaşı, qulların da mövcud olması arxeoloji qazıntıların nəticələri ilə (Dovşanlı, Axmaxı, Borsunlu, Sarıçoban, Bəyimsarov, Gəncə, Talış kurqanları) sübut edilir.

Tayfa başçılart; varlı ə'yanlar və onların ailə üzvləri üçün nəhəng kurqanlar ucaldılırdı. Azərbaycanda varlı şəxslər üçün ucaldılmış kurqanlar Qarabağda (Dovşanlı, Xocalı, Axmaxı, Qarabulaq) Gəncə, Talış zonasında, Naxçıvanda geniş yayılırdı. Bir qayda olaraq tayfa başçıları, yaxud tayfanın ən varlı adamları dəfn olunmuş qəbir abidələri mürəkkəb quruluşu, dethetmə mərasiminin qeyri-adiliyi ilə başqalarından fərqleniıxli. Əksər hallarda varlı şəxs dəfn edilərkən onun arvadı, yaxın xidmətçiləri (qul, hərbi qulluqçu və ya kənizi) de öldürülüb onunla bərabər dəfn olunurdu. Məsələn, Qarabağda tədqiq edilmiş Borsunlu kurqanının qəbir kamerası 256 m^-dir. Kurqanda 8 at, habelə 9 qul və kəniz dəfn olunmuşdur. Tayfa başçısı taxtadan hazırlanmış, tunc və qızıl lövhələrlə bəzədilmiş xüsusi taxt üzərində (tabutda) dəfn edilmişdir. Qəbirdə saysız-hesabsız bəzək əşyaları, tunc silah və əmək alətləri, hakimiyyət simvolu olan toppuz, əsa dəstəyi, müxtəlif saxsı qab nümunələri, qiymətli metallardan, fıl sümüyündən məişət və fərdi istifadə üçun əşyalar və s. qoyulmuşdu. Bəyimsarov və Sarıçoban kurqanları da öz möhtəşəmliyi və zənginliyi ile Borsunlu kurqanından geri qalmır. Nəhəng və əzəmətli kurqan abidələrinin ucaldılması, böyük ölçülü qəbir zalının hazırlanması çoxlu insan əməyi sayəsində yarana bilərdi.

Müharibə qorxusu, öz varını qorumaq qayğısı bə'zi tayfalan daha təhlükəsiz yerləı-ə çəkilməyə, yaşayış yerləri (Qaratəpə, Misir qışlağı) ətrafında davamlı müdafiə divan tikməyə məcbur edirdi. Görünür, bu dövrün Xanlar, Sarıtəpə, Babadərviş yaşayış yerlərinin şiddətli yanğından məhv olması tayfalararası toqquşmalarla bağlı idi.

Beləliklə, əmlak və sosial bərabərsizliyin daha da dərinləşməsi, böyük tayfa ittifaqlannm yaranması hakimiyyətin ayrı-ayn nüfuzlu şəxslərin əlində cemləşməsi, var-dövlətin əsasən fərdi ailələrdə toplanması, cəmiyyətin yoxsul və varlılara parçalanması və s. bu kimi faktlar Azərbaycanda e.ə. II minilliyin sonlarında ibtidai-icma quruluşunun dağılması və sinifli cəmiyyətə keçid prosesini sur'ətləndirdi.

# QƏDİM DÖVR

## *I I  f ə s i l*

## AZƏRBAYCAN QULDARLIQ QURULUŞU DÖVRÜNDƏ

E.ə. IV minilliyin sonu - III minilliyin əvvəlində Cənubi Azərbaycanın cənub-qərbində İkiçayarası sivilizasiya^^ mərkəzində sinifli cəmiyyət bərqərar olmuşdu. Qeyri-bərabər inkişaf nəticəsində bə'zi qədim ölkələr, xüsusilə qədim sivilizasiya mərkəzindən kənarda yerləşənlər, o cümlədən Azərbaycan sinifli cəmiyyətə nisbətən gec qədəm qoymuşdu. E.ə. III minilliyin əvvəlində qedim İkiçayarasında sinifli cəmiyyətin inkişaf etmiş mərhələsi vüs'ət aldı və ilk dövlət qurumları meydana gəldi.

### § 1. SİNİFLİ CƏMİYYƏTİN MEYDANA GƏLMƏSİ

### *AZƏRBA YCANIN QƏDİM ŞƏRQ MƏDƏNİYYƏT MƏRKƏZİLƏ ƏLAQƏSİ*

E.ə. IV minillikdə qedim Azerbaycanda maldarlıq, əkinçilik və sənətkarlıq intişar tapmış, əkinçi-maldar təsərrüfatı meydana gəlmişdi. Azərbaycan və ümumiyyətlə, Ön Qafqaz Asiyada təsərrüfat nailiyyətlərindən, siyasi hadisələrdən və etnik yerdəyişmələrdən kənarda qalmırdı. Arxeoloji materialların öyrənilməsi göstərir ki, İkiçayarasında meydana gəlmiş Helof, xüsusilə Übeyd, yaxud protoşumer (ilkin şumer) mədəniyyətinə oxşar əlamətlər Azerbaycanda da təmsil olunmuşdu. Ünsürləri Suriya, Anadolu, Ön Qafqaz, o cümlədən Azərbaycan, Türkmənistan səmtlərinə yayılmış Übeyd mədəniyyətinin ən səciyyəvi cəhətini dairəvi evlərin və naxışlı qab-qacağın geniş təmsil

Sivilizasiya - ictimai inkişafın, maddi və mə'nəvi mədəniyyətin yüksək səviyyəsini bildirən anlayışdır.

olunması təşkil edirdi. Həmin mədəniyyət növləri Azərbaycan ərazisində de yayılmışdı. Buna əsasən Übeyd - protoşumer etnik qruplarının e.e. IV minillikdə Azərbaycanda məskunlaşdığını, Azerbaycan əhalisi ile yaxın iqtisadi təmasda olduğunu söyləmək mümkündür. Leylatəpə (Ağdam) yaşayış məntəqəsində aparılmış arxeoloji qazıntılar zamanı Ubeyd mədəniyyətinə xas olan düzbucaqlı yaşayış binası aşkar edilmişdir. Binanın divan saman qarışdırılmış gil ilə hörülmüş və ona sen gil suvağı çəkilmişdi. Saxsı qablar dulus dəzgahında hazırlanmış, sonra da bişirilmişdi. Müxtəlif görkəmə malik qab-qacaq içərisində ikiboğazlı qablar, boğaz hissəsinin içində novu olan bardaqlar fərqlənir. Bunlar hamısı Şimali İkiçayarasının Ubeyd mədəniyyəti (Yarımtəpe) nümunələrinə oxşardır. Leylatəpə mədəniyyəti Ubeyd - protoşumer tayfaları tərəfindən gətirilmişdi. Həmin tayfalar Cənubi Azərbaycan ərazisində (Urmiya gölü hövzəsində) də məskən salmışdılar. Göytəpə (Urmiya gölünün qərbi) qazıntıları Ubeyd mədəniyyətinə oxşar çiy keıpicdən tikilmiş evlər, müxtəlif rənglərə (boz, açıq qırmızı, tünd qəhvəyi) çalan dulus mə'mulatı, üzərində heyvan təsvirləri olan qab-qacaq aşkar etmişdi.

Eneolitin sonunda və erkən Tunc dövründə (e.ə. IV minilliyin sonu - III minillik) Azərbaycanda yeni mədəniyyət inkişaf etmiş və şərti olaraq «Kür-Araz mədəniyyəti» adlandırılmışdı. Kür-Araz mədəniyyəti Cənubi Qafqazdan tutmuş Şərqi Anadolu, Suriya, Şimali İran (Cənubi Azərbaycan) və Orta Asiyanın cənubi-qərbinə kimi geniş bir ərazidə təmsil olunmuşdu. Bu mədəni birliyin sakinləri dairəvi və düzbucaqlı evlərdə yaşayır, qara boyalı qab-qacaq hazırlayır, meyidi yandırır, ya da bükülmüş halda basdırır, üstünə qırmızı mineral boyaq (oxra) səpirdilər. Belə mədəni-etnik əlamətlər Azərbaycanda Eneolit dövründə də müşahidə olunmuşdur. Kür-Araz mədəniyyəti Kültəpə (Naxçıvan) qazıntıları zamanı da aşkar edilmişdi. Burada da evlər dairəvi şəkildə tikilir, gil ilə saman qarışığından qaramtıl qab- qacaq istehsal olunur, tikintidə çiy kəıpicdən istifadə edilirdi. Arxeoloji qazıntılar Kür-Araz mədəniyyətinin geniş bir ərazidə təmsil olunduğunu göstərir. Həmin mədəniyyətin bir ərazidən yayıldığını və sonradan müxtəlif etnoslar tərəfindən mənimsənildiyini söyləmək mümkündür.

Kür-Araz mədəniyyəti yayılan erazidə müxtəlif etnik birləşmələr yaşayırdı. Onlar yəqin ki, biri digərindən fərqlənən dil ailələrinə mənsub olmuşlar. Bu mədəniyyəti bir sıra qədim etnoslara, o cümlə-

den qedim tkiçayarasının şimalında yaşamış Hurri tayfalarına mensub olduğunu qeyd etmişler. Son zamanlar Hind-Avropa tayfalarının ilk veteninin Ön Asiyada yerieşdirilmesi ile elaqedar onları da bu mede-niyyeti temsil edenler cergəsine daxil edirler. Eyni zamanda Kür- Araz medeniyyeti erazisində en qedim türk dillerində danışan etnik birləşmələrin də yaşaması ehtimalı irəli sürülmüşdür.

Azərbaycanda qeyri-bərabər ictimai-iqtisadi inkişaf. Azərbaycanın şimalında və cənubunda sinifli cəmiyyətin bərqərar olması müxtəlif dövrlərə təsadüf edir. Qeyri-bərabər inkişaf nəticəsində Cənubi Azərbaycanda, xüsusilə onun qərb torpaqlarında sinifli cəmiyyətin yaranması prosesi e.e. IV minilliyin sonu - III minilliyin əvvəlində başlamışdı. Cənubi Azərbaycanın qərb torpaqları tkiçayarasının quldar cəmiyyətinə yaxın olmuş və orada baş verən iqtisadi-ictimai dəyişikliklər buraya da te’sir göstennişdi. Artıq e.ə. III minillikdə Cənubi Azərbaycanda erkən dövlət qurumları təşkil olunmuşdu. Cənubi Azerbaycanda e.e. III minilliyin birinci yarısında İkiçayarası Şumer dövlətləri ilə ünsiyyətdə olan qədim dövlət quruluşu mövcud idi. Azərbaycanın bu hissəsi artıq sinifli cəmiyyətə qədəm qoymuşdu. Lakin Cənubi Azərbaycanın özündə de qeyri-bərabər siyasi inkişaf gözə çarpırdı. Şərq vilayətlərinə nisbətən onun qərb vilayətlərində siyasi canlanma və dövlət halında birləşmə erkən dövrə təsadüf etmişdi.

Şimali Azerbaycan qədim tkiçayarası sivilizasiyasından xeyli kənarda yerləşirdi. Cənubi Azerbaycanda baş verən ictimai-iqtisadi və siyasi dəyişikliklərin şimalda necə əks olunması barədə məMumat yoxdur. E.e. Ul n\iniUiyin evvoUnde Azerbaycanın şimalında sosial VƏ mülki bərabərsizlik hələ meydana gəlməmişdi. İstehsal alətləri üzərində ümumi mülkiyyət mövcud idi, həmin minilliyin sonunda ibtidai-icma quruluşu dağılmağa başlamış, Tunc dövrünün sonrakı mərhələsində cəmiyyətdə ümumi mülkiyyətə malik olan nəsli icmalardan ev icmaları yaranmışdı. İqtisadi özəyini ailə mülkiyyəti təşkil edən ev icmaları kənd icmasında cəmləşmişdilər. Ailə artıq qoşa nigah əsasında qurulurdu. Qoşa nigah şəraitində ailədə atanın hakimiyyəti güclənir və tədricən ailə mülkiyyəti onun əlində cəmləşirdi. Bu dövrün siyasi üstqurumunu kənd icmasının hakimiyyət idarələri təşkil edirdi. Kənd icmasında xüsusi mülkiyyətin yaranması ibtidai-icma quruluşunun dağılmasına və sinifli cəmiyyətin meydana gəlməsinə səbəb oldu. Artıq Tunc dövrünün sonunda (e.e. II minilliyin sonu) tayfaya başçılıq edən hərbi rəhbərlər münaqişələrdə iştirak

edirdilər. Belə hərbi rəhbərlər kurqan tipli qəbirlərdə dəfn edilirdilər. Deməli, Tunc dövrünün sonu - Demir dövrünün başlanğıcında Şimali Azərbaycanda dövlət hakimiyyətinin rüşeymi qoyulmuşdu. Qeyri-bərabər inkişaf Şimali Azerbaycanın dövlət quruluşunun nisbətən gec meydana gəlməsinə səbəb olmuşdur.

## § 2. AZƏRBAYCANIN ƏN QƏDİM DÖVLƏTLƏRİ

Azerbaycanda erkən tayfa ittifaqlannın yaranması və dövlət halında birləşməsi gedişini qaynaqlar əsasında dəqiq müəyyənləşdirmək mümkün deyil. Lakin e.ə. III minillikdə Azerbaycanda müxtəlif ad daşıyan dövlət qummlannın meydana gəlməsi müşahidə olunur.

### *E.3. Ul MİNİLLİKDƏ İKİÇA YARASI (MESOPOTAMİYA) İLƏ MÜNASİBƏTLƏR*

Cənubi Azərbaycan İkiçayarasına yaxın bir ərazidə yerləşirdi. İkiçayarasınm qədim Azərbaycan tayfaları ilə erkən siyasi münaqişələri və iqtisadi əlaqələri Şumer-Akkad mixi yazılarında əks olunmuşdur. Bu qaynaqlar göstərilən hadisələrlə əlaqədar Aratta ölkəsini, kuti, lullu və su tayfalarını yad edir. Uruk şumer şəhər dövləti'^® Aratta ilə iqtisadi əlaqələr yaratmaq və hətta ölkəni özünə tabe etmək istəyirdi. Akkad hökmdarları^* kuti və lullu tayfalarının İkiçayarasına hərbi müdaxiləsinə qarşı mübarizə aparırdılar. Şumerlər və akkadlar Urmiya gölü hövzəsi (Cənubi Azərbaycan), onun təbii sərvətləri və coğrafi şəraiti barədə müəyyən təsəvvürə malik idilər.

İlk dövlət qurumu Aratta. Aratta Ölkəsi Azerbaycan torpaqlarında yerləşirdi. Bu ölkə ilə əlaqədar (e.ə. III minilliyin birinci yarısı) hadisələr bir neçə şumer dastanında («En-Merkar və Aratta hökmdarı», «En-Merkar və **En-Sukuşsiranna»,**^^ «En-Merkar ve Luqalban- da», «Luqalbanda və hurrum dağı») əks olunmuşdur.

Şumer - İkiçayarasımn ən qədim dövləti. Burada dövlət qurumları e.ə. XXVIII - XXIV əsrlərdə şəhər dövlətləri kimi fəaliyyət göstərmişdir.

Akkad sülaləsi İkiçayarasında e.ə. XXIV - x3cil əsrlərdə hakimiyyətdə olmuşdur.

Burada «en» hakim rütbəsidir. Sukuşsiranna adı türk dillərindən «Döyüşkən ərən» (sıkış «döyüş», si-çı şəkilçisi və iran «ər, ərən») kimi mə’na-iaşdırılır.

Şumer dastanlarının və mixi yazıların əlavə mə'lumatlarmın təhlili Aratta dövlətinin qədim Azərbaycan ərazisində meydana gəldiyini söyləməyə imkan vermişdir.

Aratta Cənubi Azərbaycanda e.ə. III minilliyin birinci yarısında meydana gəlmiş ilk dövlət qurumu idi. Onun ərazisi Urmiya gölünün cənub və cənubi-şerq hissəsini əhatə edirdi. Diyala çayının (cənubda) yuxarı axarı və müasir Zəncan-Qəzvin (cənub-şərqdə) erazisi Arat- tanın aşağı sərhədlərini təşkil edirdi. Aratta dövləti tkiçayarasının Şumer şəhər dövlətləri ile iqtisadi, siyasi və mədəni əlaqələrə girmişdi. E.Ə. XXVIII - XXIV əsrlərdə Şumerdə şəhər dövlətləri fəaliyyət gösterirdi. E.ə. XXVIII - XXVII əsrlərdə Şumerin Uruk şəhər dövlətinin hökmdarı En-Merkar^^ olmuşdu.

Dastanlara görə, Uruk ilə Aratta arasında münasibətlər gah düşmənçilik, gah dinc, gah dostluq xüsusiyyəti daşıyırdı. En-Merkar Arattanın Uruka tabe olmasını tələb edir. Aratta hökmdarı da öz növbəsində En-Merkarın Arattaya tabe edilməsi üçün hərbi tədbirlər görür. Lakin sami tayfalan Uruk şəhərini mühasirə edən zaman En-Merkar hərbi yardım almaq üçün Aratta hökmdarına müraciət edir. Şumerlər Uruk şəhərindəki mə'bədləri bərpa etməkdən ötrü tikinti materiallarına, qiymətli metal və daşlara ehtiyac duyurdular. Uruk hökmdarı En-Merkar bu materiallann Arattadan gətirilməsini istəyirdi. O, Aratta hökmdarı ilə yazışmalar aparır, qasidlər göndərir və hətta bu ölkəyə səfər edir. Arattada mövcud olan siyasi və ideoloji şərait şumer məfhumları vasitəsilə əks olunmuşdur. Ölkəni ensi rütbəsini daşıyan hökmdar idarə edirdi. Şumerdə bu rütbə ali kahin hökmdara şamil edilirdi. Ensi rütbəsinin Aratta dilində ifadəsi qalmamışdır. Qaynaq Arattanı «saf ən'enələr ölkəsi» adlandırır. Arattanın dövlət idarələri şeherdə yerləşir, hökmdar sarayda oturur və dövlətn idarə edirdi. Əsilzadə təbəqəsinə daxil olan maşmaş (kahin vəzir), sukkal (elçi - kiçik hökmdar rütbəsi), uqula (rəis) və başqalan dövlət idarəsinin qulluqçulan olmuşlar. Arattada dövlət idarəsində mirzələr də çalışırdılar. Onlar həm Şumer hökmdanna cavab məktubu yazır, həm də En-Merkarın şumer dilində yazdığı məktublan tərcümə edirdilər. Qaynaqdan göründüyü kimi, Aratta dövlət idarələri şumer mixi yazıları və şumer dili ilə tanış idi. Şumerilə Aratta arasında əlaqə qasid vasitəsilə həyata keçirilirdi. ..

Əslində «en» hakim rütbəsidir, adı isə Merkar idi,

E.ə. III minilliyin birinci yarısında (e.e. XXVII esrde) Arattada artıq dövlətə məxsus idarə orqanları və vəzifəli şəxsləri meydana gəlmişdi. Şumer hökmdarı En-Merkar bu dövləti özünə tabe etmək, əhalisini və sənətkarlarını Şumer mə'bəd tikintisində işlətmək niyyətində idi.

Arattada çoxallahlıq, yə’ni müxtəlif allahlara sitayiş mövcud olmuşdu. Qaynaqdan gömnduyü kimi, Arattada, Şumerdə bərəkət və məhəbbət ilahəsi hesab edilən İnannaya ibadət geniş yayılmışdı. İnannanın Arattada müqabil adı mə’lum deyil. Akkadlar bu ilahəni İştar adlandınrdılar. Qaynaqda Aratta ilə əlaqədar adı çəkilən ilahə Lama Arattanın mühafizəkarı hesab edilirdi. Lama Aratta ilahəsi imiş. Şumer allahı Dumuzi həmçinin Arattaya himayədarlıq edirdi. Ola bilsin ki, Aratta panteonuna^ ilahə başçılıq edirdi və nəsli quruluşun qalıqları Arattanın dini dünyagörüşündə öz əksini saxlayırdı. Aratta erkən tkiçayarası mədəniyyəti dairəsinə daxil idi.

Arattanın Şumer ilə siyasi və iqtisadi əlaqələri. Şumer ilə Aratta arasında bə’zən siyasi rəqabət güclənirdi. Aratta hökmdarı £n-Sukuşsiranna En>Merkarın onu ali hökmdar kimi tanımasını tələb edir. En-Merkar isə ona əks tələb göndərir. Belə olduqda £n-Sukuşsiranna şuranı toplayır. Şura üzvləri ona En-Merkara tabe olmağı məsləhət görürlər. Aratta hökmdarı bu təklifi rədd edir və kahini Urqimunanı Uruku tutmağa göndərir. Lakin son məqamda kahin məğlub olur. Buna baxmayaraq En-Merkar, yəqin ki, Arattaya bir müttəfiq kimi baxırdı. Sami tayfaları Şumeri narahat edən zaman o, məhz Aratta hökmdarından kömək diləmiş və bu məqsədlə də Arattaya Luqalban- danı göndərmişdi.

Şumer-Aratta əlaqələri «En-Merkar və Aratta hökmdan» dastanında nisbətən geniş əhatə olunmuşdur. En-Merkar Aratta hökmdarına qasidlə xəbər göndərir ki, o. Şumerə tabe olsun və mə’bəd tikintisi üçün lazımi materiallar göndərsin. Əvəzində En-Merkar Arattaya taxıl göndərəcəyini və’d edir. Aratta hökmdarı Şumerə tabe olmaq tələbinə qarşı qasidə belə cavab verir: «Mən ali kahinəm, təmiz əl (yə’ni İnanna) tərəfindən tə’yin olunmuşam... xoş sifət İnanna həqiqətən məni Arattaya, saf ən’ənələr ölkəsinə getirdi, meni sanki böyük

^ Pan. - *yurty* «hamı, bütün», teos «allah», yə*ni bütün allahlann hamısı. Qədim dövrdə bütün allahlara ilahə, yaxud allah başçılıq edirdi. Ata nəslinin qələbəsilə qədim insanların dini təsəvvüründə də dəyişiklik baş verir. Panteonda birinci yeri kişi allahına ayırırlar.

darvaza kimi, dağlarda onun önündə qoydu. Məgər Aratta Uruka tabe ola bilərmi? Aratta Uruka boyun əyməyəcəkdir!» Qasid En-Merkarın adından Aratta hökmdanna hədə-qorxu gəlir; «Qasid, Arattanın ali kahininə deginən ki, onun şəhərini (əhalisini) vəhşi göyərçinlər kimi ağacdan hürküdərəm, onları quş kimi yuvada tutaram, satılmış (qul) kimi mən onu öldürərəm, dağılmış şəhər kimi onun toz-torpağını yığaram. Arattanı, əhalisini Enki^^ lə’nətə gətirmişdir... ona (Arat- taya) qarşı tnanna hiddətlənmişdin). Aratta hökmdarı En-Merkann hədə-qorxusuna məhəl qoymadı və qasid vasitəsilə onunla mübahisəyə girişdi, münaqişəni sülh yolu ilə həll etmək istədi. Aratta hökmdarı qasidə cavab verdi ki, «Arattada göz yaşı (çilənir), su burulur, un lökülür, ölkədə qurbankəsmə, dua, ibadət vardır, nə beş adam, nə on adam (yə’ni çox adam) vardır.^^ Uıuk necə dağlara qarşı çıxış edə bilər? Sənin ağan silaha sarınmaq istəyir, mən isə təkbətək vuruşmağa (yaxud mübahisəyə) çağırıram». Aratta hökmdan ölkənin məharətindən, qəhrəmanlığından danışır, dağlara qaranlıq yayan axşam şəfəqinə, üzü parıltı ilə dolu olan və göyə qalxan aya, dağlara çəpər olan ağaclara bənzədir və En-Merkardan taxıl göndərməsini tələb edir. En- .Merkar Arattaya taxıl göndərir, əvəzində isə tikinti materiallarının gətirilməsini və Arattanın itaətkarlığını yenə tələb edir. Eyni zamanda En-Merkar tələb etdi ki, Aratta hökmdarı onun yanına gəlsin, sonuncu isə En-Merkann Arattaya gəlməsini istədi. Qaynaq bu haqda yazır: «O, torbalan ayırdı, içini taxıl ilə doldurdu... Yükü eşşəklərə yüklədikdən sonra, ağa, müdrik kahin, Uruk şəhərinin ali hökmdarı, Kula- bın (Urukun dini məhəlləsi) ali kahini Aratta yolu ilə (taxılı) göndərdi. .\damlar qarışqa kimn torpağın dəlik-deşiyindən çıxıb Arattaya getdilər. Ali hökmdar Arattaya, özkə ölkəsinə gedən qasidə dedi: - «Qasid! Arattanın ali hökmdanna deginən və artır ki, ...lacivərdi bir ağac kimi qoy öz əlinə alsın, Arattanın ali hökdarını qoy m^nim yanıma gətirsin» - ona deginən. En-Merkar qarşıya Arattanı siyasi cəhətdən Şumerə tabe etmək məqsədini qoymuşdu. Aratta hökmdan son- mlar lacivərd və başqa əşyaları İkiçayarasına göndərdi, lakin onun itaətkan olması tələbinə məhəl qoymadı.

En-Merkar ilə Aratta hökmdarının mübahisəsi uzandı, qasid bir neçə dəfə Arattaya getməli oldu. Sonuncu dəfə o, En-Merkarın yazılı kitabəsini Arattaya gətirdi: «Arattanın ali kahini bişmiş gili (kita-

Enki - şumerlərin müdriklik və yeraltı sular allahı.
46 İfadələrin gizli mə’nası tam aydın deyil.

beni)^^ elçidən aldı..., gilə (kitabəyə) baxdı, sözlər mismar kimi qalxdılar». Bu məqamda göy guruldadı, ildırım çaxdı və yağış yağdı. Arattada buğda, noxud göyərdi və anbara yığıldı. Məhz bundan sonra Aratta hökmdam Uruka qızıl, gümüş, laciverd (lapis - lazuli) və s. göndərir. MəMumdur ki, En-Merkar Arattaya səfərə çıxmışdı, lakin bu səfərin aqibəti barədə mə'lumat qalmamışdır.

Aratta ilə Şumer arasııda gah ədavət, gah da dinc münasibətlər yaranırdı. En-Sıkuşsiranna Şumeri tabe etmək məqsədilə vəzirini göndərir, lakin o, həlag olur. Həm Aratta, həm də Uruk öz müstəqilliyini saxlayır. Dinc münasibətlər dövründə Umk hökmdarı En-Merkar ölkəni xarici müdaxilədən qorumaq üçün Arattadan hərbi yardım istəyir.

Aratta dövləti öz müstəqilliyini saxladı, lakin Şumer ilə iqtisadi əlaqələri kəsmədi. Arattadan İkiçayarasına qızıl, gümüş, lacivərd, qızıl və gümüş qarışığı, tikinti materiallan və ola bilsin ki, daş, tunc, qurğuşun və s. gətirilirdi. Eyni zamanda Aratta ustaları Şumerdə mə'bəd tikintilərində iştirak edirdilər. Mübadilə nəticəsində Şumerdən Arattaya əsasən taxıl və meyvə gətirilirdi. Aratta İkiçayarasının mal mübadiləsinə cəlb olunmuşdu.

Aratta əhalisinin məşğuliyyəti. Zəngin yeraltı faydalı sərvətləri olan Aratta ölkəsinin əhalisi qızıl, gümüş, qurğuşun, mis, dağ daşı, qiymətli lacivərd daşı hasil edirdi. Qiymətli metallardan hazırlanmış əşyalar və lacivərd daşı İkiçayarasına ixrac edilirdi. Yəqin ki, Aratta ilə İkiçayarasında mal mübadiləsi erkən dövrdən mövcud olmuşdu və onun əks-sədası şumer dastanından da gəlirdi. Hər halda. Şumer hökmdan En-Merkar qiymətli metallann, əşyalann və lacivərdin göndərilməsini .‘Vratta hökmdarından tələb edirdi, əvəzində isə Arattaya taxıl göndərəcəyini vo’d edirdi. Azerbaycanda lacivərd yataqları vardı, qədim əhali lacivərdin çıxarılması və yonulması ilə məşğul olurdu. Azərbaycanda lacivərd yataqlarının mövcudluğu barədə orta əsr coğrafiyaşünası Hemdulla Qəzvini (XIV əsr) yazırdı; «Lacivərdin ən yaxşı yataqlan Bədəxşandadır^®, lakin bir yataq Mazandaranda^^ və Azərbaycandakı Dizmarda^®, digəri Kirmanda^ • vardın>. Yəqin ki, qedim zamanlarda Bədəxşandan da lacivərd gətirilir, Arattada boşal-

Mixi işarələr gil kitabəyə yazılırdı.

48 Bədəxşan müasir Əfqamstanın erazisində yerləşir.

49 Mazandaran Xəzar dənizinin cənub qərbində yerləşir.

Təbriz yaxınlığında.

^' İranın cənub şərqində yerləşir.

dılır ve buradan tkiçayarasına ixrac edilirmiş. Eyni zamanda Mazandaran ve Azərbaycanın lacivərd yataqları qədim dövrdə Arattanın nəzarəti altında imiş və xüsusi peşəkar sənətkarlar lacivərdin hasil edilməsi ilə məşğul olurdular. Qaynağın bir yerində aydın yazılıb ki, «yataqlardan laciverdi onun (İnanna ilahəsi) üçün toplayırlar». Lacivərd tkiçayarasında mə’bəd ve saray tikintilərinin bəzədilmesinə sərl' edilir, ondan möhür, qiymətli bəzək-düzək ve başqa əşyalar hazırlayırdılar. Aratta əhalisi əsasən sənətkarlığın müxtəlif sahələri ilə məşğul idi. Burada mə’bəd ve saray tikən, divarlanna qiymətli metal və daşlardan, xüsusilə lacivərddən bəzək və naxış vuran mahir ustalar vardı. Onlar qiymətli metal ve daşlardan zərgərlik və digər bəzək əşyaları hazırlayırdılar. Qaynaqdan mə’lum olur ki, En-Merkar Aratta ustalarının Uruka gəlməsini İnanna ilahəsindən xahiş edir: «Xanımım İnanna (Aratta aidamları) qoy mənə Urukda qızıl və gümüşü ustalıqla e’mal etsinlər, təmiz lacivərd parçalarından qızıl-gümüş qatışığmdan, təmiz lacivərddən... Urukda, açıq təpədə, sən yaşadığın «Anşan evində» qoy (mə’bəd) tiksinlər.

İşıqlı «Giparın»52 ortasını, sən yaşadığın yeri Aratta (adamları)^ qoy mənim üçün bəzəsin. ...Aratta adamları dağlarından dağ daşlarını qoy mənim üçün gətirsinlər, böyük ibadətgah qoy menim üçün tiksinlər, böyük mə’bəd qoy mənim üçün ucaltsınlar. Böyük me’bədi, (allahlar) mə’bodini qoy panidatsınlar. Mənim ayinlərimi Kulabda mənim üçün qoy düzgün ifa etsinlər. İşıqlı (çılpaq) dağa bənzər «abzu»5^ qoy mənim üçün qursunlar, (meşəli) dağa bənzər «eredu»^"* qoy mənim üçün təmizləyib hazırlasınlar, dərin uçuruma bənzər işıqlı ibadətgah «abzu» qoy mənim üçün düzəltsinlən>. Aratta əhalisinin həyatında əkinçilik müəyyən yer tuturdu. Burada dəmyə əkinçiliyi geniş yayılmışdı. Əkin sahələrinin məhsuldar olması isə yağışın yağıb-yağmamasından asılı idi. Mövsüm quraqlıq keçəndə Şumerlə (və başqa əkinçilik mərkəzlərilə) taxıl mübadiləsi genişlənirdi. Qaynaqdan da mə’lum olur ki, Aratta əhalisi əkinçiliklə məşğul olur, buğda və noxud becərirdilər. Qaynaqda Aratta əkinçiliyinin yağış sularından asılı olması belə təsvir edilir: «Allahların ali kahini Işkur

^2 Gipar - İnanna və kahinlərin yaşadığı ibadətgah.

Abzu - şumerlər bu sözlə «uçurum, yeraltı sulan) me’nasını bildirirlər. Mətndə bunu təsvir edən qab qurğusu nəzərdə tutulur.

Eredu - şumerlərin ibadət mərkəzi. Bu mərkəzin baş allahı Enki hesab ediliidi. Mətndə buna oxşar ibadətgah nəzərdə tutulur.

göyü guruldadır, ildırım çaxdırır, dağlara lərzə salır və yağış yağdırır. Bu zaman buğda və noxud göyərir... yetişən buğdanı anbara... Arat- tanın ali kahini üçün gətirir və sarayda onun qabağına tökür...» Arat- tada əkinçilik təbiətin şıltaqlığına uyğun inkişaf edirdi. Şübhə yoxdur ki, əkinçilikdə dağ sularından istifadə edilirdi.

Arattanın coğrafi mövqeyi. Arattanın coğrafi mövqeyi və yerləşdiyi ərazi barədə müxtəlif fərziyyə və mülahizələr irəli sürülüb. Şumer dastanı qiymətli lacivərd daşının Arattadan gətirildiyini yad elmişdir. Məhz bununla əlaqədar tədqiqatçılar Arattanı lacivərd yataqları olan əraziyə şamil edirdilər.

Bildiyimiz kimi, müasir dövrdə Cənubi Amerikada, Baykal yaxınlığında, Bədəxşanda (Əfqanıstan) və Pamirdə lacivərd yataqları məMumdur. Buna uyğun olaraq, Aratta ölkəsinin Bədəxşan lacivərd yataqlanna yaxın ərazidə yerləşdiyini söyləyirdilər. Bə’ziləri isə Arattanı şərqdən qərbə gələn yolların yaxınlığında Xəzər dənizinin cənub və cənub-şərqində. Xəzər dənizi ilə Urmiya gölü arasında, İranın Kirman əyalətində, Diyala çayının yuxan axarında Sənəndəc və Kirmanşah dairəsində axtarırdılar. Əslində Sənəndəc və Kirman- şah Arattanın cənub sərhədlərini təşkil edə bilərdi. Buradan şimala doğru isə qədim Azərbaycan toıpaqlan başlayırdı. Arattanın uzaq Əfqanıstanda və oradan qərbə uzanan yollar üstündə yerləşdirilməsi qaynaqlann mə’lumatına qətiyyən uyğun gəlmir. Dastandan göründüyü kimi, Aratta dağlıq ölkə idi, burada lacivərdi əhali özü hasil edirdi. Şumer qasidi buraya bir neçə dəfə gəlib qayıdır, Aratta hökmdarı Şumeri işğal etməyə cəhd göstərir, Uruk hökmdarı ondan hərbi yardım istəyir və hətta Şumer hökmdarı En-Merkar buraya səfərə çıxır, Aratta ustaları Şumerə çağrılır, əhalisi isə Şumerlə mal mübadiləsi aparır. Bu faktların özü Arattanın uzaqlarda yerləşməsi mülahizəsini tamamilə təkzib edir.

Dastanda deyilir ki, Şumer qasidi «Qara dağı» keçdi, beş, altı, yeddi dağı aşdı və Aratta Ölkəsinə daxil oldu. Dastandakı «Qara dar» İraqdan İrana keçidi təşkil edən indiki Süleymaniyyə ərazisində yerləşən Qaradağ ilə eyniləşdirilir. Süleymaniyyədən isə yol Azərbaycanın cənub torpaqlarına çıxırdi. E.ə, VIII əsrdə Assur hökmdan II Sarqon (e.ə. 722-705-ci illər) Mannaya yürüşünü Süleymaniyyə keçidindən başlamışdı. O, yüıüşünü belə təsvir etmişdi: «... yeddri \ağı çətinliklə aşdım, oradan axan Rappa və Aratta çaylannı gur vaxtı keçdim. Mannanın vilayəti Surikaşa endim». Heç şübhəsiz, burada yad edilən

yeddi dağ və Aratta Ölkəsinin admı saxlamış çay dastanda eynilə əks olunmuş coğrafi mühitə tam uyğun gəlir. Sonra e.ə. VIII əsr Urartu hökmdan I Arkişti (e.e. 786-764-cü illər) Mannaya yüıiişü zamanı .Alateye dağlıq ölkəsinə qədər olan ərazini tutmuşdu. Alateye Urmiya gölünün cənub və cənubi-şərq dağlıq vilayətləıinə şamil edilirdi. Aratta və Alateye eyni dağlıq ərazinin müxtəlif dialekt adlarıdır. Hər iki adı əmələ gətirən söz «dağ» mə'nasını daşıyırdı. Beləliklə, Şumer qaynaqlarında yad edilən Aratta, eyni adı saxlamış Aratta çayı (yə'ni Aratta ölkəsinin çayı) və Alateye Azərbaycanda Urmiya gölünün cənub və cənubi-şərq dağlıq ərazisini göstərir. Arattanın sərhədləri cənubi şərqdə Zəncana, cənubi qərbdə isə Zeribər gölünə (Sənən- dəcin şimalı) kimi çatıımış. Aratta qədim Azərbaycan ərazisinə verilən ilk məMum addır.

Lullubi (Lullubi) dövləti. E.ə. III minilliyin ikinci yarısında İki- çayarası Şumer şəhər dövlətləri süquta uğradı. İkiçayarası Akkad dövlətinin hakimiyyəti (e.ə. XXIV - XXII əsrlər) altında birləşdirildi. Bu zaman Aratta bir dövlət kimi artıq siyasi səhnədən çıxmışdı. Urmiya gölünün cənubunda, keçmiş Aratta dövlətinin qərb torpaqlarında lullubi tayfalarının ittifaqı yaranmışdı. Lullubi tayfa ittifaqına, yəqin ki, nisbətən sonrakı dövrdə siyasi səhnəyə çıxmış su və turukki tayfaları daxil idilər. E.ə. XXIII əsrdə Urmiya gölünün cənubunda lullubi tayfalan dövləti yarandı. Lullubum (lullubi) dövləti cənubi Azərbaycanın erazisində yaranmış ikinci erkən dövlət quruluşu idi.

Tarixi ədəbiyyatda belə bir fikir mövcuddur ki, guya lullubilər bu zaman ibtidai-icma quruluşu dövründə yaşayırdılar. Lakin qaynaqların mə'lumatı həmin mülahizəni təkzib edir. Çünki bu zaman Lullubum- da artıq dövlət hakimiyyəti meydana gəlmişdi. Lullubi hökmdarı Satuni (e.e. 2230-2200-cu illər)^^ Akkad dövlətinə qarşı hərbi birləşmələrdə iştirak edirdi. Lullubum torpaqlarının qərb hüdudunda Süleymaniyyə keçidinin cənub-şərqində indiki Qaradağ ərazisində lullubilər müttəfiqləri ilə birlikdə Akkad hökmdarı Naram-Suenə (e.ə. 2236-2200-cü illər) qarşı döyüşə girdilər. Lakin döyüş müttəfiqlərin və lullubi hökmdan Satuninin məğlubiyyəti ilə başa çatdı. Naram - Suen bu hadisəni yazı və təsvirlər ilə «qələbə sütunu» adlandırılan daş plitə üzərində əbədiləşdirdi.

Azərbaycanla bağlı hadisələrin illəri müəllif tərəfindən təxmini «bərpa edilmişdir.

Lullubum padşahlığında xırda hökradarlann hakimiyyəti mövcud imiş. Lullubum hökmdan İmmaşqun (e.ə. 2200-2170-ci illər) xırda hakimləri mərkəzi Lullubum dövlətinə tabe etdi. Qaynaqlarda o, «İmmaşqun, Lullu (bum) ölkəsinin padşahlar padşahı» adlandırılır. Beləliklə, e.ə. XXIIl əsrdə Urmiya gölünün cənubunda İkiçayarası Akkad dövləti ilə rəqabət aparan güclü Lullubum dövləti yaranır. Bu dövlətin qüdrəti hökmdar Anubaninin (e.ə. 2170-2150-ci illər) dövründə daha da artır. MəMumdur ki, Anubanini yazılannı mixi işarələr ilə tərtib etdirirdi. Mixi yazı sistemi buranın əhalisinə hakim dairələrinə hələ Aratta dövründən tanış idi. Anubaninin siyasi nailiyyətləri daş plitəsi üzərində həkk olunurdu. Onun «Daş sütunu» abidəsində qeyd edilir: «Anubanini, qüdrətli hökmdar, Lullubum hökmdarı, öz təsvirini və İştar ilahəsinin təsvirini Batir dağında qoydurdum». Bu abidə Diyala çayının orta axarında, Kirmanşaha gedən yol üzərində, Zohab şəhəri yaxınlığında Saripul adlanan yerdə aşkar edilmişdir. Bu fakta əsasən demək olar ki, lullubilerin hakimiyyəti cənubda Diyala çayının orta axarınadək gəlib çatırdı. Anubanini eyni zamanda cənubda Fars körfəzinə^^ qədərki ərazini iddia edirdi, şimalda isə onun dövlətinin hüdudları Urmiya gölünədək çatırdı. Ola bilsin ki. Urmiya gölü hövzəsindəki digər torpaqlar da ona tabe edilmişdi.

Lullubum dövləti İkiçayarası ilə iqtisadi əlaqələrə girmişdi. Lullubilər şimali İkiçayarasının Qasur şəhərində mal mübadiləsi edir və mal-qaranı taxıla dəyişirdilər. Aratta dövründə olduğu nimi, lullubi dar sakinlərinin də taxıla ehtiyacı var idi. Onlar maldarlıq ilə yanaşı, dəmyə əkinçiliyi ile də məşğul olurdular.

Lullubilər də, Aratta dövmndə olduğu kimi, İkiçayarası mədəniyyətinin tə’sirinə mə’ruz qalmışdılar. Onlar da mixi yazı sistemi ilə tanış idilər. Burada akkad dilini bilən mirzələr və akkad qələbə abidələri hazırlama ən’ənəsinə uyğun abidələr yaradan ustalar vardı. Anubaninin «Daş sütunu» İkiçayarası nümunələrinə əsasən lullubi ustaları tərəfindən yonulmuşdu.

Lullubilər səma, bərəkət və məhəbbət, ay, güneş və s. allahlara sitayiş edirdilər. Təəssüf ki, bu allahların lullubi dilində adlan qalmamışdır. Anubaninin «Daş sütunu»nda bu allahlann akkad adlan çəkilmişdir. Anum (Səma allahı), İştar (Bərəkət və məhəbbət ilahəsi). Sin (Ay allahı), Şamaş (Günəş allahı) və s. «Daş sütun» abidəsində

56 Əsasən «İran körfəzi» işlədilir.

sema allahı Anunun adı birinci çəkilir. Bu da onu göstərir ki, lullubi cəmiyyətində ata nəsli hüququ artıq üstünlük təşkil edirdi.

E.ə. U minillikdə vahid Lullubum dövləti parçalanır və yerində xırda hakimiyyətlər yaranır. Qaynaqlar bu dövrün başlanğıcında «çoxlu lullubi hökmdarları» ifadəsini işlətmişdi.

Kutium (Qutium) dövləti. E.ə. III minillikdə Urmiya gölünün qərb və cənubi-qerb hissəsində kuti (yaxud quti) tayfa birləşmələri mövcud idi. Həmin minilliyii ikinci yarısında kutilərin dövlət halında birləşməsi başlanmışdı. Kutilər İkiçayarasında baş verən siyasi hadisələrə müdaxilə edirdilər. Onlar Şumer İkiçayarası ile müttəfiq münasibətləri saxlayır, lakin Akkad hökmdarlarının işğalçılıq siyasətinə qarşı çıxırdılar. Epik eserlərdən mə'lumdur ki, Naram-Suen Urmiya gölü hövzəsində yaşayan tayfalara qarşı təcavüzkar siyasət yürüdürdü. İşrala mə'ruz qalan 70 hökmdar, o cümlədən Urmiya gölü hövzəsinin etnoslan hərbi ittifaq yaradırlar. Urmiya kölü ətrafı etnoslar Umman- manda - «Manda ordusu»^^ adlandırılmışdır. Müttəfiqlərə qarşı göndərilmiş Akkad ordusu məğlubiyyətə uğradıldı; Naram-Suen eyni zamanda şumerlərin dini mərkəzi olan Nippur şeherinə ordu göndərir və buradakı Enlil mə'bədini dağıtmaq istəyir. Lakin o buna nail ola bilmir. Kuti hərbi dəstələri bu şəhərin köməyinə gəlirlər: Umman- manda və kuti hərbi dəstələrinin başında hökmdar Enridavazir (e.ə. təxminən 2225-2205-ci illər) dayanmışdı. Onun şərəfmə Nippur şəhərində mixi yazılı abidə qoyulmuş və orada Enridavazir «qüdrətli, Kutium və dünyakm dörd səmtinin hökmdan» adlandırılmışdı;

Kuti tayfaları Naram-Suenin hakimiyyəti illərində Akkad Dövlətini tez-tez narahat edirdilər. Kutilər ilə mübarizədə ona Elam hökmdarı Kutik-İnşuşinak (e.ə. 2240-2220-ci illər) yardım gösterirdi. Elam bu dövrdə Akkad ile tarixdə mə'lum olan ilk beynəlxalq müqavilə bağlayır. Müqaviləyə uyğun olaraq Kutik-İnşuşinak Zaqroş dağlan səmtə yürüş teşknl edir və kutilərin ölkəsinə gəlib çatır. Bu müvəqqəti qələbə kutilərin İkiçayarasına axınının qarşısını ala bilmir və onlann Akkad dövlətinə təzyiqi getdikcə artır. Kuti hökmdarlan İmta (e.ə. 2204-2197-ci illər) və İnqeşauşun (e.ə. 2198-2192-ci illər) hakimiyyəti illərində kutilərin İkiçayarasına müdaxiləsi daha da güclənmişdi. Qaynaqların mə'lumatına görə, kutilərin İkiçayarasına basqınları mal-qaranın şeherlərə gətirilməsilə əngəl törədir və çöl-əkin

Sonralar bu ifadə müxtəlif etnoslara da şamil edilirdi.

işlərinin pozulmasına səbəb olurdu Naram-Suenin vəfatından sonra Akkad dövləti əvvəlki qüdrətini itirir. Hakimiyyətə gəlmiş Şarkaİişarri (e.ə. 2200-2175-ci illər) Kuti basqınlannm qarşısını almaq məqsədilə onlara qarşı yürüş təşkil edir. Bu zaman kutilərin hökmdarı Sarlaq (e.ə. 2191-2185-ci illər) idi^®. Kutilər ilə döyüş İki- çayarasının erazisində baş verir və kutilər məğlubiyyətə uğrayır. Sarlaq əsir düşür, Sariağın varisi Yarlaqaş (e.ə. 2184-2178-ci illər) ola bilsin ki, İkiçayarasına müdaxiləni gücləndirmiş və Akkad dövlətinin süqutuna şərait yaratmışdı. Onun varisi Elulumeş (e.ə. 2177-2171-ci illər) İkiçayamsında baş vermiş daxili hərçmərclikdən istifadə edərək burada kutilərin hakimiyyətini bərqərar edir. Qaynaqda göstərilir ki, «hakimnyyət kuti dəstələrinin əlinə keçdi». E.ə. 217S-ci ildə İkiçay-arasında hakimiyyətə kuti sülaləsi gəldi. E.ə. III minilliyin ikinci yarısında Urmiya gölünün qərb və cənubi-qərb torpaqlarında (Qərbi Azərbaycan) Kutium dövləti meydana gəlmişdir. Kutilər İkiçayarasmt zəbt etməmişdən əvvəl dövlət qurumu yaratmışdılar. Bu dövlətin yuxarıda göstərilən ilk hökmdarlarının adları müvafiq qədim qaynaqda («hökmdarlar siyahısı») əks olunmuşdur. Kutilərin İkiçayarasında təxminən 80-100 illik^^ hakimiyyəti zamanı onlara qarşı heç bir çıxış olmamışdır. Ancaq sonuncu kuti hökmdarı Tirikanın adı ilə bağlı narazılıq qaynaqda əks olunmuşdu. Kutilər İkiçayarasında mövcud olan idarə sistemini dəyişmədilər. Ölkəni canişinlər vasitəsilə idarə edirdilər. Kutilərə tabe olan Şumer şəhər hakimləri ensi rütbəsini daşıyırdılar və müstəqil daxili siyasət yürüdürdülər. Yəqin ki, kuti hökmdarlarının İkiçayarasında da iqamətgahlan varmış. İkiçayarasının Şumer şəhərləri kuti hökmdarlannın şəı*əfinə yazılar tərtib edirdilər. Kuti hökmdarı Laharabın (e.ə. 2135-2133-cü illər) Sippar şəhərində akkad dilində yazısı aşkar edilmişdir. Kuti hökmdarları Yarlaqanda (e.ə. 2120-2113-cü illər) Siumun (e.ə. 2112-2l05-ci illər) şərəfinə Umma şəhərində yazı tərtib olunmuşdur. Kuti hökmdan Puzur-Suenin (e.ə. 2127-2120-ci illər) möhürü ühərində Ur şəhərinin adı göstərilmişdir. Kutilərin hakimiyyəti bütün Ur şəhərini bürümüş, Nippur, Sippar, Umma, Ur kimi şəhərlər isə onlann dayaq məntəqələrinə çevrilmişdi. Kutilərin uzunmüddətli hakimiyyəti illərində İkiçayarasının iqtisadiyyatı və ticarəti yeni inkişaf mərhələsinə qədəm qoyur.

Kuti hökmdarları siyahısında o, Sarlaqab adlandırılır.
Kutilərin hakimiyyətinə müxtəlif illər təklif edilmişdir.

Kıitilərin tkiçayarası mədəniyyəti dairəsinə cəlb olunmuşdular. Kuti hökmdarlannın qısa mətnli kitabələri mixi yazılan ilə tərtib olunurdu. Onlar da aya, bərəkət və məhəbbət ilahəsinə sitayiş edir və kitabələrində bu allahlann ancan Akkad adlan (İştar və Çin) çəkilmişdir. Yəqin ki, bu dövrdə kuti panteonuna ilahə başçılıq edirmiş. Mə’lumdur ki, sonralar assurlar kuti və lullubi allahlannın Asur panteonuna daxil edirdilər. Ola bilsin ki, bu panteonda adı çəkilən Assara kuti allahlarından olmuşdur. Eyni adı kuti hökmdarı Aşşarlaqın adında əks olunmuşdur. Siumun vəfatından sonra kuti taxt-tacına Tirikan (e.ə. 2104-cü il) sahib olur. Tirikanın İkiçayarasında hakimiyyəti cəmi 40 gün sürür. Uruk şəhərində ona qarşı qiyam təşkil olunur. Qiyama Uruk ensisi Utuhenqal başçılıq edir. Utuhenqalın adına çıxılan kitabədə kutiiərin ünvanına mənfi ifadələr işlədilmişdir. Kitabə onları «dağların zəhərli ilanı (yaxud əjdahası), allahlara əl qaldıran. Şumer hakimiyyətini dağlara aparan, Şumeri ədavətlə dolduran, arvadı ərindən, övladı valideyndən ayıran, ölkədə ədavət və hiddət yayan» adamlar kimi qələmə verir. Lakin kutiiərin ünvanına deyilmiş ittiham- lan təsdiq edən heç bir əlavə trixi sənəd qalmamışdır. Əksinə, kutile- hn hakimiyyəti illərində Şumerdə mə'bəd tikintisi və bərpası davam edir. Kuti hökmdarı Sium da özünü «Ur mə'bədi işçisi» adlandınrdı. Kuti canişini və yerli hakim Hammahani Yarlaqan Kutiumun hökmdarı olan zaman ...Ninurta (allahının mə'bədini)... bərpa etdi». Kuti- lərin hakimiyyəti illərində Yuxarı dənizdən (Urmiya gölü) Aşağı dənizə (Fars körfəzi) kimi uzanan ticarət yollannda əmin-amanlıq bərpa olunmuş, İkiçayarasına xarici müdacilolərin arası kəsilmiş və Urmiya gölü hövzəsi ilə dinc əlaqələr yaradılmışdı. Şumer və Akkad gəncləri kuti qoşunlarına xidmətə cəlb olunurdular, lakin bu da ədavət üçün şərait yaratmamalı idi. Yəqin ki, kutilər yerli qız və qadınlarla nigah bağlayırmışlar ki, bu da «arvadı ərindən ayırma» kimi qələmə verilmişdi. Humerdə ədavət salan siyasət ilə Kuti sülaləsi tkiçayara- sında uzun müddət hökmranlıq edə bilməzdi. Kutilər və Şumerlər arasında ən'ənəvi sülh münasibətləri mövcud olmuşdu. Məhz buna görə İkiçayarasının Şumer hissəsi kutilərdən asılı olsa da, müstəqil siyasət yürüdürdü.

Tarixçilərin bir qismi kutiiərin adına çıxılan mənfi əməlləri həqiqət kimi qəbul etmiş, digər qismi isə bunu müstəqil Şumer dövləti yaranandan sonra kutiiərin hakimiyyətini pisləyən təbliğat adlandırmışlar. tkiçayarası cəmiyyətinin ictimai-iqtisadi quruluşundan doğan mənfi zallar kutiiərin adına çıxılmışdı.

Utuhenqalın adından yazılmış kitabə kuti sülaləsi hakimiyyətinin ləğv olunmasına bəraət qazandırmaq məqsədini güdürdü.

Utuhenqal allah Enlilin adından Uruk əhalisinin kuti hökmdarı Tirikana qarşı çıxmağa sövq edərək «Şumer padşahlığının qaytan İmasını Enlil mənə etibar etmişdir» ifadəsini işlədirmiş. Utuhenqal Tirikana qarşı döyüqə urukluların qüvvəsilə hazırlaşır. Muru yaxınlığında (Umma şəhərindən bir günlük məsafədə yerləşirdi) döyüş baş verir. Hücum qəflətən olduğundan Tirikanın dəstələri məğlub olur və o, Dubrum şəhərindəki iqamətgahına qaçır. Tirikan burada ailəsi ilə birlikdə Əsir düşür. Mənbə bu haqda belə yazır: «Kutium hökmdarı Tirikan tək qaçdı. Sığınacaq tapdığı Dubrumda onu mehriban qarşıladılar. Dubrum əhalisi biləndə ki, Enlilin iradəsilə Utuhenqal hökmdar olmuşdur, Tirikanı buraxmadılar. Utuhenqalın göndərdiyi adamlar Tirikanı və onı^n ailəsini Dubrumda tutaraq əllərini ağac buxova saldılar və gözmrini (?) bağladılar. Tirikanı Utuhenqalın yanına gətirərək onun ayaqlan altına atdılar, Utuhenqal ayağını onun boğazına qoydu. O (belə) alçaldıldı və ...Kutium, dağların zəhərli ilanı onun ərazisindən uzaqlaşdırıldı..., (beləliklə, o)» padşahlığı Şumerə qaytardı». Utuhenqal e.e. 2104-cü ildə^^ kutilerin hakimiyyətini asanlıqla ləğv edə bildi, çünki kutiler İkiçayarasında böyük hərbi qüvvə saxlamırdılar. Maraqlıdır ki, Tirikan öldürülməmiş, ancaq ölkədən çıxarılmışdı. Tirikanın məğlubiyyətinin əks-sədası tarixdə uzun müddət yaşamışdı. Sələvkilər dövründə tərtib edilmiş sənəddə Tirikanın məğlubiyyəti onun üçün əlverişsiz təbii əlamət - ayın tutulması ilə izah olunmuşdur. İkiçayarasında kutilərin ağalığına son qoyulduqdan sonra Kutiumun özündə də dövlət süquta uğrayır, xırda hakimiyyətlər yaranır.

E.ə. III minilliyin sonunda Kutium, eləcə do Lullubum dövlətləri süquta uğrayaraq xırda hakimiyyətli vilayətlərə parçalanırlar. Bu hal e.ə. I minilliyin əvvəlinə kimi davam edir. Azərbaycanın erkən dövlətlərini trük mənşəli sülalələr idarə edirdilər.

Digər xronoloji sistem bunu 2l09-cu il kimi qeyd edir.

§ 3. E.Ə. II MİNİLLİKDƏ QƏDİM AZƏRBAYCANIN SİYASİ VƏZİYYƏTİ

tkiçayarasında kutiiərin hakimiyyəti tənəzzülə uğradıqdan sonra burada III Ur sülaləsinin hökmranlığı (e.e. 21I2-2003-cu illər) başlayır. Eyni zamanda Azərbaycan kuti və lullubn dövlətləri barədə, onlann hökmdarlan barədə me’lumatlar məhdudlaşır. III Ur sülaləsinin hökmdarları lullubilər ile tez-tez toqquşmalı olurlar. Ur hökmdarı Şulqinin (e.e. 2093- 2046-cı illər) LulIubum ölkəsinə və ona qonşu erazilərə dəfələrlə dağıdıcı və talançı yürüşlər təşkil etməsinə baxmayaraq lullubilər öz müstəqilliyini saxlaya bilirdilər. Bundan fərqli olaraq, kutiiərin ola bisin ki, cənub torpaqlan III Ur sülaləsinə tabe edilmişdi. Hər halda Ur canişini Urdunanna «Kutium canişini» və «Su ölkəsinin hökmdarı» rütbələrinn daşıyırdı. Su ölkəsi Urnıiya gölü hövzəsində kutiiərin erazisində yerləşirdi. Artıq burada böyük dövlət birləşmələri parçalanmışdı.

Yeni tayfa ittifaqları. E.ə. II minilliyin əvvəlində Urnıiya gölü hövzəsində yaşayan tumkki (turuki) və su tayfalarının siyasi fəaliyyəti başlanır. Onlar əvvəlki dövrlərdə Aratta, sonra isə Kutium və Lullu- bum dövlətləmnin tərkibinə daxil idilər. Bu dövlət qurumlan suquta uğradıqdan sonra tumkki və su tayfaları İkiçayarası hadisələrinə müstəqil surətdə qarışmağa imkan tapdılar. Kutilər və lullubilər kimi, turukkilər de Zaqroş dağlarını aşaraq İkiçayarasına daxil olurdular. Onlar Aşağı Zab çayının yuxarı axarında yerləşən Raniyə düzənliyinə^! çıxır və burada yaşayan hurrilər ile ünsiyyətə girirdilər. Ümumiyyətlə, tumkkilər bu ərazi uğmnda mübarizə aparırdılar və bununla da İkiçayarasının şimalında yaranmış Assur dövlətinin sərhədlərində təhlükə yaradırdılar.

Assur hökmdarı I Şamşi-Adad (e.ə. 1813-1781-ci illər) turukki- lərə qarşı hərbi yürüş təşkil edir, lakin bu tayfaların müdaxiləsinin qarşısını ala bilmir. Tumkkilər assurilərin nəzarəti altında olan Şu- şarra (indiki Şemşara) vilayətində yerləşdilər. Assur hökmdarı 1 İşme- Daqan (e.e. 1797-1757-ci illər) burada baş verən hadisələri belə təsvir edirdi: «O ki qaldı Şuşarra ölkəsinə, siz mənə yazırsınız ki, bu ölkə həyəcan içindədir va biz onu saxlaya bilmərik. Qoy İşar-Lim (qasid) sizə (vəziyyəti) izah etsin. Turukkulu Lidaya və bu ölkədə

indiki Daşti Batvain. Aşağı Zab çayı üzərinda yerləşən (Cənubi Kürdüstan) bu ərazi Azərbaycan ostanına daxil idi.

onunla birlikdə olan turukküər rəqabət aparırdılar və iki yaşayış məntəqəsini dağıtmışdılar. Mən oraya əlavə qoşun gətirdim, onlar dağlara çəkildilər. Mən əhalidən soruşdum və bu qərara gəldim ki, bu ölkə nəzarətə alına bilməz».

Şuşarra inzibati və hərbi mərkəz idi, qədim Azərbaycana qonşu torpaqları təşkil edirdi. Turukkilər bu əraziyə iddia edirdilər, yerli əhali də turukkilərin hakimiyyətinə meyl göstərirdi. Eyni zamanda bu əraziyə göz tikən kutilər də Assuriya ilə ədavətə girməkdən çəkinirdilər. Yəqin ki, kutilər ilə Assuriya arasında ittifaq mövcud imiş. Sənədlərin birində deyilir ki, «Şikşambumda olan kuiilərin qasidi,., mənim yanıma gəldi və mənə dedi: - Kutium adamları buradadırlar. (Onlardan) Enduşşe mənə dedi ki, «əgər Şamşi-Adadın, mənim atamın ordusu, Şikşambime yaxınlaşsa, döyüşə girişməsə, mən və atama qarşı heç bir zaman günah işlətmərəm». Bunu o özü mənə dedi. Heç kəs bilmir ki, onların sözü düzdürmü, heqiqetdirmi?... Men onların sözünə inandım və Varad-Şarrimdən (qasiddən) soıuşdum ki, Enduş- şedən mə'lumat alıbmı; o demişdi ki, «mənim atamın əlində olan ölkədəki Şuşarra ətrafına yaxınlaşmaram». Bunu o mənə dedi. Varad- Şarrim mənə yaxşı xəbər gətirdi. Siz bunu bilməlisiniz». Bu mə’lu- mata əsasən demək olar ki, kutilər hələ qədimdən Şuşarraya iddia edir və Assuriyanın bu ölkənin daxili işlərinə qarışmasına imkan vermirdilər. Lakin onlar I Şamşi-Adadın dövründə bu torpaqlara toxunmaya- çaqlarını və’d edirdilər. Yəqin ki, Şikşam-bum Şuşarra vilayətinə yaxın bir ərazidə yerləşirdi, çünkn burada həm kutilər, həm də tumk- kilər məskən salmışdılar.

Lakin assurların hərəkəti kutilər və turukkilər ilə münasibətləri gərginləşdirdi. Şuşan*a hakimi Assur hökmdarına bununla əlaqədar yazırdı: «...Sizə yazdığım sözlərə qulaq asın. Niyə Hazib-Teşub ölkəsinin adamlarını tutmusan? Elə ki, ölkənin ağzını özünə qarşı açdırırsan. Bu adamları burax! Varad-Şarrim Enduşşenin yanından gəldi və bu xəbəri menə gətirdi... Öz ordunu Şuşarranın yanında topla, qoy o hazır olsun». Sonra Şuşarra hakimi tumkki başçılarını və dəstələrini azad etməyi məsləhət görür. Kutilərin başçısı Enduşşe turukkilərin mənafeyini müdafiə edirdi. I İşme-Daqan da turukkilər ilə sülh müqaviləsi bağlayır və hətta turukkilərin başçılarından birinin - Zazinin qızını öz oğluna alır. Zazi əsirlikdən azad edilmiş turukkiiərdən idi.

Turukkilərin digər qrupu Şuşarra üzərinə basqım dayandırmadı. Sənədlərin birində qeyd olunur ki, «tumkki ordusu başda Lidaya olmaqla İşme-Daqana qarşı çıxış etdi, lakin məğlub oldu, öz Buml-

lum* şəhərini və Utem ölkəsini tərk etdi». Lakin bu məğlubiyyət hadisələrə son qoymur və Lidaya Aşağı Zab çayının yuxan hissəsində yerləşən erazini (Nurruqum, Ahazim) .'tutaraq, Şuşarranı assurİardan təmizləyir. Bununla əlaqədar Şuşarra hakimi İşme-Daqana məsləhət görür ki, «Şuşarranı onun himayəsinə buraxsın, ölkənin ağsaqqallan və ordu ilə onun yanına gəlməsin, istəsə özü və xidmətçiləri gəlsin». Mektublann birində Şuşarra hakimi vəziyyətin mürəkkəbliyini şərh edərək yazır: «Şəhərdə adam tapılar ki, desin: - gəlin, men şəhəri təhvil verirəm. İndi sizin rəqibinizə çevrilmiş çoxlu lullubi hökmdarları sülh təklif etsələr və siz onları allahlara and içdirsəniz, belə halda onların ittifaqını və sülhünü qəbul edin. Siz bilirsiniz ki, taxıl anbarları boşdur və buraya gələn ordu üçün taxıl yoxdur. İndi lullubilər ilə xeyirxah sülh barədə sazişə gəlin, taxılın və unun daşınması barədə də elə razılaşın ki, sizin hökmdar və ölkə sevinsin»...

Kuti, lullubi və tunıkkilər Şuşarra uğrunda Assuriya ilə gah mübarizə aparır, gah da münaqişələri sülh yolu ilə həll edirdilər. Kutilər, başda Enduşşe olmaqla siyasi vəziyyətə uyğun olaraq Assuriya ile dostluq münasibətləri yaratmağa çalışırdılar. Eyni zamanda o, assu- rilər tərəfindəi əsir alınmış turukki başçılarının və onların ailəsinin azadlığa buraxılmasım tələb etmişdi: Turukkilərin bir qismi Assuriya ilə sülh yaradır, digər qismi isə Lidayamn başçılığı altında ŞuşaiTa uğrunda mübarizəni davam etdirərək bu ərazini tutur. Eyni zamanda lullubilərin də Assuriyaya təziqi güclənir və bu tayfalar ilə sülh bağlamaq üçün məqam axtarılır.

Mə’lumatlar gösterir ki, e.ə. II minilliyin əvvəlində qədim Azərbaycan tayfalarını ayrı-ayrı başçılar, yaxud xırda hökmdarlar təmsil edirdilər. Turukkilərin bir neçə, lullubilemn isə çox hökmdarı var idi. Erkən Azerbaycan dövletlem artıq parçalanmışdı, ayrı-ayrı xırda, hökmdarların hakimiyyəti bərqərar olmuşdu. Bu dövrdə çox güman ki, turukki, lullubi, kuti, su və başqa tayfaların ittifaqı mövcud idi. Bu tayfaların fasiləsiz təzyiqi Assuriya dövlətinin zəifləməsinə və Babilistan hökmdarı Hammurapinin (e.ə. 1792-1750-ci illər) şimali tkiçayarası hadisələrinə müdaxilə etməsinə şərait yaratdı. Hammurapi bu tayfalar yaşayan ölkələrə yürüş təşkil etdi və e.ə. 1762-ci ildə Subartu və iCutnum ölkələrşin ordusuna qalib gəldi. E.e. 5760-cı ildə o kuti müdaxiləsinin qarşısını aldı və Kutium ordusunu yenidən məğlubiyyətə uğratdı. Turukki tayfaları hərbi münaqişəyə qoşulmaq məcbu-

*" Türk dillərində «Bozumtul yer» kimi mə’nalandınlır.

riyyetn qarşısında qaldılar. E.ə. 1755-ci ildə Subartu, Kakmum ve Turukkum (turukkilər ölkəsi) ölkələrinin ittifaqı yarandı. Hammurapi bu ölkələrin de hərbn müdaxiləsinin qarşısını ala bildi.

Assurların qədim Azərbaycan torpaqlarına yürüşləri. E.ə. XIV əsrin sonunda Assuriyanın qüdrəti yenidən artır. 1 Adadnirari (e.ə. 1307 - 1275-ci illər) Azərbaycan erazisində yaşayan tayfalara ve onların qoşunlarına qarşı yürüşlər edir. O, təntənəli xüsusiyyət daşıyan kitabəsində özünü «kuti, lullubi ve şubarlan (subarlan) məğlub edən..., turukku və Niqimhi ölkələrinin bütün hüdudlan boyunca, dağ və meşəli, yüksək dağ ərazisini işğal edək» adlandınr. 1 Adadnirari qətiyyən bu ölkələrin hüdudlarını aşa bilmir ve yalnız onlann sərhəd torpaqlarında döyüş apanr. Bu tayfalara malku (sonrakı məlik) adlanan hakimlər başçılıq edirdilər. Ola bilsin ki, I Adadnirari kutiləri assur hakimiyyətinə tabe edə bilmişdi. Ondan sonra hakimİ3^ete gəlmiş I Salmanasar (e.ə. 1274-1245-ci illər) kutilerin. üsyanını yatırmalı oldu. Kitabədə bu haqda qeyd edilir: «Göydə ulduz qədər saysız- hesabsız olan, vurub-çapmağa öyrəncəli kutiler mənə qarşı üsyan qaldırdılar, menə düşmən oldular, rəqabətə başladılar... Uruatrinin sərhədindən Kutmuh ölkəsinə kimi... mən onların çoxlu ordusunun qanını su kimi axıtdım, döyüşçülərinin cəsədi ilə geniş çölü doldurdum». Digər kitabəsində I Salmanasar təntənəli surətdə bəyan etmişdi ki, o, üsyançılan tutdu, bütün dağlan dolaşdı, taxıl kimi uzaqlara səpələnmiş kutilərin ordusunu yaxaladı, Lullubi ve Şubaru ölkələrini zəbt etdi. I Salmanasann mə’lumatı gösterir ki, kutiler (və bu ittifaqa daxil olanlar) Assuriyadan şimalda yerləşən ərazidə də hakim imişlər. 1 Salmanasar Turukki ölkəsini və turukkiləri yad etmir. Güıian ki, bu vaxtdan e’tibarən turukkilər müstəqil siyasi qüwe kimi deyil, kuti və lullubi tayfalarının tərkibində fəaliyyət köstərirdilər.

Assur hökmdan 1 Tukulti-Ninurta (e.ə. 1244-1208-ci illər) özünü «...Yuxan və Aşağı dənizlərin hökmdan, dağ və geniş düzənliklərin hökmdan, şubar və kutilərin hökmdarıq Nairinin^^ bütün ölkələrinin hökmdarı» adlandırırdı. E.ə. 1243-cü ildə I Tukulti - Ninurta şimal və şimal-şərq istiqamətinə hərbi yürüş edir, kutiler ölkəsini və digər Nairi ölkələrini tutur. İlk dəfə o, Kurti^^ ölkəsinin adını çəkmişdir.

Nairi coğrafi anlayış kimi bə’zen Urmiya gölünün cənubuna da şamil edilirdi.

Cuman ki, kurti sonraki kürd adımn ilkin formasıdır.

özünü «Kuti hökmdarlarım qıran» adlandıran Assur hökmdarı Nairi ölkələrinin 43 hökmdar və hökmdarəsini, o cümlədən Kutmuh, Şubar ölkələrinin kuti ordusunu dağlarda yerləşən istehkamlarda məğlubiyyətə uğradır. Assur hökmdarı Aşşureşişi (e.ə. 1133-1116-cı illər) lul- lubi və kutiləri onların dağlıq ərazisi ilə birlikdə işğal etməsi barədə mə’lumat vermişdir.

Assur hökmdarı I Tiqlatpalasar (e.ə. 11 l5-1077-ci illər) işğalçılıq siyasətini davam etdirir. O, itaətdən çıxmış Kutmuh ölkəsini və ona köməyə gəlmiş kurtiləri məğlubiyyətə uğradır. Sonra Nairi ölkələrini tutur və 23 hökmdarını əsir götürür. Bu ölkələr içərisində qedim Azərbaycanın Andiabe^’"^ Şinibirni^^ vilayətlərinin adları çəkilmişdir. Eyni zamanda o, lullubilərin ölkəsini işğal etmiş və oradan 25 lullubi allahını^^ apararaq assur panteonuna əlavə etmişdi.

E.ə. II minillikdə qədim Azərbaycan emosları turukkilər, kutilər, lullubilər və onlara yaxın ərazidə məskunlaşmış şubarlar^^ Assuriyanın işğalçılıq siyasətinə qarşı çıxış edir, öz müstəqilliyi uğrunda mübarizə aparırdılar.,Qaynaqlardan göıündüyü kimi, bu tayfaların başçıları, hakim və hökmdarları vardı, lakin onlar vahid dövlət şəklində birləşməmişdilər. Bunun nəticəsində onlar.assur basqınlarına mə’mz qalır, güclü müqavimət göstərə bilmirdilər. Assurlar bu ölkələri talan edir, böyük qənimətlə və əsirlərlə (işçi qiwəsi) geriyə qayıdırdılar.

Lakin assurların burada hökmranlığı müvəqqəti xarakter daşıyırdı. Qədim Azərbaycan tayfalan üsyan qaldırır və assur əsarətindən xilas olmağa can atırdılar. Lakin Assuriyanın: siyasi təzyiqi və basqınları azalmırdı.

Qədim Azərbaycanın xırda hökmdarları çox zaman birləşməyə macal tapmır, təkbətək döyüşə girir və ya uğursuz müdafiə olunurdular. Turukki, kuti və lullubilər öz növbəsində assur sərhədlərində təhlükə yaradır, müvafiq torpaqlara iddia edirdilər. Qədim Azərbaycan tayfaları e.ə. II minilliyin sonu - I minilliyin əvvəlində yeni dövlət qurumlarının meydana gəlməsi ərəfəsində idi.

Andiabe - andiyalılar. Andia Urmiya gölündən şərqdə Xəzər dənizinə yaxın bir ərazidə yerləşirdi.

Şinibirni - sonrakı Sinabir dağı. Urmiya gölündən xeyli cənubda yerləşirdi.

Allahların təsviri, əlamətləri nəzərdə tutulur.

Yaxud subarlar. Bu tayfalar tkiçayarasınm şimalında geniş bir ərazidə yaşayırdılar.

## § 4. ETNİK TƏRKİB

Prototürklər. E.ə. 111 minillikde qədim Azərbaycanda yaşayan etnos və tayfaların etnik və dil tərkibi barədə dəqiq mülahizə yürütmək üçün əldə müvafiq mətnlər yoxdur. Məsələni ayırd etmək üçün o dövrün etnonim və toponimlərinə müraciət etməli oluruq. Bu səpkidə Aratta ölkə adı və turukki etnonimi maraq yaradır. Aratta qədim Azərt>aycanın dağlıq ərazisinə verilən ad idi. Mə’nası sadəcə olaraq «dağ» deməkdir. Şumer-Akkad məktəb lüğətində (e.ə. Vlll əsr) həmin sözün «arattu və aratu» nümunələri «dağ» mə’nasında əks olunmuşdur. Qədim dillərii heç birində buna oxşar «dağ» mə’nalı söz olmamışdır. Aratta ölkə adı Azərbaycan torpaqlarına şamil edildiyindən, deməli, «arattu, aratu» sözləri də qədim Azərbaycan əhalisinin dilinə məxsus imiş və şumerlər tərəfindən mənimsənilmişdi. Bu sözlərə oxşar oronimiər «dağ, dağ silsiləsinə» mə’nasında ancaq türk dillərində işlədilir. Məsələn, Alataa, Alatuu, Alatoo^^ türk mənşəli «dağ» bildirən sözləri göstərmək olar. Çox güman ki, Aratta, eləcə də aıultu, aratu sözləri erkən prototürk fonnası olmuş, sonralar r//l tbnetik əvəzlənməsinə mə’ıuz qalmışdı, yə'ni Alataa (qədim Aratta), Alatuu qədim arattu, aratu) şəklinə düşmüşdü. Bela fonetik dəyişkənin keçid mərhələsi Alatey yer adında özünü təzahür etmişdi. E.ə. VIII əsrdə Urartu qaynaqlan keçmiş Aratta ərazisini Alatey adlandırmışdı və ona «dağ» mə’nası vermişdi. Alatey türk dillərində işlənən Alatay, Altay, Alatey və Alatu «dağ, dağ silsiləsi» bildirən sözlərin erkən forması kimi qəbul edilə bilər. Bu sözlərin prototürk (erkən türk) dilinə mənsub olması heç bir şübhə yaratmır.

Bununla əlaqədar turukku, yaxud turuk etnnk adının da mənşəyi aydın olur. Etnonim «türk» tayfa adının erkən forması olmuşdur. Adətən «türk» etnoniminin qədim formasını «turuk, turuku» kimi bərpa edirlər. Erkən orta əsr yaddelli qaynaqlarda «türk» adı ilə yanaşı «tu- rukka» (hind qaynaqları), «turmki» (Xotan mətnləri), «daıq/Zdruqu» (Tibet qaynaqları) formalan işlədilmişdnr. E.ə. II minillikdə Akkad mixi yazılan etnonimin erkən, «turukki/turuki» formasını saxlamışlar. Bu dəlillər onu göstərir ki, e.ə. III - II minilliklərdə Azərbaycan ərazisində türk etnosları yaşayırdılar və o döviiin siyasi hadisələrində yaxından iştirak edirdilər. Beləliklə, Azərbaycanın ən qədim sakinlə-

Bu formalar Orta Asiya türk xalqlarının dilində işlədilir. Bundan başqa türk dillərində Altay, Alatey, Aladağ, Alada, Alatau və s. formalar da vardır.

rindən biri prototürklər olmuş və onlar hələ biri digərindən fonetik cəhətdən çox da tərdiiəşmiş ümumtürk dilində danışmışlar. Lakin bu dövrdə qərb və şərq türk dillərini səciyyələndirən bir sıra fonetik əvəzləmələr artıq yaranmışdı. Fərz etmək olar ki, prototürklər bu zaman nəinki qədim Azərbaycanın, eləcə də Anadolu yarımadasının və Orta Asiyanın sakinləri olmuş və tədricən şimala doğru hərəkət etmişlər.

Lullular. Bu tayfalar e.ə. III - 11 minilliklərdə və sonra qədim Azərbaycanın sakinləri kimi yad edilirlər. Lullular-Arattanın ərazisində yaşayırdılar. Qaynaqlarda lullu adı - bi, -mi şəkilçiləri vasitəsi ilə də işlədilir. Lullu ittifaqına daxil olan hər bır tayfanın öz adı vaımış. Bunlardan turukki və su adları mə’lumdur. Belə təəssürat yaranır ki, lullubi Azərbaycanın prototürk əhalisinə verilmiş kənar ad olmuşdur.

Lullu//lulu^^ adı bəlkə də bənzətmə, yaxud əhalinin dilində tez- tez işlənən bir sözü yamsılama nəticəsində yaranmışdı. Güman etmək olar ki, qədim Azerbaycan sakinlərinin dilində lulu (yaxud lo-lo)^*^ sözü müəyyən məqsədlə tez-tez işlənirmiş və buna gore də müvafiq ifadə kənar əhali tərəfindən Azərbaycan sakinlərinə ümumi ad kimi şamil edilmişdir. Etnoqrafik materiallara əsaslanaraq demək olar ki, qədim Azərbaycan maldarları mal-qaranı haraylayan zaman lulu (lo- lo) ifadəsini işlədirmişlər. Tədricən bu ifadə, güman ki, Azərbaycan sakinlərinə kənardan verilən ada çevrilmişdir. Bu ifadə qədim dövrdə oyun və rəqs zamanı oxunulan mahnının sözlərindən biri olmuşdur. Luli sözü müasir fars dilində də qalmışdır. Farslar oxuyan və oynayan adamlan luli adlandırırdılar. Türk mənşəli hunların bir sülaləsi Luli adını daşıyırdı. Luli etnonimi şən təbiətli etnik qnıplara da şamil edilirdi. Orta Asiyada qaraçı etnik qrupianna luli deyirlər. Şübhəsiz, bu söz və adlar qədim lullu/lulıı etnonimi ilə bağlıdırlar. Qədimdə isə bu etnonim Azərbaycan əhalisini bildirən kənar ad olmuşu^T.

Lullulann etnik mənsubiyyəti və dili barədə müxtəlif feı*ziyyələr irəli sürülmüşdü. Lullu dilinin kassi və elam, o cümlədən Qafqaz dilləri ilə qohum olması mülahizəsi ortaya atılmış, lakin bunu sübut edən dəlillər gətirilməmişdi. Bu mülahizələri irəli süıən be’zi keçmiş qərb alimləri qədim dövrdə türk amilinin varlığına biganə yanaşmış-

Müxtəlif cəm və mənsubiyyət şəkilçiləri (-bi//-be, -mi//-me, -hh!) vasitəsilə lullube, lulune, nullahhi formaları yaranmışdır.

Mixi yazılarda «o» işarəsi yox idi.

lar. Ona görə də qədim qaynaqlarda türk ünsürlərinin araşdırılması leng gedirdi.

Lullular Ön Asiya ölkələrində igid, döyüşkən və şücaətli bir etnos kimi tanınmışdır. Onlar Nuzi (Assuriyada) şəhərində məskunlaşmış və hurri etnosu ilə ünsiyyətdə olmuşlar. Bu şəhərdə həm lullu, həm de hurri mənşəli qulların eməyindən istifadə edilir, lullu qadın qulları isə yüksək qiymətləndirilirdi. Lullu Hurri və Het dövlət idarələrində işləyir muzdlu döyüşçü kimi orduda xidmət edirdilər. Humlər lulluları nulliLVnullahi (l//n fonetik əvəzlənməsi) adlandırmış və bu məthuma «özkə, yadelli» mə'nası vermişdilər. Onlann döyüş məharəti qonşular arasında vahimə tərədirdi. Məhz buna görə urartlar lullu etnik adını «düşmən» mə'nasında da işlədirdilər.

Turukkilər. E.ə. 111 - 11 minilliklərdə lullu bnr etnosa verilən ad deyilmiş. Lullu tayfa ittifaqı biri digəri ilə dil və etnik cəhətdən qohum olan və ayn-aynlıqda etnik ada malik olan prototürk (erkən türk) etnoslannı əsasən birləşdirmişdi. Lullu tayfa ittifaqına daxil olan qohum etnoslardan biri turukkilər olmuşlar. Onlar Urmiya gölünün cənubunda keçmiş Aratta ölkəsinin erazisində yaşayırdılar. Lullu dövləti süquta uğradıqdan sonra turukki tayfaları müstəqil siyasi qüvvə kimi çıxış etməyə başladılar. Onlar kuti və lullular kimi, Assuriya ilə qədim Azərbaycan arasında yerləşən torpaqlar uğrunda mübarizə aparırdılar. Bu erazidə şərqi subarlar və hurrilər də məskunlaşmışdılar. Eyni zamanda qaynaqlarda burada turukki və lullularla əlaqədar Uıa/Utem; (-m şəkilçidir) ölkəsinin adı çəkilir. Şübhəsiz, ad Utu/İtu etnonimindən əmələ gəlmişdir, Mə'lum olduğu kimi, utu/itu tayfası sonralar (e.ə. VHII-VII əsrlər) Assuriyada muzdlu döyüşçü sifətilə hərbi xidmətə cəlb olunurdular. Utu/itular turukki etnosuna mənsub idilər. Çox güman ki, utu/itu tayfa adı sonralar (e.ə. VI əsrdən e'tiba- rən) Azərbaycanın ərazisində geniş təmsil olunmuş «uti» tayfa adının ilkin formasını təşkil edirdi. Etnonim hun tayfalarından olan türk mənşəli «utnquD> («uti xalqı») adını təmsil edir. Maraqlıdır ki, e.ə. VIII əsrə aid bir kitabədə «udin adamları» ifadəsi işlədilmişdir. Burada «udin» etnik addır. Yəqin ki, qədim udinlər də (müasir udinlərə bu ad xeyli sonra kənar ad kimi verilmişdir) turukki etnosuna mənsub olmuşlar.

Sular. E.e. III - II minilliklərdə su tayfaları Zaqroş dağlarında və Urmiya gölünün cənubunda yaşayırdılar. Bu etnonimin ilkin forması suv//sub olmuşdur. Bir sıra tədqiqatçılar su etnonimini İkiçayarasının

iimaiında geniş bir erazide yaşayan Subir/ZSubar və Urmiya gölü hövzəsində yerləşmiş suvbi/sumbi tayfa adlanmn qısaldılmış (şəki)> v'isiz) forması hesab edərək Subər/subar adlarını sonrakı türk mənşəli sabır/Zsuvaf tayfalannın adı ile eyniləşdirmişlər. Qədim və erkən orta əsr qaynaqlarında rast gəlinən bu etnonimlərə türk dilləri baxımından yanaşılsa, etnonimlərə -ir, -ar sözlərinin əlavə edildiyini görmək olar. Qədim türk dillərində ir//ar eyni mə’nalı söz kimi «er, kişi» mə’nasını daşıyır. Etnonimin kök sözü sub//suv qedim türk dillərində «su, çay» mə’nasını daşıyırdı.

Ola bilsin ki, qedim zamanlar su, yaxud çay kənarında yaşayan tayfalar müvafiq suıətde adlanırmışlar.

Qedim qaynaqlarda sular ilə əlaqədar bir sıra ifadələr işlədilmişdir. Məsələn, «Su ölkəsinə mənsub lulu», «Şubar (Subar) ölkəsinə mənsub lulu». Deməli, lullular və sular qanşıq yaşayırmışlar. Bə’zi ballarda Aratta ölkəsinin adı «Su ölkəsi» mixi işarələri ilə göstərilmişdir. Deməli, Aratta, Lullübum və Su ölkəsi Urmiya gölü hövzəsindəki geniş bir ərazinin müxtəlif adları olmuşdur. Sular da tuıukki və lullu tayfa birləşmələrinə daxil idilər.

Kutilər (Qutilər). Qədim Azərbaycanın erazisində yaşayan emoslardan biri mixi yazılara «kuti» (yaxud «quti») adı altında düşmüşdür. «Kaıti» etnonimi e.e. 111-11 minilliklərdə və sonrakı qaynaqlarda yad edilir. Kutilər Urmiya gölünün cənub və qərb region-lannda məskunlaşmışdılar. Be’zen «kuti» adı Urmiya gölü hövzəsində təmsil olunmuş başqa tayfalara da şamil edilirdi. Kutilər bir tərəfdən turukkilər və lullubiler ilə ittifaqda, diger tərəfdən Urmiya gölü hövzəsinin yaxınlığında (qərbdən) məskunlaşmış subir (subarZ/şubar) tayfaları ilə ünsiyyətdə olmuşlar. Eyni zamanda kutilərin adı Diyala çayının yuxan axarlannda yerləşən Tukriş ölkəsi ile yanaşı çəkilir.

Kutilərin dil və etnik mənsubiyyəti barədə müxtəlif fərziyyələr irəli sürülmüşdür. Q.Hüzinq və F. orkun elam dilinə aid araşdırmalarında kuti (ve həmçinin lullubi) dilinin elam dilinə qohum olması və bunlann öz növbəsində Qafqaz dilləri ile qohumluq təşkil etməsi barədə mülahizə irəli sürmüşlər. Lakin bu qohumluğu göstərə biləcək dəlillər gətirilməmişdir. Diger ehtimala görə (Z.t. Yampolski), kuti adı sonralar antik qaynaqlarda Azərbaycan ilə əlaqədar yad edilən «uti» etnoniminin ilkin forması olmuşdur, ye*ni sonrakı dövrlərdə guya «k» səsi düşmüşdür. Lakin bu hal da müşahidə olunmur. Əksinə,

mixi qaynaqlar göstərir ki« kuti ve utu//itu (uti adının ilkin forması) tayfa adlan müxtəlif formada işlənirdilər. Kutiləri Hind-Avropa ve türk etnoslanna mənsub etmək meylləri də olmuşdur. Birinci meyli əks edən mülahizəyə görə (V.Henninq), kutilər Mərkəzi Asiyaya hərəkət etmiş, burada kuti adı (t//ç səs əvəzlənməsi ile) kuçi şəklinə düşmüş və irandilli toxarlara şamil edilmişdir. Ehtimala görə (T.Qamkrelidze, V.İvanov), toxarlar ilk əvvəl ön Asiyada yaşamış, e.ə. III minillikdə Hind-Avropa kök dilindən təcrid olunaraq şərqə doğru hərəkət etmişlər, nəhayət Mərkəzi Asiyada məskunlaşmışlar. Əslində toxarlar türk dilleripin güclü təfsirinə mə'ruz qalmış irandilli tayfa hesab edilir. Müvafiq surətdə kuçi, toxar ve tukri adları qədim türklər tərəfindən onlara şamil edilmişdir. Eyni zamanda tüger/Aoxar adı qədim oğuz emik bölümləiini də bildirirdi. Adı çəkilən tədqiqatçılar toxarlara şamil edilmiş türk mənşəli tukri adını Diyala çayının yuxan axarında yerləşdirilən Tukriş ölkə adı ilə eyniləşdirirlər. Buna oxşar Tikriş şeher adı Mannanın ərazisində de yad edilmişdir. E.ə. III minilliyin sonunda Tukrişde Arisen adlı hökmdar hakimiyyətdə olmuşdur. Türk dilləri baxımından Arisen «cəsur adam», yaxud «nəcib adam» mə'nasını verir. (Adı ilk əvvəldən hurri dilinə mənsub edirdilər). Belə düşünmək olar ki, Tukriş ölkə adı tukri etnonimn ve türk dillərində ad yaradan -ş//-iş şəkilçi birləşməsindən əmələ gəlmişdir. Həmin ad əsasında yə’qin ki, turqiş (r/q yerdəyişməsi nəticəsində) tayfa adı yaranmışdır.

Belə bir nəticəyə gəlmək olur ki, tükri/tükriş türk etnik bölmələrinin adı olmuşdur. Ön Asiyada toxarlar ile yaxın ünsiyyətə girmişlər və qismən şərq istiqamətində birgə hərəkət edərkən onlar türk mənşəli etnonimləri qəbul etmişlər. Bir sıra qədim türk sözləri yaxın ünsiyyət çağı toxarlar tərəfindən mənimsənilmişdir.

Vaxtilə kutilərin türk etnosu olması fərziyyəsi irəli sürülmüşdü (B.Landsberqer) ve buna uyğun olaraq quz/oquz tüık tayfa adı kuti adının dəyişilmiş fonetik forması kimi qələmə verilmişdi. Kuti hökmdar adlan türk dillərindən izah olunur (Kamal Balkan). Lakin həm kuçi, həm də quz etnonimlərinin kuti adı ilə eyniləşdirilməsi şübhəli olaraq qalır. Mixi qaynaqlarda kuti adı ku kimi de yazılır. Etnonimin əsasını ku sözü təşkil edirmiş, -ti isə şəkilçi vəzifəsini yerinə yetirirmiş. Qədim türk dillərində -t cəm şəkilçisinn bildirirdi. Ku sözü türk dilləri baxımından izah edilərsə, o «ağ, ağımtıl, san, ağımtıl san» mə'nalarını daşıyır. Belə halda kuti etnonimini «ağbəniz, ağımtıl»

kimi me’nalandırmaq olar. Bu mə’na onunla da tesdiq olunur ki, mixi senedlerin birində bir neçə «ağbəniz kuti qulu» yad edilmişdir. K.uti-lerin qərb qonşuluğunda Yuxan Zab çayının orta axannda e.ə. XII - XIII əsrlərdə kuman/Zkumen tayfaları yaşayırdılar. Bu etnonim də ku ve türk dillərində etnik ad düzəldən man//men şəkilçi birləşmələrindən əmələ gəlmişdir. Kuman sonrakı türk tayfa adı olmaqla «sanmtıl, ağımtıl» me'nasını daşıyırdı. Kutiler ağbəniz türk etnoslanndan idilər.

Mixi yazılarda kuti dilini de «qəribə dilləı*» cərgəsinə daxil edirdilər ve onu «qanşıq dil» adlandırırdılar. Yəqin ki, kuti dili prototürk dili kimi Hind-Avropa ve başqa dillərlə yaxın təmasda olmuş və onlar qarşılıqlı tə’sirə me'ruz qalmışlar. İkiçayarası qədim dövlətləri sükuta uğradıqdan sonra «kuti» etnonimi də artıq sənədlərdə işlədilmədi.

Qonşu etnoslar. Qedim Azerbaycan dövlətlərinin qonşuluğunda müxtəlif etnoslar yaşayırdılar.

Hind-avropalılar. Hind-Avropa etnik qruplarının vətəni barədə müxtəlif fəı-ziyyeler mövcud olmuşdur. Onlann ilk vətənə kimi Balkan yarımadası. Qara deniz sahilləri, Ural və b. regionları götürürdülər. Son tədqiqatlara əsasən belə bir müddət irəli sürülmüşdür ki, Şərq^Anadolu, Ön Qafqaz və Şimali İkiçayarası Hind-Avropa tayfalarının ilk vətəni olmuşdur. E.ə. V - IV minilliklərdə burada ümum- hind-Avropa (prahind-Avropa) dili mövcud olmuş, e.ə. əwel IV-III minilliklərin hüdudunda bu dil dialektlerə (ləhcələrə) parçalanmış və dialektlərdə danışan hind-avropalılar tədricən qərbə, şimala və şərqə doğnı hərəkət etmişlər. E.ə. III minillikdə ümumhind-Avropa dilindən ari (Hind-İran) dil birliyi ayrılmış və e.ə. II minilliyin sonunda bu dil birliyi de Hind və İran dillərinə təcrid olunmuşdur. Hind-Avropa leksikası qədim şumer, elam, sami və müasir kartvel, türk dillərində ayırd edilmişdir, lakin Türk-Hind-Avropa dil ünsiyyətini Orta Asiyanın ərazisi ile bağlayırlar. Tədqiqatlar isə göstərir ki. Ön Asiyada Hind-Avropa dil birliyinin parçalanması zamanı burada prototürk (yaxud pratürk) etnosu yaşayırdı. Bunu xüsusilə qedim Azerbaycanın ərazisi ile əlaqədar müəyyən edilmiş prototürk ünsürləm və şumer dilinə keçmiş prototürk leksikası aydın göstərir. Çox güman ki, pratürk dil birliyinin parçalanması e.ə. VIII-VII minilliklərdə baş vermiş ve bu dövrdə Hind-Avropa dili ilə ünsiyy'ətdə olmuşdur. Bu etnosların arasında qarşılıqlı leksik mənimsəmələr prototürklərin ilk vətəni ön Asiyada baş vermişdir. Hind-Avropa ve türx dillərində bir sıra ümumi oxşar, yaxud bir kökdən əmələ gəlmiş sözlərin olması

vaxtilə bele bir fərziyyəni ortaya atmışdı ki, Hind-Avropa tayfaları ile birlikdə Ural-Altay etnosları da hərəkət edirdilər. Güman etmək olar ki, hind-avropalılar ile birlikdə müxtəlif istiqamətlərdə erkən türk etnoslan da qismən yayılmışlar. E.e. II minillikdən Hind-Avropa etnoslannın dili və leksik ünsürləri Ön Asiyanın Hett mətnlərində, Mitanni və kassilərə mənsub yazılarda öz əksini tapmışdır. Bu isə hind-avropalılann geriyə, Ön Asiyaya miqrasiyası ilə əlaqələndirilir.

Şumerlər. Aratta ilə siyasi və iqtisadi ünsiyyət saxlayan şumerlər İkiçayarasının cənubunda məskunlaşmışdılar. Burada meydana gəlmiş müvafiq erkən mədəniyyətin yaradıcıtarım protoşumer (erkən şumerlər), yaxud ubaidlər (Ubeyd arxeoloji mədəniyyətinə əsasən) adlandırırlar. Şumerlər İkiçayarasına gəlmə xalq hesab edilir. Ehtimala görə, burada e.e. IV minilliyin əvvəlində, yaxud ikinci yarısında məskunlaşmışlar. Şumerlərin Anadoludan, Şərqi Qafqazdan, İrandan, o cümlədən Elamdan, Orta Asiyadan, hətta Hindistandan və Hind-Çindən gəlmələri barədə mülahizələr irəli sürülmüşdür. Bə’zi mülahizələrə görə, şumerlər quru yolla, be’zisine görə isə su yolu (Fars körfəzi) vasitəsilə Cənubi İkiçayarasına gəlmiş, onların ilk axını Eredu (şumercə «xeyirxah şəhər») şeherində məskunlaşmışdır. Güman etmək olar ki, şumerlər Cənubi İkiçayarasına birbaşa gəlməmişlər, oraya yaxın bir ərazidə məskən salmış, tədricən çayarası ərazini mənimsəmişlər. S.Kramerin fikrincə, şumerlər e.e. IV minillikdə Urmiya gölü hövzəsindən İkiçayarasına gəlmişlər. Yəqin ki, şumerlər və başqa etnoslar da burada məskən salırmışlar.

Mixi qaynaqlarda Cənubi İkiçayarasının ərazisi «ŞumeD> adlandırılır. Şumerlərə həm kenqir (kienqi), həm de «qara-başlar» adı verilmişdi. Oxşar adlar (şumer, kenqir, qarabaş) sonralar türk etnosları aləmində işlədilirdi. Bele təsəvvür yaranır ki, şumer xalqı müxtəlif dillərdə danışan etnosların birləşməsindən yaranmışdı, lakin burada şumer dili üstünlük təşkil etmiş, yazı dilinə və ünsiyyət vasitəsinə çevrilmişdi. Şumer dili nə elam, nə sami, nə də başqa qedim dillər ilə qohum deyil. Şumer dilini bir çox müasir dillər ile müqayisə etmiş və onların arasında qohumluq bildirən leksik əlamətlər axtarmışlar. Bu səpkidə Qafqaz, türk, geniş me’nada Ural-Altay, Çin-Tibet, Hind-Avmpa və s. dillər ilə bağlamaq cəhdləri göstermişlər. Şumer dilinin heç bir qədim və müasir dil ilə qohumluğu müəyyən edilməmişdir. Daha çox şumer sözləri türk dillərinin leksikası baxımından araşdınl- mışdır.

Alman alimi F.Hommel şumerlerin Merkezi Asiyadan gəlməsi və humer dilinin Altay-Türk dilləri ile qohum olması müddəasını müdafiə etmiş və bir çox şumer-türk sözlərinin qarşılıqlı müqayisəsini vermişdnr. Son zamanlar şumer-türk dilləri sahəsində araşdırmalar davam etdirilmişdir. A.S.Amonjolov, O.Süleymenov, A.Memmədov, İ.M.Miziyev və başqaları şumer-türk leksik uyğunluqlarını qeyd etmişlər. Türk alimi Osman Nədim Tuna şumer ve türk dillərinin tarixi əlaqəsinə həsr etdiyi eserində 170-e qeder şumer sözünün türk leksikası ilə müqayisəsini vermiş və linqvistik kriteriyalar əsasında şumer-türk leksik uyğunluqlarını müəyyən etmişdir. Professor O.Tuna fonetik səs əvəzlənməsi prinsipinə (eyni zamanda I-ş, r-z) əməl edərək belə nəticəyə gəlir ki, qərbi ve şərqi türk dillərinin ünsürləri şumer dilində əks olunmuşdur. Məsələn, şumer «q» fonemi türk dülerikdə «y», yaxud «o» (sıfır) ile uyğunlaşır: şum, qarim «çay, çay vadisi» - türk, arik «çay, arx»; şum, qaz «əzmək, dağıtmaq» - türk, öz «əzmək»; şum, qid «uzaqlaşdırmaq, sıxışdırmaq» — türic, id «göndərmək», it «itmək»; şum, qiq <aeste olmaq» - türk, iq «xəstəlik»; şum, qiş «ağac, meşə» - türk, yiş «ağac, meşə, dağ»; şum. qişiq «qapı» - türk, eşik «qapı»; şum. qud «öküz» - türk, ud «öküz, buğa», şum, qur «kəsmək, ayıraıaq» - türk, üz «üzmək, qoparmaq» ve s. O.Tuna eyni səpkidə diger şumer-türk fonetik uyğunluqlarını (d-y, m-4c, n~y, s^-y və s.) misallarla əsaslandırır. Müəllif belə nəticəyə gəlir ki, qədim türk etnosları e.ə. IV minilliyin ortalarında Ön Asiyada (Şərqi Anadoluda) yaşayırdılar ve o zaman türk dilləri şərq və qərb qollarına aynimışdı. (^ox güman ki, bu hal prototürklərin şərqə doğru hərəkəti ilə bağlı olmuşdur.

Samilər, kassilər və elamlar. Sami tayfaları e.ə. III minilliyin əvvəlində qərbdən gələrək şimali İkiçayarasında məskunlaşmış, tədrcən cənuba yayılmış və şumerlərə bilavasitə qonşu olmuşlar, tkiçayara- smda ölkənin adı ile akkadlar adlanan erkən samilər şumer mədəniyyətinə yiyələnmiş ve tədricən şumer dilinin işlənməsini məhdudlaşdırmışlar.. Şimali İkiçayarasında akkad dilinin assur ləhcəsi. Cənubi İkiçayarasında babil ləhcəsi yaranmış, tədricən hər iki ləhcə ədəbi dil səviyyəsinə qalxmışdır.

Şumer və akkadlardan şimalda Subir (akkadca Subar, Şubar) emoslan yaşayırdılar. Onlar Şimali İkiçayarasında 2^qtoş dağlanndan Fərat çayına kimi uzanan ərazidə məskən salmışdılar. E. e. II minilliyin əvvəlindən burada həmçinin hurri tayfalan yayılmışdılar. Şərqi

subir/Zsubarlar Urmiya gölüne qedərki erazide meskən salmış ve etriik cəhetden yəqin ki, Urmiya gölü hövzəsi əhalisinə yaxın olmuşlar.

Kassilər. Akkadlann şərq qonşuları Mərkəzi Zaqroş dağlarının tran hissəsində, Diyala çayının cənubunda yaşayan kassi, yaxud kaşşi tayfaları idi. Kassilər lullubi ve turukkilerin cənub-şərq qonşuları otmuşlar. E.ə. II minilliyin ortalarında tkiçayarasmda (Babilistanda) hakimiyyətö kassi sülaləsi gəlmişdi. Be'zi alimlər kassi etnonimini sonrakı kaspi tayfa adı ile eyniləşdirmiş və buna əsasən kassilərin Xəzər (Kaspi) dənizi sahillərindən gəldiklərini söyləmişlər. Kassilər hind-avropalılar ile ünsiyyətdə olmuşlar. Bunu onların dövrünün qaynaqlarında bir sıra Hind-Avropa mənşəli sözlərin olması göstərir.

Antik dövrdə bu tayfa kassi, kissi, kossey adı altında Elam ərazisində və nisbətən şimalda təmsil olunmuşdular. Zaqroş dağının şərqə uzanan qolunu isə Kissi dağlan adlandırırdılar. Bə’zi mülahizələrə görə, kassilər Urmiya gölü hövzəsinə qədər yayılmışdılar.

Elamlar. Kassilərden cənub-şərqdə, tran yaylasının cənubunda Elam ölkəsi yerləşirdi. Qonşular buranın əhalisini elamlar adlandırırdılar. İran yaylasının ən qədim sakinlərindən biri olmuş elamlar pikto- qrafik^l və xətti yazı növlərini İcad etmişdilər. Elamlar tkiçayarasın- dan mixi yazı növünü mənimsəmişdilər. Şübhəsiz, onlar gəlmə yox, yerli qədim xalq olmuşdur. Elam dilinin mənşəyi barədə müxtəlif fərziyyələr irəli sürülmüş, onu həm qədim, həm de müasir dillər ilə eyniloşdinnislər. Elam dili ile sami Hind-Avropa və şumer dilləri arasında heç bir maddi qohumluq müəyyən edilməmişdir. Vaxtilə elam dilini huni ve kassi dillərinə qohum hesab edərək hətta kassi dilini elam dilinin ləhcəsi kimi da götürürdülər. Lakin mövcud olan cüzi dəlillər səthi xüsusiyyət daşıyırdı. Elam dilinin leksikası, qrammatik quruluşu və İbrmantlan (şəkilçiləri) Qafqaz, dravid, türk, geniş mə'nada Ural-Altay dilləri ile müqayisə edilmiş, əfsus ki, bu araşdırmalar sistem şəklində aparılmamış, təsadüfi oxşarlıqlara üstünlük verilmiş, həmçinin maddi-fonetik qanunauyğunluq tətbiq olunmamışdı. Son zamanlar elam dilinin dravid dilləri ilə maddi qohumluğu mülahizəsi irəli sürülmüşdür. Qedim dövrlərdən bəri Hindistanda məskunlaşmış dravidlərin dillərinin türk dilləri ilə maddi qohumluğu barədə araşdırmalar apanimış, lakin bu iş də elmi baxımdan sona çatdırılmamışdır. Elam dilinin dravid dilləri (yaxud başqa dillər) ilə ve dravid

Plktoqraflya - «şəkli yazı» növü.

dillərinin türk dilləri ile maddi qohumluğunu inandıncı dəlillər vasitəsilə sistemli şəkildə açıb gösterən yeni araşdırmalara böyük ehtiyac duyulur.

Elam dilinin b^şqa dillər ile qohumluğunun aşkar edilməsi sahəsinda müəyyən çətinliklər də vardır. Elam mətnləri və leksikası azlıq təşkil edir, be’zi elam mətnlərinin məzmunu hələ açılmamışdır. Elam dili aqlütinativ^2 qrammatik quruluşa malik olmuşdur. Tipoloji cəhətdən türk dilləri de aqlütinativ xüsusiyyətə malikdir. Lakin tipoloji* oxşarlıq öz-özlüyündə dillərin qohumluq əlamətini bildirmir. Elam tipli dillər İranın erazisində geniş yayılmışdı. Yəqin ki, Urmiya gölü hövzəsində də elam dilli əhali məskunlaşmışdı.

## § 5. MANNA DÖVLƏTİ

E.e. I minilliyin əvvəlində Cənubi Azərbaycan erazisində Urmiya gölü hövzəsində mərkəzləşmiş dövlətin meydana gəlməsi üçün şərait yaranır və yeni təşkil edilən dövlət Manna adlanır. Manna Assur və Urartu işğallarına qarşı mübarizədə mətinləşirdi. Manna dövləti qonşuların işğalına qaı*şı Özünü müdafiə mövqeyində saxlayır, xarici siyasətini siyasi vəziyyətə uyğunlaşdırır, ayn-ayn xırda vilayət hakimlərini vahid mərkəzdə birləşdirməyə cəhd gösterirdi.

Xırda dövlət birləşmələri. £.e. IX əsrdə Manna erazisində bir sıra xırda dövlət birləşmələri mövcud idi. Bu dövlətlər müstəqil xarici siyasət yürüdür və xarici müdaxiləyə qarşı təkbaşına mübarizə aparırdılar. Mannanın ərazisində Zamua, Mazamua, Gilzan, Allabria, Karal- la, Meişta-Mesi, Alateye, Surikaş, Missi, Gizlibunda, Uişdiş, Buştu, Bara-Sanqibuti, Zikirtu və Andia kimi vilayətlər meydana gəlmişdi.

Urmiya gölünün cənubunda Zamua^^ vilayəti yerləşirdi. Bu erazi lullulann məskəni olmuşdu. E.e. IX əsrin birinci yansında Zamua siyasi cəhətdən vahid deyildi və bir neçə müstəqil vilayətlərə parçalanmışdı. Assur qaynaqlannda «Zamua hökmdarları» ifadəsi bu ölkə ilə əlaqədar işlədilmişdir. Deməli, Zamua ərazisi ayrı-ayn xırda ha-

Aqlütinativ dillərdə sözün kökünə şəkilçilər əlavə edilir və yeni sözlər yaradılır, lakin sözün kökü dəyişUcliyə uğramır.

Zamua Aşağı Zab çayından Urmiya gölünə qədər uzanan ərazini tuturdu.

kimler terəflnden,idarə olunurdu. Ölkənin siyasi pərakəndəliyi şəraitində Zamua hökmdarları xarici işğallara qarşı güclü müqavimət gös> tərə bilmirdilər, nəticədə ölkə çapılıb talan edilir, yaxud da xərac verməklə əhalini və əmlakım saxlaya bilirdi. £.ə. 880-ci ildə assur hökmdan II Aşşumasirpal (e.ə. 883 - 859-cu illər) Zamua ölkəsinə hücuma keçir. Bu zaman Assuriyaya xərac verməkdən imtina edən zamualılar da üsyana qoşulurlar. II Aşşumasirpal Süleymaniyyə keçidini aşaraq Zamuanm Nisir'^^ dağına yaxınlaşır. Əhali müqavimət göstərə bilmir. Assurlar yeddi qalanı ələ keçirərək dağ arxasındakı 150 yaşayış məntəqəsini də tuturlar. II Aşşumasirpal Zamuanm paytaxtı* Zamri^^ şəhərinə yaxınlaşır. Vergidən boyun qaçıran Zamua hökmdarı Ameka şəhərinin müdafiəsini təşkil edə bilmir və qaçıb dağlarda gizlənir. Assurlar Lallu çayını keçib Etini keçilməz dağına yaxınlaşırlar. Qaynağın mə’lumatma görə. Etini dağı ərazisində hökmdar məskənləri yerleşıımiş. Buradan mis əşyalar, hökmdar xəzinəsi və əmlakı, əhalinin sitayiş etdiyi allahlar^^ qənimət kimi aparılır. II Aşşumasirpal yürüşü davam etdirərək Zamuanm Edir^”^ və Elaniu çaylarını keçir və yüksək Suv^® dağlarına çatır, Ameka burada özünə sığınacaq tapıbmış. O, döyüşə girmək əvəzinə, indi də Sabua dağma qaçır. Çox güman ki, Amekanın daimi, yaxud müqavimət göstərə bilən güclü ordusu da yox imiş. Burada assur hökmdan ibadət yerlərini dağıtdı, mis əşyalar, əmlak və çoxlu atlar elə keçirdi.

Müqavimət görməyən II Aşşumasirpal Zamua ölkəsini ələk-vələk edərək Zamuanm Arzizu vilayətinə gəlib çatır. Aızizu Nispi sıldınmıı dağı^^ ətrafında yerləşirdi. Burada Ata®® adlı bir nəfər hökmdar idi.

Lullu əhalisi bu dağı Kintpa adlandınrdı. Söz bəlkə də «dağ, dağlıq» me’nasını verirdi. Gilqameş dastamndakı Nisir dağı ile eyniləşdirilir.

Zamua ve Zamri adlarının me*nası aydın deyil. Hər iki toponimdə «zam» komponenti ve müvafiq şəkilçilər iştirak edir.

Yəqin ki. Mannada aUahlann təsvirinə və heykəllərinə səcdə edirmişlər. Qaynaq məhz belə əşyaların aparılmasını nəzərdə tutmuşdur.

Edir çayı Mannanın cənubunda axırmış. Buna oxşar Edil adım (r~l fonetik əvəzlənməsilə) sonralar türk etnoslan Volqa çayına vermişdilər.

78 Suv ya müvafiq tayfa adım əks etdirirmiş, ya da «dağ» mə'nasını daşıyırmış.

7^ Arzizu və Nispi adlarımn me*nası me*tum deyil.

Ola bilsin ki, Ata xüsusi ad yox, «ata, başçı» me*nasım daşıyan

Aşşuraasirpalm mə'lumatına göre, ondan əvvəlki heç bir hökmdarın ayağı bu yerlərə dəyməyibmiş. O, bu ölkənin də qalalannı və yaşayış məntəqələrini dağıdır, yandınb külə döndərir. Arzizu vilayətinin qonşuluğunda Sipirmen ölkəsi yerləşirdn. Sipirmen əhalisi basqının qarşısını almaq məqsədilə assur hökmdarına mis əşyalardan ibarət xərac göndərir. Aşşuraasirpal qeyd edir ki, «Sipirmen əhalisi arvad kimi danışiD). Bəlkə də «arvad kimi» danışmaq müəyyən dini ibadət ilə bağlı imiş.

Aşşuraasirpal buradan Arakdi şəhərinə yola düşür. Qaynağın mə'lumatına görə, «Zamua ölkəsinin bütün hökmdarları» qoı-xuya düşərək onun yanına gəlir və itaət rəmzi olaraq qızıl, gümüş, qurğuşun, tunc, tunc qab-qacaq, müxtəlif rəngli parçalardan tikilmiş paltarlardan, o cümlədən at, mal-qara və şərabdan ibarət idi. Aşşuraasirpal onların üzərinə yeni vergilər qoyur. O, Zamuada olarkən Gilzan vilayəti, Hubuşkiya ölkəsi və başqa şəhər elçiləri könüllü olaraq xərac gətirirlər. Lakin əhalinin bir qismi Aziru və Simaki dağlan arasında yerləşən Mesu qalasında sığınacaq tapdı. Aşşuraasirpal ətraf kəndləri dağıdır, yandırır, 500 döyüşçüsü həlak olur, lakin Mesu qalasını ala bilmir. Mesu®* yəqin ki. Urmiya gölünün cənub-qərbində, dağlarda yerləşirdi.

Beləliklə, e.ə. IX əsrin birinci yansmda Zamua ölkəsində xırda hakimiyyətlər mövcud idi. Vahid mərkəzdə birləşmədiyindən Zamua hökmdarlannın hər biri assur ordusuna qarşı təkbaşına mübarizə aparmalı olur, yaxud xərac göndərməklə Assuriya ilə müstəqil siyasi əlaqə yaradırdılar. Əvvəlki dövrlərdə lullubi adlanan Zamua əhalisi vaxtilə burada vahid dövlət yaratmışdılar. Assurlardan uğurlu müdafiə olunmaq və tam müstəqil siyasət yürütmək üçün indi də vahid (e.ə. IX əsrin birinci yarısı) mərkəzə tabe olan dövlət idarə sisteminin yaradılmasına ehtiyac duyulurdu.

Manna dövlətinin yaranması. Manna adı ilk dəfə e.ə. 843-cü ildə assur qaynaqlannda yad edilmişdir. Ölkənin adı mixi qaynaqlarda Mannaş, Munna və daha çox Manna şəklində yazılırdı. Urartu mixi yazıları ölkəni Mana, Tövrat isə Mini kimi qeyd edirdi. İosif Flavi (I əsr) Uımiya gölünün cənub-qərbinə və qərbinə şamil edilən Miniada

Mesu dağlıq ərazini əks etdirən sözdür, buna oxşar Messi Mannanın cənubunda vilayət adıdır. Türk toponimlərində «mes» dağın iti zirvəsi, meşəsiz dağ, dağm günəşli tərəfi mə'nalarında işlədilmişdir.

fonnasını işlətmişdi. Assur qaynaqlarında Manna əslində tayfa adını bildirirdi.®^

Assur hökmdarı III Salmanasar (e,ə. 859-824-cü illər) e.ə. 856-cı ildə Mannanın Zamua®^ vilayətinə soxuldu, burada Nikdiara və Nikdimanm şəhərlərini tutdu. Görünür, bunlar şehəT hakimləri olmuşlar, çünki hakimiyyət rütbələri göstərilməmişdir. III Salmanasar deniz (Urmiya gölü) döyüşündə onların ordusunu məğlubiyyətə uğradır. Elə həmin il Urmiya gölünün qərbində yerləşən Gilzan vilayətinin hökmdarı Asau oğlanları və qardaşlan ilə birlikdə III Salmanasarı qarşılayır, ona at, dəvə, mal-qara və şərabdan ibarət xərac verir. Bu yolla Gilzan hökmdarı ölkəni assurların talanından qomyur. E.ə. 835-ci ildə o. Mannanın cənubunda, Parsua®^ ölkəsinin qonşuluğunda yerləşən Messi vilayətinə də hücum edir.

E.ə. 829-cu ildə III Salmanasar bilavasitə Manna hökmdan Ualkinin (Udaki) hakimiyyəti altında olan torpaqlara soxuldu. Ualki də müqavimət göstərə bilmədi, paytaxtı Zirtu (sonrakı İzirtu) şəhərini lərk edərək qaçdı. III Salmanasar müdafiəsiz qalmış Mannanın saysız-hesabsız mal-qarasını, davarını və var-yoxunu taladı, şəhərlərini dağıdaraq yandırdı. Bir il sonra Salmanasar Mannanın Buştu vilayətinin eyni adlı şəhərini tutdu. Gilzanda hakimiyyətə gəlmiş Upu və uzaq Andiya®^ vilayəti ona xərac göndərdi.

Beləliklə, e.ə. IX əsrin ortalarında, bəlkə də birinci yarısında Urmiya gölü hövzəsində Manna dövləti artıq yaranmışdı. Manna bütün Cənubi Azərbaycan torpaqları üzərində hakimiyyətini bərqərar edə bilməmişdi, hələ müstəqil siyasət yürüdən vilayətlər mövcud idi. Xüsusilə Gilzan müstəqil hökmdarlar tərəfindən idarə olunurdu. Zamua-lullubilər ölkəsi Mannanın mərkəzi torpaqları idi. Assuriyanın hərbi müdaxilələri Manna hökmdarlarını ölkəni vahid mərkəzdə birləşdinnəyə vadar edirdi. Lakin Manna uzun müddət buna nail ola bilməmişdi. Çünki mannalılar iki cəbhədə müdafiə olunmağa məcbur idilər. Bir tərəfdən assur hökmdarları Mannaya hərbi yürüşlər təşkil

Qaynaqlarda «mat mannaya», yə’ni «mannalılar ölkəsi» ifadəsi işlənir. Munna forması göstərir ki, ad bəlkə də Mona kimi tələffüz olunurmuş. Mixi yazılarda «o» işarəsi olmamışdır, «-ş» toponimik göstəricisi vasitəsilə Mannaş ölkə adı əmələ gəlmişdir. Adın mənşəyi mə’lum deyil.

Bə’zen Mazamua kimi yazılır.

Diyala çayının yuxan axarında yerləşirdi. Andia Mannanın şərqində. Xəzər dənizi sahilində yerləşirdi.

Andia Mannanın şərqində. Xəzər dənizi sahilində yerləşirdi.

edir, şəhər və yaşayış məntəqələrini dağıdır, əhalini çapıb-talayır, öldüıür, digər tərəfdən isə Van gölü hövzəsində e.ə. IX əsrdə meydana gəlmiş Urartu dövləti Mannaya qarşı işğalçılıq siyasəti yürüdərək torpaqlarını zəbt edir və burada möhkəmlənmək niyyəti güdürdü

Manna artıq e.ə. IX-VIII əsrlərin hüdudunda Urmiya gölü hövzəsində ən güclü bir dövlətə çevrilirdi. Eyni zamanda xırda hakimiyyətlərin vahid bir mərkəzdə birləşdirilməsi sahəsində ilk addımlar atırdı.

Assurların Mannaya müdaxiləsi. Assur hökmdarı V Şamşi- Adad (e.ə. 823-811-ci illər) Mannaya qarşı yürüşünü Zamua torpaqlarından başladı.*^*' Burada Mekdiaranın oğlu Şarsina hakim (rütbəsi göstərilməmişdir) idi. Onun vilayətini talan etdi, 300 yaşayış məntəqəsini tutdu və dağıtdı. Eyni zamanda o, Urartu hökmdarı İşpuininin 11 qalasını və 200 yaşayış məntəqəsini də tutaraq dağıtdı, döyüşçülərini məhv etdi, oğul və qızlarını əsir apardı. Çox güman ki. Urmiya gölünün cənub və cənub şərqində yerləşən ve Mannaya mənsub olan bu torpaqları tşpuini (e.ə. 825-8 l2-ci illər) işğal etmişdi. V Şamşi-Adadm bu yürüşü nəticəsində Urartu Mannanın qərb torpaqlarından sıxışdırılıb çıxarıldı. Bu ərazidə Mannanın sunbi (sonrakı subi, sum- bi) tayfası məskunlaşmışdı. Uraıtu hökmdarının məğlubiyyəti və as- sur ordusunun burada daimi qərar tutmaması Mannaya öz ərazisinə sahib olmaq üçün şərait yaratdı. Sunbilər yaranmış fürsətdən istifadə eldilər. Lakin V Şamşi-Adad yürüşdən qayıdan zaman sunbiləri də məğlubiyyətə uğratdı və atlardan ibarət vergi aldı. E.ə. 820-ci ildə V Şamşi-Adad yenə də Nairi ölkələrinə hərbi səfərə çıxdı. Bu dəfə Manna ərazisində heç bir müqavimətə rast gəlmədi. Mannalılar, sunbilər, Şarsina özü və başqaları Şamşi-Adadı atlardan ibarət xərac ilə qarşıladılar, bununla da əhalini talandan qorudular. Lakin Mesi vilayətinin əhalisi qaçıb Urmiyə gölünün cənub-qərbində sıldırım qayalarda gizləndi. Qaynaqda qeyd edilir: «Mesiler qaçdılar və göydən bulud kimi sallanan üç dağ zirvəsində («üç qaya» arasında) gizləndilər». V Şamşi-Adad mesiləri tə’qib etdi. 500 yaşayış məntəqəsini dağıdaraq yandırdı, əhalini var-yoxdan çıxartdı, mal-qaranı, qoşqu atlarını, ikigüvənli dəvələri, qatırları və əsirləri qənimət kimi apardı.

Əslində yürüş Nairi ölkələrinə qarşı təşkil edilmişdi. Zamua və bir çox vilayətlər «Nairi ölkələri» anlamına daxil idi. Əvvəllər Van gölünün yalnız cənubu Nairi adlanırdı, V Şamşi-Adad dövründə isə bu coğrafi anlayış daha geniş bir əraziyə şamil olunurdu.

V Şamşi-Adad buradan Qizilbunda/Qizübuda (Gizilbunda, yaxud Gizilbuda) ölkəsinə yola düşdü. Qizilbunda Manna ilə Midiyanın arasında, indiki Qızıl Üzən çayının cənubdan başlayan qolunun yuxan axarında və dağlıq sahədə yerləşirdi. Assurlar Qizilbundanın Kinaki şəhərini tutaraq yandırdılar, ölkənin «daşlı dağı Bişbizidaya» qalxdılar. Oranın bə'zi hakimləri itaət məqsədilə V Şamşi-Adada at və qoşqu ləvazimatından ibarət xərac verdilər, lakin Qizilbunda əhalisi assurlardan canlarını qurtarmaq üçün yaşayış yerlərini tərk etdilər və Uraş qalasında gizləndilər. Assurlar Uraş qalasını ələ keçirərək dağıtdılar. Qizilbunda hökmdarı Pirişati döyüşdə 6 min döyüşçü itirdi, özü isə 200 döyüşçü ilə əsir düşdü. Qaynağın mə'lumatına görə, assurlar Uraş «şəhərinin küçələrini qırmızı yun kimi döyüşçülərin qanına boyadılan), əsirlər tutdular, əhalinin əmlakını, mal-qarasını, davarını, atlarını, qızıl, gümüş və tunc qablarını ələ keçirdilər. V Şamşi-Adadın dediyinə görə, o, «Günbatan dənizə» (Xəzər) kimi əhali arasında vahimə yaratdı.

Bu zaman, yə'ni IX əsrin sonunda Qizilbunda hökmdar tərəfindən idarə olunurdu. Mannadan hələ tam asılı deyildi. E.ə. IX əsrin sonunda assur hökmdarı III Adadnirari (810-783-cü illər) öyünür ki, Günbatan (Xəzər) dənizə kimi yerləşən ərazini işğal etmişdir. İşğal olunmuş ölkələr içərisində Manna, onun vilayətləri Mesu, Qizilbunda, «uzaqda yerləşən» Andia, Allabria,^^ o cümlədən Midiya yad edilmişdir.

Mə'lumat təfsilatlı olmadığından güman etmək olar ki, bu ölkələr təzədən işğal olunmamışdı.E.ə. IX əsrin sonunda Assuriya hökmdarlarının işğal hədəfinə çevrilmiş Manna dövləti, onun vilayət hakimləri və hökmdarları gah uğursuz müqavimət göstərir, gah da assur ağalığını xərac verməklə tanımağa məcbur olurdular.

Mannada Urartu işğalları. E.ə. IX əsrin ikinci yarısında Urartu şərq istiqamətində geniş işğallar həyata keçirməyə başladı. Urartu Şərqi Anadoluda Van gölü (Türkiyə) yanında yaranmış dövlət idi. Urartu hökmdarları Urmiya gölü hövzəsində Manna torpaqları hesabına ərazilərini genişləndirməyə cəhd göstərirdilər. Dövləti birlikdə idarə edən İşpiuni və onun oğlu Menua (e.ə. 810-781-ci illər) Urmiya gölünün cənubunda yürüş təşkil edirdilər. İşpiuni Mannanın II qalasını

Allabria Aşağı Zab çayının başlanğıcında yerləşirdi.

İlk beş ili III Adadnirarinin anası Şammuramat (əfsanəvi Semiramida) hökmranlıq etmişdi. Əfsanələrdə onun işğalları Xəzər dənizinin cənub-şərqinə çatdırılırdı.

ələ keçirmişdi. Şamşi-Adadın qələbəsindən sonra yəqin ki, Manna öz torpaqlarına sahib olmuşdur. İşpuini və oğlu Menua birgə səfər zamanı (e.ə. 812-ci ildə) Mannanın Menşta vilayətini tutaraq buradan cənub istiqamətinə hərəkət etdilər və Parsuanın (urart. Barşua) bir sıra şəhərlərini ələ keçirdilər. Çox güman ki, 11 Manna qalası Meiştanın ərazisində (Urmiya gölünün cənub-qərbi) yerləşirmiş. Lakin man- nalılar bu torpağı yenidən geriyə qaytanrlar. Menua təkbaşına hakimiyyəti zamanı (e.ə. 809-cu il) təzədən bu əraziyə yürüş etdi. Qaynaqda deyilir ki, «o, Meişta şəhərini tutdu, oradan Manna ölkəsini aldı». Menua Urmiya gölünün cənubu ilə irəliləyərək gölün cənub- şərqinə, müasir Mianduaba gəlib çatdı və burada yazılı abidə qoydur- du.^^ Eyni zamanda o, burada qala saldırır ki, bu torpaqlar nəzarət altına alınsın. Lakin mannalılar tezliklə öz torpaqlanm urartulardan təmizləyirlər. Menua bir daha Mannaya qarşı yürüş etməli olur.

Bu yürüş barədə Menuanm kitabəsində deyilir: «Allah Haldinin^® qüdrətilə Menua, İşpuini oğlu. Manna ölkəsinə yola düşdü, ölkəni dağıtdı, oda tutdu». Menuanm Mannaya bu hücumu heç bir siyasi müvəffəqiyyətlə nəticələnmədi. Manna Urmiya gölünün cənubunda olan və Urartu müdaxiləsinin hədəfinə çevrilən torpaqlannın sahibi olaraq qaldı. Urartu və Assuriyanın Mannanın bu ərazisi üstündə mənafeləri toqquşurdu.

E.ə. VIII əsrin birinci yansında Assuriya dövləti siyasi böhran dövrünə qədəm qoydu. Belə şəraitdə Urartu Ön Asiya hadisələrində iştimk edən qabaqcıl qüvvəyə çevrildi və Manna Urartu hökmdarı I Argiştinin diqqətini (e.ə. 781-760-cı illər) daha çox cəlb etməyə başladı. O bir neçə dəfə (e.ə. 779-774-cü illər) Manna toıpaqlarına soxuldu. E.ə. 779-cu ildə 1 Argişti Mannaya və Buştu vilayətinə hərbi qüvvə yeritdi və böyük qənimətlə (18827 adamın bir qismini öldürdü, bir qismini əsir apardı, 606 at, 184 dəvə, 6257 mal-qara, 33203 davar) geriyə qayıtdı. E.ə. 778*ci ildə yenə Mannaya və İrkuiniyə basqın etdi. Bu dəfə də İrkuini talan edildi. E.ə. 777-ci ildə Manna və Buştu istiqamətində hərbi yürüşlər keçirdi. Argiştinin kitabəsində qeyd

Bu kitabə Mianduabm şimal-şərqində Taştəpə adlanan yerdə aşkar edilmişdir. Buna uyğun olaraq Meişta vilayətini də bumda yerləşdirirlər. Lakin Menşta yəqin ki, Urmiya gölünün cənub-qərbində və cənubunda yerləşirmiş, çünki məhz buradan keçib cənuba - Parsuaya və şərqə - Taştəpa tərəfə getmək mümkün idi.

Urartu panteonunun baş allahı.

edilir: «Haldi allahı... Manna öikesine qalib gəldi. Buştu ölkəsinə qalib gəldi. Mən Buştu ölkəsinə getdim. Aşkaya^^ ölkəsinin vadisini tutdum, Uqiştini^2 ölkəsinin Şatiraraqani vilayətinə mərhəmət göstərdim, Uşni^3 ölkəsini tutdum (?). Mən Alateye dağlıq ölkəsinə çatdım, ölkəni yandırdım, şəhərlərini dağıtdım, kişi və qadmlan oradan apardım». Adı çəkilən vilayətlər Urmiya gölünün cənubundan Taştəpə istiqamətində yerləşirdi. Alateye isə buradan cənub-şərqə doğru uzanırdı və qedim Aratta torpaqlannı əhatə edirdi. Yəqin ki, urartlar bir ilin ərzində bir neçə dətə Mannaya qarət xüsusiyyətli basqın etmişdilər. Alateye ölkəsi ilə əlaqədar kitabədə deyilir: «Bir il ərzində mən 7873 adamın bir qismini öldürdüm, bir qismini diri apardım. 290 atını, 101 dəvəsini, 4909 baş mal-qarasım, 19550 baş davarını apardım». Manna öz istiqlaliyyəti uğrunda mübarizə apanrdı, lakin ölkəni Urartu talanından qorumaq iqtidannda deyildi və əslində müdafiə mövqeyini mtmuşdu. E.ə. 775-ci ildə I Argişti yenidən Manna torpaqlarına soxuldu, Buştunun Uihika şəhərini tutdu, əhalisini taladı. Bir il sonra o. Mannanın paytaxt şəhəri Şimerihadiri^^ qalasını tutdu, kişi və qadmlannı əsir apardı. Urartu hökmdarlarının torpaq iddiaları və işğalçılıq müharibələri Mannanın işçi qüvvəsini məhv edir, təsərrüfat həyatına böyük ziyan vururdu. Eyni zamanda da Mannanın işğalçılara qarşı müqaviməti artır, yeri gəldikcə urartlann qarşısına hərbi qüvvə ilə çıxırdı. Mannada tam siyasi birliyin olmaması urartlann asanlıqla buraya basqınlar etməsinə şərait yaradırdı. Buna baxmayaraq urartlar 1 Argiştinin dövmndə Unniya gölünün cənubunda möhkəmlənə bilmədilər.

Urartu hökmdarı II Sarduri (e.ə. 760 - 730-cu illər) Mannaya qarşı sələflərinin işğalçılıq siyasətini davam etdirirdi. O, e.ə. 750-ci ildə Manna üzərində qələbə çaldığını bildirdi. Bir müddət sonra o, Manna torpaqlannda nisbətən’ geniş işğallar həyata keçirdi. E.ə. 747-ci il ərzində II Sarduri Urmiya gölünün şimalından keçərək cənubi Azərbaycana, indiki Qaradağ erazisinə soxuldu. Burada o, Puluadi ölkəsini tutaraq, hökmdar Kadiavı^^ məğlub etdi. Ölkənin paytaxtı

Aşkaya assur qaynaqlarında Uşkaya kimi verilmişdir.

Uqiştinl assur mixi yazılarında Uişdiş kimi aks olunmuşdur.

Uşni, ola bilsin ki, assurların Uauş dağını bildirir.

^ Şəhərin yeri mə’lum deyil.

Adın oxunuşu təxminidir.

Lubliuni ile yanaşı, 45 şehəj və 21 qala Urartu hökmdarının elinə keçdi, ölkə dağıdıldı, əhalisi isə əsir apanidı. II Sarduri Puluadini itaətdə saxlamaq üçün qalalar tikdirərək ərazisini Urartuya birləşdirdi. Burada yazılı daş abidə qoydurdu.^^ E.e. 745-ci ildə II Sarduri Mannanın cənub toıpaqlarına soxuldu. Kitabədə bu hadisə belə təsvir edilir: «Mən Manna ölkəsinə gəldim, ölkəni tutdum, şəhərlərini yandırdım, dağıtdım, ölkəni taladım, kişi və qadınları Biaynili (Urartu) ölkəsinə apardım. Darbani^^ qalasını, istehkamı döyüşlə tutdum. Orada hərbi dəstələr yerləşdirdim, ölkəni öz ölkəmə birləşdirdim». Urartu hökmdarlanndan ilk dəfə II Sarduri sələflərinin uzun-uzadı müharibələrinə yekun vurdu və Mannanın müəyyən hissəsini e.ə. 40-cı illərdə Urartu hakimiyyətinə tabe etdi. Lakin bu da uzun sürmür. Tezliklə .Assuriya yenidən siyasi səhnədə irəli çıxdı və Urartunun mövqelərinə zərbə endirməyə başladı. Belə şəraitdə Manna işğal olunmuş torpaqları uğrunda mübarizəyə qalxdı və siyasi dirçəliş dövrünə qədəm qoydu.

Mannanın yüksəlişi. Assuriyada III Tiqlatpalasarın (e. ə. 744-727-ci illər) hakimiyyətə gəlməsilə Ön Asiyada siyasi vəziyyət dəyişildi. O, geniş işğalçılıq müharibələri apanr, Assuriyanın beynəlxalq nüfuzunu qaldırırdı. Mannada və başqa ölkələrdə o, Assuriyanın siyasi tə’sirini artınnaq məqsədilə Urartu ilə toqquşmalı oldu. III Tiq- latpalasar Manna istiqamətində Mazamua (Urmiya gölünün cənubu və cənub-qərb vadi hissələri) vilayətini tutaraq orada yeni məskunlar yerləşdirdi və Mazamuanı Assuriyaya birləşdirdi. Mazamua Zamua- nın şimal hissəsini təşkil edirdi. Urartu da bu torpaq uğrunda uzun- uzadı müharibələr aparmışdı. Bununla urartlar Mannanın bu erazisindən sıxışdırılıb çıxarıldılar. III Tiqlatpalasar işğal olunmuş ölkələrin əhalisini bir yerdən başqa yerə köçürmə siyasəti yürüdürdü. O, Urmiya gölü hövzəsində (əsasən qərb və cənub-qerbindo) yaşayan kutiləri, sanqibutiləri, sanqilləri, budiləri, nakkabiləri^® və s. başqa əraziyə köçürdü və məskunlaşdırdı. Lakin III Tiqlatpalasar Mannanın diger vilayətlərinə toxunmadı. Tiqlatpalasarın işğal etdiyi ölkələr içə-

Abidə cənubi Azərbaycanın Qaraca Dağ vilayətinin Varzakan dağlıq rayon mərkəzinin S km-də aşkar edilmişdir.

Yeri dəqiq mə’lum deyil. Çox güman ki, bu müdafiə qalası Mannanın qərb sərhədlərində yerləşirdi.

Bunların bir qismn Mazamuanın sakinləri idi.

risində Manna yad edilmir, o, ancaq Mannanın qonşuları Urartu ve Midiya ilə müharibələr apanrdı. Manna hökmdarı III Tiqlatpalasann şəxsində özünün müttəfiqini görürdü.

tranzunun dövləti mərkəzləşdirmə siyasəti. Manna hökmdan İranzu (e.ə. 740 - 719-cu illər) yaranmış siyasi vəziyyətdən bacanqla istifadə etdi. Ola bilsin ki, o, III Tiqlatpalasar ilə ittifaqa girmişdi. Assur ordusunun Urartuya qarşı uğurlu müharibələrindən istifadə edərək, tranzu Urartu tərəfindən işğal olunmuş Manna torpaqlarını geriyə qaytarmağa müəssər oldu. İranzu Manna vilayətlərini mərkəzi hakimiyyətə tabe etdi və ölkədə canişinlik sistemi yaratdı. Canişinlər mərkəzi hakimiyyətdən asılı idilər. İranzu şərqdə və şimalda Man> nanın hakimiyyətini möhkəmləndirdi. Ola bilsin ki, şimalda Manna Araz çayı ilə, cənub və cənub-şərqdə müvafiq surətdə Kassi ölkəsi, Parsua və Midiya ilə həmsərhəd idi. Qərbdə Mannanın sərhədləri bə’zi hallarda Urartunun cənubu və cənub-qərbində yerləşən Hubuş* kiyaya çadrmış. Hubuşkiyanın qonşusu. Urmiya gölünün qərbində yerləşən Gilzan da yə'qin ki, bu dövrdən Mannanın tərkibinə daxil olmuşdur. İranzunun hakimiyyəti illərində Manna demək olar ki, cənubi Azərbaycanın sərhədlərində bərqərar oldu^^ və Urmiya gölü hövzəsində ən qüvvətli bir dövlətə çevrildi.

Bu dövrdə Mannada ikimeylü xarici siyasət mövcud idi. Bir qrup Assuriya ile ittifaqa meyl göstərir, bununla da Manna torpaqlarının bütövlüyünü saxlayır ve Urartunun işğalçılıq niyyətlərinə sədd çəkirdi. İranzu Assuriya ilə müttəfiq kimi davranır və onun siyasi üstünlüyünü tanıyırdı. Uzun müddət Urartu müdaxiləsinə qarşı mübarizə aparan Mannaya əmin-amanlıq lazım idi. Diger qrup Urartu ilə ittifaqa meyl göstərir və Assuriya əleyhinə qüvvələri birləşdirməyə çağırırdı. Ola bilsin ki, III Tiqlatpalasar Urmiya gölünün cənub və cənub-qərb torpaqlarının Urartuya meyl göstərən əhalisini siyasi mövqeyinə görə köçürmüşdü. Hər halda ikinci qrupun siyasəti Mannanın erazi bütövlüyünü parçalaya bilərdi, eyni zamanda daxili qüvvələrin və vilayətlərin mərkəzi dövlət ətrafında birləşməsinə əngəl törədərdi. Keçmişin təcrübəsi Manna hökmdarının xarici siyasətinin istiqamətini müəyyənləşdirdi. Onun assur meylli siyasəti Ön Asiyanın bu qüdrətli dövlətini Mannanın havadarına çevirmişdi. Belə hal, ilk növbədə

' ^ Manna cenub-qərbde müasir Kürdüstan ərazisinin də bir qismini əhatə edirdi.

Urartunu narahat edirdi, çünki Urartu hökmdarları Manna torpaqlarını işğal etmək niyyətindən əl çəkməmişdilər.

Assur meylli xarici siyasət Manna dövlətini Urartu işğallarından xilas etmiş və ölkənin vahid mərkəzdə birləşməsi üçün şərait yaratmışdı. Lakin tranzunun dövləti mərkəzləşdirmə siyasəti Mannanın müəyyən canişinlərinin mənafeyinə uyğun gəlmirdi, canişinlərin bə’zisi mərkəzdən aynima fitvasına gedirdilər. Eyni zamanda Urartu Mannanın daxili işlərinə qarışır, canişinləri mərkəzi hakimiyyətə qarşı üsyana təhrik edirdi.

Urartu hökmdan I Rusa (e.ə. 730-7l4-cü illər) işğalçılıq niyyətini həyata keçirmək məqsədilə Mannanın Zigirtu vilayətinin canişini və başqa şəhərlər ilə sazişə girdi. Mannanın Zigirtu vilayətinin canişini Metatti 100 əhali arasında İranzuya qarşı üsyan meylləri yaradırdı. E.ə. 719-cu ildə Mannanın Şuandahul və Durdukka şəhərlərinin əhalisi Metattiyo arxalanaraq İranzuya qarşı üsyana qalxdı. Assur hökmdarı II Sarqonun (e.ə. 722-705-ci illər) kitabəsində bu barədə deyilir: «Hakimiyyətimin üçüncü ilində Şuandahul və Durdukka qala şəhərləri öz ağalarına, mənim boyunduruğumu çəkən Manna hökmdarı İranzuya qarşı üsyan fikrinə düşdülər və zikirtulu Metattiyə arxalandılar. Zikir-tulu Metatti onlara öz döyüşçü ve süvarilərini vennəkle yardım gösterdi. (Allah) Aşşurun çoxlu qoşununu mən silahlandırdım və bu şəhərləri tutmağa getdim». II Sarqon sələflərinin Manna ilə ittifaqına sadiq qalaraq üsyançıların üzərinə qoşun yeritdi. Yürüşün gedişində üsyana meyl edən və 1 Rusa ilə sövdələşən bir sıra şəhər əhalisini Suriyaya köçürdü. II Sarqon raə’lumat verir ki, «Sukka şəhər əhalisini, Bala şəhər əhalisini, Abitikna şəhər əhalisini onların kökünü kəsə biləcək pis məsləhət verdiyi və Urartu hökmdarı ilə sazişə gir- diyn üçün, günah işlətdikləri üçün, mən öz yerlərindən qərbə, Suriyaya köçürdüm». II Sarqon üsyançı şəhərləri dağıdaraq yandırdı. Beləliklə, canişin Metatti və I Rusa tərəfindən Manna hökmdan İranzuya qarşı hazırlanmış üsyan Assuriyanın köməyilə yatırıldı. Lakin özgə torpağında ara qızışdıran Rusaya uyan Metatti vahid Manna dövlətini parçalamaq üçün fürsət axtanrdı. İranzu vəfat etdikdən sonra onlar yeni müttəfiqlər tapıb Manna hökmdarına qarşı fımə-fəsada başladılar.

100 Metatti adı, ola bilsin ki, Hind-Avropa mənşəlidir (met - «bal», -iti mənsubiyyət şəkilçisi) və «Ballı» mə*nasını daşıyır.

Daxili ixtilaflar, tranzunun vəfatından sonra oğlu Aza (e.ə. 718 - 718-cı illər) hakimiyyətə gəldi. Atası ona böyük ve qüdrətli dövlət qoyub getmişdi. Onun qısamüddətli hakimiyyəti illərində Mannada daxili ixtilaflar yeni vüs’ət aldı və dövlət parçalanma təhlükəsinə mə’ıoız qaldı. Aza Mannada yaranmış mürəkkəb siyasi şəraitdə iki il hakimlik etdi. Mərkəzdən aynimaq istəyən qüvvələr gizli hazırlıq aparırdılar. Urartu bu qüvvələrin təşkilində fəal iştirak edirdi. E.ə. 716-cı ildə Mannanın Urartu meylli qüvvələri Azaya qarşı sui-qəsd təşkil etdilər. 9ui-qəsdin təşkilatçısı olan I Rusa qasid vasitəsilə Manna canişinləri - Uişdiş vilayətinin hakimi Baqdatti*®* və Zikirtu vilayətinin hakimi Metatti ile gizli əlaqəyə girdi. Sui-qəsd nəticəsində Aza öldürüldü və meyidi Uauş*®^ dağına atıldı. II Sarqon bu haqda belə mə’lumat vermişdir: «Hakimiyyətin altıncı ili urartlı Ursa*^^ Manna canişinləri uişdişli Baqdaitini və zikirtulu Metattini Şaru- kinə^^ və ağalarının oğlu Azaya qarşı ayağa qaldırdı... Onlar əlçatmaz Uauş dağında Manna ölkəsinə ölüm gətirdilər və ağaları Azanın meyidini oraya atdılan>.

Aza həlak olduqdan sonra onun qardaşı Ullusunu*®^ (e.ə. 716 - 680-ci illər) Manna hakimiyyətinə sahib olur. Qaynağı verdiyi mə’lu- mata görə, onun hakimiyyətə gəlməsində I Rusanın əli olmuş, bunun əvəzində isə o, Ullusunudan 22 Manna qalasını alıbmış. II Sarqon qeyd edirdi ki, «Mannah Ullusunu atasının taxtına oturub urartlı Ursaya arxalandı ve 22 qalasını ona liişvət verdi». Mannadakı Urartu meylli hakim qüvvələr yəqin ki, bir müddət Ullusununun xarici siyasətinin ən'ənəvi istiqamətini dəyişməyə nail oldular. Ullusunu isə qardaşının aqibətini yad edərək dövlətin bütövlüyünü saxlamaq naminə bu qüvvələrə üz tutdu. Qaynaq qeyd edir ki, «Ullusunu Assuriyanın yardımından imtina etdi, urartlı Ursaya aı-xalandı, qonşu əyalətləri mənə qarşı qaldırdı və sonra: - «Urartu ilə müttəfiq olmaq lazımdın>

Baqdatti adını iran, baqa «allah» və data «verən» kimi izah edirlər. Digər izaha görə, ad türk-monqol mənşəli Baqda/ZBoqda «müqəddəs» adından mənsubiyyət şəkilçisi - tti əlavə olunmaqla əmələ gəlmişdir.

Ehtimal ki. Urmiya gölünün cənubundakı Boz quş dağının adı olmuşdur. Uauşun Səhənd dağı (gölün şərqi) ilə eyinləşdirilməsi qaynaqlarda təsdiq olunmur.

««3 I Rusa.

11 Sarqon.

Ad qədim dillərda izah olunmur. Ola bilsin ki, ad türic meişəli: olmuş və «ulu adam», «ən ulu, ən böyük» me’nasım daşımışdır.

- deyə onlara müracət etdi. Ullusunu eyni zamanda ICaralla və Allab- ria hakimlərini Urartuya xidmət etməyə sövq etdi. Beləliklə, Ullusunu Assuriya əsarətindən azad olmaq üçün Urartu ilə ittifaqa girdi.

Mannada Assuriya əleyhinə yaranmış siyasi vəziyyət II Sarqonu qəzəbləndirdi və e.ə. 616-cı ildə o, Mannaya qoşun çəkdi. Ullusunu assur ordusuna qarşı meydanda tək qaldı. Paytaxtı Izirtu*^^^ şəhərini tərk edərək dağlara qaçdı. Sarqon Mannanın paytaxtını, İzibia ve Armed*^^ istehkamlı şəhərlərini tutaraq yandırdı. O, Azanın qətlində iştirak etmiş Baqdattini tutdu, dərisini soydurdu və mannalılara gösterdi.

Metatti döyüşə girməyə cür’ət etmədi, öz adamları ilə qaçıb meşədə gizləndi. O, Allabria hakimi İttini də ailəsi ilə birlikdə sürgün etdi. Karalla hakimi də cəzasız qalmadı. Mannada yaranmış müxalifət dağıdıldı, lakin tamamilə məhv edilmədi. II Sarqonun qələbəsini eşidən Ullusunu mannalılar ilə birlikdə onun yanına gələrək mərhəmət dilədi. II Sarqon Ullusununu, Manna hökmdar ailəsinin nümayəndəsini hakimiyyətdə saxladı. Sarqonun kitabəsi bununla əlaqədar qeyd edirdi: «Mən onun (Ullusununun) saysız-hesabsız günahlannı bağışladım, ona mərhəmət göstərdim və onu hökmdar taxtına oturtdum. Ursa ve Mitattidən aldığım 22 qalanı və 2 istehkamı ona verdim və onun məzlum ölkəsini bərpa etdim. Mən hökmdar təsvirimi düzəltdim, Aşşurun,*®® mənim ağamın qələbələrini ora yazdım, gələcək günlər üçün onu paytaxt şəhər İzirtuda qoydum». II Sarqon bütün Manna torpaqlarını Ullusunuya tabe edir. Beləliklə, Ullusunu Mannanın yeganə hökmdarına çevrilir, Assuriyanın siyasi ağalığını tanıyır və yə’qin ki, ona xərac verməyə boyun olur. Ölkənin daxilində siyasi hərc- mərcliyə, mərkəzdən ayrılma meyllərinə, Urartunun Mannada fitnə- fəsad yaratmasına və Manna torpaqlarını mənimsəmək niyyətinə son qoymaq üçün Assur meylli xarici siyasət Ullusununun yeganə çıxış yolu idi.

Urartu hökmdarı I Rusa yenə də Mannaya qarşı təcavüzdən əl çəkmir ve onun canişinləri ilə sövdələşməyə başlayır, hətta Mannanın 22 qalasını zəbt edir. Manna canişini Dayakku*®^ Rusanın fitnəsinə

106 Yeri dəqiq məMıım deyil. Təxminən Urmiya gölünün cənubunda yerləşir.

107 Yerləri dəqiq mə’lum deyil. İzibianini müasir Ziviya ilə (Urmiya gölünün cənubu) eyniləşdirirlər.

•08 Aşşur - Assur panteonun baş allahı idi.

•0*^ Adı Midiya hökmdan Deyokun adı ilə eyniləşdirilir.

uyur və mərkəzi hakimiyyətə tabelikdən çıxır. Kitabədə qeyd edilir; «Hakimiyyətimin yeddinci ilində urartlı Rusa mannalı Ullusunuya xəyanət etdi və onun 22 qalasını zəbt etdi. O, Manna canişini Dayaukkuya Uilusunu barədə yatan və şübhəli sözlər dedi və onun oğlunu girov götürdü». E.ə. 715-ci ildə II Sarqon Uilusunu ilə ittifaqına sadiq qalaraq Manna müxalifətçilərinə qarşı yürüşə çıxdı. Ullusunuya qarşı çıxış edən Andia və Zikirtu canişinləri yardım üçün I Rusanın yanına qasid göndərdilər və xəbər verdilər ki, «assur hökmdarı bizə qarşı gəlin>. 1 Rusa ordu toplayıb Mannanın Uauş dağı yanında Sarqonu qarşıladı. Sarqon Uauş dağında Manna müxalifətçilərini və I Rusam məğlubiyyətə uğratdı. Urartu hökmdarı döyüş meydanını tərk edərək qaçdı. Onun 250 hakimi ailə üzvlərilə əsir düşdü. Urartunun 55 istehkamı və II qalası, həmçinin Ullusunuya mənsub 22 qala onun əlindən alındı. Zikirtu hakimi döyüş meydanından qaçdı. Onun paytaxtı Pardu və başqa istehkam qalaları yandınıdı.

Dayaukku ailəsi ilə birlikdə buradan köçürüldü. Andia hakimi Telusinanın’ 8 qalası zəbt edildi, 4200 əsir mal-qarası və qoyun-quzusu ilə birlikdə Assuriyaya aparıldı. Beləliklə, I Rusa və daxili ixtilaf- çılar ağır məğlubiyyətə düçar oldular. II Sarqon yazırdı ki, «mən məzlum Manna ölkəsini bərpa etdim». Lakin ölkədə tam əmin-amanlıq və sakitlik yaranmadı. Yenə də mərkəzdən aynima cəhdləri göstərildi.

II Sarqonun Mannaya böyük yürüşü. Bir il sonra e.ə. 7I4-cü ildə II Sarqon Manna, Midiya və başqa ölkələrə böyük yürüş etdi. Manna ilə əlaqədar Sarqon bir neçə məqsəd güdürdü. Birincisi, Mannanı Urartu təcavüzündən və tə’sirindən tamamilə azad etmək; ikincisi, Assuriyanın mövqeyini Mannada möhkəmiendinnək və müttəfiq münasibətlərini saxlamaq; üçüncüsü. Mannada mərkəzdən ayrılma halla- nna son qoymaq və xəracın vaxtlı-vaxtında Assuriya xəzinəsinə göndərilməsini tə*min etmək. Manna hökmdan Uilusunu ölkənin ərazi bütövlüyünü və müstəqilliyini saxlamaq üçün II Sarqona arxalanırdı.

11 Sarqon Kullar dağını aşıb, lullubilərin Zamua vilayətinə gəlib çıxdı. Sumbi vilayətində döyüşə hazırlıq keçirdi. Sonra çətin keçilən dağlan aşaraq yeddi dağa çatdı. Aratta ölkəsinin çayını və RappaHI

' I® Ola bilsin ki, ad etnonimdən əmələ gəlmişdir. Telisina - «tele//telu» sonrakı türk mənşəli etnonim, «-sin» isə mənsubiyyət şəkilçisidir..

111 Rappa, yəqin ki, «çay, su» mə’nasını daşıyırdı. Mordva dilində Rav («çay») Volqa çayına verilən addır.

çayını keçərək. Mannanın diger vilayətlərinə daxil oldu!'Käralla və Allabrinin qonşu vilayəti Surikaşa^^^ endi. Sinifini qalasında Ullusunu II Sarqonu qarşıladı. Manna hökmdarı Sarqonun qabağına öz ə'yanlan, ağsaqqalları, canişinləri, ailə üzvləri ve başqaları ile birlikdə çıxdı ve xəracı təhvil verdi. Oradan o, yolda xərac toplaya-toplaya Parsuaşa gəldi. Midiya və başqa ölkələr onun üçün buraya xərac getirdilər. Xərac verənlərin biri de Andirpatianu şəhərinin hakimi Maş- dakku idi. Parsuaşdan çıxıb Mannanın Messi**^ vilayətinə gəldi. Sirdalcka* qalasında Ullusunu II Sarqonu qarşıladı, ordusunu ərzaqla təchiz edərək müxtəlif hədiyyələr verdi. Ullusunu istəyirdi ki, II Sarqon «döyüşdə I Rusam məğlub etsin, ora-bura səpələnmiş manna- lılar öz yerlərinə (yurdlarına) qaytarılsınlan>. II Sarqon «Urartunu yıxmağı, onlann (mannalıların) sərhədini bərpa etməyi, Manna ölkəsinin məzlum adamlanna sülh verməyi və’d etdi». Sarqon Manna hökmdarına şərəfli ziyafət verdi. II Sarqon kitabəsində qeyd edir: «Onların ağası hökmdar Ullusununun qabağına süfrəli miz qoydum, onun taxtını atası və valideyni İranzudan daha yüksəyə qaldırdım, onları assurlar ilə bir süfrəyə oturtdum». II Sarqon Manna ile ittifaqa böyük əhəmiyyət verirdi. Həm də Urartunun Mannada ərazi iddialarına son qoymaq üçün «zalım düşmənin ayağını onların ölkəsindən kəsməyə» çalışırdı. Qizilbunda vilayətinin rəisləri qorxudan II Sarqona xərac gətirdilər. Mənbənin verdiyi mə’lumata görə, «Qizilbunda vilayəti siyirmə kimi Manna və Midiya ölkələrinin arasım*’^ kəsmişdi». Ullusunu Sarqonun şərəfmə yazılı abidə qoydurdu. Güman ki, mannalılann öz yazısı olmuşdur.

* *2 Surikaş (alt. süüri «itiuc, üçbucaqşəkilli», türk, kaş «silsilə, dağətəyi»), çox güman ki, «itiuclu dağ silsiləsi» mə’nasıııı daşıyırmış.

Missi dağlıq ərazi olmuşdur. «Mes/mi» altay-türk coğrafi termini kimi «meşəsiz dağ», «dağın meşəsiz hissəsi», «zirvəli dağ» mə'nalannda işlənir.

Sirdakka (türk, sııt «yastı yüksəklik, dağ silsiləsi, yastı dağ yalı») protokurk coğrafi adı hesab oluna bilər.

Qizilbunda dağlıq ölkə olmaqla Manna ilə Midiya arasında sərhəd təşkil edirdi. Müasir Taxti Bilkis və Qızıl Üzən çayının cənub axan boyu uzanırdı. Ola bilsin ki, sıra dağ qollannm, yaxud çay axarının rənginə görə vilayət Qizilbunda («qırmızı təpə») adlandırılmışdır. Mətndən aydın olur ki, bu dövə Midiya məfhumu Mannaya (Cənubi Azərbaycana) şamil edilmirdi.

II Sarqon yürüşünü davam etdirərək Mannanın şərq vilayətlərinə yaxınlaşdı, İştaraura’ çayını keçdi, Zikirtu və Andiya vilayətlərinin sərhədinə çatdı. Zikirtu canişini Metatti qorxaraq Uaşdirikku^*^ dağına qaçdı, ordusunu isə I Rusaya köməyə göndərdi. II Sarqon burada qala və yaşayış məntəqələrini dağıdaraq Mannanın mərkəz hissəsi ilə Urmiya gölünün cənubuna doğru irəlilədi və Uişdiş' vilayətinə çatdı. Mənbə qeyd edir ki, «Uişdiş Rusa tərəfindən tutulmuş Manna vilayəti idi». Buradakı Uauş dağı yanında qanlı döyüş başlandı. Metatti və 1 Rusa onlara göməyə gəlmiş qonşu hökmdarlar ilə birlikdə ağır məğlubiyyətə uğradılar. II Sarqon salnaməsində mə’lumat verir ki, «qəddar düşmənin ayağını Manna ölkəsindən kəsdim, onların ağası Ullusununun ürəyini razı saldım». Uişdiş vilayəti Mannaya qaytanIdı.

II Sarqon Mannanın Uşkaya* qalasına gəlib çıxdı. Uşkaya Urartunun sərhədində, Urmiya gölünün cənub-qərbində bu vilayətində yerləşirdi. Subi vilayəti mannalılara mənsub olmuşdu, lakin Urartu bu ərazini mənimsəmişdi. Burada atçılıq xeyli inkişaf etmişdi. Dağ keçidində qayalıq üzərində tikilmiş Uşkaya Subi vilayətində istehkam idi. Qalanı yerlə-yeksan edən II Sarqon qoyun-quzu sürüləri saxlanılan və Sanqibutu adlanan Bara*2® vilayətinə keçdi. Subi, Zarand vilayətləri, Taıaı və Tarmakisu*^* şəhərləri bu ətrafda yerləşirdi.

İştaraura prototürk işta (issa) «isti» və iran, raura «çay» sÖz birləşməsindən əmələ gəlmiş, «İstiçay» mə'nasını daşıyırmış. İştaraura indiki Sərab - Miyanə rayonunda axırdı. Orta əsrlərdə burada axan çayı Gərm-md (fars, «İsti çay») adlandırırdılar.

11^ Uaşdirikku *{türk. V2LŞ* «baş, uca», dirik//tarak «daraq») «Uça, çoxdişli (daraq şəkilli) dağ silsiləsi» mə’nasını verirmiş.

' Uişdiş dağlıq ölkə İdi və «Beş diş» (protoazərb. viş (biş) - «beş», diş - «diş») mə'nasını verirdi. Orta əsrlərdə burada «Beş barmaq» adlanan dağ varmış. Hər iki dağ Urmiya gölünün pəhübunda yerləşirdi.

Uşkaya *türk,* uş «üç» və kaya «qaya» söz birləşmələrindən əmələ gəlmişdir. II Aşşumasirpalın «göydən sallanan üç sıldırım qaya» anlayışına uyğun gəlir.

Sanqibuti «üç ayaqlı dağ qolu» (alt. sanqi «üç ayaqlı», but «dağ qolu») mə’nasını daşıyırmış. Belə halda Sanqibuti qoyun-quzu saxlamaq üçün təbii sığınacaq yeri imiş. Bara (azərb. bərə «qoyun saxlamlan yer, qoyun sağılan yen>) mətndə göstərilən kimi qoyun-quzu saxlanılan vilayət olmuşdu.

*2* Tarmakisu (türk dillərindən «çay keçidi») və Tarun (türk dillərindən «çay ayrıcı») Urmiya gölünün cənubunda idi. Çox güman ki. Həsənli arxeoloji abidəsi Tarmakisu şəhərinin qalığıdır. Təbriz adı ilə eyniləşdirmə yanlışdır.

Adı çəkilən məskənlər Mannanın Subi (keçmiş Gilzan) vilayətinə daxil idi. Zarand (İran türk dilində zərən «bərk ağac» və «at ilxısı» mə’nasını saxlamışdır) sərv ağacları ilə də fərqlənirdi.

HoiTiin şəhər və vilayətləri dağıtdıqdan sonra, II Sarqon bilavasitə Urartunun ərazisinə keçdi. Urartunun bir çox vilayəti dağıdıldı və :alan edildi. II Rusa artıq müqavimət göstərə bilmədi və özünü öldürdü. Bundan sonra Urartu zəiflədi və bir daha Mannanın daxili işlərinə qarışmadı.

Bir il sonra (e.ə. 7l3-cü il) II Sarqon yenidən yürüş*təşkil etdi. Çünki bu zaman Mannanın Karalla vilayəti üsyan qaldırmışdı. Üsyan yatırıldıqdan sonra, II Sarqon Ullusunudan xərac alıb Midiya torpaqlarına daxil olur və burada dağıntılar törədir. Ola bilsin ki, bu dəfə Midiya Assuriyaya qarşı ittafaqlar yaradırdı.

Manna dövlətinin süqutu. Manna uzun müddət Assuriya Üə ittifaqa sadiq qaldı və e.ə. VII əsrin birinci rübündə Qafqazdan gəlmiş skit tayfalan ile ittifaqa girdi. Mannanın qərb və cenub-qerb vilayətlərində kimmer-skit-sak tayfa birləşmələr məskunlaşır və Assuriyaya qarşı böyük təhlükə yaradırdı. Belə şəraitdə Mannadakı qüvvələr Assuriya əleyhinə baş qaldırdı. Manna assur itaətindən çıxdı. Manna hökmdarı Ahşeri (e.ə. 675-650-ci illər) artıq Assuriyadan asılı vəziyyətdə deyildi, ən’ənəvi ittifaqı pozmuşdu. Buna görə de assur hökmdarı Aşşurbanipal (e.ə. 669-627-ci illər) Manna ərazisinə soxuldu. Salnamədə qeyd edilir ki, Aşşurbanipal «Manna hökmdarı Ahşeriyə qarşı getdi, çünki o, Aşşurbanipalın ata-babalarına tabe olmurdu». E.ə. 6S0-Cİ ildə Mannanın ərazisində döyüş başlandı. Ahşerinin başçılığı ilə Manna ordusu məğlub oldu. Aşşurbanipal Mannanın bir sıra şəhər və qalalarını, o cümlədən paytaxtı İzirtunu dağıtdı, əhalisini, mal-qara və atlarını qənimət kimi apardı.

Ahşerinin məğlubiyyəti ona baha oturdu. Assur meylli qüvvələr ona qarşı üsyan təşkil etdilər. Üsyançılar Ahşerini öldürdülər. Qaynaq qeyd edir ki, «Onun ölkəsinin əhalisi üsyan qaldırdı, onu öldürüb meyidini şəhər meydançasına atdı». Hakimiyyətə Ahşerinin oğlu Ualli (yaxud Valli e.ə. 650-630-cu illər) gəldi və Assuriya ilə ittifaqı tə’cili bəıpa etdi. Oğlu **Erisinnini*23** Assuriyaya girov göndərdi. Onun arxasınca isə qızını assur sarayına yola saldı. Manna yenidən Assuriyadan asılı vəziyyətə düşdü. Bundan sonra Manna Assuriya ile ittifaqa tam sadiq qaldı. E.ə. 616-cı ildə Assuriya Midiya və Babilistan ilə mübarizədə təklənən zaman Manna hərbi dəstələri ona köməyə gəldi.

•23 Erisinin - *{qod. türk,* eri «ər, cəsun>, - sin isə şəkilçi, yaxud «adam» mə*nasını daşıyırdı) «cəsur, ən qorxmaz, igid adam».

Assuriya artıq süquta doğru gedirdi. E.ə. VI əsrin 90-cı illərində (e.ə. 593-cü ildə) Manna müstəqil dövlət kimi varlığını saxlayırdı. Çox güman ki, e.ə. 590-cı ildə Manna İranın mərkəzində yaranmış güclü Midiya dövlətini tanımış, lakin daxili müstəqilliyini saxlamışdı. Bundan sonra Manna adı tarixdən silindi.

## § 6. KİMMER-SKİT-SAK PADŞAHLIĞI

E.ə. VII əsrin birinci rübündə şimalda yaşayan kimmer, skit və (onların tərkibində) sak tayfalarının Ön Asiyaya böyük bir axını başlanır. Bu tayfıılann bir qismi qədim Azərbaycanda məskunlaşır.

Kimmer, skit və sakların ilkin məskənləri. Kimmerlər e.ə. VIII əsrdə Qara denizin şimalında yaşayırdılar. Şimali Qafqazın qərb hissəsi onlann ilkin məskəni hesab edilir. Krım yanmadası və Kerç həmçinin kimmerlərin məskunlaşdığı əraziyə daxil idi. E.ə. V əsrdə burada «kimmeD> adı ilə əlaqədar yer adları (toponimlər) qalmışdır. Herodotun verdiyi mə’lumata görə, bu ərazidən kimmerləri skitlər sıxışdırıb çıxarmışlar. Kimmerlər Şimali Qara dəniz sahilinin aboriqen (yerli) əhalisi hesab edilir. Burada mövcud olmuş taxta (qutu) qəbir arxeoloji mədəniyyəti onların adına çıxılır. Kimmerlər e.ə. VIII əsrin sonunda Qara dənizin şərqi Meot-Kolx yolu ilə hərəkət edərək Kiçik Asiyaya (Anadolu yarımadasına) gəlmişlər. Ehtimala görə, kimmerlərin bir qismi Balkan yarımadasını keçərək trer tayfaları il birlikdə Anadoluya çatmışlar. Onlar Dəıyal keçidi vasitəsilə de Ön Asiyaya düşə bilərdilər. Assur mixi qaynaqlarında e.ə. VII əsrin birinci rübündə İkiçayarasının şimalında baş verən hadisələrlə əlaqədar kimmerlər də yad olunur. Kimmerlər Anadoluda və İkiçayarasının şimalında siyasi hadisələrdə fəal iştirak edirdilər.

Skitlər Şimali Qara deniz sahillərinə və Ön Qafqaza, ehtimala görə, e.ə. VIII əsrin ikinci yansında gəlmişlər. Herodot və Diodor skitlərin Araz çayı sahillərindən gəldiklərini söyləyirlər. Herodota görə, skitlər Asiyada yaşayırmışlar və massagetlər müharibə zamanı onlan bu yerlərdən qovmuşlar. Skitlər Araz çayını keçərək Şərqi Avropaya, Qara dənizin şimalına gəlmiş, kimmerlər ilə döyüşdə qələbə çalmış və onların bir qismini əsarət altına almışdılar. Kimmerlərin digər böyük qismi isə Ön Asiyaya qaçmışdı. Herodotun mə'lumatına görə, skitlər kimmerlərin arxasına düşmüş, lakin yolu azaraq Dərbənd keçidi vasitəsilə Ön Asiyaya çatmış. Ön Qafqaza ve tranın şimalına

> ayılmışdılar. Beləliklə, skitlər Araz çayı*^^ sahilindən şimala doğru nərəkət etmiş və oraya gəlmə hesab edilirlər. Burada məskunlaşdıqdan sonra onların bir qismi kiramerlerin ardınca Ön Asiyaya hərəkət etmişdir.

Saklar skit tayfası hesab olunurlar. Strabon yazırdı ki, skitləri həmçinin sak adlandınrlar. Onlar da geniş ərazidə təmsil olunmuşdular. İlk dəfə «sak» adı e.ə. VII əsrin ortalanna aid assur mixi yazıla- nnda, sonra isə VI əsrin sonunda Bisütun kitabəsində*25 çəkilmişdir. Sakların bir qismi Azərbaycan ərazisində məskunlaşmışdı.

Kimmer, skit və saklar Azərbaycanda. Herodotun me’lumatına görə, «skitlər Avropadan qovduqları kimmerlərin arxasınca Asiyaya, oradan da qaçan kimmerləri izləyərək, Midiyaya soxuldulan>. Assur mixi qaynaqlan göstərir ki, «skitlər Manna ölkəsinin hüdudlarına gəldileı*». Herodot skitlərin Midiya ilə əlaqədar fəaliyyətindən, assur mixi yazılan isə onlann mannalılar ilə ünsiyyətindən bəhs edir.

Skitlər Qərbi Azərbaycanda, Urmiya gölünün qərbində və şimalında məskən salırlar. Mixi qaynağda qeyd edilir ki, «skitlər Manna ölkəsinin vilayətində yaşayırlar». Yəqin ki, skitlər Urmiya gölünün cənubuna kimi yayılıbmışlar. Kimmerlər də Mannanın hüdudlarınadək gəlmişdilər. Hələ e.ə. VIII əsrin sonunda (715-ci il) assur casusu xəbər verir ki, «kimmerlər Manna ölkəsindən çıxıb Urartuya gəldilən>. Kimmer və skitlər e.ə. VII əsrin 70-ci illərində Assuriyanın şimal sərhədlərində təhlükə yaradırdılar. Mannalılar tlirsətdən istifadə edərək, kimmer və skitlərlə ittifaqa girir və Assuriya ilə rəqabətə başlayırlar. Ola bilsin ki, Manna hökmdarı Ahşeri (e.ə. 675-650-ci illər) Assuriyaya qarşı mübarizədə bilavasitə kimmerlərin və skitlərin köməyinə arxalanırdı.

Kimmer, skit və sakların Azərbaycanda məskunlaşması yer adlarında öz əksini tapmışdır. Mixi qaynaqlarda antik mənbələrin «kim-

‘24 Antik qaynaqlar Araz (Araks) çayı barədə xeyli dolaşıq fikirlər yaratmışlar. Bə’zi tədqiqatçıların mülahizəsinə görə, Araz adı altında antİk müəlliflər Volqanı, yaxud Amu-Dəryanı nəzərdə tutmuşlar. Bə’zilərinə görə isə bu, Araz On Qafqazın cənubundan axan çay olmuşdur. Antik dövrdə skitlər və onlara mənsub tayfalar Qara dəniz sahillərindən Orta Asiyaya və Qafqaza uzanan ərazidə təmsil olunmuşdular. Etnik və dil cəhətdən skitlər türk etnoslarına da mənsub idilər.

'2^ Bisütun kitabəsi Əhəməni şahı I Daranın (e.ə. 522-485-ci illər) göstərişi ilə tərtib olunmuşdur.

mer» adı «qimiraya» («qimirə mənsub») şəklində əks olunmuşdur. Azərbaycanın müasir toponimiyasında Qımır və Qımırlı (Zakatala r-nu) yer adları qalmışdır. *2^ Saklar əsasən Azərbaycanın Urmiya gölünün şimalına qədər uzanan erazisində və Urmiya gölü hövzeswide məskunlaşmışdılar. Burada «şiş papaq» saklar yaşayırdılar, həmin yerdən şimalda Araz çayının Kürə qovuşduğu çayarasında da saklar təmsil olunmuşdular. Erkən orta əsr qaynaqları buranı Balasakan *{türk,* bala «çöl, düzən»; mə’nası «Sak düzü») adiandırııv Buradan qərbə Kürün Azərbaycan hissəsində sakasinlər («saka bənzəı*») yaşayırdılar. ^ 27 Beləliklə, e.e. VIII əsrin sonu - VII əsrin əvvəllərində Qafqaz dağlanni keçib Ön Asiyada yayılmış kimmer və sak tayfaları qədim Azərbaycanın ərazisində də məskunlaşmışdılar. Onların adlan nəinki qədim qaynaqlarda, həm də toponimlərdə əks
olunmuşdur* 28.

Kimmer-skit-sak padşahlığının yaranması və süqutu. E.ə. 693- cü il hadisələri ilə əlaqədar Tövrat Urartu və Manna ilə yanaşı, skit padşahlığının da adını yad etmişdir. Skit padşahlığı Azərbaycanda kimmer, skit və saklann məskunlaşdığı, yə’ni Unniya gölünün şimal və qərb hissəsində. Manna ilə Urartunun arasında meydana gəlmişdi. Buna görə onu kimmer-skit-sak padşahlığı da adlandırmaq olar.

Ön Asiyaya axışıb gəlmiş skitlər bir neçə dəstəyə bölünmüşdülər. Onların bir dəstəsi başda Partatua’29 olmaqla Urartunun cənubunda Hubuşkiya ölkəsinə yaxın ərazidə, digər dəstə isə İşpakayın rəhbərliyilə Mannanın şimal-qərb və qərb torpaqlarında yerləşmişdi. Assur hökmdarı Asarhaddon (e.ə. 681-668-ci illər) böyük bir təşvişlə onların hərəkətini izləyir və təhlükənin Assuriyadan sovuşdurulması üçün hər cür tədbirlərə əl atırdı. Skitlərin niyyətini bilmək üçün o, Şamaş

*26 Kimmer adı ilə bağlı etnotoponim Kappadokiyada (cənubi Anadolu) «QamİD> şəklində qalmışdır. Assur qaynaqları buranı Qamirra ölkəsi adlandırırdı. Midiyada Kimina şəhəri var idi. Trialeti (Gürcüstan) kimmerlerin trer tayfasının adı ile adlanır.

Sakasinlər müasir Bərdədən Qafqaz dağlarına qədərki erazidə məskunlaşmışdılar. Onlardan qərbdə İberiya (Gürcüstan) skitlərin quqar tayfası təmsil olunmuşdu. «Quqan> (türk, «kök ər») Tövratda da skitlerə verilən ad idi.

128 Azərbaycan dilinin Zaqatala dialekti üçün s/z fonetik əvəzlənməsi səciyyəvidir. Zaqatala (Sakatala «Sak vadisi», «Sak düzənliyi» mə'nasını daşıyır. Oradakı Zakandərə/Sakandərə («Sak dərəsi») adının əksidir.

*29 Herodot onu Prototiy adlandırırdı.

allahının qeybdən xəbər verən (remmal) kahininə yazılı müraciət edirdi. Müraciətin birində deyilir: «Müəyyən edilmiş bu müddət ərzində Manna vilayətlərində yaşayan və Manna ölkəsinin hüdudlarına gəlmiş skit ordusu görəsən bir qəsd hazırlayırmı, bir şey fikiriəşirmi? Hubuşkiya şəhərinin keçidini... keçeceklərmi, gələcəklərmi, Assuriyanın sərhədindən böyük qənimət, əsirlər aparacaqlarmı?» Skitlerin məskunlaşdığı Manna ərazisi qərbdə Hubuşkiyaya kimi çatırmış və onların ordusu da var imiş. Mannadakt skitlər yerli əhali ilə ittifaqa girmişdilər. Bu, skitlərin hökmdarı İşpakay^^® idi. Döyüşlərin birində İşpakay məğlub olur. Asarhaddon bu haqda mə’lumat verir: «Mən Manna ölkəsinin adamlarını, dinc oturmayan kutiləri darmadağın etdim, skit İşpakayın ordusunu, onu xilas edə bilməyən müttəfiqini silahla əzdim». Lakin skitlər həm midiyalıların, həm nıannalılarm çıxışlarına kömək edir, eyni zamanda da Hubuşkiya yaxınlığında məskən salmış kimmer və skitlərlə birləşməyə çalışırdılar. Hubuşkiya yanındakı skitlər Assuriyaya qarşı mübarizədən əl çəkmişdilər. Qaynağın verdiyi mə’lumata görə, skit hökmdarı Partatua Asarhaddonun qızı ilə nikah bağlamış və əslində assur hökmdarının müttəfiqinə çevrilmişdi. Onun oğlu Madi bu ittifaqa sadiq qalmış. Kiçik Asiyada hərbi əməliyyatlara başlamış və Assuriyanın müttəfiqi kimi Midiyanın Assuriyaya müdaxiləsinə maneçilik törətmişdi. Beləliklə, iki skit mərkəzi - biri Manna erazisində, digəri Urartunun cənubunda Hubuş- kiyanın qonşuluğunda yaranmışdı. Tədricən hər iki mərkəz birləşib vahid kimmer-skit-sak padşahlığını yaratdı. E.ə. VII əsrin ortalarında bu vahid padşahlığın hökmdarı Tuqdamme olmuşdur. O, sak və kuti ölkəsinin hökmdarı rütbəsini də daşıyırdı. Tuqdamme e,p. VII əsrin 60-50-ci illərində assur hökmdarı Aşşurbanipal (e.ə. 668-626-cı illər) ilə müqavilə bağladı, lakin Kiçik Asiya döyüşlərinin birində həlak oldu.

Kimmer-skit-sak padşahlığı cənubi Azerbaycanın qərbində meydana kəlmişdi. Onun hakimiyyəti Şimali Azerbaycanın müəyyən hissəsini de bürüyürdü. İlk dəfə Azərbaycanın ərazisində hər iki hissəni birləşdirən dövlət meydana gəlmişdi. E. ə. VI əsrin əvvəlində güclü Midiya dövləti ile rəqabət apara bilməyən kimmer-skit-sak padşahlığı tənəzzülə uğradı.

İşpakay adının qənaətbəxş etimologiyası verilməmişdir. Qaraçay - balkar mənşəli İspak adı ilə eyniləşdirilmişdir.

## § 7. MANNANIN tCTtMAİ-İQTtSADİ VƏ MƏDƏNİ HƏYATI

Ərazisi dağlıq və dağ arası düzənliklərdən, çay vadilərindən ibarət olan Mannada əkinçilik və maldarlıq, sənətkarlığın müxtəlif sahələri inkişaf etmişdi.

Təsərrüfat. Mannanın vadi və dağ ətəyi yerlərinin əhalisi əkinçiliklə məşğul olur, müxtəlif dənli bitkilər əkirdilər. Qazıntılar zamanı burada arpa, buğda, darı qalıqlan aşkar edilmişdir. Əkinçilər torpağı şumlamaq üçün həm dəmir toxa, həm də xışdan, biçində dəmir oraqdan istifadə edirdilər. Assur mixi yazılarında Mannada taxıl anbarlarının olması barədə me’lumat vardır. Taxıl saxlamaq üçün xüsusi binalar tikirmişlər. Adətən, böyük anbarlar dövlətə, yaxud hökmdara məxsus idi. Yəqin ki, quraqlıq, yaxud aclıq vaxtı dövlət anbarlarından əhaliyə taxıl paylanılmış. II Sarqon Mannanın Sanqibutu vilayətinin taxıl anbarlannı ələ keçirmişdi. Bu haqda o, belə mə’lumat verir: «Ölkənin və əhalinin yaşayışı üçün onun uzun müddət ərzində anbarlara yığdığı çoxlu arpa və buğda ehtiyatlarını at, qatır, dəvə, ulaqla apamıağa bütün ordumu vadar etdim və öz düşərgəmə təpə boyda yığdırdım. Adamlarımı zəngin və doyumlu yeməklə tə’min etdim». Eyni zamanda II Sarqon Tarui və Tarmakisu istehkamlı şəhərlərinin anbarlarını da taladı və öz ordusunu yedizdirdi. O, Aniaştaniya*^* məskənində arpa ehtiyatı olan anbarlan da ələ keçirərək, xeyli məhsulu və heyvanlar üçün toplanmış samanı yandırıb məhv etdi. Taxıl anbarları Mannanın Uişdiş vilayətində de tikilmişdi. Müxtəlif taxıl növlərinin becərilməsi mannalıların təsərrüfatında mühüm yer tuturdu. Bə’zi hallarda, məsələn, II Aşşumasirpal Mannanın Zamua ölkəsindən taxıl və samandan ibarət vergi alırdı. II Sarqonun yürüşü zamanı Ullusunu onun ordusunu yeməklə tə’min etmək üçün xüsusi un və şərab anbarları düzəltdirmişdi. Şərab iri həcmli küplərdə saxlanırdı. Əkinçilik təsərrüfatının bir sahəsi kimi Mannada bağçılıq inkişaf etmiş, üzümçülük geniş yayılmışdı.

Maldarlıq və atçılıq. Mannalıların həyatında maldarlığın, eləcə də atçılığın mühüm əhəmiyyəti var idi. Manna əhalisi oturaq həyat sürürdü ve yaylaq maldarlığı ilə məşğul olurdu. Yaz və yay aylarında mal-qaranı, qoyun-quzunu dağlara sürür və müvəqqəti yaşayış məskənləri yaradırdılar. Burada mal-qaraya xidmət edən, südündən yağ.

Aniaştaniya - atların bəsləndiyi yer idi.

•'endir tədarükü görən, yununu qırxıb təmizləyən adamlar yaşayırdı- .ır. Adətən, bunlar çobanların ailə üzvləri və öz mal-qarası ilə dağa köçən əkinçi ailələri idi. Məhz buna görə də çox hallarda işğalçılar öz >olunu Manna dağlarından salır, mal-qaranı sürülərlə qovub aparırdılar. Urartu hökmdarları Mannadan aparılmış qənimətin miqdarını da göstərirdilər. Yürüşlərin birində I Argişti Mannadan 6257 iri mal- qara, 33203 davar, 606 at, 184 dəvə aparmışdı.

Mannada mal-qara saxlanılan xususi vilayətlər mövcud idi. Onlardan biri haqqında II Sarqon mə'lumat vermişdir. Bu, Santibuti vilayə- ündəki hökmdarın mal-qarasının ümid yeri adlanan Bari idi. Burada həm mal-qara saxlayır, həm hərbi iş üçün atlar bəsləyir, həm də taxıl (arpa) anbarları tikildilər. Atçılığın mərkəzi olan Mannanın Subi vilayətində bəslənən atların bütün ətrafda tayı-bərabəri yox idi.

Subi vilayətinin Aniaştaniya məskənində çoxlu ilxılar saxlayırdılar. Assurlar buranı «ilxı evi» adlandıımışdılar. Mannanın bir çox vilayətlərinin əhalisi atçılıqla məşğul olurdu. Gilzan, Zamua, Messi, Qizilbunda vilayətləri assurlara vergi kimi qoşqu atları göndərirdilər. Ullusunu özü 11 Sarqona bütün ləvazimatı ilə birlikdə qoşqu atları bəxş etmişdi.

Mannada dəvəçilik də inkişaf etmişdi. Lakin assurlar nadir hallarda dəvəni vergi siyahısına salırdılar. Urartu hökmdarları isə Mannadan apardıqları qənimət içərisində dəvəni də yad edirdilər. Yəqin ki, dəvə nisbətən dağlıq ərazilərdə tətbiq olunurmuş.

Sənətkarlıq. Mannanın ərazisi hələ qədim zamanlardan, Aratta dövründən e'libaı*ən İkiçayarası hökmdarlarının diqqətini cəlb edirdi. Burada zəngin faydalı yeraltı və yerüstü mə'dənlər vardı. Manna ərazisində qiymətli metallar, müxtəlif metal filizləri, qiymətli daşlar, daş və ağac tikinti materialları əldə edilirdi.

Mannada qızıl, gümüş, tunc və mis qab-qacaq hazırlanması sahəsində peşəkar sənətkarlar yetişmişdi. Assur hökmdarlan II Aşşuma-sıpal və III Salmanasar Gilzan vilayətindən qızıl, gümüş, qurğuşun və mislə bərabər, xərac kimi mis qablar da almışdı. V Şamşi-Adad Qizilbunda vilayətində qızıl, mis ilə yanaşı, gümüş qablar ələ keçilmişdi. 11 Aşşurnasirpal Zamuada kcçirdiyn hərbi əməliyyat zamanı hökmdara məxsus xeyli mis qab-qacaq ələ keçirmişdi. Onların içərisində adi qablardan başqa, mis kasalar, bardaqlar və nimçələr də vardı. Mannada xüsusilə mis qablar hazırlama sənəti daha geniş yayılmışdı. Misgərlik ən'ənəsi Azərbaycanda uzun müddət Öz varlığını saxlamış

dı. Mannanın müxtelif şeherlərində sənətkarlıq e’malatxanalan vardı. Arxeoloji qazıntılar zamanı aşkar edilmiş əşyalar və yazılı mə’lu- matlar göstərir ki. Mannada bir sıra peşələrlə yanaşı, zərgər, dəmirçi, misgər, heykəltəraş, istehkam tikən, daş yonan və s. sənət növlərilə məşğul olan sənətkarlar vardı. Həsənli arxeoloji məskənində aşkar olunmuş daş formalarda müxtəlif metal əşyalar, oraq, toxa, balta və bəzək əşyaları tökürmüşlər. Mannalılar metaləritmə və tökmə sənətini de mənimsəmişdilər. Belə sənətkarlar silah hazırlanmasında bilavasitə iştirak edirdilər. Qazıntılar zamanı Həsənli məskənindən xəncər, ox uclan, dəbilqə və s. aşkar olunmuşdur. Silahlar adətən də> mir və tuncdan hazırlanır, müxtəlif bəzək vurulurdu. Bə'zi xəncər dəstəkləri qızıl və gümüşlə naxışlanmışdı.

Müxtəlif mövzulara həsr olunmuş zərgərlik oşyalan (e.e. VIII - VII əsrlər) Ziviyede (qədim Zibiya)‘^2 aşkar edilmişdir.

Ziviyə (Zibiya) Manna qalalarından idi. Ziviyə dəfinəsində qızıl döşlük, mücm, qabanq qızıl üzük, hansı ki, adətən, qalxana və qılınc dəstəyinə bəzək kimi çəkilirdi, qılınc qınının və dəstəyinin hissələri, at qoşqu ləvazimatının gümüş və tunc hissələri, dəmir qılınclar, qızılla bəzənmiş şah başlığı, gümüş sini, tuncdan düzəldilmiş «vanna» qa> lığı, qızıl və gümüşdən hazırlanmış ritonlar^^^, qızıl kəmər və başqa qiymətli əşyalar saxlanılırdı. Təxmini hesablamalara görə, Ziviyə dəfinəsində qızıl, gümüş və fıl sümüyündən hazırlanmış 341 əşya varmış. Bu əşyalar Mannada zərgərlik sənətinin yerli və qonşu ölkələrin ən’ənəsi ilə əlaqədar inkişafını əks etdirir. Heç bir şübhə yoxdur ki, bu eşyalann yaradıcısı Manna sənətkarlan olmuşlar. Həsənli (Urmiya gölünün cənubu) və Marlikdən (Gilanın Rudbar kəndinin 14 km-də) tapılmış əşyaların ümumi oxşarlığı bu sənət abidələrini mannalı sənətkarların məhsulu kimi qəbul etməyə imkan verir.

Bu əşyalann kimlər üçün hazırlanması da mübahisəyə səbəb olmuşdur. Əşyalar arasında «skit üslublu» qabların olması belə bir ehtimal yaratmışdı ki, guya bu dəfinə yerində skit hökmdarı Madi dəfn edilnnıişdir. Digər fərziyyələrə görə, bu əşyalar guya Midiya hakim-

Cənubi Azərbaycanda, Sakkız şəhərinin 40 km-də, vaxtilə Mannanın tərkibinə daxil olan Həsənliyə yaxın bir ərazidə yerləşir. Abidə 1947-ci ildə təsadüfən tapılmışdır.

Riton - heyvan başı həkk olunmuş və buynuzu xatırladan qədəh.

134 Təsadüfi tapıntı nəticəsində Ziviyə əşyaları dağıdılıb müxtəlif əllərə düşmüşdü.

ləri üçün düzəldilmişdi. Halbuki e.e. VIII - VII əsrlərdə Midiyanın Manna üzərində heç bir siyasi tə*siri və ağalığı olmamışdı. Ziviyə dəfinəsi ya Manna hökmdarına, ya da kimmer-skit-sak padşahlığının hökmdarı Tuqdammeyə mənsub olmuşdur.

Ehtimala görə, Həsənli qalası, e.e. IX - VIII əsrlərin hüdudlarında düşmən basqınına mə'ruz qalmış, dağıdılıb yandınimışdı. Burada tapılmış əşyalardan qızıl cam daha çox diqqəti cəlb edir. Həsənlidə qazıntı aparan (1958-ci il) R.Dayson uçmuş divann altını təmizləyərkən insan sümüklərinə rast gəlir. O, qızıl camın tapılmasını belə təsvir etmişdir: «Mən sümükləri təmizləyərkən (ye'ni üstündəki torpağı) qızıl parıldadı. Əvvəl düşündüm ki, bu, qızıl bilərzikdir, lakin qızıl getdikcə dərinə uzanırdı və nəhayət, ağır bir qızıl qab göründü. İki digər adam skeletinin təmizlənməsi göstərdi ki, (o zaman həlak olmuş) üç adamdan biri yanan binadan qabı çıxarırmış. Onlar yanğın vaxtı ikinci mərtəbədə imişlər. Pərdi uçmuş, onlardan biri əlləri qabağa üzü üstə aşağı yıxılmış və bu zaman dəstəyi qızıla tutulmuş dəmir qılıncı onun sinəsini yaralamışdır. Qabı aparan ikinci adam sağ böyrii üstə yıxılmış, tunc lövhəcikdən düzəldilmiş əlcəkdə olan sağ əli divara dirənmişdir, qab yanına düşmüş, ağır tunc dəbilqə isə onun başını yarmışdır. Qab tutan adam yıxılarkən üçüncü döyüşçü onun sol tərəfində imiş. Bu döyüşçü də ikinci döyüşçünün ayağına ilişərək aşağı yıxılmış, onların üstünə pərdinin və divarın qalan hissəsi tökül- müşdüı*». Beləliklə, Manna ustalarının hazırladığı və üzərinə müxtəlif əfsanəvi təsvirlər həkk elədiyi ən gözəl incəsənət nümunələrindən olan qızıl cam qala divan altında qalaraq bizim dövrümüzədək gəlib çatmışdır.

Buna oxşar cam Marlikdə, vaxtilə Mannanın siyasi tə'sir dairəsinə daxil olduğu ərazidə de tapılmışdır. Qızıldan hazırlanmış bu qab üzərində «həyat ağacı» və ətrafında qanadlı öküz təsvirləri vardır. Marlik və Həsənlidən tapılmış bir çox qızıl, gümüş, tunc, mis, əqiq və balıqqulağından düzəldilən sənətkarlıq əşyaları ümumi oxşarlığa malikdir. Həsənlidə istehsalı geniş yayılmış saxsı qabları bişirmək üçün dulus ocaqlarından istifadə edirdilər. Bunların içərisində burunlu çayniklər, burulma qulplu kasalar, üçayaqlı çaynik tipli qablar və s. fərqlənirdilər. Burada e'mallı qab istehsak mənimsənilmişdi. Dulusçuluq sahəsində mahir Manna sənətkarları işləyirdilər.

Mannada toxuculuq sənəti geniş yayılmışdı. Həsənli qazıntıları zamanı müxtəlif parça tikələri aşkar olunmuşdur. Toxuculuqda adətən

qoyun yunundan və keçi qəzilindən istifadə edirdilər. Geyim əşyaları hazırlanmasına qoyun yunu sərf olunurdu. Yun müxtəlif rənglərə çalırdı. Mannalılar yun və yun mə'mulatından da vergi verirdilər. II: Aşşurnasirpal Zamua vilayətindən vergi kimi yun və müxtəlif rəngə çalan yun paltarlar (yəqin Mannada boyaqçılıq sənəti də mövcud imiş) almışdı. Uzun, qısaqol üst geyim paltarları olmuşdur. Manna döyüşçüləri, adətən, həm uzun, həm də dizə çatan gödək libasda təsvir edilmişdir. Heç şübhəsiz, qadınlara məxsus geyimlər də mövcud olub, lakin qadın libası o dövrün təsvirlərində öz əksini tapmayıb.

Me'marlıq və incəsənət. Mannada me'marlıq sənəti inkişaf tapmışdı. Hələ Aratta dövründə bu ərazidə mə'bed və saray tikən, onlara naxış vuran ustalar vardı. Mannalılar əcdadlarının qədim me'marlıq ən'ənəsini davav etdirirdilər. Qonşuların Mannaya qarşı işğalçılıq siyasəti ölkədə müdafiə istehkamlarının və qala tipli şəhərlərin tikilməsini sür'ətləndirdi. Artıq IX-VIII əsrlərdə Mannada xeyli qala tipli şəhərlər salınmış və istehkamlar tikilmişdi. Mannanın paytaxtı İzirtu, Sirdakka, Uşkaya, İştatti (Atranu), Uraş, Panziş. Tarui, Tarmakisu, Zibia və başqaları qala divarları ilə əhatə olunmuşdu. Assur və Urartu hökmdarları Manna ərazisində bir çox istehkam və qalaların olduğunu qeyd etmişdilər. Urartu hökmdarları Manna ərazisinə basqın edərkən yerli qalaları dağıdır və öz hakimiyyətlərini burada saxlamaq üçün istehkamlar saldırırdılar. Hal-hazırda Cənubi Azərbaycanda bir sıra qədim qala və istehkamların qalığı (xarabalığı) mə'Iumdur. Bə'zi tədqiqatçılar bunları heç bir əsas olmadan Urartu istehkamları kimi qələmə verirlər. Belə mülahizələr yazılı qaynaqlann mə'lumatına uyğun gəlmir. Mixi yazılı qaynaqlardan mə'lum olur ki, Manna erazisində çoxlu istehkam va qala tipli şəhərlər salınmışdı. Bu qala və istehkamlar Mannanın me'maıarı təı*əfindən uçaldılmışdır. Mannada istehkamtikmə sənəti ile məşğul olan mahir peşəkar ustalar vardı. Onların tikdiyi qala qalıqlarından biri Həsənlidə aşkar edilmişdir. Həsənli qalası enli və uca divarla əhatə olunmuşdu. Qala divarı üzərində müşahidə üçün qüllələr tikilmişdir. Sanqibutu vilayətində düşmən basqını haqda xəbər vermək üçün xüsusi qülləli istehkamlar tikilmişdi. II Sarqon bu haqda belə mə'lumat verir: «Müşahidə aparmaq üçün dağ zirvələrində bürclər ucaltmışdılar..., onlar gündüz və gecə düşmənin yaxınlaşmasını bildirən tonqalın yanmasını izləyirdilər». Həsənli qala şəhərində iki-üç mərtəbəli binalar tikilmiş, həmçinin mə'bed salınmışdı. Assur hökmdarları Mannada ibadət yerlərinin

'İması barədə mə lumat vermişlər. Yəqin ki, ibadət xüsusi binalarda . erləşirmiş.

Manna hökmdar saraylarının, mə’bədlərin, ibadət və yaşayış bina- ..ırının necə bəzədilməsi barədə mə’lumat qalmamışdır. Lakin əşyalar .»zərindəki şəkil və naxışlar Manna təsviri incəsənəti haqqında müəyyən təsəvvür yaradır. Həsənlidə aşkar edilmiş qızıl cam üzərində əfsanəvi səhnə, Marlikdə tapılmış böyük qızıl qədəh üzərində isə təs- virli nağıl əks olunmuşdur.

Müxtəlif təsvirlər bə’zi Ziviyə əşyaları üzərində öz əksini tapmışdır. Qızıl və gümüşdən buynuz şəklində hazırlanmış, riton adlandırılan içki qablarına heyvan tlqurlan calanmışdı. Adətən, bu, dağ keçisi, yaxud ahu başının təsviri olurdu.

Ümumiyyətlə, Ziviyə əşyaları üzərində əks olunmuş müxtəlif əfsanəvi səhnələrin ayrı-ayn təsvirləri Assuriya, Urartu, Elam, Suriya, Finikiya, Anadolu, «skit üslubuna» mənsub abidələrin mövzularına oxşardır. Əfsanəvi səhnələrdə bu oxşar mövzular qarışıq şəkildə təsvir olunmuşdur. Bu da Manna təsviri incəsənətini qonşu ölkələrin- kindən xeyli fərqləndirir vo onun ancaq mannalılara xas olmasını söyləməyə imkan verir. Əşyalar üzərində əfsanəvi səhftolordən başqa dik qalxmış şiri yaralayan hökmdar, ayağı bükülmüş şaxə buynuzlu maral,dizi bükülmüş dağ qoçu,*^^ «həyat ağacı»,1^® onun ətrafında keçi və qanadlı öküz təsvirləri əks olunmuşdur. Qızıl əşyaların xeyli hissəsində Assur, Urartu, Suriya, Anadolu mövzularına yaxın təsvirlər həkk edilmişdir. Demək olar ki, üzərində təsvirlər həkk olunmuş əşyalar Manna sənətkarlannın qabiliyyət və məharətini bildirən əvəzsiz nümunələrdir.

Mannada qiymətli metallardan müxtəlif əşyaların hazırlanması ən’ənəsinin kökü Aratta dövıünə gedib çıxır.

Din və əfsanələr. Mixi qaynaqlardan göründüyü kimi, mannalılar arasında çoxallahlıq mövcud idi. Onlar müxtəlif ilahi qüvvələrə sitayiş edirdilər. Təəssüf ki, sitayiş edilən allahların adı qaynaqlarda çəkilmir. İbadət üçün xüsusi binalar, mə’bədlər tikir və burada allahların heykəllərini qoyurdular. İşğalçılar həmin heykəlləri də qənimət kimi aparırdılar. I Tiqlatpalasar xəbər verir ki, «lullumelərin (lullu-

Assur yaralı şir mövzusuna yaxındır.
Kelermes (Qafqaz) və Elam mövzusuna yaxındır.
Kelermes mövzusuna yaxındır.
Assur və Urartu təsvirinə oxşardır.

bilərin) ölkəsini hüdudlarına kimi men işğal etdim, onların 25 allahını mən apardım və mənim Aşşur şəhərimin allahlanna və ölkəmin ilahələrinə bəxş etdim».

Mannada dini ibadət mə*bəddə, xüsusi binalarda ve ola bilsin ki, açıq havada keçirilirdi. Manna əhalisinin mə'nəvi dünyagörüşü əfsanələrdə də əks olunmuşdur. Manna əfsanələrinin xüsusiyyəti barədə bu və ya digər əşyalar üzərində əks olunmuş səhnələr müəyyən təsəvvür yaradır. Manna əfsanələrində, yəqin ki, qrif, yə'ni qartal başlı əcaib məxluq mövzusu müəyyən yer tuturmuş. Bu mifoloji mövzu qazıntılar zamanı tapılmış qızıl döşlük üzərində həkk olunmuşdur. Burada allahlar və qoyunlar qanadlı təsvir olunmuşlar. Döşlük üzərində mifoloji mövzunun müəyyən hissəsini əks etdirən şirlərin və həyat ağacının tesviri verilmişdir. Gümüş sini üzərində qriflərin başı, pantera ve dovşan rəsmləri verilmişdir. Mövzu baxımından pektoral'^^ rəsmləri fərqlənirdi. Burada «həyat ağacı», onun ətrafında dik dayanmış iki qanadlı öküz ve iki keçi təsviri vardır. Manna mifoloji mövzularında əfsanəvi vücudlar geniş təmsil olunurdu: qanadlı qrifon, qartal başlı, şir bədənli quş; pəncəli, buynuzlu və qanadlı şir, əqrəb, yaxud balıq; quyruqlu, buynuzlan yay kimi əyilmiş qanadlı qöyun, insan sifətli öküz, qanadlı öküz və keçi, qanadlı şir, pəncəli və bədənli, qadın sifətli sfinks və s. əcaib vücudlar mannalı- lann əsatirlərində mühüm yer tuturdu. Əcaib surətlər mövzusu Assuriya, Urartu və başqa incəsənət nümunələri ile oxşardır, lakin onları Manna ustalan yaratmışdılar. Yəqin ki, belə oxşar mövzular mannalı- ların dini təsəvvürlərində və əsatirlərində geniş yayılmış və yerli mədəniyyət ilə bağlı olmuşdu.

Həsənlidən tapılmış qızıl cam üzərində əks olunmuş mifoloji mövzu daha əhatəli təsvir olunmuşdu. Camın yuxan hissəsində cəng arabası üstündə üç allahın tesviri verilmişdi. İki arabaya qatırlar, birinə isə öküz qoşulmuşdu. Allahlar dağınıq saçlan kürəklərinə səpələnmiş kimi təsvir edilmişdir. Allahların uzun saçlıtəsviri Manna incəsənətinin fərqləndirici amili hesab oluna bilər. Mannalıiar dini təsəvvürlərinə uyğun olaraq allahları qanadlı, qısa qollu, lakin uzun saçaqlı paltarda, başlarına buynuzlu papaq qoymuş şəkildə çekmişlər. Öküzə qoşulmuş araba qarşısında əlində piyalə tutan kahin dayan-

Qədimdə boyuna bağlanılan, döş ve çiyini örtən bəzək əşyası. 140 Uzunsaçh insan təsvirləri qədim türk incəsənətinə

mışdır. Yeqin ki, o, dini mərasim icra edirmiş. Diger kahin dua edir. Onların arxasınca qoyun gətirənlər tesvir olunmuşdur. Yəqin ki, qoyunlar qurbanlıq imiş. Onlar eyni geyimdə idi, saçlan çiyinlərinə çalırdı. Qızıl cam üzərində bir çox allah və heyvan təsvirləri, insan və əjdaha rəsmləri, igidin əjdaha ilə döyüşü, qartal üzərində qızın uçuşu, qurbanlıq qoyunun kəsilməsi, uşağın öldürülməsi dini mərasim səhnələri öz əksini tapmışdır. Təsvirlərdə günəş, ay və külək, yağış allahlarını ayırd etmək mümkündür. Heç şübhəsiz, qızıl cam üzərindəki səhnələr mannalıların şifahi xalq yaradıcılığında təmsil olunmuş əsatirlərdən mənimsənilmişdi. Burada həm qurbankesmə ayini, qəhrəmanlıq dastanı, səmanı «kəşf» etməyə cəhdlər, dini mərasimlərin yerinə yetirilməsi qaydaları, allahlann əməlləri ilə əlaqədar şifahi xalq yaradıcılığında və nağıllarda təmsil olunmuş mövzulardan qırıq parçalar verilmişdir.

Həsənli təsvirlərinə yaxın olan Marlik qab rəsmlərində bir mövzu bütünlüklə əks etdirilmişdi. Burada tapılmış qızıl qədəhin üzərində, demək olar ki, «keçinin nağılı» verilmişdir. Öndə döş əmən qıdıx, ikinci cərgədə təzəcə buynuzu çıxmış və «həyat ağac»mın yarpaqla- nnı gəmirən çəpiş, üçüncü cərgədə isə qaban təsvir olunmuşdur. Dördüncü cərgədə can verən keçi təsviri verilmişdir. Onun cəmdəyini iki iri vəhşi quş dimdikləyir. Beşinci cərgədə xırda bir vücud, yeqin ki, yenidən doğulmanı bildirən rüşeym göstərilmişdir. Heç bir əsas olmadan mövzudakı təsvirləri assur, elam, het və kassi təsviri sənətləri ile eyniləşdirirlər. Lakin bu tesvirlərin cəmi bir mövzunu, demək olar ki, «olum və ölüm» mövzusunu əks etdirir. Bu mövzuda nağıl, yaxud hekayə, yəqin ki, yerli əhali arasında mövcud imiş. Həmin mövzuda hekayə mannalılar arasında da işlənirmiş, çünki oxşar tesvirlərə Həsənli əşyaları üzərində rast gəlinir.

Dövlət quruluşu. Manna dövləti hökmdar tərəfindən idarə olunurdu. E.ə. VIII əsrin ikinci yarısında Mannada hakim ailənin artıq irsi hakimiyyəti mövcud idi, yə’ni hakimiyyət atadan oğula keçirdi. Mərkəzləşmiş dövlət olan Mannada canişinlik idarə üsulu yaradılmışdı. Canişinlər mərkəzi hakimiyyətə tabe idilər. Bə’zən canişinlər urart- lann fitnə-fəsadına uyaraq mərkəzdən ayrılmağa cəhd göstərirdilər. Manna hökmdarlan müstəqil xarici və daxili siyasət yürüdürdülər. Dövlət idarəsi müxtəlif ə’yan və mə’murlardan təşkil olunmuşdu. Mixi qaynaqlar onları ə’yan, ağsaqqal, məsləhətçi, başçı və canişin adlandırmışdı. Dövlət idarəsində hakim ailənin üzvləri də çalışırdılar.

Ədəbiyyatda belə bir tiKir mövcuddur ki, guya Mannada erkən sinifli oliqarxik'"*' dövlət quruluşu mövcud olmuşdur. Buna uyğun olaraq Manna cəmiyyəti də erkən quldarlıq kimi qəbul edilir. Manna ərazisində hələ e.ə. III minillikdə dövlət quruluşları meydana gəlmişdi. Burada dövlət quruluşu ən'ənəsi qədim köklərə malik idi. Digər tərəfdən. Manna hökmdan qonşu dövlətlərin hökmdarları kimi dövlətin təkbaşına, yeganə başçısı idi. Onun hakimiyyəti qeyri-məhdud idi. Manna hökmdarı xarici siyasəti müstəqil olaraq müəyyənləşdirirdi. Ullusunu ən'ənəni pozaraq Urartu ilə ittifaqa meyl göstərirdi, lakin az sonra Assuriyanın üstünlüyünü tanıdı. Son məqamda iki siyasi istiqamətdən birinin seçilməsi Manna hökmdarının əməli kimi qiymətləndirilə bilər. Manna dövlətinin idarəetmə sisteminə ağsaqqallar şurası da daxil idi. Hökmdar hakimiyyətinin möhkəmləndiyi və irsi xüsusiyyət daşıdığı bir dövrdə ağsaqqallar şurası hökmdarın xarici siyasətini məhdudlaşdıra bilməzdi. Ağsaqqallar şurası, ə'yanlar, dövlət mə'mur- ları hökmdarın göstərişlərini icra edən və dövlət işləri ilə məşğul olan idaiBlərə mənsub idilər.

Bə'zən Manna xalqının ictimai həyatda fəal iştirak etməsini ibtidai icma qalıqlarının güclü olması ilə bağlayırlar. Guya ki, mannalı- lann hökmdar Ahşerini taxtdan salaraq öldümıələrinin səbəbi bu idi. Əslində isə Manna hökmdarının devrilməsi ölkədə daxili ziddiyyətlərin kəskinləşdiyini göstərirdi. Assuriya ilə en'ənəvi ittifaqdan uzaqlaşmış Ahşerini mannalılar məhz döyüşdə məğlubiyyətə uğradığı üçün cəzalandınnışdılar. Bunu assur meylli siyasət tərəfdarları təşkil edə bilərdilər. Təsadüfi deyil ki, onun oğlu Ualli Assuriya ilə ittifaqı tez bəıpa etdi.

Qaynaqlarda Mannada yaşayan bir neçə tayfanın adının çəkilməsi və ərazinin «Mannalılar ölkəsi» adlandırılması belə bir mülahizənin yaranmasına imkan vermişdi ki, guya Manna cəmiyyəti tayfa quruluşunu saxlayırmış. Buna əsaslanan bə'zi tarixçilər Mannanın iqtisadi və siyasi inkişafını inkar edir; Urartunun Mannadakı işğallarına bəraət qazandırırlar. Guya uraitlar Mannada yeni mədəniyyət yayırdılar. Bu mülahizələrin heç bir elmi əsası yoxdur. Hər bir inkişaf etmiş dövlətin tərkibində tayfa bölgüsü olmuşdur. «Mannalılar Ölkəsi» isə ərazinin vahid adıdır. Mannada quldarlıq istehsal üsuluna əsaslanan iqtisadiyyat və dövlət hökm sürürdü.

Yuxan təbəqənnn hakimiyyətinə əsaslanan dövlət.

Yazı və dil. Hələ e.ə. III minillikdə Cənubi Azərbaycanda mixi . .‘zı növü ilə tanış idilər. Mixi yazmı oxuyan və bu yazı ile hökmdara •.ləxsus abidələrə mətn yazan dairələr vardı. Ola bilsin ki, Urmiya gölü hövzəsi ölkələrində məktəblər mövcud olmuş və burada mixi yazı növü də öyrədilimıiş, Mannada da mixi yazını oxuyan mirzələr . armış. Qaynaqların birində mannalı mirzə yad edilmişdir.

Yəqin ki. Mannada yerli yazı növləri de olubmuş. Ziviyədən tapılmış gümüş sini üzərində bir çox heroqlif yazı növünə mənsub işarələr həkk olunmuşdur. İşarələrin çoxluğu və müxtəlifliyi göstərir ki, bu işarələr oxunurmuş. Bə’zi işarələr çox güman ki, rəqəm bildirirmiş. Buna oxşar mətnlər tapılmamışdır. Müqayisə üçün digər mətnlərin olmaması bu heroqliflərin oxunmasını çətinləşdirir. Beləliklə, fərz etmək olar kn. Mannada erkən yazı növü olan heroqliflerdən istifadə edirdilər. Mannada mövcud olan, yaxud işlənən diger yazı növü barədə heç bir iz qalmamışdır. Mə’lumdur ki, Manna hökmdarı Ullusunu II Sarqonun şərəfinə abidə qoydurmuşdu. Çox güman ki, abidənin mətni Manna yazısı ilə mannalıların dilində tərtib olunmuşdu. Bu abidə hələlik aşkar edilməmişdir.

Mannalıların dili barədə heç bir mə’Iumat qalmamışdır. Burada hurri, İran, türk və başqa dillərin işləndiyi barədə mülahizələr mövcuddur. Bu mülahizələr yer və şəxs adlarının təhlilinə əsaslanırdı. Burada hurri etnoslarının təmsil olunması yer və şəxs adlarının tam təhlilinə əsaslanmır, sadəcə, be’zi komponentlərin oxşarlırı dəlil kimi götürülmüşdür. Mannada İrandilli etnosların olmasını bir neçə yer adlan bildirir. Lakin son zamanlar Mannada hökmdar və yer adlaının türk mənşəli olması barədə əsaslı mülahizə və dəlillər irəli sürülmüşdür.

Hələ Aratta dövründə ölkənin adı ilə bağlı burada türk mənşəli əhalinin yaşaması barədə mülahizə irəli sürülmüşdü. Aratta ölkə adı ən qədim türk dillərində «dağ, dağlıq ölkə» mə’nasında işlədilirdi. E.ə. VIII əsrdə həmin ərazi Alateye «dağ, dağlıq ölkə» adlanırdı. Aratta və Alateye yer adlarında r~I fonetik əvəzlənməsi müşahidə olunur. Müasir türk dillərində Alataa, Alatuu, Alatey oronimləri işlədilir. Aratta və Alateye yer adlan ancaq en qədim türk (prototürk) dilləri əsasında meydana gələ bilərdi. Ən qədim türk etnoslarının burada yaşamasını turukkiZ/turuki etnik adının bu əraziyə tətbiq olunması da göstərir. Turukki adı «türk» etnoniminin ilkin forması idi.

Mixi yazılarda Manna ərazisi ilə əlaqədar təsadüf olunan bir sıra yer adlan türk dillərində izah olunur. Uişdiş dağlıq vilayəti viş-

diş//bişdiş sözünü təmsil edir və «Beş diş» mə'nasını daşıyırmış. Urartu yazısı bunu Uqiştini kimi qeyd etmişdir. Onun Uyiş- tini//Byiştini forması bərpa edilir və türk dilləri (qəd. türk, tinq «uca, dik, zirvə») əsasında «Beş dik», «Beş zirvə» kimi mə’nalandınlır. Mixi yazılarda Uişdiş adının Uişda («Beş dağ») variantı da işlədilmişdir. Da//ta türk dillərində *«dağ»* mə’nasını bildirir. Orta əsrlərdə güman ki, həmin dağ «Beşbarmaq» adlanırdı. Uşkaya qalası dağ keçidi üzərində tikilmişdi və buna dağın coğrafi şəraitinə uyğun olaraq «Üç qaya» adı verilmişdi. Mixi yazılarda yad edilən «Göydən bulud kimi sallanan üç dağ zirN'əsi» anlayışına uyğun gəlir. Bu toponim eyni zamanda Aşkaya şəklində işlədilirdi və «Aşu qaya», «Aşınm qaya» (türic. aşu «keçid, aşınm») mə’nasını daşıyırmış. Meişta// Mesa dağlıq ərazisi «tti zirvəli dağ» adına uyğun adlandınimışdı. Türk toponimiyasında «mes» dağın iti zirvəsi deməkdir. Arsita «Arsi dağı» mə’nasını bildirirmiş. Son adlardakı «ta» sözü türk dillərində «dağ» mə’nasında işlədilir. Arsiyaniş «Arsi (dağı) yanı», yaxud «Arsi (dağı) yenişi» mə’nasını verirmiş. İştatti şt/ss fonetik **əvəzlənməsinə*^^** uyğun İssatti kimi bəq^a olunur və türk dilləri əsasında «tsti/issi yen>, «Odlu yen> kimi mə’nalandınlır. Bu toponimin müqabili Atranu adlanır və İran dillərində «Od yeri» kimi izah olunur. Iştaraura/Zİssaraura «İsti//issi çay» kimi mə’nalandırılır. «Raura» sözü qədim İran dillərində «çay» deməkdir. Orta əsrlərdə bu çay farsca «Gərm yud», yə’ni «İsti çay» adlandınlırdı. Bara yer adı «qoyun-quzu saxlanılan yen> mə’nasını daşıyırmış. Bərə sözü indi də Azərbaycan dilində həmin mə’nada işlənir. Sanqibuti altay-türk dillərində «Üçayaqlı dağ qolu» me’nasında işlədilir.

Sanqibuti Bara vilayətinin digər adı idi və qaynaqların mə’lumatına görə, burada hökmdar sürüləri saxlanılırdı. «Üçayaqlı dağ qolu» isə qoyun-quzu saxlamaq üçün əlverişli təbii istehkam idi. Mannada vilayət adı Surikaş altay-türk mənşəli süüri «itiuc» (alt.), kaş «qaş, dağətəyi, silsilə» (türk.) sözləri əsasında izah edilir və «İtiuclu dağ ətəyi, silsiləsi» kimi mə’nalandınlır. Sirdakka qala adı türk dillərində işlədilən sırt «yastı yüksəklik, dağ silsiləsi, yastı dağ yalı» coğrafi məfhumu ilə uyğunlaşdırıla bilər. Mə’lumdur ki, qalalar yastı dağ

Mixi yazılarda «şt» səs birləşməsi bir sıra hallarda «ss» səs birləşməsini əvəz edirdi. Mixi yazılarda bə’zi fonemlari (o, u, ç, c) bildirən işarələr yox idi.

yüksəkliklərində tikilirdi. Mannanın paytaxt qala şəhəri tzirtu, yaxud Zirtu adı da eyni (s~z əvəzlənməsi) mə'nanı daşıyır, Qizilbunda //Qizilbuda türk dillərindən qizil. «qızıl qırmızı» və bunda//buda «bud, dağ qolu, təpə» kimi izah oluna bilər. Toponim «qırmızı dağ qolu, qırmızı təpə» mə'nasını daşıyırmış. Andirpatianu yer adı türk coğrafi məfliumu adir «dağ silsiləsi, təpəli dağ sırası, eroziyalı dağ silsiləsi» sözünü özündə əks etmişdir. Coğrafi baxımdan Andirpatianu Qizil-bundaya yaxın idi və bəlkə də eyni əraziyə verilən müxtəlif adlar olmuşdur. Uaşdirikku toponimi uaş//vaş (türk, «baş, uca») və dirik *{türk,* «tarak, daraq») söz birləşməsindən əmələ gəlmiş və «Baş daraq», yə'ni «uca, çoxdişli (daraq şəkilli) dağ» mə'nasını daşıyırmış. «Tarab> türk toponimiyasında çoxdişli dağ yüksəkliyini, dərə-təpəli dar sırasını bildirirdi. Tarui və Tarmakisu qala adlan müvafiq surətdə türk, tarau «dağ qolu», yaxud «çay aynmı, çay qollan», tarim isə «çay qolu, çay sahili, qollara aynlmış gölə, yaxud səhraya axan çay» mə'nasını bildirirmiş. Yəqin ki, bu qalalar çaylara yaxın yüksəkliklərdə salınmış və çayların mənzərəsini bildirən məfhum ilə adlandınl- mışdır. Qədimdə (və sonralar) yer addan təbii coğrafi mənzərəni əks etdirirdi və əhali tərəfindən müvafiq surətdə yaradılırdı. «Lallu» çay, «lallarip» tayfa adları türk mənşəli «lal» sözü, «-lu» və «-lar» şəkilçiləri vasitəsilə əmələ gəlmişdir. Edir çay adı bə'zi türk dillərində «Edil (r~l əvəzlənməsi) şəklində Volqa çayına. Buya çayı adı isə sonralar «Biya» şəklində Yenisey çayının qollarına şamil edilmişdir. Beləliklə, Mannada əhalinin başlıca dili ən qədim türk dili olmuşdur. Yer adlarında təmsil olunmuş sözlər ümumtürk leksikasına mənsub idi. E.ə. III - I minilliklərdə Cənubi Azərbaycan ərazisində türk dillərində danışan etnoslar (yerli əhali) yaşayırdılar və onlar hakim türk sulalərinin əsasını qoymuşdular. Manna hökmdarlarının adlan da türk dillərində izah olunur. Manna vilayəti hökmdarının adı Ata, yəqin ki, «ata, başçı» mə'nasını daşıyırmış. Ullusunu adı türk dillərində işlənən ullu//ulu «böyük, ulu, əzəmətli» sözünün və «sun» sifət şəkilçisinin birləşməsindən əmələ gəlmiş və «Ən böyük», «Ən ulu», yaxud «Ulu adam»^^^ mə'nasını daşımışdır. Manna hökmdannın oğlunun adı isə

Ses harmoniyasına uyğun olaraq şəkilçi -sın, -sin, -sun kimi yazılırdı. Tarixən bu şəkilçi «adam, kişi» mə'nasını daşıyırmış. Bu sözün ilkin mə'nası Azərbaycan dilində işlədilən sarışın «sarımtıl, sarı adam», qaraşın, «qaramtıl, qara adam» sözlərində qalmışdır. Türk dillərində bu şəkilçi - söz s/ş fonetik əvəzlənməsinə mə'ruz qalmışdı.

Erisinni idi. Türk dillərində ir//er//ər sözü «ər, kişi, qoçaq, igid» mə’nasmı daşıyır. Səs harmoniyasına uyğun olaraq şəkilçi «-sin» kimi işlədilmişdi. Erisinni «igid adam», «ən igid» me’nasını) bildiriiTniş. Ola bilsin ki, Ullusunu və Erisinni adları ləqəb olmuşdur. Manna canişini Telusini adlanırdı. Ola bilsin ki, bu ad «Tele (tayfasına mənsub) adam» me’nasını daşıyırdı. Tele altay-türk tayfa adı idi. Ahşeri adı eri «ər, kişi, qoçaq, cəsur» və axs//axş «axsaq, ləng», yaxud aşex «alçaq, mənfur» türk sözlərinnn birləşməsindən əmələ gəlmişdir. Bela halda Ahşeri adını «Ləng əD>, yaxud «Mənfur ər, adam» kimi mə’nalandırmaq mümkündür. Yada salaq ki, Ahşeri mannalılarm qəzəbinə düçar olaraq öldürülmüşdü. Ahşeri yəqin ki, hökmdara verilmiş ləqəb idi. Onun hakimiyyətə gələn oğlu Ualli adını daşıyırdı. Ad Ballı kimi bərpa olunur və türk dillərindəki bal sözü və -lı şəkilçisi ilə eyniləşdirilir. Ballı «ballı, şirin» kimi mə’nalandırılır. Bu adın Hind-Avropa mənşəli müqabilini Manna canişini Metatti daşıyırdı. Hind-Avropa dillərində met/myod «bal» mə’nasını verirdi, -tti isə -li şəkilçisinin fonetik variantı imiş. Eyni şəkilçi digər canişin Baqdat- tinin adında da əks olunmuşdur. Adın əsasını türk-monqol dillərində işlədilən bağdaboqda «müqəddəs» antroponimi təşkil edirmiş. İranzu adı iran, «cəsur, ər, kişi, qoçaq» sözündən, yaxud ir tayfa adından -an mənsubiyyət şəkilçisindən və zu(n) «adam, kişi» söz birləşmələrindən əmələ gəlmiş, «Ən cəsur adam», yaxud «İr (tayfasına) mənsub adam» mə’nasını daşımışdı.

Kimmerlerin etnik və dil mənsubiyyəti barədə dəqiq məMumat qalmamışdır. Son zamanlar kimmerlerin skit-sak tayfalarına mənsub-luğu və irandilli olması mülahizəsi ortaya atılmışdır. Lakin bu, onların İran mənşəli olmasına əsas vermir. Eyni zamanda kimmer adını İran dilləri əsasında «hərəkət edən dəstə» kimi də mə'nalandırırlar. Bu sün’i oxşatma inandırıcı deyil. Kimmerləri Qafqaz mənşəli də hesab edirdilər. Kimmer adı Qara dəniz sahili toponimlərində «Kimmeriya», «Kimmerik», «Kimmer Bosforu» (ind. Kerç boğazı) kimi əks olunmuşdur. Deməli, «Kimmep) bu tayfalara kənardan verilmiş ad ola bilərdi. Bə'zən Qafqaz dillərində kım//kam «baş, zirvə» me’nasını saxlamışdır. Onda «kimmeo>, ola bilsin ki, «baş ərlƏD> mə’nasmı daşıyırmış. Qədim türk dillərində kam «şaman» mə’nasında işlədilmişdir. Çox güman ki, kimmer «şaman ər» mə’nasını bildirirmiş. Kimmerlə- rin türkmənşəli tayfalara mənsub olması barədə erkən orta əsr Bizans qaynaqları məTumat verir. Prokopiyə görə, hunlar qədimdə «kim-

mei"» və «massaget» adlanırdılar. Hun tayfaları isə əsasən türk mənşəli olmuşlar.

«Skit» adı mixi qaynaqlarda işquzZ/aşquz şəklində əks olunmuşdur. Dəqiq mə’nası me’lum deyil. Bu etnonimi iç quz// iç oquz («içəri quz», «içəri oquz») kimi də me’nalandırmışlar. Bu oxşatma oğuzların tarixini daha qədimə aparır. Skitlər etnik tərkibinə görə müxtəlif olmuşdur. Onların içərisində türk, İran mənşəli etnoslar var idi. Sak, massaget, sarmat, türk tayfaları qaynaqlarda bə’zən skit anlayışı altında birləşdirilirdi. Feofen Simokatta türkləri skit xalqı kimi qələmə vermişdi. Strabon mə'lumat verir ki, skitləri həm də sak adlandırırdılar. Eyni zamanda o, Homerin adını çəkdiyi «hippomolqi», ye’ni «madyan sağanlan> tayfasını skitlərə mənsub edirdi. Həqiqətdə bunlar sak tayfaları imiş. Sak etnonimini osetin dilindəki sak «maral», fars dilindəki sək «it» sözləri ilə eyniləşdirirdilər. Sak adı, yəqin ki, qədim türk saq «sağmaq» fe’linin isim formasından əmələ gəlmişdir və ilkin mə’riası (madyan) «sağan» olmuşdur. Saklar əsasən türk mənşəli etnoslar idi. Menandrın dediyinə görə, türklər qədimdə sak adlanırdı. Beləliklə, e.ə. VIII əsrin sonu - VII əsrin əvvəlində Azərbaycana şimaldan gəlmiş bu tayfalar arasında əsasən türk mənşəli etnoslar təmsil olunmuşdular.

Adətən, qədim tayfalar yer dəyişən zaman qohum etnosların yanında məskən salırdılar. Kimmer, skit və saklar məhz yerli əhali ilə dil qohumluğuna görə Mannada və Arazın şimal hissəsində məskunlaşmışdılar. Burada türkdilli etnosların yaşaması kənar ölkələrdə yaşayan türk tayfalarının Azərbaycana axınına şərait yaradırdı. Yazılı tarixdən məMum olan türkdilli tayfaların Azərbaycana, dil cəhətdən qohum olan etnosların yanına ilk axını kimmer, skit və sak tayfalarının yerdəyişməsi ilə bağlıdır.

## *III f ə s i l*

# AZƏRBAYCAN QULDAR İMPERİYALAR DÖVRÜNDƏ

### § 1. AZƏRBAYCAN MİDİYA DÖVLƏTİNİN HAKİMİYYƏTİ İLLƏRİNDƏ

Midiya Mannadan cənub-şerqdə, tranın mərkəzində yerləşirdi. Midiya dövlətinin paytaxtı Ekbatana (indiki Həmədan) şəhəri idi. Midiya (Maday, Matay, Amaday) adı ilk dəfə e.ə. IX əsr qaynaqlarında yad edilmişdir. Midiya ərazisi e.ə. IX - VIII əsrlərdə xırda vilayət hakimləri tərəfindən idarə edilirdi. Mannanın Qizilbunda vilayəti hər iki ərazinin sərhədini təşkİl edirdi. Adirpatianu/ZAndarpatianu toponimi də yaxınlıqda yerləşən ərazi hissəsinə aid edilirdi.

Assur hökmdarlan Midiya erazisini də çapıb-talayır, yerli hakimləri Assuriyadan asılı vəziyyətə salırdılar. E.ə. IX əsrin ikinci yarısında V Şamşi-Adad, sonra isə onun oğlu III Adadnirari Midiyaya hərbi yürüş etmişdilər. E.ə. VIII əsrin ikinci yansında III Tiqlatpalasar «güclü midiyalıların» erazisinə çatmış, Midiya hakimlərinin xəracını qəbul etmişdi. II Sarqon Manna yürüşü zamanı Midiya torpaqlarına da soxuldu. Midiya hakimlərindən sayılan, lakin Manna canişini olan Da-yaukku Urartunun fitnəsinə uyaraq mərkəzi hakimiyyətə qarşı çıxırdı. II Sarqon Dayaukkunu ailəsi ilə birlikdə Hamat şəhərinə köçürdü.

E.ə. VIII əsrin sonunda Midiyada vahid dövlət yaradılması təşəbbüsü göstərilmişdi. Herodot bunu Deyokun*'^ (e.ə. 712- 675-ci illər) adı ilə bağlamışdı. Rəvayətə görə, Deyok Midiya tayfalarını birləşdirmiş və vahid dövlət yaratmışdı. O, Ekbatana şəhərini saldırmış, qala divarı çəkdirmiş və onu Midiya dövlətinin paytaxtı e Man etmişdi. Skit- lərin Ön Asiyaya gəlməsilə Midiya Assuriyaya qarşı mübarizədə fəallaşdı. Herodotun məMumatına görə, bu mübarizəyə Fraorta (e.ə. 675

•44 Deyokiın şəxsiyyəti Dayaukku ilə eyniləşdirilir. Bunlar, bəlkə də eyni adlı müxtəlif adamlar olmuşlar. Bə'zi mülahizələrə görə, Dayaukku şəxs adi yox, rütbə («vilayətin ağası») bildinnişdir. Deməli, onlar eyni rütbəli ayrı-ayrı hökmdarlar imiş.

653-cü iller) başçılıq edirdi. Mixi yazılarda o, Kaştariti adlanırdı. Yəqin ki. Mannada yerləşən skitler midiyalıların mübarizəsinə yardım gösterirdilər. E.ə. 672-ci ildə Midiyanın Assuriyaya qarşı mübarizəsi uğurla başa çatdı. Midiya Assuriya boyunduruğunu atdı və müstəqil dövlətə çevrildi. Kaştariti xırda vilayət hakimlərini vahid mərkəzdə birləşdirdi.

E.ə. VII əsrin 50-ci illərində, güman ki. Midiya yenə də Assuriya ilə toqquşmalı olur. Herodotun verdiyi mə'lumata görə, Fraorta (Kaştariti) Assuriyaya yürüş təşkil etmişdi. Skitlerin diger dəstəsi, başda Madi olmaqla Assuriyanın köməyinə gəlmiş və Kaştaritini məğlubiyyətə uğratmışdı. Kaştariti döyüşdə həlak olmuşdu. Bir müddət (e.ə. 653-625-ci illər) Midiya skitlerin hakimiyyəti altına düşdü. Herodo- mn saxladığı tarixi rəvayət skitlərin Midiyada ağalığına son qoyulmasını hökmdar Kiaksann*^^ (e.ə. 625-585-ci iller) fəaliyyəti ile bağlayır. Kiaksar Midiyada skit ağalığına son qoydu. Herodotun me'luma- tına görə, özlərini şah adlandıran xırda vilayət hakimləri mərkəzi hakimiyyətə tabe edildi. Yəqin ki, bundan sonra Kiaksar «şahlar şahı» rütbəsini daşımışdır. Şah Kiaksar cənub-şərqdə farsların ölkəsini də Midiyaya tabe etdi.

Mərkəzləşmiş dövlət yaratdıqdan sonra Kiaksar Assuriyaya qarşı müharibəyə hazırlaşdı. O, Midiya ordusunu yenidən təşkil etdi. Kiaksar ordusunu silahlarına uyğun nizəçi və oxçu dəstələrə böldü, süvarilər dəstəsi yaratdı. O, yeni Babilistan hökmdarı Nabupalasar ilə ittifaqa girdi. Hər iki tərəfdən Assuriya üzərinə hücum başlandı. E.ə. 616-cı ildə baş veı*ən döyüşlər zamanı Manna ordusu Assuriyanın köməyinə gəlmişdi. Qablini şəhəri yanında baş vermiş döyüş assur hərbi dəstələrinin məğlubiyyəti, Manna dəstələrinin əsir alınması ilə başa çatdı. E.ə. 615-6l2-ci illərdə Midiya və Babilistan ordusu tərəfindən Assuriyanın Aşşur, Arbela, Kalat paytaxtı Nineviya şəhərləri zəbt edilərək çapılıb-talandı. E.ə. 604-cü ildə Assuriya imperiyası məhv edildi və toıpaqlar Midiya ilə Babilistan arasında bölüşdürüldü.

Bundan sonra işqalçılıq müharibələrinə başlayan Kiaksar Egey dənizi sahilinə çıxmaq məqsədilə Lidiya dövlətinə qarşı hücuma keçdi, tik növbədə Urartu Midiyanın tərkibinə daxil edildi, çünki bu ölkə Kiçik Asiyaya gedən yol üzərində yerləşirdi. Mannanın aqibəti

Bisütun yazısı onu Huvaxıştra, Babil qaynaqları Umakiştar adlandırmışdır.

namə’lum qalır. Ola bilsin ki, Manna rəsmən Midiyanın siyasi ağalığını tanımış və bununla da öz daxili idarəetmə müstəqilliyini saxlaya bilmişdi. Manna müharibə meydanlarından kənarda yerləşirdi. Kiak- sar Kiçik Asiyaya yola düşdü və Lidiya hökmdarı Aliatta ilə müharibəyə başladı. Güman etmək olar ki, Manna hələlik müstəqilliyini bəlkə də xərac veiTnək naminə saxlayıraıış.

Kiaksarın Lidiya ilə müharibəsi beş il davam edir. Beş illik müharibədən yomlmuş hər iki tərəf e.ə. 585-ci ildə sülh müqaviləsi imzalamağa məcbur olur. Diplomatik nikah bağlanır, yə’ni Aliatta qızını Kiaksarın oğlu Astiağa^^^ ərə verir. Müqaviləyə görə, Kiçik Asiyanın Hal is (ind. Qızıl İrmak) çayı iki dövlətin sərhədi kimi müəyyənləşdirilir və beləliklə, Midiya Ön Asiyanın qüdrətli dövlətinə çevrilir.

Belə bir şəraitdə Azərbaycanın siyasi vəziyyəti dəyişməyə bilməzdi. Ola bilsin ki, Azərbaycan siyasi cəhətdən Midiyanın tə’siri altına düşmüşdü. Lakin bu haqda qaynaqlarda mə’lumat qalmamışdır. Kiaksarın vəfatından sonra hakimiyyətə onun oğlu Astiaq (e.ə. 585 - 550-ci illər) gəlir. Astiağın uzunmüddətli hakimiyyəti onun adı ilə əlaqədar müxtəlif rəvayətlərin meydana gəlməsinə şərait yaratdı.

Astiağın hakimiyyətinin son illərində Midiyanın daxili və xarici vəziyyəti mürəkJobləşməyə başladı. Han*an vilayətinə görə qonşu Babilistan ilə də münasibətlər kəskinləşirdi. Hər iki dövlət Harran vilayətinə iddia edirdi. Astiaq HaiTana hərbi dəstələr yeritdi. Astiağa qarşı olan saray ə'yanlarının bir qismi bu fürsətdən istifadə etdi. Daxili siyasətdə Astiaq nəsli zadəganların hüququnu məhdudlaşdırdığı üçün hökmdar ilə ə’yanlar arasında ziddiyyətlər artırdı. Herodotdan qalan rəvayət göstərir ki. Midiya sarayında fars meylli qüvvələr gizlİ fəaliyyət gösterirdi. Bir qıııp ə’yan, başda Harpaq olmaqla Kir ilə gizli sazişə girir və onu hakimiyyəti ələ almağa təhrik edir. Mərkəzi hakimiyyətə müxalifət təşkil edən qüvvələrin sayəsində II Kir ordusu ilə birlikdə Midiya torpaqlarına soxulur. O, üç il (e.ə. 550-553-cü illər) davam edən bu müharibədə qalib gələrək Ekbatana şəhərini tutur. Digər rəvayətə görə. Kir Midiya sarayında xidmət edirmiş. Şəxsi və əməli işgüzarlığına görə sarayda yüksək vəzifəyə sahib olubmuş. Astiaq ona e’tibar etmiş və Azərbaycan ərazisindəki kadusiləri tabe etmək üçün hərbi səfərə göndənuişdi. Lakin Kir kadusilər ilə sazişə girmiş və onların köməyilə Astiağa qalib gəlibmiş. E.ə. 550-ci ildə

Babil qaynaqlan onu İştimequ adlandırır.

qüdrətli Midiya dövləti süquta uğrayır və Midiya Əhəməni dövlətinə birləşdirilir.

Midiya 20-30 il ərzində İranın ən qüdrətli dövləti olmuşdur. Keçmiş Urartu ərazisi, farsların əyaləti, Assuıiyanın şimal torpaqlan Midiyaya daxil idi. Araz çayından şimalda yaşayan etnosların Midiyaya tabe olması barədə heç bir mə'lumat qalmamışdır. Onlar, o cümlədən Şimali Azərbaycan əhalisi yəqin ki, siyasi müstəqilliyini saxlayır, Midiya ilə yalnız iqtisadi və mədəni ünsiyyətə girirdilər. Bəlkə də Cənubi Azərbaycanda keçmiş Manna dövlətinin ərazisində müəyyən bir yerli sülalə öz hakimiyyətini saxlayınnış. Midiya toponimlərinin və şəxs adlarının öyrənilməsi göstərir ki, burada türk və İran dillərində danışan əhali de yaşayırdı.

## § i. AZƏRBAYCAN ƏHƏMƏNİ SÜLALƏSİNİN HAKİMİYYƏTİ İLLƏRİNDƏ

II Kir Midiyanı zəbt etdikdən sonra Əhəməni fars dövlətinin əsasını qoyur. Əhəməni sülaləsinin banisi Əhemən olmuşdur. Bu sülalə İranın cənub-şərqində hökmranlığa başlamışdır. Onların ilk vətəni Fars əyaləti hesab edilir. Buradan farslar tədricən yayılmış və Elamın Anşan vilayətinə yiyələnmişlər. Əhəmendən sonra Çişpiş (təx. e.ə. 675-640-cı illər) sülaləyə başçılıq etmişdir. Bə'zi mülahizələrə görə, farslar buraya e.ə. VIII əsrdə mixi qaynaqlarda yad edilən Parsua vilayətindən, Diyala çayının yuxarı axanndan gəlmişlər. Ehtimala görə, Paı-sua ölkə adı onların etnik (pars, fars) adına çevrilmişdir. Çişpişin oğlu və varisi I Kir (e.ə. təx. 640-604-cü illər) Assuriya hökmdarı Aşşurbanipala qarşı Elam ilə birlikdə ittifaqda iştirak edir, lakin məğlubiyyətə uğrayır və oğlunu Assuriyaya girov göndərir. E.ə. 639-cu ildə l Kir «Parsumaş hökmdan» rütbəsini daşıyırdı. LÌam dövləti Aşşurbanipal ilə müharibələrdə zəiflədikdən sonra I Kir Elamın Anşan vilayətini tutur. I Kirdən başlayaraq erkən Əhəməni şahlarının hakimiyyət rütbəsinə hər iki ad daxil edilirdi. E.ə. VI əsrin əvvəllərində Anşan və Parsa Midiyanın hakimiyyəti altına keçir. Burada hakimiyyətə gəlmiş I Kambiz (e.ə. 584-558-ci illər) Midiya hökmdan Astiağa tabe idi. Fars eyalətindəki pasarqad tayfasından olan I Kam-

Əvvəllər Parsuanı səhvən Urmiya gölünə yaxın erazidə yerləşdirir və farsların buradan cənub-şərqə hərəkət etdiklərini göstərirdilər.

bizin oğlu II Kir (e.e. 558-530-cu illər) fars tayfalarını birləşdirib Midiyaya qarşı müharibəyə başlayır. E.ə. 550-ci ildə fars qoşunları Midiyanın paytaxtı Ekbatana şəhərini tuturlar. II Kir özünü Midiya şahı e'lan edir. Ekbatana şəhəri Əhəməni dövlətinin mərkəzlərindən birinə çevrilnr. II Kir Midiyada öz hakimiyyətini qanuniləşdirmək üçün Astiağın qızı Amitidanın erini e'dam etdirir və onunla evlənir. Bununla da gələcəkdə Midiya taxt-iacına qarşı iddiaya son qoyulur. Farslar Midiya mədəniyyətinin bir çox cəhətlərini, eləcə de dövlət idarə qumluşunu mənimsəyirlər. Qədim yunanlar, misirlilər və başqa xalqlar Midiya taxt-tacının Kirin əlinə keçməsini miras kimi başa düşür, çox hallarda isə Əhəməni sülaləsinin şahlarını və farslan «midiyalı» adlandırırdılar. Bir neçə il ərzində II Kir Midiya dövlətinin tərkibinə daxil olan ölkələri özünə tabe edir.

E.ə. 547-ci ildə II Kir Kiçik Asiyaya yürüş edir və Lidiya hökmdarı Krezi məğlubiyyətə uği'adır. Kiçik Asiyanın yunan şəhərləri Lidiya canişinliyinə birləşdirildi. Bundan sonra II Kir şərq istiqamətində müharibələr apannalı oldu. Ola bilsin ki, o. Orta Asiyanı (Xa- ı\)zm, Soqdiana, Baktriya, Marqiana, sak ölkələri və s.) və Hindistana c|ədər olan erazini işğal etmişdi.

E.ə. 530-cu ildə II Kir massaget tayfalanna qarşı hərbi yürüş təşkil etdi. Kirin bu yürüşü barədə müxtəlif mülahizələr ortaya atılmışdı. Antik müəllitler bu yürüş haqda ziddiyyətli mə'lumat saxlamışlar. Qaynaqlar II Kirin yürüşünün istiqaməti barədə qəti fikir söyləməyə imkan vermir.

Herodot massaget tayfaları barədə yazırdı ki, «bu xalq qədərsiz və cəsur hesab edilir, şərqdə, Araz çayının o təı-ətındə issedonlar ilə üzbəüz yaşayır. Bə'zilərinin fikrincə bu, «skit xalqıdır». Bununla əlaqədar Herodot xəbər verir ki, «Araz çayı matienlerin ölkəsindən axır». Antik müəlliflərin mə'lumatına görə, matienler Umıiya gölünün qərbində yaşayırdılar. Deməli, qaynaqda Azerbaycandan axıb keçən Araz çayı nəzərdə tutulmuşdur. Herodotun mə'lumatından belə nəticəyə gəlmək olur ki, II Kir Araz çayından şimalda yaşayan massaget tayfalanna qarşı çıxış etmişdi. MəMum olduğu kimi, hələ VII əsrin əvvəlinci rübündə Azərbaycan ərazisində skit və sak tayfalan məskən salmışdılar. Massagetlər də skit tayfa birliyinə daxil idilər. Dion Kassi Arazdan şimalda yaşayan albanları massaget mənşəli hesab edirdi. Erkən orta əsrlərdə Şimali Azərbaycan əhalisinin bir qismi massaget (ınaskut) adlandırılırdı. Strabon qeyd etmişdi ki, skitlərin böyük bir

hissəsi massaget və sak adını daşıyırdılar. Beləliklə, Şimali Azərbaycan əhalisinə nisbətən eıkən dövrlərdə massaget, sak və başqa etnik adlan şamil edirmişlər. Ehtimala görə, II Kir Şimali Azərbaycanın ərazisində yaşayan və massaget adlanan etnoslara qarşı yürüş təşkil etmişdi, lakin bu tayfaların hökmdarəsi Tomiris tərəfindən məğlubiyyətə uğradılaraq həlak olmuşdu.

Digər rəvayətlərə görə, II Kir dah (day, dak), yaxud derbik tayfalarına qarşı yürüşə çıxmışdı. Bu tayfaları Orta Asiyada yerləşdirirlər, halbuki onlar Qafqazla əlaqədar da yad edilir. Dah və derbiklər massaget tayta ittifaqına daxil idilər. Daha qədimdə onlar sak adı altında mə'lum olmuşlar. Saklar isə həm Arazdan şimalda, həm də Orta Asiyada yaşayırdılar. Məhz buna görə hələ antik mənbələrdə II Kirin massagetlərə - saklara qarşı yürüşü barədə ziddiyyətli mülahizələr meydana gəlmişdi. Onun keçdiyi çayı Araz, bə'zən isə Oaks (indiki Sır-Dərya), bə'zən İstr (indiki Dunay) adlandırırdılar. Arazdan şimalda yaşayan tayfaların uzun müddət Əhəmənilərə tabe olmadığını nəzərə alsaq, I^ Kirin məhz onlara qarşı yürüşə çıxdığını güman etmək olar. II Kir Araz çayını keçdi və Tomirisin yanına qasid göndərdi. Tomiris başa düşdü ki, II Kir massagetlərin torpağını işğal etmək istəyir. Tomiris təslim olmağı ağlına da gətirmirdi və Kirin ordusu ilə döyüşə başladı. Fars ordusu darmadağın edildi. Kir isə döyüş meydanında həlak oldu. Beləliklə, Əhəmənilərin Araz çayından şimalda yerləşən torpaqları tutmaq cəhdi boşa çıxdı.

II Kirin oğlu II Kambiz (e.o. 530-522-ci illər) Misirə səfərə çıxır. O, Misirdə olarkən e.ə. 522-ci ildə İranda dövlət çevrilişi baş verir. Hakimiyyətə onun qardaşı Bardi gəlir. Dövlət çevrilişi haqda eşidən 11 Kambiz İrana qayıdarkən yolda (Suriyada) müəmmalı şəkildə vəfat edir. Qaynaqların mə'lumatına görə, guya Qaumata adlı bır maq, yə'ni dini ayinləri həyata keçirən kahin, özünü Kirin oğlu Bardiya kimi qələmə verərək. Əhəməni taxt-tacını ələ keçirir. Əhəməni nəslinin digər qoluna mənsub olan Dara Qaumatanı yalançı Bardi kimi qələmə verəıək sui-qəsd təşkil edir və Bardi öldüıülür. Bisiitun yazısının akkad dilində yazılmış bəndində Qaumata «midiyalı» adlandırılır. Buna uyğun belə fikir mövcuddur ki, o. Midiya hakimiyyətini bərpa etmək istəyirmiş. Bə'zi antik müəlliflər Qaumatanı Tanioksar adlan- dınrlar. Herodotun mə'lumatına görə, Bardi (Smerdis adlandınr) xeyli güclü imiş. Ad fars dilində «uca, yüksək» kimi mə'nalandınlır. Qaumata (fars, qau «öküz, inək», mat türkcə «bod/bəd» sözünün eksidir

və «bədən, boy» mə’nasım daşıyır) fars-türk mənşəli ad olmaqla «öküz bədən», «öküz boy» mə’nasını verir. Tanioksar türk mənşəli söz olmaqla «təni öküz əD> ifadəsinin yunan qaynağında verilmiş formasıdır. Belə nəticəyə gəlmək olur ki, bu adların hamısı eyni bir şəxsə şamil edilmiş müxtəlif, təxminən eyni mə’nalı ləqəblərdir. Digər tərəfdən türk mənşəli ləqəb gösterir ki, İranın özündə (Midiya da daxil olmaqla) türk etnosları geniş təmsil olunmuşdular.

I Dara (e.ə. 522-486-cı illər) sui-qəsd nəticəsində hakimiyyətə gəlir. O, Kirin qızı Atossaya evlənir və bu nikahla hakimiyyətə qanuni varis kimi sahib olduğunu nümayiş etdirir. Əslində, l Dara 11 Kirin oğlu Bardini hakimiyyətdən salmış, l Bisütun yazılarında onu yalançı Bardi kimi qələmə venniş və onu Qaumata adlandırmışdı. Bardi- Qaumatanın siyasəti geniş xalq kütlələrinin ağır vəziyyətini yaxşılaşdırmağa və nəsli ə’yanların hüquqlarını məhdudlaşdırmağa yönəldilmişdi. Bə’zi tədqiqatçıların fikrincə, Qaumata-Bardi, guya qarşısına midiyalılann hakimiyyətini bərpa etmək məqsədini qoymuşdu. Lakin qaynaqlar Qaumata-Bardinin Midiyanın xeyrinə tədbirləri barədə mə’lumat vermir. Əksinə, onun ilk qanunları Əhəməni dövlətinin tərkibinə daxil olan bütün xalqların mənafeyinə uyğun idi. O, Əhəməni dövlətinə daxil olan xalqları üç il müddətinə vergilərdən və hərbi mükəllətlyyəldən azad etmişdi. Bisütun kitabəsində yayılmış yalan şayiələrə baxmayaraq, Qaumata-Bardi həm Kirin oğlu kimi, həm də öz əməllərinə görə böyük nüfuza malik idi. Məhz buna görə onun devrilməsindən sonra Əhəməni dövlətinin tərkibində olan bir çox ölkələr, 0 cümlədən Fars, Midiya, Elam, Babilistan üsyan qaldırır, lakin onb/ asında birlik yox idi.

L’syan ,..ıdıran ölkələr sırasında Arazdan şimalda məskunlaşan tayialann, Arazdan cənubda Urmiya gölü hövzəsində yaşayan əhalinin, yaxud burada meydana gəlmiş siyasi hakimiyyətin adı çəkilməmişdir. Deməli, bu ölkələr hələ Əhəməni dövlətinin tərkibinə daxil deyildi. Midiya üsyanına ancaq Assuriyanın şimalı, Saqartiya, Parfıya və Hirkaniya qoşulmuşdu. Üsyan etmiş ölkələr arasında Azərbaycan yad edilməmişdir. Bə’zi mülahizələrdə əsassız olaraq Saqartiya adı bütün Cənubi Azərbaycana şamil edilir. Lakin Saqartiya yal-

Tarbcən burada hurrilər, prototürklər, urartlar, skit-saklar yaşayırdılar. I Daranın Bisütun kitabəsində nə üsyan başçısının adı, nə də üsyançıların etnik mənsubiyyəti göstərilmişdir. Qaynaq göstərir ki. üsyan Armini- ynda (keçmiş Urartu toıpaqlarında) başladı.

:r/. Mannanm cənubundakı Parsuanın ərazisində yerləşirdi. Həmin .»razi Midiyanın tabeliyində imiş. Yəqin ki. Cənubi Azərbaycan müs- ;əqil daxili idarə üsulunu saxlayırmış və buna görə də üsyan qaldırmamışdı. Herodotun mə’lumatına görə, Araz çayından şimalda yaşayan xalqlar ancaq könüllü olaraq Əhəməni dövlətini tanımış və ona xərac verməyə razılaşmışdılar. Herodot yazırdı: «Qafqaz sıra dağlarınadək qonşuları kimi, kolxidalılar da könüllü hədiyyə verməyi üzərlərinə götürdülər. Farsların hakimiyyəti bu sıra dağlarına qədər gəlib çatır, lakin Qatqazdan şimalda yerləşən ölkələr fars hakimiyyətini tanımaq belə istəmirlər». Deməli, Azərbaycan, xüsusilə də Arazdan şimala uzanan hissəsi könüllü olaraq Əhəməni dövlətini tanıyıbmış, lakin ona tabe deyilmiş. E.ə. 522-521-ci illərdə Əhəməni dövlətini bürümüş üsyanlar yatırılır və Əhəməni dövləti təxminən əvvəlki hüdudlarında bərpa edilir.

Xarici siyasətində yad ölkələrin işğalı başlıca yer tutan I Dara ilk növbədə skit və sak tayfalarına qai-şı yürüşlər təşkil edir. Elmi ədəbiyyatda I Daranın bu tayfalara qarşı hərbi yürüşlərinin istiqaməti və illəri mübahisəyə səbəb olmuşdur. Qaynaqlar sakları müxtəlif cür adlandırırlar; haumavarqa,*^^ tiqrahauda^^® və dəniz arxası saklar.*^* E.ə. 519-cu ildə 1 Dara tiqrahaudaların («şiş papaq» qoyan sakların) ölkəsinə qoşun yüıiidür. Bisutun kitabəsi bu haqda belə mə’lumat xermişdir: «Bundan sonra mən ordu ilə sak ölkəsinə, ucu şiş papaq qoyan saklara qarşı getdim. Çaya*^^ çatdım, onu ordu ilə keçdim. Bundan sonra sakları darmadağın etdim, qalanını əsir tutdum. Skunxa adlı başçılarını tutub mənim yanıma gətirdilər. Mən başqasını onlara başçı te’yin etdim, öz bildiyim kimi. Bundan sonra ölkə mənim oldu».

Elmi ədəbiyyatda bu yüıiiş barədə müxtəlif mülahizələr irəli sürülmüşdür. Bir mülahizəyə görə (J.Oppert, C.Hersfeld və b. fıkrin-

149 Yunan qaynaqlannda «amurqi sakları» məfhumu işlənmişdir. Haumavarqa qədim İran dillərində «Haoma (içki növü) bişirənlən> kimi izah olunur. Adətən onları Orta Asiyada yerləşdirirlər.

Tiqrahaudaları yunanlar ortokoribanti adlandırmışlar. Hər iki məfhum «şiş papaq» mə’nasını daşıyır. Onları Oıta Asiyada və Azerbaycanda yerləşdirirlər. «Şiş papaq» sakları Azərbaycan sakları və sakasinləri ilə eyniləşdirmişlər.

■51 «Dəniz arxası saklam - Qara dəniz sahillərində yaşayan skitlər nəzərdə tutulur.

■52 Y. Hannatta «Araz çayı» başa düşür və Amu-Dərya ilə eyniləşdirir.

co), I Dara Qara dəniz sahili skitiərin ö l k ə s i n ə d i g ə r mülahizəyə görə (Y.Haırnatta, V. V. Struve və b.). Orta Asiya saklanna qarşı səfər etmişdi.

Müasir dövrün tədqiqatçılan bu və ya digər mülahizəyə üstünlük verarək saklan (o cümlədən skit və massagetləri) irandilli hesab edirlər, halbuki əvvəldən (A.Seys, T.Mişşenko və b.) ve indi də sak- ların (o cümlədən skit və massagetlərin) türk emoslanna mənsub olması müddəası irəli sürülmüşdü. Bu tayfaların dil tərkibi müxtəlif olmuşdur. Onlar həm Orta Asiyada, həm də Araz çayının şimalından ta Rusiyanın cənubunadək uzanan ərazidə yayılmışdılar. Lakin nəzərə almaq lazımdır ki, Araz çayından şimalda yaşayan etnoslar, o cümlədən snklar müstəqil İdilər və Əhəmənilərə bilavasitə tabe deyildilər. Ola bilsin ki, Skunxa orada yaşayan sakların başçısı imiş. I Dara qələbədən sonra saklann ancaq başçısını dəyişdirmiş və istədiyi adamı onlara hakim qoymuşdu. Yəqin ki, sak adı altında Azerbaycanın bir sıra etnoslarının adlan cəmləşdirilmişdi, çünki bu zaman bütövlükdə Azərbaycanı ifadə edən məfhum hələ işlədilmirdi.

I Dara işğal olunmuş ölkələri 20 satraplığa (canişinliyə) bölür və hər bir canişinlik müəyyən vergi dairəsinə salınır. Bu və ya digər vergi dairəsinə Azərbaycanda yaşayan etnoslardan kaspilər, ortokori- banti («şiş papaq») saklan, utilər, müklər, matienler və başqalan daxil edilmişdilər.

I Daranın oğlu Kserksin (e.ə. 486-465-cİ illər) ordusunda fars-yunan müharibələri zamanı Azərbaycanda yaşayan həmin tayfalann iştirakı qeyd edilmişdir. Bununla əlaqədar Herodot kaspi, uti, mük, matien, mar və başqalarının adını çəkmişdi. Azərbaycan ərazisində yaşayan bu tayfalar öz başçıları (adlan çəkilməyib) ilə birlikdə Əhə- məni ordusunda vuruşurdular. Onlar Əhəməni sərkərdələrinin tabeliyində idilər. Məsələn, uti və müklərə I Daranın oğlu Arşamen başçılıq edirdi. Herodotun me’lumatından belə nəticə çıxarmaq olar ki, Azərbaycan I Daranın dövründən e’tibaren Əhəmenilerdən asılı vəziyyətə düşmüşdü. Azərbaycan əhalisi mərkəzi Əhəməni dövlətinə həm vergi verir, həm də onun ordusunu müharibə zamanı hərbi dəstələr ilə lə'mih edirdi. Cənubi Azərbaycan, ola bilsin ki. Midiya ile bir vergi dairəsinə salınmışdı, lakin bunu qəti söyləmək üçün qaynaqlarda aydın mə’lumat yoxdur.

Qara dəniz sahili skitlərinə qarşı yürüş e.ə. 513-cü ilde baş vermişdi.

## § 3. AZƏRBAYCAN MAKEDONİYALI İSKƏNDƏRİN ŞƏRQƏ YÜRÜŞÜ DÖVRÜNDƏ

E.e. 336-cı ilde II Filippin ölümündən sonra hakimiyyətə onun 20 yaşlı oğlu İskənder (e.ə. 336-323>cü illər) gəldi. İskəndər atasının siyasətini davam etdirərək Şərq ölkələrinə yürüşə hazırlaşdı. Bu zaman Şərq ölkələri, o cümlədən qərbi Anadolu ərazisindəki yunan şəhərləri Əhəmənilərin hakimiyyəti altında idi.

E.ə. 334-cü ilin yazında İskəndərin makedoniyalı və yunanlardan ibarət 35 minlik (30 min piyada, 5 min süVari) ordusu Şərqə doğiTj hərəkətə başladı. Əhəməni şahı III Dara 40 minlik ordusu ilə Qranin çayı yaxınlığında İskəndəri qarşıladı, lakin məğlub oldu.

E.ə. 333-cü ildə Anadolunun xeyli hissəsi İskəndərin hakimiyyəti altına keçdi. III Dara böyük qüvvə toplayaraq Suriyaya tərəf ııəlilədi və İso şəhəri yaxınlığında Makedoniya ordusu ilə üz-üzə gəldi. Makedoniyalılar şücaətlə vuruşaraq qələbə çaldılar. Əhəməni ordusunun qalığı başda III Dara olmaqla döyüş meydanından qaçdı. Şahın ailəsi - anası, arvadı, iki qızı və köıpə oğlu əsir düşdülər. Daranın düşərgəsi talan edildi və səyyar şah sarayı İskəndərin əlinə keçdi;

Bu qələbədən sonra İskəndər Misirə yola düşdü. Misir müqavimət göstərmədi. •

İskəndər Misirdən çıxaraq birbaşa tkiçayarasina doğru hərəkət etdi. III Dara döyüşə ciddi hazırlaşmış, 100 mindən artıq hərbi qüvvə toplamışdı. Əhəməni dövlətinin tərkibinə daxil olan və onu tanıyan ölkələr kömək məqsədilə hərbi dəstələr göndərmişdilər. Qaynaqların me’lumatına görə, Əhəmənilərə tabe olan Şərq ölkələrindən baktriyahlar, hindlilər, skitlər, soqdlar, arilər, parflar, hirkanlar, tapurlar gəlmişdilər. Əhəməni ordusunun tərkibinə daxil olan midiyalılara Atropat başçılıq edirdi.

(javqamela (Cancal) döyüşünə Azərbaycanda yaşayan tayfalar da cəlb olunmuşdu. Kursi Rufun mə'lumatına görə, kaspi dəstələrinə Fradat başçılıq edirdi, mardlar Ariobarzan və Orontobatın hissələrinə daxil idilər. Bu qaynaqda orduya cəlb olunmuş skitlərlə yanaşı, qafqazlıların, midiyalılarla yanaşı, kadusilərin və Armeniya xalqlarının adlan da çəkilmişdir. Burada Atropatın adı yad edilməmişdir. Həmin hərbi dəstələr sağ cinahda dayanmışdılar. Arrianın mə’lumatına görə, albanlar, sakesinlər, həmçinin midiyalılar, saklar və b. sağ cinahda, kadusilər sol cinahda düzülmüşdülər. Kursi Ruf sol cinahda kadusilərin əvəzinə mard və kaspi tayfaiannı yad etmişdi. Beləliklə, Cancal

döyüşündə Azərbaycanda yaşayan tayfalar alban, sakesin, kaspi, kadusi, mard, sak və qafqazlı adı altında III Daranın tərafında iştirak edirdilər.

E.e. 331-ci il oktyabr ayının l-də Cancal (Qavqamela) düzənliyində qanlı döyüş başlandı. İskəndər döyüşün gedişində dönüş yaratmaq üçün süvari dəstəsilə birlikdə özünü Əhəməni ordusunun mərkəzinə saldı. Daranın canına qorxu düşdü və müvəffəqiyyətlə uda biləcəyi döyüşü yarımçıq qoyub Midiyaya qaçdı. Başsız qalmış ordu darmadağın edildi. Cancal döyüşü İskəndərin Şərqdə udduğu ən böyük döyüş idi. Bu döyüş Əhəməni dövlətinin süqutunu başa çatdırdı. Qələbədən sonra İskəndər müqavimətsiz Babil və Elamın paytaxtı Suz şəhərlərini zəbt etdi, şah xəzinəsini ələ keçirdi. Daha sonra İskəndər Əhəməni şahlarının vətəni Persidaya (Parsaya) yola düşdü. Buranın satrapı Ariobarzan müqavimət göstərdi, lakin makedoniyalıların güclü təzyiqi altında Midiyaya çəkildi. İskəndər Persepol və Pasaqard şəhərlərini tutdu və Persepolun 120 min talant (I talant 40 kq-a qədər İdi) qızıl və gümüşdən ibarət xəzinəsinə sahib oldu. Persepol yandırıldı. Güman edirlər ki, 12 min dananın gönü üzərində yazılmış müqəddəs Avesta həmin yanğın zamanı məhv oldu.

E.ə. 330-cu ildə İskəndər xarabalığa çevrilmiş Perseponu tərk edərək Midiyanın paj^taxtı Ekbatana şəhərinə gəldi. III Dara İskəndərin gəlməsi xəbərini eşidəndə İranın şərqinə qaçdı, lakin Xəzər dənizinin cənubunda, Orta Asiyaya gedən yolda Dara (e.ə. 330-cu ildə) öldürüldü və bununla da Əhəməni sülaləsinin hakimiyyətinə son qoyuldu. İskəndər özünü Əhəməni şahlarının varisi e*lan etdi.

Beləliklə, İskəndərin 10 il davam edən (e.ə. 334-324-cü illər) hərbi yürüşü qərbi Hindistanda sona yetdi. İskəndər dünyanı zəbt etmək iddiasından dönməmişdi. O, Xəzər dənizi sahillərini araşdırmaq üçün ekspedisiya göndənnişdi. İskəndər həmişəlik Şərqdə qalmaq qərarına gəlir və döyüşçülərinin də yerli əhali ilə yaxınlaşması üçün xüsusi tədbirlər keçirir, onların yerli qızlarla evlənməsinə və Şərqdə məskunlaşmasına şərait yaradırdı. O göhnə idarə üsullannı saxlayır, makedoniyalılarla ve yunanlarla yanaşı, yerli zadəgan nümayəndələrinə, əsasən farslara ali vəzifələr tapşırırdı. İskəndər yunan alimlərini, mədəniyyət sahəsinin xadimlərini, bacarıqlı ustalarını Şərq ölkələrinə aparır, yunan mədəniyyətinin Şərqə yol açmasına şərait yaradırdı. O, bu ölkələrdə ellin mədəniyyətini yaymaq məqsədi güdürdü.

İskəndər «bütün dünyanı» işğal etmək arzusunu həyata keçirə bilmədi ve e.e. 323-cü ildə 33 yaşında vəfat etdi.

*IV fəsil*

# QƏDİM AZƏRBAYCAN DÖVLƏTLƏRİ

E.ə. VI əsrin əvvəlində qədim Azərbaycanın Manna dövləti süquta uğradı. Bu zaman İranda Midiya dövlətinin qüdrəti artmışdı. Midiya dövləti süquta uğradıqdan sonra İranda Əhəməni sülaləsinin hakimiyyəti (e.ə. 550–330-cu illər) bərqərar oldu. Azərbaycan torpaqları bütövlükdə Əhəməni canişinlik (satraplıq) sistemində ayrıca yer tutmamışdı, lakin onun ərazisində təmsil olunmuş ayrı-ayrı tayfalar Əhəmənilərə vergi verir və Əhəməni ordusunu silahlı qüvvələrlə təchiz edirdilər. Çox güman ki, Araz çayından şimalda və cənubda yerləşən Azərbaycan torpaqları müstəqil hakimiyyət idarəsini saxlamaqla nominal (yalnız adda, yazılı sənəd üzərində) surətdə Əhəmənilərdən asılı olmuşdur. Bu dövrlərdə yerli hökmdarlar tərəfindən idarə edilən Azərbaycanda Makedoniyalı İskəndərin işğallarından sonra yerli sülalələrin hakimiyyəti məhdudlaşdırılmışdı.

## § 1. ADƏRBAYQAN (ATROPATENA) DÖVLƏTİ

Əhalisi. Adərbayqan (Atropatena)[154] cənubda Midiya, şərqdə Xəzər dənizi və onun sahilində yaşayan tayfalarla, qərbdə Zaqroş dağları, şimal-qərbdə Armeniya və şimalda Araz çayı ilə həmsərhəd idi. Eyni zamanda Araz çayından şimalda yerləşən bə'zi ərazilər Adərbayqan dövlətinə daxil idi.

Antik müəlliflər Adərbayqan əhalisini müxtəlif ad altında yad etmişlər. Hekatey Miletli (e.ə. V əsr) Araz çayı sahilində mük tayfasını yerləşdirirdi. Mənşəyi mə'lum olmayan mük etnonimi Muğan adında qalmışdır. Mük etnoniminin maq (İranda kahinlərə verilən ad) sözü ilə eyniləşdirilməsi düzgün deyil. Herodot Adərbayqanın ərazisi ilə əlaqədar kaspi, matien, mük, bəlkə də mard, mar tayfalarının, Ktesi

---

[154] Azərbaycanın cənubu müvafiq surətdə Atropatena, Aturpatakan, Adorbiqan, Adirbican və s. adlandırılırdı. Azərbaycan adının ilkin forması Azərbaycan kimi bərpa edilir. Dərslikdə ad müxtəlifliyini aradan qaldırmaq üçün Cənubi Azərbaycan müvafiq dövr üçün Adərbayqan adlandırılmışdır.

(e.ə. V əsr) isə kadusi tayfalarının adlarını çəkmişdir. Strabona bu tayfalar (kaspi, kadusi, matian, mard) ilə yanaşı, amard, anariak etnik adlan da məMum idi. Polibi (e.ə. II əsr) elimey, anariak, kadusi və matian etnonimləri ile yanaşı, Adərbayqan əhalisini ümumi ad ilə satrapey, Strabon atropatenler adlandırmışdı. «Atropatenlən> (yun. atropatenoy) anlayışı yəqin ki, Adərbayqanın bütün əhalisinə şamil edilirdi. Tasit (I-II əsrlər) isə Adərbayqan əhalisini «midiyalılar» adlandırmışdı.

Bə'zi tədqiqatçılar atropatenlərin dilini İran dilləri qrupuna aid edir və Adərbayqan əhalisinin isə tam iranlaşdığı mülahizəsini irəli sürürlər. Digər mülahizələrə görə, Aderbayqanda (Atropatenada)
! əhali iranlaşmaya mə’ruz qalmamışdı. Sadəcə olaraq, Aderbayqanda ; nə kütləvi iranlaşma, ne də türkləşmə olmamış və burada hər iki dildə danışan əhali məskunlaşmışdı. Türk etnosları burada ta qədimdən yaşayırdılar.

Aderbayqanda məskən salmış elyumay tayfasını adətən elamlar ile eyniləşdirirlər. Ola bilsin ki, Əhəmenilər dövründə elamlann böyük bir qismi cənubdan şimala hərəkət etmiş və Adərbayqanın ərazisində məskən salmışdılar.

Adərbayqanın qərbində yaşayan matien/Zmatian tayfalarını hurri mənşəli hesab edirdilər. Hurrilər tarixən İkiçayarasının şimalında yaşayırdılar. Ehtimala görə, hurrilər tədricən şərqə və şimal-şərqə hərəkət edərək Adərbayqan torpaqlarında daha qədim zamanlarda məskən salmışlar. Lakin matien/Zmatian tayfasının hurri mənşəli olması şübhə doğurur. Müasir türk xalqlarının be’zi etnik bölmələri oxşar ad daşıyırlar. Özbeklərdə mitan, qaraqalpaqlarda müyten tayfa bölmələrinin adları matien/Zmatian etnonimi ilə eyniləşdirilmişdir. Çox güman ki, qədim dövrlərdə bu adı daşıyan türk mənşəli matien Z/matian tayfası Aderbayqanda geniş erazidə təmsil olunmuşdu.

Aderbayqanda yaşayan kadusi (orta əsr. kateş) etnosunun dil mənsubiyyəti barədə müxtəlif mülahizələr yürüdülmüşdür. Onlan İran və türk mənşəli hesab edənlər olmuşdur.

Adərbayqan əhalisinin bir qrupu mard, digər qrupu amard adlandırılırdı. Bu etnonimlər İran dillərində aydın izah olunur. İran dillərində mard «kişi, cəsur, igid», amard isə «qorxaq, namərd» me'nasını daşıyır. Deməli, Aderbayqanda məskən salmış iranləhcəli etnoslar müəyyən etnik qrupları mərd və namərd adlandırırdı. Yəqin ki, bu adlar onlann etnik və dil mənsubiyyətinə uyğun olaraq yox, məhz

təbiətinə, xasiyyətinə və fəallığına görə verilmişdnr. Gərək ki, «mərd, namərd» sözləri erkən dövrdən Azərbaycan tüı^ dilində işlək olmuş və indi də işlənməkdədir. Ümumiyyətlə, türk və İran dillərinin qarşılıqlı tə'siri və leksik mənimsəmələr birgə yaşayış regionlarında (İran, Orta Asiya və s.) erkən dövrlərdən baş verirdi.

Adərbayqaoda başqa bir qrup əhali anariak adlanırdı. Anariak adını «ari olmayan, qeyri>ari» kimi izah etmişlər. Digər izaha görə, anariak «namərd, qorxaq» mə’nasını daşıyırmış. Qədim qaynaqlarda anariak etnoniminin müsbət müqabili ariak Orta Asiyadakı türk tayfa> larim bildirirdi. Müasir kumıklan ariak adlandınrdılar. Ad qədim türkcə arı «təmiz, nəcib» sözü və -ak sözdüzeldici şəkilçi birləşməsindən əmələ gəlmişdir. Anariak etnonimi ariak adının əksini bildirir. Sözün əvvəlinə İran dillərinə məxsus -an inkar ön şəkilçisi əlavə edilmişdir. Anariak adı «təmiz, nəcib olmayan» me’nasmı daşıyırdı. «An» türk sözündən de «ari» tayfa adı yaranmışdı. Çox güman ki, Adərbayqanda ariak tayfası da yaşayırmış və onun əksini anariak təşkil edirmiş. Bu arilər türk mənşəli idilər.

Beləliklə, emik və dil şəraiti müxtəlif olan Adərbayqanın (eləcə də Midiyanın, Farsın və s.) əhalisi türk və İran ləhcələrində danışan etnoslardan ibarət olmuşdur. Belə şəraitdə qarşılıqlı leksik mənimsəmələr baş verirdi. Sonrakı dövrlərin dil və etnik-dil vəziyyətini nəzərə alaraq, demək olar ki, Adərbayqanda türk etnoslannın iranlaşması baş vennəmiş, bir sıra hallarda ünsiyyət nəticəsində qarşılıqlı leksik mənimsəmələr şəraitində türk emosları öz dilini saxlamış və Azərbaycan türk dilinin yetkinləşməsi prosesi başlamışdı.

Adı. Azərbaycan adının qədim formaları türk və fars ləhcəli etnoslar arasında müvafiq fonetik fərqlərdə işlədilirmiş. Qeyd olunduğu kimi. e.ə. VIII-VII əsr mixi yazılannda Andirpatianu/ZAndarpatian məskən adı çəkilmişdir. Bu yaşayış məskəni Midiya ilə Manna (indiki Cənubi Azərbaycan) arasında Qızıl Üzən çayının cənub-qərb başlanğıc axarında yerləşiımiş. Onu Atropatena adı ilə oxşadırdılar. Lakin buna e’tiraz olaraq addakı «andar/Zandir» komponentinin «atroZZatun> (Atro-patenaZZAtur-patakan) sözünə bənzəmədiyini qeyd etmişlər. AndarpatianuZZAndarpatian və AtropatenaZZAturpatakan müxtəlif dillər əsasında meydana gəlmiş formalar olmaqla müxtəlif ən’ənələr əsasında yaranmışlar. Kitabın girişində deyildiyi kimi, Andirpatianu/ZAndarpatian adlarında «d» səsinin əvvəlində peyda olan «n» tbne- mini çıxmaqla «adırZZadər» (mixi yazılarda nə «ı», nə də «e» səsini

bildirən işarələr olmadığından alınma sözlərdəki müvafiq səslər «i» və «awkimi yazılırdı) sözlərini ayırmaq olar. Müasir türk coğrafi terminologiyasında «adiD> sözü təpəli yer, dağlı məskən, dağ qolu, qollara ayrılan dağ silsiləsi, axar suların dağıtdığı, yuduğu təpəli dağətəyi, eroziyalı təpələr, və s. mə’nalarda işlədilir. Şübhəsiz ki, qədim İranın türk etnoslarının dilində adır//adir//adər coğrafi termin kimi tətbiq olunurmuş. Müasir türk dillərində həmin söz azir//azer//adar- İbnetik: formalarını saxlamışdır. Addakı ikinci söz «pati», sonraki «^anu//-an» isə məkan, yaxud cəm şəkilçisidir. Qədim türk dilində «batıq» (bat//pat «batmaq, yenmək» fe’lindən) «düzən», «aşağı», «alt» mə’nasını daşıyırmış. Yəqin ki, qədim zamanlar bat//pat isim kimi də işlənimlişi .Adir//adər (andir//andar) sözünə əlavə olunmuş «pati» eyni kökdən olmaqla yiyəlik hal şəkilçisini (i/ı) qəbul etmişdir ki, bu da türk dillərinin söz birləşməsinə uyğundur. Beləliklə, Andir- patianu/ZAıidarpatian adındakı andiıv/andar hissəsini adır//adər türk sözünün əksi kimi qəbul etmək olar. Yer adı «dağlı-təpəli düzən yer», «dağ silsiləsi düzəni», yaxud «dağaltı yen>*^^ mə’nasını daşıyımış. Tədricən: bu ad Midiyadan şimalda yerləşən eraziyə tətbiq olunmuş vəi müəyyən foıefık deyişmələrə mə’ruz qalmışdır. Ölkə adına çevrilmiş bu türk mənşəli yer adının erkən oıta əsr formalarına (Suriya - Bizans qaynaqlarında Adorbiqan/ZAdarbiqan, ərəb qaynaqlarında və şifahi, idartışıqda Adirbican/ZAzirbican, AderbaycanZZAzərbaycah) uyğun olaraq erkən tələffüzünü aşağıdakı kimi bərpa etmək olar AdirpatyanZ./Adarpatyan, AdürpatqanZZAdərpatqan, AdirbayqanZZAder- bayqan, Adirbica^ZAzirbicanZZAdərbayçanZZ Azərbaycan. Ölkə adının bu fomtalan əsasən türkdilli ən'ənə əsasında yaranmışdı. Azərbaycan ndının AtropatenaZZAturpatakan formaları türk mənşəli xoronimin orta fars dili ləhcələrində'əksidin Türk mənşəli ölkə adı hələ 1 minilliyin əvvəlində farsdilli ən'ənəyə uyğun yozum əsasında Midiya canişini Atropatın adrile bağlanmış və bu da Strabonun mə'lumatına düşmüşdür. :Bu yozum erkən orta əsr qaynaqlarına da yol açmışdı. Qədim və erkən orta əsriəıdə Cənubi Azərbaycan ərazisindən danışarkən Adər- bayqan anlayışının işlədilməsi daha məqsədəuyğundur. Antik müəl- i liflərdən Polibi (ç.ə. II əsr) qeyd etmişdi ki. Midiya qərbdən satrapey-

1^^ Müasir türk toponimlərində adır sözünün əksi: Adır - Kaya, Adır - Tey, Adır - Tey - Daq. Ädırlu; Adır - Tuu toponim-oronimləri qollu, yüksək dağ və təpələri bildirir.

lərin (ye’ni Aderbayqanın - *Y. Y.)* ərazisinə söykənir, şimaldan isə onu elimey, aniariak kadusi və matian tayfaları əhatə etmişdir. Polibinin dövründə Adərbayqanın adı hələ işlək olmadığından o bu tayfalar yaşayan ərazini, sonrakı Adərbayqanı (Atropatenanı) «Artabazanın vilayəti» adlandırmışdı. Bu ölkəni cənubda Midiyadan sıra dağlar ayınrdı. Deməli, e.ə. II əsrdə Midiya və Adərbayqan («Artabazanın vilayəti») bir-birindən fərqlənirdi və bu ərazi hələ Midiya coğrafi anlayışına daxil deyildi. Yəqin ki, e. ə. II əsrdən sonra Partiya dövlətinin yüksəlişi dövründə Midiyanın irandilli sakinləri satrapey admı Airopatın adı ilə bağlamışlar. «Artabazanın vilayəti» anlayışı «Atro- patın ölkəsi» anlayışı ilə əvəz olunmuşdur.

Strabon (e.ə. I - e. I əsri) eramızın əvvəlində irandilli etnoslann rəvayətinə əsaslanan məMumatlardan istifadə edərək ölkəni Atropatm adı ilə Atropatena adlandırmışdı. Strabon qeyd edir: «Midiya iki hissəyə bölünür. Bir hissəsini Böyük Midiya adlandınrlar. Bunun paytaxt şəhəri Ekbatanadır. İkinci hissəsi Midiya Atropatenasıdır. Bu öz adını hərbi sərkərdə Atropatdan almışdır. O istəməmişdir ki, bu ölkə də, Nidiyanın hissəsi kimi, makedoniyalılann hakimiyyəti altında olsun. Həqiqətən, hökmdar e’lan edildikdən sonra Atropat bu ölkəni, öz bildiyi kimi, müstəqil etmişdi və indi de (hakimiyyətə) vərəsəlik onun ailəsində qaliD). Strabona görə, Adərbayqan hələ İskenderin dövründə müstəqilliyini saxlayırmış və Midiya kimi İskenderə tabe olmamışdı. Bunu Polibinin də mə’lumatı təsdiq edir. O, «Artabazanın vilayəti» (Adərbayqan) barədə yazırdı ki, «bu padşahlıq farsların (Əhə- mənilərin - *Y.Y.)* vaxtından qalmışdır, lakin İskenderin dövründə onu nəzərdən qaçırmışdılaı-». Deməli, Adərbayqan hələ Əhemenilər dövründə öz müstəqilliyini saxlayırdı.

Hələ I əsrdə ölkənin adı tam işlək olmamışdı. Atropatena adı təzə-təzə formalaşırdı. I əsr müəllifi İosif Flavi Adərbayqanı nəzərdə tutaraq «Yuxan Midiya» anlayışını işlətmişdi. Bir neçə əsr sonra Ammian Marsellin (e.ə. IV əsri) yazırdı ki, «Sol tərəfdən Hirkan (Xəzər) dənizinəcən Midiya uzanır. Necə ki, kitablarda rast gəlinir, bu ölkə Kirin hakimiyyətindən və Parsın (Əhemənilərin) yüksəlişindən əvvəl assurları tabe etdikdən sonra bütün Asiyanın ağasına çevrilmişdi. Onların (assurlann) silah gücünə ələ keçirilmiş vilayətlərinin bir çoxu Atropatena ümumi adını almışdı». Ammian Marsellin də Adərbayqa- nın Midiyadan təcrid olunduğunu təsdiq edir. Beləliklə, Adərbayqan torpaqlarına Atropatm adından Atropatena adının verilməsi və Midiya

coğrafi anlayışının bə’zon buraya şamil edilməsi eramızın I əsrlərinə ləsadüf edir. Daha qədim mənbələrdə Adərbayqan ərazisi iiə əlaqədar Atropat adı çəkilmir və Midiya coğrafi anlayışı bu ölkəyə şamil edilmir.

Müstəqil Adərbayqan dövlətinin yaranması. E.ə. IV əsrin sonunda İskəndərin vəfatından sonra onun yaratdığı imperiya dərhal parçalandı. İskəndərin diadox adlanan sərkərdələri arasında hakimiyyət uğıoında mübarizə başlandı. Mübarizənin qızışmasının qarşısını almaq üçün İskəndərin ağıldan kəm qardaşı Arrideyi və Baktriya hökmdarının qızi Roksanadan olan südəmər oğlu İskəndəri (Aleksandrı)*^^ hökmdar e Чaп etdilər. Sərkərdə Peridikka onlara qəyyum lə'yin olundu. Lakin bu sakitlik uzun sürmədi. Perdikka Ptolemeyə qarşı ordu ilə çıxış etdi, lakin e.ə. 321-ci ildə öz sərkərdələri tərəfindən öldürüldü. Nəticədə İskəndərin imperiyası diadoxlar arasında bölüşdürüldü. Sələvk (e.ə. 321 - 28l-ci illər) Suriyanı və Babilistanı götürdü, İranı və Orta Asiyanı tutub hakimiyyətini Hindistana qədər genişləndirdi. E.ə. III əsrin ortalarında Orta Asiyada meydana gəlmiş Partiya dövləti İranı tutaraq beş əsr (e.ə. III əsrin ortası - e.ə. 226-cı i l i ) hökmranlıq etdi, eyni zamanda sələvkilər və Roma imperiyası ilə uzun-uzadı müharibələr aparmalı oldu.

Azərbaycan sanki baş verən hadisələrdən kənarda qalmışdı. I əsr ən’ənəsinə görə, Adərbayqanda (Atropatenada) hökmran sülalənin banisi hesab edilən Atropat əslində Midiya satrapı (canişini) olmuşdu. Sonrakı qaynaqlara görə, o Qavqamela döyüşündə midiyalılara başçılıq edirdi və 111 Daranın tərəfində vuruşurdu. Arrian xəbər verir ki, «Atropat midiyalılara başçılıq edirdi. Kadusilər, albanlar və sakasinlər midiyalılar ilə birləşmişdilər». Bu mə4umata əsasən belə bir fikir söylənmişdi ki, Atropat guya öz hakimiyyətinə Azərbaycanı da tabe etmişdi. Azərbaycanın (Albaniyanın) sakinləri olan albanlar və sakasinlər könüllü surətdə Əhəmənilərə hərbi dəstələr göndərirdilər. Azərbaycan sakinləri: kaspilər, mardlar və ümumiyyətlə qafqazlılar müxtəlif birləşmələrə daxil idilər. Artabazan mardlann daxil olduğu fars dəstələrinə, Fradat isə kaspilərə rəhbərlik edirdi. Əhəmənilərin hərbi dəstələrinin başçıları adətən iranmənşəli, sərkərdələr olurdu. AiTİan ardıcıl surətdə Atropatı Midiya satrapı adlandırır. Azərbaycanın Atropata tabe olması barədə qaynaqlar (Strabondan başqa) heç bir

Sonraiar hər ikisi öldürüldü.

mə’lumat saxlamamışdır. Kursi Ruf Cancal döyüşü ilə əlaqədar süvari dəstəsinin rəisi Satropatı yad etmişdir. Atropat və Satropatm eyni şəxs olduğu mülahizəsi do olmuşdur. Kursi Ruflm mə'lumatına görə, Aris- (on «fars süvarilərinin rəisi Satropatm boynunu nizə ile deşdi... və qılıncla başım kəsdi». Atropat isə İskəndərlə ittifaqa girərək Midiya sa trapı vəzifəsini bir müddət saxlayır, Cancal döyüşündən sonra III Dara keçmiş müttəfiqlərindən məhmm oldu və heç bir tayfa onun köməyinə gəlmədi... Arrian xəbər verir ki, «nə kadusilər, nə də skitlər onun köməyinə gəlmədilər». Yəqin ki, «skit(ən> anlayışı Araz çayından şimalda yaşayan etnosları, o cümlədən albanları, sakasinləri, kaspiləri ve s. nəzərdə tuturdu. Kursi Ruiun mə’lumatına görə, tskəndər amazonkaların*^^ hökmdarəsi Falestrislə görüşmüşdü. Falestris guya Qafqaz^^^ dağından tutmuş Fazis (Rioni) çayına qədərki ərazidə hökmranlıq edirmiş. Ola bilsin ki. Nizami Gəncəvinin «İskəndərna- mə» poemasındakı Bərdə hökmdarəsi Nüşabə surəti bu tarixi me’lu- matın tə’siri altında yaradılmışdır.

Qələbədən sonra İskəndər fars ə’yanı Oksidatı Midiyaya satrap tə’yin etdi, lakin bir müddət sonra onun yerinə Arsakı (Arilər ölkəsinin satrapmı) qoydu. Eyni zamanda e.e. 328-ci ildə Atropat Midiya satrapı kimi göstərilmişdir. Çox güman ki, Atropat xüsusi ad yox, hökmdara məxsus dini rütbə olmuşdur. Atropat İran dillərində «Odla saxlanılan», yaxud «Od saxlayan» deməkdir. Bəlkə də Atropat rütbəsini odu qoruyan, oda ibadəti əlində cəmləşdirən baş kahin daşıyırmış. Belə olduqda yenə də onun əsl adı namə’lum qalır. Eyni zamanda o, ölkəni də idarə edirmiş. Atropat Pasarqad və Suz şəhərində İskən- dərin görüşündə olmuş və ona yüz nəfər silahlı amazonka (qadın) bəxşiş vermişdi.

İskəndər Atropatı Midiya satrapı vəzifəsində saxlamış və onu Midiyaya qaytarmışdı. Bundan başqa İskəndər sərkərdəsi Perdikka ilə Atropatın qızını evləndirmişdi. E.ə. 324-cü ildə İskəndər Hindistan səfərindən qayıtdıqdan sonra Atropat midiyalı Bariaksı üsyançı kimi ona təhvil verir. Bariaks özünü «farsların və midiyalıların şahı» e Man edibmiş. İskəndərin əmrilə Bariaks və onun tərəfdarları e’dam edilir.

Antik qaynaqlar amazonkalan qadın tayfaları kimi qələmə verirdilər. Bir sıra tədqiqatçıların fikrincə, tran və Hindiquş Qafqaz dağları ilə qarışdırılmışdır. Lakin mətn Qafqaz dağlarını nəzərdə tutur, çünkn burada Fazis çayı yad edilmişdir. Ola bilsin ki, bu əraziyə İskəndər hərbi dəstələr göndərmişdi.

Belə təsəvvür yaranır ki, Atropatm Midiyada mövqeyi möhkəm deyildi və Midiyada bir neçə satrap (Arsak, Atropat, Bariaks) hökmranlıq edirmiş. Atropatm sə'yi hədər getmir. O, İskəndərin e'tibarını qazanır və Midiyanın satrapı vəzifəsində möhkəmlənir. İskəndərin dövründə Uraıiya gölü hövzəsində müstəqil padşahlıq mövcud idi. Bu, Adərbayqan, İrandilli ən'ənəyə görə Atropatena dövləti idi. Sonralar (e. I əsri) irandilli əhalinin rəvayətlərində Atropat Uımiya gölü hövzəsində yaranmış və İskəndərin dövründə müstəqil idarə üsulunu saxlamış Adərbayqan dövlətinin banisi kimi qələmə verilmiş və ölkə onun adı ilə Atropatena adlandırılmışdı.

Demək olar ki, İskəndərin ölümündən sonra Atropatm adı qaynaqlarda bir daha çəkilmir. Perdikka, Atropatm yeznəsi olmasına baxmayaraq, satrapJarın yenidən bölgsü zamanı Midiya satraplığını yunan sərkərdəsi Pifona tapşımıışdı. Beləliklə, Atropat Midiya satrapı vəzifəsindən kənar edildi. Bə'zi mülahizələrə görə, Atropat bu vaxtdan (c.ə. 323-cü ildən) e'tibarən Urmiya gölü hövzəsi vilayətlərini, yə'ni gələcək Atropatenanı (Adərbayqanı) özünə tabe etmiş və oranın hökmdan olmuşdu. Lakin Pifon I Antiqon ilə döyüşlərin birində (e.ə. 316-cı il) məğlub olur və e'dam edilir. Bundan sonra Adərbayqan hadisələri barədə mə'lumat verilmir. Ehtimal etmək olar ki, Adərbayqan müstəqil siyasət yürüdürdü, diadoxlar arasında hakimiyyət uğrun- da gedən mübarizəyə qoşulmurdu və yerli hakimlər tərəfindən idarə olunurdu. Lakin onların adlan mə'lum deyil. Adərbayqan ilə əlaqədar hadisələr məhz e.ə. III əsrin sonunda qaynaqlarda yad edilir.

Adərbayqan Sələvki, Roma və Parfiya münaqişələri arasında. Keçən müddət ərzində Orta Şərqdə bir sn-a siyasi dəyişikliklər baş vermişdi. E.ə. III əsrin əvvəlindən e'tibarən Sələvilər dövlətin mərkəzini qərbdə (Suriyada) cəmləşdirirlər. Tədricən İran və ondan şərqdə yerləşən əyalətlər Səlovilerin siyasi hakimiyyəti altından çıxır. Baktriya, Soqdiana və Parfiya müstəqillik əldə edir. III Antiox (e.ə. 223 - 187-ci illər) bu əyalətləri geriyə qaytarmaq üçün son cəhd göstərir. Onun Şərqə hərbi yürüşü (e.ə. 209 - 205-ci illər) uğurla nəticələnir və Hindistanadək gəlib çatır. Parfiya Antioxdan asılı vəziyyətə düşür. Bu yürüşdən əvvəl Midiyada vəziyyət gərginləşir. Antiox Molonu Midiya satrapı, qardaşı Aleksandrı Pars satrapı te'yin edir. Lakin Molon Sələvkilerə qarşı üsyan qaldırır. E.ə. 222-*220-ci illərdə o, öz hakimiyyətini İkiçayarası vilayətləri hesabına genişləndirir. Lakin Molonun hakimiyyəti uzun sürmür. O, döyüşlərin birində məğ-

İlib olur, əsir düşməsin deyə özünü öldürür. 111 Antiox sərkərdəsi Diokeni Midiyaya hakim tə'yin edir. Bu hadisələrlə əlaqədar ilk dəfə Polibi Adərbayqan ərazisi barədə mə’lumat vermişdi.

Polibinin mə’lımatından göıünür kr, Molonun üsyanına qonşu vilayətlər və ölkələr əı*zaq və ordu qüvvəsilə yardım göstərirdilər. Vilayət və ölkələrin adı əkilməmişdi, lakin mətnin davamından məMum olur ki, könüllü yardım göstərənlərin içərisində Adərbayqan əhalisi də varmış, Arlabazan isə ölkənin hökmdan imiş. Polibi yazır: «Nailiyyətlərdən lovğalanan hökmdar (lll Antiox) öz satraplıqlarından yuxarıda və sərhəd hissədə yaşayan barbar*hökmdarlarını qorxutmaq qərarına gəlir ki, onlar ərzaq və ordu ilə bir daha cür’ət edib qiyamçılara yardım göstəmıəsinlər. Buna görə də o, ilk növbədə Artabazana qarşı müharibəyə başlamaq qərarına gəlir. O isə hökmdarlardan ən qüdrətlisi və ən müdriki sayılır. O, Satrapey adlanan və onlarla həmsərhəd olan xalqlar üzərində hökmranlıq edirdi». .Satro-peyler Adərbuyqanın əhalisinə verilmiş ümumi ad imiş. Aıtabazanın dövründə Adərbayqanın siyasi tə’siri və hakimiyyəti qonşu ölkələr üzərində də bərqərar olmuşdu.

111 Antiox Molonun üsyanını yatırdıqdan sonra Adərbayqana soxulur. Bununla əlaqədar Polibi yazın «Bu qərar qəbul edildikdən sonra, ordu Zaqroş dağlarını aşdı və Midiyadan sıra dağları ilə ayrılmış Artabazanın vilayətinə daxil oldu. Vilayətin bir hissəsi Fazisdən ,(ind. Rioni çayı) yuxarıda Pont (Qara dəniz) üzərində ucalır, digər hissəsi isə Hirkan dənizinə çatır. Onun hüdudlarında ən çox süvari döyüşən və müharibə üçün hər bir şeyi olan cəsur xalq yaşayır».

Polibi buradaca qeyd edir ki, bu padşahlıq hələ farsların (Əhə- məni lərin) dövründən mövcuddur, lakin İskəndər onu nəzərdən qaçır- ^nışdı. Bu mə’lumatdan bir neçə nəticə çıxaımaq olar: 1) .Adərbayqan dövləti hələ Əhəmənilor dövründə öz varlığını saxlayırdı v*.> İ.skəndər bu əraziyə laqeyd yanaşmışdı; 2) Bu ərazi Midiya anlayışma daxil deyildi və Atropatena da adlanmırdı; 3) Ərazinin dəqiq adı işlək olmadığından, onu «Artabazanın vilayəti» adlandırırdılar. Əslində Midiya satrapı olmuş Atropatın burada hökmdar olmasına heç bir işarə yoxdur; 4) Adərbayqanın hakimiyyəti Xəzər dənizindən lunmış Qara dənizə qədər çatırdı, lakin bu haqda başqa mə'lumat qalmamışdır; 5) Adərbayqan əhalisi döyüşkən və cəsur olmuşdur. Artabazanın

Antik müəlliflər Şərq xalqlarını «barban> (yə’ni vəhşi, qeyri-yunan) adlandırırdılar.

ıakimiyyəti illərində çox güman ki, Adərbayqanm tərkibinə sonrakı Şərqi Ermənistan və Şərqi Gürcüstanın ərazisi də daxil imiş.

Artabazan Səlevki ordusuna müqavimət göstərə bilmir və III Antioxun təklif etdiyi şərtlər əsasında sülh müqaviləsi bağlamağa razılıq verir. Müqavilənin şərtləri barədə qaynaqda mə'lumat yoxdur. Lakin aydındır ki, Adərbayqan e.ə. 220-ci ildə Sələvkilərdən asılı vəziyyətə düşür. Buna baxmayaraq Ölkənin müstəqil üsuli-idarəsi saxlanılırdı. Polibinin verdiyi mə'lumata görə, Artabazan çox qoca imiş ve buna görə də III Antioxla döyüşə girişmir.

E.ə. II əsrin əvvəlində Roma Şərq hadisələrində fəal iştirak etməyə başlayır. E.ə. 190-cı ildə III Antiox Maqnesiya yaxınlığında Roma ordusu ilə döyüşdə məğlubiyyətə uğrayır. Bir neçə il sonra o,. Eltmaidade üsyanı yatıran zaman həlak olur vo Sələvki dövlətinin parçalanması sur'ətlənir. Belə bir şəraitdə Adərbayqan yenə da müstəqillik əldə edir. Lakin bu dövrdə hökmdarın kim olması barədə heç nə bilmirik.

E.ə. 189-cu ildə Adərbayqanm qonşuluğunda Armeniya*^® dövlətinin yaranması prosesi başlanır. Kiçik bir əraziyə malik olan Amıe- niya 1 Artaşesin dövründə işğalçılıq müharibələrinə başlayır va qonşu toı-paqlann, o cümlədən Adərbayqan ərazisi hesabına genişlənir. Bu haqda Strabon belə mə'lumat vermişdir: «Əvvəllər xırda ölkə olan Armeniyanı Artaksi (Ar-taşes) və Zariadrın müharibələri genişləndirdi. İlk əvvəl onlar böyük Antioxun sərkərdələri imişlər, onun məğlubiyyətindən sonra hökmdar oldular (biri Sofenada..., o birisi Artaksatda (ind. Artaşat)); onlar bir yerdə öz ərazilərini genişləndirdilər, belə ki, ətraf xalqlann vilayətlərinin bir qismini qopartdılar; məsələn, midiyalılardan (adərbayqanlardan) Kaspiana, Favnitida və Basoropedanı, iberlərdən Pariadr dağ ətəyini, Xorzena və Qoqarena-nı..». Beləliklə, yadelli Armeniya hökmdarları Araz çayından şimala addayan (Naxçıvan, Ararat vadisi və dağlıq hissəsi də daxil olmaqla, Paytakäran və Kaspiana) torpaqları işğal etdilər, lakin aderbayqanlar sonralar bu torpaqlan geri aldılar.

IV Antiox (e.ə. 175-163-cü illər) Səlevki dövlətinin siyasi böhranının qarşısını ala bilmir. Midiyada Sələvki satrapı Timarx üsyan qaldırır. Belə məqamda fürsəti əldən verməyən Parfiya hökmdarı I

Antik müəlliflər Armeniya, ərəb qaynaqları Ərməniye adlandırırlar. Ermənistan forması sonralar meydana gəlmişdir. Müvafiq dövrlər üçün müvafiq adlar işlədilmişdir.

Mitridat (e.e. 17I~139-cu iller) e.ə. 148-l47-ci ilde Midiyanı zəbt edir. Heç şübhəsiz, Adərbayqan e.e. 141-ci ildə İkiçayarasını, sonra isə Elimaidanı tutan I Mitridatın işğal xəttindən kənarda qalmışdı. E.ə. 131-ci ildə VII Antiox İkiçayarası və Midiyada Sələvki hakimiyyətini bərpa edir, lakin az sonra parfıyalılar ilə döyüşdə həlak olur. Sələv- kilər bir daha bu əraziyə soxulmağa imkan tapmırlar. Bundan sonra Parfıya ilə Roma imperiyası siyasi tə'sir dairələrini genişləndinnək uğrunda mübarizəyə başlayır.

Roma senatının xüsusi qərarı ilə Lisini Lukul Şərqə göndərildi. Kiçik Asiyada Pont hökmdarı VI Mitridat (Yevpator) öz siyasi tə'si- rini genişləndirirdi, bu da Romanın mənafeyinə toxunurdu. Roma Şərq əyalətləri VI Mitridat tərəfindən tutulub talan edilir, bə'zon yerli əhalisi də qılıncdan keçirilirdi. Armeniya hökmdarı II Tiqran (e.ə. 95- 55-ci) onunla ittifaqa gimıişdi.^^' Tiqran bir müddət Parfıyada Arşakilərin yanında girov olmuşdu. Armeniya parfıyalara tabe edilmişdi. E.ə. 95-ci ilde Tiqran Parf hökmdarı II Mitridatın (e.e. 123-87-ci illər) köməyilə Armeniya taxt-tacına yiyələndi. Strabonun me'lumaiına görə, «ewəl o, parfların yanında girov kimi yaşayırdı. Sonra o, vətənə qayıtmaq üçün onlardan razılıq aldı, əvəzində parflar Armeniyanın 70 vadisinə sahib oldular. Qüdrətini artırdıqdan sonra Tiqran partlardan bu vilayətləri nəinki geri aldı, həm də onlann ölkəsini - Nin və Arbela (keçmiş Assuriya) yaxınlığındakı vilayətlərini talayıb dağıtdı. Sonra o, Atropatena və qordilerin*^^ hökmdarlarını və onların köməyilə fkiçayarasının qalan hissəsini özünə tabe etdi. Fərat çayını keçərək Suriyanı və Finikiyanı tutdu». Bu parçada ilk dəfə Aderbay- qan erazisn Atropatena şəklində yad edilmişdir. II Tiqran yəqin ki, adı çəkilməyən Atropatena hökmdarlarını özündən asılı vəziyyətə salmışdı. Lakin Artaksat yanındakı döyüşdə atropatenler müstəqil qüvvə kimi II Tiqranın terofındə romalılara qarşı çıxış edirdilər. Uomoli, bu tabeçilik uzun sürməmiş, nominal xarakter daşımışdı. Strabon qeyd edir ki, «əslində atropatenlərin qüdrətli qonşuları vardır; ermənilər və partlar oniann ölkəsini tez-tez bərbad edirlər. Lakin onlar müqavimət göstərirlər və işğal olunmuş toıpaqlarını geriyə qaytarırlar». Strabonun məMumatından görünür ki, parflar da Adərbayqan torpaqlarına

II Tiqran VI Mitridatın qızı Kleopatra ilə evlənmişdi.

162 Qordiena ölkəsinin əhalisi nəzərdə tutulur. Qordiena Dəclə çayının yıxan axarında, Urmiya gölündən cənub-qərbdə yerləşirdi.

göz tikibmişlər. Aderbayqan böyük hərbi qüvvəyə malik idi. Strabo- nun me’lumatına görə, ölkə döyüşə 10 min süvari ve 40 min piyada çıxara bilirdi. Ümumiyyətlə, Azərbaycan etnosları çətin məqamlarda II Tiqramn köməyinə gəlirdilər.

Lukul VI Miıridatı məğlub etdikdən sonra (e.ə. 71-ci il) Armeniyaya yola düşür. Tiqranakert yanında o, II Tiqramn ordusu ilə döyüşə başlayır. Onun köməyinə Acliabena*^^ hökmdarı və Midiya hökmd a r ı d a gəlmişdi. Plutarx yazırdı ki. Xəzər (dənizi) tərəfdən alban dəstələri və qonşu iberlər gəlmişdilər, hökmdarları olmayan və Araz sahilində qoyxm otaran bir çox tayfalar döyüşə xoş rəftar və hədiyyə- ləı lə cəlb olunmuşdular. Albanlar və Arazsahili tayfalar heç də II Tiqrandan asılı olmamışlar, onlar könüllü surətdə Armeniya hökmdarının tərəfindən çıxış edirdilər. Lakin II Tiqran düzgün strateji mövqe seçə bilmədi və məğlub oldu (e.ə. 69-cu il). Lukul qələbədən sonra II Tiqramn ardınca Artaksat şəhərinə yaxınlaşdı. Burada atropa- tenlər’^’^ Lukulun ilk zərbəsinə düçar oldular. Döyüşün son aqibəti yenə də II Tiqramn məğlubiyyətilə (e.ə. 68-ci il) başa çatdı. Lakin Lukul döyüşə davam etmədi və II Tiqran e. ə. 67-ci ildə fürsətdən ' istifadə edərək Kappadokiyanı tutaraq dağıtdı.

E. ə. 66-cı ildə Roma senatı dövrünün görkəmli dövlət xadimi və sərkərdəsi Qney Pompeyi Lukulun yerinə Şərqə göndərdi. II Tiqran müqavimət göstərmədi və könüllü Pompeyə tabe oldu, lakin yenə də Armeniya tacını itirmədi. Belə bir şəraitdə Adərbayqan yəqin ki, müs- loqilliyini saxlayırdı. Pompeyin qalib gəldiyi ölkələr arasında Midiya yad edilir. Atropatena barədə isə mə’lumat verilmir. Ümumiyyətlə, e.ə. 1 əsrdon başlayaraq Atropatena və Midiya anlayışları qaynaqlarda bə’zən qarışdırılır, ancaq mətndən hansı haqqında söhbət getdiyini müəyyənləşdirmək mümkün olur. Bə’zən parflar «midiyalı» adlandırılır. Bundan əvvəl «midiyalı» anlayışı farslara şamil edilirdi. Bu dövrdən e'tibarən isə Adərbayqan əhalisi də «midiyalı» adlandırılırdı. Belə təsəvvür yaranır ki, tədricən «midiyalı» məfhumu İran ərazisində yaşayan bütün əhaliyə aid edilməyə başlayır.

Adİabena Dəclə çayının yuxan və aşağı axarından şərqda Urmiya gölünün qərbində yerləşirdi. II Tiqramn ordusunda zorla Armeniyaya sürgün edilmiş adnabenlər və qordilər də vuruşurdular.

Plutarxm bu mətnində söhbət Atropatena hökmdarından yox. Midiya hökmdarından gedir. Atropatenlər ayrıca köməyə gətmişdilər.

Köməyə gəlmiş Adərbayqan döyüşçü dəstələri nəzərdə tutulur.

E.e. 36-cı ildə Roma sərkərdəsi Antoni Partiyaya qarşı yürüşə başlayır. Armeniyanın hökmdarı, parflann keçmiş müttəfiqi II Artavazd (e.ə. 56-34-cü illər) Antoni ilə birləşir. Bu zaman IV Fraat (c.ə. 37-e. 3-cü illərin) Parfıya şahı idi. Antoni böyük bir ordu ilə Adərbayqanın ərazisinə soxuldu, ölkəni taladı və Fraat (Fraasp)'^’^’

XƏ'OƏT \ei\T V\, KnXonіı «KlropaXe- naya çatdı, ölkəni talamağa başladı... və içində Midiya hökmdarının övladları və arvadı olan Fraat şəhərini mühasirəyə aldı». Şəhərin alınması ləngidi, çünki Antoni divar dağıdan maşınları böyük hərbi qüvvə ilə yolda qoymuşdu. Bunu bilən IV Fraat bir həmlə ilə bu alətləri və on min Roma döyüşçüsünü məhv etdi. Romahların müharibəni uduzduğunu zənn edən Artavazd 3 ordusu ilə birlikdə Armeniyaya qayıdır və Antonini döyüş meydanında tək qoyur, Plutaı*x yazır ki, «Armeniya hökmdarı Artavazd (Artabaz) romahların işini uduzulmuş hesab edərək, müharibənin əsl səbəbkarının məhz özü olmasına baxmayaraq bütün adamlarını yığıb getdi». Deməli, romalılan .Adərbayqanı tutmağa sövq edən II Artavazd olmuşdu. Plutarxa görə, o özü ilə Midiyadan gətirdiyi partlar kimi silahlanmış 16 min süvariləri də aparır. Antoni bu xəyanəti II Artavazda bağışlamır. Müharibə qurtarandan sonra onu tutub (e.ə. 34-cü il) tskəndəriyyəyə göndərir və orada qətlə yetirir.

Antoni Fmat yaxınlığında partlann həmlələrinə mə’ruz qalırdı. Midiyalı dəstələr də romahların düşərgəsinə hücumlar edir və onlara tələfat verirdilər. Antoni Adərbayqanı tərk etməyə məcbur olur. Antoni tam məğlubiyyətdən çəkinərək IV Fraatın geriyə qayıtmaq təklifini qəbul edir. Lakin parflar geriyə çəkilən romalılan tə'qib edir.

Şəhərin dəqiq yeri nıə’lum deyil. Ola bilsin ki, Urmiya gölünün cənubunda Marağa yanında yerləşirdi. Şəhər Fraat .ndı ilə də məşhurdur. Hökmdarın adı ilə eyni mənşəlidir. Fraasp adını İran dillərindən «atlara kömək edən», yaxud «at çoxaldan» kimİ mə'nalandırırlar. Lakin qədim İran dillə- vindo «fra» - ön şəkilçi olmaqla «qabaq, ön, irəli» mə’nasını daşımış, «asp» isə «at» mə'nasını verir. Fraasp ancaq «öncül at» kimi başa düşülə bilər. Buna uyğun olaraq adın türk forması Fraat da «öncül at» anlamını əks etdirir.

Əsassız olaraq bu süvariləri Atropatena hökmdanna mənsub edirlər. Belə bir məntiqsizlik yaranır ki, atropatenlər və onların hökmdarı öz ölkələrinə qarşı çıxış etmişlər. Belə ziddiyyətli fikirlər ona görə yaranır ki, bə’zen qaynaqlardakı Midiya adını yerli-yersiz Atropatena (Adərbayqan) ölkəsinə şamil edirlər.

kiçik döyüşləriə tələfata uğradırdılar. Eyni zamanda romalılan aclıq ətdən salırdı. Partlar Antoniyə qalib gələ bilməsələr də, öz həmlələri ilə onun aclıqdan zəifləmiş ordusunu əldən salırdılar. Son məqamda tə'qib dəstələri Antoniyə toxunmayacaqlanm və’d edirlər. Plutarx bu barədə xəbər verir: «onlar... deyirdilər ki, geriyə qayıdırlar və intiqa* ma son qoyurlar, lakin midiyalıların kiçik dəstəsi düşmənçilik niyyətilə yox, ancaq uzaq kəndləri qorumaq məqsədilə iki-üç gün də romalılan müşayiət edəcəkləD). Romalılar parf-atropaten dəstələrinin gözlənilməz hücumlarından qorunmaq məqsədilə dağ yollan ilə Urmiya gölünün cənubundan şimal-qərbə doğru yolu 27 gün ərzində qət edərək Artaşat qalasına, Plutarxın dediyi kimi, «Midiyanı Armeniyadan ayıran Araz çayına çatdılaD>. Deməli, Adərbayqanın şimal- qərbdə sərhədləri Araz çayı sahilində yerləşən Artaşat istehkamına çatırdı. Antoni bu döyüşlərdə 24 min döyüşçü itirmişdi.

Antoninin bu uğursuz yürüşü Adərbayqan hökmdan ilə IV Fraat arasında nifaqın yaranmasına səbəb oldu. Adərbayqan taxtında oturmuş hökmdarın adı mətndə çəkilmir. Adərbayqan hökmdan güman edirdi ki, IV Fraat onun taxt-tacına sahib olmaq istəyir. O, cəld tərpənərək Antoni ilə əlaqəyə girir və onu yenidən parflara qarşı yürüşə çağırır. Plutarx xəbər verir ki, Antoni «hərbi əməliyyatı başlamaq üçün bir də Armeniyanı keçməyə və Araz çayı sahilində midiyalı ilə birləşməyə amq hazırlaşmışdı». Lakin Kleopatra onu buraxmır. Bu yürüş tə’xirə salınır. Antoni Kleopatradan olan oğlu Aieksandn gələcəkdə işğal edəcəyi Armeniya, Midiya və Parfıyanm şahı e’lan edir. Bir müddət sonra o. Midiyaya gəlir, şah qızını öz oğluna nişanlayır. E.ə. 31-ci ildə Antoni Roma triumviri Oktavian ilə döyüşə girişən zaman (Aksi yaxınlığında) Midiya hökmdarının hərbi dəstələri köməyə gəlirlər. Bundan bir il sonra Antoni həlak olur və Şərqdə ağalıq Oktavian Avqustun əlinə keçdi. Oktavianın göstərişi ilə Artavazda (111) Armeniya hakimiyyəti də tapşınıdı. Lakin onun hakimiyyəti uzun sürmədi. Plutarx yazır ki, eımənilərin razılığı ilə midiyalı Ariobarzan (11) onlara hökmdar tə’yin edildi. Belə hesab edirlər ki, Atropatenanın hökmdarı olan Ariobarzan Oktavianın iradəsilə Armeniya taxt-tacına da yiyələnir. Ariobrazanın vəfatından sonra Armeniya hakimiyyəti onun oğlu Artavazda (III) verildi.

Beləliklə, Adərbayqan dövlətini idarə edən sülalə nümayəndələri barədə qəti mülahizə yürütmək mümkün deyil. Adərbayqan müstəqilliyini saxlamağı hərbi münaqişələrə qoşulmaqdan üstün tuturdu.

Zənıri hallarda isə qonşulann köməyinə gəlirdi. Eyni zamanda şimalda Arazın o tayına qədər (Naxçıvan, Paytakaran, Kaspiana) uzanan torpaqlarını qorumaq, Armeniya hökmdarlarının təcavüzkar işğaİİarıntn qarşısını almaq məqsədini güdən Adərbayqan dövləti öz varlığını və hüdudlannı saxlamaqda Midiya hökmdarlannın qüdrətinə də arxalanırdı. Böyük hərbi münaqişələrdə iştirak edən Midiya və Partiya da .Adərbayqanın siyasi mənafeyini müdafiə edirdi. Buna görə Adərbayqanın öz siyasi fəaliyyəti bə*zən kölgədə qalırdı. Çox-çox sonra Stralx>n Adərbayqanda hakimiyyətin yaranmasını Atropatm, keçmişdə Midiya satrapının adına çıxmışdı. Strabon yazırdı: «Əslən hökmdar e'lan edilmiş Atropat bu ölkəni öz bildiyi kimi müstəqil etdi və indi də və’ni e.e. I əsrin sonu, e. I əsrinin əvvəli) vərəsəlik onun ailəsində qalır, çünki onun sələfləri Armeniya və Suriya, sonralar isə Parfıya hökmdarlan ilə nikah bağlayırlan>. Adərbayqan hökmdarları bə’zən Armeniyanı da idarə edirdilər, yaxud orada hakimiyyətə sahib olurdular. Nə vaxtsa Midiya satrapı Atropat Adərbayqan taxt-tacına sahib olmuş, onun sələfləri isə hakimiyyəti əldə saxlamaq naminə qonşular .lt> qohumluq əlaqəsi yaratmışlar. Atropat və onun sələfləri, Ariobar- zan fars mənşəli adlar daşıyırdılar. Əhemenilerin| sonra da parflann hakimiyyəti dövründə irandilli etnoslar hakimiyyətdə üstünlük təşkil edirdilər. Buna uyğun olaraq hökmdarlar müvafiq fars mənşəli ad qəbul edirlərmiş. Bu qayda parflann yüksəlişi dövründə də qalırdı. Ola bilsin ki, Parfıyaya tabe olan Midiya hökmdarları müəyyən siyasi >əraitdə Adərbayqanda da ağalıq edirmişlər.

Eramızın I - II əsrlərində Adərbayqanın siyasi mövqeyi yenə də kölgədə qalmışdı. Dövrün siyasi hadisələrində fəal iştirak edən Midiyada Arşakilər (Parfıya) sülaləsinin." nümayəndələri hökmran Jılər. II Artaban əvvəl Midiya hökmdarı olmuş, sonra Parfıya taxtına >iyələnmiş, Armeniya hakimiyyətini isə oğlu Oroda vennişdi. II Arta- banın vəfatından əvvəl midiyalılann hökmdan Vonon idi. Sonra o, Parfıya taxt-tacına sahib oldu. Onun vəfatından sonra oğlu I Voloqez (parf, Valaraş) Midiyanı idarə etməyi oğlu Pakora, Armeniyanı isə kiçik oğlu Tiridata tapşırdı. Beləliklə, İranda Sasani dövlətinin yaranması ərəfəsində Adərbayqan Midiyada Arşakilər sülaləsinin ağalığının şahidi olaraq qalırdı.

## § 2. ALBANİYA DÖVLƏTİ

Əhalisi vo adı. Azərbaycanın Araz çayından şimalda yerləşən torpaqları antik qaynaqlarda Albaniya*^® adlandırılırdı. İlk mə’lumatçı Sirabona görə, Albaniya şimalda Sarmatiya,*^^ qərbdə İberiya,*^^* cənub və cənub-qərbdə Adərbayqan (Atropatena) və Armeniyanın bir hissəsi*^* ilə həmsərhəd idi. Albaniyanın paytaxlı əvvəl Qəbələ (yunan qaynağı Kabalaka). sonra isə Bərde (erməni qaynağı - Partav) idi. Lakin Strabonun ziddiyyətli mə’lumatları Albaniyanıp sərhədlərinin düzgün müəyyenləşdirilməsinde mübahisələrə səbəb olmuşdur. Bə’zən şimalda Dağıstanın cənubu da Albaniyaya aid edilir, Kürün cənub hissəsi Albaniya sərhədlərindən çıxarılır. Qaynaqların ziddiyyətli cəhətlərini atsaq (bax. aşağı), Albaniyanın sərhədlərini cənubda Araz çayı, şimalda isə Dərbəndlə müəyyənləşdirmək olar. Müasir Şimali Azərbaycanın ərazisi Albaniyanın tərkibinə daxil idi.

Albanlar, yaxud bu ad altında çıxış edən etnoslar Şimali Azərbaycanın qədim əhalisi idi. Lakin qaynaqlarda «alban» adına e.ə. I əsr- don e’tibarən rast gəlinir. Ya ad antik müəlliflərə gec mə’lum olmuş, ya da bu adı daşıyan etnoslar sonrakı məskunlar imişlər. Antik müəllif Arrian (II əsr) albanları e.ə. IV əsr hadisələri ilə əlaqədar yad etmişdi. Adətən söyləyirlər ki, Albaniyanın əhalisinin etnik və dil tərkibi müxtəlif olmuşdur, lakin bunu müəyyən edərkən sətlıi mülahizələrə üstünlük vermişlər. Buna görə albanların etnik və dil mənsubiyyəti barədə mülahizələr təqribi xüsusiyyət daşıyır. Bu sahədə elmi tədqiqatlar müxtəlif fikirlərin yaranmasına səbəb olmuşdur.

Albaniyanın ərazisində yaşayan əhali müxtəlif adlar daşıyan etnosların birliyini təşkil edirdi. Burada sakasen, mük, uti, qarqar, udin, ud, sovde, kaspi, qel, leq və s. adları daşıyan əhali təmsil olunmuşdu. Eyni zamanda Albaniyada türk etnosları da yaşayırdılar. Antik mənbələr «alban» anlayışını ölkənin bütün əhalisinə şamil edirdilər, ehtiyac duyulduqda alban etnik birliyinə daxil olan ayrı-ayrı tayfaların

168 Eikan orta əsrlərdə Albaniyanın ərazisi ərəb mənbələrində Arran (və Aİran), Suriya qaynaqlarında Aran, qədəm erməni yazılarında Ağvai (Alo- van), gürcü qaynaqlarında Rani, qərb hissəsi isə Hereti adlandırılırdı.

Sannatiya anlayışı Dağıstanı da bürüyürdü, bə’zən daha cənubu əhatə edirdi.

İberiya şərqi Gürcüstanı bildirirdi.

Anneniyanın sərhədini bə'zən Xəzər dənizinə qədər uzadırdılar.

adını çəkirdilər. Strabonun mə'lumatına görə, Albaniyada əhali 26 dildə danışırdı.

Lakin «26 dil» anlayışını Albaniyanın aran və onu bürüyən dağ və dağətəyi hissələrinə şamil etmək mümkün deyildir. Ya Strabonun istifadə etdiyi mənbədə mə'lumat düzgün qeydə alınmamış, ya da «26 dil» anlayışı Albaniyanın şimalında (Cənubi Dağıstanda) yaşayan əhalinin dil şəraitini nəzərdə tutmuşdu. Qafqazda çoxdillilik (bir sıra hallarda çoxləhcəlik) şəraiti erkən orta əsr qaynaqlarında da qeydə alınmışdı. Albaniyanın mərkəz hissəsində, Kür çayının sağ və sol sahili ərazilərində yaşayan əhali arasında bu cür dil müxtəlifliyi nəzərə çarpmırdı.

Bir sıra antik müəlliflər albanları yerli əhali yox, gəlmə hesab edirdi. Pompey Troq (e.ə. I – e. I əsrləri) albanların Fessaliyadan (Şimali Yunanıstan) gəldiklərini söyləyirdi. Yuli Solinə görə, albanlar özlərini əfsanəvi Yasonun nəsli ilə bağlayırdılar. «Mənşə kitabında» əks olunmuş rəvayətə görə, albanlar Midiya tərəfdən şimala və qərbə doğru yayılmışdılar. Bu mə'lumatlardan belə nəticəyə gəlmək olar ki, Albaniya əhalisinin bir qismi miladdan əvvəlki dövrlərdə burada məskunlaşmışdı. Tit Livi albanları ən ucqar və naмə'lum xalqlar cərgəsinə daxil edir, Plutarx isə albanları ən cəsur xalq kimi göstərirdi.

Elmi və tarixi ədəbiyyatda «alban» adının mənşəyi barədə müxtəlif mülahizələr irəli sürülmüşdü. Antik müəlliflərdən Yuli Solin «alban» adını «albus» – «ağ» latın sözü əsasında izah etmişdi. Lakin bu təsadüfi oxşarlıqdır. «Alban» adı yerli dillərdə işlədilən söz əsasında meydana gələ bilərdi. Digər mülahizəyə görə, «Albaniya» xoronimi «Dağlıq ölkə» (Dağıstan) mə'nasını daşımışdır. Guya bu ad kelt mənşəli alp//alb «dağ, yüksəklik» sözündən əmələ gəlmişdir. Lakin keltlərin Albaniya ərazisində yaşaması barədə heç bir mə'lumat yoxdur. Belə bir mülahizə də irəli sürülmüşdü ki, «alban» adı əvvəllər «halban» kimi tələffüz olunurmuş və adın kökünü hal etnonimi təşkil edirmiş, -ban isə Qafqaz dillərində cəm bildirən şəkilçi olmuşdur. Bunu Dağıstanda qonşular tərəfindən avarlara şamil edilən halbi (-bi cəm bildirən şəkilçidir) etnonimi ilə eyniləşdirirdilər. Son zamanlar «alban» adı barədə irəli sürülmüş yozum daha inandırıcıdır. Bu yozuma görə, «alban» adı türk mənşəli etnonim kimi türkmən və qazaxlar tərəfindən işlədilir. Türkmənlərdə «alpan», qazaxlarda isə «alban» etnonimi qalmışdır. Alpan// alban Orta Asiyada müəyyən türkmənşəli tayfaları bildirir. Belə halda «alban» etnonimi qədim türk dillərində

«cəsur, igid» mə'nası daşıyan alp//alb sözü əsasında yaranmışdır. Addaki -an isə mənsubiyyət, yaxud cəm bildirən şəkilçidir. Həmin izaha tam uyğun olaraq «alban» adı «cəsurlar, igidləD> kimi mə'nalan- dırılır. Bu fikri, izahı antik müəlliflərin albanlara şamil etdikləri «igid, cəsur» xarakteristikası da təsdiqləyir. Buradan belə nəticəyə gəlmək olar ki, Albaniya əhalisinin tərkibində türk tayfalan geniş təmsil olunmuşdular.

Miladdan əvvəlki dövrlərdə Albaniya ərazisində başqa tayfalar da yaşayırdılar. Hələ Herodot burada yaşayan kaspi, uti, mük tayfalarının adını çəkmiş, Strabon isə kaspi və uti tayfalarından başqa qel, leq, mard, amard, qarqar və s. tayfaları da yad etmişdir. Arrian sakasinlərin adını albanlar ile yanaşı çəkmişdir. Plini (1 əsr) silv, lupeni, sodi, udin Ptolemey isə ud tayfalarım yad etmişdir. Leq, qel, lupeni, silv və sodilər Samur çayı vadisində yaşayırdılar. Leqləri ləzgidilli tayfalar hesab edirlər. Onlar buraya Dağıstan ərazisindən gəlib məskunlaşmışdılar. Silv, lupeni, qel etnonimləri həmçinin ləzgi dillərinə yaxın dildə danışan etnoslara mənsub olmuşdur. Ola bilsin ki, bu etnonimlər o dövrdə xınalıq, saxur, qnz, buduq və başqa (avar, lak və s.) ləzgidilli etnosları bildirinniş. Bu tayfalar tədricən cənuba hərəkət etmiş və Qafqaz sıra dağlarını aşaraq indiki yaşadıqları ərazidə məskunlaşmışlar. Beləliklə, Albaniyanın Dağıstana yaxın hissəsində qədim zamanlarda ləzki dil qrupunda danışan əhali məskuşlaşmağa başlamış və cədıicən cənuba doğru yayılmışdı.

Antik müəlliflərin məlumatlarına uyğun olaraq udin və ud tayta- lan Albaniyanın şimal-şərqində Xəzər dənizi sahilində yaşayırdılar.* utiler isə həm Adəıtıayqanm (Atropatenanın), həm də Albaniyanın ərazisində yaşayırdılar. Yəqin ki, uti adı müxtəlnf etnoslara şamil edilirdi. Udin və uti etnosları barədə elmdə bir neçə mülahizə mövcuddur. Bə'zi mülahizəyə görə (S.T.Yeremyan, K.V.Trever,
F. M.Memmədova, V.L.Qukasyan), udin və uti (buraya albanları da qatırlar) eyni etnosu bildirməklə qafqazdilli olmuşlar. Azərbaycanda (Nidj və keçmiş Vartaşen kəndlərində) yaşayan müasir udinlərin qafqazdilli olması əsas dəlil kimi götürülürdü. Buna uyğun olaraq Albaniyanın uti adlanan əhalisi qafqazdilli udinlər kimi qələmə verilmişdi. Lakin udin adının müasir udinlərə məhz XVII əsrdə şamil edilməsi qeydə alınmışdır. Eyni zamanda həmin əsrdə Krasnoyarsk vilayətində türkmənşəli udin adı daşıyan etnik qrupun yaşaması gös-

Bəzən onları Şimali Qafqazda yerləşdirirlər.

(oriİmişdir. Deməli, udin adı həm Qafqaz-iberdilli, həm də türkdilli etnoslara şamil edilirdi. Azərbaycanda indi adlannı itirmiş bə'zi (ürkmənşəli kənd əhalisi (Qəbələ bölməsində) udin adını daşıyırdı. Müasir Qafqaz-iberdilli etnoqrafıq qruplar özlərini udi adlandınrlar və bu ad qədim ud etnosunun adına uyğunlaşdınla bilər. Udin adı isə onlara kənardan verilmiş sonrakı ad olmuşdur. Ud//udilər əvvəlcə Albaniyadan şimal-qərbdə yaşamış, xristianlığı qəbul etdikdən sonra İSƏ yəqin ki, indiki Qəbələ (keçmiş Qutqaşın) ərazisində məskunlaşmışlar. Udi//udinlərin Albaniya ərazisi ilə .əlaqəsi qaynaqlarda təsdiq olunmur. Uti etnosları isə udi// udinlər itə dil və etnik cəhətdən bağlı olmayai tayfa birliyini təşkil edirdilər.

Digər mülahizəyə görə, utilər türkdilli etnos olmuş və geniş bir bölgədə yaşamışlar. Qədim mixi yazılarda udin və utu//itu (e.ə. VIII osr) etnik adlan yad edilir. Bu onu göstərir ki, hər iki etnonim bəlkə do müstəqil meydana gəlmiş qohumdilli etnoslara şamil edilmişdi. Bu adlarla Urartu mixi yazılannda (e.ə. VIII əsr) yad edilən və Göycə gölü hövzəsində Uduri-Etiuni vilayətinin adı da eyniləşdirilmiş, udi və utiləri bu ərazidən çıxma hesab etmişlər. Utilər Azərbaycanın qədim sakinləri olmuşlar. Əhəməni sülaləsinin (e.ə. 550-331-ci illər) hakimiyyəti dövründə utilər vergi verənlər siyahısında idilər. Erkən orta əsrlərdə uti adı qərbi Azərbaycanın (Albaniyanın) bir sıra vilayətlərinin, o cümlədən Bərdə bölgəsinin əhalisinə şamil edilirdi. Utilərin bir qismi şimala hərəkət etmiş və orada utiqur (türkcə «uti tayfası») adını daşımışdı. Uti etnonimi türk tayfalarını bildirirdi.

Utiqurlar hun-türk tayfa ittifaqına daxil idilər. Bu emonim Albaniyadan şimalda yaşayan utidors*^^ tayfa adında da əks olunmuşdur. Adda türk dillərində tayfa adlarına əlavə olunan «-dor//dur» komponenti və «-s» cəm şəkilçisi qovuşmuşdur. Uti etnonimi erkən orta əsrlərdən sonra artıq yad edilmir. Orta əsrlərdə türk etnosunu bildirən uduit (-it//ut cəm bildirən şəkilçidir) tayfa adı yad edilmişdir. Azərbaycanın türk etnoslarına oria əsrlərdə udulu tayfası da mənsub idi. Beləliklə, demək olar ki, türk etnosu olan utilər qədim və erkən orta əsrlərdə geniş bir ərazidə - Şimali İkiçayarasından ve Azerbaycandan tutmuş ta Şimali Qafqaza kimi geniş bir ərazidə yaşamış ve həmin ərazidə baş vermiş siyasi hadisələrdə iştirak etmişlər.

Utidors («uti tayfaları») adını udin adı ilə eyniləşdirib, onları Qafqaz - iberdilli hesab edirdilər. Lakin utidors və udin adlan arasında heç bir oxşarlıq gözə çarpmır.

E.ə. VII əsrin əvvəlində kimmer-skit dalğaları ilə Ön Asiyaya düşmüş sak tayfaları Albaniyanın ərazisində də məskən salmışdılar. Saka etnonimi qaynaqlarda şaka kimi də yazılırdı. Onlar Albaniyada Kür çayının sağ sahilindən (Kür-Araz qovşağı daxil olmaqla) Qafqaz dağətəklərinə qədərki ərazini tuturdular. Burada onlar sakasin (şakaşin – türkcə «saka bənzər», «saka oxşar», yaxud «sak adamı, sak tayfası») adı altında mə'lum idilər. Albaniyanın ərazisində sak//şak etnonimi erkən orta əsr Şakaşen (qədim Sakasena) vilayətinin və Şəki (tarixən Şaki) şəhərinin adında qalmışdı. Müasir Zaqatala adı (bu Azərbaycan dilinin dialektinə s~z fonetik əvəzlənməsi səciyyəvidir) Sakatala («Sak düzü») adının fonetik dəyişilmiş formasını təşkil edir. Oradakı Zakandərə həmçinin Sakandərə («Sak dərəsi») adının dəyişilmiş formasıdır. Azərbaycanda məskunlaşmış saklar türkmənşəli olmuşlar. Bə'zi Bizans müəlliflərinin (Menandr) mə'lumatına görə, qədimdə türkləri sak adlandırırmışlar. Eyni zamanda Albaniyanın qərbində (ind. Qax r-nu) güman ki, kimmerlər də məskən salmışdılar. Buradakı Qımır, Qımırlı toponimləri qədim kimmer (assurca «qimir») adını saxlamışdır. Kimmerlər də saklarla bir dövrdə Albaniyada məskunlaşmışdılar.[174]

Albaniyanın cənub-şərqində kaspi tayfaları yaşayırdılar.[175] Strabon yazırdı ki, «Kaspiana da albanların ölkəsinə mənsubdur». Kaspilərin etnik və dil mənsubiyyəti barədə mə'lumat qalmamışdır. Onları Qafqaz-iber və farsdilli hesab edənlər də vardır. Etnonimin kökünü kas adı və -pi (elam və bə'zi Qafqaz dillərində cəm şəkilçisidir) cəm şəkilçisi təşkil edir. Kas adını Zaqroş dağlarının qədim (e.ə. II – I minilliklər) sakinləri kaşşu//kissi[176] etnosunun adı ilə eyniləşdirirdilər. Çox güman ki, kas//kaş etnonimi Albaniyada (eləcə də bütün Azərbaycanda və cənub istiqamətində) yaşayan türk etnoslarının digər adı olmuşdur. Son araşdırmalara görə, kas etnonimini bir sıra Orta Asiya və Altay türk tayfaları daşıyırdı. Özünü kas//kaş//kaç adlandıran kaçi tayfalarına qədim uyğurların arasında da kas deyirdilər.

[174] Müasir dövrdə sak//şak etnonimi bir sıra türk xalqlarının tayfa adlarını təşkil edir: özbəklərdə şakay, qırğızlarda saka, türkmənlərdə şaklar, xakaslarda sakay, yakutlarda svxa (özlərinə verilən ad) və s.

[175] Saklar kimi kaspilər də cənubda, Adərbayqanın (Atropatenanın) ərazisində yaşayırdılar.

[176] **Kaşşular** e.ə. II minilliyin ortalarında qədim Babilistan dövlətini süquta uğratmış və İkiçayarasında 500 il hökmranlıq etmişlər.

Qərbi Sibirdəki Karakas («Qara kaslar») adını daşıyan türk etnosunun tərkibinə Sarıq kaş («Sarıkaş») və kaş etnik qrupları daxil idi. Belə nəticəyə gəlmək mümkündür ki, qədim zamanlar türkmənşeli kaslar Azərbaycanda və daha geniş ərazidə təmsil olunmuşdular.

Beləliklə, Albaniyanın mərkəz və aran rayonları əhalisi əsasən türk etnoslarının, Dağıstana yaxın ərazisi isə həm də Qatqaz-iberdilli etnosların yaşadığı bölgələr olmuşdur. Yəqin ki, Albaniyanın şimal- qərb və şimal bölgələri Dağıstandan yayılan müvafiq, lakin müxtəlil' adlar daşıyan Qafqaz dil ailəsinin dağıstandilli etnosları tərəfindən tədricən mənimsənilirdi. Buna baxmayaraq, Albaniyada çoxdillilik şəraiti yarana bilməzdi. «26 dil» anlayışı Albaniya əhalisinin emolin- qvistik vəziyyətinə uyğun gəlmir, daha çox Dağıstanın müxtəlif çox- ləhcəliyini əks etdirir. Sonralarərəb qaynaqları Qafqazı «dillər dağı», yə’ni çoxdilli diyar adlandırmışdı. Albaniyada əsasən üst-üstə gələn (ürk dili ləhcələri (kanqar, bulqar, peçeneq, heptal//əbdəl və s.) qədim yerli türk dili ilə bir müddət yanaşı'öz varlığını saxlayırdı, tədricən alban (arran) türk dilinin yaranmasına gətirib çıxarırdı. Təsadüfi deyil ki, erkən orta əsr qaynaqlarında, toponimiya və antroponimiyasında türk sözləri əks olunmuşdur. Bu baxımdan Kür çayının adı diqqətəlayiqdir. Ammian Marsellinin (IV əsr) mə’Iumatına görə, guya Kir bu çayı özü kimi coşğun görmüş və onu öz adı ilə Kür adlandırmışdır. Rəvayətin düzgün olub-olmamasından asılı olmayaraq Kür «gur, ili, coşğun» mə’nasını daşıyır. Deməli, Kür türk mənşəli «gur» sözünün yunan qaynağında əksidir. Albaniyanın ərazisində fars ləhcələrində danışan etnoslar da məskən salırdılar. Belə şəraitdə türk dili müxtəlif einoslararası ünsiyyət vasitəsinə çevrilirdi. Əsrlər boyu Azərbaycanın şimal hissəsində məskunlaşan Dağıstan və irandilli etnik qruplar alban türkləri ilə qohumiaşır, kirvələşir, qaynayıb-qarışır, xarici və daxili təxribat olmayan zaman isə bu ərazinin bütövlüyünü birgə qoruyurdular. Lakin buna baxmayaraq, Azerbaycanın qeyri-türk etnosian əsasən özlərinin dil və etnik mənsubiyyətini saxlayırdılar.

Alban dövlətinin yaranması. Azərbaycanın şimalı, gələcək Albaniya ərazisi barədə erkən yazılı qaynaqlarda mə’lumaq yoxdur. Düşünmək olar ki, e.ə. II minilliyin sonu - I minilliyin əvvəlində burada erkən tayfa birləşmələri yaranırdı. Gələcək Albaniyanın qərb və cənub-qərb vilayətlərinin siyasi vəziyyəti barədə Urartu mixi qaynaqları az da olsa təsəvvür yaradırlar. Urartu hökmdarlarının (e.ə. VIII əsr) hərbi yürüşləri Göycə gölü hövzəsinə çatırdı. Yürüşlərin

birində Göycə gölünün şərqində, qismən müasir Azərbaycanın ərazisində yerləşən bir neçə «ölkə» işğal edilmişdi. Ola bilsin ki, bu vilayətlərdə xırda vilayət başçıları hakim imişlər. E.ə. VII əsrin əvvəlində kimmer, skit və sakların Azərbaycanda məskunlaşması onların gələcək Albaniya ərazisində xırda dövlət təşkilatlarının formalaşmasına təkan verdi. Əhəmənilərin hakimiyyəti illərində (e.ə. VI - IV əsrlər) Albaniyadakı etnoslar bu hakimiyyəti nominal (sözdə) da olsa tanıyırdılar, mərkəzə xərac verirdilər, müharibə zamanı Əhəməni ordusunu hərbi dəstələrlə təchiz edirdilər. Qavqamela (Cancal) döyüşündə albanlar, sakasinlər, kaspilər Əhəməni şahı III Daranın tərəfində döyüşürdülər. Güman etmək olar ki, Albaniyada artıq ordu yaradılmışdı və dövlətin vahid mərkəzdə birləşdirilməsinə başlanmışdı. Bə’zi mülahizələrə görə (V.V.Bartold), guya albanlar Qavqamela döyüşündə müstəqil yox, muzdlu sifətilə Midiya ordusunun tərkibində çıxış edirdilər. Lakin qaynaqlar göstərir ki, albanlar midiyalılarla birlikdə deyil, şah III Daranın dövrəsində mövqe tutmuşdular. Deməli, albanlann döyüşkən keyfiyyətləri və cəsurluğu əhemənilərе mə’lum imiş.

Yada salaq ki, «alban» adı ilk dəfə e.ə. I - e. I əsrindən e’tibarən qaynaqlarda (Strabondan başlayaraq) işlədilməyə başlanmışdır. II əsr antik yazıçısı Arrian isə bu adı qedimləşdirmiş və Qavqamela döyüşü ilə bağlamışdır. Bu döyüş İskəndərin qələbəsilə başa çatır. Antik müəlliflərdən Plini və Yuli Solin İskenderin işğal etdiyi ölkələr arasında Albaniyanı da yad etmişlər. İskəndərin vəfatından sonra onun varisləri diadoxlar arasında hakimiyyət uğrunda mübarizə gedən zaman Albaniyada müstəqil dövlət fəaliyyət göstərirdi. Yəqin ki, Albaniyada xırda vilayət hökmdarlarının vahid mərkəzdə birləşdirilməsinin gedişi artıq Əhəmənilərin hakimiyyəti dövründə başlamış və İskəndərin imperiyası dağılan zaman başa çatmışdı. Strabon e.ə. I əsr siyasi hadisələrilə əlaqədar yazırdı ki, alban «hökmdarları da qiyamətdirlər. İndi bir hökmdar onlan idarə edir, lakin əvvəllər hər bir dilin (yə’ni tayfanın) özünəməxsus hökmdan vardı». Qaynaq vahid və bir mərkəzə baxan alban dövlətinin nə vaxt meydana gəldiyini göstərmir. Lakin yuxandakı mülahizələri nəzərə alaraq e.ə. IV əsrdə Albaniyada vahid dövlət qurumunun bərqərar olmasını söyləmək olar. Eyni zamanda Albaniya dövlətinin sərhədləri bu birləşmə gedişində möhkəmlənmiş və Albaniya ölkəsi siyasi anlayışı yaranmışdı. Hələ qədimdə Azərbaycan torpaqlarının qonşular tərəfindən işğalı o dövrün qaynaqlannda bu və ya digər şəkildə əks olunurdu Qədim Azər-^

baycan dövlətləri (istər Albaniya, istərsə Adərbayqan) sərhədləri müəyyən etnik və dil çərçivəsində formalaşmışdı. Bu dövlət çərçivəsində az saylı qeyri-türk etnik birləşmələri də təmsil olunmuşdu. Eyni zamanda türk etnosları qonşu ərazilərdə (şimalda Dərbəndə kimi. Şərqi Gürcüstanda, Göycə mahalı və Ağndağ vadisi) məskunlaşmışdılar.^^^ Sonrakı ərəb qaynaqlan bu qonşu əraziləri də bir inzibati bölgüyə daxil edib, onu Azərbaycan adlandınrdılar. Albaniya ərazisi Arran adı altında bu inzibati bölgüdə təmsil olunmuşdu. Beləliklə, Azərbaycan qədim və orta əsrlərdə daha geniş torpaqlan əhatə edirdi. Parfıya-Roma, Sasani-Bizans müharibələri, hun və xəzərlərin müdaxiləsi zamanı bu torpaqlar Azərbaycanın (müvafiq surətdə Albaniyanın və Adərbayqanın) aynimaz hissəsi kimi, əhalisinin əsasən (azsaylı etnosları nəzərə almaqla) oxşar etnik və dil tərkibinə görə müdafiə olunurdu, işğal olunduqda isə geri qaytarılırdı.

Albaniya-Armeniya münasibətləri. Alban dövlətinin erkən tarixi qaynaqlannda öz əksini tapmamışdır. Az-çox arxeoloji mateıiallar Albaniyanın təsənüfat və maddi mədəniyyətini bəıpa etməyə kömək edir. E.ə. I əsrdən e’tibaıən albanların siyasi həyatı barədə mə’lumat- lar verilir. İlk dəfə Strabon Armeniyanın albanlara (və Adərbayqana) qarşı təcavüzünü yad edir. Strabonun mə’lumatına görə Şərqi Anadoluda Van gölü yanında kiçik bir erazi Armeniya adlanırdı. İlk əhalisi yerli sakinlər idi. Friqiya tayfalarının bir qolu burada məskunlaşmış və ölkənin adı ilə erməni adlandırılmışdır. İşğallar nəticəsində Armeniya adı tədricən Araz çayından şimalda yerləşən ərazilərə də şamil edilmişdir. Sələvki hökmdarı 111 Antioxun ölümündən sonra onun sərkərdələri Artaksi (yaxud Artaşes, erməni qaynaqlarına uyğun) və Zariadri hökmdar oldular, qonşu xalqların, o cümlədən Albaniyanın, Adərbayqanın və İberiyanm erazilərini işğal edərək Armeniyanın erazisini genişləndirdilər. Onlar Azerbaycana məxsus Kaspia- nanı (vaxtaşın Albaniyaya və Adərbayqana daxil idi), Basoropedanı (erməni qaynaqlannda Vaspurakan - Naxçıvan və ətrafı ilə birlikdə şimal-qərbi Adərbayqan torpaqlan) və Favnitidanı (bəlkə de iki vilayət arasındakı dağlıq ərazi nəzərdə tutulur) tutdular. Bu işğalı əsas götürən qeyri-alban ən'ənəsi Albaniyanın ərazisini cənubdan Kür çayına kimi məhdudlaşdırmış, Armeniyanı cənubda Adərbayqan (Atropatena), şimalda isə Albaniya ile həmsərhəd götürərək onun şərq sərhəd-

Söhbet Azerbaycan tarixi ilə bağh olan tüık etnoslanndan gedir.

lərini Xəzər dənizinə çatdırmışdır. Torpaq iddiası ilə göyərən ən'ənədən geniş istifadə edən Strabon əsərinin başqa yerində «Albaniyaya Kaspiana da daxildir» ifadəsini işlədərək Kürdən cənubda yerləşən torpaqların Albaniyaya məxsus olduğunu bildirmişdir. Lakin özgə toıpaqlanna iddia ən'ənəsi və tarixi təxribatçılıq bu dövrdən başlayaraq öz mövqeyini möhkəmləndirmiş və Böyük Armeniya coğrafi anlayışını yaradaraq onu Xəzər dənizinə qədərki Azərbaycan toıpaq- lanna tətbiq etmişdir. Armeniya haqqında belə coğrafi və siyasi anlayış 1 Artaşesin (e.ə. l89-160-cı illər) işğallarından sonra meydana gələrək antik tarixşünaslığa yol açmış və Strabonun ziddiyyətli mə'lu- matlannda müəyyən yer tutmuşdu. Bunun da müəyyən tarixi səbəbi olmamış deyildi. Strabon erməni zadəkanlarının təxribatçı ən'ənəsinə və torpaq iddiasına əsaslanan mə'lumatlardan geniş istifadə etmişdi. Aydındır ki, I Artaşesin ölümündən sonra Azərbaycanın (Albaniya və Adərbayqanın) sərhədləri də bərpa olundu. Armeniya hökmdan U Tiqranın (e.ə. 95 - 55-ci illər) geniş işğalları dövmndə Armeniya (o cümlədən erməni) nəsli zadəganlarının yenidən Azərbaycan torpaqlarına sahib olma ümidləri baş qaldırdı. Lakin II Tiqran Azərbaycan (o cümlədən Albaniya) ilə əlaqədar bu ümidləri doğrultmadı, osJində imkan tapmadı. O, Azərbaycan istiqamətində yürüşə çıxa bilmədi, başqa istiqamətlərdə işğal etdiyi torpaqları isə Roma ilə müharibəni (e.ə. 67-65-ci illər) uduzduqdan sonra itirdi. Buna baxmayaraq erməni zadəganlarının torpaq iddiası ən'ənə şəklini aldı və bu hadisələrdən bir müddət sonra Strabonun əsərinə yol tapdı. Özgə toıpaqlanna, o cümlədən Albaniya ərazisinə iddia tədricən Amıeni- yaya məxsus torpaqlar kimi qələmə verilməyə başladı və bu, daha qabarıq şəkildə bə'zi erkən orta əsr erməni qaynaqlarında (Favst Bıızand, «Ernıəni coğrafiyası») və ona sövq edən müasir emıəni tarixşünaslığında (S.T.Yeremyan, K.V.Trever və b.) öz əksini tapdı. Erkən orta əsrlərdə xristianlıq pərdəsi altında Alban torpaqlarını» işğal edilməsi cəhdi göstərildi. Armeniya hökmdarları tərəfindən Roma- Bizans münaqişələrə cəlb olundu, lakin heç bir fayda əldə olunmadı. Azərbaycan öz loıpaqlarmı saxladı. Tarix boyu müvafiq siyasi şərait yaranan zaman erməni ə'yanlan və hakim sinif nümayəndələri qonşulara torpaq iddiasını ortaya ataraq xalqları qarşı-qarşıya qoymuş, nahaq qan tökülməsinə bais olmuşlar.

Tarixi hadisələı-ə düzgün yanaşmayan və onlan torpaq iddiası baxımından izah edən bə'zi müəlliflər belə bir yanlış müddəaya

uymuşlar ki, guya Kür çayının sağ sahilində yerləşən alban torpaqları altı əsr (I Artaşesin işğallanndan ta eramızın IV əsrinə kimi) Böyük Armeniyaya məxsus olmuşdur, sonra isə Albaniyaya birləşdirilmişdir. Söhbət Albaniyanın SakasenaZ/Şakaşen (Kürün sağ və sol hissəsi), Uti (ind. Bərdə əhatəsi), Arsax (ind. Yuxan Qarabağ), Paytakaran (Kür- Araz hövzəsi, əvvəlki Kaspiana) vilayətlərindən gedir. Digər mülahizəyə görə, guya bu erazilər e.e. I əsrdə II Tiqran tərəfindən tutulub Aımeniyaya qatılmışdı, lakin IV əsrdə Albaniyaya qaytarılmışdı. Qaynaqların heç birində Albaniya vilayətlərinin II Tiqran tərəfindən tutulması barədə me’lumat yoxdur. Əksinə, II Tiqran Aralıq denizi istiqamətində müharibələr apanrdı və son nəticədə onlan da itirdi. Belə mülahizələr tarixi işğalçılığı qanunlaşdırmaq, torpaq iddiasını tarixi təhrifiərlə pərdələmək və nəyin bahasına olursa olsun Alban toıpaq- larını və vilayətlərini hələ o zaman Ön Qafqazda möhkəm ərazi və iqtisadi-siyasi dayağı olmayan Aımeniyanın payına çıxmaq məqsədini güdürdü və indi de güdür. Adı çəkilən vilayətlər Azərbaycan dövlətlərinə mənsub olmuş, Şərqi Armeniya adlanan ərazinin əhalisi, həmçinin etnik mənsubiyyətinə görə bu dövlət qurumuna daxil olmuşdur.

Albaniya Roma-Pont hərc-mərcliyi zamanı. E.e. I əsrin əvvəlində Pont hökmdarı VI Mitridat Yevpator ətrafına müttəfiqlər toplayaraq, o cümlədən II Tiqran ilə ittifaqa girərək Romanın Kiçik Asiyadakı mövqeyini zəiflədir və onun səlahiyyətinə aid eraziləri tuturdu. Fürsətdən istifadə edən II Tiqran geniş işğallara əl atdı. O, Anadolunun Kappadokiya vilayətini (Aralıq dənizi sahili) tutdu, Suriya, şərqi Kilikiya, Finikiya və Yəhudanm bir hissəsi onun hakimiyyətinə daxil oldu. Bu işğallar Selevkilərin və Parfiyanın zəiflədiyi bir dövrə təsadüf edirdi. II Tiqran Parfiyanın tə’sir dairəsinə daxil olan əraziləri, o cümlədən Adərbayqanın qərb hissəsini işğal etdi. Onun Xəzər dənizi istiqamətində hərbi yürüş keçirməsi barədə mə’lumat yoxdur. Beləliklə, Romanın şərq torpaqları VI Mitridat ilə II Tiqran arasında bölüşdürüldü. Roma senatı e.ə. 74-cü ildə konsul*^® Lusi Lisini Lukulu VI Mitridata qarşı köndərdi. Ağır zərbələrə düçar olan VI Mitridat nəhayət e.e. 71-ci ildə məğlubiyyətə uğradı və müttəfiqi II Tiqranın yanına qaçdı. Bu da Roma ile II Tiqran arasında müharibəyə səbəb oldu. E.e. 69-cu ildə Armeniyanın yeni paytaxtı Tiqranokert (Van gölündən şərqdə salınmışdı) yanında döyüş Lukulun qələbəsilə

Romada seçkili vəzifə. Konsul hərbi işlərə baxırdı.

başa çatdı. II Tiqranın köməyinə gəlmiş qonşular, o cümlədən alban> lar və adərbayqanlılar, iberlər döyüş mövqeyinin düzgün seçilməməsi üzündən əsaslı yardım göstərə bilmədilər. Belə mülahizə mövcuddur ki, köməyə gəlmiş albanlar və iberlər, guya, II Tiqranın tabeliyində imişlər. Albanlar, iberlər və başqaları müstəqil idilər. Plutarxın mə'İu- matına görə, onlar ancaq kömək məqsədilə Tiqranokertə gəlmişdilər. Albanlar nizə, ox və qalxanla silahlanmışdılar və başlanna dəbilqə qoymuşdular.

VI Mitridat məğlubiyyətdən özünə gələrək yenidən ordu topladı və Pontda (Qara denizin cənubunda və şimalında dövlət) öz hakimiyyətini bərpa etdi. II Tiqran məhrum olduğu torpaqlan qaytarmaq məqsədilə Kappadokiyanı tutub taladı. Lukul qətiyyətsiz hərəkət edirdi. Belə halda Roma senatı görkəmli sərkərdə, konsul Qney Pompeyi Şərqə göndərdi. O, VI Mitridata qarşı müharibəni davam etdirməli ve Romanın nüfuzunu Şərqdə bərpa etməli idi. Pompey ilk növbədə Par- fıya hökmdan III Fraatı (e.ə. 70-57-ci illər) müqavilə ile öz tərəfinə çəkdi. E.ə. 66-cı ilin yayında VI Mitridat məğlubiyyətə uğradı ve özünün Bospor padşahlığına qaçdı. Pompey onun izi ilə Kolxidaya tərəf hərəkət etdi. Yolüstü o, Artaksat (Araz çayı sahilində, Ağrıdağ vadisi) yanında düşərgə saldı. II Tiqran düşərgəyə gəldi və Pompey- dən mərhəmət dilədi. E.ə. 66-cı il müqaviləsinə görə, II Tiqran işğal etdiyi ərazilərdən məhrum oldu, özü isə Romaya göndərildi. Bununla Albaniya da uzun müddət Armeniya təcavüzündən xilas oldu, lakin Romaya qarşı sayıqlığını da itirmədi.

" Albanların Roma işğalçılarına qarşı mübarizəsi. Pompey VI Mitridatm ardınca hərəkət edərək albanlann ölkəsinə gəlib çatdı. Tit Livi yazırdı: «Mitridatı izləyən Qney Pompey ən ucqar və naməMum xalqlara -> iberlerə və albanlara rast gəldi. Onlar yolu kəsdilər, lakin, o, döyüşdə qələbə çaldı». Plutarx isə xəbər verir ki, «albanlar əvvəlcə Pompeyin onların ərazisindən keçməsinə razılıq verdilər. Lakin qış Roma ordusunu yaxalayanda və romalılar Satumali bayramını qeyd edən zaman albanlar 40 mindən az olmayan ordu ilə Kür çayını keçdilər və onlara hücum etdilər».

Bu zaman alban hökmdan Oroys idi. Ondan əvvəlgi alban hökm- darlahmn adlan məMum deyildir. Düşünmək olar ki, Oroys Qafqaz

Satumali bayramı e.ə. 66-cı ilin dekabr ayının 17-də qeyd olunurdu. Hər il keçirilən bu bayram yeddi gün davam çdiıdi.

xalqlan ilə homre’ylik naminə romalılann VI Mitridata qarşı hərəkə- tinə maneçilik törətmək istəmişdi. Həm də Albaniyanı romalılann işğal etməsi təhlükəsi yarana bilərdi. Oroysun bayram günü Roma ordusuna hücumu təsadüfi deyildi. O, romalılann tətbiq etdiyi gözlənilməz və qəfil hücum taktikasını onlara qarşı işlədirdi. Lakin Oroysun gözlənilməz həmləsi pis təşkil olunmuşdu. Əslində albanlann gözlənilməz hücumu baş tutmadı« çünki Pompey onlann Kür çayını keçməsi barədə məMumat almış və ordunu üç hissəyə bölərək hazır vəziyyətdə dayanmışdı. Roma dəstələrinə müvafiq surətdə Metel« Keler« Luki Flak və Pompey rəhbərlik etməli idilər. Albanlar əvvəl Kelerin və Flakın dəstələrini təkləmək, sonra isə Pompeyə hücum etməyi qərarlaşdırdılar. Lakin Dion Kassinin məMumatına görə« Pompey albanlann həmin sərkərdələrə hücum etməsi xəbərini eşidən kimi onlann qarşısına çıxdı və gördü ki, albanlar artıq Kür çayını keçirlər.

Döyüş başlandı. Oroys Metel və Kelerin dəstosinə hücumu öz üzərinə götürmüşdü. Lakin Pompey Kelerin köməyinə gəldi. Oroys döyüş təşəbbüsünü əldən verdi və Kelerin zərbələrinə mə'ruz qaldı. Digər alban dəstələri də uğursuzluğa düçar oldular. Döyüşü uduzacağını başa düşən Oroys Kür çayını keçdi və döyüş meydanından uzaqlaşdı. Beləliklə, e.ə. 66-cı ilin dekabr ayında romalılar ilə döyüş albanların uğursuzluğu ilə başa çatdı, Pompeylə müqavilə bağlandı.

Pompey VI Mitridatı tə’qib edərkən iberlərlə döyüşməli oldu, onlann məğlubiyyətə uğratdı və hökmdar Artokun iki oğlunu girov götürdü. E.ə. 6S-Cİ ilin əvvəlində o, albanlann üsyan qaldırması xəbərini aldı. Plutarx yazır ki, «Pompeyə albanlann yeni qiyami barədə mə'lumat çatdı. Pompey hirs və qəzəb içində geriyə, onlara qarşı döndü. O, yenə Kür çayım çətinlnklə keçdi və ordunu təhlükə qarşısında qoydu, çünkn barbarlar*^® çayın sahilinə uzun çəpər çəkmişdilər. Susuz çöllə uzun və əziyyətli məsafə (yol) keçəcəyini nəzəıə alaraq, o, on min tuluğun su ilə doldurulmasını əmr etdi. Düşmənə qarşı gedən Pompey onları Abanta (ind. Alazan) çayı yaxınlığında, artıq döyüş qaydasında düzülmüş gördü. Barbarlann ordusu 60 min piyada və 12 min süvaridən ibarət idi. Dion Kassinin məMumatına görə, Pompey albanları qəfil yaxalamaq üçün Armeniyanın ərazisi ilə hərəkət etdi. Ehtimala görə, o, indiki Ağstafa tərəfdən Kürün sahilinə çatdı. Bura-

lao Yə*ni albanlar. Romalılar da qədim yunanlar kimi Şərq xalqlarını bnrbar adlandırırdılar.

dan Alazan çayına doğru horekət etdi. Alazan çayının sahilində Pompeyi albanlar gözləyirdilər. Plutarxın mə'lumatma görə, alban ordusunun başında hökmdarın qardaşı Kosis dayanmışdı. Yəqin ki, ilk döyüş əməliyyatını keçirmək Kosisə həvalə edilmişdi.

Döyüş meşədə başladı. Dəstənin bir hissəsinə hökmdann qardaşı Kosis başçılıq edirdi. Dion Kassi Pompeyin hərbi taktikası barədə yazırdı ki, o, öncə süvariləri yerləşdirdi, piyadalan isə onların arxasında qalxanla diziüstə oturdaraq səssiz-səmirsiz gözləməyi əmr eldi. Pompeyin məqsədi Oroysu tələyə salmaq idi. Pompeyin hiyləsini başa düşməyən albanlar süvarilərə hücum etdilər. Süvarilər qəsdən geriyə çəkilib yan tereflərə dağılışdılar. Bu məqamda Pompeyin piyada dəstələri döyüşə atılaraq alban süvari dəstələrini mühasirəyə aldılar. Qanlı döyüş başlandı. Döyüşün gedişində Kosis Pompeyin dayandığı yerə çatdı və nizəsini ona atdı. Lakin nizə onun zirehli geyiminə dəyib yerə düşdü. Pompeyin atdığı nizə isə Kosisi ölümcül yaraladı. E.e. 65-ci ildə baş vermiş bu döyüş romalıların qələbəsilə sona yetdi. Alban qoşununun qalan hissəsi qaçıb meşədə gizləndi. Pompey meşəni mühasirəyə aldı. Onun əmrilə meşə yandırıldı və orada gizlənən alban döyüşçüləri həlak oldular. Appian yazır ki, əsirlərin arasında xeyli yaralı qadınlar vardı. Antik müəlliflər onlan ama- zonka adlandırırdılar.

Alban süvari dəstələri və Kosis Pompeyin qurduğu tələyə düşərək məhv oldular. Oroys döyüşə girməyib dağlara çəkildi. Güman ki, o, yenidən müqavimət göstərmək niyyətində imiş. Lakin Pompey sülh yolu ilə albanlan razı saldı. Antik müəllif Flor (II əsr) yazır ki, Pompey «albanl. a mərhəmət göstərdi. O, Qafqaz altında düşərgə salaraq Oroysa düzənliyə enməyi əmr etdi». Oroys Pompeyin yanına getmədi, lakin ona məktub və hədiyyələr göndərdi. Oroysun barışıq təklifini Pompey qəbul etdi. Bə’zi qədim qaynaqlarda deyilir ki, «Pompey ... albanların və indi alan adlandırdığımız massaketlərin ölkəsini keçdi, bu tayfam da məğlub etdi və Xəzər dənizini gördü». Plutarx isə yazır ki, «döyüşdən sonra Pompey Hirkan, yaxud Kaspi (Xəzər) dənizinə doğru hərəkətə başladı, lakin sümnən zəhərli ilanlar üzündən bu niyyətdən əl çəkdi». Əslində isə albanlann yenidən üsyana qalxması və yolun çətinliyi onu Xəzər dənizi sahilinə çıxmaq niyyətindən daşmdınmşdı. Pompey albanlarla sülh sazişinə gəldikdən sonra ona müraciət edən diger tayfalarla da müqavilə bağladı. Ola bilsin ki, Pompey kaspilərlə də ittifaqa girmişdi.

Bospor padşahlığında tezliklə VI Mitridata qarşı üsyan qalxır. Üsyanın başında onun oğlu Famak dayanırdı. E.ə. 63-cü ildə Mitridat həlak oldu. Bospor padşahlığı Roma hakimiyyəti altına keçdi.

E.ə. 36-cı ildə konsul Antoni Parfiyaya qarşı çıxış etdi, lakin müvətYəqiyyət qazanmadı. O, Armeniyanı tutdu. Sərkərdə Publi Kanidi Krassı burada qoyub Misirə qayıtdı. Krass işğalçılıq müharibəsini genişləndirdi. Plutarx yazır ki, «Kanidi... ermənilərə, iber ve alban hökmdarlarına qalib gəldi ve Qafqaza çatdı». Bu Haqda Dion Kassi də mə’lumat vermişdir. Mə’lumata görə, Krass İber hökmdarı Famabazla birlikdə Albaniyaya soxuldu. O, albanlara qalib gəldi və hökmdar Zoberi*^* romalıların tərəfinə çəkdi, yə’ni Romanın müttəfiqinə çevirdi.

Eramızın I əsri ərzində Albaniyada hakimiyyət artıq yerli hökmdarların əlində cəmləşmişdi. Albaniya Roma ile yaxın dostluq münasibətləri saxlayırdı. Oktavian Avqust yazırdı ki, «bizim (yə’ni Romanın) dostluğumuzu... alban, iber ve med (yə’ni ki, atropaten) hökmdarları istəyirdilən>. Albanlar e.ə. I əsrdə romalıların yürütdüyü siyasətə meyl edirdilər. Parfiya taxt-tacı uğrunda (III) Artaban və Vonon arasında gedən mübarizədə çox güman ki, Vononun tərəfini saxlayırdılar, çünki Vonon 19-cu ildə uğursuzluğa düçar olan zaman albanların ölkəsinə qaçmaq istəyirdi. Albaniya e.ə. 35-ci ildə iberlərin Armeniya və Parfiya ilə mübarizəsinə qoşuldu. İberiya hökmdarı Farasman qələbə çaldı. Çox keçmədi iberlerlə albanların münasibəti kəskinləşdi. İberlərin albanlar ile münasibətlərinin müharibə çokli almasına Romanın xalqlan bir-birinə qarşı qoymaq siyasəti səbəb olmuşdu. Albaniyanın müstəqilliyi Romanı, Parfiya və başqa qonşu dövlətləri narahat edirdi. Buna görə də, 68-ci ildə Roma imperatoru Neron albanlara qarşı böyük yürüş hazırlamağa başladı. O, Dərbənd keçidinə hərbi dəstələr göndərdi. Yəqin ki, bu keçid albanların əlində idi. Lakin Neronun bu yürüşü baş tutmadı. Roma əhalisinin üsyanı zamanı o həlak oldu. Bir müddət sonra Roma hərbi dəstələri indiki Abşeron yarımadasına gəlib çatmışdılar. Böyükdaş (Qobustan) dağının ətəyində Qafqazda ilk dəfə olaraq latın dilində yazı aşkar edilmişdir. Yazılı daş üzərində qeyd olunmuşdur; «İmperator Domisian Sezar Avqust Germanik. L(yusi) Yuli Maksim, Fulminatın XII legionunun senturionu».

Albaniya Roma imperatorlarmın siyasi tə’siri altına düşmədi, imperator Trayan (96-1 l7-ci il) da Ön Asiyaya yürüş etdi. 114-cü ildə

Türk dillərində 21ober adını «Çapar» adının əksi kimi izah etmişlər.

Armeniya torpaqları uğrunda Roma ile Partiya arasında müharibə yenə qızışdı. Trayan Armeniyanı zəbt etdi, burada parf hökmdarlarının hakimiyyəti ləğv edildi. 115-ci ildə bu ölkə Romanın əyaləti e*lan edildi. Qaynaqlar qeyd edirlər ki, Trayan «parflardan Armeniyanı aldı, onu tacdan məhrum etdi. Böyük Armeniya padşahlığını mənimsədi. Albanlara hökmdar verdi. «Albanların ərazisi toxunulmaz qaldı. Belə bir şəraitdə albanlar öz torpaqlannm tam sahibləri idilər. Armeniya hökmdarlannm işğallarına son qoyuldu. Roma imperataru Adrian (117 - 138-ci illər) albanlar ilə dostluq münasibətləri saxlayırdı.

Azərbaycan dövlətləri Makedoniyalı İskəndərin yürüşündən sonra Ön Asiyada gedən müharibələr zamanı öz müstəqilliklərini saxlaya bilmişdilər. Adərbayqan vaxtaşın gah Sələvkilərə, gah da parflara ta> be olmuş, lakin çox vaxt müstəqil idarə üsulunu saxlamışdı. Albaniya Aımeniya hadisələri ilə əlaqədar bu ölkəyə köməyə gəlmiş, ibeyr- lərlə birgə çıxış etmiş, son məqamda romalılarla dostluq münasibətləri yaratmışdı.

226-cı ildə İranda parflann (Arşaki sülaləsinin) hakimiyyətinə son qoyuldu. Hakimiyyətə Sasanilər sülaləsi gəldi və Azərbaycan yeni siyasi mərhələyə qədəm qoydu.

## § 3. İQTİSADİYYAT VƏ DİN

İctiman-iqtisadi münasibətlər. Azərbaycanın antik dövrdə ictimai-iqtisadi münasibətləri barədə az-çox dolğun mülahizə yürütmək üçün əldə kifayət qədər nə yazılı, nə də arxeoloji material yoxdur. Adərbayqanın ərazisində sinifli cəmiyyət erkən dövrlərdən (e.ə. III minillikdən) vüs'ət almış və burada ən qedim dövlətlər meydana gəlmişdi. Adərbayqan İkiçayarasına yaxın olduğundan, orada mövcud olan quldarlıq ictimai-iqtisadi münasibətləri ölkənin təsərrüfat həyatında özünün müəyyən əksini tapmışdı. Köləlik iqtisadi kateqoriya idi və bütün xalqlann tarixində mövcud olmuşdu. Adərbayqanda da təsərrüfatın inkişaf səviyyəsinə uyğun olaraq köləlik və quldarlıq ictimai-iqtisadi münasibətləri yəqin ki, öz varlığını saxlayırdı. Qullar və quldarlara bölünən belə cəmiyyətdə əhalinin əsas hissəsini məcburi əmək adamlan təşkil edirdi. Onlar quldarlıq istehsal üsulunun istismarına mə’ruz qalırdılar, yə'ni eməyin nəticəsi əvəzsiz mənimsənilirdi.

Azərbaycanın şimal hissəsində e.ə. 11-1 minillikləmn hüdudundan sinifli cəmiyyət və ona uyğun surətdə mülki bərabərsizlik artıq

bərqərar olmuşdu. E.e. I minilliyin birinci yarısında Azərbaycan Şərqin ən qüdrətli dövləti Əhəmənilərlə ünsiyyətə girmişdi. Aydındır ki, Əhəmeni dövlətində mövcud olan quldarlıq ictimai-iqtisadi münasibətləri Albaniyaya da tə’sir edirdi. Be’zi mülahizələrə görə, Albaniyada feodal ictimai-iqtisadi münasibətləri inkişaf tapmışdı, yə’ni Albaniya quldarlıq mərhələsini keçərək birbaşa feodalizmə qədəm qoymuşdu. Çünki Albaniya beynəlxalq ticarət yollarından və Ellin dünyasından kənarda yerləşirdi, həmin səbəbdən də burada iqtisadiyyatın və ictimai münasibətlərin inkişafı ləng gedirdi. Lakin Azərbaycanda aşkar edilmiş arxeoloji materiallar Albaniyanın o dövrün ümumi inkişaf səviyyəsinə uyğun az-çox yüksək iqtisadiyyata malik olduğunu göstərir.

Digər mülahizəyə görə, Albaniyada quldarlıq ictimai münasibətləri mövcud olmuşdur. Bu mülahizə de Albaniyanın Ön Qafqazın digər ölkələrinə nisbətən iqtisadi cəhətdən ləng inkişafı ilə əlaqədar meydana gəlmişdi. Həmin fikri bə’zən Strabonun ziddiyyətli mə’lu- matlan ilə əsaslandırmağa çalışırdılar. Albaniyanın qonşu ölkələrdən iqtisadi cəhətdən heç də geridə qalmadığını arxeoloji ı^ateriallar tam subut edir.

* '

Strabon Albaniyanın qərbində «böyük və sıx meskunlu müqəddəs vilayətin» olması barədə mə’lumat vermişdi. Burada Heliya («Günəş allahı»), Zevs və Selenaya («Ay allahı») sitayiş edirdilər. Bu vilayətə başçılıq edən kahin hökmdardan sonra ən nü^zlu şəxs hesab olunurdu. «Müqəddəs vilayətdə» herodul adlanan adamlar da işləyirdilər. Mə’lumatdan göründüyü kimi, Albaniyada geniş mə’bəd torpaqlan mövcud olmuş və burada herodullann əməyindən istifadə edilmişdir. Herodullar, demək olar ki, heç bir hüquqa malik deyildilər. Bə’zi ı^vayətə görə, ruhi xəstəliyə mübtəla olan və meşələri sərgərdan dolaşan herodulu kahinin göstərişi ilə tutub heyvanlarla yanaşı qurbankəsmə mərasimində öldürürlərmiş.

Herodullar barədə müxtəlif mülahizələr irəli sürülmüşdür. Bir mülahizəyə görə, herodullar mə’bədə təhkim olunmuş kəndlilər, digər fikrə görə, mə'bəd təsərrüfatının əsas istehsalçılan imişlər. Başqa mülahizəyə görə, herodullar qullardan ibarət olmuşlar. Əslində herodul sözü yunanca «müqəddəs qul» deməkdir. Adətən, mə’bəd təsərrüfatına mənsub olan qullar herodul adlandırılırdı. Ümumiyyətlə, yunanlarda «dul» məfhumu qullara da şamil edilirdi.

Aderbayqanın da ərazisində yəqin ki, mə’bəd təsərrüfatı mövcud imiş. Ammian Marsellin Atropatena haqda xəbər verir ki, bu hüdud

larda maqlann məhsuldar torpaqlan yerləşirdi. Çox güman ki, kahin maqlara məxsus təsərrüfatda da qul əməyi tətbiq olunurdu.

Albaniyanın mə'bəd təsərrüfatında quldarlıq ictimai-iqtisadi münasibətləri mövcud idi. Deməli, Albaniyada quldarlıq münasibətlərinə əsaslanan hökmdar və fərdi təsərrüfatlar da olmuşdur.

Təsərrüfat. Dağlıq və aran hissələrdən ibarət olan Azərbaycanda əhali əvvəlki dövrlərdə olduğu kimi, əkinçilik və maldarlıqla məşğul olurdu. Belə təbii şəraitdə yaylaq maldarlığı inkişaf edirdi. Albaniyanın aran və düzən hissəsində əkinçilik süni suvarma şəklində, dağətəyi və dağ rayonlarında isə nisbətən geniş dəmyə əkinçiliyi aparılırdı. Strabonun mə'lumatına görə, «bütün bu düzənlik öz çayları və başqa sular vasitəsilə Babilistan və Misirdəkindən daha yaxşı suvarılır, çünki həmişə yamyaşıl olan çoxlu gözəl otlaqlara malikdir. Buranın iqlimi də o ölkələrdəkindən daha əlverişlidir». Adərbayqanda da əkinçilik mühüm təsərrüfat sahəsi idi. Ammian Marsellinin mə'luma- tına görə, «bu torpaqlann (Atropatenanın) əhalisi üzərinə sıldınm dağ silsilələri» dikələn geniş düzənlik sahədə məskundur... Koron yüksək dağ silsiləsi qərb ətəyinin sakinləri bol taxıl sahələri və üzümlüyə malikdirlər. .Oıi^rıtı torpağı xeyli məhsuldardır, ərazi çay və təmiz sulu bulaqlarla doludur. Yamyaşıl otlaqlar nəcib atlann qidalanma məskənidİD>.

Azərbaycanda münasib təbii şəraitin, məhsuldar torpaqlann, axar çay və bulaq sularının bolluğu əkinçiliyi əhalinin həyatı üçün ən zəruri olan təsərrüfat sahəsinə çevirmişdn. Torpağı cütlə (xış) şumlayır- dılar. Bu haqda Strabonun mə'lumatı qalmışdır. Arxeoloji qazıntılar zamanı oxşar dəmir alət tapılmışdır. Azərbaycanda daş, ağac və metaldan hazırlanmış əmək alətlərindən istifadə edirdilər. Kirkirə, dən siirtkəcleri, həvəngdəstə və s. lap qədimdə olduğu kimi, müasir Azərbaycanda da təsənüfat alətləri kimi işlədilir.

Azərbaycan torpaqları xeyli məhsuldar və münbit olmuşdur. Strabonun məMumatına görə, albanlar da «bərəkətli torpağa malikdirlər və lap yaxşı yaşaya bilərlər». O, Atropatena barədə də qeyd edir ki, «bu ölkənin bütün vilayətləri məhsuldardır». Be'zi antik mə'lumat- lara görə, guya albanlar məhsuldar torpağın qədrini bilmirdilər, «bir dəfə əkilmiş torpaq bir çox yerlərdə 2, yaxud 3 (dəfə) məhsul verir və birinci dəfə məhsul, hətta birə əlli artırdı». Çox güman ki, albanlar bu mə'lumatın əksinə olaraq, torpağa yaxşı qulluq edir, nəticədə antik mə'lumatçılan təəccübləndirən bol məhsul toplayırmışlar. Strabon nədənsə bunu insan əməyi ilə yox, əlverişli təbii şəraitlə bağlayırdı.

Onun digər məMumattna görə, Azərbaycanın Matiana, Sakasena və Araksena vilayətlərində «taxıl küləşdən düşmüş dendən göyərirdi». Adi təbii hadisələrin qedim Azərbaycan əkinçiliyində daimi hal kimi verilməsi Strabonun bu məMumatlara tənqidi yanaşmamasmdan irəli gəlmişdi. Qədim Azərbaycan sakinləm əkinçilik mədəniyyətinə yiyələnməklə əkin sahələrindən yüksək məhsul əldə edirdilar. Əhali xırda və böyük suvarma kanalları çəkmişdi.

Qədim Azerbaycanda ən çox becərilən taxıl - arpa, buğda, dan olmuşdu. Taxılı dəmir oraqla biçirdilər. Toplanmış taxıl gem (vəl) vasitəsilə xırmanda döyülürdü. Arxeoloji qazıntılar zamanı Azərbaycanın ərazisində oraq və gəm aşkar edilmişdir. Taxılı adətən enli və dərin qazılmış quyularda saxlayırdılar. Taxıl saxlamaq üçün böyük küplərdən də istifadə olunurdu.

Azərbaycan əhalisinin təsərrüfat həyatında bağçılıq və üzümçülük də mühüm yer tuturdu. Strabonun mə'lumatına görə, albanlar «üzüm tənəklərini basdırmır, beş ildən bir kəsirlər. İkiillik tənəklər artıq bar verir, lakin köhnələr də o qədər (üzüm) gətirir ki, onun çox hissəsi üzüm tənəyində dərilməmiş qalın>. Qaynaqlann mə'lumatına görə, kaspilərin ölkəsində də «üzüm tənəkləri zəngin məhsul verirdi». Üzümçülük qedim Azərbaycanın Sakasena, Araksena və Matiana vilayətlərində də geniş yayılmışdı. Üzümçülüyün Azerbaycanda inkişafı arxeoloji materiallar əsasında e.ə. II minillikdən müşahidə olunur. Qədim sakinlər üzümdən müxtəlif məhsullar (kişmiş, şirə, doşab və s.), o cümlədən yazılı qaynaqlarla və arxeoloji materiallarla təsdiq olunan şərab hazırlayırdılar.

Qədim Azərbaycan sakinləri bağçılıqla da məşğul olurdular. Arxeoloji materiallar göstərir ki, qedim zamanlardan bəri Azərbaycanda nar, badam, əncir, şaftalı, gilas, qoz, fındıq və s. meyvələr yetişdirilirdi. Strabon yazırdı ki, «Bütün bu ölkə vəhşi bəhərlə və insanın becərdiyi ağaclarla və həmişə yaşıl (bitkilərlə) doludur. Burada zeytun ağacı da bitir». Qaynaqlar kaspi ölkəsində xeyli əncir ağaclarının becərildiyi barədə də me’lumat saxlamışdır. Şübhəsiz ki, qedim Azərbaycanda əhali bağçılıqla yanaşı, bostançıhqla da məşğul olurdu.

Balıqçılıq Xəzər dənizi və çay sahillərində yaşayan əhalinin məşğuliyyəti idi. Balığı əsasən torla tuturdular, dağ çaylannda isə ada kəsməklə, ye’ni çayın çox axar qolunu az axar tərəfə yönəldib suyunu azaldır və balıqları əllə tuturdular. İndiki kimi, dağ çayları qızılala balığı ilə dolu olurdu. Balıqçılıqda qarmaqdan da istifadə edirdilər.

Xəzər dənizi müxtəlif balıq növləri ilə zəngin idi. Burada balıq ovu peşəkar balıqçılar tərəfindən apanlır və ticarət məhsulu kimi satılırdı. Antik müəlliflərdən Elian (II-III əsrlər) yazırdı: «Mən eşitmişəm ki, Kaspi torpağında böyük göli82 yar, orada «şişburun»*83 adlanan böyük balıqlar olur. Onlann uzunluğu hətta səkkiz qulaca çatır. Kaspilər onlan tutur, duzlayır, şoraba qoyur, yaxud qurudur, sonra dəvələrə yükləyib Ekbatanaya aparırlan>. Eyni zamanda Azərbaycanın Xəzər dənizi sahili əhalisi balıq yağından və içalatından məişətdə lazım olan müxtəlif maddələr hazırlayırdılar. Elian məMu- mat verir ki, «Bu balıqların piyini kəsib, məlhəm və şoraba düzəldir, (onu) satır, çox yağlı, lakin iyli olmayan balıq piyini (bədənlərinə) sürtürlər. Balığın içalatını çıxarırlar, bişirirlər və ondan çox yararlı yapışqan hazırlayırlar. O, hər şeyi çox möhkəm yapışdınr. Hər nəyə yapışırsa, qopmur və görkəmi də xeyli şəffafdır. Onunla yapışdınlan hər nə varsa, hətta on gün suda belə saxlanılsa nə boşalar, nə də qopar. Hətta tıl sümüyündən əşyalar düzəldən ustalar ondan istifadə edir və çox gözəl şeylər hazırlayırlar». Göründüyü kimi, qədim Azərbaycan sakinləri nəinki balıqçılıq peşəsini, həm də balıqdan müxtəlif məlhəm və maddələrin hazırlanması qaydasını da bilirdilər.

Maldarlıq. Qədim Azərbaycan özünün geniş və yaşıl otlaq sahələrinə malik olmuşdu. Məhz buna görə də burada maldarlığın müxtəlif sahələri inkişaf etmişdi. Əhali qoyım-quzu, iribuynuzlu mal-qara saxlayır, atçılıq və dəvəçiliklə məşğul olurdu. Maldarlığın həmin sahələri Azərbaycanda lap qədimdən inkişaf tapmış və bu dövrdə də öz əhəmiyyətini itirməmişdi. Maldarlıq əhalini nəinki ət, yağ, süd mə’mu- latı, yun, dəri və s. ilə, eyni zamanda yük daşıyan, nəqliyyata qoşulan minikdə istifadə edilən, əkinçilik təsərrüfatında tətbiq edilən qoşqu qüvvəsilə təchiz edirdi.

Azərbaycan əhalisi, o cümlədən albanlar əsasən oturaq həyat sürürdülər. Mal-qara və qoyun-quzu yay aylarında hələ ayaq dəyməmiş yamyaşıl çiçəkli dağlara qalxırdı. Bir mövsüm burada əsl köçəri həyatı davam edirdi. Naşı adamlar bunu köçərilik kimi qələmə verirdilər. Qışda isə mal-qara, qoyun-quzu arana - qışlağa enirdi. Qışlaq adətən yaşayış yerindən kənarda yüksəkliklərin həndəvərində yerləşirdi. Elianın məMumatına görə kaspilərin keçiləri ağappaq, buy-

1^2 Xezer dənizi nəzerde tutulur. 183 isf^’re balığı.

nuzsuz, alçaqboylu və yastı buruniudur. Eyni zamanda o, burada çoxlu öküz və at ilxılarının olduğunu söyləmişdi.

Azərbaycanda atçılığın izləri daha qədimlərə gedib çıxır. Ammian Marsellin Atropatena barədə yazır ki, «yaşıl otlaqlar nəcib at cinsini yedizdirir. Qədim yazıçılar nəql edirlər və mən özüm də görmüşəm ki, ə*yanlar döyüş ərəfəsində bu atların üstündə təşəxxüslə gəzirlər. Bünlan nesey^®^ (atlan) adlandınrlan>. Polibi isə yazırdı ki. Atropatenanın «hüdudlannda əsasən süvari dəstələri göndərən cəsur xalq yaşayır». Qaynaqlardan mə’lumdur ki, atropatenlor düşmeniə döyüşə 10 min, albanlar isə 22 min süvari çıxanrdılar. GÖründü>aı kimi, atlardan döyüş meydanlannda da istifadə edirdilər. Yəqin ki, qədimdə müəyyən ziyafətlə əlaqədar at çapmaq, at oynatmaq, atla müxtəlif oyunlar və yarışlar keçirmək adət və ən*ənəyə çevrilmişdi.

Dəvə əsasən yük və minik heyvanı olmuşdu. Elian xəbər verir ki, təsərrüfatda dəvədən istifadə edirdilər və kaspilərin çoxlu dəvəsi var idi. Dəvə yunu qiymətli xammal hesab edilirdi. Dəvə yunundan pal- paltar toxuyurdular. Eliana görə belə toxunma paltan kahinlər, həmçinin varlı və qüdrətli kaspilər geyirdilər.

Qoyun və mal sürülərini dağda-daşda canavardan qommaq üçün albanlar it saxlayırdılar. Strabon yazır ki, «həm albanlar, həm də onla- nn itləri ova meyl göstərirlər, lakin peşəkar kimi yox, həvəskar kimi». .Antik müəlliflər alban itlərinə yüksək qiymət verir və onlan tə’riflə- məkdən çəkinmirdilər. Yuli Solinə görə, alban itlərini heyvanlara fışqırdırlar, onlar öküzlərə üstün gəlir, şirlərə təpinir və qarşılarına nə çıxsa, onu saxlayırlar. Buna görə də salnamələrdə onlann barəsində mə’lumat verilməsinə dəyər. Kaspiana vilayətində itlər kəndlərarası savaşlarda da iştirak edirdilər. Valeri Flakın (I əsr) mə’lumatına görə, öləndən sonra da itlərə eyni ehtiram göstərir və onlan əcdadlannm arasında, kurqanda və kişilərin yanında qəbirdə basdınrdılar. Arxeoloji qazıntılar zamanı qəbirlərdən it sümükləri aşkar edilmişdir. Alban itləri qədim dövrdə xeyli fərqlənirdi. Rəvayətə görə, alban hökmdan İskəndərə iki it hədiyyə göndərmişdi. Yuli Solin yazır ki, bu itlər şiri didib-dağıdırmış və hündürə tullanmaqla tili yorub yıxırmışlar.

Sənətkarlıq. Qədim Azərbaycan sənətkarlığı barədə yazılı mənbələrdə mə'lumat qalmamışdır. Məhz arxeoloji materiallar bu barədə az-çox mülahizə yürütməyə imkan vermişdir. Arxeoloji qazıntılar za-

Nesey düzənliyi Xəzər dənizinin cənub-qərbində yerləşirdi.

manı xeyli metal alətler, silah və s. əşyalar aşkar edilmişdir. Metal əşyalar Albaniyada metalişləmə və metallurgiya sənət sahəsinin inkişaf etdiyini gösterir. Metal Qafqazın filiz yataqlanndan əldə edilirdi. Albanlar dəmir və tuncdan həm əmək alətləri, həm də silah hazırlayırdılar. Qazıntılar zamanı alban senətkarlanmn hazırladıqlan oraq, gavahın, bıçaq, şana, dəhrə kimi emək alətləri, qılmc, xəncər, ox və nizə ucları kimi silalı növləri tapılmışdır. Metalişləmə sahəsində qızıl və gümüşdən bəzək əşyalan hazırlayırdılar. Bunu qazıntılar zamanı aşkar olunmuş bilərzik, sırğa və üzüklər təsdiqləyir. Metaltökmə, kəsmə və döymə üsullan geniş yayılmış, dulusçuluq inkişaf etmişdi. Qazıntılar zamanı müxtəlif formalı saxsı qablar və dulus kürələri aşkar edilmişdi. Gildən hazırlanan saxsı qablar bişirildikdən sonra müxtəlif (açıq çəhrayı, sarımtıl, qaramtıl, bozumtul, qırmızımtıl) rənglərə çalırdı. Qab-qacağın hazırlanmasında dulus dəzgahından da istifadə edirdilər.

Albaniyada toxuculuq da yayılmışdı. Qazıntılar zamanı müxtəlif parça qalıqları tapılmışdır. Qədim Azərbaycan sakinləri qoyun və dəvə yunundan, həmçinin kətandan pal-paltar və evdə lazım olan başqa əşyalar toxuyurdular. Klavdi Elian yazır ki, Albaniyada «dəvə çoxdur, gözəl yunu olur. Onlann yunu xeyli incədir, yumşaqlığına görə Milet yunundan belə geri qalmır. Belə yun paltan kahinlər və daha varlı, adlı-sanlı kaspilər geyirlər». Qədim sakinlər ipək və pambıq paltarlardan da istifadə edirdilər.

Ticarət. Azərbaycan cənubdan şimala, şərqdən qərbə gedən ticarət yolları üzərində yerləşirdi. Lakin beynəlxalq ticarət yolları Azərbaycanın bə’zi ərazilərindən kənar keçirdi. Azərbaycanm bir çox şəhərləri beynəlxalq ticarətə cəlb olunmamışdı. Azərbaycanda şəhər- lərarası və qonşu ölkələrlə ticarət mövcud idi. Albaniyanın xarici ticarətində Kür çayının böyük əhəmiyyəti vardı. Antik müəlliflərin məMumatına görə, hind malları Oks (Amu-Dəıya) çayı vasitəsilə Xəzər dənizinə gətirilir, buradan isə Kür və onun qolu Rioni çayı ilə Qara dəniz sahilinə çıxarılırdı.

Azərbaycanda karvan yollan daha çox idi. Azerbaycanın Şimalını cənubla birləşdirən bir neçə karvan yolundan biri Xəzər dənizi sahili boyu ölkənin daxili ticarətinə xidmət edir, digəri Muğan çölündən cənuba doğru uzanır, üçüncüsü isə Naxçıvan vilayətini cənubla bağlayırdı. Bu yollar beynəlxalq ticarət yollan ilə birləşirdi. Elianın məMu- matına görə, kaspilər balıq məhsullannı dəvələrə yükləyib İranın

Ekbatana şəhərinə apanrdılar. Ekbatanadan isə şər^jə gfedÖn beynəlxalq ticarət yolu keçirdi.

Azərbaycan beynəlxalq ticarətdə iştirak edirdi. Buradan xeyli sikkələr tapılmışdı. Həmin silmələrin bir qismi Makedoniyalı tskəndərə, Lisimaxa, Sələvki, Arşaki, Roma hökmdarlanna və başqalanna mənsub olmuşdur. Bu sikkələr Azərbaycanın qonşu ölkələrlə ticarətində dövr edirmiş. Eyni zamanda Albaniyada yerli sikkələr zərb olunurdu. Makedoniyalı tskəndərin pullarına (dirhəm və tetradirhəm) bənzədilmiş sikkələr müəyyən yer tuturdu.

Azərbaycanın beynəlxalq ticarətə cəlb olunması daxili ticarətin genişlənməsi, yeni şəhərlərin yaranmasına və köhnə şəhərlərin iqtisadi cəhətdən möhkəmlənməsinə, bazar üçün mal istehsalına əlverişli şərait yaradırdı. Yazılı mənbələr bu dövr Azərbaycan şəhərləri barədə kifayət qədər mə’lumat saxlamamışdır, Azərbaycan şəhərlərindən yalnız Qazaka, Vera, Rabalaka, Aynian və Anariakın adlan yad edilmişdir. Şübhəsiz, bu şəhərlər qala divarı ile əhatə olunmuş vo bazar meydanlarına malik idi. Eyni zamanda qaynaqlarda Albaniya ərazisinin 29 şəhər və yaşayış məntəqələri yad edilmiş, Kaspianada şəhərlərin olması qeydə alınmışdır. Yəqin ki, adları çəkilən şəhərlər ticarət yolları üzərində yerləşirdi. Azerbaycanın daxilində mövcud olan ticarət yolları son məqamda şərqə qərblə və cənubu şimalla bağlayan beynəlxalq ticarət yollarına qovuşurdu. Beynəlxalq ticarət yolları qərbdə Roma tabeliyində olan ölkələrə, şərqdə Parfiya torpaqlarına keçərək Hindistan və Çinədək gəlib çatırdı. Arxeoloji qazıntılar zanıanı aşkar edilmiş gətirilmə əşyalar Azərbaycanın Roma və Parfıya ilə ticarət əlaqələrinin olduğunu göstərir.

Din. Qədim Azərbaycan əhalisinin bu dövrdə dini dünyagörüşü səma qüvvələrinə, oda, suya, müxtəlif bütlərə inamla bağlı olmuşdur. Əhali arasında çoxallahlılıq (politeizm) mövcud idi. Azərbaycanda, xüsusilə cənubda oda pərəstiş ye'ni atəşpərəstlik geniş vüs'ət almışdı. Adətən, atəşpərəstliyi zərdüştlük dini inamı ilə eyniləşdirirlər. Halbuki hər iki inam müstəqil din sahələri kimi meydana gəlmişdir. Atəşpərəstlik kahinləri oda ibadəti qoruyub saxlayırdılar. Od müqəddəs hesab olunurdu. Oda xidmət edən kahinlər qedim trak və antik dövr qaynaqlannda «maq» adlanırdı. Atəşpərəst maqlar ilk zamanlar zərdüştlük dini ayinlərini həyata keçirmirdilər. Ehtimala görə, mehz e.ə. VI əsrin sonundan e’tibarən maqlar İranda yayılmış zərdüştlük dininə kahin kimi xidmət göstərməyə başlamışdılar. Eyni zamanda bu kahin

lər təxminən e.ə. V - IV əsrlərdə və bəlkə də sonra zərdüştlüyə atəşpərəstlik dini ehkamını da daxil etmişdilər.

Zərdüştlük tə'limi İran dilində tərtib olunmuş «Avesta»**^ dini kitabında əks olunmuşdu. Avestaya sonralar əlavə edilmiş hissələrdə Zərdüşt kahinləri maq yox, atravan, yə'ni «od saxlayan» admı daşıyırdılar Qədim Azərbaycan ərazisində belə kahinlərin adı barədə məlumat qalmamışdır Şübhəsiz, Midiyada atravan məfhumunun müqabili atəıpat/Zatropat «od saxlayan, odla saxlanan» olmuşdur. Hər iki məfliumun: İran dilləri əsasında izah edilməsinə baxmayaraq atəşpərəstlər müxtəlif etnoslara mənsub olmuşlar. Bə'zi tədqiqatçılar Midiya maqlarını İran mənşəli hesab etmir, onları turan (türk) tayfalarına aid edirdilər. Zərdüştlüyün atəşpərəstliklə qarışmış tə'limi qədim Azərbaycanda da yayılmışdı. Sonralar burada od mə'bedləri tikilmiş, oda sitayiş genişləndirilmiş və ölkənin adı odla bağlı məthumda Atropatla eyniləşdirilmişdi. Hətta Azərbaycan Zərdüştün vətəni hesab edilmişdir. Bu təsəvvürlərin hamısı İran mənşəli sülalələrin siyasi üstünlüyü şəraitində yayılmağa başlamışdı.

Zərdüştlük dininin banisi Zərdüşt (Avestada Zaratuştra, yunanca Zoroastr) hesab olunur. Zərdüştün yaşadığı dövr və dini tə'limə başladığı yer mübahisəlidir. Zərdüştün e.ə. VII əsrdə yaşaması ehtimalına üstünlük verilir. Güman edirlər ki. Zərdüştlük Orta Asiyada, yaxud Əfqanıstanda meydana gəlmiş və İranda yayılmışdı. Lakin bu mülahizələr öz-özlüyündə hələ də mübahisəlidir. Sonrakı ən'ənə Rey (ind. Tehran yaxınlığında) şəhərini, yaxud Azərbaycanı Zərdüştün vətəni *kimi qələmə* verirdi. *Hər halda Zərdüşt* te'Iimino sonralar daxil edilmiş oda, atəşə sitayiş dini ayini İran, xüsusilə Azerbaycan ərazisi ilə bağlı yaranmışdı.

Qədim İranda və Azərbaycanda çoxallahlıq mövcud olmuşdu. Zərdüştün təTimində isə təkallahlılıq əsasdır. O, Ahuramazdanı (Hörmüz) yeganə ali allah kimi qələmə verir, onu kainatın və canlıların yaradıcısı hesab edirdi. Ahuramazda xeyir və həqiqəti, onun qardaşı Anqrumanyu (Əhriman, Əhliman) isə şər qüvvələri təmsil edirmiş. Zərdüştün çağırışı ilə insanlar Anqrumanyu və onun köməkçiləri olan *

185 Avesta pəhləvi dilində əsas (mətn) mə'nasını verir, ona əlavə olunan izahatlar zənd (izahat) adlandırılmışdı.

Qy məflıum da Avestada işlədilmişdir. Persepol elam mətnlərində haturmakşa (yə'ni atərmakuş «od maqı») kahin adı əks

divlərə (köhnə allahlara) qarşı mübarizə aparmalı idilər. Zərdüşt tə’liminə görə, şərlə xeyir, yalanla həqiqət arasında ölüm-dirim mübarizəsi gedir, lakin son məqamda xeyir və həqiqət şər və yalana qalib gəlməlidir.

Zərdüştlük dini ehkamlan Avestanm müxtəlif (Yasna, Yaşt, Videvdat)*^^ bölmələrində əks olunmuşdur. Avestanm ən qedim hissəsini q a t l a r t ə ş k i l edir. Qatlann dili qəlizdir və çətin başa düşülür. Zərdüşt Yasnada maldarlıq təsərrüfat sahəsini təbliğ edir, kəndlərin talanmasını və mal-qaranın oğurlanmasını pisləyirdi. Zərdüştün Yasnada çağırışı belədir: «Mən bu toıpaqda mal-qara saxlayan hər bir sahibkara sərbəst hərəkət və azad həyat tə’min edirəm... Mal-qaram tutub aparmaqdan, Mazda (ye’ni Ahuramazda) məsləkli kəndlərə ziyan vurub talamaqdan imtina edirəm. Mən alçaq, ziyankar, yalançı, bədxah divlərlə birgə olmaqdan imtina edirəm, divlərdən və onların tərəfdarlanndan, cadugərlərdən və onlann tərəfdarlanndan, canlı məxluqa zorakılıq işlədənlərdən imtina, ediram». Zərdüşt özünü Ahu- ramazdanın pərəstişkarı e’lan eir, yeni əməllərinə sadiq qalacağına and içməli olur: «Men Mazda inamına sadiq olmağa and içirəm, çünki o, hərbi basqınlara son qoymağa, silahı yerə qaymağa, özününkülərlə nikah bağlamağa çağırtP). Xatırladaq ki, Əhеməni şahları I Dara başda olmaqla Ahuramazdaya sitayişi qəbul edərək onu günəş dairəsi altında təsvir etmişlər. Bəlkə də Ahuramazda köhnə günəş allahı imiş.

Zərdüştün tə’limi yerli (div, dayva) dini dünya görüşünü saxlayan etnoslara qarşı yönəldilmişdi. İnamsız qələmə verilməklə bütün bəd əməllər onlann adına çıxılırdı. Ahuramazdaya sitayiş edənə axirət dünyasında işıqlı heyat və’d olunurdu. Yaştlarda Zərdüşt ilk xeyiı-xah fikir sahibi, ilk kahin, döyüşçü və maldar, divlərdən (köhnə dinlərdən) birinci üz döndərən, Ahuramazdaya birinci sitayiş edən kimi qələmə verilmişdi. İlk zamanlar Zərdüşt təMiminin əsasını maldarlığı inkişaf etdirmək və bununla əlaqədar şer qüvvələrə qarşı mübarizə aparmaq müddəası təşkil edirdi.

Yasna - «dua, ibadət», Yaşt - «qurban, qurbanvermə», Vldevdat - «divlərə qarşı qamın» mə’nasında başa düşülür.

188 Qat _ «mahnı, mahnı oxuma» mə’nasım daşıyır. Yasna bölməsində təmsil olunmuş qatlar əvvəlcə şifahi şəkildə ifa edilmiş, so.nralar yazıya alınmışdı. Avesta mətnlərinin yazılması və izahatlann tərtib olunması Sasanilər dövründə başa çatdırılmışdı.

Aveslanın nisbətən sonrakı dövrlərdə meydana gəlmiş Videvdat bölməsində zərdüştlük dininin ehkamları, ayinləm, mərasimləri və s. əks olunmuşdu. Videvdat artıq oturaq həyatı, əkinçilnk təsərrüfat sahəsini, bolluq yaratmağı təbliğ edirdi. Mətn boyu Zərdüştün suallarına Ahuramazda cavab verir: «Harada yaxşıdır?» - sualına Ahura- mazda belə cavab verir: «...Orada yaxşıdır ki, mö’min ər ev tikmişdir, onu od (yə’ni ocaq), süd, arvad-uşaq və (ev heyvanları) sürüsü ilə te’min etmişdir... Orada yaxşıdır, nə zaman ki, çoxlu əkin əkir, taxıl, ot, barlı bitkilər becərir: susuz yerə su çekir, bataqlığı qurudur, çoxlu buynuzlu xırda və iri heyvan saxlayırlar, ...buynuzlu xırda və iri heyvanlar çoxlu peyin verir». Zərdüşt tə’limi dinə sitayiş etməyə, əkinçiliklə məşğul olmağa, ailə qurmağa, torpağı bəsləməyə, bir sözlə, zəhmət çəkməyə səsləyirdi. Yaştda deyilir: «Kim əkir, taxıl becərirsə, o, həqiqəti əkir (yaradır), Mazda inamını aşılayır, Mazda inamına çörək verir... Qoy, evdə həmişə un xörəyi olsun ki, divləri lərzəyə salsın».

Zərdüşt tə’limi əhali arasında mövcud olan əkinçilik və maldarlıq on'ənəsini tərənnüm etmişdi, son mərhələdə atəşpərəstlik dini ayini maqlar tərəfindən zərdüştlüklə qarışdınimış və onun əhali arasında yayılması üçün şərait yaratmışdı. Əslində atəşpərəstlik Zərdüşt tə’limindən asılı olmayaraq meydana gəlmiş və İslam dininin bərqərar olmasına qədər öz varlığını saxlamışdı. Etnik və dil tərkibindən asılı olmayaraq Azərbaycanda əhali oda sitayiş edirdi. Oda sitayiş mə’bədlərdə (atəşgahda) heyata keçirilirdi. Arxeoloji qazıntılar göstərir ki, dəfn mərasimi zamanı qədim Azərbaycan sakinləri od qalayırmışlar.

Azərbaycan sakinləri səma cisimlərinə de ibadət edirdilər. Albaniyada xüsusi me’bəd torpaqları vardı. Strabonun mə’lumatına görə, albanlar «Heliosa, Zevse və Selenaya, xüsusilə də Selenaya ibadət edirləD>. Təəssüf ki, Strabon allahların yunanca adlannı çəkmiş, onların alban müqabillərinin adlannı yad etməmişdir. Yunan panteonunda Helios Günəş, Zevs Səma, Selena isə Ay allahı kimi qəbul olunmuşdu. Maraqlıdır ki, bu allahlara İranda da sitayiş edirdilər. Deməli, Azərbaycanda qonşu ölkədə olduğu kimi, Günəşə, Aya, Səmaya inam və ibadət mövcud olmuşdur. Qədim türk etnosları da Səmaya, Günəşə və Oda sitayiş edirdilər. Yunan əfsanəsində Zevs eyni zamanda ildırımsaçan ilahi qüvvə idi. Bu mə’nada Zevsə hun-türk tayfalarının Kuar ildınmsaçan allahı müqabildir. Kuar (türkcə ku «san», ar «ən>) «sarı (saçan) ər» kimi başa düşülür. Ehtimala görə. Ön Asiyada və İranda

ibadəti geniş yayılmış Anahit ilahəsinə Azerbaycanda da sitayiş edirdilər. Kür çayı yanında ona məxsus müqəddəs torpaqlar mövcud idi. Anahitin bir sıra xüsusiyyətləri vardı. O, bitki və heyvanlar aləminin, məhsuldarlıq, torpaq və su allahı hesab olunurdu. Arxeoloji qazıntılar zamanı aşkar edilmiş qadın heykəlciklərini (fiqurlarını) məhsuldarlıq ilahəsi hesab etməklə, Anahitin və həmçinin Ay ilahəsinin əksi kimi qəbul edirlər. Çox təəssüf ki, Anahit ilahəsinin də müqabil yerli adı qaynaqlarda qalmamışdır. Qadın heykəlcikləri büt xüsusiyyəti daşıyırdı. Eyni zamanda Azərbaycanda bu tipli böyük daş heykəllər də tapılmışdır. Onları Zevsin müqabili, yerli allahın timsalı kimi qəbul edirlər. Günəş allahını İran panteonundakı Mitra ilə eyniləşdirirlər. Lakin Günəş allahının Azərbaycan mənşəli müqabil .ıdı namə’lum qalır.

Azərbaycanın şimal hissəsində Albaniya mə'bədində nüfuzlu .^.ıhin başçılıq edirdi. Strabon yazırdı ki, «orada hökmdardan sonra ən iiormətli ər kahinlik edir, geniş və yaxşı məskunlaşmış mə’bəd əyalətinin başında durur». Yəqin ki, kahinlər dini bayramlan və dəfh mərasimlərini həyata keçirirdilər. Azərbaycanın qədim əhalisi arasında u\üx.təUf dəfn inləri mövcud idi. Əhali öz raərhiimlarmı müxtəlif qəbirlərdə dəfn edirdi. Ən qədim zamanlardan bəri mövcud olan torpaq qəbirlərdə ölü basdırma ayini bu dövrdə də davam edirdi. Qəbirə, əvvəlki kimi, müəyyən qab-qacaq, ərzaq, silah, bəzək əşyalarından ibarət əmlak qoyulurdu. Albaniyada təknə, saxsı tabutlarda və küp qəbirlərdə dəfnetmə ayini (e.ə. VI - ll əsrlər) geniş yayılmışdı. Bundan başqa yeraltı sərdabədə də (katakoınba), oyuq qəbirlərdə defnet- mə adəti də yaranmışdı. Azərbaycanın qədim sakinləri axirət dünyasına inanırdılar.

## ORTA ƏSRLƏR DÖVRO

## V f9Sİl

## AZƏRBAYCAN İLKİN FEODALİZM DÖVRÜNDƏ

### § I. FEODAL MÜNASİBƏTLƏRİNİN BƏRQƏRAR OLMASI

Ill-V esrlerde Azərbaycanda feodalizmə xas iqtisadi münasibət- lor bərqərar oldu. Çox təəssüf ki, yazılı qaynatlann yoxluğu üzündən Azərbaycanda quldarlıq çağı təsərrüfatı və sosial münasibətlərinin feodal ictimai-iqtisadi münasibətlərinə keçməsini izləmək mümkün deyil. Lakin sonrakı dövrə aid qaynaqlar və qonşu ölkələrdəki iqtisadi və sosial vəziyyət Azərbaycanda erkən feodalizm münasibətləri barədə təsəvvür yaratmağa imkan verir.

Məhsuldar qüvvələrin və istehsal münasibətlərinin tədricən inkişafı feodal istehsal üsulunun bərqərar olmasına şərait yaradırdı. Feodal münasibətləri birdən-birə yaranmamışdı, onun rüşeymiəri hələ quldarlıq dövründə meydana gəlirdi.

Əmək alətlərinin təkmilləşməri və onların hazırlanmasında dəmirin tətbiqi əkinçiliyin və sənətkarlığın geniş inkişafına, əmək məhsuldarlığının artmasına səbəb oldu. Taxıl sahələrinin becərilməsi genişləndirildi, müxtəlif sənət növləri yarandı və inkişaf etdi. Ticarət yollarına yaxın ərazidə və şəhərlərdə mal mübadiləsi və ticarəti vüs'ət aldı.

Tədricən torpaq sahibkarlığının yeni, səciyyəvi cəhətləri meydana gəldi. Əvvəllər torpaq hökmdara, dini qurumlara, ayrı-ayrı quldarlara mənsub idi. Belə torpaqlarda qul, məcburi əmək adamlarının (hərbi əsirlər, borca düşmüş adamlar, müflisləşmiş əkinçilər və b.) əməyindən istifadə olunurdu. Belə işçilərin əməyə marağı sönür, nəticədə becərilməmiş torpaq sahələri artır, emək məhsuldarlığı azalırdı. Ölkədə baş verən siyasi dəyişikliklər iqtisadiyyatın inkişafına xeyli ziyan vurur, torpağın müəyyən yüksək təbəqələrin elində cəm- ləşməsinə şərait yaradırdı. Hökmdar və onun ətrafındakı istismarçı sinif nümayəndələri torpaq sahibkarlarına çevrilirdilər hökmdar, yaxud dövlət torpaqları xidmət əvəzi olaraq hərbçilərə və' dövlət işçilərinə paylanırdı, bə’zən də hədiyyə verilirdi. Xüsusi xidmət

adamlanna paylanmış belə toıpaqlar feod, yə’ni «mülk» adlanırdı və çox zaman torpaq və onu becərən əkinçi kəndlilərdən ibarət olurdu. Feodalizm adı da buradan əmələ gəlmişdi. Feodal torpaqlarında kəndli əməyindən geniş istifadə edilirdi. Kəndli feodaldan asılı vəziyyətdə idi, çünki o, feodalın torpağını becərməli, məhsulun müəyyən hissəsini torpaq sahibinə verməliydi. Eyni zamanda müxtəlif mükəlləfiyyətləri yerinə yetirməli olan kəndli Azərbaycanda xüsusi mülkiyyətə (ev, həyətyanı torpaq, mal-qara, əmək alətləri və s.) malik idi, lakin onun əsas gəliri icarəyə götürdüyü feodal torpağı ilə bağlı idi. Bə'zən onlar torpaqsız kəndliləri feodal torpağını becərmək üçün işə cəlb edirdilər. Feodal torpağında müflisləşmiş kəndli əməyi tətbiq olunurdu, lakin kəndlilərin torpağa təhkimləşəsi bərqərar olmadı, yalnız xidmətçilik genişləndi. Kəndlilərin torpağa təhkimləşməsi Azerbaycanın ancaq xristian feodallannın mülklərində meydana gəlməyə başladı.

Feodalizm dövründə iki sinif - feodal və kəndli sinfi yarandı. Kəndlilər əsas istehsalçı qüvvəni təşkil edirdilər. Kəndli sinfinin daxilində baş vermiş mülki bərabərsizlik onların bir qisminin varlanmasına va xırda mülkədarlara çevrilməsinə səbəb oldu. Ölkədə baş verən siyasi hərc-mərclik, hakimiyyətin Sasanilərə tabe edilməsi, dini mübarizə yoxsulların sayını daha da artırır, feodallann isə varlanmasına şərait yaradırdı.

İranda hakimiyyətə gəlmiş Sasani sülaləsi (III - VII əsrlər) mərkəzdən asılı, lakin müəyyən daxili müstəqilliyə malik olan dövlət quruluşlarını ləğv etdi. Arşakilərə (parflara) məxsus ərazilər Sasani dövlətinin ərazilərinə birləşdirildi. İşğal olunmuş torpaqlarda mərkəz nümayəndələri tərəfindən idarə olunan əyalətlər yaratdılar. Belə əyalətlərdən biri Azərbaycan idi. Burada canişin hakimiyyəti bərqərar edildi. Qaynaqlar canişini merzban («sərhəd qoruyan») adlandırırdı. Azərbaycanın ictimai-iqtisadi, sosial inkişafı, torpaq sahibkarlığı qonşu əyalətlərdə olduğu kimi baş verirdi.

İranda Sasani dövlətinin başında şahənşah (şahlar şahı) dururdu. O, «İran və qeyri-İran şahlar-şahı» rütbəsini daşıyırdı. Onun vəfatından sonra övladları növbə ilə hakimiyyətə sahib olurdular.

Lakin hakim sülalə nümayəndələri bir-birilə ədavət aparırdılar. Ə'yan və kahinlər təbəqəsi öz mövqelərini möhkəmlətmək naminə hakimiyyət uğrunda mübarizə aparan bu va ya digər nümayəndəyə havadarlıq edirdilər. Kahinlər təbəqəsi ali maqa tabe idi. O, «maqu- patan maqupat» (başmaqlann başçısı) adlanırdı. Sonralar bu dini məf

hum «mobedan mobed» şəklinə düşmüşdü. Dini mtbə daşıyan həmin baş kahin şahdan sonra birinci mövqeyə malik idi. E.ə. 1 əsrdə Albaniyada da baş kahin hökmdardan sonra ən hönnətli və nüfuzlu şəxs sayılırdı. Od mo'bədlerinin mövcudluğu Azerbaycanda baş kahinin yüksək mövqeyə malik olmasına işarədir. Mə'bədlər böyük torpaq sahələrində ucaldılmışdı. Feodal münasibətləri meydana gələn dövrdə mə'bəd torpaqlarında azad, yaxud bu torpaqlara bağlı kəndli qüvvəsindən istifadə olunurdu. İran şahları işğal olunmuş, yaxud mərzban torpaqlarının sahibkarı kimi çıxış edirdilər. Belə erazilərin idarəsi hakim sülaləyə mənsub adamlara tapşırılırdı. Əslində bu torpaqlar şah mülkiyyəti hesab olunurdu. Azerbaycanda hökmdar hakimiyyəti leğv edildikdən sonra feodal torpaq sahibkarlığı gücləndi. Ə'yanlann torpaq sahələri dəstkert adlanırdı.

İran ə'yanlan bir neçə təbəqəyə bölünürdü. Şəhrdar (canişin) adlanan və Sasani sülaləsinə mənsub olanlara adətən vilayət canişinliyi tapşınlıxlı. Yəqin ki, Azərbaycanın, yaxud ayn-ayrı vilayətlərin idarəsi müvafiq şəhrdarlara həvalə olunmuşdu Sasanilər dövründə Adərbayqanı (Aturpatakan) Dərbəndə qədər belə bir canişin idarə edirdi. Sasani İranında spahbad (hərbi sərkərdə), vispuhr (ali mə'mur), vazurq (böyük) vəzifələri mövcud idi. Bu vəzifələr kübar ailə üzvlərinə -tapşınİrdı. Orta sosial təbəqəyə mənsub olanlar azad idilər. Sahibkar azadlar hərbi süvari dəstələrində xidmətə cəlb olu- nurdıılar. Bu təbəqələr .Azeıtıaycanda da torpaq sahibkarları kimi mə 1 umdurlar və onlar ə'yanlar cərgəsinə daxil idilər. İranda olduğu kimi Azerbaycanda da əhalinin əsas kütləsini kəndlilər təşkil edirdi. Kəndlilər, sr=»rıətkaıiar və tacirlər dövlətə vergi verən təbəqəyə mənsub idilər. Sasani dövlətində əhali dörd sosial təbəqəyə kahin (asravan), döyüşçü (arteştaran), mirzə (dipiran) və vergi verən (vas- Irioşan) təbəqələrinə bölünmüşdü. Son təbəqə can (qezit) və torpaq (xaraq) vergisi verirdi. Bundan başqa kəndlilər əmək mükəlləfiyyətinə cəlb olunurdular.

## § 2. ADƏRBAYQAN FEODAL DÖVLƏTİ

224rcü ildə İranın cənubunda yerləşən Pars vilayətinin Sasan nəslindən olan hökmdarı Ərdəşir (Artaşir) Papakan Arşaki hökmdarı V Artabanı məğlubiyyətə uğradır. 226-cı ildə o, «İran şahənşahı» e'lan edilir və Dəclə çayı üzərində yerləşən Ktesifon-Selevkiya Sasanilərin paytaxtı olur. I Ərdəşir dövlətə tabe olan ölkələri canişinliklərə

bölür. Azərbaycan ərazisi canişinlik sisteminə daxil edilir. Lakin ilk Azərbaycan (Atıırpatakan və Albaniya) I Ərdeşirin hakimiy>'Əti altına alınmamışdı. Burada hökmranlıq edən Arşaki sülalə nümayəndələri Sasanilərə tabe olmağa tələsmirdilər. Məhz I Şapur (241-272-ci illər) ilk dəfə Sasanilaı-ə tabe olan ölkələr arasında 260-cı ildə Azərbaycanın da (Adurbaden və Albaniya) adını çəkmişdi, lakin Sasani şahının buraya hərbi yürüş təşkil etməsi barədə mə'lumat yoxdur.* Çox güman ki, Azərbaycan yenə də hərbi münaqişələrdən kənarda qalmaqla Sasanilərin hakimiyyətini tanıyırdı.

IŞapumn vəfatından sonra Sasani şahları Roma ilə AiTneniya üstündə uzun-uzadı müharibələr aparırdılar. Nəhayət, II Şapurun (309 -379-cu illər) hakimiyyəti illərində Armeniya romalılar və farslar arasında bölüşdürüldü. 387-ci il müqaviləsinə uyğun olaraq Aıneniyada hakimiyyət ləğv edildi. Ola bilsin ki, IV əsrdə Adərbayqan mərkəzi Sasani hakimiyyətinə tabe edilmişdi.

IV əsrdə Ön Asiyada, o cümlədən İranın siyasi tə’sir dairəsinə daxil olan ölkələrdə xristianlıq yayılmağa başladı. Sasanilər xristian dininə mənfi münasibət bəsləyirdilər, çünki xristianları Romanın tərəfdarları kimi qəbul edirdilər. IV əsrin 30-cu illərində xristianlıq artıq Roma imperiyasının dövlət dininə çevrilmişdi. Sasanilər bir tərəfdən zərdüştlüyün və artıq onun ehkamına çevrilmiş atəşpərəstliyin, yə’ni oda sitayişin mövqeyini dövlət dini kimi mölıkemləndirir, digər tərəfdən yayılmaqda olan xristianlığa qarşı mübarizə aparırdılar. Xristianlıq Roma imperiyasının dövlət dini və ideologiyası kimi tə’qib olunurdu. Xristianların tə’qib olunması II Şapurun hakimiyyəti illərində başlandı və fasilə ilə V əsrin sonuna kimi davam etdi. Bu müddətdə Roma imperiyası süquta uğramış və şərqdə onun yerini Bizans dövləti tutmuşdu. Xristianlar indi do Bizansın ideoloqları kimi çıxış edirdilər.

Şah I Yezdəgird (399 - 421-ci illər) hakimiyyətə gəldikdən sonra İran e’yanlarının və kahinlərin dövlət işlərinə güclü tə’sirini qırmaq üçün orta təbəqələrə arxalanırdı. Onların içərisində xristianlar da vardı. Şah xristianlara müəyyən güzəştlər etdi, lakin hakimiyyətinin sonunda bu siyasəti deyişməyə məcbur oldu. Artıq güclənmiş xristian dairələrinin Bizansla yaxınlaşması təhlükəsi yaranmışdı. Buna görə

* I Şapurun Nəkş-i Rüstəm vadisində Kə’be-i Zərdüşt adlanan od mə’bodində tapılmış yazısında ancaq Roma, Suriya va Armeniyaya qarşı yürüşdən danışılır, lakin Qafqaz dağlarına və Alban keçidinə çatan erazinin, o cümlədən Adərbayqantn ona tabe olmasından birdpn-birə bəhs edilir.

də. Bəhram Gur (421-438-ci illər) xristianlığın ardıcıllan ile mübarizəni gücləndirdi.

V əsrdə Şərqdə xristianlıq pravoslav, monofızit və nestorian qollarına ayrılmışdı, tranda, o cümlədən Adərbayqanda xristianlığın nestorian qolu daha çox yayılmışdı. Nestorianlar yığıncaq keçirərək Bizans pravoslav kilsəsindən aynlmaq barədə qərar qəbul etdilər. Bizans pravoslav kilsəsi nestorian xristian tə’limini küfr e’lan etdi. Belə olduqda Sasani şahları nestorianlann azad ibadətinə müəyyən imkan verdilər. Eyni zamanda Sasanilərə tabe olan ölkələrdə atəşpərəstliyi möhkəmləndirmək üçün tədbirlərə əl atdılar. Adərbayqanda da atəşpərəstlik mövcud idi və burada məşhur Şiz od mə'bədi yerləşirdi. Şah Bəhram Gur yürüş ərəfəsində Şiz şəhərinə gəlibmiş. Bu dövrdə Adərbayqan artıq Sasani dövlətinin tərkibinə qatılıbmış. Şah 11 Yezdəgird (438-457-ci illər) Armeniyada zərdüştlüyün atəşpərəstlik e’liqadını yaymaq cəhdi göstərdi, çünki o, Armeniya ile Bizansın dini əsasda yaxınlaşmasından ehtiyat edirdi. Bu məqsədlə Armeniyaya zərdüşt məsləki i kahinlər göndərildi. Hələ Şah Bəhram Gur yürüşdən qayıdarkən əsir gətirdiyi xatunu (xaqanın arvadını) müxtəlif qiymətli əşyalarla birlikdə Şiz mə’bedinə hədiyyə vermişdi. Sasani şahlarından Firuz (459 - 484-cü illər) Adərbayqanda Şahram Firuz şəhərini saldırdı. Bu şəhər Xəzər dənizinin qərb sahilində yerləşirdi. Şah Firuz Mehran nəsli arasında böyük nüftıza malik idi. Onun tərəfini Zərdüşt din xadimləri saxlayırdılar. Mehran türk nəsli dövlətin siyasətinə müəyyən tə’sir göstərirdi. Firuzun və ondan sonra hakimiyyətə gəlmiş Balaşın (484-488-ci illər) hakimiyyəti dövründə əhalinin iqtisadi vəziyyəti getdikcə ağırlaşırdı. Adərbayqanda da kütlənin vəziyyəti müşkül hala düşürdü. Belə bir şəraitdə İranda Məzdəkilər həıəkatı başlayır. Onun əks-sədası və tə’siri Adərbayqana da çatır. Bu hadisələr baş verən dövrdə Adərbayqan bir canişinlik kimi Sasani dövlətinin tərkibinə daxil edilmişdi və zərdüştlük (atəşpərəstlik) dininin mərkəzlərindən birinə çevrilmişdi.

## § 3. MƏZDƏKİLƏR HƏRƏKATI

Zərdüştdən sonra İranda Mani öz dini təUimini yaymağa başlayır. Onun tə’limi zərdüştlük, xristianlıq və buddizm ünsürlərini özündə cəmləşdirmişdi. Mani 215-ci ildə Cənubi İkiçayarasında adlı-sanlı İran mənşəli arşakilər nəslinə mənsub ailədə doğulmuşdu. Maninin dini təMimi digər dinləri ezez etməli və ümumdünya dininə çevrilməli

ınıış. o öz te’limini III əsrin ortalarında (242-ci ildə) 1 Şapur hakimiy-yotə gələn zaman yaymağa başlayır. Həmin tə’limə görə dünyada işıq ••ə qaranlıq arasında daimi mübarizə gedir. Dünya şeytan əməlləri ilə doludur. İnsan, ilk növbədə şər ünsürlərdən azad olmalıdır, hakimiyyətə can atmamalıdır. Mani ardıcıllarını dünya ne’mətlərindən, hətta ev-ailə qurmaqdan imtina etməyə çağınrdı. Lakin Mani tə’limi ailə qurmağı, mülkiyyət sahibi olmağı tam qadağan etmirdi, belələrinin tə limi yayanlara yardım göstərmələrini tövsiyə edirdi. Şər qüvvələrdən e'tiraz əlaməti olaraq uzaqlaşmağa çağıran Mani sanki istismar olunan zəhmətkeşlərin gününə yanırdı. Lakin o, əhalini mövcud quruluşa qarşı fəal mübarizəyə çağırmırdı.

Manilik qısa müddətdə geniş bir ərazidə İrandan tutmuş qərbdə Roma imperiyasının ucqarlarına (Afrika və İspaniya), şərqdə isə Orta Asiyaya kimi yayılır. Mani tə’limi mövcud istismarçı qanun-qaydalara, dövlət hakimiyyətinə qarşı yönəldiyi üçün tezliklə tə’qibə mə’ruz qalır və 276-cı ildə Mani e’dam edilir. Mani tə’limini pəhləvi və Suriya dillərində aparırdı. Bu məqsədlə o, Suriya əlifbasını İran dillərinin xüsusiyyətinə uyğunlaşdırmışdı. Mani əlifbası Mərkəzi .^siya xalqlarının yazı sisteminin yaranmasına tə’sir göstermişdi.

111 əsrin sonunda Maninin davamçısı Bundos Romada və İranda dini tə’limə başlayır. O, hətta Albaniyada öz tə’limini yaymaq cəhdi göstərmişdi. Manilikdən fərqli olaraq Bundos şər-xeyir mübarizəsində son məqamda xeyirin qələbə çalacağını söyləyirdi. Əslində Bundos şer qüvvələri məhv etmək üçün insanları fəal mübarizəyə çağırırdı. Fəal mübarizəyə çağırış ideyası Məzdəkilər hərəkatına böyük tə’sir göstənnişdi.

Sasanilərin hakimiyyəti dövründə imperiyaya daxil olan ölkələrdə feodal münasibətləri inkişaf edirdi. Kəndlilər son dərəcə istismar olunurdular. Torpaq sahələri feodalların əlində cəmləşirdi. Feodal tor-paqlannda icarədar kimi işləməyə məcbur olan kəndlilərə paylanmış toıpaqlar iri feodalların xüsusi mülkiyyətinə çevrilirdi. Kəndlilər feodaldan asılı vəziyyətə düşürdülər. Kənd icmalannın parçalanması və feodal mülkiyyətinə çevrilməsi prosesi güclənir, dövlət xəzinəsi boşalırdı. Sasanilərin müharibələri, kəndli torpaqlarının hesabına iri feodal mülklərinin yaranması və kəndlilərin feodallardan asılı vəziyyətə salınması cəhdləri ölkədə ictimai hərəkatın genişlənməsinə şərait yaratmışdı. 481-529-cu illəri əhatə edən ictimai hərəkata Məzdək Bəmdad oğlu başçılıq edirdi.

MəzGək tə'liminin əsas müddəası ədalətli cəmiyyət qurmaq, insanlar arasında əmlak bərabərliyi yaratmaq idi. Qaynaqların birində bu ideya belə şərh olunmuşdu; «Allah insanlara ona görə əmlak vermişdir ki, onlar bunu öz aralarında bərabər bölüşdürsünlər. Lakin insanlar bir-birlərini ağır ədalətsizliyə düçar edirlər. Onlar (mezdek- lər) deyirdilər ki, (əmlakı) varlılardan alıb yoxsullara verməək və bununla da varlıların hesabına onlara öz mülkiyyətini qaytarmaq istəyirlər». Məzdək tə'limine görə. Xeyirin Şər üzərində qələbəsini allahın və İşıqlı qüvvələrin köməyilə te'min etmək olar. Məzdək mübarizə yolu ilə ədalətli cəmiyyətin qurulmasını mümkün hesab edirdi.

Kavadın (488-53 l-ci illər) hakimiyyəti illərində Məzdəkilər hərəkatı daha geniş vüs'et alır. Xalq üsyanından ehtiyat edən və ə'yan- ların qüdrətini sarsıtmaq məqsədini qarşıya qoyan I Kavad (Qubad) məzdəkilərə qəyyumluq edirdi. Aclıq zamanı Məzdəkin məsləhətilə Kavad dövlətin taxıl anbarlarını əhalinin üzünə açır. Məzdəkin fikrincə, «Əmlak insanlar amsında bölüşdürülmüşdür, onların hamısı isə allahın qulları ve Ademin övladlarıdır. Kim ehtiyac hiss edirsə, qoy bir-birinin əmlakından istifadə etsin, belə ki, heç kəs ehtiyac ve yoxsulluq duymasın, hamı mövqecə bərabər olsun».

1 Kavad bir müddət taxtdan salınır, Heptal hökmdarının yanına qaçmalı olur. Hakimiyyətini möhkəmləndirən şah artıq məzdəkilərin köməyinə arxalanmırdı. Kavadın oğlu Xosrov məzdəkilərə qanlı divan tutur, Məzdək isə 529-cu ildə e'dam edilir.

Məzdəkilər hərəkatı məğlub oldu, lakin onun ideyaları xalq arasında uzun müddət yaşadı, sonrakı (ərəb ve fars) qaynaqlarda bu və **ya** digər şəkildə öz əksini tapdı.

## § 4. ALBAN FEODAL DÖVLƏTİ

Albaniya, digər qonşu ölkələr kimi, uzun müddət parflan ve romalıları, erkən orta əsrlərin başlanğıcından e'tibarən isə Sasani şahlarını və Bizans dövlətini maraqlandırırdı. Albaniya müəyyən dövrlərdə öz müstəqilliyini qoruyub saxlaya bilmişdi. Qaynaqların mə'Iu- matından belə nəticəyə gəlmək olur ki, ilk əvvəl Albaniyada hakimiyyəti yerli sülalə, bə'zən də arşakilər sülaləsinə mənsub nümayəndələr idarə etmişlər.

Aranilər sülaləsi. Tarixi rəvayətə görə, e.ə. U əsrdə Albaniyanın hökmdarı Amn olmuşdur. Aran sözü (ərən türk.) türk dillərində izah

olunur və «cəsur, qoçaq, mərd» mə*nasını daşıyır. Qaynaqlann mə'lumatına görə. Aran (Ərən) Araz çayından tutmuş ta İberiyanın sərhədinə kimi, Albaniyanın düzənlik və dağlıq ərazisini idaı-ə edirdi. Guya ölkə onun mülayim xasiyyətinə görə və ona verilən ağu «yaxşı, xoş» adına görə Ağvan//Ağuan//Albaniya adlanınuış. Ağu sözü ancaq türk dillərində (aqu//eyqu//eyi) «yaxşı, xoş, mülayim» mə'nasında izah olunur. Deməli, Albaniyanın ilk hökmdannin həm adı, həm də ləqəbi qədim türk (qedim Azərbaycan) mənşəli olmuşdur. Gərək ki, e.e. II əsrdən e'tibarən Albaniyada hakimiyyətə qədim Azərbaycan türk mənşəli araniler sülaləsi gəlmişdir. Yəqin ki, Oroys, Kozis və Zober bu sülalənin nümayəndələri imişlər. Erkən orta əsr qaynaqlarına görə, uti, qarqar, sovde və girdmanlar Aranın nəslinə^ mənsub olmuşlar.

I - III əsrlərdə Roma-Parfıya münaqişələri davam edirdi. Alban xristian tarixçisi Moisey Kalankətli yazır ki, «Arandan sonra böyük arşakilər sülaləsinə mənsub olan Cəsur Vaçaqanadək (I) keçən günlər mə'lum deyil». Güman etmək olar ki, I Vaçaqana qədər hakimiyyətdə olmuş hökmdarlar türk mənşəli Araniler sülaləsinə mənsub imişlər. Lakin təəssüflə qeyd etmək lazımdır ki, Arani hökmdarlarının hamısının adları qaynaqlarda çəkilmir.

Miladın 1 əsrində Roma ilə Partiya arasında Armeniya üstündə müharibə davam edirdi. 63-cü ildə hər iki dövlət arasında sülh müqaviləsi bağlandı. 72-ci ildə alanlar Dərbənd keçidini aşaraq Adərbayqana (Atropatenaya) soxuldular və ölkəni taladılar. II əsrin əvvəlində Roma-Parfıya müharibələri yenidən qızışdı, Roma imperatoru Trayan (98-117-ci illər) 114-cü ildə Parfıya ilə müharibəyə başladı və ilk növbədə Armeniyanı tutdu. Amıeniyada arşaki nümayəndəsinin hakimiyyəti devrildi və ölkə Roma əyalətinə çevrildi. İberiyada da dövlət hakimiyyəti ləğv edildi, Albaniya isə müstəqil üsul-idarəsini saxladı. Qaynaqda qeyd edilir ki, Trayan «albanlara hökmdar verdi». Partların Albaniyaya siyasi tə'sirini ləğv etmək üçün Trayan yerli sülalə (arani) nümayəndəsini yenidən hökmdar tə'yin etmişdi. Alban hökmdarının adı namə'lum qalır. l36-cı ildə alanlar yenə də Parfıya əyalətlərinə hücum etdilər. Bu dəfə alanları iberlər də'vət etmişdilər. Alanlar Adərbayqam çapıb-taladılar.

^ Qədim ermənidilli qaynaqlar Aram (Ərəni) Syuni vilayətinin hakimi Sisakan nəslinə mənsub edir, halbuki Sisakan nəslinin qədim kökləri məMum deyil. Əslində Sisakan Albaniyada vilayət adı idi və «Sis ölkəsi» mə'nasım daşıyırdı.

u əsrin sonu - III əsrin əvvəllərində Parfiya sərhədlərini xarici müdaxilələrdən qorumalı olmuşdu. Ola bilsin ki, bu dövrdə Albaniya hakimiyyətində arşaki sülalə nümayəndələri möhkəmlənmişdilər. Güman etmək olar ki, Albaniya arşakiləri türk mənşəli olmuşlar və iran hakim dairələri ilə qohumluq əlaqələri yaratmışdılar. Moisey Kalankətli Alban hökmdan 1 Vaçaqanı^ arşaki nəslinə bağlamış və bu qəbildən doqquz (l Vaçe, Umayr, 1 Vaçaqan, Mirhavan, Satoy, Asay, Asvaqen/Arsvaqen, II Vaçe və Mö'min III Vaçaqan)^ hökmdann adını çəkmişdi. Bunlann hamısı aı*şaki nəslinə mənsub olmamışlar. Cəsur I Vaçaqan güman ki, III əsrin əvvəlində arşaki nümayəndəsi kimi Albaniya taxt-tacına sahib olmuşdu. I Vaçaqan (215-255-ci illər) Albaniya vilayətlərini vahid mərkəzdə birləşdirdi. Qaynağın məMu-matına görə, 1 Vaçaqan «Albaniyanın vilayətlərinə tam sahib oldu».

226-cı ildə İranda Sasanilər sülaləsi (III - VII əsrlər) hakimiyyətə gəldi. Arşakilərin hakimiyyətinə son qoyuldu. Sasanilər Roma ilə ən'ənəvi müharibəni davam etdirdilər. III əsrdə Sasani şahı I Şapur (241-272-ci illər) Roma ordusunu məğlubiyyətə uğratdı (260-cı il) və Roma imperatoru Valerian əsir düşdü. I Şapur öz qələbəsi barədə bütün ölkələrə xəbər göndərdi. Lakin albanlar və iberlər Sasani şahının məktubunu qəbul etmədilər və üzlərini Romaya tərəf tutaraq Vale- rianı əsirlikdən azad etmək üçün və'dlər verdilər. Bu zaman Albaniyada hakimiy>ətə I Vaçe^ (255 - 262-ci illər) gəlmişdi və o, şübhəsiz, arşaki sülaləsinin nümayəndəsi kimi, Roma ilə ittifaqı sasanilərə tabe olmaqdan üstün tutmuşdur. Lakin, çox güman ki, 262-ci ildə bir çox ölkələr kimi, Albaniya da I Şapur dövlətinin tərkibinə daxil oldu. I Şapurun 262-ci ildə Nəqşi-Rüstəmdəki mə'bəd divarında həkk etdirdiyi yazıda Sasani dövlətinə daxil olan ölkələr arasında Adərbay- qan (Aturpatakan), Armeniya, İberiya, Gürcüstan, Midiya və başqaları ilə yanaşı, Albaniya və onun vilayətinə çevrilmiş Balasakan^ da yad

^ Vaçaqan/ZBaçaq (-an şəkilçidir) qədim türk xüsusi adından əmələ gəlmişdir.

^ Adların əksəriyyəti türk mənşəlidir. Yəqin ki, arşakilər Albaniya hakimiyyətinə türk etnoslannın nümayəndələrini tə'yin edirdilər.

^ Qaynaqlann mə'lumatına əsasən müəllif alban hökmdarlarının və bə'zi hadisələrin yeni xronologiyasım vermişdir.

^ Balasakan Kürlə Arazın qovuşduğu ərazini tuturdu. Sərhədi şimalda Beşbarmağa kimi uzanırdı. Müxtəlif qaynaqlarda Balasakan ərazisi Payta-karan, yaxud Beləqan/ZBeyləqan adlanırdı. Əsas əhalisi saklardai ibarət idi. Balasakan türk dillərindən «Sak düzü» mə'nasını verir.

cöılmişdi. 1 Şapurun Ölümündən (272-ci il) sonra Albaniya yenə de nüsıəqü xarici siyasət yürüdürdü. Roma imperatoru AvTelian (270 - -75-ci illər) dövründə Albaniya Armeniya və tberiya ilə yanaşı, Roma meylli siyasət aparırdı. Bu zaman Albaniya hökmdarının kim olduğu mə’lum deyil. Hər halda o, Sasani hakimiyyətinə artıq tabe deyildi.

İranda U Şapur (309—379) hakimiyyətə gələn zaman Albaniyada daxili şərait mürəkkəbləşmişdi. Armeniya hökmdarları alban torpaq* larini işğal etmək siyasətindən əl çəkməmişdilər. Digər tərəfdən Albaniyaya xristian dini yol açmışdı. Köhnə dinlərə sitayiş edən Albaniya əhalisi ilk əwəl xristian dininə meyl göstərmirdi. Armeniya hökmdarı III Tradat (287-332-ci illər) Albaniyanın Paytakaran (Balasakan) vilayətinə xristian dininin təbliğatçılarını göndərirdi. 111 Tradat burada xristanlaşdınna siyasəti yürüdürdü, lakin bu uğurla nəticələnmədi.

IV əsrin 30-cu illərində Albaniyanın Paytakaran^ vilayətində Sanatürk, yaxud Sanesan® (298-338-ci illər) özünü hökmdar e’lan etmişdi. Armeniyanın aı*şaki hökmdarı III Tradatın oğlu II Xosrov Kotak^ (332-338-ci illər) Roma sərkərdəsi Antioxun təşəbbüsü ilə Paytakarana yürüş təşkil etdi. Yürüşdə başqa iberlər və yunanlar da iştirak edirdilər.

Sanatürk müttəfiqlərin hücumunu dəf edə bilməyəcəyini başa düşərək, alban dəstələri və ə’yanları ilə birlikdə Sasani şahı II Şapurun (309-379-cu illər) yanına gedir. Paytakaran şəhəri tutulub talan edilir.

Sanatürk Sanesanı gah Albaniya arşaki sülaləsinin banisi, gah da maskııt (massaget) arşaki sülaləsinin nümayəndəsi hesab edirlər. Halbuki qaynaqlardan mə Mumdur ki, massaget anlayışı türk tayfalanna da şamil edilirdi, bə’zən də albanlar massaget adlandırılırdılar. O, Albaniya hökmdarı idi. Sanatürk/Sanesan yerli (arani) sülaləsinə mənsub * **

^ Paytakaran türk dillərində «geniş düzən, geniş aran» kimi mə'nalandınlır. Sonralarbura Beyləqan - Biiaqan adlandırılmışdı. Bu toponim də türk dillərində «açıq düzən, açıq *yer»* kimi izah edilir.

** Ad qaynaqlarda iki cür - Sanesan və Sanatürk şəklində çəkilir. Sonuncu ad Sanatrk, Sanatruk kimi də yazılmışdır. Adlar türk dillərində «sanlı türk, nüfuzlu türk, sayılı türk» (Sanatürk) və «ən sayılı, ən nüfuzlu» (Sancsan) kimi mə'nalandınlır.

^ Kotak türk dillərində işlənən «gödəb> sözündən əmələ gəlmişdir. Qaynaqların məMumatına görə, Xosrov gödək boylu imiş və buna görə de ona Koiak/Gödək ləqəbi veribmişlər. Orta əsr Azərbaycan hökmdarlarından olan Gödək Əhməd da eyni ləqəbi daşıyırdı. Aydındır ki, bu adları türklər vermişdi.

olmuşdur. Bu sülalə arşakilərin himayəsi nəticəsində hakimiyyətə gəlmişdi. O, Albaniyanın müstəqilliyini qoruyub saxlamaq, Armeniyanın və ona arxa olan Romanın işğalçılıq niyyətlərinin ve xristian dininin Albaniyada yayılmasının qarşısını almaq məqsədini güdürdü.

Sanatürk 337-ci ildə albanlardan ibarət 30 minlik ordu^^ toplayıb Armeniyaya yürüş təşkil etmişdi. Sanatürk/Sanesan Armeniyanın paytaxt şəhəri Valarşapatı tutdu və bir il Armeniyanı əlində saxladı. Qaynaqlardan biri Sanatürk/Sanesanı «saysız-hesabsız hunların» hökmdarı adlandınr. Sanatürk/Sanesan eyni zamanda Ermənistanın bu hissəsində yaşayan türk etnoslarını xristian təbliğatçılannın təcavüzündən qoruyurmuş. Lakin 338-ci ildə yunan və iber qoşunlarının köməyilə erməni sərkərdəsi Vaçe Mamikonyan*^ Sanatürkün dəstələrini məğlub etdi, qalanını isə Paytakarana sıxışdırdı. Şapur albanların köməyinə hərbi dəstələr göndəımədi, II Şapur Albaniya taxtında Sasanilərə sadiq hökmdar görmək istəyirdi. Onun zənnincə, belə hökmdar Urnayr olmalı idi. Umayrı II Şapur ilə qohumluq əlaqələri bağlayırdı.

Sanatürk/Sanesan hunları və şimal tayfalarını ittifaqa cəlb etmişdi. Onun həlakından sonra şimal tayfaları*2 Dərbəndi keçəı*ək Albaniyada məskən saldılar. Bu zaman Aımeniya hökmdarı Tiı*an (338- 345-ci illər) II Şapur ile sazişə giımişdi. Onların ittifaqı Albaniyada məskən salmış hunlara ve onlarla birləşmiş yerli türk əhalisinə qarşı yönəldilmişdi. Qaynağın məMumatına görə, «şimal xalqları (etnoslan) Albaniyada dörd il müddətinə məskən salaraq Armeniyanı sıxışdırırdılar». Yəqin ki. Tiran sələflərinin Albaniyaya qarşı işğalçı siyasətini davav etdirirdi. Şimal tayfalan Sanatürklə ittifaqa sadiq qalaraq Albaniyanı Tiranın müdaxiləsindən qoruyurdular Tiran və II

io Bə’zen 20 min göstərilir. Ordunun tərkibində hunlann və Qafqaz tayfalarının olması qeyd olunur. Bə'zi tədqiqatçılar bu hunlan Qafqazdilli tayfa hesab edirlər. Heç şübhə yoxdur ki, bu humlar türkdilli tayfalar qismindən olmuşlar.

I ’ Mamikonlar türk mənşəli idilər.

«Şimal tayfaları» anlayışı, adətən, hunlara, hasillərə və alanlara tətbiq olunurdu.

Bir sıra tədqiqatçılar, qədim erməni qaynaqlarının mə’lumatına uyğun, hun və başqa birləşmələrin ön Qafqaza hücumunu ancaq talançılıq və qarət kimi qələmə verirlər. Əksinə, hunlar və başqa birləşmələr siyasi hadisələr ilə əlaqədar Albaniyanın yerli əhalisinin köməyinə gəlirdilər.

nırgə mübarizəyə başladılar. Lakin bu uzun sürmədi. Tezliklə Aıme-nıynda 11 Arşak (345-367-ci illər) hakimiyyətə gəldi. II Şapur Albaniya ilə ittifaqı bərpa etdi, Alban hökmdarı Umayr (təx. 359-371)*'^ <iy:ısi səhnəyə çıxdı.

11 Şapur Ermənistana havadarlıq edən və Sasanilərə qarşı onu sipər sayan romalılara qarşı yürüş təşkil etdi. 359-cu ildə Amid yaxmiıqında döyüş başlandı. Alban hərbi dəstələrinin başında Urnayr dayanırdı. Müharibə ilə əlaqədar sasani qoşunları Ağndağ (Ararat) vilayətini tutmuşdular. Adərbayqanın Naxçıvan şəhərini ordunun düşərgəsinə çevirmişdilər. Ermənistan sərkərdəsi Vasak II Arşaka kömək məqsədilə Adərbayqana soxuldu ölkəni taladı, dağıtdı, əhalisini qırdı, qalanını isə əsir apardı. Amid döyüşü II Şapurun qələbəsilə başa çaldı. Bundan sonra eıməni hərbi dəstələri məğlubiyyətə uğradıldı. Vasak tutulub e’dam edildi, II Arşak isə Roma imperiyasının əlaltısı kimi II Şapumn hakimiyyətindən çıxdığı üçün zindana salındı. Bir sıra vilayətlər, o cümlədən Arsax (ind. Dağlıq Qarabağ), marların (ind. Naxçıvan), kasplarm (Kaspiana) ölkəsi, İberiya vilayətləri və sairə yenə də sasanilərin hakimiyyəti altına keçdi. Çox güman ki, Albaniyanın torpaqlarının işğalı Ermenistan hökmdarları Tiranın və Arşakin 11 Şapur ilə müttəfiqliyi dövründə, yə’ni 342-350-ci illər arasında baş vermişdi. Bu zaman Sanatürk həlak olmuşdu, şimal tayfaları Albaniyanı tərk etmişdilər, Urnayr isə hələ siyasi səhnəyə çıxmamışdı. 359-cu il qələbəsindən sonra Albaniyanın vilayətləri geriyə qaytarıldı və yəqin ki, Umayrın hakimiyyəti altına keçdi, Armeniyada isə

Bə'zən onun hakimiyyətini 3l3-cü ildən hesablayırlar. Ümumiyyətlə, alban hökmdarlarının hakimiyyəti illəri müfəssəl deyil. Burada da mənbələrin mə’luniatına uyğun olaraq təxmini, bə’zən fərqli tarix verilmişdir.

Bə’zi tədqiqatçılar belə hesab edirlər ki, Albaniyanın bu vilayətləri hələ e.ə. I əsrdən guya Armeniyanın tərkibinə daxil idi. Lakin qaynaqlar alban vilayətlərinin e.ə. I əsidə II Tiqran tərəfindən tutulması barədə heç bir mə'lıımat saxlamamışlar (bax əvvələ), IV əsrin 40-cı illərinə kimi tarixi və siyasi şərait müstəqilliyini itirmiş Armeniyaya alban (həm də iber) torpaqları hesabına öz sərhədlərini genişləndirməyə imkan vermirdi. Vaxtaşırı Armeniya hökmdarları Albaniyanın Paytakaran (Kaspiana)/Balasakan vilayətinə gəlib çatırdılar, hətta burada xristianlığı yaymaq cəhdi (Qriqorisin göndərilməsi və onun həlak olması) göstərirdilər, lakin bunlar hamısı müvəqqəti xüsusiyyət daşıyırdı. Paytakaran, marların ölkəsi (Naxçıvan), Ağndağ (Ara- rai) vadisi ilə birlikdə Adərbayqana (Atropatenaya) məxsus vilayətlər idilər. Sonra Paytakaranda Albaniyanın hakimiyyəti bərqərar olmuşdu.

xnstianlıq dininin mövqeyi məhdudlaşdırıldı. Bir sıra erməni nəsillərinə mənsub naxararlar*^ mazdaizm: (atəşpərəstlik) və bütpərəstlik dininə meyl tutdular və onu yaymağa başladılar. Sasani şahı 11 Şapur xristian dininin tə'qibini gücləndirdi. Sasanilər xristianlığa Roma imperiyasının ideologiyası kimi baxır, onun İranda və ön Qafqazda yayılmasının qarşısını almaq istəyirdilər.

Armeniyada Pap (369-374-cü illər) hakimiyyətə gələndən sonra Roma imperatoru Valent (364-378-ci illər) orada Roma tə’sirini bərpa etmək cəhdi göstərdi. II Şapur Armeniyaya yenidən qoşun çəkdi. 371-ci ildə Dzirav çölündə döyüş başlandı. İmperator Valent Armeniyaya hərbi dəstələr göndərdi.

Alban hökmdarı Umayr Sasanilərin müttəfiqi kimi II Şapurun tərəfində çıxış edirdi. Moisey Kalankətlinin mə’lumatına görə, Urnayr II Şapurun bacısına evlənmişdi. Bə’zi tədqiqatçılar Umaynn Sasanilər ilə birlikdə Armeniyaya qarşı vuruşmasını pisləyirlər. Onların fikrincə, guya Umayr Sasani şahı ilə qohumluq əlaqəsini Ön Qafqaz xalqlarının ümumi mənafeyinə qarşı qoymuşdu. Bu mülahizə qətiyyən həqiqətə uyğun deyil və Armeniya hökmdarlarının Azərbaycan torpaqlarına qarşı qəsbkariığını ört-basdır eləməyə yönəldilmişdi. Albaniya e.ə. II əsrdən e'tibarən vaxtaşırı Armeniya hökmdarlarının təcavüzünə mə’ruz qalırdı. Alban hökmdarları və Albaniya əhalisi çətin vaxtlarda ermənilərə kömək əli uzatmaqla yanaşı, Ön Qafqaz xalqlarının düşmən müdaxilələrinə qarşı ümumi mübarizəsinə də qoşulurdular. Lakin Armeniyanın Albaniyaya qarşı işğalçılıq siyasətinin və ərazi iddiasının müqabilində albanlar gah Roma ilə dostluq əlaqələri yaradır, gah da İrandakı hakim sülalələrin köməyilə pənah gətirirdilər. Eyni zamanda albanlar, Armeniyadan fərqli olaraq öz müstəqilliklərini əldən veımirdilər. Umaynn Sasanilər tərəfində vuruşması ilk növbədə Albaniya torpaqlarının bütövlüyünü qomyub saxlamaq və Armeniya hökmdarlannın Albaniyaya qarşı qəsbkarlığına son qoymaq məqsədini güdürdü.

Dzirav döyüşündə Umaynn alban dəstələri ilə yanaşı, başda Şerqir olmaqla lek'^ tayfası da Sasani ordusu tərəfindən çıxış edirdi. Lakin bu döyüş Sasanilərə qələbə gətirmədi. Roma ordusunun köməyilə

Naxarar fars mənşəli məfhumdur və «vilayət hakimi» mə’nasını daşıyır.

Yəqin ki, Dağıstanın lak, yaxud ləzgi tayfalarının adı olmuşdur.

erməni dəstələri qələbə çaldılar. Döyüşdə alban hökmdarı Umayr yaralandı ve onun dəstələri geriyə qayıtdılar. II Şapur Armeniya hökmdarı Papın hakimiyyətinə razılıq verməyə məcbur oldu. Papın dövründə kilsə mülkiyyəti məhdudlaşdırıldı və bütpərəstliyə sərbəst ibadət bərqərar oldu.

Döyüşün nəticələri Azərbaycan üçün ağır oldu. Əgər qaynağın məMumatına inanmaq olarsa, erməni sərkərdəsi Muşeq Mamikon-yan*^ II Şapura qoşulan ölkələrə divan tutmaq məqsədilə ilk növbədə Azərbaycan ərazisinə hücuma keçdi. Əvvəlcə o, Adərbayqanda^® olan eıməni hökmdarının mülklərini tutdu, ölkəni dağıtdı və adərbay-qanlılardan^* çoxlu əsir apardı. Bundan sonra marlar ölkəsini (Naxçıvanı belə adlandırmışdır, halbuki başqa yerdə Naxçıvan adı işlədilmişdir) dağıtdı, albanların ölkəsini talayıb çapdı. Qaynaqda göstərilir ki, Muşeq albanlan guya «tutduqları bir çox vilayətlərdən - Uti, Şakaşen (Sakasena), Girdman vadisi, Kolt (Albaniyanın qərb vilayətləri) və qonşu vilayətlərdən məhrum etdi. Kür çayını əvvəlki kimi öz ölkəsi ilə Albaniya arasında sərhəd etdi. Bir çox başçılan Öldürdü, qalanının üzərinə vergi qoydu və onlardan girov götürdü». Burada albanların

<8 Bu haqda ancaq qədim erməni müəllifi Favstos Buzand mə’lumat .vlamışdır.

Mamikonyan nəsli türk mənşəli olmuş və vaxtilə Orta Asiyadan gəlib .A.rmeniyadn məskunlaşmışdı. Nəslin bir qismi xristianlığa sövq etmişdi. Bu nəslə mənsub adlar türk dillərində izah olunur. Məsələn, Vasak qədim türk Basa (-k şəkilçidir) xususi adından, Mamikon türk mənşəli Mamqun/Mamak adından əmələ gəlmişdir. Muşeq adı türkmən antropon im iy asında Mojek uquıd», başqıid və qazax adlarında Mıjıy şəklində işlədilmişdir. Favstos Bu> zandın məlumatına görə, Mamikonyan nəsli niimayandələrindən biri Armeniya hökmdarı Varazdata göndərdiyi məktubda yazırdı: «Biz sizin xidmətçiniz deyilik, yoldaşınıztq və sizdən üstünük, çünki bizim əcdadlarımız Cen (Orta Asiya nəzərdə tutulur) ölkəsinin hökmdarları idilər». Soykökü ilə fəxr edən bu nəsil Orta Asiya türklərinə mənsub olmuş, 111 asrda gəlib Armeniyada məskunlaşmışdı. Mamikonyanlar IV - V əsrlərdə Armeniyanın siyasi həyatında və xristianlığın yayılmasında mühüm xidmət göstərmişdilər. Onlar xristian dinini qəbul etdikdən sonra tədricən ermeniləşınişdilər. Buna baxmayaraq, onun nümayəndələrindən biri «türk Vardan» adlandırılmışdı. Bu da onu göstərir ki, Armeniyada xristianlığın bərqərar olmasında türk mənşəli soyların xidməti az deyildi.

Atrpayakan şəklində işlənmişdir.

Atrpatçi şəklində işlədilmişdir, -çi bə'zi türk dülərində məskən, mənsubiyyət bildirən şəkilçidir.

342-350-ci illər arasında Anneniya tərəfindən işğal olunmuş, 359-cu il qələbəsindən sonra isə qaytarılmış torpaqlan nəzərdə tutulmuşdur. Muşeq Kürün sağ sahilindəki alban vilayətlərini işğal etdi, əhali üzərinə vergi qoydu və girov götürdü. Bu torpaqlar Armeniyaya mənsub olsaydı, əhali üzərinə vergi qoymağa və girov götürməyə ehtiyac olmazdı. Deməli, torpaqların geriyə qaytarılmasından yox, yenidən işğal olunmasından söhbət gedir. Bə'zi tədqiqatçılar tarixi şəraiti və qaynaqlan n ümumi vəziyyətini nəzərə almadan yuxarıda gətirilən mə’lumatdan çıxış edərək belə mülahizə irəli sürürlər ki, guya Muşeq Mamikonyan Umaynn Armeniyadan qopardığı vilayətləri geri qaytarmışdı. Əslində Urnayr Armeniya tərəfindən işğal edilmiş alban vilayətlərini qaytarmışdı. Lakin 387-ci ildə Anneniya Roma və Sasani İranı arasında bölüşdürüldü. Albaniya yenidən öz vilayətlərinə tam sahib oldu. Qaynağın mə’lumatına görə, Muşeq kaspiarın ölkəsində parsilərdən^2 yə Paytakaran əhalisindən intiqam aldı, çünki buranın əhalisi Armeniya hökmdarının hakimiyyətini tanımaq istəməmişdi. Aydındır ki, qaynağın belə ziddiyyətli və alban-Adərbayqan torpaqlarına iddialı mülahizələri e.ə. Il-I əsrlərdən e’tibarən yaranmış qədim erməni şifahi en’ənəsinə əsaslanmışdı. Bu ən’ənə hələ Strabonun (e.ə. l-e. I əsrləri) Kaspiana və başqa vilayətlər barədə verdiyi mə’lu- matda da öz əksini tapmışdı. Strabon Kaspiananı gah Albaniyaya, gah da Armeniyaya mənsub edirdi. Muşeq sonra iberlərin (Gürcüstanın) Kür çayına qədərki ərazisini tutdu. Beləliklə, ennənilərin qonşulara qarşı hələ Strabonun əsərində öz əksini tapmış ərazi iddiası Favstos Buzand tərəfindən Muşeq Mamikonyanın əməllərində ziddiyyətli olsa da canlandırıldı və gələcək erməni nəsillərini bu ideyanın əsirinə çevirdi.

V əsrin əvvəlində artıq Roma imperiyası dağılmışdı. Şərqdə onun yerini Bizans dövləti tutmuşdu. Xristian dininin Nikey təriqəti hələ IV əsrin sonunda dövlət dini e’lan edilmişdi. Xristian dini Ön Qafqazda və İranda yayılırdı. Sasani şahı I Yezdəgird (399 - 421-ci illər) ilk əvvəl xristian dini e’tiqadına ibadətə imkan verirdi. Lakin ölkədə Bizans tə’sirinİn artması təhlükəsi yarandı. Bizans ideologiyasının və siyasi tə’sirinin Ön Qafqaz ölkələrində geniş yayılmasından qorxan 1

Parsilər yəqin ki, Kaspianamn irandilli fars etnosları idilər.

Çox keçmədən VII əsr «Erməni coğrafıyası»nda qonşulara, o cümlədən albanlara qarşı ərazi iddiası təkrar edildi.

^ ezdəgird xristianlığa qarşı siyasətini dəyişdirdi. Oğlu V Bəhrain Gurun (421-438-ci illər) dövründə Zərdüşt yə atəşpərəstlik dini məsələləri Mihr-Narseyə tapşırılmışdı. Onun. hakimiyyəti illərində .Armeniya artıq Sasani dövlətinin canişinliyinə çevrilmişdi (428-ci il). Albaniya isə siyasi müstəqilliyini saxlayırdı, lakin sasanilərdən asılı vəziyyətə düşmüşdü. Qaynaqlarda bir müddət alban hökmdarları barədə mə’Iumal verilmir. Yəqin ki, Umayrdan sonra Albaniyada 11 Vaçaqan, Mirhavan, Satoy və Asay (onlann hakimiyyəti təxminən 371-430-cu illəri əhatə edə bilərdi) hakimiyyətdə olmuşlar, lakin onlann fəaliyyəti barədə heç bir mə'lumat qalmamışdır. Çox güman ki. bu dövrdə Albaniyada köhnə dini etiqadlara ibadət öz varlığını daha geniş saxlayırdı.

İran xristianları Bizans ilə əlaqələri kəsmək və sərbəst ibadət keçirmək məqsədilə yığıncaq keçirtdilər. Yığıncaqda yunan pravoslav etiqadından ayrılmaq qərarına gəldilər. Xristianlığın pravoslav təriqətini saxlayan Bizans kilsəsi ilə bütün əlaqələri kəsdilər və nestorinn e tiqadına sədaqətlərini bildirdilər. Adefbäyqanda nestoriäh təriqətinə ibadət edən xristianlar öz etiqadlarına xidmət etməyə başladılar. Albaniyada isə xristianlığın monofizit qolu mövqeyini möhkəmləndirdi. 11 Yezdəgirdin (438-457-ci illər) vaxtında Ön Qafqazı idarə edən Sasani marzpanlan xristianlığa qarşı mübarizəni gücləndirdilər. Albaniyanın, 0 cümlədən Armeniyanın və tberiyanıh xristian dininin pərəstişkar hakimlərini şah Ktesifbna çağırtdırdı və onları atəşpərəstliyi qəbul etməyə vadar etdi. Vilayət hakimləri öz ölkələrinə qayıtdılar və bir müddət atəşpərəstlik inamına xidmət etdilər. Lakin Albaniyada, eləcə do Anneniyada geniş xalq kütləiəri xristianlığa tamamilə ram olmamışdılar və köhnə dini etiqadlarını (bütpərəstliyi və atəşpərəstliyi) saxlayırdılar.

V əsrin əvvəlində Albaniyada **Arsvaqen24** 430 - 440-cı illər) hakimiyyətdə olmuşdu. Bu zaman alban ə’yanlarının müəyyən hissəsi

Ad Asvaqen /Esvaqen kimi də yazılır. Arsvaqen qədim türk adı idi. Ar.s/as qədim türk dilində «sincab» (qiymətli *xəzi* olan xırda heyvan) mo’na-smı daşıyırdı və şəxs adları kimi işlədilirdi. «Vaqen» Mani iiıatıılərində «parlaq, panidayan» mə’nasmda işlənmişdir. Belə halda Arsvaqen/Asvaqen «Parıltılı sincab» kimi mə’nalandınla bilər. Asay «Ay (parıltılı) sincab» me'nastnı daşıyırdı, insanlara heyvan adı ilə ad qoymaq türk-etnosları arasında yayılmışdı. Mahmud Kaşqarlının me’lumatına görə, türklər belə şəxsi adlar daşıyırdılar.

xristianlıq e’tiqadına xidmət edirdi. Rəvayətə görə Arsvaqenin dövründə Mesrop Maştos Albaniyaya gəlmiş və mövcud olan alban əlifbasını təzələmişdi. Gələcək Syimi hökmdarı gənc Vasak (təx. 443 - 451-ci illər) Mesropun Albaniyaya gəlməsinə şərait yaratmışdı. Arsvaqenin göstərişi tlə məktəblərdə uşaqlara yazmı öyrətməyə başladılar.

Arsvaqendən sonra V əsrin ortalannda Albaniyada hakimiyyətə II Vaçe (təxm 440 - 463-cü illər) gəldi. Vaçe II Yezdəgirdin bacısı oğlu olmaqla həm də Arsvaqenin oğlu idi. Bunlar Umaynn varisləri kimi sasani hakim ailəsinə qız xətti ilə qohum idilər. Əslində isə onlar türk mənşəli arani sülaləsinə mənsub idilər, indi isə sasanilər ilə qohumluq əlaqələri yaradırdılar. II Vaçe qaynı II Yezdəgirdin tə’kidi ilə xristianlıqdan imtina etmiş və atəşpərəstliyi qəbul etmişdi. Eyni zamanda Syuni hökmdan Vasak Albaniyada və Armeniyada Sasani dini ideologiyasını müdafiə edir və burada Sasani hökmranlığını möhkəmlətmək uğrunda mübarizə aparırdı. Onun özü də xristianlıqdan imtina etmişdi. Vasak Balasakan hökmdan və hunlann hökmdarı Heran (Ərən) ilə gizli müqavilə bağlamışdı. Lakin hunlann bir qismi Armeniya əhlinə kömək etməyə meyl göstərirdi. Vasak Dərbənd qapılannı bağlatdırdı ki, hunlar Ön Qatqaz ərazisinə keçə bilməsinlər.

Armeniyada sasani hakimiyyətinə qarşı fəal hazırlıq gedirdi. Vardan Mamikonyan mübarizəyə başçılıq edirdi. O, ilk növbədə köhnə dinlərə ibadət edən və bununla da Sasani hakimiyyətinə meyl göstərən vilayətləri (Artaşatdan Vana qədər) tutdu. Erməni dəstələrindən biri Adərbayqan toıpaqlarına çatdı, buradakı atəşpərəstləri qovdu, pir və mə'bədləri dağıtdı, iki qalasını zəbt etdi. II Vaçe sasanilərə qarşı mübarizəyə qoşulmamışdı. Lakin sasanilərə qarşı mübarizəyə alban xristianlarının dini başçısı katolikos və hərbi rəislərdən biri (minbaşı) meyl edərək Vardan Mamikonyandan hərbi dəstələr göndərməsini xahiş etdilər. 450-ci ildə Xabcal şəhəri (Qazax vilayətində) yanında döyüşdə sasani dəstələri məğlubiyyətə uğradıldı. Xalxal^^ alban hökmdarlarının qış məskəni idi. Lbinlər Qafqaz dağlarında başda hökmdarın qardaşı Vurk olmaqla albanlara köməyə gəlmişdilər. Cəsarətlə vuruşan bu dəstə məğlubiyyətə uğradı, Vurk isə döyüşdə həlak oldu. Bundan sonra ermənilər, gürcülər və albanların xristianlığı sax-

^ Azərbaycan dilində xalxal «qoyun-quzu saxlanılan yen> mə’nasmda işlədilir. Yəqin ki. Xalxal yaxınlığında qoyun sürülərinin qış yataqlan vardı. Şəhər bunun adı ilə Xalxal adlanırmış.

lamış V9 dağlarda qaçıb gizlənmiş qismi Albaniyanın şəhər və qalalarına hücum etdilər, «hun **keçidinə**»^^ gelib çatdılar. II Yezdəgird tərəfindən tikdirilmiş qalanı tutdular, dağıtdılar. Burada yerləşdirilmiş hərbi dəstələri və əhalini qırıb çatdılar. Syunili Vasak Ermenistana, Gürcüstana (İberiya), o cümlədən Albaniyaya və onun Arsax vilayətinə məktubla elçilər göndərdi və tələb etdi ki, Vardan Mamikonyanın tərəfdarlarına sığınacaq verməsinlər. Albaniya Vardan Mamikonyanın başçılığı altında Sasanilərə qarşı apanlan mübarizəyə qoşulmadı. Albaniyada bir tərətden köhnə dini ibadətlərin ve atəşpərəstliyin mövqeyi, digər tərəfdən. Sasani hakimiyyətinə nheyl güclü idi. Ancaq xris- tinnpərest alban ə'yanlan Vardana qoşulmuş ve Sasani hakimiyyətinə qarşı mübarizəyə qalxmışdılar.

Eftalilər (heptallar) ilə müharibəni uğursuz başa çatdırmış 11 Yezdəgird Ön Qafqaza Mihr Nersenin başçılığı altında ordu göndərdi. Eyni zamanda o, xristianlığa qarşı tə'qibi dayandırdı, müxtəlif dinlərin azad ibadətini e’lan etdi. Mihr Nerse Paytakaranda düşərgə salaraq hadisələri müşahidə edir və döyüşə hazırlaşırdı. Syunili Vasakın sə'yi nəticəsində Vardan Mamikonyan müttəfiqlərdən məhrum oldu. Ümidini ancaq hunlara bağladı. Albaniyanın Aran hissəsində, Armeniyanın düzən (şərq) ərazisində köhnə dinlərə, o cümlədən atəşpərəstliyə ibadət bərpa edildi. Vardana qoşulmuş bir çox ə’yanlar öz inamlarından döndülər. 451-ci ilin may ayının 26-da Avarayr çölündə (Kaku yaxınlığında) Bardan Mamikonyanın başçılıq etdiyi dəstələr ilə Sasani ordusu arasında döyüş başlandı.^^ Sasanilər tərəfindən hunlar, katcşlər və qellər də döyüşdə iştirak edirdilər Vasak Qafqaz tayfalarını döyüşə cəlb etmişdi. Döyüş üsyançıların məğlubiyyətilə başa çatdı. Vardan həlak oldu. Xristian dininin pərəstişkarları aranı tərk

«Hun keçidi», qnynnğm məMumatına görə «albanlar ilə hunlar arasında» yerləşirdi. Yəqin ki, bu Qafqaz dar qolunda yerləşən keçidləıJən biri idi.

Bə'zi tədqiqatçılar qaynaqların mə'lumatını nəzərə almayaraq Vardan Mamikonyanın başçılıq etdiyi hərəkatı «Sasanilər əleyhinə ümumqafqaz üsyanı» adlandınnışlar. Halbuki bu müharibə Sasanilər əleyhinə olsa da Armeniyada xristianlıq dininə ibadəti genişləndirmək, köhnə dinlərə ibadətin kökünü gəsmək məqsədini güdürdü. Üsyanın başlanğıcında (450-ci il) məhz bir dəstə xristianpərəst alban ə’yanlan bu hərəkata qoşulmuşdu, lakin Albaniya bütövlükdə 451-ci ildə Armeniya ilə birlikdə çıxış etməmişdi. Əsas səbəb ondan ibarət idi ki, Albaniyada xristianlıq kök salmamışdı. Armeniya üsyançılan xristianlığa havadar çıxmaq adı ilə Albaniya vilayətlərində möhkəmlənmək istə...irdilər

edib dağlarda, alınmaz istehkamlarda məskən saldılar. Onların bir qisiTii Arsaxıh meşələrində və dağlarında gizləndi. Arsaxda sığınacaq lapanlar xristian mənsəbli albanlar idi. Onlar buradan hunların yanına elçilər göndərib onİardaıi kömək dilədilər. Lakin bir il sonra hunlar böyük ordu ilə sasanilərin torpağına hücum etdilər. Hunların yardımı dağılmış üsyançılara bilavasitə çatmadı.

İranda iki il davam edən Hakimiyyət uğrunda mübarizə zamanı (457-459-cü illər) Albaniyada II Vaçe daxili siyasətini dəyişdi. 457-ci ildə II VaÇe qaynı II Yezdəgiidin vəfatından sonra zərdüştlük (atəşpələsllik) dinindən imtina etdi. Qaynağın mə'lumatına görə, II Vaçe «ovvəl xristianlıra pərəstiş edinniş, şahənşah Yezdəgird isə ona zorla maqların qanununu qəbul etdirdi». Aydındır ki, II Vaçe Albaniyada xristiarilığa meyl göstərən ə'yanların te'siri altına düşməmiş deyildi. Bə'zən Vaçenin bu hərəkətini üsyan kimi qələmə verirlər, be'zən də iTiaqlann ölkədə pzbaşınalığiha qarşı xalq kütlələrinin narazılığı, vergilərin artırılması və s. rlə bağlayırlar. Lakin qaynaqlar Albaniya əhalisinin üsyanı barədə heç bir mə'lumat vermir.

II Vaçe İranda baş vefniiş siyasi hadisələrdən istifadə edərək Albdniyada xristianlığı yaymaq məqsədilə sasani hakimiyyətinin täbeliyinderi çıxdı. İranda FirıiZ (459-484-cü illər) hakimiyyətə gəldikdən sonra II VaçƏ Cöra dərəsini^^ tutdu, maskutlan Öz tərafinə çƏkdi və Qafqazın on bir hökmdatı ilə ittifaqa girdi. Moisey Kalankətlihirt me'lümatıha görə, II Vatçfc sasanilərlə müharibəyə başladı. Çox güman ki, bu müharibə 460-cı ildə baş vermişdi, çünki əvvəlki dövrlərdə Fiiiız xoşluqla 11 Vaçeni yola gətirmək istəyirdi və ona qarşı ciddi hərbi tədbirlər görmürdü. Bunlar qohumluq münasibətlərindən doğurdu. II VaÇe də əvvəl şahənşah Firuza qarşı açıq kəskin mövqe tutmurdu. Vaçe Firuzun şərəfinə şəhər saldırmışdı və adını da Firuza- bad (ind. Bərdə zonasında) qoymuşdu. Münasibətlər kəskinləşəndə FirıiZ hünlan alban hÖkmdanna qarşı müharibəyə qaldırdı. O, hay- laildur (onoqür) hunlarını öz tərəfinə çəkdi. Bu hunlar 462-ci ildə Albaniyaya soxuldular. Bir il uzanan bu müharibə II Vaçenin 463-cü ildə hakimiyyətdən əl çəkməsilə başa çatdı.^^ Vaçenin xahişi ilə atasının miras qoyduğu mülk şah Firuz tərəfindən onun sərəncamına

■ Cöra Qafqazda dağ keçididir. Dərbənd geçidi ilə eyniləşdirirlər, lakin Cob dərəsi nisbətən cənubda yerləşirdi.

Qaynağın məMümatma' görə, şah Firuzun hakimiyyətinin beşinci ili Vaçe hakimiyyətdən el çekdi.

verildi. Vaçe min evdən ibarət təsənüfata sahib oldu. Vaçe adi zahid heyatı sürməyə başladı. Vaçenin sasanilərə qarşı çı.xışı heç də xalq kütlələrinin narazılığından doğmamışdı.

Lakin Vaçenin hərəkəti o zaman məhz xristian dini dairələrinin rəğbətinə ve tə’ritlnə səbəb olmuşdu. Albaniyanın sür’ətlə xristianlaşdırılmasına Sasani şahları, həmçinin xristianlığı qəbul etməyən, albanlara köməyə gələn hunlar və başqa tayfalar sədd çəkirdilər.

II Vaçedən sonra 30 il ərzində Albaniya müstəqilliyini itirdi və Sasanilərin tə’yin etdiyi mərzban tərəfindən idarə olunmağa başladı. Moisey Kalankətli yazırdı ki, «Vaçedən Mö'min Vaçaqana kimi 30 il müddətinə Albaniya hökmdarsız qaldı». II Vaçenin vəfatından sonra onun qardaşı Vaçaqan təxminən 470-ci ildə Öz fəali>'>'ətini Arsaxın hökmdarı kimi başlamışdı. Çox güman ki, şah Finjzun dini siyasəti nəticəsində o, xristianlıqdan imtina edib atəşpərəstlik e'tiqadını qəbul elmişdi. Moisey Kalankətli xəbər verir ki, «Vaçaqan başqaları ilə birlikdə şahın dəhşətli qəzəbi üzündən maqharın dinini (atəşpərəstliyi) qəbul etdi, lakin Xristosa gizlincə pərəstiş edirdi».

Sasani şahı Balaşın (484 - 488-ci illər) dövründə dini e’tiqadlann azad tə’liminə ixtiyar verildi. Vaçaqanın bütün Albaniyaya hökmdar olması üçün şərait yarandı. Moisey Kalankətli xəbər verir ki, «O zaman bir padşahlığa cəmləşmiş alban əhalisi hökmdar övladlarından cəsur, müdrik, ağıllı, nəzakətli və ucaboylu Vaçaqanı - (II) Yezdəgir- din oğlu, alban hökmdarı (II) Vaçenin qardaşını götürüb fars (Sasani) hökmdarı Balaşın köməyilə hakimiyyətə qoydular. O, Albaniyaya gələrək maqlarm allahdan üz döndərən dinini rədd etmək üçün vasitə və bəhanə axtarmağa və Xristosun həqiqi allah olduğunu açıq söyləməyə başladı». Beləliklə, III Vaçaqanın Albaniyada hökmdar olmasına şahənşah Balaş (487-ci ildə) razılıq verdi. Son alban hökmdarları, kimi, III Vaçaqan da Sasani sülaləsilə qohum idi. Tezliklə İranda Balaş taxtdan salındı və hakimiyyətə I Kavad (438-53 l-ci illər) gəldi və III Vaçaqan da hakimiyyətini müvəqqəti olaraq Arsaxın ərazisi ilə məhdudlaşdırmaq məcburiyyəti qarşısında qaldı. Məhz 493-cü ildə, qaynaqda göstərilən 30 illik müddət keçdikdən sonra III Vaçaqan Albaniya hakimiyyətinə nail oldu. III Vaçaqan (493-510-cu illər) Albaniyada xristian dininin fəal təbliğinə başladı. O, əhaliyə zorla xristianlığı qəbul etdirdi. Köhnə din (bütpərəstlik) tərəfdarları, atəşpərəstlər və başqa e’tiqad sahibləri tə’qib olunurdu. Adamlan xristian dininə sövq etmək üçün məktəblər açılırdı. 111 Vaçaqan təxminən

498-ci ildə^^ Aquen məclisini çağırdı və xristian dininə aid qanunlar qəbul etdi. Bu tədbirlərə baxmayaraq xristianlıq Albaniyada dərin kök sala bilmədi. Aquen məclisində cəmisi Albaniyanın 10 xristian dini xadimi iştirak edirdi. Təxminən SlO-cu ildə 111 Vaçaqanın hakimiyyəti sona yetdi. Sasanilər Ön Qafqaz ölkələrində müstəqil dövlət quruluşlarını ləğv etdilər. Albaniyada Sasani mərzbanlannın uzun müddətli (510-629-cu illər) hökmranlırı dövrü başlandı. İran şahı 1 Xosrov Ənuşirəvan (531-579-cu illər) Sasani imperiyasını hərbi-inzibati idarələrə böldü. Albaniya və eləcə də Adərbayqan, İberiya və Armeniya bir canişinliyə, şimal kustakına^^ daxil edildi.

Albaniya Bizans-Sasani hərc-mərcliyi dövründə (510-630-cu illər). V əsrin sonu - VI əsrin əvvəllərində Albaniya əhalisi dini baxımdan iki hissəyə parçalanmışdı. Əhalinin bir qismi xristianlığı qəbul etmişdi, digər qismi isə köhnə dinlərə ibadət edirdi. Albaniya uğrunda Bizansla İran arasında gedən mübarizə sasanilərin xeyrinə həll olunmuşdu. Digər tərəfdən Albaniya, Armeniya və İberiyanın şərq əyalət- lorn şimaldan axışıb gələn yeni türkdilli tayfaların məskəninə çevrilmişdi. Sasani şahlarının, xüsusilə 1 Kavadın və 1 Xosrovun şimal dağ keçidlemni bağlamasına və orada istehkamlar tikdirməsine, hərbi dəstələr yerləşdirməsinə baxmayaraq türkdilli etnosların (hunlann, xəzərlərin, sabirlərin, onoqurlann və s.) axınının qarşısını almaq mümkün olmurdu. Bu etnoslar Albaniyada müxtəlif məqsədlər güdürdülər. Onların bir qismi Albaniyada məskunlaşır və yerli, dil cəhətdən qohum alban əhalisi ilə qarışırdı, digər qismi Albaniyada düşərgə salaraq qonşu ərazilərə hücum edirdilər. Eyni zamanda onlar qismən xristianlığa meyl göstərir, bə’zən də onu qəbul edirdilər. Hunlar həm də Albaniyanın qeyri-xristian əhalisinin, köhnə din pərəstişkarlarının havadan kimi çıxış edirdilər. Bununla əlaqədar Moisey Kalankətli yazırdı: «Albaniya xəzərlerin^^ hakimiyyəti altına keçdi (532-ci il) Kilsə və dini kitablar yandırıldı» həmin il rosmosok huklan hökmdarın başçılığı altında Kür çayını keçib Xalxal (ind. Qazax r-nu) yanında düşərgə saldılar və buradan Albaniyaya, İberiyaya və Arme-

Adətən, Aquen məclisinin çağırılmasım 488-ci ilə aid edirlər. Lakin bu məclis III Vaçaqan Albaniyanın hökmdan olduqdan sonra çağınla bilərdi. Kustak pəhləvi dilində «tərəb> deməkdir.

Moisey Kalankətli xəzər və hun etnik məfhumlannı fərqləndirmir. Ərəb qaynaqlan isə ümumiyyətlə xəzərləri türk adlandınr.

niyaya basqın etməyə başladılar. Xristianmeylli qaynaqlar həmin hücumlan ancaq qarətçiliklə bağladığından bu etnoslann əvvelki dini e’tiqadını saxlayan əhaliyə köməyi kölgədə qalmışdır. Bizans imperatorlan və Sasani şahları lazım olan məqamda hun hərbi qüvvələrindən öz məqsədlərini həyata keçirmək üçün istifadə edirdilər. Hunlar gah albanlarla, gah xristianlarla əlbir olaraq yerli əhalinin mübarizəsinə qoşulurdular. Beləliklə, hun tayfalanna mənsub etnoslar iki böyük imperiya (Sasani və Bizans) arasında gedən siyasi və ideolojn (dini) mübarizədə iştirak edirdi.

571-572-ci illərdə Sasani ağalığına qarşı üsyan baş verdi. Armeniya xristianları Vardanın başçılığı altında Dvində^^ oturan Sasani mərzbanı Surenə^^ hücum edərək onu öldürdülər və xeyli qənimət ələ keçirdilər. Bundan sonra Bizans hakimiyyətinə meyl göstərdilər. Bu ərəfədə Syuni hakimi Vahan üsyan qaldırmış və ermənilərdən ayrılmışdı. Syuni vilayəti^^ əslində Albaniya ilə bağlı idi. Rəvayətə görə Arani sülaləsinin banisi Syuni/ZSisikan nəslinə mənsub imiş. Syuni həmişə Albaniyaya və Adərbayqanın hakimiyyətinə meyl göstərirdi. Burada türk etnoslan yaşayırdılar. Hətta Syuni hakimi Vahan, qaynağın bildirdiyi kimi, şah 1 Xosrovdan xahiş etmişdi ki, Syuni torpaqlarını Adərbayqan (Aturpatakan) hüdudlarına qatsın. Xahiş yerinə yetirilmiş və Syuni yenidən Azərbaycan torpaqlan ilə birləşmişdi. Bə'zi tədqiqatçılar Syuni hakimini erməni feodalı kimi qələmə verirlər, lakin buna heç bir əsas yoxdur.

20 illik tran - Bizans müharibələri (571 - 59l-ci illər) Albaniyaya lə’sir gösterir. 574 və 576-cı illərdə Bizans ordusu Albaniyanın ərazisindəki Kür çayının sahilinə çatdı. Hun tayfa ittifaqına daxil olan türk mənşəli sabirlər^^ burada məskunlaşmışdılar. Bizans sərkərdələri

Moisey Xorenasinin mə’lumatına görə, Dvin fars sözüdür, «təpə» mə’nasmı daşıyır. Lakin fars dilində belə mə’nanı ifadə edən söz yoxdur. Güman ki, söz türk mənşəlidir. Türk dillərindəki daban/Zdavan sözü toponimiyada «keçid, yüksəklik, dağ, təpə» mə’nasında işlədilir. Deməli, burada türk etnosları yaşamış, fars məÄıumu həmin yerli türklərin dilinə şamil edilmişdir.

Suren və Karen Sasani nəslinə mənsub idilər.

Syuni vilayəti ind. Zəngəzurdan Göyçə (Sevan) gölü ətrafınadək torpaqları əhatə edirdi.

36 Bə’zi qaynaqlar bu tayfaları «sevordik» və «savardi» adı ilə Albaniya əhalisi kimi qeyd etmişdir. Bunlar «sabir» etnoniminin fonetik dəyişikliyə uğramış formalarıdır.

iki yürüş zamanı $abirləri itaət altına aldılar, lakin Bizans ordusu Albaniyanı terk'edəndən sonra sabirlər İran hakimiyyəti altına keçdilər. Bu zaman artıq fomnalaşmış böyük Türk dövlətinin (xaqanlığının) sərhədləri Orta Asiyadan Qafqaza qədər uzanırdı, tran ilə münasibətlər pis- ləşəndən sonra türk xaqanı Bizansla ittifaqa girdi. Sasani şahı IV Hörmüz (579-590-cı illər) türklərlə hərbi münaqişəyə başlayır. Sasani sərkərdəsi Bəhran Cubin 588-590-cı illərdə şərqdə türklərin hücumlarının qarşısını aldı. Şah öldürüldükdən sonra hakimiyyətə onun oğlu 11 Xosrov Pərviz (590-628-ci illər) sahib oldu. Bəhram Çubin üsyan qaldırdı. II Xosrov Bizansa qaçdı. Bizans imperatoru Mavriki (582 - 602-ci illər) Xosrova kömək etdi və II Xosrov Bəhrama qalib gələrək 591-ci ildə İran taxt-tacına qayıtdı. Həmin il II Xosrov Bizansla sülh müqaviləsi bağladı. U Xosrov AiTneniyanı və Gürcüstanın bir hissəsini Bizans imperatomna güzəştə getməli oldu. Vaspurakan (Urmiya gölünün şimal-qərbində, Naxçıvan da daxil olan ərazi), Dvin vilayəti (Ararat vadisi) və Syuni (Zəngəzur və Göyçə gölü ətrafı ərazi) II Xosrovun hakimiyyəti altına keçdi. Həmin torpaqlar həmişə Adərbayqa- nın və Albaniyanın vilayətləri olmuşdur, məhz buna görə də müqaviləyə əsasən Sasanilərin hakimiyyəti altına keçmişdir. Bə’zən bu müqaviləni AiTneniyanın və Gürcüstanın bölüşdürülməsi ilə bağlayırlar, halbuki söhbət azəri türklərinin məskun olduğu torpaqların Adərbay- qan və Albaniya hüdudlanna qaytarılmasından gedir. Sasani dövləti həm öz siyasi tə’sir dairəsini genişləndirmək, həm də Adərbayqan və Albaniya torpaqlarını, Armeniyanın qeyri-xristian əhalisini təcavüzdən qoruyub saxlamaq məqsədini güdürdü.^^

11 Xosrov xristian dininin sərbəst ibadətinə imkan verdi. Bununla o. Sasani dövlətinə daxil olan ölkələrdə, xristian və qeyri-xristian dinlərə sitayiş edən əhali arasında əmin-amanlıq yaratdı. Sebeosun mə’lumatına görə, II Xosrov göstəriş verdi ki, atəşpərəstliyə və köhnə dinlərə pərəstiş edənlərdən «heç bir kəs xristianlığa keçməyə, xristianlardan da heç kəs köhnə dinlərə keçməyə cür’ət etməsin. Hər bir kəs ata-baba inamını möhkəm saxlamağa borcludun>.

Bu zaman Azərbaycanda xristian dininin nestorian vo monofizit e’tiqadlan təmsil olunmuşdu. II Xosrov özü xristianlığa, xüsusilə də monofizit e’tiqadına rəğbət bəsləyirdi, lakin Zərdüşt (atəşpərəstlik) dininin sadiq ardıcılı olaraq qalırdı. Bizans imperiyasında isə mono-

Tarixşünaslığımız məsələlərin belə qoyuluşundan yan keçmişdir.

fızit təriqəti küfr hesab edilirdi. Albaniyada ve Adərbayqanda xristianlığın məhz monofızit təriqəti nisbətən geniş yayılmışdı.

602-ci ildə İran-Bizans müharibələri yenidən alovlanır. Dövlət çevrilişi nəticəsində Bizans hakimiyyəti Fokanın (602-6lO-cu illər) telinə keçir. II Xosrov keçmiş müttəfiqi Mavrikinin öldürülməsinə biganə qala bilmir və Bizansın səlahiyyəti altında olan Ölkələri (607 - 622-ci illər ərzində) işğal edir. 603-cü ildə alban katolikosu Viro Bizansa yaxınlaşmaq məqsədilə II Xosrova qarşı üsyan qaldırır. Bu zaman dini ehkamların sərbəst yerinə yetirilməsinə baxmayaraq, xristianlığın mövqeyi Albaniyada zəifləmişdi. Artıq xristian kilsə başçısının Çola^* şəhərində yerləşən mərkəzi Partav (ind. Bərdə) şəhərinə köçürülmüşdü. Xristianlığın mövqeyi burada da zəif idi, çünki Partavda xristianlarla yanaşı, köhnə dinlərə ibadət edən albanlar da yaşayırdılar. Sasani şahı II Xosrovun şərqdə kuşanlara qarşı və qərbdə Bizansa qarşı müharibə aparmasından istifadə edən Viro ve bir sıra .Albaniya xristian hakimləri mərkəzi tran hakimiyyətinə qarşı üsyan edirlər. Ancaq məğlubiyyətə uğrayırlar. Kimi həlak olur, kimi başqa ölkələrə qaçır. Viro isə özünü Ktesifona, şah sarayına çatdırır. Şahbanunun vasitəçiliyi ilə Viroya şah mərhəmət göstərir, lakin 25 il müddətinə sarayda nəzaıət altında saxlayır. II Xosrov onu katolikos rütbə- >indən və Albaniyadakı gəlir mənbələrindən məhrum etmir. Çox güman ki, Viro III Vaçaqanm nəslinə mənsub imiş və Sasani sülaləsinə qohumluğu çatırmış.

Bizansla müharibədə II Xosrovun işğalları Misirə və Egey dənizi sahillərinə çatırdı. Bizans hökmdarı İrakli (610-641-ci illər) Sasanilərə qarşı qəti hücuma başlayır. Azərbaycanın ərazisi də traklinin işğallarına mə’ruz qalır. 624-cü ildə Bizans ordusu Dvini keçərək Naxçıvanı, sonra isə Adərbayqanın Gəncə (Qanzax) şəhərini tutur və dağıdır, əhalisini əsir aparır. İrakli buradan Paytakarana yola düşür. İrakli Albaniya, İberiya və Armeniya hakimlərinə xəbər göndərir ki, «könüllü onun hüzuruna çıxsınlar, mənzil versinlər və onunla birlikdə ordusunu bütün qışı saxlasınlar. Əgər onlar bunu onun istədiyi kimi etməsələr, onda onlan bütpərəst hesab edərək, qalalarını tutacaq və ölkələrini bərbad edəcəkdİD>. Lakin Albaniya hakimləri II Xosrovun omrilə Partav şəhərini tərk edib müxtəlif yerlərdə gizlənirlər, bütpə-

Qaynaqlarda Çora kimi də yazılır. Adətən, Dərbəndlə eyniləşdirirlər. Lakin Çola Dərbəndə qədərki ərazidə yerləşirdi.

rəst, yəhudi ve xristianlardan ibarət əhalinin çoxu isə şəhərdə qalır. Bizans ordusu Uti vilayətində düşərgə salır və buranı viranə qoyur. Köməyə gəlmiş Sasani sərkərdələri traklini sıxışdırıb Syuniyə, oradan da öz ölkəsinə qovurlar.

626-cı ildə İraklinin tə*kidilə türk xaqanlığının hökmdan bir dəstə cəsur döyüşçünü Bizansa göndərir. Bu süvarilər Çolanı keçərək Kür sahili boyu iberlərin və yeqerlərin Ölkəsinə daxil olur. Qara dənizdən üzüb keçir və Bizans imperatorunun sarayına çatırlar. Onlar əhd-peymana sadiq qalacaqlanna and içib geriyə qayıdırlar. İttifaqa sadiq qalan xəzərlər başda Şat^*^ olmaqla Albaniya ərazisinə soxulur, buranı və Aderbayqanın bir hissəsini viran qoyurlar, bütpərəst ve xristianların bir hissəsini qınrlar. O, Araz çayı sahilində məskən salır ve II Xosrova xəbər göndərir ki, o. müttəfiqi Bizans imperatorunun ərazisini qaytarsın. Moisey Kalankətlinin məlumatına görə, II Xosrov Şata belə cavab göndərdi: «Get, öz hökmdanna və bizim qardaşımıza deginən ki, sizin nəsliniz çoxdan bəri menim ecdadlanma və mənə əziz qardaş kimi sayılı və ehtiramlıdır, biz bir-birimizlə qohum olmuşuq. İndi lazım deyil və sənə layiq deyil özününküləri qoyub menim nökərimin, Roma dəliqanlısının sözünə baxasan». Turkan^^ cavabla öz ölkəsinə qayıtdı. II Xosrov türk etnoslan ilə qohumluğunu xəzərlərə^ 1 xatırladır və onları Bizans imperatoru ilə əlbir olmaqda təqsirləndirirdi.

II Xosrovla xəzərlərin sövdası baş tutmur. 628-ci ildə xəzərlər ön Qafqaza basqın etdilər. Onlar ilk növbədə Albaniyaya yollanırlar. II Xosrovun Albaniyaya te'yin etdiyi hökmdar Qayşak Partavın müdafiəsini təşkil edə bilmir ve İrana qaçır. Vahiməyə düşmüş Partav əhalisi - həm yəhudi ve xristianlar, həm də bütpərəstlər şəhəri tərk edərək Arsax dağlarında gizlənirlər. Xristian, yəhudi və bütpərəst albanların xeyli hissəsi şeherdə qalır. Xəzərlər Arsax dağlanna qaçanları tə'qib etməyərək Tiflisə tərəf istiqamət götürürlər ve şəhəri tuturlar. Xəzər xaqanı və Irakli Tiflisdə müttəfiq kimi görüşürlər.

Sonra xəzərlər geri qayıdırlar. İrakli Albaniyanın Girdman (Qardman) vilayətinə gəlir. İrakli Girdman vilayətinin hakimi Varaz-

Şat - qedim türklərdə «şahzadə, öncö» me'nah rütbədir.

^ Turkan - türk dillərində «elçi» mə'nasını bildirir.

I Xosrov Ənuşirəvan türkxaqanıran qızına evlənmişdi. 0mumİ3^ətİə, Arşakilər və Sasanilərlə türklər qohumluq əlaqələri vasitəsilə bağlı olmuşlar. Parflar və Arşakilər sülaləsi tütklərlə qanşıq idi.

Qriqora xristianlığın xaİkedon (diofizit) təriqetini« ye*ni Bizans dövlət dinini qəbul etdirir (628>ci il). Buna qədər Varaz-Qriqor xristianlığın monofizit təriqətini saxlayırdı. 628-ci ildə II Xosrov sui>qəsd nəticəsində öldürülür» hakimiyyətə onun oğlu II Kavad Şiruyə gəlir. Qaynağın məMumatına görə, II Kavad «tabeliyində olan hökmdarlarla sülh yaradır. O, atasının saray həbsxanasında olan bütün məhbuslan azad edərək evlərinə buraxır. O, padşahlığının bütün hüdudlarına tərman göndərir, hamıya sevinc və şən həyat arzulayır. Öz padşahlığının hü- dudlannda o, hamını üç il ərzində vergi və gömrükdən azad edin>. O, 628-ci ilin aprel ayının 3-də İrakli ile sülh müqaviləsi bağlayır və II Xosrov tərəfindən tutulmuş toıpaqlan qaytarır. Həmin il alban kato- 1 i kosu Viro əsirlikdən azad edilir və öz ölkəsinə qayıdır.

II Kavadın hakimiyyəti cəmisi beş-altı ay çəkir. Onun vəfatından sonra, 628-ci ilin yayında Cebu xaqanın başçılığı ilə xəzər türk etnosları Tiflisi tutur və çapıb-talayır. Cebu xaqan oğlu Şatı oradan Albaniyaya göndərir.

Cebu xaqan eyni zamanda göstəriş verir ki, «əgər ölkənin ə’yan- ları və hakimləri mənim oğlumun görüşünə çıxsalar və ölkəni mənim itaətimə könüllü versələr, şəhər, qala və bazar qapılannı mənim ordumun üzünə açsalar, onda siz onlara yaşamağa, mənə xidmət etməyə imkan yaradın. Əgər yox (desələr), onda sizin gözləriniz İS yaşından böyük kişi cinsinə rəhm etməsin. Cavanlan və qadınları mənə və sizə xidmətçi kimi qulluq etmək üçün saxlayın». Şat Albaniyadakı Sasani mərzbanına (Sema Vşnaspa) və katolikos Viroya tabe olmaq barədə xəbər göndərir.

Albaniyanın Sasani mərzbanı ölkənin müdafiəsindən yayınaraq İrana qaçır. Moisey Kalankətli Virönun dindarlığını və Xristosun kölgəsi altında hər bir çətinlikdən xilas olmasını göstərmək naminə qeyd edir ki, Viro əvvəl xəzərləri qarşılamağa razılıq vermir, qaçıb Arsax dağlarında gizlənir, lakin xəzər süvariləri onu tapırlar. Belə olduqda, Viro Arsaxda toplaşmış e'yan, hakim və xristian din xadimlərini Çara- berd'*^ qalasına yığır və xəzər hökmdarına hədiyyələr hazırlamalannı tapşırır. Viro ə’yanlarla birlikdə hədiyyələri götürüb xəzər türklərinin qərargahına gəlir, öz ordusu ilə Uti vilayətinin Partav (Bərdə) şəhərinin yaxınlığında düşərgə salmış Şat böyük hörmətlə qonaqlan qəbul edir, nəvaziş gösterir və sözünü belə qurtanr; «(Qonşu ölkələrə) bir

Çaraberd fars mənşəli toponimdir və «dörd (çahar) qala» deməkdir.

yürüşlə mən sənə çoxlu adam və mal-qaranı ikiqat qaytararam, çünki mənim atam bu üç ölkəni - Albaniyanı, Lpinki və Çoram öz hakimiyyətinə qəbul etmişdir».

Beləliklə, 628-ci ilin payız mövsümünün əvvəlində Albaniya türk xaqanlığının hakimiyyəti altına keçir. Mətndən göründüyü kimi, əsasən xristian albanlar Arsaxda (Yuxan Qarabağda) yerləşirdi. Albaniyanın başqa vilayətləri, o cümlədən Uti vilayəti köhnə dini ibadəti saxlayan əhalidən ibarət olmuşdu. Əsasən türk mənşəli etnoslardan ibarət olan əhali xəzər türkləri kimi, bütpərəstliyə, həmçinin ataşpə- ix>stliyə sitayiş etdikləri üçün müqavimət göstərməmiş və türk xaqanlığının hakimiyyəti altına keçmişdir. Albaniyada ancaq xristianlıq tarixini qələmə almış Moisey Kalankətli qeyri-xristian albanlar barədə çox cüzi məUumat vermişdi. Halbuki xristianlığı qəbul etməyən albanlar çoxluq təşkil edirdilər. Bunlar öz din və dil birliyini saxlamaq üçün gah İran şahlarına, gah da hun-türk tayfalannın hakimiyyətinə pənah gətirirdilər. Azərbaycanda - istər Albaniyada, istərsə də Adər- bayqanda yaşayan xristianlar yerli əhalidən - əsasən türk və müəyyən dərəcədə fars etnoslarından ibarət idi.

630-cu ildə türk xaqanlığında daxili iğtişaşlar və hakimiyyət uğrunda mübarizə başlandı. II Kavadın ölümündən (628-ci il) sonra onun varisləri arasında Sasani taxt-tacı uğrunda mübarizə davam edirdi. Dörd il ɜı*zində İran taxtında on şah dəyişildi. Nəhayət, 632-ci ildə İranda hakimiyyətə III Yezdəgird (632-651-ci illər) gəldi. Bu müddətdə Albaniya türk xaqanlığının canişini tərəfindən idarə olunurdu. Onların hakimiyyətinin ilk dövründə Albaniyada, əslində Arsax vilayətində aclıq və vəba xəstəliyi yayılmışdı. Lakin tezliklə burada həyat qaydasına düşdü və ölkədə bolluq yarandı.'^^ Türk xaqanlığı Albaniyada vergilərin vaxtlı-vaxtında yığılmasına nəzarət edirdi. 630-cu ildə Cebu xaqan sərkərdə Çorpan tarxanın'^^ başçılığı altında Armeniyaya üç minlik ordu göndərdi. Sasani məi-zbanı orduda xidmət edən türk süvarilərinin rəisi, türk etnosuna mənsub olan Honahı^^ Çorpana qarşı göndərdi. İki türk dəstəsi GÖyçe gölünün

Alban katolikosu bunların hamısını allahın idarəsilə bağlayır, bizim tarixçilər isə xəzərlərin əməlləri kimi qiymətləndirirlər. Halbuki Moisey Kalankətlinnn mətni göstərir ki, ölkədə bolluq türk xaqanlığının hakimiyyəti dövründə baş vermişdi.

Tarxan qədim türklərdə rütbə idi və «ə’yan, əqraba» mə’nasını daşıyırdı.

Honah adı əslində huk//hon etnonimindən əmələ gəlmişdir.

sahilində (Anneniya uğrunda) döyüşə girməli oldular. Burada Sasani ağalığının müdafiəsinə qalxmış Honah məğlub oldu. Döyüş gedən yer Azərbaycan türkləri yaşayan ərazi idi və onlar etnik və dil cəhətdən həm türk mənşəli albanlara, həm də türk xaqanlığının türkdilli əhalisinə qohum olduğundan çox güman ki, türk xaqanı azəri türkləri yaşayan ərazini öz hakimiyyəti altına almaq istoyirdi.^^ Qələbə nəticəsində Göyçə gölü sahil boyu türk xaqanlığına tabe edilir. Türk xaqanlığında baş vermiş həyəcanlara (630 - 632-ci illər) baxmayaraq, Albaniya və azərbaycanlılar yaşayan digər qonşu ərazilər xaqanlığın siyasi tə'siri altında qalırdı. Demək olar ki. bu dövrdə Azerbaycanda yaşayan və köhnə dini baxışları saxlayan türk etnoslarının siyasi cəhətdən dirçəlişi, dil cəhətdən başqa türk dillərindən fərdiləşməsi sür'ətlə- nirdi. Bizans-İran siyasi hərc-mərcliyi, Azərbaycanda və qonşu ölkələrdə ağalıq üstündə mübarizə bir tərəfdən xristianlığın mövqeyini zəiflətdi, digər tərəfdən isə köhnə dini ehkamları saxlayan əhalinin türk etnoslarının siyasi üstünlüyü şəraitində birləşməsini tə'min etdi.

Mehranilər sülaləsi. VII əsrin əvvəllərindən Albaniyada Mehra- nilər sülaləsinin hökmranlığı başlayır. Bu sülalənin hakimiyyəti öncə Albaniyanın Girdman (ind. Şəmkir, Qazax ərazisi) vilayətində bərqərar olmuş, sonra isə mərkəz Partav (ind. Bərdə) şəhərinə keçmişdi. Moisey Kalankətlinin qeyd etdiyi rəvayətə görə, sülalənin banisi hesab edilən Mehran Sasani şahı 11 Xosrov ilə qohum imiş. II Xosrov Bizans imperatoru Mavrikinin köməyilə Sasani taxt-tacını geriyə qaytardıqdan sonra (59l-ci il) atasının öldürülməsində təqsiri olan adamlara qarşı cəza tədbirləri görməyə başlayır. Qətldə bamıağı olan Mehran 11 Xosrovun qəzəbindən qorxaraq Albaniyaya qaçır. Göstərilən qaynaqda yazılır ki, «o, özü ilə nəslinə mənsub 30 min ailə götürüb Albaniyaya keçir və Uti vilayətinə gəlir. Oradan isə xəzərlərin yanına getmək və düşmənlərе qoşulmaq istəyirdi». Bu məMu- matdan görünür ki, Mehran və onun tərəfdarları türklərlə birleşməyə meyl edirdi. Guya, II Xosrov Mehranın düşmənlərə qoşulmasından

Çox təəssüf ki, tarixşünaslığımız b« dövrdə türk etnoslarının (hun- xəzər) Azərbaycana hücumlarını birtərəfli, oıta əsr xristian tarixçilərinin nöqteyi-nəzərindən işıqlandınnışlar. Azərbaycanın qeyri-xristian əhalisinin etnik və dil birliyi naminə, baş vermiş hadisələri, ümumiyyətlə, düzgün araşdırmamışlar. Nəticədə Albaniya yanlış olaraq başdan-başa xristian ölkəsi kimi qələmə verilmişdir.

qorxaraq e*yanlann məsləhəti ilə ona öz padşahlığında qalmağı təklif etmişdir. Xosrovun Mehrana müraciətində deyilirmiş: «Mənim əziz qardaşım. Sen məni kinlə tərk etmə. Əgər sen mənim yanımda yaşamaq istəmirsənsə, onda menim məktubum senə yetən yerdə ayaqla keçə bildiyin qədər özünə mülk götün>. Guya bu xəbəri Mehran dağ ətəyində yerləşən Girdman vilayətində almış, orada Mehravan şəhərini saldırmış və onunla gələn ailələrlə birlikdə həmin yerdə məskunlaşmışdı.

Bu rəvayətin tarixi həqiqətə uyğun olub-olmaması şübhəlidir. Lakin aydındır, ki, rəvayət II Xosrovun hakimiyyəti dövründə, VI əsrin sonunda meydana gəlmiş və Girdman sülaləsinin kökünü tran mənşəli etnosla bağlamışdı. Belə bir əfsanənin meydana gəlməsi üçün münasib tarixi şərait mövcud idi. Sasani imperiyasının 11 Xosrovun hakimiyyəti illərində yüksəlişi zamanı Mehranilər sülaləsinin trandan çıxması əfsanəsi yarana bilərdi. Lakin bu sülalə nümayəndələrinin gah Bizans, gah da türk meylli (hun) siyasəti əfsanənin tarixi həqiqətə uyğun olmasını təkzib edir. Əslində Girdman vilayəti VI əsrin 70-ci illərində türk mənşəli sabir tayfalan tərəfindən məskunlaşmışdı. 574- cü ildə Bizans ordusu Albaniyaya daxil olanda, K.ür sahilində sabir və alan etnoslarına rast gəlmişdi. Həm Bizans, həm də İran sabirlərin hərbi qüvvəsindən istifadə edirdi. Çox güman ki, Mehranilər sülaləsinin əsasını sabirlər qoymuşlar, lakin sonraiar sülalə İran mənşəli nəslə şamil edilmişdir. Be’zi tarixçilər qaynaqların dərinliyinə vaıma- yaraq, Mehranilər sülaləsini fars mənşəli hesab edir və onların məskunlaşmasını Sasanilərin indiki Ermənistan və Gürcüstan sərhədində yerləşən Girdman vilayətində möhkəmlənmək tədbiri kimi qələmə verirlər. Lakin Bizansla 59I-ci il müqaviləsinə görə, Albaniya Girdman, Tiflis və Dvinə qədərki ərazi daxil olmaqla Sasanilərin hakimiyyəti altında qalmışdı. Bu geniş ərazidə azəri türkləri üstünlük təşkil edirdi. Girdman vilayətində albanlarla yanaşı, dil və etnik cəhətdən onlara qohum olan sabirlər də yaşayırdılar. Mehranilər sülaləsi alban- sabir mənşəli olmaqla, siyasi şəraitə uyğun olaraq, tədricən bütün Albaniya üzərində öz hakimiyyətini bərqərar edirdi.

Mehran (570-590-cı illər), qaynağın mə’lumatına görə, yerli ə’yanlardan 12 nəfəri öldürüb bütün Girdman vilayətinə sahib olur. Bundan sonra, o, uzun müddət dinc şəraitdə yaşayır. Onun nəticəsi Cəsur Vardan (600-6 l5-ci illər) Girdman qalasını tikdirir. Vardan xristian dininin sərbəst ibadəti döviündə monofizit e’tiqadını qəbul

etmişdi. O, guya Arani*^*^ nəslinin 60 nümayəndəsinə zəhər verib öldürmüş və Albaniyanın sahibinə çevrilmiş, həmçinin Qafqaz tayfalarını özünə tabe etmişdi. Onun nəvəsi, xristian adı qəbul etmiş Varaz- Qriqor (625-636-cı illər) Bizans imperatoru traklikin Qafqaza yürüşü zamanı hələ Girdman vilayətində idi. Gürcü qaynaqlannm me’luma- tına görə, 628-ci ildə o, İraklinin tə’sirilə xristianlığın diofizit e’tiqa- dını qəbul etmişdir. Bununla da Varaz-Qriqor Bizans xalkedon ideologiyasına tərəf yönəlir və Bizans imperiyasının siyasi tə'siri altına düşür. Bu zaman türklər (xəzərlər) Bizansla ittifaqa girmişdilər və Sasanilərə qarşı mübarizə apanrdılar. Çox güman ki, belə şəraitdə Varaz-Qriqor Albaniyanın hakiminə çevrilmişdi. Lakin Varaz-Qriqor dini e’tiqadına görə, alban xristianlığından fərqlənirdi. 630-cu ildə Sasani əsirliyindən qayıtmış katolikos Viro onu xristianlığın monofizit təriqətinə qaytardı.

Varaz-Qriqorun varisi Cavanşir (636-680-ci illər) bütün Albaniyanın hakiminə çevrildi. O, Partav şəhərini paytaxt etdi. Hakimiyyətinin ilk dövründə Sasani şahı III Yezdəgirdə tabe olan Cavanşir onun tərəfində ərəblərə qarşı vuruşurdu. Sasani imperiyası dağıldıqdan (651 -ci il) sonra ərəb xilafətindən asılı vəziyyətə düşdü. Ərəb xilafətində daxili çəkişmələr, toqquşmalar başlayan zaman Cavanşir Qafqazın digər feodallan kimi Bizans imperatorunun tərəfinə keçdi. II Konstantin (64 l-668-ci illər) onu öz himayəsi altına aldı. Bizans im- peıtıtorunun sayəsində Cavanşir Iberiya sərhədlərindən Araz çayına və Hun darvazalarınadək^® bütün ərazini əhatə edən Albaniyanın hakiminə çevrildi. Lakin tezliklə xəzərlərin Albaniyaya hücumları təkrar olundu. Cavanşir ölkəsini işğallardan qorumaq məqsədilə Xəzər xaqanının qızına evləndi və müəyyən dərəcədə xaqanlıqdan asılı vəziyyətə düşdü. Lakin tezliklə ərəb xilafəti yüksəliş mərhələsinə qədəm qoydu. Cavanşir cənubdan gələn təhlükəni Albaniyadan sovuşdurmaq məqsədilə ərəb xilafətinin qüdrətinə sığınırdı. Albaniyanın bütövlüyünü saxlamaq naminə Cavanşir ərəb istilası dövründə yaranmış mürəkkəb siyasi vəziyyətdən çıxmaq üçün hər bir imkandan istifadə edirdi. Lakin Azərbaycanın ərəblər tərəfindən işğalı da yaxınlaşırdı.

Qaynaqda Eranşahik adlandırılmışdır.
Dərbənd keçidi nəzərdə tutulur.

## § 5. İQTİSADİYYAT VƏ MƏDƏNİYYƏT

İqtisadi və sosial həyat. Azərbaycanda ən'ənəvi təsərrüfat sahələri - əkinçilik, maldarlıq və sənətkarlıq bu dövrdə də inkişaf edirdi. Məhsuldar əkin torpaqlarına, dağlıq ərazilərdə geniş otlaqlara malik olan Azərbaycanın təbii coğrafi mühiti əkinçilik və maldarlığın inkişafı üçün əlverişli olmuşdur. Əhali taxıl bitkiləri (arpa, buğda, dan, çovdar, düyü və s.) becərirdi. Taxılın becərilməsi, biçilməsi və döyülməsi ən'ənevi qaydalar üzrə aparılırdı. Əkində xışdan, biçində kərənti və oraqdan, döyümdə xırman və kəmdən istifadə edilirdi. Taxıl məhsulunu uzun müddət saxlamaq üçün evin damında, yaxud eyvanlarda xüsusi taxıl quyuları qazırdılar. Taxılı eyni zamanda iri gil küp qablarda və xüsusi toxunmuş səbətlərdə saxlayırdılar. Qədim və erkən orta əsr Azərbaycanında dəmyə əkinçiliyi (dağ və dağətəyi yerlərdə) ilə yanaşı, sün'i suvaima (aran yerlərdə) əkinçiliyi də geniş yayılmışdı. O dövr suvarma kanallarının izləri (Kovurarx) müasir dövrə qədər qalmışdır.

Azərbaycanda bağçılıq və bosiançılıq sahəlorn de inkişaf edirdi. Burada alma, armud, alça, qoz, tut, nar, zoğal, əncir, şaftalı, gilas, şabalıd, üzüm, zəfəran, boyaqotu (marena), zeytun da becərilirdi. Azərbaycandakı meşələrdə cır meyvə və müxtəlif növ ağac da bitirdi. Azərbaycanın dəniz və çaysahili ərazisinin sakinləri balıqçılıqla məşğul olurdular.

Ölkənin təbii şəraiti əhalinin oturaq həyat sümıəsinə və yaylaq maldarlığı ilə məşğul olmasına imkan yaradırdı. Maldarlıq əhalini süd ınə'mulat! (yağ, pendir, şor, qatıq, qaymaq və s.), yun, gön, dəri, ət və s. ilə tə'min edirdi.

Sənətkarlar yun, kətan və ipəkdən istifadə ederak müxtəlif növ parçalar hazırlayırdılar. Yunu yun darağında darayır, teşidə (iy: əvvəl gildən, sonra ağacdan hazırlayırdılar) əyirir, toxuma dəzgahlarında hörürdülər. İpək istehsalı geniş yayılmışdı. İpək istehsalının mərkəzlərindən biri Bərdə şəhəri idi. Bərdə ipəyi İrana göndərilirdi. Dərbənddə istehsal edilən kətan parça qonşu ölkələrə aparılırdı.

Azərbaycanın erazisində dəmir, qızıl, gümüş, mis və başqa metallar, tikinti üçün daş və mərmər, meşə ağacları hasil olunurdu. Sənətkarlar bunlardan müxtəlif əşyalar hazırlayırdılar. Qab-qacaq istehsalı geniş yayılmışdı. Müxtəlif növ saxsı və şüşə qablar istehsal edirdilər. Zinət (bəzək) əşyalarının hazırlanmasına da diqqət verilirdi.

Azərbaycanın ərazisindən müxtəlif istiqamətlərdə ticarət yollan keçirdi. Ticarətdə quru və su yolları əhəmiyyətli yer tuturdu.; Ölkədə daxili və xarici ticarətin genişlənməsi əmtəə-pul münasibətlərinin in< kişafına şərait yaradır, Sasani pulları və yerli sikkələr dövriyyə edirdi.

Sənətkarlığın və ticarətin inkişafı nəticəsində şəhər həyatı canlanırdı. Erkən orta əsrlərdə Azərbaycanın bir sıra şəhərlərinin adlan qaynaqlarda yad edilir. Bu dövrün şəhərləri cərgəsinə Dərbənd, Bərdə (Partav), Qəbələ (Kapalä), Çola (Çora),.Hunarakert («Hunlar kəndi»), Paytakaran, Təbriz, Şiz, Ərdəbil (yaxud Artavet), Naxçıvan (Naxçuan), Gəncə (Qanzax), Şəki (Şaki), Şəmkir, Şabran Xalxal. Amaras, Beyləqaıtvə başqaları daxil idi. Azərbaycanın şimala gedən yolları üzərində şimal tayfalarının axınının qarşısını almaq: üçün sədlər çəkilmişdi. Bir qoşa divar Beşbarmaq dağından dənizə kimi uzanırdı. Şirvan səddi (Gilgilçay boyu) Beşbarmaq divarından 23 km şimalda, Çıraq-Qala bu səddin üzərində, digəri Samurçayındaıi:şimalda, ən əzəmətli müdafiə səddi isə Dərbənd yanında tikilmişdi. Dər? bənd səddi dağ təpəsindən dənizə uzanırdı. Səddin qalıqları: (bəıpa olunmuş) indi də dumr. Səddin orta hissəsində qala tikilmişdii

Sədlərin tikilməsi ilə kifayətlənməyən Sasanilər Azərbaycanın şimal hissəsində özlərinə siyasi dayaq yaratmaq istəyirdilər. Bu məqsədlə İrandan Albaniyaya fars ləhcəli əhali köçürüb, orada məskunlaşdırırdılar. Sasanilərin köçüiTnə siyasəti eyni zamanda torpaqsız İran əhlini münbit toıpaq sahələri ilə tə’min etmək məqsədi güdürdü. İrandilli əhali şimaldan cənuba uzanan və strateji əhəmiyyəti olan yollar ətrafında məskunlaşdırılırdı. Bunlar indi tat adlanırlaı*. Tatların dili pəhləvi-fars dilinin ləhcəsi kimi formalaşmışdı. Dini baxımdan atəşpərəst və bütpərəst olan tatlar Albaniya şəraitində qismən xristianlıq və yəhudi dinini qəbul etdiləri Çox güman ki, köçürülən tatların hamısı farsdilli deyil, bir qismi tat ləhcəsini də bilən türk əhli olmuşdu. Onlar yerli türk etnoslarının qonşuluğunda məskən salaraq bu etnosların dilinin və mədəniyyətinin tə’siri nəticəsində yerli.əhali ilə qaynayıb-qarışırdılar. Bu regionlara yaxın ərazi tədricən Dağıstan (ləzgi qrupunda) dillərində danışan əhali tərafından də məskunlaşırdv. Tarixin müxtəlif dövrlərində buraya köçürülmüş fars və ləzgidilli əhalinin yanına eyni etnosların axını baş vermişdi. Farsdilli lahıclar İranın Lahıc kəndindən İsmayıllı rayonuna köçürülmüşdülər. Neft sənayesinin inkişafı ilə əlaqədar Abşeronda t|at əhalisinin, sayı,artmış- d 1. Azərbaycanın Ta 1 ış-Masallı-Lerik bölgəsində Xəzərin; cənub-qər- bindən şimala doğru hərəkət edən farsdilli tayfalar məskunlaşmışdı.

Bu etnik yerdəyişmələr yeni torpaq sahələrini mənimsəmək məqsədindən irəli gəlmişdi. Eyni sözləri Kəlbəcər-Qubadh-Zəngilan ölkəsində vaxtilə məskunlaşmış kürdlər haqqında da demək olar. Cənubi Azərbaycanın qərb zonaları da kürdlər tərəfindən tədricən mənimsənilmişdi. Tarixi inkişaf nəticəsində bu gəlmə etnosların bir qismi azəri türkləri ilə qaynayıb-qarışmışdı.

lll-VII əsrlərdə Azərbaycanda feodal münasibətləri inkişaf edii* və feodal istismarı möhkəmlənirdn. İctimai və mülki bərabərsizlik getdikcə dərinləşir, feodal istehsal üsulu bərqərar olurdu. Hakim dairələrin elində geniş torpaq sahələri cəmlənirdn, feodallar və asılı (xristian təsəiTÜfatında isə təhkimli) kəndlilər sinfi yaranırdı. Feodallar arasında iri və xırda feodal təbəqələri formalaşırdı, tri feodallar palrik (Bizans qaynaqlarında), xırda feodallar azat (İran qaynaqlarında) adlanırdılar. Feodal münasibətləri dini idarələri də bürümüşdü. Toıpaq sahələri olan mə’bəd və kilsələrə əhali dini ibadət xətrinə vergi verməyə və müəyyən mükəlləfiyyətləri yerinə yetirməyə məcbur edilirdi. Aquen (xristian) yığıncağı kilsənin xeyrinə toplanan vergilərin miqdannı varlı və yoxsul təbəqələr arasında müəyyən etmişdi. Azərbaycanda erkən orta əsrlərdə müxtəlif dini ehkamlar (zərdüştlük- atəşpərəstlik, bütpərəstlik, qismən yəhudi və xristian) mövcud idi. Albaniyada azat anlayışı hakim və orta təbəqələri bildirirdi. Aquen yığıncağının (xristian) qanunlannda belə feodallar azat mard (fars, «azad, nəcib adam») və azat ark (türk, azad, nəcib ərlər)^^ adlandırılırdı. Feodal torpaq mülkiyyəti dastakert adını daşıyırdı. Belə torpaqlar kəndlilərə icarəyə verilirdi.

Kəndli sənətkarlar və s. yoxsul təbəqələr, əsas istehsalçılar şina- kan və ramik^^ adlanırdılar. Onlar qismən torpağa təhkim olunmuşdular. Alban hökmdarlannın və yəqin ki, feodal dairələrinin xususi mülkiyyətində geniş torpaq sahələri və asılı kəndli ailələri var idi. Lakin təhkimçilik qeyri-xristian təsərrüfatında yayılmadı, burada feodaldan asılı kəndli təbəqələri yarandı.

Azərbaycanda zəhmətkeş təbəqələr bir tərəfdən yerli feodallann, digər tərəfdən Sasani hakim dairələrinin zülmünə qatlaşmalı olur-

Bu ifadələrdə türk mənşəli ər/ar (-k cəm şəkilçisidir) tran mənşəli mard sözünün eyni mə’nalı müqabilidir. «Azad ər» türk mənşəli sosial məfhumun işlənməsi bir daha ona dəlalət edir ki, əslində Albaniya xristianları dn əsasən türk mənşəli olmuşlar.

Şinakan «kənd sakini», ramik «əhl, şəhər əhli» mə’nasınt daşıyır. Bunlar fars mənşəli sözlərdir.

dular. Azərbaycan (xüsusilə Albaniya) iqtisadiyyatının sabit və ardıcıl inkişafını xarici müdaxilələr - Bizans, Armeniya, tran hökmdarlarının yürüşləri, şimal tayfalannın hücumlan və daxildə dini ideologiyalar arasında gedən çəkişmə ləngidir, təsərrüfat həyatına zərər vurur və əhalini var>yoxdan çıxanrdı.

Mədəniyyət. Azərbaycanın erkən orta əsr mədəniyyəti mürakkəb siyasi şəraitdə inkişaf edirdi. Şəhərsalma ən'ənəsi qədim zamanlar meydana gəlmiş və erkən orta əsrlərdə də davam etdirilirdi. Qaynaqlardan məUumdur ki, 11 Vnçe şəhər saldırmış və adını da Sasani hökm- darlannın şərəfinə Firuz qoymuşdu. Çox güman ki, Azərbaycanda müxtəlif binalar tikən ixtisaslı me’marlar olmuşdur. Şimal qoşa sədlərinin, saray, mə’bəd və kilsələrin inşası me'marların rəhbərliyi altında həyata keçirilirdi. Şimali Azərbaycanın örazisində Torpaqtala (Alazan çayı sahili), Govurqala (Ağdam rayonu) və Şabranda (Dəvəçi rayonu) erkən orta əsr yaşayış kompleksləri aşkar edilmişdir. Bu dövr mə’bədləri Qəbələ, Qax (Ləkit mə'bədi), Qarabağ, Şəki, Zaqatala, Mingəçevir, Ağdam, Kəlbəcər, Laçın, Qubadlı və s. bölgələrdə salınmışdı. Alban mə’bədləri xristianlığın yayıldığı dövrdə kilsə tikintilərinin bünövrəsini təşkil edirdi. Cavanşir (İsmayıllı r.-nu), Carabert (farsca «dörd qala», Ağdərə r.-nu) qalalan erkən orta əsrlərdə salınmışdır.

Erkən orta əsrlərdə qəbirlərin inşası çeşidli aparılırdı. Qəbir formaları xüsusilə Albaniyanın ərazisində müxtəlif olmuşdur. Əvvəlki qəbir formalarının bir qismi bu dövrdə də davam etdirilirdi. Albaniyada küp və daş qutularda, katakombalarda dəfnetmə ayini öz varlığını saxlayırdı. Xristian və müsəlman dəfn ayini qədim basdınna adətinin tətbiqini məhdudlaşdırdı.

## § 6 AZƏRBAYCANDA XRİSTİANLIQ

Köhnə dini e’tiqadlar. Erkən feodalizm dövründə Azərbaycan əhalisi xristianlığı və islamaqədərki köhnə dini e’tiqadlarını-bütpərəstliyi, atəşpərəstliyi, müxtəlif səma cisimlərinə və təbiət hadisələrinə ibadəti, cürbəcür əşyalara inamı qoruyurdu. Bu dini inamlar və e'tiqadlar quldarlıq cəmiyyətinin qalığı kimi erkən feodalizm dövründə də öz varlığını saxlayır, yeni meydana gəlmiş dünyəvi dinlərlə qarşı-qarşıya dururdu. Qədim dinlərə çoxallahlılıq (politeizm) səciyyəvi idi. Azərbaycanda təkallahlığa (mokoteizmə) keçid mürəkkəb, tam müstəqil dövlət quruluşunun olmaması şəraitində baş verirdi. Tək

allatia ibadət ilk defə zərdüştlük dininin ehkannı kimi yayılırdı, lakin zdrdüştluk'dünyevi dinə çevfilmədi. Onun təkallahlığa çağırışı Azerbaycanda (eləcə də tranda) atəşpərəstlik dini ehkamına qarışdı.

Azərbaycanda mövcud olan köhnə dini inamlar barədə qaynaqlar az rne'lumat verir. MəMumdur ki. Sasanilərin hakimiyyəti illərində Mani, sonra məzdəkilərin dini tə'limi xalqın yaxşı və xoşbəxt həyat arzülanna uyğun gəlirdi. Bu təslimlərdə xeyirlə şərin mübarizəsi ideyası zərdüştlük dininin tə'siri altında meydana gəlmişdi. Yer üzərində ədalətin təntənəsini tələb edən bu dini tə'limlər hakim sinif tərəfindən məhv edildi, tranda və başqa yerlərdə olduğu kimi. Azərbaycanda da əhali sosial və iqtisadi istismardan qurtuluşu köhnə dinlərə séçda etməkdə görürdü. Köhnə dinlərdən biri atəşpərəstlik, yəshi'oda sitayiş idİ: Oda sitayiş Sasani imperiyasında dövlət dini səviyyəsinə qaldınlrnışdı. Azərbaycan əhalisi arasında da oda sitayiş geniş təmsil olunmuşdu. Bundan başqa, Albaniyada və Adərbayqanda azeri türkləri başqa türk etnoslarında olduğu kimi, günəşə, aya, göyo, suya və pirlƏre sitayiş edir, həzir deyir, sehrbaz və rəmmallara ınüın- ciətedimişlər. Qedim və sonrakrdövrlərdə sehr, cadu və rəmmallıqla adarhlarm taleyi, eniin^amanlığı, xəstəliyi və s. barədə əvvəlcə mə'lumdt Verir, müxtəlif xəstəlikləri müalicə edə bilirmişlər. Bunlara inam o qədər dərin idi ki, Azərbaycanda xristianlığı yayanları, ilk liüvbéde sehr; cadu və rəmmallıqla məşqul olanları cəzalandırırdılar. Qaynağın məMumatına görə, III Vaçaqan «cadugər, rəmmal və kahinlərin çoxuna xəsarət yetirmək, yaxud qovmaq, ya da qula çevirmək əmrini verir, bir qisminə isə'öyüd-nəsihət verir, xaç suyunasalma mərasimi vasitəsilə allahı ddrketmə yoluna gətirirdi». Onun göstərişilə bütxana (mə'bəd) düzəldənlərə, bütlərə ibadət edənlərə, kahinlərə və b. işgəncə verir, çubuqla döyürdülər. Lakin bunlara baxmayaraq, köhnə dinlərə sitayiş, qədim adət-ən*ənələrə sədaqət Azərbaycan əhalisi arasında öz varlığını saxlayırdı. Köhnə inamların bir çoxunun qalığı: pirlərə getmə, ağac və daşlara, əcdadlara inam, sehr və rəmldən istifadə həm xristianlıqda, həm də islamda mövcuddur. Köhnə inamların yüzlərlə nişanəsi Azərbaycanda qalmışdır. Burada xristianlığı yaymaq istəyən din xadimləri köhnə din tərəfdarlarını bütpé'rest, yaxud öd allahına inanan, zalım divlərə sitayiş edən, büt- xan^; yaxud rhe*bəd tikən, dönük, dinsiz və kafir yaramazlar adlan- dınfdılaf. -

XristianUğın geniş və sərbəst təbliği dövründə (V əsrin sonu-VI əsrin əvvəli), Bizans-İran müharibələrinnn gedişində (VII əsrin 20-ci

i Merində) Azerbaycan əhalisinin əksəriyyəti həm Albaniyada, həm də Aderbayqanda köhnə dini inamlannı saxlayırdı. Eyni zamanda xarici siyasi qüvvələr bir tərəfdən hun türkləri, diger tərəfdən bə’zən xristianlığa rəğbət bəsləyən, lakin ona Bizans imperiyasının ideologiyası kimi baxan Sasani şahlan Azəri^aycanda köhnə dinləm ibadət edən əhalinin harayına çatırdılar. Onlar əsasən xristianlığa meyl göstərməyən, vahid dilə, dinə və əraziyə malik olan türk etnosları, azəri türkləri idilər. Ərəb işğalı zamanı, əsasən türk-Azərbaycan dilində danışan əhali islam dinini qəbul etmiş və vahid xalq kimi birləşmişdi.

Xristianlığın ilk addımları. İlk zamanlar Azərbaycanda xristianlıq təbliğat (missionerlik) yolu ilə yayılırdı. Fələstindən gəlmiş erkən xristian təbliğatçıları Yerusəlim (Qüds) kilsəsi ile bağlı idilər.

Xristianlıq I-II əsrlərdə Fələstində meydana gəlmiş və buradan bütun dünyaya yayılmışdı. I əsrdə Fələstində Roma ağalığına və yerli yəhudi ə’yanlarının istismarına qarşı geniş xalq kütlələrinin üsyanı baş verir. Lakin üsyan yatınlır. Sağ qalmış üsyançılar Kiçik Asiya, Yunanıstan və İtaliyaya qaçırlar. Üsyan vasitəsilə həyat tərzini dəyişə bilməyən kütlələr dində təsəlli axtarmağa başlayırlar. Yoxsul təbəqələr arasında belə bir dini müddəa yayılır ki, guya yəhudi allahı Yaxve ve’d etdiyi məsihe, yə’ni Xristos^* yer üzünə adi bir moəzzin sifətində gəlmiş və insanlara mə’nəvi azadlıq gətimiış və sonradan yenə qeybə çəkilmişdir. Guya İsus Xristos qiyamət zamanı ikinci dəfə ilahi xilaskar kimi zühur edəcək, şər qüvvələr üzərində qəti qələbə çalacaq, dindar və dinsizlərin payını xidmətlərinə görə verəcəkdir.^2 Mesihənin gəlməsinə inamdan yaranan xristianlıq əvvəl yoxsul təbəqələr, III əsrdən e’tibaran isə e’yanlar və Roma imperiyasının dövlət işçiləri, hərbçilər və varlı təbəqələr arasında da yayılmışdı.

Xristos - yunanca «allahdan xeyir-dua almış» deməkdir.

İsus Xristos əfsanəvi şəxsiyyətdir. Onun adı ilə bağlı olan xristian dini tə'limi İncildə (yun. yevangeliya «xoş xəbər») əks olunmuşdur. Əfsanəyə görə, İsus (İsa peyğəmbər) allalun iradəsilə Mariyadan (Məryəm) ayıbsız törəmişdir. O, ilahi insan hesab edilirdi. Xristian tə’limi onu «üç mahiyyətli», yəni allah, allahoğlu və müqəddəs ruh kimi qələmə verirdi. İsus Xristosıın «üç mahiyyətinin» fərqli izahı xristian dinini müxtəlif qollara, (pravoslav, katolik, protestant) və təriqətlərə parçalanmışdı. Pravoslaviye («düzgün ibadət», «allahın düzgün tərənnümü») xristianlığın şərq qolunu təşkil etmişdi. ön Qafqazda, o cümlədən Azərbaycanda meydana gəlmiş erkən orta əsr kilsələri pravoslav dininin müxtəlif təriqətlərinə mənsub olmuşdur.

Artıq V əsrdə Şərq xristianlığı xalkedon^^ monofızit^^ və nestorian^^ tə’limlərinə bölünmüşdü. Monefizitlik Albaniyada, nestorianlıq Adər-bayqanda məskunlaşmış suriyahlann arasında təmsil olunmuşdu. Şərqdə xristianlığı ilk dəfə yayanlar da Suriya aramiləri olmuşduı. Xristianlığın yayılması İsus Xristosun şagirdlərinin-apostollann^^ fəaliyyəti ilə bağlıdır.

Albaniyada ilk dəfə xristianlığı yayan apostol Faddey olmuşdur. O, Yemsəlim xristian mərkəzilə bağlı idi və xristianlığın təbliğilə əlaqədar olaraq 1 əsrdə Aderbayqana, Artaz vilayətinə^^ gəlmiş, lakin burada şəhid **olmuşdur.^8** Onun şagirdi Yelişa Yerusəlimdə yepis- kopluğa ittihaf olundu və təbliğat uçün Şərq ölkəsini (Albaniyanı) seçdi. Yelişa İranı (Aderbayqanı) keçərək maskutların^^ yanına gəlir və Çolada^O xristian dininin təbliğinə başlayır. Yelişa Uti vilayətinə, sonra isə Qis^* kəndinə gəlir və burada kilsə tikdirir. Geri qayıdarkən atəşpərəstlərin ibadətgahı yerləşən **Zerquni**^^ dərəsində şəhid olur. Xristian ən’ənəsi Yelişanın fəaliyyətini Çola, Lpiniya və Albaniya ilə

**4SI-CĪ** ildə çağırılmış Xalkedon məclisinin adından əmələ gəlmişdir. Burada diofizit, yə’ni Xristosun ikili ilahi mahiyyətini tanıyan təriqət təsdiq edilmişdir.

Monofızit - «bir mahiyyətli». 499-cu ildə Efes məclisi təsdiq etmişdi, lakin Xalkedon məclisi bu təriqəti pisləmişdi. Monofızit tə'liminə görə Xrisios ilahi və-insani mahiyyətə yox, yalnız ilahi mahiyyətə malik olmuşdur.

Din xadimi Nestorun adı ilə adlanır. 43t-ci il Efes məclisində pislənmişdir. Onun tə’liminə görə, Xristos insan olmuş, sonra qəfildən müqəddəs ruh tərəfindən məsihəyə çevrilmiş və allah sözü (yun. loqos) onun simasında çəmiəşmişdir. Nestorian təriqəti əslində Xristosu «iki mahiyyətli», yə’ni allah oğlu və İsa adı altında insan hesab edirdi.

Yunanca onlar apostol «elçi» adlanırdı. Xristosun ə&anəvi 12 şagirdi apostol adını daşıyırdı. Onlar Xristosun tə’limini, ye’ni xristianlığı təbliğ edirdilər. Xristian ruhani vəzifələri yarandıqdan sonra xristianlığın təbliği yepiskoplar *{yun.* nəzarətçi) tərəfindən həyata keçirilirdi.

Artaz - *ind.* Maku şəhəri (Cənubi Azərbaycan).

Qaynaq onu öldürəni,Armeniya hökmdarı Sanatörk adlandırır. Çox guman ki, Sanaturk Adərbayqan hökmdan kimi Armeniyanı da idarə edirmiş.

Maskutlar, yaxud massagetlər Azərbycanda Beşbarmaq - Dərbənd arası ərazidə yaşayırdılar.

Çola maskutlar, massagetlər (türk etnosları) yaşayan ərazi idi. Kiçik Qafqazla Dərbənd arası ərazini tuturdu. İndi də ora ÇuIlu adlanır.

Qıs *{ind.* Kiş)-Kür çayının sol sahilində Qəbələ yaxınlığında yerləşirdi. Yəqin ki. Qis Çola vilayətindən buraya köçüb gətmiş Qafqaziber dil ailəsinə mənsub olan etnosların dini mərkəzi olmuşdur.

3erqun («zərli, qızıllı») güman ki, fars-türk mənşəli toponimdir.

bağlamışdı. Albaniyada (Qisdə) ilk kilsə bilavasitə Yenısəlimdən gəlmiş apostol tərəfindən tikdirilmişdir. Qis kəndində tikilmiş kilsə, qaynağın mə’lumalına görə, «şərq kilsələrinin anası idi». Məhz bu məziyyətinə görə. Qis və onun ətrafı xristianlığı qəbul etmişdi. Bura Qafqaz dil ailəsinə mənsub olan etnosların, məsələn, udilərin (udin) müqəddəs məskəninə çevrilir. Adərbayqanda Artaz (Maku) xristianlığın mərkəzi hesab edilirdi. Albaniyada ilk və eləcə də sonrakı kilsələrin çoxu köhnə dini ibadətgahların və mə'bədləren yerində bərpa edilirdi. Xristian dini Albaniyada əsasən ərəb, yunan və bəlkə də yəhudi dilində təbliğ olunurdu, yerli əhali isə bunu dərk etmirdi. Çox güman ki, tərcüməçilərin köməyindən istifadə edirdilər. Lakin erkən xristianlıq Azərbaycanda möhkəmlənmir, əhali köhnə dinləro e'tiqadı saxlayırdı.

Xristianlığın yayılması. IV əsrin əvvəlində (313-cü ildə) Roma imperatoru Konstantinin Milan fərmanına uyğun olaraq bütun məz- həbləı*ə sərbəstlik verildi. Xristianların Roma imperiyasında tə'qibi dayandırıldı. Bununla əlaqədar Ön Qafqazda xristianlığın təbliği yenidən canlandı.

Albaniyada IV əsrdən başlayaraq xristianlığın təbliği və yayılması yeni mərhələyə qədəm qoydu. Bu mərhələ xristian dininin yayıcısı Qriqorinin fəaliyyəti ilə bağlıdır. Rəvayətə görə, Qriqori parf mənşəli ailədə, guya Adərbayqanın Artaz vilayətində (apostol Faddey dəfn olunan yerdə) anadan olmuşdur. Atası həlak olduqdan sonra onu yunanların ölkəsinə aparmışlar.^Anadolunun Qeysəri şəhərində xristian ruhunda təhsil almış Qriqori Armeniyada III Trdatın (287-332-ci illər) dövründə dini təbliğata başlamışdı. Qaynağın mə’lumatına göı-ə, Qriqori burada guya «xeyli mö’cüzə və ilahi əlamətlərini nümayiş etdirirmiş» və erməni hökmdarı III Trdatı xristianlığa sövq edibmiş.

Alban hökmdarı Urnayr ilahi mö’cüzələrə valeh olaraq ə’yanlan, vilayət hakimləri (naxarar) və ordu ilə birlikdə Armeniyaya, III Trda- tın yanına gəlmiş və orada bütlərə inamdan əl çəkmişdi. Qriqori Ur- nayrı və onun adamlarım xaç suyuna salmış və xristianlığı qəbul etdirmişdi. Armeniyada baş keşiş rütbəsini aldıqdan sonra Qriqori İberi- yada və Albaniyada xristian dininin təbliğini başladı. O, Albaniyanın Haband vilayətinə (Yuxarı Qarabağda) gəldi və sakinlərə xristian öyüd-nəsihəti verdi. Burada Amaras kəndində kilsə inşasını təşkil etdi. Xristianlıq Umayrın hakimiyyəti illərində də Albaniyada geniş yayılmır. Bir tərəfdən Sasani şahlan, digər tərəfdən isə şimal, hun-türk etnosları Albaniyaya hücum edir, köhnə dini e’tiqadları qoruyurdular.

Şimal tayfalarının növbəti yürüşü III Trdatın Albaniyaya hücumu ilə üzləşir. Albaniyanın Qarqar çölündə baş vermiş qanlı döyüş III Trdatın qələbəsi ilə başa çatır. Sonra o, Sasani şahı II Şapurla hərbi münaqişəyə girir. Çox güman ki, III Trdatın Albaniyaya soxulmaqda iki məqsədi vardı. O, həm xristianlığın yayılmasını tə’min etmək, həm də alban torpaqlarına iddialanni xristianlığın vasitəsilə həyata keçirmək niyyətində idi. Yəqin ki, Umayr bunu tezliklə başa düşür və qohumu (arvadının) II Şapurun tərəfində vuruşmağa başlayır və Armeniya üzərində uğurlu qələbələr əldə edir, lakin son döyüşlərin birində yaralanır və dünyasını dəyişir.

Urnayrın ölümündən sonra Albaniyada xristianlığın mövqeyi və yayılması daha da zəifləyir. Albaniyada hakimiyyət Arani sülaləsinin nümayəndəsi Sanesan/ZSanatürkün əlinə keçir. Köhnə dini ibadətləri müdafiə edən Sanatürk Sasani şahı ilə ittifacja girmiş, müqəddəs Qriqorinin nəvəsi Qriqoris də Albaniya və Iberiyanın yepiskopu tə’yin edilmişdi. Xristianlığa meyli güclü olan bir qisim alban e’yan- ları Qriqorisi öz ölkələrinə də’vət edirlər və o, Albaniyanın katolikosu olur. Erməni kilsəsi Albaniyada xristianlığın təntənəsi uğrunda çalışırdı. Lakin Qriqorisin tale üzünə gülmür və o. Xəzər denizi sahilində Vamean çölündə şəhid olur. Şakirdləri onun meyidini Amarasa gətirib dəfn edir, özləri isə Armeniyaya qaçırlar.

Qriqorisin vəfatından sonra, qaynaqdakı məTumata görə, Albaniya əhalisi «yenə də bütpərəstliyə qayıdır və xristianları te’qibə başlayır». Xristianlıq az-çox öz mövqeyini Arsaxda saxlayırdı, lakin orada da əhalinin müəyyən qismi bütpərəst idi. Albanlardan başqa burada məskunlaşmış peçeneq türk tayfası da (Panzkank vilayəti) köhnə dinə e’ti- qadı qoruyurdu. Ancaq sonralar zahid İov onları xristianlığa sövq edir.

V əsrin birinci yarısında əlifbaçı Mesrop Maştos Yerusəlimdən Armeniyaya gəlir və oradan da Albaniyanın Uti vilayətinə üz tutur. O, Qisdə^^ məskən salır. Rəvayətə görə, Maştos albanlara da əlitba tərtib edir. Bundan sonra o və şagirdləri xristianlığı Albaniyada yaymağa başlayırlar. Maştosun ölümündən sonra şagirdləri Yerusəlimdən xeyir-dua alaraq Albaniyaya gəlir və Arsaxda məskən salırlar. Hunların hücumu onlann fəaliyyətini dayandırır. Qaynağın mə’lumatına görə, guya hunların bir qismi mö*cüzeyə valeh olub xristian dininə meyl edir, lakin hun hökmdannm (adı göstərilmir) əmri ilə xristianlığı qəbul edən hunlar və keşişlər ölümə məhkum olunurlar. Xristian kilsəsinin cəhdlərinə baxmayaraq V əsrdə də xristianlıq Albaniyada

^3 Yəqin ki. Qis adlı yaşayış sahəsi Kürün sağ sahilində də varmış.

dərin kök sala bilmir. Albanlar, xüsusilə orta və yoxsul təbəqələr onların iqtisadi vəziyyətini yaxşılaşdırmayan xristianlığın yayılmasına müqavimət göstərirlər.

V əsrin sonu - VI əsrin əvvəllbrihdəy III Vaçaqäriıri dövründə Albaniyada xristianlıq əhaliyə zorla qəbul etdirilirdi. Albaniyada xristianlığın monofizit e'tiqadı yayılmışdı. Bə’zi hallarda isə alban feodalları xristianlığın diofizit e'tiqadına meyl göstərir və Bizans hakimiyyətini tanıyırdılar. Adərbayqanda xristianlığın nestorçu e’tiqadı suri- yalı məskunlann dini inamına çevrilmişdi. Siyasi Şərait Albaniyada, xristian dininin təbliğinə imkan verirdi: Buna baxmayaraq^ xristianlıq əsasən Albaniyanın Arsax, az-çox Kambeçan vilayətində və. Qisdə kök salırdı.

552-ci ildə xristian patriarxı Çoladan Bərdəyə köçməli oldu. VIII, əsrin əvvəlində isə Bərdədən Arsaxa köçür. Digər, vilayətləri o cümlədən Uti köhnə dinlərə sitayişi saxlayırdı. Bizans imperatoru İrak- linin Albaniyaya yürüşü zamanı Uti və Arşaxda. belə köhnə dinlərə sitayiş edən alban əhalisi çoxluq təşkil edirdi. Albaniyada Xristianlığın sərhədi məhdudlaşırdı və mərkəz Arsaxda cəmləşirdi. Ərəb işğalından sonra köhnə dini e’tiqadlan saxlayan albanlar və adərbayqanhlar islam dinini qəbul etdilər. Xristianlığın siyasi lə.’siri Albaniyada. Arşa- xm ərazisi ilə məhdudlaşdı. Arsax xristianlan müxtəlif, dillərdə, əsasən türk və İran dillərində danışırdılar. Yuxan Qaıəbağda. (qəd., Arsax) Gəncəsər monastn ətrafında XIII-XIV əsrlərə aid:qəblr daşlan üstündə xristian adları ilə yanaşı, türk adlan da həkkıQİıınmuşdu. Bu onu göstərir ki, hələ bu dövrdə Arsax xristianlannın bir qismi türk etnoslarına mənsubiyyətini itirməmişdilər. , / , .

Beləliklə, erkən orta əsrlərdə xristianlıq Albapiyada .ddi'İU I0k sala bilmədi. Onun tə’sir dairəsi Yuxarı Qarabağın ərazisi .ilə məbclud- laşdı. Kürün sol sahilində, Qəbələ zonasında (Qiş ətrafında) işə Qafqaz-iberdi 11 i xristianlar məskən saldılar.

Xristianlığın Azərbaycanda yayılması əhali arasmda dini pərakəndəlik saldı. Albaniya əhalisinin bir qismi, xüsusilə,ə’yan, feodal və bo’zi hökmdarlar xristian dininə meyl gösterirdilər. Türkdilli albanr lardan başqa Albaniyada məskən salmış, yaxud buraya l^üb gəlmiş fars ve Qafqaz etnoslannın bir qismi (tat və udilər) də xristian, dinini qəbul etdi. Buna baxmayaraq, ərəb işğalı ərəfəsində Azərbayçan eba- lisinin əksəriyyəti köhnə dinlərə ibadəti saxlayırdı. Artıq erkən orta əsrlərdə-dini ve siyasi rəqabət dövründə azəri türklərinin bir xalq kimi, vahid dil-türk dili esasmda formalaşması üçün şərait yetişmişdi.

## VI fəsil

# AZƏRBAYCAN XALQININ VƏ DİLİNİN YARANMASI

Hər bir xalq müəyyən tarixi ərazidə yaranmışdın Eləcə də Azərbaycan türkləri. Heç bir xalq indi yığcam yaşadığı erazidən kənarda meydana gəlməmişdir. Xalqlar əvvəl müəyyən bir tarixi ərazidə yaranıb formalaşmış, sonradan müxtəlif səbəblərə görə başqa ərazilərə yayılmışlar. Azəri türklərinin bir xalq kimi formalaşdığı ərazi Azərbaycan olmuşdur. Onun xalq kimi yarandığı ərazi şimalda Dərbənddən, cənubda İranın Zencan-Qəzvin bölgəsindən (bura da daxil olmaqla), şərqdə Xəzər dənizindən başlayır, qərbdə Tiflis, İrəvan (ind. Yerevan) və Uımiya gölünün qərb sahilini əhatə edirdi. Azərbaycan xalqı bu geniş erazidə yaşayan türk etnoslarının və qonşu ölkələrdən gəlib burada məskunlaşmış, türk dillərində danışan digər tayfaların qaynayıb-qanşmasından yaranmışdı. Bütün xalqlarda olduğu kimi, azəri türklərinin də formalaşması prosesində və sonrakı dövrlərdə onun tərkibinə başqa dillərdə danışan ayrı-ayrı etnoslar, xüsusilə farsdilli tayfalar daxil olmuşlar. Azərbaycan dili türk dilləri qrupuna daxildir. Azərbaycan türkləri erkən dövrdən türk (prototürk, erkən türk) dilində danışmış vö heç bir başqa xalqdan dönməmişlər. Azərbaycan xalqını öz etnik və dil köklərindən qoparmaq üçün uzun müddət müxtəlif qondarma müddəalar ortaya atmış və belə nəzəriyyələri Azerbaycan xalqının tarixinə calamışlar. Bu proses indi də davam edir. Azeri türklərinin əsl soykökünü, dil və etnik kökünü araşdıranlara, yaxud bunun naminə səs qaldıranlara siyasi damğa və ləkə vurub sıradan çıxarırdılar. Bə'zi tədqiqatçılanmız artıq çeynənmiş konsepsiya ilə silahlanaraq xalqımızın cənubda farsdilli əhalidən, farslardan, şimalda Qafqazdilli etnoslardan dönmə olduğu kimi əsassız fikri tariximizə sınmağa çalışırlar. Halbuki nə farsların, nə də Qafqaz dilləri ailəsinə mənsub olan etnoslann kütləvi surətdə türkləşməsini göstərən heç bir tarixi dəlil və sübut yoxdur. Bu xalqların dönüb türk (Azərbaycan) dilində danışmasına nə siyasi, nə iqtisadi, nə də ideoloji (dini) şərait olmamışdır. Türk türklüyündə, fars tarslığında, ləzgi də ləzgili- yində qalırdı, çünki bir xalq kimi qədimdən formalaşmış farsların, yaxud Azərbaycana Dağıstandan axıb gələn ləzgidilli etnoslann etnik və dil tərkiblərini dəyişməyə ehtiyac duyulmamışdır. Vaxtilə Azər

baycanda məskən salmış Qafqaz və farsdilli etnoslar indiyədək öz dillərini saxlayırlar.

Tarix boyu azəri türkləri fars mənşəli va Qafqazdakı diger etnoslarla qonşu olmuş, onların müəyyən qismi Azərbaycanda məskən salmış və xalqımızla bilavasitə ünsiyyət yaradaraq biri digərinə qarşılıqlı mədəni tə’sir göstərmişdir. Azərbaycanın ərazisində təmsil olunan etnoslan umumi bir cəhət, dini ideologiya birləşdirirdi. Azərbaycan əhalisi-istər türklər, istərsə də digər etnoslar atəşpərəstlik və bütpə- rastiik dini e’tiqadlarını saxlayır, xarici işğallara qarşı birgə müqavimət göstərir, bu və ya digər dövlətik hakimiyyətinə birgə tabe olurdular. Əhəmənilərdən başlayaraq arşaki va sasani sülalələrinin hakimiyyəti illərində Azərbaycanda İran mədəni tə’siri güclənmiş, eyni zamanda buraya tarixi qaynaqlarda əks olunmuş yeni türk etnoslarının Qafqazdan və Orta Asiyadan axını artmışdı. Buraya gəlib məskunlaşan və yerli türkdilli etnoslarla qaynayıb qanşan türk tayfaları müxtəlif adlar daşıyırdılar. Ləhcə fərqlərinə baxmayaraq, erkən orta əsrdə Azərbaycanda yerli və gəlmə türk etnoslannm vahid xalq kimi birləşməsi prosesi başladı, Azərbaycan dilini başqa türk dillərindən fərqləndirən bir sıra fonetik ünsürlər meydana gəldi. Azərbaycanda xristianlığın yayıldığı dövrdə azəri türklərinin bir xalq kimi türk dili əsasında yaranması prosesi gücləndi və ərəb istilası zamanı, yə’ni VII əsrin sonu-VIIl əsrin əvvəlində etnik dil, ərazi və ideoloji birliyi olan xalq kimi formalaşdı. Xristianlıqla mübarizədə köhnə dini e'tiqadlara sitayiş ətrafında birleşmiş bu xalq islam dinini qəbul edir və ərəb xilafətinin hakimiyyəti altına keçir.

Xristianlığı qəbul elmiş müxtəlif dilli (türk, fars) Azərbaycan əhalisi əsasən Yuxarı Qarabağda (Arsaxda) qərar tapır və tədricən qriqor- yan kilsəsinin təzyiqi altında erməniləşmə prosesinə me’ruz qalır. Eyni zamanda müsəlmanlığı qəbul etmiş bir sıra diger etnoslar, yaxud onlara mənsub ayrı-ayrı qruplar tədricən Azərbaycan-turk dilinin ünsiyyət vasitəsi olduğu bir şəraitdə öz dillərini yadırğayaraq Azərbaycan xalqına qaynayıb qarışırlar. Lakin bu halın özü də kütləvi xarakter daşımamışdır, çünki Azərbaycanda bə'zi fars və Qafqaz dilli əhali iki dilli olmasına baxmayaraq ana dillərini indiyədək saxlamışlar. Mə'lum olduğu kimi, hər bir xalqın mənşəyinin ayırd edilməsində dil mənsubiyyəti ən başlıca əlamət kimi çıxış edir. Dil cəhətdən isə xalqımız Azərbaycanda qədim zamanlardan bəri yaşamış və burada məskunlaşmış, türk dillərində danışan etnoslarla bağlıdır. Azerbaycan

türkldili VII-VIII esrlərdə artıq Azərbaycan xalqının dili və ölkədə ünsiyyət vasitəsi kimi fonnalaşmışdı.

Erkən orta əsrlərdə Azərbaycan əhalisi. Azərbaycanda yaşamış erkən əhalinin etnik tərkibini müəyyən etmək üçün əsasən yazılı qayhaqlann mə'lümatı köməyə gəlir. Bu qaynaqlar dövr e'tibarilə iki hissəyə bölünür Birinci dövr e:e. III-l minillikləri əhatə edir. Qədim dövr^qaynäqla'nnıh öyrənilməsi göstərdi ki. o zaman Azərbaycan

İkinci dövr qaynaqlan eramızın I minillnyini əhatə edir. Qaynaqlann öyrənilmesf göstərir ki. bir sıra eyni adlı etnoslar qədim və erkən orta əsrlərdə Azərbaycan^ ərazisinin məskunlan kimi qeyd olunmuşdular.

Qədim və erkən orta əsr dövründə Azərbaycanda alban, sakasen, uti, kaspi, mük, kadusi, qarqar, suvbiZ/sovde, turuki//türk, udi, anariak, maird və amard tayfa adlari daşıyan əhali yaşayırdı. Bu tayfaların etnik və dil mənsubiyyəti barədə qaynaqlar mə'lumat vermir. Tədqiqatlar- da onlänn dil mənsubiyyəti barədə müxtəlif mülahizələr yürüdülmüşdün Əvvəlki» fəsillərdə göstərildi ki, bu tayfa adlannın bir qismi (alban; ananak;»sakasen) türk dillərində izah olunur, türk xalqlarını (ıiii/Zutiqur, qarqar, turuki//turk) bildirən etnonimlərdir, yaxud türk-mənşəli Aran nəslinə (uti, qarqar, girdman, sovde) mənsub olmuşdur, bir neçəsi isə (mard, amard) pəhləvi-fars dillərində mə'nalandmlır. Qalan etnonimlərin (mük, kadusi, udin) mə'nası və dil mənsubiyyəti mə'lum deyil. Udin adı ilk dəfə məhz XVII əsrdə Qafqaz dilli udilərə Və türk etnoslarına şamil edilmişdir. Beləliklə, qədim və erkən orta əsr dövründə Azərbaycan əhalisinin əsas etnik təricibi sabit qalırdı. Bununla yahaşi; Azəıbaycana başqa adlar daşıyan etnoslann gəlməsi və bümda məskunlaşması daväm edirdi. Onlar yerli əhaliyə əsasən qohum olan etnoslar idi. Qaynaqlar qədim və erkən orta əsr dövründə iki böyük etnik axını qeydə almışdır. Birinci axın kimer, skit, sak tay-falafiRin'Azərbaycanda məskunlaşmasına, ikinci axın isə hunların burada məskən salmasına şərait yaratdı. Türk tayfalannın Azərbaycana (eleCə də bütün ön Qafqaza və Ön Asiyaya) üçüncü axını orta əsrlərin başlanğıcında (XI~XII əsrlər) gəlmiş səlcuq oğuzlannm adı ilə »bağlıdır; Yerdəyişmə nəticəsində Azerbaycana gələn etnoslar yerli türk (adərbayqanlı və'alban) əhalisi ilə dil, din və müəyyən dərəcədə etnik cəhətdən' q'ohum idilər.

Erkən orta əsrlərdə Azərbaycanm erazisi ilə əlaqədar göstərilən etnOslatdan başqa biir çox digər tayfaların da adı çəkilmişdir. Bunlar

maskut/Zmassaget, girdman, mar, hun, şrovan, ijamax, ciqb, kateş, gel, kudet, duiçik, şilZ/silv, qat-qluar, quqar, bakan, ipin və başqa adlı tayfalardan ibarət idi. Yad edilən tayfalann müəyyən qismi (ciqb,* şıl/Zsilb, ipin, bakan, kudet, duiçik, qat, qluar^) çox güman ki, Dağıstanın ləzgi etnosuna mənsub olmuş və Azərbaycanda baş verən siyasi hadisələrdə alban hökmdannın müttəfiqi kimi iştirak etmişdir. Deməli, ləzgi tayfaları erkən orta əsrlərdən başlayaraq tədricən, Azəıtıayca- nın şimal dağlıq ərazisində məskunlaşmağa başlamışlar. Azərbaycanın aran hissəsində onların məskənləri müşahidə olunmur. Buna görə də amn dilinin Qafqaz dillərinə şamil edilməsi tarixi amillərə əsaslanmır.

Bə’zi adlar (kateş, gel) yəqin ki, fars mənşəli tayfanı bildirirmiş. Kateş qədim kadusi adının dəyişilmiş forması kimi qəbul edilir. Kateşlər cənubi Azərbaycanın şərqində Talış zonasında məskun idilər. Bu ərazi uyğunluğunu nəzərə alaraq kateşləri fars dili ləhcələrindən birində danışan tayfa hesab etmək olar. Talış adı isə IX əsrdə Talisan şəklində qeyd olunmuşdur. Ad sonralar həmin zonanın farsdilli əhalisinə şamil edilmişdir. Talış dili gilan dili ilə yaxındır. Həmin səbəbdən talışların Xəzər dənizinin cənubundan, Mazandaran tərəfdən şimala hərəkət etdikləri güman olunur. Bu etnosa ərazinin adı ilə əlaqədar talış adı verilmişdir. Lakin talışlar özlərini çolış, yaxud qolış adlandırırlar. Orta əsr azəri-türk dilinin talış dilinə şamil edilməsi, yaxud fars dilinin bir ləhcəsi hesab olunmasının elmi əsası yoxdur. Erkən orta əsrlərdə tars ləhcələri pəhləvi dili əsasında yaranırdı. Bu ləhcələrin müstəqil dilə çevrilməsi prosesi orta əsrlərdə baş vermişdir.

Bildiyimiz kimi, erkən orta əsrlərdə Sasani şahları Azerbaycanın şimal hissəsinə pəhləvi-fars ləhcələrində danışan etnoslardan köçürmüşdülər. Bir qisim fars dilli əhali özu onun arzusu ilə buraya köçərək məskunlaşmışdı. Bu əhali sonrakı dövr qaynaqlarda tat adlandırılmışdı. Orta əsrlərdə formalaşmış tat dili əslində pəhləvi (orta fars) dilinin ləhcələrindən biri idi. Tat məthumu, ümumiyyətlə, dil mənsubiyyətindən asılı olmayaraq İrandan çıxmış əhaliyə tətbiq edilirdi. Şimali Azərbaycana köçmüş, yaxud köçürülmüş tatların müəyyən qismi iki dildə danışan azəri türkləri idi. Yeni şəraitdə onlar tədricən

‘ Azerbaycanda məskunlaşmış ləzgidilli qrızlar özlərini ciqb adlandırırdılar.

- Ehtimal edilir ki, Xudat, Dəvəçi və Gilvar toponimləri müvafiq (kudet, dımçik, qluar) tayfa adlarından əmələ gəlmişdir. İjamax və Şrovan etnonimləri asasında Şamaxı və Şirvan yer adlarının yaranması fərz edilir.

tat dilini unutmuş və Azərbaycan dilini saxlamışdılar. Azerbaycan dili indi de cənubda tatların ünsiyyət dili hesab olunur

Erkən orta əsrlərdə Azərbaycanda əsas etnik zəmini türk dilində danışan əhali təşkil edirdi. Bu etnik tərkibə yeni turk tayfaları əlavə olunurdu. Burada hun tayfa birləşməsinə daxil olan etnik qruplar, etnoslar məskunlaşırdılar. Qaynaqlar erkən orta əsrlərdə Azerbaycanda hun, peçeneq, kəngər, bental, sabir, xəzər və başqa türk etnoslarının məskən salması barədə mə'lumat saxlamışdır. Azərbaycan etnik və dil baxımından türkdilli areala daxil idi, siyasi cəhətdən isə Sasani imperiyasının hakimiyyəti altında qalırdı. Ərəb qaynaqlarında deyilir ki, «Azərbaycan qədimdən türk tayfaları tərəfindən məskunlaşmış ölkədir». Ərəblərin Azərbaycana yürüşü zamanı onlara müqavimət göstərənlər əsasən yerli türklər olmuşdur.

Turk tayfaları hun İttifaqında. Erkən orta əsrlərdə Azərbaycana gəlmiş türkdilli etnoslar hun ittifaqında birləşmişdilər. Bu ittifaqa bir çox türk etnoslan, o cümlədən kəngər, peçeneq, bıılqar, qıpçaq, sabir, utiqur, onoqur, xəzər, türk, uz, heptal, barsil tayfaları daxil idi. Bu tayfalar qədim qaynaqlarda müxtəlif cür, məsələn, kimmer, sak, skit, nevr, massaget, saurmat adları altında gösterilir. «Hun»^ erkən orta əsr türkdilli tayfaların ümumi adı olmuşdur. VII əsrə yaxın «türk» adı ümumiləşdirici ad - etnonim kimi işlədilmişdir.

Hun ittifaqında adı çəkilən bir çox tayfalar qədim dövrdən Ön Qafqaz ölkələrinin sakinləri olmuşlar. Onların adı ile bağlı bir çox toponimlər yaranmışdı. Azərbaycanın Gürcüstanla sərhədlərində hun adım daşıyan Hunarakert və Hunan toponimləri erkən orta əsrlərdə artıq mövcud idi. Həmin dövrdə orada Kanqar (Kənkər) adı toponim və oronim kimi me’lum idi.^ Arsaxda peçeneq etnonimini əks edən

^ Belə bir yanlış fikir ortaya atılmışdı ki, guya qədim erməni qaynaqlarında işlədilən «hon» etnonimi erkən dövrdə Qafqaz mənşəli tayfaları bildirirmiş. Lakin «hon» etnortimi «hun» türk tayfa adının erməni qaynaqlarındakı əksidir.

^ Kəngər türk etnosu ön Qafqaz ölkələrinin müxtəlif yerlərində yaşayırdı. Kəngər peçeneqlərin avvəlki adı olmuşdur. Erkən orta əsrlərdə kən- gərlər Azərbaycanın Qazax-Ağstafa bölgəsində, Gürcüstanın Borçalı, Armeniyanın Göyçə mahalında və Ararat vadisində, Azərbaycanın Naxçıvan bölgəsində artıq məskən salmışdılar. Çox guman ki, bu ərazilər eradan əvvəlki dövrlərda də türk etnoslarının məskəni olmuşdur. Hunlar və Sasanilər köhnə dinlərlə xristianlığın qarşı-qarşıya gəldiyi dövrdə bu geniş ərazinin əhalisinə tərəfdar çıxırdılar.

Panzkank vilayət adı meydana gəlmişdi. Mets-İrank kənd adı (Arsaxda) «**İD**> (-an+k şəkilçidir) tayfa adını əks etdirir. «İn> türk dillərində «kişi, ər, cəsur» mə'nasını daşıyan etnonimdir. Erkən orta əsrlərdə Azərbaycandakı Xursan, Qoroz toponimləri xopos Tomavan tOponimi xəzər tama/toma türk tayfa adlarını saxlamışdır. Çola//Çora yer adı və Clax vadi adı türk mənşəli sul/Zsur etnonimindən, Arkuqet və Kolman toponimləri isə müvafiq surətdə arkaqut/Zarqu və kol türk etnonimləri əsasında yaranmışdır. Onoquris (Gürcüstanda) toponimi onoqur, TrtuZ, Tərtər hidroniini isə tərtər turk tayfalarının adını daşıyırdı. Erkən orta əsrlərdə Arsaxdakı Trtuakan toponimi da həmin etnonimdən yaranmışdır. Armeniya ərazisindəki Venənd, Quşar, Kan- qark, Karadıınis və başqa erkən orta əsr toponimləri müvafiq türk etnonimlərindən əmələ gəlmişdir.

Erkən orta əsrlərdə Azərbaycanda və qonşu torpaqlardakı bir çox yer adları qaynaqlarda türk dillərində izah olunur. Toponimlərin bir qismi türk tayfalarının hunların tərkibində gəlişi ilə əlaqədar yaranmış, digər qismi isə hunlardan əvvəlki yerli türk etnoslarına mənsub olmuşdur. Beləliklə, hunlarla bərabər Azərbaycana və qonşu ərazilərə yeni türk etnosları gəlmiş, burada dil cəhətdən qohum olduqları yerli azəri türkləri arasında məskunlaşmış və onlarla qaynayıb qanşmışlar.

Azərbaycan dili və yazısı. Qədim dövrdə erkən Azərbaycan (pro-lotürk) dilinin leksikası Azərbaycanın bu və ya digər yer və şəxs adlarında öz əksini tapmışdı. Bu sözlər ümumtürk leksikasına aid idi. Antik qaynaqlarda Azərbaycan toponimləri geniş əks olunmasa da, Azərbaycanda hakimiyyətdə olmuş bir sıra (alban) hökmdarlarının adları (Oroys, Kozis, Zober) türk dilləri əsasında izah edilmişdir. Alban türk sülaləsinin banisi Aranın adı məhz türk mənşəlidir. Bu ad qədim türk «ərən», yə’ni «ər, kişi, igid, cəsun> sözündən əmələ gəlmişdir. Manna hökmdarlarının adlarında (Ahşeri, Erisinni) bu sözün qədim forması («eri») vardır. «Dədə-Qorqud» dastanında bu. Alp Ərən şəklində əks olunmuşdur. Alban tarixçisi Moisey Kalankətlinin «Alban tarixi» əsərində bir sıra türk sözləri ilə yanaşı arZZayr və aran sözləri «ər, kişi» mə’nasında verilmişdir ki, bu da həm formaca, həm də mə*naca qədim türk ərZZərən sözüdür. Deməli, azərbaycanlıların dilində erZZeri və ərən həm söz kimi işlədilir, həm də şəxs və tayfa adlarının yaradılmasında iştirak edirdi.

Qədim-ermənn qaynaqlarında, xüsusilə «Alban tarixi» əsərində türkan «elçi, iti gedən, sür’etli», aqelun «ayaqyalın, yalın ayaq».

hayd/yäyd «eManetmə, xəbərvermə, sözdemə» (qed. türk. at//ayd «demək, xəbər vermək»), xod «ot» (qəd. türk, ot), hod (qədim türk. ud//yud «iy») «iy», hed//yed (qed. türk, id «iz», azərb. yedək «arxa») «arxa, arxa tərəf», tabak (azərb. «tabaq, dayaz qab») və s. işlədilmiş sözlər alban türk dilindən mənimsənilmişdir. Alban etnoniminin özü alp//aib «igid, cəsur, qoçaq» türk sözündən və -an ad yaradan şəkilçinin birləşməsindən əmələ gəlmişdir. Bu adın ermənn tələffiizü Aquan/ZAqvan kimi səslənirdi. Qedim erməni müəllifləri də adın aqu «xoş. yaxşı» sözündən əmələ gəldiyini qeyd etmişlər. Qedim erməni dilində belə söz olmamışdır. Bu da qədim türk aqu//eyqu «nəcib, yaxşı, xoş» sözüdür. «Alban tarixi»ndə bir çox hun sözləri və şəxs adlan (Avçi, tərxan, amiç//omaç, Cəbqu, Tanrıxan, irtegin, xaqan, şad və s.) verilmişdir ki, bunların hamısı ümumtırk mənşəli sözlərdir.

«Alban tarixi»ndə adlan çəkilmiş hökmdarlann (Arsvaqen, Asay, Vaçaqan, Vaçe, Sanasan/ZSanatürk, Viro), habelə ayn-ayrı şəxslərin (Qor, Qazan, Bakur, Babik, Davtak, Vasak. Abukaz, Abas, Manassato, Aratan, Mide və s.) adları da türkmənşəlidir. Qədim ennəni qaynaqlarında yad edilmiş Tork, MamakZZMamqun, Konak, Kamsarakan (Kam-sarıxan), Xosrov Kotak (Xosrov Gödək), Vayqun, Slak, Muşeq və s. türk etnonimləri və leksikası əsasında izah olunur. Albaniyada və xüsusilə də Arsaxda adların əksəriyyəti türk leksikası, yaxud etnonimləri əsasında-yaranınişdir. Bütün bunlar onu göstərir ki, albanlar türkdilli xalq olmuş və Albaniyanın etnik və dil zəminini təşkil etmişlər.

Qeyd edildiyi kimi, Adərbayqan (Atropatena) ölkə adı cənubi, Albaniya isə Şimali Azərbaycana şamil edilirdi. Lakin erkən orta əsrlərdə Şimali Azerbaycanın da erazisi Adərbayqan (Aturpatakan) anlayışı altında birləşdirilirdi. Azərbaycanın hər iki hissəsi bir canişinliyə daxil edilmişdi və onun canişini Dərbənddə yaşayırdı. Ərəb müəlliflərindən biri Araz çayından Dərbəndə qədər çatan ərazini «Yuxan Azərbaycan», Arran^ adlandımıışdı. Arran yerli türk mənşəli aran «düzən, isti yeı*» sözünün ərəbcə tələffüz formasıdır. Arran ölkə adı tədricən Albaniya adının işlədilməsini sıxışdırdı. Ərəb işğalından sonra Albaniya/ZAğvaniya ancaq Yuxarı Qarabağın (Arsaxın) ərazisinə şamil edilməyə başladı. Arran isə diyann ümumi adına çevrildi. Ərəb müəllifləri burada mövcud olan yerli dillər haqqında danışarkən, onu arran dili adlandırmışlar.

^ Suriya qaynaqları Aran, kürcü qaynaqlan Rani adlandıntuşdı.

Arran dili. Erkən orta əsr erməni qaynaqlan Azərbaycanda mövcud olan dillər barədə heç bir mə’lumat vermir, lakin əhalinin hunlardan ibarət olması barədə təsəvvür yaradır. Qaynaqlar Sanesan //Sanat- mku hun və maskutların hökmdarı kimi qələmə verir, Umayn gah Albaniya, gah da hunların hökmdan adlandırır, türkmənşəli Aranın nəslinə alban etnosları olan uti, sovde, girdman və qarqarları mənsub edir, lakin nədənsə, sanki qəsdən onların dil mənsubiyyəti barədə bir kəlmə de olsun danışmır. Lakin bu mə’lumatlann özü göstərir ki, qədim erməni qaynaqlan hun məfhumu altında türk etnoslarını nəzərdə tuturmuş və bunu bildirmək üçün o dövrdə daha işlək olan «hun» etnonimindən istifadə edirmiş. Moisey Xorenasi isə Tork/'/türk^’ nəslini ermənilərin geniologiyasına^ daxil edirdi. Onun me’lumatına görə, Basean (Ağrı vilayəti) ərazisində vqndur (bayandur), bulqar, vanad türk tayfaları məskunlaşmışdılar və hakimləri Şaray idi, Şaray son- ralar yad edilən türk mənşəli «saray» tayfa adını xatırladır. Onun nəslindən olan Quşara Hunakertə qədər çatan Kanqar dağlıq ölkəsi və yaxınlıqda olan vilayətlər miras qalır, övladları isə bir neçə Armeniya vilayətinə sahib olur. Quşar adı da Şaray (saray) kimi türkmənşəli «quş» (həmçinin kuşanZ/quşan» etnonimi) tayfa adından əmələ gəlmişdir. Bu nəsilləri də Moisey Xorenasi ernıəni nəsillərinə şamil edir, halbuki, onlar türk etnoslarının məskunlaşdığı torpaqlarda hakim idilər. Deməli, bu türk etnosları Moisey Xorenasinin dövründə Armeniya ərazisində yaşayırdılar, Xorenasi isə onları erməni nəsillərinə mənsub etməyə cəhd göstərmişdi. Məhz mamnkonların nəslini erməni qaynaqları Çinmənşəli adlandırmaqla, onları Orta Asiya türkləri ilə bağlamışdır. Bu nəslə mənsub olanlardan biri türk Vardan adlandırılmışdı. Qaynaqlar onların dili barədə mə’lumat vermir, lakin etnik terminlər göstərir ki, bu etnoslar türk dillərində danışınr.'slar. Göründüyü kimi, tarixən Armeniya ərazisində yaşayan müxtəl*^' etnosların müəyyən qismini türkmənşəli xalqlar təşkil edirdi. Digər tərəfdən qədim ennəni qaynaqları çox güman ki. Sasani hakimiyyətinə meyl göstərən yerli türkləri «fars mothumu altında təqdim edirdi.

Tork qaynaqda şəxs ndı kimi göstərilir, halbuki ad «türk» (erməni dilində «V» səsi yoxdur) etnonimindən yaranmışdır. Qaynaq e. o. 11 əsrdə Torkun qərbi Armeniya toıpaqlannda hökmdar tə’yiıı edilməsi və onun guya ennəni nəslinə mən.sub olması barədə mə’lumat saxlamışdır. Əslində bu ınə'lumat Armeniyanın qərbində qədimdən yaşayan türk etnoslarının tarixini müəyyənləşdirir.

' Geneİogiya - yunanca «nəsli şəcərə, nəsil tarixi» deməkdir.

Albaniyada mövcud olan dillər barədə ilk dəfə Strabon ümumi tikir söyləmişdir. Strabon yazırdı ki, «indi bir hökmdar onlara hakimdir. Əvvəllər öz dili olan hər bir qəbilənin öz hökmdarı var idi. Onların aı-asında kifayət qədər ünsiyyətin olmaması üzündən 26 dilləri (yaxud ləhcələri) vardır». Strabonun mə'lumatı Kür çayının sol, şimal sahilində yaşayan albanların dilini nəzərdə tutmuş, lakin bu dillərin, yaxud ləhcələrin mənsubiyyəti və xüsusiyyəti barədə mühakimə yürüdülməmişdi. Eyni zamanda Kürün Albaniya hissəsinin sol sahilində 26 dilin mövcud olması üçün çətinlik töı*ədən coğrafi şərait yox idi. Yəqin ki. 26 dilin mövcud olması şəraiti Dağıstanın cənub rayonlarına şamil edilə bilər. Erkən oıta əsr məMumatlarını nəzərə alsaq, Kürün sol sahilində Böyük Qafqaz dağlarında və onun şimalında İpin, leq//qel, tabasaran və s. ləzgidilli tayfalar yəqin ki, öz ləhcələri Hə birlikdə təmsil olunmuşdular. Eyni zamanda burada türk mənşəli tayfalar (masaxa hunları/Zmaskutlar, saklar, quqarlar və s.) yaşayırdılar. Erkən orta əsr toponimik, onomastik və etnonimik mə'lumatlarına əsasən demək olar ki, Kürün sağ sahilindəki Albaniyanın Xəzər dəni- zinədək olan dağ və aran hissəsində əsasən türklər və burada məskunlaşmış farsdilli tayfalar yaşayırdılar. Xəzər dənizinədək olan dağ və aran hissəsində əsasən türklər və burada məskunlaşmış farsdilli tayfalar yaşayırdılar. Albaniyanın aborigen (yerli) əhalisi türk dillərində danışırdı və «alban» etnonimi də bu dillər əsasında yaranmışdı.

Erkən orta əsr ennəni qaynaqları alban dili haqqında xristian dini ideologiyası baxımından mühakimə yürütmüş, lakin onun mənsubiyyəti barədə bir söz deməmişdir. Qədim erməni müəllifi Koryun (V əsr) xristianlığın təbliği ilə əlaqədar Albaniya əhalisini «vəhşi təfəkkürlü, qayğısız və sərt.., albanları şeytan və bütlərə satılmış xalq» kimi qələmə verərək alban dilində «barbar sözlərinin» olduğunu qeyd etmişdi. Albanları bütpərəst kimi pisləyən müəllif onları xalq adlandırmışdır. Eyni zamanda o, alban dilləri yox, alban dili anlayışı işlətmişdir. Deməli, albanlar bütpərəstlik dövründə özünəməxsus dili olan vahid xalq idi. Lakin alban dilində barbar sözlərinin olması, bu dilin nə quruluşu, nə leksikası, nə də mənsubiyyəti barədə təsəvvür yaratmır. Mə'lumdır ki, albanların yazısı «təzələndikdən» sonra, onların xristianlığı qəbul edən hissəsi üçün dini kitablar və incil alban dilinə tərcümə edilmişdi. Deməli, vahid alban dili mövcud idi.

Moisey Xorenasi, Koıyundan fərqli olaraq, alban yazısının qarqar dili əsasında yarandığını söyləyir. Albaniyanın qarqar dilini müəllif «boğaz səslərilə zəngin, kobud, barbar, yüksək dərəcədə yöndəmsiz»

dil kimi təsvir etmişdir. Nə üçün Xorenasi alban dili əvəzinə qarqar dili işlətmişdir? Yəqin ki, alban türk xalqına mənsub olan qarqarların daha geniş ərazidə yaşadığına görə. Onların adı ilə Albaniyada bir düzənlik Qarqar çölü adlanırdı. Antik qaynaqlardan məMum olur ki, qarqarlar, guya nə vaxtsa buraya köçüb gəlmişlər. Qarqar müasir dövrdə Orta Asiyadakı türk etnoslarına deyilir. Hələ qədimdə rəvayət vardı ki. Makedoniyalı İskəndər qarqarları heptallarla (ağ hunlar) birlikdə buraya köçürmüşdü. Bu rəvayət qarqarlann Albaniyanın qədim əhalisindən olmasına işarədir. Lakin Moisey Xorenasinin qarqar dili haqda tə’rifınden belə nəticə çıxarmaq olar ki, qarqar dilində çoxlu boğaz səsləri varmış.

Alban tarixçisi Moisey Kalankətli albanlann dili barədə söylənilmiş mühakiməni olduğu kimi təkrar etmişdir. O, bir yerdə alban xalqı üçün əlitbanın yaı*adılmasından bəhs edir, qarqar və heptalların İskəndər tərəfindən buraya köçürülməsindən danışır, başqa bir yerdə isə Arsvaqenin hakimiyyəti dövründə əlitbanın qarqar dili əsasında tərtib olunduğunu söyləyir. O da qarqar dilinin «boğaz, kobud, barbar və çətin tələffuzlü səslərlə» zəngin olduğunu qeyd etmişdi. Mə'lum olur ki, ennəni dilli qaynaqlar bir tərət'dən müstəqil alban dilinin və dildəki barbar sözlərin, digər tərəfdən də qarqar dilində boğaz səslərinin olduğunu söyləmişdir. Alban dilində deyil, onun qarqar ləhcəsində boqaz səsləri vardır. Koryunun mə’lumatına*görə, albanlarda əlifba icad edilməmiş, Mesrop Maştos^ ancaq onların əlifbasını təzələmişdir. Qarqar dilində boğaz səslərinin olması bə’zi tədqiqatçıları belə qənaətə gətiimişdi ki, guya əlifba Qafqaz dilləri əsasında tərtib olunmuşdur. Lakin mə'lumdur ki, bir sıra müasir türk dilləri boğaz səsləri ilə zəngindir və tarixən bu dillər həmin səslərə malik idilər. Deməli, alban dilinin qarqar ləhcəsi də boqaz səsləri olan türk dilləri cərgəsinə daxil imiş. Əlbəttə, alban dilinin Qafqaz dilləri ailəsinə daxil edilməsi onu türk dilləri qrupundan ayırmaq məqsədini güdmüşdür. Beləliklə, alban dilinin öz əlifbası olmuşdur, qarqar ləhcəsi üçün isə xüsusi əlifba tərtib edilibmiş.

Mə’lumdur ki, alban hökmdan Oroyz (e.ə. I əsr) Pompeyə məktub göndərmişdi. IT1 əsrdə albanlar Romaya yazılı mə’lumat çatdırmış, V

^ Koryunun saxta nüsxəsində («Psevdo-Koryun») «albanların əlifbasının təzələnməsi» ifadəsi çıxarılmış, Moisey Xorenasi və Moisey Kalankətlinin qarqar dili barədə tə’rifi və bu dil əsasında əlifbanın yaradılması mə'lumatı yerləşdirilmişdir. Heç şübhə yoxdur ki, «Alban tarixi» kitabının erkən nüsxələri üzərində də köçürmə zamanı müxtəlif təxribatlar apanimışdır.

əsijə iso alban dilində fənnan tərtib edilmişdir. Bütün bunlar onu gösterir ki, albanların öz yazısı olmuşdur. Onlar yəqin ki, qarqar dili əsasında düzəldilmiş əlifbadan da istifadə edirmişlər. Lakin bu yazı növu barədə təsəvvür yaratmaq üçun heç bir abidə qalmamışdır. Ola bilsin ki. Mingəçevirdə tapılmış epiqrafık abidələr məhz qarqar yazı növünün nümunələridir. Xristian dininin tə’sir dairəsinin məhdudluğu və islam dininin Azərbaycanda bərqərar olması bu əlifbanı ortadan sıxışdırıb çıxardı. Azərbaycan əhalisi, o cümlədən islam dinini qəbul elmiş albanlar ərəb əlifbasından istifadəyə başladılar.

1937-ci ildə Matenadaran (Yerevan) əlyazmalan arasında emnəni dili üzı*ə dərslik tapılmışdı. Həmin dərslikdəki siyahıda bir çox əlifba ilə yanaşı, 52 işarədən ibarət albanZ/ağvan əlifbası da gösterilmişdi. Əlyazma XV əsrə aid edilir. 1956-cı ildə onun XVI əsrə aid edilən nüsxəsi ilə bərabər alban işarələrini də əks edən əlifba siyahısı nədənsə Londonda üzə çıxdı. Son tədqiqatlar göstərir ki, bu əlifba erməni və gürcü əlifbalarının işarələri əsasında tərtib olunmuşdur. Həmin əlifba vasitəsilə Mingəçevir alban yazılarını bilavasitə oxumaq mümkün deyil. Əlifba işarələri üzərində müəyyən əməliyyat (düzəliş) apardıqdan sonra Mingəçevir yazılarını udi (udin) dili baxımından oxumaq cəhdi göstəmıişlər. Lakin qədim yazı nümunələri az və zədəli olduğuna*^ görə, oxunuşlar uğurla başa çatmamışdır. Bə’zi tədqiqatçılar müvafiq (52 işaıəlik) əlifbanın albanlara mənsub olduğunu söyləmişlər. Bə'ziləri isə bu faktı inkar edirlər. Doğrudan da, həmin əlifba ilə alban və qarqarların əlifbası arasında yəqin ki, heç bir əlaqə yoxdur. Qədim əlifba alban və qarqarların türk dilinin fonetik quruluşuna uyğun olmalı idi. Orta əsr əlifbası isə 52 fonetik səsdən ibarət olan dilə uyğun tərtib edilmişdir. Çox güman ki, orta əsr əlifbası xristian udi- lərin (udinlərin) dilinə uyğunlaşdırılmışdı. Lakin erməni qriqoıyan kilsəsinin təfsirinə mə'rıız qalmış udilər bu əlifbadan çox guman ki, geniş istifadə edə bilməmişlər. Ümumiyyətlə, əlifbanın udi etnosu dairəsində tapılmaması onun tarixi e'tibarlığına da şübhə oyadır.

Suriya müəllifi Zaxari Ritor 555-ci ildə yazırdı; «...Aran (Albaniya) diyarının öz dili, dindar və xaç suyuna salınmış xalqı, fars şahının tabeliyində olan hökmdarı vardır. Sisqan (Syuni) həmçinin özünə-

^ Cəmi həıəsi bir cümlədən ibarət 8 yazı nümunəsi aşkar edilmişdir və hər cümlədə zədələnmiş işarələr vardır. Oxunuşun uğurlu olması üçün böyük həcmli mətnlər tapılmalıdır.

məxsus dili və dindar xalqı olan diyardır, lakin orada bütpərəstlər də yaşayır». Qaynağın müəllifi müəyyən dərəcədə enueni xristian ən’ə-nəsinə meyl göstərmişdir. Birincisi, Aran (Albaniya) Armeniyanın tərkibinə daxil deyildi. İkincisi, VI əsrin ortalarında artıq müstəqil alban hakimiyyəti ləğv edilmişdi və ölkə Sasani şahlarının te’yin eldiyi mərzbanlar tərəfindən idarə olunurdu. Üçüncüsü də, Albaniyada bu zaman xaçpərəstlər azlıq təşkil edirdi, əhalinin əsas qismi köhnə dini e’tiqadlarını saxlayırdı. Qaynağın mə’lumatma görə, Aranın öz dili və xalqı var idi. Belə nəticəyə gəlmək olur ki. Aranda artıq vahid dili olan xalq yaşayırdı. Bu ərəblər tərəfindən arran dili adlandırılan alban dili idi.

Zaxari Ritoıın me’lumatına görə, Syum (Sisqan)*^* xalqının da özünəməxsus dili, xaçpərəst və bütpərəst əhalisi vardı. Syuni əhalisi başda hökmdar Vasak olmaqla V əsrin ortalarında xristianlığın yayılmasına müqavimət göstərirdi. Eyni zamanda Vasak hunlarla gizli ittifaqa girmişdi. Hun məskənlərindən biri də Balasakan vilayəti’ ’ idi. Syuni isə Balasakanın tə’siri altına düşmüşdü. Syuni etnik vo dil cəhətdən albanlara yaxın idi. Qaynaqda deyilir ki, X əsrin əvvəlində bu vilayətdə Qor və Qazanqardaşları böyük ordu ilə gəlib məskunlaşdılar. Bunlar da türk etnoslarına mənsub idilər. Lakin Moisey Kalankətli nədənsə onların etnik mənsubiyyətini göstəmıir. Ancaq onu bildirir ki, Qor və Qazan mö’cüzələrdən heyrətlənərək xristian dinini qəbul etdilər və hərəsi öz adamları ilə Syuninin bir kəndində məskən saldılar. Qaynaq digər xristian mənbələri kimi, türk etnoslarının dili barədə heç bir mə’lumat vermir. Lakin bu mə’lumat öz- özlüyündə onu göstərir ki, Syuni vilayətində türk etnik birliyi üstünlük təşkil edirdi və eyni mənşəli etnoslar gəlib burada məskunla-

Sisqan qədim erməni qaynaqlarında Sisakan kimi yazılmışdır. Sisak patronim adım bildirirdi. Rəvayət alban hakim sülaləsinin banisi Aranı Sisakın nəslinə şamil etmişdir. «Alban tarixi» Sisavan toponimini də yad edir. Türk dillərindən yakut dili sis «dağüstü meşə» mə’nalı söz saxlamışdır. Çox güman ki, Sisqan, Sisakan, Sisavan toponimlərində iştirak edən sis sözü türk mənşəlidir və həmin toponimlər «dağüstü meşəli kənd» mə’nasmı daşıyırmış. Sis qədim türk. yış//yıs «yaşayış üçün yararlı dağüstü dərə» sözünım fonetik formasıdır.

" Balasakan (Paytakaran) Kür-Araz ovalığında yerləşirdi, şimalda Beş-barmaq əhatəsinə çatırdı. Əhalisi əsas e’tibarilə türkdilli saklardan və hunlardan ibarət olmuşdur. Balasakan müstəqil inzibati vilayət kimi bə'zən Albaniyanın tərkibinə daxil olurdu.

Hər iki ad türk mənşəlidir. Qazan «Dədə Qorqud» dastanında əsas personajlardan biridir. Qor türk adlarında «igid, cəsur» mə’nasını daşıyır, <

çırdılar. Mehz buna görə IX-X əsr ərəb müəllifləri yazırdılar ki, Aran və Sisacan (Syuni) Xəzər-türk padşahlığına daxildir.

Beləliklə, erkən orta əsrlərdə Albaniyanın ərazisində türk etnosları, alban, qarqar, uti və s. etnik ad altında me'lum olmuşlar. Eyni zamanda qaynaqlarda uti etnik adını daşıyan etnosun da dili barədə mə'lumat verilmir. Elmi ədəbiyyatda isə yanlış olaraq uti və albanların mənşəyini Azerbaycan türklərinin soykökündən ayrı izah edirlər və onları udin/udilerlə eyniləşdirirlər. Lakin bu eyniləşdirmənin heç bir elmi əsası yoxdur.

XIX əsrin ortalarında F.Korqanov adlı bir nəfər Rusiya Elmlər Akademiyasına müraciətində udinləri albanlarla eyniləşdirmək mülahizəsini irəli sürmüşdü. XX əsrin 40-cı illərinin sonunda amerikalı D.Diringer utiləri udinlərin əcdadı kimi qələmə vermişdi. A.Şanidze qarqar-alban dilinin «namə'lum boğaz səslərini» müvafiq udin səsləri ilə «müqayisə» etmiş və alban dilinin udin dilinə yaxın olduğunu söyləmişdi. Halbuki qarqar dilində hansı boğaz səslərinin olması mə'lum deyildi. O, heç bir elmi əsas olmadan əsilliyi sübut edilməmiş, erməni-gürcü yazı (dəyişilmiş) işarələri əsasında yaradılmış 52 işarəli əlitbanı alban-qarqar dilinə şamil etmişdi. Ondan sonra K.V.Trever də mehz bu baxımdan alban dilinə yanaşmışdır. Hal- hazırda İ.H.Əliyev və F.C.Məmmədova elmi mahiyyətə varmadan alban və utilerin Qafqaz-udindilli olmaları kimi yanlış nəzəriyyənin fəal təbliğatçısı kimi çıxış edirlər. Müasir erməni müəlliflərinin de bo'zisi uti və alban dilini udin-ləzgi mənşəli hesab edirlər. Beləliklə, Azərbaycan ərazisində yaşayan alban və utilərin dili heç bir əsas olmadan Qafqaz dilləri ailəsinə aid edilmişdir.

Əvvəlki fəsillərdə deyildiyi kimi, uti və udi tayfa adları e.ə. VIII-Vll əsr mixi yazılarında təmsil olunmuşdur. E.ə. V əsrdən e'tibaren utilər Şimali Azərbaycanın sakinləri kimi mə'lumdurlar. Erkən orta əsrlərdə utilər Kürün sağ sahilində, Berde bölgəsində mərkəz yaratmışdılar. Eramızın əvvəlfərində udin etnonimini daşıyan tayfa Albaniyanın şimal-şərqində Xəzər dənizi sahilində yaşayırdı, həmin ərazidə ud tayfası da məskən salmışdı. Be'zi tədqiqatçılar uti, ud və udin etnonimlərini bir etnosa şamil edirlər. Halbuki ud yəqin ki, müasir udinlərin özlərinə verdiyi ad (udi) olmuşdu. Çünki Qəbələ bölgəsində islam dininə sitayiş edən bir sıra azəri türkləri vaxtilə udin adını daşıyırdılar. Onlar Qafqazdilli udinlərdən dönmə deyillər. Udin etnonimini türk mənşəli etnos da daşıyırmış. Eramızın əvvəllərində Xəzər dənizinin şimal-şərq sahilində utidors tayfası, hun ittifaqı tərkibində

utiqur tayfası təmsil olunmuşdu. Deməli, utiləri və onların dilini udi-udinlərlə qarışdırmağa heç bir tarixi əsas yoxdur. Əksinə, tarixi sənədlər utilərin türk (hun) dilləri aləminə mənsub olduqlarını deməyə imkan verir. Buna baxmayaraq S.T.Yeremyan vaxtilə belə müddəa irəli sürmüşdü ki, guya arran dili uti, yə’ni udi dili əsasında yaranmışdı. Lakin Kürün sağ sahilində, Bərdə zonasında udi-udinlərin yaşaması barədə heç bir tarixi mə’lumat yoxdur. Yəqin ki, udi-udinlər erkən orta əsrlərdə xristianlığı qəbul etmiş, VI-VII əsrlərdə hunların təzyiqi altında, bəlkə də orta əsrlərdə Xəzər dənizinin şimal-şərq sahilini tərk etmiş və Qəbələ mahalına enmişlər. 52 ışaı-əli əlifba (əgər saxta deyilsə) onların dilinə uyğun olaraq tərtib edilmişdir. Lakin udi-udinləre erməni-qriqoryan güclü tə’siri bu əlifbanın tətbiq olunmasına imkan vermədi. Dağlıq Qarabağın xristian albanları kimi, udi-udinlər də erməni əlifbasından istifadə edirdilər. Xristianlığın pravoslav dininə sitayiş edən udilər isə bir neçə əsr sonra (XIX əsr) köçüb Gürcüstanda məskunlaşdılar.

Ehtimala görə, e.ə. III minillikdə Ümumdağıstan kök dili mövcud idi. Kök dilin parçalanması nəticəsində nax və ləzgi dil qruplan yaranmışdı. Ləzgi dil qrupuna arqin, ləzgi, aqul, tabasaran, saxur, rutul, qnz, buduğ, xınalıq, udin dilləri daxildir. Ləzgi dil qrupu (erkən ləzgi dili) Dağıstanın ərazisində təmsil olunmuşdu və çox güman ki, e.ə. l minillikdə formalaşmışdı. Bundan sonra ləzgi dillərində parçalanma baş vermişdir. Yəqin ki, ləzgi dillərinin bölünməsi 1 minilliyə təsadüf edir. Qaynaqlarda artıq bu dövrdə və erkən orta əsrlərdə Koysu-Sa- mur çayları hövzəsi və Dərbənd bölgəsində ləzgi etnoslarına mənsub tayfalar yad edilir. Bunlar ud (udi-udin), qel, leq, İpin, çilb//silv, cikb və s. ləzgi tayfalan idi. Bir ehtimala görə, ümumləzgi kök dilindən əvvəlcə xınalıq dili, sonra arçin və udin dilləri, daha sonra isə buduğ, qnz, rutul və saxur dilləri təcrid olunmuşdur. Ləzgi, tabasaran və aqul dillərinin kök dildən aynİmasını sonrakı dövrlərə aid edirlər. Udi- udin, xınalıq, buduğ, qnz, saxur dilləri Dağıstan erazisində kök'dildən təcrid olunmuş, cənuba doğru hərəkət edərək Samur-Dərbənd bölgəsində məskunlaşmışlar. Burada udi-udinlər xristianlığı qəbul etmiş və hun-türk etnoslarının təzyiqi altında Kür çayının sol sahilinə, indi yaşadıqlan eraziyə köçmüşlər. Udi-udinlərin yerdəyişməsi ya əı*əb istilası ərəfəsində, ya da nisbətən sonra baş vermişdir. Qalan ləzgidiili tayfalar (buduğ, qnz, saxur, ləzgi) islam dinini qəbul etdikdən sonra orta əsrlərin müxtəlif dövrlərində Azərbaycanın şimal hüdudlarında məskunlaşmış, dillərini saxlamışlar.

Ərəb muəllilləri Bərdə və Arran (keçmiş Albaniya) əhalisinin dilini aiTan dili adlandırırdılar, Arıən dili Qafqaz dillərinə mənsub ola bilməzdi. Antik müəlliflər Qafqaz-iber dillərinə mənsub tayfaları (ud, qel və leq, çilb//silv, lupeni//lpin və didutiarı) Albaniyadan xeyli şimalda Qafqaz dağlarında yerləşdirirdilər. Qafqaz dillərindən heç biri vahid ünsiyyət dilinə nə erkən orta əsrlərdə, nə də sonralar çevrilməmişdi. Aıran dili isə ölkədə vahid dil kimi qeyd olunmuşdu. Qaynaqlar göstərir ki, arran dili nə ərəb, nə fars, nə də udi-ləzgi dili deyildi. Arran dili artıq formalaşmış qədim türk dili idi. Bu dildə albanlar, utilər, qarqarlar, erkən peçeneqlər, kanqarlar və başqaları danışırdı. Bu dil həm də müxtəlif dilli etnoslar arasında ünsiyyət dilinə çevrilmişdi. Erkən orta əsrlərdə yerli türk etnik təbəqəsi ilə hun ittifaqına daxil olan türk etnoslan qarışmışdı və qohum türk dilləri arasında çaıpazlaş- ma gedirdi. Nəticədə erkən oğuz dilləri əsasında qədim Azərbaycan türk dili yaranmışdı. Azərbaycan türk dilini başqa türk dillərindən fərqləndirən bir sıra fonetik xüsusiyyətlər (d-y, nq-n və s. kimi tbnetik əvəzlənmələr) III-VII əsrlərdə meydana gəlmişdi. Artıq VII~VIII əsrlərdə Azarbaycanda (eləcə də Ön Qafqaz ölkələrinin türkdilli əhali yaşayan regionlarında) Azərbaycan türk dili artıq yetkinləşmişdi.

Cənubi Azərbaycanda (Adərbayqanda) da türk dilinin mövqeyi İran tə’sirinə baxmayaraq möhkəmlənirdi. Bə’zən onların varlığını «fars» etnonimi pərdələyirdi, yə’ni onları da fars adlandırırdılar. Ümumiyyətlə, ərəb işğalından sonra Azərbaycan əhalisinin yuxarı təbəqələri və müəyyən bir qismi ərəb və fars dillərini də bilirdi, onların arasında ikidillilik şəraiti yaranmışdı. Lakin əhalinin böyük qismi, xüsusilə kənddə yaşayanlar türk dilini işlədirdilər. Siyasi şərait uzun müddət türk dilinin dövlət dili səviyyəsinə qalxmasına imkan vermirdi. Bə'zən bu qaynaqlar da «fars dili» anlayışına daxil edilirdi.

! Cənubi Azərbaycanda türklər ən qədim zamanlardan yaşayırdılar. Təsadüfi deyil ki, xəlifə Müaviyyə (661-750-ci illər) türklərin Azərbaycanla əlaqəsini somşanda, ona vəziri belə cavab vermişdi: «Azərbaycan qədimdən türk tayfaları tərəfindən məskunlaşmış ölkədir». Sonralar (XII əsr) fars qaynaqlanndan biri «Azerbaycan qədimdən türk tayfalarının əlinə keçmiş ölkədin) məTumatını saxlamışdı. Deməli, şimalda olduğu kimi, Cənubi Azərbaycanda da əhali əsasən türk dillərində danışırdı. Lakin erkən qaynaqlar sanki bilərəkdən bu qədim əhalinin dili barədə aydın ifadə saxlamamış, əhalisini isə farslarla qanşdıımışdır. Yalnız ərəb müəllifləri Cənubi Azərbaycanda mövcud olan dillər barədə mə’lumat vermişlər.

Azəri dili. Cənubi Azərbaycanın ərazisi ilə əlaqədar qaynaqlar azəri dilini yad etmişdir. Ərəb müəllifi Yaqut Həməvi (XII-XIII əsrlər) yazırdı ki, «onlann dilini al-azəriyə (azəri) adlandırırlar. Onu başqaları anlamıt*». Digər müəllif Yaqubi (IX əsr) xəbər verir ki, «Azərbaycan şəhər və mahallarının əhalisi əcəm (fars), azəri (al-azəriyə) və Babək olan əl-Bəzz şəhərinin qədim sahibləri, çavidanilərlə qarışıqdır». Mətndən məMum olmur ki, əcəmi, azəri və cavidanilər hansı dildə danışan Azərbaycan əhalisi ilə qarışıq idi. Yəqin ki, bu əhali türk dilində danışırmış. Ərəb işğalı ərəfəsində Azərbaycanın əsasən türk etnoslarından ibarət əhalisi ərəblərə güclü müqavimət göstərmişdi. Xürrəmilər hərəkatının özündə azərbaycanlılar iştirak edirdilər. Babəkin tərəfində türk adları daşıyan Tərxan və Adin //Aydın kimi sərkərdələr Öz hərbi dəstələri ilə vuruşurdular. Babək də eyni zamanda şimalda yaşayan azərbaycanlıların mənafeyini qoruyur və buradakı xristianları öz tərəfinə çəkmək siyasəti yürüdürdü. Çox güman ki, azəri dili Azərbaycan-turk dilinə şamil olunurdu, çünki ərəb müəllifləri Azərbaycanda işlədilən İran ləhcələrini pəhləvi dilinə (əl- tbhləviyə), yaxud fars (əl-farsiyə) dilinə mənsub edirdilər. Bə’zi hallarda yerli, o cümlədən türk əhalisi «fars» adlandırılırdı.

Mə’sudi (X əsr) farslara tabe olan ölkələr barədə belə yazırdı: «Farslar xalqdır. Onların ölkəsinin hüdudları: əl-Cibal, əI-Mahatdan*-^ və s. bəri, Azərbaycan və ona söykənən (qonşu) Ənnəniyə, Arran, Beyləqan, Dərbəndə kimi - özü də Bab ül-Əbvab, Rey, Təbəristan, əl-Maskat, Şabaran, Curcan,*"* Abar-şəhr özü də Nisabur,*^ Herat, Mərv və s. ölkələrdən ona o zaman söykənən, əl-Əcəm*^’ torpaqlarından bəri. Bütün bu ölkələr vahid idarəyə, vahid hökmdara və vahid dilə malikdir. Lakin onların dilləri bir sıra fərqlərə baxmayaraq, birdir, çünki yazdıqları hərflər eynidir, hərflərin birləşməsi də eynidir. Ancaq digər nisbətdə (götürəndə) bunlar, məsələn, (necə ki), pəhləvi (əl-fəhləviyə), deri (əl-dəriyə), azəri (əl-azəriye) və başqaları fars dilindən fərqlənildilər. Mə’sudinin mə’lumatı əsasında bə’zi tədqiqatçılar belə qənaətə gəlmişlər ki, guya Azərbaycan əhalisi T minillikdə artıq dil baxımından fai-slaşmışdı. Lakin nəzərdən qaçırırlar ki, Mə’sudinin mə’Iumatı Ərməniyəyə, Dərbənd əhatəsinə. Orta Asiya-

Mahat “ keçmiş Midiya. Əl-Cibal Xəzər dənizinin cənub-qərbində yerləşirdi.

Gurcan - Gurqan adının ərəb tələfluzüdür.

Sonrakı Nişapıır (Əfqanıstan).

Əcəm - qeyri-ərəb.

ya da aiddir. Onda belə çıxır kı, adı çəkilən ölkələrin də əhalisi farslaşmaya me'ruz qalmışdı. Əslində hem bu ölkələr, həm də Azərbay> can Aranla və onun vilayətləri ilə birlikdə öz dillərini saxlayır, sadəcə olaraq, ərəb əlifbasından istifadə edirdilər, bu əlifbanı öz dillərinə tətbiq edirdilər, fars dilini dövlət dili kimi işlədirdilər. Bununla əlaqədar tbn Havqəl (X əsr) yazırdı ki, «Azərbaycanın və Ənneniyenin əhalisinin əksəriyyətinin dili fars və ərəbdir. Lakin ərəbcə danışanlar azdır, farsca danışanlar isə ərəb dilini başa düşmürlər, ərəb dilində danışanlar tacirlər və mülk sahibləridir. Ərməniyənin ucqarlarında və buna bönzər yerlərdə yaşayan tayfalar üçün başqa dillər mövcuddur. Dəbil və onun vilayətlərinin əhalisi erməni, Bərdə əhalisi isə arran dilində danışır». Bu me’lumata əsasən belə mülahizə söylənmişdi ki, guya Azərbaycanda əhalinin həm də ərəbləşməsi baş vermişdi. Azərbaycanın Dərbəndə kimi ərazisində (eləcə də Ərməniye türkləri arasında) nə farslaşma, nə də ərəbləşmə olmamışdı. Azərbaycan türkləri öz turk dilini saxlamış, şəhər yerlərində isə varlı təbəqələr və ədiblər, tacir və mülk sahibləri fars və ərəb dillərini həm dövlət, həm də dəftərxana, elm və ədəbiyyat dili kimi öyrənmişdilər. Azərbaycanda fars, eləcə de ərəb dillərini ana (türk) dili səviyyəsində bilən, həmin dillərdə yazıb-yaradan ədiblər yetişmişdi. Ərəb müəllifləri, o cümlədən Mə'sudi Azərbaycan əhalisinin dilinə fars dili baxımından yanaşmış, arran və azəri dillərini fərqləndirən cəhətləri göstənnəmiş- ler. Belə təsəvvür yaranır ki, yerli türk dilləri «fars dili» anlayışı ilə qarışdırılmışdı.

Azerbaycanda mövcud olan fars dili ləhcələrini (orta fars dilinin) ərəb müəllifləri əl-fəhləviyə (pəhləvi) adlandırmışlar. Azəri dili isə bu ləhcələrdən fərqlənirdi. İbn-Havqəl yazır ki, «mən Savalanda, Ərdəbil dağında kənd gördüm. Hər bir kəndin sakinlərinin özünəməxsus dili var. Ancaq öz aralarında farsi və azəri olmayan başqa dildə danışırlar». Bu mə'lumatdan aydın olur ki, Ərdəbil mahalında mövcud olan dillər nə fars dilinə, nə də azəri dilinə yaxın deyildi. Deməli, azəri müstəqil dil kimi həm fars, hem də Ərdəbil dillərindən fərqlənirdi. İbn Havqəlin qeyd etdiyi «başqa dib> pəhləvi-fars dilinin hansısa ləhcəsi (bəlkə də talış dili) imiş.

Azəri dilində Azərbaycan əhalisi danışırdı. Yaqut Həmevinin Əbu Zəkəriyyə ət-Təbrizi baradə hekayəsində azəri dili yad edilir və bu «Azərbaycan əhlinin dili» kimi göstərilir. Azəri dili haqqında qaynaqlarda daha mə’lumat verilmir. Bu dövrdə (XII-XIII asr) yəqin ki, «azəri dili» anlayışı «türk dili» anlayışı ilə əvəz olunur. Qaynaqlar göstərir ki, azəri dili Azərbaycanın erkən türk əhalisinin dili olmuş, ;

fars dilindən ve pəhləvi ləhcələrindən terqlənmişdir. Əsrimizin 20-ci illərinə kimi və daha sonra tarixi ən’əne azəri məfhumunu azərbaycanlıların adı ilə bağlamışdır. Lakin S.Ə.Kesrevi 1926-cı ildə çap etdirdiyi «Azəri, yaxud Azərbaycanın qədim dili» əsərində belə bir müddəa irəli sürmüşdü ki, guya azəri tarixən fars ləhcələrindən biri olmuşdur. Bu fikri əsaslandırmaq üçün o, orta əsr müəllifləri Şeyx Hüseyn (XVII əsr) və İbn Bəzzaz Təvəkkülün (XIV əsr) əsərlərində təmsil olunmuş ləhcə nümunələrini göstərmişdi. Fars dili ləhcələrinə aid şe’rləri S.Ə.Kəsrəvi azəri dilinin nümunələri kimi qələmə vermiş və azəri dilini fars dilinin ləhcəsi hesab etmişdi. Bundan sonra Cənubi Azərbaycanda mövcud olan bütün pəhləvi>fars dillerinə mənsub ləhcələr azəri dilinin qalığı kimi qəbul edilmişdi. Lakin Şeyx Hüseyn də, İbn Bəzzaz da göstərdikləri şivə şe’riərini azəri dilinin deyil, Ərdəbil mahalında işlədilən pəhləvi dilinin qalığı (əl-fəhləviyə) kimi izah etmişlər. Bunlar İbn Havqəlin me'lumat verdiyi «başqa dil»də idi. Əslində S.Kəsrəvi tarixi məTumatı saxtalaşdırmış və îran hakim dairələrinin Azərbaycan xalqının keçmiş tarixinə qarşı millətçi siyasətini əsas tutmuşdu. Bununla əlaqədar o, azərbaycanlıların farslardan dönmə olması müddəasını irəli sürmüşdü. Q.V.Miller S.Kəsrəviyə əsaslanaraq azəri dilini talış dili ilə eyniləşdirmiş, göstərmişdi ki, bu dilin yayıldığı mərkəz Ərdəbildir. Q.V.Millerin fikrincə, guya orta əsr ləhcə şe'ıiərinin bir sıra leksikası talış sözləri ilə oxşardır. Q.V.Millerin mülahizəsi tamamilə yanlışdır. Birincisi, ərəb müəlliflərinə görə, azəri dilinin mərkəzi Ərdəbil yox, Azərbaycandır. îkincisi, ərəb müəllifləri Ərdəbildə azəri dilindən fərqli ləhcələrin olmasını qeyd etmişlər. Üçüncüsü, Q.V.Millerin talış dili formasına uyğunlaşdırdığı sözlər (ra «yol», zaner «bilmək», şov «gecə», ru «gün», çeş «göz», əsr «göz yaşı» və s.) kürd, tat, lor, takistani, Şiraz ləhcələrində də işlədilir. Təsadüfi deyil ki, V.B.Henninq S.Ə.Kesrəvinin və Q.V.Millerin azəri dili haqqında mühakimələrini şübhə altına aldı. V.B.Henninq müvafiq dil materiallarını araşdıraraq belə nəticəyə gəldi ki, Azərbaycanın qədim dillərinin qalığı hesab edilən fars ləhcələri cənubdan gətirilmişdir və bunlar azəri dilinin qalığı ola bilməz. Azəri dilini İran dillərindən biri hesab edən V.B.Henninq belə qənaətə gəlir ki, vaxtilə Azərbaycanda danışılan azəri dili haqqında heç nə bilmirik. Bu müəlliflərin hamısı XI əsrə qədər Azərbaycanda türk etnoslarının olmaması baxımından çıxış edirdilər.

Ehtimala görə, e.ə. 11 minillikdə Hind-Avropa dil ailəsinə mənsub oian Hind-İran kÖk dili təcrid olunmuşdur. Həmin minilliyin sonunda Hind-İran dili Hind və İran dil qollanna parçalanmışdı. Hind-Avropa

uıyfalan Hindistana, farsdilli tayfalar isə İrana, Əfqanıstana ve Orta Asiyaya gələrək məskunlaşmışlar. Qədim farsdilli tayfalar əvvəl İran yaylasının cənubunda və mərkəz hissəsində məskunlaşmış və e.ə. 1 minilliyin birinci yarısında buranın siyasi həyatında fəal iştirak edirdilər. Həmin dövrdə fars dilinin parçalanması nəticəsində bir sıra ləhcələr yaranmış ve bə'zi farsdilli etnoslar Azərbaycanın şərq və qərbinə doğru yayılmış, tarixin müxtəlif dövrlərində yerlərini dəyişmiş və müxtəlif adlı fars ləhcələrinin başlanğıcını qoymuşlar. Parfıya və Sasani sülalələrinin hakimiyyəti illərində də fars ləhcələrində danışan əhali Azerbaycan və ona qonşu olan ərazilərə gəlmiş, orada da məskən salmışdı. Erkən orta əsr qaynaqlarında farsdilli ailələrin Azərbaycana gəlməsi, yaxud köçürülməsi barədə məMumat qalmışdır. Ərəb qaynaqları onların dilini pəhləvi və larsi adlandırırdı. Kürd dilində danışan etnoslar İranın cjə^ sərhədlərində yaşayırdılar. Onların ilk me'lum məskənləri İran-İraq-Türkiyə hüdudlarında olmuş, orta əsrlərdə buradan qonşu vilayətlərə (Azerbaycana, Ərməniyəyə) yayılmış, yaxud köçürülmüşlər. *> Azerbaycanın erazisində mövcud olmuş tat ləhcələri pəhləvi və fars dillərinin şivələri idi. Tatlar erkən orta əsrlərdə cənubdan Azərbaycanın ərazisinə köçürülmüşlər. Azərbaycan tatları türk dilini də bilirdilər. Çox güman ki, erkən orta əsrlərdə və sonra Azərbaycan • ərazisində (Abşeron zonası) məskunlaşmış tatlar ikidilli Azərbaycan türkləri olmuşlar. Yeni şəraitdə onlar ikinci dil olan tat dilini tədricən yadırğatnış və ana, türk dilini saxlamışlar. Ancaq Quba zonasında yaşayan tatların ana dili tarixən fars ləhcəsi olmuşdur. Onların ikinci dili Azerbaycan dilidir. Çənubi Azərbaycanda yaşayan tatlar da Azerbaycan dilindən ünsiyyət vasitəsi kimi istifadə edirlər. Bu tat dilini bə'zen «Midiya dili»nin qalığı kimi qələmə verirlər, lakin bunlar hamısı pəhləvi ləhcələri olmuşdur. Azərbaycanda talış dilində danışan əhali Xəzər dənizi sahilində Masallı, Lerik ve Lənkəran rayonlarından başlayaraq İranın Pəhləvi şəhərinə qədərki ərazidə yaşayırdı. Buradan cənuba doğru Gilan və Mazandaran dilləri yayılmışdı. Hər üç dil qədimdə eyni İran ləhcəsinə mənsub idi. Ərəb müəllifləri bu ləhcələri pəhləvi dilindən fərqləndirirdilər, halbuki Ərdəbil zonasına aid orta əsr şe'r mətnləri (İbn Hüseyn, İbn Bəzzaz) pehləviyyə adlandırılmışdı. Yəqin ki, orta əsrlərdə bu ləhcələr müstəqil dil şəklinə düşmüşdür. Əhali yerin adına uyğun müvafiq ad qəbul etmişdi. Talış yeni dövrdə işlədilmiş keçmiş coğrafi addır. Ehtimala görə, qədimdə kadusi, orta əsrlərdə kateş etnik adlan talışlara şamil edilirmiş. Lakin tarixən kadusi/Zkateş etnosunun dil mənsubiyyəti mə'lum deyildir.

Talış, o cümlədən kürd, Gilan və Mazandaran dilləri, Cənubi Azərbaycandakı bə’zi tat şivələri Parfiya (pəhləvi) dili ilə yanaşı, şimal-qərbi fars dilləri qrupuna daxildir. Bu qrupa namə’lum «Midiya dili» də aid edilir. Lakin yuxanda adı çəkilən dillər Parfiya dilinin ləhcəsi kimi cənubdan şimala yayılmışdır. Cənubi Azerbaycanın Xalxal, Həi'zən, Qəzvinden cənubda Takistan və s. fars dili ləhcələri tarixi fonetik əlamətlərinə görə talış dili ile eyni kök dildən, dialektdən ayrılmışdır. Bu dillərin hamısında yeni fars leksik fonnaları daha çox üstünlük təşkil edir.

Azeri dilini səciyyələndirən heç bir abidə və söz qalmamışdır. Azəri dilini fars, yaxud fars dilləri ləhcəsi hesab edənlər belə bir yanlış müddəanı əsas götürürdülər ki, guya səlcuq oğuzlarına, yə’ni XI-XII əsrlərə qədər Azərbaycan toıpaqlarında türk etnoslannın izi belə olmamışdır. Əslində isə Azərbaycanda qədim dövrlərdən bəri türk etnosları yaşayırdılar. Azəri dili bu etnoslann birləşməsi nəticəsində yaranmış Ümumazərbaycan türk dilinə şamil edilirmiş. Beləliklə, Azərbaycanın hər iki hissəsində erkən orta əsrlərdə mövcud olan türk dili müxtəlif etnoslann adı ilə adlanmış, sonra isə yığcam arran və azəri adlarını daşımışdır. Türk etnoslarının siyasi üstünlüyü şəraitində arran və azəri dilləri anlayışı aradan çıxmış və türk (Azərbaycan) dili anlayışı yayılmışdı. Erkən orta əsrlərdə müxtəlif türk etnoslarının birləşməsi nəticəsində VII-VIIl əsrlərdə ümumxalq Azərbaycan (türk) dili yaranmış və Azərbaycan türkləri vahid xalq kimi fomıalaşmışdı.

Azərbaycan türklərinin mənşəyi. Hər bir xalq kimi azəri türkləri də öz etnik keçmişlərini bilmək istəyirlər. Uzun müddət Azərbaycan xalqının mənşəyi bilərakdən yanlış izah edilmiş, onun etnik və dil keçmişi soykökündən ayrılmışdı. S.Ə.Kəsrəvi Azərbaycan türklərinin mənşəyi məsələsinə toxunaraq, onları farslardan dönmə hesab etmişdir. Onun fikrincə, XI-XII əsrlərdən əvvəl Azərbaycanda türk etnosları yaşamamış, guya səlcuq oğuzlarının gəlməsilə burada türk tayfaları məskən salmış, Səfəvilərin dövründə isə onların siyasi mövqeyi möhkəmlənmiş və farsları türkləşməyə me’ruz qoymuşlar. Təxminən eyni fikri V.V.Bartold təkrar etmiş, Azərbaycan əhalisinin türkləşməsini oğuzların Xl-XII əsrlərdə buraya gəlməsilə bağlamış və Azərbaycan türklərinin bir xalq kimi yaranmasını XIV-XV əsrlərə aid etmişdir. Eyni mövqedən V.Minorski və Q. V.Miller fikir söyləmişlər. Azərbaycan xalqının mənşə taleyini yanlış yola salan bu tarixçilər XI- XII əsrə qədərki qaynaqların mə’lumatını heç nəzərə almamış, ya da

səthi yanaşmış vƏ türk etnoslarını tarixi baxımdan araşdınTiamışİar. Mixi yazılara və erkən orta əsr qaynaqlarının öyrənilməsinə isə birtərəfli yanaşılmışdır.

30-cu illərdə azərbaycanlıların mənşəyi məsələsinə siyasi rəng vermiş və onu soykökündən ayırmışlar. Azərbaycan xalqının tarixini türk etnosları ilə bağlayan tədqiqatçılara siyasi damğalar vurub cəzalandınnışlar. Azərbaycanlıların (eləcə də başqa türk və Qafqazdilli xalqların) latın əlifbası kiril əlitbasilə əvəz edilmişdi. Əhalinin «türk» adı bütün sənədlərdən və pasportlardan silinmiş, yerinə «azərbaycanlı» məfhumu yazılmışdı. Xalqın mənşəyini Midiya ilə bağlamağa başlamış, midiyalıların Azərbaycan xalqının əcdadı olması fikri ortaya arılmışdı. Azərbaycan dilinin türk dillərinə yox, namə’lum Midiya dilinə qohum olması müddəası peyda olmuşdu. I Daranın Bisütun kitabəsinin elam dilində yazılmış bəndi Midiya dili e’lan edilmiş və o, bir sıra Azərbaycan sözlerilə müqayisə olunmuşdu.

Əgər Cənubi Azərbaycanın türk əhalisi farsdilli farslardan dönmə hesab edilirdisə. Şimali Azərbaycanın türk mənşəli əhalisi, həm də türkləşmiş Qafqazdilli etnosların sələfləri kimi qələmə verilirdi. Yuxarıda göstərildi ki, alban və utilərin Qafqazdilli hesab edilməsi, onların udinlərlə eyniləşdirilməsi tarixi həqiqətə uyğun deyil. Qafqazdilli tayfaların bir qismi Azərbaycanda (Albaniyada) baş verən siyasi hadisələrdə iştirak edirdi. Onlar Dağıstan ərazisindən tədricən cənuba yayılmış, Samur çayı hövzəsində məskunlaşmış ləzgidilli tayfalar idi. İndi Azərbaycanın şimalında udi//udin, xınalıq, qrız, haput, buduğ, avar, ləzgi etnosları yaşayırlar. Öz dilini və etnik mənsubiyyətini saxlamış bu tayfalar müxtəlif dövrlərdə Azərbaycanın şimalında dağlıq ərazilərdə tədricən məskunlaşmışlar. Ləzgi-avar tayfaları bir xalq kimi Dağıstan ərazisində yaranmış və oradan cənuba doğru yayılmışdır.

Azərbaycan xalqının mənşəyi dilinə uyğun olaraq gəlmə türk etnoslan ilə əlaqələndirilirdi, burada yaşayan yerli türklərin qədimliyinə diqqət verilmirdi. D.Y.Yeremeyev yazırdı ki, III-V əsrlərdə türk tayfalarının Kiçik Asiyaya, Qafqaza və Balkan yarımadasına axını fəallaşmışdı. O, hun türklərinin yerdəyişməsini nəzərdə tuturdu. Q.A.Melikişvili qaynaqların mə’lumatına əsaslanaraq qeyd etmişdi ki, qədim gürcü tarixi ən’ənesi Kartlinin (Gürcüstanın) aran rayonlarında türk əhalisinin (buntürk, hun, qıpçaq) olmasını saxlamışdır. M.İ.Artamonovun fikrincə. Ön Qafqazda, xüsusilə Albaniyanın aran hissəsində türk-sabir, xəzər, bulqar və başqalarının buraya gəldikləri gündən

məskənləri vardı ki, sonralar onların tərkibi yeni türk tayfalarının hesabına çoxaldı və Azərbaycanın müasir etnik görkəmi yarandı. S.T.Yeremyana görə, erməni və gürcü mədəni tə'sirinə düçar olmuş Albaniya əhalisi islam dinini qəbul etmiş, sonra türk tayfalarına qovuşmuş və nəticədə müasir Azerbaycan xalqı yaranmışdır. Gösterilən mülahizələrdən belə çıxır ki, Azərbaycana gəlmiş türk tayfaları qeyri-türk əhaliyə öz dilini qəbul elətdirmiş ve nəticədə Azerfjaycan xalqı yaranmışdır. Çox təəssüf ki, belə yanlış fikirlər Azerbaycan xalqının tarixini düzgün işıqlandınnağa uzun müddət əngəl olmuşdur.

Hələ 20-ci illərdə azərbaycanlıların mənşəyini Azerbaycan tarixşünaslığmda izah etmək cəhdləri göstərilmişdi. M.H.Veliyev (Baharlı) belə mülahizə yürütmüşdü ki, azərbaycanlılann mənşəyində türk xalqları (hun, xəzər, alan, peçeneq, səlcuq, türkmən və s.) ilə yanaşı, qeyri-türk xalqları (ərəb, kürd, tat, talış, erməni, gürcü, yəhudi və s.) da iştirak etmiş, zaman keçdikcə vahid Azerbaycan türkləri yaranmışdı. A.K.Ələkbərov Azərbaycan-türk xalqının yaranmasını yerli əhalinin ayn-ayn fars, ərəb, şimaldan və cənubdan gəlmiş türk tayfalarının qaynayıb-qarışması ilə bağlayırdı. 40-cı illərdə Azərbaycan türklərinin midiyalılardan ve albanlardan töıəməsi müddəası yayılmağa başladı. M.Rəfill yazırdı ki, midiyalılar, albanlar və kaspilər cənubda və şimalda yaşayan müasir azərbaycanlıların uzaq əcdadları olmuşlar. Bu mülahizələr Azerbaycan xalqının mənşəyi məsələsində tam aydınlıq yaratmır, qaynaqların hərtərəfli öyrənilməsinə maneçilik törədirdi.

O, inkaredilməz idi ki, Azərbaycan türkləri türkdilli xalqdır ve onun mənşəyində başlıca olaraq türk etnosları iştirak etmişlər. Bu aydın məsələ dolaşdırılmış, ortaya yerli əhalinin «türkləşməsi» anlayışı atılmış, bu proses isə səlcuq oğuzlarının Azərbaycana gəlişi ilə bağlanmışdı. 60-cı illərdə Azerbaycanda səlcuqlardan çox əvvəl türk etnoslannın yaşaması müddəası araşdınimağa başlandı. Z.M.Bünya- dov Azərbaycanda hələ Sasani imperiyasının dövründə türkləşmə prosesinin getdiyini söylədi. Eyni zamanda o, ərəb müəlliflərinin mə'lumatına əsaslanaraq göstərdi ki, ərəb istilasından əvvəl Azərbaycanda türk etnosları yaşayırdılar. Z.M.Bünyadov yazırdı: «Bə'zi tədqiqatçıların etdiyi kimi, türkleşmenin XI-XII əsrlərdə baş verdiyini qəbul etmək səhv olardı. Türkləri Azerbaycan ərazisinə kənardan gəlmiş bir ünsür hesab etmək də səhvdir, çünki onda yerli, böyük və çox yığcam türk tayfalarının varlığına göz yumulur.

Türkləşmə prosesi yalnız türk aborigenlərinin cənubdan gələn oğuzlar və şimaldan gələn qıpçaqlarla qarışması nəticəsində, bunların assimilyasiyasından sonra başlandı və getdikcə sür'ətlənib XI-XIl əsrlərdə qurtararaq, Azərbaycan və Arran ərazisində müasir Azərbaycan millətini əmələ gəlirən Azərbaycan xalqının təşəkkül tapması ilə nəticələndi». Bundan sonra Azərbaycanda türk etnoslarının tarixini ayırd edən elmi araşdırmalara meyl artdı. K.H.Əliyev, S.B.Aşurbəyli, T.İ.Hacıyev, F.A.Cəlilov, Q.Ə.Qeybullayev, V.L.Qukasyan və bu sətirlərin müəllifi və başqaları erkən orta əsr və nisbətən əvvəlki dövrlərdə Azərbaycanda türk etnoslarının yaşaması məsələsini müxtəlif baxımdan araşdırdılar. Dövrün etnonim, toponim və şəxs adları öyrənildi; bunların müəyyən qisminin türk mənşəli olduğu müəyyənləşdirildi. Eyni zamanda, qədim erməni qaynaqlarında türk sözləri aşkar edildi, alban, qarqar və utilorin türkdilli olması müddəası irəli sürüldü. Bununla yanaşı, ayırd edildi ki, ən tədim türk etnosları (erkən Azərbaycan türkləri) Cənubi Azərbaycanda e.ə. III-I minilliklərdə yaşayırdılar. Deməli, Azərbaycanda heç bir kütləvi «türkləşmə» prosesi olmamışdır, çünki burada qədimdən bəri türk dillərində danışan əhali yaşamışdır. Geniş ərazidə yaşayan türk etnoslarının bu və ya digər səbəbdən yerdəyişməsi nəticəsində onların müəyyən qınpları Azerbaycana hərəkət etmiş və burada yerli türklərlə qaynayıb-qarışmışdır.

Azərbaycan xalqının təşəkkülü. Hər bir xalqın mənşəyi onun danışdığı dilə uyğun müəyyən edilir. Dil etnik mənsubiyyəti bildirən başlıca əlamətdir. 30-cu illərin sonuna kimi azərbaycanlılar «türk, türk xalqı», dili isə «türk dili» adlanırdı. Qedim zamanlardan bəri Azerbaycan ərazisində türk dillərində danışan etnoslar yaşamışdı. Son illə- rədək türk dillərində danışan əhalinin Azərbaycanda aborigen (yerli əhali) olmasını inkar edirdilər, lakin qaynaqların yenidən araşdırılması bu mülahizənin əsassız olduğunu göstərdi.

Azərbaycan dili türk dilləri ailəsinə mənsubdur. Deməli, Azərbaycan türklərinin mənşəyi dil mənsubiyyətinə uyğun Azərbaycanda yaşamış qədim türk etnoslarının tarixi ilə bağlanmalıdır. Qərbdə Egey dənizi hövzəsi və Anadoludan tutmuş, şərqdə ta Çinə kimi, şimalda Rusiya çöllərindən və Qafqazdan tutmuş cənubda İran yaylasının cənubuna kimi geniş ərazidə türk xalqları təmsil olunmuşlar. Hər bir türk xalqı bu ərazidə müxtəlif ad altında formalaşmışdır. Türklərin ayrı-ayrı torpaqlarda qədim türk kökləri əsasında özünəməxsus adla xalq kimi formalaşması erkən orta əsrlərdə baş veımişdi. Eləcə də

Azərbaycan xalqının mənşəyində Azərbaycanda yaşamış və müxtəlif dövrlərdə ona qaynayıb-qarışmış türk etnosları yaxından iştirak elmişlər.

Adətən, turk dillərinin Ural-Aitay dil ailəsinə, yə'ni türk dillərinin uqor-fm və monqol-mancur kök dillərinə yaxın olduğunu söyləyirdilər. Sonra türk dillərini Altay dil ailəsinə aid edib türkləri Altaydan çıxma hesab etdilər. Lakin tədqiqatçılar türk-Altay dil qohumluğunu sübuta yetirməmiş, oxşar leksikanın ünsiyyət vasitəsilə mənimsənildiyini söyləmişlər. Hal-hazırda müstəqil türk dilləri ailəsinin mövcud olması fikri də irəli sürülür. Çox güman ki, e.ə. VIII minillikdə və III minilliyin əvvəlində türk dillərinin kök dildən ayrılması və müxtəlif dillərə parçalanması baş vermişdi. Kök dilin parçalanmasının harada baş verməsi bir problem kimi araşdınimalıdır. Ehtimal etmək olar ki, türk kök dilinin parçalanması Hind-Avropa etnosları ilə ünsiyyət şəraitində baş veımişdir. Ünsiyyət nəticəsində oxşar leksika Hind- Avropa və pratürk, yaxud prototürk dillərində işlədilirmiş. Son elmi araşdırmalara (T.V.Qamkrelidze və V.V.İvanov) görə, Hind-Avıx>pa tayfalarının ilk vətəni şimali İkiçayarası, Şərqi Anadolu və Cənubi Qafiqaz dairəsi olmuşdur. Bir sıra Altay-türk qədim leksik ünsürləri hind-avropalılar tərəfindən mənimsənilmişdir.'^ Deməli, prototürklər məhz bu ərazidə hind-avropalılarla yaxın təmasda olmuş və şərqə doğın hərəkət etmişlər. Bununla da türk dilləri şərq və qərb qollarına ayrılmışdır. Prototürklərin bir qismi e.ə. IV minilliyin sonu-lll minilliyin əvvəlində şumerlərlə yaxın ünsiyyətə girmiş və şumer dilinə tə'sir göstərmişdir. İlk şumerlər Azərbaycan əhalisi (Aratta «dağ» sözünü işlədən etnoslar) ilə siyasi, iqtisadi və mədəni əlaqələr yaratmışdılar. E.ə. lll-ll minilliklər ən qədim türk tayfalarının geniş ərazidə yayılması dövru hesab oluna bilər. E.ə. III-I minilliklərdə Azərbaycanda artıq türk etnosları yaşayırdı. Bu dövrdə Azərbaycan ərazisində türk etnoslarının dilinə məxsus toponimlər (yer adları) və şəxs adlan meydana gəlmişdi. Bu onu göstərir ki, qedim Azərbaycanda prototürk etnosları yaşamış və ümumtürk leksikası əsasında antroponim və toponimlər meydana gəlmişdir.

Lakin T.V.Qamkıelidze və V.V.İvanov bə'zi müvafiq leksikanı türk dillərinə keçmiş Hind-Avropa mənşəli sözlər hesab edirlər. Oxşar, yə'ni eyni mənşəli leksika ən qədim türklərin Hind-Avropa etnosları ilə yaxın ünsiyyətdə olduğunu göstərir.

Qədim qaynaqlarda prototUrklər müxtəlif adlarla göstərilirdi: kuti, lıllubi, su, turukki və s. Bu tayfaların əksəriyyəti Aratta dövləti mövcud olan ərazidə yaşayırdı. Turukki «türk» etnoniminin qedim forması idi. Tunıkkiler lullubi tayfa ittifaqına daxil imişlər. Aratta «dağ» mə'nalı yer adı çox güman ki, turukki-lullubi dilinin leksikasına aid idi. Aratta sonrakı türk dillərindəki Alataa/ZAlatau «dağ, dağ silsiləsi» sözünün on qedim forması olmuşdur. E.ə. əsrlərdə qədim Azərbaycan ərazisində Manna dövləti yüksəlmişdi və ərazisində türk mənşəli toponimlər yaranmışdı. Bo V.İ hökmdar adları türk leksikasından ibarət idi. Artıq AlataaZ/AIatau sözünün fonetik dəyişikliyə uğramış Alateye forması meydana gəlmişdi. Manna əhalisini qaynaqlar, sadəcə olaraq, «mannalı» (akk. «mannaya») adı altında tanıyırdılar Mannaiılar lullubi-tunıkki türk etnoslarının sələfləri idilər. Buna uyğun olaraq, demək olar ki, qədim və erkən orta əsr Azərbaycan türk əhalisi müxtəlif adlar altında rao’lum idi. Qedimdə turukki-türk əhalinin öz adı olmuş, lullubi, kuti, mannalı və s. isə onlara verilmiş kənar adlar olmuşdur. Kənar adlann özü də eynidilli tayfalar arasında yarana bilərdi.
• • Qədim Şərqdə türk tayfaları diger adlar altında mə’lum idilər. Onlar kimmen skit, massaget, sak və s. adlar daşımışlar. Bizans qaynaqları bunlan hun-iürk tayfalarmın todim adlan kimi qələmə venniş- dilər. Bu tayfalar geniş bir ərazidə yaşamış və farsdilli etnoslarla yaxın təmasda olmuş, birgə yerdəyişməyə mə’ruz qalmışlar. Yerdəyişmə nəticəsində hər bir tayfa etnik və dil cəhətdən özünə qohum olan etnosların yanında məskən salırdı. Türk etnosları geniş ərazidə təmsil olunduqlarından, bu və ya digər səbəblərdən onların arasında yerdəyişmələr baş verirdi. Tarixdə yazılı sənədlərdən bir neçə böyük türk axını mə'lumdur. Bunlardan biri kimmer, skit və sak tayfalarının Ön Asiyaya gəlişi (e.ə. VIII əsrin ikinci-VII əsrin birinci yansı) ile, sonrakı axınlar hunların (II-V əsrlər) və səlcuq oğuzlannın (XI-XII əsrlər) adı ilə bağlıdır. Bu türk etnoslan Azərbaycanda da məskən salmış və yerli qohum türlc əhalisi ilə qaynayıb-qanşmışlar.

Manna dövləti şimaldan gəlmiş skit tayfalarına sığınacaq vcrnıiş-di. Onlar sak adı altında .Azərbaycanda məskunlaşmış və yerli tüı*klərə qarışmışdılar. Manna dövlətinin süqutundan sonra Azərbaycan əhalisi vo yer adlai'l barədə mo’lumatlar yox dərəcəsindədir. Məhz antik qaynaqlarda bir sını Azərbaycan tayfalarının adlan çəkilir. Heç şübhə yoxdur ki, bunlar qedim Azərbaycan əhalisinin sələtləri olmuşlar.

Türk etnosları bu dövrdə alban, uti, ğarqar, sakasen, matian, sak, massaget və s. adlar daşıyırdılar.

Azerbaycan uzun müddət İranda hakim olan fars sülalələrinin siyasi hökmranlığının tə’siri altına alınmışdı.

Parfiya sülalesinnn hakimiyyəti dövründə Azərbaycanın türk əhalisi tədricən öz siyasi mövqeyini itirdi, ölkə bə*zən Parfiya Arşakilər sülaləsinin nümayəndələri tərəfindən idarə olunurdu. Parfiya hökmdarlarının və əhalisinin etnik və dil tərkibi müxtəlif idi. Onların tərkibində həm türk, həm də farsdilli emoslar vardı. Azərbaycanın cənub hissəsi (Adərbayqan) Arşakilərin hakimiyyəti altında idi, şimal hissəsində (Albaniyada) Aranilər türk sülaləsi hökmranlıq edirdi. Sülalənin banisi Aranın (türk. Ərən) nəslinə uti, girdman, sovde və qarqar tayfalan mənsub idi. Onlar şimalda alban türk etnik birliyinə daxil idilər. Cənubda türk etnoslanna adərbayqanlı (yunanca atropa- lenoy) məfhumu tətbiq olunurdu. Beləliklə, eramızın əvvəllərində •Azərbaycan türklərini fərqləndirən iki yığcam ad-alban və adərbay- qanlı (atropatenoy) etnik adlan yarandı. Bu dövrdə Azərbaycanla əlaqədar qaynaqlar «türb> etnonimini işlətmirdi, ancaq türkdilli etnosların adlarını yad edirdilər. Parfiya dövlətinin tərkibində azərbaycanlıların bir xalq kimi birləşməsi başlandı. Bu birləşmənin dilini türk dili, ideoloji əsasını köhnə dinlər (bütpərəstlik və atəşpərəstlik) təşkil edirdi. Türkdilli etnosların özlərini vahid bir etnos kimi dərk etməsi bilavasitə Azerbaycanın ərazisində baş vermiş, Ərməniyənin və Gürcüstanın Azerbaycana bitişik (şərq) hissəsində yaşayan türk etnoslarını da əhatə etmişdi. Lakin siyasi hadisələr, müharibələr, qonşu ennəni hökmdar və ə’yanlanmn torpaq iddiaları Azəıtaycan türklərinin ərazi bütövlüyüno və siyasi birliyinə xələl gətirirdi. İranda Sasani sülaləsinin hakimiyyətə gəlməsi (III əsr) Azerbaycanda türk etnik birliyinin möhkəmlənməsinə maneçilik törətmədi, lakin farsdilli iinsürlomn siyasi üstünlüyünü te’min etdi. Sasanilər Azərbaycanı Dərbendo kimi özlərinə tabe etdilər, Ərməniye və Gürcüstan da türk etnosları yaşayan ərazi (şərq hissəsi) ilə birlikdə Sasani imperiyasının tərkibinə daxil oldu.

III-VIII əsrlərdə Azərbaycan güclü Roma-Bizans, İran, türk \aqanhğı və ərəb xilafətinin müharibələri arasına düşdü. Digər tərəf- .ion IV əsrdə Bizans imperiyasının ideologiyasını təşkil edən xristian- l:q dini Azərbaycana, xüsusilə onun şimal hissəsi olan Albaniyaya yol içdı. Sasani şahları xristianlığı Bizans siyasi te'siri hesab edərək

Azərbaycanda və onun qərb qonşuluğunda bu dinin yayılmasına əngəl törədirdilər, xristianlırm tərəfdarlarını tə'qib edir və köhnə dinlərin mövqeyini möhkəmləndirirdilər. Ərməniyə hakim dairələri xristianlığı bayraq edərək ərazisindəki türkləri bu dinə cəlb etmək və Albaniya torpaqlarına iddialarını həyata keçirmək məqsədi güdürdülər. Ərməniyə Bizans, Azərbaycan isə Sasanilərə və şimaldan siyasi hadisələrə müdaxilə edən hun-xəzər türklərinə arxalanırdılar. Bə'zən hunlar və xəzərlər Azəi'baycanda məskən salıb Ərməniyə və Gürcüstan ərazisində yaşayan köhnə din pərəstişkarlarını zorla xristianlaşdırmadan qoruyurdular.

Azərbaycanın şimalında (Albaniyada) hakim dairələr və ə'yanlar xristianlığa meyl göstərirdilər. Onlar gah açıq, galı gizli xristian dininə inam bəsləyir və tədricən erməni təmayüllü siyasət aparırdılar. Sasani şahları vaxtaşırı dini təbliğata sərbəstlik verirdilər. Belə məqamda alban hakim dairələri xristianlığı zorla əhaliyə qəbul etdirirdilər. Buna baxmayaraq, xristianlıq öz mövqeyini Arsaxda (Dağlıq Qarabağ) saxlaya bilmişdi. Burada xristianlığı qəbul edənlərin etnik və^dil tərkibi müxtəlif olmuşdu. Lakin onun özəyini albanlar təşkil edirdi. Bə'zi hallarda hun türkləri də xristianlığa meyl göstərirdilər.

Xristianlıq Azərbaycan əhalisinin etnik birliyini parçalayırdı. Albanların bir qismi xristianlığı qəbul etdikdən sonra erməni və gürcü kilsələrinin tə'siri altına düşərək tədricən öz türk dillərini yadırğa-yırdtlar. Onların böyük qismi isə köhnə dinlərə inamı saxlamaqla vahid xalq kimi təşəkkül tapırdı. Ölkədə baş verən siyasi və dini hərc- mərclik Azerbaycan türklərinin (alban və aderbayqanlıların) türk dili əsasında vahid xalq kimi birləşməsinə şərait yaratdı. Köhnə dinlərə sitayiş foımaiaşan Azərbaycan xalqanın ideoloji dünyagörüşünü təşkil etmişdi. Azərbaycan dilinin və xalqının təşəkkülü III-VII əsrlərdə baş vermiş, VII-VIII əsrlərdə başa çatmışdı. Bu zaman Azerbaycanda gedən dini mübarizə artıq sona yetmişdi. Köhnə dinlərə sitayiş edən Azərbaycan türkləri həmin dövrdə islam dinini qəbul etdilər. Azərbaycanın ərəb xilafətinə tabe olması onun ərazi bütövlüyünü saxladı və özünün mədəniyyəti, adət-ən'ənələri, vahid ərazisi olan ölkə kimi başqa ölkələrlə, qonşu etnoslarla siyasi, iqtisadi, mədəni münasibətlər üçün münasib şərait yaratdı.

## *Vit fəsil*

# AZƏRBAYCAN XİLAFƏTİN TƏRKİBİNDƏ

## § 1.ƏRƏBLƏRİN AZƏRBAYCANI İŞĞAL ETMƏSİ

Siyasi vəziyyət. VII əsrin 40-cı illərində, xilafət ordularının Qafqaza hücumu ərəfəsində Azerbaycanda siyasi vəziyyət mürəkkəb idi. Ön Qafqaza sahib olmaq uğrunda Bizans imperiyası ilə Sasanilər imperiyası arasında miladın III əsrindən başlanan müharibələr fasilələrlə VII əsrin 30-cıı illərinədək davam etdi. Müharibələrin gedişində bağlanan sülh müqavilələri e'tibarlı və sabit olmurdu. Müharibə Azərbaycanın təsərrüfat həyatına ağır zərbə endirir və məhsuldar qüvvələrin inkişafını ləngidirdi. İşğalçılar torpağımızda azğınlıq edir, əhalini doğma yurd-yuvasından zorla köçürür, mahir sənətkarlan əsir götürərək özləri ilə aparır, xalqın sərvətini, əmlakını və mal-qarasını qarət edirdilər. Nəticədə əyalətlərdə əhali azalır və iqtisadiyyatın yenidən dirçəlməsi üçün on illərlə vaxt lazım gəlirdi.

Əsrlərlə davam edən bu müharibələrin son mərhələsi Sasani hökmdarı Xosrov Pərvizin (591-628) 603-cü ildə hücumu ilə başlandı. 25 il davam edən müharibənin əvvəlindən üstünlüyü ələ alan İran qoşunu əhəmiyyətli qələbələr qazandı. Qüds qar€»t edildi. Oradakı «müqəddəs xaç» şahənşahın sarayına gətirildi. Misir tutuldu və Bizansın paytaxtı Konstantinopol təhlükə qarşısında qaldı. Lakin Sasanilərin üstünlüyü qələbə ile nəticələnmədi. 623-cü ildən müharibənin gedişində vəziyyət Bizansın xeyrinə dəyişdi. 120 minlik ordu ilə hücuma keçən Bizans imperatoru II İrakli (610-641) Dəbili və Naxçıvanı qarət edib Azərbaycanın paytaxtı Qazakaya gəldi. Atəşpərəstlərin burada olan əzəmətli baş mə'bedgahını dağıtdı. O, burada on minlərlə əsir və hədsiz-hesabsız qənimət ələ keçirdikdən sonra ölkənin şimalına soxuldu. Bərdə yaxınlığından Tərtər çayı sahilində düşərgə saldı və qarətçiliklə məşğul olmağa başladı. Buradakı döyüşlərin birində yunan ordusu mühasiı*əyə alındı. II İrakli böyük miqdarda xərac və hədiyyələr verməklə Albaniyanın şimalındakı xəzərləri köməyə çağırdı. Cəsur və döyüşkən xəzərlərin gəlişi qüvvələr tükən- dirən bu qanlı müharibənin gedişinə və taleyinə güclü tə'sir göstərdi.

Müharibənin son iki itində müttəfiq qoşunları İranın şəhər və kəndlərini qarət edib əhalini qılıncdan keçirdilər. İmperiyanın paytaxtı Mə- dain şəhərində şahənşahın sarayı yandırıldı. 628-ci ildə Xosrov Pərviz hakimiyyətdən salındı və e'dam edildi. Müharibə bizanslılann qələbəsi ilə başa çatdı. 629-cu ildə bağlanan sülh müqaviləsinin şərtinə görə, Ərməniyə əsasən Bizans imperiyasının hakimiyyəti altına keçdi. İberiya müstəqil dövlətə çevrildi. Albaniya Sasanilərin hakimiyyəti altında qaldı.

Beləliklə, ərəblərin hücumu ərəfəsində Azərbaycan Sasanilərin hakimiyyəti altında qalmaqla imperiyanın şimal canişinliyi deyilən inzibati vahidin tərkibinə daxil idi. Bununla belə, Albaniya hər il xəzərlərə müəyyən miqdarda xərac verirdi. Azərbaycanın cənub hissəsi İrandan tam asılı vəziyyətdə olsa da Ölkənin şimal hissəsi yarım- asılı vəziyyətdə idi, istiqlaliyyətini qismən saxlaya bilmişdi.

Ərəblərin Azərbaycana hücumu mehz belə bir dövrə təsadüf etdi.

İqtisadi vəziyyət. Azərbaycan şah hakimiyyətinə tabe olduğundan burada inzibati idarə qaydaları, vergi sistemi, torpaqdan istifadə, torpaq sahibliyi, dini ayinlər ümumimperiya qanunlan əsasında idarə olunurdu. Şahənşahın Azərbaycandakı merzbanı vaxth-vaxtında bacın verilməsinə və imperiya qanunlanna əməl olunmasına nəzarət edirdi.

VII əsrin 30-40-cı illərində Azərbaycanın iqtisadiyyatına nəzər yetirdikdə feodal münasibətlərinin inkişafı zəminində təsərrüfat heyatının bütün sahələrində canlanma müşahidə olunur və təbii sərvətlərdən istifadə edilirdi. Moisey Kalanketli Albaniya torpağının zəngin sərvətlərindən və münbitliyindən iftixarla yazırdı: «Uca Qafqaz dağları arasında yerləşən Albaniya ölkəsi çoxlu təbii sərvətlərlə dolu və zəngindir. Kür çayı ətrafındakı çöllərdə bolluca taxıl və çaxır (üzüm), neft və duz, ipək və pambıq, çoxlu zeytun ağacı vardı. Dağlarda qızıl, gümüş, mis və oxra çıxanlın>.

X əsrdə yaşamış ərəb coğrafiyaşünası Əbu Duləf 952-953-cü illərdə Azərbaycanı qanş-qanş gəzmiş, buradakı çaylar, göllər, dağlar və şəhərlər haqqında, Dinavərde və Şiz (Təxti-Süleyman şəhəri) yaxınlığında çıxarılan qızıl, civə, qurğuşun, gümüş, sarı arsen və başqa metallardan, buradakı qızılın üç növündən məMumat verir: «Bəzzeyn > dnğIanndan (Bəzz qalasının ətrafındakı dağ) keçdim. Orada bu yerin ndı ilə adlanan kvars mə’dəni vardır... Ondan Yəmən və Vasitə*

* Orta əsrlərdə İraqda olmuş

aparırlar. Vasitdə hazırlanan yun yalnız onunla boyanır. Bu, Misir kvarsından daha davamlıdır».

Əlverişli iqlimi, denizin yaxınlığı, başı qarlı dağları və qalın meşələri. bol sulu çaylan, münbit və bərəkətli torpağı hələ qədim zamanlardan Azerbaycanda əkinçiliyin inkişafına imkan yaratmışdı. Şərqin əksər ölkələrində olduğu kimi, Azərbaycanın aran rayonlarında əkinçilik əsasən sün'i suvarmaya əsaslanırdı. Ərəblərin hücumu ərəfəsində Kür-Araz vadisindəki münbit torpaqlarda bol dənli bitkilər və tut ağacı əkilirdi. Münbitlik sevən pambıq başlıca olaraq Mil, Muğan, Şirvan və Qarabağda yayılmışdı. Dənli bitkilərdən buğda, arpa, dan Azərbaycanın bütün əyalətlərində, çəltik Şirvanda, Şəkidə, Talışda və Arazdan cənubdakı toıpaqlanmızda, zeytun və zə'feran Abşeronda, üzüm və meyvə, demək olar ki, əyalətlərin əksəriyyətində yetişdirilirdi. Albaniya ipəkçiliyin əsas vətəni hesab edilirdi. İxracat məhsulları sırasında ipək və pambıq mühüm yer tuturdu.

Azərbaycanın e'cazkar təbiəti heyvandarlığı inkişaf etdirmək üçün şirin suyu və otu bol olan yaylaq və qışlaqlarla da zəngindi. Mənbələrdə cins atların, dəvələrin, zərif yunlu qoyun və keçilərin, heyvandarlığın digər sahələrinin yaxşı inkişaf etdiyi haqqında maraqlı mə'lumatlar vardı. Əkinçilik kimi maldarlıq da əhalinin əsas məşğuliyyət sahəsi idi. Maldarlıq təkcə dağ və dağətəyi yerlərdə deyil, demək olar ki, bütün əyalətlərdə inkişaf etməkdə idi.

Dənizin, göllərin və iri çayların ətrafında yaşayan əhalinin məşğuliyyətində balıqçılıq mühüm yer tuturdu. X əsrdə yaşamış müəlliflərdən əl-lstəxri qeyd edir ki, «Kürdə sur-mahı (şamayı) balığı var, bu balıq duzlandırılmış halda başqa yerlərə aparılır. Kür çayından zəraqan və işubət adlanan balıqlarda tutulur. Bu yerlərdə hər iki balıq başqa balıqlardan üstün sayıliD>.

Torpağımızın üstü kimi, altı da faydalı sərvətlərlə zəngindi. Gird-manda demir filizi, Gədəbəydə mis, Abşeronda nefl, Naxçıvanda duz, ölkənin cənub hissəsində qızıl, gümüş, qurğuşun, civə, arsen, kvars və s. çıxanlırdı. Mə*dənçıxarmanın təşəkl^lü metal e'malının və digər sənət sahələrinin-zərgərlik, dəmirçilik, misgərlik, silah hazırlanması, dulusçuluq, toxuculuq və s. inkişafına təkan verirdi.

Azerbaycanın təbii-coğrafi mövqeyi və bir sıra dünya ticarət yollarının üstündə yerləşməsi ticarətə maraq yaradırdı. Buradan dünya bazarlarına çıxarılan ən'ənəvi mallann - ipək, pambıq, parça, boyaq maddəsi, neft, yaş və quru meyvə, zə'fəran, balıq məhsulları və s. miqdarı və çeşidi artmaqda idi. Əl-İstəxri Bərdədən başqa ölkələrə.

xüsusilə Hindistana satmaq üçün cins qatırlar və qırmız adlanan boyaq maddəsinin aparılmasından mə’lumat verir. Bu fikri İbn Havqəl təsdiq edir: «Varsan, Bərdə, Bab əl-Əbvabın (Dərbənd) nahiyələrində və Xəzər dənizinin ortasındakı adada qıraıız^ var. O, Xəzər dənizi ilə Curcana daşınır. Oradan da quru yolu ilə hind ölkəsinə göndərilir.

Feodal münasibətlərinin möhkəmlənməsi ilə şəhər həyatı xeyli canlanmış, ictimai əmək bölgüsü daha da inkişaf etmiş, gözəl mə’mulatlar istehsal edən, öz peşəsinin mahir ustası olan azad sənətkarlar meydana gəlmişdi. Məhsuldar qüvvələrin inkişafı nəticəsində sənətkarlığın və ticarətin mərkəzləşdiyi qədim şəhərlərlə yanaşı, yeni şəhərlər də meydana gəlirdi. İbn Havqəl yazır; «Bərdə şəhərinə gəldikdə, bura Arranın anası (paytaxtı) və bu yerlərin en yaxşısıdır. Şəhər çox böyükdür. Rey və İsfahandan sonra, İraqla Teb əristan arasında Bərdə kimi böyük və məhsuldar yer yoxduD>. VII əsrdə Azərbaycandakı şəhərlər haqqında ərəbdilli mənbələrdə maraqlı mə’lu- mata rast gəlinir. Dərbənd, Şabran, Şamaxı, Qəbələ, Şəki. Şəmkir, Gəncə, Paytakaran, Naxçıvan, Təbriz, Qazaka və başqaları diqqəti cəlb edirdi. Dərbənd, Şabran, Çola, Paytakaran, Naxçıvan, Təbriz qərb, şərq və şimal Ölkələrinə gedən ticarət yollarının üstündə yerləşirdi, Qəbələ, Bərdə, Çola, Qazaka, Təbriz, Naxçıvan, Paytakaran müəyyən dövrlərdə müstəqil Azərbaycan dövlətinin paytaxtı. Sasani canişinliyinin iqamətgahı, tran qoşunu dəstələrinnn yerləşdiyi şəhərlər olmuşdu. Şəhərlərdə əhalinin əksəriyyətini tacirlər, ruhanilər, sənətkarlar və b. təşkil edirdi.

## § 2, XİLAFƏTİN MEYDANA GƏLMƏSİ VƏ SASANİLƏR İMPERİYASININ SÜQUTU

VII əsrin birinci qərinəsində Ərəbistan yarımadasında güclü bir feodal dövləti meydana gəldi. Asiyada, Afrikada və Avropada bir sıra ölkələri işğal edib şöhrət qazanan bu dövlətin yaradıcısı məkkəli Məhəmməd idi. Onun yaratdığı yeni dini tə’lim - islam (mə’nası allaha müt’ilik deməkdir) feodal münasibətlərinin inkişafında, dövlətin möhkəmlənməsində və genişlənməsində böyük rol oynadı. Ərəb ə’yanları Məhəmmədin yaratdığı islam dinindən başqa ölkələrin işğal olunmasında bir vasitə kimi istifadə etdilər.

- Qırmız - qırmızı rəngə çalan boyaqdır.

Ərəb feodal dövlətinin yaranması onun əvvəlcə Ərəbistan yanmadasında, sonra isə İran və Bizans imperiyaları əleyhinə işğalçı yürüşləri ilə eyni vaxtda başlandı. Xilafətin hakim dairələri belə işğalçı müharibələrdən hədsiz dərəcədə faydalandıqlarından ona böyük maraq göstərirdilər. Onlar müharibələr vasitəsilə, hər şeydən əvvəl, ərəb cəmiyyəti daxilindəki sinfi mübarizəni zəiflətmək, təşəkkül tapmaqda olan feodal münasibətlərini möhkəmləndirmək və ən vacibi, zəbt olunmuş hərbi qənimətlərlə varlanmaq istəyirdilər. Dövlətin yaradıcısı və öz dövrünün görkəmli dövlət xadimi olan Məhəmməd sağlığında bir sıra müharibələrə şəxsən özü başçılıq etmişdi. Məhəmmədin ölümündən sonra (632-ci il iyun ayının 8-də Mədinə şəhərində vəfat etmişdi) hakimiyyət məsələsi kəskin mübahisələrə səbəb oldu. İlk xəlifə olan Əbu Bəkrin ikiillik (632-634) hakimiyyəti nəticəsində islam dini Ərəbistanda sabitləşdi. O, vəfat edən zaman nüfuzlu və təşkilatçı bir adam olan Öməri özünə varis seçdi. Ömərin onillik (634-644) xəlifəliyi islam tarixinin və dövlətinin qalibiyyətlə yayılması və möhkəmlənməsi dövrü kimi xarakterizə edilir. Onun vaxtında bir-birinin ardınca İraq, Suriya, Misir istila olundu.

Məhəmmədin vəfatından sonra onun yaratdığı dövləti peyğəmbərin xələfləri idarə etdiyindən dövlət xilafət adlanırdı.

Qələbələrdən və əldə edilən qənimətlərdən məst olan ərəblər Bizans imperiyasına və İran imperiyasına qarşı müharibəyə başladılar. Xilafət qoşunu 634-636-cı illərdə Yənnuq döyüşündə bizansları məğlub edərək Suriyanı ələ keçirdi. Bu qələbə ərəblərin İrana yolunu açmış oldu. Xəzər xaqanı və Bizans imperiyası ilə aparılan müharibələr, ölkə daxilindəki ziddiyyətlər nəticəsində sarsılmış olan Sasanilər imperiyası ərəblərə ciddi müqavimət göstərə bilmədi. Xilafət ordusu Qadsiyyə döyüşündən (638-ci ildə) sonra bir-birinin ardınca zərbələr, endirərək İran ordusunu əzdi. Onlar 642-ci ildə Nəhavənd döyüşündə İran qoşunları üzərində parlaq qələbə qazandılar. Əslində ərəblərin hücumu ərəfəsində Sasanilər imperiyası bir sıra müstəqil əyalətlərə parçalanmışdı. Əyalətlərin hakimləri şahənşaha tabe olmur və onun köməyinə gəlmirdilər. Belə şəraitdə güclü düşmənə qarşı mütəşəkkil cəbhə yaratmaq və layiqincə müqavimət göstərmək mümkün olmadığından Sasanilər imperiyası xilafət ordularının zərbələrinə davam gətirə bilmədi.

Sasani hökmdarı III Yezdəgird imperiyanın paytaxtı Mədaini mühasirəyə alan ərəblərə qarşı böyük bir qüvvə, o cümlədən sərkərdə

Rüstəmin başçılığı iiə Azərbaycandan 80 min nəfərlik ordu göndərdi. Günlərlə davam edən döyüş ərəblərin tam qələbəsi ilə başa çatdı. Sərkərdə Rüstəm həlak oldu.

İran ordusu ilə birlikdə alban hakimi, məşhur sərkərdə Cavanşir də ərəblərə qarşı 7 ildən artıq igidliklə vuruşmuş və dəfələrlə qələbə çalmışdı. Mənbələrdə qeyd edilir ki, ərəblərə qarşı döyüşlərdə göstərdiyi misilsiz rəşadətə görə III Yezdəgird Cavanşirə qiymətli hədiyyələr verdi və başına tac qoydu. Mədain döyüşündən sonra Sasanilərin bir daha özünə gələ bilməyəcəyini yəqin edən Cavanşir Albaniyaya qayıtdı va düşmənə qarşı mübarizəni burada davam etdirməli oldu.

Ərəblərlə döyüşlərdə darmadağın edilən İran feodallan qarətçilik məqsədilə Albaniyaya soxularaq əhalini soyub-taladılar. Moisey Kalankətli bu hadisəni belə təsvir edir: «Cavanşir silaha qurşandı və qoşun başçılanndan birini özü şəxsən öldürdü. O özü və qoşunu qılınc döyüşündə onları (iranlılan) qınb tökdülər. Onlardan əsirlər ələ keçirib, atlar və çoxlu qənimət alıb geri döndülən>.

İran feodallan məğlub olsalar da, Azərbaycana qarşı bəd niyyətlərindən əl çəkmək istəmirdilər. Onlar bir neçə ildən sonra Bərdəyə hücum edərək Cavanşirin anasını və qardaşlarım əsir götürdülər. Moisey Kalankətli yazın «Cavanşir İberiya qoşunlannı özü ilə götürüb dayanmadan Uti vilayətinə gəldi və qarşısına çıxan İran döyüşçülərinin hamısını qılıncdan keçirdi. Ağvan hökmdan anası və qardaşları ilə öz ölkəsinə qayıtdı».^ Bundan sonra, 652-ci ildə İran imperiyası tamamilə dağıldı.

Ərəb qoşunlarının Azərbaycana soxulması və onlara qarşı mübarizə. Xilafət qoşunları İranın Rey və Qezvin şəhərlərini işğal etdikdən sonra 639-cu ildə sərkərdə Hüzeyfənin başçılığı ilə Azərbaycana daxil oldular və burada güclü müqavimətə rast gəldilər. Azerbaycan qoşunlanna merzban İsfəndiyar ibn Fərruxzad başçılıq edirdi. O, qonşu əyalətlərin əhalisindən Ərdebilo böyük qoşun toplayıb ərəblərlə döyüşə başladı. Ərəb qoşunu qalib gəldi və İsfəndiyarı əsir götürdü. Onun qardaşı Bəhram ibn Fərruxzad qoşun toplayaraq yenidən döyüşə başladı. Bu dəfə de ərəblər qalib gəldilər. Ərəb müəlliflərindən əl-Bəlazurinin məMumatına görə, mərzban İsfəndiyar 644- cü ildə əhali adından ərəblərlə müqavilə bağlalamağa məcbur oldu.

^ Bu zaman «Albaniya» (Ağvan) adı Dağlıq Qarabağ ərazisinə şamil edilirdi. Qalan hissə Arran adlanırdı.

Müqavilənin şertinə göre, azərbaycanlılar ərəblərə tabe olmalı, vergi verməli, ərəb əsgərlərini bir gecə-gündüz evində saxlamalı idilər. Bunun müqabilində ərəblər də yerli əhalinin dini e’tiqadlanna toxun- mamağı, adət və məişətlərinə qanşmamağt öhdələrinə götürürdülər. Ölkəni tərk etmək istəyənlərə özlərinə sığınacaq tapana kimi aman verilirdi, yerli əhalidən ərəb ordusunda könüllü xidmətə daxil olanlardan həmin ilin vergisi alınmırdı.

Mənbələrin verdiyi mə’lumata görə, ərəb qoşunlan getdikdən sonra 645-ci ildə ölkənin əhalisi üsyan qaldırıb, ərəblərin onlarla bağladığı müqavilənin şərtlərindən imtina etdi. 646-cı ildə ərəb ordusu Valid ibn Ukbənin başçılığı ilə yenidən Azerbaycana hücum etdi və əhalinin müqavimətini qıraraq onlarla müqavilə bağladı. Ərəblərə veriləcək illik xəracın miqdarı 800 min dirhəm məblə^ndə idi.

Ərəb tarixçisi əl-Bəlazuri Azerbaycanın şimal hissəsində ərəb qoşunlarının əməliyyatlan haqqında ətraflı mə’lumat verir. 639-cu ildə bumya gələn ərəb qoşunlarının başçısı Bukeyr ibn Abdullah əhalinin ciddi müqaviməti ile rastlaşdı. Döyüşlər bir neçə il çəkdi. Düşmən 642-ci ildə çətinliklə Muğanı işğal edərək əhali ile müqavilə bağladı: Əvvəl bağlanan müqavilələrin şərtləri təkrar olunurdu. Yalnız alınan xəracın miqdarı fərqli idi. Müqavilənin tələblərinə əməl edənlərin şəxsiyyəti, əmlakı, dini, adət-ən'ənəsi, əmin-amanlığı qorunurdu. Ərəblər Xəzər dənizinin qərb sahili ilə şimala doğru irəliləyərək həmin il Dərbəndə (Bab ül-Əbvaba) yetişdi. A. Bakıxanov İbn əl-Əsirə və digər ərəb müəlliflərinə əsaslanaraq qeyd edir ki, «ərəblər Şirvana çatınca hökmdar Şəhriyar aman istədi və sülh etdi, bu şərtlə ki, xərac və cizyə verməsin və bu vergilər, türkləri və sair müxtəlif din sahiblərini dəf etmək üçün saxlanacaq qoşuna sərf edilsin... Xəlifə Ömər ibn Xəttab bu şərtlə razılaşdı».

Xəlifə Ömər Əbdürrəhman ibn Rəbiəni Dərbənd yaxınlığındakı sərhəd qoşunlanna sərkərdə tə'yin etdi aə xəzərlərlə^ vuruşmağı tapşırdı. Əbdürrəhmanın qoşunu 643-cü ildə Derbend hasarları yanında Bukeyrin dəstəsi ilə birləşdikdən sonra Bələncer yaxınlığında xəzərlərlə müharibəyə başladı və özü de döyüşdə öldürüldü. Beləliklə, ərəblərin Dərbənddən şimala ilk hücumu uğursuzluqla nəticələndi.

Azərbaycana ilk basqından 7 il sonra, 646-cı ildə Arrana hücum edən ərəb ordusuna səıkerdə Salman ibn Rebie başçılıq edirdi. Onun

^ Ərəb qaynaqlarında xəzərlər türk adlandırılır.

ordusu Naxçıvandan çıxaraq Şəki ve Gorus istiqamətində hərəkət etdi. Arran erazisinə çatıb Beyləqana soxuldu. Bu barədə ərəb tarixçisi olrKufı belə yazır: «Beyləqan əhalisi onun qarşısına aman xahişi ile çıxaraq, ordusu üçün düşərgə yerləri ayırdı; pul vermək şərti ilə onunla banşıq bağladı... Bundan sonra o, Bərdə qalasına basqın etdi».

Ərəb qoşunu Beyleqanı tutub əhalini xərac və cizyə verməyə məcbur etdikdən sonra «Arranın anası» Bərdəyə gəlib Tərtər çayı sahilində düşərgə saldı. Bərdə əhalisi darvazaları bağlayaraq, bir neçə gün düşmənə müqavimət göstərdi. Nəticədə Bərdə əhalisi də xərac və cizyə vermək şərtilə ərəblərlə müqavilə bağladı. Böyük hərbi potensiala malik olan düşmən Arranın digər şəhər və vilayətlərini işğal etmək üçün yürüşü davam etdirdi. Şəmkiri tutduqdan sonra şərq istiqamətində hərəkətini davam etdirdi. Bir-birinin ardınca Qəbələni, Şəkini, Şirvanı, Şabranı çapıb-taladı, əhalini xərac və cizyə verməyə məcbur etdi. Sonra Dərbəndə yetişdi. Ərəbdilli mənbələrdə Salman ibn Rəbiənin Dərbəndə gəlişi ilə xəzərlərin müqavivet göstərmədən şəhəri tərk etməsi və qəflətən hücuma keçərək ərəb qoşunlannı qırması haqqında əfsanəyə bənzər mə’lumatlar vardı. Ərəblərlə xəzərlər arasında 653-cü ildə Bələncər yaxınlığında baş verən qanlı döyüşlər xəzərlərin parlaq qələbəsi və Salman ibn Rəbiə başda olmaqla dörd min nəfər ərəb əsgərinin öldümlməsi ilə başa çatdı. On il əvvəl Salmanın qardaşı Əbdürrəhman ibn Rəbiə de həmin yerdə xəzərlərlə döyüşdə öldürülmüşdü. Lakin əhalinin güclü müqavimətinə və döyüş- lərdəki bə’zi uğursuzluqlara baxmayaraq, ərəblər Azərbaycandan əl çəkmək istəmir və hücumları davam etdirirdilər.

Cavanşirin xarici siyasəti. Əvvəlki paraqraflardan Cavanşirin İran imperiyasr qoşunu ilə birlikdə vətənindən çox-çox uzaqlarda (Yaxın Şərqdə və İranda) ərəblərə qarşı bir neçə il vuruşduğu haq- qındä danışıldı. Ərəblər onu igid və cəsarətli döyüşçü, ağıllı və səriştəli sərkərdə kimi tanıyırdılar. Cavanşir ərəblərin döyüş üslubu və hərbi potensialı ilə qismƏn tanış ola bilmişdi. Ona görə də xilafətin sərkərdələri əvvəlcədən bilirdilər ki, onun ölkəsində vuruşmaq ərəblər üçün asan olmayacaq.

Cavanşir (616-680) çox erkən, 21 yaşında Albaniyanı idarə etməyə başladı. Onun hakimiyyətinin ilk dövrü mürəkkəb siyasi şəraitə, ərəblərin hücümu ərəfəsinə təsadüf etmişdi. «Ağvan tarixi»nin müəllifi hökmdar və sərkərdə kimi Cavanşirin keyfiyyətləri və hünəri haqqında iftixarla danışır: «Cavanşir İran savaşında (ərəblərə qarşı

döyüşlərdə) ad çıxarıb geri qayıtdı... Hökmdar paltarını geyinib taxta çıxdı... Ağvam öz səviyyəsinə ucaltdı. O, eyş-işrətə qoşulmayaraq bütün günü öz ölkəsinin işləri ilə məşğul olurdu. O, Qafqazın vəhşi kimi yaşayan tayfalarını ağıl ilə haqq yoluna getirdi. Beləliklə, İver sərhədlərindən hun qapılarına^ və Araz çayına kimi parlaqcasına mütləq hökmranlıq edirdi».

Ərəb qoşunlarının ilk dəstələri Albaniyaya soxulduqda Cavanşir güclü xilafət qoşunlarına qarşı birliJkdə mübarizə aparmaq məqsədilə Bizans imperatom II Konstant (641- 668) ilə ittifaqa girdi. 654-cü ildə 11 Konstant ile Cavanşir görüşüb hər iki tərəfi maraqlandıran vacib məsələləri həll etdilər. II Konstant bu ittifaqı möhkəmləndirmək məqsədilə alban hakimi Cavanşirə qiymətli hədiyyələr bağışladı. Onların ikinci görüşü 660-cı ildə olmuşdu. Cavanşir Bizansla ittifaq şəraitində ərəblərə qarşı mübarizəni davam etdirirdi.

Əsas düşməndən yaxa qurtarmamış ikinci bir təhlükə meydana gəldi. Xəzərlər 662-ci ildə Bələncər yaxınlığındakı döyüşdə ərəbləri məğlub etdikdən sonra, Albaniyaya soxuldular. Cavanşir öz qoşunu ilə Kür çayı sahilində xəzərləri sıxışdırıb geri qaytardı. Bu döyüş haqqında «Ağvan tarixi»nde deyilir: «O günü Cavanşir böyük qələbə qazandığı üçun həmin barbar xalqa belə söylədi: «Get, Çola qapılarından (Dərbənd keçidi nəzərdə tutulur) geri qayıt və bir də buraya gəlmə, çünki tanrı senin gücünü heç etmişdiı*». Lakin vəziyyət «Ağvan tarixi» müəllifinin düşündüyü kimi olmadı. Xəzərlər bu məğlubiyyətdən sarsılmadılar. Daha böyük qüvvə toplayaraq 665-ci ildə yenidən hücuma keçdilər. Bu dəfə onlar Kürü keçib Araz sahillərinə qədər irəlilədilər. Çoxlu əsir tutub, qənimət ələ keçirdilər.

Eyni vaxtda həm ərəblərlə, həm də xəzərlərlə müharibə aparmağın çətinliyini nəzərə alan Cavanşir ağıllı hərəkət edərək ikincilərlə sülh bağlamalı oldu. Moisey Kalanketli bu barədə yazır: «Onlar qarşılıqlı narazılığı kəsmək və ikitərəfli dostluq yaratmaq üçün öz aralarında... sülh bağlayıb hər biri çayın bir terəfine qayıtdılar. O biri gün mənim hökmdarım... on yeddi ərlə birlikdə çayı keçib hunların düşərgəsinə gəldi və orada hun^ hökmdarının qızı ilə evləndi və həmin gün də 120 min davar və mal-qaram, 7 min at və 1200 nəfər əsir alınmış kişini geri qaytardı». Əslində Cavanşirin xaqanın qızı ilə evlənməsi

^ Qafqaz dağlarında bir keçid «hun qapısı» adlanırdı.
^. h^enbe bu.tOjk etnoslarını gah xəzər, gah da hun adlandınr.

Albaniyanın xəz&noıuan asılı vəziyyətə düşməsinə işarə idi. Me'lumdur ki, albanlar hər il xəzərlərə müəyyən miqdarda töycü verirdilər. Sülh bağlanmasına baxmayaraq, xəzərlər sonralar da Azərbaycana dəfələrlə yürüş etdilər.

VII əsrin 60-cı illərində siyasi hadisələrin sonrakı gedişi Cavanşiri xilafətə qarşı öz siyasətini dəyişdirməyə məcbur etdi. O hiss etdi ki, müttəfiqi Bizans xilafətə nisbətən çox zəifdi, hətta öz müstəqilliyini saxlamaq iqtidarında deyil. Belə bir vəziyyətdə onunla müttəfiqliyi davam etdirməyə ehtiyac qalmırdı. Ərməniyənin ərəblərə təslim olmasından sonra Bizansla Albaniya arasında hərbi-siyasi əlaqəni davam etdirmək çətinləşmişdi. Digər tərəfdən, şimaldan xəzərlərin, cənubdan tran feodallannm hücumlanndan qorunmaq üçün Azərbaycana xilafət kimi güclü bir dövlətin himayəsi zəruri idi. Cavanşir bu siyasi mülahizələri nəzərə alaraq daha güclü istilaçının yanmasılı- Uğmı qəbul etməyi məqsədəuyğun hesab etdi.

VII əsrin 60-cı illərində xilafət hakimiyyəti daxilində bir sıra dəyişikliklər baş verdi. 661-ci ildə xəlifə Əli ibn Əbu Talib (656-661) Kufə şəhərində islamın müxalifətçi cərəyanlarından birinin nümayəndəsi Əbdürrəhman ibn Mülcəm tərəfindən öldürüldü. Xilafətdə hakimiyyət Əməvilər sülaləsinin (661-750) əlinə keçdi. Bu sülalənin nümayəndələri Müaviyənin (661-680) və oğlu I Yəzidin (680-683) dövründə ərəblərin işğallan daha da şiddətləndi, əmin-amanlıq pozuldu. Müaviyə dövlətin paytaxtını Mədinədən Şam şəhərinə (Dəməşqə) köçürdü. Belə bir şəraitdə Cavanşir ərəblərə qarşı əvvəlki münasibətini dəyişərək xilafətin vassallığını qəbul etməyi qərara aldı. O, bu məqsədlə iki dəfə xəlifə Müaviyənin görüşünə getdi. Onun birinci dəfə, 667-ci ildə Şama getməkdə məqsədi vassal kimi asılı olmağı qəbul etməklə ölkəni ərəb ordularının qarətindən xilas etmək idi. Cavanşirin bu addımı ağıllı və uğurlu oldu. Hər halda xəlifənin belə güzəştə getməyə məcbur olmasının bir səbəbi Azərbaycanın zəngin sərvəti, əlverişli coğrafi-strateji mövqeyi idisə, ikinci mühüm səbəbi alban hakiminin şəxsi nüfuzu idi. Yuxarıda deyildiyi kimi, ərəblər onun gücünə və xasiyyətinə bələd idilər.

Bu hadisədən üç il sonra Müaviyə Cavanşiri Şama dəVət etdi. Əvvəlkindən daha uğurlu olan bu görüş zamanı o. Bizans və xilafət nümayəndələri arasındakı diplomatik danışıqlarda vasitəçilik etmişdi. Bu faktın özü Cavanşirin ağlına və nüfuzuna xəlifənin necə hörmət etdiyini göstərir. Bu görüş barədə «Ağvan tarixi»nde deyilir: «Şərəfli

hakim birinci dəfə olduğu kimi, oraya gəldi... Xəlifə axşam yeməyinə onunla birlikdə oturdu... Xəlifə onun dərin biliyinə heyrət etdi. Ona Hindistandan gətirilmiş və yaxşı.təMim görmüş bir dəvə, özünə məxsus 52 iti yerişli at və Sünik knyazlığının hakimliyini bağışladı. Xəlifə həm də Atrapatakan (Araz çayı nəzərdə tutulur) çayının o tayındakı torpaqların da idarəsini zorla ona tapşırmaq istəyirdi. Lakin Cavanşir artıq şöhrətdən boyun qaçırdı... öz ölkəsinin üzərinə qoyulmuş ağır verginin yünkülləşdirilməsini xahiş etməyə başladı». Həqiqətən, başqa mənbələr də Cavanşirə göstərilən bu hörməti və e'timadı təsdiq edir. Xəlifə alban hakiminə xeyli güzəştə getdi, onun ölkəsinin daxili müstəqilliyinə toxunmadı, əvvəlki qaydaları olduğu kimi saxladı və əhalidən alınan vergiləri üçdə birə qədər azaltdı.

Uzaqgörən Cavanşir ağıllı siyasəti ilə nəinki öz ölkəsini ərəblərin, bizansitlann, iranlıların, şimaldan gələn köçəri tayfalann basqınlann-dan, talanlanndan xilas etdi, onun müstəqilliyini qoruyub saxlaya bildi, həmçinin daxildə iqtisadiyyatın dirçəlməsinə, təsərrüfatın, sənətkarlığın, ticarətin, mədəniyyətin müəyyən qədər inkişafına şərait yaratdı. Alimləri, şairləri, me’marları, mahir sənətkarları öz sarayına topladı və himayə etdi. O, bu müvəffəqiyyətlərə asanlıqla nail ola bilməmişdi. Daxildə mərkəzi hakimiyyəti möhkəmləndirmək üçün iri feodal ə’yanlara qarşı uzun müddət ciddv mübarizə aparmalı oldu və nəticədə bu mübarizənin qurbanı oldu. 681-ci ildə (bə’zi mənbələrdə 680-ci il göstərilir) ölkə daxilindəki bizanspərəst feodalların gizli qəsdi nəticəsində o, öldürüldü. Şair Davdəkin onun ölümü münasibətilə yazdığı mərsiyədə deyildiyi kimi, Cavanşirin ölümü ölkədə ümumxalq kədərinə çevrildi.

Menim Şerq ölkəmi bürüdü kədər
Yayılmış cahana bu qara xəbər.

Cavanşirin ölümü Albaniyanın sonrakı taleyinə ağır siyasi tə’sir gösterdi. Bərdəyə toplaşan iri feodal e’yanların kəskin mübarizəsi şəraitində hakimiyyətə Cavanşirin qardaşı oğlu Varaz-Trdat keçdi. Albaniya (Ağvaniya) adı artıq Dağlıq Qarabağın erazisinə şamil edilirdi. Ölkə bütövlükdə Anan adlandınlırdı.

Həmin il ölkəyə ikinci bir bədbəxtçilik üz verdi. Xaqanın kürəkəni Cavanşirin qatillərindən intiqam almaq məqsədilə xəzərlərlə Albaniyaya hücum etdi. Varaz-Trdat çetinlikle sülh baqlayıb onları geri qaytara bildi. Lakin Cavanşirin ölümündən sonra xilafət Albani

yanın daxili istiqlaliyyətini tədricən sıxışdırmağa başladı. Ölkə vassallıq hüququnu itirdi. Əslində hakimiyyət formal şəkildə qalır, ölkəni xəlifənin göndərdiyi canişinlər idarə edirdi.

VIII əsrin əvvəlində. Bizans ərəb müharibələrinin yeni mərhələsinin başlanması ərəfəsində Ərməniyəyə Məhəmməd ibn Mərvanın başçılığı altında qoşun göndərildi. Ərəblərin cəza dəstələri Azerbaycana da gəldilər. 705-ci ildə Məhəmməd ibn Mərvan alban hakimi Şeruyə və ona yaxın olan adamları xilafətin paytaxtı Şam şəhərinə (Dəməşqə) apararaq orada e'dam etdirdi. Bununla da Albaniyada Mehranilər sülaləsinin hakimiyyətinə son qoyuldu.

Azərbaycan uğrunda ərəb-xəzər müharibələri. Azərbaycana gələn istilaçı ərəb qoşunları ilə xəzərlər arasındakı müharibələr əvvəllər təsadüfi hallarda baş verdiyi halda, VIII əsrdə xəlifə I Validin (705-715) dövründən e'tibarən mütəşəkkil və uzun sürən xarakter aldı. Fasilələrlə bir əsrə qədər davam edən bu müharibələrin əsas hədəfi Azərbaycan idi. Müharibələrin gedişində bu və ya digər tərəfin qələbə çalmasından asılı olmayaraq onun bütün ağırlığı Azərbaycanın üzərinə düşürdü.

Türk tayfalarının oğuz-qıpçaq qmpuna mənsub olan xəzərlər Şimali Qafqazın şərqində və Volqanın mənsəbinə yaxın çöllərdə yaşamaqla maldarlıq və əkinçiliklə məşğul idilər. Bu zirək və döyüşkən tayfa güclü xaqanlıq yaradaraq erkən orta əsrlərdə (Vll-X) böyük nüfuz qazandılar.^

Qonşu dövlətlərə meydan oxuyan xəzərlər bir vaxt Krımı və Dneprə qədər şimali Qara deniz sahillərini də elə keçinnişdilər.

Ərəblər Azərbaycanın istilasını başa çatdırıb orada möhkəmləndikdən sovra xəzərlərlə müharibəyə başlamalı oldular. Bunun üçün Ön Qafqazda öz arxalarını e'tibarlı şəkildə tə'min etmək məqsədilə tədbirlər gördülər. Strateji qalalarda hərbi dəstələr yerləşdirdilər. Yollarda nəzarəti gücləndirdilər.

Müharibə 709-cu ildə ərəblərin hücumu ilə başlandı. Lakin bu hücum uğursuz oldu. Xəzərlər sərkərdə Məsləmənin başçılıq etdiyi ərəb qoşununu əzişdirib Dərbənddən qovdular. Növbəti döyüşdə ərəblər məğlubiyyətin əvəzini çıxaraq xeyli qənimət ələ keçirdilər. Bu hadisədəv 15 il sonra qıpçaqlarla ittifaqa girən xəzərlər 30 minlik

Müxtəlif vaxtlarda onlann paytaxtı Səməndər və İtil şəhərləri olmuşdu.

qoşunla hücuma keçərək Arranda və Ərməniyedə ərəbləri ağır məğlubiyyətə uğradıb, onların ordugahlarını ələ keçirdilər.

Sərkərdə Cərrahın komandanlığı altında 25 minlik ərəb qoşunu Bəiəncər yaxınlığında xəzərlərlə döyüşə başladı. İbn əl-Əsir bu döyüşü belə təsvir edir: «Müharibə qızışdı, şiddətləndi və hər iki tərəf üçün vəziyyət ağırlaşdı... Nəhayət, xəzərlər məğlub olaraq qaçdılar. Müsəlmanlar qalanı zorla aldılar, onda olan şeylərin hamısını qənimət götürdülər. Hər atlıya 300 dinar qənimət düşdü». Lakin xəzərlər bu məğlubiyyətdən sarsılmadılar. 731-ci ildə 300 minlik ordu itə ərəbləri tə’qib edə-edə Ərdəbilə yaxınlaşdılar. Savalan dağı yaxınlığında şiddətli döyüş başlandı. Ərəblər üzərində parlaq qələbə çaldılar və onların sərkərdəsi Cərrah öldürüldü. Xəzərlər Ərdəbili tutdular, hücumu davam etdirərək Diyarbəkirə və Mosula çatdılar. Xəlifə və saray adamlan qorxudan həyəcan keçirirdilər. Xəlifə təhlükənin qarşısını almaq üçün böyük ordu yaratdı. Xilat^ şəhəri qarşısında xəzərlərin hücumu dayandınidı və onlar geri çəkilməyə başladılar. Ərəb qoşunu onları Bərdədən, Beyləqandan və bütün Arrandan qovdu. Dərbənddən şimalda gedən dö)nişlərdə xaqanın iki oğlu öldürüldü. Bundan sonra xaqan ərəblərlə sülh bağladı və islam dinini qəbul etdi. 20 illik fasilədən sonra. Abbasilərin hakimiyyəti dövründə müharibələr yenidən qızışdı. Çünki bu zaman Bizans imperiyası da ərəblərlə müharibə edirdi. VIII əsrin 90-cı illərinin axırlannda, xəlifə Harun ər-Rəşidin hakimiyyəti dövründə 100 min nəfərlik xəzər ordusu Arrana soxularaq ölkəni çapıb-taladı. İki aydan artıq burada qaldıqdan sonra onlar geri qayıdarkən 100 min nəfəri özləri ilə əsir apardılar. Bu, onlann son hücumu oldu. Xəzərlərlə ərəblər arasında sülh bağlandı.

Ərəb-xəzər müharibələri Azərbaycana müsibət və hədsiz dağıntı gətirdi. Əhalinin sayı xeyli azaldı, məhsuldar qüvvələrin inkişafı ləngidi. A.Y.Krımski məhz bu cəhəti nəzərə alaraq qeyd w^mişdi ki, «xəzərlər Arranda 100 il hökmranlıq etmişləp>.

Xəzərlər sonrakı əsrlərdə də Azərbaycana yürüşləri davam etdir-, mişlər.

^ Van gölü sahilində yerləşirdi.

## § 3. AZƏRBAYCANDA ƏRƏB İSTİLASI

İstilanın başa çatması və islam dininin yayılması. Ərəb ordularının fasiləsiz hücumlarına baxmayaraq, əhali onlara asanlıqla boyun əymədi. Hər dəfə düşmənə ciddi müqavimət gösterdi, vergi verməkdən və islam dinini qəbul etməkdən imtina etdi. Yalnız 90 illik kəskin mübarizədən sonra xilafət orduları Azərbaycanın istilasını başa çatdıra bildilər.

Ərəblər işğal etdikləri ölkələri əvvəllər öz qaydalan əsasında idarə edirdilər. Bu istilaçı idarə qaydaları təbii ki, mümkün olduğu qədər çox vergi əldə etməkdən və başqa dinə mənsub olanlar arasında, ilk növbədə, ərəblərin dediyi kimi, «qeyri>kitab əhli» olanların arasında islam dinini zorla yaymaqdan ibarət idi. Əksəriyyəti köçəri olan istilaçı ərəblərin özləri hələ islam dinini yaxşı mənimsəmədiklərindən ilk vaxtlar işğal olunmuş yerlərdə xalqı yeni dinə məcburi surətdə sövq etmirdilər. Xəlifə Əbu Bəkr (632-634) işğalçı ərəb ordularının sərkərdələrinə belə bir göstəriş vermişdi: «Düşmənləri şikəst etməyin, nə kiçik uşaqlan, nə çox qoca adamları, nə də qadmlan öldürməyin. Yemək üçün lazım olandan artıq qoyun, inək və dəvələri kəsməyin... Sizi qəbul edən hər bir şəhər və xalq ilə müqavilə bağlayın, onlara verdiyiniz və’dlərə sadiq olun, qoy onlar biz gələnədək əməl etdikləri qayda və qanunlarla yaşasınlar».

Ərəblərin hücumlarına qədər Azərbaycan əhalisi Bizans-tran müharibələrindən, habelə şimal tayfalarının hücumlanndan çox zərər çəkmişdilər, ona görə də islam dini zəminində onlara səadət və əmin-amanlıq və’d edən yeni istilaçıya-ərəblərə inam və ümid bəsləyirdilər. tik vaxtlarda ərəblər vergi və töycüləri aldıqdan sonra onların dini e’tiqadlarına, adət-ən’ənələrinə toxunmur və mümkün qədər əmin-amanlıqlarını qoruyurdular. Həmçinin ərəb istilalarının ilk onilliklərində xilafətin Azərbaycandan aldığı vergi və töycülər Sasanilər dövriindəkindən xeyli az idi. Şübhəsiz ki, bu, yerli əhalinin ərəblərə və onların gətirdiyi yeni dinə rəğbət və inamını artırırdı.

Ərəblər böyük iqtisadi və strateji əhəmiyyəti olan Azərbaycanda öz hakimiyyətlərini möhkəmləndirməkdə islam dinindən çox kəsərli vasitə kimi istifadə edirdilər.

Bəs işğal etdikləri ölkələrdə, o sıradan Azərbaycandakı mövcud dinlərə ərəblərin münasibəti necə idi? Allahın vahidliyini və böyüklüyünü iqrar və onun göndərdiyi müqəddəs dini kitablan (Qur’an, tncil. Tövrat, Zebur) şəksiz qəbul edən dinlərə və onun tərəfdarlarına

hörmətlə yanaşırdılar. «Müqəddəs kitablan» olmayan qalan dinlərə və təriqətlərə (məsələn, atəşpərəstlik, bütpərəstlik və s.) və onlara sitayiş edənlərə qarşı münasibətləri birmə’nalı idi. Həmin dinlərin lərəfdarlanna qarşı təzyiq göstərilir və onlar tə'qib edilirdilər.

Mə’lumdur ki, Azərbaycanda əsas din atəşpərəstlik idi. Bu din şahənşah 1 Şapurun dövründən Sasanilər imperiyasının rəsmi dövlət dini e'lan edilmişdi. Atəşpərəstlərin baş mə’bedi Azərbaycanın paytaxtı Qazaka şəhərində yerləşirdi. Atəşpərəstlər «kitab əhli» hesab edilmirdilər.

Albaniyada həm xristianlıq («kitab əhli»), həm də bütpəi'əstlik («kitab əhli» olmayan) dinləri mövcud idi.

Əməvilərin hakimiyyəti dövründə istila olunan ölkələrdə əhali e'tiqad məsələsində sərbəst idi. Lakin əvvəlki dini e’tiqadlannda qalanlar və islamı qəbul etməyənlər xəracdan əlavə cizyə deyilən vergi verməli idilər.

Konkret olaraq islamın Azərbaycanda yayılması xəritəsinə nəzər saldıqda görürük ki, yeni din atəşpərəstliyin, bütpərəstliyin təmsil olunduğu Azərbaycanda, Muğanda, Mildə, Xəzər sahilində. Kür və Araz çayları boyunda, xüsusilə şəhərlərdə nisbətən sür’ətlə yayılırdı. Xristianlıq dininin sabitləşdiyi dağlıq və dağətəyi yerlərdə, xüsusilə kəndlərdə islam dininə müqavimət güclü idi. Əhalinin müxtəlif təbəqələrinin yeni dinə münasibəti də müxtəlif idi. Məsələn, islam dininin etnik əxlaq i-tərbiyəvi üstünlüklərini və gələcəyini düzgün başa düşən hakim təbəqə öz əmlakını və imtiyazını əlində saxlamaq xatirinə bu dini tərəddüdsüz qəbul etdi. Xilafətin ticarətə və sənətə rəğbətini nəzərə alan tacirlər və sənətkarlar da yeni dini qəbul etməkdə ləngimədilər. Şəhər yoxsullarına, kəndlilərə və əhalinin digər yoxsul təbəqəsinə gəldikdə isə onlar ağır dini vergi olan cizyəden canlarını qurtarmaq xatirinə bu işə razı oldular. Əvvəllər belə bir qayda vardı ki, islam dinini qəbul edənlər nəinki cizyəden azad edilir, üstəlik onlara bə’zi yardım da göstərilirdi.

Dünyada geniş yayılmış monoteist dinlərdən biri olan islam VII əsrin birinci qərinəsində məkkəli Məhəmməd tərəfindən yaradılmış və tədricən Asiya, Afrika, Avropa qitəsinin onlarca ölkəsində yayıla bilmişdi. Son mə'lumatlara görə, hazırda dünyada bu dinə e'tiqad edənlərin sayı milyard nətərə yaxınlaşır.

İslam-Allahın rəsulu Məhəmməd peyğemberin Qur’anda xəbər verdiyi bir olan böyük Allaha inanmağın qanunudur. Dünyada bu Qanunun tərəfdarları müsəlman adlanırlar.

islamın mahiyyətindən qısaca desək, onun qanunları din və şəriəti əhatə etməklə iki hissədən ibarətdir.

Din - islamın aşağıdakı üç şertini^ (və ya ehkamını) təmsil edir. Bu şərtləri ümumi şəkildə «Üsuli-din» adlandırırlar. Həmin şərtlərdən biri «Tohid» adlanın Mə’nası <cAllah birdir, gözəgörünməzdir və toxunulmazdın>-deməkdin Şərtlərdən ikincisi, Məhəmmədin peyğəmbər olmasına inanmaq və C^r’ani-Kərimdə yazılanların Allah tərəfindən göndərildiyini təsdiq etməkdin

Nəhayət, üçüncü şərt axirət dünyasına inanmaqdır. Yə’ni hər bir müsəlman bilməlidir ki, əməllərinə görə o Dünyada mühakimə olunacaqdın İslam qanununun ikinci hissəsi şəriətdir. Dini sistem olan islamın öyrənilməsində müsəlman qanunlarının sistemləşdirilmiş toplusu olan şəriət aşağıdakı 6 rüknəden ibarətdir: namaz, oruc, həcc (Məkkəyə, Kə*bə ziyarətinə getmək), cihad (din uğrunda müharibə), xüms (qazancın beşdə bir hissəsini vermək), zəkat (qazancın onda bir hissəsini kasıblara vermək).

Bu rüknələrdən əlavə, şəriətdə nikaha aid, boşanmağın şərtləri, vərəsəlik qaydaları, müxtəlif cinayətlərə görə cəza qaydaları, ticarətə dair qaydalar, ümumiyyətlə, cəmiyyətdə insan fəaliyyətinin bütün sahələrini hüquqi cəhətdən tənzimləyən qanunlar toplanmışdı.

VIII əsrin əvvəllərində islam dini Aaərbaycanda geniş yayıldığı, möhkəmləndiyi və hakim din olduğu şəraitdə Albaniyanın bir hissəsində (xüsusilə Qarabağın dağlıq hissəsində) xristianlıq dini əvvəlki mövqeyini saxlaya bildi. Daha doğrusu, «kitab əhli» olduqlanna və başqa mülahizələrə görə, ərəblər burada xristianlığa toxunmadılar. Alban kilsəsi miladın əvvəlindən mövcud idi. Lakin buna baxmayaraq, alban və erməni qriqoryan kilsələri arasında əsrlər boyu mübarizə getməkdə idi.

Qriqoryanlaşma prosesi nəticəsində islamın təfsirindən və ərəblərin nəzarətindən kənarda qalan əyalətlərimizdeki (o sıradan Qarabağın dağlıq hissəsində) əhalinin dili dəyişildi. Bə'zi müəlliflərin e'tirafına görə, qriqoryan kilsə xadimləri Arran ədəbi abidələrini məhv edərkən əvvəlcə bu abidələri qrabara çevirirdilər. Fərz edirlər ki, «Ağvan tarixi»nin taleyi de belə olmuşdu. «Ağvan tarixi» bizə qədim erməni dilində (qrabar) gəlib çatmışdır. Ona görə də milli qehrə-

^ XIX əsrin 30-cu illərinin ortalarında Peterburq Müqəddəs Sinodunun qərarı İlə 18 əsrük tarixi olan alban kilsəsinin ləğv edilməsinə nail olundu.

manlanmız və toıpağımız kimi, tariximizə də, ədəbi abidələrimizə də şərik çıxanlar tapılır.

Erməni kilsəsini Albaniyada ölkəni erməniləşdirmək aləti hesab edən görkəmli şərqşünas alim İ.P.Petruşevski belə bir düzgün elmi nəticəyə gəlir ki, «nə Arsax, nə də əhalisi erməinləşdirilmiş albanlardan-hazırda isə ermənilərdən ibarət olan digər vilayət və rayonlar heç bir zaman erməni mədəniyyəti mərkəzinə mənsub olmamışdı».

İnzibati idarə sistemi. Ərəblər siyasi və dövlət təşkilatı cəhətdən Bizans impemyasından və süquta uğratdıqtan İrandan geri qalırdılar. Ona görə də ilk vaxtlar onlar işğal etdikləri digər ölkələrdə olduğu kimi, Azərbaycanda da özlərinə qədər mövcud olan idarə qaydalarını saxlamağa məcbur oldular. Xilafətin özündə təkmilləşmiş idarəetmə mexanizmi hələ yaranmamışdı. Ona görə də Sasanilərin çoxəsrlik dövlət təşkilatını mənimsəmək üçün vaxt lazım idi. Xilafət əsarətə aldığı geniş əraziləri idarə etmək üçün Sasanilərin mərzbanlıqlarına bənzər əmirlik (canişinlik) sistemi yaratdı. Əvvəlcə beş əmirlik, yə'ni vilayət təşkil olundu. Bu inzibati bölgüyə əsasən, Azerbaycan (həm Azerbaycan, həm de Arran) dördüncü əmirliyə daxil idi. Əmeviler sülaləsi dövründə inzibati quruluşda be'zi dəyişikliklər edildi. Yeni bölgüyə görə, Azerbaycan Əlcəzirə adlanan üçüncü əmirliyin tərkibinə daxil edildi. İstilaçı müharibələr davam etdiyindən xilafətin ərazisi ildən-ilə genişlənirdi. Abbasilər dövründə inzibati quruluşda yeni dəyişiklik keçirildi. 83 əyalətdən ibarət 14 əmirlik yaradıldı. Vilayətlər özləri də kiçik inzibati vahidlərə - nahiyələrə və rayonlara bölündü. Məsələn, hər nahiyə 12 rayondan, hər rayon 12 kənddən ibarət idi. Xilafət dövründə vergilərin nizama salınması və toplanması ile əlaqədar Azərbaycanda sərhədlər və əhalinin miqdan dəqiqləşdirildi. Azerbaycanın şimal sərhədi Dərbənd, cənub sərhədi Həmədanla qurtarırdı. Xilafət dövründə paytaxt Marağaya köçürüldü. İri şəhərləri mahal mərkəzi seçirdilər. Hər bir əmirliyin başında xəlifə tərəfindən te'yin edilmiş emir dururdu. O, əmirliyin inzibati idarəsinə başçılıq etməklə yanaşı, qoşunun da sərkərdəsi hesab edilirdi. Əmirlər başçılıq etdikləri ərazi daxilində istinasız imtiyazlara malik idilər. Bütün mülki və hərbi hakimiyyət əmirin əlində idi. Əmirin rəhbərliyi altında müxtəlif vəzifələri icra edən me'murlar aparatı yaradılmışdı. Məsələn, amil - mülki işlərlə məşğul olur və vergilərin toplanmasına nəzarət edirdi. Qazı-mehkəme idarəsinin başçısı idi». O, veqf işlərinə nəzarət edir, amilin hərəkətlərindən narazı olan şəxslərin işlərinə baxırdı.

Xilafət sarayı ve materiklərə səpələnmiş ucu-bucağı görünməyən əmirliklər və əyalətlər arasında rabitə işini qaydaya salmaq üçün bə- rid adlanan poçt yaradılmışdı. Orada rabitə işində göyərçindən də geniş istifadə edirdilər. Əmirlər və onlann mə'murlar aparatı öz vəzifələrinə varlanmaq mənbəyi kimi baxırdılar. Mərkəzdəki inzibati və hərbi aparatların vilayətlərdə və mahallarda öz şö'bələri vardı. Bu şö'bələrdə yerli əhalinin nümayəndələri qulluğa qəbul olunurdu. Çünki ərəblər işğal etdikləri ölkələri idarə edən mə*mur aparatını tə'min etmək üçün islamı qəbul etmiş və könüllü surətdə xilafətə qulluq göstərmək istəyən yerli ə'yanların xidmətindən istifadə edirdilər. Müəyyən müddətdən sonra ərəblər dövlət idarələrinin mürəkkəb mexanizminə tədricən yiyələndikcə həmin yerli ə'yanlar inzibati idarə aparatından uzaqlaşdırılırdı.

Yerli ə'yanlar əvvəlki imtiyazlarından məhrum edilib, idarə işlərinə buraxılmırdılar. Üstəlik kəndlilərin istismarından əldə etdikləri gəlirin bir hissəsini itirirdilər. Ona görə də yerli feodallar xilafətin siyasətindən narazı qalaraq ərəblərə qarşı baş verən üsyanlarda iştirak edirdilər.

Azərbaycan ərazisində xilafətin əsas dayağı ərəb ə'yanlarından və silahlı qüvvələrdən ibarət idi. Ərəblər Azərbaycanın istilasını başa çatdırıb burada möhkəmlənəndən sonra qoşunun təşkilində islamı qəbul etmiş olan yerli əhalidən (mövlalardan) və hətta xristianlardan (zimmilərdən) istifadə edirdilər.

Ərəblər Azərbaycanın Ərdəbil, Marağa, Beyləqan, Bərzənd, Bərdə, Dərbənd, Naxçıvan və s. strateji əhəmiyyəti olan şəhərlərində hərbi dəstələr saxlayırdılar. Xilafətə qarşı başlayan üsyanlan, iğtişaşları yatırmaqda, asayişi bərpa etməkdə, bizanslıların və xəzərlərin hiicumlannı dəf etməkdə onlardan istifadə edirdilər.

Vergilər. Bütün istilaçı dövlətlər kimi, xilafətin də əsas məqsədi mümkün qədər daha çox torpaq ələ keçirmək və vergi toplamaq idi.

Ərəb cəmiyyətində feodal münasibətlərinin təşəkkül tapdığı Vll əsrdə Sasanilər imperiyasında feodal münasibətləri özünün daha yüksək səviyyəsinə qalxmışdı. Ona görə də ərəblər başqa məsələlərdə olduğu kimi. Sasanilərin vergi qaydasını da bə'zi dəyişikliklər etməklə qüvvədə saxladılar. Mənbələrdən məMum olur ki, Əməvilər sülaləsinə qədər birinci dörd xəlifənin dövründə vergilər xeyli yüngül idi.*®

Məsələn, dövlətlidən 48 dirhəm, ortababdan onun yarısı qədər, yoxsullardan 12 dirhəm xərac alınırdı.

Həm də Sasanilərdən fərqli olaraq vergini tək-tək şəxslərdən deyik bütün ölkədən alırdılar. Azərbaycanda əhalinin bir qismi xristian olduğundan xəlifənin xəzinəsinə iki adda vergi: xərac və cizyə verilirdi. Müsəlmanlar cizyə vergisindən azad idilər. Xristianları itaətdə saxlamaqda xilafətə kömək etdiklərinə görə keşişlər və kilsə vergidən azad edilir və dövlət tərəfindən himayə olunurdu. Say e'tibarilə dördüncü xəlifə, peyğəmbərin əmisi oğlu və kürəkəni Əli ibn Əbu Talib vergilərin tonlanmasına dair ədalətli göstəriş verərək, əsas diqqəti xəracı yığmağa deyil, torpağı səmərəli şəkildə əkib-becərməyə yönəldirdi. Bildirirdi ki, əkilməyən toıpaqdan xəmc alınsa, az vaxtdan sonra ölkə var-yoxdan çıxar və adamlar qınlıb tükənərlər. Əməvilər sülaləsindən xəlifə Hişamın dövründə vergilərin alınması qaydasında dəyişiklik edildi. O, dövlətin gücünü xəracda gördüyündən kənd təsəiTÜfatına diqqəti artırmağı tələb etdi. Onun göstərişi ilə 725-ci ildə Azərbaycanda əhali, mal-qara, toıpaq siyahıya alındı, vaxtilə ləğv edilmiş bə'zi vergilər bəıpa edildi. Bir sıra yeni-sənət mə'ınulatı, kəbin kağızı və s. adda vergilər tətbiq olundu. Hətta rahiblərdən cizyə vergisi alındı, onun məbləği artırıldı. Bu ağır vergilər təkcə yoxsulları deyil, orta və iri feodallan da müflisləşdirdi.

VIII əsrin ortalarına yaxın vergilərin ağırlığına dözə bilməyən kəndlilər kütləvi şəkildə kəndlərini tərk edərək, iri feodalların yanında muzdurluq etməyə məcbur olurdular. Onların qoyub getdiyi toıpaqlan feodallar ələ keçirirdilər. Mərkəzdə və vilayətlərdə Əmə- vilərə qarşı artan narazılıq 750-ci ildə Abbasilər sülaləsinin (750- 1258) hakimiyyətə gəlməsi ilə nəticələndi. Onlar bütün vilayətlərdə mə'murları öz adamlan ilə əvəz etdilər. Azərbaycanda Əməvilərə məxsus mülkləri və torpaqları ələ keçirdilər. Əməvilərdən fərqli ola- mq, əhalini itaətdə saxlamaq üçün yerli feodalların nüfuzundan istifadə etdilər. Azərbaycanda kəndlilərin vəziyyəti daha da ağırlaşdı. Vergi qaydasında yeni dəyişiklik edildi. Torpağın əkilnb-əkilməmə- sindən asılı olmayamq vergi alınmağa başlandı. Bir mənbədə deyilirdi: «Xəlifə əl-Mənsur o qədər acgöz idi ki, xalq ona «pul atası» ləqəbi vermişdi». Lakin onun varisi Mehdi vergiləri bir qədər yünkülləşdirdi. Verginin miqdarı suvarma texnikasından asılı olaraq məhsulun dörddə birindən, yarısına qədər müəyyən edildi. Qəddarlığı ilə bütün xəlifələrdən seçilən Haıoın ər-Rəşidin dövründə (786-809) vergilər yenidən artırıldı. Azərbaycanın cənub hissəsindən ildə 4 milyon dirhəm, Muğandan 300 min dirhəm vergi alınırdı. Zimmilər (xristianlar) daha çox vergi verirdilər.

Ər^b mə'murlan və vergi yığanları ifrat dərəcədə ağır olan vergiləri vaxtında verə bilməyənləri döyür, şəxsiyyətini alçaldır, qızmar günəş altında saxlayır, boyunlarından daş asır, arvadlannı və uşaqla- nnı qula çevirir, tövlələrindən mal-qaralannı aparırdılar. Vergilər təkcə xəracdan və cizyədən ibarət deyildi. İnsanın mənfəətləndiyi bütün sahələrdən, müharibə zamanı əldə edilən hərbi qənimətlərdən, əsirlərdən, daşına bilən əmlakdan *xüms* (beşdə bir) deyilən vergi alınırdı. Bundan başqa, mal-qaradan, əkin və meyvədən, qızıl və gümüşdən *zəkat* (sədəqə) vergisi alınırdı. Zəkat ruhanilərin, yetimlərin, şikəstlərin və əlacsızlann ehtiyacına sərf olunurdu.

Bakının neft mənbələri və duz gölləri üzərinə də vedgi qoyulurdu. Bə*zən də neft və duz mənbələrinin bir hissəsi vəqf şəklində Dər-bənddəki ərəb əsgərlərinin istifadəsinə verilirdi. Mənbələrdə xilafətin Azərbaycandan aldığı vergilərin ümumi məbləği dəqiq verilmir. Bununla belə vergilərin ümumi məbləği təxmini hesablamaya görə. Üdə 8 milyon dirhəmə yaxın idi.

Torpaq mülkiyyəti formalan. Azərbaycan istila olunduqdan sonra suvarılan, münbit və yararlı torpaqlann xeyli hissəsi Xilafətin mülkiyyəti e'lan olundu. Ərəblərin hakimiyyəti dövründə işğal olunmuş bütün ölkələrdəki kimi, Azərbaycanda da torpaq üzərində mülkiyyətin aşağıdakı beş forması mövcud idi.

Feodal torpaq mülkiyyətinin əsas növlərindən biri dövlət torpaqları idi. Belə torpaqlar *divan* və ya *xəlifə torpağı* adlanırdı. Varissiz ölən şəxslərin, əməllərinə görə vəzifəsindən qovulan mə'murların torpağı da divan torpağına qatılırdı.

Geniş yayılmış torpaq mülkiyyəti formalarından biri *iqta* idi. Bu cür mülkiyyət forması orta əsrlərdəki feodal dövlətinin hamısında var idi. İqta hüququ adamlara orduda göstərdiyi hərbi hünərə və sədaqətin xidmətlərinə görə dövlət tərəfindən verilirdi. İqta divan torpağından verilirdi. Bə'zi hallarda hərbçilərə vəqf torpağından da iqta verilirdi. Bir sıra ölkələrdən fərqli olaraq xilafətdə iqta sahibi məcburi hərbi mükəlləfiyyət daşımır, xəzinəyə müəyyən miqdarda vergi verilirdi. İqtanm iki forması mövcud idi. Onlardan biri *bağışlanan* iqta idi ki, o sahibinin şəxsi mülkiyyətinə çevrilə bilir və nəsildən-nəslə keçirdi. Bu cür iqta torpağı bir qayda olaraq vərəsəsi olmayan, sahibi ölmüş və becərilməyən toıpaqlardan verilirdi. Bağışlanan (xüsusi) iqta şairlərə, xüsusi iste'dadlı şəxslərə və dövlət qarşısında böyük xidməti olan adamlara verilirdi. Məsələn, Xürrəmilər hərəkatını yatırtdığına görə Azərbaycan və Ərmeniye ərəb sərkərdəsi Afşinə bağışlanmışdı.

İqtanın formalanndan biri *ĞQ icarə edilən* idi ki, onu hərbçilərə verirdilər. Bu cür toıpaqlar irsən keçə bilməz, lazım gəldikdə isə geri alına bilərdi. Xüsusi mülk torpaqlarının bir hissəsini bağışlanan torpaqlar (buna «xəlifə iqtası» da deyilirdi), digər hissəsini satın alınan torpaqlar təşkil edirdi.

Azərbaycanda yararlı torpaqların mühüm bir hissəsi buraya, köçürülmüş ərəblərə məxsus idi. Ərəb ailələrinin ilk dəstələri buraya Əməvilər sülaləsinnn hakimiyyəti dövründə gəlmişdi. Bu baredə ərəb müəlliflərinin (əl-Vaqidin, əl-Fəqihin, Hüseyn ibn-Əmru Bəlazumnin və b.) əsərlərində ətraflı mə’lumat vardır.' Xilafət ərəb ailələrini Azərbaycana köçürüb torpaqla tə’min edir və onlan oturaq həyata keçirməklə ərəbləşdirmə siyasəti yeridirdi. Bir menb^ə deyilir: «Ərəblər Azərbaycam işğal edəndə iki vilayətdən (Bəsrə və Kufə) və Suriyadan ora çoxlu tayfalar yeridi, həm de onlardan hər biri nəyi elə keçirə bildisə, onu ələ keçirdi, bə’zileri isə yerli əhalidən pulla toipaq aldı. Beləliklə, onların* * əhalisi onlar üçün*^ iş görən rəiyyətə çevrilmişdi». • .

Bununla belə, Azərbaycanda yerli feodalların irsi mülkiyyətində olan torpaq mülkləri qalmaqda idi. Ərəb mənbələrində belə torpaqlar /;«V7A’, onun sahibi isə ma///: adlanırdı.

Toipaq üzərindəki mülkiyyət formalarından biri-veqf torpaqları idi. Bu toıpaqlar Məkkə və Mədinə kimi müqəddəs şəhə'rləf üçün, din uğnanda mübarizlər və şəhidlər üçün nəzərdə tutulürdü; Həmin torpaqlarda məscidlər və müqəddəslərin şərəfinə türbələr tikilirdi. Vəqf torpaqları müsəlman dini idarələrinin ixtiyarında idi. «Allahın mülkiyyəti» hesab edilən vəqf torpağı icarəyə verilsə də, onu nə sätmaiq, nə almaq, nə də xüsusi mülkiyyətə keçirmək olmazdı. İcarəyə verilmiş vəqf torpağı üç il əkilməyib istifadəsiz qalisa, torpaq hƏmm adamın əlindən geri alınırdı. . ’

Torpaq mülkiyyəti formalarından biri də *icma* törpaqlan idi. Kəndlərdə əhaliyə məxsus əkin yerləri, biçənəklər, otlaqlar, nieşələr, qəbiristanlıqlar və s. icma torpaqlarına daxil idi. Əslində xəzinəyə gələn gəlir də bu torpaqlardan alman vergilər idi.

Xilafət əleyhinə çıxışlar. Xilafətin isöyğuhçu vergi siyasəti və mə’murların özbaşınalığı, dəhşətli istismar və hüqüqsüzluq, yerli

Yə’ni bu kəndlərin.
•2 Ərəblər nəzərdə tutulur.

feodalların mülklərinin və imtiyazlarının məhdudlaşdırılması, güclü ərəbleşdirmə siyasəti və başqa səbəblər əhalinin vəziyyətini ağırlaşdınnaqla yanaşı, ümumxalq qəzəbini coşdururdu.

Səkkizinci yüz ilin ortalarında Əməviler sülaləsinin siyasətinə qarşı həm .xilafət sarayında, həm də onlara tabe olan asılı ölkələrdə kəskin mübarizə gedirdi. Xəlifə sülalənin taleyi üçün yaranmış siyasi böhranı və təhlükəni aradan qaldırmaq iqtidarında deyildi. Üsyanlann əhatə dairəsi genişlənir və təfsiri güclənirdi. Xilafətə qarşı çıxışlar Şimali Afrikada, Orta Asiyada və Ön Qafqazda, demək olar ki, eyni vaxtda baş verdiyindən Əməviləri sarsıtmışdı. Xilafətə qarşı Azerbaycanda çıxışlar 748-752-ci illərdə geniş vus’ət aldı. Üsyanda əhalinin bütün təbəqələri iştirak edirdi və onlara yerli feodal ə'yanlar başçılıq edirdilər. Bu səbəbsiz deyildi. Ərəblər Azerbaycanda möhkəmləndikcə feodalları dövlət aparatından uzaqlaşdırır, onların torpağını, kəndlilər üzərindəki hüququnu və digər imtiyazlarını məhdudlaşdı- nrdı. Ona görə də feodallar xilafətdən daha çox narazı idilər. Azərbaycanda olan ərəb mənsəb sahiblərinin xeyli hissəsi də Əməvilərin siyasətindən razı.deyildi. Onlar da üsyançılarla həmrə'y idilər.

748-ci ildə Beyleqanda başlanmış üsyan tezliklə digər vilayətləri, xüsusilə Bərdəni və Ərdəbili əhatə etdi. Akademik Z.Bünyadov xilafətə qarşı bu çıxışlan Pavlikanlann*^ tə’siri ilə əlaqələndirir. Beylə- qandakı üsyana yerli hökmdar Vard ibn SəfVan başçılıq edirdi. Bu barədə Yəqubinin əsərində mə’lumat verilir. O, üsyançıları «avara» adlandınr və onların rəhbərinin admı çəkir. Mütəşəkkil şəkildə başlanan üsyan ərəb əmirini çaşdırdı və çox qorxutdu. Xəlifənin əmiri Əbu Cəfər ibn Məhəmməd üsyanın nüfuzlu rəhbərlərindən bir neçəsini həbs etdi. Onun hərəkəti üsyançıları daha da qəzəbləndirdi. Bu zaman yerli feodallardan tbbən ibn Mənsurun, Hatib ibn Sədəqin və başqalarının başçılıq etdikləri üsyançı dəstələr Beyləqana yaxınlaşaraq, şəhər əhalisinin köməkliyilə qalanı mühasirəyə aldılar. Onlar hücum nərdi- vanlarından istifadə edərək, qala divarlanna qalxdılar və beləliklə, şəhərə girə bildilər. Üsyançılar ərəblərin burada olan hərbi dəstələrini qılıncdan keçirib əmiri əsir aldılar və bütün məhbusları azad etdilər. Bu qələbədən sonra onlar Bərdə üsyançılarının köməyinə

' I «Şeytan balası» və «əbədi atəşin közərtilərb> adlandırılan pavlikanlar erkən orta əsrlərdə meydana gəlmiş antifeodal, bid'ətçi hərəkat idi. Mənbələrdə bu hərəkatın geniş yayıldığı ölkələr sırasına Azərbaycan da daxil •edilir.

getdilər. Bərdedəki ərəb əmiri Asim ibn Yəzidin qoşunlannı məğlub edib, özünü də öldürdülər. Üsyanı yatırtmaq üçün xəlifənin göndərdiyi yeni ərəb ordusu da məhv edildi. Xalq hərəkatı Azərbaycanın digər əyalətlərini və bütün Ön Qafqazı bürüdü. Yə'qubinin mə'luma- ttndan bəlli olur ki, bu hadisədən bir neçə müddət sonra, xəlifə Harun ər-Rəşidin dövründə Beyləqan əhalisi Bərdəyə gəlmiş xəlifə canişininin əleyhinə yenidən üsyan qaldırmışdı. Əsarətə alınmış xalqlann təzyiqi və ərəb cəmiyyəti daxilində mübarizənin kəskinləşməsi nəticəsində Əməvilər sülaləsinin 89 illik hakimiyyətinə son qoyuldu. Hakimiyyətə Abbasilər keçdi. Bu sülalə Xilafəti 508 il (750-1258) idarə etdi. Abbasilər Azərbaycanda və başqa yerlərdə baş verən üsyanlan amansızlıqla yatırtdılar. Bununla belə, cəza tədbirləri xalqın mübarizə ruhunu söndürə bilmədi.

## § 4. XÜRRƏMİLƏR HƏRƏKATI

Xürrəmilər tə'Iimi və onun mahiyyəti. Azərbaycan xalqının çoxəsrlik tarixi istismarçılara və yadelli istilaçılara qarşı qəhrəmanlıq mübarizəsi ile zəngindir.

Azərbaycanda azadlıq mübarizəsinin parlaq səhifələrindən biri əıəb Xilafətinə qarşı 60 üdən artıq davam etmiş xürrəmilər hərəkatıdır. Xürrəmilər cəmiyyətdəki bütün ədalətsizlUdərin kökünü sosial bərabəı*sizlikdə köıürdülər. Onlann şüan torpağı və diger istehsal vasitələrinn xalqın ixtiyarına verməkdən, kəndliləri və senətkarlan feodalların və diger hakim təbəqənin asılılığından azad etməkdən ibarət idi. Sosial bərabərlik uğrunda mübarizələri, maddi ne'metləri insanlar arasında bərabər şəkildə bölüşdürmək və bütün təbəqədən olan gənclər üçün istisnasız kəbin hüququ azadlığı arzusunda olmaları onları məzdəkilərin ideyası ilə yaxınlaşdınrdı. Bu cəhətdən bir sıra orta əsr müəllifləri və onlara istinad edən burjua şərqşünasları xürrə- miləri məzdəkilərin ideya davamçıları hesab edirlər. Məsələn, Əbu Müzəffər İsfərani yazır: «Xürrəmilər iki təriqətə bölünürlər: biri islamın meydana gəlməsindən əvvəl var idi və məzdəkilər adlanırdı. Onlar öz aralannda yaxın qohumla evlənməyə yol verirdilər. Deyirdilər ki, əmlak və qadın məsələsində onlann hamısı şərikdirlər. Xür- rəmilərin ikinci təriqəti isə islam dövlətində meydana gəlmişdi. Bun-

Yaxın qohum ilə evlənmə bir çox xalqlann həyatında mövcud olmuşdur. Buna qədim ailə münasibətlərinin qalığı kimi baxmaq olar.

lar «babəkilər ve məzyerilerdir. Bu təriqəti müxemmire ve babekiy- yə adlandırırlar. Yə’ni Babək el-Xürrəmi adU bir adamın ardıcılları».

, Məzdəkilər V əsrin sonu və VI əsrin birinci qərinəsində feodal istismasına ve hakim təbəqənin firavan heyat tərzinə qarşı, xürrəmiler isə feodal'zülmündən daha çox Xilafətin milli əsarətinə qarşı mübarizə apaıinışdı. Azerbaycanın istiqlaliyyətini bərpa etmək, onu yadellilərin tapdağmdan qurtarmaq xürrəmilerin əsas idealı idi. Xürrəmiler islamın ehkamlarını rədd edir ve Azerbaycan ayinlərini ona qarşı qoyurdular. Xürrəmiler belə güman edirdilər ki, dünya daim mövcud olduğu kimi, insanların ruhu da əbədidir. Dünyada iki qüwe-xeyir ve şər arasında fasiləsiz mübarizə gedir. Həm də bu mübarizədə xeyirin şərə qalib gələcəyi labüddür. Xürrəmiler hərəkatı erkən orta əsrlər döviündə Şərqdə islam dini, feodal zülmü və ən başlıcası ərəb əsarətinə qarşı çevrilmiş güclü xalq hərəkatı idi. Xürremilər tarixdə ilk dəfə olaraq yadelli zülmkarlara qarşı mübarizədə azadlıq rəmzi kimi qırmızı bayraq qaldırmış ve qırmızı paltar geymişlər.*^

Xilafəti lərzəyə salan ve kökündən sarsıdan xürrəmiler hərəkatı baş verdiyi vaxtdan bizim dövrümüzə qədər araşdmcılann əsas tədqiqat problemi olmuşdu. Lakin babəkilərin sosial ədalət və azadlıq uğınndaki mübarizəsini nifrətlə qarşılayan orta əsr müəllifləri və onlara əsaslahaıi burjua şƏrqşünaslan bu hərəkata milli ve sinfi baxımdan yanaşmış, onun məqsədini, mahiyyətini ve vurduğu təkanın gücünü qəsdən təhrif etmişlər. Onların eserlərində xürrəmiler hərəkatının ən mübariz, cəsur ve nüfuzlusu olan babəkilər hərəkatı daha çox bayağılaşdınlmiş və saxtalaşdırılmışdı. Xürrəmilerin ve onların rƏhbƏri Babəkin ünvanına ağlasığmaz iftiralar deyilmiş və lə’nətlər yağdırılmışdı. Bunlardan məqsəd bütün müsəlmanlarda xürrəmilərə cjarşi kin ve nifi*ət hissi yaratmaq idi.

Xürrəmiler horƏkatı özünün elmi və obyektiv qiymətini akad. Z.Bühyadovun çoxillik zəhmətinin bəhrəsi olan «Azerbaycan VII-IX əsrlərdə» adlı fundamental monoqrafiyasında ve bu problemlə əlaqədar məqalelərihde, mÖ’təbər elmi konfranslardakı çıxışlarında tapa biİdi/Müəllif yüzlərlə məribeni dərindən araşdıraraq mübahisəli məsələləri tarixşünaslıq baxımından və elmi cəhətdən düzgün dəqiqləşdirmişdi.

XüiTomiləri əreblər «müxəmmirə» adlandınrdılar (mə’nası qırmızı geyinmişlər) farslar isə «sürxaləm» adlandırırdılar (mə’nası qırmızı bayraqlılar deməkdir).

«Xürrəm» termini haqqında. Son zamanlara qədər çoxsaylı müəlliflərin əsərlərində və mənbələrdə xürremilər hərəkatının məqsədi, mahiyyəti və onun *rəhbəri* flabekin *şəxsiyyəti* kimi, «xürrəm» sözünün mə’nası da müxtəlif cür yozulmuşdur. Bu sözün mə’nası ilə əlaqədar bir neçə fikir və fərziyyə irəli sürülmüşdü. Məsələn, IX-X əsr müəlliflərindən bir neçəsinin fikrinə görə,, bu söz Ərdəbil yaxınlığında olan Xürrəm adlı yaşayış məntəqəsinin adı ilə bağlıdır. Guya üsyan ilk dəfə burada başlandığından, onun iştirakçıları xürrəmilər adlanmışdı.

«Xürrəm» termininin Məzdəkin qadını Xürrəmenin adı ilə bağlı olduğunu söyləyənlər də vardı. Guya, Məzdəkin ölümündən sonra onun qadını Xürrəme Mədaindən Rey mahalına qaçmış və burada ərinin tə’limini təbliğ etmiş, onun ətrafına toplaşanlar isə xürrəmilər adlandırılmışdı.

Xürrəm adı fars dilində «şad», «xürrəm» kimi də izah edilmişdi. Digər izahata (Y.Yusifov) görə, «xürrəm» İran dillerinde «yaxşı qayda» me’nasında işləndiyindən «xürrəmi» «yaxşı qayda» tərəfdarları mə’nasını verirdi.

Məzdəkilərin və xünəmilərin atəşpərəst olması haqqında orta əsr müəlliflərinin əksəriyyətinin fikri yekdildir. Ona görə də akademik Z.Bünyadov «xürrəm» sözünü pəhləvi dilində «xün>-od və «xvan>-Günəş anlamında mə*nalandırmışdı.

Orta əsr müəlliflərinin əksəriyyəti və onlara əsaslanan burjua tarixçi və şərqşünasları xürrəmilərə olan kinli və ziddiyyətli münasibətlərini bu sözün izahında biruzə verdilər. Onların fikrincə, xürrəmilər yaxın qohumla evlənməyi və ruhun ölməzliyini təbliğ edir, haramın nə olduğunu bilmir, şərabı və ümumij'yetle insana nəş’ə və zövq verən hər şeyi faydalı hesab etmişlər. «İlin bir gecəsi» mərasimini də onların ünvanına aid edirlər. Həmin tədqiqatçılar «şad», «xürrəm» sözlərini müstəqim me’nasında yox, şəhvətpərəstlik və pozğunluq mə'nasında işlətməklə xütrəmilərə qarşı ikrah hissi yaratmaq istəmişlər.

Xürrəmilərin rəhbərləri. Babək. Səid Nəfisinin yazdığına görə, Bəzz dağlarında və ona yaxın ərazilərdə yaşayan xürrəmilərə rəhbərlik etmək üstündə Cavidan və Əbu İmran deyilən iki feodal arasında kəskin mübarizə gedirdi. Onlar yazda və yayda bir-biri ilə vuruşar, qışda, qar yolları bağlayan zaman döyüşü dayandınb təsərrüfatlan ilə məşğul olardılar.

Cavidan Bəzz qalasının sahibi və xürremiler icmasının başçısı idi. Onun çoxlu qoyun sürüləri vardı. O, hər il qış vaxtı Zəncan bazarında qoyun satardı. Gələcək şagirdi Babəklə tanışlığı da belə səfərlərin bilində baş verdi. O apardığı iki min qoyunu satıb geri qayıdarkən Babəkgildə gecələməli oldu. Cavidan söhbət zamanı yəqin etdi ki, Babəkin güclü mühakiməsi və idrakı var. Ona görə də anasının razılığı ilə Babəki Bəzz qalasına apardı. Babək tezliklə xürıəmilərin təMi- mini qəbul etdi. Cavidanın yaxın köməkçisi və məsləkdaşı oldu.

Mənbələrin me’lumatına görə, xürrəmilərin ərəblərə qarşı azadlıq mübarizəsi 61 il davam etmişdi. Onun üçdə iki hissəsini Babəkə qədərki dövr təşkil edir ki, onun da xeyli hissəsinə Cavidan rəhbərlik etmişdi. Xurrəmilər Cavidana allah qədər inanır və ona sadiq idilər. 816-cı ildə, döyüşlərin birində Cavidan Əbu İmranı öldürdü və bundan üç gün sonra aldığı yaradan, özü də öldu. Bu zaman Babəkin 18 yaşı vardı. Cavidanın dul qalmış gənc və gözəl qadını Babəkə vurulmuşdu. O, ərinin adından uydurduğu saxta vəsiyyətlə xurrəmiləri aldada bildi. Guya, həmin gün öləcəyini əvvəlcədən hiss edən Cavidan vəsiyyət edərək bildirib ki, öləndən sonra onun ruhu Babəkin mhu ilə birləşəcək. Deməli, Cavidan Babəkin şəxsində yaşayacaqdı. Ona görə də o, Babəki xurrəmilər icmasına rəhbər tə’yin edir. Hər kəs e’tiraz edib vəsiyyətə əməl etməsə, böyük günah etmiş olur. Xür- rəmilər qadının dediyinə inanıb rəhbərləri Babəkə sadiq qalacaqlarına and içdilər.

Beləliklə, Babək Cavidan mülkünün sahibi və xürrəmilər icmasının rəhbəri oldu.

Əsrlərdən bəri adı qəhrəmanlıq rəmzinə çevrilmiş Babək öz zəmanəsinin cəsur sərkərdəsi və görkəmli siyasi xadimi idi. Haqında yazılmış saysız-hesabsız əsərlərin heç birində onun tərcumeyt-halı, şəxsiyyəti və fəaliyyəti düzgün əks etdirilməmişdi. Şübhəsiz ki, bu təsadüfi deyildi. Cəmisi 40 il ömür sürmüş Babək 798-ci ildə*^ Ərdə- bil yaxınlığında Bilalabad kəndində doğulmuşdu. Səid Nəfisi yazır ki, «mədainli kiçik yağ alverçisi Abdulla Ərdəbil yaxinlığmdakı Bilalabad kəndinə gəlmişdi. O, burada yerli hakim ibn ər-Rəvvadın qulluqçusu, təkgözlü Bəruməndlə evləndi. Bu qadından Babək doğuldu. Abdulla Savalan dağlarına səfər zamanı öldürüldü. Bu zaman Babəkin bir yaşı vardı. Bundan sonra Bərumənd oğlu Babəklə Səraba köçdü».

Başqa bir mənbədə 79S-ci ildə anadan olduğu qeyd edilir.

Bərumənd özgə qapılannda qulluqçuluq edir və döşündə südü olmayan qadınların körpələrinə süd satmaqla əldə etdiyi kiçik məbləğə ailəsini dolandırırdı. Babəki çox çətinliklə böyütdü. Oğlu ərsəyə çatıb bir neçə il çobanlıq etdi. Təbrizdə iki il sənətkar yanında, şagird oldu. Soma yenidən anasının yanına qayıtdı. Elə bu vaxt Cavidanla rastlaşıb xürrəmilərin paytaxtı Bəzzə getdi.

Çoxsaylı müəlliflər içərisində yalnız Təbəri qeyd edir ki, guya. «Babək bir vaxt islam dinini qəbul etmiş və peyğəmbərin nəvəsi Həsənin şərəfinə adını dəyişib Həsən qoymuşdu». Babək bütün ömrü boyu Xilafətə qarşı mübarizə aparmış və Azərbaycanda islamdan əvvəl mövcud olan qayda-qanunları ola bilsin ki, bərpa etməyə çalışmışdı.

Mənbələrdən mə'lumdur ki, xürrəmilər Babəkə qədər Xilafətə qarşı iki dəfə üsyan etdilər. Birinci üsyan 778-ci ildə baş verdi. S.Nəfisi «Siyasətnamə»dən iqtibas gətirərək göstərir ki, «Xəlifə Mehdi zamanında «Qızıl bayraqlılar» xürrəmilərle birləşərək Reyə qədər gəldilər, halalı harama qatdılar... Mehdi hər yana məktub yazdı ki, əl- ələ verib birləşin, onlann döyüşünə gediniz. Onlar getdilər və camaatı (üsyançıları - *R.Ə.)* dağıtdılar».

Bu hadisədən 30 il sonra, 808-ci ildə xürrəmilərin ərəblərə qarşı daha güclü bir üsyanı başlandı. İsfahanda başlanan bu üsyan bir çox əraziləri bürüdü. Reydən, Həmədandan, Girədən və başqa şəhərlərdən gələn on minlərlə adam üsyançılara qoşuldu. Bir mənbədə deyilir ki, onlann miqdarı yüz mindən artıq idi. Üsyan haqqında xəbəri Xorasanda eşidən xəlifə Harun ər-Rəşid sərkərdə Abdulla ibn Malikin başçılığı ilə xüiTəmilərə qarşı on min atlı göndərdi. O, üsyançıların öhdəsindən güclə gələrək çoxunu öldürdü, bir hissəsini, o cümlədən, qadınları və uşaqları əsir götürüb xəlifənin hüzuruna göndərdi. Harun ər-Rəşidin göstərişi ilə kişiləri öldürdülər, qadınları və uşaqları qul kimi satdılar.

Lakin xəlifənin amansız cəza tədbirləri xürrəmilərin azadlıq uğrunda mübarizə əzmini məhv edə bilmədi. Onlann sırası seyrəlsə də, düşmənə qarşı döyüş təcrübələri zənginləşdi.

Cavidanla Əbu İmran arasındakı ixtilaflar və şəxsi düşmənçilik ərəblərə qarşı mütəşəkkil mübarizənin kəsərini azaldırdı. Üsyanlar arasında on illərlə fasilə yaranmasının əsas səbəblərindən biri bu idi. Bütün mənbələr təsdiq edir ki, Babəkə qədər xürrəmilər Xilafət üçün ciddi narahatlıq yarada bilmirdilər. Babək xürrəmilər icmasında rəhbərliyi ələ aldıqdan sonra vəziyyət tamamilə dəyişdi.

Mənbələrdə göstərilir ki, Babək xürrəmilər icmasında rəhbərliyi qəbul edən zaman onun tərəfdarlarının miqdarı kifayət qədər çox deyildi. O, xürrəmilərə silah paylayıb göstəriş verdikdən sonra, əlverişli məqam çatana kimi gözləmələrini tapşırdı. Həmin müddətdə Babək öz adamlanni Azərbaycanın hər tərəfinə göndərərək ölkəni xilas etmək üçün onları ərəblərə qarşı azadlıq mübarizəsinə çağırdı. Odlar yurdunun hər tərəfindən minlərlə vətənpərvər silahlanaraq Babəkin bayrağı altına toplandı. Bir mənbədə deyilir ki, «Babəkin əsgərlərinin sayı o qədər artmışdı ki, piyada hesaba alınmadan, təkcə atlılar 20 min nəfər idi». Babək orduda ciddi intizam yaratmışdı. Döyüşlərdə xürre- milərə xalqın ən cəsur və cəngavər oğullarından Müaviyə, Abdulla (Babəkin qardaşları idi), Tərxan, Adin, Rüstəm, İsma el-Kürdi və başqa sərkərdələr başçılıq edirdilər.

Azadlıq ordusunun əsas hərəkətverici qüvvəsini-kəndlilər təşkil etsə de, orada şəhər yoxsulları, sənətkarlar, orta və xırda feodallar, əhalinin müxtəlif təbəqələrinə mənsub adamlar da az deyildi.

Xürrəmilər Xilafət ordulan üzərində parlaq qələbə çalaraq Azərbaycanı onlardan təmizlədikcə müharibənin xəritəsi sür’ətlə genişlənirdi. Cibal, Ərməniye, Xorasan, Rey, Həmədan, İsfahan, Masazban, Deyləm, Astrabad və s. şəhərlərin və əyalətlərin əhalisi də xürrəmi- lərin səsinə səs verərək mübarizəyə qoşulub Xilafəti sarsıdırdı. Ərəb tarixçisi Bağdadinin verdiyi mə’lumata görə, «təkcə Azərbaycanın cənubunda və Deyləmdə Babək tərəfdarlarının sayı 300 min nəfərə çatırdı».

Azadlıq mübarizəsi bir çox əraziləri bürüsə də, bütün mənbələr təsdiq edir ki, Babəkin və xürrəmilərin vətəni Azerbaycan idi və azadlıq mübarizəsi buradan başlanmışdı.

Xürrəmilərin ilk uğurlan və üsyanın genişlənməsi. Xürrəmilər mütəşəkkil döyüşlərə başlamazdan əvvəl Azərbaycanın şəhər və kəndlərində yadelli istilaçılardan minlərlə adamı öldürdülər və qovdular. 819-cu ilə qədər xəlifə xürramilərə qarşı nizami ordu göndərmədi. Üsyançılara qarşı Azərbaycandakı hərbi hissələrin qüvvələrindən istifadə etdi. Lakin Babəkilər hərəkatı get-gedə geniş vüs’ət alaraq Xilafat üçün qorxulu bir qüvvəyə çevrilirdi. Üsyançılar düşmənin xeyli miqdarda canlı qüvvəsini məhv etdi və maddi zərər yetirdi. Xürrəmilərin uğurları xəlifəni qarşıda duran təhlükəyə ciddi fikir verməyə məcbur etdi. Xəlifə Mə’mun 819-cu ildə sərkərdə Yəhya ibn Müazın başçılığı ile Babəkə qarşı ilk nizami ordu göndərdi. Xürrə-

miiər bu ordunu əzdilər. Bu qələbədən sonra on il müddətində üsyançılar Xilafətin bir neçə nizami ordusunu məhv etdilər və sərkərdələrini əsir aldılar.*^

Əhalisi xristianlardan da ibarət olan Sünik, Şəki, Beyləqan, Arsax və s. vilayətlərdə üsyançılar daha əzmlə vuruşurdular. 821-822-ci illərdə xürrəmilər ərəbləri məğlub edərək Süniki, Arsaxı, Utini, Bey- ləqanı, Qarabağı ve Arranın bir sıra digər əyalət və şəhərlərini azad etdilər. Üsyanın genişləndiyi şəraitdə yerli məliklərin xeyli hissəsi Babəkin tərəfmə keçdi.

827-ci ildə xürremilərə qarşı məşhur sərkərdə Məhəmməd ibn Hümeydin başçılığı ile Azərbaycana böyük ordu göndərildi. O ikiillik ciddi hazırlıqdan sonra 829-cu il iyunun 3-de Həşdadsər dağında xürrəmilərlə həlledici döyüşə başladı. Ərəblərin böyük ümid bəslədiyi bu döyüşdə əsas məqsəd Bəzz qalasını ələ keçirmək idi. Lakin Babəkin hərbi səriştəsi və sərkərdəlik məharəti nəticəsində düşmənin niyyəti baş tutmadı. Döyüşdə iştirak edən 150 minlik ərəb ordusundan 30 min nəfəri məhv edildi. Qanlı vunaşma zamanı sərkərdə Məhəmməd ibn Hümeyd öldürüldü. Onun ölümü xəlifəyə mə'nəvi cəhətdən ağır tə'sir göstərdi.

Xürrəmilər 830-cu ildə qələbə çalaraq böyük strateji əhəmiyyəti olan Həmədanı tutdular. Bu, üsyançılann nizami ərəb orduları üzərində beşinci parlaq qələbəsi idi. Həmədanın tutulması Xilafətə ağır zərbə oldu. Çünki Xilafətin paytaxtı Bağdadı imperiyanın şərq torpaqları ilə birləşdirən yeganə yol buradan keçirdi.

IX əsrin 30-cu illərinin əvvəlləri azadlıq müharibəsinin ən müvəffəqiyyətli dövrü idi. Üsyançılar xilafəti lərzəyə salmışdılar. Ərəb tarixçisi Dinəvərinin mə'İumatına görə, bu zaman «Babəkin işi böyük vüs'ət aldı va ərəblər ondan qorxmağa başladılar. Onunla vuıoışurdu- lar, lakin qalib gələ bilmirdilər. Babək qoşunları dağıdır və sərkərdələri öldürürdü».

Ərəb mənbələri xürrəmilərin Xilafət orduları üzərindəki tələbələrinin səbəblərini üsyanın Xilafət sarayında hakimiyyət üstündə çəkişmələr dövrünə təsadüf etməsilə, döyüşlərin ərəb əsgərlərinin vərdiş etmədiyi dağlarda, keçilməz dağ yollarda və soyuq hava şəraitində aparılması ilə izah etməyə çalışırlar. Lakin bunun heç biri ərəb

Məsələn, 821-ci ildə İsa ibn Məhəmmədin ordusunu, 824-cu ildə Zireyq İbn Əlinin ordusunu məğlub etdilər və sərkərdə Əhməd tbn Cüneydi əsir götürdülər.

oıxlulannm məğlubiyyəti üçun real əsas ola bilməzdi. Səid Nəfisi obyektiv olaraq babəkilərin əldə etdiyi müvətYəqiyyətləri Azərbaycan xalqının ərəblərə qarşı apardığı milli-azadlıq mübarizəsi kimi qiymətləndirərək yazır: «Babəkin müvəftəqiyyətlərinin əsl səbəbini xalqın birliyində, ərəb istilaçılanna və onların hakimiyyətinə qatlaşmamaqda axtarmaq lazımdır».

Bizansla müharibə, Suriya və Misirdəki üsyanlar xürrəmilərin azadlıq müharibəsi ilə bir vaxta düşdüyündən Xilafəti çaşdırmışdı. Xelite Babəkilərin zərbələrini dəf edə bilmirdi, Xürrəmiler Azərbaycanı ərəblərdən demək olar ki, azad etmişdilər. Ancaq bir neçə qalada düşmənin həı*bi dəstələri qalırdı. Üsyan İranın bir sıra əyalətlərini də bürüdü. Xəlifə Mə’mun üsyanın geniş vüs’ət aldığı dövrde-833-cü il avqustun 7-də öldü. O, ölən zaman vəliəhdi Mö'təsimə xürremilərə qarşı amansız olmağı vəsiyyət etdi. Bu haqda Təbəri yazır: «Xürrəmi- lərə qarşı müharibəyə qətiyyətli və rəhmsiz bir adam göndər. Ona səbrlə pul, silah, atlı və piyada qoşunla kömək et».

Hərəkatın son mərhələ.si. Feodalların hərəkatdan uzaqlaşması. Yeni xəlifə Mö'tesim sələfinin dediyi kimi hərəkət edərək üsyançılara qai'şı sərkərdə İshaq ibn İbrahimin başçılığı ilə böyük ordu göndərdi. 833-cü il dekabrın 25-də Həmədan yaxınlığında şiddətli döyüş başlandı. Bu döyüşdə xürrəmiler ilk dəfə olaraq ağır məğlubiyyətə düçar oldular və böyük itkiyə me’ruz qaldılar. Mənbələrin birində üsyançılardan ölənlərin sayı 60 min, digərində 100 min nətər göstərilir. Döyüşdən sonra xürrəmilərin bir hissəsi Bizansa gedərək orada xristianlıq dinini qəbul etmişdi.

Həmədan döyüşündəki qələbə Mö’təsimə öz sələfinin üsyançılara qarşı tətbiq etdiyi hərbi taktikanın qüsurlarını anlatdı. Bizansla müharibəni dayandırıb bütün ordunu, maddi və hərbi sursatı Babəkilərə qarşı mübarizayə sərf etdi. Dövlətin fəaliyyəti bütünlüklə bu sahəyə yönəldildi. Ordunun təchizinə, təcrübəli və səriştəli sərkərdələrlə, zabitlərlə möhkəmləndirilməsinə xüsusi diqqət yetirildi. Yollar sahmana salındı və təhlükəsizliyi tə’min etmək məqsədilə onlarda keşikçi məntəqələri yaradıldı. Orduya göndərilən ərzağın, silahın və pulun mənzil başına çatdınıması üçün tədbirlər görüldü. Orduda intizam möhkəmləndirildi. Xilafətin tədbirləri içərisində ən əhəmiyyətlisi məşhur sərkərdə Afşin Heydər ibn Kavusun 835-ci ildə xürrə- milərə qarşı vuıışan ərəb ordusuna baş komandan tə’yin edilməsi oldu. Afşin döyüşlərə başlamazdan əvvəl taktiki və təşkilati tərəfdən

bir sıra işler gördü. Onun gəlişi ərəb ordusunun ovqatını dəyişdi, qələbəyə inamım artırdı. Afşin öz qərargahını üsyançıların istehkamlarına yaxın olan Berzənde köçürdü. Xilafətin mərkəzindən, xüsusilə Ərdəbildən Bərzəndə qədər olan qala və yollar bərpa edilərək möhkəmləndirildi. Əı*əb sərkərdəsinin mühüm tədbirlərindən biri də əks- kəşfiyyatı gücləndirib casusluq məMumatı toplamaq və üsyançılar arasında təfriqə salmaq, onların ən yaxşı sərkərdələrini aradan götürmək idi.

Üsyançılar da fəaliyyətsiz dayanmamışdılar. Bu yerlərə və yollara yaxşı bələd olan xürrəmilər tez-tez düşmənə qarşı hücuma keçir, onlara gətirilən ərzağı və pulu ələ keçirir adamlarını öldüKir, əsir götürür və bu yolla düşmənə ağır zərbə vururdular. Lakin müharibə uzandıqca, döyüşlərdə ərəblərin qələbələri artdıqca, yeni-yeni qüvvələr hesabına ordulan möhkəmləndikcə üsyançıların sımsı seyrəlirdi. Xəlifənin və Afşinin tədbirlərindən qorxuya düşən yerli feodallar, o cümlədən Babəkin sabiq tərəfdarlan və müttəfiqləri Səhl ibn Sumbat, ibn Bəis, Əbu Musa və onlarca başqaları tədricən üsyançılardan uzaqlaşaraq, Babəkə xəyanət etdilər.

Babək və onun başçılıq etdiyi xürrəmilər ərəblərə qarşı döyüşlərdə Məhəmməd ibn Bəis in göstərdiyi maddi və hərbi yardımdan faydalanırdılar. O, imkanı daxilində xürrəmilərə ərzaqla, pulla, silahla köməklik göstennəklə bərabər Təbriz və Şahi qalalanni da onların sərəncamına vermişdi. İbn Bəis Babəkin cəsur sərkərdəsi Isma əl-Kurdinin kürəkəni idi. İsma-əl-Kurdi tez-tez onun mülkünə gedərdi. Belə görüşlərin birində ibn Bəis onları möhkəm sərxoş etdikdən sonra İsma el-Kurdini xəyanət yolu ilə otir götüıtib xəlifənin sarayına göndərdi, onunla gələn əsgərləri isə öldürtdurdü. Ağır işgəncələr verilən İsma əl-Kurdi xürrəmilərin bütün hərbi sirlərini və Ddbcklrjf) planlarını xəlifəyə bildirdi. Bu xürrəmilərə vurulan ağır zərbə idi.

Üsyanın məğlubiyyəti və Bəzz qalasının süqutu. Afşin müharibənin gedişində ciddi hərbi əməliyyatlara so’y göstərməsə də, casus əməliyyatını genişləndirməyə xüsusi əhəmiyyət verirdi. O, üsyançıların hərbi potensialı, imkanı və planı haqqında əvvəlcədən lazımi mə’lumatı topladıqdan sonra hərəkət edirdi. Afşin həlledici döyüşə başlamazdan əvvəl Babəkin məşhur sərkərdələrini aradan götürməyi qət etdi.

836-cı ilin qışında üsyançılara yeni və ağır itki üz verdi. Onlar ərəb ordularını lərzəyə salan sərkərdələri Tərxanı itirdilər. Afşinin

göndərdiyi casus Terxanın evində qonaq oldu, hörmətlə qarşılandı. Gecə yuxuda ikən Tərxanın başını kəsib qaçdı. Bu hadisə xürrəmi- lərin sonrakı taleyinə ağır təsir göstərdi.

Müharibə uzandıqca qüvvələr nisbətindəki fərq ərəblərin xeyrinə dəyişirdi. Düşmən ordusu yeni qüvvələr hesabına gücləndiyi halda üsyançıların sırası seyrəlirdi. Azadlıq müharibəsinin ilk dövründə, üsyanın sur’ətlə genişləndiyi şəraitdə mübarizəyə qoşulan, onları silahla, əı*zaqla, pulla təmin edən yerli feodallar hərəkatın müəyyən məqamında öz təbiətlərinə xas olan xəyanətə başladılar. Mülk və imtiyazlarını itirəcəklərini güman edərək mübarizədən uzaqlaşdılar. Bu xalqa edilən xəyanət idi.

Bununla belə, hələ Babəkilər xilafət ordulanna rahatlıq vermirdilər. Təcrübəli sərkərdə olan Babək ağıllı, taktiki hərbi manevrləri ilə düşmənin planlarını pozur və onlan çıxılmaz vəziyyətə salırdı. Afşinin köməyinə göndərilmiş adlı-sanlı sərkərdə Buğa əl-Kəbirlə 836-cı ildə Həştadsər dağı yaxınlığındakı döyüşdə xürrəmilər onun ordusunu əzdi, bir neçə sərkərdəsini məhv etdi. Buğanın özü döyüş meydanından qaçmaqla labüd ölümdən xilas ola bildi. Qələbə sayəsində üsyançılar xeyli miqdarda silah, ərzaq və pul ələ keçirdilər.

Son iki ildə Afşinin xürrəmilərə qarşı qətiyyətsiz və soyuqqanlı münasibəti ciddi mübahisələrə, şübhələı*ə səbəb oldu. Bunun əsas səbəbini mənbələrin bir qismi mərkəzdən xəlifənin Afşinə göndərdiyi ziddiyyətli göstərişlə izah edirsə, digər qismi haqlı olaraq Afşin, Təbəristan hakimi Məzyər və Babək arasında Xilafət hakimiyyətini devirmək haqqında o zaman gizli danışığın aparılması ilə bağlayır. Babəknn e’damından sonra qəsdin üstü açılmışdı.

837-ci ildə xəlifə Afşinin köməyinə iki ordu və 30 milyon dirhəm pul göndərdi. İfşa olunacağından ehtiyat edən və gizli danışıqlarda Babəklə ümumi dil tapa bilməyən Afşin həlledici döyüşə hazırlaşmağa başladı. Hazırlıq işləri başa çatdıqdan sonra 837-ci ilin avqustunda ərəb qoşunu Bəzz qalasına yaxınlaşdı və onu mühasirəyə aldı. Döyüşün reallaşdığı belə bir şəraitdə Afşin Babəkə sülh danışığına başlamağı təklif etdi. Onu inandırmağa çalışdı ki, bağışlanması haqqında xəlifədən fərman alacaq. Afşinin fikrincə, belə sülhə nail olunsa, xəlifə Babək kimi nüfuzlu, yenilməz sərkərdəni öz tərəfinə çəkər və onun qüvvəsindən Bizans imperiyasına qarşı müharibədə istifadə etmiş olardı. Lakin ərəb sərkərdəsinin bütün cəhdlərinə baxmayaraq, Babək əqidəsindən dönüb onunla razılaşmadı. O, vətənin istiqlaliy-

yətini şəxsi xoşbəxtliyinə qurban vermədi. Xəlifənin təklif etdiyi böyük vəzifəni, imtiyazları və hədiyyələri xalqına xəyanət kimi qiy-rruatləndirdi.

Belə olduqda həlledici döyüşün labüdlüyünə şübhə qalmadı. İllərlə davam edən və qüvvələr tükodən müharibənin son anı yetişdi. Döyüş daha yaxşı silahlanmış və təchiz olunmuş-düşmən üçün əlverişli vaxtda, 837-ci ii avqustun 26-da başlandı.

Mənbələrdə qeyd edildiyi kimi, Babəkin təhriki ile onun müttəfiqi Bizans imperatoru Feofil 100 minlik qoşunla arxadan ərəblərə hucum etdi. Lakin onun cəhdi qala müdafiəçilərinin taleyinə tə'sir göstərə bilmədi. Ərəblər qalaya hər tərəfdən həmlə edirdilər. Sərkərdələrdən Əbu Səidin, Cəfərin, Əhməd ibn Xalidin və başqalarının rahbərlik etdiyi ox atanlar, baltaçılar və yanğın alayının əsgərləri xüsusilə fəal idilər. Qala divarlarını dağıtmaq üçün daş atan mancanaqlardan və neftdə isladılmış oxlardan da bacarıqla istifadə edirdilər. Afşin özü Babəkin sarayına baxan təpənin üstündə qurdurduğu çadırda döyüşün gedişini seyr edirdi. Qalanın müdafiəçilərinə Babəkin e'tibarlı və cəsur sərkərdəsi Adin başçılıq edirdi. Bütün günü davam edən qanlı döyüşdə düşmən əsgərlərindən dəfələrlə az olmalanna baxmayaraq, xüiTəmilər misilsiz rəşadət göstərdilər. Onlann qeyri-adi mətanəti və igidliyi ərəbləri heyrətə gətirirdi. Vətənin cəngavər oğulları müqəddəs torpağımız uğrunda şəhid olmağı şərəf sayırdılar. Bəzz döyüşü orta əsr müharibələri tarixində on çox insan qırğınına səbəb olan döyuşlərdəndi. Bu döyüşdə yaralananlardan və itkin düşənlərdən əlavə, əı-əblerdən 100 min nəfər, üsyançılardan 80 min nəfər həlak olmuşdu.

Ərəblər şəhərə çətinliklə soxula bildilər. Afşinin göstərişi ilə şeheri üç gün yandırdılar və daşını daş üstdə qoymadılar. Təbərinin yazdığına görə, şəhərdə «bircə ev, bircə qala salamat qalmadı». Düşmən qalanın müdafiəçilərindən 7600 nəfəri əsir götürdü. Onlann içərisində Babəkin ailə üzvləri və yaxın qohumlan, o cümlədən on yeddi oğlu, 23 arvadı, qızı və gəlini vardı.

Babəkin son günləri. Bəzzin süqutundan və ailə üzvlərini itirdikdən sonra Babək qardaşı Abdulla ilə birlikdə Arazdan keçib Arrana gəldi. Məqsədi Bizans imperatorunun yanına getmək, yeni qüvvə toplayıb ərəblərə qarşı müharibəni davam etdirmək idi.

Bəzz döyüşündən sonra Afşinin bütün cəhdlərinə baxmayaraq (Babəkin bağışlanması haqqında o, xəlifədən məktub almışdı), Babək

könüllü təslim olmadı. Belə olduqda oou tutub təqdim edən adama xəlifənin böyük məbləğdə mükafatı e’lan edildi. Taleyin hökmündən qaçmaq ona nəsib olmadı. O, Darvazatepe dağının üstündə Şəki qalasında tanışlarından Səhl ibn Sumbatla rastlaşdı. Hadisələrdən xəbəri olan Sumbat Babəki aldadıb öz mülkünə apardı və xəyanət yolu ilə ərəblərə təhvil verdi. Təbəri bu epizodu təsvir edərək yazır: «Səhl ibn Sumbat ilə birlikdə oğlu Müaviyə də gəlmişdi. Afşin Müaviyəyə yüz min dirhəm, Səhlə isə bir milyon dirhəm pul, bir cəvahirli kəmər və bir də patrik tacı verilməsini əmr etdi».

Babəki Afşinin düşərgəsi yerləşən Bərzəndə apardılar. Qardaşı Abdullanı da ələ keçirdilər. Ərəb sərkərdəsi qardaşlann əsir alınmasını rabitə göyərçini vasitəsilə xəlifəyə xəbər verdi. 837-ci il sentyabrın 15-də Afşin Babəki və qardaşını özu ilə birlikdə götürüb Bərzənd- dən Samirəyə yola düşdü. Yola düşməzdən əvvəl Babək Afşinin icazəsi və müşayiəti ilə sonuncu dəfə Bəzz qalası ilə vidalaşdı. Bu onun vətən torpağı ilə son vidası idi. Onlar 838-ci il yanvann 4-də Samirəyə yetişdilər. 838-ci il martın 14-də xəlifə MöTəsimin hökmü ilə Babək e’dam edildi. Qardaşı Abdullanı da həmin işgəncə ilə Bağdad şəhərində öldürdülər. E’dam zamanı Babəkin gösterdiyi mə’nevi dözüm təkcə həmin hadisənin şahidlərini deyil, eşidənləri da heyrətləndirmişdi. Ət-Tənuhiyə yazırdı: «Babək el-Xürremini Mö’təsimin yanına gətirəndə onun qardaşı (tərəfdarı) əl-Məzyər ona dedi: «Ey Babək! Sən heç kəsin görə bilmədiyi bir işi görmüsən. İndi də heç kəsin dözə bilmədiyinə dözməlisən!» Babək ona belə dedi: «Sen mənim dözümümü görərsən». Xəlifə cəllada əmr etdi ki, onun gözləri qarşısında Babəkin əllərini və ayaqlarını kəssin. Cəllad əvvəlcə Babəkin biləkdən sağ əlini kəsdi. Qan axanda Babək sol əli ilə bütün üzünü qana boyadı... Xəlifə ondan nə üçün belə etdiyinin səbəbini soruşduqda, Babək xəlifəyə bildirdi: «Sən əmr etdin məni şaqqalasın- lar, mənim e'damım üçün sən vicdanınla cavab verəcəksən. Lakin buna şübhə ola bilməz ki, məndən axan qanı dayandırmağa senin hökmün çatmaz və nə qədər ki, başım kəsilməmişdir, bu qan axacaqdır. Men qorxuram ki, bütün qanım axıb qurtarsın və üzümün rəngi qaçsın. Adamlar da belə başa düşərlər ki, mən elə əvvəldən ölümdən qorxmuşam. Mən üzümü qana boyadım ki, bənizim solmuş görünməsin». Xəlitə cəllada əmr etdi ki, e’damı davam etdirsin. Cəllad Babəkin ellərini, ayaqlarını kəsdikdən sonra başını kəsdi. Xəlifə əhalini qoi'xutmaq məqsədilə Babəkin başını Xorasana göndərdi, bədənini isə Samirədə hündür bir ağacdan asdırdı».

işgəncənin dəhşətinə baxmayaraq, qardaşlar ölümə əzmlə sinə gərdilər, mərdliklə əbədiyyətə qovuşdular. Bu Ölməzlik əsrlər boyu sonrakı nəsillərə qəhrəmanlıq məktəbi oldu. Babəkin adı Azərbaycan xalqının istiqlaliyyəti uğrunda mübarizə rəmzinə çevrildi.

Xürrəmilər hərəkatının əhəmiyyəti. Orta əsrlərdə baş verən digər kəndli müharibələri kimi xürrəmilər hərəkatı da məğlubiyyətə uğradı. Ancaq bu hərəkat həmin müharibələrdən əsaslı şəkildə fərqlənirdi. Bu hər şeydən əvvəl, istiqlaliyyət uğrunda azadlıq müharibəsi idi. Babəkin başçılıq etdiyi azadlıq müharibəsi böyük potensial imkana malik, islamı özünə ideoloji bayraq etmiş güclü imperiyanın pəncəsindən xilas olmaq uğrunda aparılırdı. Tərəflərin imkanları nisbətin- dəki fəi'qə baxmayaraq, xilafət Azerbaycan xalqının mübarizə əzmini söndürə bilmirdi.

Mübarizədə xalqın imtiyazlı təbəqəsinin dönüklüyü, ərəblərə nisbətən daha cəsur və döyüşkən türk sərkərdələrin eyni və diger mənşəli üsyançılara qarşı səfərbərliyə alınması, ən başlıcası, erməni naxar-larının xəyanəti və ərəblərə köməklik etməsi azadlıq müharibəsinin məğlubiyyətinə səbəb oldu. Xilafətin hakim daiı*ələrinin və mənbələrin Babəkilər üzərində qələbəni ifrat dərəcədə yüksək qiymətlən- diıməleri xün^milər hərəkatının əzəmətini sübut edir. İllərlə davam edən müharibə dövründə Babəkilər xilafətə saysız-hesabsız maddi və mə’nəvi zərər yetirdilər. Müharibədə xilafətin yarım milyondan artıq döyüşçüsü öldürülmüş, onlarca görkəmli sərkərdəsi əsir götürülmüşdü. Uğursuzluqla nəticələnməsinə baxmayaraq, xürrəmilər hərəkatı, sözün əsl mə*nasmda, xilafəti lərzəyə saldı və kökündən sarsıtdı. Bu hərəkat digər asılı xalqların azadlıq mübarizəsinə təkan vemıəklə yanaşı, Azərbaycanda xalqın şüumnda və əməlində əsrlərlə yaşadı. Üsyançılara və onların rəhbəri Babəkə nifrət hissi bəsləmələrinə baxmayaraq, hərəkatın tə’sirini və əzəmətini ərəb tarixçilərinin özləri də e'tiraf etmişlər. İbn Təğriberdi deyir ki, «Babək öz zəmanəsinin qəhrəmanı və xilafəti dəhşətə gətirən bir igid idi». Müqəddəs yazır ki, «Babəkin üzərində çalınan qələbə islam dövlətinin ən böyük qələbəsi idi. Onun əsir alındığı gün musəlmaniann bayram günü idi».

Nizam ül-Mülkün «Siyasətnamə» əsərində deyilir: «Mö’təsimin üç qələbəsi olmuşdu, hamısı da islamın şöhrəti idi: birincisi, Rum üzərində qələbə, ikincisi Babək üzərində qələbə, üçüncüsü təbəris- tanlı Məzyər üzərində qələbə. Bu üç qələbədən biri baş tutmasaydı, islam məhv olardı». «Siyasətnamə» əsərinin müəllifinin dediyinə onu

<»lave etmək vacibdir ki, islam məhv olmasa da, xilafət əsaslı şəkildə laxladı. O əvvəlki mövqeyini bir daha bətpa edə bilmədi. IX əsrin ikinci yansmdan e’tibarən xilafətdən asılı olan ölkələrdə, o cümlədən Azərbaycanda bir sıra müstəqil xırda feodal dövlətlər meydana gəldi.

Yuxarıda qeyd edildiyi kimi, xürrəmilerin verdiyi təkan nəticəsində bir sıra xalqların ərəb hökmranlığına qarşı mübarizəsi dayanmaq bilmədi. 838-840-cı illərdə Təbəristanda Məzyər Kəbirin başçılığı ilə xilafət əsaıətinə qai'şı güclü azadlıq hərəkatı başlandı. Onlar da Babəkilərin şüarları ilə çıxış edərək külli miqdarda ərəb ə’yanını məhv etdilər. Ancaq bu çıxış da məğlubiyyətə uğradı. Məzyərə ağır işgəncələr verildi. Xəlifənin hökmü ilə ona 450 qırmanc vurmaqla öldürdülər. Xilafətin işgəncələri dəhşətli olsa da, xalqın mübarizə əzmini və ərəb hakimlərinə qarşı nifrət hissini söndürə bilmirdi.

Xəlifənin sərkərdəsi Buğanın qoşunu Azerbaycanda Əbu Musanın başçılıq etdiyi üsyançıların öhdəsindən uzun müddət gelə bilmədi. Ərəblər üsyançıların Qarabağda sığındığı Ktiç qalasına 28 dəfə uğursuz hücum etmişdilər. Axırda islam ordusunun başçısı xəyanətə əl atdı. Müqəddəs andını pozaraq Əbu Musanı aldadıb Samirəyə apardı və onu orada e’dam etdirdi.

Lakin bütün bu cəza və tə’qiblər Azərbaycan xalqının azadlığa olan inamını itirə bilməzdi. Bu,indi də xalqımızın müqəddəs amalıdır.

## § 5. vn ƏSRİN İKİNCİ YARISI VƏ IX ƏSRDƏ TƏSƏRRÜFAT

Bütün işğalçı dövlətlər kimi Xilafət de Azərbaycanda təsərrüfatın, sənətkarlığın, ticarətin, şəhərlərin ve ümumiyyətlə, məhsuldar qüvvələrin ahəngdar inkişafını xeyli ləngitdi, ancaq onun qarşısını ala bilmədi. Tədricən ərəb xilafətinə tabe edilmiş digər regionların (məsələn, Ön və Orta Asiya, Yaxın Şərq və sairə) xalqları ile Azərbaycan arasında iqtisadi ve mədəni sahədə qarşılıqlı tə*sir gücləndi. Tarixin sübut etdiyi belə bir qanunauyğunluq vardır ki, iqtisadi və mədəni cəhətdən istila etdiyi ölkələrin xalqlarından aşağı inkişaf səviyyəsində olan istilaçı dövlət mütləq onların tə’siri altına düşür. Bu eyni ilə ərəblərə de aid idi. Bir imperiyaya tabe edilmiş xalqların mənafelərinin ümumi cəhətləri onları məsnəvi cəhətdən birləşdirir, bir-birinə

yaxmiaşdmr. Onlann arasında labüdən emekdaşhq yaranır. Qarşılıqlı tə'sirin və əlaqənin verdiyi təkan nəticəsində həmin ölkələrdə təsərrüfat canlanır, məhsuldar qüvvələrin inkişaf harmoniyası nizama düşür. Bu cəhətdən Azərbaycan həmin tə*sirdən kənarda dayanmırdı. Ərəb istilası Azərbaycanın bütövlükdə Xilafətə daxil olmasına şərait yaratdı.

Ticarət. Abbasilər dövləti Asiya, Avropa və Afiikamn bir sıra dövlətləri ilə geniş ticarət edirdi. Azərbaycan tacirləri nəinki Xilafətin hakimiyyəti altında, hatta onlann te’sirindən kənarda olan ölkələrin bazarlarına da çıxırdılar. Dünya ticarətində Bizans və Ərməniyənin rəhbər rolu əhəmiyyətini itirdikdən sonra daxili və dünya ticarət yol* larinin qovşağında yerləşən Dərbənd, Beyləqan, Bərdə, Ərdəbil, Təbriz, Marağa, Naxçıvan, Kulsurə və sair Azerbaycan şəhərlərinin əhəmiyyəti daha da artdı.

Bu şəhərlər xilafətin digər ölkələrlə ticarətində fəal iştirak edir> dilər. Bərdə, Ərqəbil, Kulsurə bazarlan əsas ticarət meirkəzlərindən hesab edilməklə, bütün Şərqin və Qərbin diqqətini cəlb edirdi. ölkƏ' nin və dünyanın müxtəlif guşələrindən buraya gələn tacirlər gətirdik* ləri mallan asanlıqla satır və özlərinə lazım olan yerli mallar alırdılar. Bərdədəki «Kurkiy» deyilən bazar zəngin Kulsurə bazan ilə rəqabətə girmişdi. Çoxsaylı tacirləri Azerbaycana cəlb edən təkcə malların bolluğu, gözəlliyi, alverin rəvan getməsi deyil, ən başlıcası ucuzluq idi. Müqəddəsi yazırdı: «Burada yeyinti və ticarət mallarının qiyməti çox ucuzdur və hətta havayıdır. Bu şəhərlərdə satış qiymətləri o qədər ucuzdur ki, bir sıra yerdə qoyunun qiyməti 2 dirhəmədəkdir. Balın qiyməti bir dirhəmdir. Bir dirhəmə 50 lavaş almaq olur. Ət, bal, erin- miş yağ, yarma, qoz-fındıq, kişmiş çox ucuzdur. Ona görə də hər yerdən buraya tacirlər gəlir».

Azerbaycan şəhərləri ən’ənəvi əmtəə malları ile bir-birindən fərqlənirdi. Məsələn, yerli və dünya bazarlanna Bərdədən ipək, yaxşı pərdələr, qatırlar, müxtəlif parçalardan tikilmiş paltarlar, Dərbənddən kətan parça, zə'feran, qırmız deyilən qiymətli boyaq maddəsi (marena), Beyləqandan ə*la şirniyyat, şirəli və şirəsiz saxsı qablar, Dəbildən yun paltar, xalça, balış, örtük, qaytan; Bakıdan neft, zə'fə- ran; digər şəhərlərdən qızıldan, gümüşdən, misdən hazırlanmış qablar, tabaq, tas və dolçalar, əhəngdən və qızıldan düzəldilmiş satıl- lar, konusvari nəfis şüşə qablar, büllurlar, cavahirat, zərgərlərin düzəltdiyi nəfis ziynet şeyləri, tezə və qurudulmuş ləziz meyvələr,

çaylardan və şirinsulu göllərdən tutulub qurudulmuş tirrix, surmahi, kəsbuviya v-ə başqa adda balıqlar ixrac edilirdi. Azərbaycan sənətkar-lannın məharətlə hazırladıqlan yüzdən artıq adda sənət mə’mulatma yerli və xarici bazarlarda ehtiyac vardı.

Azərbaycan şəhərləri xilafətlə Şimal-Şərqi Avropa və Asiya ölkələri arasındakı ticarətdə vasitəçilik edirdilər. Azarbaycan zərbxanalarında kəsilən sikkələrdən Rusiya, Almaniya, Skandinaviya və Pribaltika ölkələri ilə, habelə Şərq ölkələri ilə ticarətdə istifadə olunurdu. Xəzər sahilindəki Dərbənd, Bakı, Abaskun, Astrabad və başqa limanlar xilatetin Şimal və Şərq ölkələri ilə ticarətində başlıca mədcəzlər idilər. Dərbənd bazarı şimaldan Xəzərlə mal gətirən əcnəbi və yerli tacirlərin yığnaq yeri idi. Volqa boyundan gələn tacirlər samur, delə, tülkü xəzi, ox, yapışqan, qılınc, zirehli geyim, mis, mum və başqa mallar gətirirdilər. Yerli və dünya bazarlanndakı ticarətdən Azərbaycan tacirləri xeyli mənfəət əldə edir va onun bir hissəsini dövlətin xəzinəsinə verirdilər.

Şəhərlər. Daxili və xarici ticarətin, sənətkarlığın inkişafı Azərbaycanda şəhər həyatma müsbət tə'sir göstərdi. Dünyanın siyasi həyatında baş verən dəyişikliklər də az rol oynamadı. Güclü ərəb istilası dövlətiərarası iqtisadi və siyasi münasibətlərdə ciddi dəyişikliklər əmələ gətirdi. Dünya ticarət yollarının bir hissəsi öz istiqamətini dəyişdi. Bu dəyişikliklər öz tə'sirini Azərbaycan şeherlərinin timsalında daha qabarıq şəkildə büruze verdi. Ərəblər bizanshlann Qara dənizdən keçən əsas ticarət yollarının istiqamətini dəyişərək, onu şərqə- Xəzər tərəfə keçirdiklərindən Azeıbaycan şəhərlərinin fəaliyyəti xeyli canlandı. Bərdə ərəblərin Ön Qafqazdakı bütün ticarət yollarının kəsişdiyi yer, şimalla tranzit ticarətinin mərkəzi idi. Ərəb tarixçiləri «əkin və meyvələri bol, ağac və sulan çox, havası sağlam» Bərdə şəhəri haqqında maraqlı məMumatlar vermişlər. Bu cəhətdən İbn Havqəlin mə’lumatı daha maraqlıdır: «Bərdə Arranın anası (paytaxtı) və bu yerlərin en yaxşısıdır. Şəhər çox böyükdür. Onun bir fərsex uzunu, bir qədər az eni vardı... Rey və İsfahandan sonra, İraqla Təbə- ristan arasında Bərdətək böyük və məhsuldar, tutduğu mövqe və xəzinəyə verdiyi gəlirə görə yaxşı yer yoxdur... İrana və Xuzistana buradan ipək göndərilir. Bərdə qapılanndan biri «Kürd qapısı» adlanır. Kürkiy bazan onun yanındadır. Böyüklüyü bir fərsəxdir. Hər bazar günü müxtəlif ölkələrdən buraya adamlar toplaşır, böyüklüyünə görə az qala «Kursum» bazarına çatır».

Müqəddəsi isə Təbriz şəhəri haqqında yazır: «O, saf qızıldır, əzəmətli * kimyadır, alınmaz şəhərdir. Bağdaddan daha üstündür. Şəhərin ortasından çay axır... qiymətlərin ■ ucuzluğu haqqında heç soruşma. Meyvəsi boldur. Təbrizin gözəlliyinin həddi-hüdudu yoxdur». Müəlliflər «Zərdüştün vətəni, iqlimi gözəl, torpağı münbit və bərəkətli» Urmiya, Marağa, Ərdəbil, Səlmas, Merənd, Miyanə, Bərzənd, Muğan, Beyləqan, Naxçıvan, Varsan, Dərbənd, Şabran, Şəki, Qəbələ, Bakı, Şamaxı, Gəncə, Şəmkir və başqa şəhərlərin gözəl iqlimindən, zəngin sərvətindən, əhalisinin məşğuliyyətindən, bazarlardan və orada gedən ticarətdən ətraflı məMumat verirlər. Bu şəhərlərin bir çoxu siyasi-inzibati mərkəz olmaqla yanaşı, ticarət və sənətkarlıq mərkəzi kimi də məşhur idi. Şəhərlərdə yüzlərlə sənət sahəsi: dulusçuluq, dərzilik, dəmirçilik, misgərlik, zərgərlik, sərraclıq, çəkməçilik, toxuculuq, xarratlıq, bənnalıq və başqalan geniş inkişaf etməkdə idi. Sənətkarlıq, ticarət və mədəniyyət mərkəzi kimi Gəncənin şöhrəti yüksəlməkdə idi.

# V I I I  f ə s i l

# AZƏRBAYCANDA MÜSTƏQİL FEODAL DÖVLƏTLƏRİNİN YARANMASI

## |§1; AZƏRBAYCANDA YENİ MÜSTƏQİL FEODAL DÖVLƏTLƏRİ

Azərbaycanin xilafət hakimiyyətindən azad olması. IX əsrdə xilafətə tabe olan ölkələrdə azadlıq müharibələrinin genişlənməsi, feödalläşma prosesinin inkişaıfı mərkəzi hakimiyyətə tabe olmaq istəməyən qüvvələrin artmasına və daxili çəkişmələrin qüvvətlənməsinə səbəb olduğundan Xilafət getdikcə zəiflədi.

Abbasilər imperiyasının dağılması gedişində Azərbaycanda bir sıra müstəqil feodal dövlətləri meydana gəldi. Belə bir şəraitdə xilafətin işğal etdiyi ölkələrdə yerli hökmdarlıqlar əmələ gəldi və onlar xilafət hakimiyyətinə tabe olmaqdan boyun qaçırdılar. IX əsrdə Azərbaycan, Orta Asiya, İran, Suriya və s. ölkələrdə yerli feodal dövlətlər yaranmışdı. Hələ xilafətin tərəqqisi dövründə Azərbaycanda, xüsusilə Arranda ərəblərdən asılı olan Sünik, Varsan, Beyləqan, Qəbələ, Şəki və s. kimi knyazlıqlar vardı. Lakin göründüyü kimi, onlar müstəqil deyildilər.

Babək üsyanı yatırıldıqdan sonra, IX-Xl əsrlərdə Azərbaycanda yaranmaqda olan feodal dövlətləri ərəblərin hakimiyyətindən imtina edir və özlərinin istiqlaliyyətinə nail olurdular. Belə dövlətlər sayca çox idilər. Onlardan daha nüfuzlulan Şirvanşahlar, Şəddadilər, Saci- lər, Salarilər və Rəvvadiler idi. Sonuncu üç dövlət müxtəlif dövrlərdə müvafiq olaraq bir-birini əvəz etmişdi.

Şirvamşahlar. Bu dövlətin yaradıcısı Zeysem ibn Xalid Şirvanın birinci rəsmi məliki Yezid ibn Məzyədin nəvələrindən idi. Ona görə də sülalə Mezyədilər (861-108) adlanırdı. Yəzid ibn Məzyəd ərəb mənşəli Şeybani qəbiləsinə mənsub idi. O, xilafətdə bir sıra hərbi- inzibati vəzifələri icra etmiş, Ərməniyə və Azərbaycanda xəlifənin valisi olmuşdu. O, vəzifəsindən istifadə edərək Şirvanda və Bərdədə

əlinə böyük torpaq sahələri və mülklər keçirsə de, Şir\'an ərəblərin asılılığında qalmaqda idi. Yəzid ibn Mezyed Berdədə vəfaq etmişdi.

IX əsrin 60-cı illərində xilafətdə başlanan yeni iğtişaşlardan istifadə edən Heysem ibn Xalid özünü Şirvanın müstəqil hakimi (şahı) e'lan etdi və mərkəzi hökumətlə əlaqəni kəsdi. Beləliklə, Şirvanın istiqlaliyyəti bətpa edildi.

Orta əsr mənbələri Azərbaycanın dilbər guşələrindən olan Şirvan əyalətinin gözəl iqlimi, zəngin sərvəti, əlverişli coğrafi-strateji mövqeyi haqqında maraqlı me’lumatlar verit. Onun ərazisi qədimdən əkinçilik və maldarlıq üçün əlverişli idi. Şünal ölkələrinə gedən karvan ticarət yolunun üzərində yerləşdiyindən Şimal ölkələri ilə Cənub ölkələri arasında vasitə təşkil edirdi. Bu erazi hərbi-strateji cəhətdən də əhəmiyyətli idi. Şirvan torpağı ölüm və dəhşət gətiran yadelli istilaçıların hücumlarına nisbətən az mə’ruz qalırdı. Təbii ki, bu qonşu əyalətlərlə müqayisədə Şirvanda təsərrüfatın canlanmasına və məhsuldar qüvvələrin inkişafına daha yaxşı tə’sir göstərirdi. Bu mə’nada A.Bakıxanovun yazdığı kimi, «xoş havası, yaylaqları, otlaqları, şirin bulaqları və hər iki tərəfə axan çoxlu çaylan... dəniz və Kür çayı sahilindəki geniş yə məhsuldar çöllərdə bol taxıl zəmiləri, meşələri, bağları olan Şirvan» Azərbaycanın digər əyalətlərindən fərqlənirdi.

Mənbələrin məTumatından aşkar olur ki, Məzyediler sülaləsinin hakimiyyətinin ilk dövründə Şirvanşahların sərhədləri cənubda Kür çayı, şimalda Dərbənd və Samur çayı, qərbdə Göyçay və Şəki, şərqdə Xəzər dənizi ilə əhatə edilirdi. Lakin tədricən onun ərazisi genişlənirdi. Bir mənbədə onun cənub sərhədinin bə’zən Araz çayına qədər uzandığı qeyd edilir. Məzyedilərin uğurlu siyasəti nəticəsində müxtəlif dövrlərdə Şəki, Beyləqan və Berdə Şirvanşahların tabeçiliyinə keçmişdi. Lakin dövlətin sərhədləri sabit deyildi. Müxtəlif dövrlərdə baş vermiş siyasi hadisələrlə əlaqədar olaraq dəyişirdi. Dövlətin paytaxtı əvvəlcə Şirvan, X əsrin birinci rübündən e’tibarən Yəzidiyyə (Şamaxı) şəhəri olmuşdu. Ölkədə şah ailəsinə məxsus saraylann, xəzinənin, ordunun və həbsxanaların yerləşdiyi bir sıra mö’təbər şəhər-qalalar vardı.

Məzyədi sülaləsinin uğurlu siyasətinə baxmayaraq, bə’zən özləri də asılı vəziyyətə düşürdülər. IX əsrin axırlarında Məzyədi lər öz vassalları ilə birlikdə əvvəlcə Sacilər, sonra isə Salarilər dövlətinə tabe idilər. Daxili idare işini öz əllərində saxlamaqla Məzyədilər onlara xərac verirdilər.

Orta əsr mənbələri X əsrin əvvəllərində rusların^ Azerbaycana istilaçı hücumlan haqqında mə'lumat verirlər. XI əsrin 30-40-cı illərində Xezərsahili əyalətlərə, xüsusilə Derbendə, Bakıya, Şirvana, Beyləqana ınslarm hücumları genişləndi. Düşmənə qarşı mübarizədə on minlərlə adam həlak oldu, əhali qarət edildi. Vəziyyəti mürəkkəbləşdirən səbəblərdən biri də şimaldakı köçəri taytalann (xüsusilə alanların) basqmIan idi. Ölkədə əmin-amanlığın pozulması təsərrü- falm inkişafını da ləngidirdi.

XI əsrin 60-70-ci illərində Feriburzun hakimiyyəti dövründə Şiwanda siyasi vəziyyət daha da ağırlaşdı. Şeddadilər hakimi Şavurım Şirvana hücumları başlandı. Döyüşlərdə minlərlə adam həlak oldu. Şavur Şirvanda bir sıra qalaları elə keçirdi və 40 min dinar xərac alıb geri qayıtdı.

Ön Qafqazda hakimiyyəti elə keçirən səlcuq türklərinin Şirvanda da tə'siri gücləndi. Sultan Məlikşahın dövmndə Dərbənd iqia şəklində İraq hakiminə bağışlandı. Şirvanşah Mezyədileri daxili istiqlaliyyətlərini saxlamaq şartilə səlcuqlann vassalına çevrildi və hər il sultanın xəzinəsinə 40 min dinar xərac verməli oldu. Vassal halına salındıqdan sonra Şirvanşah titulu ləğv edildi. Onun hakimləri məlik adlandılar.

Şirvanşahların hakimiyyəti mütləq hesab olunurdu. Şahın hakimiyyəti varislərə irsən keçirdi. Bir qayda olaraq əyalətləri şahzadələr idara edirdilər. İnzibati va maliyyə işlərinə vəzir baxırdı. Şirvanşahlar vəzirin məsləhəti ile hərəkət edirdilər. Şahlıq kimi vəzirlik vəzifəsi də çox vaxt atadan oğula irsən keçirdi. Saraydakı mühüm vəzitələrdən biri də haciblik idi. Onlar saraydakı işləri tənzim edirdilər.

Bir sıra ölkələrdə olduğu kimi, Məzyedilerin da iki növ qoşunu vardı. Əsas qoşun şahın xüsusi qvardiyasından ibarət idi. Bundan əlavə iri feodalların və vilayət hakimlərinin xüsusi qoşun dəstələri olurdu. Hər iki növdən olan qoşunun əsas hissəsini süvarilər təşkil edirdi. Süvariləri atla tə'min etmək üçün şahın ilxısında 40 min at saxlanılırdı. Ordu yerli sənətkarların hazırladığı silahlarla te'min edilirdi. Qoşun yalnız müharibə zamanı Şirvanşahın göstərişi ilə bir yerə toplanırdı. Döyüşlərdə orduya ümumi komandanlığı ya şahın özü, ya da vəliəhdi edirdi.

< Bu rusların Kiyev R.us dövləti ilə əlaqasi yox idi. Bu ad altında digər etnoslar, əsasən bulqarlar çıxış edirdilər.

Təsərrüfatın natural xüsusiyyəti və feodal-pərakəndəliyi, Dərbəndin Şirvandan ayrılması nəticəsində ticarət əlaqələrinin kəsilməsi, sənətkarlığın və məhsuldar qüvvələrin inkişafını ləngidən əngəllərin çoxalması ruslann və köçəri tayfaların hücumları qonşu feodal dövlətləri ilə ara müharibələri sülalə üzvləri arasında hakimiyyət üstündə mübarizənin güclənməsi, əhali arasında feodal zülmünə qarşı ixtişaş-lann artması və digər səbəblər nəticəsində XI əsrin 70-80-ci illərində Məzyədilər dövləti tənəzzül etdi. Səlcuq türkləri bu prosesi sür’ətləndirdilər.

Sacilər dövləti. IX əsrdə xilafətə qarşı mübarizə şəraitində Azərbaycanda meydana gələn feodal dövlətlərdən biri də paytaxtı Ərdəbil **şəhəri** olan Sacilər dövləti **C889-942-Cİ** illər) idi. Yeni sülalənin banisi hesab edilən Əbu Sac Divdad «adlı-sanlı türk sərkərdələrindən» olmaqla xilafət ordularının döyüşlərində dəfələrlə sınaqdam çıxmış, Səhl ibn Sumbatın xəyanəti nəticəsində Babəkin tutulub Bərzəndə. Aişinin düşərgəsinə aparılmasında iştirak etmişdi.

Sacilər mənşəcə türk idilar. Əbu Sac Divdad və onun varisləri Məhəmməd və Yusif müxtəlif vaxtlarda xilafətin əyalət hakimləri olmuş Abbasilər hakimiyyətinə qaı*şı baş vermiş üsyanların yatırılmasında fəal iştirak etmişdilər.

Sacilərin banisinin Əbu Sac Divdad hesib edilməsinə baxmayaraq, dövlət onun ölümündən xeyli sonra oğlanlan Məhəmmədin və Yusi- tin dövründə yaranmışdı. Xidmətləri ilə xəlifənin rəğbətini qazandığına görə 889-cu ildə Məhəmməd Azərbaycanın hakimi tə’yin olundu. Təbərinin yazdığına görə, o, «Azərbaycana gəldikdən dərhal sonra özünü müstəqil e’lan edib, xilafətə tabe olmaqdan boyun qaçırtdı». Lakin mənbələrdə qeyd edilir ki, Məhəmməd xəlifə ilə əlaqəsini tamamilə kəsə bilmir və tez-tez sazişə girməli olurdu.

Məhəmməd ona qarşı itaəlsizlik göstərən Marağa hakimini susdurdu və şəhəri ələ keçirtdi. 893-cü ildən başlayaraq o, bir neçə dəfə Ərməniyəyə uğurlu yürüşlər təşkil etdi, Naxçıvandan keçərək Dvin hasarlanna qədər çatdı və erməni hakimi I Sumbatın ailə üzvlərini və yaxın qohumlarını əsir götürdü, onun özünü güzəştə getməyə məcbur etdi. Qələbədən sonra Məhəmməd öz oğlu Divdadı Ərməniyəyə hakim tə’yin edib, özü Gürcüstana gedərək, Tiflisi və digər şəhərləri soyub-taladı. Bu qələbələr Məhəmmədin şöhı*ətini yüksəltdi. Qonşu dövlətlərin hakimləri ondan çəkinməyə başladılar.

İbn el-Əsir yazır ki, «90l-ci ildə Azərbaycanda yayılan taun xəstəliyindən çoxlu insan tələf olmuşdu. Hətta ölənləri dəfn etmək və

onlara kefən tapmaq bele, mümkün deyildi». Həmin ilin martında Bərdə şəhərində Məhəmməd de həmin xəstəlikdən vəfat etdi. Onun ölümündən sonra hakimiyyətə oğlu Divdad keçdi. Lakin onun hakimiyyəti çox davam etmədi. Həmin ilin avqustunda əmisi Yusif Divdadı hakimiyyətdən salıb özü xəlifənin Azərbaycan hakimi və canişini oldu. Xəlifənin mərhəməti müqabilində Yusif xilafətin xezi> nəsinə xərac verməli idi. Yusif hakimiyyəti ələ keçirən kimi xilafətdən ayrılmaq üçün cəhd göstərdi. Ərməniyənt, Gürcüstanı qarət etdi, onların mö’təbər istehkam və qalalarım dağıtdı. 914-cü ildə dəfələrlə verdiyi andı pozan və dikbaşlıq edən Ərmaniye hakimi I Sumbatı Dəbilde (Dvində) elə keçirib e’dam etdirdi. Beləliklə, Yusif 915-ci ilə kimi Azərbaycanda və Əmıəniyədə öz hakimiyyətini möhkəmləndirə bildi. Dövlətin ərazisi qərbdə Ani və Dəbil şəhərlərinə, şərqdə Xəzər dənizinə qədər, cənubda Zəncan, şimalda Dərbəndə qədər uzanırdı. Mənbələrin me’lumatından aydın olur ki, bir vaxtlar Yusif, Məzyə- dilər dövlətini də özündən asılı vəziyyətə salmış və xəzərlərin hücumu zamanı dağıdılmış Dərbənd hasarını bərpa etdirmişdi. Demək olar ki, Azərbaycan bütövlüklə onun hakimiyyəti altında birləşmişdi.

Yusif hər il Xilafətin xəzinəsinə 120 min dinar xərac verirdi. O, 912-ci ildə xərac verməkdən qəti imtina etdi. Bu hadisə Xilafətlə Sacilər dövləti arasında müharibəyə səbəb oldu. Yusif 948-ci ildəki döyüşlərin birində 7 minlik qoşunla xəlifənin 20 minlik ordusunu məğlub edib Reyə qayıtdı. Xəlifə 919-cu ildə məşhur sərkərdəsi Munisin başçılığı ilə qoşun göndərdi. Ərəb ordusu bu dəfə də məğlub oldu. Munis yenidən daha böyük ordu toplayıb həmin il iyulun 16-da Ərdebil yaxınlığındakı döyüşdə Yusifin qoşununu məğlubiyyətə uğratdı və özünü əsir götürdü. Yusif üç il xəlifənin zindanında saxlanıldı. Bu müddətdə Azerbaycan Sacilər dövləti ərəblərə qarşı müharibəni dayandırmadı. Bə’zi mülahizələri nəzərə alan xəlifə yaxın adamlarının məsləhəti ile 922-ci ildə Yusifi Azərbaycan və Ərmeniyə canişini, habelə Rey, Qəzvin, Zincan valisi tə’yin etdi. O, bunun müqabilində hər il xəzinəyə 500 min dinar xərac verməli idi.

Bacarıqlı sərkərdə olan Yusifin qibtə ediləcək dərəcədə çevikliklə raqiblərini əzməsi, hakimiyyəti möhkəmləndirməsi, əvvəlki siyasi nüfuzunu bərpa etməsi, Azərbaycanın müstəqilliyini reallaşdır- ması Bağdadda xəlifə sarayına rahatlıq vermirdi. Ona görə də xəlifə onu «idarə etdiyi Azərbaycan, Ərməniyə, Arran, Beyləqan və s. əya- lətlən buraxıb İkiçayarasından «təhlükəli bir səfərə», xilafətə qarşı üsyan qaldırmış qərimətlərə qarşı müharibəyə göndərdi. 927-ci il

dekabrın 27-də Kufe şəlıəri yaxınlığındakı döyüş zamanı Yusifin qoşunu məğlub oldu. O özü yaralandı, əsir düşdü və öldürüldü.

Sacilər sülaləsinin hakimləri içərisində Yusif en nüfuzlusu olmaqla 24 il bu dövləti idarə etmişdi. Sacilər dövləti istiqlaliyyət qazandı. Azərbaycan torpaqları mərkəzləşdirildi ki, bunun sayəsində de təsər-rtifatın canlanmasına, şəhərlərin, sənətkarlığın, ticarətin və mədəniyyətin inkişafına xeyli zəmin yarandı. Onun maliyyə və vergi sahəsində obyektiv siyasəti ölkədə iqtisadiyyatın dirçəlməsinə və əhalinin artmasına təkan verdi.

Yusifin ölümündən sonra hakimiyyət əldən-elə keçdi. Onun sərkərdəsi Deysəmin dövründə Azerbaycan yenidən müharibə meydanına çevıildi. 942-ci ildə Sacilər sülaləsinin hakimiyyətini Salarilər əvəz etdilər.

Salarilər dövləti. Dövlətin yaradıcısı Merzuban ibn Məhommɘd Gilan vilayətindeki Salarilər tayfasına mənsub olduğundan dövlət Salarilər adlanırdı. Dövlətin təməlini qoyan Mərzuban ibn Məhəmməd çox uzaqgörən, ağıllı, mərd və cəsur şəxsiyyət, görkəmli dövlət xadimi olmuşdu. O, yuxarıda qeyd edildiyi kimi, 942-ci ildə Sacilər hakimi Deysəmi məğlub edərək Azərbaycanı tutdu. Həmin tarixdən hakimiyyət onun təmsil etdiyi Salarilar sülaləsinin (942-981) əlinə keçdi. Salarilər dövlətinin də paytaxtı Ərdəbil idi.

Salari hakimi Mərzuban ibn Mehemmed çətin mübarizə şəraitində Sacilər dövlətinin hakimiyyəti altında olan Azerbaycan toıpaqla- nna sahib olaraq öz səltənətini möhkəmləndirməyə çalışdı. Möhkəmlənməkdə olan gənc dövlət yeni fəlakətlə üzləşdi. Mənbələrdə Rus adlanan tayfalar təbiətinin və sərvətinin zənginliyinə görə Qafqazın mirvarisi hesab edilən Bərde şəhərinə hücum etdilər. Xalq müqəddəs lorpaq uğrunda mübarizəyə qalxdı. Göıünməmiş qırğınlar və talanlar başladı, gözəl binalar dağıldı, şəhər əvvəlki əzəmətini itirdi. Bundan istifadə edən Mosul hakimi Azərbaycanın cənubunda Səlmas şəhərinə basqın etdi. Salari hakimi Bərdənin müdafiəsini sərkərdələrindən birinə tapşırıb, özü Səimasın haıtıyına getdi. Onun bu yürüşü uğurlu oldu. Döyüşlərdəki qələbələr sayəsində ölkənin cənub-qərb vilayətlərindən düşməni qovduqdan sonra, Azərbaycanın şimal-qəıt» vilayətlərini və Ənnəniyəni öz hakimiyyəti altına keçirdi. Sacilərin dövründə olduğu kimi. Şirvanşah Məzyədilər dövləti Salarilerə tabe edildi. Bununla da Salarilərin şimal sərhədi Dərbəndə qədər uzandı.

Azərbaycanın cənub-şərq vilayətlərinin, xüsusilə, Zəncanın, Əb-hərin və Qəzvinin İsfahan hakiminin asılılığında qalması Mərzubanı

narahat edirdi. Onun meqsadi Azərbaycanın qədim sərhədlərinin bütövlüyünə nail olmaq idi. O, bu niyyətdə 948-ci ildə hərbi yürüşə başlayaraq Qəzvinə getdi. Mərzubanın 5 min nəfərlik ordusu düşməninkindən dəfələrlə az idi. Buna baxmayaraq o, döyüşdən imtina etməyi qeyrətinə sığışdıra bilmədi. Saatlarla davam edən savaş Mərzubamn məğlubiyyəti ilə başa çatdı. O, sərkərdələri ilə birlikdə əsir düşdü. Onun əsirlikdə olduğu dövrdə Azərbaycanda hakimiyyət uğrunda feodal ara müharibələri yenidən qızışdı. Hakimiyyəti əvvəlcə Mərzubanın atası, sonra isə qardaşı Vəhsudan ələ keçirdi. Hakimiyyət uğrunda mübarizadə keçmiş Sacilər dövlətinin hakimi Deysəm də iştirak edirdi. O, Zəncanda, Azərbaycanın və Ərməniyənin bir hissəsində hakimiyyəti bərpa etdi.

Lakin Mərzuban anasının va yaxın adamlarının köməkliyi ilə 953-cü ildə əsirlikdən qaçıb Ərdəbilə gələrək hakimiyyəti ələ keçirdi. Bu xəbari eşidən Deysəm qorxusundan əvvəlcə Mosula, oradan da Bağdada qaçdı. Bu hadisədən iki il sonra Mərzuban Dərbənddəki üsyanı yatırmağa gedən 2taman Deysəm fürsətdən istifadə edərək Səlması elə keçirdi. Lakin orada çox qala bilmədi. Mərzuban onun gözlərini çıxartdınb, özünü də zindana saldırdı. Bundan sonra ölkədə sakitlik yarandı. Əmin-amanlıq şəraitində ölkəda iqtisadiyyatın bütün sahələrində canlanma başlandı. Sənətkarlıq, ticarət, mədəniyyət inkişaf etməklə yanaşı, əhalinin sayı da artmağa başladı, feodal müharibələrindən təngə gəlmiş adamlar dinclik əldə etdilər.

Mərzuban vilayətlərdən alınan vergiləri nizama saldı, maliyyə işlərinə nəzarəti və diqqəti artırdı. Onun dövKində iki cur vergi toplanırdı. Onlardan biri torpaq və əmlak vergisi idi. İkincisi, asılı ölkələrin hakimlərindən alınan illik xərac idi. Salarilər dövlətinin Azərbaycandan və onun tabeçiliyində olan ölkələrdən vergilər hesabına topladığı illik mədaxil qızılla üç milyon manata çatırdı. Əlbəttə, bu rəqəm sabit ola bilməzdi. Baş verən siyasi dəyişikliklərlə əlaqədar onun məbləği artır və azalırdı.

Salarilarin qoşunu maaşla saxlanılan süvari dəstələrdən və piyada hissələrindən ibarət idi. Onların dənizdə gəmiləri də vardı.

957-ci ilin dekabrında Mərzuban ibn Məhəmməd öldü. Onun ölümündən sonra oğlanları və qardaşı Vəhsudan arasında hakimiyyət uğrunda mübarizə yenidən kəskinləşdi. Hakim sülalə üzvləri arasında gedən mübarizə nəticəsində mərkəzi dövlət zəiflədi və parçalandı. Mərzubanm oğlu İbrahimin hakimiyyəti (961-981-ci illər) dövründə

sültənətin əvvəlki şöhrətini bərpa etmək cəhdləri özünü doğrultmadı. Əksinə, vaxtı ilə Salarilərə tabe edilmiş əyalətlərin bir çoxu onlara vergi verməkdən imtina etdilər. Xəzinəyə daxil olan mədaxil kəskin surətdə azaldı. Məzyədilər, Dərbənd və Gəncə vilayəti Salarilər dövlətinin tərkibindən çıxdı. Şəddadilər dövlətinin yaranması ilə Arranın bir hişsəsi və Ərməniyə də onların əlindən çıxdı. Belə bir şəraitdə Əhər və Təbriz hakimi Rəvvadilər nəslindən olan Əbülheyca 981-ci ildə Salari İbrahimi məğlub edib əsir aldı və dövlətin paytaxtı Ərdə- bili tutmaqla hakimiyyəti öz əlinə keçirdi.

40 il yaşamış Salarilər dövləti təkcə Azərbaycan və Qafqazdakı feodal dövlətlərlə deyil, Ön Asiyadakı nüfuzlu dövlətlərlə də müqayisə olunmağa layiq idi.

Ruslar Azərbaycanda. Rusların Azərbaycanla əlaqəsinin tarixi qədimdi. Erkən orta əsrlərdə bu əlaqə xeyli genişləndi. Şorqşunas V.V.Bartoldun fikrincə, «ruslarla Azərbaycan arasında ticaroı və sair əlaqələr hələ çox qədimdən başlanmışdı. Kiyev rusu dəniz və çay yolları ile qərbdə Bizans, şərqdə Xəzər dənizi vasitəsilə digər ölkələrlə ticarət edirdi». Digər mənbələrdən məMum olduğu kimi, IX əsrdə ruslar Don və Volqa (İtil) çayları ilə ticarət məqsədilə Xəzər dənizinə gəlmiş, sonra da ticarət mallarını quru yolla dəvə karvanlarında Bağdada aparmışlar. Onlar Azərbaycana gətirdikləri ən'ənəvi malları: xəz derini, mumu, balı buradakı yerli mallarla: ipəkdən, yundan və pambıqdan toxunmuş parçaya, çəltiyə, zə’ferana, boyaq maddəsinə, quru meyvəyə, müxtəlif metal mə’mulatına dəyişirdilər. Ruslar təkcə Azərbaycanla deyil, Şərqin digər ölkələri ilə, o sıradan Xəzər xaqanlığı və Xorəzm şahlığı ilə de ticarət edirdilər.

X əsrdə rusların bu ərazilərə gəlişinin məqsədi və mahiyyəti tamamilə deyişdi. Əvvəllər 15-20 gəmidən ibarət kiçik dəstələrlə ticarət məqsədilə gəldikləri halda, indi yüzlərlə gəmi ilə səfərə çıxanların niyyəti qarətçilik və istilaçılıq idi.

914-cü ildə 500 gəminin hər birisində 100 nəfər olmaqla Azərbaycanın Xəzər sahillərinə 50 mindən artıq rus^ gəldi. Bu vaxtacan Xəzərdə ancaq ticarət gəmiləri üzürdü. Ona görə de denizdən hərbi

^ Azərbaycana gəlmiş rus tayfalarının mənşəyi mübahisəlidir. Onları slavyan tayfolanna şamil etməyənlər də vardır. X əsrdə Kiyev rus hökmdarlarının Xəzər dənizi sahillərinə yürüş etməsi qaynaqlar əsasında təsdiq olunmur. Azərbaycana gəlmiş ruslar qeyri-slavyan tayfalan idi. Onları bıiqar-türk tayfalarma mənsub edirlər.

təhlükənin baş verəcəyini gözləməyən yerli əhali düşmənin dənizdən qətli hücumu qarşısında çətin vəziyyətə düşdü. Sacilər dövlətinin hakimi Yusif öz qoşunu ilə ruslarla vuruşmalı oldu. Şirvanşah Əli ibn Hey səm təkcə quruda deyil, düşmənlə denizdə də döyüşdü. Dəniz döyüşlərində təcrübəsi olan və daha böyük qüvvəyə malik ruslar qalib gəldi, minlərlə adam öldürüldü və dənizdə batınıdı. Bir mənbədə deyilir ki, 938-ci ildə ruslar 38 gəmidə Bakı sahillərinə gəldilər. Şirvanşah Mənuçöhr ibn Yezid onlarla vuruşdu və məğlub oldu. Ruslar Kürlə Arazın qovuşduğu yerdən yuxarı üzmək istərkən şirvanlılar onlara mane oldular. Növbəti yürüşlərin birində 15 min nəi'əiik Xorəzm qoşunu sahilə çıxan ruslara hücum etmiş və üç gün davam edən döyüş nəticəsində onların bir hissəsini öldürmüş, bir hissəsini .suda boğmuş, yalnız beş min nəfəri qaçmaqla xilas ola bilmişdi.

Yerli əhali ile döyuşlərdəki itkilər, xəstəliklər, xəzərlərin, alanların, xorəzmlərin vurduqlan zərbələr rusların Xəzər sahillərinə hücumlarını dayandıra bilmirdi. Onlar müəyyən fasilədən sonra bu əfsanəvi diyann zəngin sərvətini ələ keçirmək üçün daha böyük qüvvə ile hucuma keçirdilər. 30 illik fasilədən sonra yenə hücuma keçən ruslar, bu dəfə Şirvana və Xəzər sahillərinə deyil, Arranın mərkəzi Bərdəyə gəldilər. İstilaçıların Bərdəni hədəf seçməsi təsadüfi deyildi. Bərdə haqqında me’lumat verən orta əsr müəllifləri və şərqşünaslar iqtisadi, siyasi, mədəni inkişafına, təbii-coğrafi mövqeyinə, gözəl iqliminə və sərvətlərinin zənginliyinə görə Bərdəni IX-X əsrlərdə təkcə Qafqazda deyil, Yaxın və Orta Şərqdə en çox inkişaf etmiş şəhərlərdən biri hesab edirdilər. Ona görə de Bərdənin zəngin sərvəti rusların diqqətini daha çox cəlb edirdi.

Onlar dənizlə cənuba doğm üzərək Kürün mənsəbinə çatdılar, ordan da çay vasitəsilə keçib Bərdə yaxınlığındakı Mübarəki deyilən kənddə sahilə çıxdılar. Gəmiləri burada saxlayıb, özləri 944-cü il avqustun 24-de Bərdəni mühasirəyə aldılar. Salari hakiminin Bərdə- dəki naibi öhdəsində olan 5600 nəfərlə yadelli istilaçılara müqavimət göstərdi. O dövrün silahlan olan nizə, qalxan, qılınc, xəncər, əmud və s. ilə silahlanmış çoxminli rus drujinalan döyüşdə qalib gələrək şəhəri tuta bildilər. Əhalini incitməyə və qarət etməyə başladılar. Bir çoxlan şəhəri tərk etməyə məcbur oldu. Mərzuban ibn Məhəmməd topladığı 30 minlik qoşunla Bərdənin müdafiəsinə gəldi. Günlərlə davam edən döyüşlərdə hər iki tərəfdən xeyli miqdarda adam tələf oldu. Mər-

zuban növbəti hücumlardan birində düşmənin 700 nəfər döyüşçüsünü məhv etsə də, şəhəri azad edə bilmədi. Bu vaxt şiddətli istilərə dözə bilməyən ruslar arasında misri deyilən xəstəlik başlandı və onların sıı-asını seyrəltdi.

Şəhərin müqəddəratı həll edildiyi bir vaxtda Mosul hakimi ölkənin cənubundakı Salmas şəhərinə hücum etdi. Mərzuban Bərdənin müdatləsini davam etdirmək üçün burada dörd min əsgər saxlayıb, özü Səlmasa getdi.

Əhali ruslara qarşı mübarizəni dayandırmadı. Xalqın möhkəm iradəsi düşmənin ümidlərini sarsıtdı. Digər tərəfdən, onların içərisində xəstəliklərdən ölənlərin sayı döyüş meydanında ölənlərdən çox idi. Ona görə də 944-cü il avqustun 24-də Bərdəyə daxil olmuş istilaçılar ələ keçirdikləri qənimətlə kifayətlənərək 945-ci il avqustun 12-do oranı tərk etməli oldular. Amma onlann hücumu Bərdənin sonrakı taleyinə ağır tə’sir göstərdi. Salari hakimi əsas diqqətini dövlətin paytaxtı Ərdəbilə verdiyindən Bərdənin bərpasına qayğı göstəra bilmədi. Digər tərəfdən, Şəddadilər dövlətinin paytaxtı Gəncə ticarət və mədəniyyət mərkəzinə çevrilməklə tərəqqi edir və Bərdəni kölgədə qoyurdu.

Şaddadilər dövləti. X əsrin II yarısında Azərbaycanda meydana gələn müstəqil feodal dövlətlərdən biri də paytaxtı Gəncə olan Şəddadilər dövləti idi. Onun ərazisi əsasən Kür və Araz çayları arasındakı iorpaqları əhatə edirdi. Şəddadilər şimal tərəfdən Şəki və Kaxetiya çarlığı ilə, cənubdan Rəvvadilər dövləti ilə həmsərhəd idi. Dövlətin cənub-qərbində yerləşən Dəbil şəhəri də Şəddadilərə tabe idi. Müəyyən dövrlərdə Şəki və Kaxetiya çarlığının bə’zi əraziləri də onlardan asılı vəziyyətə düşmüşdü. Ərməniyənin xeyli hissəsi Şəddadiİərin hakimiyyəti altında idi.

Du dövlətin yaradıcısı hesab edilən Məhəmməd ibn Şəddad mənşəcə kürd idi. O, Dəbil ətrafında yaşamaqla siyasi fəaliyyətə X əsrin ortalarında başlamışdı.

Əslində Şəddadilər dövləti Salarilerin dövründə və onlann ərazisində meydana gəlmişdi. Salari hakimi Mərzuban əsirlikdə qaldığı beş il (948-953) müddətində onun varisləri arasında hakimiyyətin qızışdığı şəraitdə dövlət xeyli zəiflədi. Ona tabe olan feodal ə'yanlar içərisində müstəqillik meylləri gücləndi. Belə feodallardan biri Məhəmnəd ibn Şəddad idi. O, fürsətdən istifadə edərək Dəbili tutdu və özünü müstəqil e’Ian etdi. Lakin o burada möhkəmlənə bilmədi.

Mərzuban əsirlikdən xilas olduqdan sonra hakimiyyətini bərpa etdiyi zaman Dəbil Şəddadın əlindən çıxdı. Onun ölümündən sonra oğlanları Fəzl və Ləşkəri Gəncəyə gəldilər və 971-ci ildə Salari İbrahimin Gəncədəki naibini qovaraq burada hakimiyyəti ələ keçirdilər. Müharibədə Əbülhəsən Ləşkəriyə gücu çatmayan Salari hökmdarı İbrahim ibn Mərzuban onunla müqavilə bağladı və Şəddadilər dövlətini rəsmən tanımağa məcbur oldu. 971-ci ildən Şəddadilər dövləti fəaliyyətə başladı. Bu hadisə Ləşkərinin nüfuzunu artırdı. O, az müddət ərzində Bərdəni, Şəmkiri, Ərməniyenin xeyli hissəsini öz dövlətinə birləşdirdi, ölkədə əmin-amanlıq yaratdı. Səkkiz illik hakimiyyəti dövründə Şəddadilər dövləti möhkəmləndi və ərazisi genişləndi. Onun varisi Fəzlin dövründə Beyləqan Şəddadilər dövlətinə birləşdirildi. Ağıllı diplomat olan Fəzl dövlət işlərini məharətlə idarə edirdi. Ərəb tarixçisi İbn əl-Əsirin məMumatına görə, «Kürd Fezlun 1030-cu ildə xəzərlər üzərinə hücum etdi. Onlardan çox adam qırdı, əsir tutdu və böyük miqdarda qənimət aldı».

Şəddadi Fəzl uğurlu xarici siyasətlə yanaşı, ölkənin daxili işləri ile məşğul olmağı da unutmur, sənətkarlığın, ticarətin, mədəniyyətin inkişafına qayğı göstərirdi. O, ticarət və hərbi məqsədlə Araz çayı üzərində körpü saldırdı. Gəncədə öz adına pul kəsdindi. Onun Şirvanşah Mənuçöhrlə (1027- 1034) qohum^ olmasına baxmayaraq, Şedda- diləııə Şirvanşahlar arasındakı dostluq və qohumluq sabit deyildi. Şəddadilər tez-tez Şirvanşahlar, Rəvvadiler və gürcü hakimləri ile müharibələr edirdilər.

Şeddadilərin görkəmli hakimlərindən olan Əbüləsvər Şavurun dövründə (1050-1067) dövlət daha da möhkəmləndi. Şavur iqtisadi, ictimai heyatda və xüsusilə orduda bir sıra faydalı islahatlar keçiı*ərək Gürcüstanla və Şirvanşahlarla müharibələri davam etdirdi. Alan tayfalarının, qonşu feodal dövlətlərin və xüsusilə şöhrəti gündən-günə artmaqda olan səlcuq türklərinin basqınlanndan qorunmaq üçün tədbirlər gördıı. Gəncənin ətrafında xəndək qazdınb hasar çəkdirdi. Onun tapşırığı ile Dəmirçi İbrahim l063-cu ildə Gəncənin dəmir qapılarını düzəltdi. Həmin il Şirvana bir neçə yürüş təşkil edərək onlardan 40 min dinar xərac aldı. Lakin siyasi vəziyyətin deyişməsi ilə əlaqədar olaraq Şavur hakimiyyətinin sonunda selcuqların vassalltğmı qəbul etməyə məcbur oldu.

^Fəzl öz qızı Sitti, MenuçöhFƏ ərə vermişdi.

Şəddadilər dövlətinin axırıncı əmiri olan III Fəzlun (1074-1088) vəssalı olduğu səlcuq sultanlığına qarşı mübarizəni davam etdirmək istəyirdi. Mənbələrin mə’Iumatındaın aydın olur ki, Yaxın və Orta Şərqdə, həmçinin Zaqafqaziyada güclü dövlət yaradan səlcuq türkləri Şəddadilərin daxili müstəqilliyini özləri üçun təhlükə hesab edirdilər. Ona görə də səlcuq sultanı Məlikşah öz sərkərdəsi Buğanı qoşunla Gəncəyə göndərdi. Buğa 1088-ci ildə Gəncəni tutdu və III Fəzlunu əsir götürərək Bağdada göndərdi. O, 1091-ci ildə orada, əsirlikdə öldü. Beləliklə, 1088-ci ildə Şəddadilər dövlətinin tarixi sona çatdı. Məlikşah Gəncəyə öz əmirini tə'yın etdi. Şəddadilərin bütün ərazisini ələ keçirdilər. Sultan Məlikşah Gəncə əmirinin ixtiyanna 48 min nəfərlik qoşun verdi. Şəddadilər dövləti feodal monarxiya tipli dövlət idi. Onun başçısı əmir titulu daşıyırdı. Məzyədilərdə, Salarilərdə, Sacilərdə olduğu kimi burada da dövlətin başçısı mülki və hərbi hakim idi. Mə’murlardan biri sarayı idarə edən hacib idi. Vilayətləri isə əmirin tə’yin etdiyi naiblər idarə edirdilər. Bir qayda olaraq naiblər şahzadələrdən və ya sülalə üzvlərindən ibarət olurdu.

Azərbaycan ərazisindəki digər feodal dövlətlərdə olduğu kimi, Şəddadilərin qoşunu iki hissədən: daimi nizami qvardiyadan və könüllülərdən ibarət idi. Yuxanda adlan çəkilən feodal dövlətlərin heç birisində Şeddadilərdə olduğu qədər çox qoşun yox idi. Mənbələrin mə’lumatında bildirilir ki, Şəddadilərin daimi nizami ordusu 150 min nəfərə çatırdı.

Bu dövlət erkən orta əsrlərin sonlannda yarandığından feodal münasibətləri yaxşı inkişaf etmişdi. Ölkənin əsas münbit torpaqları hakim sülalə üzvlərinin əlində toplanmışdı. Bərdə əvvəlki şöhrətini, mövqeyini itirdiyi halda, dövlətin paytaxtı Gəncə Qafqazın iri ticarət və mədəniyyət mərkəzinə çevrilirdi. Burada gözəl saraylar, əzəmətli məscidlər, mədrəsələr, karvansaralar, hamamlar, zərbxanalar, dövrün digər gözəl mədəniyyət abidələri tikilirdi. Azərbaycanın qərb rayon-lanna, Gürcüstana və Qara dəniz sahillərinə gedən ticarət yolu Gəncədən keçirdi. Gəncə sənətkarlarının hazırladıqlan mə’mulatlar, gözəl ipək parçalar, xalçalar, xalılar səlcuq sultanlannin saraylarını bəzəməklə bərabər, dünya bazarlarına da çıxarılırdı.

Dövlətin paytaxtı kimi Gəncənin təhlükəsizliyi yaxşı tə’min edildiyindən şəhərin əhalisi sür’ətlə artır, dövrün görkəmli klassiklərinin, alimlərinin və sənətkarlarının bir hissəsi Gəncədə rahatlıq tapır, yaşayıb-yaradırdı. Şair Qətran Təbrizi və «Qabusnamə» əsərinin müəllifi

Keykavus Gəncədə yaşayırdi. Gəncə bəşər mədəniyyətinə parlaq simalar bəxş etmişdi.

Rəvvadilər dövləti. Orta əsr müəllitləri Rəvvadilər sülaləsinin tarixi və dövlətin yaradıcısı Əbülheyca Rəvvadinin şəxsiyyəti baıədə dolaşıq fikirlər söyləmişlər. Əbülheycanın mənsub olduğu Rəvvadilər (mənşəcə ərəb idilər) sülaləsinin tarixi qədimdi. Onlar VIII əsrdə l'əbrizdə, Marağada, Əhərdə, Qarabağda hakimlik etməklə uzun müddət müstəqilliyə can atmışdılar. Rəvvadilərin mənşəcə Salarilərlə yaxınlığı olmamışdı.

X əsrin ortalarında və ikinci yarısında Əhər (Qaradağ) hakimi Əbülheyca Rəvvadi Salarilər dövlətinin hakimi Mərzubana, sonra isə onun varisi İbrahimə tabe olan və xərac verən nüfuzlu feodallardan idi. Əbülheyca yaranmış tarixi şəraitdən istifadə edərək 981-ci ildə Salari İbrahimə tabe olmaqdan boyun qaçırdı, onunla mübarizəyə başladı, qalib gəldi və hakimiyyəti ələ aldı. Beləliklə, Rəvvadilər dövləti rəsmən yarandı. Vaxtilə Salarilər dövlətinin əlində olan Azərbaycan və Ənnəniyə torpaqları Rəvvadilərin hakimiyyəti altına keçdi. Dövlətin paytaxtı Ərdəbildən Azərbaycanın qədim ve zəngin şəhəri Tobrizə köçürüldü. Bu zaman Təbriz Ərdəbilə nisbətən iqtisadi, siyasi V« mədəni cəhətdən xeyli tərəqqi etmişdi. Təbrizin təbii-coğrafi mövqeyi paytaxt şəhəri üçun daha münasib idi. Rəvvadilər dövlətinin orazisi əsasən indiki İran Azərbaycanı ərazisini əhatə edirdi. Əbülheyca hakimiyyəti ələ keçirib dövlətin daxili işlərini sahmana saldıqdan sonra 987-ci ildə Ərməniyəyə hücum edərək onu özünə tabe edib əhali üzərinə vergi qoydu və xərac aldı. O, Xoy və Urmu feodallannı da hakimiyyəti altına keçirtdi. Dövlətin ərazisi genişlənməklə yanaşı, onun nüflızu da yüksəlirdi. Əbülheycanın varislərindən olan Əbu Mənsur Vəhsudan da (1020-1059) ölkə daxilində bir sıra tədbirlər həyata keçirdi. Mərkəzi hakimiyyəti xeyli gücdəndirdi. Onun döviündə Şəddadilərlə düşmşnçilik davam etdi. 1042-ci ilin oktyabrında Təbrizdə güclü zəlzələ baş verdi. Mənbələrin mə'lumatına görə, zəlzələ nəticəsində bir çox binalar və qalalar dağıldı, 40 mindən artıq adam tələf oldu, şəhərin müdafiə qabiliyyəti zəiflədi. Şəhərin ətrafındakı qala hasarlan uçulub-dağıldığından Rəvvadi Vəhsudan l'əbrizi tərk edib başqa qalaya köçdü. Şəhərin bərpa işləri başa çatdırılmamış Toğrul bəyin başçılıq etdiyi səlcuq türkləri Təbrizə hücum etdilər. Hücuma hazır olmayan Vəhsudan müqavimət göstərə bilmədi.

ibn əl Əsirin yazdığına görə, «səlcuq hakimi Toğrul bəy bir sıra qələbələrdən sonra 1054-cü ildə Təbrizə gəldiyi zaman Rəvvadi hakimi Vəhsudan siyasi hakimiyyəti əlində saxlamaq məqsədilə səlcuq- Innn vassallığını qəbul etməyə məcbur oldu.

Səlcuq sultanı Alp Arslan (1063-1072) Azərbaycana gəldiyi zaman Rəwadilərin daxili müstəqilliyini tamam ləğv edərək 1065-ci ildə Təbrizə səlcuq əmiri tə'yin etdi. Bununla da Rəvvadilor dövləti öz müstəqilliyini itirərək, səlcuq larin hakimiyyəti altına keçdi. Süqut etməsinə baxmayaraq, bir əsrə qədər mövcud olmuş Rəvvadilər dövləti ölkənin iqtisadi, ictimai, siyasi və mədəni həyatında mühüm rol oynamışdı.

IX-XI əsrlərdə Azərbaycanda meydana gələn feodal dövlətlərdən Şirvanşah Məzyədilər, Sacilər, Salarilər, Şəddadiler və Rəvvadiləri yaradan sülalələr mənşəcə müxtəlif olsalar da, onlann təşkil etdiyi dövlətlər Azərbaycan erazisini əhatə edirdi. Bunlardan Sacilər və Salarilər ara müharibələri və daxili mübarizə nəticəsində, Rəvvadilər və Şəddadilər isə səlcuqların hücum və təzyiqləri nəticəsində fəaliyyətlərini dayandırmağa məcbur oldular.

IX-XI əsrlərdə gərgin mübarizə şəraitində Azərbaycanda müstəqil feodal dövlətlərin yaranması müstəsna əhəmiyyəti olan hadisə idi. Həmin dövlətləri yaradan sülalələrin mənşəyindən və mənsubiyyətindən asılı olmayaraq bu dövlətlər Azərbaycan torpağında milli zəmində təşəkkül tapırdılar. Onlar xilafətə tabe olmaqdan imtina elməklə öz istiqlaliyyət bayraqlarını qaldırırdılar. Bu dövlətlərin mövcud olduğu on illər ərzində daxildə yaranmış qismən əmin-amanlıq zəminində təsərmfatın bütün sahələri dirçəlir, əhali artır və məhsuldar qüvvələr inkişaf edirdi.

## § 2. KƏND TƏSƏRRÜFATI

Ərəb əsarətinə son qoyulduğu və müstəqil feodal dövlətlərin yarandığı dövrdə burada kənd təsərrüfatının, sənətkarlığın, ticarətin vəziyyəti haqqında mənbələrdə az-çox mə'lumata təsadüf edilir. Azərbaycanın əlverişli iqlimi və təbii imkanları kənd təsərmfatının yaxşı inkişafına zəmin yaratmışdı. Şərqin başqa ölkələrində olduğu kimi, burada da sün'i suvarmaya ehtiyac olduğundan IX-XI əsrlərdə müharibələr nəticəsində sıradan çıxanları bərpa etməklə yanaşı, onlarca yeni kanal və arxlar çəkilirdi. Bu, qum iqlim şəraitində daha çox məhsul götürməyə imkan yaradırdı.

Əkinçilik məhsullanndan buğda, arpa, çəltik, dan, veləmİr, lobya, noxud, mərci və s. daha geniş yayılmışdı. Əhalinin istehlak tələbini ödəməklə yanaşı, bunlardan bə’zisi dünya bazarına da çıxarılırdı.

Azərbaycanda kənd təsərrüfatının yaxşı inkişaf etmiş sahələrindən biri meyvəçilik idi. Ölkələrin heyatına yaxından beləd olan orta əsr müəllifləri e’tiraf edirlər ki, bağlarımızda yetişən ləziz meyvələrin bir çoxuna (gilas, nar, zoğal, şaftalı, ərik, heyva, əncir, zeytun, alça, badam, püstə, şabalıd, tut və s.) dünyanın bir çox ölkəsində təsadüf edilmir. Azərbaycandan dünya bazarlarına çıxarılan ticarət mallan içərisində meyvə qutusuna daha böyük tələbat vardı.

Texniki bitkilərdən pambıq, ketan, qırmız deyilən boyaq maddəsi becərilir və barama bəslənilirdi. Azərbaycan orta əsrlərdə dünyada ipəkçiliyin əsas vətənlərindən biri idi. Şəkide, Şirvanda, Berdəde və digər şəhərlərdə hazırlanan xam ipəyə, ondan hazırlanmış parçalara böyük maraq vardı. Pambıq burada qədimdən becərilsə də, geniş yayılmamışdı. Bununla belə, Bərdə sənətkarlarının pambıqdan toxuduqları parçalar dünya bazarlarına çıxarılırdı. Qırmız boyaq maddəsindən ipliklərin boyanmasında istifadə edilirdi. Azərbaycandan dünya bazarlarına çıxanlan mallar içərisində onun da adı çəkilir.

Burada kənd təsərrüfatınm tarixən yaxşı inkişaf etmiş sahələrindən biri maldarlıq idi. Yaşıl meşələrin, şirin sulu çayların və serin bulaqların, əzəmətli dağlann, çəmənli-çiçəkli yaylaqların, otu bol qışlaqların olması burada saysız-hesabsız iri və xırdabuynuzlu mal- qara, at, dəvə, qatır və s. saxlamağa imkan verirdi. Mənbələrin birində Şirvanşah Feriburzun ilxısında dörd min baş təkcə madyan olduğu qeyd edilirdi. Bu dövrdə Azərbaycanda belə ilxıların, naxırların, sürülərin miqdarı yüzlərlə, minlərlə idi.

Mənbələrdə ançtlıq təsərrüfatı və balıqçılıq haqqında da maraqlı mə'lumatlar vardır.

İctimai münasibətlər. IX-XI əsrlərdə Azərbaycanda feodal münasibətlərinin inkişafı və kifayət qədər möhkəmlənməsi sayəsində bu cəmiyyətin əsas sinifləri olan feodallann və kəndlilərin formalaşması sabitləşdi. Yuxarıda adlan çəkilən müstəqil dövlətləri təşkil edən sülalələrin və onlara yaxın olanlarm min hektarlarla torpaq sahəsi və iri malikanələri vardı. Burada feodal ierarxiyası nərdivanının orta pilləsində iri feodallann dehqanlar və azatlar deyilən vassalları dayanırdı. Ölkədəki məhsuldar və münbit torpaqlar onlann əlində toplanmışdı.

Cəmiyyətin en böyük sinfi olan kəndlilər iki hissədən ibarət idi. Onlardan birincisi *uluc* adlanan asılı kəndlilər, ikincisi dağ yerlərində yaşayan *azad* kəndlilər idi. Uluclar əksəriyyət təşkil edirdilər. Mə’lumdur ki, kəndlilər dövlətə və feodallara məxsus olan torpaqlarda çalışırdılar.

İlk mənbələrdə feodallarla kəndlilər arasında hüquqi və ictimai nünasibetlərin vəziyyəti haqqıida təsəvvür yaradan məMumata az təsadüf edilir. Həmin mə’lumatlardan aydın olur ki, torpaq üzərində əvvəlki mülkiyyət münasibətləri davam etməkdə idi.

Torpaqların -bir hissəsi dövlətə məxsus idi. Bu cür torpaqlar *«divani»* adlanırdı. Həmin torlaqlardan əldə edilən gəlir xəzinəyə daxil olurdu. «Divani» torpaqlarından əlavə hökmdara və onun sülaləsinə mənsub torpaqlar da vardı. Bu cür torpaqlara *«əmlakı xasse»* deyilirdi.

Ölkədə iri feodalların və onların vassallanmn əlində olan torpaqlar *«mülk»* (əmlak) adlanırdı. Xilafət dövründə belə mülk sahibləri məlik adlanırdı. Mülk sahibləri dövlətə xərac deyilən vergi verirdilər.

Torpaq üzərində geniş yayılmış mülkiyyət formalarından biri *«iqta»* idi. İqta onun sahibinə dövlətə göstərdiyi xidmətə görə verilirdi. Ona görə de bu mülkiyyət irsi xarakter daşımırdı. Müstəsna hallarda, xüsusilə mərkəzi hakimiyyət zəiflədiyi və ya parçalandığı hallarda iqtanın sahibi onu irsi mülk hüququna keçirməyə cəhd göstərirdi. Şəraitdən və yerindən asılı olaraq «iqta» ya torpaq şəklində, ya da torpaqdan götürülən gəlirin bölüşdürülməsi şəklində tətbiq edilirdi.

Torpaq üzərində mülkiyyət formalanndan biri de *«vəqf»* adlanırdı. Bu cür torpaqlar məscidlərə, müqeddes yerlərə, ruhani idarələrinə, xeyriyyə cəmiyyətlərinə məxsus idi. Onun gəlirindən həmin məqsədlər üçün istifadə edilirdi. Bu, orta əsrlərdə geniş yayılmış, nüfuzlu və toxunulmaz mülkiyyət hesab edilirdi.

Mülkiyyət formalarından biri de *«icma»* idi. Əslində kənd icmasının özünün torpağı yox idi. Onların istifadə etdiyi torpağın sahibi dövlət idi. Dövlət həmin torpağı becərmək üçün kənd icmasının istifadəsinə verirdi. Kəndlilər torpağı hər il öz aralannda bölüşdürür, becərir və xərac adlanan vergini bir yerə toplayıb dövlətə təhvil verirdilər. İcma təsərrüfatı dövlət üçün əlverişli olduğundan əsrimizin əvvəllərinə qədər yaşamışdı.

Orta əsrlərdə kəndlilərin ödəməli olduğu çoxsaylı mükəlləfiyyətlər və vergilər içərisində ən ağın xərac adlanan torpaq vergisi idi.

Xəracın məbləği və toplanması qaydası müxtəlif dövrlərdə müxtəlif şəkildə olmuşdu. Hansı məbləğdə və formada alınmasından asılı olmayaraq bu vergi kəndlilər üçün ağır yük idi. XI əsrin 60-cı illərinin əvvəllərində Şirvanda (Dərbənddə), Təbrizdə, Solmasda, Xoyda xalq kütlələrinin feodal zülmünə qarşı baş vermiş çıxışları bununla əlaqədar idi.

IX-Xl əsrlərdə sənətkarlığın və ticarətin inkişafı ile əlaqədar şəhərlər də çoxalır və böyüyürdü. Azərbaycanda hər birində 10 minə qədər əhali yaşayan Ərdəbil, Sərab, Miyanə, Təbriz, Marağa, Berzənd, Salmas, Xoy, Mərənd, Əhər, Naxçıvan, Bərdə, Gəncə, Şəmkir, Beyləqan, Şəki, Qəbələ, Şamaxı, Şabran, Bakı, Dərbənd və onlarca başqa şəhər vardı. İlk mənbələrdə bu şəhərlərin əhalisi, təsərrüfatı, sərvəti, bazarlan və s. haqqında maraqlı mə'lumatlar verilir. Onlardan Təbriz, Ərdəbil, Əhər, Bərdə, Gəncə, Şamaxı, Naxçıvan, Şəki müxtəlif vaxtlarda feodal dövlətlərin və ya vilayat hakiminin paytaxtı olmuşdu. Adları çəkilən paytaxt şəhərləri eyni zamanda iri mədəniyyət və ticarət mərkəzləri idi. Sənətkarlıq sahəsində ixtisaslaşmanın sür'ətlənməsi, peşələrin çoxalması, yerli sənətkarlar tərəfindən müxtəlif çeşiddə və formada mə'mulatların istehsalı iri şəhərlərdə böyük bazarlann yaranmasına səbəb olurdu. Dünya ticarət yollarının qovşağında yerləşən şəhərlərin bazarlarına təkcə ölkənin deyil, xarici ölkələrdən də yüzlərlə tacir gəlirdi.

## § 3. AZƏRBAYCANDA SƏLCUQ TÜRKLƏRİNİN HAKİMİYYƏTİ

XI əsrin ortalarında Azərbaycanda fəaliyyət göstərən Şirvanşahlar, Şəddadilər və Rəvvadilər dövlətləri arasında sabit siyasi və iqtisadi əlaqə zəif idi. Əksinə, onlar bir-biri ilə çəkişirdi. Feodal ara müharibələri ölkənin inkişafını ləngitməklə yanaşı, onun xaricdən olan hücumlara qarşı ümumi müdafiə qüvvəsini zəiflədirdi. Azərbaycan ərazisində eyni vaxtda üç müstəqil dövlətin mövcud olması əslində feodal pərakəndəliyinin nəticəsi idi.

Belə bir tarixi şəraitdə Orta və Yaxın Şərqdə hadisə baş verdi, böyük Səlcuqiler imperiyası yarandı. Orta Asiya, İraq, İraq, Sunya, Misir, Kiçik Asiya, Ön Qafqaz xalqları ile birlikdə Azərbaycan da Səlcuqilərin hakimiyyəti altına keçdi. Azərbaycandakı feodal

dövlətlər və onları idarə edən sülalələr tədricən öz istiqlaliyyətlərini və hakimiyyətlərini itirdilər.

Şərqi lərzəyə salan səlcuqlar və onlann rəhbəri kim idi? Cəsur və cəngavər bir şəxs olan səlcuq *oğuzların qtmq* tayfasına mənsub idi. Mənbələrdə qeyd edilir ki, oğuzlar 22-24 türk tayfasını birləşdirirdi. Oğuzların başçısı Oğuz xaqan hesab edilirdi. O, ömrünün 50 ildən artığını at üstündə, hərbi yürüşlərdə keçirmişdi. Saysız-hesabsız ölkələr fəth etmişdi. Fəzlullah Rəşideddin «Oğuznamə» əsərində Oğuz xaqanın əfsanəvi igidliyini belə təsvir edir: «Vardığımız hər ölkə bizdən nə əmr edilmişsə, yerinə yetirdi. Keçdiyimiz yerlərdə almadığımız bir ölkə, boyun əyməyən və itaət yolunu tutmayan bir hökmdar qoymadıq qala». Əsərdə həmçinin Oğuz xaqanın Şirvana, Arrana və Muğana gəlməsi, əhali ilə rəftarı haqqında da məMumat verilir.

Səlcuq bir əsrdən artıq ömür sürmüş, islam dinini qəbul etdikdən sonra bu dinin bütün türklər arasında yayılması uğrunda mübarizə aparmışdı. Oğuzlar islam dinini qəbul edənə qədər totemlərə və şamanizmə sitayiş edirdilər. XI əsrin əvvəllərində oğuzların bir hissəsi səlcuqun varislərinin başçılığı ilə Xorasan tərəfdən Yaxın Şərq ölkələrinə, digər hissəsi Xəzərin şimalından keçməklə Şərqi Avropaya və Balkan yarımadasına yayıldı. Azərbaycana gəlmiş səlcuqlar yerli türklərlə eyni dil yaxınlığına malik idilər. Tarixi həqiqətdir ki, Azərbaycanın ən qədim və ilk sakinləri türk tayfaları idi. Geniş ərazidə yaşayan türklər vaxtaşırı yerdəyişməyə mə’ruz qalırdılar. Əsrlər bir-birini əvəz etdikcə Azərbaycana türk tayfalarının yeni-yeni dəstələri gəlirdi. Sasanilərin hakimiyyəti dövründə Dərbənd keçidi ilə türk tayfalarının Azərbaycana güclü axını başlandı. Sasani hökmdarlannm Albaniya ərazisində tikdirdikləri daş divarlar, sədlər ve qalalar da onlann qarşısını dayandıra bilmədi. Onlar burada yaşayan soykökləri ilə birləşir, qaynayıb-qanşır və məskunlaşırdılar.

Türk tayfalarının Azərbaycana növbəti axını XI əsrin birinci yarısında səlcuq türklərinin gəlişi ilə başlandı və sonrakı əsrlərdə də davam etdi. Əvvəlkilərdən fərqli olaraq səlcuq türkləri şimaldan Dərbənd yolu ilə deyil, ölkənin cənubundan tran yolu ilə gəlirdilər.

Səlcuqlar IX esidə Xəzər dənizi ilə Aral gölü arasındakı ərazidə yerləşirdilər. Qəznəvilər dövlətinin başçısı sultan I Mahmud (988- 1030) səlcuqların başçılanndan Mikayılı və İsraili həbs edərək, səlcuq tayfalarını 1009-cu üdə Xorasan əyalətində yerləşdirdi. Lakin mənbələrdə deyildiyi kimi, onlar burada sakit dayanmadılar. Səlcuqun

nəvələrindən Toğrul bəy, İbrahim Yanal, Çağn bəy Davud, Musa Yaqbu K.olyan və başqaları səlcuqları öz bayraqları altında birləşdirərək mübarizəyə başladılar. Mübarizədə daha çox fərqlənən Toğrul bəy 1038-ci ildə Nişapum ələ keçirdi və özünü sultan e'lan etdi. Beləliklə, Yaxın və Orta Şərqdə ən güclü orta əsr feodal dövlətlərindən olan Səlcuqilər imperiyasının (1038-1157-ci illər) bünövrəsi qoyuldu. Bu hadisədən iki il sonra Toğrul bəy Dəndənəkan yaxınlığındakı döyüşdə Qəznəvi sultanı Məs'uda qalib gələrək bütün Xorasan əyalətinə sahib oldu. Oğuz tayfalarının hərbi-siyasi birliyi yarandı. Siyasi hadisələrin gedişi ilə əlaqədar olaraq müxtəlif dövrlərdə Nişa- pur, Rey və İsfahan Səlcuqilər imperiyasının paytaxtı oldu.

Qəznəvilər dövlətini məğlubiyyətə uğradıb Xorasana sahib olan səlcuqlar bununla kifayətlənməyib geniş istilaçılıq siyasətinə başladılar. Toğrul bəy (1038-1063) 1045-ci ildə Həmədanı, 1050-ci ildə İsfahanı ələ keçirdi. Daha sonra səlcuqlar elə bir ciddi müqavimətə rast gəlmədən bir-birinin ardınca İranı, İraqı, Kiçik Asiyanı, Suriyanı, Ərəbistan yarımadasını, Ön Qafqazı, bir sözlə, Türküstandan Aralıq dənizinə, Dərbənddən Fars körfəzinə qədər əraziləri ələ keçirdilər.

Sultan ToğmI bəyin başçılıq etdiyi səlcuq qoşunu XI əsrin 50-ci illətinin ortalarında Azərbaycana daxil oldu. Hələ bundan əvvəl onlar Azərbaycana bir neçə dəfə gəlmişdilər. Lakin sultan Toğrul bəyin gəlişi əvvəlkilərə bənzəmirdi. Rəvvadi hakimi Vəhsudan və Şəddadi hakimi Şavir siyasi hakimiyyəti əldə saxlamaq məqsədilə pul və hədiyyələr verməklə muqavimətsiz onlara tabe oldular. Azərbaycan hakimlərinin belə muqavimətsiz tabe olmalannın bir səbəbi hərbi gücsüzlükləri idisə, digər səbəbi səlcuqları özlərinin dili bir, soykökü bir doğmaları hesab etmələri idi.

Azərbaycanı zəbt edəndən sonra sultan Toğrul Ərməniyoye doğru hərəkət etdi. Yürüşü qələbə ilə başa çatdıran sərkərdə qışı Reydə keçirib, 1055-ci ilin yazında xilafətin paytaxtı Bağdadı tutdu və siyasi hakimiyyəti ələ keçirdi. O, 1063-cü ildə Reydə vəfat etdi. Hakimiyyəti onun qardaşı oğlu Alp Arslan (1063-1072-ci illər) elə keçirdi və öz sələfinin başladığı işi davam etdirdi. Bu siyasət ona uğur qazandırdı. O, Reydə işləri sahmana saldıqdan sonra əvvəlcə Mərəndə^ oradan da Naxçıvan istiqamətində Arazın kənarına gəldi. Naxçıvanı tutduqdan sonra Ərməniyəyə getməyi.qet etdi. Lakin bu zaman Xoy və Səlmas əhalisi səlcuqlara qarşı iğtişaş törətdiyindən o, nəzərdə

lutduğu yürüşü te’xire salaraq üsyançılara qarşı qoşun göndərdi. Üsyanı yatırtdı və onun rəhbərlərini cəzalandırdı.

Sultan Alp Arslan Azərbaycandakı vassalı olan dövlətlərin daxili müstəqilliyinə son qoymaq məqsədilə 1067-ci ilin payızında Arrana səfər etdi. 1069-cu ilin yanvarında Gəncəyə gələndə Şəddadi hakimi Fəzl qala qapılarının və xəzinənin açarlarını ona təqdim etdi. Bundan əlavə sultana xeyli miqdarda qiymətli hədiyyələr verdi. Şirvanşah Fəriburz da Gəncəyə, Alp Arslanın hüzuruna gələrək ona itaət göstərdi. Sultan Alp Arslan 1070-ci ilin noyabnnda Gəncədən Şəkiyə gedib, oradan Gürcüstana basqın etdi. Lakin Şirvanşahlar sultan Alp Arslanın Azərbaycana bu gəlişindən sonra da öz daxili müstəqilliyini saxlaya bildilər.

Səlcuqlann uğurlu xarici siyasətindən vahiməyə düşən Bizans imperiyası onların qərb istiqamətində yürüşünü dayandırmaq məqsədilə böyük hərbi hazırlıqdan sonra 1071-ci ildə Malazgird şəhəri yaxınlığında müharibəyə başladı. Sultan Alp Arslanın cəngavərləri onları darmadağın edərək Bizansa tabe olan Kiçik Asiyanın xeyli hissəsini ələ keçirtdi. Bu hadisə səlcuqlann sərhədlərini genişləndirməklə yanaşı, sultanın şöhrətini də yüksəltdi. Alp Arslanın Azərbaycandan uzaqlarda başının müharibəyə qanşmasından istifadə edən Şəddadi hakimi 111 Fəzlun səlcuqlara vergi verməkdən boyun qaçırtdı. Sultanın onu cəzalandırmağa ömrü çatmadı. 1072-ci ildə Alp Arslan öldü. Hakimiyyətə oğlu Məlikşah (1072-1092-ci illər) keçdi. Səlcıiqilər imperiyası sultan Melikşahın dövründə öz siyasi inkişafının ən yüksək pilləsinə qalxdı. Sultan Məlikşah ona sədaqətli olmayan və müstəqilliyə can atan hakimləri cəzalandırmaq məqsədilə sərkərdəsi Buğanın başçılığı ilə 1088-ci ildə Azərbaycana qoşun **göndərdi.** Buğa Gəncəni aldı və Şəddadilərin sonuncu hakimi Fəzlun« hakimiyyətdən kənar etdi. Bununla da Şəddadilər dövlətinə son qoyuldu. Sultan Məlikşah öz oğlu Məhəmmədi Gəncəyə hakim tə*yin etdi. Bundan sonra sultan Məlikşah Şirvanşah I Fəriburzu Gəncəye-öz iqamət- gahına də’vət etdi. Burada onu birdəfəlik 70 min dinar bac və hər il 40 min dinar xərac verməyə məcbur etdi.

Səlcuqilər dövləti Ön Qafqazda çiçəkləndiyi zaman türk tayfalarının Azərbaycana yeni axını gücləndi. Onlar burada tezliklə oturaq həyat tərzinə keçdilər və məskunlaşdılar.

Səlcuqilər dövlətinin ilk sultanlarının (Toğrul bəy, .Alp Arslan və Məlikşah) həyata keçirdiyi sosial-iqtisadi və hərbi tədbirlər feodal münasibətlərini daha da möhkəmləndirdi, sənətkarlığın, ticarətin,

mədəniyyətin inkişafına müəyyən qədər zəmin yaratdı. Lakin səlcuq dövləti hərbi-feodal xüsusiyyəti! dövlət olduğundan hərbi-siyasi birlik iqtisadi birlikdən güclü idi. Məiikşabtn hakimiyyəti imperiyanın çiçəklənməsinin son mərhələsi oldu. Onun ölümündən sonra oğlanlan arasında hakimiyyət üstündə bir neçə il mübarizə getdi. Börgüyarığın və qardaşı Məhəmmədin dövründə dövlətin ərazisi iki yerə parçalandı. Sultan Məlikşahm üçüncü oğlu sultan Səncərin vaxtında (1118- 1157-ci illər) dövlət tənəzzül etdi və onun ərazisi bir neçə yerə böləndü. O sıradan Girman, Konya, Suriya, İraq səlcuq sultanlığı və ICiçik Asiyada bir sıra əmirliklər yarandı. Azərbaycan İraq sultanlığına daxil idi. Səlcuq sultanları formal şəkildə hökmdar sayılırdılar. Əslində dövləti onların atabeyləri idarə edirdi. Məsələn, İraq sultanlığını 1136-cı ildən Azərbaycan Atabəyləri Şəmsəddin Eldəniz və onun varisləri idarə edirdi. Səlcuq sultanlan Eldənizilərin əlində üzüyola icaraçıya çevrilmişdi. Dövlətin bütün idarəsini Atabəylər öz əlinə almışdı.

119 il fəaliyyət göstərən Səlcuqilər dövləti türkdilli xalqların hərbi-siyasi,.sosial-iqtisadi və mədəni inkişafına güclü tə’sir göstərdi. Mosələn, *hərbi-siyaxi sahədə:* hərbi-siyasi birliyin təşəkkülü və yeni-yeni ərazilərin ələ keçirilməsi; *iqtisadi sahədə:* təsərrüfatın canlan- mnsı, sənətkarlığın, ticarətin inkişafı, şəhərlərin tərəqqisi; *ictimai miuıısibətlər sahəsində:* feodal və kəndli siniflərinin formalaşması və daha da təkmilləşməsi, onlann arasındakı sinfi ziddiyyətlərin kəskinləşməsi, feodal rentasında pul sisteminə marağı artması, torpaq münasibətlərində kəndlilərin daha çox asılı vəziyyətə salınması, onlann yerinə yetirdikləri mükəlləfiyyətlərin və vergilərin çoxalması, türkdilli yerli əhalinin iqtisadi və siyasi mövqeyinin möhkəmlənməsi; *mə 'nəvi sahədə:* türk dilinin ictimai həyatda geniş intişar tapması, onun əhatə və təfsir dairəsinin genişlənməsi, folklorun, ədəbiyyat və incəsənətin, elmin inkişafı və s. ilə xarakterizə edilir. Səlcuqlann hakimiyyəti dövründə Azərbaycanda görkəmli şairlər, alimlər, me'marlar, sənətkarlar himayə edilmiş, gözəl məscidlər, binalar, mədəniyyət abidələri tikilmiş, şəhərlər abadlaşdınimışdı.

Orta əsrlərdəki digər imperiyalar kimi səlcuqlarınkı da əbədi olmadı. Səlcuqilər imperiyasının daxilində onun təşəkkülünə, tərəqqisinə təkan verən amillərlə yanaşı, tənəzzülünə və parçalanmasına gətirib çıxaran səbəblər də vardı. Onlardan biri bu imperiyaya tabe olan xalqların istiqlaliyyət uğrunda mübarizəsi idi.

Süitan Meiikşalın ölümündən sonra sülalə üzvləri arasında hakı> ıniyyət uğnında mübarizənin kəskinləşməsi dövləti taqətdən saldı.

Azərbaycanda «iqta» sistemi Sasanilərin və ərəblərin hakimiyyəti dövründən mövcud olsa da, sultan Melikşahın dövründə daha da genişləndi. Hakim sülalənin üzvlərinə və iri feodallara «iqta» adı ilə şəhərlər və əyalətlər bağışlanırdı. «İqta» torpağında çalışan kəndlilər vergini «iqta»nın sahibinə verir və onun tələb etdiyi əlavə mükəliə-tlyyətləri yerinə yetirirdilər.

İqta sahibi kəndlilərdən aldığı verginin bir hissəsini dövlətə verməklə yanaşı, lazım gəldikdə sultana qoşun dəstəsi də verirdi. Kəndlilər iqta toıpağını buraxıb başqa yerə gedə bilməzdilər. İqtanın sayəsində böyük şəhərlərə, əyalətlərə sahib olan və onun hesabına həddindən artıq varlanan iri feodallar tədricən mərkəzi hakimiyyətə tabe olmaqdan boyun qaçırır və müstəqilliyə can atırdılar, Səlcıiq dövlətinin parçalanmasının əsas səbəblərindən biri bu idi. Səlcuqlar bac və xəracdan əlavə əhalidən müxtəlif vergi və töycülər də toplayırdılar. Vergilər həm pul və həm də məhsul şəklində almırdı. Bir neçə digər vergi, məsələn, <q)altar pulu», «şərab pulu», «silah pulu» və s. növü də var idi. Səlcuq qoşununun saxlanması xərci də əhalinin üzərinədüşür-
*dü. Mənbələrdə səlcuq sukanlarwm Azərbaycanda aldıqları bəxşişlər,* vergilərin və töycülərin miqdarı haqqında məMumat verilir. Feodallara və xəzinəyə verilən veı*gilərin bütün ağırlığı zəhmətkeş əhalinin, xüsusilə kəndlilərin üzərinə düşürdü. Ona görə də feodal zülmü gücləndikcə sinfi mübarizə də güclənirdi. Ölkənin daxilində sinfi mübarizənin şiddətlənməsi, xaricdən olan təhlükə və basqınlar da dövlətin tənəzzülünə səbəb olurdu.

Səlcuqilər dövlətinin parçalandığı şəraitdə Azərbaycanda feodal dövlətlərin yenidən bərpa olunması üçün şərait yarandı.

## *I X f e s l i*

# AZƏRBAYCANDA ORTA ƏSR FEODAL DÖVLƏTLƏRİNİN YEİNDƏN BƏRPASI VƏ FƏALİYYƏTİ

### § !. SƏLCUQtLƏR İMPERİYASININ TƏNƏZZÜLÜ ŞƏRAİTİNDƏ ŞİRVAN FEODAL DÖVLƏTİNİN YÜKSƏLİŞİ

Sultan Məlikşahın ölümündən sonra (1092-ci il) dövlətin ərazisini öz aralarında bölüşdürən oğlanlan bir-biri ilə mübarizəyə başladı. Səlcuq Məhəmməd Təpərin ölümündən sonra (l 118-ci il) ara müharibələri daha da qızışdı. Sultan Səncərin hakimiyyəti dövründə mərkəzi hakimiyyət daha da zəiflədi.

Ön Qafqazda səlcuq imperiyasının yaranması ilə öz istiqlaliyyətlərini itirən feodal dövlətlər XII əsrin 20-30-cu illərində yenidən baş qaldırdı.

Müxtəlif dövrlərdə Şirvanda kəsilən sikkələr və e'tibarlı mənbələr təsdiq edir ki, XII əsrin 20-ci illərindən monqol istilasına qədər- ki bir əsrdən artıq dövrdə Şirvanşahlar ya İraqdakı səlcuq sultanlarının, ya gürcü çarlarının, ya da Azərbaycan Alabəyləri dövlətinin vassalı olmuş və hər il onlara xərac vennişlər. Buna baxmayaraq, onlar daxili istiqlaliyyətlərini qoruyub saxlaya bilmişdilər. Əlverişli tarixi məqam gəldikdə isə nəzərdə tutulan xəmcı ödəməkdən də imtina etmişdilər.

Şirvan-Gürcüstan münasibətləri. XII əsrin əvvəllərində, ön Qafqazda səlcuqi dövlətinin tənəzzül etdiyi şəraitdə gürcü çan IV David (1089-1125) səlcuq ağalığından xilas olmaq uğrunda mübarizəyə başladı. O, arxadan öz sərhədlərinin təhlükəsizliyini tə'min etmək və özünə müttəfiqlər tapmaq məqsədilə tədbirlər gördü. Məsələn, qızlanndan birini cənub qonşusu Yunanıstan imperatorunun oğluna, böyük qızı Taman isə şərqdəki sərhəd qonşusu Şirvanşah I Əfridunun oğlu III Mənuçöhrə ərə verərək onlarla qohum oldu. Bu nikah qohumluqdan daha çox siyasi məqsəd güdürdü. Sonrakı tarixi hadisələr (çar IV Davidin Şirvan torpağına hücumları) bunu sübut etdi. Çar IV Davidin Şirvanşahla qohumluğundan məqsəd təkcə şərq

sərhədlərinin təhlükəsizliyini te’min etməklə qalmayıb, lazım gəldikdə onun qüvvəsindən hərbi müttəfiq kimi istifadə etmək idi. Gurcü çan nəzərdə tuturdu ki, səlcuqlara qarşı mübarizədə Şirvanşahlarla onların mənafeyi uyğun gəlir. Onun tədbirlərindən biri də səlcuqlara qarşı mübarizədə Şimali Qafqazdakı köçəri tayfalarla hərbi ittifaqa girməsi idi. O, qıpçaq hakimi ile qohum və müttəfiq oldu. 40 mindən artıq cəsur qıpçaq cəngavərini Gürcüstana getirdi. Güclü ordu yaratdı. Bu ordudan səlcuqlara, şimaldan Gürcüstana hücum edən köçərilərə və qonşu Azerbaycan dövlətlərinə qarşı istifadə etdi.

Gürcü çarı əvvəlcə Öz gücünü qohumu və müttəfiqi Şirvanşaha qarşı hücumda sınadı. 1117-ci ildə şahzadə I Demetrenin başçılığı ilə hücuma keçən gürcü qoşunu Şirvanda şeher və kəndləri çapıb-taladı, külli miqdarda hərbi qənimət və əsir ələ keçirərək geri qayıtdı. Bu hadisədən üç il sonra, 1120-ci ilin fevralında və mayında çar IV David iki dəfə Şirvana yürüş etdi. Qəbələni, Şəkini, Şamaxım tutdu, çoxlu sərvət ələ keçirib geri qayıtdı. Həmin yürüşlər təzə təşkil olunan gürcü ordusuna gələcək döyüşlər uçün*yaxşı təcrübə qazandınnaqla yanaşı, ordunun maddi və potensial imkanlarını da gücləndirdi. Həmin ilin noyabrında Şiı*vanşah I Əfridun Dərbənd uğrunda döyüşdə öldürüldü. Hakimiyyətə oğlu III Mənuçöhr (1120-1 l60-cı illər) keçdi.

Müharibəyə hazırlıq işlərini başa çatdırdıqdan sonra çar IV David 1121-1122-ci illərdə Səlcuqi sultanı Toğrulla müharibələr apardı. Müharibə gürcülərin qələbəsi ilə başa çatdı. Sultan Toğrulun 30 minlik ordusunu məğlub edən gürcü çan onlardan dörd min nəfər əsir aldı, Tiflisi və Dmanisini ələ keçirtdi, səlcuq sultanlannm asılılığına birdəfəlik son qoydu. İbn əl-Əsir bu döyüşlərin biri haqqında belə mə’lumat verir; «Hər iki tərəf müharibəyə başladı. Qıpçaqlardan 200- ə qədər adam meydana çıxdı. Müsəlmanlar elə zənn etdilor ki, onlar aman tələb etmək üçün gəlmişlər... lakin onlar müsəlmanlara ox atmağa başladılar və müsəlmanların cərgələri pozuldu... bu surətlə müsəlmanların çoxu öldürüldü və dörd min kişi əsir alındı».

Səlcuqlar üzərindəki qələbə gürcü çarının siyasi nüfuzunu yüksəltdi və Şirvanşahın ona münasibətini qətiləşdirdi. III Mənuçöhr çar IV Davidin gücünə inandı və onun köməyinə arxalandı. III Mənuçöhr xanımı Tamarın iradəsi ile səlcuq sultanının vassallığından imtina edərək Gürcüstana yaxınlaşmağa məcbur oldu. Sənədlər təsdiq edir ki, dövləti idarə etmək işində Tamar ərinə güclü tə’sir gösterirdi.

Şirvanşah 111 Menuçöhr her il sultanın xəzinəsinə verilən 40 min dinar vergini ödəməkdən imtina etdi və onlara tabe olmayacağını bildirdi. Belə olduqda Sultan Mahmud öz ordusu ilə 1123-cü ildə Şirvana gəldi, Şamaxını tutdu və onun hüzuruna gələn 111 Mənuçöhrü həbs etdi. Bu hadisə Şirvan əhalisi içərisində narazılığa səbəb oldu. İbn əl- Əsirin yazdığına görə, «Şirvan ağsaqqallarından bir çoxu Sultana müraciət edərək, gürcülərin onlara qarşı etdiklərindən şikayətləndilər və özlərinin öz vilayətlərini qorumağa gücləri çatmadığını ona bildir- diləD>.

Səlcuq qoşunları üzərindəki qələbələrdən məst olan IV David 1123-cü ildə 30 minlik qoşunla Şirvana gəldi. Müharibənin başlanacağına heç bir şübhə qalmadı. Lakin gözlənilmədən baş verən hadisə labüd müharibənin qarşısını aldı. İbn əl-Əsirin yazdığına görə, «bunlar müharibəyə hazırlaşmaqda ikən allah öz tərəfindən bunlara bir yol açdı. Gürcülərlə qıpçaqlar arasında bir ixtilaf və düşmənçilik saldı. Həmin bu gecə bir-biri ilə vuruşub, müharibədə məğlub olub qaçanlar kimi hərəsi bir tərəfə qaçıb dağıldı». Bu hadisədən az sonra, Sultan Mahmud öz qoşunu ilə Şirvanı tərk edib İsfahana qayıtdı. Əslində bu, səlcuq sultanlannın Şirvana axınncı gəlişi oldu. Həmin il Şirvanın dirçəliş tarixi oldu.

Şirvanın müharibəyə hazır olmadığını nəzərə alan gürcü çarı oraya bir neçə dəfə qarətçi yürüş təşkil etdi. 1123-cü ilin yayında Gülüstan qalasını tutdu və xeyli qənimət ələ keçirdi. Sonrakı ilin aprelində və avqustunda dalbadal hücumlar edərək Şabranı, Buğurd qalasını, Şamaxını və Şirvanın bir sıra ərazilərini işğal edərək orada öz hərbi dəstələrini yerləşdirdi, Şirvanı özlərinin vassalına çevirdi. 1125-ci ilin yanvarında çar IV Davidin ölümü onun Şirvan haqqındakı işğal planlarını yarımçıq qoydu. Onun varisi 1 Demetrenin 30 illik hakimiyyəti dövründə Gürcüstanla Şirvan arasında müharibələr dayandı, qohumluq və mehriban qonşuluq əlaqələri sabitləşdi. Şirvanda əmin-amanlıq yarandı. III Mənuçöhr yaranmış əlverişli tarixi şəraitdən istifadə edərək çar IV Davidin hücumları zamanı dağıdılmış şəhər və qalaları bəipa etdirdi. Bakının qala divarlannı tikdirdi, Kürün üzərində yeni körpü saldırdı, geniş abadlıq işləri aparmaqla yanaşı, qoşun çəkib Gürcüstandakı qıpçaqları əzişdirdi və Arrana qalibiyyətli yürüş təşkil etdi. Onun 40 illik hakimiyyətinin son 36 ili ərzində Şirvan torpağına yadelli işğalçı ayağı dəymədi. Daxüdeki müharibələr və çəkişmələr dayandı. Təsərrüfat canlandı, mədəniyyət çiçəkləndi, məhsuldar qüvvələr inkişaf etdi. Lakin onun ölümündən sonra 1160-cı ildə oğlanları

arasında hakimiyyət uğrunda gedən mübarizə dövləti zəiflətdi. Mübarizədə qardaşlarına qalib gələn Axsitan hakimiyyəti ələ keçirdi və əsıin sonlarına qədər onu əlində saxladı. Bir mənbədə qeyd edilir ki, 111 Menuçöhrün ölümündən sonra hakimiyyət üstündə mübarizə qızışan zaman onun dul qadını Tamar kiçik oğlu ilə birlikdə Şirvanı Gürcüstanla birləşdirməyə cəhd göstərdi. Lakin Axsitan anasım Şiı*van torpağından çıxmağa məcbur etdi. O, bir ildən sonra Gürcüstan monastrlarının birində ı-ahibə kimi vəfat etdi.

Şirvanşah Axsitan Gürcüstana münasibətində atası kimi sabitqə> dəm idi. Gürcü hakimi III Georginin bacısı qızı ilə evlənən Axsitan ona ata kimi hörmət bəsləyirdi. Gürcü mənbələrində bildirilir ki, Şirvan III Georginin dövründə də vassal idi. Bununla belə mənbələrdə mə'lumat verilir ki, xəzərlər, peçeneqlər və diger tayfalar Dərbəndə, Şabrana, Müşkürə və Şirvanın Kür çayı sahillərinə yürüşlər edəndə Şirvanşah Axsitan gürcü çarının köməkliyi ilə onları dəf edirdi.

Axsitan Şirvanda hakimiyyəti təzə ələ alan vaxtlarda Azərbaycan Atabəyləri dövlətinin banisi Şəmsəddin Eldənizin qoşunu Gəncəni, Şirvanı, Bakını və Arranı ələ keçirdi. Bu hadisədən sonra Atabəy Qızıl Arslanın hakimiyyətinin əvvəllərinə qədər Axsitan Azərbaycan Atabəyləri dövlətinə sadiq qaldı. Atabəy Məhəmməd Cahan Pəhləvanın ölümündən sonra hakimiyyətə qardaşı Qızıl Arslan yiyələndi. Lakin Məhəmməd Cahan Pəhləvanın dul qadınlan və oğlanları tərəfdarları ilə Atabəy Qızıl Arslana qarşı mübarizəyə başladıqları zaman Axsitan Azərbaycan torpaqlanm ələ keçirmək məqsədilə oraya qoşun yeritdi. Lakin Şiı-vanşah ağır məğlubiyyətə uğradı. Onun qoşunları Bakıya çəkildi. Qızıl Arslan Şamaxım və Dərbəndə qədər olan torpaqları tutdu.

1191- ci ildə Atabəy Qızıl Arslan öldürüldükdən sonra Məhəmməd Cahan Pəhləvanın qadınlan və oğlanlan arasında mübarizə yenidən kəskinləşdi. Belə şəraitdə Axsitan Azərbaycanın daxili işlərinə müdaxilə etməyə cəhd göstərdi. Azerbaycanda (Arranda) hakimlik edən qardaşı Əbu Bəkrlə müharibədə məğlub olan Əmir Əmiran Ömər Şirvana-Axsitanm sarayına qaçdı, onun qızı ilə evləndi və himayə edildi. Axsitanla Əmir Əmiran Ömərin birləşmiş qüvvələri Bey- ləqandakı döyüşdə Əbu Bəkrin qoşunu tərəfindən darmadağın edildi.

1192- ci ildə Şirvana yeni fəlakət üz verdi. Güclu zəlzələ nəticəsində Şamaxıda gözəl binalar, saraylar, məscidlər, mədəniyyət abidələri yerlə yeksan oldu. Minlərlə adam, o sıradan Axsitanın qadını və

övladlan həlak oldu. Şahın iqamətgahı Bakıya köçdü. Şeherin ətrafına ikiqat daş divar çəkildi, əzəmətli «Qız qalası» tikildi. Bakı əlverişli dəniz limanı idi. Atabəy Qızıl Arslanın ölümündən sonra III Georginin qızı Tamann çarlığı dövründə (1184-1213) gürcülərin Şirvanın və Azərbaycanın daxili işlərinə müdaxiləsi gücləndi. Azərbaycan Atabəyləri dövlətinin parçalanması və əvvəlki əzəmətini itirməsi çariça Tamann ürəyindən idi. Ona görə də o, bütün gücü ile bu dövlətin dağılmasına çalışırdı. Atabəy Əbu Bəkrə qarşı mübarizə aparan Şirvanşah Axsitanı və Əmir Əmiran Öməri öz sarayında şaha layiq hörmətlə qarşıladı. Gürcü qoşununu onların sərəncamına verib döyüşə göndərdi və onlara qələbə arzuladı. Müttəfiqlər 1195-ci ilin yayında Şəmkir yaxınlığındakı döyüşdə Əbu Bəkrin qoşununu məğlubiyyətə uğratdılar. O, Beyləqana qaçmaqla labüd ölümdən yaxasını qurtara bildi. Qaliblər Azərbaycanın Gəncə, Şəmkvr və digər qalalarını ələ keçirdilər. Gəncəyə daxil olan Əmir Əmiran ömər 1197-ci ildə orada öldü, Axsitan isə Şirvana qayıtdı.

Onun övladları zəlzələ zamanı həlak olduğundan hakimiyyət üstündə qardaşları arasında gedən mübarizə illərlə davam etdi və tez- tez saray çevrilişləri baş verdi. Xeyli fasilədən sonra süjalənin daha layiqli nümayəndəsi III Feriburz hakimiyyətə keçdi. Onun şahlığı dövründə (1225-1244) Şirvanla gürcu çarlığı arasında əlaqə kəsildi.

XIII əsrin 20-ci illərindən e’tibaran Ön Qafqaza monqol hücumlarının başlanması ictimai və siyasi münasibətlərdə ciddi dəyişikliklərə səbəb oldu. Buradakı diger dövlətlərlə yanaşı, Şirvanşahlar da daxili istiqlaliyyətlərini itirdilər.

Axsitanın 37 illik şahlığı dövründə yuxanda adlan çəkilən bir-iki hərbi toqquşmanı nəzərə almasaq ölkədə ümumən, sakitlik oldu. Axsitan da atası kimi əmin-amanlığı və abadlığı sevirdi. Xarici siyasət sahəsində ağıllı və ehtiyatlı hərəkət edirdi. Müxtəlif vaxtlarda İraq səlcuq sultanlarının, gürcü çarlarının və Azerbaycan Atabəylərinin vassalı olmasına baxmayaraq, hər vasitə ilə Şirvanın daxili müstəqilliyini qoruyub saxlayırdı. III Mənuçöhrün dövründən ölkənin təsərrüfatında, iqtisadiyyatında, mədəniyyətində başlanan dirçəliş onun dövrimdə yüksəlişə çevrildi. O, Abşeronda, Bakıda, Şamaxıda, Şabranda və Şirvan torpağının digər sahələrində müdafiə qalalan, gözəl saraylar, məscidlər, mədəniyyət abidələri tikdirdi. Alimləri, fılosotlan, şairləri himayə etdi. Dənizdə hərbi donanmanı, quruda ordunu xeyli gücləndirdi.

Akademik Z.Bünyadov ilk mənbələri və tarixi ədəbiyyatı ümumiləşdirərək XII əsrdə Şirvanşahlar dövlətinin ərazisi və sərhədləri haqqında aşağıdakı məMumatı verir: «XII əsrin əvvəllərində Şirvan şimaldan Samur çayı, cənubdan Kür çayı, şərqdən Xəzər denizi ilə' məhdudlaşan bir ərazini tuturdu. Qərbdə Şirvanın sərhədi Şəki-.Mingeçevir-Yevlax xəttinə qədər çatırdı. Bənzən şimalda Dərbəndə, cənubda Beyləqan və Cəlilabad rayonlarına, qərbdə isə Gəncə, Şəmkir, Qax, Zaqatala və Şəki rayonlannın torpaqlarına qədər irəliləmişdi». Göründüyü kimi, dövlətin sərhədləri sabit və dəyişməz deyildi. Bu təbii idi. Çünki tarixi hadisələrlə bağlı olaraq sərhədlər dəyişir, kiçilir və ya genişlənirdi.

§ 2. AZƏRBAYCAN ATABƏYLƏR DÖVLƏTİ

XII əsrin 20-ci illərində yaranmış tarixi şərait nəticəsində Şirvanşahlar dövləti bərpa olundu və fəaliyyətini davam etdirdi. Lakin An-an və Azerbaycanın Kürdən cənubdakı böyük ərazisi İraqdakı seicuq sultanlarının hakimiyyəti altında qalmaqda idi. Yaxın Şərqdə baş verən siyasi dəyişikliklərin zəminində, XII əsrin 30-cu illərində Azərbaycanda tarixi hadisə baş verdi-Azerbaycan Atabəylər dövləti meydana gəldi. Yaxın və Orta Şərqin əzəmətli dövlətlərindən olan Azərbaycan Atabəylər dövlətinin yaradıcısı zəmanəsinin ağıllı diplomatı və uzaqgörən dövlət xadimi Şemseddin Eldeniz idi. O, təkcə, dövlətin deyil, adı ilə adlanan Eldənizler (1136-1225) sülaləsinin də banisi idi. Onun uşaqlığı son dərəcə məşəqqətli keçmişdi. Valideynlərini çox erkən itirib yetim qalmış, özgə qapılarında zillət çəkmiş, kömək və qayğıdan məhrum olmuş, qul bazarlarında satılaraq əldən- ələ keçmişdi.

Ancaq bu cılız uşaq heyatın bütün sınaqlanna dözə bildi. Sonradan taleyi üzünə gülərək onu Sultan II Toğrulun sarayına gətirib çıxardı.

Şəmsəddin Eldənizin fovqəl’adə fitri iste'dadı, iti ağlı, hərbi sahədə ı*əşadəti, at çapmaq, ox atmaq məharəti sultanın diqqətini cəlb etdi. Sultan II Toğrulun iltifatlı qadını Mö’minə xatunun mərhəməti və ağıllı məsləhəti sayəsnnde o, saraydakı münaqişələrə qoşulmadı. Sultana və ailəsinə sadiq qaldı. Bu xasiyyətinə görə tədricən mtbelər pilləkəninin yuxan hissəsinə qalxdı. Əvvəlcə emir vəzifəsinə yüksəldi. Suitav II Toğrul 1 l35-ci ildə ölümündən az əvvəl ona e’timad göstererək az yaşlı oğlu Arslan şaha atabəyi tə’yin etdi. Toğruldan sovra Sultan Məs'ud Şəmsəddin Eldənizi Mö’minə xatunla evləndi

rərək, onu bu ailəyə daha da yaxınlaşdırdı. O, atəbəyi olduğu Arslan şahın həm də atalığı oldu. Eldənizlə Mö'minə xatunun izdivacından Eldənizlər dövlətinin gələcək böyük hökmdarlan Məhəmməd Cahan Pəhləvan və Qızıl Arslav dünyaya gəldt.

Sultan Məs'ud 1136-cı ildə Arranı iqta şəklində Eldənizə bağışlayıb, onu Bərdəyə yola saldı. Eldəniz əmirlərin psixologiyasına yaxşı bələd olduğundan, onları öz tərəfinə çəkərək tədricən bütün Azərbaycana sahib oldu. Beləliklə, Azərbaycan Atabəyləri dövlətinin əsası qoyuldu.

Tədqiqatçılar Azerbaycan Eldənizlər dövlətinin və onu idarə edən sülalənin tarixini təşəkül (1136-1160), çiçəklənmə (1161-1191) və tənəzzül (1191-1225) dövrünə bölürlər. Birinci və ikinci dövrlərdə əldə edilən nailiyyətlər Eldənizin və oğlanlarının adı ilə bağlıdır. Atabəy Qızıl Arslanın ölümündən sonra Cahan Pəhləvanın oğlanları Əbı Bəkr (1191-1210) və Özbeyin (1210-1225) hökmdarlığı dövründə Eldənizlər dövləti tənazzülə uğradı, parçalandı və Xarəzmşahın oğlu Cəlaləddinin Azərbaycana hücumu zamanı süqut etdi.

Səlcuq şahzadələri arasında gedən mübarizədən istifadə edərək Eldəniz Sultan Məs'udun asılılığından xilas oldu və İraq sultanları ilə mübarizəni davam etdirdi. O, 1160-cı ilin payızında 20 min süvari ilə Həmədana daxil oldu və silah gücünə atabəyi olduğu Arslan şahı Sultan taxtında əyləşdirdi və başına tac qoydu. Həmin tarixdən Şəm- səddin Eldəniz İraq səlcuq dövlətinin böyük atabəyi adlandı. Əslində dövləti o özü idarə edirdi. Sultan Arslan şah onun bütün tələblərini yerinə yetirən müti icraçı idi. Dövlətin siyasi həyatında iqta sahibi olan hərbi feodallar və ali təbəqədən olan müsəlman ruhaniləri əsas rol oynayırdı. Eldəniz sultanın və özünün imkanlanndan istifadə edərək oğlanlannın feodal ierarxiyası pilləkəninin ən yüksək pilləsində möhkəmlənməsinə nail oldu. Cahan Pəhləvanı Hacib, Qızıl Arslanı isə sultan ordusunun baş sərkərdəsi tə*yin etdi. Məricəzi hakimiyyət möhkəmləndikcə, ara müharibələri dayandı, əhali sakit yaşamağa başladı. Məhsuldar qüvvələrin inkişafına, təsərrüfatın canlanmasına şərait yaradıldı.

Eldənizin daha çox qayğı gösterdiyi Təbriz və Naxçıvan Azərbaycan Atabəyləri dövlətinin paytaxtı oldu. Səlcuq sultanlannm əsas paytaxtı Həmədan şəhəri idi.

Eldənizin nüfuzundan qorxuya düşən xəlifə Arslan şahın sultanlığını təsdiq etmədi. Eldənizə qarşı özünə yaxın olan əmirlərlə hərbi ittifaqa girdi. Bundan xəbər tutan Eldəniz 1161-ci ilin yayında Həmə

dan yaxınlığındakı döyüşdə onlan məğlub etdi. Rey vilayətini iqta şəklində oğlu Cahan Pəhləvana verdi. Eldənizin vassallığını qəbul edən Rey hakimi İnanc, qızı İnanc xatunu Cahan Pəhləvana ərə verdi. Tədricən Qum, Qəzvin, Ərdəbil, Marağa, Girman əyalətlərinin hakimləri Azərbaycan Atabəylərindən asılı vəziyyətə düşdülər. Eldənizin nüfiızu təkcə Azərbaycanda deyil, Səlcuq sultanlarının hakimiyyəti altında olan bütün ərazilərdə yüksəldi. Ziya Bünyadov yazır: «Atabəy Eldəniz əsl hökmdar idi. Əmrləri o verir, iqta torpaqlarını o paylayır, dövlət xəzinəsinə o nəzarət edirdi. Sultan Arslan şah ibn Toğrulun ancaq adı hökmdar idi».

Eldənizin xarici siyasətində gürcü hakimi III Georgi ilə düşmənçilik münasibəti və onlann arasındakı qanlı müharibələr ilk mənbələrdə ətraflı əks olunmuşdu. Hər iki ölkənin hakimi 60-70-ci illərdə dəfələrlə bir-birinin ərazisinə hücumlar etmiş, on minlərlə adamı qılıncdan keçiımiş, əsir götürmüş, şəhər və kəndləri çapıb talamış və külli miqdarda sərvət ələ keçirmişdi. Mənbələrdə qeyd edilir ki, gürcü çarı III Georgi 1161-ci ilin yayında 30 min nəfərlik qoşunla Gəncəyə və Dəbil şəhərinə soxulub oranı qarət etdi. Əhalidən on min nəfər öldürdü və bir o qədər də əsir götürdü. İbn əl-Əsir həmin hadisəni belə təsvir edir: «Gürcülər 30 minə qədər əsgəri qüvvə toplayıb Dvın (Dəbil) şəhərinə gəldilər. O şəhəri qarət etdilər. Şəhər əhalisindən on minə qədərini öldürdülər, arvadlan cariyəliyə (qarabaşlığa) götürdülər və çox əsir aldılar. Arvadları soyundurdular və onlan çılpaq və ayaqyalın apardılan). Həmin mənbədə gürcü qadınlannın bu hadisəyə e’tirazı və narahatçılığı haqqında da mə'lumat vardı.

Gürcü hakiminin bu vəhşi hərəkətinə cavab olaraq Atabəy Eldəniz 1163-cü ilin yanvarında öz vassalları ilə birlikdə 500 min nəfərlik qoşunla Gürcüstana hücum edərək bir aydan artıq vuruşdu. Xeyli adam öldürdü, əsir götürdü və hərbi qənimət elə keçirdi. Bu məğlubiyyətin acı nəticələrindən ibrət dərsi almayan gürcü çan 1164-cü və 1166-cı illərdə Azərbaycana yenidən hücumlar etmiş, Gəncəyə gəlmiş, qətlə və talana başlamışdı. Eldənizin başının gürcülərlə müharibəyə qanşmasından istifadə edən Rey hakimi ona qarşı üsyan qaldırdı və xərac verməyi dayandırdı. Eldəniz bu üsyanı yatırdı və Rey hakimi İnancı öldürdü.

Eldənizlər hər dəfə gürcülərin hücumlarını daha ağır zərbələrlə dəf etmişlər. 1174-cü ilin yayında Eldənizin Gürcüstana növbəti hücumu zamanı baş verən taun xəstəliyi orduya xeyli tələfat versə de o, Naxçıvana böyük qənimətlə qayıtdı. Bir mənbədə deyilir: «Abxazlar

darmadağın edildi, müsəlmanlar elə bir qələbə çaldı ki, beləsini kimsə xatırlaya bilmirdi».

Gürcüstana hərbi yürüşdən qayıtdıqdan sonra 1175-ci ilin noyabrında Şəmsəddin Eldəniz Naxçıvanda vəfat etdi. (Ondan bir ay əvvəl qadını Mö'mine xatun vəfat etmişdi.) Az sonra Sultan Arslan şah da vəfat etdi. Sultanlıq taxtına Arslan şahın 7 yaşlı oğlu III Toğrul keçdi. Eldenizin böyük oğlu Məhəmməd Cahan Pəhləvan Sultan Toğrulun atabəyi tə'yin edildi. Onun hakimiyyətinin ilk dövrüdə Gürcüstanla müharibələr ara verməsə də mərkəzi hakimiyyət daha da möhkəmləndirildi, Ölkədə əmin-amanlıq yaradıdı. O, Azərbaycanın idarə olunmasını qardaşı Qızıl Arslana tapşırdı və eyni zamanda onu oğlu Əbu Bəkrin atabəyi tə'yin etdi. Dövlətin paytaxtı Həmədana köçürüldüyündən Təbıiz Azərbaycan hakimi Qızıl Arslanın iqamətgahına çevrildi.

Atabəy Cahan Pəhləvanın hakimiyyəti (1175-1186-cı illər) dövründə Eldənizlər dövlətinin ərazisi daha da genişləndi. Dövlət iqtisadi və siyasi cəhətdən qüvvətləndi. Eldəniz qardaşları səlcuq sultanları tərəfindən paylanmış iqta torpaqlarını öz tərəfdarları arasında yenidən bölüşdürməklə siyasi dayaqlarını möhkəmləndirdilər və onların hesabına 50 min nəfərlik süvari ordu yaratdılar. Beləliklə, Azərbaycan Atabəyləri Orta və Yaxın Şərqin ən nüfuzlu dövlətinə çevrildi. Şərqi Ənnəniyə, Şirvan, Əblət, Diyarbəkr, Fars və digər əyalətlərin hakimləri, yuxarıda deyildiyi kimi, Eldənizlərin vassalı oldular. Cahan Pəhləvanın nüfuzu sayəsində xəlifə onların daxili işlərinə qarışa bilmədi. Cahan Pəhləvan diplomatik məharətini, təcrübəsini və təşkilatçılıq qabiliyyətini mərkəzi hakimiyyətin möhkəmlənməsinə sərf etdi. Onun iradəsinə tabe olmaq istəməyən əmirləri cəzalandırdı və özünə yaxın adamlarla əvəz etdi. Yaxın adamlarından 70 nəfərini mühüm dövlət vəzifələrində yerləşdirdi. Onun son dərəcə inzibatçılığı və tələbkarlığı sayəsində dövlətdə intizam yarandı. O, əslində dövləti təkbaşına idarə edirdi. Sultan III Toğrulla nominal şəkildə olsa da, hesablaşmaq istəmirdi. Mərkəzi hakimiyyətin möhkəmlənməsi xarici siyasət sahəsində müsbət tə'sirini göstərdi. Eldənizlərin gücünə bələd olan gürcü çarı onun tələbləri ilə razılaşıb sülh bağladı. Həmçinin, Xarəzmşah Təkiş onunla hesablaşaraq dostluq etməyə başladı.

Xarici siyasət sahəsində, 80-ci illərin ortalarında Misirin və Suriyanın hakimi Səlahəddin Yusiflə münasibətlər kəskinləşərək müharibə həddinə çatdı. Cahan Pəhləvan Qızıl Arslanı qoşunla Mosula

göndərib, özü 1185-ci ildə Əhlətə gəldi. O, münaqişəni dinc yolla öz xeyrinə həll etdi. Bu onun axırıncı diplomatik qələbəsi idi. Cahan Pəhləvan geri qayıdarkən xəstələndi və 1186-cı il martın 23-də vəfat' eldi.

Cahan Pəhləvan öldükdən sonra hakimiyyət məsələsi ciddi nıüna> qişeyə səbəb oldu.* İnanc xatumm və terefdarlannın təşəbbüsünə baxmayaraq, hakimiyyətə Atabəy Qızıl Arslan keçdi. Onun hakimiyyəti (1186-1191-ci illər) dövründə ölkədə sakitlik pozuldu. Cahan Pəhləvanın dul qadını İnanc xatun Sultan III Toğrulla birləşib nühızlu əmirləri pulla ələ alaraq Qızıl Aı-slana qarşı mübarizəni davam etdirdi. Oğlanları da onunla birlikdə hərəkət edirdi. Xarəzmşah Təkiş öz casusları vasitəsilə Sultan Toğrulla Qızıl Arslan arasındakı çəkişməni qızışdırırdı. Müxalifətçilərin ordusu 1188-ci ilin martında Həmədan yaxınlığındakı döyüşdə Atabəy Qızıl Arslanı məğlubiyyətə uğratdı. Buna baxmayaraq Qızıl Arslan mübarizəni dayandırmadı. Tezliklə müxalifətçilər arasında ixtilaf başlandı, onlann qüvvəsi parçalandı. Xəlifə Nasirlə ittifaqa girən Qızıl Arslan onun hərbi qüvvələrindən istifadə etdi. Digər tərəfdən, o, qardaşının dul qadını İnan xatunla evlənib, onu və oğlanlarını öz ittifaqına cəlb etdi. Qüvvələr nisbəti onun xeyrinə dəyişdi. 1190-cı ilin payızında baş verən həlledici döyüşdə Atabəy Qızıl Arslan qələbə çaldı. Sultan Toğrulu oğlu Məlikşahla birlikdə ələ keçirdi. Toğrulun ayaqlarını qandallayaraq Naxçıvan yaxınlığında zindana saldı. Onun bütün mülkünü və iqta yerlərini özünə yaxın feodallara payladı.

Hakimiyyəti əlində möhkəmlətdikdən sonra Atabəy Qızıl Arslan xarici siyasətini davam etdirdi. Əvvəlcə Van sahilinə getdi, Bitlisi elə keçirdi. Sonra «>'olunu azmış» əmirlərə, vassallara və Toğrulun Azərbaycandakı tərəfdarlarına divan tutmaq üçün qoşunu ilə hərəkətə başladı. Gəncə yaxınlığında böyük şair Nizami Gəncəvini görüş üçün öz düşərgəsinə də'vət etdi. Nizami Gəncəvi təzəcə yazıb tamamladığı «Xosrov və Şirin» poemasını ona oxudu. Görüş zamanı Qızıl Arslan yaxınlıqdakı Həmdünyan kəndini şairə bağışladı. Lakin şair həmin kənddən vergi toplamaqdan imtina etdi. Kənd çox xırda və kasıb idi. Nizami həmin kənd haqqında yazdığı şeVdə deyirdi:

I Cahan Pəhləvanın oğlanları üç qadından doğulmuşdu. Qutluğ tnanc Mahmud və Əmir Əmiran ömərin anası İnanc xatun, Əbu Bəkrin anası türk qızı Quteybe xatun, Özbəyin anası kəniz Zahidə xatun idi.

Kend nə kənd, andınr dar bir kürəni, -
Yarımca ağacdır uzunu, eni.
Gəlirindən artıq onun xərci var,
Yanlığa əkər onu abxazlar.

Qızıl Arslan Şirvana hücum edərək Şirvanşah Axsitanı Şamaxıdan Bakıya köçməyə məcbur etdi. Sonra Gürcüstana yürüşə başladı və oradan çoxlu qənimət ələ keçirib Həmədana qayıtdı. Ömrünün sonlarına yaxın eyş-işrətə və kef məclislərinə çox meyl göstərən Qızıl Arslana qadını İnanc xatunun və onun yaxın adamlarının inamı yox idi. Ondan ehtiyat edirdilər. İnanc xatun ona qarşı gizli qəsd hazırlayırdı. 1191-ci ildə sentyabrın 21-də o, yatağında öldürüldü. Qatili tapılmadığından keşikçisi e'dam edildi.^ Qızıl Arslanın öldumlməsi haqqında mənbələrdə müxtəlif fikirlər vardı.

Atabəy Qızıl Arslanın ölümündən sonra Cahan Pəhləvanın qadınları və oğlanları arasında hakimiyyət uğrunda mübarizə yenidən kəskinləşdi. Xəlifənin və Xarəzmşah Təkişin bu mübarizədə iştirakı siyasi vəziyyəti daha da mürəkkəbləşdirdi. ELdənizlərin yamtdığı mərkəzi hakimiyyət parçalandı. İraq, Rey, Mosul, İsfahan onların asılılığından xilas oldu. Eldənizlərin əlində ancaq Azərbaycan torpaqlan qaldı. Quteybə xatun öldürülmüş Qızıl Arslanın barmağından sultanlıq üzüyünü çıxanb öz oğlu Əbu Bəkrin barmağına keçirtdi. Əmirlər onun namizədliyini müdafiə etdilər. O, Azərbaycanın hakimi oldu. Həmədanı və qonşu əyalətləri İnanc xatunun oğlanları Qutluğ İnanc və qardaşı Əmir Əmiran Ömər tutdu. Rey şəhəri İnanc xatunun öz əlində qaldı. Qardaşlar arasında mübarizə davam etməkdə idi. Əbu Bəkr 1192-ci ildə Təbriz yaxınlığında qardaşları Qutluğ İnancın və Əmir Əmiranın qoşununu məğlubiyyətə uğratdı. Qutluğ İnanc Xarəzmşah Təkişin yanına, Əmir Əmiran isə Şirvanşah Axsitanın yanına qaçdı.

Sultan III Toğrul 1192-ci ildə həbsdən azad edildikdən sonra Təbrizə hücum etdi. O, Qutluğ İnancın qoşunu üzərində qələbə çalaraq, Həmədana daxil oldu və sultanlıq taxtını ələ keçirdi. Lakin onun hakimiyyəti çox davam etmədi. Xarəzmşah Təkişlə ittifaqa girən Qutluğ İnanc 1194-cü ilin martında onu məğlub etdi və özünü də öldürdü.

^ İnanc xatun sonra Sultan Ul Toğrulla kəbin kəsdirdi. Onu zəhərləmək istədi. Lakin Toğrul bundan xəbər tutaraq həmin zəhəri inanc xatunun özünə içirdib öldürdü.

\;ırəzmşah Həmədanı tutdu. XarezmşahTəkişin ölümündən (1200-cü ;:də) sonra Əbu Bəkr qardaşı Özbeyi Həmədana əmir tə’yin etdi və Reyi yenidən ələ keçirdi. Atabəy Əbu Bəkrin hakimiyyəti (1191- 12İ0>cu illər) dövründə ölkənin daxilində feodal ara müharibələrinin güclənməsindən istifadə edən gürcü qoşunu XII əsrin sonu və XIII əsrin əvvəllərində Azərbaycana tez-tez hücumlar edirdi.

Zəif iradəli Əbu Bəkr sələflərinin en*ənələrini yaşada bilmədi. 20 illik hakimiyyəti dövründə təmsil etdiyi sülalənin nüfuzunu zəiflətdi, dövlətin süqutunun qarşısını ala bilmədi. Mənbələrdə deyildiyi kimi, onu dövlət işlərindən daha çox şəxsi istirahəti maraqlandınrdı. Onun axtında xəzinəyə gələn ümumi gəlir xeyli azalmış və dövlətin iqtisadiyyatı sarsılmışdı. Əbu Bəkrin ölümündən sonra hakimi>'yətə qardaşı Atabəy Özbək keçdi. Onun hakimiyyəti dövründə (1210-1225-ci :liər) Azərbaycan Atabəylər dövləti daha da zəiflədi. Atabəy Özbək hakimiyyətinin ilk vaxtlarında gürcü çan Tamarın və Xarezmşah .Məhəmmədin hücumlarına mə’ruz qaldı. Hətta iş elə gətirdi ki, o, Xarəzmşahın asılılığını qəbul etməyə məcbur oldu. Onlar Azərbaycanın bir sıra şeherlərini qarət etdilər. Atabəylərin bütün xəzinəsi Xarəzmşahın əlinə keçdi. O, Azərbaycan şəhərlərində öz hərbi dəstələrini yerləşdirdi. Atabəy Özbək gürcü çarının Azərbaycana hücumlarının qarşısını ala bilmədiyindən Xarəzmşahdan kömək istədi. Monqol hücumları zamanı Özbək ölkənin müdafiəsini təşkil edə bilmədi. Əyyaşlıq və sərxoşluqla məşğul olan Özbək əhali arasında hörmətini itirmişdi. Əslində dövləti onun qadını-Sultan III Toğrulun qızı Məlakə Mehrican xatun idarə edirdi. Monqollann birinci yürüşündən sonra Xarəzmşahın oğlanları Qiyasəddin və Cəlaləddin Azərbaycana qoşun çəkdi. Atabəy Özbək onlara da müqavimət göstərə bilmədi. Bacısı Cəlaliyyəni Qiyasəddinə verib onunla qohum oldu. 1225-ci ilin yayında Cəlaləddin Təbrizi tutanda Atabəy özbək əvvəlcə Gəncəyə, oradan da Əlincə qalasına qaçdı və həmin il orada öldü. Bununla da Eldənizlər sülaləsinin tarixi sona çatdı.

Orta əsrlərdəki Şirvanşahlar və digər feodal dövlətləri kimi Azərbaycan Atabəylər dövlətində də hakimiyyət irsi xarakter daşıyırdı. Dövləti Eldənizlər nəslindən olan hökmdarlar idarə edirdilər. Şəmsəddin Eldəniz adlı-sanlı kübar ailədən çıxmasa da, onun varisləri bu imtiyaza malik idilər. Atabəylərin hakimiyyəti təkcə Azərbaycan torpaqlan ilə məhdudlaşmırdı. Onlar (Eldəniz və oğlanlan) atabəyləri oiduqlan Səlcuq sultanlannm əvəzində bütövlükdə İranın, İraqın,

Yaxın Şərqin xeyli erazisini əhatə edən Selcuq dövlətini idare edirdilər. Sultanların hakimiyyəti formal xarakter daşıyırdı. Ordunu, xəzinəni və əsas dövlət aparatım əllərinə alan Eldənizlər sultanlarla hesablaşmır, müstəqil xarici siyasət yeridir, fərmanlar verir, iqtalar bağışlayır, öz yaxın adamlannı mühüm dövlət vəzifələrində yerləşdirirdilər. Dövlətdə əsas sima Atabəy Eldəniz və ya ondan sonrakı hökmdarlar idi. Eldənizlər dövlətinin idarəsində ikinci sima vəzir hesab edilirdi. Baş vəzir hökmdarın müavini və məsləhətçisi sayılırdı. Vəzir cəmiyyətdəki bütün hərəkətləri üçün ancaq hökmdarın qapısında cavab verirdi. Divan mə'murlarmın başçısı olan vəzir mə'mur- ları vəzifəyə tə'yin edir və dövlətin bütün maliyyə işlərinə, maaşa, təqaüdə, vergi sisteminə və xəzinəyə də o nəzarət edirdi.

Dövlət aparatında vəzirdən sonra gələn hörmətli vəzifə haciblik idi. Bu vəzifəni icra edənlər sarayda ən mühüm, məxfi və vacib işlərlə məşğul olurdular. Onlar hökmdarların və ailəsinin tələblərini yerinə yetirir, ölkədə və onun sərhədlərindən kənarda baş verən hadisələr haqqında hökmdara mə'lumat verir, xaricdən gələn rəsmi qonaqları qapılayır, təntənəli saray mərasimləri və tədbirlər keçirirdilər. Hətta çox vaxt hökmdarın tapşırıq və göstərişlərini vəzirə hacib çatdırırdı.

İnzibati aparatdan biri hökmdarın şəxsi əmlakını idarə edən «şəxsi divan» deyilən təşkilat idi. Dövlətin əsas xəzinəsi Əlincə qalasında yerləşirdi.

Mühüm dövlət idarələrindən biri də hökmdarın və ya onun əya- lətlərdəki valisinin dəftərxanası idi. Belə dəftərxanaların başçısı tuğ- rayi adlanırdı.

Mühüm idarələrdən biri də «hərbi idarə» idi. Ona sahibi-divan başçılıq edirdi. Bu idarə hərbi iqtalara nəzarət etməklə yanaşı, bütün rütbələrdən olan hərbçilərin ərizə və şikayətləri ilə məşğul olurdu.

Dövlət idarələrindən biri də poçt idi. O, rabitə xidmətlərini yerinə yetirməkdən əlavə casusluq mə'lumatı da toplayırdı.

Digər iri dövlətlər kimi Eldənizlər dövlətinin ərazisi də inzibati cəhətdən əyalətlərə bölünürdü. Hökmdar tərəfindən tə'yin edilən əyalət hakimi-vali bir növ onun müavini hesab edilirdi. Əyalətdəki bütün mülki və hərbi işlərə vali rəhbərlik edirdi. O, ruhanilərə qayğı və diqqət göstərməli, dini işlərdə onlardan məsləhət almalı idi. Əyalətdəki bütün idarələr, mə^murlar, xüsusilə maliyyə idarəsi valiyə tabe idi. Hətta hər bir valinin vəziri olurdu. Bu dövlətdə şahzadələr

kiçik yaşlarından əyalətlərə vali tə'yin edilirdi. Bir qayda olaraq əyalətləri idarə edən əmirlər Eldənizlər nəslindən tə'yin edilirdilər. Onlara idarə işində müstəqillik verilirdi hər bir vilayət hakimi qoşun saxlayırdı. Həmin qoşundan müharibələrdə və feodal istisman əleyhinə çıxışları yatırmaqda istifadə edirdilər. Bundan əlavə, iri şəhərlər xüsusi naiblər tərəfindən idarə olunurdu. Şəhərlərdəki mənsəb sahiblərindən biri də vergi və rüsumları toplamaq, bazarlarda ticarət qaydalarının gözlənilməsinə nəzarət etmək işi ilə məşğul olan darğalar idi.

XII əsrdə Azərbaycanda müstəqil feodal dövlətlərin yaranması və bir əsrdən artıq fəaliyyət göstərməsi, şəksiz, müsbət hadisə idi. Xarici hücumların dəf edilməsi və ölkə daxilində feodal ara müharibələrinin dayandınıması, əmin-amanlığın bərqərar edilməsi məhsuldar qüvvələrin inkişafına və təsərrüfatın bütün sahələrinin canlanmasına, mədəniyyətin çiçəklənməsinə təkan verirdi. Lakin Azərbaycandakı feodal dövlətlərin arasında sabit iqtisadi və siyasi əlaqənin olmaması, düşmənçilik münasibətlərinin davam etməsi ölkənin ümumi müdafiə potensialını zəiflədir və xarici istilaçıların hücumlannı asanlaşdırırdı. XIII əsrin əvvəllərində monqoilann və Xarəzmşahın oğlanlarının Azərbaycana hücumları belə bir dövrə təsadüf etdi.

## § 3. İQTİSADİYYAT VƏ MƏDƏNİYYƏT

Kənd təsərrüfatı. Azərbaycanın mülayim iqlimi, əlverişli təbii-coğrafi şəraiti qədim zamanlardan burada əhalinin kənd təsərrüfatı ilə məşğul olmasına imkan yaratmışdı. Lakin xalqın dırnağı ilə əkib-becərdiyi, alın təri ilə suvardığı yaşıl zəmilər, bərəkətli meyvə bağları vaxtaşırı xarici istilaçıların atlarının dırnağı altında tapdanır və məhv edilirdi.

XII əsrdə Azərbaycanda Şirvanşahlar və Eldənizlər dövlətlərinin fəaliyyət göstərdiyi yüzillikdə əhalinin kənd təsərrüfatı ilə, torpaqla məşğul olmasına yaxşı imkan yarandı. Əkinçilikdə sün'i suvamıadan geniş istifadə olunması məhsuldarlığın artmasına kömək etdi. Mildə, Muğanda, Şirvanda, Naxçıvanda, Beyləqanda, Qaradağda, Təbrizdə, Urmiyada, Ərdəbildə, Zəncanda və Azərbaycanın başqa yerlərində köhnə suvarma sistemləri bərpa olundu, yeni aı*xlar və kəhrizlər çəkildi.

İnkişaf etməkdə olan kənd təsərrüfatının əhəmiyyətli sahələrindən biri dənli bitkilər: buğda, arpa, düyü, dan, mərci, noxud, lobya və

s. idi. Hemin bitkilər, demək olar ki, əyalətlərin əksəriyyətində əhalinin tələbini ödəmək üçün becərilirdi.

Dənli bitkilərlə yanaşı, pambfq, zə’fəran, boyaq, kətan və s. kimi texniki bitkilər də becərilirdi. İstehsal edilən pambıq yerli sənətkarların ehtiyacını güdə ödəyə bilirdi. Pambıq əsasən Arranda, Gəncədə, Bərdədə və Kür çayı sahilində əkilirdi.

Şirvanda, Şəkidə, Bərdədə, Beyləqanda, Gəncədə və başqa yerlərdə ipəkçilik geniş yer tuturdu. İpək qurdu bəsləmək üçün tut bağları salınırdı. Yerli sənətkarlar xam ipəkdən zəmf parçalar toxuyur və gözəl paltarlar tikirdilər. İstehsal olunmuş xam ipəyin bir hissəsi xarici ölkələrə ixrac edilirdi.

Kənd təsərrüfatının geniş yayılmış sahələrindən biri bağçılıq idi. Azərbaycanın şəhər və kəndləri başdan-başa meyvə bağları ilə əhatə olunmuşdu. Bağlarda, demək olar ki, dünyanın bir çox ölkələrində təsadüf edilməyən dadlı meyvələr yetişirdi. Bu meyvələr dünya bazarlarının da bəzəyi idi.

Orta əsr mənbələrində Azərbaycan təbiətinin zənkinliyino, torpaqdan götürülən məhsulların bolluğuna aid maraqlı mə’lumatlar verilir. Həmçinin mənbələrdə Marağa, Xoy, Selmas, Şirvan, Dərbənd, Şabran, Gəncə və başqa yerlərdə şirin tamı və xoş ətri ilə adamı heyran edən üzümün yetişdirildiyi haqda da məMumatlara rast gəlinir.

SünM suvarma bostan bitkilərindan: qovun, qarpız, xiyar, badımcan, balqabaq və s. inkişafına səbəb olurdu.

Maldarlıq qədim zamanlardan Azərbaycanın kənd təsərrüfatının inkişaf etmiş faydalı sahələrindən idi. Dağların, meşələrin, yaylaqların və qışlaqların çoxluğu Baş və Kiçik Qafqaz dağlannm ətəklərində, Savalanda, Şirx'an, Muğan, Mil düzlərində iri və xırdabuynuzlu heyvan sürülərinin, at ilxılannin, dəvələrin bəslənməsinə imkan verirdi.

Xəzər sahilində. Kür, Araz və başqa iri çayların ətrafında yaşayan əhali balıqçılıqla, meşəlik və dağ ətəyində yaşayanlar arıçılıqla məşğul olurdular. Kənd təsərrüfatı məhsullarının bir hissəsi dünya bazarlarına çıxanlırdı.

Şəhərlər. Sənətkarlıq və ticarət. XII əsrdə Azərbaycanda müstəqil dövlətlərin fəaliyyət göstərməsi, feodal münasibətlərinin inkişafı və möhkəmlənməsi, məhsuldar qüvvələrin inkişafı və əmtəə mübadiləsinin genişlənməsi şəhərlərin böyüməsinə və yüksəlişinə şərait yaratdı.

XII əsrdə Azərbaycanın Təbriz, Marağa, Ərdəbil, Urmiya, Səl- mas, Xoy, Naxçıvan, Gəncə, Beyləqan, Şamaxı, Bakı, Dərbənd kimi

şəhərləri öz qaynar həyatı, gözəlliyi və əhalisinin miqdanna görə Avropanın inkişaf etmiş şəhərlərindən heç də fərqlənmirdi. Əhalisinin sayına, coğrafi-strateji mövqeyinə, dünya ticarət yolunun üzərində yerləşdiyinə və başqa keyfiyyətlərinə görə Gəncə Yaxın və Orta Şərqin ən böyük şəhəri idi. O, Şəddadiler dövlətinin paytaxtı olmuş, sonra isə Səlcuq sultanı Məhəmməd Təpərin və’Xarezmşah Cəlaləddinin iqamətgahı bu şəhərdə yerləşmişdi. Gözəl saraylar, mədrəsələr, məscidlər, yaraşıqlı binalar şəhərə xüsusi yaraşıq verirdi. 1139-cu il sentyabrın 30-da baş verən zəlzələ zamanı' şəhərdə 150-200 min adam tələf oldu, əzəmətli binalar yerlə yeksan edildi. Kəpəz dağının uçması nəticəsində Azərbaycanın bəzəyi olan Göy göl meydana gəldi.

Eldənizlərin paytaxtı olan qədim Naxçıvan daha da çiçəkləndi. Şəhərin ətrafına daş hasar çəkilmiş və o təbii istehkamlarla möhkəmləndirilmişdi. Gözəl sarayları, mədrəsələri, türbələri ilə fərqlənən bu şəhərə Mö’minə xatun və Yusif ibn Qusseyir türbələri xüsusi yaraşıq verirdi. Hər iki türbəni me’mar Əcəmi ibn Əbubəkr yaratmışdı. Şəhərdə mahir sənətkarlar parça, örtük, xalça, keçə, çuxa, saxsı və taxta qablar, mis və metal mə’mulatlar hazırlayırdılar. Lakin bu zəngin və qədim şəhər monqolların hücumu zamanı dağıdıldı.

Dövrün gözəl şəhərlərindən biri Beyləqan idi. Şəhər ticarət və hərbi-strateji yollann kəsişdiyi yerdə salınmışdı. Beyləqan tez-tez sahibini dəyişsə də, Eldənizlər dövründə rahatlıq tapa bildi. Monqol istilası ərəfəsində şəhərdə 40 min nəfər əhalinin yaşadığı məTumdu. Burada 30-dan artıq peşə sahəsi fəaliyyət göstərirdi. Şəhər bazannda yerli sənətkarlann hazırladığı və başqa şəhərlərdən gətirilmiş mallar satılırdı.

*Təbriz* tarixən Azərbaycan dövlətlərinin paytaxt şəhəri olmuşdu. Bu, şəhərin təbii istehkamlarla qorunmasından, əlverişli coğrafi mövqedə yerləşməsindən və digər məziyyətlərindən irəli gəlirdi. Orada demək olar ki, bütün sənət sahələri inkişaf etmişdi. Eldənizlərin paytaxtı olmaqla, burada sikkə sarayı da vardı.

Şirvanşahların paytaxtı Şamaxı, onların ikinci iqamətgahı və liman şəhəri Bakı, Şabran, Derbend şəhərləri sənətkarlıq, ticarət və mədəniyyət mərkəzləri idi. Bu şəhərlərin hərəsində on minlərlə adam yaşayırdı.

Görkəmli sənətkarlann yaratdığı orta əsr şəhərlərində hökmdarların və feodalların dəbdəbəli saraylan, hündür minarəli məscidlər, medreselər, karvansaralar, bazarlar, mehmanxanalar, qalalar, müdafiə

istehkamları, türbeler və başqa me’marhq abidələri diqqəti cəlb edirdi.

Xll əsrdə şəhərlərin yüksəlişi sənətkarlığın və ticarətin inkişafı ilə bağlı idi. Şəhərlərdə onlarla sənət sahəsi: dəmirçilik, xarratlıq, toxuculuq, sərraclıq, dərzilik, ipəkçilik, zərgərlik, misgərlik, papaqçılıq, bənnahq, boyaqçılıq, xalçaçılıq, dabbaqlıq, silahqayırma və s. yaxşı inkişaf etmişdi. Sənətlərin inkişafına görə Azerbaycan şəhərləri bir növ ixtisaslaşırdı. Şəhərlər peşələr üzrə məhəllələrə bölünürdü. Məsələn, şarbatlar, dulusçular, dabbaqlar, rəngsazlar, zərgərlər, ser- raclar və s. məhəlləsi. Şəhərlərdəki sənətkar e’malatxanaları eyni zamanda istehsal olunmuş mə’mulatlann satış dükanı idi.

XII əsrdə şəhərlərdə əhalinin çoxalması nəticəsində əkinçilik, maldarlıq və sənətkarlıq məhsullanna tələbatın artması, əmtəə-pul münasibətlərinin inkişafı və bir sıra mühüm karvan yollarının buradan keçməsi Azərbaycanda daxili və xarici ticarətin canlanmasına səbəb olmuşdu. Hindistandan və Orta Asiyadan gələn ticarət yolu Azerbaycan ərazisindən keçərək. Kiçik Asiyaya və Qərbə gedirdi. Azərbaycan quru və dəniz yolları ilə Avropanın, Yaxın və Uzaq Şərqin bir sıra ölkələri ilə ticarət edirdi. Burada təşkil olunan yarmarkalara və bazarlara Hindistandan, Çindən, Orta Asiya şəhərlərindən, Misirdən, slavyan və Skandinaviya ölkələrindən, İtaliyadan tacirlər gəliıxlilər. Azərbaycandan xarici ölkələrin bazarlanna ipəkdən, yundan və pambıqdan toxunmuş parçalar, paltarlar, mis və saxsı qablar, quru meyvə, zə'təran, düyü, neft, balıq, boyaq və başqa mallar ixrac olunurdu.

Əmtəə məhsullannın istehsalı ölkənin daxili bazarlarının genişlənməsinə səbəb olmuşdu. Şəhərlərin hamısında, demək olar ki, bazar vardı. Şəhər bazarlarında həftənin bütün günlərində alver edilirdi. Bu bazarlar eyni zamanda ictimai həyat mərkəzləri hesab olunurdu. Bumda mühüm xəbərlər haqqında car çəkilir, şəhərin, ölkənin siyasi və təsərrüfat həyatına dair ən vacib məsələlər müzakirə olunurdu.

Ölkə daxilindəki bazarlar əmtəə-pul mübadiləsinin inkişafına kömək etdiyi kimi, ayrı-ayrı əyalətlər arasında iqtisadi əlaqənin möhkəmlənməsinə də yardım edirdi. Lakin natural təsərrüfatın hökmranlığı zəminində bu proses ləng gedirdi.

Ticarətlə birlikdə pul dövriyyəsi də genişlənirdi. XII əsrdə Atabəylər və Şirvanşahlar öz adlarından pul kəsirdilər. Həmin pullar Azəi'baycanın ticarət etdiyi qonşu ölkələrə də gedib çıxırdı.

İctimai münasibətlər. XII əsrdə Azərbaycanda feodal münasibətləri daha da inkişaf edərək özünün çiçəklənmə mərhələsinə çatdığı

Jövrde torpaq üzərində bir neçə mülkiyyət forması mövcud idi. Şirvanda və Eidənizlər dövlətinin əhatə etdiyi ərazidə torpaqlann böyük bir hissəsi xəzinəyə məxsus idi. Hər iki dövlətdə bu cür toıpaqlar əvvəlki kimi divan torpağı, mülkü adlanırdı. Şahın və ya ıiökmdarın ailəsinə və sülalə üzvlərinə mənsub olan torpaqlar isə xass adlanırdı. Eldənizlərdə bu cür torpaqlara tac toıpaqları deyilirdi. Hökmdar tac torpağından istədiyi kimi istifadə edirdi. Tac toıpağından ancaq hakim sülalənin üzvlərinə iqta verilə bilərdi. Bu sülalədən evlənənlərə də tac torpağından iqta verilə bilərdi. Sarayın və hökmdar ailəsinin ehtiyacı tac toıpağının gəliri ilə ödənilirdi.

Divan torpaqlarından gələn gəlir xəzinəyə daxil olurdu. Becərilmək üçün divan toıpaqları kənd icmasına verilirdi. Kəndlilər bu torpaqlardan icma halında ellik zəmanət əsasında istifadə edir və xərac vergisini xəzinəyə birlikdə verirdilər. Kənd icmasının əlində olan belə torpaqlara icma torpağı deyilirdi.

Əvvəlki əsrlərdə olduğu kimi toıpaq üzərində mülkiyyət fonnala-nndan biri iqta adlanırdı. Şirvan və Eidənizlər dövlətinin hökmdarları özlərinə yaxın olan adamlara iqta adı ilə iri şəhərlər, bütöv əyalətlər və torpaq sahələri verirdi. İqta xidmətə görə verildiyi üçün irsi mülkiyyət hesab edilmirdi.

Mülkiyyət formalarından biri də feodalların və ə’yanların əllərində olan xüsusi torpaqlar idi ki, bu, mülk adlanırdı. Mülk toıpaqları irsi olaraq nəsildən-nəsilə keçə bilirdi. Feodal həmin toıpağı başqasına bağışlaya və sata bilərdi. Mülk sahibi dövlətə xərac verirdi.

Məscidlərin, ruhani və xeyriyyə təşkilatlarının, müqəddəs yerlərin ixtiyarında olan torpaq sahaiəri vəqf adlanırdı. Bu torpaqlann gəliri məscidlərin, mədrəsələrin və ruhani idarələrinin ehtiyaclarına sərf olunurdu.

Feodal münasibətləri inkişaf edib möhkəmləndikcə kənd'ilərin və sənətkarlann istismarı da küclənirdi. Əhalinin əksəriyyətini təşkil edən kəndlilər idi. Yanmtəhkimçi həyat keçirən kəndlilərin vəziyyəti çox ağır idi. Onlar əkinçilik, maldarlıq, bağçılıq və kənd təsərrüfatının başqa sahələri ilə məşrul olurdular. Dövlətin, feodalların, vəqf idaıələrinin torpaqlarında yaşayan mükəlləfıyyətli kəndlilər-rəiyyət torpaq sahibinə vergi verir və müxtəlif mükəlləfiyyəti yerinə yetirirdilər. Kəndlilərin ikinci qismini heç bir torpaq payı, istehsal alətləri olmayan və torpaq sahiblərinin təsərrüfatlarında işləməyə məcbur edilən kəndlilər—əkərlər təşkil edirdilər. Feodal cəmiyyətinin

bütün ağırlığı rəiyyətin və əkərlərin üzərinə düşürdü. Kəndliləri var-yoxdan çıxaran feodal vergi sistemi və müxtəlif adda vergilərin ağırlığı idi. Kəndlilər və sənətkarlar istehsal etdikləri məhsulun 70 faizə qederini feodallara ve xəzinəyə verməli olurdular. Lakin nə ilk mənbələrdə, nə də tədqiqat əsərlərində əhalidən alınan vergilərin dəqiq miqdarı və toplanması prinsipi ətraflı verilmir. Eldənizlər dövlətində xəzinəyə daxil olan vergilərin miqdan 8,5 milyon Abbasi dinan həcmində idi.

Ağır vergilərdən biri torpaq vergisi - *xərac* idi. Xərac pul və ya natura şəklində alınırdı. Əvvəlki dövrlərdə olduğu kimi müsəlman olmayan əhalidən *cizyə* deyilən vergi toplanırdı. Xass torpaqlanndan və iqta sahiblərindən uşr deyiləi onda bir vegisi toplanırdı. Adından göründüyü kimi, bu gəlirin ondan birini təşkil edirdi. Köçəri maldarlar otlaqlardan istifadə etdikləri üçün xəzinəyə *haqq* deyilən vergi verirdilər.

Qarauldä dayanan hərbi və ya mülki dəstəni, yaxud da rəsmi şəxslər və onların atlarını yemlə tə'min etmək üçün *ələf* adlı vergi verirdilər.

Əhali hakim təbəqənin nümayəndələrini və onların qulluqçularını, atlarını öz evlərində yeləşdiyrməli və yedizdirməli idilər. Bu cür xidmət üçün alınan vergi nüzl adlanırdı. Gömrük və gözləmə haqqı üçün təbəkümat vergisi verilirdi. Bu vergidən yalnız dini idarələr azad idi. Feodal toyları zamanı əhalidən süd pulu, cehiz pulu məqsədilə şir baha deyilən vergi toplanırdı. Vergiləri saymaqla qurtaran deyildi. Monqol istilalan zamanı vergilərin sayı qırxı keçmişdi.

Kəndliləri əsarətə almağın başlıca vasitələrindən biri, vergilərin toplanması sistemi idi. Şirvanşahlar və Eldənizlər dövlətlərində dövlət və iri feodallar vergilərin toplanmasını bə'zən icarəyə verirdilər. İcaredarlar isə bundan sui-istifadə edərək, verginin miqdarını daha da aıtırır ve xalqı soyub talayırdılar.

Vergilərin ifhıt dərəcədə ağırlığı ve zorla toplanması, hüquq-suzluq əhalinin əksəriyyətini təşkil edən torpaqsız və yoxsul kəndlilərin vəziyyətini son dərəcədə ağırlaşdırırdı. Zülmdən cana doymuş kəndlilər silahlı dəstələr düzəldir, feodalların və vergi topiayanlann üzərinə basqınlar edirdilər. XII əsrdə Azərbaycanda bir sıra kəndli çıxışları baş vermişdi.

Sənətkarların da vəziyyəti yaxşı deyildi. Sənətkarlıq inkişaf etdikcə sənət adamları arasında təbəqələşmə gedirdi, sənətkarlar biliklə

rinə və təcrübələrinə görə dərəcələrə bölünürdülər. Yüksək dərəcəli sənətkarlar usta adlanırdı. Onların kömekçilerine xelifo, seneti teze öyrənənlərə isə şagird deyilirdi. Şagirdlikdən ustalığa çatmaq üçün uzun illər bilik və təcrübə qazanmaq tələb olunurdu. E*malatxana sahibi çox vaxt özü işləmir, xəlifələrin və şagirdlərin əməyini istismar edirdi. Ümumiyyətlə, şagirdlərə əmək haqqı verilmirdi.

Ustalar, onların köməkçiləri və şagirdlər rəsmi olaraq azad idilər. Lakin onlar hazırladıqları mə'mulatın müqabilində dövlətə və feodala vel'gi verirdilər. Bu vəziyyət şəhər əhalisinin əsas hissəsində dövlətə, tacirlərə, sələmçilərə, feodal-ruhani təbəqəsinə qarşı kin və qəzəb hissi doğururdu. Sənətkarlığın inkişafı onun daxili quruluşuna təşkilat tə’sisatlarının yaranmasına səbəb olmuşdu. Peşə birləşmələri həmkar adlanırdı. Sənətkarların peşələri üzrə bir təşkilatda birləşməsi onlann istismarçılara qarşı mübarizəsini asanlaşdınrdı. XII əsrin birinci yarısında Şamaxıda, Beyləqanda, Gəncədə, Təbrizdə və başqa şəhərlərdə şəhər yoxsullannın və sənətkarların üsyanı baş verdi. Lakin bu üsyanlar amansızlıqla yatırıldı.

Orta əsrlərdə başqa ölkələrdə olduğu kimi, Azərbaycanda da feodal istismanna qarşı sinfi mübarizə, əsasən, dini bayraq altında aparılırdı. Məhz XII əsrdə Azərbaycan şəhərlərində dini pərdə altında fəaliyyət göstərən sənətkar təşkilatları böyük nüllıza malik idilər. Onlar insanlara dini e’tiqadlarından asılı olmayaraq, tərəfkeşlik etmədən yanaşmaq kimi cəsarətli tələb irəli sürürdülər. Əxi (qardaş) adlanan bu təşkilatların üzvləri mübariz və xeyirxah adamlar idilər. Əxi- lər, təşkilat üzvlərindən topladıqları maliyyə vəsaitindən ehtiyacı olan məsləkdaşlara yardım edirdilər.

Ərəb səyyahı ibn Bətutə əxilər haqqında yazırdı; «Bütün dünyada əxilər kimi kimsəsizlərə və yurdsuzlara bu qədər qayğı göstərən, adan doyuzduran, ehtiyacı olanlara kömək edən, zorakılığa qarşı çıxan, qəddar hökmdarları və onların nökərlərini öldürməyə hazır olan insanlar tapmaq mümkün deyildi».

Məktəb və elm. Azərbaycan xalqı uzun müddət istiqlaliyyət uğrunda apardığı mübarizə nəticəsində xilafətin asılılığından xilas olunduqdan sonra IX-XI əsrlərdə yaranan müstəqil feodal dövlətlərin (Şirvanşah, Məzyədilər, Şəddadilər, Sacilər, Salarilər, Rəvvadilər), daha sonra yenidən bərpa edilən Şirvanşahlar və Azerbaycan Atabəy- iər dövlətlərinin yaranması xalqın taleyinə və tarixi inkişafına güclü lə'sir göstərdi. Təsərrüfatın bütün sahələri canlandı. Sənətkarlıq, tica

rət, şəhərlər tərəqqi yoluna qədəm qoydu. Əhali artdı və məhsuldar qüvvələr xeyli inkişaf etdi, ölkənin siyasi və iqtisadi heyatında baş veı-ən dəyişikliklər öz əksini mədəniyyət sahəsində daha qabarıq şəkildə büruzə verdi.

12-ci yüzillik əbəs yerə Azerbaycan mədəniyyətinin «qızıl dövrü» adlandırılmır. Bu intibjüı dövrü xalqımız üçün ona görə qiymətlidir ki, dünya poeziyasının güneşi Nizami Gəncəvi və onun müasirlərinin, ədəbiyyatımızın, incəsənətimizin və elmimizin böyük dühalarının yaşadığı dövrdür.

Şəhərlərdə məscidlər yanında mədrəsələr və məhəlli məktebler-mollaxanalar vardı. Bu mədrəsələrdə və məktəblərdə sxolastik dini elmlərlə bərabər ərəb dilinin serf-nehvi, təbabət, nücum, Şərq dilləri, ədəbiyyat, məntiq və başqa fənlər tədris olunurdu. Məktəblərdə oxuyanlar feodalların, tacirlərin və ruhanilərin övladları idi. Geniş xalq kütləsi elmdən və təhsildən məhrum edilmişdi. Feodal ə’yanlar öz övladlarını ali təhsil almaq üçün Yaxın Şərqin mərkəzi şəhərlərinə göndərirdilər.

Ümumiyyətlə, IX-XII əsrlərdə müsəlman Şərqində elm və mədəniyyət yüksək səviyyədə idi. Elmin inkişafını təkcə ərəblərin adı ilə bağlamaq düzgün olmazdı. O, vaxtı ilə xilafətə tabe olan özbəklərin, taciklərin, türkmənlərin, azərbaycanlıların, iranlıların və başqa xalqlann birgə fəaliyyəti nəticəsində yaranır və inkişaf edirdi. Həmin xalqların mədəniyyəti bir-birinə qarşılıqlı surətdə tə’sir etməklə tərəqqi edirdi.

Şərqin böyük mütəfəkkirləri Əbu Əli ibn Sina, Biruni, Təbəri, Mes’udi, əl-İstohri, Rudəki, Firdovsi və ibn Rüşdün, qədim yunan filosoflarından Aristotel, Platon və başqalannın yaradıcılığı ilə tanışlıqdan faydalanan Azərbaycan alimləri qiymətli elmi əsərləri ilə dünya mədəniyyətinin zənginləşməsində böyük xidmət göstərmişlər. Azerbaycan mədəniyyəti xalqın keçmişi zəminində yaranır və tərəqqi edirdi.

Yaqut Həməvi Şərqin böyük şəhərlərində təhsil alan, yaşayıb-yaradan onlarca azəı-baycanlı alimin adını qeyd edir. Məkki ibn Əhməd əi-Bərdəi, Səid ibn Əluri el-Əzdi, Əbdüləziz ibn ei-Həsən əl-Bərdəi, Əbdülhəsən Yə’qub ibn Musa əl-Ərdəbili, Səid ibn Əmnıl Bərdəi, Əbubəkr Hüseyn ibn Əli Yezdani, Əhməd ibn Süleyman Təbrizi, Babakuhi-Bakui, Mir Hüseyn Şirvani, Fəqih Əbülvəfa Məhəmməd Mərəndi, Bəhmənyar ibn Mərzban, Xətib Təbrizi elmin müxtəlif sahələrində şöhrət qazana bilmişdilər.

Azerbaycan alimləri tekcə qonşu Gürcüstanla və Ermənistanla deyil, həm də Şərq ölkələri ilə qarşılıqlı mədəni əlaqələri möhkəmləndirirdilər.

Məhsuldar qüvvələrin inkişafı və xalqın öz azadlığı uğrunda mübarizəsi milli mədəniyyətin inkişafına səmərəli te’sir göstərirdi.

IX-XII əsrlərdə şəhərlərin dirçəlməsi və şəhər həyatının canlanması ile əlaqədar, dünyəvi elmlər sırasında nücum elmi daha çox diqqəti cəlb etməkdə idi. Fazil Fərideddin Şirvani 3Ü ildən artıq bir müddətdə müntəzəm olaraq astronomiya elmi ilə məşğul olmuşdu. Dövrünün görkəmli astronomlarından olan Fazil Fərideddin Şirvani bir sıra ulduz cədvəli tərtib etmişdi. Örənqalada arxeoloji qazıntı zamanı tapılmış gil lövhə Azərbaycanda astronomiya elminin inkişaf etdiyini gösterir. Həmin lövhənin üzərində göy qübbəsinin şəkli çəkilmiş və planetlərin yerlərini deyişmə yollan qeyd olunmuşdur.

Bu dövrdə məntiq və fəlsəfə sahəsində daha böyük irəliləyiş nəzərə çarpırdı. Tacik filosofu Əbu Əli ibn Sinanın məntiq və fəlsəfə sahəsindəki böyük əsərləri, habelə qədim yunan fəlsəfəsinin, xüsusilə Aristotel fəlsəfi irsinin Yaxın Şərqdə yayılması Azerbaycanda bu elmə marağı daha da artırmışdı. Görkəmli filosof Behmənyar ibn Mərzban Əbu Əli ibn Sinanın şagirdi və davamçısı olmuşdur. Bəh- mənyar hələ XI əsrdə göstərirdi ki, hər şeyin əsasını ən ümumi mə’nada varlıq təşkil edir. O, səbəb və nəticə haqqındakı tə'limi ilə dini ideologiyaya zidd çıxırdı. Behmənyar hərakət, zaman və məkan fəlsəfi kateqoriyalarının düzgün elmi şərhini verərək onlann bir-biri ilə möhkəm vəhdətdə olduğunu göstərmişdi. Onun «Məntiqə dair zinət kitabı», «Təhsil kitabı», «Gözəllik və səadət kitabı», «Musiqi kitabı», «Metafizika elminin mövzusuna dair traktat», «Mövcudatın mərtəbələri» adlı əsərləri müəllifinə ölməz şöhrət qazandırmış və müxtəlif vaxtlarda bir neçə xarici dildə çap olunmuşdur. Təkcə Azərbaycanda deyil, orta əsrlərdə müsəlman Şərqində də fəlsəfi fikrin inkişafında Bəhmənyarın böyük rolu olmuşdur. O, özünün elmi nəticələrinə görə materializm ilə idealizm arasında tərəddüd edirdi.

Görkəmli filosof Xətib Təbrizi də bu dövrdə yaşayıb-yaratmışdır. O, fəlsəfə, məntiq, sintaksis və ədəbiyyatşünaslığa dair bir neçə görkəmli əsərin müəllifi idi. Xətib Təbrizi (1030-1108-ci illər) Təbrizdə doğulmuş, Bağdadda, Şamda ve Misirdə təhsil almışdır. O, Əbülüla Məəri kimi məşhur ərəb filosofunun tələbəsi olmuş. Bağdaddakı «Nizamiyyə» mədrəsəsində müəllimlik etmişdi. Müsəlman Şərqində

o, iradəli ve iste’dadlı alim kimi tanınmışdır. Onun əsərlərinin bir hissəsi Avropa dillərinə də tərcümə edilmişdir.

Təbrizli alimlərdən Əbu Zəkəriyyə Yəhya ibn Əli və Əbu Mənsur ibn Əhməd de bir sıra görkəmli əsərlərin müəllifi olmuşlar.

Hüquqşünaslıq sahəsində şamaxılı Əbubəkr Məhəmməd Şiı-vani və Bərdəi Məhəmməd ibn Abdulla məşhur idilər. Bərdəi Məhəmməd ibn Abdulla Bərdədə doğulmuş, Bağdadda yaşamışdır. O, müsəlman hüququna aid «Müxalifətçilərə cavab», «Müsəlman hüququnun əsaslarına dair məcəllə», «İmamətə dair kitab» və s. əsərlərin müəllifidir.

Dünyəvi elmlərlə yanaşı, Azərbaycanda nəqqaşlıq və xəttatlıq da yaxşı inkişaf edirdi. Görkəmli nəqqaşların saxsı qablar üzərində nəqş etdikləri müxtəlif heyvan, insan və bitki rəsmləri insanı heyran edirdi.

Dövrün nəfis və geniş yayılmış sənətlərindən biri də me’marlıq idi. Azərbaycan me’marlığının özünəməxsus gözəl xüsusiyyətləri var idi. Me’marların Təbrizdə, Marağada, Ərdebildə, Bakıda, Beyləqan- da, Bərdədə, Gəncədə, Şamaxıda, Naxçıvanda və digər şəhərlərdə yaratdıqları abidələr öz gözəlliyi, orijinallığı, üslub və möhkəmliyi ilə dünya me’marlığının inkişafına xeyli tə’sir göstərirdi. Yaqut Həməvi yazır ki, «Marağada çoxlu qədim abidələr, binalar, məktəblər və yaxşı xanəgahlar vardır». Bu fikri Azərbaycanın başqa şeherləri haqqında da söyləmək mümkündür. Maraqlıdır ki, IX-XII əsrlərdə yaradılan me’marlıq abidələrinin bir hissəsi mühafizə ediləmk dövrümüzə qədər gəlib çatmışdır. Bu ölməz sənət nümunələrini yaradanlar xalq içərisindən çıxmış məşhur sənətkarlardır. Onlardan dəmirçi usta İbrahimin (Gəncə), bənna Məhəmməd Əbubəkr oğlunun (Bakı), me’mar Möhsünün (Bakı), bənna Aşur İbrahim oğlunun (Bakı), nıe’mar Əmireddin Məs’ud və Əcəmi Əbubəkr oğlunun (Naxçıvan), bənna Əbu Mənsur ibn Musanın (Urmiya) ve başqalarının adlan Orta Asiyada və Yaxın Şərqdə daha məşhur olmuşdur.

Bu dövrün görkəmli sənətkarlarından biri naxçıvanlı Əcəmi Əbubəkr idi. Onun Naxçıvanda tikdiyi Yusif ibn Qasirin^ ve Atabəy Məhəmməd Cahan Pəhləvanın arvadı Mö’minə xatunun türbələri başdan-başa həndəsi nəqşlər ve kitabələrlə bəzədilmişdir. Hər iki abidə Azərbaycan me’marlığmın şah əsərlərindəndir. Naxçıvan me’marlıq məktəbinin tə’siri ilə Əlincə çayı sahilindəki Xanəgah kəndində sərdabə. Urmiyada Üç günbəz, Marağada Göy günbəz və

3 Yerli əhali ona «ibn Quseyyir» deyirdi.

başqa abidələr yaradılmışdır. Bunlardan əlavə, Azərbaycan me’mar> lari onlarca gözəl saraylar, məscidlər, karvansaralar, körpülər, bürclər və qalalar ucaltmışlar.

Araz çayı üzərindəki Xudafərin körpüsü, Şamaxı yaxınlığındakı Gülüstan qalası, Ağsu çayı yaxınlığındakı Qəleybuğurd qalası, Naxçıvan yaxınlığındakı Əiincə qalası, Lerikdəki Oğiaoqala, Bakıdakı Qız qalası və digərləri belə möhtəşəm abidelərdendir. Müdafiə əhəmiyyətli qalahır və bürclər içərisində həm sənətkarlıq baxımından, həm də hərbi-strateji cəhətdən Qız qalası xüsusilə fərqlənir.

Bakı me’marlıq məktəbinin ən gözəl və əzəmətli abidəsi olan Qız qalası XII əsrdə yaradılmışdır. Bununla belə, bu abidənin daha əvvəllər tikilməsi haqqında da maraqlı fikirlər vardır. Qız qalası sal qaya üzərində ucaldılmışdır. Me’marlıq formasına görə Şərqdə məşhur abidə hesab olunan bu talanın me'man Məs’ud ibn Davud olmuşdur. Abidənin hündürlüyü 28 m, diametri 16 m, divarının qalınlığı 4-5 m- dir. Bürcün içərisi 8 mərtəbəlidir. Mərtəbələr yonma daşlardan hörülmüş günbəzlərlə öıtülmüşdür. Mərtəbələr arasında əlaqə yonulmuş daşlarla hörülən pilləkənlər vasitəsilə saxlanılır. Bu mərtəbələrdə eyni vaxtda 250 nətər adam yerləşə bilir. Bürcün yuxan hissəsində düzəldilmiş meydandan düşmənə qarşı müdafiə vasitəsi kimi istifadə olunurdu.

Uca dağ başında inşa edilmiş Gülüstan qalası təbii qayalar və daş divarlarla əhatə edilmişdir. Bu alınmaz qalada Şirvanşahlann sarayı yerləşirdi. Yaxınlıqdakı bulaqdan saxsı borularla qalaya su çəkilmişdi. Həmçinin qaladan çıxmaq üçün gizli yeraltı yol vardı.

Azərbaycan me’marlıq məktəbinin nümayəndələri Orta Asiyanın və Yaxın Şərqin Səmərqənd, Ürgenc, Buxara, Herat, Məşhəd, İsfahan, Bağdad kimi zəngin və qədim şəhərlərində əzəmətli abidələrin tikintisində de iştirak etmişdilər.

Lakin başqa sənətkarlar kimi, me’marlann da güzəranı xoş keçmirdi. Onlann yaratdığı gözəl saray, qəsr və qalalarda feodal ə’yanlar yaşayırdılar. Be’zən isə yaratdıqları əfsanəvi abidələr məşhur me'marlara bədbəxtlik gətirirdi.

Ədəbiyyat və incəsənət. Azərbaycanda baş verən ictimai, iqtisadi və siyasi hadisələr öz bədii əksini ədəbiyyat sahəsində tapırdı. Şifahi və yazılı ədəbiyyat inkişaf edirdi. Şəhərlərdə və oturaq əhali içərisində ən çox sehrli nağıllar və dini rəvayətlər yayıldığı halda, maldar əhali arasında aşıq yaradıcılığı və bayatılar daha çox inkişaf

etmişdi. Yazıçılann eserlerinde ədəbiyyatın klassik formalan inkişaf etdirilirdi. Şifahi xalq ədəbiyyatında əsatir, yazılı ədəbiyyatda isə real həyat ünsürləri güclü idi.

Maldarlıqla məşğul olan əhali şəhər mədəniyyətindən nisbətən geridə qalırdı. Onlann daimi məskəni yox idi. Köçərilər arasında ozanların böyük nüfuzu vardı. Onlar oymaq-oymaq gəzərək, xalq qəhrəmanlannın adına dastanlar düzəldir və onu təbliğ edirdilər. Ozanlar eyni zamanda xalqın məsləhətçisi, bilicisi hesab olunurdular. Ən məşhur ozanları xalq hörmətlə dədə adlandırırdı.

X-XI əsrlərin yadigarı olan «Dədə Qorqud» dastanlarını da bu ozanlar yaratmışlar. «Dədə Qorqud» dastanları Azerbaycan ədəbiyyatı tarixində şifahi xalq yaradıcılığının ana dilində qələmə alınmış hələlik ilk ən böyük ədəbi abidəsidir. Bu dastanlarda əsasən oğuzların məişəti tesvir olunur. Bu dastanlarda tesvir edilən hadisələr Azərbaycan erazisində cərəyan edir. Əsərdə Göyçə gölünün, Əlincə qalasının, Şeruıaın, Bərdənin, Gəncənin, Dərbəndin adı çəkilir. Bu əsərin dili qrammatik quruluşuna görə türk dillərinin hamısından daha çox Azərbaycan dilinə yaxındır ve onun müəyyən inkişaf mərhələsini əks etdirir. «Dedə Qorqud» dastanlanndakı bütün obrazlı ifadələr canlı danışıq dilindən alınmışdır. Bu abidə sonrakı şifahi və yazılı ədəbiyyatımızda da derin izlər buraxmışdır.

X-XII əsrlərdə yazılı ədəbiyyatın geniş yayılmış formalarından biri saray ədəbiyyatı idi. Saray şairləri Şamaxıda və Təbrizdə hökmdarların sarayında yaşayırdılar. Həmin şairlər hakim feodal-ruhani gö- riişlərini təbliğ edirdilər. Saray ədəbiyyatında dini mövzularla bərabər, dünyəvi mövzular da mühüm yer tuturdu. Burada ölkədə baş verən tarixi hadisələr, ayn-ayn hökmdarlar, saray ə’yaniarı, feodallar tə’riflənir, onlann şənlərinə mədhlər söylənirdi. XI əsr saray şe'rinin görkəmli nümayəndəsi Qetran Təbrizidir. O, Təbriz şəhəri yaxınlığında - Şadiabadda doğulmuş (1010-1080-ci illər), sonra Gəncəyə gəle- ı*ək Şeddadilər sarayında böyük hörmət qazanmışdır. Şair Təbrizə qayıtdıqdan sonra da Gəncə və Naxçıvan sarayları ile əlaqə saxlamışdır. Qətran Təbrizi tarixi mənzumələrində XI əsrdə ölkədə gedən qanlı müharibələri təsvir etmişdir. O, bir çox tarixi hadisələrin, tesvir etdiyi döyüşlərin şahidi olmuşdur. Onun Təbriz zəlzələsinə həsr etdiyi şe'r tarixi baxımdan daha əhəmiyyətlidir. Qetran Təbrizi özündən sonra gələn şairlərə də güclü tə*sir göstərmişdir. Onun əsərləri Əbulüla, Fə- ləki və Xaqani kimi şairlərin yaradıcılığında mühüm rol oynamışdır.

Qətran Təbrizidən sonra saray şairləri içərisində diqqəti cəlb edən Əbülüla Gəncəvi idi. O, Gəncədə doğulmuş və təhsilini də orada al* mışdı. Dərin biliyi və iste’dadına görə o, Şirvanşahlar sarayında «şair* lorin padşahı» rütbəsinə yüksəlmişdi. Fələki Şirvani və Əfzələddin Xaqaninin yetişməsində Əbülülanın böyük xidməti olmuşdur.

Fələki Şirvani (1106-1146-cı illər) Şamaxıda doğulmuş« təhsilini orada almış və nücum elmini dərindən mənimsəmişdnr. Dövrünün görkəmli münəccimlərindən hesab olunan Fələki nücum elminə aid kitab da yazmışdır. Onun şe’rlərində Şirvanşah Mənuçöhrün apardığı müharibələrin dəhşəti təsvir olunur.

XII əsrdə Azərbaycanda saraydan kənarda inkişaf edən demokratik ədəbiyyatın görkəmli nümayəndələrindən biri şairə Məhsəti Gəncəvidir. Onun bədahətən söylədiyi rübailər, müasirləri ilə şe’rləş- məsi uzun müddət xalq içərisində ağızdan-ağıza söylənərək dastana çevrilmişdi. Məhsəti xanım dövrünün iste'dadlı şairəsi olmaqla xalq içərisində böyük hönnət qazanmışdı. Onun ictimai-əxlaqi mövzuda yazdığı rübailər nəinki Azərbaycanda, hətta bütün Yaxın Şərq ölkələrində geniş yayılmışdı.

XII əsr Azərbaycan ədəbiyyatının görkəmli simalarından biri də Əfzələddin Xaqanidir. Xaqani (1120-1199-cu illər) Şamaxıda sənətkar ailəsində doğulmuş, ilk təhsilini də savadlı ^ir şəxs olan əmisi Kafiəddin Ömər Osman oğlundan almışdır. Əfzələddin Xaqani uşaqlıqdan elmə böyük maraq göstərirdi. O, ərəb və fars dillərində sərbəst danışır, dilçiliyi, fəlsəfəni, məntiqi, nücumu, riyaziyyatı, qanunşünas- lığı və şəriəti gözəl bilirdi. Coşğun təbi və şairlik iste'dadı Əbülüla Gəncəvinin diqqətini cəlb etdiyindən, Əfzələddin Şirvanşahlar sarayına də’vət olunmuş və tezliklə «Xaqani» təxəllüsü qazanmışdır. Şairlər içərisində şöhrət qazanmasına baxmayaraq, saray mühiti onu ıısandırır, xalqdan təcrid edilmiş həyat onu sıxırdı. Xaqani şe'rlərinin birində özünün xalqa yaxınlığını bildirərək deyirdi:

İstəmirəm adımı çağırsınlar Xaqani;
Mən yoxsullar şairi, Xəlqaniyəm, Xəlqani!

Şair mənhus sarayın məngənəsindən xilas olmaq məqsədilə, ziyarət adı ilə 1156-cı ildə Yaxın Şərqə səyahətə çıxır. Bir çox şəhərləri gəzir. Səfər zamanı «Mədain xerabələri» adlı fəlsəfi şe’rini və «Töhfətül-İraqeyn» məsnəvisini yazır. Onun yüksək fəlsəfi mə’na daşıyan məşhur «Mədain xərabələri» adlı qəsidəsində şaha ve saraya

olan nifrət açıq şəkildə hiss olunur. O, əsərdə Sasanilərin paytaxtı Mədainin acı aqibətini təsvir etməklə, müasiri olan şahlara və ə Oyanlara ibrət dərsi vermək istəmişdir. «Töhfətül-İraqeyn» əsərində isə səfər zamanı gördüyü şəhərlərdən, xalqlardan, tanış olduğu dövlət xadimlərindən, alimlərdən bəhs etmişdir.

Xaqani 1160>cı ildə səyahətini başa çatdırıb, yenidən saray məngənəsinə düşür. O, Şirvanşah Axsitanın təhqirlərinə dözməyərək, 1170-ci ildə Beyləqana qaçarkən şahın adamlan tərəfindən tutulUb, geri qaytanlır və Şabran qalasına salınır. Həbsxanada olduğu 7 ay müddətində o, «Həbsiyyə» adlı şe’rlərini yazır. Onun ictimai və fəlsəfi mə*na daşıyan bir sıra şeVləri həbsdə olduğu zaman qələmə alınmışdı. Xaqanİ 1173-cü ildə ailəsi ilə birlikdə Təbrizə köçür və ömrünün sonuna qədər orada yaşayır. Onun həyatının son illəri iztirablı və kədərli keçmişdir. Ailəsində baş verən fəlakətlər, cavan oğlunun, qızının və arvadının ölməsi onu sarsıtmışdı. Tənhalığa dözməyən şair şeirlərinin birində deyirdi:

Bir həmdəmim olaydı, bir yoldaşım olaydı
Gecə-gündüz sinəmi yandıranda qəm-kədər.

Xaqani sənətdə yeniliyi sevən yaradıcı bir şair idi. O, şe’rin, sənətin tərbiyəvi qüdrətinə inanırdı.

Xaqani öz müasirləri olan alim və yazıçılann çoxu ile tanış idi. O, fanatik dindar olmamış, həyata açıq gözlə baxmışdır. Xaqani mütərəqqi yol tutaraq, xalqlar arasında dostluğun tərəfdan olmuşdur.

Xaqaninin yaradıcılığı özündən sonra gələn sənətkarlara güclü təfsir göstərmişdir.

Milli mədəniyyətimizin «qızıl əsrini» yaradanlardan en görkəmlisi şair Nizami Gəncəvi (1141-1209-cu illər) olmuşdur. Onun yaradıcılığı ilə orta əsr Azərbaycan ədəbiyyatında və ictimai fikir tarixində, sözün əsl mə’nasında, yeni bir dövr başlanmışdır. Il41-ci ildə Gəncədə doğulan İlyas Yusif oğlu Nizami uşaqlıqdan yetim qalmasına baxmayaraq, mədrəsə təhsili almış, ciddi mütaliə yolu ile məntiqi, fəlsəfəni, tarixi, astronomiyanı, coğrafiyanı, musiqişünaslığı, rəssamlığı və bir sıra başqa elmləri dərindən mənimsəmişdi.

Böyük bədii qüvvə və fəlsəfi dərinliyə malik olan Nizami poeziyası təkcə orta əsr Azerbaycan mədəniyyətinə deyil, həm de bütun ' Şərq mədəniyyətinə qüdrətli te’sir göstərmişdi.

Doğma xalqının qəhrəmanlıq tarixini və zəngin mədəniyyətini sonsuz məhəbbətlə sevən Nizami Gəncəvi başqa xalqların da mədəniyyətinə dərin hörmət bəsləmişdi. Onun zəngin irsində bu cəhət xususilə duyulmaqdadır. Nizami hələ gəncliyindən şe’rin ülviliyini və şəı*əfini uca tutmayan saray həyatından kənarda qalmağa çalışmışdır. Şirvanşah Axsitan və Atabəy Qızıl Arslanın onu saraya də’vət etmələri müsbət nəticə verməmişdir. Ömrü boyu saray qayda-qanunlanna boyun əyməyən Nizami elm və incəsənətin carçısı olmuşdur.

Nizaminin yaradıcılığı zamanın böyük sınağından çıxaraq Şərq aləminə yayılmış, onun ölməz bəşəri ideyalan bütün dünyanı gəzmişdir.

Nizami Gəncəvinin ölməz poemalan «Sirlər xəzinəsi», «Xosrov və Şirin», «Leyli və Məcnun», «Yeddi gözəl» və «tskəndəmamə»dir. Bu incilər şairin «Xemsə» («Beşlik») adlanan divanını təşkil edir. Bundan əlavə, lirik şe'rlər və qəzəllər də onun yaradıcılığında mühüm əhəmiyyət kəsb edir. Lakin Nizamini dünya ədəbiyyatı tarixində məşhurlaşdıran poemalandır. «Xəmsə»yə daxil olan əsərlərdən birincisi - «Sirlər xəzinəsi» şairin ictimai və fəlsəfi görüşlərini əhatə edən, müxtəlif həyati məsələlərə toxunan 20 mənzum hekayədən ibarətdir. Şüurlu və vicdanlı adamları zülmü ifşa etməyə, zalımlara qarşı barışmaz və amansız olmağa çağınş bu hekayələrin əsas məzmununu təşkil edir. «Sirlər xəzinəsi» Nizaminin didaktik-fəlsəfı əsəri olmaqla. Şərq ədəbiyyatına bir sıra yeni ideyalar gətirmişdir. Onun «Leyli və Məcnun» əsəri Şərq xalqlannın ədəbiyyatında yeni bir hadisə idi. Tarixi mənbələrdən, ədəbi abidələrdən və şifahi xalq yaradıcılığından bəhrələnən Nizami Gəncəvi geniş məzmunlu və yüksək ideyalı bədii əsərlər yaratmışdı. Belə əvəzsiz əsərlərdən biri də «Xosrov və Şirin» poemasıdır. Bu, böyük şairin yeni yaradıcılıq qələbəsi olmaqla yanaşı, həm də onun şöhrətini Şərq aleminə yaymışdı.

Nizami Gəncəvi öz əsərlərində zaiımlan pisləməklə, məzlumları haqsızlığa qarşı, mübarizəyə çağırmaqla yanaşı, gah e’tiraz, bə'zən də nəsihət yolu ilə hakimləri zülmdən və cəzadan əl çəkməyə, ədalətə və nəcibliyə çağırmışdı.

Nizami Gəncəvi «Yeddi gözəl» poemasında insan ləyaqətini yüksəldən, onun mə'nəvi alemini zənginləşdirən problemlərə toxunmuşdu. Şair ömrünün son illərini şah eseri olan «İskəndəmamə»ni yazmağa sərf etmişdi. Bu eser ona əbədi dünya şöhrəti qazandırdı. Nizaminin bütün əsərlərindəki qəhrəmanlann hamısı real tarixi şəx-

siyyətlerdin Bu cəhətdən «tskəndəmamə»nin qəhrəmanı diqqəti xüsusilə cəlb edir. Poemada İskəndər tarixdə olduğu kimi, Makedoniya hökmdarı Filippin oğlu kimi təqdim edilir. Nizami, ümumiyyətlə. Şərq tarixini gözəl bildiyindən poemalanndakı qəhrəmanları, hökmdarları, alimləri və b. bütün məziyyətləri ilə oxucunun diqqətinə təqdim edə bilmişdi. Bu poemada şair dünyada zülmün, istismann, ədalətsizliyin və diger qeyri-insani münasibətlərin olmadığı utopik cəmiyyətin timsalını yaratmışdı. Elə bunun nəticəsidir ki. Nizami Gəncəvidən sonra ölkəmizdə və Şərqdə yaşayıb-yaratmış görkəmli şairlər ondan bəhrələnmiş, onu özlərinin kamil ustadı sanmışlar.

Mütərəqqi fikirləri ilə yaşadığı dövrün ictimai-fəlsəfi təfəkkür formalarının fövqünə yüksələn, dünya mədəniyyəti xəzinəsinə nadir incilər bəxş edən böyük mütəfəkkirin irsinin müasir dövrümüz üçün də əhəmiyyəti vardır. Əsərlərində insanpərvərlik, vətənpərvərlik ideyalarını təbliğ etməsi, əməkçi insanlara böyük hörmət bəsləməsi, mərdlik, qəhrəmanlıq, dostluq, sədaqət kimi nəcib əxlaqi sifətləri aşılaması onu canlı müasirimizə çevirir. Nizaminin irsi mə’nəvi mədəniyyətimizin yaradıcıları üçün gözəl sənətkarlıq məktəbidir.

IX-XIl əsrlərdə ədəbiyyatla yanaşı, musiqi də xeyli inkişaf etmişdi. Saraylarda muğamat ifa olunur, xanəndələr oxuyur, rəqqasələr gözəl rəqs edirdilər. Saray həyatının dəbdəbəsi ilə əlaqədar olaraq, muğamat da zənginləşir, iste’dadlı musiqişünaslar yetişirdi. İndiki muğamların mühüm bir hissəsi hələ XII əsrdə Azərbaycan sənətkarları tərəfindən ifa olunurdu. Simli, nəfəsli, zərb musiqi alətlərindən geniş istifadə edən sənətkarlar gözəl musiqi əsərləri ilə Yaxın Şərqdə də şöhı*ət qazanmışdılar.

Maldar əhali amsında aşıq yaradıcılığı daha geniş yayılmışdı. Kəndbəkənd gəzib-dolaşan ozanlar dastanlar söyləyir və qoşmalar oxuyurdular.

Bədii sənət ustaları oyma, həkketmə, zərbetmə, kaşıçılıq, xalçaçılıq və tətbiqi incəsənətin başqa sahələrində gözəl sənət nümunələri yaradırdılar.

## *X fesil*

# AZƏRBAYCANDA MONQOL HAKİMİYYƏTİ

### § 1. XIII ƏSRİN BİRİNCİ YARISINDA AZƏRBAYCANDA SİYASİ VƏZİYYƏT

XIIIyüzilliyin evvellerinde. Mərkəzi Asiyada güclü hərbi qüdrətə malik olan monqol dövlətinin qonşu ölkələrə yürüşləri ərəfəsində, Azərbaycanın xarici və daxili vəziyyəti gərgin halda idi. Orta Asiyada iqtisadi cəhətdən bir-birilə möhkəm əlaqədə olmayan vilayətlərin birləşməsindən təşkil olunmuş Xarəzmşahlar dövləti monqollara qarşı mübarizə apannaq iqtidarında deyildi. Azərbaycan ərazisində isə vahid dövlət yox idi ve feodal pərakəndəliyi hökm sürürdü. Ölkədə Eldənizlərin Atabəyler ve Şirvanşahlar dövlətləri mövcud idi, Marağada isə Revvadiler nəslindən Ağsunquriler sülaləsi (1108-1227-ci illər) hakimiyyət sürürdü. XII əsrin sonunda Eldenizler dövləti öz əvvəlki qüdrətini itirdi. Eldənizlər sülaləsinin üzvləri arasında gedən mübarizələr səltənətin əsaslarını sarsıdırdı. Qızıl Arslanın xələfi atabəy Əbu Bəkr (1191-1210) Azərbaycanda (Şirvan istisna olmaqla) hökm sürürdü. Atabəylərin Əbu Bəkri əvəz etmiş son nümayəndəsi Özbək (12I0-1225-Cİ illər) feodal qruplarının əlində oyuncağa çevrildi, ölkədə feodal çəkişmələri daha da şiddətləndi.

Qonşu ölkələrdə mövcud olan vəziyyətdən istifadə edən Çingiz xan (1206-1227-ci illər) öz işğalçılıq yürüşlərinə başladı ve bir sıra ölkələri tutduqdan sonra 1219-cu ildə Xarəzm dövlətinə basqın etdi. Xarəzmşah Məhəmməd və oğlu Calaləddin İrana qaçdılar. Xorasan və İraqi-Əcemi tutan monqollar l220-ci ildə ilk dəfə .Azərbaycana yürüş etdilər. Monqol sərkərdələri Cebe ve Subutay Zencan, Ərdebil, Sərab və başqa şəhərləri talan edib Təbrizə yaxınlaşdılar. Eldəniz Özbək monqollarla sazişə girdi; böyük xərac alan monqol sərkərdələri qışlamaq üçün Muğana yollandılar və buradan Gürcüstana basqın etdilər. Monqollar 1221-ci ilin əvvəllərində Gürcüstandan yenidən Təbrizə tərəf yönəldilər. Şəhər hakimi Şəmseddin Tuğrai xərac verməklə yenə də şəhəri qarətdən xilas edə bildi. Monqollar qəflətən Marağaya hücum edib, şəhəri ələ keçirdilər ve onlara ciddi müqavi

mət gösterən əhaliyə qanlı divan tutdudar. Onlar Marağadan Həmədana qayıtdılar və şəhərdə baş vermiş üsyanı yatırtdılar. Cebə və Subutay Həmədandan bir daha Azərbaycana yürüş etdilər. Ərdebil şəhər əhalisinin müqavimətinə baxmayaraq tutuldu. Monqollar üçüncü dəfə Təbrizə yollandılar, Özbək Naxçıvana qaçdı. Şemsəddin Tuğ- rai yenə də təbrizliləri mübarizəyə səfərbər etdi. Monqol sərkərdələri şəhər müdafiəçiləri ilə açıq döyüşə girməkdən çəkindilər və bir daha xərac almaqla kifayətləndilər. Onlar Sərab şeherini zəbt etdikdən sonra Beyleqana yollandılar. Beyləqan amansız döyüşdən sonra təslim oldu, əhaliyə görünməmiş zülmlər edildi. Monqollar buradan Gəncəyə tərəf üz tutdular, lakin şəhər əhalisinin ciddi müqavimətinə rast gəlib xərac almaqla kifayətləndilər və Gürcüstana getdilər. Gürcüstandan Şirvana soxulan monqollar tezliklə Azərbaycan erazisini tərk etməli oldular. Onlar 1222-ci ildə Dərbənddən keçərək şimal istiqamətində geri qayıtmağı qərara aldılar. Lakin şəhərin ciddi mühafizə olunduğunu bilən monqollar hiyləyə əl atdılar və Şirvanşaha xəbər göndərib onunla sülh bağlamaq istədiklərini bildirdilər. Şirvanşah bu təklifi qəbul etdi və danışıq üçün on nəfərlik elçi hey'əti göndərdi. Monqollar elçilərdən birini öldürdülər və digerlərini məcbur etdilər ki, onları gizli yollarla Dərbənddən şimala keçirsinlər. Beləliklə, monqollar öz niyyətlərinə nail oldular və Monqolustana qayıtdılar. Monqolların ilk yürüşü kəşfiyyat məqsədi güdürdü və gələcək istilalar üçün zəmin yaratdı.

İqtisadi və siyasi qüdrətini itirmiş Eldənizler dövləti ölkənin vəziyyətini nizama salmaq iqtidarında deyildi. 1223-cü ildə qıpçaq dəstələri Şimali Qafqaz çöllərindən keçərək Dərbəndə gəldilər və Azerbaycanda yaranmış vəziyyətdən istifadə edərək buraya soxuldular. Onlar Qəbələ şəhərinə böyük ziyan vurdular və Gəncəyə tərəf irəlilədilər. Lakin qıpçaqlann Gəncədəki davranışı Azərbaycan, Gürcüstan və Dağıstan əhalisinin onlarla mübarizə aparmasına səbəb oldu. Nəticədə qıpçaq dəstələri məğlubiyyətə uğradılar. Bu ittifaqa baxmayaraq, gürcü feodallan 1225-ci ildə Gəncəyə hücum etdilər və şəhər qarət olundu.

1225-ci ildə Azərbaycan Orta Asiyada monqol hücumları nəticəsində hakimiyyətdən məhrum olmuş *Xarəzmşah Calaləddinin hücumlarına* mə’ruz qaldı. Calaləddin cənubdan hücuma keçərək Marağa şəhərini tutdu və bir müddət şəhərdə bərpa işləri apardıqdan sonra Təbrizə yürüş etdi. Özbək ailəsi ile Gəncəyə, sonra isə Əlincə

qalasına qaçdı ve orada öldü. Onun ölümü ile (İ225-Cİ il) Azərbaycanda Eldenizlər dövləti süqut etdi, Tebrizlüər Şəmsəddin Tuğrainin qardaşı oğlu Nizaməddinin başçılığı ilə düşmənə qarşı mübarizəyə qalxdılar. Onlar 7 gün mərdliklə vuruşdular. Lakin Calaleddin şəhər ə’yanlan ilə sazişə girib şəhəri tutdu və Nizaməddin Tuğraini şəhər rəisi te’yin etdi. Gəncə, Beyləqan, Bərdə, Şəmkir, Şutur və s. şəhərlər də istila olundu. Marağanın tutulması nəticəsində Ağsunqurilər dövləti süqut etdi. Şirvanşahlar da ildə yüz min dinar xərac vermək şərtilə Calaləddinin hökmranlığını qəbul etməli oldular.

Azərbaycanın idarəsi Calaləddinin vəziri Şərəf el-Mülkün ixtiyarına verildi. Onun Təbrizdə qeyri-qanuni vergilər toplaması şəhər əhalisinin üsyanına səbəb oldu. Calaləddin Gürcüstandan Təbrizə gəldi. Şəmsəddin Tuğrai zindana atıldı, qardaşı oğlu Nizaməddin isə öldürüldü. Lakin çox keçmədən Şəmsəddin həbsdən azad edildi və öz malikanəsinə sahib oldu. Calaləddinin siyasətindən narazı olan yerli feodalların bir qismi Təbrizdə hakimiyyəti elə almaq və Eldənizlər dövlətini bərpa etməyə cəhd göstərsələr də, tərəflər arasında baş vermiş qanlı döyüşdə məğlub oldular. Az sonra Təbrizdə Xarəzmşahlara qarşı şəhər rəisi Behaəddin Məhəmməd ibn Bəşir Yarbəyin başçılığı ilə üsyan qalxdı. Xalq hərəkatı bütün Azərbaycanı bürüdü. Calaləd- dinə qarşı baş vermiş 1231-ci il Gəncə üsyanı xalq hərəkatının ən yüksək zirvəsi oldu. Sənətkar Bəndərin başçılığı ilə gəncəlilər şəhər hakiminin sarayını dağıtdılar, dövlət mə*murlan və qulluqçulanndan bir neçəsini öldürdülər, şəhərdəki Xarəzm qarnizonu məhv edildi. Calaləddin üsyanı çətinliklə yatıra bildi, onun başçılanndan 30 nətər e’dam olundu, Bəndər isə tikə-tikə doğrandı. Azərbaycanın Xoy, Mərənd, Naxçıvan və s. şəhərlərində də azadlıq hərəkatı geniş vüs*ət aldı.

1231-ci ildə Cormoqonun başçılığı ilə monqol qoşunları Rey və Həmədan şəhərlərini zəbt etdikdən sonra ikinci dəfə Azərbaycana soxuldular, ölkədə mövcud olan daxili vəziyyət düşmənə qarşı qəti mübarizə aparmağa imkan verməsə də, bir sıra şəhərlordə, xüsusilə Marağada işğalçılar ciddi müqavimətə rast gəldilər. Təbrizə yaxınlaşan monqollar şəhər ə'yanlan ilə danışıqlar apardılar və şəhəri tutdular. Bir çox tanınmış sənətkarlar monqolların tələbi ilə Qaraqoruma - monqolların vətəninə göndərildilər. Monqollar Təbrizdən Gəncəyə yollandılar. Onlar uzun müddət şəhər əhalisinə qarşı vuruşmalı oldular və yalnız 1235-ci ildə şəhəri tuta bildilər və böyük dağıntı törət

dilər. Gəncə 4 tl müddətində xaraba vəziyyətdə qaldı. Şəmkir şəhəri isə yandırıldı, əhalisi qılıncdan keçirildi. Az sonra Bakı, Tovuz və s. şəhərlər tutuldu. 1239‘CU ildə Dərbənd şəhərinin zəbti ilə bütün Azərbaycan monqollar tərəfindən istila olundu, tik yürüşlərindən fərqli olaraq, monqolların ikinci yürüşdə əsas məqsədi zəbt etdikləri ölkələrdə, ilk növbədə Azərbaycanda möhkəmlənməkdən ibarət idi. Odur ki, onlar qələbə əldə etdikdən sonra Monqolustana qayıtmadılar və yeni ərazilərdə möhkəmləndilər. Azərbaycan və eləcə də Ön Qafqaz ərazisi l239-i256-cı illərdə Ali monqol xaqanlığının tə'yin etdiyi canişinlər tərəfindən idarə olunurdu. Monqol canişinlərinin, xüsusilə Arqun ağanın Azərbaycanda həyata keçirdiyi siyasətin əsas mahiyyəti yerli teodaUarm-vasşallarm köçəri monqol ə’yanlanndan asılılığını gücləndirməkdən ibarət idi.

## § 2. AZƏRBAYCANDA HÜLAKULAR DÖVLƏTİ

Ön Asiyada, Qatqazda və Kiçik Asiyada hələ də müstəqil fəaliyyət göstərən iri feodal malikanələrinə qarşı Ali monqol xaqanlığı tərəfindən mübarizəyə göndərilmiş monqol şahzadəsi Hülaku xan (1258-1265-ci illər) 1256-cı ildə Azərbaycanı, 1258-ci ildə Bağdadı istila etdi və 500 ildən artıq hökm sürən Abbasilər xilafəti süquta uğradı. Beləliklə, yeni zəbt edilmiş ərazilər hesabına 5-ci monqol ulusu - Hülakular (Elxanilər) dövləti yarandı. Azərbaycan dövlətin siyasi- inzibati mərkəzinə çevrildi, Təbriz Abaqa xanın zamanından başlaya- mq dövlətin paytaxtı oldu.

Azərbaycanda köçəri monqol feodallarının hakimiyyəti başlandı. Şahzadə Yuşumut Muğan, Şirvan və Dərbəndin hakimi tə'yin olundu. Azərbaycanın əksər ərazisində, xüsusilə onun şimal hissəsində monqolların güclü hərbi hissələri məskən saldı. Hülaku xan oturaq əhalinin istisman və yerli feodalların sıxışdınıması nəticəsində tezliklə iqtisadi cəhətdən qüvvətlənmiş və mərkəzləşdirilmiş dövlət təşkil edə bildi. Lakin belə vəziyyət çox davam etmədi. Hülaku xanın ölümündən sonra mərkəzi hakimiyyətə qarşı mübarizə başlandı. Bu, Abaqa xanın (1265-1282-ci illər) hakimiyyətinin sonlannda daha da gücləndi və açıq şəkil aldı. 1275-ci ildə Arranda Abaqa xana qarşı üsyan baş verdi və çətinliklə yatınidı. Abaqa xandan sonra hakimiyyətə sahib duran Əhməd xan (1282-1284-cü illər) narazı feodalların sə’yi ilə taxt-tacdan salmdı və Arqun xan (1284-1291-ci illər) səltə

nətə çıxdı. Onun dövründə feodal ara çəkişmələri artdı. Digər tərəfdən ölkənin xarici vəziyyəti de sabit deyildi. Hülakular dövləti tə'sis edildiyi ilk vaxtlardan başlayaraq Azerbaycan ərazisi uğrunda hülaku- (nrla digər monqol dövləti, Cuci nəslindən olan qızıiordalılar (şimalda) arasında gedən müharibələr ölkənin vəziyyətini sarsıdırdı. Azerbaycanı tutmağa can atan Qızıl Orda xanları Hülaku xanın, Abaqa xanın və Arqun xanın zamanında dəfələrlə (1263, 1265, 1288, 1290-cı illərdə) cənuba yüvüş etmiş və ölkədə dağmU törədərək geri qayıtmışdılar. Elxanilər taxt-tacı uğrunda mübarizə də Arqun xanın ölümündən sonra şiddətləndi. Göyxatu xan **(1291-129S-Cİ** illər) elə ilk anlardan feodal qruplarının elində oyuncağa çevrildi. Mərkəzi dövlət aparatı zəiflədi və qüvvələrə qarşı mübarizə aparmaq iqtidannı itirdi. 1295-ci ildə Azərbaycanda iki elxan dəyişildi. Baydu xan (1295-ci il) bir neçə ay hökmranlıq etdikdən sonra taxt-tacdan məhrum edildi. Qazan xan (1295-l304-cü illər) Hülakular səltənətinə sahib oldu.

Qazan xan öz siyasətində yerli feodallarla əlaqənin möhkəmləndirilməsi xettini yeritdi. Bu məqsədlə o, islam dinini qəbul etdi və xüsusi islahatlar keçirdi. Köçəri feodallar Qazan xana qarşı kəskin mübarizəyə qalxdılar, iğtişaşlar, üsyanlar baş verdi, sui-qəsdler təşkil olundu. Lakin Qazan xan yerli feodallara arxalanaraq baş vermiş bütün iğtişaşları yatıra bildi, mərkəzi dövləti möhkəmləndirdi. Köçəri feodalların əksəriyyəti Qazan xanın hakimiyyətinə tabe edildilər. Ölkədə nisbətən sabit vəziyyət yarandı və Sultan Məhəmməd Xudabəndonin (Ulcaytunun, 1304-1316-cı illər) hakimiyyəti zamanında da mühüm ləbəddülata uğramadı. Lakin 12 yaşlı Əbu Səidin (1316-1335-ci illər) hakimiyyətə çıxması ilə vəziyyət kökündən dəyişildi, feodal ara çəkişmələri yenidən başlandı və getdikcə gücləndi. Faktiki hakimiyyətin Sulduzilər nəslindən olan baş əmir Çobanın əlində comləşmosi bir çox feodalların narazılığına və mərkəzi hakimiyyətə qarşı çıxmalarına səbəb oldu. 1318-ci ildə bir tərəfdən Xorasanda emir Yasavur mərkəzi hakimiyyətə qarşı çıxdısa, diger tərəfdən ölkə ikiteretli xarici hücumlara mə'ruz qaldı; Misir qoşunlan cənubdan, qızıiordalılar isə şimaldan hücuma keçdilər. Şirvan ərazisi şimal hücumundan çox ziyan çekdi. Əbu Səid əsas qüvvələrini Azerbaycana göndərdi və qızılordalıların hücumunu dəf edə bildi. Sonra isə digər istiqamətlərə qoşun hissələri göndərildi.

1319, 1320 və 1322-ci illərdə dövlətin müxtəlif ərazilərində iğtişaşlar qalxdı. Əbu Səid əmir Çobanın köməyilə həmin iğtişaşları

yatıı*a bildi. Mərkezi hakjmiyyət nisbətən qüvvətləndi. 1325-ci ildə Qızıl Orda dövlətinə müzəffər yürüş təşkil edən əmir Çoban artıq dövlətin faktiki hakimi kimi fəaliyyət göstərməyə başladı. O, dövlətin mühüm vəzifələrini və vilayətlərin idarəsini öz oğlanlarına tapşırdı. Əbu Səid yaranmış vəziyyətdən çıxmaq üçün Çobandan narazı feodalların köməyindən istifadə etdi və 1328-ci ildə Çobanı və onun tərəf- darlannı dövlət idarəsindən uzaqlaşdırdı. Çoban və bə’zi oğlanları öldürüldü, onların əmlakı qarət olundu. Lakin Əbu Səidin müstəqilliyi uzun sürmədi. O tezliklə vəzir Qiyasəddin Məhəmməd Rəşidinin başçılıq etdiyi feodal qrupunun tə’sirtnə düşdü. Ölkədə yeni-yeni iğtişaşlar qalxdı, 1334-cü ildə Sultaniyyədəki üsyan çətinliklə yatmidı. 1335-ci ildə Qızıl Orda xanı Özbək yenidən Azərbaycana soxuldu. Əbu Səid dövlətin əsas qüvvələrini Özbəyə qarşı mübarizəyə səfərbər etdi və özü də Kür çayının sahilinə gəldi. Lakin o, feodal ara çəkişmələri nəticəsində öldürüldü. Onun vəfatı ilə Hülakular dövləti getdikcə tənəzzülə uğradı və müxtəlif hissələrə parçalandı. Qısa müddət ərzində hakimiyyətdə bir necə şahzadə - Aıpa xan (1335-1336-cı illər), Musa xan (1336-cı il), Məhəmməd xan (1336-1338-ci illər) bir- birini əvəz etdi. Məhəmməd xanın dövründən başlayaraq hakimiyyət uğrunda mübarizə yeni forma aldı: feodal qruplan vahid Hülakular səltənətini ələ keçirmək məqsədilə deyil, dövlətin ayrı-ayn vilayətlərində müsteqilleşmək uğrunda mübarizəyə girişdilər. Nəticədə Hülakular dövlətinin ərazisində qoşa və çoxpadşahlılıq meydana çıxdı. Hülakular səltənətini mühafizə etmək bəhanəsi ilə apanlan mübarizələrdə Çobanilərin, Cəlairilərin və Xorasan əmirlərinin başçılıq etdikləri feodal qruplan daha fəal iştirak etdilər.

Çobanilərin Azərbaycanda siyasi fəaliyyəti. Hülaku xanın yürüşü dövründə Azərbaycana gəlib Urmiya gölü ətrafında məskunlaşmış türk-monqol mənşəli Sulduz qəbiləsinin davamçılan olan Çobanilər hakimiyyət uğrunda mübarizəyə qoşulan ən qüdrətli feodal qruplarından idilər. Əmir Çobanın nəvəsi Şeyx Həsən Çobani (Kiçik Həsən) 1338-ci ildə öz rəqibi Şeyx Həsən Cəlairiyə (Böyük Həsənə) qalib gələrək Məhəmməd Xudabəndənin qızı Satıbəy xatunu (1338-1340- ci illər) padşah e’lan edib dövləti onun adından idarə etməyə başladı. Beləliklə, Azərbaycanda və ona qonşu ərazilərdə Çobani feodal qrupunun ağalığı başlandı. Şeyx Həsən Çobani 1340-cı ildə Satıbəy xatunu səltənətdən məhrum edib Süleyman xanı (1340-l344-cü illər) padşah e*lan etdi. Həsən Çobani öldürüldükdən sonra (1344-cu il)

Azerbaycanda hakimiyyət, faktiki olaraq, onun qardaşı Məlik Əşrəfin əlinə keçdi. Çobani feodallarının zülmündən cana gəlmiş Təbriz əhalisi 1344-cü ildə üsyana başladı. Təbrizlilər şəhərdəki Çobani əmirlərini və onların yaxın qohumlannı əsir etdilər, şəhərə daxil olan yollarda xəndəklər qazıb su ilə doldurdular. Şəhər əhalisi ilə Çobani dəstələri arasında qanlı vuruşma baş verdi. Məlik Əşrəf üsyanı çətinliklə yatıra bildi. O, Hülaku şahzadəsi Ənuşirəvanı (1344-1355-ci illər) padşah e'lan etdi və dövləti onun adından idarə etməyə başladı. Məlik Əşrəf 1347-ci ildə Şirvana və Bağdada, 1350-ci ildə İsfahana yürüş təşkil etdi. O, 1355-ci ildə Ənuşirəvanı hakimiyyətdən saldı və onun əvəzinə Həsən xanı səltənətə çıxardı. Əşrəfin yeritdiyi qarət- çilik siyasəti xalq kütlələrinin bütün təbəqələrinin narazılığına səbəb oldu. Çobani feodallannın zülmündən azad olmağa çan atan Azərbaycan əhalisi və bir sıra yerli feodallar Qazı Məhjyəddin Bərdəi və Şirvanşah Kavusun (1345-1372-ci illər) başçılığı ilə Qızıl Orda xanı Canıbəyi Azerbaycana də'vət etdilər. Canıbəy l357-ci ildə Azərbaycana gəldi və yerli feodallarınköməyilə hakimiyyəti ele aldı. Müstəbid Çobani əmiri Əşrəf e'dam edildi.

İstər Şeyx Həsən Çobani və istərsə də onun qardaşı Məlik Əşi'əf Azərbaycanda, sözün əsl mə'nasında, müstəqil, Hülakulardan heç bir asılılığı olmayan dövlət - Çobanilər dövlətini tə'sis edə bilmədilər. Çobani əmirləri özlərini müstəqil eTan etmədilər və təbii ki, qonşu dövlətlər tərəfindən müstəqil hüquqlu dövlət kimi də tanınmadılar; onlar öz adlarına xütbə oxutmadılar, sikkə zərb etmədilər, dövlət fərmanları isə Elxanilərin adından verildi; 1350-ci ildə Məlik Əşrəf İsfahana yürüş etdikdə isfahanlılar Məlik Əşrəfin deyil, onun padşah eMan etdiyi Ənuşirəvanın adına xütbə oxumaq və sikkə zərb etməklə öz itaətlərini bildirdilər; Qızıl Orda xanı Canıbəy Azərbaycana «Çobanilər dövlətinin erazisini» deyil, «Hülakular ulusunu zəbt etmək» niyyəti ile gəldi; Məlik Əşrəf isə Canıbəyin elçisinə cavabında Azərbaycanda Qazan xanın nümayəndəsinin padşah, onun özünün isə yalnız Hülakular dövlətinin baş əmiri olduğunu e'tiraf etdi. Şərq ölkələrinin sikkə zərbi, xütbə oxunuşu və fərmanlann verilməsi kimi ən'ənəvi səltənət rəmzlərindən məhrum olan, öz müstəqilliyini e'lan etməyib Hülaku şahzadələrini padşah (elxan, sultan) adı ile müdafiə edən və digər dövlətlər tərəfindən müstəqilliyi tanınmayan Çobanilər hüquqi baxımdan Azərbaycanda Hülakular dövlətini davam etdirmiş iri feodal qrupu olaraq qaldılar. Lakin onlar hüquqi cəhətdən müstəqil

dövlət təşkil edə bilməsələr də, padşah e'lan etdikləri elxanilərin adından istifadə edərak, Hülakular dövlətinin faktiki hakiminə çevrildilər. Hülaku şahzadələrinin formal mövcudluğu isə Çobani əmirlərinə öz ağalıqlarını hüquqi olaraq əsaslandımıaq üçün vacib idi. Buna görə də Məlik Əşrəfin e'damı ilə Çobanilərin «Hülakular dövlətinin mühafizəsi uğrunda» apardıqları mübarizəsinə son qoyuldu və beləliklə də, Azərbaycanda Hülakular dövləti süqut etdi.

## § 3. AZƏRBAYCANDA CƏLAİRİLƏRİN HAKİMİYYƏTİ

Azərbaycanda hakimiyyəti ələ alan Canıbəy oğlu Bərdi bəyi Təbrizdə səltənətə oturtdu və Qızıl Ordaya qayıtdı. Lakin cəmi 2 aydan sonra Bərdi bəy atasının ölümü ilə bağlı geri qayıtmalı oldu. Azərbaycan Əxicuqun başçılıq etdiyi Çobani əmirlərinin ixtiyarına keçdi və onlar bir il hakimiyyətdə qaldılar, ölkədə daxili və xarici vəziyyət gərgin şəkil almışdı. Bundan istifadə edən Cəlairi əmiri Şeyx Uveys (1359-1374-cü illər) 1358-ci ildə Azərbaycana yürüş etdi və Çobanilərlə vuruşmada qələbə qazanaraq hakimiyyətə yiyələndi, lakin az sonra Bağdada çəkilməli oldu. Azərbaycan yenidən Əxicuqun ixtiyarına keçdi. 13S9-cu ilin payızında fars hakimi Məhəmməd Müzəffər Yəzdi Azərbaycana hücum edib Təbrizi tutsa da, bir həftədən sonra şəhəri tərk etməli oldu. Buna səbəb Cəlairi Şeyx Uveysin yenidən Azərbaycan sərhədlərində görünməsi idi. Nəticədə Şeyx Uveys Təbrizə girdi. Azərbaycan Cəlairilər dövlətinin tərkibinə daxil edildi. Təbriz dövlətin paytaxt şəhərinə çevrildi. 1367-ci ildə Şii'van ərazisi də zəbt olundu. Şeyx Uveysin zamanında mərkəzi idaı*ə sistemi möhkəmləndi, iqtisadiyyatda və təsənüfatda müəyyən canlanma baş verdi.

Şeyx Uveysdən sonra hakimiyyətə gəlmiş oğlu Sultan Hüseynin (1374-1382-ci illər) dövründə ölkədə feodal pərakəndəliyi gücləndi, mərkəzi hakimiyyətə qarşı mübarizə şiddətləndi. Şiraz hakimi Şah Şüca 1376-cı ildə Cəlairi qoşununu məğlub edib Təbrizi tutdu. 1377- ci ildə Sultan Hüseyn Təbrizi azad edə bildi və qaraqoyunlu Bəhram xacə və Qara Məhəmmədi də itaət altına aldı. 1378-ci ildə Baqdad əmirləri mərkəzi hakimiyyətə qarşı çıxdılar və on minlik qoşunla Ucana, sultanın yay iqamətgahına hücum etdilər, lakin qələbə əldə edə bilmədilər. Azərbaycanı tutmaq niyyətindən el çəkməyən Şiraz hakimi Şah Şüca 1381-ci ildə bir daha Təbrizə doğru hərəkət etsə də, geri qayıtmalı oldu.

Hakimiyyəti ələ almağa can atan Cəlairi Sultan Əhməd oturaq əhalinin və yerli feodalların narazılığından istifadə edərək qardaşı Sultan Hüseynə qarşı çıxdı, Muğan və Arranda güclü qoşun hissələri təşkil edib 1382-ci ildə Təbrizə tərəf irəlilədi. Nəticədə Sultan Hüseyn öldürüldü. Sultan Əhməd (1382-1410-cu illər, fasilələrlə) Cəlairilər səltənətinə sahib durdu. Onun hakimiyyətə çıxması Cəlai- rilor dövlətinin siyasi və iqtisadi həyatında əhəmiyyətli dəyişiklik yaratmadı. Feodal ara müharibələri əvvəlki kimi davam edirdi. Sulta- niyyə hakimi əmir Adil Sultan Əhmədin qardaşı Bayəzidi padşah e’lan edib Təbrizə gəldi, şəhəri tuta bildisə də, tezliklə onu tərk etmək məcburiyyətində qaldı. Ümumiyyətlə, Sultan Əhməd daxili ara çəkişmələr və xüsusilə öz qardaşları ilə aparılan müharibələr nəticəsində tez-tez Təbrizdən çıxmalı olurdu. Şirvanşah Huşəng (1372-1382-ci illər) qardaşlar arasında danışıqlar aparılmasına nail oldu. Nəticədə Cəlairilər dövlətinin ərazisi bir müddət qardaşlar tərəfindən şərikli idaıə olundu. Amma çox keçmədən Sultan Əhməd yenidən bütün hakimiyyəti ələ ala bildi.

Teymurun və Toxtamışın Azərbaycana yürüşləri. Orta Asiyada Teymur imperiyasının yaranması və onun qonşu Ölkələrə hücumları, eləcə de Qızıl Orda xanj Toxtamışın Azerbaycanı tutmaq niyyətilə göstərdiyi cəhdlər ölkənin vəziyyətini daha da gərginləşdirdi. Xarici həmlələr nəticəsində Azərbaycanın əsas ərazisi Cəlairilərin nüfuz dairəsindən çıxdı və müxtəlif zamanlarda Teymumn canişinlərinin, bir sıra yerli feodalların və Qaraqoyunluların sərəncamında ^oldu. Sultan Əhməd bir neçə dəfə Azərbaycanda hakimiyyətini bəıpa etməyə çalışsa da, buna nail ola bilmədi.

Cəlairilər dövlətinin zəifləməsi, Sultan Əhmədin Təbrizdə olmaması və Teymurun baş venniş hadisələrlə əlaqədar Sultaniyyədən Səmərqəndə qayıtması nəticəsində yaranmış əlverişli vəziyyətdən istifadə edən Qızıl Orda xanı Toxtamış 1385-ci ildə 90 minlik ordu ilə Dərbənddən Şirvana soxuldu və Təbrizə yaxınlaşdı. Təbrizlilər şəhərin müdafiəsinə qalxdılar, şəhərdə xəndəklər qazıldı, küçə səngərləri yaradıldı. Toxtamış danışıqlar aparmağa məcbur oldu, tərəflər arasında razılıq əldə olundu. Şəhər e’yanlan Toxtamışa veriləsi xəracın toplanması ilə məşğul oldular, əhali isə sülhə inanıb silahı yerə qoydu. Bundan istifadə edən Toxtamış qoşununu şəhərə yeritdi, Təbrizlilər 8 gün işğalçıların zülmünə me’ruz qaldılar, şəhərdə ciddi dağıntı törədildi, qarətlər oldu. Qadınlar, uşaqlar ayaqyalın, başıaçıq küçələrdə, qarın içində qaldılar. Toxtamışın qoşunu Təbrizdən Marağaya getdi,

şəheri qarət etdikdən sonra iki hissəyə bölünən qoşunun bir dəstəsi Mərənd və Naxçıvan tərəfə yollandı, bir dəstəsi isə Əhər yolu ilə İrəlilədi. İstilaçılar həmin şəhərləri və ətraf əraziləri qarət etdikdən sonra Qarabağa gəldilər və orada birləşib Qızıl Ordaya getdilər. Azərbaycandan çoxlu qənimət və 200.000 əsir apanidı.

Azərbaycan 1386-cı ilin bahannda Teymurun hücumlanna mə’ruz qaldı. Teymur «üçillik yürüş» kimi tanınan həmin səfərində Təbrizi tutdu. Cəlairi əmirlərinin bir qismi Əlincə qalasına, bir qismi isə Bağdada getdi. Teymur Təbrizdən Naxçıvana doğru yürüş etdi və bir müddət Əlincə qalasının ətrafında vuruşduqdan sonra Qarabağa qışlamağa gəldi. O. 1387-ci ildə, Toxtamışın Buxara və Səmərqənd üzərinə hücumu ilə əlaqədar Azərbaycanı tərk etməli oldu. Ancaq ölkə aılıq Teymurun canişinləri tərəfindən idarə olunmağa başlamışdı. Miranşah zəbt olunmuş ərazilərin hakimi tə’yin olundu. O, Təbrizin idarəsini Məhəmməd Dəvatiyə və Qara Bəstama tapşırdı. Əxi İranşah Sultaniyyənin, Şah Əli Marağanın, Hacı Əhməd Pişkinin hakimi tə’yin olundular. Lakin elə ilk vaxtlardan Teymurun canişinləri arasında çəkişmələr düşdü və ölkədə yerli feodalların hakimiyyət uğrunda mübarizəsi şiddətləndi.

Azərbaycanda hakimiyyəti ələ almağa çalışan feodallar bir tərəfdən Teymurun canişinlərinə qarşı vuruşur, digər tərəfdən isə öz aralarında mübarizə aparırdılar. Təbriz şəhəri öz hakimiyyətini bərqərar elməyə çalışan Sultan Əhmədin Əlincə qalasmdakı əmirləri. Mahmud Xalxalinin idarə etdiyi feodal qrupu, Qara Yusifin başçılığı ilə Qaraqoyunlular, Marağa hakimi Yadigar şahın dəstələri, Təbrizin yerli əmirləri və nəhayət, hakimiyyətdə möhkəmlənməyə can atan Tey- muri əmirləri tərəfindən aparılan müharibələrin mərkəzinə çevrildi. Təbrizin ələ keçirilməsi Azərbaycam tutmaq üçün əsas me’yar olduğundan şəhər uğrunda mübarizə ciddi şəkil aldı. 1387-1392-ci illərdə Təbrizə 17 dəfə hücum edildi və 14 hücumun nəticəsində şəhər bir feodal qrupundan digərinin əlinə keçdi. Yerli feodallar əsas qüvvələrini Teymura qarşı mübarizəyə səfərbər etmək əvəzinə, bir- birilə vuruşurdular və qüvvələrini tükəndirirdilər. Nəticədə Teymur 1392-ci ildə Azərbaycana gəldi və Təbrizi tutdu. Hakimiyyət uğmnda mübarizə aparan feodallar öz vilayətlərinə çəkildilər.

Cəlairi əmirləri Əlincə qalasında idilər və Teymura tabe olmamışdılar. Qala Sultan Əhmədin oğlu Sultan Tahirin başçılığı ilə əmir Altun və qalabəyi Cövpər tərəfindən müdafiə olunurdu. Qalada Cəlairi lərin 300-dən yuxarı əsgəri var idi. Teymur Təbrizdən Bağdada

yürüş etdı\ oram qarət edib geri qayıtdı və Əünceye qoşun göndərdi. Lakin qalanı tutmaq ona bu dəfə də müyəssər olmadı. O, Gürcüstana yürüş etdi, oranı dağıtdı, sonra Şəki vilayətinə soxuldu və yerli hakim Sidi Əlini məğlub etdi. 1395-ci ildə Dərbənddən Qızıl Ordaya hücum edən Teymur Səmərqəndə qayıtdı və Hindistana səfərə çıxdı.

Əlincə qalası istisna olmaqla bütün Azərbaycan Teymurilerin sə> rəncamında idi. Teymur özü Hindistan sətərində olarkən, Azerbaycanın və eləcə də ön Qafqazın bir çox yerli feodallan öz müstəqilliyi uğrunda mübarizə apararaq Teymurilərə itaət etməkdən boyun qaçırdılar. Əlincə qalası Ön Qafqaz xalqlannm yadellilərə qarşı mübarizəsinin əsas dayağına çevrildi. Qalanın müdafiəçiləri ilə birləşmiş Şəki və Gürcüstan hakimləri Teymurilərə qarşı vuruşdular və hətta qələbə əldə etdilər. Miranşahın yeritdiyi siyasət xalq kütlələrinin və bir çox feodalların narazılığına səbəb oldu. Kəskin sinfi ziddiyyətlər nəticəsində feodalların və yadellilərin zülmünə, həmçinin bu zülmü müdafiə edən islama qarşı mübarizə aparmaq məqsədilə meydana çıxan hürufızm Azərbaycan əhalisinin, xüsusilə də şəhər sənətkarlarının mübarizə proqramına çevrildi.

Azərbaycanda və ön Qafqazda baş vermiş hadisələrdən xəbər tutan Teymur Hindistan seforindən qayıtdıqdan sonra 1399-cu ilin sentyabnnda, tarixdə «yeddi illik müharibə» adlanan yürüşə çıxdı, Azərbaycana gəldi və Qarabağda məskən saldı. Azərbaycanın və Ön Qafqazın bir sıra vilayət hakimləri, o cümlədən Şəki hakimi Seyid Əhməd Şii'vanşah İbrahimin vasitəçiliyi ilə Teymurun hüzuruna getdilər və onunla ittifaq bağladılar. Teymurun bu yürüşü zamanı uzun müddət (14 il) cəsarətlə müdafiə olunan Əlincə, qala daxilində baş vermiş ara çəkişmələri nəticəsində təslim oldu. Teymur bundan sonra Ön Qafqazın digər ərazilərinə və Bağdada yürüş etdi, nəticədə Sultan Əhməd öz müttəfiqi Qara Yusif ile Misirə qaçmalı oldu. Teymur az müddətdən sonra Səmərqəndə qayıtdı və 1405-ci ildə öldü. Azerbaycan bu dövrdə Miranşahın oğlu Mirzə Ömər tərəfindən idarə olunurdu, Şirvan isə Şeyx İbrahimin hakimiyyəti altında idi.

Teymurun ölümündən sonra Cəlairi hökmdan Sultan Əhməd Misirdən Azerbaycana qayıtdı və Qaraqoyunlu Qara Yusifin köməyilə Təbrizdə hakimiyyəti ələ aldı. Lakin onun əhali ilə amansız rəftan və qeyri-qanuni vergilər toplaması ciddi narazılığa səbəb oldu. O yenidən Bağdada qaçdı. Sultan Əhməd 1410-cu ildə bir daha Təbrizə yürüş etdi, lakin Qara Yusiflə döyüşdə öldürüldü. Beləliklə, Azerbaycanda Cəlairilər dövləti qəti şəkildə süqut etdi.

## § 4. ŞİRVANŞAHLAR DÖVLƏTİ XIII-XIV ƏSRLƏRDƏ

XIII əsrin əvvəllərində monqol yürüşləri ərəfəsində Şirvanşahlar dövləti I Güştasp ibn Fərruxzad (l203-l225-ci illər) tərərinden idarə olunurdu. Monqollar 1222-ci ildə Gürcüstandan Şirvana soxuldular və Şamaxı şəhərini mühasirəyə aldılar. Şamaxılılar şəhəri mətanətlə müdafiə edirdilər. Monqolların mühasirə nərdivanları ile şəhərə soxulmaq cəhdi baş tutmadı. Onlar qalaqların üzərinə çıxaraq şəhərə ox yağdırmağa başladılar. İbn əl-Əsirin (1160~l234-cü illər) yazdığına görə, şamaxılılar «onsuz da qılıncdan canımızı qurtara bilməyəcəyik, yax^şısı budur, yerimizdə möhkəm dayanıb heç olmazsa şərəflə ölək» deyərək şəhərin müdafiəsində durdular. Lakin monqollar Şamaxını tutdular, onu çapıb-taladılar, bütün əhalini qanına qəltan elədilər və sonra Dərbənddən keçərək Azərbaycan hüdudlarını tərk etdilər.

1**124-CÜ** ildə III Feriburz atası I Güştaspa qarşı çıxdı, hərbi hissələrin və xalq kütlələrinin köməyilə hakimiyyəti elə alaraq 1244-cü ilədək Şirvanı idarə etdi. Bu dövrdə Şirvanşahlar Xarəzmşah Calaləddinin hökmranlığım qəbul etməli oldular və az sonra Ali monqol xaqanlığının və Hüiakular dövlətinin vassalına çevrildilər. Monqolların Azərbaycanda yeritdikləri siyasət Şirvanşahların müstəqilliyinə əsaslı tə’sir göstərdi. II Axsitan, II Fərruxzad, II Güştasp, III Femıx- zad, Key-Qubad və Key-Kavus kimi Şirvanşahlar Hülakulann vassalları kimi fəaliyyət göstərdilər. Hüiakular dövlətinin tənəzzülə uğraması və parçalanmasından istifadə edən Şirvanşahlar 1338-ci ildə yenidən müstəqillik eldə etdilər. Şirvanşah Key-Qubad və oğlu Kavus (1345-1372-ci illər) Çobani feodallarına tabe olmadılar. Çobanı əmiri Əşrafin Şirvanşahlarla danışıqlan və Şirvana hərbi həmlələri nəticəsiz qaldı. Şirvanşah Kavus Çobani feodallarının hakimiyyətdən məhrum edilməsində yaxından iştirak etdi və 1357-ci ildə Məlik Əşrəfin e’dam olunmasına nail oldu. Kavus 1364-cü ildə Cəlairi Şeyx Uveysə qarşı mübarizəyə qalxdı və Azərbaycanı birləşdirmək naminə iki dəfə Təbrizə yürüş etdi. Bunun əvəzində Şeyx Uveys 1367-ci ildə Şirvana qoşun yeritdi və 3 aya yaxın burada qaldı. Qalada qorunan Kavus ölkənin və əhalinin vəziyyətini nəzərə alıb təslim oldu. Lakin 3 aylıq həbsdən sonra Şeyx Uveys onu yenidən Şirvana hakim tə’yin etdi. Kavusun ölümündən sonra Şirvan onun oğlu Huşəng (1372-I382-ci illər) və daha sonra I tbrahim (1382-^1417-ci illər) tərəfindən idarə olundu. Görkəmli dövlət xadimi I tbrahim Şirvanı yadelli işğalçıların talanından qorumağa və onun istiqlaliyyətini tə’min etməyə çalışırdı.

Teymurun Yaxın Şərq ölkələrinə yürüşləri Şirvanşahlar dövlətini təhlükə qarşısında qoydu. Fövqəl'adə hərbi qüdrətə malik Teymurla qarşı-qarşıya durmağın səmərəsizliyini duyan mahir diplomat 1 İbrahim 1386-cı ildə qiymətli hədiyyələrlə onun hüzuruna (Qarabağa) getdi və öz itaətini bildirdi. Bununla da İbrahim bir tərəfdən Şirvanı Teymurun qarətçi hücumlarından xilas edə bildisə, digər tərəfdən Qızıl Orda xanı Toxtamışa qarşı özünə müttəfiq və möhkəm dayaq yaratmış oldu. Teymur Şeyx İbrahimi Şirvanın hakimi kimi tanıdı. İbrahimin siyasəti Şirvanşahlar dövlətini iqtisadi, siyasi və hərbi baxımdan qüvvətləndirdi. 1395-ci ildə Teymur Derbenddən Qızıl Ordaya hücum etdi. Şirvanşah I İbrahimin və Marağa hakimi Yadigar şahın iştirak etdiyi bu yürüşdən qələbə ilə qayıdan Teymur Derbendin mühafizə istehkamlarını daha da möhkəmlətdi va şimal sərhədlərinin mühafizəsini Şeyx ibrahimə tapşırdı. Şeyx İbrahim Azerbaycanın və eləcə də Ön Qafqazın bir sıra vilayət hakimləri, o cümlədən Şəki hakimi Seyid Əhməd ilə Teymurun arasında ittifaq yaranmasına və beləliklə də həmin ərazidə vəziyyətin nizamlanmasına nail oldu. Teymurun Səmərqəndə qayıtması və vəfatından (1405-ci il) sonra Şeyx İbrahim Azərbaycanda hakimiyyət sürən Teymurilerle siyasətində yeni xətt tutdu.

## § 5. İCTtMAt VƏ SİYASİ QURULUŞ

Azərbaycanın hüdudları. Hülakular Yaxın və Orta Şərqdə geniş ərazini əhatə edirdi. Bu dövlətin sərhədləri Misirdən Amu-Dəryaya, HöiTnüz körfəzindən Dərbəndə (Bab əl-Əbvaba) qədər uzanırdı. Hülakular dövlətinin tərkibinə Azərbaycan, İraq-i ərəb, İraq-i ecoın. Kirman, Gürcüstan, Kiçik Asiya (Rum), Emıəniyə, Kürdüstan, Fars, Xuzistan, Xorasan və s. vilayətlər daxil idi. Celairiler dövləti nisbətən kiçik ərazidə (Azərbaycan, İraq-i ərəb, İraq-i əcəm, Erməniyə və Gürcüstan) təşkil edilmişdi. Tarixi faktlardan göründüyü kimi, XIII-XIV əsrlərdə Arran, Şirvan, Şəki, Muğan, Qarabağ, Naxçıvan, Güş- tasfı Qaradağ ve Arasbar əraziləri Azərbaycanın tərkibinə daxil idi və ictimai-siyasi, etnik, mədəni ve mə'nəvi baxımdan onun ayrılmaz hissələri idilər.

XIII əsrin ortalarında Hülakular dövlətinin te'sisi ön Qafqazda vilayətlərarası sərhədlərin sabitləşməsinə, nisbətən dəqiq sərhəd zonalarının müəyyənləşməsinə səbəb oldu ve bu vəziyyət kiçik təbəd-

dülata baxmayaraq, Qaraqoyunlular dövlətinin tə'sisinə kimi davam etdi. Azərbaycan Hülakular və Cəlairilər dövlətlərinin mərkəzi vilayəti, Marağa və Təbriz isə həmin dövlətlərin paytaxtı idi. Vilayət kimi Azərbaycanın sərhədləri aşağıdakı istiqamətlərdən keçirdi.

Tarixən Xəzər dənizi boyunca uzanan Azərbaycan cənubi-şərqdən Gilan, cənubdan isə Fars vilayətləri ilə həmsərhəd idi. Azərbaycanın cənub sərhədləri Zəncan, Savucbulaq, Uşniyyə şəhərlərinin və Ruyendej qalasının cənubundan keçirdi. Qərbdə sərhəd Unniya, Salmas, Xoy, Maku şəhərlərinin qərbindən uzanaraq Arrana çatırdı. Arranın Erməniyə və Gürcüstanla həmsərhəd olduğunu qeyd edən Hemdullah Qəzvini yazır ki, Naxçıvan Erməniyə ilə sərhəddir, Dvin şəhəri Azərbaycanın uzaq hüdudlannda yerləşir. Həmin müəllifin mə’lumatından aydın olur ki, Göycə gölü Azərbaycanla Ermənistan arasında, Xunan isə Azərbaycanla Gürcüstan arasında sərhəd olmuşdur. Deməli, Azərbaycanın sərhədləri Naxçıvanın qərbindən və Dvinin şərqindən keçərək Göycə gölünə qovuşur və buradan Xunana gedib çatırdı. Lakin XIV əsrin son rübündə Ön Qafqazda baş vermiş hadisələr, ilk növbədə Teymurun və Şirvanşah I İbrahimin fəaliyyəti nəticəsində Azərbaycanın bu ərazisindəki sahələri genişlənir. Tarixçi Şərəfəddin Əli Yəzdinin yazdığı kimi, Azərbaycan ilə Gürcüstan arasındakı sərhəd Debed çayı boyunca uzanır.

Azərbaycan sərhədləri daha sonra Şəki vilayətinin qərbindən və şimalından keçərək Dərbəndəcən gedib çatırdı. Şəki XIII əsrin 20-ci illərində gürcü feodallarının müvəqqəti ağalığından qurtardıqdan sonra bə'zən müstəqil feodal malikanəsi kimi fəaliyyət göstərsə də, əksər hallarda Şirvanın, deməli, Azərbaycanın tərkibində olmuşdur. Rəşidəddin qeyd edir ki, Şəki vilayəti Qarabağ, Muğan və Arran ilə birlikdə onun oğlu Calahn idarəsinə verilir. Giya Mazandarani də Şəktni Gürcüstana deyil, Şirvana aid edir.

Azərbaycanın şimal sərhədi Dərbənd şəhərinin şimalından keçə- rak Xəzərə qovuşurdu. Dərbənd Hülakular dövlətinin şimal müdafiə istehkamı idi. Yaqut Həməvinin (XIII əsr) yazdığına görə, Dərbənddə böyük bir dağın üzərinə hər il çoxlu odun toplayırdılar ki, düşmən hücumu zamanı tonqal qalayıb Arran və Şirvan əhalisini xəbərdar etsinlər. 1222-ci ildə monqollar Şamaxını qarət etdikdən sonra şimala tərəf yönəlirlər və Dərbəndin möhkəm mühafizə olunduğunu bilib hiyləyə əl atırlar. Onlar, ibn əl-Əsirin qeyd etdiyi kimi, *«.Dərbənd padşahı Şirvanşaha»* xəbər göndərib sülh bağlamağı təklif edirlər;

Abaqa xanın (1265-1282-ci üler) dövründe şahzadə Yuşumutun Dərbənd, Şirvan və Muğana hakim tə'yin edildiyini xəbər verən Rəşidəddin. Şirvanşahların 2.000 ildən artıq müddətdə Dərbəndin və Şabranın hökmdarları olduqlarını bildirir. 1328-ci ildə Elxani Əbu Səid (1316-1335-ci illər) ƏmirƏkəncini Dərbəndə hakim tə'yin edir. Özbək xanın qoşunlayn 1335-ci ildə Şirvanda məğlubiyyətə uğradıqdan sonra Dərbəndə çəkilir və Həmdullah Qəzvininin yazdığı kimi, *aoracian öz ölkələrinə gedirlər».* 1367-ci ildə Cəlairi Şeyx Uveys Şirvanı istila etdiyi vaxt Dərbənd hakimləri Hacı Fərəməz və Hacı Firudin onun hüzuruna gəlib öz itaətlərini bildirirlər, tik qaynaqlarda «Bakı Dərbəndi», «Şirvan Dərbəndi» kimi adlandırılan Dərbənd tək- tək hallarda qızılordalılar tərəfindən müvəqqəti tutulsa da, əksər vaxtlarda Şirvanın erazisinə daxil olmuşdur.

Dövrün ilk yazılı qaynaqlarının mə'lumatı göstərir ki, Azərbaycanın Xni-XIV əsrlərdəki sərhədləri Xəzər dənizi - Gilan vilayeti- Zencan, Savucbulaq, Uşniyye şəhərlərinin və Ruyendej qalasının cənubundan - Urmiya, Salmas, Xoy, Maku şəhərlərinin və Naxçıvan vilayətinin qərbindən-Dvin şəhərinin şerqinden-Göyce gölü-Debed çayı-Şeki vilayətinin qərbindən və şimalından - Dərbənd şeherinin şimalından keçirdi.

Dövlət quruluşu və idarə sistemi. Hülakular dövlətinin tə'sisi və köçəri monqol-türk tayfalarının Azərbaycanda məskunlaşması ölkənin ictimai-iqtisadi və siyasi həyatı ilə yanaşı, onun idarə sisteminə və dövlət quruluşuna da tə'sir göstərdi. Azərbaycanda *iki* dövlət quruluşunun - *yerlilərə* və *köçərilərə məxsus* dövlət quruluşlarının çuğlaş- ması və qai'şılıqlı tə'siri nəticəsində yeni, nisbətən inkişaf etmiş, təkmilləşmiş dövlət quruluşu və idarə sistemi yarandı. Yeni sistem özündə hər iki dövlət quruluşunda olan en yaxşı müsbət cəhətləri cəmləşdirdi. Dövrün kamil idarə sistemlərindən sayılan həmin sistem ölkənin siyasi, ictimai, mə'nevi həyatı və təsərrüfatının bütün sahələrinin idarəsini özündə birləşdirdi.

Hərbi-feodal mütləqiyyəti üsul-idarəsindən ibarət Hülakular dövlətinin başında səlahiyyəti məhdudlaşdınimayan «elxan» və ya «sultan» dururdu. Səltənətə Hülaku xanın nəslindən olan şahzadələr yiyələnə bilərdilər. İlk vaxtlarda şahzadələr, Çingiz xanın yasasına əsasən, qurultayda seçilir və Ali monqol xaqanlığı tərəfindən təsdiq olunurdular. Lakin bu proses XIII əsrin son rübündə formal xarakter aldı və tədricən aradan çıxdı. XIV əsrin II rübündən Hülakular səltə

nətinə teodal ara müharibələrində qələbə çalan feodalların irəli çekdiyi şahzadələr sahib durdular. Onlar tamamilə asılı vəziyyətdə idilər və yalnız Azərbaycanda Hülakular dövlətinin mövcud olduğunu nümayiş etdirirdilər.

Hülakular dövlətinin hərbi idarə sisteminə, təsərrüfata nisbətən üstünlük verilirdi. Dövlətin hərbi qüvvələri baş əmirin ixtiyanında idi. Baş əmir dövlətin 4 yüksək rütbəli əmiri arasından seçilir və elxan tərəfindən təsdiq olunurdu. Qalan 3 əmir «qol əmirləri» adlanırdı. Dövlət fərmanlarında hökmdardan sonra bu 4 əmirin adı, sonra isə vəzirin adı yazılırdı. Baş emirlər Hülakular dövlətinin idarəsində həlledici rol oynamış və bə'zən də dövlətin faktiki hakimi kimi fəaliyyət göstərmişlər.

Dövlətin hərbi və inzibati idarələri «Əmarət» (əmirlik) adlı təşkilatda cəmləşmişdi. Qoşun tümənlərə (onminliklərə), minliklərə, yüzlüklərə və onluqlara bölünmüşdü və müvafiq əmirlər tərəfindən idarə olunurdu. Orduda inaq, bukaul, yasaul, yurdçu, bəlarğuçi, bəxşi və s. mə'murlar xidmət edirdi. İnaqlar hərbi məsləhətçi idilər. Buka- Lillar divandan ayrılmış ixracatı və yürüşlərdən əldə olunan gəlirləri hərbi hissələr arasında bölməli, ordu hissələrinin tə'minatı ilə məşğul olmalı idilər. Yasaullar qoşun hissələrini döyüş meydanlarına aparıb onları döyüşə hazır vəziyyətdə saxlamalı idilər. Düşərgədə, yaylaq və qışlaqlarda padşahın və hərbi hissələrin yerləşdiyi məskənlər-yurdlar yuı dcular tərəfindən salınırdı. Bəlarğuçi öz dəstəsi ilə qoşun hissələri çəkildikdən sonra döyüş meydanlarında, yurdlarda qalıb itkin düşmüş, azmış adamları, mal-qaranı və əşyalayrı toplayıb sahiblərinə çatdırmalı idi. Hərbi kargüzarlıq bəxşilər tərəfindən aparılırdı.

Təsərrüfatın idarəsi «Divan sistemi» üzrə təşkil edilmişdi. Mərkəzi dövlət divanına vəzir və onun naibi başçılıq edirdi. Buraya 20-dən artıq sahə üzrə divanlar tabe idi. Maliyyə sisteminə mustovfı baxırdı. Mühasibat işləri 7 dəftər əsasında apanlırdı. Bu dəftərlərdə maliyyə sahəsində baş vermiş gündəlik hadisələr, təsərrüfatın müxtəlif sahələri üzrə hesabatlar, mərkəzi divana aid xərclər, vilayət və şəhərlər üzrə qeydlər, ölkənin qanun toplusu və s. cəmləşmişdi. Təbrizə aid dəftər başqa şəhərlər üçün ölçü, qiyas rolunu oynayırdı.

Dini işlərin idarəsinə ölkənin baş qazısı cavabdeh idi. Onun sərəncamında «qazılar dördlüyü», vilayət və şəhər qazılan işləyirdilər. Baş qazı şəriət qanunlan əsasında mühakimələr aparır, dini baxışların genişlənməsi, gəlirlərin artırılması, xəzinənin (beyt əl-malın) və vəqf

əmlakının mühafizəsi ile məşğul olurdu. İctimai-iqtisadi və mədəni həyatın bir çox sahələri-zəkat və cizye toplanması, əhali arasında nizam-intizamın qorunması, ticarətdə, pul dövriyyəsində əyintilərə yol verilməməsi, karvan yollarında əmin-amanlığın te'mini, məscid, mədrəsə və tibb sahələrinin idarəsi dini idarələrin öhdəsinə düşürdü.

Hülakulann ədliyyə sistemi iki böyük hissəyə ayrılırdı. Şahzadələrə, köçəri feodallam, hərbi hissələrə aid mübahisələr Çingiz xanın yasasına əsaslanan *yarğu* məhkəmələrində, yerli əhaliyə aid mübahisələr isə *qəza* məhkəmələrində şəriət qanunları əsasında apanlırdı. Yarğunun şəriət məhkəmələrinin işinə müdaxilə etməsi qanunla qadağan edilmişdi.

Hülakular dövlətinin ərazisi vilayətlərə, onlar isə «tümən»lərə bölünmüşdü. «Tümən» hərbi və inzibati bölgü baxımından eyni erazini əhatə edirdi. Azərbaycan müstəqil vilayət kimi, 9 tümənə bölünmüşdü ve onların hər biri Azərbaycanın iri şəhərlərindən birinin adı ilə (məsələn, Təbriz tüməni, Ərdəbil tüməni ve s.) adlanırdı. Vilayətlər iki nəfər tərəfindən idarə olunurdu. Vilayət hakimlərinin vəzifəsinə mərkəzi hökumətin mənafeyini müdafiə etmək və göstərişləri yerinə yetirmək, sərhədləri qorumaq, təsərrüfatı idarə etmək, xalq hərəkatını və sinfi mübarizəni boğmaq daxil idi.

Azərbaycanda istifadəsiz torpaqların becərilməsi, tikintinin, tica-ı-ətin, sənətkarlığın, rabitənin və s. sahələrin idarəsi ilə məşğul olan xüsusi orqanlar-«divan»lar fəaliyyət göstərirdi.

Etnik dəyişmələr. Azərbaycanın əhalisi monqol istiialannadək əsasən türk tayfalanndan təşəkkül tapmışdı. «Əcaib əd-dünya» müəllifinin (XIII əsr) mə'lumatından aydın olur ki, türklər Arranda və eləcə de Azerbaycanda ən əsas etnik qrup idi. Şihabəddin Nəsəvi (XIII əsr) yazır ki, Arrandakı türkmənləri biryere toplasaydılar, qarışqa ve çəyirtkə yığnağını xatırladardı. Ölkənin müxtəlif yerlərində alban, tat, talış, ləzgi və b. etnik qruplar da yaşayırdı.

XIll əsrin ortalarında Hülaku xanın yürüşləri dövründə Azerbaycana 20-den artıq monqol-türk tayfalan gəldi. Azerbaycanın Hülakular dövlətinin mərkəzi vilayəti, Təbrizin və Marağanın paytaxt şəhərləri olması və nəhayət, Qarabağın elxanilərin qışlaq ərazisinə çevrilməsi bir sıra tayfalann Azerbaycana can atmasına səbəb oldu. Toponimik materiallar və ilk mənbələrin mə'lumatı sulduz-çobani, cəlairi, cığatay, kurqan, sukait, corat, budat, oyrat, tatar, dolan, onqut və b. tayfaların həmin dövrdə Azərbaycana gəlib məskunlaşdıqlarını

göstərir. Onların tərkibində türk tayfaları çoxluq təşkil edirdi. Türk taytalannın Azərbaycanda məskunlaşması və yerli əhali idə qaynayıb-qarışması əhalinin etnik tərkibinə tə’sir etdi və ölkədə türkdilli əhalinin sayının daha da artmasına səbəb oldu. Artıq XIV əsrdə türklər Elxaniler dövlətində mühüm, Azerbaycanda isə əsas yer tuturdu. Məhəmməd Naxçivaninin məMumatına görə, bu dövrdə əsas dövlət sənədləri 3 dildə (ərəbcə, farsca və türkcə) tərtib edilir və hər xalqa öz dilində, o cümlədən türklərə - türk dilində (uyğur əlifbasında) göndərilirdi. Arran, səyyah İoann de Qalonfontibusun (1404-cü il) yazdığı kimi, müsəlmanların hakimiyyəti altında idi.

Monqolların dini siyasəti və islam dininin mövqeyi. Monqol istilaları dövründə Azərbaycana gəlib məskunlaşan monqol-türk tayfaları ilə yerli əhalinin dini baxışlannda ciddi fərqlər mövcud idi. Əsasən bütpərəstlərdən ibarət olan monqollar ilk vaxtlardan başlayaraq Azərbaycanda və digər vilayətlərdə bütpərəstliyin yayılması və möhkəmlənməsi üçün eməli tədbirlər görməyə başladılar. Xoyda, Marağada və s. yerlərdə bütpərəstlik abidələri - bütxanalar tikildi, bütpərəst din xadimlərinin - bexşilerin hazırlanması üçün geniş imkanlar yaradıldı. Xarici və daxili siyasətlərində dini amillərdən geniş istifadə edən Hülaku şahzadələri yeri gəldikcə öz mənafelərinə uyğun olaraq bu və ya digər dinə - xristianlığa və ya islama arxalanırdılar. Hülaku xanın və sonrakı elxanların dini siyasəti nəticəsində ölkədə çoxlu bütpərəstlik abidələri yarandı, bütpərəstlərin sayı nəzərəçarpa- caq dərəcədə artdı.

Monqollar bütpərəstliyi yaymaq naminə islama qarşı ciddi mübarizə apardılar. Onların hakimiyyətinin ilk 30 ilində mərkəzi dövlət aparatında «ölkənin baş qazısı» vəzifəsi rəsmən tanınmadı, veqf torpaqları tutuldu, dini işlərin idarəsi icarəyə verildi və nəticədə islamın dövlət aparatındakı mövqeyi zəiflədi, tik elxanlann islama qarşı mənfi münasibət bəsləmələrində xristianlığın, yəhudiliyin, buddizmin və eləcə də Avropa xristian dövlətləri başçılannın böyük tə’siri oldu. İslama qarşı mübarizə, deмək olar ki, bütün monqol imperiyasında gedirdi və bu işdə bir sıra dinlərin nümayəndələri birleşmişdilər. V.V.Bartold yazır: «Bütün monqol malikanələrində xristianlar, buddistlər və müsəlmanlar arasında monqol xanlanm özlərinə tərəf çəkmək uğrunda mübarizə gedirdi; lakin xristianlarla buddistlər arasındakı düşmənçilik onların əksər hallarda *birgə qüvvələrlə mübarizə apardıqları islama qarşı olan ümumi nifrətlərindən çox zəif*

*idi.* Hələ 1253-cü ildə Kilikiya erməni çan I Hetum Ali monqol xaqanı Menku Qaanın (1251-l260-cı illər) yanına gedib onunla Misir memluklarma və islam dininə qarşı mübarizədə ittifaq bağlayır. Qərbin xristian dövlət başçılan da dəfələrlə Hülaku xanı və Abaqa xanı xristianlığı qəbul etməyə və Misirə qarşı səlib yürüşünə qoşulmağa də’vət edirlər. Yəhudipərəstliyi ilə məşhurlaşmış vəzir Sə’dəddövlə Çingiz xanı və Arqun xanı «peyğəmbən> e’lan edib ölkədə bütpərəstliyin yayılmasına və islama qarşı mübarizənin genişlənməsinə can atırdı.

İlk elxanların dini siyasətləri yerli əhali ilə gəlmələrin arasında ziddiyyətin artmasına, son nəticədə, başqa amillərlə yanaşı, ölkənin daxili və xarici vəziyyətinin gərginləşməsinə gətirib çıxardı. Monqol şahzadələri taxt-tac uğrunda apardıqlan mübarizələrində bu və ya digər dindən istifadə edir və bu vasitə ilə öz məqsədlərinə nail olmağa çalışırdılar. Məhz bu baxımdan ciddi addım atan Qazan xan (1295-1304-cü illər) hakimiyyətə yiyələnmək naminə uşaqlıqdan itaət etdiyi bütpərəstlikdən üz döndərib islamı qəbul etdi və onu yenidən dövlət dini eMan etdi. Qazan xanın dini islahatı nəticəsində bütpərəst monqolların əksəriyyəti islamı qəbul etdilər. Narazı qüvvələr ölkədən çıxarıldı. Qazan xan fərman verib bildirdi ki, islam dinini qəbul etmək istəməyənlər dövlətin ərazisini tərk etsinlər və istədikləri səmtə getsinlər, «burada qalanlar isə ikiüzlülük etməsinlər və islamın təmiz adını öz riyakarlığı ilə ləkələməsinIəD>.

Qazan xanın dini islahatı islamın mərkəzi dövlət aparatındakı mövqeyini bərpa etdi və islam rəsmən dövlət dini kimi fəaliyyət göstərməyə başladı. Dövlət fərmanlarında, sikkə zərbində, xütbə oxunuşunda yenidən müsəlman formullarından istifadə olundu. Həmin islahata görə. Qazan xan «hicri altıncı əsr islam dininin islahatçısı» kimi tanındı.

Qazan xanın dini islahatı bütpərəstliyin və eləcə də xristianlığın və başqa dinlərin mövqelərini sarsıtdı. İlk vaxtlarda inşa edilmiş bütxanalarla yanaşı, kilsələr, yəhudi mə’bədləri (sinaqoqlar) də dağıdıldı, onların yerində məscidlər, xanagahlar və s. müsəlman abidələri tikildi. Ölkədə yeni bütxanaların inşası qəti qadağan olundu. Qazan xanın dini islahatı monqol-erməni münasibətlərinə ciddi zərbə vurdu və son nəticədə Kilikiya erməni çarlığmm süqutuna səbəb oldu.

## § 6. İQTİSADİYYAT VƏ MƏDƏNİYYƏT

Monqol yürüşlərinin Azərbaycan iqtisadiyyatına tə'slri. Əsas gəlir mənbələrini heyvandarlığın inkişafında gören köçəri monqol tayfalarının Azərbaycana gəlməsi oturaq yerli əhalinin həyat tərzinə və ilk növbədə kənd təsən-üfatının və əkinçiliyin inkişafına mənfi to'sir göstərdi. Monqolların ilk yüyrüşləri Azərbaycanın ictimai-iqtisadi, siyasi və mədəni heyatına kəskin zərbə vurdu. Ölkədə feodal pərakəndəliyi daha da artdı. Monqollann keçdikləri ərazidə mədəniyyət abidələri, ticarət yolları dağıdıldı, əkin yerləri tapdalandı, xırmanlar yandınıdı. Monqollar ilk anlardan başlayaraq becərilən torpaqları zəbt edib otlaqlara çevirdilər. Muğanda çağırılmış qurultayda Ön Qafqaz ərazisi 110 nəfər monqol noyonu arasında bölündü. Sərkərdə Molar noyon Şemkirin və ətraf ərazinin hakimi oldu. Monqollar əhalinin mal-qarasını, xüsusilə atlarını güclə alıb öz ilxılarına qatdılar, tş o yerə çatdı ki, adamlar son heyvanlarını verib canlannı qurtarmalı oldu. Monqolların iqtisadi siyasəti əkin sahələrinin azalmasına və son nəticədə kəndlilərin həyat səviyyəsinin aşağı düşməsinə səbəb oldu, kənd təsərrüfatı məhsullarının həcmi kəskin şəkildə aşağı düşdü. Monqol köçərilərinin mütəmadi olaraq bir yerdən digərinə köçmələri yararlı əkin sahələrinin mal-qaranın və ilxıların ayaqları altında qalıb xarab olmasına səbəb olurdu. Monqollar kəndlilərin özlərini də ya məhv edir, ya da əsir tutub apararaq onlardan mal-qaranın otanimasında və ov mərasimlərində istifadə edirdilər. Bu isə Azərbaycanda kənd təsərrüfatının inkişafına ciddi maneə törədirdi.

Monqol yürüşləri şəhər heyatına da mənfi tə*sir gösterdi. Monqollar şəhər və qalaları tutarkən kütləvi qırğın törədir, əhalidən qiymətli daş-qaşın, qızıl-gümüşün, paltarların verilməsini tələb edirdilər. Sağ qalanlardan qul kimi, bə'zən isə sıravi döyüşçü kimi istifadə olunurdu. Sənətkarlar bir qayda olaraq Qaraqoruma və digər yerlərə aparılırdı. Cüveyninin mə'lumatına görə, Xarəzmdə lOO.OOO-ə qədər sənətkar əsir saxlanılırdı. Onlann bir qismindən tikinti işlərində, silah hazırlanmasında, zərgərlik e'malatxanalannda və s. sahələrdə istifadə olunurdu. Gənc əsirlərdən köməkçi hərbi hissələr təşkil olunur və yeri gəldikcə ordunun önündə istifadə olunurdu.

Sənətkarlann qul halına düşməsi və onlardan hərbi qüvvələr kimi istifadə olunması yerli əhalinin mənafeyinə zidd idi və təsərrüfatın, sənətkarlığın inkişafına zərər vururdu. Təsərrüfatda kəndli eməyi

evəzine əsirlərin - qulların əməyindən geniş istifadə olunması kənd təsərrüfatına və şəhər həyatına tə’sir göstərdi və iqtisadi tənəzzülə gətirib çıxardı. Monqol istilaları köhnə quldarlıq həyat tərzinin möhkəmlənməsinə imkan yaratdı. Azerbaycanın istehsal qüvvələrinə, ilk növbədə kənd təsərrüfatına ağır zərbə vurdu. Bə'zi hallarda təsərrüfat həyatının canlanması üçün müəyyən tədbirlər görülsə də, istehsal qüvvələrinin inkişafı əvvəlki səviyyəyə çata bilmədi.

Monqolların Azərbaycanda iqtisadi siyasəti. XIII əsrin ortalarında Hülakular dövlətinin tə’sisi və mərkəzi hakimiyyətin güclənməsi təsərrüfatda müəyyən canlanmaya səbəb oldu. Hülaku və Abaqa xanın zamanında monqolların torpaq və vergi siyasəti nisbətən müəyyənləşdi və mərkəzi idarə sistemi yarandı. Bu dövrdə monqolların həyata keçirdiyi iqtisadi siyasətin əsasını hər vasitə ilə yerli feodallardan torpaq sahələrini zəbt etmək və rəiyyətin istisman nəi ‘-.^əsində əldə olunan bütün gəlirlərə yiyələnmək tuturdu. Monqol canişinlərinin hakimiyyəti dövründən başlanan bu siyasət əsasən ilk elxanlar zamanı heyata keçirildi və Qazan xanın dövrünə kimi davam eldi. Nəticədə bir çox yerli feodallar torpaq malikanələrindən məhrum oldular. Həmin dövrdə vəqf və icma torpaqları da monqollar tərəfindən uıluldu. Zəbt olunmuş torpaqlar incu və divan torpaqlarına çevrildi və köçəri feodalların - şahzadələrin, xatunların, əmirlərin ixtiyarına keçdi. Ölkədə əvvəlki vergilərlə yanaşı, monqolların tə’yin etdiyi yeni vergilər toplanmağa başlandı. Hələ 1254-cü ildə Azerbaycanda 10 yaşından tutmuş 60 yaşınadək bütün kişilər siyahıya alınmışdı. Vergi və mükəlləfiyyətlərin sayı 40-dan artıq idi. Vergilərin miqdarında və yığılmasında qayda-qanun olmadığından eyni verginin təkrarən toplanması adi hala çevrilmişdi. Baş divanda və yerli vergi idarələrində özbaşınalıq hökm sümrdü. Mərkəzi divandan vergi mə’mu- runun (mühəssilin) göndərilməsi «miniatür hərbi yürüşü» xatırladırdı. Gəncoli salnaməçi Kirakosun yazdığına görə, «vergini verə bilməyənlərin oğul və qızlarını əllərindən ahrdılan>. Vergilərin toplanması əksər hallarda icarəyə (müqatiəyə) verilirdi. İcaredarlar şəxsi mənafeləri naminə qanunsuzluqlara və sui-istifadəyə el atırdılar. Rəiyyət həmçinin icbari əməyə (biyara) getməli idi. Abaqa xanın hakimiyyətinin sonlarında mərkəzi dövlətin zəifləməsi, feodal ara çəkişmələrinin artması təseiTüfatın və iqtisadiyyatın inkişafına te’sir etdi. XIII əsrin son rübündə Hülakular dövlətində iqtisadi və siyasi böhran baş verdi. Vəziyyətdən istifadə edən köçəri feodallar vergiləri artırmaq,

diavə vergilər toplamaq vasitəsilə əhalini qarət etməyə başladılar. İkiqat istismara mə'ruz qalmış, vergi və mükəlləfiyyətlərin ağırlığından cana gəlmiş xalq kütlələrinin feodal sinfinə qarşı mübarizəsi artdı. Nəticədə təsərrüfatda tənəzzül baş verdi, şəhər həyatı durğunlaşdı, dövlət aparatında satqınlıq, rüşvətxorluq çoxaldı, monqol e'yanlan arasında mərkəzdənqaçma qüvvələri artdı. Təserrüfatdakı tənəzzül dövlət xəzinəsinin boşalmasına səbəb oldu. Monqolların iqtisadi siyasətinin səmərəsiz başa çatdığını hiss edən Keyxatu xan və monqol əmirləri qəti tədbirlərin həyata keçirilməsinin vacibliyini dərk etdilər. Keyxatu xan xəzinənin daha da boşalmasının qarşısını almaq məqsədilə pul islahatı keçirdi: ölkədə kağız pullar - çao tədavülə buraxıldı. Lakin bu tədbir də səmərə vermədi. Çaonun tətbiqi bazar qiymətlərinin artmasına, ticarət dövriyyəsinin azalmasına, həyat səviyyəsinin aşağı düşməsi ilə əlaqədar şəhər əhalisinin öz yerlərini tərk etməsinə gətirib çıxartdı. Nəticədə ölkədə özbaşınalıq, çapqınçılıq, oğurluq çoxaldı, xalq kütlələrinin feodal sinfinə və monqol istilaçılarına qarşı mübarizəsi artdı.

Qazan xanın islahatları. Hülakular dövlətini iqtisadi və siyasi böhrandan xilas etmək üçün Qazan xan (1295-1304-cü illər) ciddi addımlar atdı. O,‘hakimiyyətinin ilk illərində rəqiblərinə qarşı kəskin mübarizə apararaq mərkəzi dövleti möhkəmlədə bildi. Qazan xan yerli oturaq feodallan və müsəlman din xadimlərini öz tərəfinə çəkmək naminə islam dinini qəbul etdi. Onun özünün e'tiraf etdiyi kimi, «bütün əhalinin müsəlmançılığa razı olması və bütpərəstlikdən üz döndərməsi boş uydunna deyildi» və ciddi siyasi məqsədlər güdürdü. Azərbaycan tarixçisi Əbu Bəkr el-Qütbi əl-Əhəri (XIV əsr) yazır: «Qazan xan düşmənlərinin dəfi üçün tədbir aradığı vaxt şəhadət kəlməsini təlqin edib müsəlman oldu».

Qazan xan daha sonra bir sıra islahatlar keçirdi və bu işdə Fezlul- lah Rəşidəddin böyük rol oynadı. Qazan xan yeni islahatlar keçirmek- .le əhalinin istismannı nizama salmaq və dövlət gəlirlərinin mütəmadi axınım tə’min etmək, bu işdə monqol ə’yanlannm özbaşınalığına son qoymaq və eləcə də sıravi monqollara torpaq malikanələri verməklə onlann yaşayışı üçün şərait yaratmaq məqsədi güdürdü.

Qazan xan vergilərin növü, miqdan, toplanması üsulu və vaxtı barədə dəqiq qayda-qanun yaratdı. Vergi verənlərin siyahısı tutuldu, hər bir kəndin, şəhərin ödəyəcəyi vergi məbləği böyük lövhələrdə həkk olunub baxımlı yerlərdə nümayiş etdirildi. Vergilərin nağd pulla

və ya natura halında toplanılacağı və ilin hansı vaxtında yığılacağı müəyyənləşdirildi. Qeyri-qanuni vergilərin toplanılması qadağan edildi. Vergilərin yınıması Baş divanın sərəncamına verildi və vilayət hakimlərinin bu işə qanşması qadağan olundu. Qazan xanın islahatı vergi toplanmasının icarəyə verilməsi təcrübəsini ləğv etməsə də, bu işdə ciddi qayda-qanun yaratdı; vergi toplanması 3 il müddətinə icarəyə verildi. Toplanılmış vergilərin məsrafı və dövlət xəzinələrinin fəaliyyəti üzərində ciddi nəzarət qoyuldu. Vergi islahatı 1297-1304- cü illərdə Qazan xanın narazı qüvvələrə qarşı mübarizəsi şəraitində həyata keçirildi.

Qazan xanın rabitə sahəsində həyata keçirdiyi tədbirlər ölkədə vahid rabitə sisteminin yaranmasına səbəb oldu. Qazan xanın fənna- nına əsasən, bütün əsas yollarda hər 3 fərsəxdən bir (21 km) rabitə dayanacaqları - «yam»lar yaradıldı. Yamlara əmirlər tə’yin olundu və onlar lazımi qeder qulluqçularla və atlarla te’min olundu. Qazan xan mövcud yarlıqları və paydzaları (xüsusi lövhələri) ləğv etdi və əvəzinə yenilərini düzəltdirib onlardan istifadə üzərinə nəzarət qoydu. Elçilərin və yam işçilərinin yerli əhalidən vəsait alması qəti qadağan edildi. Hər bir elçi - müsafir e’zamiyyət xərclərini divandan almalı və yam xidmətindən istifadə edərək lazımi məntəqəyə getməli idi. Mühüm dövlət sənədləri və məktublar da bir yamdan digərinə ötürülməklə ünvana çatdırılırdı. Yollarda karvansaralar tikildi və müsafirlərin rəiyyətin evində qalmaları qadağan olundu. Yol gömrüklərinin toplanması sahəsində də qayda-qanun yaradıldı. Rabitə sahəsindəki islahatlar iki il müddətinə həyata keçirildi.

Ölkədə hökm sürən hüquqi qanunsuzluqlan, məhkəmə işinin həddən ziyadə dolaşıq olmasını, özbaşınalığın və rüşvətxorluğun son həddə çatdığını, «qazı» vəzifəsinin icarəyə verilməsinin mənfi nəticələrini nəzərə alan Qazan xan vəziyyəti nizamlamaq məqsədilə məhkəmə islahatı keçirdi. Əsas diqqət «qazı» vəzifəsinə layiqli din xadimlərinin tə'yin olunmasına, məhkəmələrdəkiqanunsuzluqlara son qoyulmasına, alqı-satqı işlərində qayda-qanun yaradılmasına yönəldildi. 30 illik tarixə malik iddiaların öz qanuni qüvvəsini itirdiyi elan olundu. Məhkəmələrin aparılması üçün toplanan ödəmələrin dəqiq məbləği müəyyənləşdirildi. Şəhər, mahal, kənd qazılarının səlahiyyətləri dəqiqləşdirildi. Məhkəmə sədri-qazı vəzifəsinə tə’yin olunanlardan qanuna ciddi əməl edəcəkləri barədə qəbz alınması qaydası tətbiq olundu. Cinayetkarlann cinayətə müvafiq cəzalanmaları üçün

tədbirlər görüldü. Bütün bunlara bamayaraq, Qazan xanın məhkəmə islahatı tam şəkildə həyata keçirilmədi.

Qazan xanın torpaq islahatı monqollann orta təbəqələrinə və elxanlara qulluq göstərən yerli əyanlann mənafeyini və yaşayışını təmin etməyə istiqamətlənmişdi. Bu islahatın əsas hissəsini monqol qoşunlarına iqta torpaq sahələrinin verilməsi təşkil edirdi. Qazan xanın fərmanına əsasən incu və divan torpaqları və eləcə də boş qalmış toıpaqlar (bayrat torpaqlar) hesabına bir çox ərazilər hərbi hissələrin sərəncamına verildi. Torpaq sahələri ilə yanaşı, həmin ərazidəki kəndlər, suvarma şəbəkələri və s. iqtadarların ixtiyanna keçdi. Qazan xanın fənnanı kəndliləri də öz yaşayış yerlərinə təhkim edirdi və onların bir yerdən digərinə keçməsi qadağan olunmuşdu. İqta torpaqları alınıb-satıla, bağışlana, cehiz və ya başqa şəkildə özgəsinə verilə bilməzdi. Yalnız hərbi qulluq göstərənlər iqta ala bilərdilər. İqtalar iqtadann ölümündən sonra onun hərbi işi davam etdirən xələlinə çatırdı.

Qazan xan istifadəsiz qalan bayrat torpaqların becərilməsi üçün təsirli tədbirlər gördü: bütün istifadəsiz torpaqlar qeydə alındı, onların sahibkarlığı müəyyənləşdirildi, sahibsiz torpaqlar divana təhkim olundu, becərilməyən mülklər də satın alınaraq divana verildi. Həmin toıpaqlar yeni sahibkarlara paylandı və onların bu ərazilər üzərindəki hüquqları xüsusi divan sənədləri ilə qanuniləşdirildi. Yeni sahibkarlar həmin torpaqları satmaq, bağışlamaq, icarəyə veiTnək və s. hüququna malik idilər. Bayrat torpaqlardan dövlət vergiləri ərazinin təbii şəraitindən, məhsuldarlığından, xüsusilə su təchizatından asılı olaraq güzəştli şərtlərlə toplanırdı və bu baxımdan 3 yerə bölünmüşdü.

Qazan xan ticarətin inkişafını tə’min etmək məqsədilə vahid pul sistemi yaratdı, çəki və ölçü vahidlərini sabitləşdirdi. Ticaı*ət yollarında və bazarlarda gömrük toplanması, karvanların, yolların və ticarət mərkəzlərinin qomnması üçün əsaslı tədbirlər gördü.

Qazan xanın islahatları ilk vaxtlarda təsirli nəticələr verdi, xalq kütlələrinin vəziyyətini nisbətən yüngülləşdirdi, ölkə iqtisadiyyatında canlanma baş verdi, sui-istifadə halları azaldı. Dövlət xəzinəsinə daxil olan gəlirlər aıtdı və əvvəlki 1700 tümən əvəzinə 2100 tümənə çatdı. Mərkəzi dövlət müvəqqəti olsa da möhkəmləndi və beləliklə də Hülakular dövlətinin labüd tənəzzülü bir neçə onillik müddətində tə’xirə düşdü.

Çobanilor və Cəlairilər dövründə Azərbycan iqtisadiyyatında dəyişikliklər. Əbu Səidin (1316—1335-ci illər hakimiyyəti dövründə mərkəzi dövlətin zəifləməsi, Xorasanda, Gürcüstanda, Rumda və s. vilayətlərdə baş vermiş iğtişaşlar və Qızıl Orda xanı Özbəyin Azərbaycana yürüşləri ölkənin təsərrüfatına və iqtisadiy\'atına kəskin zərbələr endirdi. XIII əsrin 30-cu illərində «dalğalar arasında çırpınan gəmini» xatırladan Hülakular dövləti müxtəlif hissələrə parçalandı və Azərbaycanda Çobani feodal qmpunun ağalığı başlandı. Yerli oturaq təsəiTÜfatı aradan götürməyə cəhd edən Çobani feodalları əhalinin amansız istismarı xəttini yeritdilər. Həmdullah Qəzvini 1340-cı illərin hadisələrindən danışarkən yazır ki, «əvvəllər öz gözəlliyi ilə məşhur olan bu yerlər indi yararsız hala düşmüş, qurda, tülküyə məskən, bayquşa, kərkəsə vətən olmuşdur. Əbu Bəkr əl-Əhəri isə bu dövrdə Azərbaycanda «zülm, bahalıq və vəba»» kimi üç şeyin bolluq təşkil etdiyini xəbər verir. Öz qəddarlığı ilə məşhurlaşmış Çobani əmiri Əşı*əf zülm və çapqınçılıqla topladığı vergilər hesabına 17 xəzinə təşkil etmişdi. Sonralar Əşrəf ölkədən qaçmağa cəhd gösterdiyi vaxt, onun əmlakını daşımaq üçün 1000 dəvə və 400 qatır lazım olmuşdur. Azərbaycan əhalisi Çobani feodallarının zülmündən cana gəlib vətəni tərk edərək Gilana, Şirvana, Qızıl Orda dövlətinə, Gürcüstana, Ruma, Şama, Bağdada və s. yerlərə gedirdilər. Məhəmməd Naxçıvaninin qeyd etdiyinə görə, bu dövrdə Naxçıvanın yalnız */5 hissəsində əhali yaşayırdı.

Çobani feodallarının ağalığına son qoyulması və Azərbaycanda Cəlairilər dövlətinin te'sisi təsərüfatda və iqtisadiyyatda müəyyən canlanma baş verməsinə səbəb oldu. Cəlairi Şeyx Uveysin həyata keçirdiyi islahatlar bu işdə az rol oynamadı. Ölkədə abadlıq işləri aparıldı, suvarma kanalları çəkildi, kənd təsərrüfatının və heyvandarlığın inkişafına diqqət artırıldı. Lakin XIV əsrin 80-ci illərində ölkədə başlanan feodal çəkişmələri yenidən iqtisadi böhrana gətirib çıxardı. Teymurun və Toxtamışın mütəmadi hücumları, Azərbaycanın öz daxilində gedən ara müharibələri şəhərlərin, kəndlərin dağılmasına, təsərrüfatın daha da geriləməsinə səbəb oldu. Teymurun Azerbaycanda, xüsusilə Qarabağda gördüyü bərpa işləri, Arazdan Beyleqana çəkdirdiyi Bərlas su kanalı müəyyən təsərrüfat əhəmiyyəti kəsb etsə də, ümumi iqtisadi vəziyyətin nizamlanmasına tə'sir göstərmədi. Azərbaycanın Naxçıvan, Mərənd, Əhər və xüsusilə Təbriz şəhərləri Qızıl Orda xanı Toxtamışın qoşunları tərəfindən talan olundu.

Zeyneddin Qəzvininin qeyd etdiyinə görə, Azərbaycandan 200.000 adam əsir apanidı. Teymurun və Toxtamışın yürüşləri becərilən əkin sahələrinin, bağların, bostanlann ayaq altda qalıb məhv olmasına səbəb oldu. Təbrizdə daha acınacaqlı vəziyyət yarandı. 1387-1392-ci illərdə Təbrizə edilmiş 17 hücumun nəticəsində şəhərdə həyat səviyyəsi aşağı düşdü, şəhər təsərrüfatı, sənətkarlıq e'malatxanaları dağıdıldı. Təbrizin tanınmış sənətkarlan Teymurun əmri ilə Orta Asiyaya göndərildi və bunun nəticəsində sənətkarlıqda geriləmə müşahidə olundu.

Elm və mədəniyyət. Monqol yürüşlərinin və onların həyata keçirdikləri siyasətin ləngidici tə'sirinə baxmayaraq, Azərbaycanda mədəniyyət, incəsənət, elm və ədəbiyyat öz inkişafını davam etdirirdi. Azərbaycan Şərqin ən mühüm mədəni mərkəzlərindən biri olaraq qalmaqda idi. Bu dövrdə Övhədi Marağainin (l275-1338-ci illər) «Dəhnamə» (On məktub), Zülfuqar Şirvaninin (1190-l245-ci illər) şe'rləri meydana gəldi. Azərbaycan (türk) dili ərəb və fars dilləri ilə yanaşı, dövlət dili səviyyəsi kəsb etdi. Məhəmməd Naxçıvani qeyd edir ki, mühüm dövlət sənədləri əhaliyə 3 dildə-ərəb, fars və türk dillərində çatdırılırdı. 1233-cü ildə şair Əlinin «Qisseyi Yusif>> (Yusif dastanı) əsəri, XlIl-XIV əsrlər astanasında isə İzzəddin Həsənoğlunun «Divan»! türk dilində yazıldı və Şərqdə böyük şöhrət tapdı. Həmin əsrlərdə Mustafa Zeririn «Yusif və Züleyxa» və Suli Fəqihin «Yusif və Züleyxa» adlı poemaları meydana gəldi. Türk dilinin izahlı lüğətləri tərtib edildi.

Azərbaycanın müxtəlif şəhərlərində möhtəşəm me'marlıq abidələri yaradıldı. Təbrizdə Şənbi-Qazan, Rəb'i Rəşidi məhəllələri, Ərk qalası, şeherin Kohen meydanında məscid, xanəgah, mədrəsə, Muğanda Mahmudabad şəhəri, Abşeronda Mərdəkan, Ramana və Nardaran qalaları, Marağada, Zəngilanda, Naxçıvanın Qarabağlar kəndində görkəmli məqbərələr. Urmiyada (1227-ci il), Mərəndde (1331-ci il) və s. yerlərdə əzəmətli məscidlər, mədrəsələr, xanəgahlar inşa olundu. Zeynaləddin Şirvani, Mahmud ibn Maqsud, Əbdül Mö'min Təbrizi, Hacı Əlişah Təbrizi, Nizam Təbrizi və b. Azərbaycan me'marları və ustalan bütün Şərqdə şöhrət tapdılar.

Azərbaycanda astronomiya (nücum), riyaziyyat, tibb, fəlsəfə, tarix, coğrafiya və s. elmlər üzrə əhəmiyyətli kəşflər edildi, əsərlər yazıldı. Görkəmli alim Məhəmməd Nəsireddin Tusinin rəhbərliyi ilə 1259-cu ildə açılmış Marağa rəsədxanası və eləcə də XIV əsrin ev-

vəllərində Şamqazanda tikilmiş rəsədxana Şərqdə astronomiya elminin mərkəzinə çevrildi. Burada dünyanın bir çox ölkələrindən, hətta uzaq Çindən görkəmli alimlər çalışırdılar. Azərbaycanın məşhur riyaziyyatçısı, «Risalət ül-hesab» eserinin müəllifi Übeyd Təbrizi və görkəmli filosof Sədeddin Mahmud Şəbüstəri (1252-1320-ci illər) çalışdıqları elm sahələrində tanındılar. Mahmud Şəbüstərinin «Gülşən-i raz» (Sirlər gülşəni) və «Seadətnamə» əsərləri dövrün qiymətli fəlsəfi əsərləri sırasına daxil oldu. Tibb sahəsində Mahmud ibn tlyas («Elm-i tibb») və Fezlullah Rəşidəddin kimi alimlər var idi. Təbrizin yaxınlığındakı Rəb-i Rəşidi və Şamqazanda yerləşən daruş- şəfalar tibb elminin tədqiqat mərkəzinə çevrildi. Azərbaycan musiqisi Sətləddin Urməvi və Əbdülqadir Marağainnn fəaliyyətləri nəticəsində inkişaf edərək daha da zənginləşdi. Fələk Ala-i Təbrizinin mühasibata aid «Səadətnamə» və «Qanun əs-səadət» əsərləri yazıldı.

XIII- XIV yüzillərdə Şərqdə tarix elmi sahəsində böyük nailiyyətlər eldə olundu; həmin dövrdə yazılmış qiymətli tarixi əsərlərin 70-ə qədəri zəmanəmizə qədər gəlib çatmışdır. Azərbaycan «Şərq tarixşünaslığınm qızıl əsrləri» hesab olunan həmin dövrdə tarix elminin mərkəzinə çevrilmişdi. Fəzlullah Rəşidəddinin «Cam-e ət- təvarix», Abdullah Kaşaninin «Tarix-i Ulcaytu», Abdullah Şirazinin «Tarix-i Vassaf», Hemdullah və Zeynəddin Qəzviniiərin (ata-oğul) «Zeyl-i tarix-i qozide» və s. Azərbaycan tarixi ile bağlı olan əsərlər meydana çıxdı. Azerbaycan alimlərindən Əhməd Təbrizi (XIV əsrin I yarısı, «Şahənşahnamə»), Əbu Bəkr əl-Qütbi əl-Əhəri (XIV əsrin ortaları, «Tarix-i Şeyx Uveys») və xüsusilə Məhəmməd ibn Hinduşah Naxçıvani (1292-l370-ci illər) «Destur əl-katib fı tə’yin əl-məratib») öz tarixi eserləri ilə məşhurlaşdılar. Azərbaycanda Hemdullah Qəzvininin coğrafiyaya aid «Nüzhət əl-qulub» (1340-cı il) əsəri yazıldı.

## *X I f ə s i l*

# AZƏRBAYCAN FEODAL DÖVLƏTLƏRİ

### § 1. AZƏRBAYCANIN DAXİLİ SİYASİ VƏZİYYƏTİ

XIV esrin 60-70-ci illərində ölkədə sinfi ziddiyyətlərin daha da kəskinləşməsi monqolların zəifləməsinə səbəb oldu. Elxani Əbu Səidin (1316-1335) dövründə zəifləməyə başlayan Elxanilər (Hüla- kular) dövləti Arpa xanın (1335-1336) hakimiyyəti dövründə əslində öz fəaliyyətini dayandırdı. Ə'yanlar mərkəzi hakimiyyətə tabe olmur, tədricən ondan uzaqlaşırdılar. Belə feodal hakimlərdən Çobanilər və Cəlairilər sülaləsi daha qətiyyətli idilər. 1356-cı ildən e'tibarən Cəlai- rilər (1359-1410) Azərbaycanın cənubuna, Kür çayına qeder bütün toıpaqlarma yiyələnirlər. Cəlairi Sultan Üveys (1356-1372) Şirvanı ələ keçirməyə tələsir və buna nail olur. Şirvanşah-Kəsranilər sülaləsi* Cəlairilərdən asılı vəziyyətə düşür. Kəsranilər sülaləsindən olan və Cəlairilerin hakimiyyətini qəbul edən sonuncu Şirvan şahı Hüşən- gin (1372-1382) siyasəti təkcə xalq kütlələrinin deyil, feodalların da xeyli hissəsinin narazılığına səbəb olur. Bunun nəticəsində 1382-ci ildə Şirvanda böyük sosial hərəkat başlanır. Sənətkarlar, tacirlər, xırda feodallar və kəndlilər üsyanın apancı qüvvəsi idilər. Hüşəng öldürülür. Bununla da Şirvanda Kəsranilər sülaləsinə (1027-1382) son qoyulur. Şirvan feodalları İbrahimi (1382-1417) taxta çıxarırlar.

Şirvanşah 1 İbrahimin siyasəti. I İbrahim yoxsullaşmış ə'yan nəslindən idi. Həmin vaxt o. Şəki əyalətində xırda torpaq sahibi idi. Ata-babası vaxtilə Dərbənd hakimi olmuşlar. Ona görə də bu nəsildən hakimiyyətə gələnləri dərbəndlilər sülaləsinə (1382-1538) mənsub edirdilər. Rəvayətə görə, I İbrahimin Şirvan şahı e'lan edilməsi xəbəri ona isti yay günündə ağır fiziki əməkdən sonra ağac kölgəsində istirahət edərkən çatdırılmışdı.

* Mə'lum tədqiqatlara görə, Kəsranilər ayrıca sülalə olmayıb, vahid Şirvanşahlar xanədanına mənsub olmuşlar.

l ibrahim uzaqgörən dövlət xadimi, bacarıqlı diplomat idi. O, Şirvanın yadelli işğalçılar tərəfindən dağıdılmasına, qarət edilməsinə yol verməк istəmir, dövlətin istiqlaliyyətini emin etməyə çalışırdı. 1 İbrahim xarici siyasi vəziyyəti və qüvvələrin real nisbətini dürüst qiymətləndirərək özündən güclü düşmənlərlə silahlı toqquşmalara girişmir, çox hallarda bir işğalçıdan digər işğalçıya qarşı mübarizədə istifadə edirdi. Hətta bu və ya digər işğalçının hakimiyyətini qəbul etməyə məcbur olduqda belə, Şirvanın müstəqilliyini qoruyub saxlamağa çalışırdı; bununla da o, öz dövlətini möhkəmlətməyə nail ola bilirdi. I İbrahim öz sinfi mənsəbinə sadiq qalaraq feodalların mənafeyini müdafiə etsə də, onun yeritdiyi siyasətin obyektiv, mütərəqqi cəhətləri əhalinin müxtəlif təbəqələri tərəfindən müdafiə olunurdu.

Şirvanşah Keyqubad və Keyxosrovdan fərqli olaraq Şirvanın müstəqilliyi uğrunda aparılan inadlı mübarizələrdə I İbrahim xüsusilə fərqlənirdi.

Teymur və Qızıl Orda xam Toxtamışm Azərbaycana hücumları. XIV əsrin 80-90-cı illəri xalq kütlələrinin Teymurun və Toxta- mışın işğalçı yürüşlərinə qarşı apardıqlan mübarizə ilə səciyyələnir. Orta Asiya feodal hakimi Teymurləng (Topal Teymur) (1370-1405) əvvəlcə müxtəlif feodalların «muzdla tutulmuş dəstə başçılarının rəhbəri kimi yüksəlmiş», sonra isə Səmərqəndi, Buxaranı, Amu-Dərya və Sır-Dərya arasındakı geniş bir ərazini ələ keçirərək böyük Cığatay islam dövləti yaratmış, istilaçılıq siyasəti yeritmişdir.

XIV əsrin 80-ci illərində Əmir Teymur Xarəzmin qoşunlannı tamamilə özünə tabe etdikdən sonra Azərbaycanı və Yaxın Şərqi istila etmək üçün hazırlığa başladı. l386-cı ilin baharında İran ərazisinə daxil oldu. Təbriz hakimi Əmir Vəli Azərbaycan, Fars və İraq hərbi qüvvələrini birləşdirib Teymura qarşı çıxmaq istədisə de, onun cəhdi baş tutmadı. Teymumn qoşunu Sultaniyyəni tutub Təbrizə tərəf irəlilədi və şəhərə daxil oldu. Cəlairi Sultan Əhmədin Bağdaddan Təbrizə ilk dəfə göndərdiyi qüvvələr vuruşmada məqlubiyyətə uğradı. Az sonra 0 yenidən Təbrizə qayıdıb şəhəri tutdu. Lakin Teymurun Ucana çatdığını eşidən Sultan Əhməd geri qayıdaraq Naxçıvandakı əmirlərinin yanına gəldi və oradan Vostan-Van yolu ilə keçib Bağdada getdi. Teymur Ucandan Həştrud yolu ilə Təbrizə gələrək Şənbi-Qazanda məskən saldı. Şəhər əhalisindən xərac toplandı, Təbrizin tanınmış sənətkarları-inkişaf etmiş yerli mədəniyyətin görkəmli nümayəndələri Teymurun göstərişi ilə Səmərqəndə göndərildilər.

Hemin il Naxçıvan yaxınlığında Teymurun əmirlərindən İlyas Xoca ilə Sultan Əhmədin qoşunu arasında kəskin döyüş baş verdi. İlyas Xocanın bu döyüşdə yaralanması Sultan Əhmədi məğlubiyyətdən qurtardı. Orta Asiyada xalq iğtişaşlan baş verdiyindən Teymur oraya qayıtmalı oldu. Şərqin ba§qa ölkələri kimi, Azərbaycan da Teymur qoşunlarının basqınından çox böyük zərər çəkdi.

1386-cı ilin qışında Qızıl Orda xanı Toxtamış (7-1406) 90 min nəfərlik qoşunla (Bəy Poladın sərkərdəliyi altında) Dərbənd keçidindən Azərbaycana hücum etdi. Şirvanşah I İbrahim şəhərin müdafiəsini təşkil etsə də, heç bir nəticə əldə edə bilmədi. Qoşun hissələri Dərbəndi, Şirvanı keçib Təbrizə yaxınlaşdı. Təbrizdə ciddi müqavimətə rast gəldilər. Qızılordalılar əhalinin mübariz əhvali-ruhiyyəsini görüb Şənbi-Qazanda yerləşdilər və 8 gün şəhər ətrafında dövrə vurdular, lakin şəhərə girə bilmədilər. Toxtamış şəhər hakimi Əmir Vəli ilə danışığa başladı və 250 tümən qızıl almaq şərtilə geri qayıtmağa razılıq verdi. Ertəsi gün şəhər əhalisi əldə edilmiş razılığa və cümə olduğuna görə silahı yerə qoydu. Vəziyyətdən xəbər tutan Toxtamış, 1382-ci ildə Moskva ətrafında olduğu kimi, Təbriz divarları önündə də hiyləyə əl atdı və qoşunu şəhərə buraxdı. Əhali düşmənə müqavimət göstərə bilmədi. 100 minə qədər döyüşçü 8 gün ərzində Təbrizi qarət etdi, əhalini qırdı. Kişilər, qadınlar, qızlar, hətta görpə uşaqlar belə, qışın oğlan çağında küçələrə atıldılar. 8 gündən sonra Toxta- mıştn qoşununun bir hissəsi Marağaya getdi və şəhəri dağıdaraq yenidən Təbrizə qayıtdı. Təbrizdəki hissələr isə daha iki gün qarətlə məşğul oldular. Qoşunun bir hissəsi Mərəndə, oradan da Naxçıvana yollanıb burada qarəti davam etdirdikdən sonra Qarabağa gəlir. Digər dəstələr isə Əhər yolu ilə şimala çəkildi və bütün hissələr Qarabağda birləşib 200 min əsirlə Qızıl Orda dövlətinə qayıtdılar. Beləliklə, Təbriz şəhər feodallannın fərsizliyi nəticəsində düşmən qarətindən xilas ola bilmədi.

Toxtamışın Təbrizdə, ümumən Azərbaycanda törətdiyi dəhşətlər nəticəsində ölkə xarabazara çevrildi. Cəlairi əmirləri arasında birlik olmadığı üçün Sultan Əhməd Bağdada çəkildi, onun bir sıra əmirləri Əlincə qalasına getdilər, bə’ziləri isə Təbrizdə qaldılar. Yerli əhalinin inadlı mübarizəsi və Teymur qoşunlarının Qızıl Orda malikanələrinə hücumu ilə əlaqədar Toxtamış Azərbaycan şəhərlərində, o cümlədən Naxçıvanda çox qala bilmədi, gəldiyi yolla geri qayıtmağa məcbur oldu. Qaynaqlar Teymurun yürüşü ərəfəsindək! vəziyyəti belə şərh

edirlər: «Bu dövrdə İranda ölkənin hər tərəfinə fərman verə biləcək bir şəxs yox idi, həmfikir adam tapmaq olmazdı, adamlar bir-birlərinə e'tibar etmirdilər». Ona görə də çox vaxt xalq gözlədiyi nəticəni eldə edə bilmirdi.

Əlincə qalasının müdafləsi. Teymur Azərbaycanın cənub torpaqlarının çox hissəsini tutduqdan sonra, 1387-ci ilin payızında Naxçıvandakı qüdrətli Əlincə qalasına yaxınlaşdı. İlyas Xoca adlı feodalın başçılıq etdiyi Teymurun qoşunu naxçıvanlıların müqavimətini çətinliklə qıra bildi. Naxçıvanın Gemi və Sürməli adlı istehkamları dağıdıldı. Şeyx Hə.sən isə tutularaq Teymurun hüzumna gətirildi. Əlincə qalası Teymurun qoşunu tərəfindən mühasirəyə alındı.

Bu qala Əlincə çayı sahilində yüksək sıldınm qaya üzərində yerləşmiş, möhkəm divarlar və bürclərlə əhatə olunmuşdu.^ Hasarların içərisində, dağın döşündə üzümlüklər, bağlar və əkin yerləri, otlaqlar, çoxlu su mənbələri vardı. Qala uzun illər müdafiə şəraitində özünü ərzaqla tə'min etmək imkanına malik idi. Cəlairilər bu qalanın strateji əhəmiyyətini nəzərə alaraq, həmişə onu möhkəmləndirməyə çalışırdılar. Teymur qoşunlarının hücumu qarşısında qala daha da möhkəmləndirilmişdi. Həm də Sultan Əhməd xəzinəsini, ailəsini, oğlunu və yaxın adamlarını qalada yerləşdirib onun müdafiəsini Əmir Altuna tapşınnışdı. Onun ixtiyarında 300-ə yaxın qorçu (döyüşçü) var idi. Oğlu Məlik Tahir də onların sırasında idi. Azerbaycanın ayrı-ayrı feodal hakimləri və Gürcüstan dövləti Teymur qoşunlanna zərbə vurmaq, onun irəliləməsinə imkan verməmək məqsədilə Əlincə qalasının müdafiəsinə yaxından kömək edirdilər. Şəki hakimi Seyid Əli Orlat 1388-1389-cu ilin qışında gürcülərlə ittifaqa girərək Əlincə qalası müdafiəçilərinin köməyinə gəldi. Qalanın qarşısında Teymur qoşunu ilə gərgin döyüş başlandı. Teymurun döyüşçüləri qalanın aşağı səngərlərini ələ keçirib dağıtdılar, belə olduqda müdafiəçilər Əlincə qalasının yuxarı hissəsinə çəkildilər. Teymur qalanı mühasirəyə aldı. Qala daxilindəki su ehtiyatı qurtardı və müdafiəçilər susuz qaldılar. Onlar danışıqlar aparmaq üçün Teymurun yanına nümayəndə göndərməyə məcbur oldular. Teymur qalanın təslim olacağını yəqin edib qoşunu onun ətəklərinə endirdi. Lakin xoşbəxtlikdən müdafiə-

2 Stepanos Orbelianinin fikrincə, Əlincə qalası e.ə. tikilmiş, eramızın V əsrinə qədər bərpa edilmişdir. Yazılı mənbələrdə isə 909-cu ildə tikildiyi qeyd edilir.

çilər qaladan çıxmamış leysan yağışı yağdı və qalanın bütün quyuları, anbarları su ile doldu, beləliklə də bol su ehtiyatı yarandığından döyüşçülər qaladan çıxmadılar və onu düşmənə təslim etmədilər. Teymur qalanın mühasirəsini daha da qüvvətləndirib Naxçıvana çəkildi. Vəziyyətin getdikcə kəskinləşdiyini hiss edən Teymur oğlu Miranşahdan kömək istədi. Miranşah Əlincenin mühasirəsini möhkəmləndirmək məqsədilə Xorasandan xüsusi qoşun gətirdərək oğlu Əbu Bəkr Mirzənin komandanlığı altında qala üzərinə göndərdi. Lakin o, müttəfiqlərin zərbəsi nəticəsində geri çəkilməyə məcbur oldu. Əlincə qalası Teymur qoşunlarının mühasirəsindən xilas oldu. Lakin sonralar da qala Teymurun oğlu Miranşahın, nəvəsi Əbu Bəkr Mirzənin qoşunlarının ardıcıl həmlələrinə mərdliklə sinə gərdi. Əlincə qalasının qəhrəmancasına müdafiəsində Şəki hakimi Seyid Əli Orlat həlak oldu. Beləliklə, ağır itki bahasına birləşmiş qüvvələr teymuriləri Əlincə qalasının mühasirəsindən müvəqqəti də olsa əl çəkməyə məcbur etdilər. Bağdad və ətraf əraziləri zəbt edib Bitlis şəhərinə gələn Teymur Əlincə qalasının mühasirəsinə Əmir Məhəmməd Dərviş Bərlasın başçılığı altında yeni qüvvələr göndərdi, özü isə Azərbaycandan və Gürcüstandan əsgər toplayıb Aladağa qayıtdı. Əlincənin mərdliklə müdafiə olunduğunu görən Teymur bir müddətdən sonra Sultaniy- yəyə gedib xacə Ağbuğanı qalanın mühasirəsini davam etdirən Məhəmməd Dərviş Bərlasın köməyinə göndərdi. Dörd görkəmli əmirin başçılığı ilə 40 min nəfərlik ordu qala üzərinə hücuma keçdi. Bu zaman təsadüfən qala müdafiəçilərindən.bir dəstəsi Əmir Altunun başçılığı ilə qaladan çıxmışdı. Onlar geri döndükdə vəziyyətin dəyişdiyini, qala qapılarının düşmən tərəfindən tutulduğunu görüb teymuri- ləre qarşı hücuma keçdilər. Düzgün mövqe tutan Əmir Altun düşmənə böyük tələlat verdi, 4 tümən^ əmirinin ikisini öldürdü və öz dəstəsi ilə qalaya daxil oldu. Lakin Məlik Tahirlə Əmir Altun arasında ciddi ziddiyyət var idi. Odur ki. Altunun qaladan müvəqqəti çıxmasından istifadə edən Məlik Tahir onun qardaşım öldürtdü, özünü isə qalaya buraxmadı. Almn Mərəndə getməyə məcbur oldu. Yerli hakim onu öldürüb başını Teymura göndərdi. Əmir Altun kimi ad-san sahibi olan igid sərkərdənin ölümü Teymuru sevindirmədi. Ona görə Teymur Mərənd hakimini öldüıtdü və əmlakını müsadirə etdirdi. Ərəb tarixçisi İbn Ərəbşahm yazdığına görə, qaladakı hadisələr onun müdafiə-

^ Türhən burada ərazi mə’nasında işlənmişdir.

çilərinə ciddi tə’sir edir, onların bir qismi Məlik Tahirdən üz döndərib qalanı tərk edirlər. Tahir də öz acizliyini hiss edib Cəlairilərin Əlincədəki xəzinəsini götürüb Bağdada çəkilir. Teymur Hindistan səfərindən qayıdıb Səmərqəndə çatdıqdan cəmi 4 ay sonra təcili səfərbərlik e’lan edib 1399-cu il oktyabrın lO-da Əlincəyə yollandı. Nəticədə Teymuran qoşunu bu növbəti səfərində heç bir müqavimətə rast gəlmədən başsız buraxılmış qalaya daxil oldu. Deməli, Əlincə qalasının fasilələrlə 12 il (1387-1399) mərdliklə müdafiə olunduqdan sonra daxili feodal çəkişmələri nəticəsində Teymur tərəfindən fəth edildiyini qəbul etmək tamamilə həqiqətə uyğundur.

Teymur Əlincə qalasını ələ keçirdikdən sonra öz əzəmətilə onu heyrətə gətiı*ən bu qalanı xüsusi ziyarət etmişdi.

İşğalçılıq siyasətini davam etdirən Teymur Naxçıvandan Qarsa, sonra isə Tiflisə gedərək bu şəhərləri qarət etdi. Sonra Şəkiyə doğru irəlilədi. Onun qoşun hissələri Şimali Qafqaz xalqlarını, Şəki ətrafındakı dağlarda yaşayan əhalini talan etdi. Şəkidə Teymur Küngütü, Ağcaburunu tutdu. Əhalini soyub-taladıqdan sonra Suı*xab qalasını ələ keçirdi və Qarabağa gəldi.

Azərbaycanın cənub vilayətlərinin və Əlincə qalasının tutulması Şirvanı da böyük təhlükə altına alırdı. Yenicə hakimiyyət başına gəlmiş və dövləti hələ tam möhkəmləndirə bilməmiş I İbrahim Şirvanın təhlükəsizliyi qayğısına qalaraq Teymurla danışıqlara girdi və 1386-cı ilin payızında dəyərli hədiyyələrlə Teymumo Kür sahilində, Bərdə yaxınlığındakı düşərgəsinə getdi. Rəvayətə görə, Şirvanşah Teymurun hüzuruna gedəndə külli miqdarda cavahirat və ipəklə birgə səkkiz qul aparıbmış. Əmir Teymuam düşərgəsində ibrahimin karvanından yükü qəbul edən mehtər^ soruşub ki: «Qayda üzrə hədiyyənin üstündə doqquz qul verərlər, sən niyə səkkizini gətirmisən?» İbrahim deyib ki, «doqquzuncu qul özüməm». Guya Əmir Teymura xoş gələn də elə bu olub. Bir başqa salnaməçi, özündən əvvəlki salnaməçinin «doqquzuncu qul» əhvalatını tekzib etmədən yazır ki, hədiyyələrin üstündə şah. Nizaminin yeddi gözəli timsalında yeddi dünya gözəli apanbmış. Əmir Teymur hədiyyələr qoyulan çadırda, yeddi rəng tül altında dayanmış gözəllərə valeh olub və elə buna görə də İbrahimdən xoşu gəlib. I İbrahimlə danışıqlar zamanı Dərbənd keçidinin qızılordalılarm basqınlarından mühafizəsi

^ Mədaxilin, mexaricin hesabatını aparan me’mur.

Şirvan qoşununa hevale olundu. Eyni zamanda şirvanlılar Te)mnumn hərbi yürüşlərində iştirak etməli idilər. Hələ 1387-ci ilin əvvəllərində Toxtamışm dəstələri Dərbənddən ikinci dəfə Azərbaycana soxulanda Miranşahın Kürün şimalında yerləşən qoşununa qarşı dura bilməyib geri çəkildi. İki qorxulu fatehlə vuruşmağın çətinliyini dərk edən 1 İbrahim Teymurla ittifaq bağlayıb Toxtamışa qarşı çıxdı və vuruşmada öz döyüşçüləri ilə iştirak etdi. Teymur isə bu dövrdə Qarabağdan Göycə gölünün sahillənnə, oradan da Saray Mələk xanımı qarşılamaq üçün Mərəndə getdi. l395-ci U aprelin l5-de Terek sahilindəki vuruşmada Teymur Şirvan qoşunları ile birlikdə Toxtamışm hərbi qüvvələrini məğlub etdi. O, Volqadan şərqdəki toıpaqlannı itirdi. Toxtamışı Sibir xanı Şadıbəy öldürdü. I İbrahimin Şirvan qoşunlan və Seyid Əhmədin Şəki dəstələri 1402-ci ildə Osmanlı sultanı İldırım 1 Bəyazidə qarşı Teymunın yürüşündə iştirak etdilər. Osmanlı qoşunu Ankara yaxınlığında məğlub oldu. Bəyazid isə əsir düşdu. Bu qələbədən sonra Yaxın Şərqin xeyli hissəsi Teymurun əlinə keçdi.

Bəs, I İbrahim ne əldə etdi? O, yenə də Şirvanı möhkəmlətmək və Azərbaycan torpaqlarını birləşdirmək siyasətini yeridərək Teymur hakimiyyətindən öz məqsədləri üçün istifadə edirdi. Birincisi, I İbrahim Teymurla Toxtamış arasındakı ədavətdən istifadə edərək Şirvanı düşmən hücumundan qurtardı və Şirvan daxilən müstəqil qaldı. Şirvanşah öz tə’sirini Qarabağ, Şəki, Derbend və Qəbələyə yaymağa müvəffəq oldu. Teymur Dərbəndin müdafiə istehkamlarını tə’mir etdirdi və mühafizəsini gücləndirdi. Dərbənddən Şabran-Şamaxı yolu ilə Kür çayının sahilinə gəlib Şeyx İbrahimi Şirvan vilayətinin hakimi tə’yiu etdi. Dərbəndin və sərhəd ərazisinin müdafiəsini ona tapşınb Ağdama getdi. Teymurun bu dövrdə Azerbaycana topladığı qoşunun sağ cinahı Qarabağ-Naxçıvan istiqamətindən Unik qalasına kimi, sol cinahı isə Həmədana qeder çatırdı. Teymur 1404-cü il martın 27-də Ağdamdan Ərdəbil-Sultaniyye-Həmədan yolu ilə Səmərqəndə qayıtdı. İkincisi, I İbrahim 1398-ci ildə Şəki vilayətinin hakimliyini Əlincə ətrafındakı döyüşlərdə həlak olmuş Seyid Əlinin oğlu Seyid Əhmədə qaytannaq barə^a Teymurdan razılıq aldı. Üçüncüsü, I İbrahimin köməyi ile gürcü çan VII Georgi Teymurla sülh müqaviləsi bağladı. Azerbaycan dövlət başçısının yardımı ilə bağlanan və Gürcüstanın talan edilməsinə son qoyan bu müqavilə Azerbaycan-Gürcüstan münasibətlərinin daha da möhkəmlənməsinə səbəb oldu. Həmin vaxtdan e’tibaren Gürcüstan və Şəki əmirliyi Şirvanşahın müttəfiqi kimi çıxış edirdilər.

Təbrizin fəthi. Teymurun Səmərqəndə qayıtması ilə Azərbaycanda xalq azadlıq hərakatı və hakimiyyət uğrunda mübarizə şiddətləndi. Teymurun zəbt etdiyi ərazilərdəki əmirlərinə qarşı, əsasən Sultan Əhməd və onun Əlincə qalasındakı əmirləri, Mahmud Xalxa- linin idaı*ə etdiyi feodal qrupu, Təbrizin yerli əmirləri. Marağa hakimi Yadigar şah və Qara Yusifin başçılığı ilə qaraqoyunlular mübarizə aparırdılar. Bu dövrdə və ümumiyyətlə, Azərbaycan uğrunda mübarizədə iştirak edən qüvvələri iki hissəyə - xarici və yerli qüvvələrə bölmək olar. Xarici qüvvələrin (Teymur, Toxtamış, qaraqoyunlular) əsas məqsədi Azərbaycanı işğal etmək idisə, yerli qüvvələrin (Təbriz əmirləri. Sultan Əhməd Cəlairi və Altun, Mahmud Xalxali. Marağa hakimi Yadigar şah) mübarizəsində Azərbaycanın müstəqilliyini tə’min etmək cəhdləri mühüm yer tuturdu. Qeyd etməliyik ki, Təbriz feodal ara müharibələrinin və xarici yürüşlərin meydanına çevrilmişdi. Təbrizin ələ keçirilməsi bütün Azərbaycanı tutmaq üçün əsas olduğundan şəhər uğıoında mübarizə ciddi şəkil almışdı. 1387-1392-ci illərdə Təbrizə 17 dəfə hücum edilmiş, 14 hücumun nəticəsində şəhər bir feodal qıııpundan digerinin elinə keçmişdi. Nəhayət, Təbriz 1392- ci ildə ikinci dəfə İrana və Ön Qafqaza hücum edən Teymurun qoşunu tərəfindən tutulmuşdu.

Azərbaycanın Teymur tərəfindən istila edilməsi və onun zülmü ölkənin təsərrüfat həyatına sarsıdıcı tə’sir göstərir, xalqı aclığa məhkum edirdi. Dövrün müasirlərindən biri yazır; «Teymur gedəndən sonra ölkəmizdə dəhşətli aclıq yarandı, aclıq hər yeri bürüdü... gözlə- rimizlə görüb, qulaqlarımızla eşitdiklərimizin hamısını, insan nəslinin necə qırıldığını söyləməyə gücümüz çatmıı».

Bununla belə, İsmayıl Akamn (Türkiyə) yazdığına görə. Teymur Azərbaycanda xeyriyyə işləri də görmüşdü. O, Ankara vuruşmasından sonra, 1403-cü ildə Kür çayını keçərək Gürcüstanı fəth en.ıiş, qışla- maq üçün Qarabağa gedərkən yolüstü Beyləqana gəlmiş vc buranın çoxdan dağılıb pis vəziyyətə salındığını görmüşdü. Buna görə də Beyləqanın abadlaşdırılması və Arazdan buraya bir kanal çəkilməsinə göstəriş vermişdir.

Dünyaya hökmranlıq etmək iddiasında olan Teymur: «Göydə Allah tək olduğu kimi, yer üzündə də ancaq bir padşah olmaiıdır. Bəşəriyyətə iki padşah ağalıq edə bilməz», - deyirdi. Lakin onun bu iddiası baş tutmadı. Tarixin göstərdiyi kimi, zülm, əsarət və istibdad üzərində qurulmuş dövlətlər və onların hökmdarları heç vaxt uzun ömür sürməmişlər. Teymurun və onun dövlətinin də aqibəti belə oldu.

Azerbaycanın şimalında Şirvan dövləti mövcud olduğu bir zamanda ölkənin cənub vilayətlərini Teymurun oğlu Miranşah idarə edirdi. O, şeher və kəndləri amansızcasına talayır, əhalini var-yoxdan çıxarırdı. Bir müddət Əlincə qalasının mühasirəsinə başçılıq etsə de, müvəffəqiyyətsizliyə uğramışdı. Miranşahın Azərbaycanda törətdiyi dağıntılar Ölkənin təsərrüfatına va mədəni həyatına mənfi te'sir göstərirdi. Miranşahın qəddarlığı xalqın qəzəbinə səbəb olmuşdu. Xalq arasında onu «Maranşah» (ilanlar şahı) adlandırırdılar. Onun Türkiyə və Suriyadan köçürdüyü 50 min əsir ailə Qarabağda, Gəncədə və İrəvanda yerləşdirilmişdi. Zaman keçdikcə bu köçkünlər yerli əhali ile qaynayıb-qanşırdı. Azerbaycanın bə’zi bölgələrində ona qarşı tez-tez üsyanlar baş verirdi. Seyid Əli Orlat ona itaət etməkdən boyun qaçırdı. Təbrizdə də Miranşaha qarşı üsyan baş verdi və o. Şəkiyə qoşun göndərərək şəhəri qarət etdi. Təbrizdəki vəziyyəti isə çox çətinliklə sakitləşdirə bildi. Amansızlığına və qəddarlığına görə Teymur onu hətta hakimiyyətdən uzaqlaşdırmışdı. Atasının ölümündən sonra hakimiyyət uğıunda mübarizəni davam etdirmiş, Təbriz yaxınlığında Qara Yusiflə döyüşdə (1408) öldürülmüşdür. Surxab qalasında dəfn olunmuş, sonra isə cənazəsi Səmərqəndə apanlmışdır.

Hürufilik («hərflər» sözündəndir) - şiəlikdə təriqətdir. Teymurilərin zülmünə qarşı narazılıq durmadan artırdı. Belə bir şəraitdə hələ XIV əsrin sonlarında Azerbaycanda islam dini ehkamlarına və Tey- murilər hökmranlığına qarşı yönəldilmiş dini-siyasi hərəkat-hürufilik yayılmağa başladı. Hürufilik tə’liminin banisi Şeyx Fəzlullah Cəlaləddin Nəimi idi. O, özünün dünyagörüşü, fəlsəfi tə’limi və bədii yaradıcılığı ilə Azərbaycan sosial-fəlsəfi və bədii fiki'i zəminində yetişmişdi. XIV əsrin sosial-siyasi vəziyyətindən rişələnmiş hürufilik te’limi Azərbaycanın sosial-fəlsəfi fikri tarixində mühüm yer tutan məzdəki- lik, xürrəmilik və əxilik hərəkatı ilə üzvi surətdə bağlı idi.

Hürufilik .Allahın təbiətdə, əşyada, sözdə, xüsusən insanda təcəssümünü əsas götürürdü. Buna görə hürufilər Allahın Fəzlullahda təcəssüm etdiyinə inanırdılar. Həmin tə'limə əsasən, insan öz varlığında olan ilahi ünsürü əxlaqi-mə’nəvi təkamül yolu ilə inkişaf etdirir və Allah dərəcəsinə yüksəlir, Allah olur, onunla eyniyyət təşkil edir. Bu nəzəriyyənin derin sosial kökü var: hürufilər deyirdilər ki, hökmdarlar və din-şəriət xadimləri ədalətsiz, qaniçən və riyakardırlar. İnsanlan ədalətə qovuşdurmaq üçün yeni tipli hökmdar, kamil insan lazımdır. Belə insan isə Fəzlullahdır. Fəzlullah Allahın timsalı, onun

naibi ve evezidnr. O, öz qüvvəsi ile ədalətsizliyi, qanlı müharibələri, zülmü, işğalçılığı, soyğunçuluğu aradan qaldıracaq, dini ehkamlann mə’nasız qanun-qaydalarını; oruc, namaz, məscid xurafatını ləğv edəcəkdir. Göründüyü kimi, bu cərəyan fəal fəlsəfi panteizmə^ əsaslanır və praktik sosial-siyasi məqsəd güdürdü. Deməli, hürufilər Allahın təcəssümünü, Allah şəklində olan kamil insanları qəsbkar, zalım hökmdarlara qarşı qoyurdular. Başqa sözlə, bu dövrdə teymurilər zülmünə qarşı geniş xalq kütlələrinin azadlıq mübarizəsinə sərbadarlar (insan azadlığı üçün başlarından keçənlər),* müxtəlif ideoloji cərəyanın başçıları rəhbərlik edirdilər. Həmin ideoloji cərəyanın başçılarından biri de Fəzlullah Nəimi idi.

Hürufilikdə Allah eyni zamanda söz-kəlam şəklində təcəssüm edir, sözlər isə hərflərlə ifadə olunur. Deməli, Allah sözlərdə təcəssüm etdiyi üçün eyni zamanda hərflərdə ə’yan olur, hərflər i.^ə kamala çalmış insanın üzündə əks olunmuşdu. Peyğəmbərlərin axırıncısı olan Məhəmmədin nitqi 28 hərfdə öz ifadəsini tapmışdır. Fəzlullah isə farsın 32 hərflni əsas götürmüşdür. Onun «Cavidanname»^ əsəri 32 hərfdən bəhs edir. İnsanın üzündə anadangəlmə yeddi xətt vardır: iki qaş, dörd kirpik, bir sac. Bunlar dörd ünsürdən, yə’ni su, od, torpaq və havadan əmələ gəldiyi üçün hər biri dörd hesab edilir. Hamısının sayı isə 28 olur. Saç ortadan ikiyə ayrıldıqda yeddi xett səkkiz olur; səkkizi dörd ünsürə vurduqda isə otuz iki alınır.

Hürufilər başqa rəqəmlərlə də hərflərdən ibarət rəmzlər yaradır, ərəb elitbası hərflərinin müqəddəs olduğunu, onun vasitəsilə dünyanın sirlərini açmaq mümkün olduğunu qeyd edirlər. Əslində hərfl rəmzlər hürufiİore islam dilinə ve şəriət ehkamlarına zidd olan panteist tə'limlərini pərdələmək üçün lazım olmuşdur.

Hünıfılərə görə, Allahın yaratdığı dünya daim dövr edir və bu, görünən dəyişikliklərin səbəbidir. Allah iki yolla təzahür edir: Allahın özünebənzər yaratdığı insanda və Allahın nitqində - Qur’anda ve şeylərin adında. Allahın insanda təzahürü insanın quıtuluşu pillələrindən ibarət üç mərhələyə ayrılır: peyğəmbərlik (nöbüvvət), ilahi himayədarlıq (vilayət) və ilahilik (uluhiyyat). Peyğembəiiik Mehem- modlə başa çatmışdır, ondan sonra ilahi himayədarlar şio imamları gəlir. Nəimi isə axırıncı himayədar və həm də birinci canlı Allahdır (xuda), üçüncü mərhələnin banisidir.

^ Allahı təbiətlə eyniləşdirən dini-fəlsəfi görüş.
^ «Cavidannamə» - əbədilik əsəri.

Hürufilik ilk dəfa Naxçıvanda, Astrabadda yayılmış, teymurilərə qarşı mübarizədə əhəmiyyətli rol oynamışdı. Bu cərəyanın iştirakçıları istilaçılar tərəfindən amansızcasına te'qib olunurdular. Fəzlullah Nəimi 1394-cü ildə Teymurun əmri ilə Miranşah tərəfindən həbsə alınaraq Naxçıvandakı Əlincə qalasına aparılır və orada dəhşətli surətdə eMam edilir. Hürufiliyin digər görkəmli nümayəndələri-məşhur Azərbaycan şairi və mütəfəkkiri İmadəddin^ Nəsimi, Əbdülhəsən Əli ül-Ə*la və başqaları idi. Bunların başçılığı ile hürufilər Türkiyə erazisində fəaliyyət göstərmiş və türk dilində geniş ədəbiyyat yaratmışlar. Hürutiləri daim tə'qib edən islam dininin amansız müridləri 1417-ci ildə Suriyanın Hələb şəhərində Nəsiminin diri-diri dərisini soyurlar. Dahi Azərbaycan şairi M.Füzulinin əsərlərində də hürufilik motivləri vardır.

**Şirvanşah I İbrahimin birləşdirmə siyasətində yeni addım.** Teymurun ölümündən sonra (1405) onun zəif iqtisadi əlaqəsi olan böyük imperiyası tezliklə dağıldı, varisləri arasında hakimiyyət uğrunda mübarizə başlanır. Bir-biri ile ədavət edən Miranşah və onun oğlu Ömər Mirzə Azərbaycanın cənub hissəsinə yiyələnmək iddiasında idilər. Belə bir şəraitdə Gəncədə, Şəkidə, Qarabağda, Təbrizdə, Ərdəbilde, Marağada xalq iğtişaşları geniş vüs'et alır. Yaranmış vəziyyət I İbrahimin qoşununa Kür çayını keçməyə, Gəncəni və Qarabağın xeyli hissəsini tutmağa imkan verir. Eyni zamanda Gürcüstanda da teymurilərə qarşı üsyan başlanır. Gürcü çan Konstantin və bir çox Azərbaycan feodalları, o cümlədən şəkili Seyid Əhməd, qaramanlı tayfasından Əmir Yarəhmed, Ərdəbil hakimi cəyirli tayfasından Bistam Ceyir İbrahimlə ittifaqa girirlər. l405-ci ilin yayında birleşmiş qoşun Kür sahilində ömərin ordusu ilə toqquşur. Məğlubiyyətə uğrayan Ömər ölkənin cənubuna çəkilir və təbrizlilərdən gələn ilin rüsumlannı tələb edir. İki gün ərzində 200 İraq tüməni toplayır. Qəzəblənmiş əhali üsyan qaldırır. Üsyançılar Ömərin maliyyə me'mu- nınu öldürərək Teymurun qoşununu şəhərə buraxmırlar. Ağsaqqallardan Şeyx Əli Qəssab və Qazi İmadəddin şəhərin başçısı seçilirlər, 1406-cı ilin yanvar-fevral aylarında onu idarə edirlər.

1406-cı ilin yazında Ömərin böyük qardaşı Əbu Bəkr Şeyx Əli Qəssabın ordusunu darmadağın edir və şəhər qüllələrini möhkəmləndirmək üçün təbrizlilərdən məcburən yüz min qızıl istəyir. Onlar

^ «İmadəddin» - dinin dirəyi. Əsl adı Seyid Əli.

buna cavab olaraq həmin ilin yazında yenidən üsyan qaldınrlar. Şəhərin baş tamğa (vergi) yığanı Şeyx Əli Qəssabın başçılığı ilə sənətkar e'malatxanalarının ustaları və tacirlər Əbu Bəkrin hakimiyyətindən imtina edərək kömək üçün Şirvanşah 1 İbrahimə müraciət edirlər. Ərdəbilli Bistam Cəyir İbrahimdən əvvəl Təbrizə daxil olur, Şirvanşahın adından xəzinəyə vergi toplayır və toplanmış məbləği öz qoşunu arasında bölür. Elə bu vaxt, 1406-cı ilin mayında I İbrahim Arazı keçərək Təbrizə gəlir. Bistam Gəyirin mülazimmini, Əbu Bəkrin vəkili Xoca Məhəmməd Dəvani, hətta qohumları onu tərk edərək topladıqlan vergilərin bir hissəsi ilə İbrahimin hüzuruna gəlirlər. Bistam Cəyir isə Ərdəbilə tələsir. Əhali I İbrahimi mehribanlıqla qarşıladı və onu öz hakimi kİmi tanıdı. O, əhalidən alınan vergiləri qaydaya saldı.

Beləliklə, qısa müddətə də olsa Şirvanşah I İbrahim Azərbaycanın böyük bir hissəsini öz hakimiyyəti altında birləşdirdi. Lakin o, Təbrizdə möhkəmlənə bilmədi. Çünki tezliklə Cəlairi Sultan Əhmədin və onunla ittifaqda olan qaraqoyunlu tayfa birləşməsinin hərbi qüvvələri şəhərə yaxınlaşırlar. I İbrahim məcburiyyət qarşısında Təbrizi tərk etməli olur.

## § 2 QARAQOYUNLU DÖVLƏTİ

Yaxın və orta Şərqin hərbi-siyasi tarixində qaraqoyunlu və ağqoyunlu tayfaları Azərbaycan xalqının təşəkkülündə mühüm rol oynamışlar. Bu tayfalar əsasən qoyunçuluqla məşğul olurdular. Qaraqoyunlu tayfa ittifaqının bayrağında qara qoçun, ağqoyunlu tayfa ittifaqının bayrağında isə ağ qoçun təsviri vardı. Buna görə de həmin tayfaların biri qaraqoyunlular, digəri isə ağqoyunlular adlanırdı. Mənşəcə oğuz tayfalarından olan qaraqoyunlulara baharlılar^ başçılıq edirdilər. Əvvəllər Van gölünün cənubunda məskən salmış qaraqoyunlular XIV əsrin 70-ci illərindən Ərzincan, Sivas və Gürcüstanın şimal torpaqlarında möhkəmlənib ağqoyunlular, Cəlairilor və Teymurilərə qarşı mübarizə aparmışlar.

Qaraqoyunlu sülaləsinin banisi Bayram Xoca idi. 80-ci illərin sonundan e'tibarən Qaraqoyunlu tayfa başçılan və Cəlairilər arasında

^ Baharlı tayfası Həmədandan, sonra isə Qəzvinin qərbində yerləşən Həmsə vilayətində məskunlaşmışdı. Onlardan Əli Şəkər bəy daha şöluətli idi.

gedən mübarizə nəticəsində bu tayfa birləşməsi bir qeder zəiflədi. Bayram Xocanın Qaraqoyunlu tayfa ittifaqlannı birləşdirmək cəhdləri bir nəticə vermədi. Onun ölümündən sonra (1380) xələfləri Azərbaycanda öz siyasi tə’sirlərini gücləndintıəye çalışdılar. Oğlu Qara Mə- həmməd^ (1380-1389) Celairilərle mövcud ziddiyyəti aradan qaldırmaq məqsədilə öz qızım Cəlairi dövlətinin başçısı Sultan Əhmədə ərə verərək onunla qohum oldu. Bu qohumluq hər iki tərəf arasında münasibətlərin sahmana düşməsinə kömək edir. Vəziyyətdən istifadə edən Qara Məhəmməd (mərkəzi Van şəhəri olan), Qaraqoyunlu tayfa ittifaqı hakimiyyətinin əsasını qoyur və Azerbaycanda öz hakimiyyətini möhkəmləndirməyə çalışdığı üçün qohumluğa əhəmiyyət vermir və 1382-ci ilin sentyabrında böyük qoşunla Təbrizə hücum edir.

Şəhər ətrafında ciddi döyüş başlanır. Bu döyüş Qaraqoyunlu qüvvələrinin Cəlairi şahzadəsi Şeyx Əli üzərində qələbəsi ile nəticələnir. Cəsur və təşkilatçı, mürəkkəb hərb əməliyyatlarından çıxmağı bacaran bir şəxs olan Qara Məhəmmədin ləqəbi Nəsrəddin idi. O, bir il sonra (1383) Suriyada göıünür. Çünki Suriya hakimi Səlim Qara Məhəmmədin təbəəsi olan Mosul hacılarının yolunu kəsərək mallarını qarət etmişdi. Ona görə də Qara Məhəmməd suriyalı Bozdo- ğanoğlu Ziya ül-Miilklə ittifaqa girərək Səlimə qarşı yürüşə çıxır, şəhəri dağıdaraq çoxlu qənimət ələ keçirir. Səlim isə Hələb naibi əl-Nəsiriyyənin yanına qaçır.

1384- cü ildə Qara Məhəmməd Mardin hökmdarı Məcdəddin İsanın qızı ilə evlənmək üçün elçi göndərir, lakin rədd cavabı alır. Aldığı cavab Qara Məhəmmədin Mosuldan Mardin üzərinə yeriməsinə səbəb oldu. Mardin hökmdan Hüsn-Keyfa qoşun toplayaraq Qara Məhəmmədə müqavimət göstərmək istəyir, lakin məğlubiyyətə uğrayaraq geri çəkilir. Məlik İsa bacısını Qara Məhəmmədə ərə verərək onunla qohum olur. Bununla da tərəflər arasında banşıq yaranır.

1385- ci ildə Qara Məhəmməd Mosul və Mardin arasındakı ərazinin sahibi olan Misir Xocanı Qahirəyə göndərərək Sultan Berqoqdan iki düşmənin hücumuna mə'ruz qaldığı üçün Suriyaya keçməyə icazə istədi. Berqoq icazə verdi. Qara Məhəmmədin bu iki düşməninin biri Teymur, digəri isə aralannda ərazi ədavəti olan ağqoyunluiar idi. Bir az əvvəl Ağqoyunluiar tərəfindən məğlub edilmiş Ərzincan hökmdan

Hafiz Əbruya görə. Qara Məhəmməd Bayram Xocanın qardaşı oğludur.

Qara Məhəmməddən yardım istəmiş, o isə bu təklifə razılıq vermişdi. Bu da onların ağqoyunlulara qarşı ittifaqda birləşmələrinə səbəb oldu və həmin ildə onlar ağqoyunluları məğlubiyyətə uğratdılar. Ağır itki verən ağqoyunlular Sivas-Qeyseriyyə hökmdarı Qazi Biirhanəddinə müraciət etməyə məcbur oldular.

1387-ci ilin baharında Teymur Naxçıvandan qaraqoyunlular üzərinə hücuma keçir. Bunu eşidən Qara Məhəmməd Çapaqcur dairəsinə gəldi və burada sərt keçidləri tutaraq Teymuri qüvvələrini darmadağın etdi. Teymur Muş düzənlnyinə çəkildi və ayrı-ayrı oymaqları qarət etdi. Xilatı. sonra isə Adilcevazı tutaraq Aladağa yollanır. Daha sonra Vam ələ keçirib İrana dönür.

1387-ci ilin sonlarında Misir hakimi Berqoqa qarşı Mintaş, Qazi Bürhanəddin və Qara Məhəmməd arasında üçlər ittifaqı yaranır.

Qaraqoyunluların Təbrizi tutması. Teymurla Toxtamışın ədavətindən istifadə edən Cəlairi əmirləri Şəbli və Şah Əli Təbrizi zəbt etdilər. 1388-ci ilin baharında Cəlairi Sultan Əhməd də bura tələsdi. Bu vaxt Təbrizdə olan Dövlətyar Qara Məhəmmədə xəbər göndərərək Təbrizi tutmağı təklif etdi. Həmin il mayın 24-də qaraqoyunlular Cəlairi əmirlərinin müqavimətini sındırıb şəhərə daxil oldular. Şəblini te’qib edərək Həştrudda öldürdülər. Şah Əli isə dilənçi qiyafəsində qaçmağa məcbur oldu. Beləliklə, Qara Məhəmməd 1388-ci ilin Zilhiccə ayında Təbrizə girdi, burada sultanın adına xütbə oxutdu və pul kəsdirdi.

Qara Məhəmmədin Qara Pirhəsənlə davası. 1389-cu ilin aprel ayında Qara Məhəmmədlə Mardin hökmdan Məlik üz-Zahir İsanın Qahirəyə gələrək onlara qaı*şı üsyan etmiş Hələb valisi Vel-Buqa əi-Nasirlə müharibəyə icazə vemıəsini xahiş etdilər. Lakin Berqoq bu xahişi radd etdi. Qaynaqların məTumatına görə. Qara Məhəmməd və oğlu Bayram həmin ilin aprel ayında Qara Pirhəsən adlı digər bir Qaraqoyunlu əmiri ile döyüşdə qətlə yetirilmişdilər.*^

Ərəb mənbələri Pirhesenin babası Hüseyn beyin adını çəkir, bu da şübhəsiz. Bayram Xocanı qətlə yetirərək onun yerinə keçən Hüseyn bəydir. Pirhesenin de əmirlik üçün Qara Məhəmmədlə münaqişəyə gıı*məsinin başlıca səbəbi bu idi. Maraqlıdır ki, Bayram Xoca və Hüseyn bəy ilə Qara Məhəmmədin babalanmn qardaş olmasına baxmayaraq, hakimiyyət uğrunda onlar bir-birini qətlə yetirirdilər.

'0 Qara Pirhəsən Qara Məhəmmədin qardaşı oğludur.

Qaraqoyunlu Kəmaləddin Qara Yusif (1389-1421). Pirhəsen parlaq qələbəsinə baxmayaraq, mübarizəni davam etdirə bilmir. Qaraqoyunlular Qara Məhəmmədin oğlu Misir Xocanın ətrafına toplaşırlar. O, Mardin hökmdarından yardım alaraq Pirhəsenlə mübarizə aparır. Çox keçmədən onun işini əzm və iradə sahibi Qara Yusif davam etdirir. Ağqoyunlu Qara Yuluq Osmanla ittifaqa girir və Pirhə- səni əsir alaraq Teymurun yanına göndərir.

1391- ci ildə Qara Yusif Təbrizə gəlir. Lakin Əlincə əmiri Altunun Təbrizə yürüşü ilə əlaqədar şəhəri tərk edir.

1392- ct ildə Qara Yusif Pirhəsən bəylə döyüşə girdi, döyüş Qara Yusitln qələbəsi ilə başa çatdı. Həmin ilin baharında Təbrizə irəliləyir və Şənbi-Qazanda düşərgə salır. Bunu eşidən Mahmud Xalxali şəhəri tərk edir, Qara Yusif şəhəri tutur. Lakin bir gündən sonra şəhərdən çıxır, az sonra yenidən şəhərə qayıdır və bir aydan sonra Teymur qoşununun yaxınlaşdığını görüb yenidən şəhərdən uzaqlaşır. Cünki həmin dövrdə qaraqoyunlular teymurilərə açıq müqavimət göstərə bilməsələr də, onlara ağır zərbələr vururdular. Buna baxmayamq, 1392-ci ildə Qaraqoyunlu tayfa ittifaqının mərkəzi Van şəhərini tey- murilər tutdu və qarət etdilər. Bu məğlubiyyətdən sonra Azərbaycandakı mövqelərini itirmiş qaraqoyunlular teymurilərə qarşı əlbir mübarizə aparmaq üçün cəlairilərlə yaxınlaşdılar. l394-cü ilin yayında Bağdad yaxınlığında teymurilərlə qaraqoyunluların görkəmli sərkərdəsi Qara Yusif və cəlairilərin birləşmnş qüvvələri arasında döyüş teymurilerin qələbəsi ilə qurtardı.

Qara Yusifin və Sultan Əhmədin Misirə qaçması. Göründüyü kimi, XIV əsrin ikinci yarısında Azərbaycanın qərbində yaranmış Qaraqoyunlu tayfa ittifaqı əhəmiyyətli bir qüvvə kimi diqqəti cəlb etsə də, öz daxili quruluşuna görə möhkəm deyildi. Tayfalararası mübarizələr ittifaqı zəiflətdi və 1395-ci ildə ittifaq dağıldı. Lakin Qara Yusif tezliklə onu bərpa etdi və Teymur əleyhinə ittifaq yaratmaq məqsədilə, Celairi Sultan Əhmədlə birlikdə Misirə getdi. Onlar Misirə çatan kimi Teymur Misir hakimi Berqoqdan dostlann həbs edilməsini tələb etdi. Berqoq Teymura qarşı Qaraqoyunlu və Cəlairi qüvvələrindən istifadə etmək məqsədilə Teymurun təklifini rədd etdi və onun elçisini öldürtdü. Berqoqun ölümündən sonra taxtda oturan Misir hakimi, onun oğlu Sultan Fərəc Teymurla münasibətləri pozma

maq xatirinə hıüttefıqleri həbsə aldı. Lakin Teymurun ölümünü eşidən kimi, onlan həbsdən azad etdi.^^

Qara Yusif və Süitan Əhmədin Azərbaycana qayıtması. Xondəmirin yazdığına görə, dostlar məhbəsdə olarkən şərtləşmişdilər ki, azadlığa çıxdıqdan sonra Bağdada Sultan Əhməd, Təbrizə isə Qara Yusif yiyələnsin.

Teymurun ölümündən sonra (1405) dostlar Azərbaycana qayıtdılar. Qara Yusif yol boyu Misir sərhədlərindən Fərat çayının sahillərinə qədər ayn-ayn feodal həmlələrini dəf etdi Van ərazisində Xila- tm, Muşun, Xnusun hakimi Məlik Şəmsəddin onunla ittifaqa girdi. Bu ittifaq Qara Yusifin qızının Məlik Şəmsəddinə ərə getməsi ilə daha da möhkəmləndi. Bununla da Qara Yusif Kürdüstan ətrafında, Ərməniy- yədə, Azərbaycanın cənubunda məskunlaşan yanmköçəri kürd əmirlərini də öz ətrafında birləşdirə bildi. 1406-cı ilin iyununda Sultan Əhməd və Qara Yusif Bağdadı zəbt edib, tə'cili Cənubi Azərbaycana doğm irəlilədilər. 1406-cı il iyulun sonunda müttəfiqlər Təbrizə yaxınlaşdılar. Sultan Əhməd şəhər yoxsullannı öz tərəfinə çəkməyə çalışdı.

I İbrahim öz yaxın adamları, Təbriz naibləri ilə mesləhətləşənden sonra şəhəri tərk etməyi qərara aldı. Bu da aydın idi. Çünki Azərbaycanın feodal ə'yanları I İbrahimin nisbətən yaxşı silahlanmış qoşun liissəsini təşkil edirdilər. Bununla belə, Cənubi Azərbaycan əmirlərinin çoxu Azərbaycanın birləşdirilməsini istəmirdilər, onlar xalqın geniş əhvali-ruhiyyəsini nəzərə alaraq müvəqqəti olaraq I İbrahimə sığınmışdılar. İndi həmin əmirlər Sultan Əhmədin və Qara Yusifin tərəfinə keçməyi qərara aldılar. Təbriz qazısı İmadəddin də həmçinin Sultan Əhmədin tərəfinə keçdi. Buna görə do bütün Naxçıvan vilayətinin idarəsi ona tapşırıldı. *

* • Türk tarixçisi F.Sumer yazır ki. Sultan Əhməd və Qara Yusif Məmlük dövlətindən ümidlərini kəsdikdən sonra, geri qayıdarkən yolda aralarında narazılıq yarandı. Ona görə ayrılıqda öz yollarını davam etdirdilər. Bundan xəbər tutan Teymur onları təkbətək əzmək uçun qoşun göndərir. Bu qoşun Sultan Əhmədin qüvvələri ilə toqquşdu. Sonuncunun bacısı Sultan Dilşad, arvadı, qızları əsir alındı, özü isə qaçıb Osmanlı hökmdan İldırım Bəyazidə sığındı. Teymurun Suriyaya səfərini görən Qara Yusifdə öz ailəsi ilə birlikdə türk hökmdarının yanına gəldi. İldırım Bəyazid Sultan Əhməd kimi. Qaraqoyunlu bəyini da rəğbətlə qarşıladı və Ağsaray ərazisini ona dirilik (həyat üçün, yaşamaq üçün ayrılmış torpaq sahəsi) verdi.

Təbrizdə möhkəmlənən Sultan Əhməd birinci mövbadə Əlincə qalasının bərpa edilməsi barəda ferman verdi. Sultai vergilərin azah diiması və toplanması barədə təbrizlilərə verdiyi və’də əməl etmədi. Əksinə, daha ciddi tədbirlər gördü. Buna görə də tezliklə Teymuri Əbu Bəkr Mirzənin qoşunu Təbrizə yaxınlaşanda, yerli əhali ona kömək etdi. Sultan Əhməd yenidən Bağdada qaçdı.

Lakin Əbu Bəkrin qoşunu Qara Yusifin qüvvələrinin öhdəsindən gələ bilmədi. 1406-cı ilin payızında Təbriz yaxınlığındakı Şənbi-Qazanda Qara Yusif Əbu Bəkri əzdi və qaçmağa məcbur etdi, xeyli qənimət əldə edib, çoxlu əsir aldı. Bundan az sonra Əmir Bistam Ceyir Qara Yusifin tərəfinə keçdi.

Bu məğlubiyyət Əbu Bəkrin atası Miranşaha ağır tə’sir etdi. Odur ki, 1408-ci tl aprelin 21-də Cənubi Azərbaycanda Sərdurud adlı yerdə Qara Yusifin qüvvələri ilə Miranşahtn qoşunu arasında döyüş başlandı. Teymuri Şahrux da 20 min nəfərlik döyüşçü ilə qardaşına kömək edirdi. Lakin bu döyüş də qaraqoyunlulann qələbəsi ilə başa çatdı. Miranşah öldürüldü, təbrizliler təslim oldular. Sultan Əhməd Qara Yusifin köməyi ile Təbrizə qayıtdı. Teymuri qoşununun qalığı Azerbaycanı tərk etdi.

Qaraqoyunluların Cənubi Azərbaycanda və Qarabağda möhkəmlənməsi. Qara Yusifin bu qələbəsi Teymuri qoşununun Azərbaycandan çıxarılması, qaraqoyunluların Cənubi Azərbaycanda möhkəmlənməsi Qara Yusiflə Sultan Əhməd arasındakı münasibətləri pozdu. Qara Yusifin siyasət meydanındakı uğurları Sultan Əhməd Cəlairini qorxuya saldı. O, hələ Misir həbsxanasında ikən Qara Yusiflə danışığının şərtini pozdu və Qara Yusifin üzərinə hücuma keçməyə fürsət axtardı. Bu fürsət 1410-cu ilin yayında ələ düşdü.

1410-cu ilin yayında Sultan Əhməd Qara Yusifin öz əsas qüvvələri ilə Ərzincana hücum edən Ağqoyunlu tayfa birləşməsinin başçısı Qara Yuluq Osmana və Amiddəki Şimali Mesopotomiya qalasının hakiminə qarşı vuruşmasından istifadə edərək Təbrizə hücuma keçdi. Şirvanşah I tbrahimin oğlu Keyumərs və b. ona kömək edirdilər. Bu, təbii idi. Çünki həmin vaxt Cəlairilər zəif idilər, Şirvan üçün təhlükəli deyildilər. Şirvan qoşunu Sultan Əhmədi müdafiə etməklə Azərbaycanın cənub vilayətlərində möhkəmlənə bilərdi.

Bundan xəbər tutan Qara Yusif Şirvan qoşunundan əvvəl Təbrizə çatdı. 1410-cu il avqustun 30-da Təbriz yaxınlığındakı Şenbi-Qazan adlı yerdə Qara Yusiflə Sultan Əhməd arasında döyüş başlandı. Cə-

lairi qoşunu damnadağm oldu. Sultan Əhməd e'dam edildi. Bir gün sonra Cəlairilərin lıakimmyyətinə son qoyuldu. Qara Yusif bu qəfəbədən sonra oğlu Qiyasəddin şah Məhəmmədi Bağdada canişin tə^in etdi. Sultan Əhməd dövrünün təhsil almış şəxsiyyətlərindən biri idi. O, türk, fai-s və ərəb dillərində şe’r yazırdı. Musiqi ilə maraqlanırdı. Lakin həyatı səfalət içərisində keçmişdi.

Beləliklə, baharlı tayfasından olan Barani sülaləsinin başçılığı və sə’yi nəticəsində Qaraqoyunlu dövləti yarandı. Kürdən cənuba doğru uzanan Azərbaycan torpaqları, Ərməniyyə, Kürdüstan, Gürcüstanın bir hissəsi. Qərbi İran, İraq bu dövlətin tərkibinə daxil edildi, Təbriz dövlətin paytaxtı oldu.

Qara Yusif böyük şəxsiyyət idi. O, qüvvətli süvari ordu yaratmışdı, özü Azərbaycanın cənub vilayətlərini, oğlanlan isə dövlətin qalan hissəsini idarə edirdilər. O, güclü mərkəzi aparat yarada bilməsə də, feodal ara müharibələrini bir qədər zəiflətdi, ə’yanlan hakimiyyətlə hesablaşmağa məcbur etdi. Bu illərdə ölkənin təsərrüfat həyatında müəyyən canlanma müşahidə olundu. Feodallann kəndlilər üzərindəki ağalığını tə’min etmək üçün əlverişli şərait yarandı.

Şirvan və Qaraqoyunlu dövləti. 1410-cu ildə, Şənbi-Qazan döyüşündən sonra, Şirvan qoşunu Kəyumərsin başçılığı altında Təbrizə yaxınlaşdı hadisələrdən xəbəı*siz Kəyumərs gecə istirahət vaxtı, Qara Yusifin adamları tərəfindən əsir alındı. Qara Yusif Kəyu- mərsi öldürmədi, azad etdi. Lakin atasının tabe olması tələbi haqqında ona məktub verdi. Kəyumərsin asanlıqla əsir düşməsi və zəmanətsiz' buraxılması I İbrahimdə şübhə doğurdu. O, elə zənn etdi ki. Qara Yusif Kəyumərslə gizli sazişə gəlmiş, Kəyumərs də atasının taxtında otunnaq üçün ona kömək etməyə söz vermişdi. Buna görə de 1 İbrahim, guya Şirvan taxtına xain çıxmış oğlu Kəyumərsi e’dam etdirdi.

Az sonra Qaı*a Yusif Şirvana qasid göndərib I İbrahimin tabe olmasını tələb etdi. Lakin I İbrahim böyük zəhmətlə əldə etdiyi müstəqilliyi itirmək istəmədi. Rədd cavabı verdi və Şirvanın müstəqilliyi ıığrunda mübaıizəyə hazırlaşmağa başladı. O bu mübarizədə Şəki hakimi Seyid Əhməd və Kaxetiya çarı II Konstantinin köməyinə arxalanırdı.

Qara Yusif də öz növbəsində döyüşə hazırlaşırdı. O, çoxlu irsi soyurqal toıpaqları, pul, hədiyyə paylamaq yolu ilə Cənubi Azərbaycanın köçəri ə’yanlarını öz tərəfinə çekdi. Məsələn, Ərdebil mahalını Bistam Cəyirə və kürd əmiri Şəmseddin Bitlisiyə soyurqal verdi,

Əmir Baba Hacı Kaverdiye öz irsi qalası Kaverdini, çoxlu əkin sahəsi olan 600 kənd bağışladı. Ona görə də əgər Azərbaycan əhalisinin xeyli hissəsi Şirvanşah İbrahimi müdafiə edirdisə, Cənubi Azərbaycanın da köçəri ə'yanlarının çoxu Qara Yusifin tərəfində idi, həm də köçəri əmirlərin qoşunu ölkənin əsas hərbi qüvvəsini təşkil edirdi. Qara Yusif ondan nominal asılı olanların hamısından Şirvan, Şəki və Kaxetiya ilə müharibədə iştirakı tələb stdi.

Beləliklə, 1412-ci ilin sonunda, Kür sahilində*^ döyüş baş verdi. Qarabağın, Muğanın, Naxçıvanın silahlı dəstələri də Qara Yusifin tərəfində vuruşurdu. Məhz ona görə do t İbrahim və onun müttəfiqləri bu döyüşdə məğlub oldular. Şirvan viran edildi və bir milyon baş mal- qara aparıldı. Şirvanşah I İbrahim, onun yeddi oğlu, qardaşı Bəhlul, məsləhətçiləri qazi Bəyazid və əmir Hüşəng, onlann oğullan, İbrahimin bütün esabələri və Kaxetiya çarı Konstantin əsir alındı. Onlan hərbi ə'yanlarm məclisinə gətirdilər. Qara Yusif II Konstantini 300 gürcü aznaııru ilə birlikdə öldürdü. İbrahim isə Təbrizə gətirildi.

Qara Yusif İbrahimdan 1200, Bəhluldan 200, qazi Bəyaziddən isə 100 İraq tüməni məbləğində bac tələb etdi. Şirvanşalıın Təbrizdəki tərəfdarlan Əxi Qəssabın başçılığı ilə tacir və sənətkar ağsaqqalları onun əvəzindən bu məbləğdə mal toplayıb verdilər. Qara Yusif I İbrahimi azad etdikdən sonra onu ziyafətə dəWət edib yanında oturtdu və badəsinə şərab süzüb içməyi tələb etdi. Şirvanşah bu mərasimdən sonra. Qara Yusifə itaət etməklə Şirvanı idarə etmək hüququ aldı və 1413-cü ilin aprelində Şiı*vana qayıtdı. Qara Yusifin qoşunu isə Şirvanı tərk etdi.

XV əsrin 20-30-cu illərində Qaraqoyunlu dövləti. Şirvanşahlar və Teymurilər. 1417-ci ildə Şirvanşah I İbrahim dünyadan köçdü. Onun Azərbaycanı birləşdirmək planı yarımçıq qaldı. Lakin Şirvan öz istiqlaliyyəti uğmnda mübarizəni davam etdirdi. I Xəlilullah (1417~ 1462) atasının ölümündən sonra Qara Yusifin hakimiyyətini tanımadı. Qaraqoyunlular əleyhinə Orta Asiya və İranda hökmranlıq edən Teymurun oğlu Sultan Şahmxla (1406-1447) ittifaqa girdi. Bundan istifadə edən Sultan Şahrux qaıdaşı Miranşahın qanını almaq uçün 1418-ci ilin yazında və 1420-ci ildə Azerbaycana uğursuz yürüş etdi. Qara Yusif bu yürüşləri dəf etməklə Sultaniyyeni tutdu, Marağam

'2 Ermənі mənbələrində bu döyüşün 1411-ci ildə, Dərbənddə - Xəzər sahilində. Çalağan düzənliyində baş verdiyi qeyd olunur.

Təbrizə köçürtdü, özünü müstəqil hökmdar e'Ian etdi. Qəzvinden Ərzincana, Bağdaddan Şirvana qədər olan geniş əraziyə yiyələndi. Lakin Qara Yusif döyüşlərin birində (1420-ci il noyabrın 17-do)*^ yaralandı ve Təbriz yaxınlığında Ucan adlı yerdə öldü.

Qara Yusifin ölümündən sonra Qaraqoyunlu əmirləri arasında mübarizə başlandı. Bundan istifadə edən Sultan Şahrux 1420-ci ilin dekabrında Arazı keçib Qarabağa daxil oldu. I Xəlilullah qardaşı MənuçÖhr və Azerbaycan əmirləri ilə birlikdə onun yanına gəldi. O, Şnhruxun nəvəsi ilə evlənməklə bu ittifaqı daha da möhkəmlətdi. Lakin Azerbaycanda Şahruxun mövqeyi möhkəm deyildi. Çünki bir tərəfdən Qara Yusifin varisləri, diger tərəfdən Gəncə ve Bərdə hakimləri ona qarşı ciddi mübarizəyə başlamışdılar. 1421-ci il avqustun 1-də Qara Yusifin oğlaıları İskəndər və İsfəndiyar Dərbənd yaxınlığında, Alaşkerd vadisində həlledici döyüşə girdilər. Lakin qardaşlar rüsvayçı halda məğlub oldular. Şahruxun Azərbaycan ve Qafqazda yeritdiyi siyasət atasının siyasətindən fərqlənirdi. O, bu ölkələri idarə etdiyi əraziyə daxil etmək niyyətində deyildi. Görünür, Şahruxun burada böyük hərbi qüvvə saxlamaq imkanı yox idi. Bəlkə də Azərbaycandakı müttəfıqlərini-Qaraqoyunlu Cahanşahı ve Şirvanşah I XəÌi- lullahı özündən narazı salmaq, uzaqlaşdırmaq istəmirdi. Bu ərazilərdə Qara Yusifin dövləti kimi güclü dövlət yaranmamasına çalışan Sultan Şahrux yalnız Azərbaycan feodallarının ali hakimiyyətini tanımaqla kifayətləndi. Ona görə do Şahrux bu qələbədən sonra Azərbaycanda çox qalmadı, əvvəlcə Xoy və Təbrizə, 1421-ci ilin payızında isə Hemta getdi.

Şahrux Azərbaycanı tərk etdikdən sonra İskəndər (1421-1438) dağınıq Qaraqoyunlu qüvvələrini bərpa edərək Təbrizdə qərar tutdu, Cahanşahı özünə tabe etdi. Digər qardaşı İsfəndiyar İraqda möhkəmləndi. Kürün cənubunu idarə edən Azərbaycan əmirləri də ona tabe oldular. Beləliklə, Qaraqoyunlu dövləti bərpa edildi. Şir*an və Şəkİ isə öz müstəqilliyini saxlayırdı. Buna görə də o, 1427-ci ildə Şirvana hücum etdi. Teymuri Şahruxa qarşı aparılan mübarizə də hələ qurtarmamışdı. Lakin diplomatiyada zəif olan İskəndər tezliklə məğlubiyyətə uğradı. İlk döyüşlərdəcə İskəndərin qüvvələri sərhəd şəhərlərindən Sultaniyyə, Zencan və Qəzvini tutdular, lakin Şahruxun Azərbaycana yeni basqını onu geri çəkilməyə məcbur etdi. Sultan

Be'zi mənbələrdə Qara Yusifin 1421-ci ildə öldüyü qeyd edilir.

Şahrux 1428-ci ilin oktyabrında görkəmli sərkərdələri Əli Könüldaş, Baysunqur Mirzə, Əmir Loğman Berlasın komandanlığı altında Azərbaycana böyük qüvvə göndərdi. l429-cu ilin mayında isə əlavə qüvvə ilə özü gəldi. Tarixçilər bu yürüşdə Şahruxun 100 min süvarisi olduğunu qeyd edirlər. Sultaniyyə və Tebrizləki döyüşlərdən əlavə. Salmasda dağ və çay arasında gedən döyüşlər qaraqoyunluların məğlubiyyəti ilə qurtardı.

1429- cu ildə Teymuri Şahrux Qara Yusifin oğlu Əbu Səidi Qaraqoyunlu taxtına çıxardı. Əbu Səid Şahruxun vassalı kimi Azərbaycanın cənubunda, Qarabağda və Eıinənistanda hökmranlıq edirdi.

1430- cu ilin mayında Şahrux Azərbaycanı tərk etdi, həmin ilin sentyabnnda isə Xorasandan Herata gəldi. Əbu Səidin zəifliyi üzündən Qaraqoyunlu feodal qrupları arasında gedən mübarizələr getdikcə kəskinləşdi. Feodal ə’yanlann köməyilə İskəndər yenidən hakimiyyət başına gəldi; qardaşı Əbu Səidi öldürərək, I431-ci ildə taxta çıxdı. 1432-ci ildə tskəndərin qardaşı İsfəndiyar da Bağdadı tutaraq qardaşına tabe oldu və Ərəb İraqında möhkəmləndi.

Qaraqoyunlu Əbu Səidin (1429-1431) və İskəndərin (1422-1429; 1431- 1438) hakimiyyət illəri Azərbaycanın iqtisadi və siyasi həyalında ən ağır dövr idi. Ara müharibələri, feodal özbaşınalığı təsərrüfat həyatını büsbütün pozmuşdu, onun tənzim edilməsi isə İskəndəri maraqlandırmırdı. Onun əsas işi ölkəni soyub-talamaq, əldə etdiyi qənimətlərin sayəsində eyş-işrətlə vaxtını keçirmək idi. Ona görə də 1428-ci ildə Kürdüstanın şimalında. Van əyalətində kəndli həyəcanları qüvvətləndi, hətta Vanı və Ərməniyyəni idarə edən oğlu Yarəli də bu hərəkata qoşuldu və atasına qarşı mübarizəyə başladı. Üsyan tezliklə yatırıldı, Yarəli 2 min atlı dəstəsilə Şirvana qaçdı. Şirvanşah 1 Xəliluliah Yarəlinin üsyankarlığından ehtiyat edərək, onu gəmi ilə Şahruxun yanına - Herata yola saldı. Şahrux da öz növbəsində onun xalq içərisində geniş nüfuza malik olmasından ehtiyat etdiyi üçün Heratdan Səmərqəndə göndərdi. Sonralar Şahruxun oğlu Uluq bəyin (1447-1449) vaxtında Yarəli yenə də Xorasana qayıdıb burada vüs’ət almış xalq hərəkatına rəhbərlik etməyə başladı.

Yarəlinin ucbatından başlanmış münaqişə 1434-cü ildə İskəndərin yenidən Şirvana hücum etməsi üçün bəhanə oldu. Tovma Mezoplu- nun məMumatma görə, İskender Şirvanın 360 nəfər aliminin başını vurdurdu. 1 Xəliluliah kömək üçün Şahruxa müraciət etdi. 1434-cü ilin noyabnnda Şahrux böyük qoşunla Heratdan yürüş etdi, lakin Reydə

dayandı. Xəlilullah deniz yolu ilə Reyə, onun yanına getdi və İskəndərin Şirvanda törətdiyi müsibətlər barədə ona me’lumat verdi.

1435-ci ilin yayında Şirvanlılann ve Teymurilərin birləşnıiş qüvvələri Təbriz yaxınlığındakı döyüşdə Qaraqoyunluları əzdilər. İskəndər Kiçik Asiyaya qaçmaqla I Xəlilullahın əlindən qurtara bildi.

1435-ci ilin payızında Sultan Şahrux Təbrizə gəldi. Qara Yusifin kiçik oğlu Cahanşah (1438-1467) təntənə ilə onu qarşıladı. Şahrux ölkənin idarəsini Cahanşaha tapşınb qışı keçirmək üçün Qarabağa getdi. 1436-cı ilin yazında isə teymurilərin vassalı olmaq şərtilə Cahanşahı Qaraqoyunlu dövlətinin hökmdarı kimi tanıdı və həmin ildə də Azerbaycanı tərk etdi. Bundan istifadə edən İskəndər yenidən Azərbaycana qayıtdı ve Osmanlı türklərinin, Misir memlük sultanının köməyilə taxtı ələ keçinnəyə cəhd etdi. Lakin qardaşı Cahanşah onu məğlub edərək Əlincə qalasına saldı. İskəndərin. gənc oğlu Qubad Mirzə atasının hərəmxanasında sevişdiyi Xan Sultan (Leyli) adlı bir qadınla birlikdə gecə yuxuda ikən sərxoş atasının başını kəsdi və Cahanşaha göndərdi. Öz düşmən qardaşının ölümünü eşidən Cahanşah sevincdən ziyafət təşkil etdi ve qardaşının onun eli ilə ölmədiyi barədə car çəkdirdi. Təbrizdə onu təntənə ilə dəfn etdirib, qəbri üstə türbə tikdirdi (1437). Beləliklə, hakimiyyət teymurilərin formal vassalı sayılan Cahanşahın əlinə keçdi.

Qaraqoyunlu dövlətinin daxili və xarici siyasəti. Şahruxun ölümündən sonra (1447) müstəqil siyasət yürüdən Cahanşah oturaq feodallara və iri tacirlərə arxalanır, mərkəzi hakimiyyətə tabe olmaq istəməyən köçəri əmirlərə qarşı mübarizə aparır, Şirvanla dostluq münasibətləri yaratmağa çalışırdı.

Qaraqoyunlu padşahlarından ən güclüsü olan Cahanşah dövrünün geniş məTumatlı şəxsiyyəti, bacanqlı dövlət xadimi idi. O, feodal sinimin mənafeyinə tamamilə uyğun tədbirlər həyata keçirirdi. Onun qanunlarına əməl etməyənlər ciddi cəzalara mə'ruz qalırdılar. Cahanşahın dövründə iki qütbün birində ağır vergi ve mükəlləfiyyətlər daşıyan xalq kütləsi, o birində isə vaxtını saray ziyafətlərində eyş- işrətdə keçirən bir ovuc feodal e’yanları dayanırdı. Belə dözülməz həyat tərzi kəndlinin səbrini tükendirmişdi. Bu da tez-tez kəndli iğtişaşlarına səbəb olurdu. Bu çıxışlar Cahanşahı qorxuya salırdı. Çünki onların hamısının qarşısını almaq mümkün olmurdu. Beləliklə, Cahan- şahın daxili siyasətinin əsas xüsusiyyətlərindən biri onun tedbirlərin- dəki mütərəqqi cəhətlərin yalnız feodal sinfinin mənafeyinə uyğun- laşdınlması idi. Bu da öz növbəsində dövlətin iqtisadi həyatına mənfi

tə'sir gösterirdi. İkinci cəhət isə o idi ki, Cahanşah gələcəkdə işğalçılıq planlannı həyata keçilmək üçün hərbi islahat apardı, orduda möhkəm intizam yaratdı. Onun xarici siyasətinin əsas mahiyyəti də məhz bu idi. Cahanşah öz siyasətini heyata keçirmək üçün 1440-cı ildə bir neçə dəfə Gürcüstana hücum etdi, alınmaz Samşvild qalasını ələ keçirdi. Həmin yürüşdə Sətevilər sülaləsindən Ərdəbil hakimi Şeyxşah da iştirak etdi.

Cahanşah Ağqoyunlu Uzun Həsənlə daim düşmən münasibətdə idi. Ölkənin qərb sərhədlərində ağqoyunlularİa tez-tez hərbi toqquşmalar olurdu. Nəticə e’tibarilə XV əsrin 50-ci illərində Cahanşah Kürdüstanın çox hissəsini və Ərməniyyəni itirdi. Cahanşahın şərq əməliyyatı uğurlu keçdi. O, Teymurilərin daxili münaqişələrindən istifadə edərək 1453-cü ildə Əcəm İraqını, bütün Qərbi İranı, bir qədər sonra isə Şərqi İranın bir hissəsini ələ keçirdi. 1457-ci ildə Sultan taxtının iddiaçılanndan olan Şahruxun oğlu İbrahim Mirzənin qüvvələrini damıadağın edib Cürcanı və Xorasanı tutdu. 1458-ci ilin iyununda Teymuri sultanlarının mərkəzi Herata girdi. Lakin çox keçmədən digər Teymuri Əbu Səid rəqiblərini əzdikdən sonra öz elçisi vasitəsilə Cahanşahdan Teymurilərin irsi toıpaqlanndan çıxaraq Azerbaycana qayıtmasını tələb etdi. Cahanşah hərbi səfərdə olduğu zaman köçəri feodallar Azərbaycanda Cahanşahın oğlu Həsənəlinin, Bağdadda isə digər oğlu Pirbudağın ətrafında birləşərək qiyam qaldırdılar. Bunu eşidən Cahanşah 1459-cu ilin yanvannda Əbu Səidin barışıq təklifini qəbul etdi və Heratın Zağan bağında müqavilə imzaladı. Teymurilərdən təzminat alıb İranın şərqindən - Xorasandan Azərbaycana çəkildi. Cahanşah hərbi səfərdən qayıtdıqdan sonra uzun müddət feodal qiyamlarını yatırmaqla məşğul oldu. Nəhayət, 1459-cu ildə Azərbaycandakı üsyanları yatırdı, 1465-ci ildə Bağdadda üsyan etmiş oğlu Pirbudağın üzərinə irəlilədi, şəhəri il yanm mühasirədə saxladı, nəticədə Pirbudaq təslim oldu və öldürüldü.

Beləliklə, Cahanşahın fəal daxili və xarici siyasəti müdaxiləyə və ara müharibələrinə son qoydu. Lakin mərkəzi hakimiyyəti qüvvətləndinnək sə'yləri nəticəsiz qaldı. Xalq kütlələrinin son dərəcə ağır vəziyyətdə yaşaması ilə əlaqədar ziddiyyətlərin kəskinləşməsi, feodallar arasındakı çəkişmələr, mərkəzi hakimiyyətə tabe olmamaq cəhdləri getdikcə Qaraqoyunlu dövlətinin zəifləməsinə səbəb oldu və Ağqoyunlu Uzun Həsənin qaraqoyunlular üzərində qələbə çalması üçün əlverişli şərait yaratdı.

## § 3. AĞQOYUNLU DÖVLƏTİ

Ağqoyunlular xalqımızın təşəkkülündə mühüm rol oynamış oğuz layfalarmdandır. Bayraqlarında ağ qoç rəmzi olan bu böyük tayfa birliyi hələ erkən orta əsrlərin başlanğıcından, bəlkə də əvvəl Cənubi Qafqazda, başlıca olaraq Qafqaz dağları ilə Araz çayı arasındakı ərazidə, o cümlədən Qarabağda, Göyçə gölü ətrafındakı torpaqlarda, Alagöz yaylaqlarında və başqa yerlərdə yaşayırdılar. Ağqoyunlularin ön dəstələri Azerbaycanın cənub rayonları, Şərqi Anadolu, Qərbi İran, Dəclə və Fərat vadiləri de daxil olmaqla çox geniş erazidə yayılmışdı.

Cahanşahın hakimiyyətinin sonuna yaxın Azerbaycanın qərbində və Kürdüstanın cənubunda yaşayan Ağqoyunlu tayfalarının əmirləri qüvvətləndilər. Ağqoyunlu tayfaları siyasi birliyinin başçısı Bayandur tayfasından olan Pəhləvan bəy idi (1370-1388). Pəhləvan bəyin ölümündən sonra tayfa ittifaqı zəiflədi. Əlaeddin Turali (1388-1392) və Fəxrəddinin (1392-1394) Ağqoyunlu tayfa ittifaqlannı möhkəmləndinnək cəhdləri heç bir nəticə vermədi.

XIV əsrin sonu - XV əsrin əvvəllərində Ağqoyunlu tayfa ittifaqının daxilində başlanan münaqişə daha da kəskinləşdi. Fəxrəddinin uç oğlu; Əhməd, Pirəli və Bahəddin Qara Yuluq Osman bəyin (Qara Osman) ətrafında birleşərək hakimiyyəti öz əllərində birləşdirməyə çalışırdılar. Onlar qorxulu hesab etdikləri Qara Yuluq Osman bəyi həbsə aldılar, lakin qaraqoyunluların Ağqoyunlu torpağına hücumu nəticəsində Qara Yuluq həbsdən qurtuldu. Tezliklə o, qaraqoyunlulara qarşı yaradılmış qoşuna başçı tə’yin edildi. O, Sivas uğrunda apardığı mübarizələrdə qaraqoyunlular üzərində qələbə çalaraq möhkəmləndi, az sonra Ərzincan, Mardin torpaqlan da onlardan asılı vəziyyətə düşdü.

Qara Yuluq Osman bəy (1394-1434) Diyarbəkri mərkəz seçdi, öz adına pul kəsdirdi, feodal çıxışlarını yatırdı və bir sıra tədbirlər həyata keçirməklə Ağqoyunlu tayfa ittifaqını xeyli möhkəmləndirdi. 1434-cü ildə qaraqoyunlularla döyüşlərin birində 90 yaşlı Qara Yuluq öldürüİəndən sonra, Ağqoyunlu tayfa ittifaqmda feodal mübarizəsi daha da şiddətləndi.

Əli bəy (1434-1444) bu münaqişələrdə müəyyən uğurlar əldə etsə də, nəticədə məğlub olacağını duydu və Misir sultanlığı ilə ittifaqa girdi, Misir hakimi Məlik Əşrəf ona 50 min nəfər döyüşçü verdi. Birləşmiş qüvvə Əli beyin qardaşı Həmzə bəyə qarşı mübarizənin

gedişində məğlub oldu və Diyarbəkri itirdi, az sonra Əli bəy və Həmzə bəy öldürüldü. Əli bəyin oğlu Cahangir bəy (1444-1453) qısa vaxt ərzində Ağqoyunlu tayfalarını birləşdirərək Diyarbəkrdə möhkəmləndi. Lakin o, tayfa ittifaqının başçısı kimi lazımi rol oynaya bilmədi. Uzun Həsən (1453-1478) Ağqoyunlu tayfa birləşmələrinin möhkəmlənməsi əleyhinə çıxan qüvvələrə qarşı mübarizədə daha çox fəallıq göstərdi. Birinci növbədə o, 1453-cü il yanvarın 16-da Diyarbəkrə daxil oldu, qardaşı Cahangir Mirzənin qüvvələrini dağıtdı. Cahangir Mirzə Mardinə qaçdı, sonralar ağqoyunlulann əsas rəqibi olan Qaraqoyunlu Cahanşahla ittifaqa girdi. Uzun Həsən qaraqoyunlulara qarşı mübarizə aparmaq üçün ciddi tədbirlər gördü. O, eyni zamanda Osmanlı imperiyası ilə mübarizə aparmalı oldu. XV əsrin 50-ci illərində Uzun Həsən Ərməniyyə və Gürcüstanın qaraqoyunlulara tabe olan şərq hissəsini tutdu. l467-ci ilin mayında Cahangir Muş düzündə həm özünün baş əmiri Qasım Pərvanəçi ilə, həm də Ağqoyunlu Uzun Həsənin böyük qoşunu ilə döyüşə girdi. Bu döyüş qaraqoyunluların məğlubiyyətilə qurtardı, Cahanşah öldürüldü. Uzun Həsən qələbəsini təqiblərinə bildirmək və onlan açıq mübarizədən çəkindirmək məqsədilə Cahanşahm kəsilmiş başını Herata - Teymuri Əbu Səidə, oğlu Məhəmmədin başını isə tstanbuIa-IIMehmetə( 1451-1481) göndərdi.

Ağqoyunlulara qarşı mübarizə aparmaq üçün Qaraqoyunlu əmirləri Maku qalasında həbsdə saxlanılan Cahanşahm oğlu Həsənəlini azad edib hökmdar seçdilər. Bundan sonra Cahanşahm varisləri Hə- sənəli ve Hüseyneli arasında hakimiyyət uğrunda mübarizə başlandı. Hüseynəli tezliklə öldürüldü, Həsenəli isə öz qüvvələrini toplayaraq ağqoyunlulara qarşı mübarizəyə başladı. O, rəiyyəti öz tərəfinə çəkmək üçun Təbriz yoxsullarına ve kəndlilərə iri məbləğdə pul payladı. Lakin onlar Həsənəlini müdafiə etmədilər. Ona görə də 1468-ci ildə Uzun Həsən heç bir çətinlik çəkmədən Azərbaycanın cənubunu və Qarabağı tutdu, Həsənəlini sıxışdırdı. Qaraqoyunlulann xeyli hissəsi ağqoyunlularla birləşdi. Beləliklə, Qaraqoyunlu dövləti süquta uğradı. Ağqoyunlu dövləti onu əvəz etdi. Təbriz yeni dövlətin paytaxtı oldu.

Ağqoyunlular və Teymurüər. Cahanşahm ölümü Heratın Teymuri hökmdarı Əbu Səidə çatan kimi Azərbaycanda onun övladlarının hakimiyyətini qorumaq məqsədilə Ağqoyunlulara qarşı müharibəyə hazırlaşdı. Uzun Həsən bu müharibəyə girməyə ehtiyat etdiyindən anası Sara xatunun başçılığı altında, zəngin hediyyelerle Əbu Səidin yanma nümayəndə heyəti göndərdi. Lakin yaşlı qadının diplomatiya

iste'dadı Əbu Səidi öz fikrindən döndərə bilmədi. Çünki o, Ağqoyun- lu dövlətinin qüvvətlənməsini özü-üçün ciddi təhlükə hesab edirdi. Beləliklə, 1468-ci ilin payızında Əbu Səid Cənubi Azərbaycana daxil oldu. Əvvəlcə Qarabağ düzənliyində, sonra isə Muğanda və Qızılağacda. Xəzərin sahillərində məskən saldı. Uzun Həsən yeni düşmənlə mübarizə etmək üçün Şirvanşah Fərrux Yasar (1462-1501) və Sətə- vilər sülaləsindən olan Ərdəbil hökmdan Şeyx Heydərlə ittifaqa girdi; müttəfiqlər Əbu Səidi iqitisadi mühasirəyə aldılar. I Xəlilullahın vaxtında Şh-van Teymuri qoşununa ərzaqla kömək edirdi. Fərrux Yasar isə bundan imtina etdi və ciddi aclıq çəkən qoşun dağılmağa başladı. Nəticədə Əbu Səid 1468-1469-cu ilin qışında sülh bağlamağı təklif etdi. Lakin Uzun Həsən razılıq vermədi. Ağqoyunlular Teymurilərin düşərgəsinə daxil olaraq qoşunu darmadağın etdilər. Əbu Səidi tutub Uzun Həsənin yanına gətirdilər. Uzun Həsən onu Xorasan taxtının iddiaçısı olan Teymuri şahzadəsi Məhəmməd Yadigarın yanma göndərdi. Məhəmməd Yadigar da Əbu Səidi e'dam etdirdi.

Ağqoyunlu dövlətinin daxili və xarici siyasəti. Ağqoyunlu dövləti özünün ən qüdrətli çağlarında Kürdən cənubda olan Azərbaycan vilayətləri, Ərməniyyə, Diyärbekr, Şərqi Gürcüstan, Ərəb İraqı, Mazandaran və Xorasan istisna olmaqla İranın qalan vilayətlərini əhatə edirdi.

Qeyd edək ki, Ağqoyunlu dövlətində vəziyyət yaxşı deyildi. Uzun Həsənin dövründə şəhər və kənd əhalisi üzərinə ağır vergi və mükəlləfiyyətlər qoyulmuşdu. Bu, öz növbəsində dövlətin iqtisadi əsasını saı*sıdtrdı. Azərbaycanın ayn-ayn mahallannda başlanan kəndli hərəkatı dövlətin siyasi nüfuzuna da mənfi tə*sir edirdi. Ona görə də Uzun Həsən xalqın rəğbətini qazanmaq üçün bir sıra tədbirlər gördü. Vergi işlərini nizama salmaq üçün «Qanunnamə» verdi. Xondəmir yazır ki. Uzun Həsənin vergi islahatı nəticəsində əkinçilik işləri xeyli yaxşılaşdı, vergilərin miqdarı nisbətən azaldı. Lakin bu tədbir geniş xalq kütlələrinin vəziyyətini yaxşılaşdırmadı. Əsrin sonunda vəziyyət yenə ağırlaşdı. Uzun Həsən köçəri tayfalan və hərbi feodal ə'yanlarını mərkəzi hakimiyyətə tabe etmək üçün mübarizəyə başladı.

Uzun Həsən feodalların müqavimətini qıra bildi, lakin onlann xeyrinə də bə'zi güzəştlərə getməyə məcbur oldu. Çünki bunsuz ölkədə iqtisadi dirçəliş mümkün deyildi. Uzun Həsən müəyyən uğurlarına baxmayaraq, möhkəm mərkəzləşdirilmiş dövlət yarada bilməmişdi. Çünki bu geniş ərazidə müxtəlif etnik təsərrüfat və mədəni şəraitə malik olan əhalini birləşdirmək mümkün olmadı.

Ağqoyunlıı dövlətinin başlıca düşməni Fateh Sultan II Mehmet idi. Ona görə də Uzun Həsənin xarici siyasətinin mərkəzində Osmanlı Türkiyəsi ilə münasibətlər dayanırdı. Çünki II Mehmetin Kiçik Asiyanın şərqini istila etməsi Ağqoyunlu dövləti üçün ciddi təhlükə törədirdi. Türkiyə sultanı Ön Qafqazı, xüsusən Azərbaycanı tutmaq üçün də cəhd göstərildi.

Ağqoyunlular Trabzon yunan dövlətilə hələ Azərbaycanda hakimiyyətə gəlməmişdən çox əvvəl - Diyarbəkr və onun ətrafını əhatə edən kiçik feodal dövləti ikən dostluq əlaqəsi yaratmışdılar. Trabzon imperatoru Osmanlı Türkiyəsinə qarşı Ağqoyunlu dövlətinin müttəfiqi idi. Türkiyəyə qarşı öz müstəqilliyini qorumaq iqtidarında olmayan Trabzon imperatorları hələ XIV əsrin ortalarında Ağqoyunlularla dostluq etməyə başlamışdılar. Ağqoyunlu Tur Əlibəyin oğlu Qutluq bəy və Bayandurlar sülaləsinin banisi Qara Yuluq Osman bəy Trabzon sarayı ilə qohum idilər. Bayandurlar sülaləsinin ən görkəmli nümayəndəsi Uzun Həsən isə Trabzon imperatoru IV İohann Homnenin qızı Feodora ilə-Dəspinə xatunla evlənmişdi*^.

Ağqoyunlular Trabzona öz mülkləri kimi baxırdılar. Məşhur səyyah Evliya Çelebi Trabzondan bəhs edərkən vaxtilə bu şeheri «Azərbaycan hakimi Sultan Uzun Həsənin genuyalıların əlindən aldığını», Ağqoyunlu hökmdarının bu şeherdə «böyük bir daş körpü saldır- ğırını» yazır. Trabzonun ağqoyunlular üçün böyük ticarət əhəmiyyəti var idi. Bu şəhər Ağqoyunlu tacirlərindən ötru Qara dənizə əlverişli çıxış yolu idi. Ağqoyunlu tacirləri burada ipək və başqa Şərq mallan almağa gedən venesiyalı və genuyalılarla, habelə digər avropalı tacirlərlə görüşürdülər. Ağqoyunlu tacirləri Trabzon ticarətindən böyük gəlir götürür, bu şəhər vasitəsilə Krımdakı ticarət mərkəzləri ilə də əlaqə saxlayırdılar. Mehz buna görə do II Mehmet 1461-ci ildə Ağqoyunlu dövlətinə qarşı müharibəyə başlamazdan əvvəl, ağqoyunluların müttəfiqi Trabzon yunan imperiyası üzərinə güclü qoşun göndərdi. Belə şəraitdə Uzun Həsən Trabzon yunan imperiyasını müdafiə etməli oldu. Ağqoyunlu qüvvələri ile osmanlılar arasında ilk döyüş Koyluhisar*^ adlanan yerdə baş verdi. Ağqoyunlular Osmanlı qoşu-

Uzun Həsən Dospinə xatundan doğulan qızı Martanı-Alemşah bəyimi baçısı oğlu Şeyx Heydərə ərə vermiş, bu izdivacdan Səfəvi hökmdarı Şah İsmayıl doğulmuşdu.

Koyluhisar Şimali Anadoluda müstəqil feodal mülkü idi.

nuna ciddi zərbə vursalar da. Uzun Həsən hələlik osmanlılarla sülh bağlamağı qərara aldı. Şərqdə diplomat qadın kimi məşhur olan anası Sara xatunu sultanın düşərgəsinə - Bolqar dağına göndərdi. Qaynaqların mə'lumatına görə, diplomatik danışıqlar zamanı Sara xatun və II Mehmət bir-birinə «ana», «oğul» - deyə müraciət edirdilər. Uzun Həsən Sara xatunu sultan II Mehmetin hərbi düşərcəsinə göndərərkən qarşısına iki çətin vəzifə qoydu. Əvvəla o. Osmanlı sultanını ağqoyun- lular üzərinə hücum etmək fikrindən daşındınnalı idi. Çünki Ağqo- yunlu dövləti Türkiyə ilə toqquşa biləcək dərəcədə güclu deyildi; digər tərəfdən Ağqoyunlu dövlətinə arxadan qaraqoyunlular və teymu- rilərin hücumu gözlənilirdi. Buna görə də Uzun Həsən Türkiyə ilə sülh bağlamağa məcbur idi. Bundan başqa II Mehmet Qərbdə yarımçıq qoyub gəldiyi işğalçılıq planlarını yerinə yetirmək uçun tələsirdi. Bu məqsədə nail olduqdan, iki türk cahangiri arasında qanlı toqquşmanın qaı*şısını aldıqdan sonra Sara xatun sultanı mümkün qədər Trabzonu fəth etmək fikrindən də döndənnəli idr. Lakin o, sultanı Trabzon yunan dövlətini Türkiyəyə qatmaq fikrindən döndərə bilmədi.

Ağqoyunlu dövlətini təcrid etdikdən sonra II Mehmet Trabzon üzərinə yeridi. Lakin o. Uzun Həsənin arxadan hücum etməyəcəyinə omin deyildi. Odur ki, sultan Sara xatun başda olmaqla, Ağqoyunlu elçilərini də özü ilə apardı. Sara yolboyu sultanı Trabzonu fəth etmək fikrindən çəkindimıəyə çalışdı. Lakin onun sə'yləri heç bir nəticə vermədi. Dənizdən Osmanlı donanması tərafından mühasirə edilən Trabzon 30 gün mühasirədən sonra, 1461-ci il oktyabrın 26-da türklər tərəfindən zəbt edildi. Qara dənizdə Genuya ilə rəqabət aparan mühüm ticarət mərkəzi süquta uğradı. Artıq Trabzonun əldən getdiyini görən Sara xatun öz gəlininin ~ Despinə xatunun Trabzon taxtına varislik hüququnu irəli sürdü. Bundan istifadə edərək Trabzon xəzinəsini sultanla bölüşdürdükdən sonra Ağqoyunlu elçilərinin başında geri qayıtdı. Uzun Həsənin elçiləri ilə birlikdə, Yassıçəməndə*^' (1461) bağlanmış müqaviləni təzələmək üçün sultanın elçiləri də Ağqoyunlu sarayına gəldilər. Bununla da Osmanlı sultanı Qərbdəki istilalarını həyata keçirərkən öz aı-xasını təhlükəsizləşdirmək istəyirdi.

Trabzonun fəthi ilə Ağqoyunlu dövləti təkcə öz müttəfiqini deyil, həm de Qara dənizə yeganə çıxış yolunu itirdi. Ağqoyunlu-Türkiyə münasibətləri yenidən kəskinləşdi.

Ərzincan yaxınlığında.

## § 4. AZƏRBAYCANIN XARİCİ ƏLAQƏLƏRİ

Uzun Həsən eyni zamanda, həm şərqdən, həm də qərbdən güclü Osmanlı dövlətinə zərbə endirmək üçün Avropa ölkələri ilə əlaqəyə girərək cəsarətli tədbir gördü. Çünki Osmanlı imperiyasının siyasəti Ağqoyunlu dövlətinin mənafeyinə ziyan vururdu. Türk sultanı Azərbaycanla Avropa ölkələri arasında karvan ticarətinə mane olur, bu yerlərdən keçirilib aparılan mallardan böyük gömrük xərci alırdı. Ona görə bu plan bir sıra Avropa dövlətləri tərafınden rəğbətlə qarşılandı. Guya Osmanlı işğalı Avropada Polşa, Macarıstan, Hapsburq krallığı, Venesiya, Roma papası, Neopol üçün təhlükə yaradırdı. II Mehmetin gömrük siyasəti Avropa-Asiya tranzit ticarətinə mənfi tə'sir edirdi. Osmanlı dövlətinin bu siyasəti Ağqoyunlu dövlətində daha çox hiss olunurdu. Bunun başlıca səbəbi o idi ki, Avropa ölkələri iki türk dövlətinin yaxınlaşmasına mane olur, onların arasına ziddiyyət salmağa çalışırdılar. Uzun Həsən isə bu diplomatiyanı lazımi dərəcədə qiymətləndinnədiyinden Türkiyəsiz Avropa ölkələri ilə bilavasitə ticarət əlaqələrini möhkəmləndimıəyə çalışırdı. Daha sonra, Ağqoyunlu hökmdarı osmanlılara qarşı mübarizə aparan Qaraman bəyliyi, Kipr krallığı və Rodos feodal dövləti ilə de sıx əlaqə saxlayır, həmin ölkələri öz başçılığı altında sultana qarşı vahid cəbhədə birləşdirməyə çalışırdı.

Ağqoyunluların Şərqlə Qərb arasındakı ticarətində vasitəçilik edən Venesiya respublikası ilə əlaqələri daha geniş idi. 1463-cü ildə 16 ilə qədər davam edən (1463-1479) Türkiyə müharibəsinin başlanması bu əlaqələrin daha müntəzəm şəklə düşməsinə səbəb oldu. 1463-cü ü dekabrın 2-də Venesiya respublikasının senatında Osmanlı Türkiyəsinə qarşı Ağqoyunlu dövləti və Qaraman bəyliyilə ittifaqa ginnək haqqında xüsusi məsələ müzakirə edildi.

1464-cü ildə Venesiya hökuməti Uzun Həsənin sarayına bir neçə diplomat göndərdi. 1471-ci ildə Uzun Həsənin qohumu*^ Katerino Zeno (1471-1473), İosafat Barbaro (1471-1478), Ambroco Kontarini (1474-1476), Lazaro Kvirino, Paolo Onyibene Ağqoyunlu sarayına gəldilər. Uzun Həsən Avropanın diger monarxlan ile də əlaqə saxlayırdı. 1472-ci ildə Katerino Zeno Uzun Həsənin düşərgəsində Polşa və macar nümayəndələrilə görüşdü. 1475-ci il mayın 30-da A.Konta-

O, Uzun Həsənin arvadı Dəspinə xatunun bacısı qızı Violantaya evlənmişdi.

rini İtaliya katolik monarxı Lüdviqlə görüşdü. Bele şəraitdə Ağqoyun- lu dövləti osmanlılara qarşı mübarizədə Avropa ölkələrinin e’tibarlı müttəfiqi ola bilərdi. XV yüzilliyin 60-70-ci illərində Venesiya diplomatı Ambroco Kontarini Türkiyəyə qarşı birgə əməliyyat planını Ağqoyunlu padşahı ilə müzakirə edib razılaşdırmışdı. Ağqoyunİu padşahının sarayında Macanstan və Polşa elçiləri də var idi. Təəssüf ki, bunlarla danışıqlar da Osmanlı imperiyasına qarşı çevrilmişdi. Öz növbəsində Uzun Həsənin elçiləri tsaq Xoca. Mirak, Hacı Mehemmed, Həsən Əzən və Murad bəy Avropa ölkələrinə, xüsusən Venesiyaya, Roma va Polşaya, Almaniyaya gedir, danışıqlar aparirdılar. Venesiya diplomatları şahidlik edirdilər ki, onlarla birlikdə Moskva, Neapol, Roma, Burqundiya, Macarıstan, Çexiya və Polşa elçiləri de Uzun Həsənin sarayındi idilər. Nəhayət, Venesiya hökuməti ilə danışıqların nəticəsi olaraq 1472-ci ilin yazında Təbrizdə Türkiyə əleyhinə iki dövlət arasında hərbi ittifaq bağlandı. Türkiyə əleyhinə koalisiya planına müvafiq olaraq 1472-ci ilin yazında Uzun Həsən Osmanlı Türkiyəsi üzərinə hücuma keçdi. Mirzə Yusif xanın başçılığı altında Əraincandan Qaraman istiqamətinə hücuma keçən Uzun Həsənin qoşununı^n bir hissəsi parlaq qələbələrdən sonra Aralıq dənizi sahillərinə çıxdı. Lakin burada Uzun Həsən ordusu üçün silah və julilleriya mütəxəssisi gətiracək Venesiya gəmilərinə rast gəlmədi. Beləliklə, Avropa müttəfiqləri ilə İstanbul üzərinə birgə hücum planı baş tutmadı. Çünki Venesiya respublikası öz müttəfiqlərinin qələbəsindən və Türkiyənin ağır vəziyyətindən istifadə edərək əvvəlcədən razılaşdırılmış hərbi planın əksinə olaraq, gizli surətdə İstanbuldakı səfirlərinin vasitəsilə, dinc yolla Türkiyədən ticarət üştunlüyünü qoparmaq ümidilə rəqib tərəfiə diplomatik danışıqlar apardı. Müharibənin bütün ağırlığını Ağqoyunlu dövlətinin üzərinə saldı. Nəticə e’tibarilə isə II Mehmet öz rəqiblərini bir-birindən ayırdı və yetişməkdə olan müha- ribede qələbə çalmaq üçün üstünlüyü ələ ala bildi.

Ağqoyunlu-Türkiyə münasibətləri. Osmanlı Türkiyəsi casusların köməyilə Ağqoyunlu qüvvələrinin çox hissəsinin hələ Tokatdan geri qayıtmadığını və hərbi əməliyyata Uzun Həsənin başçılıq etmədiyini öyrəndi. Buna görə də Osmanlı sultanı öz oğluna vaxt itirmədən əkS’hücuma keçmək əmrini verdi və şahzadə Mustafanın başçılığı altında ağqoyunlulara qarşı 60 min nəfərlik qoşun göndərdi. Nəticədə uzun yol keçmiş, köməksiz qalmış, yorğun və düşmən qüvvələrindən qat-qat az olan Ağqoyunlu süvariləri Beyşehir yaxınlığında türklər

tərəfindən məğlub oldular. Qaraman yenidən osmanlılar tərəfindən fəth edildi.

Qışın düşməsi ile hər iki tərəf hərbi əməliyyatı dayandırdı. Sultan 11 Mehmet öz elçisi ilə Uzun Həsənə məktub göndərərək 1473-cü ilin bahannda ağqoyunlulara qarşı hücuma keçəcəyini bildirdi. Sultan əmin idi ki, artıq Qaraman Türkiyənin əlində olduğuna görə, Ağqo- yunlu dövləti və Venesiya ona qarşı birləşə bilməyəcəklər. Odur ki, o. Osmanlı dövlətinin bütun hərbi qüvvələrini ağqoyunlulara qarşı çevirməyi qərara aldı. İtaliyalı C.M.Anciolellonun mə'lumatına görə, onların sayı 220 min nəfərə qədər idi. Katerino Zeno və türk tarixçisi İbn Kamal ağqoyunlulara qarşı təqribən bu qədər əsgəri qüvvə səfər- bər edildiyini göstərirlər.

Osmanlı sultanı 1473-cü ilin baharında güclü artilleriyanın müşayiət etdiyi ordu ilə ağqoyunlulara qarşı Ərzincana tərəf hərəkət etdi. II Mehmet Uzun Həsənin Venesiyadan göndərilmiş odlu silahları almaq üçün Qaraman istiqamətində hücuma keçəcəyini yaxşı bilirdi. Odur ki, iki qorxulu düşmənini Aralıq dənizi sahilində birləşməyə qoymamaq üçün Uzun Həsəni Anadolunun şərqində qabaqlamaq qərarına gəlmişdi. Ərzincanda Uzun Həsənin də sultana qarşı hərəkət etdiyi mə Tum oldu. Lakin Ağqoyunlu hökmdarı düşmən qüvvələrini əlverişsiz təbii şəraiti olan yerdə haqlamaq üçün irəli buraxdı. Osmanlılar Fəratın sağ sahili ilə Malatiya yaxınlığına qədər irəlilədilər. Burada, çayın sol sahilində Ağqoyunlu qüvvələrinin mövqe tutduğu aydın oldu. Həmin yerdəcə. Fəratın sağ sahilində Türkiyə qoşunları düşərgə saldı. Beləliklə, o dövrün bir-birilə rəqabət aparan iki məşhur türk sərkərdəsi Uzun Həsən və Sultan II Mehmet öz qoşunları ilə Fərat sahillərində qarşı-qarşıya dayandılar. Türk tarixçisi t.H.Uzun- çarşılı Malatiya yaxınlığında Fəratın sol sahilində Osmanlı türkləri üz- üzə dayanmış Ağqoyunlu əsgərlərinin 70 min nəfərdən ibarət olduğunu göstərir. Türldyə qoşununun ağqoyunlulardan çox olduğunu belə bir fakt da sübut edir ki. Uzun Həsən II Mehmetin hərbi düşərgəsini müşahidə edərək Türkiyə qoşunlarının çoxluğundan heyrətə gəlmişdi. Düşmən qüvvələrindən qat-qat az olan, lakin o zaman Yaxın və Orta Şərqin en cəngavər süvariləri sayılan Ağqoyunlu hərbi qüvvələrinə hökmdarın oğullan Uğurlu Məhəmməd, Xəlil bəy və Zeynal bəy də daxil olmaqla Uzun Həsənin ən mahir sərkərdələri başçılıq edirdilər.

Qəribə vəziyyət yarandı: düşmən tərəflərdən heç biri nə ağqoyun- lular, nə de Osmanlı türkləri çayı keçib hücum etməyə cəsarət etmirdilər. Ağqoyunlular üçün Fəratı adlayıb hücuma keçmək heç əlverişli

deyildi. Çünki onlar həm az idilər, həm də düşmən toplarının atəşi altında tələf ola bilərdilər. Bu cür vəziyyətdə Uzun Həsən keçmiş döyüş təcrübələrindən istifadə edərək plan qurdu: hökmdarın oğlu Uğurlu Məhəmmədin başçılıq etdiyi əsas qüvvələr Fəratın sahilində pusquda dayanmalı, bir dəstə Ağqoyunlu atlısı isə hücum edə-edə Fəratı keçməli idi. Düşmən bu dəstəyə hücum etdikdə onlar geri çəkilməli, düşmən qüvvələrini Fəratın sol sahilinə keçirməli. Uğurlu Məhəmmədin qoşunlan isə onları arxadan mühasirəyə almalı idilər.

Beləliklə, 1473-cü il avqustun 4-də Fərat sahilində ağqoyunlularla Osmanlı türkləri arasında döyüş baş verdi. Uzun Həsənin seçdiyi düzgün döyüş taktikası nəticəsində Ağqoyunlu süvariləri Türkiyə qoşununun zərbə qüvvəsini aldadıb Fəratın sol sahilinə keçirdilər və 11 Mehmeti ağır məğlubiyyətə uğratdılar. Malatiya döyüşü adlanan bu vuruşmada Türkiyə qoşunlarının zərbə qüvvəsi məhv edildi. Malatiya məğlubiyyəti Osmanlı qoşununda intizamın pozulmasma və böyük ruh düşkünlüyünə səbəb oldu. Qələbə ümidini itirən Osmanlı sultanı döyüşdən sonra öz zabitlərindən birini sülh bağlamaq uçün Ağqoyunlu hökmdarının yanına göndərdi. Lakin Uzun Həsən U Mehmetin sülh təklifini qəbul etmədi.

Ağqoyunlulara qarşı müharibəni davam etdirməyə cəsarəti çatmayan sultan Malatiya məğlubiyyətinin səhərisi günü öz ordusuna İstanbula doğru geri çəkilmək əmrini verdi. II Mehmet İstanbulun alınacağından ehtiyat edirdi. Ağqoyunlu qoşunu Türkiyə qoşununu tə’qib etməyə başladı.

Əvvəlcədən hazırlanmış plana uyğun olaraq Malatiya vuruşmasından on gün sonra, 1473-cü il avqustun 11-də Ağqoyunlu süvariləri 11 Mehmetin qoşunlarını Ərzincanla Ərzrum arasındakı Üçağızlı dərəsi adlanan yerdə qabaqladılar. Döyüşün planına görə, həm qarşıdan, həm də yanlardan hücum edən Ağqoyunlu atlılan Türkiyə qoşununu qəfildən yaxalamalı, onu dərədən düzə çıxmağa qoymamalı idi. II Mehmetin qoşunu geri çəkildikdə isə onu Uzun Həsənin özünün başçılıq etdiyi Ağqoyunlu süvariləri qarşılamalı idi. Uzun Həsənin məqsədini başa düşən II Mehmet bütün diqqəti ön cəbhəyə verdi. Osmanlı qoşunu xeyli tələfatdan sonra düzə çıxıb döyüş nizamı ala bildi. Bu döyüşün taleyini qabaqcadan həll etdi. Beləliklə, 1473-cü il avqustun 11-də iki fatehin hərbi qüvvələri arasında səkkiz saata qədər davam edən şiddətli döyüş baş verdi. Otluqbeli döyüşü*® adı ilə

Bu döyüş Tərcan döyüşü də adlanır.

məşhur olan bu vuruşmada ağqoyunlular üstünlük eldə etsələr de, vuruşmanın sonuna yaxın odlu silahları olan Osmanlı piyadasının, xüsusilə yeniçəri (yeni əsgər) alaylarının inadlı əks-hücumlarına davam gətirə bilmədilər. Döyüş osmanlıların qələbəsi ile sona yetdi.

Beləliklə, müharibənin birinci dövründə olduğu kimi, ikinci dövründə də təşəbbüsü ilk dəfə elə almalarına və Osmanlı qoşunları üzərində bir sıra parlaq qələbələr eldə etmələrinə baxmayaraq, nəticədə ağqoyunlular məğlub oldular.

Bəs XV əsrin 70-ci illərində xeyli iqtisadi və siyasi qüvvəyə və geniş əraziyə malik olan Ağqoyunlu dövlətinin Türkiyə ilə müharibədə məğlub olmasının səbəbləri nə idi? Hər şeydən əvvəl nəzərə alınmalıdır ki, Otluqbelində iki qüdrətli dövlət üz-üzə gəlmişdi. Türkiyənin yaxşı silahlanmış nizami ordusu vardı. Ağqoyunlu qoşunu yeniçəri alayları qarşısında zəif idi.

İkinci, ağqoyunlular qarğı, qılınc, şeşper, altı dilimli toppuz, xəncər, yay-ox, güı-z kimi vaxtını keçirmiş silahlara, Osmanlı ordusu isə ən müasir odlu silahlara, xüsusilə ağır toplara malik idilər. Məhəmməd Naşirinin fikrincə, ağqoyunlular Otluqbelide ona görə məğlub oldular ki, onlar «belə top-tüfəng davası görməmişdilər». Üçüncü, Avropa dövlətləri mütəşəkkil surətdə Qərbdən Türkiyəyə qarşı hücuma keçmədilər. Venesiya ağqoyunlularla bağladığı müqavilənin şərtlərini yerinə yetirmədi. Dördüncü, Ağqoyunİu dövlətinin məğlubiyyətə uğramasında o zaman Avropa ile əlaqə saxlamaq üçün gediş- gəliş yollarının çox təhlükəli olması və müttəfiqlərin bir-birilə lazımi əlaqə saxlaya bilməməsi də az rol oynamadı.

Bununla belə, 1472-1473-cü illər iki türk dövlətinin -Ağqoyun-lu-Türkiye müharibəsinin böyük tarixi əhəmiyyəti oldu. Türkiyə qoşunu üzərində bir sıra parlaq qələbələr əldə edən ağqoyunlular Otluq- belidə II Mehmetin Şərqlə əlaqədar işğalçılıq planlarını yarımçıq qoydular. Osmanlı sultanı Azərbaycanı, habelə bütünlüklə ön Qafqazı və tranı tuta bilmədi.

Otluqbeli məğlubiyyəti ilə Ağqoyunlu dövlətinə ağır zərbə vuruldu. Ağqoyunlu dövləti Uzun Həsənin öz rəqibiəri üzərində bir-birinin ardınca əldə etdiyi uğurlu qələbələrin nəticəsində ərazicə genişlənmiş və müvəqqəti güclənmişdi. Bu dövlətin mövcudluğu onun apardığı qəsbkarlıq müharibələrinin nəticəsi ile sıx baqlı idi. Xarici dövlətlərlə toqquşmalardakı kiçicik bir uğursuzluq ölkə daxilindəki narazı qruplarm mərkəzi hakimiyyətə qarşı feallaşmasına səbəb olurdu.

Məhz bu me'nada Otluqbeli məğlubiyyəti Ağqoyunlu dövlətinin süqutunu sür'ətlendirdi. İri feodalların, xüsusilə köçəri-hərbçi ə'yan-lann mərkəzi hakimiyyətə qarşı mübarizəsi canlandı. İri feodallann müstəqilliyi və ya mərkəzi hakimiyyətə tabe olmaması siyasi cəhətdən o qədər də möhkəm olmayan Ağqoyunlu dövləti üçün çox təhlükəli idi.

Katerino Zeno 1473-cü il iyulun 27-də Venesiya dojuna*^ yazdığı məktubunda göstərirdi ki, Ağqoyunlu ərazisində 20-yə qədər möhkəm qalaya malik Bitlis knyazlığı mövcuddur. Əhalisi kürdlərdən iba- ı*ət olan bu knyazlıq Kirmanşahdan Təbrizə qədər uzanmaqla Ağqoyunlu dövlətinin ərazisini iki hissəyə parçalayır.

Ölkənin siyasi qüdrəti üçün təhlükəli olmaqdan başqa, kürd feodallarının müstəqilliyi Ağqoyunlu dövlətinin ticarət həyatı üçün də zərərli idi. Çünki Ağqoyunlu dövlətini Hələb, Dəməşq, Beyrut, Bursa və s. ticarət mərkəzləri ilə birləşdirən karvan yollarının çoxu kürdlərin möhkənləndiyi dağ keçidlərindən keçirdi. Kürd feodallan, habelə quldur dəstələri tez-tez buradan keçən ticarət karvanlanna basqın edir, soyğunçuluqla məşğul olurdular.

Elə buna görə də Ağqoyunlu hökmdan Uzun Həsən Cabanşah və Əbu Səid üzərindəki qələbələrindən sonra bir müddət mərkəzi hakimiyyətə tabe olmayan feodalların müqavimətini .qırmaqla məşğul oldu. Uzun Həsənin sərkərdələri Sofı Xəlil, Süleyman bəy Becanoğlu və Bayandur bəy kürd feodallanna məxsus bir sıra qalalan ələ keçirib dağıtdılar. Bitlis knyazının özü isə bütün hərbi qüvvələri və qalaları ila birlikdə ağqoyunlulara təslim oldu. Lakin kürd feodalları öz müstəqilliklərini bərpa etmək üçün fürsət gözləyirdilər. Otluqbelidəki məğlubiyyət məhz belə fürsət oldu. Kürd feodallan yenidən fəallaşdılar. 1474-cü ilin aprelində kürdlər losafat Barbaronu və onunla Venesiyadan gələn Ağqoyunlu elçilərini qarət etdilər. Hacı Məhəmməd başda olmaqla Ağqoyunlu elçiləri öldürüldü.

Az sonra, 1474-cü ilin mayında Şirazda iri feodalların mərkəzi hakimiyyətə qarşı güclu qiyamı başladı. Bu qiyama Uzun Həsənin böyük oğlu Uğurlu Məhəmməd başçılıq edirdi. O, Şirazın valisi olmaqla qaraqoyunlulara, teymurilərə və türklərə qarşı müharibələrdə mahir sərkərdə kimi şöhrətlənmişdi. Uğurlu Məhəmmədin başçılıq etdiyi

«Doj» italyanca başçı, rəhbər deməkdir. Venesiya respublikasının başçıları da doj adlanırdılar.

feodal qiyamı Ağqoyunlu dövləti üçün çox təhlükəli idi. Çünki o. atasına qarşı hərbi yardım üçün Misir sultanına da müraciət etmişdi. Misir sultanı isə 1472-1473-cü illər arasında Məmlük sultanlığının Fəratın sağ sahilindəki torpaqlarına hücum edərək Suriya vasitəsilə Aralıq dənizi sahillərinə yol açmağa çalışan Uzun Həsənə qarşı onun oğluna yardım göstərmişdi. Bundan xəbər tutan Ağqoyunlu hökmdan öz hərbi qüvvələri ilə tələsik Şiraza yola düşdü.

Uğurlu Məhəmmədin mərkəzi hakimiyyətə qarşı çıxması ölkənin başqa yerlərində de Ağqoyunlu hökmdarlarının mərkəzləşdirmə siyasətindən narazı qalan iri feodallann kəskin çıxışları ilə nəticələndi. Belə feodallardan biri 3000 nəfər süvarilə Təbrizə hücum etdi. Lakin elə bu zaman hökdann oğlu Maqsud bəy 1000 nəfər süvarilə özünü yetirdi. Təbrizin təhlükəsizliyi tə’min olundu.

Digər tərəfdən isə Uzun Həsən Şirazda oğlunun başçılıq etdiyi qiyamçı qüvvələri darmadağın etdi. Atası ilə vuruşmada ağır yaralanan Uğurlu Məhəmməd Türkiyəyə qaçdı.

Bu zaman Osmanlı sultanı II Mehmet Otluqbeli vuruşmasından sonra Avropa dövlətləri ilə əlaqələrini daha da genişləndirən Ağqoyunlu dövlətinə qarşı növbəti müharibəyə hazırlaşırdı. O, Xorasan hakimi Hüseyn Baykaraya məktub yazaraq Ağqoyunlu dövlətini aradan qaldırmaq üçün iki tərəfdən hücuma keçməyi təklif etdi. Buna görə də sultan Ağqoyunlu hökmdannm oğlu Uğurlu Məhəmmədi İstanbulda böyük təntənə ile qarşıladı. O, qızı Gövhərxan sultanı Uğurlu Məhəmmədə ərə verdi. Bu izdivacdan Uğurlu Məhəmmədin bir oğlu oldu, adını Əhməd qoydu. Ona Gödək Əhməd deyirdilər. Gödək Əhməd Cənubi Azərbaycan tarixində qısa, lakin parlaq iz qoydu. II Mehmet Uğurlu Məhəmmədi bir qeder hərbi qüvvə ile Sivasa-Azərbaycan-Türkiyə sərhədinə hakim te’yin etdi.

II Mehmet qızını Uzun Həsənin oğluna ərə verməklə Ağqoyunlu hökmdarının ölümündən sonra sülalə qohumluğu vasitəsilə Azərbaycan-taxtını ələ keçirmək istəyirdi.

Türkiyəyə qaçmazdan əvvəl Uğurlu Məhəmməd atasından üzr istəmək üçün anasını Misir sultanının yanına göndərmiş, lakin məqsədinə nail olmamışdı (bax: *Y.Muhmtdov.* öyrənilməmiş səhifələr, s. 90). Sonra o, Bağdada, qardaşı Maqsud Mirzənin yanına qaçmışdı. Uzun Həsən qardaşların ona qarşı əlbir çıxışlarından ehtiyat edərək Maqsud Mirzəni Bağdad hakimi vəzifəsindən uzaqlaşdınnışdı.

Bu zaman Türkiyəyə qarşı müharibəyə başlamaq imkanı olmayan Uzun Həsən öz fərari oğlundan intiqam aldı. O, Uğurlu Məhəmmədi ələ keçirdi və Təbrizdə e'dam etdirdi. Uğurlu Məhəmmədin ölüm xəbərini alan kimi Türkiyə sultanı bu zaman Sivasda olan qızını və nəvəsini^* İstanbula gətirtdi.

Ağqoyunlu hökmdarının apardığı aramsız müharibələr dövlətin iqtisadi özülünü sarsıtdı, sinfi ziddiyyətləri son həddə çatdırdı.

Bir dəstə hərbçi ə’yan istisna edilməklə geniş xalq kütlələri dövlətin xarici siyasətindən narazı idilər. Çünki müxtəlif ölkələrlə aparılan bu müharibələrin əsas ağırlığı birinci növbədə onların üzərinə düşürdü. Ağır vergilərdən və mükəlləfiyyətlərdən, habelə feodal özbaşınalığından əziyyət çəkən kəndlilərdən tutmuş sənətkarlara, xırda tacirlərə və şəhər əhalisinin digər təbəqələrinə qədər hamı təngə gəlmişdi. Onlar dövlətin müharibə məqsədilə müxtəlif vergiləri toplamasına e’tiraz edirdilər. Məsələn, venesiyah Arabroco Kontarini yazırdı ki, 1474-cü ilin yayında kürd feodallarının qiyamını yatırtmaq üçün Uzun Həsənin oğlu Maqsud bəy Təbriz əhalisindən pul toplamaq istəmiş, lakin xalq onun tələbini yerinə yetirməkdən imtina etmişdi. Sənətkarlar, tacirlər e’malatxana və dükanlarını bağlayıb evlərinə dağılışmışdılar.

İqtisadi tənəzzül, iri feodalların mərkəzi hakimiyyətə qarşı açıq mübarizəsi, ümumxalq narazılığı-bütün bunlar Ağqoyunlu dövlətinin süqutunun əsas səbəbləri idi. Ağqoyunlu Uzun Həsənin bir daha Osmanlı imperiyasına qarşı müharibə edə bilməməsi də həmin səbəblərlə izah olunmalıdır.

Bununla yanaşı, Osmanlı imperiyasının Avropadakı düşmənləri də Ağqoyunlu dövlətinin Türkiyəyə qarşı əlbir hərəkət etmək çağırışlarına sözdə razılıq verirdilər. Venesiya respublikası öz səfirləri və məktubları vasitəsilə Uzun Həsənə Avropadakı vəziyyəti olduğu kimi çatdırmırdı. Respublika hökuməti yalan və şişirdilmiş mə’lumatlarla Ağqoyunlu dövlətini Türkiyəyə qarşı müharibəyə qızışdırmağa və düşmənini Ağqoyunlu hökmdarının əli ilə boğmağa çalışırdı.

Misir sultanlığı ilə münasibətləri sahmana sala bilməməsi də Ağqoyunlu dövlətinin Türkiyə ilə əlaqədar xarici siyasət xəttinin yerinə yetirilməsinə müəyyən dərəcədə mane oldu.-Ağqoyunlu hökmdarının Otluqbelidəki məğlubiyyətindən sonra Misir sultanlırı daha da fəallaş-

Uğurlu Məhəmmədin Osmanlı sultanının qızından olan oğlu.

mışdı. Misir sultanı Uzun Hesenin Türkiyə əleyhinə ittifaq bağlamaq təklifini qəbul etmədi və Ağqoyunlu hökmdanna qarşı onun oğluna hərbi qüvvə ilə yardım göstərdi.

Gürcü knyazları da Türkiyəyə qarşı Ağqoyunlu hökmdarı ile əlbir hərəkət etməkdən boyun qaçırdılar. Bunun müqabilində o, 1474- 1477-ci illərdə Gürcüstana yürüş etdi. Sonuncu yürüşdə onun 20 min süvarisi, 11 min piyada qoşunu vardı. Tiflis və Qori, eləcə də ölkənin mühüm hissəsi ağqoyunlular tərəfindən işğal olundu. Uzun Həsənin gürcü hakimi VI Baqratla bağladığı sülhə görə (1477), Tiflis daxil olmaqla Şərqi Gürcüstan Ağqoyunlu dövlətinin hakimiyyəti altına düşdü. Ağqoyunlu hökmdan gürcü knyazlarından 16 min dukat^2 bac alaraq sərkərdə Xəlil bəy Bektaşı Tiflisə canişin tə’yin etdi və Təbrizə qayıtdı.

Uzun Həsən Gürcüstan səfəri zamanı öz hərbi qüvvəlarinin mühüm bir qismini Misir sultanlığına qarşı göndərdi. C.M, Anciolellonun verdiyi məlumata görə, ağqoyunlular 1477-ci ildə Amid və Urfa (Ədese) yaxınlığında məmlüklər üzərində parlaq qələbələr çaldılar. Urfa ağqoyunluiann əlinə keçdi. Uzun Həsən Gürcüstan üzərinə yü- ı*üşə hazırlaşarkən, 1478-ci il yanvann 6-da vəfat etdi.

Uzun Həsənin ölümündən sonra, 1478-ci il iyulun 15-də Yaqub Mirzə Cənubi Azərbaycanda, Xoy yaxınlığındakı döyüşdə qardaşı Xəlil Mirzəni öldürərək taxta çıxdı. Yaqub Mirzənin hökmranlığı zamanı (1478-1490) Ağqoyunlu ordusu Süleyman bəy Bicanoğlunun komandanlığı altında 1480-ci ildə osmanlıları məğlub etdi. Türkiyə sultanı II Bəyazid (1481-1512) sülh təklif etməyə məcbur oldu. Beləliklə, Misir və Osmanlı sultanları Azərbaycanı işğal edə bilmədilər. 1480-ci ildə Urfa yaxınlığındakı döyüşdə Ağqoyunlu ordusu Misir və Suriya sultanı Qayıtbəyin (1468-1496) qoşununu məğlubiyyətə uğratdı.

Yaqub Mirzə atasınm siyasətini davam etdirərək Şirvanla dostluq əlaqələri saxlayırdı. O, Şirvanşah Fərrux Yaşarın (1462-1500) qızı ile evlənərək bu əlaqələri daha da möhkəmləndirdi. Lakin atasının Səfəvilərin Ərdəbil hakimiyyətinə olan müsbət meylini qoruyub saxlamadı. Çünki getdikcə qüvvətlənən bu hakimiyyəti özü üçün təhlükə hesab edirdi. Ona görə də Ərdəbil hakimiyyəti ile de ağqoyunlular arasında ziddiyyət başladı.

22 Dukat - o zaman Venesiya və başqa Qərbi Avropa Ölkələrində işlədi* lən pul vahidi.

Ağqoyunlu dövlətinin süqutu. XV əsrin sonunda Ağqoyuniu dövlətini daxili çəkişmələr bürüdü. Getdikcə kəskinləşən sinfi müba> rizə dövləti zəiflədən amillərdən birinə çevrildi. 1490-cı ildə Yaqub Mirzənin vəfatından sonra^^ bu mübarizə kəskinləşdi. Yaqubun oğlu Baysunqur (1490-1492) taxta çıxdı. Təbrizdə Bayandur tayfasından-Bayandur beyin təşəbbüsü ilə Uzun Həsənin oğlu Mesih Mirzə İran İraqında, Pomak tayfasının başçısı Şahelinin köməyilə Uğurlu Məhəmmədin oğlu, Uzun Həsənin nəvəsi Mahmud isə Həmədanda taxta çıxdılar. Maqsud bəyin oğlu. Uzun 'Həsənin nəvəsi Rüstəm Mirzə də əmirlər tərəfindən şahlığa namizəd irəli sürüldü. Bütün bu şahzadələr Ağqoyunlu feodallarının ayn-ayn qruplarının əlində oyuncağa çevrildilər. İlk vaxtlar Ağqoyunlu dövlətini Baysunqurun adından idarə edən Sufi Xəlil (1490-1491) bütün rəqiblərinə qalib gəldi. Bu döyüşlərdə Mesih Mirzə və Mahmud öldürüldü, Rüstəm isə Naxçıvandakı Əlincə qalasına salındı.

Az sonra Diyarbekrde hökmranlıq edən Süleyman bəy Bicanoğlu Sufi Xəlilin hakimiyyətinə qarşı mübarizəyə başladı. I49l-ci ilin yayında Van qalası yaxınlığındakı döyüşdə Sufi Xəlil məğlub oldu və öldürüldü. Bicanoğlu hakimiyyəti elə aldı. Lakin Baysunqura toxunmadı, Ağqoyunlu dövlətini onun adından Əmir-ül-ümərа (əmirlər əmiri) sifəti ilə idarə etməyə başladı.. Bicanoğlunun da idarə sistemi öz növbəsində Əbih Sultan təxəllüsü^^ ilə Bayandurilər sülaləsinin başında dayanan İbrahimin və bir qrup əmirlərin ciddi narazılığına səbəb oldu. 1492-ci ildə Əbih Sultan Rüstəm Mirzəni Əlincə qalasm- dnn xilas etdi. Ağqoyunlu taxtının iddiaçısı kimi yenidən onun namizədliyini irəli sürdü, ölkədə genişlənməkdə olan kəndli həyəcanlarından qorxuya düşən əmirlərin bir qismi öz qoşunları ilə birlikdə Rüstəmin və Əbih Sultanın tərəfinə keçdilər.

1492-ci il mayın əvvəllərində Bərdə yaxınlığında Baysunqurun qoşunu Rüstəm Mirzənin qoşunu ilə döyüşə girdi. Döyüş Rüstəm Mirzənin qələbəsi ilə qurtardı. Bicanoğlu cüzi qoşunu ilə tələsik Diyarbekre çəkildi və orada Əbih Sultanın böyük qardaşı Əmir Nurəli bəy tərəfindən öldürüldü. Baysunqur isə Şirvana, dayısı Fərrux Yasa-, rın yanına qaçdı. Beləliklə, 1492-ci il mayın sonunda Rüstəm Təbi

Yaqub Mirzə 2$ yaşında ikƏn anası Şahxatunun səhvən içirtdiyi dərmandan zəhərlenib öldü. Buna dözə bilməyən ana özü də zəhər içərək dünyasını dəyişmişdi.

Ona A^ba Sultan da deyirdilər.

rizdə Ağqoyunlu taxtında oturdu. Lakin o, öikeni idarə etmək işində zəif idi. Ona görə də Ağqoyunlu dövlətini əslində yeni Əmir-ül- üməra-Əbih Sultan idarə edirdi. Rüstəm Mirzə geniş torpaq sahələri- soyurqal paylamaqla hərbi ə'yanlann rəğbətini qazandı. Həsən bəy Rumlu yazırdı ki, yüz il ərzində Qaraqoyunlu və Ağqoyunlu padşahlarından heç biri Rüstəm Mirzə qədər soyurqal paylamamışdı. Məhz bu səxavətinə görə o, beş il (1492-1497) Ağqounlu dövlətini idarə etdi.

Soyurqahn geniş miqyasda paylanması nəticəsində iri köçəri feodallar qüvvətləndi və mərkəzi hakimiyyətə tabe olmaq istəmədi. Məsələn, Qum şəhərində Kosa Hadi Bayandurun başçılığı ilə qalxan qiyam sonralar Cilanda təkrar olundu. 1492-ci ilin sonunda hakimiyyətdən devrilmiş Baysunqur babası Fərrux Yaşarın köməyilə Bərdə ilə Gəncə arasında Rüstəmə qarşı döyüşə girdi, lakin məğlubiyyətə uğradı. Rüstəm Mirzə Şirvana daxil oldu, onu viran etdi. Öz növbəsində müttəfiqlər isə ağqoyunlulann idarə etdiyi Qarabağa hücum etdilər. Rüstəm padşah onlara qarşı mübarizədə Ərdəbil şeyxi Heydərin oğlu gənc Sultanəliyə güvəndi. Odur ki, Baysunqur və onun müttəfiqləri 1493-cü ildə Əhər yaxınlığında darmadağın edildi və öldüruldü.25

Rüstəm padşah xeyli soyurqal torpaqlar paylasa da, əhəmiyyətsiz oldu, köçəri əhalinin bir hissəsini özünə qarşı qaldırdı. Bundan isə Uğurlu Məhəmmədin oğlu Gödək Əhməd istifadə etdi. O, yaxın qohumu Hüseynəli Terxan ilə birlikdə həmfikirlərinin toplaşdığı Ərzincana gəldi. Əbih Sultanın başçılığı ilə köçərilərin bir hissəsi onunla birləşdilər. Beləliklə, 1496-cı ilin yayında Gödək Əhməd Azərbaycana hücum etdi. Həmin ilin payızında Sultaniyyə yaxınlığında Hüseynəli Tərxanın dəstəsilə Ağqojunlu Əbdülkərim lələnin dəstələri qarşılaşdılar, döyüşdə Ağqoyunlu qüvvələri darmadağın edildi. Əbdülkərim isə öldürüldü. Hüseynəli Terxan Gödək Əhmədi padşah e'lan etdi və onun adına pul kəsdirdi. Sultaniyyə qələbəsindən az sonra, 1496-cı ilin sonunda Naxçıvan yaxınlığında Gödək Əhməd Rüstəm Mirzənin əsas hərbi qüvvələrini məğlub etdi, özünü də əsir aldı. 1497-ci ilin əvvəllərində Təbrizə daxil oldu. Mayın 3-də Ağqoyunlu taxtına çıxdı. Gödək Əhməd Rüstəm Mirzənin qoşun başçısı

Diger mə*lumata görə, Baysunqur Gürcüstana qaçır, hakimiyyəti əle keçirmək üçün yenidən cəhd edəndə Rüstəmin xələfi Əhməd tərəfindən tutulub öldürülür.

Əbih Sultandan ehtiyat etdiyi üçün Girman mahalını ona bağışladı. Sonuncu isə hələlik Gödək Əhmədlə hesablaşmağa məcbur oldu.

Yeni Ağqoyunlu padşahı yerli əhaliyə arxalanaraq hərbi e'yanların müqavimətini sındırmağa, ara müharibələrinə son qoyub Ağqoyunlu dövlətini yenidən möhkəmləndirməyə cəhd gösterdi. O, kəndlilərin vəziyyətində müəyyən dəyişiklik etməklə dövlətin iqtisadi əsasının zəifləməsinin qarşısını almaq məqsədilə bir sıra vergi islahatları keçirdi, şəriətdə gösterilməyən 20-ye qədər vergi və mükəlləfiyyətləri ləğv etdi.

Əlbəttə, Gödək Əhmədin bu siyasəti bə’zi ə’yanlar tərəfindən yaxşı qarşılanmadı. Onlar Ağqoyunlu hakiminə qarşı tədbirlər görməyə başladılar, ayn-ayn mahallarda, xüsusilə İran İraqı və Farsda qiyamlar qaldırdılar. Yaqub Mirzənin oğlu Muradı Şirvanda taxta çıxannağa cəhd etdilər. Nəhayət, 1497-ci il dekabrın 13-də İsfahan yaxınlığında Gödək Əhmədin qoşunu ilə qiyamçı feodalların birleşmiş dəstələri döyüşə girdilər. Döyüş Gödək Əhmədin məğlubiyyəti ilə nəticələndi, özü də öldürüldü. Təqribən 7 ay hakimiyyətdə qalmış Gödək Əhməd məqsədinə nail ola bilmədi.

Qaynaqlann me'lumatına görə, Gödək Əhmədin ölümündən sonra Əbih Sultan özünü mütləq hakim, 1497-ci ilin dekabnnda isə Muradı Qum şəhərində Ağqoyunlu padşahı e’lan edərək onun adından pul kəsdirdi. Murad hələ Şirvanda ikən Əbih Sultan onun adından Qumu idarə edirdi, l498-ci ilin əvvəllərində isə müttəfiqlər Təbrizdə görüşdülər. Az sonra onlann arasında narazılıq yarandığından Murad Marağa yaxınlığındakı Ruyindiz qalasına salındı. Lakin Murad tezliklə həbsdən azad edilib Əbih Sultandan asılı olmaqla Ağqoyunlu dövlətini, qardaşı Məhəmməd Mirzə isə Muraddan vassal asılılığını qəbul etməklə Yəzdi idarə etməyə başladılar. Muradın əmisi Yusifin oğlu Əlvənd Mirzə isə Diyarbekrə gələrək dayıları Qasımbəy və Rüs- təmbəyin köməyilə Ağqoyunlu taxtı uğrunda mübarizəyə hazırlaşırdı.

Yəzddə möhkəmlənmiş Məhəmməd Mirzə tezliklə İraqın hər iki hissəsini və Reyi tutdu. Məhəmməd Mirzənin bu uğurları Əbih Sultanı qorxutdu. Buna görə də, o, Rey mahalına hücuma keçdi, buranı tutdu və qardaşı Gözəl Əhmədi hakim tə’yin etdi.

Məhəmməd Mirzə Rey mahalının Asta qalasında öz qüvvələrini yenidən təşkil edİb, Gözəl Əhmədə ciddi zərbə vurdu və Əbih Sultana qarşı qəti hücuma keçdi. Əzizkənd adlanan yerdə onun qüvvələrini əzdi, özünü isə öldürdü və 1499-cu ilin mayında Təbrizdə Ağqoyunlu

taxtına çıxdı. Murad isə Şiraza qaçdı. Məhəmmədin Təbrizdə hakimiyyəti uzun sürmədi. Diyarbəkrde öz qüvvələrini toplamış Əlvənd Azerbaycana yürüş etdi. Məhəmməd Mirzə Təbrizdən Sultaniyyəyə, oradan da İsfahana çəkildi və 1499-cu ilin sonunda öldürüldü. Əlvənd Təbrizi ələ keçirdi.

Bundan sonra Arqoyunlu taxtı uğrunda iki güclü varis - Murad və onun əmisi oğlu Əlvənd arasında mübarizə kəskinləşdi. Lakin bu çox çəkmədi.

1500-cü ilin əvvəlində Baba Xeyrulla adlı bir dərvişin köməyilə Təbriz yaxınlığında, Əbhər adlı yerdə onların arasında sülh imzalandı. Bu sülhə görə, Qızılüzən çayı sərhəd olmaqla Diyarbəkr, Azərbaycanın Kürdən cənuba doğru olan hissəsi, Qarabağ və Əmıəniyyə Əlvəndə, bütün Ərəb İraqı, Fai's və Kirman isə Murada çatdı. Bu parçalanma əslində Ağqoyunlu dövlətinin hərbi qüdrətini sarsıtdı və süqutuna gətirib çıxardı.

Azərbaycan-Rusiya münasibətləri. XV əsrdə III İvanın dövründə (1462-1505) mərkəzləşmiş rus dövlətinin yaranmasının başa çatması Rusiyanın beynəlxalq nüfuzunu xeyli artırdı. Moskva tarixi və ticarət əhəmiyyətinə görə rus xalqının paytaxtı oldu. Tverdən Həştərxana, Xəzər dənizi ilə Orta Asiyaya, Dağıstana, Azərbaycana, İrana, Hindistana yeni ticarət yolu qaydaya düşdü. Lakin Kazan və Həştərxan xandıqlan bu yolda əsas maneə idi.

Şama.Ki məıkəz olmaqla, Azərbaycan Şiıvanşahlar dövlətinin yüksəlişi məhz bu dövrə təsadüf edir. Şamaxıya müxtəlif yerlərdən, o sıradan Rusiyadan tacirlər gəlirdilər. Azərbaycan tacirləri öz növbəsində Rusiya şəhərlərinə gedirdilər. Maraqlıdır ki, XV əsrdə ms çarları və ya Böyük Moskva knyazlan Şirvan hakimini «böyük bəy və ya ağ xan» adlandırırdılar. Mərkəzləşmiş rus dövləti yarananda Azərbaycan Şirvanşahlar dövlətinin başçısı Fərrux Yasar III İvanın dövlətini ilkin tanıyanlardan idi. O, 1465-ci ildə öz səfiri Həsən bəyi Moskvaya göndərməyə tələsdi. M.Altman belə hesab edir ki, XV əsrin ikinci yarısından e'tibarən Şirvan tacirləri tez-tez rəsmi diplomatik tapşırıqlarla «Böyük Moskva sarayının qonağı olurdular». Lakin bu danışıqlar barədə qaynaqlarda mə’lumat yoxdur. Yalnız «Rusiya knyazının şirvanşah Fərrux Yaşarın elçisini ləyaqətlə qəbul etməsi» mə’lumdur. III tvan bilirdi ki, Şirvan təkcə ipəyi ilə deyil, öz sərhədlərini möhkəm qoruyan qoşunu ilə də məşhurdur. Ovun Şamaxı, Bakı, Dərbənd şəhərləri barədə məMumatı vardı. Ehtimal ki, danışıqlar

vaxtı Qızıl Ordadan yenicə aynlmış Həştərxan xanlığına qarşı müqavilə bağlamaq məsələsi də müzakirə olunmuşdur. Həsən bəy bir il sovra-1466-cı ildə Vasili Papinin başçılıq etdiyi rus elçiləri, habelə Tverdən və Moskvadan olan bir qrup rus taciri ilə birlikdə Şirvana qayıtdı. Qarşılıqlı səfərdən sonra rus tacirlərinin Azərbaycana gəlişi xeyli canlandı. Onların içərisində Moskva və Tver tacirləri xüsusilə fərqlənirdilər. XV əsrdə məhz bu iki knyazlıq xarici ölkələrlə qızğın ticarət aparırdı. Bu knyazlıqlann tacirlərinə Qara dəniz və Xəzər sahili şəhərlərdə, İranda və digər ölkələrdə rast gəlmək olardı. Azərbaycan haqqında bə’zi maraqlı me’lumatlar verən məşhur səyyah. Tver taciri Afanasi Nikitin də onların arasında idi. Fərrux Yaşarla III İ vanın diplomatik danışıqlarından xəbərdar olan Afanasi Nikitin Tverdən çıxarkən Hindistana deyil, Azərbaycana, məhz Şirvana gəlməyi qarşısına məqsəd qoydu. Afanasi Nikitin Tverdən Uqliç-lCostroma- Ples yolu ilə Nijni Novqoroda gəldi, burada iki həftə Şirvanşahlar dövlətinin Moskvada danışıqlar aparıb qayıdan elçisi Həsən bəyi gözlədi. Səyyah gündəliyində bu haqda belə yazır: «Vasili Papin bu zaman artıq ölmüşdü. Mən isə Novqorodda, Şirvanşahın səfiri Həsən bəyi iki həftə gözlədim. O, böyük knyaz Ill.tvanın yanından şonqar- larla (şahin) qayıdırdı; onun 90 şahini vardı. Mən onunla birlikdə Volqa ilə üzüaaşağı endim...».

Volqa çayı ilə aşağı enən Afanasi Nikitin və başqa rus tacirləri yolda tatarlar tərəfindən qarət olundular. Tacirlərin bir qrupunu isə Qaytaq hakimi əsir aldı. Lakin Şirvanşah Fərrux Yasar işə qarışdıqdan sonra rus tacirləri azad olundular və Şirvana gəldilər. Afanasi Nikitinin səyahətnaməsindən mə’lum olur ki, onun, həmçinin başqa rus tacirlərinin malları əllərindən alındığından geri qayıtmaq istəyirdilər.

Lakin «Rusiyaya çatmaq uçün» əllərində heç nələri yox idi. Şirvanşah Fərrux Yasar isə, Afanasi Nikitinin yazdığına görə, tacirlərin çoxluğundan onlara Rusiyaya qayıtmaq üçün vəsaitlə kömək edə bilməmişdi. Buna görə də səyyahın yazdığı kimi, «hərə bir yana dağılışmışdı». Tacirlərin bə'zisi Rusiyaya qayıtmış, Rusiyada borclu olanlar hara gəldi getmiş, bə’zisi Şamaxıda qalmış, digərləri i.sə Bakıya işləməyə yollanmışdı. Afanasi Nikitin yazır ki, «men isə Dərbəndə, oradan da sönməyən alov yanan Bakıya getdim». Bu vaxt Bakı şəhəri Xəzər dənizində əsas ticarət limanı idi. XV əsrin məşhur coğrafiyaşünası Əbdürrəşid Bakuvi öz əsərində Bakı haqqında dəyərli məTumat verir. Şeherin təsərrüfat həyatım, me’marlıq abidələrini təsvir edir.

həmçinin Azərbaycan-Rusiya münasibotlerinden danışır. XV əsrdə sənətkarlığın inkişafı ile bağlı Bakının qonşu ölkələrlə ticarət əlaqələri genişlənirdi. Birinci növbədə Xəzərdə gəmiçiliyin inkişafı üçün şərait yarandı və Bakının liman şəhəri kimi ehemnyyeti artdı. Afanasi Nikitinin səfəri məhz bu dövrə təsadüf edir və o, Azerbaycanın başqa şəhərlərinə nisbətən asan qazanc əldə olunduğundan Bakıda bir qədər çox qalır.

Hindistan səfəri üçün isə ona pul lazım idi. A.Nikitini Gürcüstana, Türkiyəyə, trana, Buxaraya və s. yerlərə aparırlar. O, ruslann Bakını liman şəhəri kimi yaxşı tanıdığına görə bura daha çox diqqət yetirməyi qərara alır. Afanasi Nikitin Xürrəm adlı bir nəfərin köməyilə Suraxanıda işə girir və neft quyulannda ağır şəraitdə işləməli olur. Burada gön vedrələrdə quyulardan nefti çıxanb xüsusi çuxura tökür, sonra isə taxta qablarla tuluqlara doldurub arabalarda dəniz sahilinə gətirir, oradan da xarici ölkələrə göndərmək üçün gəmilərə yükləyirdilər

Qaynaqlardan bəllidir ki, sahibkarlar işlətdikləri adamlara çox az donluq verir, neftdən isə xeyli mənfəət əldə edirdilər. İş şəraiti ağır, iş günü isə uzun idi. Neft quyulannda çalışanlar yaxınlıqdakı qazmalarda yaşayır, gün çıxandan gün batana qədər işləyirdilər. Onlann istehsal alətləri gön vedrə, taxta qablar və s. ibarət idi. Əmək alətləri olmayanlann donluğundan bu alətlərin dəyəri tutulurdu. Belə qayda neft quyularında işləyənlərin vəziyyətini daha da ağırlaşdınrdı.

Afanasi Nikitin Bakıda işləyərkən lazımi vəsait topladı və Hindistan səfərinə hazırlaşdı. Bir dəfə o, işdən qayıdarkən, hələ Dərbənddə tanış olduğu Yaxşı Məhəmmədə rast gəlir. Türkmən gəmisi adlanan gəmidə onlar trana yollanırlar. Afanasi Nikitin 1469-cu ildə İranın Mazandaran vilayətinin Çapoqur şəhərində Yaxşı Məhəmməddən ayrılır və Hindistana yola düşür. 1472-ci ilə qədər orada qalır. Vətənə qayıdarkən yolüstü əvvəllər böyük təsərrüfat və ticarət əhəmiyyəti olan Sultaniyyə şəhərində dayanır. Bura dünyanın bütün ölkələrindən tacirlər gəlirdilər. XV əsrin ikinci yansında artıq Sultaniyyə öz əhəmiyyətini itirmişdi.

Rus dövlətinin beynəlxalq əhəmiyyətinin artdığı şəraitdə rus tacirləri Volqa və Həştərxan tatarlannm müqavimətlərinə baxmayaraq, Volqa ticarət yolunu daha intensiv mənimsəməyə çalışır. Xəzər dənizi vasitəsilə Qafqaz dərinliklərinə enməyin yolunu açırdılar. Bu vaxt Qafqaz tacirlərinin şimalla ticarət meyli güclənir. Nəticədə XV

əsrin ikinci yarısından e'tibarən ticarətin mərkəzi cənubdan şimala köçür, başqa sözlə, Şirvana, daha sonra isə Xəzərin sahillərindən Volqaya. Bu da Şimali Azerbaycanın şəhərlərində Xəzərin ticarət əhəmiyyətinin artmasına səbəb oldu.

Bir müddət Sultaniyyədə qaldıqdan sonra Afanasi Nikitin 1472-ci ildə Təbrizə gedir,, buradan isə artıq Türkiyə ile müharibəyə başlamış ağqoyunlulann hərbi qərargahına gəlir. Afanasi Nikitin on günə qədər burada qalır, Uzun Həsənlə görüşür. Ölkənin heyatı ilə yaxından tanış olur. Nəhayət, Təbrizdən yola düşən Afanasi Ərzincan-Trabzon-Feodosiya (Kafa) yolu ilə Kiyevə gəlir, Smolenskiyə gələrkən qəflətən vəfat edir. A.Nikitinin yoldaşları onun yol qeydlərini Moskvaya çatdırırlar. Böyük Moskva knyazı III İvanm göstərişilə həmin qeydlər XV əsrin dəyərli tarixi abidəsi kimi, «Üç dəniz arxasına səyahət» adı ilə salnaməyə daxil edilir. Burada Afanasi Nikitinin Tverdən Novqorod, Həştərxan, Dərbənd, Şamaxı, Bakı, Xorasan və Hindistana səyahəti, İran, Türkiyə yollan ilə Rusiyaya qayıtması ətraflı təsvir olunur.

1475-ci ildə III İvan ticarət və diplomatik münasibətləri genişləndirmək və Qızıl Orda xanı Əhmədə qarşı birgə mübarizə aparmaq barədə danışıqlar aparmaq üçün öz nümayəndəsi Markı Uzun Həsənin yanına göndərir. Lazımi tapşırığı müvəffəqiyyətlə yerinə yetirən Mark Venesiya səfiri Ambroco Kontarini və Uzun Həsənin səfirilə Moskvaya qayıdarkən Şamaxıda dayanır. O, burada Qızıl Orda xanı ilə mübarizə apaı-maq üçün yerli hakimlərlə uğurlu danışıqlar apardi.

1499-cu ilin yazında Fərrux Yaşarın nəvəsi Mahmud «dostluq və razılıq» haqqında müqavilə imzalamaq üçün öz elçisi Şahabəddini .Moskvaya III İvanın sarayına göndərdi.

Ağqoyunlu hakimləri də rus dövləti ilə əlaqə saxlamağa çalışırdılar. Ağqoyunlu padşahlarının sarayına rus dövlətinin elçiləri gəlirdi.

Beləliklə, XV əsrdə Şirvan və Moskva dövlətləri ticarət-diplomatik əlaqələri inkişaf etdirmək məqsədilə dəfələrlə qarşılıqlı nümayəndələr qəbul etmişlər. Rus tədqiqatçısı İ.t.Sreznevski XIX əsrin ortalarında yazırdı: «Böyük Moskva knyazlarının İran hökmdarlan ilə əlaqəsi, əlbəttə, Şamaxı ilə əlaqənin nəticəsi idi». M.V.Fexner yazırdı: «XV əsrdə rus dövlətinin Şərq ölkələri ilə əlaqəsində Şirvanşahlar dövləti aparıcı rol oynayırdı. Hər il Şirvanşahlann mərkəzi Şamaxıdan rus tacirlərinin çoxlu karvanı keçirdi. Dəniz karvanı isə Niyazabaddan keçərək köhnə karvan yolu ilə Şamaxıya daxil olur, buradan isə Azərbaycan şəhərlərinə və digər ölkələrə gedirdilən>.

Dövlət quruluşu, inzibatı idarələr, hərbi qüvvələr. Şirvanşahlar, Qaraqoyunlu və Ağqoyunlu dövlətləri XV əsrin en güclü dövlətləri idi. Qaraqoyunlu ve Ağqoyunlu dövlətlərinin erazisi Cənubi Azərbaycanı və Qarabağı, şimalda Kür çayına qədər Gəncə ve Şam- xoru əhatə edirdi. Hər üç dövlətin quruluşu əsaslı fərqlənmirdi. Fərq orasında idi ki, Qaraqoyunlu və Ağqoyunlu dövlət aparatında Azərbaycan tayfalarının hərbi feodal e'yanlan-baharlı və bayanduri tayfaları rəhbər rol oynayırdılar. Hər iki sülalənin dövlət başçıları «padşah», Ağqoyunlu padşahları isə «sultan» titulu daşıyırdılar. Şirvanda isə dövlət hakimiyyəti əhalinin feodal ə'yanlanna mənsub idi. Şirvan dövlətinin başçıları özlərini «şah» adlandınrdılar.

Hakim sülalənin üzvlərindən və ya məşhur əmirlərdən tə'yin olunan ordunun baş komandanı əmir-ül-ümərа (əmirlər əmiri) titulunu daşıyır, padşahdan sonra birinci şəxs sayılırdı. İkinci yerdə sədr-ə*zam dayanır, mövlana (ağa) ləqəbini daşıyırdı. O, ruhanilərə başçılıq edir, vəqf mülklərinə, onlardan vergilərin toplanmasına, mədrəsə və dini müəssisələrə başçılıq edir, məhkəmə işlərini nizamlayırdı.

Mərkəzi dövlət aparatında sonrakı yeri baş vəzir tuturdu. O, daxili inzibati və xarici işlərə nəzarət edirdi. Ondan sonra dövlət gəlirinin hesablanmasına ve maliyyə işlərinə baxan şahın möhrdarı sahibi- divan idi.

XV əsrdə Azerbaycan feodal dövlətinin torpaqları padşah və onun varisləri, əyalətlər isə sülalə üzvləri tərəfindən idarə olunurdu. Əyalət divanxanalarmın hər birində 300 nəfər mirzə çalışırdı. Nəhayət, tümən və nahiyə hakimləri vilayət canişininə tabe idilər.

Hərbi qüvvələr padşahın xüsusi və vilayət canişini qöşunlanndan ibarət idi. Hər ikisi Azərbaycanın feodal qoşun hissəsini təşkil edirdi. Komanda hey'əti feodal ə'yanlardan seçilirdi. Orduda ali rütbəli şəxs əmir adlanırdı. Vilayətlərdə əmirlərin sırasından böyük emirlər ayrılırdı. Bunların da ordunun rəhbər bey'ətində xüsusi yeri vardı. Kiçik rəislər qibtaül adlanırdılar. Bunlann hamısı feodal ə'yanlara mənsub idilər. Ordunun sıravi tərkibi silahlarla silahlanmış, zireh geymiş süvari lərden-puşandarlar, tirkətbend-oxatanlar, xidmətçilərdən ibarət idi. Sonuncu ikisi nökər adlanırdılar. Nökərlər sırasından Ağqoyunlu bayanduri tayfasına mənsub olan imtiyazlı qvardiya hissələri aynlır və dövlətin müdafiəsi işində mühüm rol oynayırdılar. Komanda hey'əti dəmir geyimlə yanaşı, zərif ipək paltar da geyirdi. Ağqoyunlu əsgərləri başlarına şiş papaq qoyardılar. Qoşunun sosial tərkibi rəngarəng idi; burada dərzi, çəkməçi, tacir, tibb işçisi və b. peşə sahibləri vardı.

Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin bütün hərbi təşkilati işləri köçəri adətilə sıx bağlı idi. Qoşun hissəsi ailə üzvləri ile birgə olurdu. Onların qadınlan çox qəşəng geyinir, at minir, onu məharətlə idarə edirdilər.

XV əsrdə Avropa dövlətləri və Osmanlı Türkiyəsinin orduları ilə müqayisədə Azərbaycan feodal dövlətlərində hərbi texnika zəif idi. Ambroco Kontarini yazırdı; «Ordugahda bir fut uzunluğunda və nazik dəmir ayaqlan ilə yerə dirənmiş bir neçə ağac sipərdən başqa hərbi alət görmədim. Bundan əlavə, müxtəlif vaxtlarda 50-yə qeder dəmir çullu at gördüm. Atların dəmir çullan üzərinə qaba ipək parçalar salınmışdı».

Qaynaqlann me'lumatına görə, ordu hissələri ox, nizə, qılınc, qalxan, toppuzla silahlanmışdılar. Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin hər birində imtiyazlı qvardiya dəstələrindən əlavə 100 min. Şirvanşahlar dövlətinin isə 60 minə qədər qoşunu vardı. A.Kontarini Uzun Həsənin xüsusi qvardiyasında 2 min piyada, 500 nəfərlik süvari dəstəsini gördüyünü iqrar edir.

Torpaq sahibliyi, vergilər və mükəlləfiyyətlər. Bu dövrdə Azərbaycanda feodal torpaq sahibliyi formalannda bə’zi dəyişikliklər əmələ gəldi. Dövlət (divani), sülalə (xassə) və xüsusi irs (mülk) və müsəlman ruhanilərinə mənsub veqf torpaqları da var idi.

Qaraqoyunlu və Ağqoyunlu qoşununun dayağı olan hərbi ə’yan- lara müvəqqəti istifadə olunan iqta əvəzinə irsən keçən soyurqal (bəxşiş) adlanan torpaq paylanırdı.

Azərbaycan kəndliləri və sənətkarları 40-dan çox vergi verir və mükəlləfiyyət icra edirdilər. Malcəhət adlanan məhsul vergisi rəiyyəti, xüsusilə var-yoxdan çıxarırdı. Sənətkarlar və tacirlər hələ monqol hakimlərinin qoyduğu tamğa və bac vergisi verirdilər. Əhalidən can vergisi alınırdı.

Kəndli hərəkatı. XV əsrin sonlarında kəndlilərin feodal asılılığı daha da artdı. Onlar siyasi hüquqlardan da məhrum edildilər. Bu da kəndlilərin feodallara qarşı mübarizəyə qalxmasına səbəb oldu. Belə kəndli çıxışlarından biri 1484-cü ilin yazında Maku şəhərinin cənubi- şərqində yerləşən Sofı kəndində baş verdi. Hərəkat genişlənərək Muxur, Qarazalı, Arpalıq, İncilər, Qarabulaq, Kosalar, Məlikli, Danabulaq kəndlərini də əhatə etdi. Hərəkata qaraqo>ıınlu Topal Əhməd başçılıq edirdi. Onun dəstələri feodal malikanələrini dağıdır, vergi toplayanları öldürürdülər.

Sefevilerin Ərdebil şeyxləri ağqoyunlulara qarşı mübarizə aparmaq üçün bu hərəkatdan istifadə etməyə çalışırdılar. Şeyx Heydər (1460-1488) öz nümayəndəsi Həsəni Topal Əhmədin yanına göndərdi. Lakin danışıqlar nəticəsiz qaldı. Bundan xəbər tutan Ağqoyunlu Yaqub padşah üsyanı yatırmaq üçün Maku ərazisinə böyük hərbi qüvvə göndərdi. 1484-cü ilin aprelində Qarabulaq kəndi yaxınlığında qəti döyüş oldu. Üsyançılar məğlub oldular. Topal Əhməd öldürüldü. Bu hərəkat yatırılsa da, sonralar Təbrizdə, Talışda, Şirvanda, Astara- badda kəndli hərəkatlan daha da genişləndi. Astarabad üsyançılarına Məhəmməd Saleh başçılıq edirdi. Lakin Şah Təhmasib onu tutub Təbriz minarəsindən atdırdı.

XV əsrin ikinci yansında və sonralar Azərbaycanda qeyri-mütəşəkkil, pərakəndə, aydın məqsədi olmayan kəndli çıxışlan nəticəsiz qalır, məğlubiyyətə uğrayırdı. Əlbəttə, bu üsyanlar məğlub edilsə də, tarixdə onlann müəyyən izi qalmışdır.

*xn fesU*

# AZƏRBAYCAN SƏFƏVİLƏR DÖVLƏTİ

## § 1. SƏFƏVİLƏRİN ƏRDƏBİL HAKİMLİYİ

Səfəviier sülaləsinin yüksəlişi monqol istilası dövrünə təsadüf edir. XIII yüzildə monqollann işğal etdikləri ərazidə kortəbii sufi L dərviş təriqəti (orden və ya məktəb) yarandı və tezliklə sənətkar və kəndlilər içərisində geniş yayıldı. XIII yüzilliyin sonunda belə dərviş ordenlərindən biri də Azərbaycanın Ərdəbil şəhərində yaranmışdı. Ordenin və şeyxlər sülaləsinin adı müqəddəs sayılan Şeyx Səfiəddin İshaq əl-Musəvi-əl-Ərdəbilinin (1252-1334) adı ilə bağlı idi.

Revayetə görə, Sefevilerin banisi Şeyx Səfiəddin iyirmi birinci nəsildən olan yeddinci şiə imamı Musa Kazımdan törəmədir, bu da bilavasitə Həzrət Əlinin və peyğəmbərin qızı Fatimənin iyirmi altıncı nəslidir.

Səfiəddinin ata-babası Ərdəbildə və onun ətrafında yaşayırdılar. Bütün Ərdəbil əhli şeyxin müridləri hesab olunur və onun göstərişlərinə əməl edirdilər. XIV əsrin ikinci yansı-XV əsrdə Ərdəbil təriqətinin təkcə Azərbaycanda deyil, Rumda (Kiçik Asiya), Farsda, traqda, Cilanda, Talışda çoxlu müridləri və ardıcıllan vardı. Sufı- dərviş şeyxlərinin xalqa tə'siri sultanlan və feodal hakimləri də bu təriqətə meyl etməyə, hətta müridlər sırasına daxil olmağa məcbyr edirdi. Beləliklə, XV əsrin Ucinci yansındaƏrdəbil feodal hakimliyinin əhəmiyyəti xeyli artdı. Səfəviier dünyəvi və ruhani işləri öz əllərində birləşdirdilər; onların çoxlu vəqf torpaqları və başqa sərvətləri vardı.

XIV- XV əsrlərdə Səfəviier ağır həyat keçirən xalqın ədalətli hökmdar haqqında baş tutmayan arzusunu təcəssüm etdirən şiəliyi Azərbaycanda, tranda. Kiçik Asiyada və Şərqin başqa yerlərində sür’etlə yaydılar və ideoloji təbliğat vasitəsinə çevirdilər. Səfəvi şeyxləri təbliğ edirdilər ki, şəriətin nəzərdə tutmadığı vergi və mükəlləfiyyətlərin

I Sufilik - təsəvvür, sirr, müəmma anlamlı dini-fəlsəfi te’Um idi.

ləğv olunması üçün hakimnyyət hökmdarların ağalığına son qoymaq lazımdır.

Səfəviler Azərbaycanda ve Şərq ölkələrində yaranmış ağır vəziyyətin səbəbini XIV-XV əsrlərdə bu yerlərdə hökm sürən sünnilikdə görür və sübut etməyə çalışırdılar ki, sünniliyin hakim mövqe tutduğu dövlətlər guya qeyri-qanuni dövlətlərdir, onlar xalqı ağır həyata sürükləyirlər. Məhz buna görə də sünnilik əleyhinə ümumxalq mübarizəsi aparılması və şiə tərəfdarlarının hakimiyyətə gəlməsi üçün şərait yaradılmalıdır. Əlbəttə, bu, onlann qüsurlu siyasəti idi.

«Açıq bid'ət şəklində» inkişaf edən inqilabi müxalifətdən Səfəviler böyük məharətlə istifadə edə bildilər. Şiəlik təriqətindən öz məqsədləri üçün istifadə etməyə çalışan Səfəviler müxtəlif və'dləriə xalq kütlələrini öz tərəflərinə çəkir ve hakimiyyət uğrunda mübarizəni genişləndirirdilər. Bu sahədə Səfevilerin müvəffəqiyyətinə səbəb Ərdebil şeyxlərinin başçılıq etdiyi hərəkatın ölkənin oturaq əhalisinin tələbini ifadə etməsi idi.

Bu mübarizələr Şeyx Sefiəddin İshaqdan sonra Səfevilerin görkəmli başçıları Şeyx Səfıeddin Musanın (1334-1392), Şeyx Xacə Əlinin (1392-1427), Şeyxşah adı ile məşhur olan Şeyx İbrahimin (1427-1447), Şeyx Cüneydin (1447-1460), Şeyx Heydərin (1460- 1488), Şeyx Sultanəlinin (1488-1495), nəhayət. Şah İsmayılın (1487- 1524) dövründə daha kəskin xarakter aldı.

İ.P.Petruşevski Səfevilerin tarixini dörd dövrə bölür. *Birinci diivr* - XIII əsrin sonlarından 1447-ci ile ğedər davam edir. Bu dövrdə Səfəviler şiəliyi yayır, xalq kütlələrinin antifeodal hərəkatına başçılıq etməyə çalışırlar. Lakin bu dövrdə Səfəvilərin hakimiyyəti Ərdəbil mahalından kənara çıxmır.

*İkinci* </r/vr-1447-1501-ci illər. Bu dövrdə Səfəviler özlərini müstəqil ruhani feodalları kimi təqdim edir ve Azərbaycanın siyasi həyatında mühüm rol oynayırlar.

*Üçüncü* </övr-1501-l587-ci illər. Həmin illərdə Səfəvilərin hakimiyyəti yaranır, möhkəmlənir ve onlar Azerbaycanın iqtisadi-siyasi ve mədəni heyatında mühüm rol oynayırlar.

*Dördüncü dövr* isə l587-1736-cı illəri əhatə edir. Bu dövrdə Səfəvi dövlətinin mərkəzi Təbrizdən İsfahana köçürülür. Dövlətin mahiyyəti dəyişilir. Bu bölgü əsasında belə nəticəyə gəlirik ki, Sefe- vilerin Ərdebil hakimiyyəti dövrü 1501-ci ile qədər, bütün Azərbaycanda-hakimiyyət dövrü isə 1736-cı ilə qədər götürülməlidir. Görün-

düyu kimi, Sefəvilerin hakimiyyəti Ərdebil dövründən başlanır. Həmin dövr ona görə maraq doğurur ki, bu kiçik ruhani feodal lığı 80 ildən artıq bir dövrdə Azərbaycan feodal dövlətlərinin istinadgahı olmaqla, onların birləşdirilməsində mühüm rol oynamışdır. Məhz Sətəvilərin Ərdəbil hakimiyyəti mərkəzləşmiş Azərbaycan dövləti* nin yaradılmasında rüşeym olmuşdur.

XV əsrin ortalarından e’tibaren Səfəvilər daha fəal siyasət yeritməyə başladılar. Onlar uğurlu yürüşlər keçirərək böyük qənimətlər əldə edir və tədricən Ərdəbildə öz mövqelərini möhkəmləndirirdilər. XV əsrin ikinci yarısında Muğanın bir hissəsi, Qarabağ və Azərbaycanın Talış dağlanna qədər olan şərq torpaqları onların tə*siri altına düşdü. Həm də Səfəvilərin ayrı-ayrı nümayəndələri (Şeyx Cüneyd, Şeyx Heydər) tarix səhnəsində ruhani başçısı kimi yox, siyasi xadim kimi çıxış edirdilər.

Bu vaxt Azərbaycanın cənubunda Qaraqoyunlu Cahanşah hökmranlıq edirdi. O, Şeyx Cüneydin qüvvətlənməsindən ehtiyatlandığı üçün dövlətin ərazisini tərk etməyi ondan tələb etdi. l449-cu ildə Cüneyd Ərdebili tərk etdi, Misiri, Suriyanı, Mesopotamiyanı gəzib-dolaşdıqdan sonra Diyarbəkrə qayıtdı və burada Qaraqoyunlu dövlətinin ı-əqibi Uzun Həsən tərəfindən səmimi qarşılandı və onunla qohumluq əlaqəsi yaratdı.^ O, dörd ilə yaxın Diyarbəkrdə qaldı. Bu müddətdə Kiçik Asiyada-Kilikiyada qonşu türk tayfalan ile əlaqəsini möhkəmləndirdi və müridlərinin sayını xeyli artırdı. Ustadı, şamlı, rumlu, əfşar, qacar, təkəli, zülqədər, varsağ, bayat, qaramanh, baharlı, alpout, əraşli, qazaxlı türkdilli tayfaları, Qaradağ, Əhər, Talış sufiləri de Səfevilərə qoşuldular. Bundan əlavə, Cüneyd Türkiyədə, Suriyanın şimalında, Maraş, Antak, Kilis bölgələrində və Mesopotamiyada ətrafına çoxlu mürid topladı.

Cüneyd Ərdəbildən gedəndən sonra hakimiyyəti Şeyx Cəfər idarə edirdi. 1459-cıı ildə Cüneyd bir qrup müridlə doğma Ərdəbile qayıtmaq istədi. Lakin Şeyx İbrahimin oğlu Şeyx Cəfər onu Ərdəbilə buraxmadı.^ l460-cı il martın 3-də Cüneyd buradan Dağıstana və Şirvana yürüş etdi. Şirvanşah l Xəlilullah vəziyyətin ağırlığını görə-

2 Uzun Həsənin bacısı Xedicəbəyimlə evləndi. Maraqlıdır ki, Cüneydlə Uzun Həsənin təriqət ayrılığı onların qohumluq əlaqələrinə mane olmadı. Bu onu göstərir ki, Cüneyd və onun xələfləri siyasi xadimlər idilər. Onlar şiəlikdən siyasi məqsədə çatmaqda bir vasitə kimi istifadə edirdilər.

^ Şeyx Cüneyd şiəliyi. Şeyx Cəfər isə sünniliyi təbliğ edirdi.

rek Cahanşahla ittifaqa girdi və. Derbend yaxınlığında Sefəvi qoşununun qabağını kəsdi. Samur çayı sahilində tərəflər arasında böyük toqquşma oldu. Döyüş Səfəv ilərin məğlubiyyəti və Şeyx Cüneydin ölümü ilə nəticələndi. Səfəvi müridlərinin bir hissəsi Ərdəbilə qayıtdı.

Cüneydin oğlu Şeyx Heydər (1460-1488) atasının siyasətini davam etdirirdi. Onun vaxtında Səfəvilərin Ərdəbil hakimiyyətinin sərhədi genişləndi. O, dayısı Uzun Həsənin qızı Aləmşah xatunla evləndi YƏ iatasımn ağqoyunlularla yaratdığı əlaqəni və qohumluq münasibətlərini daha da möhkəmləndirdi. Şeyx Heydər Ağqoyunlu Uzun Həsənin düşərgəsində olarkən, 1468-1469-cu illərdə Cahanşah və onup nıüttəfıqi Teyrauri Əbu Səidlə ağqoyunlularan döyüşlərinin şahidi oldu. Cal^aijişahıp ölümqndən və Qaraqoyunlu dövlətinin süqutundan sonra 1470-ci |lin əvvəllərində Uzun Həsən Ərdəbilə gəldi və Şeyx Cəfəri qəyywa saxjamaqla Şçyx Heydəri təntenəli surətdə ordenin irsi taxtında oturtdu.^

Şeyx Heydərin vaxtında qazı, sufi dəstələri dürüst hərbi qaydada təşkil olundular. Əvvəlki türkmən başhqlan əvəzinə indi on iki imamın (müqəddəs şiələrin) şərəfmə başlanna on iki zolaqlı qınnızı çalma qoyurdular. Ona görə də onlara «qızılbaşlar» deyirdilər. Bu tədbirin həyata keçirilməsi tezliklə Şeyx Heydəri məşhurlaşdırdı. Vene- siyalı Katerino Zeno yazır ki, müasirləri ona «qurban olduğum, sadağa olduğum, pirim, mürşüdüm» - deyə müraciət edirdilər. Rum, Qaraca-dağ və Talış müridləri ona allah kimi baxır, namazı, kütləvi duam (ibadəti) rədd edir, şeyxi özlərinin qiblələri, fövqəltəbii xilqət, varlıq hesab edirdilər.

Müasirlərinin mə'lumatına görə, Şeyx Heydər son dərəcə cəsur idi. O, xeyli qoşun və silah topladıqda, nominal asılı olduğu qaynı- Uzun Həsənin oğlu Yaqub padşahla razılığa gəldikdən sonra 1483-cü ildə Dağıstana və Şirvana yürüş etdi. Qızılbaşlar bu yürüşdən xeyli qənimətlə və əsirlə geri qayıtdılar. 1487-ci ildə ikinci dəfə yürüş etdilər. Bu dəfə altı min nəfər əsir gətirdilər. Şeyx Heydərin uğurlu iki yürüşü qonşu dövlətləri, həmçinin Sultan Yaqubu da qorxuya saldı. O, Səfəvilərin güclənməsindən ehtiyat etdiyinə görə. Heydərin Şirvana sonuncu yürüşü zamanı (1488) Şirvanşah Fərrux Yaşara kömək etdi. Öz sərkərdəsi Süleyman bəy Bicanoğlunun komandanlığı altında qı-

^ Beləliklə, 144S^1470-ci illərdə Şeyx Cəfər Ərdəbtlin hakimi olmuş-dur.

zılbaşlarla döyüşə qoşun göndərdi. Birləşmiş qoşunla toqquşmanın labüd olduğunu görən şeyx cənuba - Tabasarana döndü. 1488-ci il iyunun 9-da burada, Şahdağın ətəyində Şirvanşahın birləşmiş qüvvələri ilə qızılbaşlar arasında qanlı döyüş baş verdi. Hər iki tərəf xeyli itki verdi. Şeyx Heydər öldürüldü.

Beləliklə, XV əsrin ikinci yansmda Səfəvilərin öz hakimiyyətlərini Şirvana yaymaq cəhdləri baş tutmadı. Səfevilərin Ərdəbil hakimiyyəti zəiflədi. Yaqub padşah Ərdəbili və Səfəvilərin başqa torpaqlarını işğal etdi. Heydərin oğlanlarını-Sultanəlini, İb^himi və hələ iki yaşı tamam olmamış İsmayılı əsir aldı.^ Şərq qaynaqlarının mə'luma- tına görə, həmin uşaqlar Şiraz yaxınlığında İstexr qalasına salınmış və dörd il yanm, Ağqoyunlu Rüstəm hakimiyyətə gələnə qədər (1492) orada həbsxanada qalmışdılar. Lakin Avropa səyyahlarının qeydlərinə görə. Heydərin uşaqları Van gölü arasındakı Axtamar adlı monastırda saxlanırmışlar.

XV əsrin 90-cı illərində Ağqoyunlu dövlətinin daxili vəziyyəti gərgin idi. Yaqub padşahın ölümündən sonra (1490) hərbi tayfalar arasında müharibələr dövrü başlandı. Yaqubun oğlu Baysunqurun vaxtında (1490-1493) siyasi vəziyyət daha da pisləşdi. Az sonra o. Uzun Həsənin nəvəsi Maqsud bəyin oğlu Rüstəm tərəfindən hakimiyyətdən devrildi (1493-1497). Baysunqur Şirvana - dayısı Fərrux Yaşarın yanına qaçdı. Şirvanşah bacısı oğlunun Təbrizdə hakimiyyətini bərpa etməyə çalışdı. Bundan ehtiyat edən Rüstəm bayanduri əmirlərinin yığıncağını keçirdi. Yığıncaqda hamı Şeyx Heydərin uşaqlarının məhbəsdən azad olunmalarını tələb etdi. Rüstəm şahzadələri həbsdən azad etdirib Sultanəlini Ərdəbilə qaytardı və onu müstəqil hakim kimi tanıdı. Həmçinin Sultanəlini inandırdı ki, atası Şeyx Heydərin intiqamım almaq məqamı gəlib çatmışdır. Beləliklə, 1498- ci ilin yazında Baysunqurun qüvvələrini qarşılamağa gedən Sultanəli və Rüstəm Mirzənin əmiri Ayba Sultanın^ birləşmiş qüvvələri Kürün cənub sahilində yerləşdilər. Lakin heç bir tərəf Kürü keçməyə cəsarət etmədi. Belə bir vaxtda İsfahan hakimi Kosa Hacı Bayanduri Rüstəm padşaha qarşı qiyam qaldırdı və Baysunqurun adına xütbə oxutdu. Bundan istifadə edən Baysunqur Şirvan qoşununu ikinci dəfə hərəkətə gətirdi. Rüstəm iki od arasında qaldığını görüb təhlükəni aradan

^ Onlar Yaqubun bacısı oğlanlan idilər.
^ Onu Əbih Sultan da çağırırdılar.

qaldınnaq üçün yenə də Sultanəliyə müraciət etdi. Suİtanəli Əmir Qara Piri bəy Qacarı İsfahana, Kosa Hacı ilə mübarizəyə göndərdi, özü isə əsas qüvvə ilə - Hüseyn boy Ləl Şamlu və Qaramanh Rüstəm bəy ilə Baysunqura qarşı döyüşə girdi. Əhər-Şekin yaxınlığındakı bu döyüş ağqoyunluların qələbəsi ilə nəticələndi. Baysunqur öldürüldü.

Beləliklə, Suİtanəli qələbə ilə Təbrizə qayıtdı. Rüstəm isə onu şahzadələri, İbrahim və İsmayılla birlikdə Ərdebilə göndərdi. Anonim müəllitln me'lumatına görə, bundan sonra hər tərəfdən Ərdəbilə Səfəvi tərəfdarlarının axışması Rüstəm padşahı vahiməyə saldı. Ona görə də o. Heydərin uşaqlarını Ərdəbildən Tebrize-öz qərargahına gətirdi və onların üzərinə ciddi nəzarət qoydu. Rüstəm padşah qardaşlardan yaxa qurtamağı qərara aldı. Lakin bu qəsdin üstü açıldı. Sul- tnnəli qardaşları və yaxın adamlan ile birlikdə Təbrizi tərk edərək Ərdəbilə doğru irəlilədi. Bunu bilən Rüstəm onların arxasınca 5 min nəfər süvari göndərdi. Döyüş başlanana qədər (1494) Suİtanəli sufi əmirlərinin yığıncağını çağırdı. İsmayılı «Səfeviyyə» ordeninin başçısı kimi öz xələfi tə'yin etdi. Qardaşlarını Ərdəbilə yola salandan sonra düşmən tərəfə döndü. Ərdəbil yaxınlığında Şəməsi adlanan yerdə Ağqoyunlu Rüstəm padşahın qoşunu ilə Sultanəlinin silahdaşları arasında döyüş oldu. Bu döyüşdə qızılbaşlar məğlub oldular. Suİtanəli həlak oldu^. Ağqoyunlular yenidən Ərdəbili və Səfəvilərin digər mülklərini zəbt etdilər (1494-1495). Ağqoyunlu sərkərdəsi Ayba Sultan Ərdəbilə daxil olan kimi Səfəvilərin xeyli hissəsini qılıncdan keçirdi. Lakin qızılbaş tərəfdarları şahzadələri, xüsusən İsmayılı xilas edə bildilər. Onu üç gün Ərdəbildə Səfəvi müridi Qazi Əhməd Kakulinin yanında saxladılar, sonra Xancan adlı bir qadının himayəsinə verdilər. Bir aydan sonra Şeyx Cüneydin qızı, İsmayılın bibisi Paşa xatun onu Zülqədər tayfasından olan Uba-i Cərrah adlı həkimin yanına gətirdi. Ayba Sultan Rüstəm padşahın əmrilə İsmayılı ələ keçirmək üçün Ərdəbili məhəllə-məhəllə, evbəev gəzdi. Uba vaziyyəti belə gördükdə ehtiyatla İsmayılı Ərdəbil məscidinə gətirərək Allahvermiş ağa adlı birisinin sərdabəsində yerləşdirdi və oğlunun sağlığı barədə tez-tez Aləmşah bəyimə məTumat verdi. Az sonra Uba yenə de İsmayılın yerini dəyişməli oldu. Bu məsciddə Ayba Sultanla döyüşdə yaralanmış bir nəfər qızılbaş da gizlənmişdi. O, kömək üçün Ubaya müraciət etdi. Uba İsmayıl ile mürid arasında əlaqə yaratdı.

^ Sattanəlinin döyüş vaxtı çayda boğulduğunu qeyd edirdilər.

Hemin qızılbaş bildirdi ki, Şəməsi kəndi yaxınlığındakı döyüşdə qaçmaqla xilas olmuş, Baqri dağlarında ve Ərdəbil ətrafında gizlənmiş 80 nəfər sufi ona «xidmət etmək üçün məqam axtarırlar». Ubamn məsləhətilə mürid Ərdəbili tərk edib hemin dağa gəldi ve İsmayıl haqqında sağ qalmış qızılbaş Rüstəm bəy Qaramanlıya mə’lumat verdi. Rüstəm bəy öz adamları ilə gecəyarısı İsmayılı Karkan kəndinə aparıb Xətib Fərruxzadənin evində gizlətdi. Mənsur bəy Qıpçaq, Hüseyn bəy Lələ ve başqa sufilər gənc İsmayılın həyatını xilas etmək barədə yığıncaq keçirdilər və Şeyx Heydərin uşaqlannı İsmayılın bibisi Paşa Xatunun eri Rəşt hakimi Əmir İshaqın evinə aparmağı qərara aldılar. Du səfərdə İsmayılı 80 nəfər qızılbaşla Rüstəm bəy Qaramanh. Əhməd bəy ve onun qardaşı Məhəmməd bəy Türkmən müşayiət edildilər. Əvvəlcə onlar Əmir Müzəffərin yanına gəldilər. Ayba Sultan bunu bilən kimi, qasid göndərib Heydərin uşaqlarını tələb etdi. Əmir Müzəffər bu məzmunda məktubu Xalxal hakimi Cəyir bəy Pornakdan da aldı. Əmir Müzəffər onun təklifini rədd etdi, qardaşları Kəskere göndərdi və onlan yerli hakim Əmir Siyavuşa tapşırdı. Sonuncu onları öz evinə qəbul etdi. İsmayılın kəcavəsi dördüncü gün Rəştə çatdı. Rəşt hakiminin də’vətinin əksinə olaraq İsmayılın tərəfdarları onu «Ağ məscid»də yerləşdirməyi lazım bildilər. Səfəvi müridləri Rəştin İsmayıl üçün təhlükəsiz olmadığını nəzərə alaraq onun Lahicana-Gilanın Biyepiş vilayətinin hakimi Gərgiyə Mirzə Əlinin sarayına getməsinə şərait yaratdılar. Lahicanda İsmayıl və onu müşayiət edənlər rəğbətlə qarşılandılar və Kay Əfhıdin mədrəsəsi qarşısında yerləşdirildilər. Gərgiyə Mirzə Əli öz fəxri qonağına əlindən gələn hörməti etdi. Ərəb və fars dilini. Qur’anı oxumağı öyrənmək üçün görkəmli alim Şəmsəddin Lahici İsmayıla və qardaşına məsləhətçi tə’yin edildi.

Ağqoyunlu Rüstəm padşah isə İsmayılı ələ keçinək ümidini itinnəmişdi. İsmayıl Gilana gedəndən az sonra Ayba Sultan Ubanı ələ keçirib, ona işgəncə verərək İsmayılın Ərdəbilde yerini öyrənməyə çalışırdı. Rüstəm padşahın əmri ilə Uba Təbrizin bazar meydanında asıldı. İsmayılın qaçmasına kömək edən Məhəmməd bəyin və onun qardaşı Əhməd bəyin əşyaları müsadirə edildi. Rüstəm padşah bir neçə dəfə Gərgiyə Mirzə Əliyə hədələyici məktub göndərib İsmayılı tələb etdi. O isə İsmayılı zənbilə qoyub sıx yarpaqlı ağacdan asdı və onun Gilan torpağında olmaması barədə 300 nəfər atlı ilə gəlmiş Qasım bəyə Qur’ana and içdi.

ismayıl 6 ü Lahicanda qaldı. O, həddi-büluğa çatana qeder bütün məsələləri qızılbaş emirleri hell edirdilər. Onlann hesablarına göre, Ağqoyunlu şahzadelerinin ara müharibeleri ve dövlətinin tənəzzülü İsmayılın zəfərini te’min etməli idi. Rumdan, Qaracadağdam Əhərdən İsmayılın yanına çoxlu tərəfdarlar gəlir, onunla həmrə’y olduqlanıı bildirirdilər.

Azərbaycan XV əsrin sonunda. Feodal pərakəndəliyi ölkənin ayn-ayn hissələri arasında təsərrüfat əlaqələrinin möhkəmlənməsinə mane olur və məhsuldar qüvvələrin inkişafını ləngidirdi. Ağqoyunlu şahzadələri arasında baş verən ara müharibələri, feodal hakimlərin özbaşınalığınm artması kənd təsərrüfatı və sənətkarlığının tənəzzülünə səbəb oldu, şəhər və kənd əməkçilərinin vəziyyətini ağırlaşdırdı. Belə bir vəziyyət ticarətin de inkişafına mane olur, quldurlar tez-tez mal daşıyan karvanlara basqınlar edirdilər. Feodal pərakəndəliyi, həmçinin yadellilərə qarşı mübarizədə xalqın birliyinin yaranmasına mane olurdu. Odur ki, Azərbaycanı siyasi cəhətdən birləşdirmək zərurəti meydana çıxmışdı. Bu birləşmə Azərbaycan əhalisinin geniş təbəqələrinin mənafeyinə uyğun gəlirdi. Yalnız belə bir dövlət haki- ;.:iyyəti yaratmaqla feodal pərakəndəliyini aradan qaldırıb Azərbaycanın müstəqilliyini qorumaq olardı.

Səfəvilər kütlələri öz tərəflərinə çəkmək üçün ədalətli qaydalar və’d edirdilər. Onlara inanan xalq kütlələri şiəlik herəkatlanna özlərinin xilaskarı kimi baxır və Səfəvilərin hakimiyyət uğrunda mübarizəsinə rəğbət bəsləyirlər.

İsmayılm Ərzıncan səfəri. I499-cu ilin avqustunda 13 yaşlı İsmayıl Hüseyn bəy Lələ Şamlu, Əbdüleli bəy Dedə (Dədə bəy), Hadim bəy Hülafə, Rüstəm bəy Qaramanlı, Bayram bəy Qaramanlı, İlyas bəy Ayqutoğlu Xunuslu və Qara Piri bəy Qacann müşayiətilə Lahıcam tərk edib doğma Ərdəbilə yola düşdü. Deyləmdən Taroma gəldilər. Burada rum və şam tayfalarından onlara qoşuldular. Taromda qoşuna baxış keçirildi, onun sayı 1500 nəfərə çatırdı. İsmayıl Qızılü- zən çayı üzərində məskunlaşan şamlu tayfasını qızılbaşlara cəlb etmək məqsədilə Cilandan birbaşa Ərdəbilə yox. Xalxalın cənub və cənub-qərbini dolaşaraq Ərdəbilə daxil oldu.

İsmayıl öz dəstəsi ile 1499-1500-cü ilin qışını Ərçivanda-Xəzər denizi sahilində, Astara rayonunda keçirtdi. Bu ləngimə ona görə idi ki. Azərbaycandakı Səfəvi tayfalan onun dəstəsinə qoşulsunlar. Qızıl

baş başçılannın yığıncağında Kiçik Asiyaya-Ərzincana, Suriyaya getmək qərara alındı. Çünki burada İsmayılın yaxın adamları onun bayrağı altında birleşə bilərdilər. 1500-cü ilin yazında İsmayıl Ərçivandan Göyçə gölünün cənub sahilinə gəldi. İbrahim Aminiıı me'lumatına görə, bu vilayətdən İsmayılın qoşununda ərəşli və zülqederli tayfaları vardı.

Çuxur-Se'di aşaraq İsmayıl Doqquz Ulan adlı yerə gəldi. Burada Qaraca İlyas bir qrup Anadolu qızılbaşları ilə onun dəstəsinə birləşdi. Daha sonra o ustadı tayfasının sakin olduğu Mingölə gəldi. Sonra isə Kağızmandan, Sarıqaya yaylağından aşaraq Ərzincana gəldi. Burada İsmayılın bayrağı altına tayfaların 7 min nəfər qazisi-şamlu, ustadı, rumlu, təkəli, zülqəder, əfşar, qacar, vasaq, həmçinin Qaradağın sufiləri birləşdilər.

Qaynaqlann mə'lumatına görə, Ərzincanda keçirilmiş müşavirədə əsas zərbəni Səfəvi lərin düşməni olan Fərrux Yaşara vurmaq qərara alındı.

Şirvanşah Fərrux Yaşarla döyüş. Şirvana yürüş etməzdən əvvəl qızılbaşlar Gürcüstanın Axalsixi hakimi III Kvarkvare və Ermənistanın Mantaş qalasına hücum edib xeyli, qənimət əldə etdilər.

İsmayıl birinci növbədə Şirvanşahlar dövlətinə zərbə vumıaq istəyirdi; çünki Təbrizə hücum etməklə dərhal üç düşmenlə-Ağqoyunlu Əlvəld Mirzə və Muradla, habelə onları müdafiə edən Şirvanşah Fərrux Yaşarla toqquşmalı olardı. Belə olduqda qızılbaşlann qələbəsi şübhə altında qalırdı. Eyni zamanda səfəvilər ara müharibalərindən istifadə edib, şirvanlıları hissə-hissə əzmək fikrində idilər. Mövcud vəziyyətdə dini təriqət ədavətlərinə de az əhəmiyyət verilmirdi. Şirvan hakimi Fərrux Yasar qızılbaş şiələrin gözündə Şeyx Cüneyd və Şeyx Heydəri öldürən «Yezid» idi. həm də Şirvanın ələ keçirilməsi Səfəviləre öz düşmənlərilə uğurlu mübarizə üçün maddi imkanlar venniş olardı.

1500-cü ilin payızında qızılbaş qoşunu Kürü keçib, Şirvan ərazisinə daxil oldu. Fərrux Yasar Şamaxını müdafiə etmekdo acizlik göstərərək Qəbələyə qaçdı. Qızılbaşlar müqavimətə rast gəlmədən Şirvanın paytaxtını tutdular. Fərrux Yaşarla İsmayılın qoşunu arasında döyüş ISOO-cü ilin sonunda, Gülüstan qalasından bir qədər aralı Cabanı adlanan yerdə baş verdi. Döyüşdə Şirvanşahlar məğlub oldular, Şahgəldi ağa Fərrux Yaşarın başını kəsib İsmayıla gətirdi. Qızılbaşlar Şirvanşahların böyük sərvətini ələ keçirdilər.

Fərrux Yasann döyüşdən salamat çıxan oğlu İbrahim (Şeyx-şah) Xəzər sahilindəki Şəhrin^ adlı yerə gəlib dağınıq qoşunu toplamağa başlayır. Lakin Hadim bəy Hülafənin (hülafə bəy) gəlişini eşidib gəmi ilə Gilana adlayır.

İsmayılın Bakını tutması. XV əsrdə Bakı Azərbaycanın iri ticarət və sənətkarlıq mərkəzi, habelə Xəzər sahilində mühüm liman idi. Şamaxı ilə yanaşı o Şirvan hakimlərinin iqamətgahı idi. Xəzinə və böyük dəyərli Şirvanşahlar sarayı burada yerləşirdi. İbrahim Amini yazır kı. qalanın dörd tərəfdən xarici aləmlə əlaqəsi var idi. Onların üçü dəni/ə. bili isə quruya çıxırdı. Qalanı həm də dərin xəndəklər miidafıo edirdi.

Bakının sakinləri çoxdan idi ki. Şirvanşahlara bağlı idilər. Məhz onların köməyilə şəhər lazımi iqtisadi inkişaf zirvəsinə qalxmışdı. Cabanı döyüşündən sonra İsmayıl Muğana Mahmudabada (Salyan yaxınlığında) qışlamağa getdi. Burada o xəbər tutdu ki, Bakı sakinləri xərac verməkdən imtina edir və qızılbaşlara inadlı müqavimət göstərirlər. 1501-ci ilin yazında İsmayıl Bakı qalasını ələ keçirmək üçün öz sərkərdələrindən Məhəmməd bəy Ustadı və İlyas bəy Xunuslunu ora göndərdi. Onlar qalanın təslim olmasını tələb etdilər. Fərrux Yasann oğlu Qazı bəy Şirvanın dağlıq yerlərində səfəvilərə qarşı müqaviməti davam etdirdiyi üçün qalanı onun arvadı müdafiə edirdi. O, isə verilən təklifi qəti surətdə rədd etdi. Həsən bəy Rumlunun mə’lumatına görə, hətta o, qalanın təslim olması təklifini gətirən Səfəvi elçisinin və şəhəri təslim etməyi məsləhət görən Bakı darğası Əbdül Fəttahın e'dam edilməsini əmr etdi.

Bakılıların inadlı müqavimətini və sərkərdələrinin uğursuz cəhdlərini görən İsmayıl 1501-ci ilin yazında ən yaxşı sərkərdəsi Hülafə bəyi Bakıya göndərdi. Mühasirənin sonunda isə özü gəldi. İsmayılın əmrilə qızılbaşlar qala divarları altından lağım atıb bürclərdən birini uçurduqdan sonra şəhərə daxil oldular. Qızılbaşlar şəhəri talan edib. Şirvanşahların xəzinəsini ələ keçirdilər. Bakı əhalisinin kütləvi qırğınından ehtiyat edən 70 nəfər şəhər ə’yanı əllərinə Qur’an götürərək İsmayılın yanına gəlib şəhər əhalisini bağışlamağı xahiş etdilər. İsmayılın göstərişilə talan və qırğın dayandırıldı. Gələnlər, qazı və şeyxlər şəhər darvazalannı qızılbaşların üzünə açdılar. Hadim bəyin göstərişi ilə Şeyx Cüneydin ölümünə səbəb olan Fərrux Yasann atası *

* Şəhrin - yeni şeher.

I Xəlilullahm qəbri açılıb sümükləri yandırıldı. Şirvan sərdabəsi dağıdıldı. Bakı istila edildikdən sonra Şirvan qızılbaşlardan asılı vəziyyətə düşdü. Lakin bu asılılıq hələ tam deyildi.

Cabanı döyüşündə İsmayıl tərəfindən darmadağın edilmiş Şirvan qoşununun bir hissəsi Gülüstan. Buğurd və Surxab qalalannda müqavimət gösterməyi davam etdirirdilər. Ona görə də İsmayıl Bakını tutduqdan sonra Gülüstan qalasına doğru irəlilədi. Qalaya sığınanlar onun möhkəmliyinə və ərzağın bolluğuna güvənərək müdafiə olunurdular. Bunu görən İsmayıl qoşunu Gülüstandan geri çəkdi. Əslində isə o, Ağqoyunlu Əlvəndin Təbrizdən güclü qüvvə ile yürüşə başlaması barədə həyəcanlı xəbər almışdı. Anonim tarixçi yazır ki, İsmayıl «dövlətin sütunlannı»-Hüseyn bəy Lələni, Məhəmməd bəy Ustac- lını, Əbdi bəy Şamlunu, Hadim bəy Hülafəni, Qara Piri bəy Qacarı yanına çağırıb soruşdu; «Siz Azərbaycan taxtını, yoxsa Gülüstan qalasını istəyirsiniz?» Onlar «Azərbaycanı istəyirik»,- deyə cavab verdilər. Aydındır ki, İsmayıl və qızılbaş ə’yanlan Təbriz taxtını ağqoyun- lulardan geri alıb Azərbaycanda öz hakimiyyətlərini qurmağı başlıca vəzifə hesab edirdilər.

## § 2. AZƏRBAYCAN SƏFƏVİLƏR DÖVLƏTİNİN YARANMASI

Ağqoyunlu Əlvəndin darmadaqın edilməsi. Şirvandakı qələbədən sonra İsmayıl qısa vaxt ərzində məşhurlaşdı. Əlvənd Mirzənin çoxlu vassalı və yaxın adamları onu tərk edib qızılbaşlara qoşuldular. Şirvanşahın şəxsində öz sadiq müttəfiqini itirmiş Əlvənd Mirzə İsmayılın Kürü keçməsinə mane olmaq üçün sərkərdəsi Qaraca Mahmudu Gəncəyə və Qarabağa, Qarçıqay Məhəmmədi Ərdəbilə. Həsən bəy Şükür oğlunu isə Qaradağa göndərdi. Lakin Əlvəndin hücumundan xəbər tutan İsmayıl Ağqoyunlu qoşunu Kürün şimal sahilinə çatana qədər Cuş Mirzəyə Cavada-Kür ilə Arazın qovuşduğu yerə getməyi, tə*cili ponton körpü düzəldib əsas qüvvə ilə Əlvəndə zərbə endirməyi tapşırdı. İsmayıl Kürü keçib Qara Piri bəy Qacarı geriyə - Naxçıvana çəkilən. Həsən bəy Şükür oğluna qarşı göndərdi. Qarçıqay Məhəmməd qızılbaşların Kürü keçməsini eşidən kimi Qarabağa yollandı. Qaraca Mahmudla birləşdi və Naxçıvana doğru çəkilən Əlvəndin yanına gəldi.

İsmayıl əvvəlcə Qara Piri bəy Qacan (Toz qoparan) və İlyas bəy Halvaçıoğlunu Naxçıvana yola saldı, sonra isə özü gəldi. Əlüstü qızıl

başlara qarşı döyüşə göndərilən Osman bəy Mosullunun komandan* lığı altında fəaliyyət göstərən Ağqoyunlu dəstəsini əzdi. Əlvənd bu məğlubiyyəti eşitdikdə kədərləndi və İsmayıla məktub yazıb Şirvana qayıtmasını tələb etdi. Lakin rədd cavabı aldı. Belə olduqda o, öz qoşunu ilə Naxçıvanın şimal-qərbinə doğru irəliləyib Şərur adlanan yerdə düşərgə saldı və döyüşə hazırlaşdı. İsmayıl Arazın cənub sahili boyu irəliləyib Naxçıvan rayonu erazisində Arazı keçib rəqibinin qabağını kəsdi. Özü mərkəzdə dayandı, sağ və sol cinahda isə öz sərkərdələrini yerləşdirdi. 1501-ci ilin ortalarında burada İsmayılla Əlvənd Mirzə arasında həlledici döyüş oldu. Həsən bəy Rumlunun mə'lumatına görə. Əlvənd Mirzənin 30 minlik qoşunu olduğu halda. İsmayılın qoşununun sayı 7 min nəfərə çatırdı.

Ağqoyunlu Əlvənd öz döyüşçülərinin gücünə inanmırdı. Döyüş meydanını tərk etməmələri üçün onlan hər tərəfdən bir-birinə zəncirlə bağlanmış dəvələrlə əhatə etməyi əmr etdi. Özü də mərkəzdə dayandı, sərkərdələri isə cinahlarda yerləşdirdi. Lakin bu tədbir kömək etmədi. Bu döyüşdə İsmayıl əsl sərkərdəlik məharəti nümayiş etdirdi, Qarçıqay bəyi və başqalarını qılıncdan keçirdi. Qızılbaşlar böyük qənimətlər - ilxı, xeyli dəvə, qızıl və gümüş əşyalar, qiymətli çadırlar və xalılar ələ keçirdilər. Həmin qələbədən dərhal sonra, 1501-ci ilin payızında İsmayıl (1501-1524) təntənə ilə Təbrizə daxil oldu və özünü şah e’lan etdi.

Beləliklə, paytaxt Təbriz olmaqla Səfəvilər dövlətinin əsası qoyuldu. Azərbaycan Səfəvilər dövlətinin özəyi idi.

Səfəvilər dövləti sosial-iqtisadi cəhətdən daha çox inkişaf etmiş Azərbaycan ərazisində yarandı. Bu dövlətin iqtisadi əsasını zəngin Azerbaycan vilayətləri təşkil edirdilər. Bunlann hesabına Sefəvilərin hakim dairələri öz dövlətlərinin qüdrətini artırmaq üçün maddi vəsait toplayırdılar.

Bu dövlətdə əhalinin etnik və mədəni birliyə malik çoxluğunu Azərbaycan türkləri təşkil edirdilər. Azerbaycan etnik ünsürü dövlətin siyasi heyatında rəhbər rol oynayırdı. Hərbi komandanlıq maliyyə idarələri, vilayətlərin idarə olunması demək olar ki, bütün saray vəzifələri Azərbaycan ə’yanlarının elində idi. XVI əsrin ortalarına yaxın dövlətin 74 əmirindən 69-u Azerbaycan türkü idi. Ordu da, əsasən, Azərbaycan tayfalarından təşkil olunurdu. Şahın sarayında, qoşun içərisində və qismən diplomatik yazışmada Azərbaycan türkcəsi işlədilirdi.

Ağqoyunlu Muradın məğlubiyyəti, Azərbaycan Səfəvilər dövlətinin genişlənməsi. Səfəvilər dövlətinin yaranması Azərbaycan tarixində mühüm hadisə idi. Bu, ölkənin təsərrüfat həyatının inkişafı üçün şərait yaratdı, yadellilərə qarşı xalqın mübarizəsini asanlaşdırdı. Lakin Şah İsmayıl yaranmış vəziyyətlə əlaqədar təkcə Azərbaycanı birləşdirməklə kifayətlənə bilməzdi.

Ağqoyunlu Əlvənd Mirzənin məğlubiyyətindən sonra bir çox feodal hakimlər siyasi həyatda müstəqillik və hakimiyyət iddiası ilə çıxış edirdilər. Səfəvilər dövləti üçün təhlükəli düşmən olan Ağqoyunlu Murad padşah Həmədanda qoşunun qalıqlanm toplayaraq qızılbaşlara zərbə endirməyə hazırlaşırdı.

Qızılbaşların İran, İraq, Kürdüstan və Kiçik Asiyada çoxlu tərəfdarları vardı. Yerli şiələr çıxış edərək xalqı qızılbaşlara köməyə çağırırdılar. I İsmayıl və qızılbaş qoşun başçılan gənc Azərbaycan dövlətinin qüdrətini artırmaq üçün bundanHstifadə edirdilər.

1503-cü ilin yazında Şah İsmayıl öz müridi Qənbər ağanı Muradın yanına göndərib Səfevilərlə Ağqoyunlulann qohumluq əlaqələrini ona xatırlatdı və tabe olmasını tələb etdi. Qızılbaş hakimi, tabe olduqdan sonra Əcəm İraqını ona və’d etdi. Lakin rədd cavabı aldı. Belə olduqda İsmayıl on iki min nəfərlik qoşunla Təbrizdən çıxaraq Qızılü- zən çayını keçib Həmədan yaxınlığında Almaqulağı adlı yerə çatdı. Murad 70 min nəfər qoşun toplamışdı. 1503-cü il iyunun 21 də burada qızılbaşlarla ağqoyunlu Murad arasında döyüş baş verdi. İsmayıl döyüş meydanına atılaraq çoxu ilə təkbətək vuruşurdu. Ağqoyunlular sayca çox olsalar da məğlubiyyətə uğradılar. Sağ cinahı qoruyan Əli bəy Türkmən on min nəfərlik qoşunla darmadağın edildi. Ayba Sultanın qardaşı Gözəl Əhməd Bayandur, həmçinin İslamış bəy və başçıları əsir düşüb e’dam edildilər. Bu döyüşdə İsmayılın və qızılbaş hərbi xadimlərinin səıkərdətik məharəti bir daha nümayiş olundu. Murad Şiraza qaçdı. İsmayıl onu tə’qib edərək İranın içərilərinə doğru irəlilədi müqavimətsiz Şirazı ələ keçirdi. Beləliklə, Ağqoyunlu dövlətinin varlığına son qoyuldu.

İsmayıl Əlvənd üzərində qələbə ile Azərbaycana, Muradın darmadağın edilməsi ilə İran və Əcəm İraqının xeyli hissəsinə yiyələndi.

Elə həmin ildə (1503) İsmayıl Qumu, Kaşanı və İsfahanı tutdu. Bir il sonra qızılbaşlar Gülxəndan, Firuzğux, Ust qalalanna, 1505-ci ildə Yəzdə və Kirmana yiyələndilər. 1508-ci ildə İsmayıl Xorasan istisna olmaqla bütün İranı, indiki Ermenistanı və Ərəb İraqını zəbt etdi.

1 Şab İsmayılın xarici siyasəti. Səfəvilər hakimiyyəti ələ aldıq- dan sonra dini pərdə altında mübarizəyə girişən xalq üsyançılarına divan tutmağa başladılar. 1506-cı ildə Şah İsmayıl «İslamın düşməni» olan yezdi kürdlərin üsyanını yatırmaq üçün Bayram bəy Qaramanlını və Əbdül bəy Şamlını Urmiyaya göndərdi. Kürdlər Urmiya gölü ətrafında çətin keçilən dağlarda məskən salmışdılar. Qanlı döyüş nəticəsində onların başçısı Şirsərim tutulub e*dam edildi, üsyançıların çoxusu qılıncdan keçirildi. 1506-1508-ci illərdə qızılbaşlar Bağdad şəhəri daxil olmaqla Diyarbekri, Xilat, Bidlis, Ərciş və Ərəb İraqını fəth etdilər. Səfəvi dövləti şərqdən Şeybani xanın özbək dövləti və qərbdə Osmanlı Türkiyəsi ilə həmsərhəd oldu.

Şah İsmayılla Şeybani xan düşmən münasibətdə idilər. Bunun başlıca səbəbi o idi ki, hər iki dövlətin əsas siyasi qüvvəsini təşkil edən hərbi ə'yanlar istilaya can atırdılar. Qızılbaş və özbək ə'yanları əməkçi xalqın əlində olan münbit və məhsuldar torpaqları ələ keçirmək, hərbi qənimətlər əldə etmək uğrunda mübarizə aparırdılar. Lakin əsas mübarizə böyük iqtisadi və strateji əhəmiyyətə malik Xorasan uğrunda gedirdi. Bu vilayətdən mühüm ticarat yolları keçirdi. 1507-1508-ci illərdə Sefəvilerin Kiçik Asiyada hərbi əməliyyat aparmalarından istifadə edən özbək hakimi Xorasanı tutmuş və İsmayıla göndərdiyi məktubda tabe olmasını, hakimiyyətdən əl çəkməsini tələb etmişdi. Şeybani xan hədə ilə bildirmişdi ki, əks halda «mən İran və Azərbaycan sərhədlərinə qoşun çekərəm, bu ölkələri işğal edəndən sonra Ərab İraqına və Hicaza gedərəm». Bundan az sonra Şah İsmayıl böyük qoşunla Xorasana doğru hərəkət etdi. Şeybani xan əsas qüvvələrilə birləşmək üçün Heratdan Mərvə çəkildi. O, özbək sərkərdələri Ubeydulla xan və Teymur Sultan tərəfindən yardım gözləyərək Mərv qalasını möhkəmlədib uzun müddətli müdafiəyə hazırlaşdı.

Qızılbaşlar qala üzərinə bir həftə uğursuz həmlə etdilər. Şah İsmayıl Şeybani xanın qoşununu qaladan çıxarıb döyüşü səhrada keçirmək üçün ağıllı taktiki tədbirlər işlətdi. O əsas qüvvə ilə Mərvdən uzaqlaşıb onun on beş verstliyində^, Mahmudi kəndi yaxınlığındakı düşərgədə dayandı və Şeybani xana məktub göndərib qızılbaşlann guya Azerbaycana qayıtmaq üçün yol aradıqlarını bildirdi. Eyni zamanda Şah İsmayıl öz sərkərdələrindən mosullu Əmir xana üç yüz

Verst -1,06 km-ə bərabərdir.

nəfər döyüşçü ilə Mahmudi çayı üzərindəki körpüdə dayanıb özbek- ləri güdmək əmrini verdi. Hiyləni başa düşən özbək qoşun sərkərdələri Şeybani,xanın Mərvdən, çıxmasını məsləhət gömədilər. Məsləhətə qulaq asmayan Şeybani xan qaladan çıxıb qızılbaşları tə’qib edərək çayı adladı və İsmayılın əsas qüvvələri ile üz-üzə gəldi. 1510- cu il dekabnn 1-də baş vemiş bu döyüşdə sayca çox olan qızılbaşlar qalib gəldilər. On min nəfərlik özbək qoşunu qınidı. Mahmudi çayının yatağı insan və at meyidləri ile doldu. Döyüşdə Şeybani xan özü də öldürüldü. Beləliklə, Şah İsmayıl Herat, Mərv və Belx şəhərləri daxil olmaqla Xorasanı elə keçirdi. 15l0-cu ildə Amu-Dəryadan Fərat çayına qədər geniş ərazi İsmayılın hakimiyyəti altına keçdi. Bu illərdə Səfəvi ler dövətinin qüdrəti xeyli artdı. ı

Çaldıran döyüşü və onun nəticələri. Səfəvilər dövlətinin meydana çıxması və onun qüdrətinin artması sultan Türkiyəsini çox narahat edirdi. Hələ l502-ci ildə sultan hökuməti Səfəvilərin vəziyyəti və qüvvələri haqqında mə’lumat toplayırdı. Yavuz Sultan I Səlim döyüş başlanana qədər Anadolu şiələri tərəfindən arxada yaranmış təhlükəni ləğv etdi. Osmanlı imperiyası Səfəvilərin düşməni olan Ağ- qoyunlu padşahlarına kömək edir, yeni dövlətin möhkəmlənməsinə mane olmağa çalışırdı. Lakin Türkiyə sultanı II Bəyazid (İldırım 1481-1512) Şah İsmayıla qarşı müharibəyə başlamağa cəsarət etməyərək, 1504-cü ildə Səfəvilər dövlətini tanımalı oldu. Bununla belə. Osmanlı feodalları Azərbaycanı və qonşu ölkələri ələ keçirmək iddialanndan əl çəkmirdilər. Səfəvilər isə Gürcüstanı, Ermənistanı və Türkiyənin bir sıra şərq torpaqlarını özlərinə tabe etmək niyyətində idilər.

1 İsmayıl Türkiyə ilə toqquşmanın labüd olduğunu hiss edir və mübarizə üçün özünə müttəfiq axtarırdı. 1505-ci ildə Səfəvilər Osmanlı imperiyasına qarşı birgə çıxış etmək üçün Venesiya ilə danışıqlar apanrdılar. Lakin Avropa dövlətlərindən kömək almaq cəhdləri nəticə vermədi. Şah İsmayıl təhlükəli qonşusu Şeybani xanın dövle- tirti zəifetdikdən sonra Türkiyəyə qarşı bir sıra düşmencəsinə tədbirlər gördü: türkləri dəhşətə gətirmək üçün Şeybani xanın başının dərisinə satıian təpərək İstanbula göndərdi. Türkiyədə daxili çəkişmə və Bəyazidin kiçik oğlu Səlimin qiyamı ilə əlaqədar bu tədbir Bəyazid tərəfindən cavabsız qaldı. O, yalnız İsmayıla gələcəkdə belə işlərdən əi çəkməyi «müsəlmanlar arasanda» qan tökməməyi tövsiyə etməklə kifayətləndi. 1512-ci ildə 1 İsmayılın sərkərdəsi Ərzincan hakimi

Rumiu Nureli xəJife yerli qızılbaşların köməyilə Kiçik Asiyada Qara-hisar və Malatiya şəhərlərinə yiyələndi. Eyni vaxtda görkəmli qızılbaş sərkərdəsi Məhəmməd xan Ustadı Diyarbəkri ələ keçirdi. İsmayılın göstərişi ilə o. Sultan Səlimə hədələyici, təhqiramiz məktub yazdı.

Sultan 1 Səlim taxta çıxan kimi, qonşu Avropa və Asiya dövlət başçıları onu tanımaq üçün səfirlərini Ədiməyə göndərdilər. Bu qonaqlar içərisində qızılbaş nümayəndələrinin olmaması da Sultan Səlimə pis tə'sİr etdi.

Bütün bunlara görə, Sultan Selim hakimiyyətə gələn kimi (1512-1520) Türkiyənin qızılbaşlara olan münasibəti tamamilə dəyişdi və o, sətəvilərə qarşı müharibəyə girmək fikrini daha da qətiləşdirdi. Sultan I Səlim hərbi əməliyyata başlamazdan əvvəl bir neçə tədbir gördü: a) Avropa ölkələri ilə-Moskva dövləti, Macarıstan, Venesiya, Molda- viya və Valaxiya ilə sülh müqaviləsi bağladı. Beləliklə, Qərbdə müvəqqəti olaraq hərbi əməliyyat dayandı; b) yardım üçün Mavorən- nəhrin özbək padşahı Ubeydulla xanın razılığını aldı; c) ölkə daxilində Səfəvi dərviş təriqətinin tərəfdarları olan Kiçik Asiya şiələrinin kütləvi qırğınını təşkil etdi. Bu məqsədlə hər vilayətdə 7 yaşından 70 yaşa qədər bütün şiə kişi cinsini siyahıya aldırdı. Tarixçi Əbdul Fəzl Əlinin verdiyi mə'lumata görə, bu tədbirin birinin həyata keçirilməsilə 40 min nəfər şiə, qılıncdan keçirilmişdi: ç) o bu tədbirlə həm də arxada qızılbaş qiyamçılarına qarşı vuruşan üsyançı dəstə düzəldirdi. Çünki, qiyamın baş verməsi real idi; d) I Səlim öz işğalçılıq niyyətini pərdələmək üçün 15I4-cü ilin yazında Ədimədə fövqəfade divan çağırdı. Divanda sünnü üləmaları qızılbaşlarla müharibəni bütün müsəlmanların müqəddəs vəzifəsi e'lan etdilər. Sultan I Səlimin vəzirləri Şah İsmayıl ilə müharibənin son dərəcə təhlükəli olduğunu da bildirdilər.

Sultanın əmrilə Osmanlı imperiyasının hər tərəfindən qoşun toplandı. Sultan I Səlim qoşunun döyüş ruhunu qaldırmaq üçün hər bir əsgərə min akça payladı, halbuki bu, sultan tərəfindən müstəsna hallarda edilirdi. Bundan əlavə, yanıcarlar xidmətlərinə görə sultandan məvacib alırdılar. Az sonra Sultan Selim Türkiyədə 140 min nəfərlik qoşununa baxış keçirdi. Beləliklə, Osmanlı qoşunu qızılbaşlara qarşı döyüşə tam hazır vəziyyətə gətirildi.

Sultan 1 Səlimin qoşunu Osmanlı-qızılbaş sərbəddi ilə axan Çaysu çayını keçib Ərzincana daxil oldu. Buna qədər Nurəli xəlifə

ismayılın göstərişilə şəhəri tərk edib Azərbaycana doğru çəkildi. Sultan I Səlim yürüşə başlamazdan əwəl Şah İsmayıla göndərdiyi iki məktubda onunla ciddi döyüşə ginnək niyyətində olduğunu bildirdi. Şah İsmayıl bu məktublara cavab verməyib ölkənin içərilərinə doğru çəkildi. İsmayılın hərəkətləri Sultan Səlimin qəzəbinə və təəccübünə səbəb oldu. O, şah İsmayıla üçüncü məktubunu göndərdi, onu qorxaq adlandıraraq istehza etdi. Şah İsmayıl bu məktuba təmkinlə cavab verərək, öz növbəsində I Səlimi sultan və padşah kimi tanımadığını bildirdi.

Türkiyə sultanı başa düşürdü ki. Şah İsmayılın geri çəkilməsinin arxasında düşünülmüş hərbi-strateji tədbir gizlənir. Həqiqətən, İsmayıl döyüşü qışa qədər yubatmaq, qışda sultan qoşununun xeyli hissəsini aclıqdan və soyuqdan ölümə düçar etmək fikrində idi. Qəzəblənmiş Sultan Səlim diplomatik ən’ənəni pozaraq qızılbaş səfiri Şahqulu Boynökəri e'dam etdirdi və qəzəblə «Men cəhənnəmə qədər da olsa onun (Şah İsmayılın ~ *SM.)* arxasınca gedəcəyəm» - dedi. I Səlim Şah İsmayıla dördüncü məktubunu göndərib Tərcana doğıaı istiqamət aldı. Sultan Səlim döyüşə girmək barədə I İsmayılın fikrini bilən kimi, Azərbaycan şəhəri Maku yaxınlığındakı Çaldıran düzünə hərəkət etdi. Osmanlı qoşunu qızılbaşlardan bir neçə dəfə çox idi.

Fars mənbələrinə görə, döyüşdən əvvəl hərbi şurada osmanlıların taktikası ilə tanış olan Məhəmməd xan Ustadı və Rumlu Nurəli Xəlifə düşmən üzərinə gecə hücuma keçməyi İsmayıla təklif etdilər. Onların fikrinə görə, gecə atəşi qızılbaş süvarilərini silah və top atəşindən xilas edər, beləliklə də osmanlılar döyüş vəziyyəti alana qədər məsələ həll olunar. Lakin qızılbaş sərkərdəsi şamlı Durmuş xan bu təklifin əleyhinə çıxdı, gecə hücumunu qorxaqlıq, üreksizlik adlandırdı. Bu çıxış İsmayılın xoşuna gəldi və dedi: «Mən karvan basan quldur deyiləm, qoy allahın məsləhət bildiyi kimi olsun».

1514-cü il avqustun 23-də, Çaldıran düzündə qanlı döyüş oldu. Əvvəlki döyüşlərdən'*’ fərqli olaraq bu dəfə üz-üzə gələn iki ordu sadəcə din düşmənçiliyi ruhunda tərbiyə edilib bir-birinə qarşı qoyulan və şəhid düşməyə hazır olan silahlı fanatiklər idilər. Bu isə Çaldıran vuruşmasını tarixin ən qanlı qardaş qırğınlarından birinə çevirdi. Yavuz Səlim üçün böyük zəfər sayılan Çaldıran vuruşması, əslində türk dünyasının ümumi faciəsi, (^ərb diplomatiyasının isə

* I402-Cİ ildə Ankarada (Teymur - tldınm Bəyazid) və 1473-cü ildə Otluqbelidə (Uzun Həsən - Fateh Sultan Mehmet) olan döyüşlər.

strateji qələbəsi idi. Bu döyüşdə yalnız Səfevilər 5 min nəfər itki verdi. Qızılbaşlar igidliklə vuruşdular. Şah İsmayıl özü Osmanlı sərkərdəsi ilə təkbətək döyüşə girdi və qılınc zərbəsi ilə onu yerə sərdi. Azərbaycan süvariləri Osmanlı piyada qoşununu geri oturtdular, lakin düşmən toplanmn amansız atəşinə mə'ruz qalan Sefəvilər, nəticədə məğlub oldular.

Şah İsmayıl Çaldıran döyüşündə öz məğlubiyyətini gördükdə, qəzəbindən qılıncını topun lüləsinə zərblə çırpır, zərbədən topun lüləsi qırılır. Bunu eşidən Sultan Səlim həmin qıimcı gətirtdirir və özü də həmin hərəkəti təkrar edir. Lakin topun lüləsi kəsilmir. Belə olduqda Sultan deyir ki, İsmayıl mənə başqa qılınc verib, bu o qılınc deyil. İsmayıl bunu eşidir və «-Qılınc həmin qılıncdır, əfsus ki, qol həmin qol deyil», - deyir.

Yaralanmış Şah İsmayıl öz ordusunun salamat qalan hissəsilə müdafiə həlqəsini qırıb ölkənin içərilərinə - Təbrizə doğru çəkildi. Sultan I Səlim onu tə’qib etdi, lakin Şah İsmayılın hiyləsindən qorxaraq geri qayıtdı. Sultan I Səlim həmin döyüşdə həlak olan Səfəvi döyüşçülərinin başlarından nlnam düzəltdirdi.

Farsdilli salnam^ilər Çaldıran döyüşündə Səfəvilərin məğlubiyyət səbəblərini Şah İsmayılın məğrurluğu, özünə həddən artıq güvən- məsi, qızılbaşlann sayca az olması. Osmanlı qoşununun avropasayağı təşkili, I İsmayılın Osmanlı imperiyası kimi qüvvətli bir düşmənlə müharibəyə kifayət qədər hazır olmaması, yaxın adamlarının məsləhətinə qulaq asmaması, nəhayət, Səfəvilərin topu olsa da, düşmən tərəfin dö>iişdə odlu silahdan - topdan daha səmərəli istifadə etməsilə izah edirlər.

Bununla əlaqədar guya türklər tərəfindən əsir alınmış Şah İsmayılın bənzəri Sultanəli Mirzə Əfşarla Sultan Səlimin söhbəti maraqlıdır. Sultan «Şah tsmayıl»dan soruşdu: «Bəyəm sən bilmirdin ki, mən 200 minlik hərbi cəngavərlə, topla, yamçarla sənin üzərinə gəlirəm? Sən belə az qüvvə üe mənimlə döyüşə necə girə bildin? Adamlarını məhv etdin, özün isə əsir düşdün». Şah İsmayıl cavabında bildirdi; «Senin çoxlu qoşunun olduğunu bilirdim, ancaq bilmirdim ki, sən toplardan düzəldilmiş istehkama sığınaraq özünü həm bu dünyada, həm de, o dünyada rüsvay edəcəksən».

Çaldıran Səfevilər dövlətinin hərbi-siyasi nüfuzuna ciddi zərbə vurdu və nəticə e*tibarilə Kürdüstanda geniş ərazi itirmələrinə səbəb oldu.

Hələ buna qədər Şah İsmayılın və onun əmirlərinin hakimiyyətini qəbul edən kürd tayfaları və ə'yanİar indi kömək üçün Sultan I Selimə müraciət edib qızılbaş dövlətinə qarşı açıq çıxış etməyə başladılar. İdris Bitlisi kürd tayfalarının Sultan Səlimin ətrafına cəlb edilməsində mühüm rol oynadı.

1514-1515-ci illərin qışını Amasiyada keçirən Səlim İstanbula doğru irəlilədi, yol üstü Kamaxı zəbt etdi. Ərzincan hakimi Rumlu Nurəli xəlifə Trabzonun hakimi Bıyıklı*® Osmanlı Mehmetlə döyüşdə məğlub olub öldürüldü, Ərzincan türklər tərəfindən zəbt edildi.

Çaldırandan sonra Diyarbəkr Sultana təslim oldu. Ona görə də Şah İsmayıl şəhəri geri almaq üçün Qaraxanı göndərdi. Lakin qızılbaşlar qiyamçıların müqavimətini sındıra bilmədilər. Mühasirə bir ildən artıq davam etdi. Bıyıklı Mehmet paşa qoşununun gəlməsi, İdris Bitlisinin başçılığı altında kürd dəstələri ilə onun daha da qüvvətləndin 1- məsi Qara xanı qoşunu mühasirədən çıxanb Mardinə çəkilməyə məcbur etdi. 1516-cı ilin əvvəlində Mardinin cənubunda Qoçhisarda tərəflər arasında baş vermiş həlledici döyüş türklərin qələbəsi ilə qurtardı. Qaraxan öldürüldü. Nəticədə şimalda Xarput və Bitlisdən Rakkiyə qədər, cənubda isə Mosul türklərin əlinə keçdi.

Osmanlı qoşunu Azerbaycan şəhər və kəndlərini talan edə-edə Xoyu, Mərəndi işğal edib Təbrizə yaxınlaşdı. Xalq hər yerdə bu qoşuna inadlı müqavimət göstərirdi. Osmanlı əsarəti altına düşməmək üçün əhalinin çoxu öz doğma yurdunu tərk edirdi.

Təbriz alındıqdan sonra müharibəni davam etdirmək getdikcə çətinləşirdi. Osmanlı qoşunu içərisində həyəcan başlanmışdı. Ona görə də Osmanlı türkləri Təbrizi elə keçirdikdən sonra cəmi altı gün burada qala bildilər. Onlar geri çəkilərkən özləri ile çoxlu Təbriz ustaları apardılar. Bir neçə min sənətkar ailəsi İstanbula köçürüldü. Mahir .Azerbaycan sənətkarları sonralar Türkiyənin me'marlıq və incəsənətinin inkişafında mühüm rol oynadılar. Tezliklə Azerbaycan ərazisi Osmanlı istilaçılarından azad edildi.

Çaldıran döyüşünün nəticəsi olaraq Türkiyə Ərzurum şeherilə birlikdə Qərbi Anadolu və Şimali Mesopotamiyaya yiyələndi. Bağdad daxil olmaqla Ərəb İraqı qızılbaşların əlində qaldı. Lakin Türkiyə .Azerbaycanı, indiki Ermənistanı, Gürcüstanı elə keçirmək niyyətindən əl çekməmişdi.

Səfəvilər, Gürcüstan və Şəki münasibətləri. Sultanın inadkarlığı ilə qarşılaşan Şah İsmayıl ön Qafqazda, Şimali Gürcüstanda öz

mövqeyini möhkəmləndirmək üçün bir sıra ciddi tədbirlər gördü. Bu məsələnin həllində Səfəvilərin vəziyyəti ona görə yüngülləşdi ki. XVI əsrin əvvəllərində Gürcüstan bir-biri ilə düşmən münasibətdə olan bir sıra müstəqil çarlığa parçalandı. Gürcü çarlığının kömək üçün ismayıla müraciət etməsi qızılbaşların Gürcüstana yürüşlərinə səbəb oldu. 1516-cı ildə «Başı Açuq hakimi» (Imeretiya) Mənuçöhr tərəfindən məğlub edilən Mesxi (Samsexi) çan IV Kvarkvare (1516-1535) Naxçıvandakı qışlağa gəlib İsmayıldan onu müdafiə etməyi xahiş etdi. Şah İsmayıl 1517-ci ildə *Div Sultan Rumlunun* başçılığı *altında* Şilra-qel yolu ilə Gürcüstana xüsusi qoşun göndərdi. Nəticə e'tibarilə Mənuçöhr məğlub edildi və o, Rum elinə, Türkiyəyə qaçdı. Kvarkvare isə taxtına qayıtdı.

Bir il sonra Mənuçöhr Qızıl Əhmədoğlunun dəstəsilə Türkiyədən geri dönüb yenidən Kvarkvarenin ərazisinə soxuldu. Div Sultan ikinci dəfə Gürcüstana göndərildi. Qızılbaşlar Davil (Dvin) ərazisində türklərlə döyüşə girdilər və onlan damıadağın etdilər. Mənuçöhr qaçaraq ölümdən yaxasını, qurtardı. 1521-ci ildə qızılbaşların Div Sultan Rumlunun başçılığı altında Gürcüstana üçüncü yürüşü Kaxetiya çan Levənd xanın (Levan-1520-1574) dəstələrinin Şəkiyə basqınları ilə əlaqədar idi. Şəki hakimi Həsən bəy kömək üçün qışı Naxçıvanda keçirən İsmayıla müraciət etdi. Div Sultan Qanıx (Alazan) və Kibri (lori) çaylannı keçib Zəyəm və Hərəm qalalan üzərinə həmlə etdi. Ləvənd müqəssir kimi Div Sultanın yanına gəldi. Gürcüstanın digər hakimləri-Kvarkvare, Davud bəy və Mənuçöhr də belə etdilər. Onlar Div Sultanla birlikdə Naxçıvanda İsmayılın düşərgəsinə gəldilər və burada Kartli çarı David Səfəvilərə ildə 300 yük ipək bac və xərac verməyi öhdəsinə götürəndən sonra geri qayıtdı•

Şirvanşahlar Səfəvilərə tabe olmaqdan tez-tez boyun qaçırırdılar. 11 İbrahim (1502-1524) Buğurd qalasında möhkəmlənərək müqavimət göstərdi. Yalnız üçüncü yürüşdən sonra (1517) özünü tamamilə Səfəvilərdən asılı hesab etdi. O, İsmayıla qiymətli hədiyyələri-qızıl və gümüş pullar, daş-qaş, rus mallan, ərəb atlan, Bərdə qatırların) böyük oğlu Sultan Xəlillə Təbrizə göndərdi. Sultan Xəlil burada son dərəcə qonaqpərvərliklə qəbul edildi və Şah İsmayılın qızı Pərixan xanımla nişanlandı. 1521-ci ilin avqustunda Şeyxşah özü İsmayılın

I ' Yeri gəlmişkən qeyd edək ki. Şəki hakimi və Səfəvilərie əlaqə haqda ilk mə'lumatı Budaq Qezvini verir.

Marağadakı düşərgəsinə gəldi. 1523-cü ilin sentyabrında İsmayıl Şirvanşah Şeyxşahın qızına evlənmək arzusunu bildirdi və bu məq> sədlə Camaləddin Məhəmmədi və Dəmir bəyi zəngin hədiyyələrlə Şamaxıya göndərdi. Şirvanşah böyük hörmətlə qızılbaş elçilərini qəbul edib qızını onlarla birlikdə Təbrizə yola saldı. 1523-cü il noyabrın 5-də Təbriz yaxınlığında Şah İsmayıl ilə Şirvanşahın qızının təntənəli toy mərasimi keçirildi. 1524-cü ilin yazında İsmayıl Naxçıvandan Şil-vana doğru irəlilədi. Şah Kürə çatanda Şirvanşah II İbrahimin ölümünü eşitdi. Şirvan taxtına onun oğlu, İsmayılın qızı Pərixan xanımın əri II Xəlilullah (1524-1535) keçdi. Onda şah geriyə, Şəkiyə qayıtdı, Həsən bəy və yerli ə'yanlar tərəfindən təntənə ilə qarşılandı. Şah Şəki e'yanları və qazılarının müşayiətilə Şəki və Gürcüstan arasında ova çıxaraq xeyli eyləndi. Şəkiden Ərdəbilə doğru dönəndə Kaxetiya çarı Ləvəndin Ijöyük qoşunla Şəkiyə hücum etməsi və döyüşdə şekili- lərin məğlub olması. Həsən xanın öldürülməsi barədə xəbər tutdu. Bu xəbər Şah İsmayılda qəzəb doğurdu ve itaət etməyən gürcü çarını ciddi tənbeh etməyi qərara aldı. Lakin 37 yaşında ikən (23 may 1524) qəfil ölüm buna imkan vermədi.

## § 3.1 TƏHMASİBİN DÖVRÜNDƏ SƏFƏVİ DÖVLƏTİNİN VƏZİYYƏTİ

Türkiyə ilə münasibətlər. Şah İsmayılın ölümündən sonra oğlu l Təhmasib taxta çıxdı (1524-1576). Bu zaman ölkədə feodallar arasında çəkişmələr yenidən başladı. Qızılbaş əmirləri mərkəzi hakimiyyətin zəitləməsindən istifadə edib itaətdən boyun qaçırdılar. Əslində dövlət işlərinə on yaşlı Təhmasibin qəyyumu, rumlu tayfasının başçısı Div Sultan nəzarət etməyə başladı. Lakin ustadı tayfasının əmirləri Köpək Sultan və Abdulla xan onun hakimiyyətinin möhkəmlənməsinə mane olurdular. Ustadı ə'yanlarınm Təbrizdəki gücündən ehtiyat edən Div Sultan Xorasanda özbəklərin basqınlarının qarşısını almaq bəhanəsilə paytaxtdan çıxdı və guya xarici düşmənə qarşı qoşun toplamaqdan ötrü Tabasaran sərhədinə gəldi. Onun çağırışı ile İsfahan hakimi Çuxa Sultan Təkəli, Həmədan hakimi (tiuldar) Qaraca Sultan Təkəli, Məşhəd hakimi Burun Sultan Təkəli, Şiraz hakimi Əli Sultan Zülqədər bura gəldilər. Div Sultan burada Köpək Sultan Ustadıya qarşı onlarca müqavilə imzaladı. Şamlı tayfası əmirlərin iki apancısı-

Herat hakimi Durmuş xan və Astrabad hakimi Zeynal xan Div Sultanla şəxsən birləşməsələr də, onun planını müdafiə edirdilər. Ustadı tayfasından bə'zi emirlər də Div Sultanın teretıni saxlamağa başladılar. Beləliklə, 1525>ci ildə Div Sultan özünü kifayət qədər güclü hiss etdikdən sonra, mərhum şahın iradəsinə tabe olmaq, onun vakalətlik hüququnu tanımaq naminə Köpək Sultana məktub göndərdi və Təbrizə doğru irəlilədi. 1526-cı ilin mayında Seksencik ve Xər- zəvil adlı yerlərdə tərəflər arasında döyüş oldu. Döyüş Div Sultanın qələbəsi ilə qurtardı.

Bir il sonra, 1527-ci ildə Köpək Sultan öz qoşununu Xalxal vasitəsilə Rəştdən Ərdəbilə çekdi, yerli hakim Bədəncan bəy Rumlunu öldürdü və Div Sultanın yerləşdiyi Çuxur-Sə'də gəldi. 1527-ci il iyunun 30-da Naxçıvanda Aıpaçay sahilində tərəflər arasında həlledici döyüş oldu. Ustadı Köpək Sultanın qoşunu darmadağın edildi, özü isə Öldürüldü.

Qızılbaş tayfaları arasında gedən bu ziddiyyətlər nəticəsində mərkəzi hakimiyyətin fəaliyyəti əslində dayandı. Ölkədə hərc-mərclik hökm sürməyə başladı. Üçüncü rəqibdən yaxa qurtaran Div Sultan Rumlu tezliklə Çuxa Sultan Təkəli ilə toqquşmalı oldu. 1527-ci ilin iyununda Çuxa Sultanın təhrikilə Div Sultan Öldürüldü. Bununla da Rumlu tayfasının hakimiyyətinə son qoyuldu.

Çuxa Sultan başda olmaqla dövlətin idarə edilməsi işi təkəli ə'yanlannın əlinə keçdi. Onun dövründə Təhmasibin yalnız şahlıq titjL; qalmışdı. O, vilayətlərin çoxunu öz doğmaları arasında bölüşdürdü, onların hər birinə xanlıq titulu və sultanlıq dərəcəsi verdi. Lakin 1529-cu ildə Zirabadda özbəklərlə döyüşdə təkəli əmirlərinin meydanı tərk etmələri nəticəsində Səfəvi qoşunu az qala məğlub olmuşdu. Bu hadisə tezliklə Çuxa Sultanın, ümumən təkəli tayfasının nüfuzunu aşağı saldı.

Özbəklərlə döyüş rəşadəti göstərən şamlu tayfasının başçısı Hüseyn xan isə Heratın hakimi vəzifəsini tutdu. Qızılbaş qoşunu Xorasanı tərk edən kimi Ubeydulla xan yenidən Heratı mühasirəyə aldı. Çuxa Sultan qızılbaşlara köməyi qəsdən gecikdirdi. Çuxa Sultanın məqsədini yaxşı başa düşən Hüseyn xan Ubeydulla xanla danışığa başladı. Hüseyn xana müqavimətsiz şəhəri tərk edib Şiraza çəkilməyə icazə verildi. I531-ci il iyunun 17-de Hüseyn xan qardaşı Sam Mirzə ilə İsfahana, şahın qərargahına gəldilər. Çuxa Sultan təhlükəli rəqibindən yaxa qurtaimağın vaxtı çatdığını qərara aldı. Lakin Çuxa Sultan zülqədər tayfasından bir nəfərin oxu ilə qətlə yetirildi.

Çuxa Sultanın ölümündən sonra tekeli əmirləri onun böyük oğlu Şah Qubadı hakimiyyətə getirdilər. Ustacanh, rumlu, zülqədər, əfşar tayfaları tekəlilərin öz hakimiyyətlərini saxlamaq cəhdlərinə qarşı çıxdılar. Həmədan yaxınlığında tərəflər arasında ciddi döyüş oldu. Təhmasibin göstərişilə çoxları qılıncdan keçirildi. Sağ qalanlar isə Bağdada, Məhəmməd xan Şərəfəddin oğlunun yanına qaçdılar. O isə şaha sədaqət əlaməti olaraq be'zilərini e'dam etdirdi.

1531-ci ildə təkəli əmirlərindən biri Ülame bəy Cənubi Azərbaycana yeni bir yürüş etdi. Lakin müqavimətə rast gəldi. O, Təbrizi talan edib tayfanın bir hissəsilə Türkiyəyə keçdi və sonralar Sultan I Süleymanın Azərbaycana yürüşlərində iştirak etməyə başladı. Lakin Təhmasib tezliklə itaətkarlıq göstərməyən feodallann müqavimətini qırdı.

Təkəli ə'yanlarının hökmranlığı (1527-1531) şamlu feodalları ilə əvəz edildi. Çuxa Sultanın ölümündən sonra Hüseyn xan Şamlu ən güclü feodal oldu, vəkil və əmir-ül-üməra vəzifəsini tutdu. O da öz sələfləri kimi tayfasının abadlıq işlərilə məşğul oldu, yaxşı vilayətləri əmirləri arasında payladı və şahın dövlət işlərinə qarışmasına imkan vennədi. Hüseyn xan 1533-l534-cü illərə qədər dövlət işlərini idarə edirdi. O, qəflətən Şah Təhmasibə qarşı sui-qəsdin təşkilində ittiham olundu, hakimiyyətdən uzaqlaşdınlaraq e'dam edildi. Hüseyn xanın ölümü ile qızılbaş tayfalarının on illik 0534-1534) fəaliyyətinə son qoyuldu. Qazi Cahan xan Qəzvini vəkil vəzifəsinə irəli çəkildi. Bu da I Təhmasibin mərkəzi hakimiyyəti möhkəmləndirmək üçün qətiyyətli addım atması demək idi.

Türkiyə və Səfəvilər müharibəsinin yenidən başlanması. I Səlim vaxtında Osmanlı Türkiyəsinin Azərbaycanı zəbt emək cəhdi baş tutmadı.

I Süleyman Qanuninin (1520-1566) vaxtında Osmanlı ali təbəqəsi öz nüfuz dairələrini şərq istiqamətində genişləndirmək cəhdlərindən əl çekmirdilər. Bitlisi elə keçirən Ülamə boy Sultan Süleymanı Azərbaycana və İraqa yürüş etməyə təhrik etdi. 1534-cü ilin yayında Sultan 1 Süleyman 100 minlik qoşunla Azərbaycanın sərhədlərini keçdi. Bu yüıüşdə baş vəzir İbrahim paşa və Ülamə bəy fəal iştirak edirdilər. Qısa vaxt ərzində Cənubi Azərbaycanın xeyli hissəsini türklər tutdular. Sentyabnn 27-də Təbriz tutuldu. Bu məqamda qızılbaş əmirləri arasında ziddiyyət düşdü, onların bə'zileri türldərin tərəfine keçdilər. Buna baxmayaraq, osmanlılar Azərbaycanda ciddi müqavimətə rıast gəldilər. Həm də qış sərt keçdiyinə, ərzaq çatışmadığına görə onlar burada qala bilməyib ölkəni tərk etməyə məcbur oldular.

Qışı Bağdadda keçirən I Süleyman 1535-ci ilin yazında ikinci dəfə Təbrizə yürüş etdi. Hələ buna qədər Şah Təhmasib Təbrizin əhalisini İraqa və trana köçürdü. Düşmən əlinə keçməmək üçün ot>elefə od vuruldu, mal-qara məhv edildi, şah özü isə Sultaniyyəye çəkildi. Bundan dərhal sonra türklər Təbrizə daxil oldular. Şah danışıq aparmaq üçün iki dəfə cəhd etdi, lakin rədd cavabı aldı. Ötəri toqquşmalar türklər üçün uğurlu olmadı, aclıq və səfalətdən onlar geri çəkilmək məcburiyyətində qaldılar. Qızılbaşları Bitlise qədər tə’qib etdilər. Ərciş qalasının müdafiəsində Sinan paşa və xeyli türk öldürüldü. Bunu eşidən Sultan I Süleyman İbrahim paşanın komandanlığı altında Ərcişdə müdafiə olunanların köməyinə böyük dəstə göndərdi. Lakin bu dəstə də qızılbaşlar tərəfindən darmadağın edildi. Beləliklə, İbrahim paşa buranı tərk etdi. Van və Ərciş erazisi şah tərəfindən tutuldu.

Şirvanın Səfəvi dövlətinə birləşdirilməsi. Şirvanşah II Xəlilul- lahın döviünde (1524-1535), Şirvan Səfovilordən asılı vəziyyətdə qalmaqda idi. 1535-ci ildə Xəlilullahın ölümündən sonra Şirvan ə’yanlan onun yaxın qohumu Şeyxşahın oğlü Şahruxu (1535-1538) Şamaxıda taxta çıxardılar. Şahmxun gəncliyindən istifadə edən Şirvan əmirlərinin özbaşınalığı daha da qüvvətləndi. Ölkədə hakimiyyət Hüseyn bəy başda olmaqla Şirvan ə’yanlannın elində idi. Bu isə əhalinin narazılığına səbəb oldu. 1537-ci ilin sonlarında özünü Şirvanşahın qardaşı Məhəmməd Amin kimi qələmə verən və hakimiyyəti ələ keçirməyə çalışan bir keləntərin başçılığı ilə Şirvanda üsyan qalxdı. Xalq kütlələri üsyan başçısının əsl məqsədini başa düşməyərək ona qoşuldular. Üsyançılar Salyan və Şamaxını ələ keçirdilər. Şahrux saray ə'y^nlan ilə birlikdə Buğurd qalasına qaçdı. Lakin Salyan yaxınlığında üsyançılar Şirvan qoşunu tərəfindən darmadağın edildilər, üsyanın rəhbəri öldürüldü.

1 Təhmasib Şirvandakı iğtişaşdan istifadə edərək buranı tamamilə zəbt etmək qərarına gəldi. 1538-ci ilin yayında başda qardaşı Əlqas MiiYə olmaqla 20 minlik Səfəvi qoşunu, habelə Qarabağ və Muğandan yığılmış qoşun Şirvana daxil otdu. Surxab, Qorci və Qəbələ qalaları tutuldu. Şirvan ə’yanlan Qəbələyə sığınmışdılar. Dörd aylıq mühasirədən sonra Buğurd qalası zəbt olundu, Şirvanşahlann və yerli ə’yanlarm, o cümlədən Hüseyn bəyin xəzinəsi müsadirə edildi. Şahrux əsir alınaraq Təbrizdə gizli e’dam olundu. I Təhmasib Səfəvi dövlətinin əyalətinə çevrilmiş Şirvanı idarə etmək üçün Əlqas Mirzəni ilk bəyləi)əyi tə’yin etdi.

Şirvanın Azerbaycan Səfəvi dövlətinin tərkibinə daxil edilməsi Azərbaycan xalqının tarixində müsbət rol oynadı. Ölkənin cənub və şimal vilayətlərinin Səfəvi dövlətinin tərkibində birləşdirilməsi gələcəkdə Azərbaycanın iqtisadi və mədəni inkişafına təkan verdi.

I Təhmasib 1540-cı ildə Bakını, 1541-ci ildə isə Tiflisi tutduqdan sonra, 1546-cı ildə Kartli səltənətini zəbt etməyə cəhd göstərdi. O, Kartli çan Luarsabın təslim olmaq istəmədiyini görərək, Cavahetiyam darmadağın edəndən sonra Aşağı Kaıtliye tərəf hərəkət etdi. O, buranı talan edib çoxlu qənimət və əsirlə Gəncəyə doğru çəkildi.

Yerli Şirvan ə*yanlarınm mərkəzdənqaçma meylindən istifadə edən Əlqas Mirzə özünü müstəqil hakim e’lan etməyi qərara aldı. 1547-ci ilin əvvəlində Səfevilerin hakimiyyətinə qarşı qiyam qaldırdı. Türkiyədən asılı olan Knm xanının köməyinə baxmayaraq, Əlqas Mirzə məğlub olub İstanbula qaçdı. Sonralar o, Səfəvi dövlətinə qarşı mübarizədə Osmanlı türklərinin əlində bir alətə çevrildi.

Şahın oğlu İsmayıl Mirzə (II Şah İsmayıl) Şirvana bəylərbəyi te’yin edildi. Onun lələsi Göycə Sultan Qacar İsmayıl Mirzənin köməkçisi oldu. O, **1547-I554-CÜ** illərdə Şirvanda baş vermiş üç feodal qiyamını qətiyyətlə yatırdı. Tezliklə İsmayıl Mirzəni Avropa səyyah- tannın «Şirvanın kralı» adlandırdıqlan Abdulla xan əvəz etdi. Türkiyəyə meyl edən Buriıan Mirzənin qiyamının qarşısı amansızlıqla alındı.

Beləliklə, I Təhmasib .1547-ci iliu payızında Şirvanı qiyamçılardan və Əlqas Mirzənin terəfdarlanndan təmizləyib Təbrizə qayıtdı.

I Süleymanın Azərbaycana yürüşü. 1548-ci ildə sultan qoşunu yenə de Azerbaycana yürüş etdi. Həmin ildə Sultan I Süleyman Təbrizi tutdu. Bu zaman Azerbaycanın cənubunda qızılbaş tayfaları əmirlərinin arasında çəkişmələr qüvvətlənmiş, Şirvanda isə Burhan Mirzənin başçılığı ilə qiyam qalxmışdı. Belə bir şəraitdə I Təhmasib öz paytaxtını şərqə, .Türkiyə sərhədlərindən uzaqlara, Qezvine köçürdü.

. Sultan qoşununun Azerbaycanda hərəkətini çətinləşdirmək üçün I Təhmasibin əmrilə Türkiyə səriıedlerinden tutmuş Təbrizə qədər bütün yerlər xarabazara çevrilmişdi. Burada türklərin əlinə keçə biləcək «bir dənə də olsun dən, bir çəngə belə ot» qalmamışdı. Əhali kəhrizləri doldurur, 'ərzağı gizlədirdi. Osmanlılar böyük təlafat verərək, 4 gündən sonra Təbrizi, sonra isə Azerbaycanın digər şəhərlərini tərk etdilər. Kürdüstandan Vana çəkildilər.

Osmanlı qoşununun Əlqas Mirzə və Ülame bəy müşayiət edirdilər. Əlqas Mirzənin qoşunu Həmədan tərəfdə darmadağm edildi,

özü ise əsir alınaraq ömürlük Qəhqəhə qalasındakı zindana salındı və 1549-cu ilde öldürüldü. ^

Şirvanda Səfəvilər əleyhinə üsyanlar. Əlqas Mirzənin üsyanv yatırıldıqdan dərhal sonra Şirvanda Səfəvilər əleyhinə yeni üsyan başlandı. Ona Burhanəli Sultan və Burhan Miızə başçılıq edirdilər. 1544-cü ildə Burhan Mirzə Qaytaqdan Şirvana hücum etmişdi. Lakin Əlqas Mirzə tərəfindən məğlub edilmişdi.

1547-ci ildə o, yenidən Qaytaqdan hücum edib Gülxan düşərgəsində qərar tutdu. Burada qiyamçı Şirvan əsgərlərinin qalıqlarını öz ətrafına topladı. Lakin tezliklə onlar İsmayıl Mirzə və Göyçə Sultan Qacar tərəfindən darmadağın edildilər. Burhan isə Qaytağa qaçıb canını qurtardı. Lakin Şirvan hakiminin Cənubi Azərbaycanda Osmanlı türkləri ilə döyüşə getməsindən istifadə edən Burhan yenidən Şirvana gəlib, Şamaxını və digər yerləri müqavimətsiz tutdu.

Osmanlı türkləri Cənubi Azərbaycanı tərk edəndən sonra şah Abdulla xan Ustadını Şirvana hakim tyin etdi, bu yerləri qiyamçılardan təmizləməyi ona tapşırdı. 1549-cu ildə o, Kürü keçib Əli Şaban adlı yerdə dayandı. Qiyamçılar Buğurd dərəsində dayanmışdılar və hücuma keçməyə cür'ət etmirdilər. Elə bu vaxt qiyamçıların başçısı Burhan Mirzə öldü, Mehrab onu əvəz etdi. Bundan istifadə edən Abdulla xan qiyamçılann üzərinə hücum etdi və onlara ağır zərbələr endirdi. Mehrab yaxın adamları ilə qaçdı. Şahın hakimiyyətini tanımaq istəməyən şirvanlılar hakimiyyətə Mehrabın yaxın qohumu Qurbanəlini gətirdilər. Onlar Xəzərin Derav adlı adalarından birində sığındılar. Qızılbaşlar isə atlarla üzərək adaya girib Qurbanəlini və onun adamlarını məhv etdilər.

Səfəvilər əleyhinə qaldırılmış bu qiyam Şirvanşahlar dövlətini bərpa etməyə yönəldilmişdi. Qiyamçılar Osmanlı türklərinin gücündən də istifadə edirdilər. Osmanlılar isə şirvanlılann əli ilə qızılbaşları Şirvandan sıxışdıraraq Xəzər sahilinə çıxmaq məqsədini güdürdülər.

Şəkinin Səfəvi dövlətinə birləşdinlməsi. Şəki hakimiyyətinin tənəzzülü də bu vaxta təsadüf edir. Həsən bəyin və onun varisi Dərviş Məhəmməd xanın vaxtında Şəki xanlığı ilə Səfəvilərin münasibətləri pisləşdi. Şah 1 Təhmasib **1S38-Cİ** ildə Şirvana yürüş edəndə Dərviş Məhəmməd xan Şəki qoşunu ilə Buğurd qalasına sığman Şahruxa köməyə gəldi.

Şirvan müttəfiqini itirəndən sonra Dərviş Məhəmməd xan Şəkinin müstəqilliyini saxlamaq ümidilə Təhmasiblə yaxınlaşmağa baş

ladı. 1539-cü ildə Səfəvilərlə sülalə izdivacına girdi. O, Təhmasibin bacısı II Xəlilullahın dul arvadı Pərixan xanımla evləndi. Lakin sonuncunun ölümündən sonra münasibətlər yenidən pozuldu.

Dərviş Məhəmməd xan vaxtı ilə Əlqas Mirzənin Səfəvi dövlətlərindən aynimaq cəhdini müdafiə etmiş, qardaşı Şahnəzər vasitəsilə ona hərbi yardım göstərmişdi. Ona görə də Sultan Süleyman Azərbaycandan qayıdan kimi, Təhmasib 1548-ci ilin sonunda xanı ittiham etmək üçün Qarabağdan Sevindik bəy Əfşarı 2500 qorçu ilə Şəkiyə göndərdi. Qızılbaşlar bu yerləri dağıtdılar, talan edib geri qayıtdılar.

Nəhayət, 1551-ci ildə Təhmasib Şəkinin müstəqilliyinə son qoymağı qərara aldı. Şah Ərəşdə düşərgə salıb öz qasidini otağındakı əmirlə Şəki hakimi Dərviş Məhəmməd xanın yanına göndərdi. Qasid bildirdi: «Gəl sən də bizə xidmət et, özünü məhv etmə. Şah sənə böyük mərhəmət göstərər». Şəki hakimi qasidə rədd cavabı verdi. Bu da qızılbaşların Şəki üzərinə hücumu üçün formal səbəb oldu. Şəkililər, xanın özü, ə'yanlar Kiş və «Gələsən-görəsən» qalalarında möhkəmləndilər. Şəkililərin bir hissəsi dağ yamaclanndakı sığınacaqlarda yerləşmişdilər. Qızılbaşlar eyni zamanda üç məntəqəyə hücum etdilər. Qorçubaşı Sevindik bəy. Bədir xan və Şahqulu Sultan Ustadı Kiş qalasına göndərildilər. «Gələsən-göresən»in fəthi Abdulla xan Ustadı və Kaxetiya çarı Levana tapşırıldı, Şahqulu xəlifə möhrdar qızılbaş dəstələrilə sığınacaqdakı şəkililərə doğru istiqamət aldı.

Öz rəqiblərinin üstünlüyünə baxmayaraq, şəkililər inadlı müqavimət göstərdilər. Lakin top atəşi altında Kiş qalasının divarlan dağıdıldı. Şəkililərin müqaviməti qınıdı. Şəhərin komendantı Mahmud bəy müqavimətin mə'nasız olduğunu bildirdi, təslim olub qalanın açarlarını şaha təhvil verdi. Kişin təslim olmasını bilən sığınacaqlar da mübarizəni tədricən dayandırdılar. Dərviş Məhəmməd xan vəziyyətin ağırlığını görüb gecə 400 nəfərlə qaladan çıxıb qaçmaq istəyəndə yaxalandı. Onun başını kəsib şaha gətirdilər. Beləliklə, vilayət Səfəvilərin tabeliyinə keçdi, l Təhmasib Toygün bəy Qacarı Şəkiyə
hakim tə'yin etdi. *2

Səfəvilərin Osmanlı ərazi.sinə yürüşü. 1552-ci ildə I Təhmasib müdafiədən fəal mübarizəyə keçdi. Həmin ildə Ətzrum hakimi

12 Tarix ədəbiyyatında qeyd edilir kİ, I Təhmasib ona xidmət edən Hu-seyncanı Şəkiyə məlik tə'yin etdi, Hüseyncanın nəsli Şəki xanlığı yaranana qədər (1743-cü ilə qədər) bu torpaqlan İdarə etdi.

tsgonder paşa Xoya daxil oldu, Çuxur>SəMden keçərək şəhər bazannı yandınb geri qayıtdı. O, qızılbaşlara məktub yazaraq özünü Şirvan və Gürcüstanın hakimi kimi təqdim etdi.

1552-ci ilin yayında I Təhmasibin əmrilə səfərbərlik e’lan edildi və dörd istiqamətdə osmanlılann üzərinə yürüşə başlandı. Şah Təhmasib bu həıhi əməliyyatda şəxsən iştirak etdi. Qızılbaşlar Xilatda 30 min baş qoyun, 10 min baş mal-qara, 3 min at ələ keçirdilər. Xilat qalası yerlə-yeksan edildi. Van ərazisində evlər dağıdıldı, əkinlər tapdandı. Muş yacdmidı. Bitlis, Vostan, Adilcevaz, Ərciş darmadağın edildi, çoxlu türk və kürd öldürüldü. Qızılbaşlar xeyli qənimətlə geri qayıtdılar.

Şah Təhmasib oğlu İsmayıl Mirzəni İsgəndər paşaya qarşı göndərdi. Döyüşdə 2576 türk əsgəri öldürüldü. Trabzon hakimi Mustafa bəy, Marat hakimi Kəbir İsa, qullarağası Sultan Məhəmməd bəy. İsgəndər paşanın qardaşı Ramazan bəy, Malatiya hakimi Xeyrəddin bəy əsir alındılar.

Daha sonra Barqiri qalası tutuldu. İsmayıl Mirzə Kürdüstana getdi. Bu yürüşdə qazıların əlinə çoxlu qənimət keçdi: əşya, at, fıl, iribuynuzlu mal ve əsirlər. 1553-cü ilin aprel-mayında I Təhmasib Naxçıvana qayıtdı və danışıq aparmaq üçün Əmir Şəmsəddin Dilicanini sultanın yanına göndərdi, lakin sultandan rədd cavabı aldı.

I Süleymanın Azərbaycana dördüncü yürüşü. Qasım Mirzənin Şirvanda Səfəvilər əleyÜnə üsyanı. 15S4-cü ilin yazında Sultan I Süleyman dördüncü dəfə Azərbaycana hücum etdi. O, Naxçıvanı işğal edərək şəhərə od vurdu. 1 Təhmasib öz taktikasına sadiq qalaraq türklərin real qüvvəsilə toqquşmaqdan çəkindi və sultan ordusunun yolu üzərində olan hər şeyin məhv edilməsi əmrini verdi. Beləliklə, ərzağa ciddi ehtiyacı olan sultan Naxçıvanı tərk edib Ərzruma çəkildi. Osmanlı qoşununu tə*qib edən qızılbaşlar Türkiyə ərazisinə daxil oldular. Onlar döyüşlərin birində türklərin böyük bir dəstəsini əzdilər. Sinan bəy əsir alındı. Bundan xəbər tutan sultan türklərin tərəfinə keçmiş Qasım Mirzəyə kömək üçün Knm tatarlarından ibarət süvari dəstə göndərdi. Türklər yenidən Şirvana hücum etdilər. Buğurd qalası yaxınlığında baş verən döyüşdə Osmanlı qoşunu darmadağın edildi. Elə bu zaman Gülüstan qalası yaxınlığında Şirvan bəylərbəyi Abdulla x^q Mirzənin tərəfdarlannı əzdi. Qasım Mirzə Dağıstana qaçdı.

.A^^avf^pı, işğal etmək cəhdinin boşa çıxdığını görən Sultan Süleyman Səfevilərlə danışığa başlamağı lazım bildi. Naxçıvandan

qayıdan kimi, baş vəziri Mehemmed paşaya göstəriş verdi. Mehemmed paşa qızılbaş əmirlərinə mektub gönderib Sinan bəyin esirlikden azad edilməsini və danışıq üçün öz nümayəndələrini göndərməyi xahiş etdi. Sinan bey azad edildi ve qacar tayfasından olan Şahqulu bəylə sultanın yanına göndərildi. Şahqulu geri döndükdən sonra Səfəvi səfiri, eşikağası Ferruxzad Amasyaya göndərildi. 1555-ci il mayın 29-da Amasyada Sefevi-Osmanlı müharibdlerinin birinci mərhələsini başa çatdıran sülh müqaviləsi imzalandı. Bu sülhə görə. Qərbi Gürcüstan - İmeretiya, Menqreliya və Quriya, Qərbi Ermenistan, Türkiyənin, Gürcüstanın şərq vilayətləri - Meshi, Kartli,'Kaxetiya və indiki Ermənistan Səfəvilerin ixtiyarına keçdi. Lakin bu sülh uzun sürmədi. XVİ əsrin 70-ci illərindən e'tibaren Osmanlı işğalının yeni dövrü başlandı.

Səfəvilərin Avropa ölkələri ilə əlaqələri. Prof. Y.M.Mahmudo- vun tədqiqatlarından mə Mum olur ki, İtaliya tarixçiləri səfəvişünaslığa qiymətli töhfe bəxş etmişlər: Romadakı Şərq institutunun əmekdaşlan B.S. Amorettinin redaktəsilə «Şah İsmayıl Marin Sanudonun «Gündəliklərində» adlı sənəd toplusu yaratmışlar. Yeni sənəd toplusuna orta əsr Venesiya salnaməçisi Marin Sanudonun (1466-1536) 42 cildlik «Gündelikler»ində Şah İsmayıl dövrünə aid olan çoxlu sənədlər daxil edilmişdir. 571 səhifəlik Amoretti toplusu 937 (I) sənədi əhatə edir. Belli olur ki, hələ Şah İsmayılm hakimiyyətə gəlməsinə qədər Səfə- vilerle Avropa dövlətləri, xüsusilə Venesiya respublikası arasında diplomatik əlaqələr yaranmışdı. Məsələn, 1499-1502-ci illərdə Venesiya-Türkiyə müharibələri ərəfəsində Venesiya diplomatı Konstan- tino Laskari Qaraman bəyliyi və Səfəvilərle danışıq aparmaq üçün Azərbaycana gəlmişdi. K.Laskari vətənə qayıdıb danışıqlar barədə 1502-ci il oktyabnn 14-de Venesiya hökumətinə hesabat vermiş, Səfəvilerin odlu atəş əldə etmək istədiklərini bildirmişdi. K.Laskari əlavə etmişdi ki, «türk mənşəli Səfəvi əsgərinin, ümumən bu xalqın hərbi döyüşdə silah işlətməkdə zəngin təcrübəsi var. Bu xalq üçün başlıca məsələ silah və -atdın). Səfəvi qoşununda «döyüş qaydası» mütləq hakimdir.

B.Amorettinin toplusunda Şah İsmayılın 1505-ci ilin yanvarında Venesiya respublikasının doju Leonardo Loredanoya yazdığı mektub daha dəyərlidir. Səfəvi şahı məktubda yazır: «Biz bütün Əcəm ölkəsini işğal etdik, indi çiçəklənir. Allahın kəramətinə inanırıq ki, elə bu ümidlə düşmən üzərində daha böyük qələbələr əldə edəcəyik. Vene

siya respublikası ve diger Qerb dövlətləri ile hərbi-siyasi ittifaq yaratmaq üçün məşhur həkim Əli bəy Avropaya göndərildi».

Osmanlı imperiyasının işğalçılıq siyasəti Avropa dövlətlərindən Polşa, Macanstan, Almaniyanın Hapsburq hökmranlığı ve İtaliya üçün də böyük təhlükə törətmişdi. Buna görə də Çaldıran döyüşlərindən sonra Setevilerin bu dövlətlərlə diplomatik münasibətləri genişləndi. Burada əsas məqsəd Türkiyəyə qarşı ittifaq yaradılmasından ibarət idi. 1 İsmayılın təşəbbüsü ilə yaradılmış bu ittifaqa Misir sultanı Əl- əd-dövlə və iberlər daxil oldulai'. Lakin bu ittifaq müsbət nəticə vermədi.

Çaldıran döyüşündə məğlubiyyətdən sonra Şah İsmayıl Avropa və Asiya ölkələrilə Türkiyə əleyhinə vahid cəbhə yaratmaq, odsaçan silah, top, artilleriya eldə etmək məqsədilə bu ölkələrlə diplomatik əlaqələri daha da genişləndirdi. I515-ci ildə Türkiyəyə qarşı birgə mübarizə haqqında Şah İsmayıl Rodos adasında yerləşən ioannitiər ordeninin (Türkiyə ilə düşmənçilik edən səlibçi cəngavərlərin hərbi təşkilatı) başçısına müraciət etdi. Bu vəziyyət Türkiyəni alman imperatomna zərbə endirməyə çalışan Fransa ile yaxınlaşdırdı.

Çaldıran döyüşündən sonra Səfəvi şahı Osmanlı imperiyasına qarşı mübarizə aparmaq və İran körfəzi vasitəsilə istənilən silahı almaq niyyətilə Portuqaliya ilə ittifaqa girdi. Məsələn, 15l5-ci il aprelin 29-da Venesiya respublikasının Kiprdəki canişini Zuan Hradeniqo Nikosiyadan öz hökumətinə xəbər verirdi: «təsdiq edirlər ki, Şah İsmayıl 100 mindən artıq qoşun və güclü artilleriya toplamışdır». 28 oktyabr 1518-ci il tarixli sənəddə qeyd edilir ki, «Sufinin (Şah İsmayıl) 70 minlik ordusuna Portuqaliya kralı terefındən göndərilmiş silahlı əsgərlər, artilleriya mütəxəssisləri daxildirlən>. Başqa bir sənəddə Sufinin «ordu ve silahla çox güclü» olduğu qeyd edilir.

Səfəvi şahı Almaniya imperatoru və İspaniya kralı V Karlla yaxınlaşmağa çalışırdı. O, 1518-ci ildə V Kari və macar kralı II Lüdviqə məktubla müraciət etmişdi. Lakin məktublar ünvanlara vaxtında çatmadığı üçün öz əhəmiyyətini itirmişdi. Bundan əlavə, Avropa ölkələrilə qızılbaş dövləti arasında məsafənin uzaqlığı da onların Türkiyəyə qarşı birgə əməliyyatına mane olmuşdu. Şah İsmayılın həm daxili, həm də xarici siyasəti hakim sinfin, birinci növbədə Azərbaycan qızılbaş e'yanlarının mənafeyi baxımından həyata keçirilirdi. Səfevi-Osmanıı müharibələri də Səfəvilərin Şeybanilərlə apardıqları müharibələr kimi dini bayraq altında-şiəliklə sünn^lük. arasında gedən

mübarizə idi. Əslində isə bu mübarizə Azerbaycanın zəngin təbii səı*vətlərine yiyələnmək. Ön Qatqazdan keçən və son dərəcə mühüm əhəmiyyət kəsb edən Avropa-Asiya ticarət yoluna nəzarət etmək uğrunda gedirdi.

Beləliklə, istər B.Amorettinin toplusundakı, istərsə də XVI əsrin birinci rübündə Azərbaycan tarixinə dair bizə məMum olan digər sənədlər onu göstərir ki, Avropada ilkin kapital yığımı və bÖ5dik coğrafi kəşflər vaxtında Səfəvi dövləti və Osmanlı imperiyası Qərb dövlətlərinin Şərqdə öz müstəmləkəçilik siyasətlərini heyata keçirməsi yolunda başlıca maneə idilər. Avropa diplomatiyası Şərqin bu iri türk dövlətlərini bir-biri ilə salışdırıb, onları daim müharibə vəziyyətində saxlayaraq zəiflətməyə və nəticə e’tibarile Avropa kapitalının Şərq ölkələrinə daxil olması üçün münasib şərait yaratmağa çalışırdı.

Sətəvi dövlətinin Qərbi Avropa ölkələrilə diplomatik əlaqələri XVI əsrin sonu-XVII əsrdə Şah Abbasın (1587-1629) vaxtında daha da genişləndi. Şah Abbas Osmanlı qoşunu üzərində bir neçə parlaq qələbədən sonra Səfəvi dövlətinin və Azərbaycanın Türkiyə tərəfindən zəbt edilmiş xeyli ərazisini xilas etdi.

Onu da deyək ki, Səfəvi dövlətinin Avropa dövlətlərilə qarşılıqlı əlaqələrinin genişlənməsi ölkənin ağır iqtisadi vəziyyəti ilə şərtlənirdi. Bu dövrdə, me’lumdur ki, Osmanlı imperiyası Səfəvi tacirlərinin Aralıq dənizinə girməsinə mane olurdu. Bundan əlavə, böyük coğrafi kəşflər, xüsusilə Hindistana dəniz yolu açıldıqdan sonra Səfəvi dövlətinin iqtisadi vəziyyəti daha da pisləşdi. Səfəvi dövlətinin ticarət mərkəzinə axışan hind ədviyyatı portəkizlər tərəfindən mənimsənilir, nəticə e’tibarilə isə bu malların alverində vasitəçilik edən Azərbaycan tacirlərinin mənafeyinə zərbə vurulurdu. Portuqaliya Hindistanın İran körfəzinə - Hörmüzdə çıxan əsas sahil məntəqələrinə (1515) yiyələndi. Bu vaxt Sətəvi dövlətinin Hind okeanına çıxış yolu bağlı idi. Ona görə də Səfəvi şahları belə məqsəd güdürdülər: owəla Avropa dövlətləri ilə birgə hərbi əməliyyat yolu ile Osmanlı Türkiyəsinə zərbə endirmək. Aralıq və Qara dəniz vasitəsilə Qərblə tranzit ticarətini qaydaya salmaq, ikinci, Şərq bazan üstündə Avropa dövlətləri arasında ticarət-siyasi ziddiyyətlərin mövcudluğundan istifadə edərək portəkizlərdən Hörmüzd adasını geri alıb. Hind okeanı və Hindistanla ən'ənƏvi ticarət münasibətlərini bəıpa etmək.

Səfəvi dövlətilə qarşılıqlı əlaqədə olan Avropa dövlətləri isə başqa məqsəd güdürdülər. Onlann hər birinin Şərqdə öz marağı vardı.

XVI esrİD 50-80-ci ilierinde ingilis Moskva kompaniyasının Rusiya vasitesilə Səfevi dövieti erazisinə ekspedisiya teşkil etmesi müstəmləkə siyasətinin həyata keçirilməsində bir cəhd idi. Gənc ingilis burjuaziyası güclü Osmanlı erazisi və Venesiya ticarət rəqabəti xaricində Azərbaycan və İranın xam ipəyinə yiyələnməyə çalışırdı. Antoni Cenkinson Şamaxıda Şirvan bəylərbəyi Abdulla xan Ustac- İmin qəbulunda olarkən demişdi: «...Bizdən azca uzaqda, venesiyalılar adlanan millət var. Onlar türklərlə ümumi re’ye gəlib onlann ərazi- sində bizim mal ilə alver edirlər, həmin mallan Səfəvi dövlətindən gətirilən ipəklə dəyişirlər. Lakin Səfevi hakimi və digər dövlət başçıları türklərin venesiyalılara yaratdıqlan şərait kimi bizə şərait yaratsalar - bizim onların ərazisində ticarət etməyə, pasport və qorunma vərəqəsi almağa razı olsalar, mən şübhə etmirəm ki, burada ticarət yüksək səviyyədə aparılar və böyük mənfəət eldə edilər. Onlar bizim mallarla tə'min olunar, eyni zamanda öz mallarını satmaq işini də yaxşılaşdıra bilərlən>.

Səfəvi dövlətinə gələn altı ingilis ekspedisiyasının başlıca məqsədlərindən biri Hindistanla bilavasitə əlaqə yaratmaq idi. Beləliklə, ingilis burjuaziyası Portuqaliya ilə hərbi-siyasi toqquşma olmadan Şərqə yol açmağa cəhd edirdi. Həm də hind ədviyyatı əldə etmək üçün dəniz yolundan daha əlverişli yol tapmağa çalışırdı. Lakin ingilis burjuaziyasının Azərbaycanda və İranda Moskva kompaniyasına xidmət edən agentləri Antoni Cenkinson, Artur Eduards, Riçard Çini, Lourens Çepmen, Riçard Pinqli tərəfindən həyata keçirilən ilk müstəmləkəçi addımı uğursuz oldu. Çünki Moskva dövləti ingilis tacirlərinə Rusiya ərazisində, yaxud onun vasitəsilə alver etməyi qadağan etmişdi. Rus dövlətinin bu addımı onunla izah edilir ki, İngiltərə IV İvana verdiyi sözün əksinə olaraq Livoniya müharibəsində Rusiyanın tərəfini saxlamadı, rus tacirləri öz bazarlarında ingilis ticarət kapitalı ile rəqabətdən çıxa bilmədilər. Digər tərəfdən ingilis kapitalının Azərbaycanda və İranda öz mövqeyini möhkəmləndirməsi çarizmin Şərq siyasətinə uyğun gəlmirdi. Buna baxmayaraq, ingilis burjuaziyası Volqa-Xezər yolu ilə Moskva dövləti ərazisindən Səfəvi dövləti və Hindistanla daimi ticarət münasibətləri yaratmaq cəhdinin boşa çıxmasından sonra. Hind okeanı hövzəsində Hollandiya və Por- təkizlə son dərəcə çətin və uzunmüddətli rəqabətə girməyi qərara aldı. XVI əsrin sonunda dəniz yolu ilə Səfəvi dövlətinin paytaxtma Entoni və Robert Şerli qardaşlan başda olmaqla səfarət hey*eti gəldi.

Səfovi şahı ingilis nümayəndə hey*ətini razılıq hissilə qəbul etdi. Çünki bu vaxt o, türklərə qarşı müharibəyə ciddi hazırlaşırdı. Ona görə danışıqlardan dərhal sonra Şah Abbas ingilis Robert Şerlini öz səfiri Kinıi bir sıra Avropa ölkələrinə göndərdi. Onu bəm də ingilis şahzadəsinin yanına göndərib türklər əleyhinə müqavilə imzalamağı təklif etdi. 1610>cu ilin oktyabnnda şahzadə I Stüart Robert Şerlini qəbul etdi, Şah Abbasın məktubu ile tanış oldu və ingilis buıjuaziya- sının mənafeyini ifadə edən şəxs kimi Səfəvi dövlətilə ticarət münasi> betlərinin imkanlarını öyrənməyi və genişləndirilməsini Ost-Hind kompaniyasının nümayəndələrinə tapşırdı. Şah Abbasın Türkiyəyə qarşı birgə mübarizə təklifinə gəldikdə isə, bu məsələ ingilis şahza< desini maraqlandırmadı. 1616<cı ildə Robert Şerli İngiltərədən məktubla Səfəvi şahının yanma qayıtdı. Ondan sonra Ost-Hind kompaniyasının nümayəndələri şahın yanına gəldilər. Damşıqlar davam etdirildi. Belə ki, İngiltərə ile ticarət münasibətlərinin genişləndirilməsi Səfəvi dövlətinin iqtisadi marağına uyğun gəldiyi üçün Şah Abbas 1616-cı üdə xüsusi fərmanla ingilis tacirlərinə ölkənin ərazisində sərbəst ticarət etmək hüququ verdi. Beləliklə, ingilis ticarət kapitalı bu dəfə İranın cənubundan Azərbaycan və Gilan ipəyinə «yeni qapı» aça bildi. Səfəvi şahının ərazisi ingilis mahudunu satmaq üçün ən əlverişli bazar idi. İngilis tacirləri Səfəvi dövlətinin ticarət məıkəz- lərində xam ipəkdən, ipək mallardan əlavə, nadir Azərbaycan və İran xaiçalan, müxtəlif zinət əşyalan və digər Şərq mallan eldə edirdilər. Səfəvi dözlətinin İngiltərə ilə ticarət elaqeleri genişlənirdi. Məsələn, 1625-ci ildə Londonda eyni vaxtda. Şah Abbasın iki nümayəndəsi Nağdəli bəy və Robert Şerli iki dövlət arasında ticarət münasibətlərini genişləndirmək üçün yeni danışıqlar apardılar. Lakin ingilis buıjuazi- yasının qarşısında Hollandiyanın Ost-Hind kompaniyası ile, habelə İspaniya və Portuqaliya ile hərbi-siyasi rəqabətdə uzunmüddətli və çətin vəzifələr dururdu. Bundan əlavə, Səfəvi şahı Avropa dövlətlərindən, o sıradan İngiltərədən lazımi hərbi yardımı almadığı, həmçinin Osmanlı imperiyası tərəfindən əvvəlki təhlükəni hiss etmədiyi üçün, indi xarici tacirləri ölkənin derinliklerine buraxmaq istəmir, onlara əvvəlki imtiyazlan verməklə kifayətlənir. Şah Abbas 1628-ci ildə Mazandaranda Ost-Hind kompaniyasmın nümayəndə heybətini qəbul edərək deyir «Əgər ingilis şahzadəsi bizimlə ticarət münasibətlərini inkişaf etdirmək istəyirsə, biz onlan ölkənin içərilərinə buraxmadan mahudun əvəzinə Hörmüzdde onlara ildə 10.000 yük ipək

verə bilərik, mahudu isə biz tatarlara, ərəblərə, erməü, gürcü və Rusiya əhalisinə sata bilərik».

Məhəmməd Xudabəndənin vaxtında Səfəvi dövlətinin daxili vəziyyəti. 1576-cı il mayın 14-də 1 Təhmasibin vəfatından sonra hərbi feodallar arasında çəkişmələr yenidən başlandı. Şahın oğulları - Məhəmməd, İsmayıl və Heydər arasında taxt üstündə mübarizə qızışdı. İsmayıl (Şah II İsmayıl, 1576-1577) qalib gəldi. Lakin saray çevrilişi nəticəsində II İsmayıl öldürüldü (24 noyabr 1577). II İsmayılın ölümündən sonra ölkədə ikihakimiyyətlilik yarandı. Qəzvində II Xəlilullahm dul aı-vadı Pərixan xanım dayısı Şamxal Sultanın köməyilə hakimiyyəti ələ aldı. Bütün əmirlər və «dövlətin sütunları» əvvəlcə ona tabe oldular. Onun vaxtında hətta qızılbaş əmirlərinin ağsaqqallar şurası yarandı. Pərixan xanım dövlət işlərini təkbaşına idarə etməyə başladı. Pərixan xanım gələcək şahın Şirazdan gəlişini eşidəndə müqavimətsiz tabe olmaq istəmədi. Dayısı Şamxal Sultan müqavimət göstəımək üçün öz adamlarını saraya topladı. Lakin qızılbaş əmirləri Pərixan xanımı tərk edib Məhəmməd Mirzənin tərəfinə keçdilər. Beləliklə, 1578-ci il fevralın 13-də Məhəmməd Mirae (Xudabendə) müqavimətsiz Qəzvində taxtda oturdu.

Məhəmməd Xudabəndə (1578-1587) birinci növbədə şahın düşmənlərini saraydan uzaqlaşdırdı. Pərixan xanımın dönüklüyünə görə onun əşyalarını 10-15 min tümən qiymətləndirib Lələ Xəlil xan Əfşara hədiyyə etdi. Fevralın 17-də Pərixan xanımı və onun bacısını e'dam etdirdi. Onun dayısı Şamxal Sultan aldadılıb tutuldu və öldüıül- dü. Məhəmməd Xudabəndə hətta 11 İsmayılın bir yaşlı oğlunu, gələcəkdə taxt-tac varisini məhv etməyi də unutmadı. Məhəmməd Xuda- bəııdənin taxta çıxdığı ilk gündən onun arvadı Məhdi Ülya «dövlət işlərini öz əlinə aldı». O, ali divanın vəkili vəzifəsinə yüksəldi. Padşahın fərmanının arxasında vəzirin möhürü üstündən onun möhürünün vurulması qərara alındı.

Yeni şah taxta çıxanda ə’yanların çoxu fəxri geyim və hədiyyə aldı. Əvvəlki vəzifələri və imtiyazları təsdiq edildi. Şərəf xan Bitlisi yazır ki, «əslində ölkə qızılbaş tayfa başçıları arasında bölünmüşdü. Onlar mərkəzlə hesablaşmır, ölkəni istədikləri kimi idarə edirdilər. Məhəmməd Xudabəndənin yalnız şahlıq adı qalmışdı. Əmirlər dövlət işini kor hakimə tapşırmışdılar». Məhəmməd Xudabəndənin dövründə xəzinə büsbütün boşaldı. 1 Təhmasibin yanməsrlik fəaliyyəti dövründə yığılmış var-dövlət bir il ərzində xəzinədən yox oldu. İsgəndər

Münşi yazır ki, «Şah dövlət xəzinəsinin qapılarını açdı, israfçılıq həddini aşdı». Hər gün dövlət xəzinəsindən zebq edilmiş qızılı sandıqlarla daşıyır və ətəklə qorçulara paylayırdılar. Qapılar divanın vəzifəli şəxslərinin üzünə açıq idi, rüşvət get-gedə artdı. Xəzinədən hətta qiymətli daşlar da yoxa çıxdı.

Qızılbaş tayfalarının hərəkətləri, e'yanlar arasında çəkişmələr, mərkəzi hakimiyyətə tabe olmamaq cəhdləri Sefeviler dövlətinə, onun müdafiə qüdrətinə sarsıdıcı zərbə endirdi.

Şah Məhəmməd və onun silahdaşlan səxavətlə pul, torpaq və digər hədiyyələr paylamaqla qızılbaş ə'yanlarının sədaqətini satın almağa çalışsalar da, bu mümkün olmadı. Şah hökuməti tayfa ə'yanları qarşısında tamamilə köməksiz idi.

I677-Cİ il kürd qiyamı. 1577-ci ildə Van hakimi Xosrov paşa Səfəvilərə qarşı kürd tayfalannm qiyamını təşkil etdi. Salmas və Təsuc hakimi Qazı bəy birinci ayağa qalxdı. Xosrov paşa I555-ci il sülhünün şərtlərini pozaraq, kürdlərlə birlnkdə Xoy üzərinə hücum etdi. Xoy hakimi Mahmud Sultan Rumlu qəflətən yaxalansa da, inadlı müqavimət göstərdi, lakin həlak oldu. Az sonra kürdlər Göyərçinlik qalasını və Urmiyanı tutdular. Hüseyncan Xunuslu öldürüldü.

Azərbaycanın hakimi tə'yin edilmiş Əmir xan Türkmən Təbrizə gəlib kürd qiyamlarını yatırmaq üçün 10-15 minlik qoşun toplayıb sərhədə doğru ıı*əlilədi. Qiyamçılar bir müddət qalalara sığındılar. Lakin bu yerlərdə hədsiz dağıntılar olduğuna görə Əmir xan və əmirlər kürdlər yenidən gələnə qədər burada möhkəmlənə bilmədilər. Xoy, Salmas, Urmiya əhalisi buranı tərk etdi. Bu yerlər kürdlərə tabe edildi. Tezliklə osmanlıların hücum edəcəklərindən ruhlanan Sulduz və Miyanədə (Marağa yaxınlığında) yaşayan mükri kürd tayfası da Əmir beyin başçılığı altında qiyam qaldırdı. Onlar Marağadan, keçmişdə I Təhmasibin xüsusi ilxısı olan 10 min seçmə ərəb atı apardılar..

Əmir xan Türkmən onların qarşısında aciz qaldı.

Elə bu vaxt Osmanlı türkləri terefinden qızışdınlan, atası öləndən sonra Dağıstanda və Çərkəz ölkələrində gizlənmiş Burhan Mirzənin oğlu Əbu Bəkr Şirvanda üsyan qaldırdı. O, ətrafına ləzgi və qarabörk tayfasından 2-3 min adam topladı, kömək üçün türk sultanına müraciət etdi və qızılbaşları qovandan sonra onun vassalı olmağa söz verdi. Vahid dink (sünnülüyü) qorumaq adı ile bir qrup şir\'anlı və Əbu Bəkr «qızılbaş köləliyindən» azad olmaq üçün İstanbula gəldi. Osmanlı türkləri Şirvana yüıüş edənə qədər Əbu Bəkr Türkiyədə qaldı.

1578-ci ildə Osmanlı qoşununun Ön Qafqaza yürüşü. Cildir döyüşü. Sultan II Murad (1574-1596) yaranmış vəziyyətdən istifadə etdi və müharibəyə ciddi hazırlaşdı, islamın (sünnülerin) şiələrə qarşı «müqəddəs müharibə» şüannı irəli sürdü. Sultanın tə’siri altında qızılbaşlar əleyhinə kürd qiyamı və Şirvandakı üsyan bir zəncirin həlqəsi idi. Türk ordusunun baş komandanı Mustafa Lələ paşa Ərzrumda 100 minlik qoşun topladı. Türkiyə öz vassalı Krım xanı 1 Məhəmməd Geraydan 0577-1584) da tatarların bu yürüşdə iştirakını tələb etdi. Bundan əlavə, Dağıstan feodal hakimlərinə Kumık və Qaytağm hakimi Çitlav Şamxala, Tabasaran hakimi I Qazı Salehə və Avar hakimi Töğa Laz BürhanəddinƏ Gürcüstanı və Şirvanı işğal etmək üçün Türkiyəyə kömək etmələri barədə göstəriş verildi.

Mustafa Lalə paşa birinci növbədə Qars qalasını bərpa edib, oraya qoşun yerifdi. Çuxur-Se’d bəylərbəyi Ustadı Məhəmməd xan Toxmaq Osmanlı türklərinin bu əraziyə basqını barədə Qəzvine mə’lumat verdi.

Qızılbaş əmirləri vətən üçün təhlükəli vaxtda öz qüvvələrini bir> ləşdirmək barədə elə bir təşəbbüs etmədilər. İmamqulu xan Qacar Çuxur-Se’d bəylərbəyinin səsinə səs verdi. Qoşunla Qarabağdan bura gəldi. Onların 15 minlik qoşunu vardı. Onlar Qarsın şimali-şerqində Çildir gölünün sahilində Əmir xan Türkmənin dəstəsini gözləyirdilər. Qızılbaş hərbi xadimləri türklərin Gürcüstana yolunu kəsmək istəyirdilər.

Beləliklə, birinci növbədə türk ordusunun əsas hissəsilə toqquşan qızılbaşlar qalib gəldilər. Bunu eşidən Mustafa Lələ paşa yenidən 20- 30 min nəfər göndərdi. Öz arxasından ayn düşmüş bu hissə de darmadağın edildi. Lakin özdəmir oğlu Osman paşanın yeni qüvvə ile döyüşə daxil olması qızılbaşlan sarsıtdı.

Səfəvi ordusunun komanda bey’ətində birliyin olmaması, Azerbaycan və gürcü qoşunları əməliyyatının əlaqəlendirilmeməsi, qızılbaş əmirlərinin həddindən artıq özlərinə arxayın olmalan, türklərlə döyüşə əhəmiyyət vermemeleri, qüvvələr nisbətinin fərqi-bütün bunlann hamısı Çildir döyüşündə onlann məğlubiyyətinə səbəb oldu, həm də Sefevilər Mustafa Lələ paşanın 100 minlik qoşununa qarşı 10-15 min nəfərlə döyüşürdülər.

Çildir döyüşündən sonra Məhəmməd xan Toxmaq Çuxur-Sə’də, İmamqulu xan isə Qarabağa qayıtdı.

Türklərin Gürcüstana və Şirvama yürüşləri. Çildir döyüşündən sonra Mustafa Lələ paşa türklər üçün Gürcüstana qapı açdı. Bu

vaxt gürcü feodallan arasında çəkişme vardı. Onların bir qismi Səfe> viləre, diger qismi ise türklerə meyl edirdi. Səfəvilərin məğlub olmaları da Türkiyeye meyli artırırdı. Onlardan Mehsi şahzadesi Menuçöhr və onun qardaşı Kvarkvare diqqəti daha çox cəlb edirdilər. Mustafa Lələ paşanı Şirvana müşayiət edən elə Menuçöhr idi.

Mustafa Lələ paşa Şirvandan qayıtdıqdan sonra Kartli çarı Simonun və Kaxetiya çarı Aleksandnn yanma qasid göndərib tabe olmalarını tələb etdi. Simon təklifi rədd edib, türklerə qarşı partizan müharibəsi e*lan etdi. Aleksandr isə tabe oldu. Osmaqlı qoşunu 1578-ci il avqustun 24-də Tiflisi, sonra ise Qorini tutdu. 60 minlik türk qoşunu Tiflisdə yerləşdi. Zəyəm və Hərəm hakimləri də türklerə tabe oldular. Gürcüstan türklər tərəfindən zəbt ediləndən sonra Şəki hakimi İsa xan*^ Səfəvilərin tərəfinə keçdi.

1578-ci il sentyabnn 9-da Osmanlı qoşunu Qanıx (Alazan) çayına çatdı, qızılbaşlarla burada döyüşə girdi. Bu döyüşdə Osmanlı ordusu böyük itki verdi. Əmir xanın başçılığı altında qızılbaşlar xeyli qənimət və əsir əldə etdilər. Bu qələbədən sonra Əmir xan Qarabağa qayıdıb Həmzə Mirzənin əsas qüvvələrini gözlədi. Bu vaxt onun oğlu Sultan Murad xan gənc qızılbaş dəstələri ile Alazanı keçib türklərə yeni zərbə vurdu. Lakin son məqamda bu dəstə əzildi, Əmir xan salamat qalmış qoşunla Təbrizə qayıtdı.

Osmanlı qoşunu Şirvana daxil olanda yeni qiyam qalxdı. Şirvan hakimi qızılbaş Aras xan Rumlunun yaxınlaşdığını eşidən Mustafa Lələ paşa Alazanı keçməyə tələsdi və sentyabnn 10-da Osmanlı qoşunu çayı keçməyə başladı. Lakin keçid yubandı, çoxu çayda boğuldu, yanıçarlann içinə iğtişaş düşdü, onlar vətənə qayıtmağı tələb etdilər, 2 min nəfər döyüşə getməkdən imtina etdi. Mustafa Lələ paşa isə öz inadından dönmədi. Bu keçid 8 min türkün həyatı bahasına başa çatdı, sentyabnn 16-da Mustafa Lələ paşa Ərəşe daxil oldu. Türklər üç həftə burada qaldılar, yürüş üçün bir aylıq ərzaq topladılar, qala tikdilər. Qaytas paşanın başçılığı altında burada S min nəfərlik hərbi hissə yerləşdirildi.

Şirvan bəylərbəyi Aras xan Şirvanı tərk edib Kürün cənub sahilinə çəkildi. Elə bu vaxt Əbu Bəkr Mirzə de üç min nəfərlik ləzgi və şirvanlı dəstəsi ile Şirvana doğru irəlilədi. Beləliklə, Osmanlı ordusu

13 2^yam hakimi Levend Gürcünün oğlu tsa islamı qəbul etdikdən sonra Şəkiyə hakim te*yin edilmişdi.

Ərəş, Şamaxı, Qəbələ, Bakı, Şabran, Mahmudabad, Salyanı müqaviniətsiz tutdu. Bu hadisə Azərbaycan ve Ermənistanın xeyli köçəri kürd tayfalarının və Şimali Azerbaycan sünnü ə'yanlarının türklərin tərəfmə keçmələrini asanlaşdırdı. Şirvan əhalisi bə’zi yerlərdə türklərə qarşı çıxmadılar, hətta qızılbaşlara qarşı qiyam qaldırdılar. Yerli sünnü e’yanlar keçmiş müstəqil Şirvan dövlətinin bərpa olmasına ümidlərini itirməmişdilər və sultan ordusunun gəlişinə böyük ümid bəsləyirdilər. Belə ki, Osmanlı qoşunu şəhərə daxil olarkən der- bəndlilər qiyam qaldırdılar və Dərbəndin Səfəvi hakimi Çırax xəlifə 300 qızılbaşla birlikdə məhv edildi.

Şirvan tutulduqdan sonra burada Osmanlı herbi-inzibati idarə üsulu yaradıldı. Şirvan iki bəylərbəyiiye-Şamaxı ve Dərbənd bəylərbəyliklərine bölündü. Sultan müstəqil Şirvan dövlətinin bəıpa edilməsi barədə Şirvan ə’yanlarının ümidini doğrultmadı. Osman paşa buraya hakim tə’yin edildi.

Mustafa Lələ paşa isə Ərzruma qayıtdı. Qayıdanbaş o, Tiflis ərazisində Qarabağ bəylərbəyi İmamqulu xan ve Kartli çarı Simonun birgə hücumuna mə’ruz qaldı, 20 min nəfər itki verdi, qızılbaşlar xeyli qənimət əldə etdilər.

Mustafa Lələ paşa Şirvandan qayıdandan sonra. Osman paşa Gəncəyə, Salyana hücum etdi. Lakin Aras xanın müqavimətinə rast gəldi və Şamaxıya çəkilib Krım tatarlarını gözlədi. Elə bu vaxt qızılbaşlar Ərəşi geri aldılar. Osmanlı qoşununun bir hissəsi üsyançılar tərəfindən darmadağın edildi.

Mə’lumdur ki, Əbu Bəkr Şirvanı ələ keçirməyə hazır idi. Ona görə də Mustata Lələ paşa ölkəni tamamilə tabe etmək üçün Osman paşaya kömək etməyi Əbu Bəkıə tapşırdı ve vətənə qayıtdıqdan sonra Şirvana hakim tə'yin edilməsi barədə sultandan xahiş edəcəyini ona və’d etdi.

1578-ci il sentyabrın 27-də yaranmış vəziyyətdən istifadə edən Məhəmməd Xudabəndənin oğlu Həmzə Mirzə 30 minlik qoşunla əks hücuma keçib, Ərdəbildən Qarabağa gəldi. Burada əmirlərin və vəzir Mirzə Salmanın qoşunu ilə birlikdə Kürü keçib Şirvanı türklərdən azad etməyi qəram aldı.

Bunu eşidən Aras xan fəaliyyətsizlikdən, ölkəni düşmənə güzəştə getməkdə təqsirləndiriləcəyindən ehtiyat edərək şimala adlayıb əmirlər gələnə qədər Şamaxını mühasirəyə almağı qərara aldı. Bu məqsədlə də Kürü keçib Şamaxıya gəldi. Lakin qızılbaşlar sultan qoşunu.

Krım tatarlan, ləzgilər, qarabörklər və Əbu Bəkr Mirzənin Şirvan üsyançıları tərəfindən darmadağın edildilər. Aras xan bir qrup qızılbaşla birlikdə əsir alındı və e’dam edildi. Qoşunun yalnız bir hissəsi ölümdən xilas oldu.

Buna baxmayaraq. Həmzə Mirzə, Mirzə Salman ve əmirlər tələsik Qarabağa gəldilər. Qoyun Olumundan Kürü keçib Şirvana daxil oldular, az sonra Şamaxı qalasında Osman paşanı mühasirəyə aldılar və 1578-ci il noyabrın 28-də Ağsu çayı sahilində, Mollahəsən adh yerdə Adil Gəraym on iki minlik, ləzgi, qarabörk ve şirvanlıların beş minlik birleşmiş qüvvələrini darmadağın etdilər. Adil Gəray əsir alındı. Aras xanın məğlubiyyəti zamanı qızılbaşlar itirdikləri qəniməti geri qaytardılar. Bu vuruşmada Məhəmməd Xudabəndənin arvadı Bəyim de iştirak edirdi. Müasirləri onu «ağıllı, bacarıqlı və tədbirli» qadın kimi tesvir edirlər. O, Şirvana 30 minlik qoşun getirdi, bu qoşun düşmən qüvvələrini əzməyə kömək etdi.

Tatarlar üzərində qələbə çaldıqdan sonra Mirzə Salman te’cili Şamaxıya gəldi. Hadisədən xəbər tutan və köməkdən məhrum olan Osman paşa Şamaxını tərk edib Dərbəndə qaçdı. Qızılbaş qoşunu onu Şabrana qədər tə’qib etdi. Şirvan türklərdən azad edildisə də, onların istinad nöqtəsi-Dərbənd azad edilmədi.

Mollahəsəndeki qələbəyə baxmayaraq, Səfəviler Şirvanda möhkəmlənə bilmədilər. Əslində Dərbənddən başqa türklərin burada heç bir dayanacaq yerləri yox idi. Onlar ləzgi ve Dağıstan hakimləri vasitəsilə Şirvandakı qızılbaş əmirlərini daim narahat edirdilər.

Krım tatarlarının Şirvana və Qarabağa hucumu. 1579-cu ilin yayında Krım xanı Mehemmed Gəray 100 minlik qoşunla Türkiyə sultanının tə’kidilə hərbi qənimət əldə etmək üçün Baxçasaray və Şimali Qafqazdan Şirvana doğru irəlilədi. Osman paşa onu Dərbənddə qarşıladı. Oktyabrın 23-də tatar qoşunu Şamaxıya çatdı ve buradan Şirvanın müxtəlif rayonlarına dəstələr göndərib Şimali Azərbaycanı qarət etdi. Lakin onlar qızılbaşların əks qüvvəsinin gəlişini eşidib Azərbaycanı tərk etdilər. Azərbaycandan çəkilərkən Kafedə qul bazarında satmaq üçün çoxlu qadın və uşaq əsir apardılar. Tatarların Krıma qayıtması ve qızılbaş qoşununun Şirvana daxil olması xəbəri Oərbənddəki türk qarnizonu içərisinə vəlvələ saldı.

Qışın sərt keçməsinə baxmayaraq, qızılbaş əmirlərit Mirzə Salmanla birlikdə Qarabağdan Şirvana gəlib gec də olsa Şamaxını mühasirəyə aldılar, .bir neçə gündən sonra onu ələ keçirdilər.

isgəndər Münşi yazır ki, Əmir xan Türkmən də öz qoşunu ilə Xaçmazda toplanan şirvanlılara və dağıstanlılara doğru irəlilədi. Lakin bu yürüş qızılbaşlar üçün uğursuz oldu. Çünki onlann arasında birlik yox idi. Bu, həm də qızılbaş tayfalan arasında parçalanmaya səbəb oldu. Şahrux xan Zülqedər tərəfindən müdafiə olunan şamlı və ustadı əmirləri Əmir xan əleyhinə açıq e'tirazlarını bildirdilər. Əmir xan isə ona qarşı yönəldilmiş bu cinayətin baş sərkərdə Mirzə Salman tərəfindən təşkil edildiyini eTan etdi. Yaranmış şəraitdən istifadə edərək şirvanlıları birlikdə darmadağın edib Osman paşanı Dərbənddən sıxışdırmaq əvəzinə, qızılbaş əmirləri iki düşmən cəbhəyə parçalandılar. Lakin bu dəfə də qorçubaşı Qulu bəy Əfşar müdriklik gösterərək qan tökülməsinin qarşısını aldı. Lakin «onlann ürəklərində düşmənçil ik məş * əli yanırdı».

Bu dövrdə Azərbaycanda vəziyyət son dərəcə ağır idi. Aramsız müharibələr, əkinlərin tapcknması, 1578-1579-cu illərdə türk-tatar və qızılbaş qoşunu tərəfindən törədilmiş talanlar, soyğunçuluq, quraqlıq-bütün bunlar Şirvanda, Qarabağda, Cənubi Azerbaycanda aclıq və xəstəlik törətdi. Bə*zi yaşayış yerləri vəhşi heyvanlann məskəninə çevrilmişdi.

Qazı Əhmədin yazdığına görə, bu illərdə dəhşətli bahalıq idi, Təbrizdə 1 man çörək 300 dinara, 1 xervər və 100 man buğda isə 25 min dinara satılırdıAlban tarixçisi, hadisələrin şahidi Ovannes Saretsi yazır: «1579-cu ildə Atrapatakanida və bütün Albaniyada minlərlə insan həyatını aparan dəhətli xəstəlik baş verdi, çoxlu ailələr sahibsiz, atalar və analar övladsız qaldı...». İsgəndər Münşi yazırdı ki, qızılbaş əmirlərinin Şirvana payız yürüşünün uğursuzluğu məhsul- suzluqla, qıtlıqla, bahalıqla bağlı idi... rəiyyət acından ölürdü.

1580- cİ ildə qızılbaş ə'yanları İçərisində ara müharibələri. Qeyd etdik ki, Xaçmaza yürüşə görə Əmir xanla Şahrux arasında ziddiyyət başdladı.* Ustadı və şamlu tayfalarının« başçısı Pirməhem-məd xan Ustadı və Hüseyn xan Sultan eşikağasıbaşı şamlu Şahrux xanı müdafiə edir və türkmən tayfasma qarşı çıxış edirlər. Lakin Qulu bəy bu tayfalann silahlı toqquşmasmın qarşısını aldı. Əmirlər Şirvan yürüşündən Təbrizə qayıtdıqdan sonra qızılbaş tayfalan arasında ziddiyyət daha da kəskinləşdi. Bu hadisəni yaxşı dərk etmək üçün Xora- sandakı vəziyyətə qısa nəzər salaq.

Man v8 ya batman. Naxçıvan manı 13 kq., Təbriz manı 3 kq.-a bərabər idi. Xərvər - 500 kq, dinar - I manat qızıl pula bərabər idi.

II Şah İsmayıl şamlu əmiri Əliqulu xanı Herata hakim te'yin etdi. Şah Məhəmməd Xudabəndə isə onu bu vəzifəyə təsdiqlədi və onu öz oğlu Abbas Mirzənin (gələcəkdə I Şah Abbas) lələsi etdi. Əslində Xorasanın nominal canişini Abbas Mirzə hesab olunurdu. Lakin bütün işləri Əliqulu xan idarə edirdi.

1578-ci ildə Əliqulu xan Mürşüdqulu xan Ustadı ile birlikdə balaca Abbası guya təhlükə gözlədiyinə görə, anası Məhdi Uliyə vemaekdən imtina edib onu taxtın varisi kimi saxladılar və dövləti onun adından idarə etməyə başladılar. Əliqulu xanın güclənməsi Məşhəd hakimi Murtuzqulu xan üçün də təhlükəli idi. Türkmən və təkəli tayfa əmirləri Əliqulu xanı müdafiə edir, onu özlərinin hakimi seçir və «xanlar xanı» hesab edirdilər. Beləliklə, Xorasanda-Heratda və Məşhəddə bir-biri ilə düşmənçilik edən iki qrup yarandı. Bu qruplar arasında gedən mübarizədə Əliqulu xan Şamlunun qohumlarının məğlubiyyəti Xorasanda qızılbaş qiyamçı tayfalannı sakitləşdirmədi, əksinə Əliqulu xanla və şamlu əmirləri ilə danışıq aparmaq imkanını əldən çıxardı və Xorasanın yarısının Səfəvi dövlətinin tərkibindən çıxmasına, 1581-ci ildə şahzadə Abbasın Xorasan əmirləri tərəfindən şah e'lan edilməsinə mane oldu.

## § 4. SƏFƏVİ-OSMANLI MÜNASİBƏTLƏRİ VƏ AZƏRBAYCAN UĞRUNDA MÜBARİZƏ

Səfəvilər vəziyyətin son dərəcə ağır olmasına baxmayaraq, Şiıvanı türklərə güzəştə getmək istəmirdilər. 1580-ci ilin əvvəlində Təbrizdə Şirvana yeni yürüş etməyi qərara aldılar. Bu vəzifə Salman xan və ustadı əmirlərinə tapşırıldı. Qızılbaş qoşunu Aras'bar yolu ile, susuz səhralarla Şirvana doğru istiqamət alıb Həmşəhr'^ yaylağında dayandı.

1580-ci ilin yayında. Hacı Maqsud bəy Zülqədər başda olmaqla qızılbaş nümayəndə hey'əti Ərzıaıma gəldi. Avqustun 15-de İstanbulda onlan Sultan 111 Murad qəbul etdi. Məhəmməd Xudabəndənin məktubu sultana verildi. Məktubda ilk qızılbaş səfiri Vəli bəy Ustadının türk sərhədçiləri tərəfindən tutulması, Osmanlı qoşununun soyğunçuluq və talanla məşğul olması, müsəlman qadın və uşaqlan-

A. Bakıxanov «Ərəbşəhr» ynzır. Bax: «Gülüstani-lrəm», Bakı, 1931, llO-lll.

nın əsir aparılması barədə narazılıq bildirilir, sülhü bərpa etmək, sakitliyi və ibadət üçün təhlükəsizliyi tə'min etmək arzusu ifadə olunurdu.

Osmanlı türkləri itiriləni geri qaytarmaq və Şiı-vanı əldə saxlamaq üçün bütün imkanlardan istifadə edirdilər. Dərbənddə saxlanılan Osman paşanın ağır vəziyyəti III Sultan Muradı narahat edirdi. O. üçüncü vəziri Sinan paşanı orduya komandan tə'yin edib Şirvana yeni yürüşə göndərdi. Sinan paşa Ərzruma xeyli qoşun toplayıb Öz səfirini hədələyici məktubla Səfəvi sarayına göndərdi.

Qızılbaş əmirləri, xüsusilə Şahmx xan türklərin qarşısında dayanmaq üçün özündə kifayət qədər qüvvə hiss etməsə də, əmirlər arasında birlik olmasa da Sinan paşanın iddialanna sərt cavab verdi.-«Yüz min qızılbaşdan bir nəfər qalana kimi mübarizədən çəkinməyəcəyik. İndi Lələ paşanın vaxtı deyil. O, yürüşə başlayanda bizim padşah İraqda idi və qızılbaş əmirləri arasında birlik yox idi. İndi qızılbaş qoşunu Azərbaycandadır, döyüşə hazırdır. Siz yazırsınız ki, guya Şirvan ölkəsi osmanlıların əlindədir, o çaşqınlıqdır. Şirvan həmişəki kimi qızılbaş əmirləri tərəfindən tutulmuşdur. Rumlular yalnız Dərbəndin dörd divarına sihibdirlər. Əgər Lələ paşanın vaxtında qızılbaşlarda birlik olsaydı, düşmən allah tərəfindən qorunan ölkəyə (Səfəvi dövlətinə) daxil olmağa cür'ət etməzdi».

Qızılbaşların qəti cavabı Sinan paşanın qəzəbini bir qədər azaltdı. İkinci məktubunu bir qədər yumşaq yazdı. Qızılbaşların cavab məktubu da dostluq məktubu oldu.

Sinan paşanın təklifinə görə qışı keçirmək üçün tərəflər öz yerlərində qaldılar. Lakin bu və' ya digər erazinin kimə mənsub olmasını aydınlaşdırmaq üçün Şirvana nümayəndə göndərilməsi məsləhət bilindi. Bu məqsədlə Ömər ağa adlı bir nəfər Şirvana gəldi. Sinan paşa qoşunla Ərzruma getdi. Şah isə qışlamaq üçün Naxçıvandan Qarabağ yaylağına çəkildi.

Elə bu vaxt Şirvan Krım tatarlarının üçüncü - Qazı Girey və Səfi Gireyin talançı basqınına mə'ruz qaldı. Bu, qızılbaşlar üçün qəfil hücum idi. Şirvanda qızılbaş qoşunu yox idi. Hələ Salman xan əmirlərlə Kürü keçməmişdi və Qarabağ yaylağında idi. Şirvan dönükləri Salman xanın düşərgəsinin yerini belə, tatarlara demişdilər. Qızıl- başlann bəxtindən bir həftə idi ki, leysan yağış yağırdı. Ona görə də qızılbaşlar tatarların yaxınlaşmasını hiss etmədilər. Ondan başqa şirvanlılar düşməni Kürün çətin yerindən keçirdilər. Halbuki buradan

hücum gözlənilmirdi. Qızılbaşlar hətta silahlanmağa vaxt tapmadılar. Ona görə də çoxu qaçıb canını qurtardı, bir hissəsi isə həlak oldu. Tatarlar qızılbaş düşərgəsini talan etdikdən sonra həmin gün də geri qayıtdılar. Buna qədər Osman paşa tatarlann köməyilə Bakıya türk dəstəsi daxil edib, qalanı möhkəmlətmişdi.

Şah, Qarabağa çatanda Salman xanın tatarlar tərəfindən darmadağın edildiyini gördü. Şah tə'cili qışladığı Qızılağacdan Mirzə Salman, Əmir xan, Quli bəy qorçubaşını, Şahrux xanı, Pirməhəmməd xanı və digər əmirləri qoşunla Mollahəsən qəsəbəsinə göndərdi. Burada qızılbaş qoşununun türk və tatarlarla görüşü oldu. Onlar qızılbaş həmlələrinə dözə bilməyib geri çəkildilər. Türklər Dərbənddə möhkəmləndilər, tatarlar isə Dağıstan yolu ilə Knma qayıtdılar.

Qızılbaş qüvvələrinin Şirvana gəlişini eşidən Salman xan qoşunla tələsik Kürü keçib Bakıya gəldi. Əmir xan Türkmən və digər əmirlər rəqibləri Şabrana qədər tə’qib etdilər, geri qayıdarkən Bakını mühasirəyə alan Salman xanın qoşunu ilə birləşdilər. Qızılbaşlar 18 gün türk qarnizonunun müqavimətini qırmağa çalışdılar, lakin müvəffəq ola bilmədilər və qoşunu mühasirədən çıxardılar. Çünki türklər Dərbənddən gələn gəmilərlə daim ərzaq və hərbi sursatla tə*min olunurdular. Qızılbaşlar isə quraqlıq və qıtlıqla əlaqədar ərzağa ciddi ehtiyac hiss edirdilər. Səfəvi qoşunu Şirvanı tərk edib Qarabağa qayıtdı həmin qışı Şirvanda bir nəfər belə olsun qızılbaş qalmadı. Osman paşanın qoşunu tədricən yenidən Şirvanın bir sıra rayonlanm zəbt etdi.

Osmanlı nümayəndəsi Ömər ağanın Şirvana-Səfəvi sarayına gəlməsi ərəfəsində onu qabaqlamaq üçün Şirvanın tutulmuş ərazisini (ə'cili geri qaytarmaq qərara alındı. Bu əməliyyatın həyata keçirilməsi Qarabağ hakimi İmamqulu xan Qacara həvalə edildi. Peykər bəy Ziyad oğlu Qacar Şiıvana yeni hakim tə’yin edildi.

Qızılbaş nümayəndələri ilə Şirvanı gəzən Ömər ağa əmin oldu ki, Dərbəndlə Bakıdan başqa türklər tərəfindən heç bir yer tutulmamışdır. Bundan sonra osmanlı nümayəndəsi, onu müşayiət edən sətəvi Şahqulu Sultan Tebet oğlu Zülqədərlə birlikdə «əsl həqiqəti» bildirmək və sülh danışıqları aparmaq üçün Ərzruma, Sinan paşanın yanma gəldilər.

Ancaq Sinan paşanın Osman paşa ilə münasibətlərinin gərgin olması sülh danışığının aparılmasına mane oldu. Sinan paşa Şahqulu sultanı məktubla geri göndərib danışıq üçün Sultan sarayına layiqli əmirlərdən birini göndərməyi tələb etdi. Bu məqsədlə Qum hakimi

ağıllı, tədbirli və ehtiyatlı İbrahim xan dəyərli hədiyyə ilə İstanbula göndərildi. İbrahim xan burada sülh danışığı üçün münasib şəraitin olmadığını anladı. Sefəvilərlə danışıq aparan əsas şəxs Osman paşa Dərbənddə oturmuşdu. İbrahim xanın cəhdi nəticə vennədi. Ona görə də o yeddi il Osmanlı paytaxtında qaldı. Yalnız Şah Abbasın vaxtında vətənə qayıtdı.

Şərəf xan Bitlisinin yazdığına görə, Sinan paşa İstanbula, Məhəm> məd Xudabəndə Qezvinə qayıtdıqdan sonra razılıq əldə edildi. Sinan paşa baş komandanlıq vəzifəsindən azad edildi, onun yerinə Fərhad paşa tə’yin edildi.

1581- ci ilin yazında Krım tatarları Qazı Girey və Səfi Gireyin rəhbərliyi altında dördüncü dəfə Şirvana basqın etdilər. İmamqulu xan Qacar kömək üçün Şirvan bəylərbəyi Peykor xana güclü qızılbaş dəstəsi göndərdi. Osman paşa da öz növbəsində tatarlara kömək üçün Dərbənddən xüsusi türk qoşun dəstəsi göndərdi. Peykər xan Şamaxıya doğru irəliləyən tatarlan qarşıladı, Şamaxı ilə Şabran arasında döyüş oldu. Qazı Girey əsir alındı, tatar və türklərin birləşmiş qoşunu məğlub oldu.

Elə həmin ildə Peykər xan öldü, Xəlitə Ənsar Qarabağlı Şirvana hakim tə'yin edildi. Lakin o, Şirvanda uğur əldə edə bilmədi. Onun ölümündən sonm, l582-ci ildə şah Qarabağdan İraqa gedib Xorasana yürüş etdi. «Qızılbaş əmirləri Şirvanda qala bilmədiIəD>. Bundan istifadə edən Osman paşa yenidən Şamaxıya daxil olub Şirvanda türk hakimiyyətini bəıpa etdi.

1583-cü ilin yazında İmamqulu xan yeni qüvvə ile Kürü keçib Şirvana daxil oldu. O, Şamaxıda Yaqub bəyin Niyazabada qoşun topladığını öyrəndi və Rüstəm xanı türklərə qarşı döyüşə göndərdi. Döyüşdə osmanlı türkləri tamamilə dannadağın edildi, Yaqub bəy öldürüldü. Qızılbaşlar onları Dərbəndə qədər tə’qib etdilər. Samur çayı sahilində Baştəpə adlı yerdə onlara köməyə gələn Osman paşa ilə döyüş oldu. Tarixdə «məş’el savaşı» adlanan bu döyüş bir neçə gün davam etdi, yalnız dördüncü gün osmanlılar üstünlük qazanıb qızılbaşları döyüş meydanını tərk etməyə məcbur etdilər.

Səfəvi dövlətinin hərbi uğursuzluqlan qismən ölkədəki ağır vəziyyətlə əlaqədar idi. 80-ci illərin əvvəllərində Azərbaycan qızılbaş ə*yanları ilə İran feodal nümayəndələri arasında mübarizə getdikcə gerkinləşdi. Bu dövrdə Mirzə Salman yeganə şəxs idi ki, İran feodal nümayəndəsi kimi vəzirliyi saxlaya bildi.

Mirzə Salman biıinci dəfə şah Təhmasibin hakimiyyətinin son dövründə saraya gəldi ve saray təsərrüfatının işlər müdiri vəzifəsinə tə'yin edildi. Şah II İsmayıl onu vəzir tə'yin etdi. II İsmayılın ölümündən sonra, şah Xudabəndənin və onun arvadının qılığına girdi, divanın ali vəziri tə'yin edildi. Hətta o öz qızını taxtın varisi olan Həmzə Mirzənin vəliəhdinə ərə verməyə, böyük oğlu Mirzə Abdullanı isə şahzadənin vəziri te'yin etdirməyə müvəffəq oldu. Beləliklə, Mirzə Salman tam qeyri-məhdud hakimiyyətə can atırdı. O, sarayda qızılbaş ə'yanlan içərisində baş verən bütün ziddiyyətlərin iştirakçısı idi. Qızılbaşlara divan tuturdu. 1582-1583-cü illərdə şah Xorasan qiyamçılarına qarşı yürüş edəndə Mirzə Salman şah qoşunları tərafindən əsir alınmış bir sıra ustadı və şamlu əmirlərini e'dam etdirdi.

Odur ki, qızılbaş əmirləri vəzirin onlara qarşı olan fitnəsini başa düşüb, 1583-cü ildə Heratda onu öldürüb, var-dövlətini müsadirə etdilər.

1582- ci ilin əvvəllərində Sinan paşa Səfəvilərlə sülh bağlamaq məqsədilə qızılbaş səfiri İbrahim xan Tərxanla birlikdə Ərzıaımdan İstanbula gəldi. Lakin Dərbənddə oturan Osman paşa sülhün əleyhinə idi. Elə bu əsnada Osman paşa Şirvanın bir hissəsini zəbt edərək sultandan əlavə qoşun istəyirdi. Ona görə de Sultan Murad İbrahim xan Tərxana şahın Şirvanda Osmanlı hakimiyyətini tanıdığı təqdirdə sülh imzalanmasına tərətidar olduğunu bildirdi. Əks halda Osmanlı qoşunu yürüşü davam etdirəcəkdi. Uzaqgörən İbrahim xan Torxan nümayəndə bey'ətinin üzvlərindən birisini məktubla Xorasana, şahın yanına göndərib vəziyyət haqda mə'lumat verdi, ölkəni qorumaq, daha çox qızılbaş torpağı itirməmək üçün sülhün ağır şərtlərini qəbul etməyi məsləhət gördü. İsgəndər Münşi yazır ki, qızılbaşlar içərisində parçalanma və zidiiyyət olmasına baxmayaraq, onlar cavab məktubunda bildirdilər ki, əgər sultan 1555-ci il sülhünün şərtlərinə razı deyilsə, onda qızılbaşlar heç vəchlə Şirvanı türklərə güzəştə getməyəcəklər.

Ona görə de 1583-cü ilin yazında-yeni ordu komandanı Fərhad paşa 70-80 minlik qoşunla Ərzrumdan Qars istiqamətindəki Çuxur- Sə'd vilayətinə daxil oldu. Osmanlı türklərinin üstün qüvvələrini gö- ran Çuxur-Sə'd bəylərbəyi Məhəmməd xan Toxmaq Ustadı kömək üçün Qarabağ və Cənubi Azərbaycan hakimləri İmamqulu xan Qacara və Əmirxan Türkmənə müraciət etdi. Lakin, bu emirlər hələ Xorasanda olan şahın yardımı olmadan türk qoşununun qarşısına çıxacaqlarına inanmadıq[larından Məhəmməd xanın çağırışını cavabsız

qoydular. Çünki qızılbaş əmirləri kürdlərin yaxınlaşmasına gorə Təbrizin müdafiəsini daha vacib hesab edir, oradan uzaqlaşmaq istəmirdilər. Buna görə də Məhəmməd xan İrəvanı tərk edib Naxçıvana çəkildi. Fərhad paşa Şirvanı tutdu, qala tikdirdi və bir illik ərzaqla burada qarnizon qoyub geri qayıtdı. Bundan sonra 1584-cü ilin yayında şah Qəzvindən Təbrizə qayıtdı.

Göründüyü kimi, bütün Şirvan və Çuxur-Sə'd vilayəti Osmanlı türklərinin əlində idi. Təbriz vilayətinin bəylərbəyi Əmir xan Türkmən 12 min nəfərlə şahı və Həmzə Mirzəni qarşılamaq üçün Miyanəyə gəldi. Əmir xan tərəfindən Məhəmməd Xudabəndə və Həmzə Mirzənin Təbrizdə təntənəli qəbulu tanınmış şəxslərin də Əmir xanın təı*əfinə keçməsinə səbəb oldu.

Bu vaxt Həmzə Mirzənin 18 yaşı vardı. Taxtın varisi, həm de böyük oğul kimi bütün dövlət və hərbi işlərdə iştirak edirdi. O, özünü sevən, qeyzli, şərab düşgünu idi. Qızılbaş əmirləri onun anası Məhdi Ulyanı öldürəndə 13 yaşında idi. O vaxtdan bəri bu qəsdi edənə qarşı qəlbində kin saxlayır, intiqam almağın məqamını gözləyirdi. Əmir xan Türkmən bu qətl törədilərkən Qəzvindən çox uzaqda idi, zahirən onun iştirakçısı deyildi. İndi Təbrizə gəlmiş şahzadə onunla yaxınlaşmağa çalışdı. Əmir xanın köməyilə anasının qatilindən intiqam almağı qərara aldı. Əmir xan isə Həmzə Mirzənin bu fikrini bəyənmədi və ona məsləhət verdi ki. Osmanlı sultanı kimi güclü rəqib olan şəraitdə nüfuzlu qızılbaş hərbi sərkərdələrini aradan götürmək, onların içərisinə düşmənçilik toxumu səpmək ağılsızlıqdır..

Türkmən tayfası ilə düşmən olan saray adamlannın çoxu, xüsusilə şamlu və ustadı tayfaları Əmir xanın şahzadə ile yaxınlıq etməsilə razılaşmır, necə olursa-olsun bu dostluğu pozmağa çalışırdılar. Şahzadənin yaşıdları və badə dostlan da Əmir xanın əleyhinə təbliğat aparır və sübut etməyə çalışırdılar ki, guya Əmir xan Təbrizdə qala tikdirməklə hakimiyyətə qarşı çıxmaq niyyətindədir. Əmir xanın doğmaları və yaxınları xalqı istismar edir, Təbriz əhlini soyur, talayırlar. Ona görə də onlar daş-qaşa qərq olublar. Bütün söz-söhbətlər tədricən Həmzə Mirzənin intiqam hissini daha da artırdı. Əmir xanı Azərbaycanın cənub hissəsinin hakim vəzifəsindən uzaqlaşdırmağı qərara aldı. Əmir xan da öz ədəbsiz hərəkətlərilə özünü daha pis vəziyyətdə qoydu, cəmiyyətdən, adamlardan uzaqlaşmağa, şahzadənin təşkil etdiyi çovqan və qapaq-əndezi oyunlannda iştirak etməməyə başladı, aşura gunü məscidə də gəlmədi. Beləliklə, Əmir xanla Həmzə Mirzə

arasında düşmənçilik münasibəti yarandı. Həmzə Mirzənin göstərişilə Əmir xan tutulub Qəhqəhə qalasına salındı, var-yoxu müsadirə edildi. Əliqulu bəy Fəthioğlu Ustadı Təbriz ve Azerbaycanın cənub hissəsinin hakimi tə'yin olundu. Şj\hzadenin köməyilə ustadı və şamlu tayfalarının nümayəndələri türkmən və təkəli tayfalarını yenidən yüksək vəzifələrdən sıxışdırmağa və onların yerini tutmağa başladılar.

Təbrizdəki bu hadisələr digər əyalətlərin de tayfalarım ayağa qaldırdı. 1585-ci ilin mayında, Əmir xanın Qəhqəhədə öldürülməsi türkmən və təkəli tayfalarının qiyamına səbəb oldu.

Göründüyü kimi, daxili ziddiyyətlər ve qızılbaş tayfaları arasındakı müharibələr Səfəvi dövlətinin gücünü zəiflətdi və türk qoşununun gələcək irəliləyişi uçün şərait yaratdı.

Bütün Azərbaycana yiyələnmək niyyətilə yaşayan Türkiyə sultanı Özdəmir paşanı Şirvandan geri çağırıb ona böyük ordu verdi. Osman paşa Ərzrumda Azərbaycana yürüşə hazırlaşdı. 1585-ci il avqustun 12-de Osman paşa Pasinabad-Çaldıran-Xoy-Mərənd-Sufiyan- Təbriz istiqamətində yürüşə çıxdı.

Şahın səyyar sarayı Qarabağdan cənuba, Bazarçaydan Naxçıvana çəkildi və yolda ikən Osman paşanın Mərenddən tələsik Təbrizə yürüşü barədə xəbər tutdu. Buna görə de Həmzə Mirzənin başçılığı altında ona qarşı 20 min nəfərlik qoşun göndərildi. 1585-ci il sentyabrın 18-də qızılbaşların əsas dəstələri Məhəmməd xan Toxmağın başçılığı ile Sufiyan rayonu ərazisində türk hissələri ilə toqquşdular.

Əvvəlcə qızılbaşlar türklərə ağır zərbə vurdular, lakin türklərin sayca üstünlüyünə görə qızılbaşlar geri çəkilməyə məcbur oldular. Hərbi şurada təcrübəli hərbi sərkərdələr şah Təhmasib kimi hərəkət etmeyi-Təbriz əhalisini Qaradağ qalasına köçürməyi, türk qoşunu Təbrizə daxil olandan sonra bütün yollan mühasirəyə alıb şəhərə ərzaq buraxmamağı təklif etdilər. Lakin bu təklif müdafiə olunmadı. Bunun əvəzində çağırışda gənclər «son nəfəsimizə qədər» vuruşacağıq fikrini irəli sürdülər. Onlar belə hesab edirdilər ki, Təbrizdə özünü, ailəsini qoruya biləcək 50 min cəsur gənc yaşayır, onların köməyilə Təbriz küçələrində dar yer düzəldib türkləri şəhərə buraxmamaq olar. Təbrizlilər təklif etdilər ki, hamı xüsusi fərmanla yerində otursun və şəhəri müdafiəyə hazırlaşsınlar. Qızılbaş qoşunu şəhərliləri qorumağa ve arxadan Osmanlı türklərinə zərbə vuracaqlarına söz verirdi. Bundan sonra, Təbriz hakimi Hüseynqulu sultan Ustadıya

kömek etmək üçün Pirqeyb xan Ustadı ve Mehdiqulu sultan Şamlu min nəfərlik qızılbaş dəstəsi ilə Təbrizə göndərildi.

Sufiyan döyüşündən bir gün sonra Osman paşa Maqsud bəy Zülqederin müşayiətilə Təbrizin şimalından Ağsu çayını keçdi. Maqsud bəy məktubla təbrizlilərə müraciət edərək öz həyatlarının xilası naminə Osman paşaya tabe olmalannı bildirdi. Lakin müraciətə cavab almadı, sentyabnn 20-də Təbrizə qarşı hərbi əməliyyat başlandı. Nizami Osmanlı ordusunun qarşısında müdafiəsiz qalan Təbriz təslim oldu. Pirqeyb xan və Hüseynqulu sultan şəhəri öz dəstələrilə birlikdə tərk edib şah qərargahı ilə birləşdilər. Əhalinin xeyli hissəsi öz ailəsilə piyada Təbriz kənarında, Surxab dağında yerləşən qızılbaş düşərgəsinə çəkildi. Şəhər ə’yanları özlərini və əşyalannt qorumaq xatirinə Kamran bəy övhedini, şeyxülislam Məhəmmədəlini Osman paşanın yanına göndərdilər. Lakin bu əhalini kütləvi qırğın və talandan xilas emədi. Qazi Əhməd yazır ki, yanıçarlar evbəev gəzir, əllərinə keçəni götürürdülər. Təbrizin çox gözəl binalan dağıdıldı, dəbdəbəli məscidlərin külü göyə sovruldu. Salnaməçi yazır ki, Təbrizdə xəttatlar tərəfindən yazılmış şiə din xadimlərinin çoxlu kitabları məhv edildi. Şəhərin «Qeysəriyyə» bazarından külli miqdarda mal talan edildi, bazar isə yandırıldı. Osman paşa Təbrizi tutandan sonra məşhur «Həştbehişt» sarayının yerində qala tikdirdi. İsgəndər Münşi yazır ki, gecələr sadə adamlar türk çadırlarına hücuma keçərək onları talan edir və öldürürdülər, türklərin gün ərzində tikdikləri qalalan uçururdular.

Salnaməçinin yazdığına görə, Təbriz hamamlarının birində türk zabiti qətlə yetirildi. Bundan xəbər tutan Osman paşa şəhər əhalisini bir nəfər kimi məhv elməyi əmr etdi. Gün ərzində 15-20 min nəfər öldürüldü, Təbriz ölü şəhərə çevrildi.

Osman paşa bir aydan artıq Təbrizdə qaldı. Türklərə qarşı ilk atəşi qorçubaşı Qulubəy Əfşar açdı. Lakin Osman paşa Ciqaloğlunu ona qarşı göndərdi. Ciqaloğlu qızılbaş süvarilərinin ciddi atəşinə mə’ruz qaldı. Türklər qızılbaş həmlələrinin qarşısında dayana bilməyib geri çəkildilər. Qızılbaşlar tərəfindən 2 minə qədər türk öldürüldü. Ciqaloğlu isə qaçmaqla ölümdən xilas oldu.

Az sonra türklərə qarşı Həmzə Mirzə hücum etdi. Qaraman hakimi Murad paşa və Diyarbəkr hakimi Məhəmməd paşanın başçılığı ilə qoşun göndərildi. Döyüş Fehüsfənc çayının sahilində baş verdi. Lakin döyüş qızılbaşların qələbəsilə qurtardı. Hər iki Osmanlı sərkərdəsi əsir alındı. Məhəmməd paşa ağır yaradan öldü. Bu döyüşdə

iştirak edən OrİIiı beyin mə’lumatma görə, döyüş vaxtı Trabzon paşası və bir sıra Osmanlı sərkərdələri həlak oldular. Qızılbaş qoşunu türkləri əsas qüvvələrinin dayandığı yerə qədər to’qib etdilər.

Qızılbaşların sayca az olmalarına baxmayaraq, rəqibi ciddi narahat edirdilər. Bütün bunlar türkləri geri qayıtmağa tələsdirdi. Osman paşanın xəstəliyi və ölümü ilə əlaqədar Ciqaloğlu Sinan paşa Osman ordusunun baş komandanı tə’yin edildi. Türk ordusu geri çəkilərkən Təbrizdə tikdikləri qalada Cəfər paşanın komandanlığı altında birillik ərzaq ehtiyatı və döyüş sursatı ilə 7 min nəfərlik türk qoşunu saxlandı. Oktyabrın 29-da türk qoşunu öz baş qərargahı Çerendabdan çıxarıldı ve geriyə doğru hərəkət eldi. Həmzə Mirzə onlan tə’qib etdi və Şən-bi-Qazanda onlara çatdı, döyüşdə onlara ağır zərbə endirdi. Həmzə Mirzə onlann izi ilə Təsuca qədər getdi və türklərə gözlənilməz zərbə endirdi.

Təbrizə qayıdan Həmzə Mirzə xarabazarla üz-üzə dayandı. Şah sarayı 1585-1586-cı ilin qışını burada keçirdi. Səfəvilər Təbrizdəki türk qarnizonunun onlar üçün böyük təhlükə olduğunu dərk edirdilər. Buna görə də Həmzə Mirzə qalanı ələ keçirmək üçün özünə sadiq əmirlərlə birlikdə bir neçə dəfə cəhd etdi. Mə'lumdur ki, qızılbaşların topu olmadığından qalaya həmlə etmək mə'nasız idi. Onların Göyərçinlik qalasından gətirdikləri bircə topları vardı. Məhz bu topun köməyilə qalanın bir hissəsi uçuruldu. Lakin türklər qəfil hücumla qızılbaşları topdan uzaqlaşdıraraq onu qalaya apardılar. Qala uğrunda mübarizədə qızılbaşlar özlərinin en yaxşı sərkərdələrini - Zülqədər tayfasının başçısı Şahrux xan Möhrdan itirdilər.

Daha bir cəhət də qızılbaşların qalanı tutmalanna mane oldu. Belə ki, qızılbaşlar Təbrizə qayıdan kimi, şahzadənin gizli əmrilə qalaya daxil olub darvazanı açmaq üçün Həsən padşah məscidindən qala qülləsinin birinə doğru yeraltı yol salmağa başladılar. Bir neçə aydan sonra kankanlar qala divarlarına çatdılar, işin tamamilə qurtarmasına bir neçə gün qalmışdı ki, Səfəvi Qulubəy Əfşar qorçubaşı dönüklük edib türklərin tərəfinə keçdi. Bu da qızılbaşlann planını pozdu. Qulu bəy yeraltı yol barədə Cəfər paşaya mə’lumat verdi. Osmanlı türkləri şaxtanı tapıb onu torpaqla doldurdular və bü təhlükənin qarşısını aldılar. Belə olduqda Həmzə Mirzə günün günorta çağı istehkamı ələ keçinnək arzusu ilə yaşayan qızılbaş əmirlərinə qalaya hücum etmək əmrini verdi. Qızılbaşlann bu həmləsi bir neçə gün davam etdi.

Elə bu vaxt qiyamçı türkmən və təkəli tayfa əmirlərinin yaxınlaşması barədə Təbrizə xəbər çatdı. Həmzə Mirzə Osmanlı qala qarnizonuna qarşı mübarizəni dayandırmağa məcbur oldu. Bununla əlaqədar Qulu bəy Əfşann osmanlılar tərəfinə keçməsinin səbəbini aydınlaşdırmaq lazım gəlir. Məsələ burasındadır ki. Qulu bəy Məhəmməd bəy Türkmən və digərlərilə birlikdə Həmzə Mirzənin anasına qarşı təşkil edilmiş qəsddə iştirak etmişdi. Şahzadə qan intiqamı almaq üçün münasib məqam axtarırdı. Şahzadənin bu niyyəti Qulu bəyə belli idi. Çünki o, anasına qəsd edənləri açıqca hədələyirdi. İndi isə qiyamçıların yaxınlaşması ilə əlaqədar olaraq Əliqulu xan Fəthi oğlu Ustadı və onun terefdarlan Həmzə Mirzəni başa salırdılar ki, Qulu bəy qorçubaşı Məhəmməd xan Türkmənin keçmiş müttəfiqidir, təhlükəli adamdır, onu məhv etmək lazımdır. Şahzadə bu təklifi fərəhlə qəbul etdi və Təhmasib Qulu sultanı gizlincə qorçubaşı*^ tə’yin edib Qulu bəyi öldürməyi ona tapşırdı. Beləliklə, öz qohumu keçmiş şah qvardiyasının rəisi Cabbarqulu vasitəsilə təşkil edilmiş qəsddən xəbər tutan Qulu bəy xilas yolunu yalnız Türkiyə tərəfə keçməkdə gördü.

Bizə me’lum olan Məhəmməd xan Türkmən və Vəli xan Teke- linin dövlət əleyhinə çıxışlarına fars hakimi Hümmət xan Zülqedər də birləşdi. Beləliklə, şah Məhəmməd Xudabəndə və onun oğlu Həmzə Mİ!*?o *"rkmen, təkəli ve zülqedər tayfalannin birləşmiş qüvvələrilə üz-üzə dayandılar. Qiyamçı qoşunun sayı mərkəzi hakimiyyətin nəzarət etdiyi qüvvənin sayından çox idi. Ona görə də şah və Həmzə Mirzə toqquşmadan çəkinir, qiyamçı əmirlərlə, mümkün qədər barışmağa cəhd edirdilər. Onlar isə ustadı ve şamlu tayfalannin rəhbər vəzifələrdən qovulması təklifini irəli sürürdülər. Həmzə Mirzə bununla razılaşmadığından qiyamçılar arasına ziddiyyət salıb onları parçalamağa cəhd etdi, lakin müvəffəq ola bilmədi. Qiyamçılar danışıq üçün onların yanına göndərilmiş Həbib bəy Zülqədəri öldürdülər, bir neçə vasitəçini isə girov saxladılar. Onlar Təbrizin 24-28 km-deki Seyidabad adlı yerə gəlib çatanda şah ordusuna qulluq edən türkmən və təkəli tayfalarının əsgərləri qiyamçılann düşərgəsinə gələrək öz Inyfalan ilə birləşdilər. Həmzə Mirzədən incik olanlar da onu tərk etdilər. Təhlükəli vəziyyət yarandığına görə, şah və Həmzə Mirzə Əmir xan Türkmən tərəfindən ucaldılmış möhkəm Təbriz qalasında gizləndilər. Qiyamçı emirlər şahzadəyə yazdıqları məktubda Əmir

Xüsusi təşkil olunmuş hissənin döyüşçüsü. Səfəvi dövründə süvarilər.

xanın qatilini, birinci növbədə Əliqulu xan Fethioğlunu verməyi tələb etdilər. Bu ultimatumdan qəzəblənən Həmzə Mirzə qiyamçı ustadı və şamlu əmirlərinin əleyhinə çıxış etməyi əmr etdi. Özü də şahla birlikdə onların ardınca hərəkət etdi. Lakin döyüş baş mtmadı. Çünki qiyamçılar qatil Əmir xanın saraydan ucqar vilayətə uzaqlaşdırılması ilə qane oldular və öz həyatlarını belə, əsirgəmədən şah qoşunu ilə birləşib Təbrizdəki Osmanlı qalasına birgə hücum etməyə hazır olduqlannı bildirdilər. Lakin Həmzə Mirzə qiyamçıların bu mülayim şərtlərini də rədd etdi. Sonrakı gün Təbrizdə şah düşərgəsində gözlənilməz hadisə baş verdi. Əsas e'tibarilə «böyük qorçular»dan təşkil olunmuş zülqədər, əfşar, qacar tayfa ə'yanlarmın nümayəndələrindən bir qrupu şahzadənin qiyamçıların tələblərinə güzəştə getməməsi əleyhinə açıq çıxış etdi. Onlar bildirdilər ki. Əliqulu xan Fəthioğlu və Məhəmməd Sarızolağa görə qızılbaş tayfnlan içərisində daxili müharibə səviyyəsinə çatmış parçalanmaya dözmək olmaz. Qorçular soruşurdular ki, nəyə görə öz padşahına qulluq etməyə tam hazır vəziyyətdə gəlmiş təkəli, türkmən, zülqədər tayfaları türklərin tutduğu Təbriz qalasını geri almağa imkan tapmırlar? Qorçular qoşunun və şəhərlilərin izdihamının müşayiətilə Əliqulu xanın evinə doğru irəliləyib talan etdilər. Bu da ustadı ə’yanların və şəhərin diger məhəllə sakinlərinin evlərinin başdan-başa talanı üçün işarə oldu. Sonra isə qorçular Həmzə Mirzənin iqamətgahına gəldilər, onun pəncərəsi altında hədə səslərini ucaldaraq ara müharibələrinin müqəssirlərini tələb etdilər. Qorçuların «həyasızlığından», qəzəbindən Həmzə Mirzə saraydan çıxdı və iğtişaş salanlann başçısına qılıncla öldürücü zərbə endirdi, qalanlan isə dağılışdılar.

Şah Məhəmməd Xudabəndəni sıxışdıraraq dövləti təkbaşına idarə edən Həmzə Miızənin barışmazlığına qəti emin olan türkmən ve təkəli əmirləri onu taxtdan salmaq uğrunda mübarizəyə başladılar. Bunun üçün onlar Təbrizdə şah sarayındakı şahzadələrdən birini oğurlayıb şah eTan etməyi qərara aldılar.

Qiyamçılar öz adamlannm köməyilə Əmir xan qalasından Həmzə Mii"zənin kiçik qardaşı, on yaşlı şahzadə Təhmasibi gecəyarısı yuxulu ‘• əziyyətdə oğurlayıb düşərgələrinə gətirdidər. Əmirlər gənc şahzadə :lo tə’cili dövlətin paytaxtı Qəzvinə getdilər.

Səhər açılanda Təhmasib Mirzənin oğurlanması xəbəri bütün saraya çaxnaşma saldı. Ustadı və şamlu əmirləri şah Məhəmməd Xudabəndənin guya öz kiçik oğlunun qaçınlmasında iştirak etməs şayiəsinə inanır və onu ittiham edirdilər. Həmzə Mirzə de buna inandı

və atasından incidi. Halbuki şahın bundan xəbəri yox idi. Belə bir şübhənin yaranmasına səbəb şahın-Xudabəndənin anasının türkmən tayfasına mənsub olması idi.

Həmzə Mirzə qiyamçıların planlarını pozmaq üçün tə’cili fəaliyyətə başladı. O, qoşunun bir hissəsilə Məhəmməd xan Toxmaq Ustadını və İmamquiu xan Qacan Təbrizdə saxlayıb Şah Məhəmməd Xudabəndəni, qardaşı Əbutalıb Mirzəni qorumağı və Təbrizdəki Osmanlı qalasının mühasirəsini davam etdirməyi onlara tapşırdı. İsma- yılqulu xan Tarom və Xalxal yolu ilə qiyamçılan qabaqlayıb Həmzə Mirzənin qoşunu gələnə qədər paytaxtı qorumaq üçün Qəzvinə göndərildi. Həmzə Mirzənin özü isə 3 min nəfərlik qüvvə ilə Qəzvin istiqamətində İsmayıiqulu xanın ardınca yollandı. O« Şeyxavənd tayfasından olan qədim Səfəvi müridlərinin hesabına öz kiçik dəstəsinin sayını artırmaq üçün yolüstü Ərdəbilə gəldi. Qızılüzən çayının daşması üzündən Taromda bütün ərzaq məhv oldu. Şahzadə dəstəsinin dağılmasının qarşısını almaq üçün qiymətli əşyaları öz qaziləri arasında bölüşdürdü. Həmzə Mirzəyə xəbər çatdı ki, öndə göndərilmiş İsmayıiqulu xan qiyamçılara müqavimət göstərmədən Qəzvini tərk edib Deyləmə çəkilmişdir. Qiyamçılar isə maneəsiz Qəzvinə daxil olmuşlar. Təhmasib Mircənin atasının varisi e Man edib, şah sarayında yerləşdiriblər. Həmzə Mirzənin yanında qulluqda olan xeyli əmirin və digər mənsəb sahiblərinin əşyaları isə talan edilmiş, 100 min manatlıq mal və pul mənimsənilmişdir.

Təhmasibin sarayında vəzir mustoufi’^ və digər vəzifələr müəyyən edildi. Vəkil vəzifəsi üstə türkmən ve təkəli tayfaları o’yanları arasında çəkişmə başladı. Nəticədə Müseyib xan Şərəfəddin oğlu Təkəli vəkil oldu. Məhəmməd xan Türkmən Təhmasib Mirzənin lələsi və yanmmüstəqil hakim oldu. İsfahana və İraqın digər yerlərinə göndərilmiş adamlar vasitəsilə Təhmasib Mirzənin taxta çıxması barədə xəbər verildi.

İsmayıiqulu xan öz dəstəsilə Taromda Həmzə Mirzə ilə birləşdi. Sultaniyyədə Rey və Kürdüstan əmirlərinin, habelə əfşar və bayat tayfalarının qoşunu şahzadənin qoşunu ilə qanşdı. Qoşunun sayı 7 minə çatdı. Qiyamçılar şahzadənin yaxınlaşdığını eşidən kimi, 10 min nəfərdən artıq, qoşunla Qəzvindən çıxıb, onu qarşılamağa getdilər. Sainqala adlı yerdə döyüş başlandı. Qiyamçıların sayca üstünlüyünə baxmayaraq məğlub oldular, başçıları Məhəmməd xan Türkmən və

Mustoufi - xəzinədar.

Müseyib xan Təkəli əsir düşdülər, Veli xan isə öldürüldü. Qiyamçıların elində ancaq olanTəhmasib Mirzə Alamut qalasına salındı. 1586-cı ilin yayında Həmzə tayfaların təhlükəli qiyamının qarşısını çox çətinliklə aldıqdan sonra Qəzvindən Təbrizə qayıtdı. Şahzadə Təbrizdəki türk qarnizonuna qarşı mübarizə aparmaq üçün Səfəvilərə sadiq olan tayfaları öz bayrağı altına toplamağa cəhd etdi. Lakin bu dəfə onun çağırışına cavab verən az idi. Türkmən və təkəli tayfalarının bir hissəsi əzilmiş, bir hissəsi bütün ölkəyə səpələnmiş, yaxud Türkiyəyə qaçmışdı. İsfahan, Yezd, Girman və Kux Giluyedə yaşayan əfşar tayfaları öz rəhbərləri Qulu bəyə dönük çıxdıqları üçün Türkiyə toretlnə keçmişdilər. Şumlu və ustadı Xorasan əmirləri Həmzə Mirzənin əleyhinə çıxaraq qardaşı Abbas Mirzənin taxta olan hüququnu müdafiə edirdilər. Bütün bunlara görə Həmzə Mirzənin Sultaniyyədə toplanmış 10 minlik qoşunu yalnız öz qüvvəsinə güvənərək Təbrizə yollanmağı qərara aldı.

Həmzə Mirzə Təbrizdə yenə də türklərin müqavimətini qıraraq Osmanlı qoşunu gələnə qədər qalanı tutmağa cəhd etdi. Qızılbaşlar top atəşi ilə qalanın bir neçə qüvvəsini dağıtdılar. Türklərin vəziyyəti ağır idi. Qızılbaşlar hətta lağıma su buraxmaq istəyirdilər, lakin müdafiəçilər axtnı qaladan uzaqlaşdırdılar. Adama elə gəlirdi ki, türklər qızılbaşların həmləsində döze bilməyib mübarizəni dayandıracaqlar, Inkin elə bu vaxt Fərhad paşanın komandanlığı altında Osmanlı qoşununun Təbrizə yaxınlaşması Həmzə Mirzəni mühasirəni dayandırıb Üzümdül və Dizmar tərəfə çəkilməyə məcbur etdi. Fərhad paşa şehəı-ə daxil oldu, qalam sursat və illik ərzaqla tə'min etdi, qarnizonu dəyişib geri döndü. O, Təbrizdə ikən yanına səfir göndərib sülh imzalamağı təklif etdi.

Sultan zəbt edilmiş ərazinin türklərə qalması şərtilə sülhə tərəf çıxırdı. Həmzə Miı*zə əmirlərin müqavimətinə baxmayaraq, yalnız Təbrizin qızılbaşlara qalması şərtilə sülhün bağlanmasına razılıq verdi. Çünki himayəsində olan kiçik qüvvə ile türklər tərəfindən zəbt edilmiş yerleri-Şirvanı, Şekini, Ermenistanı və Cənubi Azərbaycanın xeyli hissəsini geri qaytarmağa Həmzə Mirzənin ümidi yox idi. Əksinə, hərbi əməliyyatın davam etdirilməsi ilə Azərbaycanın şərq vilayətləri və İraq əldən gedə bilərdi. Səfəvilərə sülh lazım idi.

Şah və Həmzə Mirzə İmamqulu xan Qacann hakimiyyəti altında qalan Qarabağa doğru irəlilədilər. Həmzə Mirzə Gəncədə Osmanlı səfiri Vəli bəyi məmnuniyyətlə qəbul etdi və yaxın zamanlarda öz oğlunu məktubla təcrübəli diplomatın müşayiəti və münasib hədiyyə

ilə İstanbula göndərəcəyinə söz verdi. Az sonra kiçik oğlu Heydər MiiTəni İstanbula göndərdi.

Eşikağası Əhməd bəy Ustadı isə Fərhad paşanın yanına göndərildi. O, təklif olunmuş şərtlə sülh imzalanması barədə şahın arzusunu bildirdi. Sonra isə Həmzə Mirzə yaranmış əmin-amanlıq şəraitində daxili işləri qaydaya saldı, qüvvələri topladı, Gəncəni tərk etmək qərarına gəldi. Lakin bunu həyata keçirmək ona qismət olmadı. O, 1586-cı il dekabrın lO-da Gəncə yaxınlığında dəlləyi Xudaverdi tərəfindən yuxuda ikən Öldürdü.

Azərbaycan Səfəvi dövləünin süqutu. Həmzə Mirzənin ölümü ilə ara müharibələri və feodal hərc-mərcliyi başlandı. Bu da Səfəvi dövlətinin fəlakətinə səbəb oldu.

Şah Məhəmməd Xudabəndə dövlət işlərini öz əlinə alaraq onu yaxınlaşan daxili tənəzzül təhlükəsindən və Türkiyənin istilasından xilas etməyə cəhd gösterdi. Lakin kiçik yaşlı oğlanları ile qızılbaş ə’yanlannın əlində oyuncağa çevrilən zəif iradəli şahın buna gücü çatmadı.

Ə’yanların düşmənçilik edən qı*uplan arasında parçalanma gedirdi. Həmzə Miızənin ölümündən dərhal sonra əmirlər Şah Məhəmməd Xudabəndənin iradəsinin əksinə olaraq, oğlu Əbutalıb Mirzəni varis kimi tanımağa məcbur etdilər. Şübhəsiz, onlar on üç yaşlı oğlanın adından dövləti özləri idarə etmək üçün belə edirdilər. Beləliklə, hakimiyyət Lələ şahzadələrin - Əliqulu xan Fəthioğlu Ustadı və İsmayılqulu xan Şamlunun əlinə keçdi. Onlar yüksək vəzifələri öz qohumları arasında bölüşdürdülər.

Həmzə Mirzənin oğlunun varis tə’yin edilməsi və saraydakı vəzifələrin bölüşdürülməsi əyalətlərdə həyəcana və qiyamların qalxmasına səbəb oldu. Qızılbaş əmirlərindən bə’zisi Məhəmməd Xudabəndə ilə hesablaşsa da, çoxu Qəzvin sarayından üz çevirib Xorasan əmirlərinin tərəfmə keçdi və şahlığa Abbas Mirzənin namizədliyini irəli sürdü. Farsda Zülqədər tayfasının başçıları şah Məhəmməd Xudabəndə tərəfindən Şiraza tə’yin edilən hakimi öldürüb, özlərini Abbas Mirzənin tərəfdarı e'lan etdilər. İskəndər Münşinin dediyinə görə, Azərbaycanin cənubunda özbaşınalıq və hərc-mərclik o dərəcəyə çatdı ki, feodallar şahın fənnanı və hökmü ilə hesablaşmadan vilayətlərdə hakimiyyəti güclə elə almağa başladılar. Burada və Səfəvi dövlətinin diger vilayətlərində - İraq, Fars, Girman və Xuzis- tanda hərbi adamların özbaşınalığı ucbatından rəiyyətin vəziyyəti son dərəcə ağırlaşmışdı.

Türk komandanlığı Səfəvi dövlətinin ağır daxili vəziyyətindən istifadə etməyi yaddan çıxarmırdı. Türk ordusunun komandanı Cəfər paşa Təbrizdən çıxaraq təkcə şəhər ətrafını deyil, Cənubi Azerbaycanın bir çox rayonlarını zəbt etdi.

Cəfər paşa kürd əmirlərinin köməyilə Ərdebilden Təbrizə üz tutan qızılbaş dəstəsini əzdi və geri çəkilməyə məcbur etdi. Türklərin bu uğuru Qaradağın hakimi Xəlifə Ənsarın oğlu Şahverdi xanın dönüklüyünə səbəb oldu. O, sultana tabe olduğunu e'ian etdi. Buna görə də Cəfər paşa Ordubad, Mərənd, Dizmar, Zunuz. Qarqar və qonşu myonları tutdu. Elə həmin 1588-ci ildə Sinan paşa Ciqaloğlu 13 minlik ordu ilə Bağdaddan Həmədana irəlilədi və qızılbaşların tərk etdikləri Hehavəndə yiyələndi. Sinan paşa qalada iki min nəfərlik qarnizon qoyub geri döndü. Qızılbaşların qalanı geri qaytarmaq cəhdləri baş tutmadı. Qızılbaşlann başçısı Həmədan bəylərbəyi Qorxmaz xan Şamlu əsir düşdü.

Sultan qoşunu eyni zamanda Məhəmməd xan Ziyadoğlu Qacar tərəfindən idarə olunan Qarabağı zəbt etdi. Gürcüstandan hərəkət edən Fərhad paşa Gəncə və Bərdəyə daxil oldu ve burada osmanlı qarnizonunu yerləşdirdi. Osmanlı qoşunu Qarabağı talan etdi. Türklər tərəfindən əzilən Qacar və iyirmi dörd tayfaları Arazın cənub sahilinə çəkildilər. Bunun ardınca Naxçıvan tutuldu.

Beləliklə, 1586-1589-cu illərdə tədricən bütün Azərbaycan Sultan II Muradın ordusu tərəfindən zəbt olundu. Özbeklerin Xorasana hücumu türklərin Azərbaycanda irəliləyişini asanlaşdırdı. Səfə- vilər ərazinin qalan hissəsini itirməmək üçün sultanın təklif etdiyi ağır sülh şənləri ilə razılaşmalı oldular. 1590-cı il İstanbul sülhünə görə, Azərbaycandan əlavə, nəinki Ermənistan, Gürcüstan, habelə İranın qərb vilayətləri (Hehavend, Luristan, Şohrizur) Türkiyəyə verildi.

Azerbaycan aramsız müharibələr nəticəsində dağıdılmış, ölkənin iqtisadiyyatı pozulmuşdu. Osmanlı feodallarının ölkəni idarə etdikləri iyinni il ərzində Azərbaycanın var-dövləti talan edildi, iqtisadi həyatı tam tənəzzülə uğradı.

Daxili və xarici müharibələrin gedişində Azərbaycan feodal ə'yanlan və qızılbaş tayfalarının tərkibi xeyli seyrəldi və güclü surətdə zəiflədi. Azərbaycan feodalları əvvəlki kimi Səfəvi dövlətinin hər yerində öz hakim mövqelərini saxlaya bilmədilər. Azerbaycan Səfə- vilər dövləti süquta uğradı.

## § 5. XVI ƏSRDƏ AZƏRBAYCANIN SOSİAL-İQTİSADİ HƏYATI

Kənd təsərrüfatı. Azərbaycanda Sefəvilerin hakimiyyətinin ilk dövründə əkinçiliyin, sənətkarlığın və ticarətin inkişafı üçün şərait yarandı. Monqol işğalçılarının dağıtdıqlan suvarma şəbəkəsinin xeyli hissəsi bərpa edildi. Əvvəllər otlağa çevrilən bir çox əkin yerləri yenidən becərilməyə başlandı.

XVI əsrdə Azərbaycan əhalisinin əsas məşğuliyyəti əkinçilik idi. Kənd əhalisi buğda, arpa, bə'zi yerlərdə isə çəltik əkirdi. Ölkənin təsən-üfat həyatında oturaq maldarlıq, bağçılıq, bostançılıq mühüm yer tuturdu. Həmdullah Qəzvini və Evliya Çələbinin yazdığına görə, Naxçıvan, Gəncə, Xoy, Şamaxı, Təbriz və Bakıda yeddi növ pambıq yetişdirilirdi. Azərbaycanda müxtəlif növ alma, armud, əncir, üzüm, ərik, qoz, fındıq, şaftalı, heyva, nar, yemiş, qarpız, albalı yetişdirilirdi. Bu sahədə Ərdəbil, Xalxal, Ordubad, Marağa, Şamaxı məşhur idi. Azərbaycanda geniş miqyasda tut ağaclarının yetişdirilməsi ipəkçiliyin inkişafına səbəb olmuşdu. Avropalılar Qarabağ, Şəki, Gəncə, Qəbələ ipəyinə yaxşı bələd idilər. 1566-cı ildə Artur Edvards ingilis ticarət kompaniyasının rəhbərliyinə yazırdı ki, «burada gündə 3-4 min atın hər birisinə 50-60 batman yük vurulum. Bu da təqribən 200 min batman və ya 8000 at yükünə bərabər idi. Əmin Əhməd Razi yazır ki, «Şamaxıda ildə 20 min xərvər ipək satılırdı».

XVI əsrdə Azərbaycan kəndində natural təsərrüfatı hökm sürürdü. Bununla yanaşı Təbriz, Şamaxı, Bakı, Gəncə, Ərdəbil, Naxçıvan, Marağa və s. şəhərlərin ətrafındakı kəndlərdə əmtəə təsərrüfatı genişlənirdi. Bu, xüsusilə xarici bazar üçün xam ipək verən kəndlərə aid idi.

XVI əsrdə Azərbaycanda feodal münasibətləri az dəyişmiş, feodalizm daha da yetkinləşmişdi. Ölkədə beş torpaq mülkiyyəti forması: dövlət torpaqları-divani; şah sülaləsi torpaqlan-xass; feodal lenləri- liyul; feodallann şəxsi torpaqları-mülk və dini idarələrin lorpaqları- vəqf vardı. Bu dövrdə daha üstün yer tutan feodal torpaq mülkiyyəti- di vani torpaqlar idi; bə’zən bütün vilayət və mahallar xass yerlərini təşkil edirdi. Məsələn, Ərdəbil vilayəti Səfəvilər sülaləsinin xassı hesab edilirdi. Divani torpaqlarından gələn gəlir qoşun və dövlət aparatının, xass torpaqlarından gələn gəlir isə şah sarayının və saray qulluqçularının saxlanılmasına xərclənirdi.

Sefeviler irsən keçen soyurqal torpaqlan mehdudlaşdınb öz yaxın adamlarına ve serkərdelere tiyul torpaq paylayırdılar. Tiyul sahibi olan tiyuldar dövlətə xidmət edir ve ona bağışlanan torpağın verdiyi gəlirin müəyyən hissəsini özünə götürürdü. Tiyul şərti sahiblik hesab edilirdi ve yalnız şahın icazəsi ilə irsən keçə bilərdi. Hakimiyyət uğmnda mübarizədə köçəri tayfaların Səfəvilərə kömək etmiş əmirlərinə çoxlu tiyul paylanmışdı. Bəylərbəyilərin və başqa dövlət mə'murlarının əksəriyyəti də hərbi ə'yanlardan tə'yin edilirdi.

Kənd icmasının - camaatın istifadə etdiyi torpaq-camaat torpağı adlanırdı, lakin xəzinənin və ya feodallann ixtiyarında idi. İcmanın başçısı ağsaqqal hesab olunurdu. O, vergiləri təqsim edir, toplayır, əvəzində isə məhsulun müəyyən hissəsini alırdı. İcmada əkinçiliklə yanaşı, sənətkarlıq da müəyyən yer tuturdu. İcma daha mütərəqqi ictimai münasibətlərin inknşafına mane olurdu.

Hakim feodal siniflər. Bu dövrdə Azərbaycanda beş feodal sinfi vardı: şah ve hakim sülalənin üzvləri, yanmköçəri qızılbaş tayfalarının hərbi ə'yanları, ali şiə ruhaniləri, mülki bürokratiyanın yuxarı təbəqəsi, qədim oturaq e'yanlar.

Səfəvi dövlətində en iri torpaq sahibi şah idi. O, feodal iyerarxiyasını idarə edirdi. Münbit ve gəlirli torpaqlar şaha və onun soyadını daşıyanlara mənsub idi.

Yerdə qalan feodal siniflər içərisində birinci yeri Azərbaycan qızılbaş tayfalarının e'yanlan tuturdular. Dövlətin bütün siyasi ve hərbi işlərini onlar idarə edirdilər. Qtzılbaş e'yanlan təkcə mərkəzdə deyil, ucqarlarda da Səfəvi dövlətinə daxil olan bütün vilayətlərdə imtiyazlı hakim mövqe tuturdular. Digər feodallar isə Azərbaycan ə'yanlarından asılı idilər.

XV- XVI əsrlərdə, Səfəvi işğalları dövründə yeddi qızılbaş tayfasına bir çox türkdilli tayfa və sülalələrdə birləşdilər. Oruc bəy Bayat Farslı onlardan ustadı, şamlu, əfşar, türkmən, bayat, təkəli, xırman- dalı, zülqədər, qacar, qaramanlı, bayburtlu, ispirli, oryad, çavuşlu, asa-yişoğlu, camış gözəkli, sarızolaqlı, qarabacaqlı, baharlı, qırxlı və ya qoruqlu, bozçalı (borçalı), həmzəli, zolaqlı, mahmudlu, qaraçomaqlı, qaraqoyunlu, inanlı, Kuh gileyli və s. göstərir.

Ali vəzifələri əsas e'tibarilə şamlu, ustadı, türkmən, rumlu, zülqədər, əfşar, qacar, təkəli, talış, xunuslu, çəkəni, cağatay, şeyxəvənd və qızılbaş tayfalarının əmirləri icra edirdilər. İsgəndər Münşinin yazdığına görə, l576-cı ildə 72 əmirdən 56 nəfəri qızılbaş, 3 nəfəri

cağatay və s. idi. Bu, ilk Setəviier dövründə inkişaf etmiş teodalizm üçün səciyyəvi olan mürəkkəb feodal iyerarxiyasının mövcudluğunu göstərir.

XVI əsrin əvvəlində Azərbaycanda Səfəvi dövlətinin yaranması böyük sosial'iqtisadi irəliləyişin müsbət nəticəsi idi. Lakin kəndlilərin vəziyyəti dəyişmədi, əksinə Sətevi-Osmanlı müharibələri dövründə daha da ağırlaşdı. 1 Təhmasibin hakimiyyətinin son illərində torpaq vergisi məhsulun altıda bir hissəsini təşkil edirdi. Şah hökuməti bə'zən xəracı və digər vergilərin alınmasını qadağan, yaxud da ixtisar edirdi. Şah rəiyyətin əvvəlki 10-15 il ərzində yığılan vergi borcunu ioğv etdi. Lakin bunların hamısı xəzinənin xeyrinə atılan addımlar idi. Tezliklə vergilər yenidən artırıldı. Həmin «iltifatdan» az sonra isə şah ötən illərdən qalmış bütün vergiləri tələb etdi. Bu da kütləvi aclığa səbəb oldu. Odur ki. vergi toplanması xəzinənin nəHno yenidən qaydaya salındı. Vergilərin ağırlığı yenə də əvvəlki kimi rəiyyətin üzərinə düşürdü. Onlar ötən dövrlərdə olduğu kimi, 50-yə qədər vergi verməli və mükəlləfiyyətlər daşımalı idilər. Bunların ən ağın malcəhat-bəhrə, baxraçe, ixracat, xariciyat, şiltaqat, avarizat, alafe, ulufe, günəlgə biyar, peşkəş, çıraqlıq, tərh, çuvallıq və s. idi. Bə’zən bu ad altında məhsulun yandan çoxu rəiyyətin əlindən alınırdı.

Kəndlilər toıpaq sahiblərinə otlaqlardan istifadə üçün *çobanbəyi, çöpha^'i* bağlar üçün *bağbaşı verir.* Bayramlarda feodallara *bayramlıq* və *novruzu* apanrdılar. Vergilərin bir hissəsi pulla ödənilirdi. Kəndlilər ilin müəyyən günlərini torpaq sahibi və dövlət üçün müftə işləyirdilər. Kəndə gələn mə’murlan və onların xidmətçilərini yedirtmək, gecələməsini tə’min etmək kənd əhalisinin vəzifəsi hesab edilirdi.

Rəiyyətə nisbətən elatlar (maldar kəndlilər) az vergi verirdilər. Bunların xəzinəyə verdiyi əsas vergi *çobanbəyi* (otlaq, xərci) idi. Şahın və feodalların hərbi qüvvələri də başlıca olaraq elatlardan toplanırdı.

Şəhərlər, sənətkarlıq, ticarət Azərbaycanda əhali yenə də əvvəlki kimi sənətkarlıqla məşğul olur, yundan müxtəlif çeşidli mə’mu- Intlar hazırlayırdı. XVI əsrdə Təbriz ustalarının toxuduqlan gözəl xalçalar və bəzəkli parçalar indi də dünyanın bir çox muzeylərinin bəzəyi hesab edilir. Bədii sənətkarlıq mə’mulatı əsasən feodal ə’yan- inrın saraylarını bəzəyirdi.

Vaxtilə monqolların Azərbaycana gətirdiyi yerli şəraitə uyğun gəlməyən nümunələr üzı*ə geyim hazırlanması bu dövrdə aradan

qalxdı. Qədim ən'ənələr əsasında Azərbaycan geyimləri yaradılırdı. Hakim siniflərin nümayəndələrinin geyimi ile yoxsulların geyimi arasında çox böyük fərq vardı.

Monqol hakimiyyəti dövründə nisbətən geniş tətbiq edilən qul əməyi XVI əsr sənətkarlığında, deməк olar ki, aradan qalxırdı. Azad sənətkarlığın rolu daha da artırdı. 1565-ci ildə I Təhmasib vilayətlərin hər birindən alınan təqribən 80 mik tümenlik tamğa vergisini ləğv etdi. Bu. sənətkarlığın və ticaı*ətin inkişafına müsbət tə'sir göstərdi.

Bu dövrdə şəhərlərin bir qismi - Təbriz, Gəncə, Ərəş, Ərdəbil, Culfa, Berdə, Naxçıvan, Marağa, Dərbənd sənətkarlıq və ticarət mərkəzlərinə çevrilmişdilər. Təbriz ən böyük şəhər hesab olunurdu. Səyyahlar qeyd edirlər ki, o zaman burada 360 min əhali vardı. Tarixçi Xondəmir yazırdı ki, Təbrizn dünyanın dörddə bir hissəsində olan şəhərlərin ən abadı hesab edir. Oruc bəy Bayat Təbrizi «Şorqin payınxtı» adlandırırdı. Şəhər əhalisinin çoxu ticarət və sənətkarlıqla məşğul idi. XV-XVI əsrlərdə Təbrizdə həllaclıq (keçəsalma), ipək və pambıq parça, boyaq istehsalı yüksək səviyyədə inkişaf etmişdi. İstehsal olunan məhsulun xeyli hissəsi Suriya və Türkiyənin şəhərlərinə aparılırdı. Venesiyalı A'lessandrinin yazdığına görə, Təbrizdə istehsal olunan qırmızı parçadan və ipəkdən hazırlanan müxtəlif çeşidli malların xeyli hissəsi Avropanın İsveç, Polşa, Danimarka kimi ölkələrinə daşınırdı. Azərbaycanlı tacirlər Venesiyadan Təbrizə yun parça gətirirdilər.

Kənardan Təbrizə qoyun əti, buğda unu. Urmiyadan, Mahmudabaddan (Xəzər sahili) əTa növ balıq gətirirdilər. Təbriz meyvə-tərəvəzlə özünü tə’min edirdi. Lakin Səfəvi-Osmanlı müharibələri şəhərin sənətkarlıq və ticarət əhəmiyyətini xeyli azaltdı. A’lessandri yazır: «Bu ticarət şəhəridir, dünyanın hər yerindən bura mal və karvan gəlir, lakin 0 müharibələrdən çox əzab çəkibdir». 1555-ci ilin dekabrında Səfəvi dövlətinin paytaxtının Təbrizdən Qəzvinə köçürülməsinin də şəhərin iqtisadi və ticarət əhəmiyyətinin azalmasında az rolu olmadı.

Şamaxı Şirvanın iqtisadi və siyasi mərkəzi idi. XVI əsrin son rübündə, türk-tatar basqınlan zamanı şəhər xeyli dağıntıya mə’mz qaldı, dəfələrlə əldən-ələ keçdi. XVI əsrdə Ön Qafqazda ipək istehsalı və ticarətinin, demək olar ki, hamısı Şamaxıda və Ərəş rayonunda mərkəzləşdi. Əmin Əhməd Razi yazır ki, Şamaxıda ildə 20 min xərvərə yaxın (100 min pud) ipək satılırdı. A.Cenkinson onu gözəl Aşahlıq şəhəri» adlandırır. Şamaxıda 25 min nəfərə qədər əhali yaşa

yırdı. Şamaxı ipek istehsalının əsas mərkəzi və Şərqin böyük ticarət mərkəzlərindən biri sayılırdı. Azərbaycan tacirləri ilə bərabər burada həmçinin rus, gürcü, hind və Qərbi Avropa tacirləri alver edirdilər. Çünki Şirvan ipəyi öz yüksək keyfiyyəti ilə fərqlənirdi. Şamaxıdan ıns toıpaqlanna, İrəvana, Təbrizə, İrana, Suriyaya və digər ticarət şəhərlərinə tı*anzit ticarət yollan gedirdi. XVI əsrdə Şirvanın Səfəvi bəylərbəyi Abdulla xan Ustadının köməyi ilə burada, həmçinin daimi ingilis «Moskva kompaniyası» təşkil olundu. Abdulla xan Ustadı ipək alverində Moskva kompaniyasının agenti Cenkinsona böyük üstünlük verirdi.

Bakıdan bir sıra ölkələrə dəniz yolu ilə müxtəlif mallar və nel\ gönjdəriUrdi. O zaman Bakıya gələn səyyahlar qeyd edirdilər ki, şəhərin ətrafında 500-ə qədər neft quyusu vardır. Monqol dövmndə Ərdəbil də Azərbaycanın digər şəhərləri kimi dağıdılmış, əhalisi, demək olar ki, qırılmışdı, XIV-XV əsrlərdə o yenidən dirçəldi və Səfəviiərin idarə etdikləri ərazinin mərkəzinə çevrildi. Səfevilər sülaləsinin banisi Şeyx Səfi əd-din və onun xələfləri şəhərin abadlığına ciddi əhəmiyyət verirdilər. Burada Şeyx Səfinin məqbərəsi tikilmişdi. Ölkənin hər yerindən məqbərəyə ibadətə gəlirdilər. Ərdəbil bazan onların diqqətini cəlb edirdi. XVI-XVII əsrlərdə Ərdəbil Səfəvilər dövlətinin hökmranlığı dövründə xeyli üstünlüyə malik olmuşdur. XVI əsrdə şeher ölkənin ticarət həyatında böyük rol oynayırdı. Gilan və Şirvandan Təbrizə, sonra İrana gedən ipək yolunun üstündə yerləşən Ərdəbil az gəlir əldə etmirdi. Ərdəbil tacirləri ölkənin hüdudlarından kənarda məşhur idilər. Şəhərdə xarici tacirlər üçün çoxlu karvansara vardı. Onlardan birini Şah I İsmayıl tikdirmişdi.

XVI əsrdə ingilis səyyahları Ərəşi Ön Qafqazda ipəkçiliyin iri mərkəzlərindən biri kimi təqdim edirlər. A.Cenkinsonun mə’lumatına görə Ərəş bazarında müxtəlif çeşidli 100 funt*^ ipek almaq olardı. Venesiyalı Minadon yazırdı ki, Ərəşdə ə’la növ ağ ipək istehsal olunur, tacirlər onu mamodi^^ adlandınrlar. Lakin indi Türkyə ilə müharibə vaxtı xeyli dağıntıya mə*ruz qalmış bu ərazidə ipək istehsal olunmur.

XVI əsrin ikinci yarısında Culfa beynəlxalq ipək ticarətinin iri mərkəzlərindən biri idi. Culfa tacirləri ipəyi onun istehsal olunduğu yerdən - Şamaxı. Ərəş və Cilandan alır. Qərbi Avropanın Venesiya,

Funt - 409,5 qr-a bərabərdir.
Ehtimal ki, Malimudabad
ipəyidir

Amsterdam. Marзe) •sonərləri. ha jelr. Sariya, Türkivü vo Hindnstania alver edirdilər.

Artur Edvards yazır ki, XVI əsrin 60-cı illərində Culfa tacirləri Hələbin Suriya limanına SOO yük ipək aparmışlar. Bu da 30 min batman ipək edir. Əvəzində 18 min ton Venesiya malı (qarazəy) gəlirmişlər. Təkcə 1590-1613-cu illərdə Suriya vasitəsilə Venesiyaya 23724 yük Şirvan ipəyi daşınmışdır,

1581-ci ildə Culfada 3000 ev vardı, 15-20 min nəfər əhali yaşayırdı. Culfada olan ingilis taciri Nyuber yazırdı ki, 10 ildən sonra digər ingilis taciri və səyyahı Kartvrat Culfadan keçərkən burada 2000 evin və 10 min nəfər əhalinin yaşadığını qeydə almışdı.

XVI əsrdə Ordubad, Naxçıvan, Əylis kimi şəhərlərin böyük ticarət əhəmiyyəti vardı. Sətəvi şahlan sonuncu iki şəhəri xüsusi himayə edirdilər. Əylis Culfa kimi ipəyin və diger malların ticarət mərkəzi idi. XVI əsrdə bu kiçik şəhər şahın şəxsi himayəsi altında idi, onun sakinləri xüsusi vergi verirdilər. Səfəvilər dövründə Gəncə Qarabağ bəylərbəyliyinin mərkəzi idi. Oruc bəy Bayat burada 50 min ailənin (225 min əhali) yaşadığını qeyd etmişdir.

Minoadi yuxarıda qeyd etdiyimiz şəhərlərdən əlavə, Səfəvi dövlətinin əsas şəhərləri sırasında İsfahan, Herat, Kaşan, Şiraz, Astfab'ad, Qəndəhar, Yəzd, Sultaniyyə, Məşhəd, Azərbaycan şəhərlərindən Xoy, Merənd, Qəzvin və Culfanın da adını çəkir. Qaynaqlarda ölkənin iqtisadi həyatında müəyyən rolu olan bir sıra şəhərlərin adı göstərilir; Maku, Xalxal, Şəhrnov, Şabran, Mahmudabad, Niyazabad, Salyan, Cavad və s.

Azərbaycan şəhərlərinin inkişafı bir sıra daxili və xarici amillərlə bağlı olmuşdur. Bu, birinci növbədə mövcud ərazi hüdudlarında əmtəə istehsalı və ictimai əmək bölgüsünün səviyyəsindən asılı idi. Ayrı-ayrı bazarların təşəkkülü prosesi gedirdi. Natural təsərrüfatın müxtəlif növləri və cizgiləri bir sıra rayonlarda saxlanılsa da, iqtisadi mərkəz kimi şəhərlərin inkişafı əmtəə təsərrüfatı təkamülünün nəticəsi idi (Şamaxı, Ərəş və s. ipəkçilik bölgələri).

Xarici və tranzit ticarət şəhərlərin inkişafına bə’zən həlledici lə’sir göstərirdi. Belə halda şəhərlərin inkişafı onun əlverişli coğrafi mövqedə yerləşməsi ilə müəyyən edilirdi. Lakin Təbriz, Şamaxı, Gəncə, Ərdəbil kimi şəhərlər həm öz vilayət və ölkələri miqyasında, həm də xarici ticarətin mühüm iqtisadi mərkəzləri idi.

Şəhərlərin inkişafı və tənəzzülündə, habelə onların mövlud olmasında qeyri-iqtisadi amillərin də rolu az deyil. Onlardan 1514, 1533-

1555, 1578-1590-cı illərdə Səfəvi-Osmanlı müharibələrini, feodai-lararası müharibələri, achqı, xəstəlikləri qeyd etmək olar. Təsadüfi deyil ki, 1573-1574-cü illərdə baş vermiş yoluxucu xəstəlik nəticəsində təkcə Ərdəbildə 30 min nəfər öldü.

Azərbaycan şəhərləri üçün yarımaqrar xüsusiyyət səciyyəvi idi. Burada sənətkarlığın əkinçilikdən aynıması prosesi uzun müddət davam etdi və tamamlanmadı. Ona görə do hətta əsrlər boyu sənətkarlıq və ticarət mərkəzi olan şəhərlərin iqtisadiyyatında belə kənd təsər- riifatı, xüsusilə bağçılıq, bostançılıq, həmçinin əkinçilik mühüm rol oynayırdı. Avropa səyyahlarının təsvirindən bəlü olur ki, Azərbaycan şəherləı ində meyvə bağları, bostan bitkilərinin əkini üçün geniş sahələr ayrılırdı. Sənətkarlığın lazımi səviyyədə inkişaf etdiyi Şamaxı, Bakı, Mərənd, hətta Təbrizdə də vəziyyət eyni idi. Xarici ticarət, Azərbaycan dövlətinin rus dövləti ilə ilk diplomatik əlaqələri Şah İsmayıl hakimiyyətinin son illərinə təsadüf edir. Krım xanı Sultan 1 Süleymana xəbər verirdi ki, 1521-ci ildə I İsmayılın elçiləri III Vasi- linin yanında olmuş, ondan «çoxlu top, sənətkar və hərbi sursat almışlar». Bu mə’lumat Şah İsmayılın Çaldıran döyüşündə çatışmayan odlu silahı və topu Rusiyadan aldığını gösterir.

Rusiya ilə Azərbaycan arasında diplomatik münasibətlərin yaranmasına cənub və şərq qonşuları - Türkiyəyə meyl edən Volqaboyu xanlıqlar, habelə Krım tatarlarının dağıdıcı basqınları mane olurdu. XVI əsrin ortalarında Moskva dövləti Volqaboyu hərəkət etməyə. Xəzərin şimal sahillərinə çıxmağa, onun ticarət yollarına yiyələnməyə can atırdı.

Bizə, həmçinin 1553-cü ildə Səfəvi səfiri Seyid Hüseynin Moskvaya getməsi mə’lumdur. Şübhəsiz, burada Türkiyəyə qarşı hərbi ittifaq barədə söhbət aparılmışdır. Çünki bu. Sultan Süleymanın qoşununun üçüncü dəfə Azərbaycana hücum etdiyi dövrə təsadüf edir. Şah Təhmasib osmanlı Türkiyəsi ilə'ağır və qüvvələrin bərabərsizliyi şəraitində mübarizə aparmalı olurdu. Məhz ona görə də Azərbaycan şahı şimalda özünə Dağıstan və Dərbənd tərəfdən Azərbaycana hücum edən Krım tatarları süvarilərinin yolunu kəsə bilən müttəfiq axtarırdı.

Bu dövrdə Moskva dövlətinin iqtisadi yüksəlişi ona xarici bazara çıxmağı diqtə edirdi. Türk—tatar işğalçılarına qarşı mübarizədə Qafqazın kiçik xalqlarının Moskva çarına müraciəti isə Rusiyanı cənubi-şərq sərhədlərinin təhlükəsizliyini tə'min etməyə yönəldirdi. Beləliklə, rus (Moskva) dövlətinin Azərbaycana olan marağı artırdı.

A C&ıiK.ııı.a)ıı .•I.-;-.;! iktr.- ıihıı:o liııtı 4i2iU<3ş cIçısi »ı.« Mosl'Vtiyu, >l)62-ci ilin iyununda isə biriikde Moskvadan Hü^tərxana gedirlər. 1563-cü il noyabrın 1-de Şirvan bəylərbəyi Abdulla xan Ustadı Moskvaya gəlir.

Ehtimal ki. Şah Təhmasib osmanlı Türkiyəsi ilə bağlanmış 1555-ci il sülhünün daimiliyinə inanmır və Rusiya ilə yaxınlaşmağa çalışırdı. Çünki Şimali Qafqazda rus qalalarının tikilməsi türk-tatar hərbi hissələrinin Dağıstana və Şirvana yeridilməsinə maneçilik törədər, bu isə həmin dövrdə Azerbaycanın həyati mənafeyinə uyğun olardı.

Moskva dövləti Livoniya iJo uzun müharibədən qurtarsa da sultanla münasibətləri gərkinləşdirmək istəmirdi. 1569-cu ildə IV İ van Aleksey Xoznikovu səfir kimi Təhmasibin yanına göndərdi. O, Qəzvine 100 top və 500 ədəd silah getirdi.

Çar IV İvanın dövründə Qazan (1552) və Həştərxanın Rusiya tərəfindən zəbt edilməsi 1 Süleymanın sarayında həyəcana səbəb oldu. Türkiyə özü Volqa hövzəsini və Şimali Qafqazı ələ keçirməyə çalışırdı. Avropanın cenubi-şərqində və Azerbaycanda Səfəvi dövlətinə qarşı müharibəyə başı qarışan Sultan Süleyman rus işğalına mane ola bilmədi. 1569-cu ildə Sultan II Səlim msları Həştərxandan sıxışdırmaq üçün Krım xanı Dövlət Gireylə birlikdə yürüşə başladı. Türklər müharibədə öz donanmalarından istifadə etmək məqsədilə, hətta Don və Volqa arasından kanal açmağa cəhd edirdilər. Lakin bu cəhd baş tutmadı. Rusiya Həştərxanı saxladı. Şimali Qafqazda isə möhkəmlənə bilmədi.

Buna baxmayaraq, I Təhmasibin və Şirvan bəylərbəyi Abdulla xanın elçiləri tez-tez Xəzər və Volqa ilə Moskvaya gedirdilər. Şamaxıdan Moskvaya 60-70 gün yol getmək lazım gəlirdi. XVI əsrin sonlarında hər il Şirvandan Rusiyaya və başqa ölkələrə 100 min pud xam ipək aparılırdı. Bundan əlavə, Azərbaycandan ədviyyat, duz, neft, quru meyvə, balıq, düyü, sənətkarlıq mə’mulatı ixrac olunurdu.

Məhz Azərbaycan ipəyinin xaricə daşınmasını inhisara götürmək uğnında ingilislər, venesiyalılar. türklər və ruslar arasında mübarizə gedirdi. Azərbaycan dünya bazarına ipək ixrac edən ölkələrdən biri idi. Azerbaycan şahları ilk gündən xarici ticarəti və tacirləri himayə edirdilər. Çünki mərkəzi hakimiyyətin müxtəlif tədbirlər görməsinə baxmayaraq, ticarət yollarında tacir karvanları tez-tez köçərilərin basqınlarına mə'ruz qalırdı.

Müharibələr və feodal qiyamları vaxtı pul sistemi tez-tez pozulurdu, mərkəzdən qaçan qüvvələr öz pullarını kəsirdilər. Bundan

əlavə, osmanlılar Azərbaycanı tutduqdan sonra tədavülə öz pullarını buraxdılar. Bütun XVI əsr boyu pulun deyəri tez-tez dəyişilirdi.

XVI əsrdə Azərbaycanın Avropa və Asiyanın bir sıra ölkələri ile əlaqəsi vardı. Əsrin ikinci yarısından e’tibaren Sofevilerle Rusiya arasında intensiv ticarət əlaqələri yarandı. Volqa-Xezer yolunun mənimsənilməsi ile eyni zamanda Qərbi Avropa dövlətlərinin Azerbaycana marağı artdı. Çünki Rus dövləti öz tacirlərinin mənafelərini müdafiə edib tranzit ticarət yolu üzərinə müxtəlif qadağanlar qoymasaydı, Rusiya vasitəsilə Asiya ile ticarət bu ölkələrə çox böyük mənfəət verə bilərdi.

XVI əsrdə ruslar əsas e’tibarilə Şamaxı, Ərəş, Təbriz və digər şəhərlərdə istehsal olunmuş ipək və ipək mallan daşıyırdılar. Rus-Azərbaycan ticarətinin əsas hissəsi Şamaxıda və Bakıda apanlırdı. Şamaxıda öz sənaye malları ilə gur alver edən və buradan ipək alan Moskva tacirlərinin ticarət nümayəndələri vardı. Şəhər bazarında Orta Asiyada, Türkiyədən, Hindistandan ve diger ölkolorden mallar satılırdı. Azərbaycandan Rusiyaya ipəkdən əlavə, Bakı nefti daşınırdı. Rusiya vasitəsilə Qərbi Avropa şəhərlərinə Azerbaycan ipəyi ve nefti göndərilirdi. Bakıdan nefti Gilan tacirləri Manqışlaq körpüsünə aparır, oradan isə karvan yolu ile Xivə, Buxara və Orta Asiyanın digər şəhərlərinə daşmırdı. Rusların Təbriz, Şamaxı, Bakıdan eldə etdikləri yeyinti məhsulları da ticarətdə mühüm yer tuturdu.

Rusiyadan Azərbaycana xəz (samur, sincab, qaraqonur tülkü, şimal tülküsü, delə) deri, metal şeylər, kürk, yun, mum, qab-qacaq, at- qoşqu ləvazimatı, zərgərlik mə'mulatı, silah ve hərbi geyim (dəbilqə, dəmir geyim, zireh, odlu silah) gətirilirdi. Rusiya vasitəsilə Azərbaycana Avropa malları daxil olurdu: şüşə, mahud, məxmər, yazı kaqızı.

Volqa-Xəzer su yolu Avropa tacirlərinin də diqqətini cəlb edirdi. Onlar bu yolla Azerbaycana, İrana və Orta Asiyaya gedirdilər.

1563-cü ildə ingilis taciri Tomas Olkok, Corc Renn ve Riçard Çini Abdulla xan Ustaclinın dəWeti ilə Azərbaycana gəldilər. 1565-1567-ci illərdə Riçard Conson, Aleksandr Kitçin ve Artur Edvardsın Azərbaycana üçüncü səfəri vaxtı Moskva kompaniyasında İngiltərə-Azerbaycan ticarətini genişləndirmək, Azərbaycandan ixrac olunan ipəyi öz əlində cəmləşdirmək üçün əlverişli şərait yarandı. 1566-cı il aprelin 26-da Artur Edvards Şamaxıdan kompaniyanın idarə heybətinə yazırdı: «Mən şübhə etmirəm ki, imtiyaz əldə edəcək, əmin-amanlıq şəraitində yaşayacaq, və istirahət edəcəyik. Tezliklə ipək və ipək mallan

müxtəlif növ ədviyyat, renksaz malları ve yerli mallann ticarəti ilə böyük tirma yaradacağıq».

A.Edvardsın tngiltere-Səfəvi ticarət əlaqələrinə aid tərtib etdiyi mallann siyahısı diqqəti daha çox cəlb edir. Birindən qalay, mis qab, qırmızı nazik mahud gətirilir, ikincidən isə xam ipək, istiot, zəncəfil, mixək, qoz, fındıq, kükürd, zəy, düyü apanlırdı. Gətirilən malın çox hissəsini şah xəzinəsi alırdı. Onlardan qızılı ve gümüşü parçalar, rəngarənk müxtəlif məxmər, kamxa (güllü ipək parça), atlas (hər növü), yun parça, yaraq-esləhə (qalxan, geyim), demir geyim-zireh, tapança və s. göstermək olar.

İyunun 29-da A.Edvards kompaniya üçün Təhmasibdən daha bir sıra imtiyazlar eldə edə bildi. Bunlarla əlaqədar o, kompaniyanın üzvlərinə bildirdi: Azerbaycan şəhərlərinin hamısında gömrüksüz n1ver etmək hüququ; hakim dairələrin nümayəndələri üçün şəhərlərdə olan ingilis tacirlərinə kömək etmək, onları yad ünsürlərdən qorumaq; vəzifəsindən və mövqeyindən asılı olmayaraq şah adamlannın heç birindən hədiyyə almamalı, əgər bizimkilər ingilis tacirini və şahın təbəəsini öldürərsə, o ciddi cəza almalıdır və s.

I568-1569-CU illərdə A.Edvarsın ingilis Con Spark, Lorens Çem-pen, Xristofor Dovset və Riçard Pinqi dördüncü dəfə Azerbaycana gəldilər. Bu dəfə də Edvardsın köməyi ile şah Təhmasib ingilis tica- roti üçün kompaniyanın sədri Lorens Çempenə yeni ticarət imtiyazı verdi. Edvars Çempenə verilmiş imtiyazda bir maraqlı məqamı xatırladır: «Əgər kompaniyanın xidmətçilərindən biri - xristian öz dinini deyişərək, islamı qəbul edirsə, kompaniya tərəfindən cəza almalıdır və heç kəsin bu işə qarışmağa ixtiyarı yoxdun>. Edvarsa görə, bu vaxta qədər ingilislər Səfəvi dövlətində narahat ve təhlükə içərisində yaşayırdılar. İndi isə əmin-amanlıq yaranmışdır.

Tomas Benister və Cefri Deketin başçılığı ilə ingilislərin beşinci ekspedisiyası 1569-1574-cü illərə təsadüf edir. Bu vaxta qədər əgər ingilis tacirlərinin fəaliyyəti Azərbaycan ve İranla məhdudlaşırdısa, bu dəfə ingilis qrupu Deketlə birlikdə İran şəhəri Kaşana ticarət səfəri eldi, öz müddətinə və ticarət miqyasına görə bu, ingilislərin ən iri ekspedisiyası idi. Lakin ekspedisiyanın sonunda onlar Volqanın mənsəbində kazaklar tərəfindən qarət edildilər.

İngilis ekspedisiyasının üzvü Layones Plemtri yazırdı ki, ingilislərin Hindistana səfəri barədə xahişləri Şah Təhmasib tərəfindən tə'xirə salınmışdı. Çünki buna Səfəvi tacirlərinin özlərinin marağı

/nro'ı. Onlar hina mah. xususilə wcviyyat licat.’Unü? vasii&v'liK edə-ı*ok xeyli mənteet aidə etmeya çalışırdılar.

ƒ < Xristofor Berrounun məMumatına görə, 1580-ci ildə ingilislərin Azərbaycana altıncı səfəri osmanlı türkləri tərəfindən Şirvanın işğalı dövrünə təsadüf etdiyindən uğursuz oldu. Bu zaman Şirvanın iqtisadiyyatı tənəzzülə uğramışdı. Ona görə də Berrou ingilislərin gətirdikləri malın pis satılmasından şikayətlənirdi. Bununla da Səfəvilər dövlətinin bazarlarında ingilis tacirlərinin möhkəmlənməsi iflasa uğradı.

Azərbaycan şimali və mərkəzi Avropa şəhərləri ilə də alver edirdi. Ölkənin erazisində tapılmış I541-1572-ci illərə aid Almaniya (Şvabiya, Bohemiya, Bavariya, Frizya, Saksoniya, Koşn, Drezden, Nyunberq, Hamburq və s.), Avstriya, İsveçrə (Sürix), Belçika (Lyons) və s. dövlətlərin pulları fikrimizi təsdiqləyir. Bu pullar XVI əsrdə Azerbaycanın Qərbi Avropa ölkələri ile iqtisadi və ticarət əlaqələrini xarakterizə edir.

Ümumen Səfəvilər dövlətində ölçü və çəki sisteminin pul kəsilməsi, gömrük toplanması işinin qismən qaydaya salınması ticarətə müsbət lə’sir göstənnişdi.

Sefaviler əvvəlcə Şirvanşahların gümüş pullarından istifadə edirdilər. Sonralar isə Təbrizdə, Ərdəbildə, Naxçıvanda, Bakıda, Dərbənddə, Şamaxıda və s. şəhərlərdə Səfəvilər dövləti tərəfindən kəsilən iri qızıl, gümüş və mis pullar daha çox tədavülə daxil oldu.

Dövlət quruluşu. Sətəvi hökmdarlan dövlət işlərini müstəqil həll edirdilər. Onların himayəsində məsləhətçi hüququna malik olan məclis (məclisi-ə’la) var idi. Şah Təhmasib dövründə on iki üzvdən ibarət məclisə dövlət işlərində böyük təcrübəsi olan adamlar daxil idilər. Səfəvilər dövlətinin başında qeyri-məhdud hakimiyyətə malik şah dururdu. O, eyni zamanda şiələrin ruhani başçısı hesab olunurdu. Şiəliyi dövlət dini eMan edən Səfəvilər bu təriqətin əleyhdarlarını amansız təqibə mə’ruz qoyurdular. Dini itaətsizlik üstündə çox adam e’dam edilmişdi. Başqa feodal dövlətləri kimi, Səfəvi dövlətinin də əsas vəzifəsi hakim sinfin mənafeyini müdafiə etmək və istismar olunan kütlələrin müqavimətini qırmaq, xarici basqınlara qarşı durmaq və başqa torpaqlan zəbt etmək məqsədini heyata keçirməkdən ibarət idi.

Sətəvi dövlətinin erazisi iki hissəyə bölünürdü: divan və xass vilayətlərinə. Bu bölgüyə uyğun olaraq iki ayrı-ayrı idareedici orqan vardı-divan-i memalik və divan-i xassə, başqa sözlə «dövlət vilayət

lərinin idarəsi» və «şah vüayetterinin idarəsi». BP müəssisələr Səfəvilər dövlətinin əsas maliyyə idarələri idi. Xassa aid olan vilayətlər şəxsən şaha və Sətəvilər sülaləsinin digər üzvlərinə mənsub idi. Onlar şahın səlahiyyətli adamı olan vəzir tərəfindən idarə olunurdular.

İlk Səfəvilər dövründə aşağıdakı vəzifələr var idi: vəkil, emir əl-ümera («emirlər əmiri»), qorçubaşı, vəzir və sədr. Vəkil şahdan sonra ikinci şəxs idi. Əslində o, həm dini, həm də dünyəvi məsələlərin həllində şahın tam səlahiyyətli müavini hesab edilirdi. Hüseyn bəy Lələ, Div Sultan Rumlu, Çuxa Sultan Təkəli, Hüseyn xan Şamlu və s. belə vəkillər olmuşlar. Əmir əl-üməra Səfəvi qoşununun baş komandanı idi. Şah Təhmasib bu vəzifəni Hüseyn xan Şamlu və Abdulla xan Ustadıya daha çox e'tibar edirdi. Göründüyü kimi, vəkil, həm də əmir əl-üməra ola bilərdi. Qorçubaşı qızılbaş tayfalarından təşkil edilmiş şah qvardiyasının rəisi vəzifəsini yerinə yetirirdi. Sarayda böyük nüfuza malik olan Yeqan bəy Təkəli, Duru bəy Təkəli və s. qorçubaşı idilər. Vəzir Mülki bürokratiyanın ən'ənəvi başçısı idi. Şəmsəddin Zəkəriyyə Keçəçi Səfevilerin ilk vəziri olmuşdur. Şah İsmayıl onu «Azərbaycanın açarı» adlandırmışdı. Sədr dini müəssisələrə rəhbərlik edirdi. O, dönüklərin antifeodal hərəkatının qarşısını almaq və yatırmaqla bərabər, hər yerdə şiəliyin yayılması və möhkəmləndirilməsi üçün mes'uliyyət daşıyırdı. Səfəvi dövlətində Mövlana Şəmsəddin Lahiçi (Gilani) ilk sədr idi. O, İsmayıl Lahicanda Gərgiye Mirzəlinin yanında olanda onun tərbiyəçisi olmuşdu.

Bundan əlavə, aşağıdakı vəzifələr de var idi: mustaufı al-mə- malik, eşikağasıbaşı, möhrdar, mirşikarbaşı, xalifət, el-xülafe, münşi əl-məmalik, mühtasib əl-məmalik, yasovul, ləşkəmevis, mustoutl-i nal, avaraça nəvis, sahib-i taycıh, mustoutl-i arbab-i təxavil, müşri- an-i büytat, vezir-i kürşyata-i ezam, mustoufi-i kürçiyan-i əzan. Vlustoufı əl-məmalik vilayətin xəzinedan, maliyyə idarəsinin baş craçısı idi. Mülki bürokratiya vəzirin rəhbərliyi altında işləyirdi, v^ergi işlərinin qaydaya salınmasına, dövlət büdcəsinin tərtib edilməlinə, mükəlləfiyyətlər siyahısının tərtibinə, bəylərbəylərə tiyul və iigər bəxşişlərin verilməsinə, vəzirlərin mustoufı və kəlenterlərin üsumuna (aylıq əmək haqqı) nəzarət edirdi. Onun təsdiqi və möhürü JÌmadan mülki və hərbi vəzifəli şəxslərə məvacib verilmirdi.

Eşikağasıbaşı saray məclislərində təşrifat və mərasim qaydalarına 5axan, möhrdar-möhürü saxlayan sarayda böyük nü&za malik

me’mur idi. Mirşikarbaşı şah ovunun sahibi idi, bütün ovçular ona tabe idilər. Xəlifət əl-xülafə Sefevilerin Ərdebil təriqətinin geniş yayılmış şəbəkəsinin başçısı idi. Munşi əl-memalik dövlət katibi, şah şurasının üzvü idi, sərəncamında çoxlu mııze vardı. Təhmasibin dövründə məşhur İsgəndər Münşi bu vəzifəni daşıyırdı. Müayyer əl-məmalikə dövlət miqyasında zərbxanaya rəhbərlik tapşınlırdı. Bu vəzifənin əhəmiyyəti onunla müəyyən edilir ki, zərbxana pul kəsmək hüququ almaq üçün şaha «vacibi» vergisi verirdi. Mühtasib əl-məmalik- dövlət mühtəsibi, mərkəzi aparatın mə’muru idi, şəhər bazannda satılan mallara qiymət qoyurdu. Yasovul monqol mənşəli sözdür. Ya- sovullar şahın hüzurunda qayda-qanup yaradırdılar. Yalnız hörmətli əmirlərin uşaqlan yasovul ola bilərdilər. Onlar eşikağasıbaşına tabe idilər. Ləşkeməvis-herbi məktubları daşıyırdı. Mustoufı əl-mal isə şahın gəlirini toplayırdı. Onun sərəncamında divana daxil olan pullan qeydə almaq üçün mirzələr vardı. Avaraca nəvis vergi verənləri siyahıya alır, divanda qulluq edənlərin sənədlərində qeydlər aparır, tiyula, xame saleyə və s. aid sənədləri qəbul edir və yola salırdı. Nəhayət, vergi işlərini idaıo edən vilayət hakimlərinə göndərilən sənədləri yoxlayır və qeyddən keçirirdi. Mustoufi-i arbab-i təhavil pul zərbinə, xammalın e'malına nəzarət edirdi. O, şah sarayında olan e*malatxa- nalar arasında bölüşdürülən malların məs’ul nəzarətçisi idi. Vəzir-i kurçiyan-i e’zam, mustoufi-i kurçiyan-i ə'zam böyük qorçu-başılann və mustoufilərin vəziri idi. Şah qvardiyasının hərbi korpusuna, qorçu- lara ı-əhbərlik edirdi. Onlar qorçubaşılar qvardiyası korpusunun rəisi yanında fəaliyyət göstərirdilər.

Mərkəzi aparatda yuxanda göstərilən vəzifələrdən əlavə, sarayda bir sıra digər yüksək mənsəb sahibləri də var idi. Onlardan miraxur- başı - baş mehtər, mehmandarbaşı - yadelli səfirlərin və fəxri qonaqların qəbuluna başçılıq edən, süfrəçibaşı - süfrə başçısı, halvaçıbaşı - saray nəzdindəki şirniyyat rəisi, şərabçıbaşı - saqilərin rəisi, münnəc- cimbaşı - saray astroloqlannm başçısı və s. idilər.

Səfəvilər dövləti inzibati baxımdan əyalətlərə bölünmüş dü XVII əsrdə bəylərbəyilər 13 əyaləti idarə edirdilər: Şirvan, Qarabağ, Gəncə, indiki Cənubi Azərbaycan, Çuxur-Sə’d, Qəzvin, Həmədan, Fars, Ginnan, Astrabad, Məşhəd, Herat, Qəndəhar.

Əyalətlər də mahallara bölünürdü. Mahallan idarə edən naiblər bəylərbəyi tərəfindən tə’yin edilirdi. Kənddə dövlət nümayəndəsi kendxudalar idi. Şəhərdə ali vəzifəli şəxs kələntər adlanırdı.

Səfəvilər dövlətində inzibati vəzifələr gəlir mənbəyi sayılırdı. O zaman Azərbaycana gələn Avropa səyyahlarından biri yazırdı ki, adətən «filan vilayəti kim idarə edir?»-deyə soruşmurlar, «bu vilayəti kim yeyir?» - deyə soruşurlar. Səfəvilər dövlətində məhkəmə işləri şəriət (islam dininin hüquq normaları) əsasında apanlırdı. Məhkəmə ruhani hakimlər olan qazıların əlində idi. Heç bir günahı olmayan adamları çox zaman ağır cəzaya məhkum edirdilər. İşgəncə vermək, çubuqla ayağa döymək, əl və ayaqlan üzmək, qulaq və burun kəsmək, göz çıxarmaq geniş tətbiq olunurdu.

Səfəvi dövlətinin mərkəzləşmiş daimi nizami ordusu yox idi. Ordu müharibə zamanı ayn-ayn qızılbaş tayfalarından təşkil olunurdu. Bu da Səfəvilərin hərbi qüvvələrinin əsasını təşkil edirdi. Bəylərbəyilər inzibati və hərbi idarəni öz əllərinə alaraq feodal qoşununa (çərik) komandanlıq edirdilər. Hərbi yürüşlər zamanı Səfəvi qoşununun sayı 120-150 min nəfərə çatırdı. Çərikdən əlavə, qorçulardan ibarət 4500 nəfər süvari qvardiya korpusu şaha xidmət edirdi.

Sinfi mübarizə. 70-ci illərin əvvəllərində Təbriz Səfəvi dövləti siyasi-iqtisadi böhran keçirirdi. Feodal zülmü və mə'murlarm özbaşınalığı xalq kütlələrinin narazılığına səbəb olur, sinfi ziddiyyətləri gərginləşdirirdi. I565-ci ildə şəhərlilərdən və tacirlərdən ildə toplanan 30 min tümən tamğa vergisinin ləğv olunmasına baxmayaraq, 1 Təhmasibin hakimiyyəti illərində vergilərin xeyli çoxalması da bu narazılığı artırdı. Vergi toplanmasının icarəyə verilməsi təbrizlilərin vəziyyətini daha da ağırlaşdırdı.

1571-ci ildə feodal istismarına qaı*şı Təbriz senətkarlan və şəhər yoxsullarının böyük üsyanı başlandı. Qorxuya düşən şah me’murları şəhərdən qaçırdılar. Üsyançılar şəhər ə’yanlarmın, ruhanilərin və varlı tacirlərin evlərinə basqın edirdilər. Üsyanın başçıları içərisində pəhləvan Yarı, mahud toxuyan, səbzəçi, sarvan və başqaları vardı. Üsyanda qəssablar da fəal iştirak edirdilər. Şəhər iki il üsyançıların olində qaldı. 1573-cü ildə I Təhmasibin böyük qoşunu bu çıxışı yatıra bildi. Üsyanın 160-dan çox görkəmli iştirakçışı şəhər meydanında e’dam edildi.

Üsyanın yatırılmasına, dövlətin ağır maliyyə vəziyyətinə baxmayaraq l Təhmasib şəhəri xəzinəyə verilən vergilərdən azad etməyə məcbur oldu.

XVI əsrin 70-80-ci illərində Şirvanda və Talışda da feodal zül-müpə qarşı çıxışlar oldu. Lakin hər ikisi məğlubiyyətlə qurtardı.

## § 6. XV-XVI ƏSRLƏRDƏ AZƏRBAYCAN MƏDƏNİYYƏTİ

Məktəb və elm. XV-XVI əsrlərdə Azərbaycanın bir sıra şəhərlərində geniş məktəb və mədrəsə şəbəkəsi var idi. Burada şəriət dərsləri ilə bərabər, riyaziyyat, məntiq, fəlsəfə, nücum və s. fənlər tədris olunurdu. Azərbaycanda coğrafiya, tarix, fəlsəfə, məntiq və qrammatika, ədəbiyyata aid bir sıra elmi əsərlər yaradıldı. Alimlərdən Şəm- səddin Məhəmməd Təbrizi, filosof və münəccim Seyid Yəhya Bakuvi, coğrafiyaçı və tarixçi Əbd-ər-Reşid Əl-Bakuvi, İdris Bitlisi, Fazil Nüqtaşi, təbib Ramazan Lenkerani, filosof və tarixçi Cəlaləddin Məhəmməd Dəvani və başqaları daha çox şöhrət tapmışdılar. Təkcə Ağqoyunlu hökmdarının şəxsi kitabxanasında 58 alim çalışırdı. XVI əsrdə Azərbaycan mədəniyyəti inkişaf edirdi. Təbrizdə böyük bir kitabxana yaradılmışdı. Əsrin əvvəllərində Marağa rəsədxanası bərpa edildi.

Azərbaycanda astronomiya, tarixşünaslıq və fəlsəfə inkişaf etməkdə idi. Bu dövrün en məşhur tarixçisi I Təhmasibin sarayında qulluq edən və onun yürüşlərində iştirak edən Həsən bəy Rumlu idi. O, 12 cildlik «Əhsən ət-Təvarix» (Tarixlərin en yaxşısı) əsərini yazmışdı. Bu əsərdən ancaq XV-XVI əsrlər Azerbaycanın və qonşu ölkələrin tarixinə həsr olunmuş Xl-XII cildləri gəlib bizə çatmışdır. Avropada İranlı Don Juan adı ilə məşhur, əslində isə bayat qəbiləsindən olan azərbaycanlı Ошс bəyin Səfəvi dövlətinə həsr etdiyi tarixi- coğı-afı əsər diqqəti xüsusilə cəlb edir. O, 1599-1602-ci illərdə Səfəvi səfirliyi nümayəndə Heyətinin tərkibində Rusiya, Almaniya, Çexoslovakiya, İtaliya, Fransa, Portuqaliya və İspaniyanı gəzmiş, burada xristianlığı qəbul etmişdi. Omc bəy Bayat İspaniyada da olmuşdu. Oruc bəyin əsəri 1604-cü ildə, hələ müəllifin sağlığında ispan dilində nəşredilmişdi.

Fars dilində olan görkəmli əserləıxlən biri namə Tum müəllif tərəfindən yazılmış «Şah İsmayıl Səfəvinin tarixi»dir.

O dövr Azərbaycan tarixinin öyrənilməsində Xondəmir təxəllüslü Qiyasəddin ibn Hümameddin əl Hüseynin (1475-1536) əsərləri böyük əhəmiyyətə malikdir. Onun çoxcildlik əsərinin bir hissəsi Sefe- vilər dövlətinin yaranmasına həsr edilmişdir və XV əsrin sonlan-XVI əsrin əvvəllərindəki Azərbaycan haqqında məTumat verir.

Azərbaycanda yaşamış və mənşə e’tibarilə kürd olan Şərəf xan Bitlisinin ikicildlik «Şərəfnamə» əsərində XVI əsr Səfəvilər dövlə-

tinin zəifləməsi haqqında mə’lumat verilir və Azerbaycanın ayrı-ayrı vilayətlərinin tarixi müfəssəl tesvir olunur.

Bu dövrdə tibb inkişaf edirdi. Əbdül Fəth Təbrizi, Əli Təbrizi, İmadəddin Mahmudi məşhur həkimlər idilər. Xəttatlıq geniş yayılmışdı. Kitab nəşri olmadığına görə, əsərlər səttatlar vasitəsilə əlyazması şəklində yayılırdı. Mirəli Təbrizinin oğlu Ubeydulla, Əli bəy Təbrizi, Mahmud Bağır Ordubadi, Nizam əd-din Ərdəbili, Mir Abdulla bəy Danişmənd, Əli Rza Təbrizi Abbasi kimi xəttatların əlyazmalan xüsusilə qiymətləndirilirdi.

Ədəbiyyat. XV-XVI əsrlərdə Azerbaycan xalqının mədəniyyəti daha da inkişaf edirdi. Təbrizdə, Şamaxıda və Azərbaycanın digər şəhərlərində görkəmli mədəniyyət xadimləri - şairlər, alimlər, me’marlar, musiqiçilər yaşayır və yaradırdılar. Şairlərin əksəriyyəti əsərlərini doğma Azərbaycan türkcəsində yazırdılar.

XV əsrin ikinci yarısında Azərbaycan mədəniyyətinin böyük xadimlərindən Arif Ərdəbili, Əssar Təbrizi şöhrət qazanmışdılar. Arif vƏrdəbili Nizaminin «Xosrov və Şirin» poemasının motivləri əsasında özünün məşnur «Ferhadname»sini yazmışdı. Lakin Nizamidən fərqli olaraq öz yaradıcılığında sosial məsələlərə toxunmamışdır. Əssar Təbrizi «Mehr və Müştəri» ooemasında qəhrəmanlığı və dostluğu tərənnüm etmişdir.

Şamaxı torpağının yetirdiyi İmadəddin Nəsimi XIV əsrin sonu- XV əsrin əvvəllərində yaşamış məşhur şair idi. Onun canlı xalq dilində yazılan şe’rləri Azerbaycan ədəbiyyatını yeni bədii üslub formaları və surətlərlə zənginləşdirdi. Nəsimi fəlsəfə və nəğmə lirikasının gözəl nümunələrini yaratmışdı. İslam dini ehkamlarının əleyhinə çıxaraq, müsəlman ruhanilərini ifşa edən ölməz Nəsimi yazırdı: «Zahidin ibadəti, duası və namazı fitnə və kələkdir. Aqil ol, onun tamahkarlığına aldanma». Nəsimi Teymurilerin qoyduğu qaydaları və həmin dövrdəki feodal gerçəkliyini pisləyərək deyirdi: «Dünyanın bütün sərvəti zülmdür, ruhum mənim, ondan nə gözləyirsən? Bu dünya da, onun seı-vəti də lə’netə gəlsin».

Qasimi («İşıq şüaları saçan») təxəllüsü ilə məşhur olan görkəmli şair Şah Qasim Ənvər (1355-1433) türk və fars dillərində yazıb yaradırdı. Nəsimi kimi, o da hürufılər hərəkatında iştirak edirdi.

Kişvəri Təbrizinin lirik şe'rleri. Xətai Təbrizinin «Yusif və Züleyxa» poeması, Həqirinin «Leyli və Məcnun», Xələfinin «Xemsə», Bədr Şirvaninin, Ziyai Ordubadinin əsərləri geniş yayılıb şöhrət tap

mışdı. Nizami motivləri üzrə fars dilində «Xəmsə» yaratmış Əşrəf Marağayi daha çox tanınmışdı.

Şah İsmayılın sarayında «şairlərin şahı» başda olmaqla SÜruri, Şahi, Matəmi, Tüteyli, Qasimidən ibarət ədəbi məclis vardı. Şah İsmayıl özü Xətai təxəllüsü ilə türk dilində şe’rlər yazırdı. O, «Divan», «Nəsihətnamə», «Dəhnamə» adlı şerlər toplusu və kitablann müəllifidir. Bu şe'rlerin bə’zilərində şiəlik ideyalan təbliğ edilirdi.

XVI əsr Azərbaycan ədəbiyyatının ən görkəmli nümayəndəsi, dahi şair və mutətəkkir Məhəmməd Füzuli (1494-1556) idi. O, Şərqdə mühüm elm və mədəniyyət mərkəzlərindən biri olan Bağdadda yaşamışdı. Füzulinin ulu babaları Teymurun yürüşləri zamanı Azərbaycandan İraqa köçürülənlərdən idilər. Qürbətdə yaşayan Füzuli əsasən azərbaycanlı köçkünlər içərisində dolanır, onlann dərdinə və sevincinə şərik olur, öz ana dilində danışır və yazırdı. Klassik Şərq ədəbiyyatına yaxşı bələd olan Füzuli ömrünün 40 ildən çoxunu bədii və elmi yaradıcılığa həsr etmişdi. Onun «Leyli və Məcnun», «Şikayət- namə», «Bənkü-badə» və s. əsərləri xüsusilə şöhrət qazanmışdır. Füzuli öz dövrünün təhsilli, geniş dünyagörüşlü siması idi, o təkcə böyük şair yox, həmçinin fəlsəfə, astronomiya və başqa elmlərə dair əsərlər yaratmış məşhur alim idi. Humanist və mütərəqqi ideyalar carçısı Füzulinin dünyagörüşü onun ərəb dilində yazdığı «Mətlə-ül-e'ti- qad» («E’tiqadın mənşəyi») əsərində öz əksini tapmışdır. Bu əsərdə Hindistan, İran, Ərəb Şərqi və Azərbaycanın qədim fəlsəfəsinin təhlili ilə bərabər, Heraklit, Platon, Aristotel, Pifaqor və başqalarının adı ilə təmsil olunan antik fəlsəfə haqqında da mə’lümat vardı.

Azerbaycan-türk ədəbi dili xeyli zənginləşərək, görkəmli şairlərimiz Xətai, Həbibi, Füzulinin şe’r dilinə çevrildi. Hakim siniflərə xidmət edən saray ədəbiyyatında dini ünsürlər üstün yer tutduğu halda, xalq ədəbiyyatında sadə adamlann hissləri tərənnüm olunurdu. Aşıq poeziyası ihkişaf edərək eşq, məhəbbət kimi ülvi hisslərlə yanaşı, kəndli və sənətkarların ağır həyatını, feodalların özbaşınalığını və zülmünü əks etdirirdi. Şiəliyin ədəbiyyata küdü tə’sirinə baxmayaraq, bu dövrdə bir çox şairlər xalqın həyat və məişətinə yaxın idilər. Xalq şe’rinin en görkəmli nümayəndəsi aşıq Qurbani yoıoılmadan yazıb-yaradırdı. Şifahi xalq yaradıcılığının yeni forması-dastanlar meydana gəlirdi.

İncəsənət XIV əsrin ikinci yarısında və XV əsrdə Azərbaycanda bir sıra musiqiçilər yetişmişdilər. Xalqın klassik irsinə daxil olmuş

həmin sənətkarlar bir sıra mahnılar bəstələmiş, nəzəri əsərlər yaratmışlar. Məsələn, ƏbdüJqədir Marağayi Yaxın və Orta Şərq ölkələrində geniş yayılan muğam, mahnı və rəqslər yaradırdı. Bu melodiyaların məşhurları möhtəbil, erani, tənciha və segahdır. XVI əsrdə Azərbaycan musiqisi xeyli inkişaf etdi. Xalqın arzu və istəkləri əsasən aşıq nəğmələrində öz əksini tapırdı. O dövrün əsas musiqi alətləri təbil, lütək, saz və kamança idi. Bir sıra qəzəllərə musiqi bəstələnmişdi. Dövrün ən məşhur xanəndəsi Hafiz Lələ idi.

XVI əsrin əvvəllərində Azərbaycanda bir çox incəsənət xadimi yaşayıb yaratmışdır. Təbriz bədii miniatür ustaları geniş şöhrət qazanmışdılar. Sultan Məhəmməd daha məşhur idi. Onun miniatürləri Sankt-Peterburq, London, Leypsiq, Venesiya muzeylərində mühafizə olunur. Onun məktəbi isteMadlı rəssamlar yetişdirmişdi. Onlardan Kəmaləddin Behzadı, Mir Müşaviri, Mir Zeynalabdin Təbriz' i. Mövlana Müzəffər Əliki göstərmək olar. Təbriz miniatür məktəbi Şərqin təsviri incəsənətində xüsusi bir istiqamət yaratmışdı. Onların əsərlərinin dekorativ olmalarına baxmayaraq, hadisələr geniş təsvir edilir, süjetli səhnələr yaradılırdı. Bu miniatürlərdə Azərbaycan təbiətinin xüsusiyyəti duyulurdu. Bədii xəttatlıq da çox inkişaf etmişdi. Bu sahədə Mövlanə Məhəmməd Həsən Təbrizi, Mövlana Ə’la bəy Təbrizi, Əbdülbaqi Kitabnəvis ən görkəmli ustalar idilər.

Azərbaycan rəssamlarından Əmir Dövlətyar və onun şagirdləri Əbdül Müşavir, Pirəhməd Baqişimali, Seyid Əhməd Nəqqaş, Pıı-seyid Əhməd Təbrizi və başqaları məşhurlaşmışdılar.

XV əsrdə Bakıda ucaldılan Azərbaycan me’marlığının incisi sayılan Şirvanşahlar saray kompleksinin ən gözəl binalanndan biri divan-xanadır. Burada məhkəmə işlərinə baxılır, o’yanlann yığıncaqları keçirilirdi.

Qaraqoyunlu hökmdarı Cahanşahın əmrilə 1465-ci ildə Təbrizdə «Göy məscid» tikilmiş, onun divarları və üstü mərmərdən və mavi kaşıdan hörülmüşdü. Ağqoyunlu hakimi Yaqub padşah 1483-cü ildə Təbrizdə «Həşt behqişt» adlanan böyük saray kompleks« tikdirdi. Bu sarayın kitabxanası, məscidi, min çarpayılıq xəstəxanası, cıdır meydanı və xiyabanı var idi. Təbrizdə həmçinin Qeysəriyyə (örtülü bazar). Həsən padşah Camesi, Nəsriyye və Məqsudiyyə mədrəsələri məşhur idi. Azərbaycanın me’mar ve ustaları İranda və Orta Asiyada bir sıra görkəmli me’marlıq abidələrinin yaradılmasında iştirak etmişdilər.

XVI əsrde Azərbaycanda sosial məqsədlərlə xeyli bina, karvansara, hamam, ovdan, körpü, həmçinin məqbərə və məscidlər tikilmişdi. Bunlardan 1544-cü ildə <^sar rayonunun Həzre kəndində, Samur çayının sahilində tikilən Şeyx Cüneyd məqbərəsini, Quba rayonunun Ağbil kəndindəki məqbərəni, Naxçıvan MR Qazançı kəndi yaxınlığında, Əlincə çayı üzərində tikilmiş körpünü, usta Əmrşah tərəfindən tikilmiş Bakının şərq darvazalannı, Ərdəbil, Təbriz, Gəncə şəhərlərindəki bir sıra abidələri göstərmək olar.

## § 7. ŞAH ABBASİN HAKİMİYYƏTƏ GƏLMƏSİ

1587-ci ildə Mürşüdqulu xan, xüsusilə ustadı və şamlu tayfalann-dan olan qızılbaşlann Xorasan qrupu Qəzvində on alt: yaşlı Abbası şah e’lan eldilər. Bu vaxta qədər Qarabağ, Ərdəbil, Talış müstəsna olmaqla Azərbaycanın bütün vilayətləri osmanlı türklərinin əlində idi. Qızılbaş dövləti inkişaf etmiş iqtisadi bölgələrində, yüksək mədəniyyətindən, güclü hərbi potensialından məhrum edilmişdi. Qızılbaşların Azərbaycan Səfəvi dövləti tənəzzülə uğrayırdı.

Azərbaycan Səfəvi dövlətinin tənəzzülünə səbəb olan tarixi amilləri müəyyənləşdirmək üçün sosial-iqtisadi və siyasi problemlərin mürəkkəb kompleksini, hər şeydən əvvəl sinfi qüvvələrin yerləşdirilməsi, ölkə daxilində sosial ziddiyyətlərin kəskinləşməsi və beynəlxalq aləmdə qüvvələr nisbətinin dəyişilməsi problemini həll etmək lazım idi.

Azərbaycan Səfəvi dövləti yaranandan sonra xalqın güzəranında elə bir əsaslı dəyişiklik olmamış, əksinə, bir sıra yerlərdə narazılıq artmışdı. Bundan əlavə, Səfəvi dövlətinin tərkibindəki etnik birləşmələr idarəetmə işlərinə başqa xalqların (fars, ərəb və s.) sosial təbəqələrinin də cəlb edilməsini tələb edirdilər. Odur ki, xəzinə və dəftərxana işlərinə fars ə’yanlannı cəlb etməyə başladılar. Təhmasibin vaxtında onlar müvafiq maddi baza ilə kübarlann böyük bir hissəsini təşkil edirdilər və ruhanilərlə birlikdə hakim siniflər arasında görkəmli yer tuturdular.

I Təhmasibin vaxtında qızılbaş ə'yanlar mütləq hakim olsalar da, onların içərisində qüvvələr nisbətinin dəyişilməsi qızılbaşların feodal sinfi içərisində xüsusi çəkisinin müəyyən dərəcədə azalmasına səbəb olurdu. Bütün bunlar daşıyıcısı qızılbaş ə*yanlan olan hərbi potensiala tə'sir edirdi. Beləliklə, hərbi qüvvə hesabına dövlətin dünyəvi və dini xarakteri güclənirdi.

Bununla belə, qızılbaşlar qeyrətlə feodal hakim sinfinin başlıca hissəsi kimi öz hüquqlanm və imtiyazlarını qoruyub saxlayırdılar. XVI əsrdə feodal sinfinin daxilində iki qrup-Azerbaycan (türk) və fars (tran) etnik ünsürlərini təmsil edən qruplar dövlətin idarə işlərində üstünlük əldə etmək üçün bir-birilə barışmaz mübarizə aparırdılar.

Ümumən, fars etnik ünsürləri feodal sinfində, demək olar ki, *əsrin* sonuna qədər hakim təbəqə içərisində ikinci dərəcəli komponent vəziyyətində idilər.

Qızılbaş hərbi sərkərdələri əhali ilə rəftarlarında qayda-qanuna riayət etmirdilər. Kəndlilərdən və şəhər sənətkarlanndan toplanan vergi və mükəlləfiyyətlərin icrası aristokratiya və onun nümayəndələrinin ehtiyacını ödəmirdi. Ona görə də onlar xalqa əziyyət verirdilər. Bu da ölkədə ümumi narazılığı artınr və dövlətin bünövrəsini laxladırdı.

XVI əsrin son rübündə beynəlxalq vəziyyət də Səfəvilər dövləti üçün əlverişsiz dəyişirdi, ölkənin qərb sərhədləri bütün qüvvələri ilə Xorasanı geri almağa çalışan özbək xanlannm aramsız basqınlarına me’ruz qalırdı. İran körfəzindS^ortəkizlər sahilboyu adalarda və limanlarda ağalığı davam etdirirdilər. Yalnız şimal qonşusu Rusiya ilə əlaqələr sahmana salınmışdı. Lakin Bakı və Derbendin ruslara verilməsi hesabına osmanlılara qarşı ruslarla ittifaqa girmək təklifi nəticəsiz qaldı. Belə şəraitdə, ölkənin daxili vəziyyətinin get-gedə pisləşdiyi, sosial və siyasi dayağın laxladığı. xarici siyasi amillərin son də- 1-əcə əlverişsiz olduğu bir şəraitdə qərbdən osmanlılar yürüşə başladılar. Öz müstəqilliyi uğrunda ayağa qalxan Azərbaycan xalqının qəhrəmancasına müqaviməti isə nəticəsiz qaldı.

Azərbaycan qızılbaş dövləti XV əsrin iki teodal dövlətinin erazisini öz himayəsi altında birləşdirmişdi. Birinciyə Ağqovunlu-Azər- baycan, indiki Ermənistan və iki İraq (Əcəm İraqı və Orəb İraqı), ikinciyə isə Teymurilərin Şərqi İrakdakı torpaqları - Xorasan daxil idi. Əgər bu iki dövlətin birincisində hakim feodal siniflər içərisində azərbaycanlılar üstünlük təşkil edirdilərsə, ikincisində isə, həm iqtisadiyyatda, həm de siyasətdə hakim qismən iranlıla«* - fars etnik ünsürləri idi. Bu dövlətlərin hər birinin öz səciyyəvi xüsusiyyəti vardı. Tarixi həqiqətlərin təhlili göstərir ki, əgər birinci yüzillikdə birləşmiş dövlətdə Azərbaycan qızılbaş dövlətinnn ən'ənələri üstünlük təşkil edirdisə və Azərbaycan, Təbriz mərkəz idisə, sülalənin hakimiyyətinin ikinci yüzilliyində üstünlük İrana, İsfahan mərkəz olmaqla, fars etnik ünsürlərinə verildi.

1587-ci ildə özbəkiərlə müharibənin qızğın vaxtında I Abbas atasının şəhərdə olmamasından istifadə edərək qızılbaş və fars ə'yanlarının köməyilə Qəzvini tutdu. O, qızılbaş bürokratiyasını özünə sadiq dayaq elədi. I Abbasın qızılbaşlara münasibəti, fars ə'yanları içərisində özünə dayaq yaratmağa çalışması barədə İranda olmuş xarici səfir Petro Della Vale də şahidlik edir. O yazırdı: «Şahda Şeyxəvənd və qızılbaş tayfalarına qarşı gizli soyuq münasibət vardı. Bütün gücü ilə bu tayfaların qüdrətini sarsıtmağa çalışırdı, şah tatlardan tutulmuş muşketyorlara, xüsusilə qulamlara daha çox arxalanır və onları daha yüksək vəzifələrə irəli çəkirdi». Şah Abbas hər şeydən əvvəl orduya xüsusi əhəmiyyət verirdi. İtaətsiz feodala qarşı mübarizə aparmaq, xalq hərəkatını boğmaq və yürüşlər üçün qüdrətli nizami orduya ehtiyac vardı. Ona görə de Şah Abbas hakimiyətə gələndən sonra (1587- 1629) SəfəvilərÍn itirilmiş ərazisini geri qaytarmaq və sarsılmış qüdrətini bərpa etmək üçün hərbi və inzibati islahat keçirdi.

Qızılbaşların təkbaşına silah gəzdirmək hüquqlan ləğv edildi: qoşuna daxil olmaq hüququ iranlılara verildi. 1 Abbas qızılbaş tayfa başçılarının irsi vəzifə tutmalarını ləğv etdi. Bu vəzifəni şahın rəğbətini qazanmış istənilən şəxs tuta bilərdi. Bundan əlavə, şah tərəfindən tayfa müxtəlifliyi prinsipi əsasında, qoşunun komplektləşdirilməsi qaydası həyata keçirildi. Bu da Azərbaycan Səfəvi dövlətinin dayağı olan azərbaycanlı qızılbaş tayfa birliyinin əsasını sarsıtdı.

Abbasın hərbi islahatı nəticəsində müxtəlif dərəcəli qoşun növü yarandı. Onların qarşılıqlı fəaliyyəti və əlaqəsi Səfəvi dövlətinə daxili sakitlik və xarici işğal sahəsində uğurlar gətirdi. Qoşunun aşağıdakı dərəcələri yarandı:

1.Qızılbaşlar. Əsasən süvarilər bütün XVII əsr boyu Səfəvi qoşununda üstünlük təşkil edirdilər. Onlann sayı 200 min nəfərə çatırdı, yalnız 60 min nəfəri yürüşə gedirdi.

1. Abbas qızılbaşlardan əlavə, kürd, lur, cığatay və s. tayfalan da hərbi qulluğa cəlb etdi.

2. Qulamlar - xüsusi qvardiya təşkil edirdilər. Onlar əsas e’tiba- rilə erməni, gürcü, çərkəz mənşəli gənclərdən toplanır, zorla islam- laşdırılır, sarayda xüsusi şəraitdə tərbiyə olunurdular. I Abbas tərəfindən yaradılmış bu qvardiyadan Səfəvi taxtına sadiq olan bir sıra görkəmli sərkərdələr çıxmışdı. Qulamlann sayı 15 min nəfərə çatırdı.

3. Tüfəngçilər korpusu. Bunlar xüsusi siyahı ilə ölkənin müxtəlif vilayətlərindən toplanırdı. Onların içərisində azərbaycanlılar üstünlük

təşkil edirdilər. Tüfəngçilər əhalinin aşağı təbəqəsindən seçilirdi, sayı 12 min nəfərə çatırdı. Onlara Cüfəngçi ağası başçılıq edirdi.

4. Artilleriya - topçular dəstəsi. Səfəvi ordusunda topdan əsas e‘tibarilə düşmənin möhkəmləndirilmiş mövqeyini ələ keçimaək üçün, qala mühasirəsi vaxtı istifadə edilirdi. İran şəraitində artilleriya (top) hissələrinin sür’əti aşağı idi. Z.Bellanın sözünə görə, I Abbasın yenidən qurduğu ordunun 500 səhra topu vardı^®.

Paytaxtın Qəzvindən İsfahana köçürülməsi (1598) Səfəvi dövlətində İran etnik ünsürlərinin gücləndirilməsi yolunda növbəti addım oldu. Qəzvin əhalisinin xeyli hissəsini təşkil edən azərbaycanlılar Abbasın siyasətindən narazı idilər. Buna baxmayaraq, yeni paytaxta Qaradağdan, Qəzvindən çoxlu azərbaycanlı köçüb gəlirdi. Burada onlar üçün xüsusi məhəllə tikildi və Şah Abbasın şərəfmə «Abbasabad» adlandı.

I Abbas ölkənin idarə olunmasında İran feodallarına meyl etməklə özünü daha çox qədim İran şahlanna bənzətməyə çalışırdı. O, yerli İran xalqının bir sıra qədim adət və ən’ənələrini bərpa edir, adlı-sanlı qədim İran familiyalarını himayə edir, onları dövlət vəzifələrinə irəli çəkirdi. Nəhayət, şah farsların yerləşdiyi mərkəzdə (Əcəm İraqında) bir sıra dövlət vergilərini azaltdı. İsfahan tacirlərinə və əsnaflara xüsusi imtiyaz verdi, onlan bir illiyə bütün dövlət vergilərindən azad etdi.

Şah Abbas öz islahatları ilə Azərbaycan köçəri ə’yanlarının nütlızunu məhdudlaşdırmağa başladı. Eyni zamanda iranlılardan ibarət olan şiə ruhani və mə’murlarmm dövlət işlərində iştirakını gücləndirdi. İri torpaq sahiblərinin sıxışdınıması, e’dam edilmiş feodalların torpaqlarının ələ keçirilməsi hesabına şah öz şəxsi torpaqlannı xeyli genişləndirdi. Bu mübarizədə xeyli feodal hakim və əmirlər məhv edildi. Şah Abbas hakimiyyətə qarşı çıxan təkəli tayfasına amansız divan tutdu. Onun əmrilə bir sıra tayfalar məhv edildi. Yeni şah dövlətin maliyyə vəziyyətini yaxşılaşdırmaq məqsədilə yüksək dövlət vəzifələrinə irəli çəkilən bütün şəxslərdən peşkəş adı ile xəzinəyə müəyyən məbləğ verilməsini tələb etdi.

Şah Abbasın ordusunun yenidən təşkil edilməsində ingilis Şerli qardaşlarının rolu barədə mövcud fikrin real əsası yoxdur. Bu Şerlilərin özləri lərəfmdən uydunılmuş, sonralar isə ingilis burjua tarixçiləri tərəfindən şişirdilmişdi. Çünki Şerlilərin İrana gəldiyi vaxt (1598) I Abbasın hərbi islahatı əsas e'tibarilə başa çatmışdı.

E^’timad-üd-dövle (baş vəzir) tə*yin olunmuş ve sonralar böyük xadim kimi şöhrət qazanmış Hətəm bəy Ordubadi dövlət mədaxili və məxaricinin siyahısını tərtib etməyə başladı. Bu siyahı, İsgəndər Münşinin dediyinə görə, onun xələfləri dövründə başa çatdınlraış və ali hakim dəftərxanasının qayda-qanununa çevrilmişdi. Qızılbaş ə'yanlannın qüdrətini sarsıtmaq məqsədilə şah şiə ruhanilərinə və oturaq ə’yanlann köməyinə arxalanaraq öz vergi siyasətində onlara güzəştə getdi.

Səfəvi dövlətinin xristian əhalisi rüsum - cizyə verməli idi. Bu da əhalinin vəziyyətini ağırlaşdınrdı. Lakin iri erməni tacirləri şah hökuməti ilə əlaqə saxladıqlanna görə, yepiskoplar, monastırlar çox vaxt şah fərmanları ilə bu rüsumdan və digər vergilərdən azad edilirdilər. Bundan əlavə, hökumət xalq kütlələrini itaətdə saxlamaq üçün erməni din xadimlərinin nüfuzundan istifadə etməyə çalışırdı.

Azərbaycan qızılbaş dövlətinin mahiyyətinin dəyişdirilməsindən sonra da, qızılbaşlar Səfəvi imperiyasının idarə olunmasında xususi yer tuturdular. Azərbaycan imperiyanın tərkibində mühüm vilayət olaraq qalırdı. Azərbaycan türkcəsi orduda və şah sarayında üstünlük təşkil edirdi. Səfəvi şahları və saray xidmətçiləri bu dildə danışırdılar. Hələ XVII əsrin sonu-XVIII əsrin əvvəllərində bir sıra dövlət və diplomatik sənədlər bu dildə yazılırdı.

Şah Abbasın islahatları nəticəsində qızılbaş ə*yanlannın qüdrəti sarsıldı, mərkəzi hakimiyyət isə xeyli qüvvətləndi. Şah Abbas Səfə- vilər dövlətinin keçmiş qüvvəsini bərpa edə bildi. Azərbaycan bu dövlətin aparıcı qüvvələrindən birinə çevrildi. Şah Abbas dövlətin nıərkəzi aparatını və mülki bürokratiyanı möhkəmləndirərək İngiltərə, Fransa, İspaniya, Roma papası, Moskva knyazlığı ilə diplomatik əlaqə yaratmaq məqsədilə danışıqlara başladı.

Səfəvi-Türkiyə müqaviləsi (1590). Bütün XVI əsr boyu Azərbaycan-Türkiyə münasibətləri gərgin olmuşdur. Osmanlı qoşunu dəfələrlə Azərbaycanın ərazisinə soxularaq, öz yollan üzərində olanı qarət və məhv etmişdi. Bu qarətçi müharibələrə dini don geydirilmişdir. Özlərini tamhüquqlu müsəlman hesab edən osmanlı sultanları Səfəviləri dönük adlandınr, onları «nifrətə layiq», yaxud «nalayiq hərəkət edən» qızılbaşlar adlandırırdılar. Bu da öz növbəsində qızılbaş - osmanlı münasibətlərini daha da kəskinləşdirirdi.

Qeyd edildiyi kimi, on illərlə davam edən dağıdıcı müharibələrdən sonra, 1590-cı ildə İstanbulda Səfəvi-Türkiyə dövlətləri arasında

sülh müqaviləsi imralandı. Onun əsasını osmanlıların tələb etdiyi kimi, «idarəetmə hüququ» təşkil edirdi. Bu o demək idi ki, bölgələr tərəflər arasında sülh müqaviləsinin tarixi ilə təsdiqlənməlidir. Sefəviiər buna e’tiraz etsələr də, nəticə etibarilə razılaşmağa məcbur oldular. Tərəflərin şimal sərhədi Kür çayından keçirdi. Arakel Təbriz- linin yazdığına görə, digər sərhəd xətti Xudafərin körpüsü idi. Cənub sərhədləri isə Ucan otlağı və Türkmənkənddən keçirdi. Sülh müqaviləsi Azərbaycanı Səfəvi və Türkiyə dövlətləri arasında böldü, ölkənin böyük hissəsi Osmanlı feodallarının sərəncamına keçdi. Şirvan, Qarabağ, Təbriz, Sərab, Marağa və onların qərbində yerləşən diger torpaqlar Türkiyəyə verildi. Xalxal, Ərdəbil, Qaracadağ və Talış Səfəvilər tərəfində qaldı. Beləliklə, Səfəvi-Osmanlı arasında bağlanmış 1590-cı И müqaviləsi Azərbaycan torpaqlarını parçaladı, onun müstəqilliyinə son qoydu.

## § 8. AZƏRBAYCAN SƏFƏVİ-OSMANLI HAKİMİYYƏTİ ALTINDA

Yeni inzibati bölgü və vergi siyasəti. Osmanlılar Azərbaycan vilayətlərini tutduqdan sonra, inzibati bölgü apardılar. Yeni hakimlər vergi və mükəlləfiyyətlərin növünü və həcmini müəyyən etdilər. Ölkənin mühüm məntəqələrində hərbi qarnizonlar yerləşdirdilər. Beləliklə, Şirvan və Dərbənd, onlara tabe edilən dairələrlə (sancaqlarla) birlikdə, hər birisi ayrılıqda bəylərbəyliyə çevrildi. Türk mənbələrinə görə, Şirvanın tərkibinə 14, Dərbəndin tərkibinə isə 7 sancaq daxil idi. Lahıc, Ağdaş, Qəbələ, Sa}yan, Şəki, Bakı, Qaraulus, Osmanlı, Xudat, Mahmudabad, Ərəş və. s. Şirvanın; Şabran, Axtı, Quba, Müskür, Kurə, Çıraq isə Dərbənd vilayətinə daxil idi. Belə bölgü, ehtimal ki, sonralar da, XVII əsrin əvvəllərində Səfəvi-Osmanlı müharibələri başlanana qeder saxlanmışdı.

Azərbaycanın qərb bölkələrinin çoxu osmanlılar tərəfində çıxış edən kürd feodallarına verilmişdi. Marağa, Ordubad və Şərur timar kimi (torpaq sahibliyinin ümumi adı) kürd mahmudi tayfasının əlində idi. Urmiya vilayətini kürd beradüst tayfasından olan Əli bəy idarə edirdi. Xoy və onun ətrafını nüfuzlu kürd feodalı Şahqulu Belilanın oğlanları idarə edirdilər. Əmir bəy Mukri uzun müddət Marağa vilayətini öz te’siri altında saxladı. Təbriz, Ərdəbil, Təsuc, Salmas, Mərənd, Maku və Sultaniyyeni türklər idarə edirdilər.

Osmanlı imperiyasında «torpağın idarə edilməsi»nə aid qanun tbaliyyət göstərirdi. Həmin qanuna əsasən osmanlılar yeni işğal dairəsində olan əhalini və təsərrüfatı siyahıya alır, vergi və mükəlləfiyyətləri müəyyən edirdilər. Şərəf xan Vitlisi, Əli Çələbi yerli vergi siyahısı əsasında Şirvandan xeli məbləğ toplanması barədə mə’lumat verirlər.

Əli Çələbinin mə’lumatına görə, qızılbaşlann xeyrinə toplanan 247,5 yük akçanın hamısı sultanın adına keçirilmişdi. Bura Salyan yaxınlığındakı balıq vətəgələrinin, Şirvan ipəyindən alınan uşrun (onda bir), iki duz mə’dəninin. Bakıdakı ağ və qara neftin və bütün vilayətlərdəki çəltik məhsulunun (uşru) gəliri daxil idi. Digər osmanlı qaynağı hər il şahın xeyrinə Şirvandan 25 ml. 20 min akça vergi toplandığını qeyd edir və əlavə edir ki, indi bunların hamısı Osmanlı sultanının xəzinəsinə daxil edilir.

Görünür ki, osmanlılar ilk dövrlərdə müəyyən edilmiş vergiləri almaqla kifayətlənirdilər. Burada yerli əhalinin əhvali-ruhiyyəsi də nəzərə alınırdı: Azərbaycanda zorla sünnülüyü yayır və şiəliyi tə'qib edirdilər. Vergi verənləri həddindən artıq qıcıqlandırmırdılar. Sonra- lar onlar xəzinənin nəfmə vergiləri artırdılar. Arakel Təbrizli azərbaycanlı və ermənilərin Şah I Abbasa müraciət etmələrinin səbəbini belə izah edirdi: «Çoxlu müsəlman və xristian knyazlan və Atropatakan (Adərbaycan) ölkəsinin hakimləri İran şahının yanına getdilər, çünki osmanlı tayfaları təkcə erməniləri deyil, gürcü və müsəlmanları da izləyir, ağır vergilərlə onları qarət edir və əzab verirdilƏD>.

Osmanlı hakimləri arasında olan ədavət də yerli əhalinin güzəranına təsir edirdi. Şərəf xan Bitlisi hakimiyyət uğrunda Təbriz hökmdarı Cəfər paşa ilə kürd feodalı Əmir paşa arasında gedən mübarizə barədə mə’lumat verir. Nəticə e’tibarilə. Cəfər paşa Mosul və Ərdə- bili zorla Əmir paşadan alır və Marağa vilayəti üzərinə ildə qızıl pulla 15 xərvər yük vergi qoyur. Həmin vergi biı*başa Təbriz xəzinəsinə daxil edilir, bu da öz növbəsində vilayətin var-yoxdan çıxmasına səbəb olurdu. Sancağın hakiminə bir qırmızı fels də (mis pul) çatmır. Dövlət xəzinəsinə isə bir xərvər qızıl daxil olur.

XVI əsrin sonu - XVII əsrin əvvəllərində Azərbaycanın və qonşu ölkələrin iqtisadi vəziyyəti son dəı*əcə ağır idi: ticarət pozulmuşdu. Şərqə - İrana, şimala - Rusiyaya gedən bütün ticarət yollan demək olar ki, bağlanmışdı. Şəhərlərin çoxu və kəndlər dağıdılmışdı, təsər- liifat həyatı durğunluq keçirirdi. Əhali zəbt edilmiş yerlərdən qaçırdı.

Kəndlilərin öz ata-baba yurdlarını tərk etmələri sinfi mübarizənin qeyri-fəal forması idi. Bununla əlaqədar Arakel Təbrizi i yazır: «Dizaqın dörd kəndinin sakinləri çıxıb trana getdilər. Əylisin Qoxtn qəza^ sında olan Daşt adlanan yerin əhalisinin üç hissəsi və İrana köçdü. Dizaqlıların və daştlılann köçməsinin səbəbi vergilərin ağırlığı, soyğunçuluq və talan idi». O əlavə edir ki, «onlar dilənçi kökündə, borc içərisində çıxılmaz vəziyyətdə idilən). Bütün Qafqazda vəziyyət belə idi. Əsir alınmış əhali Kaffanın, İstanbulun, Misirin kölə bazarlarında satılırdı. İsgəndər Münşi müsəlmanlann əsir alınıb kölə edilməsini osmanlı hücumlarının mənfi nəticəsi hesab edirdi.

Türkiyə Xəzər dənizi sahilinə çıxaraq tə’cili donanma yaratmağa başladı. Əvvəllər rus ticarət gəmilərinin yan aldığı Niyazabadda osmanlı gəmiləri inşa edilməyə başlandı. Bütün bunların hamısı tədricən Azərbaycanda xalqı yadellilərə qarşı fəal mübarizəyə cəlb edirdi.

Ərdəbil istisna olmaqla, Azərbaycanın 1 Abbasın hakimiyyəti alımda qalan cənubi-şərq vilayətləri Qəzvinə tabe idi. Bu vaxt Sultaniyyə, Sədcas və Zəncan vilayətlərində siyahmənsur adlı kürd tayfası məskən saldı. Onlar Səfəvi ordusunun arxa cəbhəsini möhkəmləndirmək üçün Xorasandan bura köçürülmüşdülər. İki dövlət arasında müəyyən edilmiş yeni sərhədi qorumaq da onlara tapşırılmışdı. Həmzə Mirzənin ölümündən sonra yaranmış qarışıq vəziyyətdən istifadə edən bu tayfanın başçısı Dövlətyar xan Səfəvilərə tabe olmaqdan boyun qaçırdı. Sədcasda qala tikdirərək oraya xeyli ərzaq və sui'sat topladı. Hətta Şah Abbasın Qəzvində olmasında« edən Dövlətyav öz erazisini genişlendinnəye çalışdı, lakm onun bu cəhdi baş tutmadı. O, azərbaycanlıların köməyindən istifadə edə bilmədi. Onu əhatə edən «qiyamçı kürdlər» karvanların və tacirlərin sərbəst hərəkət etmələrinə ciddi mane oldular. 1592-ci ildə şah-Qəzvinde olarkən Dövlətyar onun yanına gəlmədi I Abbas ona qarşı qoşun göndərdi. Dövlətyar əsir alınıb Qəzvinə gətirildi və orada siyahmənsur tayfasının digər başçıları ile birlikdə e’dam edildi.

Ərdəbil vilayətinin idarə olunması Səfəvi sarayına sadiq feodallara tapşırıldı. Ona görə də 1590-cı il sülhü bağlanarkən Azərbaycanın Səfəvi dövləti idarəsində qalan bütün cənub-şərq vilayətləri Qəzvinin tabeliyindən çıxdı.

Lakin Şah I Abbas Azərbaycanın bütövlükdə Şəfəvi dövlətinə qatılması fikrindən daşınmadı. O, Azərbaycanın bütün bölgələrini bir inzibati mərkəzdə birləşdirməyə çalışırdı. 1592-ci ildə o, Zülfuqar

xan Qaramanlını Ərdebü iqametgah olmaqla, Azerbaycana ilk hakim tə'yin etdi, işləri dərhal sahmana saldı, əyaləti itaətə getirdi. Əlvənd Sultanın kiçik qardaşını Lənkərana hakim tə'yin etdi, müstəqilliyə can atan Astaranın əmiri Həmzə xanı aradan götürdü.

1589-cu ildə Qaracadağın hakimi Xəlifə Ənsann oğlu, Şirvanın keçmiş hakimi Şahverdt xan qızılbaşlar Sərabda məğlub olduqlarına görə, osmanlılar tərəfmə keçmişdi. Azərbaycanda iki dövlətin sərhədi müəyyən edilərkən Qaracadağ Sefəvilerin tabeliyində qaldı. İsgəndər Münşi yazırdı ki, Şahverdi xan indi müttəhim kimi «yüksək saraya»- Şah Abbasın yanına gəlməli idi. Lakin o bunun əksinə olaraq şahın iı-adəsi ilə hesablaşmadı və vilayətin idarəsini davam etdirdi.-

1593-cü ildə şah Abbas ilk dəfə təntənəli şəkildə Ərdəbile gəldi. Şahı müşayiət edənlərin qarşısına çıxmağa qadir olmayan Şahverdi xan Qaracadağı tərk edib Türkiyəyə keçdi. Onun yerinə yeni hakim td’yin edildi. Qaracadağ Ərdebü iqametgah olmaqla, Azərbaycan bəylərbəyi Zülfuqar xana tabe edildi.

Beləliklə, I593-cü ildən e’tibarən qızılbaşlara tabe edilən Azərbaycan vilayətləri-Zəncan, Xalxal, Ərdəbü, Qaracadağ, Talış, Qızıla- ğac, Lənkəran, Qızılüzen və Kür çaylan arasında yerləşən geniş ərazi vahid Azerbaycan beylerbeyliyinde birləşdi. Bu beylərbəyliyə Fərhad xan və Zülfuqar xan Qaramanlı qardaşlan növbə ilə başçılıq edirdilər. 1595-ci ilə qədər beylerbeyliyin qoşununun sayı 10 minə çatırdı (süvari və piyada) və «Azərbaycan qoşunu» adlanırdı. 1594-cü ildə Şah Abbas beylerbeyliyin maddi bazasını möhkəmləndirdi. Beləliklə, Şah Abbas Azəıhaycanm bütövlüyünü, qızılbaşlann hima- yəsindəki ərazidə onun «vüqarlı adını qorudu, onun Sefeviler dövlətinə mənsub olması fikrini sönməyə qoymadı».

Azərbaycan xalqının azadlıq mübarizəsi. Osmanlı işğalı iki-üç onilliklər davam etdi və Azerbaycan üçün ağır nəticələr törətdi. Lakin xalq öz mübarizəsindən dönmədi. Təbrizlilər doğma şəhəri qorumaq üçün silaha sarılsalar da axıra qədər davam gətirə bilmədilər. Salnaməçi qeyd edirdi ki. Osman paşa şəhəri fəth etdiyi ilk gündən e’tibarən «tam ehtiyatlılıq və təmkin gösterirdi, çünki o bir neçə dəfə teb- rizlilərin mətanətinin və döyüşkənliyinin şahidi olmuşdu». Həqiqətən də Təbriz əhalisi osmanlılara qarşı mübarizədə mərdlik və dəyanət nümunəsi göstərirdi. Buna baxmayaraq. Osmanlı qarnizonunun komandanı Cəfər paşa, Təbrizin zəbt edilməsindən təqribən 5 ay sonra, 1586-cı il fevralın 7-də şəhərdə yaşayan 1500 nəfərin ağır vəziyyəti

barədə İstanbula mə’Iumat verərək bildirirdi ki, təbrizlilər doğma şəhərlərini tərk edir, Qaradağa, Qəzvinə və digər şərq bölgələrinə gedirlər.

Osmanlıların tutduğu digər vilayətlərin əhalisi də Azərbaycam tərk edirdi. Bu vaxt Şirvan və Qarabağın müsəlman, yəhudi əhalisi «rum istismarından» xilas üçün Gürcüstanda Ka-xetiya çan II Aleksandrın (1605-ci ildə vəfat etmişdir) yanında sığınacaq tapdılar. Lakin sonralar Şah 1 Abbas onlan Mazandarana köçürdü. Xoy, Salmas və Urmiya əhalisinin öz doğma yurdlarını tərk etmələri bu dövrə təsadüf edir.

Azərbaycan xalqı osmanlılara müxtəlif formada müqavimət gösterirdi. Əhalinin bir qismi təmkinlilik göstərir, onlarla ünsiyyətdən çəkinir, digər qismi isə fəal mübarizəyə qoşulurdu.

1588-ci ildə Qarabağ və Gəncədən sıxışdınlan qacar və digər qızılbaş tayfalan Türkiyə ile sülh müqaviləsi qüvvəyə minənə qədər öz irsi vilayətlərini geri almağa çalışırdılar. Elə bu məqsədlə de onlar Məhəmməd xan Ziyad oğlu Qacann başçılığı ilə Arasbardan Arazın sağ sahilinə yürüş edərək Qarabağı tutdular, Gəncəni mühasirəyə aldılar. Bundan xəbər tutan Cəfər paşa hadisələrə müdaxilə etməyi Abbasdan xahiş etdi: guya belə hərbi hücumlar İstanbulda sülh danışıqlarının həll olunmasına əngəl törədə bilər. Türklərin tərkidi ilə şah Gəncəyə qarşı olan hərbi əməliyyatı dayandırmaq üçün iki dəfə Qarabağa qasid göndərdi və nəticədə (1589-cu ildə) mühasirə dayandırıldı.

Uzun illər Gəncədə olan Osmanlı qarnizonunun əsgərlərinə don- luq verilməməsi İstanbulda, III Mehmetin hakimiyyətinin ilk günlərində (1595) hökumət əleyhinə kütləvi çıxışlara səbəb olmuşdu. Beləliklə, kütləvi narazılıq, soyğunçuluq, aclıq, dəhşətli dağıntılar, türk işğalı dövründə Azərbaycanda və qonşu ölkələrdə iqtisadi tənəzzül- bütün bunlann hamısı yadellilərə qarşı yeni mübarizəyə səbəb oldu.

Cəlalİlər hərəkatı. Cəlalilər hərəkatı XVI əsrin 90-cı illərində Şərqi Anadoluda vüs*ət aldı. XVII əsrin əvvəllərində bu hərəkat Azərbaycana və qonşu ölkələrə yayıldı.

I591-Cİ ildə Təbriz əhalisi şeherin osmanlı qarnizonunun bir hissəsinin iştirakı ilə üsyan qaldırdı. Əsgərlərin bu çıxışda iştirakının əsas səbəbi Gəncədə olduğu kimi, donluğun verilməməsi idi. Uzun müddət yad ölkələrdə qalmaları mə'nəvi cəhətdən pozulmuş sıravi əsgərlərin səbrini tükətmişdi. Salnaməçinin sözləri ilə desək, onlar, ilk növbədə cəbbəxananı zəbt etdilər. Təbriz hakimi Cəfər üsyançılar

qarşısmda gücsüzlüyünü görərək ikiüzlülüyə əl atdı ve kürd feodallarının köməyilə üsyançıları qanlarına qəltan elədi. Cəlalilər hərəkatının tə'siri altında baş vermiş üsyan uğursuzluqla nəticələndi.

Laktn^ Azerbaycanda cəlalilər hərəkatı dayanmadı. Səfəvi - Osmanlı müharibələrinin (1603-1607) əvvəlində cəlalilər hərəkatı Səfəvilərlə həmsərhəd olan Osmanlı imperiyası ərazisinə yayıldı. Şah Abbas Azərbaycan, Ermənistan və Gürcüstanı zəbt etmək üçün bunlann gücündən istifadə edirdi. Təsadüfi deyil ki, şah «Bizim irsi Azərbaycan və Şirvan ölkəsini Öz padşahları ile (Türkiyə sultanı ile-
*S.M.)* ziddiyyətdə olan cəlalilərin hakimiyyəti altında, saxlamaq lazımdır...» - deyirdi. Türk tarixçisi Nəimə də XVII əsrin ilk illərində cəlalilərin Azərbaycandakı fəaliyyətindən bəhs edərək göstərirdi ki, «belə vəziyyət şahın bu ölkələrə soxulmasına təkan verdi».

İmn qoşununun Azərbaycana və qonşu ölkələrə hücumu cəlalilər həı-əkatını dayandırmadı, əksinə, onun genişlənməsi üçün şərait yaratdı. TəbrizliArakelin dediklərindən aydın olur ki, İran və Türkiyə qoşunlarının dağıdıcı yürüşlərindən sonra cəlalilər Qafqazda yayıldılar. Cəlalilərin ayrı-ayrı dəstələri, onlara qoşulan müflisləşmiş kəndlilər və şəhər yoxsulları yerli feodallar və digər varlılar üzərinə hücum edir, onların var-dövlətlərini ələ keçirirdilər. Arakel Təbrizli, Yeı-emiya Kömürçüyan, Qriqor Daranaqsi və Azariya Sasnesi 1606-cı ildə cəlalnlər hərəkatının yeni yüksəlişi barədə mə’lumat verir, onların dəstə başçılannın sayını 23-dən 60-a çatdırırlar. Ona qədər Azərbaycanın onlarla və yüzlərlə günahsız ailələri Şah Abbasın göstərişi ilə doğma yerlərindən köçürülmüşdülər. Əhalinin qalan hissəsi isə dinc əməklə məşğul olmaq imkanından məhrum edilmişdi. Bütün bunların hamısı cəlalilər hərəkatının yeni vüs’ət almasına şərait yaratdı.

A.Təbrizi qeyd edirdi ki. Şah Abbas Təbrizə qayıdıb, Sufiyan altında (noyabr. 160S) osmanlılar üzərində həlledici tələbə çaldıqdan sonıə «cəlalilər gəldilər, ölkəyə yiyələndiıəd>. 1606-cı ildə Azərbaycanın geniş ərazisinə yiyələnən cəlalilərin ilk dəstəsi Kənəkirli (İrevan yaxınlığında Kənəkir kəndi) Məhəmmədin dəstəsi idi. Kənə- kirlinin başçılığı ilə fəaliyyət göstərən dəstə uzun müddət burada dayana bilmədi. Kotayk əyalətində (Qırxbulaq) Topal Osman paşanın başçılıq etdiyi digər dəstə Kənəkirli Məhəmmədi buradan qovdu. Osman paşa öz dəstəsini kiçik qruplara bölərək bir ildən artıq Arazın hər iki sahilindəki geniş ərazidə fəaliyyət gösterdi.

Azərbaycanda cəİalilər hərəkatı son dərəcə mürəkkəb kəskin antifeodal xüsusiyyət almışdı. Feodal-kilsə mövqeyində dayanan Arakel Tebrizli bu hərəkata mənfi münasibət bəsləsə də, o bu adamların (cəlalilərin - *S.M.)* məşhur, məğlubedilməz döyüşçü və yenilməz əsgərlər olmasını e'tiraf edirdi.

Cəİalilər hər€>katının beynəlmiləl xarakteri diqqəti cəlb edir. Cəlalilər dəstəsi indiki Ermənistanda yaşayan azərbaycanlı kəndlilərdən, Türkiyə, Kürdüstan və İran qaçqınlarından təşkil olunmuşdu. Arakel Təbrizli bu hərəkatı əsl müsəlman, antixrist - erməni əleyhinə olan bir hərəkat kimi qələmə verməyə çalışırdı. Lakin o, hətta bə'zi xristianların (ermənilər - *S.M.)* allahdan qorxmayaraq, cəlalileri təqlid etmələrini e'tiraf etməyə məcbur olur. Yerli yoxsulların cəİalilər dəstəsində iştirakını Arakelin digər fikri də təsdiqləyir. Onun söhbetindən mə'lum olur ki, «Osman paşa Naxçıvana və İrəvan vilayətinə gələrək Kənəkirlini qovdu, xeyli səfil adamları öz ətrafına topladı, min nəfərə yaxın əsgər düzəltdi». Belə qənaətə gəlmək olar ki. Osman paşa yoxsul təbəqələri öz dəstəsinə cəlb edə bilmişdi. Arakel Təbrizli onlar haqqında nifrətlə danışır. Yerli əhalinin ayrı-ayrı nümayəndələri yadellilərə və yerli feodallara qarşı mübarizə aparmaq məqsədilə özləri müstəqil cəlali dəstələri təşkil edir, lakin həddindən artıq dağınıq fəaliyyət göstərirdilər.

Ona görə də sultan qoşunu tərəfindən əzildikdən sonnı İranda Şah 1 Abbasın yanında özlərinə sığınacaq tapan həmin dəstələr 1608-ci ildə Ərzurum ətrafında 20 minlik osmanlı qoşunu ilə toqquşdular. Sonuncu döyüşdən sonra cəİalilər Çuxur-Sə'd bəylərbəyi Əmirgüno xan Qacardan icazə alaraq qızılbaşlar ölkəsinə (indiki Ermənistana) keçdilər. Şah I Abbas Türkiyəyə qarşı mübarizədə bə'zi kürd feodallarının, cəngavər və cə'sur cəlalilərin böyük dəstəsindən istifadə etmək niyyətində idi. I Abbas eyni zamanda cəlalilərdən ehtiyat edirdi. Səfəvi dövlətinin yuxarı hakim təbəqəsinin cəlalilərə qarşı inamsızlığı və şübhəli münasibəti Anadolu cəlaliiənnin qəbul edilib yerləş- dirilməsində I Abbasın «səlahiyyətli vəkili» böyük vəzir Hətəm bəy Ordubadini müşayiət edən İsgəndər Münşinin mülahizələn bunu təsdiq edir. İsgəndər Münşi Hətəm bəy Ordubadinin cəlalilərlə təmasını böyük cür'ət və görünməmiş cəsarət kimi mə'nalandınr, cəlali- ləri, «üsyana meylli, fəaliyyətlərində ardıcıl olmayanlan) kimi qələmə verirdi. Hətəm bəy Ordubadi Təbrizdə yalnız tərksilah edilmiş cəlali- lərin hesabını dəqiq apanr, 13800 nəfər siyahıya alır. Şahın e'tibarlı adamlan cəlalilərin Azərbaycandakı yerli cəlalilərlə mümkün birləş

mələrinin qarşısını almaq üçün onların hər qrupunu diqqət mərkəzində saxlayırdılar. Düzdür, İsgəndər Münşinin dediyinə görə, cəlalilərin 300-400 nəfərlik dəstəsi Məhəmməd bəyin başçılığı altında Urmiya vilayətində üsyan etmiş kürdlərin tərəfinə keçmişdilər. Lakin üsyan tezliklə yatırılmış, üsyançı kürdlər və onlara qoşulmuş cəlalüər qılıncdan keçirilmişdilər.

Qeyd etmək lazımdır ki, müxtəlif sosial və milli tərkibli Anadolu cəlalilərinin öz aralarında olan ziddiyyətləri, habelə Şah I Abbasın və onun adamlannın məkrli siyasəti İran hakim dairəsinə qarşı əlbir mübarizə aparmağa imkan vennirdi. İsgəndər Münşi qeyd edirdi ki, Türkiyədən İrəvan vilayətinə gəlmiş cəlaliler birinci gündən e’tibarən üç düşmən qrupa bölündülər. Bhtimal ki, belə pərakəndəlik kəndli və yoxsul təbəqə içərisindən çıxan sıravi cəlaliler arasında hərəkata rəhbərliyi öz elinə almış lenlərdə və feodal sinifində dərin ümidsizlik və inamsızlıq doğurmuşdu. Sıravi celalilər komandanlığı öz elinə almış, Ərzrum altında İbrahim paşaya qarşı döyüşdə qoşunu məğlubiyyətə uğratmış keçmiş mənsəb sahibi Məhəmməd paşa Qələndər oğluna da nifrət edirdilər. Belə ziddiyyətli məqamda şah hökuməti Məhəmməd paşanın və onun qrupunun tərəfində dayanardı. Məhəmməd paşa sarayda 100 nəfər cəlali dəstəsinə başçılıq edən kürd Heydərə qarşı düşmən münasibətdə idi. Paşa onu öz yanına qonaq çağırdı və ziyafətin sonunda Heydəri e’dam etdirdi. Səfəvi hökuməti Anadolu cəlalilərini qəbul edərək Türkiyədəki bə’zi kürd tayfalarına qarşı mübarizədə onların gücündən İstifadə etməyə çalışırdı. Səfəvi sarayının planına görə, cəlalilərin əsas hissəsi ustadı Həsənin başçılıq etdiyi qoşunla birləşərək, Marağadan çıxıb Kürdüstanı tutmalı, Diyar- bəkrə qədər Türkiyənin dərinliklərinə enməli, Çuxur-Sə’d hakimi Əmirgünə xan Qacann dəstələri ilə birləşməli idi. Əmirgünə xan öz növbəsində, cəlalilərin 2 minlik dəstəsi ile Ərzrum vilayətində əməliyyat aparmaq tapşırığı almışdı.

Hadisələrin gedişi cnu göstərirdi ki, iki ilə yaxın I Abbasa xidmət edən sıravi celalilər və onlann dəstə başçılarının bir hissəsi şahın siyasətindən mə’yus olmuşdular. Çünki şaha qulluq Türkiyə sultanının zülmünə qarşı üsyan edən adamları razı salmırdı. Onlar şahdan gözlədikləri imtiyazı eldə edə bilmədilər. Bu işdə Türkiyə casuslarının Vətənə çağırışı, əfv və’dləri de az rol oynamırdı. Ona görə də 1610-cu ilin ortalarında Anadolu cəlalilərinin hamısı Hacı Məhəmmədin və Qara Səidin başçılığı ilə Səfəvi dövlətinin sərhədlərini tərk

etdilər. Azərbaycandakı dəstə isə I Abbasa sadiq qaldı, bir qismi Böyük Divanın şəxsi xidmətçi korpusu ilə birləşdi.

Koroğlu. Müxtəlif tayfalar içərisindən çıxmış cəlali dəstə başçılarından ən məşhuru Azərbaycan türkü Koroğlu idi. Xalq rəvayətinə görə. Salmas yaxınlığındakı Xaraba qala Koroğlu tərəfindən tikilmişdir. Əfsanədə Naxçıvan erazisi. Salmas, Xoy Koroğlunun en çox fəaliyyət göstərdiyi yerlərdir. Dastanın çox variantlannda Koroğlunun iqamətgahı olan Çənlibel qalasının Naxçıvanda və Makuda yerləşdiyi göstərilir. B.A.Kamyev Koroğlu əfsanəsinin tarixi köklərini işıqlandırmağa çalışaraq belə qənaətə gəlir ki, baş qəhrəman və onun silahdaşları öz xarakterləri e’tibarilə ən çox qiyamçı cəlalilərə yaxındırlar. O, bu haqda yazır: «Lakin Koroğluda təəssüf ki, indiyə qədər bu və ya digər cəlali personajına rast gəlməmişik». Yalnız A.Xodzkonun Cənubi Azərbaycana aid yazılarında aşağıdakı sözlər vardır: «Türkiyə hüdudlarında məskunlaşmış tərədcime (tərəkəmə - *S.M.)* tayfasından olan, öz cəsurluğu və döyüşkənliyi ilə fərqlənən Nəzər Cəlali adlı bir nəfər yaşayırdı. O, on iki min nəfərlik qoşunla Koroğlunun yanına hərbi sənəti öyrənməyə gedir. Nəzər Cəlali Koroğlunui yaxın dostu və silahdaşı olur və düşməni Ballı bəy üzərində qələbə çaldıqdan sonra, əsirləri azad etməyi məsləhət gcıdr, bu da qəhrəman tərəfindən icra ediIİD>.

Koroğlunun əfsanəvi qəhrəman kimi məşhurlaşmasının əsas səbəbi onun yadellilərin təzyiqinə, feodalların, varlı tacirdərin, sələmçilərin İstismarına qarşı barışmaz mübarizə aparan xalq kütlələrinin hədsiz məhəbbətini, rəğbətini qazanması tdi. Qəhrəmanlıq cəsarətini, xalq müdrikliyini, ədaləti özündə birləşdirən, nəğməkar, aşiq sənətinin bilicisi, ilhamlı Koroğlunun real tarixi şəxsiyyət olmasını israr etməyə əsas vardır. Ona görə də Koroğludan danışan Təbrizli .^rakel bunu bir qədər də dəqiqləşdirir: «bu, o Koroğludur ki, indi aşıqlar tərəfindən oxunan çoxlu mahnılar qoşmuşdum. Koroğlunun dastana daxil olunmuş və şəxsi yaradıcılığına aid edilən qoşmalardan başqa, dastanın heç bir variantında əksini tapmayan müstəqil şe’rləri də onun tarixi şəxsiyyət olduğunu sübut edir. Bununla əlaqədar erməni taciri Yeğia Müşeqiyanın yazılan (1721) xüsusilə diqqəti cəlb edir. Onun yazılarında erməni əlifbası ilə azərbaycanca Koroğlunun 13 mahnısı vardır. Koroğlunun ayrı-ayrı şe’r və qoşmaları Əndəlib Qaracadağinin (XIX əsrin əvvəli) qeydlərində, Azerbaycan və Gürcüstan fondlarında saxlanılan namə'lum əlyazmalarında gəlib bizə çatmışdır.

ilk dəfə Koroğlunu tarixi şəxsiyyət kimi İ.P.Petruşevski təqdim etmişdir. Yuxarıdakı mülahizələr də onun fikri ilə şərik olmağa əsas verir. O yazırdı ki, «tarixi Koroğlu Ermənistanda və Azərbaycanda fəaliyyət gösterirdi». İ.S.Brakinski də həmin fikirdədir: «Müəyyən edilmişdir ki. Koroğlunun prototipi Azərbaycanda fəaliyyət göstərən real tarixi şəxsiyyət olmuşdun>.

Koroğlunun silahdaşlannm prototipləri, habelə dastandakı mənll personajların çoxu tarixi şəxsiyyət hesab olunur. Cəlalilerin ayrı-ayrı dəstəbaşçılan - Dəli Həsən, Giziroğlu Mustafa bəy, Kosa Səfər, Tanrı Tanımaz və Abaza paşa xüsusilə fərqlənirdilər. Dəli Həsən Koroğlunun yaxın dostu və silahdaşı, 1602-ci ildə Şərqi Anadoluda cəlalilər hərəkatının rəhbəri, öz qardaşı Qara Yazıçının varisi idi. Son- ralar o, cəlalilərə dönük çıxdı, 1603-cü ilin iyulunda Türkiyəyə keçdi.

Əslində Giziroğlu Mustafa bəy Koroğlunun ən yaxın silahdaşı hesab edilir. Cəlalilərin müstəqil dəstələrlə çıxış edən 60 nəfərinin içərisində Giziroğlunun adı şərəfli yerdə dayanır. Arakel Təbrizli yazırdı: «Giziroğlu Mustafa bəy min nəfərlə birlikdə Koroğlunun mahnılarında adı çəkilən yoldaşdır. O, real şəxsiyyətdir.»

Arakel Təbrizli, Yeremiya Kömürçüyan hərəkatın digər iştirakçısı Kosa Səfəri üsyançı cəlalilərin daha məşhur başçıları sırasına aid edir, onun 1599-cu ildə Şərqi Anadoluda olan çıxışını xüsusi qeyd edirlər. Kosa Səfərin dəstəsi iğtişaşı 1602-ci ildə Ərzmm hüdudlarında davam etdirmişdir. Keçmiş cəlaİi sonralar Ərzruın hakimi olmuş, Azərbaycana yürüş edən Ciqaloğlunu müşayiət etmişdir. 1605-ci il noyabrın 7- də Təbriz yaxınlığında Sufiyan ətrafında gedən həlledici döyüşdə osmanlı qoşunu ilə birlikdə məğlubiyyətə uğramışdır.

Salnaməçinin qeydinə görə, «cəsurluğu ilə fərqlənən Kosa Səfər əsir düşmüş və e’dam edilmişdin).

## § 9. SƏFƏVİ-OSMANLI MÜHARİBƏLƏRİ VƏ AZƏRBAYCAN

XVII əsrin əvvəllərində, Azərbaycan xalqı türklərə qarşı inadlı mübarizə apardığı bir vaxtda Osmanlı imperiyası iqtisadi tənəzzül və siyasi iğtişaş dövrü keçirirdi. Səfəvi dövləti isə gənc Şah I Abbasın başçılığı altında todricən dirçəlirdi.

XVI əsrin sonunda 1 Abbas Xorasan uğrunda özbek xanları ilə mübarizədə öz lə'sirini Maverənnəhrə yaydı.

1602>ci ildə şahın Belxə növbəti səfəri uğursuz olsa da, Səfəvi dövlətinin hərbi qüdrətini nümayiş etdirdi. Bu, şah qoşununun* qərbdə osmanlılara qarşı aparacağı döyüş üçün sanki «baş məşq» oldu. >

Bu dövrdə Avropa dövlətləri də, həmçinin, oşmanlı qüvvələrinin şərqə çəkilməsi üçün Səfəvilərin Türkiyə ilə toqquşmasına maraq göstərirdilər. İspaniya da şahı osmanlılara qarşı müharibəyə təhrik edir, əvəzində İran körfəzində ona kömək edəcəyini vəM edirdi.

Osmanlılann Ön Qafqazdan qovulmasında Rusiya da maraqlı idi. Osmanlılar Azərbaycan və Dağıstanın Xəzər sahili vilayətlərini əllərində saxlayırdılar. Bu da Volqa-Xəzer yolu ilə ticarətə müəyyən əngəl törndirdi. Bu vacib məsələdə marağın ümumiliyi Səfəvi və Rusiyanın yaxınlaşması üçün şərait yaratdı. Lakin bu yaxınlaşma nəticəsiz qaldı.

XVII əsrin əvvəlində Azərbaycanda osmanlı hakimiyyəti zəiflədi. Yerli teodallar Səfəvi dövlətinə Osmanlı işğalından özlərinin xilaskarı kimi baxırdılar.

1603-cü il sentyabrın 14-de I Abbas Azerbaycana yürüşə başladı. İsfahanla Təbriz arasındakı məsafəni qısa müddətdə qət etdi, yürüşün on dördüncü günündə Təbriz darvazalan yanında dayandı.

Yolda Qəzvin qarnizonu Əmirgünə xan Qacann, Ərdebildəki qoşun isə Zülfuqar xan Qaramanlının başçılığı altında birleşdi.

1603-cü il sentyabnn 28-də I Abbas Təbrizə yaxınlaşanda tebrizlilər üsyan qaldırdılar. Tezliklə üsyan şəhəri və onun ətrafını bürüdü. Osmanlılar üsyandan sonra şəhərə girərək (1603-cü il oktyabrın 21- də) I Abbasa təslim oldular. I Abbas Təbrizi tutduqdan sonra qərbə doğru hərəkət etdi və Əli paşanın başçılfğV altında'Osmanlı qarnizonunun əäas hlä^əsini darmadağın etdi. Bununla da demək olar ki, Azərbaycanın cənub vilayətlərinin taleyi həll olundu və şah bu yerlərə öz yeni hakimlərini tə'yin etdi. Təbrizin idarə edilməsi Zülfüqar xan Qaramanlıya (Pirbudaq xan Pomaq) tapşırıldı. Cəmşid Sultan Dünbülü Mərəndin hakimi oldu. Xoy və Salması Qazı bəy, Şeyx Heydər isə Marağam idarə etməyə başladı. Səfəvi ordusunun ön hissəsi Arazın şimalına doğru irəlilədi.

'İsgəndəriMünşinin mə'lumatına görə, Culfa və Naxçıvan döyüşsüz tutuldu, «o biri sahilin əhalisi və ə*yanlan> pişvaza çıxdı və Zülfüqar xanın qoşununu mehribanlıqla qarşıladılar, 150 nəfərlik qarnizon təslim oldu.

Arakel Təbrizli məTumat verir ki, osmanlılar şah qoşununun gəlişini bilən kimi, şəhərdən çıxmazdan əvvəl, onu qarət etməyi plan

laşdırdılar. Bu xəbər əhalini ciddi narahat etdi. Ona görə də bütün əhali öz yer-yurdlarmı tərk edib qalalara, dağlara, mağaralara çəkildi və bu işlərin necə qurtaracağını gözlədi. Çıraq Sultanın komandanlığı altında sür’ətli hərəkət edən qoşun osmanlılann planlannin heyata keçirilməsinə mane oldu.

Kürd mahmudi tayfasının başçısı, Maku vilayətinin hakimi Mustafa bəy Naxçıvana - şahın qərargahına gələrək təslim olduğunu bildirdi. Hələ buna qədər Ordubad əhli şah qoşununun gəlişini gözləmədən osmanlılara qarşı üsyan etdi: Çünki buranın əhalisi osmanlı işğalı zamanı dəfələrlə qırğına me'ruz qalmış və şəhər bünövrəsinə qədər dağıdılmışdı. Türkiyə tarixçisi Nəimenin yazdığına görə, I Abbas Naxçıvana yaxınlaşanda ordubadlı Hacı Qəssab şəhəri zəbt etmək haqqında şahdan xüsusi göstəriş aldı. Göıünür, şahın qoşun başçılan ilə şəhər nümayəndələri əlbir fəaliyyət göstərdilər. Nəimə yazırdı ki, şəhərə daxil olan kimi əhali onlan qarşıladı, evlər, bazarlar bəzədildi. Şəhər əhalisi qızılbaş fonnası geydi, əvvəlcədən saqqallarını qıı-xıb uzun bığ saxladı. Əhalinin köməyilə 1-2 gündən sonra Ordubad qalası tutuldu. Şəhərlilərin təklənməsindən istifadə edən İrəvanın Osmanlı hakimi Şərif paşa şah qoşununun əsas hissəsi gəlib çatana qədər Ordubada 500 nəfərlik dəstə göndərdi və yenidən şəhərə yiyələndi.

1 Abbas Culfam və Naxçıvanı tutduqdan sonra İrəvan qalasını ələ keçirməyi qərara aldı. l603-cü il noyabnn 16-da qala mühasirayə alındı və bu, uzun müddət davam etdi. Çünki 10 min nəfərə yaxın qarnizon üç istehkam xetti ilə müdafiə olunurdu. Osmanlıların odlu silahının müdafiə gücü kifayət qədər davamlı idi.

Şah İrəvan qalasının ətrafında istehkam tikmək üçün Naxçıvan və Culfa əhalisini səfərbərliyə aldı və onlann hərbi əməliyyatda iştirak etmələrini məsləhət gördü. Bu da yerli əhaliyə (azərbaycanlılara yə burada azlıq təşkil edən ermənilərə) baha başa gəldi. Onlann çoxu qalanın mühasirəsi zamanı ağır zəhmətdən, soyuqdan, aclıqdan və güllə yarasından məhv oldu. I Abbas İrəvanın mühasirəsi zamanı məşhur Azərbaycan topçusu Heydər bəy Apisin oğlu Bahadur bəy Apis topçubaşının təzəcə hazırladığı iri andazəli toplan işə saldı. Şah qoşununun hərbi əməliyyatı bütün qışı davam etdi (1603-1604). Nəhayət, 1604-cü il iyunun 8-də İrəvan qalası tutuldu. Şərif paşa başda olmaqla, qarnizonun qalan hissəsi təslim oldiL İrəvanın idarə edilməsi Əmirgünə xan Qacara, Naxçıvan ise Maqsud Sultan Kəngər- liyə tapşınidı.

Buna qedər Şerqi Gürcüstan meselesi diplomatik yolla həll olundu. İsgəndər Münşinin dediyinə görə, İrəvan qalasının mühasirəsi vaxtı Gürcüstandan Kaxetiya çan Aleksandr və Kartli çarı X Georgi şahın qərargahına gəldilər. Onlar 1 Abbasla ittifaqa girərək, özlərinin Səfəvi dövlətinin vassalı olduqlannı bildirdilər.

İrəvan tutulsa da, Qarabağ və Şirvan osmanlılann əlində idi. I Abbas bu vilayətləri elə keçirdikdən sonra bir qədər gözləməli idi. Çünki qarşıda onu osmanlı qüvvələri ilə həlledici döyüşlər gözləyirdi. Onun nəticəsi Azərbaycanın və bütün ön Qafqazın taleyini həll etməli idi.

Qarabağ uğrunda mübarizənin öz xüsusiyyəti var idi. 1588>ci ildə, osmanlıların hakimiyyəti zamanı qızılbaşların «dönük» adı alan hissəsi türklərə qulluq etməyə başladı, digər hissəsi isə İrana köçdü. Köçənlər I Abbası Qarabağı işğala təhrik edirdilər. Abbasın Azərbaycanın cənub vilayətlərindəki ilk qələbələri «dönüklərin» xeyli hissəsinin (qacar, alpaut, saatlı, pazuk və qazax tayfalarının çoxu, şemsəd- dinli tayfasından bir qrupu, hacılar və s.) Səfəvilərin tərəfinə keçməsinə təkan verdi.

I Abbas Qarabağı ələ keçirənə qədər Ziyadoğlu nəslindən Hüseyn xan Qacarı bura bəylərbəyi lə’yin etmişdi. Hüseyn xan Qacar qoşunla yürüşə çıxaraq Arazın şimalında, Közlüçay adlanan yerdə düşərgə saldı. Lakin osmanlı hakimi Davud paşa yeddi minlik qoşunla onu əzdi. Bunu eşidən I Abbas Allahqulu bəy Qorçubaşının komandanlığı altında Gəncəyə beş minlik dəstə göndərdi. Qorçubaşının dəstəsi «dönükləri» və Gəncə ətrafını talan edərək şahın düşərgəsinə qayıtdı.

I Abbas Sinan paşa Ciqaloğlunun başçılığı altında osmanlı qoşununun yaxınlaşdığını eşidən kimi, onlara qarşı Səfəvilerin ən’ənəvi «yandınlmış torpaq» taktikasını tətbiq etdi. Şah fərman verdi: «Arazın sol sahilini dağıtmaq və əhalisizləşdirmək; bütün azərbaycanlı və ennənileri köçürmək, ərzaq və eləf nə varsa götürmək, qalanını isə məhv edib yandırmaq». Bununla da Ön Qafqazda yaşayan çoxlu azərbaycanlı, erməni, gürcü və kürdlərin məcburi köçürülməsinə başlandı. İsgəndər Münşi yazırdı ki, şah qoşunu bu əmri yerinə yetirərək Qars və Ərzrum arasında yerləşən Hesənqala adlı yerə gəlib çatdı və geri qayıdıb çoxlu ev heyvanı ələ keçirdi, bütün taxılı, ot-ələfı məhv etdi. Şahın əmri ile on minlərlə əhali İrana köçürüldü. Əhalinin belə silah gücünə İsfahana, Mazandarana və İranın digər vilayətlərinə köçürülməsi və ölkənin talan edilməsi Azerbaycan xalqı üçün böyük müsibət idi. Tarixşünaslıqda bu köçürmə «böyük sürgün» adım almışdır.

I Abbasın əhalinin köçürülməsi və yaşayış məntəqələrinin dağıdılması haqqında əmri tə’cili həyata keçirildi. İsgəndər Münşi yazırdı ki, fərman veriləndən bir neçə gün sonra şahın qərargahını yerləşdirməyə yer yox idi. Çünki Naxçıvan və onun ətrafındakı yaşayış məntəqələri xarabazara çevrilmişdi. Beləliklə, Naxçıvan, İrəvan, Culfa və digər çiçəklənmiş diyar Səfəvi şahının fərmanı ile yandınl- mış və əhalisi köçürülmüşdü.

Günəbədinin dediyindən aydın olur ki, Naxçıvanın, Culfanın dağıdılması siyasi və dini məqsəd daşıyırdı. Naxçıvanın sünnü təbəqəsi osmanlıların hakimiyyətinə meyl edirdi. Şahın bu dağıdıcı tədbirlərinin osmanlı hücumu ilə əlaqədar həyata keçirilməsini Arakel Tebrizli də təsdiq edərək yazırdı ki, Şah Abbas osmanlı qoşununun yaxınlaşdığını bildi və əhalilinin köçürülməsi, yaşayış məntəqələrinin dağıdılmasını əmr etdi ki, «osmanlılar gəlib ölkəni ehalisiz görsünlər, özlərinə və heyvana lazım olan ərzağı və yemi tapmasınlar və en zəruri şeylərin yoxluğundan narahat olsunlar».

1 Abbasın azərbaycanlıları öz doğma yerlərindən köçürməsi iqtisadi məqsəd daşıyırdı. Köçürmənin diger səbəbi də şahın İranın daxili vilayətlərinin məhsuldar qüvvələrini inkişaf etdirmək və dünya tranzit ticarətinin əsas yolunu Səfəvi dövlətinin cənubuna köçürmək niyyəti idi. Culfa tranzit ticarəti baxımından son dərəcə əlverişli ərazidə yerləşirdi. Buradan Avropaya gedən karvan yolu osmanlı Türkiyəsindən keçirdi. I Şah Abbas Avropa-Asiya ipək ticarəti yolunu cənuba, İran körfəzi limanına keçirməklə buradan ipəyi. Osmanlı ərazisi istisna olmaqla, Afrika ətrafından, denizlə Avropaya daşımağı qərara almışdı. Şah Abbas məhz İran-ingilis tacirlərinin mənafeyi xatirinə ən iri ipək birjası^' olan Culfanın əhalisini İsfahana köçürdü. Yeri gəlmişken deyək ki, şahın əmri ilə Naxçıvan əhalisi də Dizağa (Qarabağa) köçürülürdü. Bir sıra mənbələrin verdiyi me’lumata görə, bu qerlərden 350 minə qədər adam köçürülmüşdü. I Abbas azərbaycanlı, erməni və gürcülərin mahir sənətkarlarını öz şəxsi istifadəsində olan Mazandaran torpaqlarına və ya İsfahan şəhərinin ətrafına köçürürdü.

Sinnan paşa Ciqaloğlunun komandanlığı altında Naxçıvan və İrəvan ətrafına daxil olmuş türk qoşunu pis vəziyyətdə qaldı. Diyarın şah qoşunu tərəfindən talan edilməsi onlann fəaliyyətinə tə’sir etdi.

Alver uçün bazar.

Osmanlı qoşunu içərisinə qanşıqlıq düşdü və Ciqaloğlu qışlamaq üçün Vana qayıtmağa məcbur oldu.

I Abbas hələ Vanda olan Ciqaloğlunun qüvvələrini dəf etmək üçün Təbrizdə yeni qala tikdirdi və bura iki-üç illik ərzaq və hərbi sursat topladı, nəhayət, Allahverdi xanın başçılığı ilə Vana Ciqaloğlunun üzərinə on üç minlik dəstə göndərdi. Türk qoşunu darmadağın edildi, Ciqaloğlu isə qaçıb xilas ola bildi (1605). I Abbas eyni vaxtda kürdlərin bir hissəsini İrana köçürdü. Türklərin yeni hücumlarını gözlədiyindən I Abbas «türk qoşununun yolu üzərindəki bütün yaşayış məntəqələrinin dağıdılması, sakinlərinin uzaq diyarlara köçürülməsi, əızağa, ələfə, yanacağa od vurmağı, pencərə, qapı və evlərin tavanının yandınimasını əmr etdi». Qaynağın yazdığına görə, şahın əmri elə dəqiqliklə yerinə yetirildi ki, «Salmasdan Təbrizə 40 fərsah (250 km) olan ərazidə bircə nəfərin belə bir gün qalması mümkün olmadı».

Ciqaloğlu 100 minlik qoşunla ikikci dəfə Azərbaycanın hüdudlarına daxil oldu. Osmanlı qoşunu ilə həlledici döyüşə girmək I Şah Abbasın planında yox idi. Osmanlı qoşunu Urmiya gölünün şimalında yerləşən Təsucdan hərəkətə başladı.

1605-ci il noyabrın 7-də Ərdəbil ilə Sərab arasında şahın komandanlığı altında gedən döyüşdə osmanlılann qüvvəsi darmadağın edildi və külli miqdarda hərbi qənimət ələ keçirildi.

Türk qaynaqları bu müharibədə Osmanlı qoşununun məğlubolma səbəbini döyüşdə iştirak edən kürdlərin «kifayət qədər sə'y göstərməmələri», əvvəllər sultan hakimiyyətinə qarşı çıxış etmiş, indi isə zorla İran şahma qarşı döyüşə göndərilmiş cəlalilərin ordu sıralarında olmaları ile izah edirlər.

Təsuc əhalisinin osmanlılara qarşı üsyanı daha çox maraq doğumr. Ona görə də dəf edilmiş Osmanlı türkləri pərakəndə halda döyüş meydanından geri çəkilərkən təsuclular intiqam vaxtının çatdığım qərara aldılar. Geri çəkilən osmanlılar gecə qaranlığında şəhərin bağlarla əhatə olunmuş rayonuna düşdülər. Təsuclular onları mərkəzi meydana getirdilər və türklərin şəhərdə olması barədə şəhərlilərə xəbər verdilər. Onlar darvazaları bağlayıb «osmanlıları məhv etməyə» başladılar. Beləliklə, Təsucda 500 minə yaxın Osmanlı öldürüldü. Məhz buna görə I Abbas tesucluları iki il müddətinə malcehət və digər vergilərdən azad etdi.

I Abbas Ciqaloğlu üzərindəki qələbədən sonra, qışın sərt keçməsinə baxmayaraq, Qarabağa daxil olub Gəncəni mühasirəyə aldı. Bu

vaxt (1605-1606-cı ilin qışı) hər iki tərəfin dağıdıcı fəaliyyəti nəticəsində Azərbaycanı və qonşu ölkələri aclıq bürüdü. Qarabağ kəndləri taxıl əkib-becərə bilmədilər. I Abbas Qarabağa daxil olan kimi, qoşunu ərzaqla tə*min etmək üçün tə'cili tədbirlər gördü. Azərbaycanın digər rayonlarından Qarabağa 20 min xərvər (7000 tona yaxın) taxıl gətirilməsi barədə xüsusi fərman verdi və hər bir xərvər taxılın satış qiymətini 5000 dinar müəyyən etdi. Məsafənin uzaq olmasını və taxılın daşınmasının çətinliyini nəzərə alaraq sonralar onun qiymətini iki dəfə (1 tümən) artırdı.

Gəncənin türk qarnizonu şəhərin təhvil verilməsi təklifini qəbul etmədi. Gəncə qalasının mühasirəsi 4 aya yaxın davam etdi. Nəhayət, 1606-cı ii iyunun 5-do Gəncə tutuldu. Turk qarnizonu qılıncdan keçirildi. Salnaməçinin dediyinə görə, şahın *əmri* ile onlann 2,5 min nəfəri Həsənçay adlı yerdə e'dam edildi. «Ölənlərin cəsədlərindən təpə düzəldildi». Qarabağın hakimi Hüseyn xan Müsahib Qacar hakimiyyətdən kənar edildi, yerinə Məhəmməd Ziyad oğlu Qacar tə'yin olundu.

I Abbas Şirvanın və Dağıstanın tutulması ilə Ön Qafqaz əməliyyatını mümkün qədər tez başa çatdırmağa çalışırdı. O, Şirvanı türk qarnizonundan təmizləməyi qərara aldı. Şah qoşunu Şirvana daxil oldu. Lakin Şamaxı kənarında dayanan (9 yanvar 1607) qoşun üç ay əməliyyata başlaya bilmədi. Bu onunla izah olunurdu ki, əwəla ərzaq və ələf çatışmırdı; ikinci, hərbi hissələrin hərəkətinə mane olan və günlərlə davam edən leysan yağışlar yağırdı. Şah Abbas Şamaxını tutmağa hazırlaşırdı. Bu şəraitdə Bakı, Dərbənd əhalisi də osmanlılara qarşı üsyan etdi.

Bakıdakı üsyana 1607-ci ilin yanvarında ə'yanlar başçılıq edirdilər. Şəhər üsyan başçılarının əlinə keçdi və şah qərargahı ilə əlaqə yarandı. Əsir alınmış osmanlıların və ölənlərin başlan qərargaha apanidı. Şah Abbas Bakını üsyançılann himayəsinə verdi.

Bakıdan sonra Dərbənd əhalisi üsyana başladı, şəhərdəki Osmanlı qarnizonu qəflətən yaxalandı. Şəhərin komendantı Həsən paşa 60-70 Osmanlı ilə Nannqalada gizləndi. Dərbəndin tanınmış adamları Şamaxıya şahın yanına gəldilər, şah onları hörmətlə qəbul edib qiymətli hədiyyələr, soyurqal verdi və Dərbənd əhalisini bütün dövlət vergilərindən azad etdi. Yerli əhalinin və şahın tüfəngçilərinin fəal köməyi ilə Həsən paşa təslim oldu, təqribən 1607-ci il martın əvvəlində qala tutuldu.

Şamaxının mühasirəsi hələ davam edirdi. 1607-ci il iyunun 27-də Zültüqar xanın qoşunu qala bürcünü tutdu. Salnaməçinin yazdığına görə, «bir anda 2-3 min nəfər qılıncdan keçirildi və bütün Şamaxı şəhəri dağıdıldı». Zültüqar xan Qaramanlı Şirvana hakim tə'yin edildi. Dərbənd və Şabranın idarəsi Çiraq Sultan Ustadıya tapşırıldı. Bir qə> dər sonra San Hacə adlı Hacı Məhəmməd Riza Fədəvi Azərbaycanın maliyyə işləri üzrə vəziri, Şirvanın vəziri isə Məhəmməd Saleh bəy tə’yin edildi.

Beləliklə, XVII əsrin əvvəlində dörd il davam edən Səfəvi- Osmanlı müharibələrinin birinci mərhələsi Səfevilərin tam qələbəsi ilə başa çatdı. Bütün Azərbaycan, Ermənistan və Gürcüstan, qismən Dağıstan uzun müddət 1 Şah Abbasın hakimiyyəti altına düşdü.

Şah Ərdəbildən Təbrizə qayıtdı və osmanlılarla sülh bağlamağa cəhd etdi. Bu məqsədlə Şah Krım xanı Qazı Gireyin yaxın dostu. Osmanlı qoşun sərkərdələrindən olan Xəndan ağanı Qəhqəhə qalasından azad etdi və tapşırıqla Krıma göndərdi. Abbasın işğal dairəsini tanımaq və 1555-ci il sülhünün şərtlərini bərpa etmək şərtilə Osmanlı dövlətinin Sətəvi dövləti ilə sülh müqaviləsi bağlamasına kömək etmək ona tapşırılmışdı. Lakin Krıma gedərkən Xəndan ağa yolda öldümldü. Şahın səfiri çərkəzlər tərəfindən əsir alındı. Qazı Gireyin də ölüm xəbəri gəldi. Beləliklə, əldə edilmiş qələbə hüquqi baxımdan rəsmiləşdirilmədi.

1639-cu il sülhü. Sultan Türkiyəsi ilə Azərbaycan Səfəvi dövləti arasında baş verən dörd illik (1603-1607) müharibə Azərbaycanın Səfəvilər tərəfindən tutulmasına, Osmanlı zülmünün İran feodallarının zülmü ilə əvəz edilməsinə gətirib çıxardı.

Şah I Abbasın Azərbaycana, Ermənistana, Gürcüstana yürüşü o vaxta qədər görünməmiş dağıntılarla müşayiət edilirdi. Bütövlükdə ölkənin dağıdılmasına, iqtisadiyyatın tənəzzülünə, əhalinin əsarətinə səbəb olan İran qoşununun bu qəddarlığı azərbaycanlıların hiddətinə səbəb oldu. Səfəvilərə qarşı həyəcan başladı. Bu, Təbrizdə daha güclü idi. Salnaməçi yazırdı ki, şah təbrizlilərin çıxışlarından ehtiyat edərək, «Təbriz və digər bölgələrin əhalisini sakitləşdirmək üçün» şəhər qalasını bərpa etməyi məsləhət gördü. «20 gün ərzində qala bərpa olundu». Bundan sonra şah Xoy şəhərinin abadlığı qayğısına qaldı.

Şübhəsiz, Səfəvi sarayı tərəfindən belə tədbirlərin həyata keçirilməsi XVII əsrin əvvəllərində Səfəvi və Osmanlı yürüşləri zamanı Azərbaycana dəymiş zərərin yerini doldura bilməzdi. Bu dağıdıcı

müharibeierden, döyüş səhnələrindən kənarda olan Ərdəbil, Qaracadağ, Arazın cənub salıilində Talış və qismən Lənkərana zərər dəyməmişdi.

Səfəvi sarayı osmanlılarla müqavilə imzalamağa cəhd göstərirdi. Osmanlı dövləti isə Azərbaycanı itirmək istəmirdi. Osmanlılar hər vəchlə Azərbaycanı Türkiyə imperiyası tərkibinə daxil etmiş 1590-cı il sülhünün şərtlərini saxlamağa çalışırdılac Osmanlılar 1611-1612-ci illərdə yenidən Azərbaycana hücum etdilər və Təbrizi tutdular. Lakin şah qoşununun hücumundan ehtiyat edərək beş gündən sonra .Vana qayıtdılar. Türkiyə, tarixçiləri e'tiraf edirlər. osmanlılar ■ bu- dəfə Təbrizdə'böyük dağıntılaF.fö?ətdiIər,;Şəh€(]rə-.od..vnrdular. Abbas özü də. :Qsman|iı qoşunu; iJƏ' dÖyÜşə girməkdən, çəkindi.• SəfəvUər -bu dəfə də ən'ənəviı«yandıri'lmış torpaq» üsuluna əl atdılar. Əhalini yol boyu osmanlıların keçəcəyi şəhər və kəndlərdən zorla çıxarmağa başladılar. Ərzağı və yemi daşıdılar, binaları dağıtdılar, zəmilərə və evlərə od vurdular.

Səfəvi və Osmanlı sülhünün şərtləri barədə danışıq gedirdi. Nəhayət, Cənubi Azerbaycanın Sərab şeherində 1555-ci il sülhünün bərpa edilməsi qərara alındı. Lakin Osmanlı tərəfi bir sıra yeni şərtlər irəli sürdü. Şah Abbas osmanlılara ildə 200 yük ipək verməyi öhdəsinə götürdü. Türkiyə tarixçisi Nəimənin mo'lumatına görə, osmanlılann vacib şərtlərindən biri de o idi ki, «eger rusların bu yerlərə səfərlərinin qarşısını almaq məqsədilə onlar tərəfindən tikilmiş Terek (Tarku) qalasının dağıdılması barədə sultanın fərmanı olarsa, onda şah bu işə qarışmasın». Türkiyə Sefəvi-rus dövlətləri arasında yarana biləcək mümkün ittifaqa mane olmaq üçün belə şərti irəli sürürdü.

Beləliklə, Osmanlı dövləti Azerbaycanın, qismən Ermenistanın və Gürcüstanın, habelə Kürdüstanın Səfəvi dövlətinə mənsub olmasını resmən tanıdı. Bu da gələcəkdə iki dövlətin sərhədlərinin hüquqi cəhətdən müəyyən edilməsi üçün əsas oldu.

Lakin Türkiyə ile bağlanmış 1612-ci il sülhü möhkəm olmadı, tezliklə pozuldu. Şah Abbas 1613-cü il oktyabnn 16-da Ön Qafqaz xalqlarını itaətə gətirmək üçün böyük ordu ilə Azərbaycanın şimal vilayətlərinə və Gürcüstana 3dirüşə başladı. Səfəvi qoşunu Ərdebilden Qarabağa daxil oldu. Bu yürüşdə Təbriz hakimi Pirbudaq xan Öz dəstəsi ile, Qarabağ əmirlərindən Dəli Məhəmməd Şəmseddinli, Şirvan bəylərbəyi Yusif xan şahı müşayiət edirdilər. Şah gürcü çar- lannı itaətə gətirmək məqsədi güdürdü. Şərqi Gürcüstanı viran edən

şah qoşunu 30 min nəfer esir apardı, 40 min baş mal-qara zəbt edildi. Şah gürcü əsirlərini islamı qəbul etməyə məcbur etdi.

Şah Abbasın Qafqazdakı hərbi əmiliyyatı osmanlı lan ciddi narahat edirdi. Sultan I Əhməd 1612-ci il müqaviləsini pozaraq 1616-cı ilin yazında Səfəvilerlə müharibəyə başladı. Yaxşı silahlanmış türk ordusu Məhəmməd paşanın başçılığı altında Ətzrumdan birbaşa Təbrizə daxil oldu, yolüstü şimala dönüb İrəvanı mühasirəyə aldı. Şah Abbas qorçulan, Xorasan dəstəsini, İsfahan tüfəngçilerini irəvanlılann köməyinə göndərdi. Bundan başqa, könüllülərdən xüsusi seçmə dəstə düzəldildi.

Lakin İrəvan qalasının yüz minlik Osmanlı qoşunu ile əhatə olun* duğunu görən Abbas yenə de həlledici döyüşə girmək fikrindən daşındı. Osmanlı qoşununu mühasirəyə almağı, geriyə yolunu bağlamağı və hər vasitə ilə qoşuna ərzaq gətirilməsinə müqavimət göstərməyi qərara aldı. Qışın sərt keçməsi, xəstəlik ve ərzaq qıtlığı Osmanlı qoşununu geri çəkilməyə məcbur etdi.*

1618-ci ilin yazında Xəlil paşa Diyarbəkrdən Azərbaycana doğru hərəkət etdi. Onlarla birlikdə Türkiyə sultanının vassalı Canıbəy Gəray xanın başçılığı altında Krım tatarlannin 15 minlik qoşunu da hərəkət edirdi. Müttəfiqlər döyüşsüz Təbrizi tutdular və şərqə doğru irəlilədilər. Şah Abbas osmanlıların gəlişini görüb Ərdəbili də boşaltdı. Müttəfiqlər Səfəvilərin əsas qüvvəsinə zərbə vurmağa çalışırdılar. Səfəvilərle Osmanlı qoşunu arasında həlledici döyüş Sərab vilayətinin Ərəştaban və Səhəmsaray qəsəbələri arasındakı düzənlikdə, Sınıq körpü adlı yerdə baş verdi. Bu döyüşdə Osmanlı qoşunu ağır zərbə aldı, Ərzrum bəylərbəyi, Osmanlı qoşununun baş komandanı Həsən bəy əsir alınıb öldürüldü, Krım^ xanı Canıbəy qaçmaqla canını qurtardı, lakin tatarlar içərisində ikinci şəxs hesab edilən baş vəzir Mirzə bəy, həmçinin Vanın bəylərbəyi Məhəmməd paşa əsir alındılar, 15 min nəfər türk ve tatar öldürüldü.

Sərab yaxınlığındakı bu məğlubiyyətdən sonra Xəlil paşa geri çəkilib sülh danışıqlarına başladı. I Abbasla Xəlil paşa arasında tarix-şünaslıqda səhvən Sərab sülhü adlanan müqavilə 1618-ci ilin sentya-bnnda Mərənddə imzalandı, 1619-cu ildə Türkiyə hökuməti tərəfindən təsdiq edildi.

* İsgəndər Mımşinin hesablamasına görə, osmanlılar bu yürüşdə 40 min nəfər itld verdilər.

1618-ci il Səfəvi-Osmanlı sülh müqaviləsini İran pozdu. XVII əsrin 20-ci illərində Osmanlı imperiyasında hərc-mərclik başlandı. Ölkədə yanıçarlar22 özbaşınalıq edir, sultanlan hakimiyyətdən devirir, başqası ile əvəz edirdilər.

Bundan istifadə edən I Abbas Ərəb İraqını, Bağdadı, Kərbəla, Nəcəf, Mosul, Kəıicük şəhərlərini, az sonra Axalsixi tutdu, onun idarə edilməsini Selim xan Şəmsəddinliyə həvalə etdi.

IV Muradın (1623-1640) dövründə Hafiz Əhməd paşa Diyar- bekrə hakim tə*yin olundu və zəbt edilmiş yerləri Səfəvilerdən geri almaq barədə göstəriş aldı. Bu müddətdə Ön Qafqazda böyük hadisələr baş verdi. Georgi Saakadzenin («Böyük Mourov bəy») başçılığı ilə gürcülərin yerli feodallara qarşı silahlı üsyana qalxmaları mühüm hadisə idi. Gürcü xalqının azadlıq hərəkatından ehtiyat edən Şah Abbas Səfəvi ordusunun baş komandanı Qarçıqay xanı Gürcüstana göndərdi. G.Saakadze bu vaxta qədər Səfəvi sarayına sadiq idi, Qarçı- qayla birlikdə fəaliyyət göstərirdi. Lakin o, Qarçıqayın gürcülərlə qəddar rəftannı gördükdən sonra «eyni dinlilerinin intiqamını almaq hissi ilə» Qarçıqay xanı və Şirvan bəylərbəyi Yusif xanı öldürdü, şaha qarşı gürcülərin mübarizəsinə başçılıq etməyə başladı. O, şahın cəza dəstələrini, sonra isə Gəncə bəylərbeyliyinə və Qacar e’yanlarının dayanacaqlarına hücuma keçərək darmadağın etdi.

Şah Abbas İsa xan Qorçubaşının başçılığı ilə Gürcüstana qoşun göndərdi. 1625-ci il iyunun 30-da şah qoşunu Gümüşlü qəsəbəsində, Əlkitçay dərəsində böyük itki bahasına gürcülər üzərində qələbə çaldı. Bundan sonra Teymuraz Başıaçıqa (İmeretiya), Saakadze isə Samsixiyə çəkildi. Şah Mehemmədeli xan Ziyad oğlu Qacarın yerinə Allahverdi xan oğlu Davud xanı Qarabağ bəylərbəyi tə’yin etdi.

Şah bununla kifayətləndi; daha ciddi tədbirlər görmək mümkün deyildi. Çünki eyni vaxtda Azərbaycanın cənub-qərbində kürdlər də silahlı üsyana qalxmışdılar. Şah qoşunu üsyançılann öhdəsindən gəldi. Şah Abbasın bu vaxt səbirli və təmkinli hərəkət etməsinin əsas səbəbi Bağdadı fəth etmək üçün Osmanlı qoşununun Diyarbəkrə toplaşması idi. Qarşıda Səfəvi-Osmanlı hərbi qüvvələrinin sınağı dururdu. Nəhayət, Bağdad uğrunda ikiillik mübarizə də Səfəvi qoşununun qələbəsi ilə qurtardı (1624-1626).

. Yeni əsgər.

Şah Abbas öləndə (1629) bütün Azərbaycan, indiki Ermənistan, Axalsix daxil olmaqla, Şərqi Gürcüstan Səfəvi dövlətinin hakimiyyəti altında idi. Lakin osmanlılar Bağdadı geri almağa çalışırdılar. Dəfələrlə Osmanlı və kürd^^ feodalları ilə Təbrizin özünümüdafiə qrupları arasında baş verən döyüşlər sonunculann qələbəsi ilə qurtardı.

Şah Abbasın nəvəsi I Səfinin (1629-1642) qərargahı Qəzvində olarkən kürd həkərt tayfasının nümayəndəsi onun yanına gəldi, Vanı tutmaq üçün onunla razılaşdı. Səfəvi şahı Vanı ələ keçirmək üçün fərman verdi. Rüstəm xanın komandanlığı altında qoşun Van qalasını mühasirəyə almağa başladı, lakin az sonra mühasirəni dayandınb geri çəkildi. Şah Səfi həmin ildə (avqust, 1633) birinci vəzir Əbutalıb Ordubadini öldürdü, Azerbaycanda xeyli dəyişiklik etdi. Rüstəm xan Azərbaycan bəylərbəyi və Təbriz hakimi oldu.

Osmanlı Türkiyəsi öz niyyətindən əl çəkmirdi. 1634-cü ilin yazında Sultan IV Murad (1623-1640) böyük qoşunla Ərzrumdan İrəvana doğru irəlilədi və avqustun 10-da qalanı tutdu. Sentyabrın 1- də Təbrizə doğru istiqamət aldı və döyüşsüz şəhəri tutdu. IV Murad şah sarayını və şəhəri əsasına qədər dağıtmaq əmrini verdi. Salnaməçi yazırdı: «Osmanlı qoşunu uca binaları, gözəl sarayları xarabazara çevirdi...». Lakin ərzaq və ot-ələfin çalışmaması, qışın yaxınlaşması, Səfəvi qoşununun hücum təhlükəsi onları Təbrizdən çıxmağa məcbur etdi. Bundan sonra şah hərbi şurası tə’cili İrəvan qalasının geri alınmasını qərarlaşdırdı. 1635-ci il alrelin 11-də qala alındı.

1637-1638-ci illərdə Səfəvi-Osmanlı müharibələrinin döyüş səhnəsi yenə də Mesopotamiyaya köçdü. 1638-ci il dekabrın 25-de Bağdad tamamilə Türkiyənin əlinə keçdi. Bağdadın mühasirəsi vaxtı, sultanın əmri ilə Ərzurum hakimi Kə'nan paşanın qoşunu tatar qarnizonu ilə birlikdə Ağn dağının vadisinə basqın etdi. Bu basqından azərbaycanlılar çox zərər çəkdilər.

Beləliklə, Azərbaycan və indiki Ermənistan ərazisində gedən Səfəvi-Osmanlı müharibələri xalqa dəhşətli aclıq, səfalət və müsibət gətirdi, əsrlər boyu yaranmış zəngin mədəniyyətə ağır zərbə endirdi.

Bağdad tutulduqdan sonra 1639-cu il mayın 17-də Qəsri-Şirində Türkiyə ilə Səfəvi dövləti arasında 1612-ci il sülhünün şərtlərini təsdiq edən sülh müqaviləsi imzalandı və XVIU əsrin birinci rübünə qədər qüvvədə qaldı. Azərbaycanda qismən sakitlik yarandı, on illərlə

Həkəri və mahmudi tayfalan.

boşalmış şeherlerin əhalisi geri qayıtdı, inzibati ve ticarət mərkəzləri olan şəhərlər öz əvvəlki şöhrətini qaytarmağa başladı. 164S~l648-ci illərdə Azərbaycan Səfevüərin Gürcüstan səfərindən də zərər çekirdi. XVII əsrin ortalannda Səfəvi dövlətində iqtisadi dirçəliş, I Abbas tərəfindən İran və Azerbaycan üçün görülmüş mə’lum tədbirlər öz bəhrəsini verməyə başladı. Ayn-ayn şəhərlərdə, xüsusilə Derbenddə və Ordubadda vergi imtiyazı, Bakı şeherinə olan xeyirxah münasibət, Gəncənin bərpası və abadlaşdırılması, Təbrizdə şəhər tikintisi xeyrinə bə'zi tədbirlər, Ərdəbile daim qayğı, xalqın doğma diyann inkişafı və abadlaşmasına olan qayğısı - bütün bunların hamısı XVII əsrin ikinci yansından etibarən Azərbaycanı Yaxın və Orta Şərqdə çiçəklənən diyarlardan birinə çevirdi.

Ümumiyyətlə, XVII əsrin əvvəllərində Səfeviler, Türkiyə ve Avropa dövlətləri arasında yaranmış siyasi vəziyyət feodal istehsal üsulunun xarakterindən doğan tarixi inkişaf prosesinin qanunauyğun nəticəsi idi.

XVII əsrdə Şərqi Gürcüstan istisna olmaqla, Azərbaycan inzibati idarə sistemi Səfəvi imperiyasının bütün şimali-qerb hissəsini əhatə edirdi. Əhalisinin dörddə üç hissəsi, ye*ni əsasən azərbaycanlı olan indiki Ermənistan-Çuxur-Sə’d bəylərbəyi də Azərbaycan anlamına daxil idi. Azerbaycanda dörd bəylerbəyliyi var idi: Təbriz, Çuxur- Sə’d, Qarabağ və Şirvan. Ölkənin cənub vilayətlərinin çoxu Təbrizə aid idi və Azerbaycan bəylərbəyi adlanırdı.

Səfəvi-Osmanlı müharibələri dövründə talan edilmiş ailələrin bir hissəsi Ennənistan, Gürcüstan və Azərbaycandan başqa yerlərə köçmüşdü. Tiflis və Şamaxıda xeyli enneni sənətkarı və taciri məskən salmışdı.

Avarların Azərbaycan erazisində sakin olmaları da elə bu zaman başa çatmışdı. Avarlar bələ XV əsrin sonlannda Azərbaycan və Gürcüstanın sərhəd rayonlanna köçüb gəlməyə başlamışdılar. Onlann bura gəlməsi kaxetiyahlann öz sərhədlərini düşməndən qorumaq üçün avarlara müraciət etmələri ilə əlaqədar idi XVII əsrin əvvəllərində I Abbasın köməyi ile yengiloy, muğal ve digər türksoylu birləşmələr yçrli əhalini özlərinə tabe edərək Balaken, Car, Muxax, Tala, Çardaqlı, Qabaqçöl, Katex, Qaşqaçay, Suvagil kəndlərində həmişəlik məskən saldılar.

Şah Abbas özünə arxa yaratmaq məqsədilə Azərbaycanın şimal bölgələrinə yarımköçəri tayfalar köçürürdü. Məsələn, Muğanda çoxlu

şahseven ailəsi yerləşdirilmişdi. Türksoylu padarlarm Səfəviler tərəfindən İrandan Azərbaycana köçürülməsi də XVI-XVII əsrlərə təsadüf edir. Onların çox hissəsi ləzgilərin basqınlarını dəf etməli idilər. Padarlar indi də Dəvəçi, Şamaxı, Şəki və başqa bölgələrdə yaşayırlar.

Hakimiyyət idarələri. Yerlərdə ali hakimiyyət *bəylərbəyilərə* məxsus idi. Hər bir boylerbeylik şah tərəfindən tə'yin edilmiş bəylərbəyi tərəfindən idarə edilirdi. Bəylərbəyilərə tabe olan vilayət hakimləri *qolbəyi* adlanırdı. Bir qədər Üçik inzibati bölgünün hakimi sultan adlanırdı. Sultanlar qolbeyilərə, bə'zi ballarda bilavasitə tabe idilər. Bəylərbəyilər və ona tabe hakimlər hərbçilər (mülazimlər) saxlamalı idilər. Onlar bəylərbəyliyin hərbi qüvvələrinin özəyini təşkil edirdilər. Namə'lum müəllifin məMumatına görə, Azərbaycanın dörd bəylərbəyliyində mülazimlerin sayı 30 mindən yuxan deyildi.

Qoşunun xərci bəylərbəyilərin gəlirinin bir hissəsi ilə ödənilirdi. Bu gəlirin əsas mənbəyini isə kəndlilərdən, sənətkar və tacirlərdən alınan vergilər təşkil edirdi. Gəlirin müəyyən hissəsi isə dövlətin mərkəzi xəzinəsinə göndərilirdi. Bundan əlavə, bəylərbəyilər saraya qiymətli toxuculuq mə'mulatları, bəxşişlər, inkrustasiya ilə bəzənmiş qablar, qızıl sikkələr, samur xəzi, yorğa cins atlar, gənc qul və kənizlər göndərirdilər. Təntənəli günlərdə, hərbi qələbələr qeyd olunanda, ad günlərində və s. hədiyyələr verilirdi.

Bəylərbəyliyin maliyyə işlərinin vəziyyətinə vəzir cavabdeh idi. XVII əsrdə Gəncə mərkəz olmaqla, Qarabağ vilayətini Ziyadoğlu Qacar nəslinin irsi bəylərbəyi idarə edirdi. Lakin ikinci dəfə Məhəmməd xan Ziyadoğlu Qacarın oğlu Murtuzqulu xan onun varisi kimi Qarabağın hakimi oldu. 1664-cü ildən sonra öz dövrünün iste'dadlı şairi, elm və mədəniyyət nümayəndələrini himayə edən Uğurlu xan Qambağı idarə etməyə başladı.

Qızılbaş şamlu tayfasından olan Nəcəfqulu bəy Çuxur-SəMin və Şirvanın bəylərbəyi idi. O, 1656-1663-cü illərdə İrəvan vilayətini idarə etmişdi. Əylisli Zəkəriyyə yazırdı ki, «şahın saray ə'yanlan içərisində onun qədər yaraşıqlı və dövlətli xan yox idi». 1667-ci ildə ölümündən sonra Səfərqulu xan onu əvəz etdi.

Təbriz, Qarabağ və Şirvan bəylərboyləri müəyyən edilmiş miqdarda qoşunu döyüş vəziyyətində saxlamalı, feodal sinfinin hökmranlığını tə*min etməli və xalq kütlələrini istismar boyunduruğu altında saxlamaq üçün inzibati aparatı qaydaya salmalı idilər.

## § 10. XVU ƏSRDƏ AZƏRBAYCANIN SOStAL-İQTtSADt HƏYATI

Kənd təsərrüfatının vəziyyəti. XVII əsrdə Azərbaycanda« demək olar ki« Yaxın və Orta Şərqdə məşhur olan kənd təsərrüfatı məhsullarının bütün növləri yetişdirilirdi. XVII əsrin 40-cı illərində Azərbaycanda olmuş türk səyyahı Evliya Çələbi burada taxıl və s. bitkilərin yetişdirilmesini dönə-dönə qeyd edir. Xüsusilə Təbriz ətrafında buğda yetişdirilməsi barədə geniş söhbət açır. Onun mə'lumatına görə, Təbrizdə bu bitkinin 7 növü yetişdirilirdi. Fransız səyyahları Jan Batist Tavariye, Y.Streys də onun fikrini təsdiqləyirdilər.

Azərbaycanda bu dövrdə çəltik« paxla əkininə böyük əhəmiyyət verilirdi. Evliya Çələbinin məMumatına görə« Gəncə« Şamaxı« Təbriz, Ərdəbil« Marağa, Naxçıvanda çəltik və paxla yetişdirilirdi.

Kənd təsərrüfatı bitkiləri içərisində pambıq xüsusi yer tuturdu. Evliya yazırdı ki, Şirvan, Xoy və Gəncədə pambığın yeddi növü yetişdirilirdi: zehi, monlayi, zə’fərani« ləli, xass, bəyaz və s. Bu növlər Bakı, Təbriz« Marağada da geniş yayılmışdı.

Azerbaycan öz meyvələri ilə Ön Şərqdə məşhur idi. Burada alma, şaftalı, armud, ərik, badam, püstə, gavalı, üzüm« əncir, qoz, fındıq, şabalıd; Xezersahili vilayətlərdə isə sitrus bitkiləri« zeytun yetişdirilirdi. ■f.Şardenin mə’lumatına görə, Təbrizdə üzümün 60 növü vardı.

Azərbaycanda tərəvəzçilik və bostançılıq geniş yayılmışdı. Bu sahədə Təbriz, Şamaxı, Naxçıvan, Bakı şəhərləri xüsusilə fərqlənirdi. Barama qurdu yetişdirmək əhalinin en’ənevi məşğuliyyətlərindən biri idi. Şirvanda, Qarabağda bu sahə daha çox intişar tapmışdı. Adam Olearinin məMumatına görə, XVII əsrin 30-cu illərində bütün Səfəvi imperiyasında 18 min yük ipək istehsal olunurdu. Onun 5000 yükünü Şirvan, 2000 yükünü Qarabağ, 3000 yükünü isə Azərbaycanın cənubu verirdi. Bakı ətrafında az miqdarda kətan, Azərbaycanın bə’zi bölgələrində isə toxuculuqda müstəsna əhəmiyyəti olan qızıl boya və zə’fəran yetişdirilir, qırmızı boya (Bərdə, Mərend) eldə edilirdi.

XVII əsrdə Azerbaycanda yetişdirilən yeni mədəni bitki növlərindən biri tütün idi. İran tarixçilərinin məMumatına görə, tütünü XVI əsrin 90-cı illərində portəkizler Azərbaycana gətirmişdilər. Tütün Azərbaycanın cənub və cənub-qərb vilayətlərində becərilirdi.

Əkinçilikdə sünM suvarma mühüm rol oynayırdı. Burada dörd cür sünM suvarma mövcud idi. Şarden yazırdı ki« İranda dörd növ su var

dır: iki yerüstü - çay suyu və bulaq suyu, iki yeraltı - quyu suyu ve yeraltı axın - kəhriz. Bundan başqa hər bir çaydan çoxlu kanallar çəkilir və vegetasiya^^ dövrü geniş istifadə edilirdi.

XVII əsrdə Azərbaycanın iqtisadiyyatında maldarlıq da mühüm yer tuturdu. Bu, təkcə yerli əhalinin və daxili bazann tələbini deyil, həm də qonşu ölkələrə külli miqdarda maldarlıq mehsullan verməyə imkan yaradırdı. Əhalinin xeyli hissəsi yaylaq maldarlığı ilə məşğul idi. Bununla əlaqədar Məhəmməd Mə’sum ibn Hacıağa İsfahaninin söhbəti maraq doğurur. O, Qarabağ hakimi Murtuzaqulu xan Ziyad- oğlu Qacarın vəziri kimi XVI əsrin 40-^0-cı illərində Qarabağı idarə edən ulu babası Şahverdi Sultanın həyatından bir epizod təqdim edir: «Şahverdi Sultan onun yanına gəlmiş Osmanlı nümayəndələrinin əhval-ruhiyyəsinə tə’sir etmək üçün mal-qaradan alınan vergi siyahısı ilə məşğul olan mirzələri çağırdı və qonaqlann iştirakı ilə qoyunlann sayını bildiran siyahını təqdim etməyi məsləhət gördü. Mirzələr məMumat verdilər ki, indi Qarabağda mübaliğəsiz və tə’rifsiz yüz min sürü qoyun vardır».

Səfəvi şahlarının Qarabağda, Mərənddə ve Marağada xüsusi ilxıları vardı. Bütün Səfəvi imperiyası dövründə dəvədən yükdaşıma vasitəsi kimi istifadə edilmişdir. Dəvə XVII əsrdə, əvvəlki illərdəki kimi, «səhra gəmisi» ləqəbini şərəflə doğruldurdu.

Azərbaycanda quşçuluq, arıçılıq (Şamaxı) inkişaf etdirilirdi. Səfevilərin hakimiyyəti dövründə feodal-torpaq mülkiyyəti var idi: 1. Dövlət torpaqları. 2. Şah nəslinə aid olan torpaqlar. 3. Hərbi və mülki bürokratiyanın şərti himayəsində olan torpaqlar (soyurqal, tiyul). 4. Məscid və kilsə torpaqları (veqf). 5. Xüsusi sahibkar əmlakı (mülk).
6. Camaat torpaqları.

XVII əsrdə birinci iki torpaq mülkiyyəti forması üstünlük təşkil edirdi. Divanın bütün gəliri dövlət xərclərini ödəməyə sərf edilirdi, şah nəslinə aid olan torpaqlardan gələn gəlir xəzinəyə verilir, yaxud şahın razılığı ilə xərclənirdi. Şah familiyası üzvlərinə mənsub olan toıpaqlardan götürülən gəlir isə onlann özlərinə xərclənirdi.

Şəhərlər. XVI əsrdə Azerbaycanda mədəniyyət, sənətkarlıq və ticarət mərkəzi olan iri abad şəhərlər var idi. Sefəvi-Osmanlı müharibələri (1578-1590) Azerbaycana ağır zərbə vurdu, şəhərləri xaraba- zara çevrildi. İmperiyanın ucqanna çevrilən, tran və Rusiya ilə sıx iqtisadi əlaqələri itirən Azerbaycan türk işğalı illərində aldıqı zərbə-

Bitkilərin boy artımı dövrü.

dən özünü doğrulda bilmədi. I Abbasın Azərbaycan ərazisində və qonşu ölkələrdə «böyük sürgün» siyasəti və dağıdıcı müharibələri şeherləri tamamilə tənəzzülə uğratdı. Şeherlərin təsərrüfat və mədəni həyatının geriləmə dövru başladı, sənətkarlıq və ticarət xeyli zəiflədi. Lakin Azərbaycan xalqı təsərrüfatı bərpa etmək və şəhər həyatını canlandırmaq əzmindən əl çəkmədi.

Azərbaycan yalnız XVII əsrin ortalannda Səfəvi-Osmanlı müharibələrinin ağır nəticələrindən özünə gəldi. Şəhərlər yenidən keçmiş sənətkarlıq, ticarət, mədəniyyət və incəsənət mərkəzi kimi şöhrətini geri qaytardı. Karvan ticarəti bərpa edildi, çoxsahəli sənətkarlıq sahələri qaydaya salındı.

Azərbaycanda natural təsərrüfatın hökm sürdüyü bir şəraitdə sənətkarlıq böyük rol oynayırdı. Şəhər və kəndlərdə emək alətləri, silah, parça, xalça, gön-dəri mə'mulatı, məişət avadanlığı hazırlayan çoxlu sənətkarlıq e'malatxanalan vardı.

Lakin təbrizlilərin gücü sayəsində tezliklə şəhər heyatı dirçəldi, əsrin 60-70-ci illərində onun əhalisinin sayı 550 minə çatdı. Təbrizdə 47 mədrəsə (burada tədris bütün elmlər üzrə apanlırdı), 600-e qədər ibtidai məktəb, 320 məscid, 200-ə yaxın karvansara, müxtəlif mə’mu- latlar və mallar satılan 7000 dükan var idi.

Gəncə tədricən keçmiş qüdrətini və şöhrətini qaytardı. Əsrin birinci rübündə (1625) Gəncə əvvəlki kimi, bəylərbəyliyin və Qacar nəslinin müxtəlif şaxələrindən olan ə’yanların iqamətgahı idi. Əsrin ikinci yarısının əmin-amanlıq şəraitində keçməsi Gəncə üçun nəzərə çarpacaq dərəcədə abadlıq İşlərinin aparılması ilə əlamətdar olmuşdur.

2200 ilə yaxın tarixi olan Şamaxı XVII əsrin əvvəllərində möhkəmləndirilmiş böyük şəhər idi. Burada 50-60 min nəfər əhali yaşayırdı. Osmanlı işğalı dövründə şəhər iri siyasi və ticarət mərkəzi kimi öz əhəmiyyətini saxlayırdı. 1668-ci il yanvann 4-də Şamaxıda olmuş, zəlzələ şəhərə ciddi zərər vurdu. Zəlzələ nəticəsində 6-7 min nəfər həlak oldu. Lakin şəhər tezliklə dirçəldi.

Tədricən bərpa edilməyə başlayan Şamaxıda ipək toxuyan e'ma-latxanalar işləyirdi. Şəhərin yaxınlığında Muçi kəndində ipək əyirən və ipək toxuyan dəzgahlar düzəldilirdi. Şamaxıda ipəkdən hazırlanan* mə*mulatın çeşidi çox zəngin idi. Bu bölgənin Lahıc kəndi xəncər, * qılınc, mis qab-qacağıyla və s. məşhur idi. O zaman Lahıcda, hətta kiçik toplar da hazırlanırdı. Xarici bazarlarda ə'la Quba xalçalarına böyük tələbat var idi. Şəkidə ipək parça, mahud üzərində rəngbərəng

ipək tikmələr, mis qablar, ağacdan şəbəkə, əmək alətləri, məişətdə işlənən əşyalar və s. hazırlanırdı. Dəmirçi, misgər, to.xucu, dulusçu, boyaqçı, dabbağ, xarrat, çəkməçi, dərzi, zərgər, silah hazırlayanlar və başqalan müxtəlif sex təşkilatiannda-əsnaflarda birləşirdilər. Gəncə yaxınlığında hasil edilən misdən yerli ustalar zəngin naxışlı qab-qacaq düzəldirdilər. Abşeron, Qarabağ və Naxçıvanda xalçaçılıq, gön-dəri mə’mulatının istehsalı geniş yayılmışdı. Təbrizdə, Ərdəbildə yun və ipək parçalar, zərgərlik mə’mulatı hazırlanırdı. F.Kotov yazırdı ki, «...Ərdəbildə karvansara ve saray Şamaxıdan çoxdur və yaxşıdır, onların sayı iyirmidən çoxdur, evlərin hımısı daşdandır, dükan çoxdur».

Burada qızğın ipək ticarəti gedirdi. Əsrin sonunda Səfəvi imperiyasını əhatə edən iqtisadi tənəzzül ona da tə’sir etmişdi. Sənətkarlıq kənddə də inkişaf edirdi. Kənd sənətkarları hazırladıqları əşya ilə yalnız kənd zəhmətkeşlərinin tələbini ödəyirdilər. Lakin sənətkarlıq sahələrində texnika son dərəcə aşağı səviyyədə qalırdı, tri e'malat- xanaların sayı çox cüzi olan Azərbaycanda hələ manufaktura sənayesi yox idi.

Şəhər həyatı durğunluq keçirirdi. Gəncə, Ərdəbil, Şəki, Bakı və s. şəhərlərin hərəsində 3 mindən 8 minə qədər əhali yaşayırdı. Azərbaycan Gürcüstan, Dağıstan, İran və Rusiya ilə sıx ticarət əlaqələri saxlayırdı. Şəki və Gəncə ipəyi Azərbaycanın hüdudlarından kənarda məşhur idi. İpək Rusiya, İtaliya, Türkiyə və İrana ixrac olunurdu. Lakin ölkənin feodal dağınıqlığı, hədsiz gömrüklər, müxtəlif ölçü, çəki və pul vahidlərinin olması ticarətin inkişafına mənfi tə’sir etməklə yanaşı, həm də Azərbaycanda əmtəə-pul münasibətlərinin yayılmasına mane olurdu.

Bakı əvvəlki mövqeyini saxlayırdı. Salnaməçi yazırdı ki, Bakıda çoxlu məscid, karvansara, hamam, bazar var idi. Şəhər Xəzər hövzəsində yerləşən ölkələr arasındakı tranzit ticarətdə mühüm rol oynayırdı.

Hərbi istehkam kimi tanınan Dərbənd dörd tərəfdən yüksək divarla əhatə olunmuşdu. Ortasında Nannqala adlı istehkam var idi. I Abbas Dərbəndin qala divarım bərpa etdirdi və şəhər əhalisinə dövlət vergilərini bağışladı (1607). Orta əsrlərdə Dərbənd bazannda Dağıstandan, Şimali Qafqazdan, Knmdan, Rusiyadan, Ukraynadan, Polşadan gətirilən qullar satılırdı.

Marağa şəhəri hələ qədimdən öz meyvə bağlan və üzümlükləri ilə şöhrət tapmışdı. Evliya Çələbinin mə’lumatına görə, orta əsrlərdə burada 7000 ev var idi. Sefəvi-Osmanlı müharibələrinin toxunmadığı

Azerbaycan şəhərlərindən olan Əhər Ərdəbil ile Gəncə arasındakı Xudafərin vasitəsilə karvan ticarət yolu üzərində yerləşirdi. XVII əsrdə Əhər şəhəri Azərbaycanın bir sıra mühüm şeherləri sırasına çıxmışdı. Lakin əsrin sonunda tənəzzülə uğradı.

XVII əsrin birinci yarısında iki dəfə dağıdılmış Naxçıvan bir qədər dirçəldi, lakin əvvəlki zirvəyə qalxa bilmədi. Bu cəhətdən Evliya Çələbinin mə'lumatı maraqlıdır «Əsrin 40-cı illərində şəhərdə 10200 ev, 70 ibadət yeri, 4 məscid, 20 mehmanxana, 7 hamam və lOOO-ə yaxın dükan vardı. XVII əsrin sonunda bir sıra iqtisadi və siyasi səbəblərə görə Naxçıvan uzun müddət öz əvvəlki iqtisadi- siyasi və mədəni əhəmiyyətini itirdi.

Ordubad ilk Səfəvi şahlanmn diqqətini xüsusi cəlb edirdi. I Abbas Ordubada vergi imtiyazı vermişdi, əhalini bütün mükəlləfiyyətlərdən azad etmişdi. Əylisli Zəkəriiyenin dediklərindən mə’lum olur ki, əsrin ikinci yarısında Ordubadın Təbriz, Şamaxı və Azərbaycanın başqa şəhərlərilə, həmçinin xariclə geniş ticarət və digər əlaqələr vardı.

Qanlı müharibələr meydanından kənarda qalan Quba əsrin sonuna qədər öz iqtisadi və siyasi əhəmiyyətini saxlamışdı. XVIII əsrin əvvəllərində Quba Azərbaycanın iri şeherləri sırasında qeyd edilmişdi.

Azərbaycanın müxtəlif sənətkarlıq e’malatxanalarına malik Miyanə, Xalxal, Sərab şəhərləri karvan yolu üzərində yerləşir və ölkənin təsərrüfat həyatında diqqətəlayiq rol oynayırdı.

XVII əsrdə Azərbaycanın şimalında olan bə’zi şəhərlər - Qəbələ, Şabran, Ərəş, Niyazabad tam tənəzzülə uğradılar.

Azərbaycanın şəhər əhalisinin sosial tərkibi:

1. Feodallar sinfi, hərbi feodallar, mülki bürokratiya, ali ruhani, iri və kiçik torpaq sahibləri təbəqəsindən ibarət idilər.
2. Beynəlxalq və daxili ticarət ilə məşğul olan iri, orta və kiçik tacirlər.
3. Sənətkarlar ittifaqında birləşmiş orta əsr şəhərlərinin əsas istehsalçıları.
4. Şəhərətrafı torpaqların becərilməsi və heyvandarlıqla məşğul olan əkinçilər.

Şəhərlərdə bütün hakimiyyət iri torpaq sahibi olan bəylərbəyinin əlində idi. Hər bir şəhərdə mərkəzi hakimiyyətin, yerli torpaq sahibliyinin səlahiyyətini öz elində cəmləşdirən hakimlər, həmin səlahiyyətlə də mülki bürokratiya fəaliyyət gösterirdi. Bu iki bürokratiya kübarlar adlanırdılar.

XVII esrin sonuncu onilliklerine qeder I Abbasın ve II Abbasın vaxtında gümüş pulun qıtlığı yox idi. Şah Süleymanın vaxtında vəziyyət tamamilə dəyişildi. MeUum oldu ki, hind tacirləri ölkədən birinci növbədə qızılı və gümüşü daşıyır, bu işdə yerli tacirlər və sələmçilər de onlardan geri qalmırdılar. Qiymətli metallann toplanması və saxlanması çox geniş yayılmışdı, dövlət idarələri isə buna qarşı mübarizədə aciz idilər. Çünki şah başda olmaqla, Səfəvi ə*yanlan Ölkəni sosial-iqtisadi və siyasi böhrana apanrdılar.

XVII esrin son onilliyində ölkəyə xarici ticarətin yolu ilə gümüş və gümüş pullann daxil olması sona yetdi. Xarici ticarəti əlində cəmləşdirən erməni tacirləri eldə etdikləri xarici gümüş pulları yenidən kəsmək istəmir ve onu Hindistana göndərməyi qərara alırlar. Belə vəziyyət Səfəvi dövlətində gümüşün qiymətdən düşməsi ilə əlaqədar idi. Bütün bunların hamısı nəticə e*tibarilə Səfəvi pullarının dəyərsizliyinə gətirib çıxardı, dövriyyəyə ölkədə mal mübadiləsini korlayan külli miqdarda saxta pullar buraxıldı.

XVII əsrin ikinci yarısında pul böhranı və onun uzun müddət davam etməsi Səfəvi dövlətinin əsasını sarsıdan əsas səbəb idi.

## § 12. FEODAL İSTİSMARINA QARŞI XALQ KÜTLƏLƏRİNİN ÇIXIŞLARI

XVI esrin sonu - XVII əsrin əvvəlləri Azərbaycanda müflisləşmiş kəndlilərin gur çıxışları dövrü kimi əlamətdardır. Cəlalilər hərəkatı adı altında ilk dəfə Şərqi Anadoluda başlayan bu çıxışlar daha sonra bütün Azərbaycanı bürüdü. Osmanlı zülmünə, habelə Şah I Abbasın və yerli feodalların dağıdıcı siyasətinə qarşı yoxsul ve ümidsiz kəndlilər ayağa qalxmışdılar.

Cəlalilər hərəkatının ardınca Azərbaycanın bir neçə şəhərlərində, xüsusilə Təbriz, Ordubad, Təsuc, Bakı, Dərbənddə silahlı üsyanlar başladı. I614-cü ildə I Abbasın Gürcüstan səfəri də eyni həyəcana səbəb oldu. Üsyan ve həyəcanlan yatırmaq məqsədilə ön Qafqazın boşaldılması siyasətini davam etdirən I Abbas bütün müselmanlan, yəhudiləri Fərəhabada, İsfahana ve Mazandarana köçürmək əmrini verdi. Bu tədbir Osmanlı işğalı dövründə Şirvan ve Qarabağ əhalisinin bir qisminə də şamil edilirdi. Şirvanda şah fərmanının yerinə yetirilməsi ərəbkirli isfəndiyar bəy Ovçubaşına, Qarabağda isə Lütfəli bəy Qacar dəftərdara tapşırılmışdı, isgəndər Münşinin dediyinə görə, İS min ailə köçürülmüşdü.

baycan, tran və Yaxın Şərq tacirlərinin ticarət əməliyyatı Kazan, Novqorod, Yaroslavl, hətta Arxangelskə qədər yayılırdı. Lakin Moskva Azərbaycan malının daimi ticarət yeri olaraq qalırdı.

Pul tədavülü. Azərbaycanın daxil olduğu Səfəvi imperiyasında pul kəsilməsi işi mərkəzləşməmişdi, tsfahan Yaxın Şərqdə ən iri zərbxanaya malik idi. Şəhərlərin çoxunda, o sıradan Həmədan, Rəşt. Qəzvin, Kaşan, Məşhəd, İrəvan, Tiflis, Təbriz, Gəncə, Naxçıvan və Ərdəbilin öz «zərbxanaları» fəaliyyət gösterirdi. Burada qanunauyğun tə'diyə vasitəsi^^ olan pul kəsilirdi.

Səfəvi pul sistemində mübadilədən çıxmış «dinar» nominal pul vahidi idi. I Abbas mübadiləyə yeni pul daxil etdi və adı ilə «Abbası» adlandırdı. Bu pul təmiz qızıldan idi, iki misqal çəkisi və 200 dinar deyəri var idi. Ehtimal ki, misdən aşqar qatılırdı.

XVII əsrdə Azərbaycanda və Səfəvilerin hakimiyyəti altında olan digər yerlərdə aşağıdakı pullar dövriyyədə idi:

1. abbası - 200 dinar; 2. mahmudi - 100 dinar; 3. şahi - 50 dinar; 4. bisti - 20 dinar; 5. qazbeqi - 5 dinar dəyərində.

Birinci dördü gümüşdən, qazbeq isə misdən kəsilirdi. J.Taver- nyeyə görə, beş abbasılıq pullar qızıldan kəsilir, vəziyyətlə əlaqədar olaraq dəyəri gah qalxır, gah enirdi. Tacqoyma mərasimlərində, böyük bayramlarda, hərbi qələbələr vaxtı kəsilirdi. Gümüş pulun üz lə- rotlnə ortada: «Lailahəilləllah, Məhəmmədən rəsulullah, Əliyun vəli- yullah», dairənin ətrafında on iki imamın adı yazılırdı. Arxa tərəfdə hakimiyyətdə olan şahın adı, pulun kəsildiyi yer və tarix həkk edilirdi.

Səfəvilərin hakimiyyəti dairəsində, o sıradan Azərbaycanda əlvan metalların yataqları öyrənilməmişdi. Ölkədə dağ-mə'dən işlərinin öyrənilməsi sahəsində mütəxəssislərin olmaması, istismar texnikasının geriliyi özünü göstərirdi. Beləliklə, Səfəvi dövləti xeyli təbii ehtiyata malik olsa da, əlvan metalların istehsalı baxımından xaricdən asılı vəziyyətdə idi. ölkəyə daxil olan xarici pullar, gümüş əşyalar və külçələr pul kəsilməyə sərf edilirdi. Dövlət xəzinəsinə daxil olan qızıl bir qayda olaraq orada qalır, həmişəlik tədavüldən çıxırdı. Bütün saray qab-qacağı qızıldan idi. İran şahı şəxsi istifadəsində olan əşyalardan yalnız qızılı bəyənirdi. Məhəmməd Tahir Vahid yazır ki, şah sarayındakı ov heyvanlarının xaltaları, atlann çulları zərif qızılı saplardan toxunur, qiymətli daş-qaşla bəzədilirdi, zəncirləri isə qızıldan idi.

25 Alıcılıq qabiliyyəti olan.

Rusiyanın Azərbaycan, İran və başqa ölkələrlə ticarət əlaqələrində mühüm rol oynayırdı. Rus dövləti neyin bahasına olursa-olsun, bu su magistralını və onun sahillərini kazakların və Şimali Qafqaz dağlılarının basqınlarından qorumalı idi. Bu vaxt Donda üsyançı kazaklara rəhbərlik edən Stepan Razin Ön Qafqaz üçün daha təhlükəli olmuşdu. Onun Azov dənizinə çıxmaq cəhdi baş tutmadıqdan sonra, əməliyyatı Volqa-Xezerə keçirdi. S.Razin 1667-ci ilin mayında Volqaya çatdı, həmin il iyunun əvvəlində Xəzər dənizinə çıxdı. 1668-ci ilin yayında Azərbaycana və İranın digər sahil vilayətlərinə hücum etdi. S.Razin kazaklann ataman Sergey Krivoyun başçılığı altında fəaliyyət göstərən digər dəstəsi ilə birləşərək 40 qayıqda, 2000 nəfərlə Derbendə, sonra isə Bakıya tərəf irəlilədi.

Razinin başçılığı ilə kazaklar ilk dəfə Bakı sahilinə basqın edərək Müştağa kəndini talan etdilər. 150 nəfərə yaxın əsir aldılar. 7000 qoyu« etdilər. Qəniməti Jiloy adasına apararaq öz aralarında böldülər. Y.Streys yazırdı: «Kazaklarla söhbətdə bizə dedilər ki, qurudakı basqınlardan əlavə, onlar İrandakı Niyazabad, Şabran, Mardov, Təkül kimi dənizsahili şəhərləri, məşhur Banmaq dağını zəbt etmişlər». Y.Streysin sözləri ilə desək, Bakını tutanda kazakların döyüş qabiliyyətli adamlarının sayı 5-6 min nəfərə çatırdı. Kazaklar Bakıya basqından sonra, Xəzərin cənub sahillərinə, Gilana, Rəştə basqın etmiş, xeyli qənimət ələ keçirmişlər. S.Razin Saritsmı, Həştərxanı tutdu və Mordva, mari, çuvaş, tatar kəndliləri onunla birləşdilər. Saratov və Samara ona təslim oldu. 1670-ci ilin sentyabrında S.Razin Simbirskə yaxınlaşdı. Lakin onu ələ keçirə bilmədi, razinçilər məğlub oldular.

I671-Cİ il iyunun 6-da S.Razinə e'lan edilmiş ölüm hökmündə deyilirdi: «Sən canisən... Xəzər dənizinə gələrək İran (Azərbaycan - *S.M.)* əhalisini talan etdin, tacirlərin mallarını əllərindən aldın, onları öldürdün. Həmçinin sən İranın (Azərbaycanın - *SM.)* bir neçə şeherini dağıtdın, iki çarlıq arasına böyük qırğın toxumu səpdin».

Azərbaycan malının tranzit yolla, İranın cənub limanı vasitəsilə Rusiya ve Avropa ölkələrinə daşınması ticarət əlaqələrinin artmasına kömək edir ve böyük iqtisadi səmərə verirdi.

XVII əsrdə rus tacirləri Azərbaycan şəhərlərində geniş ticarət aparırdılar. Rus ticarət koloniyasının Şamaxıdakı ticarət əməliyyatı bütün əsr boyu səyyahların diqqətini cəlb etmişdi. XVII əsrin əvvəllərində tranzit ticarətin mühüm mərkəzi olan Həştərxana Azərbaycandan və digər Xəzərsahili vilayətlərdən xeyli tacir gəlirdi.

## § II. AZƏRBAYCAN-RUSİYA MÜNASİBƏTLƏRİ

Səfəvi dövləti ilə Rusiya arasında olan münasibətlər müştərək siyasi marağa və qarşılıqlı iqtisadi əlaqələrə əsaslanırdı. *Azərbaycan hu dövrdə böyük Səfəvi imperiyasında Rusiya ilə həmsərhəd olan yeganə dövlət idi. Bu dövrdə İsfahan sarayı tərəfindən tə 'yin edilmiş Şirvan bəylərbəyləri bütün hallarda Rusiya ilə sülh əlaqələri yaratmağa və hər hansı gərginlikdən qaçmağa çalışırdılar.'*

Azərbaycan-Rusiya ticarət münasibətləri bir sıra çətinliklərlə qarşılaşırdı. Ticarət karvanları üzərinə hücum edən kazak dəstələrinin fəaliyyəti böyük maneə idi. İsgəndər Münşi farsdilli tarixşünaslıqda ilk dəfə kazakların Azərbaycana, Bakı şəhərinə (1631-1632) basqınlarını qeyd edir və göstərirdi ki, bu, onların Bakıya birinci basqınları deyildi. Şübhəsiz, yerli əhali bu basqınlardan hədsiz zərər çəkir, onların əzabına düçar olurdu.

İsgəndər Münşinin mə'lumatma görə, «bu yürüşlərdə iştirak edən kazakların sayı 600-700 nəfər idi. Bu dəstələr dənizdə ticarət gəmiləri axtanrdılar. Lakin bu vaxt güclü külək qalxdı və təsadüfi ləpələr onlann 300 nəfərini Şirvanda olan Bädkubə tərəfə apardı. Onlar burada odlu atəş vasitəsilə yerli əhalidən uzaqlaşmağa çalışdılar, lakin güclü yağışdan nəm çəkmiş barıtdan istifadə edə bilmədilər. Külək kazakları sahilə qovdu və orada hamısı qılıncdan keçirildi».

Kazakların Xəzər dənizinə yürüşü sonrakı illərdə də davam etmişdi. Bir arxiv sənədində deyilir ki, 1647-ci ildə Don kazaklarmın bir dəstəsi neft üçün Bakıya gələn Fərəhabad taciri Hacı Bağınn üzərinə hücum etmiş, onun altı-yeddi yüz tümənlik malını əlindən almış, özünü isə yüz otuz tümənə satmışdılar.

1650-ci ildə Xəzərdə kazaklara qarşı qəti tədbir görmək məqsədilə II Abbas Moskvaya xüsusi səfir-Məhəmmədqulu bəyi göndərdi. Çünki kazakların Azərbaycana və Xəzərin cənub vilayətlərinə basqınları daha təhlükəli vəziyyət alırdı. II Abbasın məsləhəti ilə Dərbənddən Astrabada qədər nəzarət məntəqələri qoyuldu. Mir Seyid Hüseyn Şirvaninin başçılığı ilə Mazandaran qarnizonu döyüşə hazır vəziyyətə gətirildi. Gilan rayonlarının mühafizəsi gücləndirildi. Şirvan, Astrabad, həmçinin Astara, Qızılağac və Dərbənd bəylərbəyləri öz vilayətlərində mühafizəni gücləndirmək üçün əmr aldılar.

Rusiya hökuməti Xəzər dənizində gəmilərin təhlükəsizliyinə böyük əhəmiyyət verirdi. Volqa-Xəzər su yolu bütün ili açıq idi ve

XVIT əsrdə Azerbaycanla Hindistan arasında ğehiş ticarət əlaqələri yaranmışdı. Bir sıra tacirlərin Hindistanda güclü kapitalı vardı. Bu cəhətdən XVII əsrin ikinci yansmda Azərbaycanda məskən salan hind tacirləri daha çox fəallıq gösterirdilər. E.Kempferin məMumatına görə, onlar Bakının ticarət həyatında xüsusi mövqe tuturdular. Bakıda - Abşeronun Suraxanı kəndində hindlilərin xüsusi atəşpərəstlik mə'bədiəri var idi.

Azərbaycanın İranla ticarət əlaqələri quru və dəniz yolu ile aparılırdı: quru yol Dərbənd və Şimali Qafqazdan, deniz yolu isə Xəzər-Volqadan keçirdi. F.Kotov yazırdı ki, quru yol Derbend-Şabran- Muğan düzü-Ərdebil-Xalxal-Zencan-Sultaniyye-Əbher və İsfahana qədər uzanırdı. Bu yoldan Gəncə, Ərəş, Naxçıvan, Merend, Təbriz, Marağaya şaxələr aynlırdı. Dəniz yolu isə Dərbənd-Bakı, Lənkəran, Astara, Gilan və İranın daxili rayonlarından keçirdi.

Bu dövrün ticarətində mövcud olan ümumi çətinliklərlə yanaşı, başqa mənfi cəhətlər də vardı. Quldurların basqını, deniz piratlarının hücumları, susuzluq və s. Ona görə də hər iki tərəfin tacirləri silahlı keşikçilərlə hərəkət edən böyük karvanlar düzəldirdilər. Bə’zən tica- lət karvanını dövlətin siyasi nümayəndəsi müşayiət edirdi. Ona görə de onun keşiyinə xüsusi diqqət yetirilirdi. Buna baxmayaraq, karvanlar tez-tez basqınlara, talanlara mə’ruz qalırdı.

XVI əsrin ortalarından e’tibarən Volqa-Xezər yolu, həmçinin Azərbaycandan keçən quru ticarət yolu beynəlxalq əhəmiyyət kəsb edirdi. Bə’zi Avropa ölkələri bu yoldan istifadə etməyə çalışır və Rusiyadan kömək istəyirdi. Çünki XVII əsrin sonunda bu yol rus tacirlərinin əlinə keçmişdi. Rus dövləti də Səfəvi hakimiyyəti ilə Qərbi Avropa arasında yeganə vasitəçi olmağa çalışırdı. Bu cəhd 1667-ci ildə uğurla başa çatdı. Rusiya Qızılbaş xam ipəyini Həştərxan vasitəsilə Moskvaya, daha sonra Mərkəzi və Qərbi Avropa ölkələrinə daşımaq inhisarı hüququ almaq üçün Yeni Culfa mərkəz olmaqla, eıməni kompaniyası ilə müqavilə imzaladı. Ruslara Səfevilərin bütün hakimiyyəti dövründə gömrüksüz ticarət etmək hüququ, pulsuz arabalar, qonaq evlərində və ticarət məntəqələrində imtiyazlar verildi. Şahın fərmanında yerli hakimlərə, rus tacirlərinə xüsusi ehtiram gös- tənnək tapşırıldı.

XVII əsr boyu Azerbaycan-Rusiya arasında yaranmış qonşuluq münasibətləri, geniş ticarət əlaqələri, əlverişli mal mübadiləsi, işgüzar əlaqə, yaxın ünsiyyət, tacirlərin və başqa sənət sahiblərinin tez-tez qarşılıqlı sətərləri iki qonşu xalqın yaxınlaşmasına zəmin yaratdı.

Daxili və xarici ticarət XVII əsrdə Azərbaycanda feodal istehsal üsuluna xas olan natural təsərrüfat hökm sürdüyü şəraitdə ticarət əmtəə-pul münasibətləri xeyli inkişaf etmişdi. Azərbaycanda bazar münasibətləri əsasən hakim feodal sinfinin mənafeyinə xidmət edirdi. Şah başda olmaqla feodallar öz vasitəçilərinin köməyilə ticarətdə, xüsusilə xarici ticarətdə iştirak edirdilər. Azərbaycan şəhərləri, ilk növbədə Bakı, Təbriz, Naxçıvan, Ordubad və Şamaxı Səfəvilərin daxili ticarətində müstəsna rol oynayırdı. XVII əsrdə Azərbaycanda gündəlik tələbi ödəyən malların qiyməti Avropaya nisbətən aşağı idi. Yerli hakimlər xalqın həyəcanından ehtiyat edir, bazarda qiymətlərin artmasına imkan vermirdilər. XVII əsrin ikinci yansından e'tibarən Azərbaycanda ticarət şəbəkəsinə induslar (moltanı) və ruslar daxil oldular ki, onlar xaricilər kimi, gətirdikləri mallan satırdılar. Ticarətdə erməni və yəhudilər də mövqelərini möhkəmləndirməyə çalışırdılar.

XVII əsrdə Azərbaycan şəhərlərində və qonşu ölkələrdə xarici ticarətin mərkəzi olan böyük karvansaralarda hər bir tacirin icarayə götürdüyü hücrə adlanan yeri və anban var idi. Qonaq evləri də mövcud idi. İri şəhərlərdə karvansara və qonaq evi birləşdirilirdi. Belə ki. xaricdən gəlmiş tacir öz hücrəsi və malının yerləşdiyi anbarla yanaşı yaşaya bilərdi.

XVII əsrin ortalarından e'tibarən Azərbaycanın qonşu ölkələrlə və Qərblə ticarət əlaqələri genişlənirdi. Sefəvi^Osmänlı sülh münasibətlərinin yaranması Türkiyə, Aralıq dənizi vasitəsilə Qərb ölkələri, qismən Venesiya, Genuya və diger ticarət şəhərləri ilə ticarət aparmağa imkan verirdi.

Osmanlılar Azerbaycanın ticarət rəqibi kimi bu zaman qoşqu və yük heyvanlarını almağa çox maraq göstərirdilər. Azərbaycan ilxılarında - Marağa, Mərənd, Qarabağ və Muğanda yetişdirilən ə'la yorğa və döyüş atlarına Türkiyədə böyük tələb vardı. Hər il Azərbaycandan Türkiyəyə xeyli dəvə göndərilirdi. Bundan əlavə, osmanlılar Azerbaycan ipəyini, boyaq maddələrini, toxuculuq me'mulatlannı avropalılara satmaqla xeyli gəlir götümrdülər. Azərbaycan tacirləri İtaliya, Fransa və s. ölkələrlə sıx iqtisadi əlaqə yaratmaq məqsədilə türk tranzit ticarət yolundan istifadə edirdilər. J.Tavamyenin fikrinə görə, İstanbul, İzmir, Hələb şəhərləri Şərq tranzit ticarətinin son dayaq nöqtələri idi. Buradan mallar dəniz yolu ilə Avropaya çatdınlırdı. Həmin şəhərlər Avropanın Şərq ölkələri ilə tranzit ticarətində «yolaşalma məntəqəsi» vəzifəsini yerinə yetirirdi.

1615-1616“CJ illərdə Şirvanda güclü üsyan baş verdi. Az sonra Gəncə yaxınlığındakı Dəngi vilayətinin camaatı da mübarizəyə qoşuldu. Onlar mülazimİəri^^, Gəncə hakimi Məhəmməd xan Ziyadoğlu Qacarı öldürüb, şirvanlılarla birlikdə Kaxetiya çannın başçılığı altında tran zülmünə qarşı mübarizə aparan gürcü üsyançılan ilə əlaqə yaratdılar. Şirvandakı üsyana tərəkəmə tayfasından Dəli Məlik adı ilə məşhur olan Məlik Piri başçılıq edirdi. İsgəndər Münşi qeyd edirdi ki, «onun (Dəli Məliyin) ətrafına toplaşanlar bə’zi pozğun ünsürlər və iğtişaşçılarla» Dağıstanda möhkəmlənib şahlıq hakimiyyətinə qai'şı çıxış etdilər. Bununla əlaqədar olaraq Şirvanda hərc-mərclik yarandı. Dəli Məliyin başçılığı ilə üsyançılar Ərəş qarnizonuna basqın etdilər. Ərəş hakimi Məmməd Hüseyn Sultan Dəli Məlik tərəfindən yaxalandı və öz yaxın adamlän ilə birlikdə öldürüldü. Üsyançılar Ərəşə yiyələnə bilmədilər. Onlar I Abbas qoşununun yaxınlaşdığını eşidib Ərəşi tərk etdilər.

1616-cı ildə I Abbas Şirvan və Gürcüstan üsyançılan ilə ciddi reftar etdiyinə görə Teymuraz və Dəli Məlik Qərbi Gürcüstanda özlərinə sığınacaq tapdılar. Tezliklə onlar yenidən Kaxetiyaya daxil oldular, belə olduqda Səfəvi sarayı ikinci dəfə böyük qoşun təşkil edib onlara qarşı göndərdi. Şah Dəli Məliyi əsir almağa çalışdı, lakin o, Dağıstanda gizləndi.

Xalqın feodal istismarına, şah nümayəndələrinin zülmünə qarşı mübarizəsi tez-tez dini bid’ət şəklində təzahür edir, bə’zən onlarla «kafirlər» arasında silahlı toqquşmaya səbəb olurdu. Belə mübarizə Səfəvi imperiyasının müxtəlif vilayətlərində, Azərbaycanda və indiki Ermənistanda müşahidə olunurdu.

Mıxlı baba adlı bir nəfər udinin başçılığı altında dönük xristian təriqətinin hərəkatı (1625) Azərbaycanda başlamış, Ermənistana yayılmış, Türkiyə hüdudlannda sona yetmişdi. t.P.Petruşevskinin dediyi kimi, bu hərəkat kəndlilərin kilsələrin feodal istismanna və I Abbasın yürüşünə kömək edən erməni ruhanilərinə qarşı e'tiraz idi. Kənəkirli Zəkəriyyə bu hərəkat haqqında ətmflı məMumat verir. Lakin ona düşmən mövqedən yanaşır. Mıxlı baba Xristə və Məhəmmədə inanırdı. O, Azərbaycan türklərinin və ermənilərin əhatə etdikləri böyük izdihamın əhatəsində bir kənddən o birinə adlayır, var- dövlətə, zinətə qarşı təbliğat apanrdı. Salnaməçinin dediyinə görə, o, kəndlərdə görünən kimi, «avam camaat» onun başına toplaşıb ehti-

Hərbi xidmətçilər.

rasla onun təbliğatına qulaq asırdılar. Şübhəsiz ki, «izdihamı» birinci növbədə təbliğatın sosial mahiyyəti maraqlandırırdı. Mıxlı baba ilk dövrlərdə Qarabağ bəylərbəyi Davud xanın hamiliyindən istifadə edirdi. Görünür ki, sonuncu təriqətçilik hərəkatına erməni kilsəsinin zəifləməsinin amili kimi baxırdı. Hərəkat Qarabağ və Gəncədən Ennenistana yayıldı. Səyyah təbliğatçı öz tərəfdarlarının gücu ilə İrəvana çatdı. Çuxur-Se'd bəylərbəyi Əmirgünə xan Qacar Mıxlı baba ilə keşişlər arasında söhbət təşkil etdi, sonra isə izdihamı qovdu, təbliğatçını isə vilayətdən çıxardı.

Mıxlı baba hərəkatının diqqətəlayiq cəhəti odur ki, bu hərəkat xrnstian-erməni və müsəlman-azərbaycanlıları öz ətrafına toplaya bildi. Bu, ancaq Mıxlı baba to'liminin antifeodal istiqaməti və onun varlılar əleyhinə təbliğatı ilə mümkün olmuşdu.

1631-1632-ci illərdə, Şah Səfinin vaxtında Qafıırabadda (Qəzvin ətrafında) çoxlu sadəlövh türklərin iştirak etdiyi yeni hərəkat başlandı. Salnaməçi yazırdı ki, dərviş Rza silahlı atlı dəstəsilə Qəzvinə-şəhər darğası Şahverdi xan Tərxan Türkmənin yanına gəldi və ondan xalqın qarşısına çıxmağı tələb etdi. Darğa qorxusundan evdən çıxmadı. Belə olduqda, dərviş öz silahdaşlan ilə İmamzadə Hüseynin məqbərəsi hüdudunda darğa və şəhər ə'yanlan ilə görüşməyi qərara aldı. Şəhərin darğası, vəziri və keləntəri öz adamlarını topladılar. Atışma başlandı, hər iki tərəf itki verdi, dərviş Rza da öldürüldü. Şəhər hakimləri ölənlərin başlarını İsfahana göndərdilər.

Səkkiz il sonra (1639-1640) dərviş Rzanın tərəfdarlan yenidən mübarizəyə qalxdılar. Onlar zahirən dərviş Rzaya bənzər bir nətər çörəkçinin ətrafına toplaşdılar. Hərəkat getdikcə qüvvətləndi, hakim daiıəni təhlükəyə saldı. Kəticədə Şah Səfinin fərmanı ilə çörəkçi Öldürüldü, onun tərəfdarları isə dağıdıldı.

Dəıviş Rzanın tə'limi haqqında mə'lumat saxlanmayıb. Lakin hərəkatın kütləviliyi və dərvişin tərəfdarlarının qətiyyətliyi, həmçinin üsyan başçısının ölümündən sonra hərəkatın davam etməsi, onun xalq hərəkatı olmasına, antifeodal səciyyə daşımasına şübhə doğurmur.

XVII əsrin ikinci yarısında Azərbaycanda və qonşu ölkələrdə tez-tez məhsulsuz illər olurdu. Əylisli Zəkəriyyə 18 il ərzində 6 məhsul- suz ilı(l663, 1667, 1671, 1673, 1676, 1681) qeyd etmişdir. Q, «oğurluq və..quldurluğun» artmasından da şikayətlənmişdir. Bu da o vaxt məzlumların varlılara, istismarçılara qarşı çıxışları baıədə söz deməyə əsas verir.

1677-ci ildə Çuxur-Sə’ddə, Naxçıvanda və diger yerlərdə iki il ət'zində hərbi qulluqçulara donluq verilmədiyindən qacar və bayat tayt'alannın üsyanı oldu. Əylisli Zəkəriyyə yazırdı ki, «üsyançılar vilayətin hakimi Səfıqulu xanı qalada gizlənməyə məcbur etdilər. İsfahan sarayı onu Zal xan adlı yeni bəylərbəyi ile əvəz etdi və güclə üsyanı yatırdı. Sətıqulu xan qarət olunmuş malları 700-800 dəvəyə yüklətdirib İsfahana getdi».

Kənəkirli Zəkəriyyəyə görə, Səfıqulu xana qarşı üsyana qalxan azərbaycanlıları «qarapaçalılar» adlandırırdılar.

Əylisli Zəkəriyyə yazırdı ki, 1673-cü ildə İrəvan xanı (həmin Səfıqulu xan) çinovnikləri Naxçıvanın şəhər və kəndlərinə göndərərək əhalidən 1000 tümən toplamağı əmr etdi. Hann çinovniklər bir gecədə 35 nəfər asdılar, lakin 35 tümən ancaq toplaya bildilər. Görünür ki, 1677-ci il hərəkatı yerli hakimlərin zorakılığından səbri tükənmiş xalq kütlələrinin ümumi narazılığı nəticəsində baş veımişdi.

Səfəvi şahları silklər arasında ciddi fərq qoyurdular. Nəsrullah Fəlsəfi göstərirdi ki. Şah Abbas «ilk vaxtlar müəyyən siniflərə mənsub olan adamlara öz silkinin sərhədini keçməyə icazə verməzdi... Məsələn, əgər öz sərhədini keçən rəiyyəti görsəydi, deyək ki, ali təbəqənin geyimini geymiş görsəydi, mütləq ona cəza verməli idi». Ə.Ə.Rəhmani deyilənləri təsdiq etmək üçün J.Tavemyeden aşağıdakı nümunəni gətirir: «Bir dəfə şah (I Abbas) görür ki, onun sarayının bir nökəri zerbaftalı corab geyibdir. Şahın əmri ilə ağac və falaqqa^^ hazırlanır, onu döyməyə başlayırlar. O kimsəsiz təkrar edir: «Men müqəssir deyiləm, menim ayaqlanmm oynaqlannda xəstəlik var, mən bu corabları həkimin məsləhəti ilə geyirəm». Lakin şah cavab verdi: «Həkimlər başa düşməyib sənə pis derman yazıblar, oynaq xəstəliyini nğac zərbəsi müalicə edir».

Sinfi fərqin ciddi saxlanması və qorunması siyasətinin yeridilməsi dəyişilməz idi. Hətta şahın göstərişi ilə cəmiyyətin irəli çəkilmiş aşağı təbəqəsinin nümayəndəsi öz qeyri-kübar mənşəyini və aşağı sosial mövqeyini «uııutmamalı» idi.

Cinayətkarın ayaqlannı bağlayıb döymək üçün taxta qəlib.

## *X I I I f 9 s i l*

# AZƏRBAYCAN XVIII ƏSRİN BİRİNCİ YARISINDA

### § l. XVIU ƏSRİN ƏVVƏLLƏRİNDƏ AZƏRBAYCANIN DAXİLİ VƏ XARİCİ SİYASİ VƏZİYYƏTİ

XVIU əsrin əvvəllərində Səfəvi dövləti ağır iqtisadi və siyasi böhran keçirirdi. Dövlət xəzinəsi o dərəcədə boşalmışdı ki, Şah Süitan Hüseyn (1694-1722) ata-babalannın Ərdebildəki məqbərəsində olan əşyaları əritməyi və onlardan pnl kəsməyi əmr etmişdi. Mərkəzi dövlətin zəifləməsindən istifadə edən bə’zi bəylərbəyilər və başqa iri feodallar müstəqilliyə can ataraq şaha tabe olmaqdan boyun qaçırırdılar.

Bu dövrdə Azərbaycanda xalq kütlələrinin vəziyyəti xüsusilə ağır idi. 1716-cı ildə I Pyotr tərəfindən İrana göndərilən A.P.Volınski yazırdı: «Sefevilər dövlətinin taxıl anbarı hesab edilən Azərbaycanda tarlalar yeddi il ərzində əkilməmiş, ölkədə aclıq hökm sürürdü. Dövlətin ağır xərclərini vergilərin hesabına ödəyəcəyinə ümid edən şah hökuməti bu işi qaydaya salmaq məqsədilə əhalini yenidən siyahıya aldı (1699-1702). Həmin müddətdə əhalinin təkcə özü deyil, əmlakı da siyahıya alındı, ötən üç ilin vergilərinin yeni qayda ilə toplanması qərara alındı, bu da müəyyən edilmiş miqdardan üç dəfə artıq idi. Mövcud vergilərə yeni üç vergi əlavə edildi; «ab-i kuran» kanalın (arxın) tikintisində iştirak edə bilməyənlərdən alınırdı. «Şahzadə ixracatı» şahzadələrin xərclərini ödəmək üçün, başqa dinlərə mənsub olanlardan «şeş dinan> - can vergisi alınırdı. Bəylərbəyilər şahın fərmanından istifadə edərək xalqı qarət etməkdə daha da azğınlaşır, toplanan verginin xeyli hissəsini özləri mənimsəyir, mərkəzə çox az göndərirdilər.

Feodal istismarının güclənməsi geniş xalq kütlələrinin şiddətli müqavimətinə səbəb oldu. Belə bir şəraitdə Səfəvi dövlətinin bir çox yerlərində olduğu kimi, Azərbaycanda da həm sinfi mübarizə yenidən alovlanır, həm de şah hökuırietinə qarşı azadlıq mübarizəsi güclənirdi.

1707-ci ildə Azərbaycanın şimali-qərbində Car və Balaken camaatı üsyan etdi. Şahın cəza dəstələri bu üsyanı çətinliklə yatırdı. Daha sonra Təbrizdə və Muğanda kəndli üsyanları baş verdi.

1709-1711-ci illərdə cariılar yenidən mübarizəyə qalxdılar. Onlar İran dövlətinin Şimali Azerbaycanda inzibati mərkəzi olan Şamaxıya hücum etdilər. 1709-cu ildə Şəki və Şirvan kəndliləri də üsyançılara qoşuldular. Muğanda yaşayan əhali birinci olaraq mərkəzi hakimiyyətdən üz çevirdi. A.P.Volınski yazırdı ki, onlar şahın göndərdiyi nümayəndəni qovaraq yerlilərdən özlərinə hakim seçdilər və İran qoşununu darmadağın etdilər.

Cənubi, Şimal-Şərqi Azerbaycanda, habelə Cənubi Dağıstanda da İran zülmünə qarşı ciddi çıxışlar oldu. 1709-cu ildə Təbrizdə sənətkarlar və şəhər yoxsullarının üsyanı baş verdi. 1711-ci ildə Təbrizdə üsyan təkrar olundu. Tezliklə bu üsyan kənd əhalisini də əhatə etdi. 1709-1715-ci illərdə kəndli üsyanları Soucbulağı və Muğanı da bü- nıdü. Bu dövrdə xalqın feodal zülmünə qarşı mübarizəsi tran əleyhinə apanlan mübarizə ilə çulğaşıb ümumi düşmənə qarşı bir növ vahid cəbhə yaradırdı.

XVIII əsrin birinci yarısı Azərbaycan tarixində Türkiyə və tran zülmünə qarşı aparılan mübarizə ilə əlamətdardır. XVIII əsrin 20-ci illərində Şirvan İran zülmünə qarşı apanlan mübarizənin mərkəzinə çevrilmişdi. Şirvan üsyançılarının ilk addımı uğursuz olmuşdu.

Lakin tezliklə yerli sünnü ruhanilərinin başçılarından biri olan müşkürlü Hacı Davud xalq hərəkatına dini istiqamət verməyə çalışaraq, sünnüləri şiələrin zülmündən xilas etmək şüarını irəli sürdü. Üsyançılar Dərbənd, Şabran və Xudat üzərinə hücum etdilər.

1720- 1721-ci illərdə Azərbaycanda və Cənubi Dağıstanda İran zülmünə qarşı mübarizə yenidən qızışdı. Belə bir şəraitdə Hacı Davud Şirvanda və Dağıstanda hakimiyyəti ələ almaq üçün bir neçə dəfə Rusiyaya müraciət etdi. Lakin bu, Rusiyanın mənafeyinə uyğun gəlmədiyi üçün onun xahişi cavabsız qaldı. Onda Hacı Davud öz qüvvələrini toplayıb, Qazıqumuxlu Surxay xanın köməyilə 1721-ci il avqustun lO-da Şamaxıya hücum etdi. Onlar qısamüddətli müqavimətdən sonra, şəhər əhalisinin köməyilə onu elə keçirdilər. Bu vaxt Şamaxıda bir çox xarici tacirlərlə yanaşı, rus tacirlərinə də böyük ziyan dəydi. Hacı Davud və Surxay xan Azərbaycanın başqa vilayətlərinə de hücum etdilər. Lakin onların bu cəhdləri uğursuz oldu.

Şirvan üsyanı zamanı rus tacirlərinin zərər çəkməyindən istifadə edən çar hökuməti Ön Qafqazı, xüsusilə Xəzərsahili əyalətləri ələ

keçirmək məqsədilə yürüşə hazırlaşdı. Lakin imperator I Pyotr yürüşünün əsl mahiyyətini ms tacirlərinin intiqamını almaq pərdəsi altında gizlədərək Hacı Davud və Surxay xanı bəm də özünün düşməni kimi qələmə vermişdi. Bu isə bilavasitə Şirvan üsyançıianna qarşı hərbi yürüş demək idi. Məhz buna görə də, Şirvan üsyanının başçısı Hacı Davud kömək üçün o zaman Rusiya ilə rəqabət aparan Türkiyə dövlətinə müraciət etdi. Türkiyə sultanı Hacı Davudun təklifini tərəddüdsüz qəbul etdi. Hacı Davudun müraciəti Türkiyəyə Ön Qafqazın daxili işlərinə qarışması üçün bəhanə verdi. Sonralar Hacı Davud Türkiyəyə gedərək özünün Şirvan hakimi təsdiq olunması üçün razılıq aldı.

İran zülmünə qarşı yönələn hərəkatın iştirakçılarının tərkibi yekcins deyildi: zəhmətkeş kəndlilər bu hərəkata ağır' zülmdən xilas olmaq məqsədilə qoşulduqları halda, yerli feodallar və ruhanilərin başçıları bu mübarizədən öz məqsədləri üçün istifadə etməyə çalışırdılar. Onlar xalqın dini hisslərindən və İran işğallarına qarşı narazılıqdan öz mənafeləri üçün istifadə edirdilər.

Şirvan üsyanından bir il sonra Səfəvi dövlətinin paytaxtı İsfahan əfqan qəbilələri tərəfindən zəbt olundu. Başda Şah Sultan Hüseyn olmaqla, bütün Səfəvi xanədanı həbsə alındı, təkcə şahın oğlu Təhmasib qaçmağa imkan tapdı. O, İranın şimal əyalətlərində özünü ll Təhmasib adı ilə şah e'lan etdi (1722-1732).

Xəzərsahili vilayətlərin Rusiya tərəfindən zəbt edilməsi. XVII əsrin sonu-XVIII əsrin əvvəllərində sosial-iqtisadi və siyasi cəhətdən xeyli möhkəmlənmiş Rusiya dövlətinin beynəlxalq nüfuzu daha da artmışdı. Rusiyanın inkişaf etməkdə olan sənayesi Qafqazda, xüsusilə Azərbaycanda istehsal edilən xammala ehtiyac hiss edirdi. Azərbaycan çoxlu ipək, pambıq, yun parça, boyaq, bezək şeyləri, meyvə, şərab və ədviyyat verə bilərdi. Xəzərboyu vilayətlərə yürüşün səbəbi təkcə bu deyildi. Hacı Davudun Türkiyəyə müraciəti çar hökumətini narahat edirdi. Ona görə də Rusiya Türkiyənin Qafqazda və Xəzər sahillərində möhkəmlənmək cəhdlərinin qarşısını nəyin bahasına olursa-olsun almalı idi.

1721- ci ildə İsveç üzərində qələbədən sonra 1722-ci il iyulun 18- də 1 Pyotr böyük bir ordu və 274 gəmi ile Həştərxandan yürüşə başladı. Rusiyanın görkəmli hərbi və dövlət xadimləri P.A.Tolstoy, F.F.Apraksin, M.A.Matyuşkin və başqaları onu müşayiət edirdilər. Rus qoşunları iki istiqamətdə - quru və dəniz yolu ilə hərəkət edirdilər. I Pyotr hələ Həştərxanda olarkən, 1722-ci it iyunun 15-de Azərbaycan dilində «ManifesD) nəşr edərək Şirvana və Xəzərsahili vila-

yətlerə göndərdi. Bu, Azərbaycan dilində nəşr olunmuş ilk dövlət sənədi idi. «Manifest»də çar qoşunlannm yürüşünün əsl səbəbi ört- basdır edilirdi. I Pyotr yazırdı ki, onun məqsədi bu yerlərdə əmin- amanlıq yaratmaqdan və rus tacirlərini qarət edən qiyamçıları cəzalandırmaqdan ibarətdir.

1722- ci il avqustun 15-də rus eskadrası Dərbəndə çatdı. Avqustun 23-də piyada qoşunlar da şəhərə yaxınlaşdı. Şəhərin naibi İmamqulu bəy qalanın açarlarını, həmçinin «Dərbəndnamə» adlı mühüm tarixi əsərin əlyazmasını (XVI əsr) təntənəli şəraitdə rus çarına təqdim etdi, l Pyotr buradan senata göndərdiyi məktubunda şəhərdə səmimi qarşılandığını bildirirdi. I Pyotr Dərbəndə çatar-çatmaz Azərbaycanın bir çox şeherlərindən, o cümlədən Dərbənddən, Bakıdan, Şamaxıdan və s. yerlərdən bəyanatına cavab məktubları almışdı. Məktublar yerli ə'yanlar tərəfindən imzalanmışdı. Məktublarda imperatoı*un Azərbaycana gəlməsinə e'tiraz etmədiklərini bildirirdilər.

Lakin tezliklə 1 Pyotr Rusiyaya dönməyə məcbur oldu. Bunun başlıca səbəbi o idi ki, İsveç tərəfindən yenidən müharibə təhlükəsi yaranmışdı. I Pyotr Bakının tutulmasına xüsusi əhəmiyyət verirdi. Onun göstərişi ilə 1722-ci j,İin noyabnnda kapitan-leytenant F.Soymo- novun başçılığı ile Gilanın baş şəhəri olan Rəştə donanma və qoşun çıxarıldı. 1723-cü ilin yazında rus eskadrası Rəştə yaxınlaşdı, iyulun əvvəlində Bakı körfəzinə daxil oldu. Məhəmməd Hüseyn bəy rus komandanlığının könüllü təslim olmaq haqqında təklifini rədd etdi və müqavimət göstərdi. Rus komandanlığı rədd cavabı aldıqda dərhal hücuma hazırlaşdı, az sonra şəhərin cənubundan sahilə çıxdı, nəhayət,
1723- cü ii iyulun 12-də rus batalyonları şəhəri tutdular və iki karvansarada-hind və erməni karvansaralannda yerləşdilər. Dərgahqulu bəy başda olmaqla, 700 nəfərdən ibarət qarnizon rus qoşununa daxil oldu. M.Matyuşkin Bakı sultanı Məhəmməd Hüseyn bəyin Hacı Davudla əlaqəsini bilib onun həbsə alınmasını əmr etdi, az sonra üç qardaşı ilə Həştərxana, oradan da I Pyotrun göstərişilə Roqaçevskiyə göndərildi və orada da öldü. Dərgahqulu bəy şəhərin hakimi və rus xidmətinə qəbul edilmiş yerlilərdən ibarət hərbi dəstənin komandiri, knyaz l.Baıyatinski isə Bakının komendantı tə'yin edildi.

Bu hadisə, xüsusilə Bakının alınması I Pyotru hədsiz sevindirdi. Hətta imperatorun əmrilə bu münasibətlə Peterburqda yaylım atəşi açıldı. 1723-cü il sentyabrın 12-de Şah II Təhmasibin Peterburqa göndərdiyi elçi İsmayıl bəy tərəfindən özbaşına imzalanmış müqavi

ləyə görə Xezərsahili vilayetlər-Dərbənd, Bakı, Gilan, Mazandaran, Astrabad zoria Rusiyaya birləşdirildi. Rus qoşunları Xəzərin qərb və cənub sahillərində möhkəmləndilər. Rusiya da trana əfqanlarla müharibədə kömək edəcəyini və'd etdi. Lakin İsmayıl bəy özbaşına hərəkət etdiyi üçün şah müqaviləni təsdiq etmədi. Ona görə də 1723-cü il sentyabnn 16-da M.Matyuşkin Həştərxana gəldi. Kürə hərbi dəstə çıxarıb «çayın o sahilini ələ keçirməyi» Bakı komendantı İ.Baıya- tinskiyə tapşırdı. Bakı zəbt olunandan sonra rus komandanlığı göndərdiyi bəyannamələrdə «bütün dənizsahili vilayətləri Rusiyaya tabe olmağa çağınrdı». Buna qədər Salyan naibi Hüseyn bəy və Talış hakimi Mir Abbas bəy gəlib Rusiyaya sədaqət andı içməyə məcbur oldular. Şəhər rus qoşununun nəzarəti altında idi. Bakı və Salyanın tutulması ile Xəzərsahili vilayətlərin zorla Rusiyaya birləşdirilməsinin birinci mərhələsi başa çatdı.

Türkiyənin Qafqaza hərbi müdaxiləsi. Şərqdə öz müstəmləkə siyasətini heyata keçirməyə çalışan İngiltərə və Fransa Rusiyanın Qafqazdakı nüfuzunun güclənməsinə hər vasitə ilə mane olurdu. Bakının tutulması Türkiyəni narahat edirdi. İngilislər bundan istifadə edərek Türkiyəni Rusiya ilə müharibəyədəhrik edirdilər. Əks təqdirdə diplomatik münasibətləri kəsməklə hədələyirdilər. İngilis nümayəndəsi hətta bildirmişdi ki, Türkiyə Rusiya ile müharibəyə başladıqda, dərhal nəinki «kraldan, bəlkə bütün Britaniyadan maliyyə» köməyi alacaqdır.

Türkiyə hakim dairələri Ön Qafqazı rusların işğalından xilas etmək fikrində idilər. 1722-ci ilin payızında İstanbuldakı rus səfiri İ.Neplyuyev bildirdi ki, Osmanlı qoşunu Qafqaza hərbi müdaxiləyə hazırlaşır.

Qəribədir ki, bəhs etdiyimiz dövrün tarix ədəbiyyatında Osmanlı türklərinə qarşı mübarizədə bir ağızdan Rusiyaya meyl, Rusiyaya müraciət ön plana çəkilmiş, sonuncudan nicat yolu gözlənmişdir. Lakin sənədlərə yeni baxım göstərir ki, əksinə, İrəvanın osmanlılar tərəfindən fəthi ərəfəsində bu yerlərin ruslar «tərəfindən işğalından ehtiyat edən İrəvan müsəlman (azərbaycanlı - *S.M.)* əhalisinin aparıcı qüvvələri həmişə Türkiyəyə meyl etmişlər. Bununla əlaqədar Petros di Sarkis Qilanens yazır; «1723-cü ildə qonşu ağalar Ərzrum paşasına yazırlar ki, neyə görə oturmuşunuz? Siz də türksünüz, biz də, rusun əlinə düşməkdənse sizin əlinizə düşməyimiz yaxşıdır. Vaxtında gəlin şəhəri zəbt edin və rusu şeherə buraxmayın».

1723- cü ilin yazında Ərzrum paşası böyük ordu ile Gürcüstan erazisinə daxil oldu. Kartli ve KLaxetiya talan olundu. Osmanlı qoşunlan Tiflisi tutduqdan sonra Gəncə tərəfə hərəkət etdilər. Lakin onlar Gəncə istiqamətində azərbaycanlılann müqavimətinə rast gəldilər. Türk qoşunu 60-70 minlik əsgərlə 18-20 gün ərzində yeddi dəfə Gəncə üzərinə həmlə etdi. Türk qoşununun Qafqaz ərazisinə irəliləməsi Rusiya ile Türkiyə arasında hərbi toqquşmaya gətirib çıxara bilərdi. Beləliklə, Qafqaz Rusiya, İran ve Türkiyə ziddiyyətlərinin düyün nöqtəsinə çevrildi, burada üç dövlətin mənafeyi toqquşurdu. Rəqiblərinə qarşı mübarizədə Rusiyanın vəziyyəti daha əlverişli idi, o eyni zamanda Qafqaz xalqlannın xristian əhalisinin rəğbətinə arxalanırdı.

Lakin İsveçlə müharibəni təzəcə qurtarmış Rusiya yeni müharibəyə başlaya bilməzdi. Ona görə də Rusiya Osmanlı Türkiyəsi ile sülh müqaviləsi imzalamağı lazım bildi. Lakin sultana təzyiq göstərən İngiltərə və Fransa buna mane oldular, sülh danışıqları uzandı. Yalnız
1724- cü il iyulun 12-də İstanbulda Rusiya ilə Türkiyə arasında sülh müqaviləsi imzalandı, bununla da Rusiya imperiyası 1723-cü U sentyabr tarixli Peterburq müqaviləsi şərtlərinin təsdiq edilməsinə, Dərbənd, Bakı, Salyan, Lənkəran, Rəşt, Ənzəlinin diplomatik yolla Rusiyaya birləşdirilməsi faktının qəbul olunmasına nail oldu. Rusiya öz növbəsində Ermenistan, Gürcüstan və Xezərsahili müstəsna olmaqla, bütün Azərbaycan ərazisinin Türkiyəyə verilməsinə razılıq verdi!

İstanbul müqaviləsindən sonra türk qoşunları Qafqaz şəhərlərində yerləşdilər. Əlbəttə, bu itkisiz olmurdu. 1724-cü il sentyabrın 28-də İravan qalası zəbt edildi. Azərbaycanlılar türkləri rəğbətlə qarşıladılar. Çünki bu vaxt milli tərkib e’tibarilə şeher əhalisinin dörddə üç hissəsini yenə də azərbaycanlılar təşkil edirdilər. İrəvan tutulduqdan sonra, türklər Gəncə və Qarabağ, həmçinin Naxçıvan-Təbriz istiqamətində əməliyyat meydanını genişləndirdilər.

Rus qoşunlarının Dərbənd, Bakı və Salyanda, rus donanmasının isə Xəzər dənizində olması Qafqazdakı hərbi-siyasi vəziyyətə qüvvətli tə’sir göstərirdi. Həm buna görə, həm də Qafqazda erməni və gürcülərin ciddi müqavimətinə rast gələn Osmanlı türkləri öz hücumlarının sür’ətini azaltmağa məcbur oldular.

Azərbaycan xalqı yadelli işğalçılann zülmündən həmişəlik yaxa qurtaımaq ümidlərini türklərin daimi olaraq bu yerlərdə məskən salmalarına bağlayırdı. 1723rl725-ci illərdə ve sonralar Azərbaycanın

şimali-qərb rayonlannın əhalisi türklərlə, çarizmin yerlərdəki nümayəndələri isə ruslarla bilavasitə əlaqə saxlayır« tə'kidlə kömək istəyirdilər.

1724- cü il mayın 29-da, həmin ilin iyun-avqustunda Gəncə və Qarabağın 161 nəter erməni nümayendosi-din xadimləri və yüzbaşılarının Osmanlı türklərinə qarşı mübarizədə kömək üçün I Pyotra və Bakıdakı rus komandanlığına məktubla müraciət etmələri onlann Rusiyaya meylini açıq ifadə edirdi. Ön Qafqazın xristian əhalisinin müqaviməti türklərin irəliləməsini ləngitsə də, onlann qarşısını ala bilmədi.

1724-cü ilin mayında Abdulla paşanın başçılığı altında türk qoşunu əhalinin ciddi müqavimətini qırıb 54 gündən sonra Xoy qalasını tutdu. Həmin ilin avqustunda türklər Naxçıvan və Ordubadı da tutdular. Abdulla paşa 1724-cü ilin avqustunda qoşunlarım Təbrizə doğru yönəltdi. Türk qoşunlan yol üstündə yerləşən Mərənd qalasını mühasirəyə aldılar. Türklər qalaya girdikdə mərəndlilərin bir hissəsi Təbrizə qaçıb şəhərin müdafiəçilərinə qoşuldular. Osmanlı qoşunu çox çətinliklə əhalinin müqavimətini qırıb Şorsu çayına yaxınlaşdı.

1725- ci ilin fevralında Təbriz mühasirəyə alındı, altı günlük top atəşi ilə türklər şəhərdə böyük dağıntılar törətdilər. Lakin yerli əhalinin müqavimətini sındıra bilməyən türklər şəhəri yalnız 1725-ci ilin iyul-avqust aylarında qismən zəbt edə bildilər. Təbriz uğrunda mübarizədə Osmanlı türkləri ağır itki verdilər və qəhrəman şəhəri dörd aydan sonra tamamilə ələ keçirdilər. Təbrizdən sonra türklər Ərdəbili tutmağa müvəffəq oldular. 1725-ci ilin «oktyabrında türk sərkərdəsi Sarı Mustafa paşa qəti hücumla Gəncəni tutdu. Sonra isə Osmanlı türkləri Qarabağa gəldilər. Türk qoşunu 1725-ci ilin yayma qədər Kartli və Kaxetiya çarlıqlannı tutmağa tələsirdi. VI Vaxtanq qeyd edirdi ki, Türkiyə sultanı təkcə Qafqazı tutmağa cəhd etmirdi, o həm də «Qubadan Bakıya qədər olan geniş erazini özünə birləşdirməyə çalışırdı ki, bu yerlərdə onun heç bir rəqibi olmasın». 1725-ci ilin payızında Türkiyə Gürcüstan, Ermənistan və Azərbaycanın xeyli hissəsini elə keçirə bildi. Yalnız Xəzər sahilinin Rusiyaya daxil olan ensiz zolağı, Şirvan və Gürcüstanın Mehemmədqulu xana (II Konstantin) verilmiş dağlıq hissəsi, Qarabağ və Qafanda azərbaycanlı hərbi birləşmələrin yerləşdiyi yerlər türklərin tutduqlan əraziyə daxil deyildi. Türkiyə strateji və iqtisadi cəhətdən böyük əhəmiyyətə malik olan Azərbaycan torpaqlarını tutaraq Azərbaycan, Dağıstan və İranın Xəzərsahili vilayətlərini ələ keçirmək üçün qızğın hazırlığa başladı.

Tür&yə feodalları Azerbaycanın işğal edüen torpaqlannda ağır idarə üaılu yaratdılar. Bu zaman Naxçıvan, Ordubad, Təbriz, Gəncə, Qazax /ə başqa vilayətlərdə kəskin ərzaq qıtlığı müşahidə olunurdu. Hər yeıde taxılın qiyməti qalxmışdı. Əhali müharibədən zərər çəkdiyi üçün türklər 1725-1728-ci illərdə Qafqazda qismən yumşaq vergi siyasəti yeridirdilər. Lakin osmanlılann zəbt etdikləri yerlərdəki siyasəti əhalinin ciddi narazılığına səbəb olurdu.

1726- cı ildə Zəngəzurda türklərə qarşı üsyan qalxdı, üsyançılar Qatanda sultanın vergi toplayanının idarəsini tutaraq orada hələ İran şahı dövründən qalmış 32 min ədəd vergi sənədini ələ keçirib yandırdılar. Ona görə də türklər ü.syançılara ciddi divan tutmağa başladılar.

1728- ci ildə əhali siyahıya alındıqdan sonra, vergi toplanması işi Türkiyədəki vergi normaları ilə həyata keçirildi. Bu da Qafqazda vergilərin xeyli artmasına səbəb oldu. Nəticə e’tibarile isə b.., hakim dairələrin nümayəndələri ilə xalqın toqquşmasına gətirib çıxardı.

1729-cu ildə Azərbaycanın cənubunda üsyanın qızğın vaxtında Qarabağda Osmanlı türkləri əleyhinə hərəkat geniş vüs’et aldı. Bu vəziyyət Türkiyə hökumətini yeni qüvvələr səfərbər etməyə, komandanlığa Gəncə hakimi İbrahim paşanı te*yin etməyə məcbur etdi. Ona kömək etmək isə Əli paşaya tapşınıdı. Yerli əhalinin eyni vaxtda Şamaxıda, Qarabağda, Təbrizdə mübarizəyə qalxması Osmanlı türklərini pis vəziyyətə salmışdı. Bu üsyanlan yatırmaq üçün yeni qüvvələr tələb olunurdu. Türklər tez-tez keçilməz yerlərdə, meşələrdə gizlənən partizan dəstələri ilə toqquşmalı olurdu. Bu vaxt Azərbaycanın cənubunda - Xaçqalada, Marağada, Hərmrudda, Ərdəbildə, Xalxalda Türkiyə əleyhinə üsyanlar baş verdi. Bu üsyanlar yatırıldıqdan sonra sultan Qarabağdakı partizan hərəkatını boğmaq üçün tədbir gördü və 1731-ci ildə Qarabağ bütünlüklə zəbt eıJildi. Lakin Azərbaycanda xalq hərəkatından ehtiyat edən sultan yalnız L.içik Asiyadan çoxlu hərbi qüvvə göndərdikdən sonra kəndli və sənetkarlann çıxışlan yatınıdı.

Qafqaz xalqlarının çıxışlannın təşkili işində azadhq hərəkatının rəhbərlərindən Hacı Əhməd oğlu Sadıq, Məhəmməd Mirzə, Həsən- cəlal və b. xususi rol oynamışdılar.

XəzərsahUi vilayətlər Rusiyanın hakimiyyəti altında. 1722- 1724-cü illərdə Həştərxan yollannı qoruyan «Svyatoy Krest» qalasının tikilməsi, Qabardanın Rusiya dövlətinin himayəsinə alınması, Dərbənddə, Bakıda, Rəştdə rus qarnizonlannın möhkəmlənməsi,

daxili işlərə başlarının qarışmasından istifadə edən Nadirqulu xan Türkiyəyə qarşı mübarizəyə başladı. Bu vaxt Osmanlı imperiyası ilə düşmən münasibətdə olan Rusiya İrana qarşı xeyirxah mövqedə çıxış edirdi. Belə bir əlverişli şəraitdə II Təhmasib Türkiyə sultanına rəsmi səfir göndərib osmanlılar tərəfindən zəbt olunan Səfəvi torpaqlarının geri verilməlini tələb etdi. Türkiyənin rədd cavabı müharibəyə gətirib çıxardı. Nadirqulu xaır türk qoşunları üzərində ilk böyük qələbəni Marağada çaldı, qısa vaxt ərzində yerli əhalinin köməyilə Teymur paşanın komandanlığı altında fəaliyyət göstərən dəstələri məğlub edib, 1730-cu ilin sentyabrında iri sənətkarlıq və ticarət mərkəzləri olan Ərdəbili, daha sonra isə Təbrizi türklərdən azad etdi. Müvəffəqiyyətdən ruhlanan Nadirqulu xan başqa Azerbaycan və Ermenistan şəhərlərində olan türklərdən bu yerləri tərk etmələrini tələb etdi. Lakin hadisələrin sonrakı gedişi Nadirqulu xanın türklərə qarşı mübarizəyə rəhbərlik etməsinə imkan vermədi. O, İrəvana doğru yürüşə ıazırlaşarken, Xorasanda üsyanın baş verməsi, üsyançılann onun qardaşını öldürmələri xəbəri Nadiri te’cili Xorasana qayıtmağa məcbur etdi. Şah II Təhmasib öz nüfuzunu qaldırmaq məqsədilə Nadirqulu xanın qayıtmasını gözləmədən 1731-ci ildə Naxçıvanı və İrəvanı türklərdən geri almaq üçün hərbi əməliyyata başladı. Onun başçılıq etdiyi qoşun Eçmiədzin yaxınlığında müvəffəqiyyət qazansa da, İrəvan səmtində ağır məğlubiyyətə uğradı. Şah aprelin əvvəllərində salamat qalmış qoşunla Təbrizə qayıtdı. Bir müddətdən sonra II Təhmasib öz taleyini Şimali Azərbaycanda yoxlamaq fikrinə düşdü. O, qoşunu ərzaq və hərbi sursatla tə’min etdikdən sonra Təbrizdən Gəncəyə və Şamaxıya doğru hərəkət etmək istədi. II Təhmasibin fikrini başa düşən türk komandanlığı Gəncənin müdafiəsini gücləndirdi. Tezliklə Surxay xan da öz dəstəsi ile bura gəldi. Belə haWa, fj Təhmasib öz fikrindən daşındı.

İrevandakı məğlubiyyətdən sonra İran qoşunlan xeyli zeiflmişdi. Türkiyə komandanlığı bundan istifadə edərək, 1730-cu ildə/irilən yerləri yenidən zəbt etmək qeranna gəldi və Təbrizə doğm iraəmek barədə əmr verdi. 1731-ci il aprelin 24-de Surxay xan öz dtəsilə Təbriz tərəfə gəldi. O, Gəncədən göndərilən Osmanlı qonu *ilə* birləşmək üçün Əli paşadan xüsusi sərəncam aldı. Bunds^lavə, Osmanlı komandanlığı təxribat işi aparmaq üçün Rusiyaya jləşdi-rilən vilayətlərə öz nümayəndələrini göndərdi. Onlardan birıənsur

Türkiyə feodalları Azerbaycanın işğal edilən torpaqlarında ağır idarə üsulu yaratdılar. Bu zaman Naxçıvan, Ordubad, Təbriz, Gəncə, Qazax və başqa vilayətlərdə kəskin ərzaq qıtlığı müşahidə olunurdu. Hər yerdə taxılın qiyməti qalxmışdı. Əhali müharibədən zərər çekdiyi üçün türklər 1725-1728-ci illərdə Qafqazda qismən yumşaq vergi siyasəti yeridirdilər. Lakin osmanlılann zəbt etdikləri yerlərdəki siyasəti əhalinin ciddi narazılığına səbəb olurdu.

1726-cı ildə Zəngəzurda türklərə qarşı üsyan qalxdı, üsyançılar Qafanda sultanın vergi toplayanının idarəsini tutaraq orada hələ İran şahı dövründən qalmış 32 min ədəd vergi sənədini ələ keçirib yandırdılar. Ona görə də türklər üsyançılara ciddi divan tutmağa başladılar.

1728- ci ildə əhali siyahıya alındıqdan sonra, vergi toplanması işi Türkiyədəki vergi normaları ilə həyata keçirildi. Bu da Qafqazda vergilərin xeyli artmasına səbəb oldu. Nəticə e'tibarilə isə b.., hakim dairələrin nümayəndələri ilə xalqın toqquşmasına gətirib çıxardı.

1729- cu ildə Azərbaycanın cənubunda üsyanın qızğın vaxtında Qarabağda Osmanlı türkləri əleyhinə hərəkat geniş vüs’et aldı. Bu vəziyyət Türkiyə hökumətini yeni qüvvələr səfərbər etməyə, komandanlığa Gəncə hakimi İbrahim paşanı te’yin etməyə məcbur etdi. Ona kömək etmək isə Əli paşaya tapşmldı. Yerli əhalinin eyni vaxtda Şamaxıda, Qarabağda, Təbrizdə mübarizəyə qalxması Osmanlı türklərini pis vəziyyətə salmışdı. Bu üsyanlan yatırmaq üçün yeni qüvvələr tələb olunurdu. Türklər tez-tez keçilməz yerlərdə, meşələrdə gizlənən partizan dəstələri ilə toqquşmalı olurdu. Bu vaxt Azərbaycanın cənubunda - Xaçqalada, Marağada, Hərmrudda, Ərdəbildə, Xalxalda Türkiyə əleyhinə üsyanlar baş verdi. Bu üsyanlar yatırıldıqdan sonra sultan Qarabağdakı partizan hərəkatını boğmaq üçün tədbir gördü və 1731-ci ildə Qarabağ bütünlüklə zəbt edMdi. Lakin Azərbaycanda xalq hərəkatından ehtiyat edən sultan yalnız L.içik Asiyadan çoxlu hərbi qüvvə göndərdikdən sonra kəndli və sənətkarlann çıxışları yatınıdı.

Qafqaz xalqlarının çıxışlannın təşkili işində azadlıq hərəkatının rəhbərlərindən Hacı Əhməd oğlu Sadıq, Məhəmməd Mirzə, Həsən- cəlal və b. xususi rol oynamışdılar.

Xəzərsahili vilayətlər Rusiyanın hakimiyyəti altında. 1722- 1724-cü illərdə Həştərxan yollannı qoruyan «Svyatoy Kresb> qalasının tikilməsi, Qabardanın Rusiya dövlətinin himayəsinə alınması, Dərbənddə, Bakıda, Rəştdə rus qarnizonlarının möhkəmlənməsi,

Qafqazda və Xəzər dənizi hövzəsində Rusiyanın nüfuzunun sabitləşməsində mühüm mərhələ idi. Bununla Rusiya Dərbənd keçidi və Xəzərin mühüm limanlarına nəzarət etməyə. Osmanlı türklərinin və onların vassalları olan Krım tatarlannın Xəzər sahillərinə təcavüzünün qarşısını almağa imkan tapdı.

Xəzərsabili vilayətləri ələ keçirməklə I Pyotr buranı manufaktura sənayesinin xammal bazasına çevirmək məqsədi güdürdü. Bu yerlərin təbii sərvətlərindən istifadə etmək barədə o xüsusi qərar qəbul etmişdi. İpəkçiliyi, pambıqçılığı, qoyunçuluğu, bağçılığı, şərabçılığı inkişaf etdirmək, zə'fəran əkmək, neft hasilatını artırmaq. Kürün mənsəbində balıqçılığı inkişaf etdirmək üçün tədbirlər görülürdü. I Pyotr qədimdən bəri hasil edilən «ağ neftə» xüsusi maraq göstərirdi. Qızıl, gümüş, mis filizi yataqlarını aşkara çıxarmaqdan ötrü Rusiyadan Azərbaycana mütəxəssislər göndərildi. İnkişaf etməkdə olan rus toxuculuq sənayesində Azərbaycanın xam ipəyinin böyük əhəmiyyəti var idi. Peterburq və Moskvanın ipək manufakturaları xam ipək almaq üçün öz nümayəndələrini Xəzərsabili vilayətlərə göndərirdilər. Lakin Şiı*vanın ipəkçilik təsərrüfatı dağıdılmışdı. Bu qədİm təsərrüfat sahəsini canlandırmaq üçün Rusiya hökuməti tədbirlər görürdü. I Pyotr hətta Qafqaz və digər Şərq ölkələri ilə iqtisadi əlaqələri genişləndirmək məqsədilə Kürün mənsəbində böyük şəhər salmaq fikrinə düşmüşdü. Rusiyaya birləşdiriləndən sonra Xəzərsabili vilayətlərdə ticarət dövriyyəsi də artmışdı. Rusiyadan buraya çoxlu mal: mahud, kətan, güzgü, iynə gətirilirdi, yerli tacirlərdən isə əsas e*tibarilə xam ipək alınırdı.

Ümumiyyətlə, Rusiya hökumətinin öz mənafeyi üçün heyata keçirdiyi siyasət Azərbaycanın qismən iqtisadi və mədəni həyatının inkişafına təkan verdi.

Azerbaycanın Türkiyəyə verilən ərazisində əhalinin heyat tərzi Xəzərboyu əyalətlərində yaşayanlann həyatından fərqlənirdi. Həm feodal istismarı, həm də mə*nəvi əzabdan əhalinin səbri tükənmişdi. Türkiyənin vaxtilə İran hakimiyyəti altında olan ərazidə möhkəmlənməsi, Xəzər sahilinə yaxınlaşması Rusiyanın mənafeyini təhlükə altına alırdı. Buna görə də Rusiya həmin vilayətlərdə öz mövqeyini möhkəmləndirmək üçün mühüm hərbi-diplomatik tədbirlər gördü. Xəzərsabili vilayətlərə yeni qüvvələr, Dərbənd və Bakıya isə hərbi ləvazimat gətirildi.

1724-cü il İstanbul müqaviləsinin şərtlərinə yenidən baxıldı.
1727- ci il dekabrın 12-də qurtaran bu danışıqlara əsasən Cavad,

Salyan, Quba, Rustov, Şeşpara, Tengi Rusiyaya verildi. Hacı Davud Təngi qalasını təhvil verməkdən boyun qaçırdı, lakin rus qoşunları onu təslim olmağa məcbur etdilər. Bundan xəbər tutan sultan Hacı Davudun həbs edilməsi əmrini verdi. 1728-ci ilin mayında Hacı Davud Gəncəyə çağırıldı və həbs olunub Kiprə göndərildi. Onun yerinə Türkiyə sultanı Surxay xanı Şirvana hakim tə'yin etdi. 1728-ci ildə Surxay xan türk zabitlərindən İbrahim paşanın dəstəsi ilə birlikdə Salyanın 24 kəndini talan edib çoxlu qənimətlə geri döndü.

Rusiya hökuməti Xəzərsahili vilayətlərin idarə olunmasını knyaz V.V.Dolqorukova tapşırdı. Be'zi şəhərlərdə rus inzibati idarələri yaradıldı, bə'zilərində isə köhnə hakimlər saxlanıldı. Dərbənddə, Astarada, Salyanda, Niyazabadda istehkamlar tikilməyə başlandı. Bakı qalasının çöl divarı yanında daşla 5 qala bürcü tikildi. XVIII əsrin I rübündə Azərbaycanın bütünlüklə Rusiyaya qatılması baş tutmasa da, onun Qafqaz xalqları ilə iqtisadi və siyasi əlaqələrinin gələcək inkişafı uçün təməl yarandı, burada Rusiyaya meylin qüvvətlənməsinə xeyli kömək eldi. Lakin Rusiya o zaman Azerbaycan, Ermənistan və Gürcüstanı iqtisadi cəhətdən mənimsəmək, onları xarici təhlükədən xilas etmək imkanına malik deyildi. Bundan əlavə. Qərbi Avropa dövlətləri Türkiyə və İranı Rusiyaya qarşı yeni hərbi münaqişələrə sövq edərək onun Qafqazdakı siyasətinə və mövqeyinə ciddi zərbə vurdular.

## § 2. XVIII ƏSRİN 30-cu İLLƏRİNDƏ AZƏRBAYCAN UĞRUNDA İRAN-TÜRKİYƏ MÜHARİBƏLƏRİ

Ərazisinin bir qismi əfqan qəbilələri tərəfindən zəbt olunmuş İranın qərb hissəsini türklər işğal etdikdən sonra İran dövlətinin varlığı şübhə altına alındı.

II Şah Təhmasib və iri feodallar dövlətin taleyi haqqında ciddi düşünməli oldular. Düşmənlərə qarşı mübarizədə daxili qüvvələri birləşdirmək lazım idi. Bu məs'ul vəzifəni Nadirqulu xan öz üzərinə götürdü. O, nəinki əfqan feodallarını İrandan qovdu, hətta Herat şəhərini də tutdu. Bu qələbə Nadirqulu xanın nüfuzunun artmasına səbəb oldu. 1730-cu ildə Türkiyədə dövlət çevrilişinin olması, III Sultan Əhmədin (1703-1730) devrilməsi və imperiyanın hakim dairələrinin

daxili işlarə başlarının qanşmasından istifadə edən Nadirqulu xan Türkiyəyə qarşı mübarizəyə başladı. Bu vaxt Osmanlı imperiyası ile düşmən münasibətdə olan Rusiya İrana qarşı xeyirxah mövqedə çıxış edirdi. Belə bir əlverişli şəraitdə II Təhmasib Türkiyə sultanına rəsmi səfir göndərib osmanlılar tərəfindən zəbt olunan Səfəvi torpaqlarının geri verilməlini tələb etdi. Türkiyənin rədd cavabı müharibəyə gətirib çıxardı. Nadirqulu xaır türk qoşunları üzərində ilk böyük qələbəni Marağada çaldı, qısa vaxt ərzində yerli əhalinin köməyilə Teymur paşanın komandanlığı altında fəaliyyət göstərən dəstələri məğlub edib, 1730-cu ilin sentyabrında iri sənətkarlıq və ticarət mərkəzləri olan Ərdəbili, daha sonra isə Təbrizi türklərdən azad etdi. Müvəffəqiyyətdən ruhlanan Nadirqulu xan başqa Azərbaycan və Ennənistan şəhərlərində olan türklərdən bu yerləri tərk etmələrini tələb etdi. Lakin hadisələrin sonrakı gedişi Nadirqulu xanın türklərə qarşı mübarizəyə rəhbərlik etməsinə imkan vermədi. O, İrəvana doğru yürüşə hazırlaşarkən, Xorasanda üsyanın baş verməsi, üsyançılann onun qardaşını öldürmələri xəbəri Nadiri tə’cili Xorasana qayıtmağa məcbur etdi. Şah II Təhmasib öz nüfuzunu qaldırmaq məqsədilə Nadirqulu xanın qayıtmasını gözləmədən 1731-ci ildə Naxçıvanı və İrəvanı türklərdən geri almaq üçün hərbi əməliyyata başladı. Onun başçılıq etdiyi qoşun Eçmiədzin yaxınlığında müvəffəqiyyət qazansa da, İrəvan səmtində ağır məğlubiyyətə uğradı. Şah aprelin əvvəllərində salamat qalmış qoşunla Təbrizə qayıtdı. Bir müddətdən sonra II Təhmasib öz taleyini Şimali Azərbaycanda yoxlamaq fikrinə düşdü. O, qoşunu ərzaq və hərbi sursatla tə’min etdikdən sonra Təbrizdən Gəncəyə və Şamaxıya doğru hərəkət etmək istədi. II Təhmasibin fikrini başa düşən türk komandanlığı Gəncənin müdafiəsini gücləndirdi. Tezliklə Surxay xan da öz dəstəsi ilə bura gəldi. Belə halda, II Təhmasib öz fikrindən daşındı.

trevandakı məğlubiyyətdən sonra İran qoşunlan xeyli zəifləmişdi. Türkiyə komandanlığı bundan istifadə edərək, 1730-cu ildə itirilən yerləri yenidən zəbt etmək qəranna gəldi və Təbrizə doğru irəliləmək barədə əmr verdi. 1731-ci il aprelin 24-də Surxay xan öz dəstəsilə Təbriz tərəfə gəldi. O, Gəncədən göndərilən Osmanlı qoşunu ilə birləşmək üçün Əli paşadan xüsusi sərəncam aldı. Bundan əlavə. Osmanlı komandanlığı təxribat işi aparmaq üçün Rusiyaya birləşdirilən vilayətlərə öz nümayəndələrini göndərdi. Onlardan biri Mənsur

xan idi. O, Əliqulu xanın hakimiyyəti altında olan Salyan və Muğan ərazisində fəaliyyət gösterirdi. Lakin Mənsur xan bu yerlərdə ınüvet-feqiyyət qazana bilmədi.

Tezliklə İran və Türkiyə qoşunlan arasında toqquşma oldu, II Təhmasib növbəti məğlubiyyətə uğrayıb Qezvinə çəkildi. Beləliklə, türk qoşunu üçün İsfahana yol açıldı. Lakin Əhməd paşa İranın mərkəzini ələ keçinnək üçün kifayət qədər qüvvənin olmadığını nezəra alaraq tutulmuş ərazi ilə kifayətləndi.

Osmanlı türklərinin diger bir dəstəsi əsaslı müqavimət görmədən Təbrizi tutdu. Nadir tərəfindən geri alınmış yerləri itirməkdən qorxuya düşən Şah II Təhmasib sülh imzalamaq üçün Türkiyə komandanlığının düşərgəsinə nümayəndə göndərdi. Belə sülh eyni dərəcədə türklərə də lazım idi.

İsfahandan xeyli uzaqlarda olan Nadir buna e’tiraz etsə də, 1732-ci il yanvann 16-da Kirmanşahda İranla Türkiyə arasında sülh imzalandı. Sülhün şərtlərinə görə, İrəvan, Gəncə, Tiflis, Şamaxı, Şirvan əyalətləri və Dağıstan Türkiyəyə verildi. Araz çayı hər iki dövlət arasında sərhəd olmalı idi. Bundan əlavə. Əhməd paşa Kirmanşahın 9 vilayətindən arpa vergisi aldı.

I Pyotrun (yanvar, 1725) ölümündən sonra Rusiya hökumətində Xəzərsahili vilayətlərini öz əlində saxlaya biləcək ikinci bir şəxsiyyət yox idi. Bu erazidə yerləşən qoşunu saxlamaq üçün böyük xərc tələb olunurdu. Ona görə de Rusiya Xəzər sahilinin bir sıra vilayətlərini könüllü olaraq İrana qaytarmağa hazır olduğunu bildirdi. İranla Türkiyə arasında müqavilə imzalandıqdan sonra, Rusiya münasibətləri gərginləşdirmək istəmirdi. Bundan əlavə, İranda mərkəzi hakimiyyətin möhkəmlənməsi. Osmanlı türklərinin Xəzərsahili vilayətlərə buraxılmamastna zəmanət verirdi. Məhz buna görə də Rusiya dövləti
1732- ci il yanvann 21-də Rəştdə İranla müqavilə imzaladı. Müqavilənin şərtlərinə görə. Kürdən cənuba doğru yerləşən Xəzərsahili vilayətlər İrana qaytarıldı. İran isə Türkiyəni bu yerlərə buraxmamağı öhdəsinə götürdü. Müqavilədə İran dövləti daxilində rus tacirləri üçün güzəştli şərtlər nəzərdə tutulurdu. Bu zaman İranda daxili siyasi vəziyyət kəskinləşmişdi. Nadirqulu xan Xorasandan qayıtdıqdan sonra hərbi-feodal ə’yanların köməyinə ai'xalanaraq Şah II Təhmasibi taxtdan salıb onun 8 aylıq oğlu Abbas Mirzəni III Abbas adı ilə şah, özünü isə onun qəyyumu e’lan etdi (1732). Bu vaxtdan e’tibarən əfşar

tayfasının nümayəndəsi Nadirqulu xan İran dövlətini özü idarə etməyə başladı, Nadirqulu xan ilk növbədə 1732-ci ildə II Təhmasibin Türkiyə ilə bağladığı müqaviləni ləğv etdi. 1723-cü ildən bəri Türkiyə tərəfindən tutulmuş torpaqları qəti olaraq tələb etdi. Türkiyənin rədd cavabı müharibəyə səbəb oldu. Nadirqulu xan 100 min qoşunu üç hissəyə bölüb birincisini Təbrizə, ikincisini Kürdüstana, üçüncüsünü isə öz komandanlığı altında Bağdada doğru yönəltdi.

Müharibənin ilk günləri İran qoşunlan üçün uğursuz oldu. Lakin 1733- cü ildə türk qoşunu Bağdad ətrafında darmadağın edildi. Elə həmin ildə orada Nadirlə Əhməd paşa arasında sülh müqaviləsi imzalandı. Sülhün şərtlərinə görə, Türkiyə son on ildə zəbt etdiyi torpaqları İrana qaytarmalı idi. Türkiyə buna əməl etmədi, lakin az sonra Azərbaycanın cənubunda hərbi əməliyyatı dayandırdı və işğal olunmuş vilayətlərdən öz nümayəndələrini geri çağırmağa məcbur oldu. Münasibətləri qismən nizama saldıqdan sonra Nadirqulu xan Rusiya dövlətindən də Xəzərsahili vilayətləri tərk etməsini tələb etdi. Bununla əlaqədar olaraq Rusiya hökuməti danışıq üçün 1733-cü ilin yayında fövqəfadə səfiri S.Qolitsini Nadirqulu xanın düşərgəsinə göndərdi. S.Qolitsin öz dövləti adından bildirdi ki, əgər Qafqaz uğrunda İranla müharibə olarsa, Rusiya heç vaxt Türkiyəyə kömək etməyəcək. Rusiya hakim dairələrini Surxay xanın Şirvandakı fəaliyyəti daha çox narahat edirdi. Surxay xanın Şirvandakı hökmranlığına və ümumiyyətlə, türklərin Qafqazdakı fəaliyyətlərinə həmişəlik son qoymaq üçün Nadirqulu xan 1734-cü ilin iyununda Azərbaycana yürüş etdi. O, Ərdəbildən, Təbrizdən türk qoşunlarını qovduqdan sonra Surxay xanın Şirvandan çıxmasını tələb etdi. Lakin Surxay xan nəinki Şirvanı tərk etdi, əksinə, cavab məktubunda bildirdi ki, «o, Şirvana ləzgi şirlərinin qılıncı gücünə yiyələnmişdir, heç kəsin ona bu cür təklif verməyə ixtiyan yoxdun>. Belə kəskin cavab alan Nadirqulu xan ) 734-cü ilin yayında Şamaxıya tərəf irəlilədi. İran qoşunlarının gəlməsindən təşvişə düşən Surxay xan tə’cili surətdə Şamaxını tərk etdi. Bir işğalçının əlindən can qurtaran şamaxılılar yeni işğalçıya baş əymək istəməyərək şəhərin müdafiəsinə çıxdılar. İki ay davam edən ciddi müqavimətdən sonra, sayca üstünlük təşkil edən Nadir avqustun axırında şəhəri tutmağa nail oldu. Ciddi müqavimət göstərdiyinə görə Nadirqulu xan şəhərin büsbütün dağıdılmasını əmr etdi, əhalisini isə Ağsuya köçürdü. Surxay xan isə Dağıstana qaçdı və Nadiri buraya

buraxmamaq üçün qısa müddetdə ətrafına 12 minlik qoşun topladı. Mustafa paşa, Nuru paşa və Feti Gəray sultanın başçılığı altında səkkiz minlik qoşun da ona köməyə tələsdi. Surxay xan İran qoşununa qarşı mübarizə aparmaq üçün Knm xanını da köməyə çağırdı. Knm qoşunları Kaxetiya və Balakəndən keçməli idilər, lakin yolda Kaxetiya çan Teymuraz onları geri oturtdu. İran qoşununun yaxınlaşdığını eşidən Surxay Göysu çayı üzərindəki yeganə körpünü uçurmağı əmr etdi. Lakin bu, Nadirqulu xanı qorxutmadı və qoşun asanlıqla çayı keçdi. Surxay tə'cili Qazıqumuğu tərk edib Avarıstana qaçdı. İran qoşunu Qazıqumuğu talan edib yandırdı. Surxay xam izləyən İran qoşunlan Samur vilayətinin Axta kəndinə tərəf istiqamət aldılar. Nadirqulu xanın qoşunu bu yerləri qarət edərək 1734-cu il oktyabrın 3-də Şamaxıda qalmış qoşun hissələri və topxana ilə Qəbələyə gəldi. Nadirqulu xan buradan qoşununu Şimali Azərbaycanda türklərin baş dayaq nöqtəsi sayılan Gəncəyə apardı. 1734-cü ilin oktyabrında Nadirqulu xanın qoşunlan Gəncə qalasını mühasirəyə aldılar. Mühasirə 4 ay davam etdi. Uzunmüddətli mühasirə Nadirqulu xana baha başa gəldi. Bu, eyni zamanda xalqın qarət edilməsinə, ondan daha çox xərac toplanmasına səbəb oldu. Qışın yaxınlaşmasına baxmayaraq, Gəncənin mühasirəsi davam edirdi. Nadirqulu xan eyni zamanda rus doşununun Xəzərboyu vilayətləri tərk etmələri barədə Rusiya dövləti ilə çoxdan başladığı danışıqlan qurtarmaq qərarına gəldi. O, 1734-cü il dekabrın 5-də öz səfiri Hüseyn xanı Rusiyanın diplomatik nümayəndəsinin müşayiətilə Peterburqa göndərdi. Hələ nümayəndə yolda ikən Bakıda olan V.E.Levaşov Peterburqdan ms qoşununun Xəzərsahili əyalətlərindən tamamilə çıxması barədə gələcək müqavilənin layihəsini almışdı. İran hökumətinin irəli sürdüyü təkliflərə Rusiyanın işgüzar dairələri razı olduqdan sonra, 1735-ci il ınartın 10-da Gəncə yaxınlığında Rusiya ilə tran arasında müqavilə imzalandı, həmin sülh müqaviləsinin şərtlərinə görə, rus qoşunu Xəzərsahili vilayətləri tamamilə tərk etdi. Əlbəttə, bu vəziyyət Xəzərsahili vilayətlərin əhalisinin Rusiya ilə tarixən yaranmış ticarət əlaqələrinin inkişafına mane olmadı. Hər halda bu vilayətlərin yenidən feodal müstəbidliyinin himayəsinə daxil edilməsi mənfi nəticələrə-Azərbaycamn məhsuldar qüvvələrinin dağılmasına, iqtisadi və mədəni həyatının geriləməsinə səbəb oldu.

Nadirqulu xan Xezərsahili vilayətlərə yiyələndikdən sonra türklərin Qafqazdan tamamilə qovulması ilə məşğul oldu. Gəncənin mühasirəsi hələ davam edirdi. Kiçik türk qarnizonu Osmanlı hissələri yerləşən Qars və İrəvandan yardım almaq ümidində idi. Odur ki, müqavimət göstərməkdə davam edirdi. Nadir bu imkanı boşa çıxarmaq üçün mühasirəyə alınmış qala ətrafında kiçik dəstə qoyub qoşununu Qarsa doğru yönəltdi. Orada isə türk qoşunlarının Abdulla paşanın başçılığı altında Gəncədəki türk qarnizonuna köməyə getdiyini eşitdi. Nadirqulu xanı Qafqazın qərbində hərbi əməliyyat aparmaq fikrindən yayındırmaq üçün, Türkiyə sultanı 1735-ci ilin mayında Krım xanına Qafqaz üzərinə yürüşə çıxmağı əmr etdi. Lakin bu hərbi əməliyyat baş tutmadı. Knm xanının yürüşü Şirvan bəylərbəyi Əlixanın qoşunları tərəfindən saxlandı. 1735-ci ilin iyununda Eçmiədzinin şimal-şərqində İran və Osmanlı qoşunu arasında baş verən döyüş Nadirin tam qələbəsi ilə nəticələndi.

Bir sıra uğursuzluqlardan sonra Osmanlı komandanlığı İranla mübarizəni davam etdirməyi əhəmiyyətsiz hesab edərək sultanın əmrilə Türkiyə qarnizonu olan şəhərlərdən qoşunlannı geri çağırdı. Beləliklə, 1735-ci ilin sonunda türk qoşunu büsbütün Ön Qafqazdan qovuldu. Lakin bu, heç də yerli xalq kütlələrinin azadlığa çıxması deyildi. Türk qoşununun Ön Qafqazdan qovulması ile Azerbaycan xalqının İran müstəbidliyinə qarşı azadlıq mübarizəsinin yeni dövrü başlandı.

Azərbaycan İran hakimiyyəti altında. Azərbaycanda İran hakimiyyətinin bərpa olması xalqı yenidən İran zülmünə düçar etdi. İranda və istila edilmiş vilayətlərdə ciddi hərbi feodal rejiminin qoyulması, xalqın istismar edilməsi şəhər və kənd əhalisini var-yoxdan çıxanrdı. Hərbi xərcləri ödəmək üçün külli miqdarda vəsaitə ehtiyacı olan Nadirqulu xan yeni vergi siyasəti heyata keçirdi. Lakin uzun sürən dağıdıcı müharibələr Azərbaycanın iqtisadiyyatına ciddi zərbə vurduğundan, talan olunmuş şeher və kənd əhalisi vergiləri vermək imkanına malik deyildi.

Azərbaycanın və Dağıstanın feodal pərakəndəliyindən istifadə edən Nadir böyük qurbanlar və xərac bahasına olsa da, 1735-1736-ci illərdə burada qismən öz hakimiyyətini gücləndirə bildi və 1736-cı ilin əvvəlində özünü şah e'lan etmək üçün münasib şərait yaratdı. Ona görə də qışlamaq və tac qoymaq üçün qoşunla Muğana çəkildi. Əvvəlcədən hazırlanmış plana görə III Şah Abbasın qəflətən ölümün

dən istifadə edərək 1736-cı ilin martında toplanmış yığıncaqda (qurultayda) Nadir özünü İranın şahı e'lan etdi. Beləliklə, Səfəvi sülaləsi nümayəndələrinin formal idarə üsuluna son qoyuldu. Nadirin şah «seçilməsinə» tərəfdar olmayan bir sıra Azərbaycan feodalları, o cümlədən Ziyadoğlu adı ilə məşhur olan Gəncə xanlan, habelə 32, kəbirli və cavanşir tayfalarının başçıları ailələn ile birlikdə Xorasana sürgün edildilər. Qazax və Borçalı isə Kartli hakiminin tabeliyinə verildi. Qarabağın erməni məlikləri (Verəndə, Çilebörd, Gülüstan, Dizaq, Xaçın) Gəncə bəylərbeyliyinə tabe edildi.

Nadir şah e'tibar etdiyi köhnə vəzifə sahiblərini öz yerlərində saxladı, həmçinin yeni vəzifələri öz yaxın adamlanna tapşırdı. Şirvana Mehdiqulu xan, Dərbəndə Nəcəf Sultan, Bakı və Abşerona bir nəfər gilanlı, İrəvana isə Məhəmməd xan te'yin olundular. Dövlət aparatında yüksək vəzifələrə irəli çəkilənlər içərisində əfşar tayfasından olanlara daha çox üstünlük verirdi. Nadir keçmiş inzibati bölgüləri - Şirvan, Qarabağ, Çuxur-Se'd və Təbriz beylerbəyliklerini ləğv edərək, əslində Azerbaycan adı altında vahid inzibati bölgü yaratdı. Bölgünün mərkəzi Təbriz, hakimi isə qardaşı İbrahim oldu

Nadir şah öz hakimiyyətinin ilk günlərindən e'tibaren vergi toplanması işini qaydaya salmaq üçün vəzifə bölgüsü apardı. Hətta yürüş zamanı onu 130 mirzə müşayiət edirdi. Onların çoxu dövlət maliyyəsini hesablamaqla məşğul idi. Bu işə ciddi nəzarət sayəsində dövlətin gəliri xeyli artdı. Belə ki, xalqdan toplanan vəsait indi ayn- ayn adamlar tərəfindən mənimsənilmir, xəzinəyə daxil edilirdi. Həmin vəsaitin çoxu başlıca olaraq ordunun saxlanmasına xərclənirdi. O, vergi toplanması işinə iqtisadi məsələ kimi baxır, azacıq itaətsizlik göstərənləri tə*qib edir və öldürürdü. Məsələn, Naxçıvanın keçmiş hakimi Mirzə Rza, qoşun başçılarından Quba xan və Mə'sum xan dövlətin maliyyə işinə kömək etmədikləri üçün şahın qəzəbinə düçar olmuşdular. Nadir şahın daxili siyasəti ayn-ayn iri feodallann iqtisadi cəhətdən sarsılmasına gətirib çıxardı. Bu isə onlann böyük narazılığına səbəb oldu.

Nadir şahın siyasəti əhalini tamamilə var-yoxdan çıxarırdı. Mənbələrin verdiyi mə'lumata görə, bu zaman kəndlilər əldə etdikləri bütün məhsulu, demək olar ki, tamamilə vergi şəklində xəzinəyə verməli olurdular. Bu dövr tarixçilərindən birinin yazdığına görə, vergi toplayanlardan bir tikə çörəyi gizlətməyə çalışan kəndlilərə

Nadir şahın emri ile «elə işgəncələr verirdilər ki, lap ölüm həddinə çatırdı. Bu bəla bütün İranı, Qafqazı və Gürcüstanı bürümüşdü. Onun (Nadir şahın - *S.M.)* nə qədər adamın gözünü çıxartdığını, nə qədər adamı işgəncə ilə öldürtdüyünü təsəvvürə gətirmək çətindir».

1745—1746-cı illərdə Nadir şah Şirvan əhalisindən xəzinəyə müəyyən edilmiş vergidən əlavə 150 min tümən, Gəncə və ətraf kəndlərin sakinlərindən isə 3 min tümən vergi tələb etdi. Bu isə bütün illik vergilərin məbləğindən xeyli artıq idi. Vergini verməyə imkanı olmayanlar çox vaxt bazarda öz uşaqlannı satmağa məcbur olurdular. Ön Qafqaz tarixçilərindən biri yazırdı; «Bu kədərli günlərdə ölkəmiz tamamilə var-yoxdan çıxdı. Adamlar hətta öz uşaqlannı da satırdılar, amma heç kəs almırdı. Ailə başçısı öz arvadını, oğlunu, qızını atır, başını götürüb qaçırdı».

Kəndlilər biyar mükəlləfiyyətini yerinə yetirərək neft və duz hasil edir (Xəzərsahili vilayətlərdə), yollar, körpülər salır, gəmilər düzəldirdilər. Şahın əmri ilə rəiyyət hərbi qulluğa da çağırılırdı. 1737-ci* ildə Astara hakiminin sərəncamı ilə 6 min kəndli zorla səfərbərliyə alınmışdı. İran hakimləri camaatdan öz qızlarını şahın sarayına, ə'yan-lann və sərkərdələrin yanma qulluqçuluğa göndərmələrini tələb edirdi lər. Bu isə xalqın daha artıq qəzəbinə səbəb olurdu. Müharibələr, quraqlıq və kəndlilərin öz yurdlannı tərk etməsi nəticəsində Azərbaycanın çox yerini aclıq bürüdü.

XVIII əsrin 30-cu və 40-cı illərinin birinci yansı Azərbaycan tarixinə ağır bir dövr kimi daxil olmuşdur. Təbriz, Ərdəbil, Şamaxı, Dərbənd və başqa şəhərlərdə təsərrüfat həyatı, demək olar ki, sönmüşdü. İpək ixracı yox dərəcəsinə çatmışdı. Belə ağır iqtisadi şəraitdə Nadir şah Xorasanda özü üçün yeni mərkəz yaratmaq fikrinə düşdü. Xorasan dövlətin həm siyasi, həm də iqtisadi mərkəzi olmalı idi. Həmin məqsədlə şah Tiflis, İrəvan, Naxçıvan və Qafqazın başqa şəhərlərindən buraya zorla çoxlu sənətkar ailəsi köçürtdü. Bu isə Azərbaycan, Ermenistan ve Gürcüstanda sənətkarlığın vəziyyətinə ağır te’sir gösterdi.

İran zülmünə qarşı kəndli iğtişaşları. Yadellilərin əsarəti və yerli feodalların zülmü XVIII əsrin 30-cu illərində - 40-cı illərin birinci yarısında Azərbaycanda məhsuldar qüvvələrin dağılmasına, zəhmətkeş xalqın maddi vəziyyətinin son dərəcə ağırlaşmasına və sinfi ziddiyyətlərin kəskinləşməsinə səbəb oldu. Silaha əl atıb müqavimət göstərməyə qabil olmayanlar feodal zülmünə qarşı qeyri-fəal müba

rizə aparır, daimi yaşayış yerlərindən kütləvi surətdə çıxıb getməklə kifayətlənirdilər. Bə’zi hallarda elatlar da qonşu vilayətlərə getməli olurdular. Elə vəziyyət yaranmışdı ki, torpağı becennəyə və qoşunun sıralarını möhkəmlətməyə adam tapılmırdı. Nadir şah qaçanlan tutub cəzalandırmağı və əvvəlki yaşayış yerlərinə qaytarmağı əmr etdi.

Yerlərdə qalan kəndlilər vergi verməк və mükəlləfiyyət daşımaq iqtidarında deyildilər. Nadirin zülmünə qarşı üsyanlar hələ l734-cü ildə başlamışdı. Həmin ildə birinci olaraq Astaranın ac-yalavac kəndliləri çıxış etdilər. Bir qədər sonra Şəki vilayətində Biləcik kəndinin əhalisi üsyan qaldırdı. Üsyançılar qonşu Cənik, Tala kəndlərinin sakinlərini köməyə çağırdılar. Kəndli dəstələri İran mə’murları və keşikçi dəstələrinin üzərinə hücum edirdilər. Nadir 1735-ci ilin fevralında oraya böyük cəza dəstəsi göndərdi. O, Car və Tala sakinlərindən 160 nəfər girov götürdü və yerli əhali tərəfindən bir daha müqavimətə rast gəlməyəcəyinə əmin olduqdan sonra Şəki və Ərəş istiqamətində hərəkət etdi.

1736-cı ildə yerli əhalinin qismən tabe olması ilə kifayətlənən Nadir şah əvvəlcə İrana, sonra isə böyük ordu ilə Hindistana yola düşdü. Nadir şahın ölkədə olmamasından istifadə edən əhali 1738-ci ildə yenidən silaha əl atdı. Ən böyük üsyan Carda baş verdi. Üsyanı yatınnaq üçün Nadir şahın qardaşı İbrahim xan böyük ordu ilə buraya gəldi. Lakin toqquşma zamanı İran qoşunu darmadağın edildi, İbrahim xan öldürüldü. Üsyançılann qələbəsinin əsas səbəblərindən biri bu idi ki, İran qoşununun çox hissəsi Nadir şahla birlikdə Hindistana getmişdi. 1739-cu ilin yazında şahın oğlu Rzaqulu Mirzə böyük bir qoşun topladı və Səfi xan Sultanın başçılığı ilə Şirvana göndərdi. 1741-ci il fevralın 23-də abdal tayfasından Qənixanın başçılığı altında cəza dəstələri də bura gəldi. Nadir şahın göndərdiyi yeni qoşunlar üsyançılann inadlı müqavimətinə rast gəlirdi. Bu dövrdə Azərbaycanın şimal mahallarında və Dağıstanda Nadir şahın zülmünə qarşı çıxışlar azadlıq hərəkatının ən yüksək mərhələsini təşkil edirdi. Lakin qüvvələr bərabər olmadığından üsyan yatınldı, üsyançılara divan tutuldu.

1741-ci ilin yazında Nadir Orta Asiyaya səfərini qurtardıqdan sonra, yayda yüz minlik ordusunu Azərbaycana və Dağıstana doğru yönəltdi. O, burada əhalinin müqavimətinə son qoymaq istəyirdi. Lakin niyyəti boşa çıxdı. 1743-cü ilin əvvəllərində Şirvanda İran zülmünə qarşı yeni hərəkat geniş vüs’ət aldı. Belə bir tarixi şəraitdə özlərini Səfəvilərin xələfləri kimi təqdim edən yalançı şahzadələr I,

II, III Sam Mirzələr meydana çıxdılar. I və II Sam Mirzələr Şirvanda fəaliyyət göstərirdilər. Əfşar sülaləsinin hökmranlığından narazı olan xalq Səfəvi xanədanını üstün tutaraq yalançı şahzadələri müdafiə edirdi. 1743-cü ildə I Sam Mirzəni məğlub etmək üçün şah oğlu Nəsrullah Mirzəni Şamaxıya göndərdi. Bundan əlavə. Nadir şah dövlət əleyhinə mümkün çıxışların qarşısını almaq və yerlərdəki qarnizonlan möhkəmləndirmək məqsədilə Gəncə, Qarabağ, Çuxur- Sə'd, Əhər, Qaradağ və Muğana 10-20 min nəfər adam göndərdi.

Buna qədər I Sam Mirzə elli minlik qoşunla Surxay xanın müşayiəti ilə Yeni Şamaxını (Ağsu) tutdu. Nadirin zülmündən cana gəlmiş əhali onu rəğbətlə qarşıladı. O, xalqı Nadir şah tərəfindən qoyulmuş vergilərdən azad etdi. Bu da onu geniş kütlə içərisində məşhurlaşdırdı. Lakin Şirvan düzənliyində baş verən döyüşdə Nəsrullah Mirzənin nizami dəstələri Sam Mirzənin qoşununu darmadağın etdi. O, qaçmaq istəyərkən yaxalandı və e'dam olundu. Surxay xan isə Dağıstana qaçdı. Nəsmllah Mirzə Şamaxıda tran idarə üsulunu bərpa etdi. Heydər xanı ora hakim tə'yin etdi və geri qayıtdı. Lakin I Sam Mirzənin öldürülməsi də Şirvanda İran əleyhinə mübarizəni zəiflətmədi.

1743- cü ilin son rübündə azadlıq hərəkatına 11 Sam Mirzə başçılıq edir. Əvvəllər onu İran qoşunlannın sərkərdəsi İbrahim xan Əfşar asanlıqla tutmuş və təhlükəli düşmən hesab etmədiyinə görə bumunu kəsdirib buraxmışdı. Bu hadisədən sonra o, «bin-e boride» (bumu kəsik) deyə çağırılırdı. II Sam Mirzə xüsusi bacarığa malik olduğundan tezliklə Dağıstan və Şirvanda İran inzibati dairələrini sarsıdan xalq hərəkatına başçılıq etməyə başladı. Bu işdə ona Surxay xanın oğlu Məhəmməd xan fəal yardımçı oldu. Şirvandakı şah qoşunlannın da bir hissəsi üsyançılara qoşuldu.

Ağsudan Dərbəndə qədər bütün erazi üsyançıların əlində idi. 1743-cü ilin oktyabnnda Şirvan üsyançıları Ağsu şeherini tutdular, şahın vergi toplayanlannı və diger mə'murlannı qoyub, II Sam Mirzəni şəhərə də'vət etdilər. Şamaxılılann bu hərəkəti şimal-şərqi Azərbaycanın bir çox yerlərində əhalini tran zülmünə qarşı mübarizəyə ruhlandırdı. Nadir şahın oğlu Nəsmllah Mirzənin başçılıq etdiyi ordu üç dəfə ağır məğlubiyyətə uğrasa da, nəhayət, top atəşi altında Ağsu talasını ala bildi. II Sam Mirzə Gürcüstana qaçdı. İran hakimiyyətinə qarşı mübarizə aparan Qivi Amilaxvarinin dəstəsinə qoşuldu. Lakin tezliklə Qivi Amilaxvari Kaxetiya çan Teymuraz tərəfindən məğlub edildi. O, II Sam Mirzəni əsir alaraq Bərdəyə, Nəsmllah

Mirzənin yanına göndərdi. 1743-cu il dekabrın 29>da Nesrullah Mirzə onun gözünün birini çıxarıb eşşəyə mindirdi və bir neçə Osmanlı hərbi əsirləri ilə Qarsa göndərdi ki, orada qardaşı ilə görüşsün. Məsələ burasındadır ki, həmin vaxtda tran taxtını tutmaq üçün Türkiyə tərəfindən Səfi Mirzə adında daha bir yalançı şahzadə hazırlamışdı. Yolda II Sam Mirzə dünyasını dəyişdi. Yalançı şahzadə Səfi Mirzə 1743-cü ilin sonunda, Şirvan üsyanının qızğın vaxtında Osmanlı dəstələrinin başında şimal-qərbdən Nadir şah dövlətinin sərhədinə yaxınlaşdı. Eyni zamanda Osmanlı sərkərdəsi Əhməd paşa Sultan Mahmudun adından Şirvan, Derbend və Tabasaranın adlı-sanlı feodallarına ferman göndərərək «oğurlanmış» Səfəvi taxtını qaytarmaq üçün Nadir şaha qarşı mübarizədə Səfi Mirzəyə kömək göstərməyi tələb etdi. Nadir şah Osmanlı ordusunun Qars tərəfdən Qafqaza daxil olmasının qarşısını almaq üçün 1744-cü il iyulun 31-de birleşmiş qüvvə ile Naxçıvandan Qars istiqamətində yürüşə başladı. Qars qalasını mühasirəyə alıb Əhməd paşaya ultimatum göndərib yalançı Seti Mirzəni tələb etdi. Əhməd paşa rədd cavabı verdi. Türkiyədə müxtəlif feodal qruplar arasında mübarizənin kəskinləşməsi ilə əlaqədar Osmanlı komandanlığı mühasirədə olanlara kömək edə bilmədi. Nəhayət, Əhməd paşa bir neçə zabiti xeyli hədiyyə ile İran düşərgəsinə göndərib Osmanlı sarayının sülh bağlamaq niyyətində olduğunu bildirdi. Bu təklifi Nadir şah sevinclə qəbul etdi. Çünki Şəkidə İran hakimiyyətinə qarşı bundan da təhlükəli bir mübarizə ocağı közərirdi. Qarsda sərt qış olduğundan şah Osmanlı sarayının sülh haqqında cavabını gözləmədən Axilsixə, sonra isə Axalkalakiyə qayıtdı. Burada ərzaq topladı və 1744-cü il noyabrın əvvəlində qoşunlarını Bərdəyə qışlamağa apardı. Türkiyə bu danışıqlarla, eyni zamanda gələcəkdə İranın daxili işlərinə müdaxilə etmək işində Səfi Mirzədən bir silah kimi istifadə etmək məqsədilə onun həyatını qoruyub saxladı.

1743-1744-cü illərdə Şirvan, Şəki, Təbriz, Xoy və Salmasda yeni üsyanlar baş verdi. Şəkidə mübarizə daha kəskin şəkil aldı. Şəki hakimi Məlik Nəcəfin xalqa əzab verməsi, qəddarlığı, özbaşınalığı, vergiləri üçqat toplaması, çoxunu isə mənimsəməsi üsyanın başlanmasının başlıca səbəbi oldu. Hələ 1741-ci ilin sonunda səbri tükənmiş əhali Nadir şaha Məlik Nəcəfdən şikayət etdi. Nadir yeni silahlı üsyan ocağının yaranmasından ehtiyat edərək Məlik Nəcəfin işlərinə nəzarət üçün öz içərilərindən vəkil seçməyi Şəki e’yanlanna tapşırdı. Əhali arasında böyük nüfuza malik olan yerli feodallardan Hacı Çələbi

vəkil seçildi. Nadir şah Hacı Çələbinin ruhani və feodal ə'yanlar içərisində xüsusi tə'sirini nəzərə alaraq şəkiİilərin şikayətlərinə son qoyulacağına ümid edirdi. Lakin Hacı Çələbi vəkil olduqdan sonra açıq surətdə Məlik Nəcəfin işlərinə qarışmağa, onun əleyhinə çıxmağa başladı. Bundan qəzəblənən Məlik Nəcəf şahın düşərgəsinə gedərək ona bildirdi ki, guya Hacı Çələbi «<şahın tapşınqlarının» yerinə yetirilməsinə mane olur, özü şahın əmrinə tabe olmur, xalqı da onları icra etməyə qoymur». Qəzəblənmiş şah Hacı Çeləbini hüzuruna çağırtdırdı və e'dam olunması barədə hökm verdi. Hacı Çələbi kəndir boğazında özünü mərdliklə və dəyanətlə apardı, vergi toplanmasında öz zülmkarlığı ilə hamının nifrətini qazanan Məlik Nəcəfi bir daha cəsarətlə ifşa etdi və şahı Malik Nəcəfin pis əməllərinə inandıra bildi. Bundan sonra. Hacı Çələbi azad edildi, hətta ona daha böyük səlahiyyətlər verildi. Hacı Çələbinin dar ağacı altındakı nitqi Nadir şahı heyrətə gətirdi. O, öz əmirlərinə müraciətlə dedi: «Mənim hüzurumda heç kəs danışmağa belə cəsarət etmədiyi halda, bu şəkili Çələbi kəndir boğazında özünü itirmədən fikrini mənə söyləməyə cəsarət etdi. Görərsiniz, o bir xəta edəcəkdir, mən öz zənnimdə heç vaxt yanılmıram».

Nadir şah öz zənnində yanılmamışdı. Şahın düşərgəsindən qayıdan kimi Hacı Çələbi Məlik Nəcəfin fəaliyyəti üzərində nəzarəti daha da artırdı. Məlik Nəcəf isə öz növbəsində yenidən Nadir şaha şikayət etdi. Lakin bu dəfə onun şikayəti cavabsız qaldı. Çünki bu vaxt Nadir Türkiyə ile yeni müharibəyə hazırlaşırdı. Bundan əlavə, 1743-cü ildə Şirvanda tran əleyhinə ümumxalq hərəkatı xeyli güclənmişdi. Bu da şəkiİilərin İran üsul-idarəsinə qarşı qəti çıxışları üçün əlverişli şərait yaradırdı. Bir qədər sonra Məlik Nəcəf yenidən Hacı Çələbi haqqında şaha şikayət etdi. Şah yalnız Çələbidən 100 tümən cərimə tələb etməklə kifayətdəndi. Lakin Hacı Çələbi cəriməni verməkdən imtina etdi. Onda Hacı Çeləbini şah hüzuruna çağırdı. Çələbi bu əmri də yerinə yetirmədi. O bilirdi ki, bu dəfə artıq şahın yanından salamat qayıtmayacaq. Odur ki, e'tibarlı adamlarını ətrafına yığıb Məlik Nəcəfin iqametgahma hücum etdi və onu öldürdü. Bu isə Azerbaycanda İran zülmünə qarşı qalxan xalq azadlıq mübarizəsinin yeni mərhələsi idi. İranın daxili və xarici vəziyyəti Nadir şaha qoşunun gücünü parçalayıb, bir hissəsini şəkililərə qarşı göndərməyə imkan vermirdi. Şirvandan başqa Derbend, Çar vilayəti, Qarabağ, Gürcüstan, Ermənistan və dövlətin cənub əyalətlərində də

xalq hərəkatı canlanmaqda idi. Nadir şah dövlətin qərb sərhədini zəitlətməkdən ehtiyat edərək ölkənin daxilində baş verən üsyanlan yatırtmaqla başını qatmaq istəmirdi. Çünki sərhəddə hazır dayanan türk qoşunu ölkəyə müdaxilə edə bilərdi. Bütün bu amillər Hacı Çələbinin fəaliyyətini genişləndirmək üçün əlverişli şərait yaratdı. O, Şəki vilayətindən İran ünsürlərini büsbütün qovaraq Şəkini müstəqil xanlıq e'lan etdi. Bununla da Azərbaycan ərazisində kiçik dövlətlərin - müstəqil xanlıqların yaranmasının əsası qo)aıldu.

Nadir şah yaranmış vəziyyətlə barışmaq istəmirdi. O, Türkiyə sərhədində müvəqqəti sakitlikdən istifadə edərək> sərt qış olmasına baxmayaraq, şəkililərlə hesablaşmaq üçün oraya tələsdi. Hacı Çələbi yaxşı bilirdi ki, gec-tez İran qoşunu hakimiyyəti bərpa etmək üçün gələcək. Ona görə də o, uzun müddətlik ərzaq və sursat tədarükü görməyi, bütün şəhər əhalisini ondan 8 km aralı qədim və möhkəm «Gələsən-görəsən» qalasına köçürməyi qərara aldı.

1744- cü il noyabnn 29-da Nadir şahın qoşunu Şəki üzərinə hərəkət etdi. Lakin qoşun «Gələsen-görəsən»də ciddi müqavimətə rast gələrək Bərdəyə çəkilməyə məcbur oldu. 1745-ci il fevralın 13- de İran qoşunu ikinci dəfə Şəkiyə doğru irəlilədi. Nadir şəkililəri itaətə gətirmək üçün «yaşayış yerlərinin yaxınlığındakı bağları və taxıl zəmilərini məhv etməyi, ağacları kəsməyi əmr etdi». Lakin bu tədbir də kömək etmədi. Şəkililər inadla vuruşur, dağlann çətin keçidlərindən məharətlə istifadə edirdilər. Şəkililəri itaətə gətirə bilməyən Nadir şah Şəki şəhərini yandırmağı əmr etdi. Lakin bu da «Gələsən- görəsən»in müdafiəçilərinin müqavimətini qıra bilmədi. Türkiyə ilə münasibətlər gərginləşdiyindən şah qala ətrafında bir qarnizon saxlayıb 1745-ci ilin mayında Türkiyə sərhədinə gəldi. '745-ci ilin ortalarında Türkiyə ilə İran arasında hərbi əməliyyat yenidi başladı. «Gələsən-görəsən» iki ildən çox mühasirədə qaldı. 1746-cı ıidə qalada ərzaq ehtiyatı, demək olar ki, qurtarmışdı. Ona görə də Hacı Çələbi vəkil vəzifəsində qalmaqla. Nadir şahın hakimiyyətini tanımağa məcbur oldu. Əlbəttə, bu. Hacı Çələbinin təslim olması demək deyildi, xalqı iqtisadi böhrandan çıxarmaq üçün onun siyasəti idi. Nadir şah da öz növbəsində Şəki və Şirvanda geniş nüfuza malik olan Hacı Çələbidən istifadə etmək istəyirdi.

Qalanın müdafiəsinin dayandırılması Azərbaycanın Nadir şah tərəfindən tam istilası demək deyildi. Ağır feodal istismarına mə'ruz qalan xalq 1747-ci ilin əvvəllərində yenidən İran zülmünə qarşı silaha

əl atdı. Belə bir tarixi şəraitdə Hacı Çələbi yenidən tran əleyhinə hərəkatın təşkilatçısı rolunda çıxış etdi. Tezliklə o, özünü mərkəzi Şəki şəhəri olan müstəqil Şəki xanlığının hakimi - xanı e'lan etdi.

1747-ci ildə İran əleyhinə ən iri, lakin qısamüddətli üsyan Ərdəbil və Təbrizdə Sam Mirzənin başçılığı ilə oldu. Bu, Səfəvi taxtı uğrunda mübarizə aparan III Sam Mirzə idi. O, şiələrin Novruz bayramının birinci gününü (martın 21-i) əfşarlara qarşı mübarizə günü kimi seçdi. Sam Mirzə güclü silahlı dəstə ilə əfşar inzibati idarəsi nümayəndələrinin, demək olar ki, hamısını qılıncdan keçirdi, Təbrizdə Özünü hakim e'lan etdi.

Həmin dövrün xalq üsyanları üçün səciyyəvi cəhət onların çoxunun eyni vaxtda başlaması idi. Bu isə şahın qüvvələrinin tez-tez parçalanmasına və maddi ehtiyatlann tükənməsinə səbəb olurdu. Lakin üsyanların əksəriyyətinin kortəbiiliyi, aydın məqsədin olmaması və daxili ziddiyyətlər onların taleyini əvvəlcədən həll edirdi. O zamankı tarixi şəraitdə üsyançılar öz məqsədlərinə nail ola bilməzdilər. Bununla belə, həmin üsyanların böyük tarixi əhəmiyyəti vardı. Azərbaycan, Dağıstan, indiki Ermənistan, Gürcüstan və əsarətə alınmış diger ölkələrdə xalq azadlıq hərəkatının genişlənməsi üçün əlverişli şərait yaranırdı. Aramsız ara müharibələri nəticəsində gərgin iqtisadi vəziyyət, sinfi mübarizə nəticə e'tibarilə Nadir şahın dövlətinin süqutuna səbəb oldu. 1747-ci il iyunun 20-de sui-qəsd nəticəsində Nadir öldürüldü, onun silah gücünə yaradılmış dövləti tamamilə dağıdıldı. İran dövlətini yenidən ara müharibələri bürüdü.

## *XIV fəsil*

# AZƏRBAYCAN XANLIQLAR!

XVni əsrin ikinci yarısı Azerbaycan tarixinin mühüm dövrlərindən biridi. Azerbaycanda özünəməxsus xüsusiyyətləri olan bu dövrdə feodal pərakəndəliyi hökm sürürdü. Vahid iqtisadi və siyasi mərkəz yox idi. İqtisadi əlaqələri zəif olan ölkənin iqtisadiyyatında natural təsərrüfat inkişaf etmişdi. Ayn-ayn xan, sultan, məlik və bəylər öz müstəqilliyini qorumağa çalışır və məhdud feodal mənafeyini güdərək ölkəni pərakendə vəziyyətdə saxlamaq istəyirdilər. Belə feodallar eyni zamanda xanlıqları birləşdirərək vahid bir dövlət yaratmaq siyasətini yürüdənlərə qarşı çıxış edirdilər.

XVIII əsrin ortalarından tranda feodal ara müharibələri genişlənir, Azərbaycanda isə, demək olar ki, hər bir şəhər ətrafında müstəqil və yarımmüstəqil feodal dövlətləri-xanlıqlar meydana gəlirdi. Araz çayı ilə Kür arasında Qarabağ xanlığı. Zəngəzur sıra dağlarından Araz vadisinə qədər uzanmış erazidə Naxçıvan xanlığı, Murovdağ silsiləsindən Kür çayınadək Gəncə xanlığı, Şirvan düzənliyində isə Şamaxı xanlığı yaranmışdı. Azerbaycanın şimal-qərbində Şəki xanlığı öz varlığını saxlayırdı. Abşeron yarımadasında Bakı xanlığı, Azərbaycanın şimal-şərqində. Xəzərin qərb sahilində Quba və Dərbənd xanlıqları, Bakı xanlıqlarından cənubda Salyan xanlığı, Kür ilə Arazın qovu- şuğuna bitişmiş torpaqlarda Cavad xanlığı. Xəzərin cənub-qərb sahilində Talış, Azərbaycanın cənubunda Təbriz, Urmiya, Xoy, Qaradağ, Sərab, Marağa, Maku xanlıqlan yarandı. Qutqaşen, Qəbələ, Ərəş, Qazax, Şəmseddin sultanlıqlan kimi kiçik dövlət birləşmələri meydana gəldi. Sonuncudan şimal-qərbə Car-Balakən camaatı yerləşirdi. Dağlıq Qarabağda Qarabağ məlüderi hakim idilər.

## ŞI.ŞƏKİ XANLIĞI

1743-cii ilin sonu-1744-cü ilin əvvəlində Nadir şah siyasətinin əleyhinə başlanmış xalq azadlıq hərəkatı dövründə Şəki İran zülmündən azad oldu və müstəqil xanlığın mərkəzinə çevrildi. Şəki xanlığının ilk başçısı Qara keşiş oğlu nəslindən Hacı Çələbi Qurban oğlu olmuşdur. Azərbaycan və İran şahlığına tabe olmayan xanlığın yaranması, əslində Azərbaycanın siyasi suverenliyinin və dövlət en'ənələ- rinin bərpası demək idi'.

Bu dövrdə Təbrizi. Ərdəbili, Şirvanı və Şəkini azadlıq üsyanlan bürümüşdü. Bu üsyanların ən böyüyü 1743-cü ildə Şirvanda Nadir şah hakimiyyətinə qarşı baş vermiş üsyan idi. Hacı Çələbi siyasi müstəqillik əldə etdikdən sonra, 50-ci illərdə xanlığın ərazisini xeyli genişləndirdi. A.Bakıxanov yazırdı: «Nuxalı Hacı Çələbi Qurban oğlu istiqlaliyyət bayrağı qaldıraraq Şəki, Ərəş və Qəbələ mahallarını özünə tabe etdi».

Nadirin ölümü Hacı Çələbi xana öz tədbirlərini həyata keçirmək üçün imkanlar yaratdı. O, əlverişli vəziyyətdən istifadə edərək Təbrizə qədər hərəkət etdi. Lakin İranda şahlıq iddiasında olan Əmir Aslan Hacı Çələbini geri oturtdu. Hətta Şəki üzərinə yürüş etdi. Çələbi xan Əmir .Aslan xana qarşı oğlu Həsən ağanın başçılığı ilə qoşun göndərdi.

Hacı Çələbi Qarabağ ərazisini də Şəki xanlığına qatmaq istəyirdi. O, Qarabağın bir hissəsini ələ keçirdisə də, böyük Qarabağ ərazisini tuta bilmədi. Cardan Qarabağa gəlmiş Pənahəli xan Hacı Çələbiyə müqavimət göstərdi. Hacı Çələbi xan Şirvan xanı ilə birlikdə Qarabağa hücum etdi. Bayat qalasını aydan artıq mühasirədə saxladı. Müttəfiqlər bu müharibədə qələbə qazana bilmədilər. Lakin Hacı Çələbi öz yolundan dönmədi və Qarabağ məlikləri ilə danışıq apardı. Qarabağ hakimi Pənahəli xan da təbrizli Əmir Aslan xanla ittifaq bağladı. Çələbi xan isə özünə yeni arxa-dayaq yaratmaq məqsədilə oğlu Ağakişi bəyi Qazıqumuğlu Məhəmməd Həsən xanın qızı ilə evləndirdi. Daha sonra Hacı Çələbi xan müstəqilliyə meyl edən Qəbələ və Ərəş sultanlıqlannı tabe vəziyyətə saldı. *

* M.Musəvi Şəki ölkəsinin məlikliyi vəzifəsi haqqında Nadir şahın fərmanından çıxış edərək ehtimal irəli sürür ki, «Hacı Çələbi Məlik Nəcəf-qulunu 1743-cü ildə deyil, I739-cu ildə öldürüb Şəki vilayətini müstəqil dövlət e'lan etmişdi».

Beləliklə, Şəki xanlığı bu dövrdə Azerbaycan xanlıqları içərisində güclü feodal dövləti oldu. Çeləbi xan Şəkidə məscid, mədrəsə, hamam, ictimai binalar tikdirdi, vergi sistemini nizama saldı.

Şəki xanlığının qüdrətinin artması, onun Gəncə və qərb torpaqları uğrunda mübarizəsi Azərbaycanın digər xanlıqdannı, xüsusən bağ xanlığını, həmçinin Kartli-Kaxetiya çarlığını ciddi narahat edirdi. Şah hakimiyyəti uğrunda mübarizə şəraitində İranın zəifləməsindən istifadə edən ICartli çarı Teymuraz Gəncəni, hətta Qarabağı tutmağa çalışırdı. Teymurazın oğlu II İrakli orada «qayda-qanun» yaratmaq və hətta özünü şah e’Ian etmək fikrində idi. O, məqsədinə çatmaq üçün Azərbaycan və Dağıstan hakimlərinə müraciət etmişdisə də rədd cavabı almışdı. II İraklinin bu niyyəti Azərbaycan xanlarını təşvişə salmaya bilməzdi. Onlar Kartli və Kaxetiya çarlığı ile yanaşı, Hacı Çələbi xanın simasında da özlərinin gələcək rəqiblərini görürdülər. Məhz bunu yaxşı dərk edən Teymuraz və II İrakli əmin idilər ki, onların qoşunları Şəki xanlığının ərazisinə daxil olduqda, Azərbaycan xanları da öz növbəsində cənubdan, qərbdən və şərqdən Şəki xanlığına zərbə endirə bilərlər.

Azərbaycanın şimalında qüvvətlənməkdə olan Hacı Çələbi Teymuraz və II İraklinin niyyətlərindən xəbər tutduqda tə’cili olaraq müharibəyə hazır vəziyyət aldı və yeni qoşun hissələri topladı. Bunu eşidən Teymuraz və II İrakli vaxt itirmədən böyük qoşun dəstəsilə Alazan çayını keçərək xanlığın ərazisinə daxil oldular« Onlar əvvəlcə Car vilayətini ələ keçirmək istədilər. 1751-ci ilin fevralında onlar Car toıpağında Çələbi xanla qarşılaşdılar. XVIII əsr gürcü xronikasında bu yürüş barədə deyilir. «1751-ci ildə çar Teymuraz və irakli Hacı Çələbi ilə vuruşmaq üçün Cara getdilər. Onların çoxlu qoşunu olmasına baxmayaraq, fevral ayında məğlub oldulan>.

Bu hadisələrdən sonra gürcü çarları dövləti möhkəmləndirmək və itirdikləri vəsaiti bərpa etmək üçün 1752-ci ildə Şəki xanlığına nisbətən zəif, lakin zəngin olan Gəncə xanlığını elə keçirməyi qərara aldılar. Hacı Çələbi İraklinin qəsbkarlıq niyyətini duyaraq, onun qarşısını almağı qərarlaşdırdı. Feodal münasibətləri və feodal siyasi əhatəsində olan Hacı Çələbi və İrakli bir-birinə eTibar etmirdilər. Hər birisi ayrılıqda qonşusunun qüvvətlənməsindən ehtiyat etdiyindən onu zəiflətməyə çalışırdı. Ona görə de atasının göstərişinə əsasən II İrakli hiylə ilə Pənah xanla danışığa girdi və ittifaq bağlamağı təklif etdi. Pənah xan bu təkliflə razılaşdı. Bu ittifaqa Gəncə xanı Şahverdi xan,

Qaradağ xanı Kazım xan, İrəvan xanı Hüseyneli xan, Naxçıvan xanı Heydərqulu xan da daxil oldular. Çeləbi xana qarşı güclü ittifaq yarandı.

1752-ci il martın 21-de müttəfiqlər müşavirə üçün Gəncə yaxınlığındakı düşərgəyə toplaşdılar. Gürcü çarları Azərbaycan torpağında xanlar tərəfindən çoxlu hədiyyələrlə qarşılandılar. Lakin bu görüş heç də xanlann gözlədiyi kimi nəticələnmədi. Gürcü çarları hədiyyələri aldıqdan sonra, danışıq aparmaq üçün xanları çadıra dəWet etdilər, çadır qəfildən gürcü qoşunu ilə mühasirəyə alındı. Teymuraz və II İrakli onlan əsir eMan edərək özləri ile birlikdə Gürcüstana apardılar.

Şəki xanlığına qarşı II trakli və Pənah xanın başçılığı altında ittifaq yaranmasından xəbər tutan Hacı Çələbi xan öz qoşunu ile Kürün sol sahilində mövqe tutdu. İraklinin xəyanəti barədə nf&’lumat alandan sonra isə Ağa Rəzi bəylə birlikdə Gəncəyə tərəf hərəkət etdi. O, İraklinin qoşunlannı Ağstafa çayına qeder tə’qib edərək güclü zərbə endirdi, çoxlu dəvə, sursat, çadır və ərzaq ələ keçirdi. Bu döyüşdə xanın özü başda olmaqla, süvari qoşunları düşməni darmadağın etdi. Kartli və Kaxetiya çarları 400 nəfər itki verdilər. Onların be’ziləri həlak olmuş, bə’zileri əsir alınmış, be’ziləri isə geri qaçarkən Alazan çayında boğulmuşdular. Həmin məğlubiyyətdən sonra Kartli və Kaxetiya çarlan Hacı Çələbidən intiqam almaq üçün ikinci dəfə qüvvə topladılar, lakin bu qüvvəni Hacı Çələbiye deyil, 1752-ci ildə cənub- qərbdən əfqan Azad xanın başçılığı ilə Urmiya hakimi Fətəli xan Əfşann qoşunlarının Gürcüstana hücumunu dəf etmək üçün sərf etdilər. Bu qələbədən sonra Hacı Çələbi Qazax və Borçalı mahalını da ələ keçirdi və oğlu Ağakişi bəyi buraya hakim qoydu

1752-ci ilin yazında Hacı Çeləbi xan qonşuluq münasibətlərini bərpa etmək üçün gürcü çan Teymurazın yanına nümayəndə göndərdi. Bu vaxt Ağakişi bəy qoşunla Tiflisin altmış verstliyinde dayanmışdı. Ağakişi bəyə qarşı döyüşə girmək üçün İraklinin kifayət qeder qüvvəsi yox idi. Lakin çar Kabardadan göndərilən 2000 nəfərlik qoşunun köməyilə Ağakişi bəyi Borçalı və Qazaxdan çıxmağa məcbur etdi. Əsirlikdə olan xanlar İraklinin niyyətini tamamilə başa düşdülər. Hacı Çələbi isə xanlan öz tərəfinə çəkmək üçün onlan əsirlikdən xilas etməyi qərara aldı. Rəvayətə görə, xanlar əsir alınan zaman Pənah xanın oğlu İbrahimxəlil də orada olmuşdu. Lakin o, imkan tapıb qaçmış və bu barədə Hacı Çələbiye xəbər aparmışdı. Hacı Çeləbi dərhal böyük bir ordu ile düşməni te’qib etmiş və arxadan gözlənil

məz zərbe endirmişdi. Bu hadisədən çaşbaş qalan çarlar əsirləri tərk edərək özlərinin sağ qalmış hissələri ilə güclə xilas ola bilmişdilər. Beləliklə, Hacı Çələbinin əleyhinə çarlarla ittifaqa girən Azərbaycan xanları onunköməyilə əsirlikdən azad oldular. Hacı Çələbi xanlan azad etdikdən sonra onlarla görüşməyi belə lazım bilmədi. O, Gəncəyə gələrək oradan Borçalı, Qazax, Şəmşeddil və Gürcüstanla ərazi qonşusu olan Azərbaycan xanlıqlarına nümayəndələr göndərərək Kartli və Kaxetiya çarlanna qarşı çıxmağı tələb etdi, əks halda onları müharibə ilə hədələdi. Onlar Hacı Çələbinin təklifini qəbul edib silahlı çıxışa hazırlaşdılar. Qazax, Şəmşəddil, Borçalı sultanları, habelə İrəvan və Gəncə xanlan Hacı Çələbinin qoşunu ilə birləşərək Kartli və Kaxetiya əleyhinə çıxdılar. II İrakli vəziyyətdən çıxmaq üçün vaxtile Tiflisdə yaşayan Gəncə xanının əmisi Qoca xandan Hacı Çələbi ile danışıq aparmağı xahiş etdi. Qoca xan Öz adından Hacı Çələbiyə aşağıdakı məzmunda məktub yazdı: «Əgər istəsən səninlə Kartli və Kaxetiya çarları arasında sülh yarada bilərəm». .

Hacı Çələbi sülh danışıqları aparmaq üçün nümayəndələr göndərilməsinə razılıq verdi. Gürcü nümayəndələri Hacı Çələbi xanın qoyduğu şərtlərin yerinə yetirilməsi barədə səlahiyyətlərinin olmadıqlarını bildirdikdə, onları zindana saldılar. Nümayəndələrin həbs olunması xəbəri Gürcüstana çatdıqda, II irakli vaxt itirmədən böyük qoşun toplayıb Gəncə tərəfə yollandı. Lakin bu dəfə rəqiblərin vuruşması baş tutmadı. Hacı Çələbi xan sayca çox qoşunu olan İrakli ile toqquşmaqdansa, qoşun toplamaq məqsədilə Şəkiyə yola düşdü. Haçı Çələbi Şəki xanlığından qoşun topladıqdan sonra, Gəncə xanı Şahverdi xan və Naxçıvan xanı Bəhmən xanı da öz tərəfmə çəkib birləşmiş qoşunla Gürcüstan üzərinə hücuma keçdi. Lakin bu döyüş uğursuz oldu. Daha sonra İrakli Car üzərinə hücum etdi. Hacı Çələbi Car camaatının köməyinə gələrək Qanıq çayının sağ sahilində çox şiddətli bir döyüşə girişdi. Gürcüstan valisi əvvəlkindən daha ağır məğlubiyyətə uğrayaraq geri qayıtdı.

1755-ci ildə Hacı Çələbi böyük silahlı qüwo ile Şirvana yürüş etdi ve Ağsuyu mühasirəyə aldı. Qubalı Hüseynəli xan Şamaxı xanının köməyinə gəldi. Şamaxı və Qubanın birləşmiş qüvvələrilə toqquşmada məğlub olan Hacı Çələbi çoxlu itki verərək geri çəkildi.

Hacı Çələbinin hakimiyyətinin sonlarına doğru Şəki xanlığı Azərbaycanın qüvvətli feodal dövlətlərindən biri idi. Xanlığın mərkəzi olan Şəki bütün ölkənin iqtisadiyyatında mühüm rol oynayırdı.

Hacı Çelabinin xanlığı 12 il sürdü və 1755-ci ilde vəfat etdi. O, görkəmli dövlət xadimi idi. Ölkədə siyasi birləşmə üçün iqtisadi əsas olmadığına görə, Hacı Azərbaycan torpaqlarını birləşdirə bilmədi. Hündürboylu, pəhləvan cüssəli adam olan Hacı Çələbi xan xalq rəvayətinə görə, ağıllı, tədbirli bir adam idi. onun dövründə şah zülmünə son qoyulduğu üçun əhalinin güzəranı xeyli yaxşılaşmışdı. Rus burjua-dvoryan tarixçisi P.Q.Butkov Hacı Çələbini xalq içərisindən çıxmış şəxs kimi qiymətləndirir və qeyd edir ki, o, hakimiyyəti aşağı təbəqədən olan kütlələrin köməyilə ələ keçirmişdi.

A.Bakıxanovun mə'lumatına görə, Hacı Çələbinin varisi Ağakişi bəy Ərəşli Məlik Əlinin təhriki ilə qayınatası Qazıqumuxlu Məhəmməd xan tərəfindən namə'lum səbəbdən Ərəşdə öldürüldü. Şəki tutuldu və qarət edildi. Lakin Məhəmməd xan Şəkidə cəmi 40 gün hakim ola bildi. Şəki bəyləri tərəfindən Şirvana qaçırılmış Hacı Çələbinin nəvəsi Hüseyn xan Quba hökmdan Fətəli xanın köməyi sayəsində Şəkiyə qayıtdı və əhali ile birlikdə Məhəmməd xanı Şəkidən qovaraq özünü Şəki xanı eMan etdi.

Bu dövrdə İran hakimiyyəti uğrunda mübarizədə qalib gəlmiş Fətəli xan Əfşar 1762-ci ildə Azərbaycana yürüş etdi. Bundan istifadə edən Ərəş sultanı Məlik Əli Fətəli xanın köməyi ilə Hüseyn Qutqa- şınlını hakimiyyətdən salıb Şəkidə hakimiyyəti ələ keçirmək istədi. Lakin cəhdi ba.ş tutmadı. Hüseyn xan Fətəli xanı tanıdığını bildirdi və Məlik Əlini öldürərək Ərəşi xanlığın tərkibinə daxil etdi.

Azərbaycan torpaqlarını birləşdimıək uğrunda mübarizə aparan qubalı Fətəli xan şamaxılı Məhəmməd Seyid xanla Hüseyn xanın mübahisələrindən istifadə edərək. 1766-cı ildə Hüseyn xana Şirvan xanlığına qarşı sazişə girməyi təklif etdi. 1767-ci ildə müttəfiqlər Şin'an torpağına daxil oldular. Mehemmed Seyid xan, qardaşları və Ağası xan döyüşdə məğlubiyyətə uğradılar Şirvan xanlığının qərb hissəsi Şəki xanlığının tərkibinə qatıldı. Hüseyn xan Fətəli xanın məsləhətilə Ağası xanın gözlərini çıxartdıraraq Şəki mahalına gətirdi və Kür çayı sahilində Kotevan adlı ərazidə yerləşdirdi.

Bütün Azerbaycanı Quba xanlığı ətrafında birləşdirməyi qarşısına məqsəd qoymuş Fətəli xan Şirvanın bir hissəsinin Şəki xanlığına qatılmasına razı deyildi, çünki o, gələcəkdə Şəki xanlığını da öz hakimiyyəti altına almaq istəyirdi. Vəziyyəti belə görən Hüseyn xan Ağası xanla barışdı. Ağası xan Şirvan bəylərini öz tərəfinə çekdi, Hüseyn xan isə Fətəli xanın Dağıstanda nüfuzunun artmasından

qorxan avar xanı ilə ittifaqa girdi. Müttəfiqlərin qoşunu Şirvana, Fətəli xan üzərinə hücum etdilər. Bu vaxt Şirvanda Fətəli xana qarşı Manaf bəyin başçılığı altında Şəkiyə meyl edən feodallar tərəfindən sui-qəsd hazırlanmışdı. Sui-qəsdçilər Şəki xanlığının köməyinə arxalanırdılar. 1768-ci ilin avqustunda Fətəli xanın qoşunu Yeni Şamaxıya yaxınlaşdı. O, həm Köhnə, həm də Yeni Şamaxı şəhərlərini tutdu, Manaf bəyi üç nəfər adlı-sanlı həmfikirləri ilə həbs edərək Dərbəndə göndərdi. 1768-ci ilin sentyabrında Fətəli xanla Hüseyn xan arasında baş vermiş döyüş birincinin qələbəsi ilə qurtardı. Fətəli xan Hüseyn xanın Ağsuya tə'yin etdiyi hakimi və vergi yığanlan qovdu, Şəki xanlığının ixtiyarında olan torpaqlan Quba xanlığına birləşdirdi.

Şəki xanı Hüseyn xan öz iddialarından da əl çekmirdi. Lakin o, ikinci döyüşdə məğlub oldu ve l769-cu ilin iyulunda Hüseyn xanla Fətəli xan arasında yeni müqavilə bağlandı. Bu müqavilə Fətəli xana üstünlük verirdi. Hüseyn xan Fətəli xana lazım olduqda qoşun verməyi və Şamaxının işlərinə qanşmamağı öhdəsinə götürdü.

1774-cü ildə avar hakimi Nutsal xan Ağası xanın vasitəçiliyi ilə Hüseyn xanla yeni ittifaq bağlayaraq yenidən Şamaxıya hücuma keçdi. Lakin Hüseyn xan Ağası xandan üz döndərərək geri qayıtdı. Fətəli xan 20 minlik qoşunla Ağası xanı məğlub etdi, Nutsal xan döyüşdə ölduıüldü. Ağası xan isə yenidən Kotevana qayıtdı.

20 ildən artıq Şəkidə hökmran olmuş Hüseyn xan hakimiyyət uğ-mnda, xüsusilə de öz əmirləri ilə gərgin çəkişmələr aparırdı. l779-cu ildə xanın əmisi Hacı Əbdülqədir, Hacı Çələbinin əmisi oğlu Hacı Rəsul bəy Hacı Şeyx Əli oğlunun, Ərəş məlikzadələri ve Şəki ə'yan- larının köməyi ilə qəflətən Nuxa qalasına soxuldu. Hüseyn xan öldürüldü. Əbdülqədir hökumət bayrağını qaldırdı.

Hüseyn xandan fərqli olaraq Əbdülqədir xan Fətəli xanla dostluq siyasəti yürüdürdü. Bu isə Fətəli xanla mübarizə aparan Qarabağ xanı İbrahimxəlilin niyyətlərinə uyğun gəlmirdi. İbrahimxəlil xan Hüseyn \anin Qarabağa qaçmış oğlu Məhəmmədhəsən ağanı həbsdən azad edib Cara göndərdi. O öz ətrafına qüvvə toplayaraq ləzgilərdən ibarət qoşunla Şəkiyə basqın edib şəhəri tutdu. Əbdülqədir xan Ağası xanın .anına qaçdı. Lakin o, Əbdülqədir xanı Məhəmmədhəsən ağaya \erdi. Əbdülqədir xan və oğlanlan öldürüldülər. Məhəmmədhəsən ağa özünü Şəki xanı e'lan etdi,

Rus generalı A.P.Yermolov Məhəmmədhəsən xan haqqında de- :şdir ki, o, həm öz ağlı, həm də xanlığının quruluşuna görə başqaia-

nndan fərqlənirdi. O, eyni zamanda şöhrətpərəst, hakimiyyət düşgünü ve qəddar adam idi ve öz qohumlarının çoxunu, eyni zamanda şübhələndiyi adamları məhv etmişdi.

Məhəmmədhəsən xan Şəki qalasını tikdirmiş, xanlıq üçün «Destur ül-əməl» adlanan xüsusi qanunname yazmışdı. Bu qanunla vergi sistemi, qiymətlər, feodal asılılıq münasibətləri, silk mosələləri, istismar edən və istismar olunan siniflərin hüquq və vəzifələri nizama salınmışdı.

Məhəmmədhəsən xan Fətəli xanın Azerbaycanı Quba xanlığı ətrafında birləşdirməsi siyasətinin əleyhinə idi. O, Fətəli xana qarşı mübarizədə hakimiyyətdən kənar edilmiş Şirvan xanları ilə yaxınlaşmağa çalışırdı. Lakin 1785-ci ildə baş vermiş döyüşdə Məhəmmədhəsən xan məğlub edildi. Fətəli xan Ağası xana qarşı qoşun göndərdi. Ağası xan məcbur olub Fətəli xanın hüzuruna gəldi, oğlanlan ilə bərabər həbs edildi ve Qubaya göndərildi. Bundan sonra Fətəli xan Şəki üzərinə yürüş edib Məhəmmədhəsən xanı məğlub etdi. Məhəmmədhəsən xan öz bacısını Fətəli xana verib banşdı, Fətəli xan da ittifaqı möhkəmləndirmək məqsədilə öz bacısı Huri Peykər xanımı ona verdi.

Fətəli xandan yarımasılı vəziyyətə düşmüş Məhəmmədhəsən xan öz müstəqilliyini bərpa etməyə çalışırdı. Güclü Qarabağ və həmçinin avar xanlığının Fətəli xanın birləşdirmə siyasətinə qarşı durmaları bu niyyəti müəyyən qədər asanlaşdırdı. Məhəmmədhəsən xan Ərəş sultanı ilə ittifaqa girərək qəflətən Ağsuya hücum etdi. Çox uzun sürən və qanlı döyüş oldu. Nəticə e’tibarilə Məhəmmədhəsən xanın qoşunlan böyük itki verərək geri çəkildilər. Məhəmmədhəsən xan öz əməlindən peşman oldu, əyalı olan Fətəli xanın bacısını əfv və aman diləməyə göndərdi. Özü də Fətəli xanın hüzuruna gəldi. Fətəli xan cah-cəlalla Nuxa şəhərinə getdi.

Fətəli xanın ölümündən sonra onun yaratdığı siyasi birleşmə dağılmağa başladı. Fətəli xanın oğlu Əhməd xan ölkəni idarə etmək işlərində naşı idi. Bundan istifadə edən Məhəmmədhəsən xan Şəkinin müstəqilliyini qaytarmaqla bərabər, ətraf yerləri də öz nüfuz dairəsinə cəlb edə bildi. O, 1790-cı ildə Şirvanla ittifaqa girdi. Əhməd xanı Şirvandan sıxışdırdı. Şirvan xanlarının hakimiyyətini bərpa etdi ve böyük qənimətlə Şəkiyə qayıtdı.

1795-ci ildə İran hökmdan Ağa Məhəmməd şah Qacar Azerbaycana basqın etdi. Məhəmmədhəsən xan düşmənçilik etdiyi bə'zi xan

lardan intiqam almaq məqsədilə Qacarın tərəfinə keçdi. O, Ağa Məhəmməd şahın Şirvanı ələ keçirmək üçün göndərdiyi dəstəsinə qoşuldu. Vətən torpağının taleyilə oynaması ona baha başa gəldi və hakimiyyətdən məhrum oldu. Xanın Qacann yürüşünə qoşulmasından istifadə edən Səlim xan 179S-ci ilin dekabnnda hakimiyyəti ələ keçirdi.

Bu hadisədən xeyli ewəl, Məhəmmədhəsən xan doğma qardaşı Fətəlidən ehtiyat edərək onu kor etmişdi. O biri qardaşı Selim xan «Məhəmmədhəsən xanın yamanlıq qəsdindən qorxub Şəkidən qaçaraq Car vilayətinə» getmişdi. 1795-ci ildə Səlim xan Cardan və Avanstandan aldığı qoşunla Şəki üzərinə yürüş etdi. Şəki camaatı Selim xana köməyə gəldi. Məhəmmədhəsən xan məğlub edildi və Xaçmaz mahalına qaçdı. Məhəmmədhəsən xandan şübhələnmiş Ağa Məhəmməd şah orada olan sərkərdəsi Dəveçi Mustafa xana Şəki xanını tutub gözlərini çıxartmağı tapşırdı. O, buna əməl etdi və Məhəmmədhəsəni Təbrizə göndərdi.

Şəkidə hakimiyyəti ələ almış Səlim xan öz qardaşı Məhəmmədhəsən xanın uşaqlarını məhv etdi. O, «şaha qulluq eləmədi, qızılbaş qoşunundan ehtiyat etdi, şeheri köçürüb «Gələsən-görəsən»ə apardı, oranı sığınacaq elədi. Lakin Selim xanın belə ehtiyat etməsi əbəs oldu, belə ki, Qarabağda heç bir müvəffəqiyyət qazana bilməyən Qacar Şuşanın mühasirəsindən əl çəkməyə məcbur oldu. O, Tiflisə hərəkət etdi, oranı qarət edərək geriyə, İrana qayıtdı».

1797-ci üdə Ağa Məhəmməd şah Qacar ikinci dəfə Azərbaycana basqın etdi. O, kor etdirdiyi şəkili Məhəmmədhəsən xanı da özü ilə gətirmişdi. Bu zaman Şuşadan qayıdan Şirvan xam Mustafa xan Muğandan Məhəmmədhəsən xanı götürərək, «Şəki üzərinə getdi. Səlim xan Qarabağa qaçdı. Məhəmmədhəsən xan yenə hakimiyyət başına keçdi».

Bu dövrdə Mustafa xan Azerbaycanın on güclü xanlarından biri idi. O, Şəki torpaqlannı Şirvan xanlığı tərkibinə qatmaq niyyətini çoxdan heyata keçirmək istəyirdi. Mustafa xan Şəki xanlığı üzərinə yeridi və Məhəmmədhəsən xanı tutdurub Şirvana göndərdi.

Mustafa xan öz bəylərindən birini Şəkiyə naib tə’yin etmək istəyirdi. Lakin Şəki camaatı buna imkan vermədi. Səlim xan fürsətdən istifadə edərək Şəki bəylərinin köməyi ile 1804-cü ildə hakimiyyəti ələ aldı.

Həm İranın, həm də qonşusu Şirvan xanlığının öhdəsindən gələ bilmədiyini görən Səlim xan Sisianova məktub yazaraq Rusiyaya

sadiq qalacağını bildirdi. Sisianov cavab məktubunda onu qələbə münasibəti ilə təbrik etmiş və kömək edəcəyini bildirmişdi. Bununla yanaşı, o, Selim xanı Rusiyanın ali hakimiyyətini qəbul etməyə çağıraraq öz şərtlərini bildirir. Nəhayət, Selim xan Rusiyanın ali hakimiyyətini qəbul etdi. Gəncə yaxınlığında. Kürəkçay sahilində düşərgə salmış Sisianovun iqamətgahına gəldi. 1805-ci il mayın 21-də Şəki xanlığının zorla Rusiyaya qatılması haqqında müqaviləni imzaladı. Bu müqaviləyə görə. Selim xan hər il dövlət xəzinəsinə 7 min çervon^ xərac verməli, öz xanlığında 500 nəfərlik rus qoşununu yerləşdirməli, onlan və atlarını ərzaqla to'min etmək üçün hər il 529 xərvər un, 80,5 xərvər buğda, qışda odun verməli idi. Bundan başqa, xan 4 yaşlı oğlunun əvəzinə, 5 bəyin uşağını girov verməli, iki ildən sonra isə öz oğlunuTiflisde daimi yaşamaq üçün girov göndərməli idi.

## § 2. QARABAĞ XANLIĞI

XVIII yüzillikdə Qarabağın ərazisində mürəkkəb tarixi hadisələr baş verdi. Səfəvi dövlətinin inzibati bölgülərindən birini təşkil edən Qarabağ bəylərbəyliyi 1724-cü ildən e'tibaren Osmanlı Türkiyəsi te- rətından zəbt edildi. Bəylərbəyi iyin mərkəzi Gəncə şəhəri türk qoşunlannin əlinə keçdi.

Ön Qafqazın erazisini türklərdən büsbütün təmizlədikdən sonra Nadirqulu xan ona kömək edənlərə və döyüşlərdə fərqlənənlərə müxtəlif mükafat və hədiyyələr verdi. Türk qoşunlan ilə müharibədə fərqlənənlər arasında Qarabağın Cavanşir elinin nümayəndələri Pənahəli bəy və onun qardaşı FəzləlP bəy də var idi. Nadirqulu xan belə cəsarətli və xalq arasında böyük nüfuza malik olan qardaşların Qarabağda qalmalanndan ehtiyatlanaraq onların hər ikisini sarayda xidmət üçün İrana də'vət etdi. Şah sarayında Fəzloli bəy eşikağası, Pənahəli bəy isə ordu əmiri tə'yin olundu.

1736-cı ildə Muğanda keçirilən tacqoyma mərasimi zamanı Qarabağın ziyadoğlular, iyirmidördler, otuzikilər. Cavanşir və başqa elləri *Nadirqulu xanın namizədliyinin əleyhinə çıxdılar və* fran taxtında *ya\mz* Sefevi süJaiəsmiD *nümayəndələrinin oturmasını tə'kid etdilər.*

2 5 və ya-10 manatlıq pul.
^ Bə'zi tədqiqatçılar onun adını səhvən Behbudəli yazırlar.

Mehz bu səbəbdən Nadir, şah olduqdan sonra qarabağlıları cəzalandırmağı qərara aldı. O, Qazax, Borçalı, və Şemşeddil ellərini Qarabağ bəylərbəyi iyinin tabeliyindən çıxarıb Kartli çan Teymurazın ixtiyarına verdi. Cavanşir, otuz iki, kebirli ellərini Xorasan vilayətinə və Əfqanıstanın sərhədlərinə sürgün etdi. Eyni zamanda Qarabağ bəylerbeyliyine tabe olan beş erməni məlikliklərinə azadlıq bəxş etdi və onların bilavasitə şaha tabe olmalan barədə əmr verdi.

Qarabağlılann böyük bir hissəsinin Xorasan və Əfqanıstana köçürülmələri şahın sarayında xidmət edən Pənahəli bəyi və Fəzləli bəyi xeyli narahat etdi. Fəzləli bəyin qarabağlıların zorla sürgün edilmələri əleyhinə açıqdan-açığa çıxması onun şah tərəfindən e'dam olunması ilə nəticələndi. Nadir şah eşikağası vəzifəsinə Pənahəli bəyi te’yin etmək fikrində idi. Şahın xain niyyətli olduğunu bilən Pənahəli bəy 1738-ci ildə bir dəstə öz yaxın adamlan ilə birlikdə sarayı tərk edib doğma yurdu Qarabağa çəkildi.

Nadir şah tərəfindən tə*qib olunan Pənahəli bəy ilk 2tamanlar Zəngəzur feodalı Qara Murtuza bəyin yaylasında məskən saldı, ətrafına topladığı dəstələrlə İran inzibati mərkəzlərinə-Gəncəyə, Naxçıvana, Şəkiyə basqınlar etdi.

Pənahəli bəy qarət nəticəsində əldə etdiyi mal-qaranı, atları və s. məzlum kütlə arasında paylayır və bununla böyük nüfuz qazanırdı. Nadir şahın ölümü bir çox yerli feodallar kimi, Pənahəli bəy üçün də geniş fəaliyyət imkanları yaratdı. O, keçmiş Qarabağ bəylərbəyliyinin qərb hissəsində Qarabağ xanlığının əsasını qoydu.

Qarabağ xanlığı XVIII yüzilliyin ortalarında Azerbaycan torpağında yaranmış on səkkiz xanlıqlardan biri oldu. O geniş bir ərazini - cənubdan Araz çayı, şimaldan Gürcüstan sərhədində Sınıq körpü, şərqdən Kür çayı, qərbdən isə indiki Ermənistanla həmsərhəd olan toıpaqlan əhatə edirdi. Xanlıq yaranana qədər de Qarabağ bəylərbəy- liyi həqiqətən geniş əraziyə malik idi."^

^ Bununla əlaqədar l.P.Petruşevski yazır: «irsiyyətlə keçən bəylərbəylik-*lərdən ən səciyyəvisi Ziyadoğlu sülaləsinin hakimiyyəti altında olan Qarabağ* bəylərbəyliyidir. Onlar qızılbaş Qacar tayfasından, Ziyəddin oymağından idilər. Həmin bəylərbəyiik XVI əsrin birinci yansından başlayaraq 300 ilə yaxın həmin sülalənin hakimiyyəti altında olmuşdun>. İlk Qarabağ bəylərbəyi Kəmaləddin Şahverdi oğlu Qacar olmuşdur (İSSİ).

Qarabağ xanlığının asasını birləşmiş Azerbaycan etnosları təşkil edirdi. Qarabağın aran hissəsində yaşayan otuzikiler. Cavanşir, kəbirli tayfaları Qarabağ vilayətinin köklü elatları idilər.^

Qarabağ xanlığının yaranmasının öz xüsusiyyəti vardır. Bu əsas e’tibarile üç istiqamətdə gedirdi: Qarabağda ayn>ayrı feodal hakimlərinin siyasi müstəqilliyini ləğv etməklə xanlıq hakimiyyətini bərqərar etmək, xanlığın hərbi-siyasi mərkəzini yaradıb möhkəmləndirmək, xanın hakimiyyətini qonşu feodal dairələrə yaymaq. Gələcək xanlığın banisi Penahəli xan başda olmaqla, Cavanşir feodal ə’ysnlan bu məsələlərin həllində aparıcı qüvvə idilər.

Pənahəli Sancalı oymağından, Cavanşir tayfasının feodal e’yan-lanna mənsub idi. Otuzikilər tayfasının başçısı, Cavanşir və Qazağın 20 min bey’ətinin əmiri olan Pənahəli xan son dərəcə varlı vo böyük tə’sir gücünə malik idi. Onun mövqeyi, demək olar ki, gündən-günə möhkəmlənirdi. A.Bakıxanovun fikrincə, Pənahəli xanın təhsili olmasa da, o, «cəsarətli, sadə, xoşrəftar və tədbirli idi».

Pənahəli xanın Qarabağ ərazisində xanlıq yaratmaq fikri yerli feodalların, birinci növbədə, e’yanlann və erməni məliklərin müqavimətinə rast gəlirdi. Qarabağ məlikləri hələ Nadir şahın sağlığında, onun Türkiyəyə qarşı apardığı müharibədə vuruşur, onun qoşununu ərzaqla te’min edir, dövlətin bütün imtiyazlanndan istifadə edirdilər. Onların öz xüsusi silahlı qüvvələri də var idi. Çiləbörd məliyi Allahqulu Türkiyəyə qarşı müharibədə şücaət və mərdlik göstərdiyinə görə, şah tərəfindən sultan titulu ilə təltif edilmişdi. Bundan əlavə. Nadir şah məlikləri Gəncə bəylərbəyi II Uğurlu xanın tabeliyindən azad etmişdi, O tələb edirdi ki, məliklər özlərini sərbəst bilsinlər, öz xahiş və tələblərini şahın adına göndərsinlər və ona xərac' versinlər. Ümumən Nadir şahın dövründə məliklik öz çiçəklənmə dövrünü keçirirdi. Yeni şəraitdə vəziyyət dəyişildi.

Penahəli xan özünü xan e’lan etdi (1748-1763). Qarabağ xanlığını İran və ona düşmən olan yerli feodalların basqınlarından müdafiə

^ İsgəndər Münşinin fikrinə görə, otuzikiler hələ XVI əsrdən «ölkə» adlanırdılar. Cavanşir tayfasının başçısı eyni zamanda otuzikilər tayfasının irsi hakimi idi. Cavanşirlər tayfası qızılbaş və əfşar şaxəsinə aid deyildi. Bə’zi mə’lumatlara görə, onlar bəhmanlı tayfasından törəmişlər. Nadir şahın hakimiyyəti illərində Cavanşir, otuziki, kəbirli tayfalan güclə Xorasan vilayətinin Sərəxs adlı yerinə sürgün edilmiş, şahın ölümündən sonra Qarabağa - öz ata-baba yurdlanna qayıtmışdılar.

etmək üçün Kebirli mahalında Bayat qalasını tikdirdi (1748). Qısa vaxtda qalaya hasar çəkildi, xəndəklər qazıldı, bazar, hamam və məscid tikildi. Xan bütün ailəsini, Qarabağ e'yanlannı qalaya köçürdü. Ətraf kəndlərin əhalişi, habelə Təbriz və Ərdebildən xeyli sənətkar da burada yerləşdi. Qarabağ xanlığının artmaqda olan qüdrətini ve Bayat qalasının tikilməsini görən Şirvan və Şəki hakimləri, habelə Qarabağın bir sıra məlikləri Pənahəli xana qarşı ittifaq yaratdılar. Mirzə Adıgözəl beyin dediyinə görə, məliklər Şəki xam Hacı Çeləbiyə məktub göndərib ona bildirdilər ki, «Pənah xan burada taxta çıxmış, qala və səngər tikdirmişdir. Əgər dəfində^ bir qədər tə'xir edilərsə, sonra onun qarşısında durmaq mümkün olmayacaqdın).

Pənahəli xanın artan şöhrəti Azərbaycan xanlannı da narahat edirdi. Onların içərisində Hacı Çələbi Pənahəli xana qarşı daha inadlı mübarizə aparmağı qərara aldı. O, xeyli qüvvə toplayıb müttəfiqləri ilə birlikdə Bayat qalasını mühasirəyə aldı və bir neçə dəfə həmlə etdi. Lakin yürüş haqqında əvvəlcədən xəbər tutan Pənahəli xan öz qohumlannı və Qarabağ elatlannı silahlandıraraq vaxtında müdafiəyə hazırlaşmışdı, «böyükdən kiçiyə qədər hamı onun köməyinə gəlmişdi». Mühasirənin bir aydan artıq davam etməsinə baxmayaraq, Pənah- əli xanın düşmənləri Bayatı ala bilmədilər. Əhməd bəy Cavanşir yazırdı ki, Hacı Çələbi böyük itki verərək geri qayıdarkən mə'yus- luqla demişdi: «Pənahəli özünü xan e'lan etmişdi, mən isə öz məğlubiyyətimlə onun xanlığını təsdiq etdim». Hacı Çələbi məğlub olsa da, «öz niyyətindən əl çəkmədi, Qarabağ məlikləri ilə danışıq apardı. Öz növbəsində Qarabağ hakimi Pənahəli xan təbrizli Əmiraslan xan ile ittifaq bağladı». Pənahəli xan müxtəlif yollarla məlikləri özünə tabe etməyə çalışırdı. O, Gülüstan və Çiləböid məlikləri arasında nifaq saldı. Göyçədən Qarabağa köçmüş və hakimiyyətə can atan Verəndə məliyi Şahnezer hakimiyyəti ve ərazini parçalamaq niyyətində olan Çiləbörd, Gülüstan ve Dizaq məlikləri ilə düşmənçiliyə başladı. Məlik Şahnezerin dayısı Hüsünü öldürməsi məliklərin ona qarşı mübarizədə birləşmələrinə səbəb oldu. Məlik Şahnezer qızı Hürzəti Pənahəli xanın oğlu tbrahimxəlilə verərək onun hakimiyyətini qəbul etdi, «Xəmse»dən^ ayrılıb tamamilə xanın himayəsinə keçdi ve onun vassalına çevrildi. Mirzə Camal yazırdı ki, «Xaçın mahalının əhalisi

^ Yə’ni hücum bir qədər kecikdirilərsə.

^ Qarabağdakı 5 məlikliyə «Xəmsə» deyilirdi.

iki min tüfəngli və ailələri ilə birlikdə Ballıqaya yaxınlığında olan möhkəm bir yerə sığınıb ədavət və düşmənçiliyə başladılar. Pənahəli xan onların üzərinə hücum etdi, üç gün arası kəsilmədən, qızğın müharibədən sonra onların səngərini tutdu». Beləliklə, Xaçın da xanlıqdan asılılığı qəbul etdi. Onun məliyi Mirzə xan Pənahəli xanın adına pul kəsdirdi.

«Xəmsə»nin ərazisindən təcrid olunmuş Araz və Qaradağ arasında yerləşən Dizaq da xanın hakimiyyətini qəbul etdi. Bu isə uzun müddət davam edən mübarizəyə səbəb oldu. Loridən Qarabağa qaçıb gəlmiş Məlik-Yeqanovlar nəslinin nümayəndələri e'dam edildilər, Gəncə xanlığından Tərtər çayına qədər Gülüstan məlikliyinə, Tərtər və Xaçın çayları arasındakı ərazi isə Çiləbörd məlikliyinə qatıldı. Çiləbörd və Gülüstanın vassal asılılığa keçməsi ölüm^, qarət, əkin və bağların məhv edilməsi .ile müşayiət edildi. Onlann raelikləri-Hətem və Usub (esilləri Şirvandan gəlmədir) xeyli kəndlərə malik idilər. Məlik Hətəm və Usub əvvəlcə Pənahəli xana tabe olmamaq üçün Cırmıx qalasında özlərinə sığınacaq tapdılar, sonra isə torpaqlarını, bağlarını, əkinlərini tərk edərək Şamxora köçdülər. Gəncə xam onlara sığınacaq verdi. Məliklər öz ailələri, nökərləri, yaxın adamları və rəiyyətləri ilə birlikdə köçüb bu yerlərdə məskunlaşdılar. 7 ildən sonra onlar Qarabağa qayıdaraq, xanın ali hakimiyyətini tanıdılar. Göründüyü kimi, name'lum səbəblərə görə, onlar Azərbaycanın müxtəlif şəhər və kəndlərində özlərinə sığınacaq tapmış, nisbətən əmin- amanlıq yaranan kimi Qarabağa gəlmişlər. Məsələn, Dizaq məliyi Qarabağa Loridən gəlmişdi. Verəndə məliyi Şahnezər Göyçədən, Çiləbörd məliyi Allahqulu Macavizdən, Gülüstan məliyi Usub Şirvandan qaçaraq Qarabağda özünə sıqınacaq tapmışdı. Nadir şaha itaətə görə məliklik rütbəsi əldə etmişdilər. Xaçın isə (Mirzə xan) o dövrdə Həsən Celalyanın (1702-1728) övladına verilmişdi. Buradan aydın olur ki. Allahqulu, Yeganə, Şahnəzer, Usub.ve qaynaqlarda adı çəkilən diger Qarabağ məliklərinin əsil-nəsəbi erməni dinini qəbul etmiş qriqoıyan (xristian) albanlar olmuşlar.

Beləliklə, XVIII əsrin 50-ci illərində, iri feodal hakimlərin - məliklərin müqaviməti sındırıldı və onlar xanlığa tabe edildilər. Lakin

^ Çilebörd məliyi Allahqulu sultan danışıq aparmaq üçün Pənahəli xanla Ağoğlan qalasında görüşdülər. Görüşdə iştirak edən Naxçıvan xanı Heydərqulu xanın təhriki ilə Allahqulu sultan öldürüldü.

məliklerin Qarabağ kilsə təşkilatının (Qandzasar katoİikosu) rus sarayına yazdıqlan məktublarda erməni xronistlərinin yazılarında məliklərin ayrılma cəhdlərinə, onlann mərkəzi hakimiyyətə tabe olmamalarına dini don geydirilmişdi. Əslində isə Qarabağ məlikləri ilə mərkəzi xanlıq hakimiyyəti arasında gedən mübarizə siyasi mahiyyət daşıyırdı, hər hansı hakim feodal sinfİ arasında apanlan din davası deyil, hakimiyyət, torpaq və ərazi uğrunda apanlan mübarizə idi. Bu da öz növbəsində mükəlləfiyyətli kəndli üzərində öz ağır tə’sirini göstərirdi.

Həmin hadisədən sonra Pənahəli xan Bayat qalasına o qədər də e'tibar etmədi, Ağdam yaxınlığında - Şahbulaqda daha möhkəm qala tikdirdi. Pənahəli xan bir sıra xanların oğullannı Şahbulaq qalasında girov saxlayır və bununla onlan özündən asılı vəziyyətdə saxlamaq istəyirdi. Az sonra o, xanlığın mərkəzini əlçatmaz bir yerə köçürdü və orada qala saldırdı. Bu, Şuşa qalası idi. Qarabağ tarixçilərinin verdikləri mə’lumata görə, 1750-ci ildə Şuşakəndden bir qədər aralı, hündür, sıldınm dağ üstündə qalanın inşasına başlandı və 1756-1757-ci illərdə tikilib başa çatduildı. Əvvəllər qala onun banisinin adı ilə Penahabad, sonralar isə Şuşa qalası adlandırıldı.^

Pənahəli xanın dövründə Şuşa («Şuşa qalası») Azərbaycanın inzibati, ticarət və sənətkarlıq mərkəzlərindən biri oldu. Şuşadan Aran vasitəsilə Ön Qafqazı İran və digər ölkələrlə birləşdirən karvan yolu keçirdi.

Pənahəli xan İranda Nadir şahın xələfləri arasında ara müharibələrinin genişlənməsindən istifadə edərək Gənçe, İrəvan, Naxçıvan xanlıqlarını, xüsusən Ərdəbil xanlığını ələ keçirməyə çalışdı. Qısa müddətdə o həmin xanlıqları zorla və nikah diplomatiyası (qohumluq əlaqələri yaratmaq) yolu ile öz tə’siri altına salmağa müvəffəq oldu. Sarıcalı Dərgahqulu bəyi Ərdəbilə, Gəncənin Ziyadoğlu nəslinin xələflərini isə Gənçəyə hakim tə’yin etdi. Pənahəli xan öz ərazisini

^ XV əsr erməni xatirə yazılarının məMumatma görə isə, qala hələ üç əsr əvvəl, 1428-ci ildə türksoylu tayfaların biri tərəfindən inşa edilmişdi. Pənahəli xan isə onu bərpa etdirmiş, möhkəmləndirmiş, abadlaşdıımışdı. Bu fikri A.Bakıxanov da təsdiq edir: «Şuşa Azərbaycanın Təbriz kimi qədim şəhərlərindən biridir, onun ilk adı heç də Pənahabad, Şuşa yox. Novruz olmuşdur». Panahəli xanın dövründə qala iri bir şəhərə çevrilmişdi.

1751-ci ildə əfqan Azadxan İrəvanı mühasirə edərkən Şuşa qalası nəinki • ar idi, həm de ora^ Pənahabad adlı pul da kəsilirdi.

cənub-şərqə doğm genişləndirdi. Cənub-qərbdə isə Bərgüşada qədər uzanan torpaqları - Tatev, Sisyan, Qafan, Meğri, Güney mahallarını Qarabağ və Naxçıvan hakimlərindən aldı. İrəvan hakiminə tabe olan Göyçə mahalını, Tərtər ərazisini ələ keçirdi. Xudafərin körpüsündən Kürəkçaya qədər uzanan və Gəncə xanlığına tabe olan torpaqları öz nüfuz dairəsinə daxil etdi. Naxçıvanın Kəngərli tayfasını. Gürcüstandakı Dəmirçi - Həsənli elini, Qaraqoyunlu, cinni tayfalarını itaətə gətirdi. Zəngəzurun Hacısamlı, Kolanı. Çəlbeir mahalları da Qarabağ xanlığına tabe oldu. XVIIl əsrin ikinci yarısında xanlıq artıq xeyli əra/ini əhatə edirdi. Bura Qarabağın dağlıq və aran hissəsi daxil idi.

Pənahəli xan Məhəmmədhəsən xan Qacarın, Fətəli xan Əfşarın işğalçılıq siyasətinə qarşı uğurlu mübarizə apardı, xanlığın mövcud olduğu müddətdə «heç kimə qulluq etmədi, heç kimin boynuna itaət boyunduiıığu qoymağa çalışmadı», yalnız öz istiqlaliyyətini qoruyub .saxlamağa çalışdı.

XVIIl əsrin 50-ci illərində Pənahəli xan şəhərin möhkəmləndirilməsi ilə məşğul olarkən Qarabağ dəfələrlə qonşu feodal hakimlərinin basqınlarına mə’ruz qalırdı. !751-ci ildə Məhəmmədhəsən xan Qacarın qoşunu Qarabağa basqın etdi. Şuşadan bir qədər aralı düşərgə saldı və bir aya qədər orada qaldı. Qarabağ tarixçisi Mirzə Camalın mo’lumatına görə. Məhəmmədhəsən xan «Pənah xanı tabe etmək və beləliklə Şuşa qalasını ələ keçirmək üçün çox düşündü, tədbirlər tökdü... lakin bu qədər çoxlu qoşunla qalaya heç yaxınlaşa bilmədi. Əksinə, Qarabağın cəsur əhalisi Məhəmmədhəsən xan ordusunun at-qatırını və başqa mal-qarasını istər açıq, istəi'sə də gizli qarət edərək onun qoşununa çoxlu ziyan vurdu». Məhəmmədhəsən xanın qüvvələrinin dəf edilməsində Şəki hakimi Səfərəli xan da az rol oynamadı. Məhəmmədhəsən xanın Azərbaycanda olmasından istifadə edən Kərim xan Zend, həmin ildə onun idarə etdiyi Astarabad, Mazandaran və Gilan üzərinə hücum etdi. Bundan xəbər tutan Məhəmmədhəsən xan Şuşanın mühasirəsindən əl çəkib tez geri qayıtmağa məcbur oldu.

Bir qədər sonra Urmiya hakimi Fətəli xan Əfşar bir sıra qonşu xanlıqları (Təbriz, Xoy, Mərənd. Qaradağ, Ərdəbil, Marağa və s.) öz otrafında birləşdirdikdən sonra, Pənahəli xanın yanına elçilər göndərərək tabe olmasını tələb etdi (1760), lakin rədd cavabı aldı. Onda Fətəli xan Əfşar böyük ordu ilə Qarabağ xanlığı üzərinə hücuma keçdi. O, Qarabağın müdafiəsiz mahal və kəndlərini zəbt edərək Şuşa qalasına qədər gəlib çatdı ve qalanı mühasirəyə aldı. Şuşa altı ay

mühasiredə qaldıqdan sonra, Penahəli xan oğlu İbrahimxelili girov verınekle şəhəri mühasirədən azad etdi.

1761- 1762-ci illərdə tranın müxtəlif vilayətlərini öz hakimiyyəti altında birləşdirən Kərim xan Zənd Azərbaycan üzərinə hücuma başladı. O, Qaraçəmən kəndi yaxınlığındakı döyüşdə Fətəli xan Əfşarın qoşunlarını məğlubiyyətə uğratdı və Azərbaycanın cənubundakı bir sıra xanlıqları özünə tabe etdi. Fətəli xan Urmiya qalasına çəkildi.

Azərbaycan xanlıqları arasındakı ziddiyyətlərdən istifadə etməyə çalışan Kərim xan Zənd, vaxtilə Fətəli xanın sıxışdırdığı yerli feodallara və xanlara məktub göndərərək, onları öz tərəfinə *çəkməyə* çalışdı. Kərim xan Zənd Pənahəli xana göndərdiyi məktubunda yazırdı: «Fətəli xan sadəcə düşmən deyil, o eyni zamanda bizimlə qanlıdır... Gərak birləşmək uğrunda bütün qüvvəni əsirgəməyəsən. Məhz bu yolla həm intiqam almaq, həm də oğlunuzu xilas etmək mümkün olar. Bununla həm siz sevinərsiniz, həm də biz öz arzumuza çatarıq».

Penahəli xan bu çağınşa cavab olaraq kiçik oğlu Mehralı xanı öz yerinə hakim te'yin etdi və qoşunu ile zəndlərlə birləşdi. Tezliklə Urmiya şəhəri müttəfiq qoşunu tərəfindən mühasirəyə alındı. Fətəli xan bir neçə ay müqavimət göstərdikdək sonra, birləşmiş qoşunların ağır zərbəsinə davam gətirə bilmədi. 1763-cü ilin fevralında tabe oldu. Urmiya xanlığı üzərindəki qələbədən sonra Kərim xan Zənd Ponahəli xana xəyanət etdi və müxtəlif bəhanələrlə ona Qarabağa qayıtmağa icazə vermədi. Əvəzində oğlu İbrahimxəlil xanı məhbəsdən azad etdi və Qarabağa qaytardı. O, xanlığı idarə etməyə başladı. Pənahəli xan isə Şiraza aparıldı və ömrünün axırmadək (1763) orada qaldı.

İbrahimxəlil xanın (1763-l806-cı illər) dövründə xanlıq daha da gücləndi. Burada diqqətəlayiq binalar, qalalar tikildi.Onun nüfuzu Azerbaycanın cənub xanlıqlarına, müəyyən vaxtlarda is*^ Gəncə xanlığına da yayıldı. Mirzə Adıgözəl bəy və Qarabağın sonrakı tarixçiləri qeyd edirdilər ki, İbrahimxəlil xanın «hökm və fərmanı Şirvan, Şəki, Gəncə, İrəvan, Naxçıvan, Xoy, Qaradağ, Təbriz, Ərdəbil vilayətləri, hətta Marağa, İraq və Azərbaycan sərhədi olan Qaplankühda belə işlərdi». Əlbəttə, müəllifier bir qədər yanılırlar. İbrahim xanın ancaq Qaradağ, Ərdəbil, Naxçıvan və Gəncə üzərinə te'siri olmuşdur. Onun

Məscid, xanın qızı Gövhər ağa bunu bərpa etdirmişdi, tki dağ arasında Əsgəran Ağoğlan qalaları, Şuşa qalasının hasarı, özünün imarəti. Xəzinə dərəsində imarət və otaqlar. Xan bağı imarətləri, Ağdam bazarının hasarı və s.

e'tibaril müttəfiqi Car-Balaken camaatının başçısı Nütsal xanın oğlu Ümme xan idi. tbrahimxəlil xan onun bacısı Bikə xanımla evlənmişdi. Bu qohumluq hər iki feodal arasında hərbi-siyasi birliyin yaranmasına səbəb oldu.

İbrahimxelil xan qızı Tuti Bikə xanımı şəkili Selim xana ərə vermişdi. Mehz onlann güçünden istifadə edən İbrahimxelil xan erməni məliklərinin xəyanətinə, qonşu xanhqlann Qarabağa basqınlarına son qoydu, Qarabağ xanlığının daxilində və xaricində sabitlik yaratdı, əhali dinc eməklə məşğul olmağa başladı.

İbrahimxelil xan gürcü çan II İrakli ilə de dostluq edirdi. Onun vəzirinin qızı ilə evlənmişdi. II İrakli ile dostluğu möhkəmləndirmək üçün xanlığın baş vəziri, məşhur Azerbaycan şairi Molla Pənah Vaqif Tiflisə getmişdi. Onun iştirakı ilə Qarabağ xanlığı ilə Gürcüstan çarlığı arasında bağlanan sazişin siyasi əhəmiyyəti vardı.

60-80-ci illərdə qardaşı Mehrəli xanla hakimiyyət uğrunda başlanmış mübarizə də İbrahimxelil in xeyrinə qurtardı. Beləliklə, o öz daxili işlərini nizama saldıqdan sonra hərbi səfərlərə başladı. Mirzə Yusif Nersesov bu səfərin ikisi barədə me’lumat verir: birincisi Naxçıvan səfəridir. İbrahimxelil xan dağıstanlı Ümme xanın köməyi ilə Naxçıvana qoşun çekdi, Qarabağlarda dayandı, onu mühasirəyə aldı. İrəvan xanı Zeynal və Qarapapaq kürdlərini Naxçıvan xanı Kəlbeli xanın köməyinə göndərdi. Odur ki, tbrahimxəlil xan Qarabağlarda ciddi müqavimətə rast gəlib geri çəkildi. Bundan sonra o, Kəlbəli xanla dostluq əlaqəsi saxladı.

İkincisi Xöy səfəri idi. İbrahimxelil xan 1789-cu ildə müttəfiqlərin qoşunu ilə Xoya tərəf hərəkət edərək Mərəndə daxil oldu. Xoy hakimi Cəfərqulu xan öz adamları ilə ona qarşı çıxdı. Mərənd yaxınlığında rəqib tərəflər üz-üzə gəldilər, şiddətli döyüş oldu, Qarabağ qoşunu məğlubiyyətə uğradı, xeyli əsir alındı. Onlann içərisində M.P. Vaqif və İbrahim xanın əmisi oğlu Ferzi bəy də var idi. Əsirləri Xoy şəhərinə apardılar. İbrahimxelil xan Cəfərqulu xanla danışığa girdi və öz adamlannı əsirlikdən azad etdi. Hər iki xanlıq arasında dostluq müqaviləsi imzalandı. Bu hadisə ile əlaqədar M.P.Vaqif yazırdı:

Fərd Vaqifəm mən bu səfərdən ki, salamat qayıdım.
Tövbə gər bir də qiyamət günü çıxsam qaladan.

İbrahimxəlil xanla Gürcüstan valisi arasında ixtilaf baş verdi. Mirzə Yusif Qarabaği yazırdı ki, həmin ixtilafa görə de 1791-ci ildə

Ümmə xan xeyli qoşunla Gürcüstana yürüş edib Sığınaq və Gümüşç xananı tutdu, qışı Axalsixidə keçirdi. Qayıdarkən knyaz Abaşidzenin ailəsi ilə yaşadığı Adxan qalasını tutdu, əhalisini qılıncdan keçirdi. Abaşidzenin qızı Cavahiri əsir alıb İbrahim xana göndərdi, digəri ilə Özü evləndi. Qarabağ xanlığında siyasi hadisələrin nisbətən sakit şəraitdə cərəyan etməsi və xarici hücumların ara verməsi çöx da uzun sürmədi.

Şuşanın qəhrəman müdafiəsi. Kərim xan Zəndin ölümündən (1779) sonra, İranda baş vermiş feodal ara müharibələrində mənşə e'tibarilə türk-qızılbaş olan Qacar sülaləsi qələbə qazandı. Sülalənin banisi Ağa Məhəmməd xan Qacar 80-ci illərin ortalarında Xorasan istisna olrhaqla, İranın başlıca əyalətlərini istila edərək Tehranı özünə paytaxt etdi. 1794-cü üdə Qarabağa səkkiz minlik qoşun göndərdi. Lakin qoşun Əsgəran qalası yaxınlığında məğlub olub geri çəkildi.

Ağa Məhəmməd xan Səfəvi şahlan kimi, bütün Ön Qafqazı özünə tabe etmək istəyirdi. O, yürüşə başlamazdan ewel, Azerbaycanın bütün xanlarına, Kartli və Kaxetiya çarlığına, habelə Cənubi Dağıstan hakimlərinə fərmanlar göndərib girov (əmanət) tələb etdi. İbrahim- xəlil xandan itaət əlaməti olaraq oğlunu girov istədi. Lakin Ön Qafqaz və Dağıstan feodal hakimlərinin əksəriyyəti yenidən İran zülmünə boyun əyməkdən imtina etdilər. Bu da Ağa Məhəmməd xanın böyük bir ordu ilə Ön Qafqaza hücumu üçün bəhanə oldu. O, qoşunlarına üç İstiqamətdə-Talış, İrəvan və Şuşa istiqamətində yürüş etməyi əmr etdi. Ağa Məhəmməd xan özü sonuncu səmtə hərəkət edən qoşunun başçısı idi.

Talış və İrəvan istiqamətində hərəkət edən İran qoşunlan bu yerləri darinadağm edərək Ağa Məhəmməd xanın qoşunlan ilə birleşdilər. Talış xanı Mir Mustafa xan Xəzəri dolaşan rus gəmilərinin köməyinə sığınmaq üçün Sarı adasına qaçdı. Rus hərbi gəmiləri Qacar qoşununu sahilə çıxmağa qoymadı. Nəhayət, 1795-ci il iyunun sonunda Ağa Məhəmməd xan 85 minlik ordu ilə Qarabağ xanlığına soxulub Şuşa qalasını mühasirəyə aldı. Bu hücum bütün Qafqaz üçün təhlükəli idi. Odur ki, azərbaycanlılar işğalçılara qarşı inadlı mübarizəyə qalxdılar. Xanlığın 15000 nəfər seçmə əhalisi düşmənlə vuruşurdu. Qalanın mühasirəsi nəticə vermədiyindən Ağa Məhəmməd xan ətraf kəndləri yandırır,*mal-qaranı sürüb apanr, əhalini əsir alırdı. O, Şuşanı 33 gün mühasirədə saxladı, heç bir'nTüveffeqiyyet qazanmadı. Belə olduqda, Tiflisə tərəf hərəkət etdi. Cavad xanla Məlik Məcnun onu

müşayiət edirdilər. Kartli-Kaxetiya sarayındakı hərc-mərclik Qacara TiHis şəhərinə soxulmağa imkan verdi. İran qoşunları bir döyüşdə şohəri ələ keçirərək əhalini qırdılar və 20 min nəter əsir apardılar. Məşhur müğənni Sayat Nova da Tiflisdə həlak olanların içərisində idi. Bir müddətdən sonra düşmən ordusu qışlamaq üçün Muğana çəkildi. Ağa Məhəmməd xan buradan Azərbaycan xanlarına və Dağıstan hakimlərinə yenidən hədə-qorxu ilə dolu məktublar yazaraq onlardan tabe olmağı tələb etdi. Bu zaman Azərbaycanın bir sıra xanlıqları kömək üçün Rusiyaya müraciət etdilər.

Yerli hakimlərin II Yekaterinaya müraciəti həmin ildə rus qoşunlarının ön Qafqaza hərbi yürüşünə səbəb oldu. Rus qoşunlarının komandanı V.Zubovun ixtiyarına Xəzər dənizindəki rus hərbi donanması da verildi. Ağa Məhəmməd xan rus qoşununun Azərbaycana hərəkət etməsini gördükdə, 1796-cı ilin yazında tələsik Arazın o tayına çəkildi. Həmin ildə o, özünü İranın şahı eTan etdi.

Qubalı Şeyx Əli xan qısa müqavimətdən sonra bacısı Pəricə xanımın tə’kidi ilə Dərbənd qalasının qapısını V.Zubovun üzünə açdı. V.Zubov Pəricə xanımı Dərbəndin hakimi tə’yin etdi. Bakı xanı Hüseynqulu xan şəhəri təslim etmək istəmirdi. V.Zubov öz qoşununun bir hissəsini burada qoyub Şamaxı istiqamətində hərəkət etdi. Fitdağa çəkilən Mustafa xanın V.Zubova təslim olan yaxın qohumu Qasım xan Şamaxı xanı tə’yin edildi. Daha sonra V.Zubov Salyan tərəfə gedərək yaxınlıqda düşərgə saldı. Qarabağ xanı İbrahimxəlil xan öz nümayəndələrini onun yanına göndərdi. Rus generalı nümayəndələri səmimi qarşıladı. O, Qarabağ xanlığının Rusiya ilə yaxınlaşmasında Vaqifin xidmətlərini qiymətləndirərək II Yekaterinanm adından ona qiymətli hədiyyə-əsa bağışladı.

Beləliklə, Azəıtıaycanın şimal xanlıqlarının bir neçəsi Rusiyaya tabe edildi. Əvvəlki illərdə olduğu kimi, çar hökuməti Azərbaycanda geniş istehkamlar qurmaq üçün planlar hazırlayırdı. Cavad yaxınlığında böyük bir şəhərin salınması nəzərdə tutulurdu. Lakin bu dəfə də Rusiya Azərbaycanda möhkəmlənə bilmədi. 1796-cı ildə II Yekateri- nanın vəfat etməsi Qafqazda siyasi vəziyyətə to’sir gösterdi. Taxta çıxan I Pavel 1797-ci ildə Azerbaycandan və Dağıstandan rus qoşununu geri çağırdı.

Ağa Məhəmməd şahın Azərbaycana yeni hücumu. Rus qoşununun Azərbaycandan getməsindən istifadə edən Ağa Məhəmməd şah 1797-ci ilin yazında böyük bir ordu ile Arazı keçdi və Şuşaya

yaxınlaşdı. İbrahim xan müqavimət göstərmək əzmində idi. O öz dəs-ləsi ilə düşmən topxanasına hücum edib geri dönərkən qala qapısını bağlı gördü. Qalada ona xəyanət etmişdilər. Odur ki, İbrahim xan Car-Balakenə-avar hakimi Ümmə xanın yanına qaçmalı oldu. İbrahim- xəlil xan Şuşanı tərk edib Dağıstana getdikdən sonra Ağa Məhəmməd şah şuşalılara məktub göndərərək tabe olmalarım təklif etdi. Uzun sürən mübahisədən sonra Qarabağ ruhanilərinin başçısı baş müctəhid Hacı Babək şahın düşərgəsinə getdi. Şah bildirdi ki. onun gəlişi münasibətilə şuşalılar 500.000 əşrəfi** təzminat toplamalıdırlar. Hacı Babək isə onu 200.000 əşrəfiyə endirə bildi. Ağa Məhəmməd şah Şuşanı tutduqdan sonra, şəhərin şərqində İbrahimxəlil xanın böyük oğlu Məhəmməd xanın evində yerləşdi. O, İbrahimxəlil xanın əsiri və düşməni olan Məhəmməd bəyi Şuşanın xanı tə’yin etdi.

Ağa Məhəmməd şah Qacarın Qarabağı tutması Şimali Azərbaycanda siyasi vəziyyəti dəyişdi. Şahın tərətidarlan baş qaldıraraq hakim qüvvəyə çevrildilər. Rus qoşunu ilə əlaqə saxlayan, onlara xidmət edən xanlar tə’qib olundular. Gəncəli Cavad xan xanlıqda baş vernıiş daxili hadisələra başı qarışdığından şaha müqavimət göstərə bilmədi. Üz keçmiş xidmətlərinə ümid bəsləyən Cavad xan və Bakı xanı Hüseynqulu xan şahın tələbi ilə Şuşaya çağırılıb nəzarət altına alındılar. Şamaxı xanı Mustafa xan. Şəki xanı Selim xan qasid vasitəsilə öz itaətlərini bildirdilər. Qubalı Şeyxeli xan isə Ağa Məhəmməd şahın hüzurunda idi. Çünki şah Bakı xanlığını da onun idarəsinə ver-»^ məyi ve’d elmişdi.

İmn qoşunu isə öz növbəsində şəhərə daxil olduqdan sonra, əhaliyə divan tutur, qarət edirdi. Yüzlərlə adam zindana salındı. Vaqif də onların içərisində idi. Onu e'dam gözləyirdi.

Tezliklə, 1797-ci il iyulun 4-də Ağa Məhəmməd şaha İbrahimxəlil xanın qardaşı oğlu Məhəmməd bəyin təşəbbüsü ilə onun yaxın adamları-Səfərəli bəy və Abbas bəy tərəfindən qəsd edildi. Şahın qətlindən sonra Bakı, Gəncə, İrəvan xanları öz şəhərlərinə qayıtdılar. İran qoşunu tələsik cənuba çəkildi.

Bundan istifadə edən Qarabağ xanının qohumu Məhəmməd bəy Cavanşir xanlıqda hakimiyyətini möhkəmləndirdi. Onun əmrilə 1797- ci ilin yazında Vaqif öldürüldü. Lakin İbrahim xan Şuşaya qayıtdıqdan sonra Məhəmməd bəy Cavanşiri xəyanətdə təqsirləndirib həbs etdi

' • Əşrəfi— pul vahidi.

və onu qan düşməni olan şamaxılı Mustafa xana təhvil verdi. O, isə Mehemmed bəyi e’dam etdi.

XVIII əsrin son illərində mürəkkəb daxili və beynəlxalq şəraitdə Qarabağ və Quba xanlıqları Rusiyaya elçilər göndərərək kömək istədilər. Çar hökuməti Azərbaycan xanlıqlarını Rusiya təbəəliyinə qəbul etməyə cəhd göstərirdi. İranla danışıqlar zamanı Rusiya hökuməti şahdan Azərbaycanın Xəzərsahili vilayətlərindən və Gürcüstana olan iddialarından əl çəkməyi tələb etdi.

## § 3. QUBA XANLIĞI

XVIII əsrin ortalarında Quba xanlığım Hüseyneli xan (1722- 1758) idarə edirdi. Onun iqamətgahı əvvəlcə Xudat, sonra isə Quba olmuşdur. Burada zerbxana və silah e’malatxanalan vardı. Hüseynəli xanın dövründə Salyan, Axtıpara, Altıpara, Doqquzpara Quba xanlığına birləşdirildi. 1770-ci ildə Azerbaycanda olmuş S.Qmelinin verdiyi mə'lumata görə, Qulqan, Şabran, Rüdbar və diger qonşu ölkələr Quba xanlığının himayəsində olmuşlar. Xarici siyasət baxımından o, Rusiya ilə əlaqə saxlayırdı. Quba xanlığı əlverişli coğrafi mövqedə yerləşirdi. Münbit torpağı, səfalı iqlimi burada ekinçiliyi, bağçılığı və maldarlığı inkişaf etdirməyə imkan verirdi.

Hüseyneli xanın oğlu Fətəli xanın dövründə (1758-1789) Quba xanlığının mövqeyi daha da möhkəmləndi. Fətəli xan öz dövrünün görkəmli dövlət xadimi idi. A.Bakıxanov yazırdı: «...Fətəli xan tədbirli, mərhəmət] i, əzmində sabitqədəm, məmləkəti idarə etmək işlərində mahir bir adam idi». XIX əsrin rus burjua tarixçisi P.Q.Butkov onu geniş ağıla malik, igid, bacarıqlı, düşüncəli və yorulmaq bilməyən bir şəxs kimi səciyyələndirir.

Fətəli xan Quba xanlığını möhkəmləndirməyə çalışırdı. O mahal naiblərinin hakimiyyətini məhdudlaşdırdı, vergi toplanmasını nizama salaraq xəzinənin gəlirinin artmasını te’min etdi. Muzdlu qoşunun sayını artırdı. S.Q.Qmelinin mə’lumatına görə, Quba xanlığının xeyli qoşunu və topu vardı. Kiçik toplann bir hissəsi arabalarda yerləşdirilmişdi. Xanlığın paytaxtı Quba cinahlarda qüllələri olan qala divarları ilə əhatə olunmuşdu. Hüseynəli xanın vaxtında da burada möhtəşəm bir saray tikilmişdi. Fətəli xan Öz sərhədlərini möhkəmləndirmək üçün Muğandan cəngavər şahsevənlərin bir hissəsini xanlığın ərazisinə köçürdü, vergi islahatı keçirdi. Əvvəllər vergilər mahalları

idarə edən naiblər tərəfindən toplanırdı. Fətəli xan bu qaydanı ləğv etdi, vergilərin toplanmasını, bə’zi mükəlləfiyyətlərin icrasını xan yasovuİlarına tapşırdı.

Fətəli xan qonşu xanlıqlann torpaqlanni ilhaq etmək yolu ilə öz ərazisini genişləndirməyə çalışırdı. Başqa xanlann so’ylerindən fərqli olaraq, onun cəhdləri daha geniş miqyas aldı və şimal-şərqi Azərbaycan torpaqlarının birləşdirilməsi ilə nəticələndi. Bu da böyük mütərəqqi əhəmiyyətə malik idi.

Salyan, Dərbənd, Bakı xanlıqlannm Quba xanlığına birləşdirilməsi. XVIII əsrin əvvəlində Salyan Quba xanlığından asılı vəziyyətdə idi. Nadir şah xanlığı zəiflətmək məqsədilə onu Qubadan ayırmışdı. Şahın naibləri Salyana hakim te’yin edilmişdilər. Nadirin ölümündən sonra Salyanın idarəsi müvəqqəti olaraq İbrahim xan Rüb- dəriyə verildi. İbrahim xan Rübdərinin idarə üsulundan narazı olan Salyan feodalları Quba xanlığı ilə gizli əlaqə yaratdılar və Rübdərinin hakimiyyətdən götürülüb başqası ilə əvəz olunmasını xahiş etdilər. 1757-ci ildə Fətəli xan Salyan xanlığı üzərinə hücum etdi, öz qədim irsi hüquqlarından istifadə edərək, silah gücünə İbrahim xan Rüb- dərini Salyandan çıxardı, xanlığın ərazisini Qubaya birləşdirdi. Salyan Quba xanlığının aynimaz bir hissəsinə mühüm siyasi dayağına, həmçinin gəlir mənbəyinə çevrildi. Salyan gələcəkdə Quba xanlığının birləşdirmə siyasətində e'tibarlı dayaq oldu. Fətəli xan cənub xanlıqlarından əhali köçürməklə xanlığın əhalisini artırdı. İrandan köçürülmüş əsasən tatdilli*^ əhalini Şabranda və başqa erazilərdə yerləşdirdi. Fətəli xan burada öz hakimiyyətini möhkəmləndirdikdən sonra Dərbəndi ilhaq etməyə başladı.

Dərbənd mühüm qala və ticarət mərkəzi idi. Şəhərin 10 minə yaxın əhalisi vardı. Burada yüzlərlə dükan, sənətkar e'maiatxanası, karvansara yerləşirdi. Həştəncandan, Qafqazdan və Dağıstandan buraya çoxlu sənətkarlıq mə’mulatlan gətirilirdi. Məhəmməd Hüseyn xanın qəddarlığından narazı olan dərbəndlilər Fətəli xanın hakimiyyətini qəbul etməyə meyl gösterirdilər. Təkcə xalq deyil, Dərbənd feodallan da Quba xanlığına birləşməyə can atır, öz nümayəndələrini Fətəli xanın yanına göndərirdilər. XVIII əsrin 50-ci illərində Dərbənd xanlığında iki siyasi qrup mövcud idi. Birincisi, Məhəmməd Hüseyn xanı müdafiə edən və Dərbəndin Qubaya birləşdirilməsinə müqavi-

Tatlar ikidilli - Azerbaycandilli və İrandilli idilər.

mət göstərən kiçik feodal ə’yanlar, ikincisi isə şəhər sənətkarları, tacirlər, xidmətdə olan xırda feodallar idilər. Çoxluq təşkil edən bu qtıp xalq içərisində olan nüHızundan istifadə edərək, Quba xanlığının Dərbəndə yiyələnməsi üçün şəhər əhalisinə güclü tə'sir göstərir və xanlığa kömək edirdi. Fətəli xan yaranmış vəziyyətdən məharətlə istifadə edirdi. O, Dərbənd xanlığında olan müxtəlif ictimai qmplar: arasında sün’i düşmən münasibəti yaradır, birini digərinə qarşı qoyur və beləliklə, Dərbənd bəylənni də ələ almağa çalışırdı. Lakin Dərbəndə yiyələnmək üçün şəhər daxilində münasib şərait yox idi. Bunun üçün xarici münasibətləri sahmana salmaq lazım idi. Əks halda bu münasibətlər cənubi dağıstanlıların mənafeyinə toxunar, beləliklə də Qubaya qarşı güclü bir blok yarana bilərdi.

Cənubi Dağıstan feodalları Dərbəndin mühüm strateji əhəmiyyə« tini yaxşı başa düşürdülər. Dərbənd xanı öz növbəsində hakimiyyətinin zəif olmasım və əhalinin Quba xanlığına meylini görürdü. Lakin aralannda sıx birlik olmayan cənubi dağıstanlılar öz şəxsi mənafeləri naminə Dərbəndin parçalanmasına razılıq verməyə hazır idilər. Odur ki, xan onlan tovlayıb ittifaqa getirdi. Fətəli xan Cənubi Dağıstan feodallarından Tarku şamxalı Muıtuzəli, Qaraqaytaq usmisi Əmir Həmzə və Tabasaran hakimi ilə sazişə girdi. Qazıqumuğu isə zərərsizləşdirdi.

1759-cu ildə Fətəli xanın birleşmiş qoşunu Dərbəndə yürüş etdi. Birinci kiçik dəstə ilə Əmir Həmzə, ardınca qubalılar şəhərə daxil oldular. Dərbənd xanı öz qüvvələri ilə Narınqalaya çəkildi. Fətəli xan əvvəlcə Samur çayının sağ sahilindəki torpaqları (Müşkür, Niyazabad, Şabran, Rustov, Beşbannaq) tabe etdi, iki aydan sonra, 1759-cu ilin noyabrında isə şəhəri ələ keçirdi. O, danışıq bəhanəsilə Mehəmmzd Hüseyn xam öz düşərgəsinə də'vət etdi, onu həbsə alaraq gözlərini çıxartdırdı, əvvəlcə Qubaya, oradan isə Ömrünün sonuna qədər saxlandığı Bakıya göndərdi və 1768-ci ildə Bakıda dünyasını deyişdi. Dərbənd xanlığın siyasi və inzibati mərkəzinə çevrildi. Fətəli xan Əmir Həmzə ilə ittifaqı möhkəmlendinnək üçün onun bacısı Tutu Bikə ilə evləndi. Lakin sonralar Qaraqaytaq usmisi ile Fətəli xan arasında münasibətlər xeyli gərginləşdi.

Dərbənd xanlığının birləşdirilməsi ilə Quba xanlığı xeyli qüvvətləndi. Dövrün müasiri yazırdı: «Quba xanı iki əyaləti - Derbendi və Qubanı birləşdirməklə İran Dağıstanında bäşqalarına qarşı həm mövqe, həm də gəlir nöqteyi-nəzərindən güclü xanlığa çevrildi». Dərbən

din idarəsi əvvəlcə Mustafa bəyə sonra isə Fətəli xanın arvadı Tutu Bikə xanıma tapşırıldı. Daha sonralar, Dərbəndi xanın ən yaxın köməkçiləri Miı-zə Sadıq Məmmədəliyev və Mirzə bəy Barat idarə etdilər.

Dərbənddən sonrä Quba hakimləri Azərbaycanı xarici ölkələrlə, birinci növbədə Rusiya ilə birləşdirən Bakı xanlığını tabe etməyə başladılar. Bakı xanlığı iqtisadi cəhətdən zəngin idi. Onun mərkəzi Bakı isə Xəzər dənizində nisbətən möhkəmləndirilmiş liman idi. Şəhər qurudan qai'şısında dərin xəndək olan ikiqat divarlarla əhatə olunmuşdu, denizdən yaxşı müdafiə olunurdu. Şəhər yaxınlığında mühafizə bürcləri və qülləsi olan iki darvaza vardı. Onlardan ən böyüyü cənubdan dənizdə çimən «Qız qalası» və şəhər kənarındakı Mərdəkan qülləsi idi. Hər ikisi düşmənin şəhərə daxil olmasını xəbər vermək üçün mühüm nəzarət məntəqəsi rolunu oynayırdı. XVIII əsrin ortalannda ingilis səyyahı C.Hanvey yazırdı ki, Bakı ətrafında yüksək yerlərdə düşmən basqınları vaxtı həyəcan siqnalları vermək üçün möhkəm nəzarət qülləlvaleri tikilmişdi. Bakı öz quruluşuna görə Dərbənddən az fərqlənirdi. Burada da şərq şəhərlərinə xas olan dar, əyri küçələr və bir-birinə yaxın tikilmiş evlər var idi. Onlann içərisində qədim Şirvanşahlar sarayı seçilirdi. İ.Berezinin sözləri ilə desək, «Şirvanşahlar sarayını müsəlman me’marhq abidələrinin ən yaxşısına aid etmək olar. Baxçasaray onun yanında daxmacıqdır, Nuxa sarayını isə xatırlamağa dəyməz».

Bakı xanlığı Abşeron yarımadasını əhatə edən iki naiblikdən-Maştağa və Bineqədi naibliyindən və şəhər idarəsindən ibarət idi. Sahəsinə və əhalisinin sayına görə Azərbaycanın digər xanlıqlarına nisbətən 0 qədər de böyük deyildi. 1796-cı ilin me’lumatına görə, xanlığın 34, digərinə görə isə 39 kəndi və cəmi 8350 nəfər əhalisi vardı. Xanlıq heı*bi-styasi baxımdan zəif idi. Bundan istifadə edən qonşu feodallar tez-tez onun erazisinə basqın edirdilər. Şamaxı və Cənubi Dağıstan feodallarının basqınları daha ciddi təhlükə törədir və çox vaxt Bakı xanlığının məğlubiyyəti ile nəticələnirdi. Bu basqınlar te- sərmfatın əsas sahələri olan neft və duz istehsalına, son dərəcə qiymətli bitki olan ze’fəranın yetişdirilməsine, maldarlığın inkişafına ciddi zəı*ər yetirirdi. Nəticə e’ibarile yolların tez-tez bağlanması ticarəti çətinləşdirir, bu da öz növbəsində sənətkarlığın ağır vəziyyətə düşməsinə səbəb olurdu. Bütün bunlar Bakı xanlığının xəzinəsinə güclü tə’sir edir, tacir və feodalların mənfəətini azaldırdı. Belə şəraitdə Bakı

xanlığının, onu qonşu feodalların talançı basqınlarından qoruyan güclü himayəçiye ehtiyacı var idi. Bundan istifadə edən Qubanın hakim dairələri Bakını özlərinə birləşdirdilər (1766), Dərbənd, Niyazabad və Salyan limanlarında rus ticarətini ələ almağa müvəffəq oldular.

Quba xanlığı Bakıya iqtisadi müdaxilə etməklə onu xarici düşmənlərdən qorumağı da öhdəsinə götürdü. Bununla əlaqədar Bakı yaxınlığındakı Saray kəndində Quba xanlığının qarnizonunu yerləşdirdi.

Bakı xanlığının Qubanın himayəsinə keçməsinin bir səbəbi də Fətəli xanın Dərbənddə olduğu kimi, əhalinin sənətkar-tacir təbəqəsini yüksək tutması, Bakıda isə (^banın tərəfdarlarının tə'siredici qüvvəyə malik olmalan idi. Feodalizm dövründə dövlət siyasətində hakim sinifləri qohumluq əlaqələri «nikah diplomatiyası»da birləşdirirdi. Fətəli xan Bakı xanlığı üzərində öz te'sirini gücləndirmək üçün «nikah diplomatiyası»ndan da istifadə edirdi. Qaraqaytaq usmisi Əmir Həmzəyə və'd etdiyi bacısı Xadicə Bikəni Bakı xanı Məlik Məhəmmədə ərə verdi. Fətəli xana və onun xələflərinə tabe olmaq barədə onunla yazılı şərt qəbul etdi. Ağıllı Xədicə Bikə, qardaşının məsləhəti ilə Bakı hakiminin daxili işlərinə fəal müdaxilə etməyə və onlan Quba xanlığının xeyrinə istiqamətləndirməyə başladı. P.Butkov yazırdı ki, «Bakı xanı bütün həyatı boyu Quba xanlığına sadiq oldu. Çünki Fətəli xanın bacısı öz ərini tamamilə ələ almışdı. Quba xanı nikah münasibətilə öz hakimiyyətini Bakı üzərində möhkəmləndirməyə nail oldu». Məlik Məhəmməd xan olmayanda Xədicə Bikə xanlığı özü idarə edirdi. O, Məlik Məhəmməd iki il Qarabağda əsirlikdə olanda, iki dəfə Məkkə və Kərbəlanın müqəddəs yerlərinə ziyarətə gedəndə, həmçinin hərbi fəaliyyəti dövründə xanlığı idarə etmişdi. Bakı xanı vergini pul və ərzaqla ödəyir, Quba xanı üçün döyüşçü dəstələri göndərirdi. Quba xanlığı lazım gəldikdə ordunu tə'min etmək üçün əlavə ərzaq da tələb edə bilərdi. Rəsmi müraciətlərdə feodal birləş- nənin başçısı Fətəli xanın «Dərbəndin, Bakının, Salyanın hakimi» ad- andırırdılar.

Məlik Məhəmməd xanın ölümündən sonra, Quba xanı kiçik yaşlı Vlirzə Mehemmedi Bakının hakimi və xanlığın naibi tə'yin etdi. Səltənət naibi isə Mirzə Məhəmmədin anası Xədicə Bikə oldu. Bakı laibi Quba xanlığınm tabeliyində idi, onun razılığı olmadan heç nə idə bilməzdi.

Bakı xanlığı Quba xanlığının iqtisadi inkişafında mühüm rol jynadı. Çünki Bakı deniz ticarətindən, neft və duz hasilatından külli

miqdarda gəlir götürürdü. Bu da Qubanın Rusiya ile ticarət əlaqələrində, xarici siyasətində müstəsna rol oynayırdı.

Şamaxı, Şəki və Cavad xanbqlarmın Qubaya birləşdirilməsi. Mühüm iqtisadi rayon olan Şamaxı xanlığı böyük ehtiyat mənbələrinə malik idi. O, şimal-şərqdə Quba, şərqdə Bakı, şimal-qərbdə Şəki, cənub-qərbdə Qarabağ xanlığı və Kür çayı ilə həmsərhəd idi. Bə’zən Şirvan xanlığı da adlanırdı.

Şamaxı xanlığı bu dövrdə Şirvanın ən güclü xanlıqlanndan biri olmuşdu. Şamaxı xanlığı xeyli hərbi qüvvəyə (təqribən 8-10 minlik qoşun çıxara bilərdi) malik idi və Azərbaycan xanlıqları arasında mühüm yer tuturdu. 1796-cı ilin mə’lumatına görə, burada 114 min nəfər əhali yaşayırdı.

Şamaxı və Quba xanlıqları arasında mübarizə hələ Fətəli xanın Dərbəndə yürüşü vaxtı başlamışdı. 1758-ci ildə şirvanlı Ağa Rəzi Əsgər oğlu Qubanın Bərmək mahalı üzərinə hücum etmiş, qarətdən sonra oradan 200 ailə köçürüb gətirmişdi. A.Bakıxakov yazırdı: «...Fətəli xan qisas almaq məqsədilə Şirvana bərəkət etdi. Ağa Rəzi bəy qarşıya çıxdı və qədim şəhərin xaricində məğlub edilərək öldürüldü. Fətəli xan, bir neçə aylıq mühasirədən sonra, qətl-qarətdən əlavə öz elatının iki mislini (yə'ni 400 ailə) götürüb geri qayıtdı». Lakin Quba xanlığı bu qələbəni möhkəmləndirmək üçün hələ o qədər qüvvətli deyildi.

Lakin Dərbəndin birləşdirilməsi, Bakının tabe olunması mübarizə edən qüvvələrin nisbətini Qubanın xeyrinə dəyişdi, tndi daha geniş planları həyata keçinnək, Şamaxı xanlığına yiyələnmək olardı. Quba hakimləri Şamaxının birləşdirilməsinə böyük əhəmiyyət verirdilər.

XVIII əsrin 60-cı illərində iki tərəfdən Quba xanlığı ilə əhatə olunan Şamaxı xanlığı dənizdən təcrid olundu. Quba xanı öz sərhədlərinin təhlükəsizliyini te’min etmək, əyalətdə qayda yaratmaq və «Şirvana yiyələnmək üçün qoşunla oraya yollandı». 1763-cü ildə Yeni və Köhnə Şamaxı vahid xanlıqda birləşdi, nəticədə Şamaxının hərbi- siyasi qüvvəsi artdı. Lakin bu, xanlığı, onun təsərrüfat həyatını, xüsusən ipəkçiliyə böyük zərbə vuran feodalların basqınlarından qorumaq üçün kifayət deyildi. Çünki Şamaxı şəhəri qonşu feodallann hücumları üçün çox əlverişli sahədə yerləşirdi.

Quba xanlığı müqavilə ilə müvəqqəti olaraq Şamaxını öz himayəsinə götürdü və onu xərac verməyə məcbur etdi. Bu, Şamaxının işlərinə qanşmağm başlanğıcı idi.

Xanlıq ordunu tə'min etmək və rəqiblərə qarşı mübarizə aparmaq məqsədilə Bakı xanından 20 min, Şamaxıdan isə 10 min manat tələb etdi. Lakin Şamaxı hakimləri tezliklə müqavilə ve'dlərini pozaraq xərac veıməkdən imtina etdilər. Şamaxı xanının xərac vemıəkdən imtina etməsi Quba hakimlərinin nəzərdə tutduqları planı həyata keçirmək üçün bəhanə oldu. 1765-ci ildən başlayaraq dörd il müddətində Quba və Şamaxı xanlıqları arasında gərgin mübarizə getdi. Bu mübarizə Şimali-şərqi Azərbaycanın daxili heyatına ağır zərbə vurdu. Müharibə tacirlərin Dərbənd, Bakı, Şamaxı arasındakı karvan yolu. Şəki, Qarabağ, Gəncə, Gürcüstan, habelə Salyan vasitəsilə isə cənuba hərəkət etmələrinə mane olurdu.

Tezliklə, vəziyyət Quba xanlığının xeyrinə dəyişdi. Quba, Şamaxı xanlığının Şəki ilə ittifaqının pozulmasına nail oldu. Şəki xanının Qubanın tərəfinə keçməsi mübarizə edən qüvvələr nisbətini dəyişdi. Hüseyn xan öz qüvvələrini Qubanın yeddi minlik qoşunu ilə birləşdirib Şamaxıya doğru yollandı. Şamaxı hakimi Məmməd Səid tabe oldu. 1765-ci il aprelin I l-də Bakıdakı ms konsulu yazırdı: «Şamaxı xanı Şəki xanı ilə razılaşmağa məcbur oldu. Şamaxı xanı həm Şəkiyə, həm də Quba xanına xərac verməyi öhdəsinə götürdü. Lakin az sonra bundan imtina etdi».

1765 -1767-ci illərdə Fətəli xan Şamaxı xanlığına qarşı çevik siyasət yeritməyə. Köhnə və Yeni Şamaxı əhalisinin müxtəlif təbəqəsindən Quba ilə birləşmək istəyənləri öz tərəfmə çəkdi. 1767-ci ildə mübarizə gərgin şəkil aldı. Şamaxının Qubaya birləşdirilməsi üçün real zəmin yarandı.

1768-ci ilin mayında Fətəli xanın qoşunu Şamaxıya doğru irəlilədi. Eyni vaxtda Qubanın müttəfiqi Şəki xanı da Şamaxıya hücuma keçdi. Hadisələrin şahidləri qeyd edirdilər ki, qoşun tə'cili səfərbərliyə alındığına görə şamaxılılar müdafiəni təşkil edə bilmədilər. Birləşmiş qoşun Şamaxı xanlığının bütün ərazisini tutdu və Köhnə Şamaxını mühasirəyə aldı. Xanlığın iqamətgahının ətrafla əlaqəsi kəsildi və ərzaq daşınmasından məhrum edildi. Şamaxının hakim dairaleri, ə'yanlan düşmənin üstün qüvvələrinin uzunmüddətli mühasirəsinə dözə bilmədilər və 1768-ci ilin iyununda təslim oldular. Müci qalası tutuldu. Xanlıq hərbi xərcləri ödəmək üçün xərac verməyə razılaşdı.

Qələbədən sonra Şamaxı xanlığının az hissəsi Şəki xanlığına, qalan hissəsi isə Quba xanlığına tabe edildi. Quba və Şəki xanları yeni torpaqların idarə olunması üçün öz naiblərini tə'yin etdilər. Fətəli xanın qardaşı Abdulla bəy Köhnə Şamaxının iqamətgah olması şərtilə

Şamaxı xanlığının Qubaya çatan hissəsinin hakimi te'yin edildi. Sonralar onu Fətəli xanın siyasətinə sadiq olan qazıqumııqlu Eldar bəy əvəz etdi.

Bu vaxt Şirvanda Manaf bəyin başçılığı altında Fətəli xana qarşı sui-qəsd hazırlandı. Sui-qəsdçiler Şəki xanlığının köməyinə arxalanırdılar. l768-ci ilin avqustunda qəsdin üstü açıldı. Fətəli xan qoşunla Yeni Şamaxı şeherinə yaxınlaşdı. O, həm Köhnə, həm də Yeni Şamaxı şeherlərini tutdu. Manaf bəyi həbs edərək Dərbəndə göndərdi. 1768-ci il .sentyabrın II-də Hüseyn xanla döyüşdə Fətəli xan qalib gəldi. O. Hüseyn xanın Ağsuya te'yin etdiyi vergi yığanları qovdu. Şəki xanlığının ixtiyarında olan torpaqlan Qubaya birləşdirdi. Öz iddialarından əl çəkməyən Şəki xanı ikinci döyüşdə de məğlub oldu və 1769-cu ilin iyununda Hüseyn xanla Fətəli xan arasında yeni müqavilə bağlandı. Bu müqavilə Fətəli xana üstünlük verirdi. Hüseyn xan Fətəli xana hərbi qüvvə, lazım olduqda qoşun verməyi və Şamaxının işlərinə qarışmamağı öhdəsinə götürdü.

Sui-qəsdin ləğv edilməsi gedişində Şəki xanlığı üzərində qələbə Şimal-şərqi Azərbaycanın Quba xanlığı ətrafında birləşdirilməsini tamamladı. Xanlığın möhkəmləndirilməsi üçün böyük əhəmiyyətə malik bu birləşmə Azərbaycan xanlıqlarının birləşdirilməsi siyasətində əldə edilmiş əvəzsiz nailiyyət idi. Lakin qələbə eyni zamanda yeni çətinliklər də törətdi. Çünki Quba xanlığı hələ Şamaxıda möhkəmlənməmişdi. Fətəli xan Şamaxının Şəkiyə çatan torpaq payını geri aldığına görə Şəki xanlığı Quba xanlığından ayrılıb Qarabağ hakimləri ilə birləşdi. İndi Qubanın qarşısında yeni məsələ - Şamaxını təkcə Cənubi Dağıstan və Qarabağ feodallarından deyil, həm də Şəki hücumlarından qommaq məsələsi dayanırdı.

Fətəli xan Şamaxını zəbt edəndən sonra, kor etdirdiyi Ağası xan Qarabağa qaçmış, ətrafına tərəfdarlar toplayaraq Kotevan adlanan yerdə möhkəmlənmişdi. Ağası xan Şəki xanı Hüseyn xanı, avar hakimi Nüstal xanı da Fətəli xana qarşı qaldıra bilmişdi. 1774-cü ildə müttəfiqlər Şamaxıya basqın etdilər. Qəflətən yaxalanan Fətəli xan düşmənlərinin sayca üstün qüvvələri qarşısında geri çəkilməyə məcbur oldu. Lakin o, qısa müddətdə xeyli qoşun toplayıb Şamaxı yaxınlığındakı döyüşdə qələbə çaldı. Şəhər yenidən Quba xanlığının hakimiyəli altına keçdi.

1768-ci ildə Cavad xanlığı da qəti olaraq Şimal-şərqi Azərbaycanın birləşdirilmiş ərazisinə daxil edildi. Cavad xanlığının tarixi kiçik bir dövrü əhatə edir. Cavad xanlığı siyasi vahid kimi, XVI esr-

den əvvəl mə'lumdur. O Şamaxının cənubunda, Kürlə Arazın arasında yerləşirdi. Əhalisi əkinçilik və maldarlıqla məşğul olurdu. XVI əsrdə Cavadın məşhur bəylərbəyi Abdulla xan Ustadının «müxtəlif meyvə ağacları ile dolu bağ və gözəl evi vardı». Cavad Şamaxı boy- lərbəyiiyinə tabe idi. 1726-cı ildə Xəzersahili vilayətlər kimi, o da Rusiya tərəfindən işğal edilmişdi. Bundan əlavə, Muğan düzündə yanmköçəri həyat sürən, qışı öz sürüləri ilə Salyan torpağında keçirən şahsevənlər de Rusiyaya tabe edildilər (1728-1732).

XVIII əsrin ortalarında Cavad feodalları Nadir şah dövlətinin zəifləməsindən istifadə edərək öz hakimiyyətlərini möhkəmləndirdilər. Lakin Azərbaycan xanlıqlarının yaranması ile Cavad yarımasılı xanlığa çevrildi. İndiki Sabirabad, Əli Bayramlı və qonşu rayonların erazisini əhatə edən Cavad xanlığı Şamaxı və Salyanla həmsərhəd olmaqla, bir tərəfdən Şamaxı və Qarabağ xanlığı, o biri tərəfdən isə Gilan xanlığının məngənəsində idi. 1775-ci il konsul mə'lumatında deyilirdi ki, Kür çayı üzərində yerləşən Cavad xanlığı Qubadan asılıdır.

Cavad xanlığı birləşdirilmiş Şimal-şərqi Azerbaycan torpaqlarının bir hissəsini təşkil edirdi. 1778-ci ilin aprelində Quba xanlığı birləşdirmə siyasətinin düşmənləri GÜanın yığma dəstələri, xüsusilə şamaxılı Ağası xanın, qaytaqlı Usmi Əmir Həmzənin köməyindən istifadə edərək xanlığın mərkəzi Cavadı mühasirəyə aldılar. Gilanlı Hidayət xanın qoşunu şəhəri zəbt etdi, taladı, əhalisinin bir hissəsini əsir alıb Rəştə göndərdi. Bu basqın Cavad, Salyan və Talış bölgələrində təsərrüfata zərər vurdu. Şəhər həyatı uzun müddət durğunluğa qərq oldu.

Quba xanı onun asılılığında olan Cavad xanlığı və Salyanın faciəsini biləndə düşmən qüvvələrini dəf etməyi qərara aldı. Çünki Cavad xanlığı XVIII əsrin 60-80-ci illərində vassal kimi Şimal-şərqi Azərbaycan dövlətində mühüm yer tuturdu və öz silahlı dəstələri ile Qubanın hərbi-siyasi tədbirlərində fəal iştirak edirdi. l769-cu ildə Cavadın feodal dairələri Şamaxıda Quba əleyhinə qəsdin dağıdılmasında iştirak etmişdilər. Cavad xanı Quba hakiminin e'tibarlı müttəfiqi idi, onun gizli danışıqlarında iştirakçı olur, köməyindən daim istifadə edirdi. O, Fətəli xanın Qarabağı və Cənubi Azərbaycan xanlıqlarını Qubaya birləşdirmək cəhdi ilə əlaqədar olaraq 1784-cü ildə Qarabağ və Ərdəbil yürüşlərində iştirak etmişdi.

Quba xanlığının birləşdirici siyasətində Şamaxı və Cavad xanlıq- lannın Muqana birləşdirilməsinin böyük əhəmiyyəti oldu. Şamaxı və

Cavad gələcəkdə ^şimal və cənub xanlıqlarına hərəkət etmək üçün mühüm əməliyyat meydanına çevrildi. Möhkəm^ dövlət hakimiyyətinin yaradılması üçün Fətəli xanın gördüyü tədbirləri xırda və orta feodallar, tacirlər, sənətkarlar, habelə müharibələrə nifrət bəsləyən oturaq kəndlilər rəğbətlə qarşılayırdılar. Təbriz, Ərdabil, Gəncə əhalisi Quba xanlığının himayəsinə sığınmaq arzusunu bildirdi. O zaman Azərbaycanda olmuş rus mə’murlarından biri yazırdı; «Mən Gilan vilayətindən, Ərdəbil, Təbriz, Gəncə, İrəvan şəhərlərindən hədiyyələrlə Dərbəndə ~ Fətəli xanın yanına gəlmiş üç nəfər adlı-sanlı taciri gördüm: onlar öz xanlıqlarından gizli, yerli əhali adından Fətəli xandan həmin yerləri öz hakimiyyəti altına almağı xahiş etdilər; onlar və’d edirdilər ki, yürüş zamanı ona heç bir müqavimət göstərilməyəcək». Öz istiqlaliyyətlərini saxlamağa çalışan iri feodal hakimlər isə Fətəli xanın siyasətinə mənfi münasibət bəsləyir və Azərbaycan torpaqlarının birləşməsinə müqavimət göstərirdilər.

## § 4. AZƏRBAYCAN XVlIl ƏSRİN SONUNDA RUSİYA İLƏ MÜNASİBƏTLƏR

XVliI əsrin ikinci yarısında 11 Yekaterinanın çarlığı zamanı (1762-1796) möhkəmlənmiş Rusiya dövləti Qafqaza bö>nik maraq göstərirdi. Rusiya imperiyasının cənub sərhədləri Qafqaz sıra dağlarına qeder yayılmışdı. 1783-cü ildə Dağıstanın cənubunda yerləşən Tərki də Rusiyaya birləşdirildi. Ön Qafqazın istila edilməsi məsələsi çarizmin xarici siyasətində birinci plana çəkildi. Bu eyni zamanda Rusiyanın iqtisadi-ticarət mənafeyindən də irəli gəlirdi. Rusiya dövləti xarici siyasətində, həmçinin Xəzər dənizi, Azərbaycan və İran vasitəsilə Hindistan və Çinə əlverişli yollar axtannaq məqsədini güdürdü. Beləliklə, Rusiyanın mənafeyi Qafqazda Türkiyə və İranın mənafeləri ilə toqquşurdu. Həm Türkiyə, həm də İran Qafqazı ələ keçirməklə Rusiyanın Şərq siyasətinə, xüsusilə Xəzər dənizi hövzəsində müvəffəqiyyətlə apardığı ticarətə zərbə endirmək niyyətində idi. Rusiya.da öz növbəsində zəngin təbii servotlerə, bazarlara, əlverişli coğrafi və strateji mövqeyə malik ön, Qafqazda, xüsusilə Azərbaycanda hakim mövqe tutmağa çalışırdı.

r Məhz buna görə de bə’zi Azərbaycan xanlıqFannın Rusiyaya müraciəti Rusiya dövlətinin mənafeyinə uyğun gəlirdi. Adətən, Peterburqda rus dövlətinin xarici siyasəti ilə ayaqlaşan belə tədbirlərə

müsbet münasibət bəslənirdi. Eyni zamanda, bir növ dövlətin cənub sərhədlərini qoruyan Ön Qafqaz və Cənubi Dağıstanın hərbi strateji əhəmiyyətinə de rus diplomatiyası böyük fikir verirdi.

Türkiyə və İran tərəfindən gözlənilməkdə olan təhlükə şəraitində Ön Qafqazın uzaqgörən xadimləri Rusiya ilə sıx ittifaq yaradılmasına çalışırdılar. 1768-1774-cü illərdə Rusiya-Turkiyə müharibəsi zamanı Türkiyə Qafqazı tutmağa yeni cəhdlər göstərərkən bu meyl daha da qüvvətlənmişdi. Həmin illərdə Türkiyənin hakim dairələri Qafqazın feodal hakimlərini öz tərəflərinə çəkməyə çalışırdılar. Türkiyə sultanı Azərbaycan xanlıqlarına, xüsusilə böyük nüfuza malik olan qubalı Fətəli xana və Dağıstan hakimlərinə məktublar göndərib onlan Rusiyaya qarşı mübarizəyə çağırırdı. Lakin Fətəli xan bu təhriklərə qulaq asmadı. Həmin dövrün rus diplomatlarındai biri yazırdı: «Fətəli xan buna heç bir meyl göstermədi və heç bir şey etmədi. Doğrudan da o, Rusiyaya qarşı... xeyirxahlıqdan başqa heç bir şey başlamaq fikrində deyil». Fətəli xanı öz müttəfiqi etmək istəyən (1774) Kərim xan Zəndin de niyyətləri boşa çıxdı. Quba xanlığı Rusiya ilə ardıcıl əlaqə saxlayırdı.

Quba xanlığının qüdrətinin artmasını görən bir sıra Azərbaycan xanları və Dağıstan hakimləri təşvişə düşmüşdülər. Məhz buna görə də 1774-cü ildə Qaytaq usmisi Əmir Həmzə və devrilmiş Şamaxı xanı Ağası xan başda olmaqla bir sıra Azərbaycan və Dağıstan feodallarının birləşmiş qüvvələri Quba xanlığına hücum etdilər. Kavduşan çölündə (Xudat yaxınlığında) Fətəli xan məğlubiyyətə uğradı və Salyan tərəfə çəkildi. Onun düşmənləri Qubanı və Şamaxını tutdular, Dərbəndi mühasirəyə aldılar.

Dərbəndin müdafiəsinə Fətəli xanın arvadı Tuti Bikə rəhbərlik edirdi. Onun qardaşı Əmir Həmzə şəhəri hiylə ilə ələ keçirməyə çalışdı. Tuti Bikəyə ərinin ölüm xəbərini çatdınb Dərbənd divarlarına tərəf uzanan bir matəm mərasimi düzəltdi. Lakin Tuti Bikə qardaşının tltnəkar niyyətini başa düşdü və qalanı təslim etməkdən boyun qaçırdı. Bunu görən Əmir Həmzə Bakı üzərinə müvəffəqiyyətsiz yürüş etdi; orada da qəti müqavimətə rast gəldi. Sonra yenidən Dərbəndi mühasirəyə aldı, lakin artıq Salyandan qayıtmış Fətəli xan şəhərdə idi. Dərbəndin mühasirəsi 10 aya qədər davam etdi, şəhəri aclıq bürüdü.

Bu zaman Fətəli xan Rusiyaya müraciət edərək kömək istədi. 1775-ci ilin martında rus qoşunu general İ.F. de-Medeminin koman

danlığı altında Dərbəndə tərəf yeridi. Onların köməyilə Fətəli xan Öz düşmənlərini darmadağın etdi. O, Dərbəndin açarlarını II Yekateri- naya göndərib ondan Quba xanlığını Rusiya tabeliyinə qəbul etməyi xahiş etdi. II Yekaterina İran və yenicə (1774-cü il. Kiçik Qaynarçı) müqavilə bağladığı Türkiyə ilə münasibətlərin pozulmaması üçün Dərbəndin açarlarını geri qaytardı və Quba xanlığının Rusiyaya birləşdirilməsinin mümkün olmadığını bildirdi. Buna baxmayaraq, rus qoşununun Qubaya etdiyi kömək xanlıq üçün böyük əhəmiyyətə malik idi, onun sonralar qazandığı nailiyyətlərinin əsas səbəbi də məhz bu oldu. Dərbənd, Quba düşməndən azad edildikdən sonra, Fətəli xan Şirvanda da möhkəmləndi. 1775-ci ilin yayında rus qoşunu Azərbaycandan geri çağırıldı, yalnız Dəı*bənddə kiçik bir dəstə saxlandı.

1780-1781-ci illərdə Fətəli xan dəfələrlə Qarabağa yürüş etdi, lakin bu yürüşlər uğursuz oldu. O, l784-cü ildə Azərbaycanın cənub xanlıqlarına hücuma keçdi. Həmin ilin avqustunda Ərdəbilə, daha sonra Meşkinə daxil oldu. Lakin burada möhkəmlənib qala bilmədi. Çünki Fətəli xanın rəqibləri-Azərbaycan və Dağıstan feodallan arxadan onu hədələyirdilər, həm də onun Ərdəbilə yürüşü II Yekaterina hökumətini narahat etmişdi. Quba xanlığının qüvvətlənməsi gələcəkdə çarizmin Qafqazdakı siyasətinə mane ola bilərdi. Ona görə də Fətəli xan çar hökumətinin tə’kidi ilə geri qayıtmağa məcbur oldu.

1785-ci ildə Fətəli xan Şəki xanlığını özünə tabe etdi. Talış torpaqları və Dağıstanın bir sıra feodal toıpaqİan da ondan asılı vəziyyətə düşmüşdü, XVIII əsrin 80-ci illərində Quba xanlığının nüfuzu daha da artdı. Bu dövrdə Rusiyanın Qafqazdakı mövqeyi möhkəmlənirdi, 1783-cü ildə Krımın ilhaq edilməsi ve Kubanda Rusiya sərhədlərinin möhkəmləndirilməsi, Qara dəniz sahillərində və Qafqazda Rusiya üçün çox əlverişli şərait yaratmışdı. 1783-cü ildə "^ərqi Gürcüstanın Rusiyanın tabeliyinə keçməsi haqqında Georgwevskidə (Şimali Qafqazda) müqavilə imzalanması isə Qafqaz xalqlarının Türkiyə və İran təhlükəsindən azad olmaları üçün yeni ümidlər verirdi. Fətəli xan həmin hadisəni rəğbətlə qarşıladı. Bu hadisə Həm də Azərbaycan xanlıqlarının, xüsusən Talış xanlığının Rusiya ilə münasibətlərinin inkişafina müsbət tə’sir etdi.

1787-179 l-ci illər Rusiya-Türkiyə müharibəsi zamanı İngiltərə, Fransa, Prussiya və İsveç osmanlılara pul, silah ve hərbi mütəxəssislərlə yardım edirlər. Sultan Türkiyəsi xarici dövlətlərdən aldığı pulları Qafqazdakı emissarlarına xərcləyirdi. Lakin bu, heç də Ön Qafqazda

Rusiyaya meylin qüvvətlənməsinin qarşısını ala bilmədi. 1787-ci ildə Quba xanlığının 12 nəfərdən ibarət elçisi Peterburqa gəldi. Bu bey'ətə görkəmli diplomat Mirzə Sadıq Məhemmədvəliyev başçılıq edirdi. Fətəli xanın məktubunda deyilirdi; «Əmin edə bilərəm ki, bütün öın- rtim boyu Rusiyaya münasibətimdə zərrə qədər də olsun dəyişiklik olınaycaqdır. Mən daim Rusiyanın düşmənlərinə düşmən, dostlarına dost olacağam». Əlbəttə, Fətəli xan Azərbaycanda mərkəzləşdirilmiş dövlət yaratmaq məqsədilə belə siyasət yürüdürdü.

1785-ci ildə Quba xanlığı İrana və Osmanlı Türkiyəsinə qarşı birgə mübarizə aparmaq üçün Gürcüstan çarlığı ilə ittifaqa girdi. Fətəli xan bu ittifaqdan yalnız yadelli işğalçılara qarşı mübarizə üçün deyil, həm də öz hakimiyyətini Azərbaycanın cənub xanlıqlarına yaymaq üçün istifadə etmək istəyirdi. 1788-ci ildə Fətəli xan və II İraklinin qoşunları Gəncəyə daxil oldular. Sonra isə Quba xanı ikinci dəfə Azərbaycanın cənubuna yürüşə hazırlaşmağa başladı. Lakin 1789-cu ilin martında Fətəli xan Bakıda ikən qəflətən vəfat etdi.

Təəssüf ki. Fətəli xan nə qədər cəhd etdisə də, Azərbaycan torpaqlarının sabit birliyini yarada bilmədi. Ölkənin feodal pərakəndəliyi, Türkiyə və İranın Azərbaycan torpaqlarına yenidən yiyələnmək təhlükəsi, yerli iri feodalların müxtəlif meylləri ve müqaviməti nəticəsində Azərbaycanın vahid dövlət halında birləşdirilməsi baş tutmadı. Fətəli xanın az-çox yaratdığı birləşmə isə onun vəfattndşn sonra dağıldı. Fətəli xanın oğlu Əhməd xan (1789-1791) atasının nailiyyətlərini möhkəmləndirə bilmədi. Əhməd xanın ölümündən az sonra hakimiyyətə onun bu vaxta qədər Salyan naibi olan qardaşı Şeyx Əli keçdi (1791-1810). O da xanlığın qüdrətini saxlaya bilmədi. Şəki, Bakı, Şamaxı xanlıqları Quba xanlığının asılılığından çıxdılar.

1782-ci ildə Qarabağ xanı Ibrahimxəlil xan Peterburqa elçilər göndərərək Rusiyaya münasibətini bildirdi. Azərbaycanda Rusiyaya meyl edənlərdən biri də şair və dövlət xadimi Molla Pənah Vaqif idi. Lakin Qarabağ xanı Rusiya ilə münasibətlərində ardıcıl deyildi. O, yalniz XVIII əsrin 90-cı illərində «İran hökmdarı Ağa Məhəmməd xan Qacarın Qarabağ xanlığı və bütün Azerbaycan üçün ciddi təhlükə törətdiyi zaman Rusiya ilə yaxınlaşmağa so'y göstərdi.

XVIII əsrin ikinci yarısında Azərbayanda Rusiyaya meyl təzahür edirdi. Rusiyaya birləşdikdən sonra yeni dövlətdən torpaq sahələri almaq arzusunda olan xırda feodallar Rusiyanın himayəsinə keçməyi xan üsul-idarəsindən üstün tuturdular. Lakin belə hai heç də Azərbay>

can əhalisinin bütün silklərinə aid ola bilməzdi. Bə'zi xanlıqlarda açıqdan-açığa ikitirəlik əmələgəlmişdi. Əhməd bəy Cavanşir yazırdı: «Qarabağ xanlığının gələcəkdə müstəqil qalması düşmən olan iki dəstəyə bölünmüşdülər. Bu dəstələrin biri rusların Ön Qafqazın işlərinə qarışmasını gözləyərək heç bir vəchlə İrana tabe olmaq istəmir, digəri isə, əksinə İrqn hökmdarım hər vasitə ilə razı salmağa çalışır». Belə qruplar diger xanlıqlarda da əmələ gəlmişdi. Təəssüf ki, Rusiyaya meyl etməklə ıte ə'yanlar, nə də xalq kütlələri öz arzulanna çata bilmədilər.

## § 5. XANLIQLARIN SOSİAL-İQTİSADİ HƏYATI

Kənd təsərrüfatı və kəndlilərin vəziyyəti. XVIII əsrin ikinci yarısında Azərbaycanın iqtisadiyyatında ümumi durğunluq, pərakəndəlik və natural təsərrüfatın hökm sürməsi, sosial əmək bölgüsünün aşağı səviyyədə olması, feodal münasibətləri, xaricdən basqınlar və ara müharibələri ölkənin təsərrüfat həyatım pozur və məhsuldar qüvvələrin inkişafına mane olurdu. Lakin əvvəlki dövrə nisbətən, həmin dövrdə yadellilərin zülmündən xilas olmuş kənd təsərrüfatı, sənətkarlıq və ticai'ətdə bir qədər canlanma nəzərə çarpırdı.

Quba, Qarabağ, Şamaxı, Şəki, Gəncə xanlıqlarında əlverişli təbii coğrafi şərait olduğundan əkinçilik nisbətən yaxşı vəziyyətdə idi. Mil düzündə suvarma kanallarını bərpa etməyə cəhd göstərilirdi. Azərbaycanın, demək olar ki, bütün xanlıqlannda əhali bağçılıq, bostan-çılıq, ançılıqla məşğul olurdu. Şirvanda üzümçülük geniş inkişaf etmişdi. Burada hazırlanan şərablar Fransanın qırmızı şərabından heç də geri qalmırdı» (M.Bibernşteyn). Bağçılıq Gəncə, Şəki, Quba, Bakı xanlıqlarında da nisbətən yaxşı inkişaf etdirilmişdi. P.Butkov yazırdı ki, «Təqribən hər bir evin qarşısında meyvə ağacları olan bağ var idi». Xanlıqların hamısında demək olar ki, taxıl əkilirdi. Pambıqçılıq daha çox Şirvan, Gəncə, Qarabağ ve Naxçıvan xanlıqlarında yayılmışdı. Azərbaycanda xırda qozaları olan pambıq becəriliıxü. Lakin feodal çəkişmələri bu məhsuldar sahə ilə məşğul olmağa imkan vermirdi. Pambıqçılıqda becərmə texnikası aşağı səviyyədə idi. Onun təmizlənməsi və çiyiddən çıxarılması ibtidai üsulla aparılırdı. Qarabağ xanlığında atçılığın inkişafına xüsusi əhəmiyyət verirdi. Dərbənd, Quba və Bakı xanlıqlannda qızıl boya və ze’fəran becərilirdi. Bakıda istehsal

olunan ze'fərana xarici bazarda böyük ehtiykc var idi. «Neft və zə’fə- ran bu vilayətin əsas ticarət mallanndandır» *{Corc Foster).*

Yerli əhalinin əsrlərdən bəri məşğul olduğu neft istehsalı aşağı səviyyədə idi, quyular əl ilə qazılır, neft isə adi vedrələrdə çıxarılırdı. «Ağ neft daha təmiz olduğu üçün çox baha satılır, işıqlandırma və müalicə vasitəsi kimi istifadə edilirdi. Həm qara, həm de ağ neftin satmaq üçün meşin kisələrə doldurub başqa vilayətlərə göndərirdilen> (S.Bronevski). Ümumən, bu dövrdə neftin istehsalı və ondan istifadə kustar üsulla heyata keçirilirdi. Hasil edilmiş neft gəmilər vasitəsilə HəşləiTcana, oradan Volqa ile Rusiyaya, Tiflisə, İstanbula, Xorasana, hətta Hindistana aparılırdı. Bakı xanlığı neftdən böyük mənfəət əldə edirdi.

Azərbaycan təkcə neftlə məşhur deyildi. Odlar yurdunun əvəzsiz torpağı qızıl, gümüş, qurğuşun, mis, kükürd,, dəmir filizi, zəy, duz yataqları ile zəngin idi. Qarabağ ve Naxçıvanda az miqdarda gümüş, mis, qurğuşun, duz, kükürd. Daşkəsəndə dəmir və mis, Gəncədə mis və zəy mə’dənləri şöhrət tapmışdı, Bakı və Naxçıvandan bir çox yerlərə duz daşınırdı.

Şəki, Şirvan, Gəncə, Şuşa, Naxçıvan kimi əsas ipək mərkəzlərinin içəiisində Şamaxı xüsusilə fərqlənirdi. P.Semyonov yazırdı ki. Məhəmməd Səid xanın dövründə, XVIII əsrin 60-cı illərində Şamaxıda ipəkçiliyin inkişafı yüksək səviyyədə idi. C.Foster bu fikri tamamlayaraq əlavə edir ki, «Şirvandan ildə 400 tona qədər ipək ixrac olunur». Şəki ipəyi öz keyfiyyətinə görə heç de Şamaxı ipəyindən geri qalmırdı. Talış xanlığında da ipəkçilik inkişaf etmişdi. Lakin xan əsas gəliri düyüdən və balıqçılıqdan götürürdü. Balıqçılıq Azerbaycanın gəlirli sahələrindən biri idi. Təkcə Xəzər dənizi deyil, Azerbaycanın çayları da nadir növ balıqlarla-ağbalıq, qızılbalıq, ziyad, mahi, uzun- burun, kütüm və s. ilə dolu idi. Rus tacirlərinin Azerbayanda balıq ovuna ciddi maraq göstərmələrini bununla izah etmək olar. Quba xanı balıq ovundan ildə gümüş pulla SO min manat gəlir əldə edirdi.

Sənətkarlıqda da müəyyən yüksəliş hiss olunurdu. Azerbaycan xanlıqlannda toxuculuq işi yayılmışdı. Xalq içindən çıxmış ustalar bir sıra gözəl məişət avadanlığı hazırlayırdılar. Basqal, Müci və Lahıc kəndləri Şamaxı xanlığının istehsalat mərkəzlərindən birinə çevrilmişdi. Basqal və Mücidə ipək parçalar, kəlağayılar. Lahıcda isə mis qablar, tüfəng, xəncər və s. hazırlanırdı. Burada istehsal olunan məhsullar öz kəmiyyət ve keyfiyyətinə görə o dövrün mərkəzi şəhərlərində hazırinan məhsullardan geri qalmırdı.

Şəki xanlığında müəyyən iqtisadi canlanma nəzərə çarpırdı. Burada və Gəncədə milli üslubda gözəl şəbəkələr hazırlanırdı. Onun nümunəsi hazırda XVIII əsrdən bizə yadigar qalmış Şəki «Xan sarayı»nda saxlanır. Şəki və Gəncədə misgərlik, dərzilik, börkçülük, zərgərlik, toxuculuq, boyaqçılıq və s. geniş inkişaf etmişdi.

Qarabağ xanlığında ipək və pambıq parçalardan əlavə gözəl xalça, palaz və şallar toxunurdu. Şərq xalçaları içərisində Azərbaycan xalçalan öz rəngi, davamlılığı, toxunma texnikası ilə fərqlənirdi. Tədqiqatçılar Azerbaycan xalçalannın 1000-ə yaxın naxışını müəyyən etmişlər. Daxili və xarici bazarlarda Quba xalçaları xüsusi şöhrət qazanmışdı. Quba xalçaları böyük ustalıqla hazırlanır və naxışlannın müxtəlifliyi ile İran xalçalarından fərqlənirdi. Ona görə də rus tacirləri Azərbaycanda istehsal olunan sənətkarlıq mə'mulatlanna ciddi mamq göstərirdilər. Azərbaycandan Rusiyaya xam ipək, ipək mə'lu- matı, neft, xalça, quru meyvə və s. aparılırdı. Rusiyadan isə Azərbaycana bir sıra hazır mallar gətirilirdi. Xanlıqlar dövründə əsasən eyni toıpaq mülkiyyət formaları qalırdı. Bunlar dövlət (divan) torpaqları, xalisə, mülk, vəqf və icma torpaqları idi. Xanhqlann ictimai tərkibini iki sinif təşkil edirdi; hakim feodallar və kəndlilər. Torpaqlar əsasən xanları, sultanları, məlikləri, bəyləri, ağadan, ali müsəlman ruhanilərini əhatə edən hakim feodal sinfinin elində idi. Xan həm dövlət başçısı, həm de iri feodal idi. Onun geniş əkin sahələri, saysız-hesabsız mal-qarası, dəyirmanları, karvansarayları, kənd təsərrüfatı alətləri, qoşqu heyvanları və s. var idi.

XVIIl əsrin ikinci yansmda dövlət (divan) torpaqlan ilə xan ailəsinin torpaqlan (xalisə) demək olar ki, birleşmişdi. Bu və ya digər xidmətlərinə görə dövlət torpağında ayrı-ayrı şəxslərə şərti şəkildə verilən tiyul torpaqları XVIII əsrin ikinci yansmda qeyri-rəsmi olaraq nəsilden-nesle keçmiş və bir növ yeni torpaq mülkiyyətinə çevrilmişdi. Kəndlilərin əksəriyyətini xəzinə və xalisə torpaqlarını (divan), xüsusi sahiblərin torpaqlarını (mülk və tiyul) və ruhani idarələrinin torpaqlarını (vəqf) becərən rəiyyət təşkil edirdi. Kəndlilərin sayca nisbətən az olan digər qrupu rəncbərlərdən ibarət idi. Onların torpağı və istehsal alətləri olmadığından feodallann təsərrüfatında işləyirdilər. Azərbaycanda rəncbərlərin vəziyyəti xüsusilə ağır idi. Çox vaxt müflisləşmiş rəiyyət ailəsi ölməmək üçün öz kiçik torpaq sahəsini feodala satmağa məcbur olur və beləliklə də rəncbərə çevrilirdi. Başqa ölkə və xanlıqlardan köçüb gələn və yaxud qaçqın kəndlilər də

vancberlik hüququ ilə torpağa təhkim olunurdular. Xanların hərbi xidmətində olan və bunun müqabilində bə’zi mükəlləfiyyətlərdən azad edilən bir qism elatlar maaf adlanırdılar. Onlar sülh, əmin-amanlıq vaxtı xanlığı qoruyur, müharibədə iştirak edirdilər.

Yenə əvvəlki kimi, vergi və mükəlləfiyyətlərin çoxu məhsulla alınırdı. Müxtəlif xanlıqlarda malcehətin miqdarı məhsulun onda bir hissəsindən üçdə bir hissəsinə qədər idi. Bundan əlavə, çoxlu başqa vergilər, o sıradan darğalıq, bayramlıq, evlənmə pulu, töycü, mancanaq pulu, toxucu pulu, dəyirman pulu dabbaq pulu, duz pulu, qapan pulu, xırdavat pulu, şirəxana pulu, ilxıçı, vəzirlik, at arpası, cizyə, otaq xərci, bağbaşı. dımaqlıq, cütbaşı. səlyanə, peşkəş, zəkat, xüms, msum və s. alınırdı. Bunlardan başqa şəhər əhalisindən bazar gözətçiləri və vergi yığanlar üçün də müəyyən vergi toplanırdı. Kəndlilər torpaq sahiblərinin xeyrinə biyar və əvrəz'^ adlı işləyib ödəmə mükəlləfiyyətlərini də icra edirdilər. Dövlət və feodallardan torpaq icarə edən kəndlilərin vəziyyəti son dərəcə ağır idi; icaı*ə haqqı olaraq məhsulun yarıya qədəri almırdı. Eİatlär süıiiləri artırjıx, qoyunları qırxır, feodalın yaylaq təsərrüfatı ile əlaqədar olan müxtəlif işləri' yerinə yetirir, həmçinin otlaqlardan istifadə etmək üçün vergi verirdilər.

Xanlıqlar yarandıqdan sonra zərbxana açıb pul sistemində dəyişiklik etdilər. Xanlıqların çoxu öz pulunu kəsirdi. Naxçıvanda, Təbrizdə, Gəncədə, Penahabadda, Şəkidə, Şarnaxıda,.Bakıd4..və Dərbənddə zərbxanalar var idi. ^ier'lbiY^tam və. gümüşdən. çəİ^isi azaldılmış 14 ä$b’üöı\aT femiyə%kV'ä^İl¥ıV attasıVar Iffir-birindən fərqlənirdi. Bu dövrdə rus və hind pulları, hollad çervonundan da istifadə olunurdu.

Xanlıqların ərazisi mahallara bölünmüşdü. Hər mahal bir sıra kəndlərdən ibarət idi ki, onlar da kəndxudalar tərəfindən idarə olunurdular.

Naib şəhər inzibati idarəsinə başçılıq edirdi. Bura qalabəyi, esasbaşı, darğa və s. daxil idi. Xan və feodalların mənafeyi keşiyində duran üç cür məhkəmə idarəsi vardı: divan, şəriət və əsnaf məhkəmələri. O dövrdə Azərbaycanda qadınlar xüsusilə hüquqsuz vəziyyətdə idilər. Hərəmxana həyatı, qadınların qul kimi alınıb-satılması adi hala çevrilmişdi. Şəriət qayda-qanunları, onları demək olar ki, bütün hüquqlardan məhrum etmişdi.

Biyar ildə fiç gündən altı günə, əvrəz isə 2 günə bərabər idi.
Çəkisi 7,33 qramdan 5,3 qrama enmişdi.

Sinfi mübarizə. Xanlıqlarda feodal istismarmın, feodallar və onların vergi >uğanlarj tərəfindən edilən özbaşınalığın güclənməsi şəhər və kənddə sinfi ziddiyyətləri kəskinləşdirirdi. Kəndlilər öz ‘torpaq sahiblərinin yanından qaçır, bə’ziləri kiçik dəstələr yaradıb feodalları öldürür, onların malikanələrini yandırırdılar. Onlar silahlı üsyana da əl atırdılar. XVIIl əsrin ikinci yarısında Şəki xanlığının Küngqt kəndində Məhəmməd Hüseyn xan Müştaq əleyhinə böyük üsyan'qalxdı. Lakin xanın cəza dəstəsi üsyanı qəddarlıqla yatırdı.

XVIII əsrin 60-80-ci illərində Şamaxı, Naxçıvan və Dərbənddə feodal zülmünə qarşı çıxışlar oldu. Lakin bu çıxışlar kortəbii xarakter daşıdığı üçün tezliklə yatırıldı.

## § 6. MƏDƏNİYYƏT

Azərbaycan XVII əsrdə də Səfəvi imperiyasının inkişaf etmiş mədəni ölkələrindən biri idi. Azərbaycan ərazisinin Səfəvilər və, osmanlılar tərafindən dağıdılıb xarabazära çevrilməsi, xalqın mədəni həyatında silinnıəz ağır iz buraxdı. Çoxlu incəsənət əsəri, ədəbiyyat, me’marlıq abidələri dağıdıcı müharibələr nəticəsində yer üzündən silindi.

XVII əsrin biffnci yarısında, son on ilini çıxmaqla Osmanlı qılıncından və əsirlikdən xilas olmuş Azərbaycan mədənnyyətinip böyük nühTray^ndelöri' ‘İfa’fırW- mərk'öZı' vä'yörilläHriJİ ‘ Kaşaha, qısr

astronom alimlərinin qısa tərcümeyi-halı göstərir ki, onların çoxu «Osmanlı işğalı illərində» vətəni tərk edib İran şəhərlərində özlərinə sığınacaq tapmışdılar. Osmanlı qoşunu Azərbaycanın adlı-sanlı adamlarını, mahir səntkarlarını əsir aparırdılar. '

Əgər XVI əsrin əvvəllərində Təbriz sarayında yaradılmış ədəbi məclis üzvlərinin çoxu Azərbaycan dilində yazırdısa, XVII əsrdə İsfahan sarayında iki dildə - Azərbaycan və əsasən, fars dilində şe’r yaranırdı. Bununla belə, XVII əsrdə Azərbaycan mədəniyyəti öz milli əlamətlərini və xüsusiyyətlərini saxlayırdı. Bu hal fars mədəniyyəti ilə qarşılıqlı əlaqədə davam edirdi.

Məktəb və maarif. Məktəb və maarifi mhanilər idarə edirdilər. Yaxın ölkələrdə olduğu kimi, Azərbaycanda da uşaqlar təhsili məscidlərin nəzdində təşkil edilmiş məktəblərdə alırdılar. Məktəbə davamiyyət 10 yaşdan başlayır və bütün gənclik illərini əhatə edirdi. Təhsilin davam etdirilməsi birbaşa maddi imkanlardan, həmçinin şagirdin

meyl və qabiliyyətindən asılı idi. Orta məktəb mədrəsə adlanırdı, ali təhsil müddətində tibb, fəlsəfə, astronomiya, ədəbiyyat və digər elmlərin ayn-ayn nümayəndələrinin mühazirələri dinlənirdi. Təhsil Yaxın və Orta Şərq ölkələnndə olduğu kimi, Azərbaycanda da fanatizm ruhunda aşılanırdı (şahın qarşısında müt'ilik, səcdə etmək və s.). Elmdə doqmatik təMimin əksinə çıxış edən ayrı-ayrı alimlər müstəsnalıq təşkil edir, onlar kafir adlandırılır, müxtəlif tə*qiblərə mə'ruz qalırdılar.

Ümumi məktəblərə əhalinin orta, bo'zən yoxsul təbəqələrinin uşaqları gedirdilər. Feodalların uşaqları aşaqı təbəqənin uşaqları ilə ünsiyyətdə olmamaq üçün «Sare-xane»də (evdə) təhsil alırdılar. Təhsilin müxtəlif pilləsində dayanan şagirdlər bir sinifdə topləşır, onlara müəllimlər - axund, molla, mektəbdar və onun köməkçisi- xəlifə nəzarət edirdilər. Xəlifə axund tərəfindən yuxarı sinif şagirdlərindən tə'yin edilirdi. Dərsi axund və onun köməkçiləri deyirdilər. Dərs müxtəlif səpgidə aparılırdı, klassik Azərbaycan və fars ədəbiyyatından dərs vəsaiti kimi istifadə olunurdu. Qur'an kursunu dinləmək hamı üçün məcburi idi.

Şagirdlər dərsi xorla oxuyur, mətni məktəbdə öyrənirdilər. Məktəbdə bədən cəzası geniş tətbiq edilirdi. J.Şarden qeyd edirdi ki, şagirdlər dərsi qurtardıqdan sonra atalarının yanına gəlir, onlardan sənətkarlığı və digər peşələri öyrənirdilər.

XVII əsrin ortalarında Azərbaycanda olan Evliya Çələbi yazırdı ki, təkcə Şamaxıda 40 ibtidai və 7 orta məktəb vardı. Şah Səfi tərəfindən tikdirilmiş məscidlərin nəzdində çoxlu ayrıca otaqlar - hücrələr vardı, orada tələbələr yaşayırdılar həmin səyyahın hesablamasına görə, o vaxta qədər Təbrizdəki ibtidai məktəblərin sayı 600, orta məktəblərin sayı 47-ye çatırdı. Evliya Çələbiyə görə məktəblər abad idi. Burada dünya şöhrətli alimlər elmin müxtəlif sahələrini tədris edirdilər. Onlardan Mirzə Məhəmməd Meczuba Təbrizi (1657- 1658), İman təxellüslü Molla Mö'min, Mir Əli Nağı Ərdəbili, Mövlana Ələkbər Şirvani, Molla Əliqulu Xalxali, Mirzə İbrahim Ordubadi və s. xüsusilə fərqlənirdilər.

XVII əsrdə Azərbaycanda maarif əsas e'tibarilə şəhər əhalisi arasında yayılırdı. Kəndli kütlələrinin böyük əksəriyyəti elm və təhsildən kənarda qalırdı. Azərbaycan şəhərinin hər məhəlləsində bir neçə məktəb var idi, kənd yerlərində bir məktəb bir neçə kəndə xidmət edirdi. Dövlət bürokratiyası və divanın mə'mur kadrlan bir qayda olaraq şəhərlərdə gənclərdən hazırlanırdı. Onların içərisində kəndli gənclər cüz'i idi.

Dil və ədəbiyyat. XVII əsrdə Azərbaycan dili bütün Səfəvi imperiyasında, xüsusilə hakim sinfin içərisində geniş yayılmışdı. Səyyahlar göstərirdilər ki, XVII əsrdə şah sarayında, həmçinin adlı-sanlı-adamların ailələrində Azərbaycan dilində danışırdılar. J.Şarden xalq məsəlinə isnad edərək Azerbaycan türk dilini hakim dil adlandırırdı. Bu vaxt Azərbaycan türkcəsi «saray dili» adlanırdı, bütün e'yanlardan bu dili kamil bilmək tələb olunurdu. Azərbaycan türkcəsi Sefevilərin doğma dili idi. Bunu müasir İran tarixçiləri de e'tiraf edirdilər. Nesrul- lah Fəlsəfi yazır: «türk dili Səfəvi sarayının rəsmi dili idi». Əhməd Kəsrevi, həmçinin öz tədqiqatlarında belə nəticəyə gəlib ki, «Səfəvi dövrüvde İranda türk (Azərbaycan *-S. M.)* dilinin yayılması inkişafın kulminasiya nöqtəsinə çatdı».

Bu vaxt türk dillərinə mənsub olan orijinal, zəngin Azerbaycan dilində xeyli poetik və nəsr əsərləri yarandı. Mənbələr göstərir İd, II Şah İsmayıl Sani təxəllüsü ile Azərbaycan dilində şe'r yazırdı.

XVII əsrdə fars ədəbiyyatı tənəzzül dövrü keçirirdi. XVI -XVII əsr Azerbaycan şairlərinin səciyyəvi xüsusiyyəti ondan ibarət idi ki, onlar əsərlərini fars dilində də yaradırdılar.

XVII əsrin ortalarında ən iste'dadlı şairlərdən biri Qövsi Təbrizi • ^ idi. Onun divanının əlyazması Gürcüstan və Britaniya muzeylərində saxlanılır. Divanına daxil edilmiş odaya əsasən deyə bilərik ki. Qövsi Təbrizi Qarabağ bəylərbəyi Uğurlu xan tərəfindən himayə olunurdu. Nəsrabadinin iqrarına görə, Qövsi elm öyrənmək üçün Təbrizdən İsfahana gəlmişdi.

XVII əsr ədəbiyyat aləmində Qövsi Təbrizi en parlaq simalardan biri olmuşdur. O, azadlıq və vətənə məhəbbət ideyasını böyük sənətkarlıqla vəsf edir, istismarçılara nifrətini, yoxsullara, sadə adamlara, istismar olunanlara bütün varlığı ilə bağlılığını bildirirdi.

Saib Təbrizi - Mirzə Əbdürrəhman oğlu Mirzə Məhəmməd Əli Təbrizdə doğulmuş və ibtidai təhsilini orada almışdır. XVII əsrdə yaşamış azərbaycanlı Vəliqulu Şamlı qeyd edirdi ki, I Abbasın göstərişi ilə Saibin ailəsi təbrizlilerin kütləvi sürgünü vaxtı İsfahanda yerləşdirilmişdi. Ticarətlə məşğul olan atasının Təbrizdə geniş nüfozu var idi. Saibin uşaqlıq və gənclik illəri Təbrizdə, sonra isə İsfahanda keçmişdi. Şair vətəni Azərbaycan və Təbriz haqqında həmişə böyük məhəbbətlə danışırdı. Öz əsərlərində doğma vətəninin gözəlliyini

Fiziki cəhətdən zəif olduğundan həmişə əyilə-əyilə, kədərli gəzər, qövs şəkli alardı. Ona görə də şair Qövsi təxəllüsü götürmüşdü.

vəsf edir, onu «təmizlənmiş torpaq», «cennətebənzer diyan> adlandırır. Saib qəzəllərinin birində Təbrizin yüksəkliyini, başqa şəhərlərdən onun üstünlüyünü göstərir. Özünün poetik iste’dadınm fonnalaşma- sında Təbrizin xidmətindən danışır.

XVII əsr Azərbaycan və fars şairləri içərisində Saib layiqli yer tutur. Nəsrabadi onu Səfəvi dövıü ədəbi fikrinin başçısı hesab edir. Y.E.Bertels isə S.Təbrizini XVII əsrin hafizi adlandırır.

.S.Təbrizi son dərəcə məhsuldar şair olmuşdur. O, 120 min beyt şe’rin müəllifidir. Təəssüf ki, o şe’rlərin çox az qismi Azerbaycan dilinə çevrilmişdir. Saib .77 yaşında İsfahanda vəfat etmiş, orada da dəfn ojunmuşdur.

MəsHıi Ruknəd-Din Məs’ud l580-ct ildə Kaşari şəhərinə ehtimal ki, Səfəyi-Osmanlı müharibələri ile əlaqədar mühacirət etmiş Azərbaycanlı ailəsində doğulmuşdur. O, Azərbaycan dilində yazılmış üç əsərin müəllifidir. Onlardan Britaniya muzeyində saxlanan, 1655-ci ildə yazılmış «Verqa və Gülşa» adlı nadir nüsxə bizə gəlib çatmışdır. Əsər 5000 beytdən ibarətdir. Öz e’tirafma görə «Dane və dam», «Zənbur və asal» adlı əsərləri də şe’rlə yazılmışdır.

Məsihi İsfahanda ədəbi, həmçinin tibbi təhsil aldığından hakimliklə de məşğul olurdu. Ona görə xalq arasında həkim Ruknəd-din çağınrdılar. O, şe’rlərini Azerbaycan və fars dillərində yazırdı. 100 min beyt şe’ri mə Tumdur.

I Şah Abbas m.şərəfinə «Vərqa ve Gülşa» əsərini yazmağa başla**yan** Məsihi'**sonfälafrfindistaria** getmişdi. I **Abbasın** ölümündən **sonra** ölkəyə qayıtmış və eserini onun xələfi Şah Səfiyə təqdim etmişdir. Lakin şah sarayı Məsihini himayə etməmiş, şair ehtiyac içərisində yaşamış, qoca yaşlarında Şiraza getmiş, sonra Kaşana qayıtmış və 1655-1656-cı illərdə dünyadan köçmüşdür.

Tərzi Əfşar XVII əsrin əvvəlində Urmiya ətrafında yerləşən Təi'zi kəndində doğulmuşdur. Öz vətənində təhsil almış ve İsfahanda təhsilini davam etdirmişdi. Ağır ehtiyac içərisində olmasına baxmayaraq, şair təhsilini tekmilleşd|rıniş. Azərbaycan dilindən əlavə, fars və ərəb dillərinə də kamil yiyələnmişdi. Azərbaycan və fars dillərində şe’r yazan Tərzi fars poeziyasında yeni məktəb yaratmışdı. Lakin bu məktəb orijinal olsa da, sonralar inkişaf etdirilməmişdir.

Gənc Tərzi Yaxın ve Orta Şərq ölkələrinə səyahətə çıxmış, Hindistan, Ərəbistan, Türküstan ve Kiçik Asiyada olmuşdur. Şe’rlərində Təbriz mövzusu geniş yer mtur. Buna görə də Y.E.Bertels onun təb- rizli olduğunu ehtimal edir. Tərzi bir neçə dəfə Şamaxıda və Gəncədə

olmuş. Azərbaycanın böyük şairi Nizami Gəncəvinin vətənini yüksək qiymətləndirmişdi. Alman şərqşünası Q.Ete qeyd edir ki. Tərzi Əfşar «Mə'dan ül-cevahir» (Cevahirat bulağı) adh hekayələr toplusunu hind şahı Nəsrəddin Cahangirə (1605 -1627) təqdim etmişdi.

Tərzi Əfşarın irsi XVII əsrdə Azərbaycanın və bütün Səfəvi dövlətinin sosial-iqtisadi, siyasi və mədəni həyatını öyrənmək baxımından dəyərlidir.

Məşhur Azərbaycan rəssam-naturalisti və tezkirəçisi Sadıq bəy Əfşar (1534-1612) Təbrizdə doğulmuş. Müzəffər Əlinin yanında rə.s.samlıq təhsili almışdı. Azərbaycan ədəbi dilində yazdığı «Məcmə lil-xovvas» adlı əsərində Azərbaycan şairləri haqqında dəyərli mə'lu-mal vermişdir. Onlardan Ətiqi Şirvani, Mövlana Şərif Təbrizi, Pirqulu boy, Məhəmməd Evoğlu, Fikri Ordubadi və s. göstermək olar. O, qeyri-adi şairlik iste'dadına, xariqüradə rəssamlıq məharətinə, incə xəttatlıq sənətkarlığına və təzkirəçi alimin geniş görüş dairəsinə malik idi. Məhəmməd Əli Terbiyyat onun qələmindən çıxan 10 bədii ə.sərin adını çəkir. Sadıq bəyin yaradıcılığında əsas yeri miniatür yə portret janrı tuturdu. İsgəndər Münşi naqqaşlar içərisində dünya şöhrətli mö'cüzə yaradanlar sırasına Sadıq bəyi de daxil edir. Rəssamın müasiri şair Qoruri təsdiq edir ki, onun hər bir qrafik işi üç tümən dəyərində idi. Hindistanda isə daha baha satılırdı.

XVII əsrdə saray ədəbiyyatından əsaslı surətdə fərqlənən şifahi xalq ədəbiyyatı xeyli inkişaf etmişdi. Bu ədəbiyyatda geniş xalq kütlələrinin arzusu və istəyi öz əksini tapmışdı. Öz kəsəri ile istismarçılara, feodallara, ruhani nümayəndələrinə qarşı çevrilmiş şifahi xalq ədəbiyyatı xalqı onlara qarşı qətiyyətli döyüşlərə çağırırdı.

XVII əsr Azərbaycan xalq poeziyasının en görkəmli nümayəndələrindən biri Tufarqanh Aşıq Abbasdır. Əsrin əvvəllərində yaşayan Abbasın həyat və yaradıcılığı barədə natamam məMumat qalmışdır. Doğma Azerbaycan, xüsusilə Təbriz, Dərbənd, Tufarqan şəhərləri onun yaradıcılığında xüsusi yer tutur. Qoşma, geraylı, divani, müxəmməs və s. yazmışdır. Yaradıcılığında ictimai bərabərsizlikdən, dövrandan şikayət, dərd və kədər motivləri ilə yanaşı zülm və haqsızlığa qarşı e'tiraz, xalqı birliyə və mübarizəyə çağırış ruhu da öz əksini tapmışdır. Didaktik və dini məzmunda şe'rlər də yazmışdır. Məhəbbət mövzusunda lirik şe'rləri məşhurdur. Şe*rləri orijinal bədii təsvir vasitələri ilə zəngindir. Yaradıcılığı aşıq şeYlərinin inkişafına güclü lə'sir göstermiş, «Abbas və Gülkəz» dastanı isə onun həyatı və şe'r- ləri əsasında qoşulmuşdur.

San Aşıq XVfl esrde yaşayıb yaratmışdır. Onun bayatıları qeyd kitabçalarının ayrı-ayn səhifələrində kiçik parçalarla birgə dövrümüzədək gəlib çatmışdır. San Aşıq haqqında ilk mə'lumatı XIX əsrin təzkiraçisi Qaradaği verir və qeyd edir ki, San Aşıq Cənubi Azərbaycanın Qaradağ mahalmdandır. Sonralar o. Zəngəzur mahalının Gülə- bird kəndinə köçmüşdü (indiki Laçın rayonu). Haqq Aşığı, Qərib Aşıq adları ilə tanınan Sarı Aşıq gözəl bayatılar ustası idi. Yaradıcılığmda əsas yer tutan aşiqanə şeirlərində vüsal həsrəti təbii və təisirli ifadə edilmişdir. Bir sıra bayatılarında həyatdan narazılıq, şikayət, kədər motivləri də əksini tapmışdır. Qoşma və bağlamalar da yazmışdır. Lakin onların az qismi dövrümüzədək gəlib çatmışdır. Şe'rlərində xalq dilinin bədii imkanlanndan məharətlə istifadə etmiş orijinal təşbeh, bənzətmə və cinaslar işlətmişdir. Sarı Aşığın Yaxşı adlı qızla nakam məhəbbətindən bəhs edən «Yaxşı və Aşıq» dastanı qoşulmuşdur. Şe’rlərini ilk dətə Salman Mümtaz 1927-ci ildə «Aşıq Abdulla» adlı kitabında çap etdirmişdir. Həmin şe’rlər l935-ci ildə «Sarı Aşıq və bayatılaD) adı ile yenidən nəşr olunmuşdur.

Sarı Aşığın yaradıcılığı öz səmimiliyinə, xalqa yaxınlığına görə cəlbedicidir. Onun irsi məhəbbətlə qorunmuş, nəsildon-nəslə ötürülmüşdür.

Xəstə Qasım (təq. 1684-1760) Azərbaycanın şair-aşığıdır. Təbriz yaxınlığındakı Tikmədaş kəndindəndir. XVII əsrin sonu-XVIII əsrin əvvəllərində yaşamış və yaradıcılığının ilk dövründə lirik səpkidə şe’rlər yazmışdır. Lakin o, daha çox xalq şe’ri üslubunda yazdığı əsərləri-gəraylı, qoşma, təcnis, bayatı, bağlama və qıfılbəndləri ilə şöhrət qazanmışdır. Yaradıcılığında əxlaqi-tərbiyəvi fikirlər, nəsihətçilik mühüm yer mtur. Ustadnamələri məşhurdur. Onlarda şair insanları ədalətə, xeyirxahlığa çağırmış, zülmü, şöhrətpərəstliyi, tüfeyliliyi tənqid etmişdir. Bir sıra şe’rlərində zəmanədən, təklikdən, yöxsul- luqdan şikayət motivləri əksini tapmışdır. Xəstə Qasımın məhəbbət mövzusundakı şe’rləri də geniş yayılmışdır. Şer’rleri yüksək bədii sənətkarlığı, poetik dilin xəlqiliyi ile seçilir. O, cığalı təcnisin, qoşma müstəzadın gözəl nümunələrini yaratmışdır. Xəstə Qasım şəhər və kəndləri gəzmiş, aşıqlarla (o cümlədən Dağıstanda Ləzgi Əhməd adlı məşhur aşıqla deyişmişdir. Əsərləri erməni əlitbası ilə də köçürülərək yayılmışdır. Şer’lərini ilk dəfə M.Mamudbəyov toplayıb «SMOMPK» məcmuəsinin 19-cu buraxılışında çap etdirmişdir. O, həmçinin Şamaxının Tircan kəndində (indiki İsmayıllı rayonunda) Aşıq Orucun Xəstə Qasım haqqında «Molla Qasım» dastanını yazıya alıb qısa məzmununu «Kaspi» qəzetində (1895 № 137) dərc etdirmişdir. Xəstə

Qasımın yaradıcılığı aşıq şe’rinin inkişafına əhəmiyyətli tə'sir göstərmişdir.

Tarixi hadisələr və XVII əspde Azərbaycan xalqının azadlıq mübarizəsi məhəbbətlə dildən-dilə keçən xalq dastanlarının yaradılması üçün əsas mövzu olmuşdu. Dastanlarda xalq kütlələrinin arzusu, istəyi, kin-küdurəti, hakim feodallara, yadellilərə qarşı ədalətli mübarizədə onların mərdliyi və hünəri tərənnüm edilmişdir.

Bu dastanlar içərisində «Koroğlu» qəhrəmanlıq dastanı xüsusi yer tutur. «Koroğlu» dastanı Azərbaycanda xalq hərəkatı salnaməsinin ən parlaq səhifələrindən birini əks etdirir və XVII əsrin ən gözəl əsərlərindən biridir.

XVII yüzillikdə Azərbaycan dastanları içərisində «Şəhriyar və Sənubər» dastanı görkəmli yer tutur. Dastan Azərbaycan nəsrinin ən gözəl nümunəsini təmsil edir.

Elm və incəsənət. XVII əsrin əvvəllərində Səfəvi-Osmanlı müharibələri zamanı Azərbaycan elmi böyük itki verdi. Onun çoxlu nümayəndələri məhv edildi, çoxları İran şəhərinə köçürüldü.

XVII əsrin birinci yarısında Azerbaycanın mədəni həyatında diqqətəlayiq şəxsiyyətlərdən biri Yusif bin Məhəmmedcan Qarabağı Məhəmməd Şahidir.

Azərbaycan alimləri əsrin ikinci yarısında Səfəvi imperiyasının bir sıra elm sahələrinə yeni istiqamət verməyə başlayırdı. Mirzə Məhəmməd Təbrizi, Molla Mö’min İman, Molla Əliqulu Xalxali, Molla Vaqif Xalxali, Nəcibəddin Rza Təbrizi, Mövlanə Rocəbəli Vahid Təbrizi və b. kimi ölkənin mədəni həyatının ön səhnəsinə çıxan alim və şairləri yazıb yaradırlar. Onların içərisində Mövlana Mirzə Məhəmməd bie Həsən Şirvani xüsusilə fəxri yer tuturdu.

XVII əsr Azerbaycan incəsənəti XVI əsrdə bütün Yaxın Şərqdə tanınmış Təbriz rəssamlıq məktəbi əsasında inkişaf edirdi. Səfəvilərin idara etdikləri hər yerdə böyük hörmətlə qarşılanan gözəl rəssam-miniatürçülər nəsli yetişdi.

Məşhur xəttat, I Abbasın kitabxanasının müdiri Əli Reza Təbrizi böyük neqqaş-miniatürçü, Təbriz miniatür məktəbinin ən'ənələrinin görkəmli davamçılarından biri idi. 1585-ci ildə Təbriz osmanlılar tərəfindən tutulduqdan sonra Əli Reza şəhəri tərk edib Qəzvinə getdi və orada gənclərə xəttatlıq öyrətdi, eyni zamanda öz sənətkarlığını təkmilləşdirdi.

Əli Reza Təbrizi həm də incə omamentçi idi. Şahın fərmanı ile o, iki il Məşhəddə qaldı və şiələrin səkkizinci imamı Musa ər-Rezanın

mezan omamentinin tərtibatı üzərində işlədi. Onun işləri indi de XVII əsr incəsənətinin gözəl nümunəsi kimi Məşhəddə «Rezevi» muzeyində saxlanır. Əli Rezanın təvəllüdü və vəfatı tarixi me'lum deyil, lakin 125 yaşında öldüyü bəllidir.

Osmanlı yürüşləri ilə əlaqədar vətəni tərk etmiş görkəmli Azərbaycan neqqaşlarından biri də Seyid Əli Təbrizidir. O, 16 cilddən ibarət nağıllar tərtib etmişdi. Bu cildlərin hər səhifəsini rəssam fırça ilə bəzəmişdi.

Qeyd etmək lazımdır ki, incəsənət rəssamlıq, miniatür əsərləri ilə sıx təmasda inkişaf edirdi. İncəsənətin nümayəndələri, adətən böyük şəhərlərdə yaşayıb yaradır, ən məşhurları isə şah kitabxanasının ətrafında toplaşırdılar. XVII əsrdə biz Təbriz miniatür və rəssamlıq məktəbinin nümayəndələrinə İsfahanda şah saraylarında təsadüf edirik. Onlar zəngin Təbriz məktəbinin qədim ən'ənəlerinə sadiq qalaraq yeni İsfahan rəssamlıq məktəbi yaratmışdılar. Beləliklə, Azərbaycan nəqqaşlıq məktəbi yeni formada özünü göstərir və nümayəndələr yctişdirirdi.

Kitab və xəttatlıq. XVII əsrdə Azərbaycanda kitaba xüsusi maraq vardı. Hər bir imkanlı adam şəxsi kitabxanasında olan kitabların sayı və mövzusunun genişliyi ilə fəxr edirdi. Səfəvi şahları və qızılbaş ə'yanlan I İsmayıldan başlayaraq messenat'^ rolunda çıxış edirdilər. Onların öz saraylarında müxtəlif əsərlərin ən yaxşı əlyazma nümunələri saxlanan kitab evləri vardı.

Şah kitabxanalarında olan kitabların sayı, adi kitab anbarlannda olan kitabların sayından çox idi. 1 Şah İsmayılın fərmanı ilə məşhur rəssam Kamaləddin Behzadın (1455-1535) saray kitab evinə kələntər (başçı) tə'yin edilməsi onu gösterir ki, kitab evi həm de bir sıra ixtisaslaşdırılmış şö'bələrdən ibarət olan böyük bədii e'malatxananı xatırladırdı. Burada dövrün ən böyük sənətkarları çalışırdılar.

I Şah İsmayıl tərəfindən əsası qoyulmuş saray kitab evi I Təhmasibin dövründə zənginləşdi, II İsmayılın vaxtında isə tamamilə yenidən quruldu. I Abbasın vaxtında şah kitab evində tariximizə, ədəbiyyatımıza aid müxtəlif dillərdə külli miqdarda kitab vardı. Qazi Əhməd Mir Münşi buranı «çiçəklənən kitab evi» adlandırırdı, ll İsmayılın vaxtında saray kitab evinin himayəçisi Sadıq bəy Əfşar, sonra isə Əli Rçza Təbrizi olmuşdur.

II Abbas da saray kitab evinə xüsusi qayğı göstermişdir. O, Mirzə Mükimi şah kitab evinin hamisi tə'yin etmişdi.

Elm və incəsənət hamisi.

XVII əsrdə Avropadan tərqli olaraq Azərbaycanda kitab çapı işi zəif idi. II Abbasın vaxtında Avropadan mətbəə avadanlığı gətirilməsinə təşəbbüs göstərilmişdi. Lakin kifayət qədər vəsaitin olmaması, daha sonra isə II Abbasın ölümü bü işə:mane oldu. Xələfi Şah Süleyman isə kitabsevər alimlərin təkliflərihə qulaq asmadı.

XVII əsrdə kitabların köçürülməsi 0x geniş vüs'ət alsa da, hər halda kitab çapını əvəz edə bilmədi. Kitab köçürənlər içərisində çoxlu ixtisaslaşmış xəttat və mirzələr var idi. Onlar yalnız kitab evinin və ya feodal elm və incəsənət hamilərinin sifarişi ilə işləyirdilər. Məsələn; 1592 ' 1596-cı illərdə Qızılağacda Azərbaycan xəttatı Əli Feyzi məşhur özbək alimi, ədəbiyyatşünas və dövlət xadimi- Əlişir Nevainin (1441-1501) seçilmiş əsərlərini Ərdəbil hakimi Fərhad xan Qaraman- lının kitabxanası üçün köçürmüşdü.

XVII əsrdə kitabların köçürülməsinin geniş yayılması; abidələr üzərindəki yazıların öyrənilməsi üçün gərək olan, xəttatlığın inkişaf etdirilməsinə səbəb oldu. Beləliklə, XVI əsrdə Təhmasibin samyında təşkil edilmiş xəttatlıq məktəbi XVII əsrdə inkişaf edirdi.

Azərbaycan və fars xəttatlığı XVII əsrdo Mir Əbdülbaqi Danişınəndin, Oli Reza Təbrizi Abbasın, Mir İmad Qəzviniriin, əsrin sonunda Məhəmməd Mö'ının Təbrizinin əsərlərində başa çatdı.

Beləliklə, XVII əsrdə öz orijinal cizgilərini qoruyub saxlayan Azərbaycan mədəniyyəti Səfəvi imperiyasına daxil olan başqa xalqlarla sıx qarşılıqlı əlaqə şəraitində inknşaf etmiş və daha da zənginləşmişdi.

XVIII əsr mədəniyyəti. AzerbäyCan xalqi azadlıq uğrunda gər gin mübarizə aparmaqla yanaşı mədəniyyəti də inkişaf etdirirdi. Təbrizdə, Şamaxıda, Bakıda və Dərbənddəki məktəblərdə dərslər əsasən ərəb və fars dillərində keçirilirdi. Bü məktəblərdə təhsil almış adamlar mə'mur, mirzə və ya ruhani vəzifələri tuturdular. Mcdrəsələrdə təhsil almış şəhər ziyalılarının bir qrupu şe'rə böyük maraq göstərir, qəzəl yazır. Füzulini təqlid edirdilər. ' ' ^

XVIII əsrdə elm sahəsində ciddi irəliləyiş olmamış, lakin tarix, coğrafiya və başqa sahələrə dair bir sıra eserlər yazılmışdı. Alimlərdən coğrafiyaşünas Hacı Zeynalabdin Şirvani və tarixçi ƏbdüiTƏzzaq bəy məşhur idilər. Zeynalabdin Şirvani Qafqaz, tran, Türkiyə və Hindistan səfərindən aldığı təəssüratı xüsusi əsərlərdə ümumiləşdirilmişdi. Həmin dövrdə yaranmış tarixi icmallardan «XVIII Əsr Car mü-^ haribəleri salnaməsi» idi. Bu əlyazmasında həmin vilayətin əhalisinin Nadir şahın qoşunlarına qarşı apardığı niübarizƏ əks olunurdu.

Azərbaycan ədəbi dili inkişaf etməkdə idi. Səfəvilər sülaləsinin meydana gəlməsi və inkişafı tarixindən bəhs edən «Xanedan-Səfəvi» adlı tarixi əsər məhz Azərbaycan dilində yazılmışdı. Azerbaycan dili xarici tə'sirlerdən və yad istilahlardan get-gedə daha çox təmizlənirdi.

Azərbaycan ədəbiyyatında bir-birinə əks olan iki cərəyan-realist xalq ədəbiyyatı və saray ədəbiyyatı daha güclü şəkildə özünü göstərirdi. Şifahi xalq yaradıcılığı və aşıq poeziyası daha da inkişaf etmişdi. Gənc Azerbaycan şairləri Xəstə Qasım, Saili, Saleh, Urfani, Molali, Aşıq Abbas Tufarqanlı və Sarı Aşığın üslubunda qoşma və bayatılar yaradır, xalqın arzu və istəklərini tərənnüm edirdilər.

Azerbaycan ədəbiyyatının bir sıra nümayəndələrinin əsərlərində xalqın ağır heyatına qarşı e'tiraz səsi duyulurdu. Poeziyada vətənpərvərlik və xalqlar dostluğu ideyaları xeyli güclənmişdi.

Tarixi mövzuda yazılan mənzumələrin müəllifləri Nişat Şirvani, Şikəstə Şirin, Nebi idi. Onların əsərlərində dözülməz, ağır həyatdan narazılıq, dövrdən şikayət və kədər notlan başlıca yer tuturdu. Şakir Şirvani «Şirvan haqqında dastan» adlı müxəmməsində 1743-cü ilin qanlı hadisələri - Nadir şahın qoşunu tərəfindən darmadağın edilmiş Şamaxı üsyanı təsvir olunmuşdur. XVIII əsrin ikinci yansında Şirvan- dakı ara müharibələrinin təsvirinə diger görkəmli şair Ağa Məsihi müxəmməs həsr etmişdir. Şikəstə Şirin öz poemasını İran işğalçılan tərəfindən dağıdılmış Tiflisin faciəsinə həsr edərək deyirdi:

Ay ağalar, tarixlərdə görən var.
Çox olubdur qalmaqalı Tiflisin.
Neçə-neçə şahlar gəlib-gedibdi,
Heç olmayıb belə halı Tiflisin.

Şair Qafqaz xalqlarını həmrə'yüyə» azadlıq uğrunda mübarizəyə çağınrdı. XVIII əsr Azərbaycan poeziyası, xüsusilə aşıq şe'ri Qafqaz xalqlarının poeziyasına güclü tə'sir edirdi. Gürcüstanda, Ermənistanda və Dağıstanda Azərbaycan şeV nümunələri geniş yayılmışdı.

XVIII əsr Azerbaycan ədəbiyyatına maraqlı nəsr nümunələri vermişdir. «Şəhriyan> dastanı bu baxımdan daha çox diqqəti cəlb edən ədəbi abidədir. Əsərdə ictimai bərabərsizliyin ifşası aydın nəzərə çarpır. «Oğru və qazi» novellasında isə qanun keşiyində duran qazi oğnı ilə yanaşı qoyulur. Onlann hər ikisi de müxtəlif üsullarla sadəlövh adamlan aldadır və qarət edirlər.

XVIII əsrin ən görkəmli şairləri Vaqif və Vidadi idi. Molla Vəli Vidadi 1709-cu ildə Şəmkirdə anadan olmuş, Qarabağda sonra isə

ğürcG çan n İraklinin sarayında yaşamışdı. Vidadi yüksək sənətkarlıqla yazdığı şe’rləri ile lirik Azeıtaycan poeziyasını zənginləşdirirdi. Şairin əsərlərində dərin bir bədbinlik duyulurdu. Lakin Vidadinin kədəri yalnız onun şəxsi kədəri deyil, vətən kədəri, xalq kədəri idi. O, ədəbiyyata qoşma və gəraylılar müəllifi kimi daxil olmuşdur. Vidadi Qafqazın qonşu xalqlanna böyük məhəbbət bəsləyirdi. Vidadinin «Vaqif», «Çoxdandır», «Ağlarsan» və s. şe’rleri xüsusi əhəmiyyətə malikdir.

Molla Pənah Vaqif 1717-ci ildə Qazax mahalının Qıraq Salahlı kəndikdə anadan olmuşdu. Əvvəllər Qazax mahalında və Gəncədə, sonralar isə Qarabağda yaşamışdı. Zəngin bilikli şair Qarabağ xanının sarayında baş vəzir olmuş və xanlığın idarə edilməsində xüsusi rol oynamışdı.

Vaqifin yaradıcılığında məhəbbət mövzusu esas yer tutur. Şairin şe’rləri xalq dilinin zənginliyini əks etdirir və*realizmi, milli təravəti, orijinallığı, nikbinliyi ile səciyyələnir. Vaqif öz sələflərinin realist meyllərini davam etdirərək onu ədəbi bir cərəyan səviyyəsinə qaldırmışdı. Vaqifin realist yaradıcılığı Azərbaycan, ədəbiyyatının inkişafında böyük rol oynamış və Azərbaycan şairlerinin sonrakı nəsillərinə güclü tə’sir göstərmişdi. Onun bir sıra şe’rlərində feodal cəmiyyətində ictimai ədalətsizliyə qarşı e’tiraz səsi eşidilir.

Şəki xanları sarayında yaşayan Hacı Məhəmməd, Zare, Rəfai və Şəki xanı Məhəmməd Hüseyn xan Müştaq saray şe’r ən’ənələrinə sadiq qalaraq nəzirəçiliyi davam etdirirdilər. «Feodal-ruhani görüşlərini təbliğ edən bu şairlərin esas mövzuian din idi.

XVIII əsrin ikinci yansında Şəkide Süleyman adlı bir şair də yaşayırdı. Onun Vaqife böyük tə’siri olmuşdur. Vaqif Süleymanın şe’r-lərinə nəzirə yazmışdı. Süleymanın şe’rlərində lirika üstün yer tuturdu.

XVIII əsrdə Azərbaycanda musiqi, rəngkarlıq və me’marlıq inkişaf etməkdə idi. Peşəkar xanəndələr xalq içərisində yaşayan qədim muğam və mahnılara yeni təsniflər qoşurdular. Aşıq yaradıcılığı yenə də kütlələr tərəfindən məhəbbətlə sevilirdi. Bu dövrdə saz, tar, kamança, balaban, zurna, tütək, nağara, dəf kimi musiqi alətləri geniş yayılmışdı,

1762- ci ildə Şəki xaniığınuı Hacı Zeynalabdin Şirazi tərəfindən Şəkidə tikilmiş sarayı, Şəkixanovlar evi. Cümə məscidi. Gileyli məscidi zəngin naxışlarla bəzədilmişdi. Bakıda, Qubada, Şuşada və Azərbaycan xanlıqlannın başqa mərkəzlərində istehkamlar, yeni inzibati və yaşayış binalan tikilmişdi. Bunlar Azəıbaycan me’marlıq və rəssamlıq sənətinin ən gözəl abidələri idilər.

## X V f0sil

# ŞİMALİ AZƏRBAYCANIN ÇAR RUSİYASI TƏRƏFİNDƏN İŞĞALI

### § I. İŞĞALIN BAŞLANMASI

XIX yüzilliyin başlanğıcında Azərbaycanın xarici siyaşi vəziyyəti, **XyiII** yüzilliyin sonu - **XIX** yüzilliyin əvvəllərində Azərbaycanın daxili və xarici siyasi vəziyyəti çox mürəkkəb idi. Əvvəl Şəki, sonra isə Quba xanlıqlarının Azərbaycan torpaqlarını öz ətraflarında birləşdirmək, vahid Azərbaycan dövləti yaratmaq cəhdləri baş tutmadı. Buna bir tərəfdən ölkənin sosial-iqtisadi geriliyi, digər tərəfdən isə xarici istilalar İran və Rusiyanın bu yerlərə qəsbkar yürüşləri mane olıtıdu. Ayn-ayn xanlıqların hakimlərinin yalnız öz xanlığını qoruyub saxlamaq cəhdi və bir-birlərinə güzəştə getməmələri də bu işə ciddi maneçilik törədirdi. Belə bir şəraitdə Azərbaycana göz dikmiş İran, Türkiyə və Rusiyanın hərbi plaıilarma qarşı dura biləcək vahid qüwe yox idi.

Rus əsilzadələri vƏ tacirlərinin mənafeyi keşiyində duran çar Rusiyası yeni torpaqlar;zəbt etməyə, tutduğu yerləri Rusiya sənayesi üçün xammal mənbələrinə, satış bazarlarına çevirməyə can atırdı. Çarizm Xəzəri öz daxili dənizinə çevinnək, Qafqazı zəbt etməklə, cənuba doğru yol açmaqla örtä Asiyanı da ələ keçirmək üçün yeni istinadgah qazanacağına əmin idi. Bir sözlə, Qafqaz təkcə iqtisadi deyil, hərbi cəhətdən də böyük strateji əhəmiyyət kəsb edirdi.

Qərbi Avropa dövlətləri, xüsusən İngiltərə və Fransa da Qafqaza göz dikmişdi; onlar buradakı hadisələri, xüsusən çar Rusiyasının qəsbkarlıq planlarını diqqətlə izləyir, İranı Rusiyaya qarşı silahlandırmaq istəyirdilər. Şərqə münasibətdə daha hiyləgər və təşəbbüskar siyasət yeridən İngiltərə hökuməti 1800-cü ildə öz elçisini İrana göndərib onunla siyasi-iqtisadi müqavilələr bağlamışdı. Həmin müqavilələrə əsasən İranın hƏr hansı bir dövlətin hücumuna mə’ruz qaldığı təqdirdə İngiltərə onıysilah və hərbi müşavirələrlə tə’min etməli idi.

işğalın başlanması. 1801-ci ildə Şərqi Gürcüstan Rusiyaya birləşdirildi. Qazax və Şəmşəddil sultanlıqları Gürcüstandan asılı olduqlarından Şərqi Gürcüstanla birlikdə onlarda Rusiyaya birləşdirilmişdi. Bununla da Azərbaycanın işğalına başlandı.

Rus çan Gürcüstanın ardınca Azərbaycanı ələ keçirmək niyyətində idi. Bu məqsədlə ilk vaxtlar çar müxtəlif yollarla ayrı-ayrı xanları öz tərəfinə çəkmək, onlan himayəsi altına almağa çalışsa da Azərbaycan xanlıqlarının demək olar ki, heç biri Rusiyanın hakimiyyətini qəbul etmək fikrində deyildi. Buna görə də Qafqazda rus qoşunlarının baş komandanı olan general Sisianov Azərbaycanı işğal etmək üçün hərbi plan tutmağa başladı. İlk hədəfi böyük herfji-strateji əhəmiyyətə malik Car-Balakən oldu. 1803-cü ilin yazında rus qoşunları. Alazan (Qanıq) çayı keçidində və Balakən yaxınlığında Car-Balakən müdafiəçilərini məğlubiyyətə uğradıb Balakəni viran etdilər. Balakənin başına gətirilmiş fəlakəti eşidən Car camaatı isə ruslara müqavimotsiz təslim oldu. Ağır məğlubiyyətdən sonra Car-Balakən camaatı öz nümayəndələrini Tiflisə göndərib Rusiyanın ali hakimiyyəti altına keçmələri barədə müqavilə imzaladılar. Bu müqaviləyə görə onlar hər il çar xəzinəsinə 220 pud ipək verməli və rus qoşunlanmn orada yerləşdirilməsina şərait yaratmalı idilər. Rusiya hökuməti isə öz növbəsində Car-Balakenin daxili işlərinə qarışmamalı idi. Lakin çox keçmədi ki, Car camaatı öz azadlığı üçün ayağa qalxdı, 1804-cü ilin əvvəlində Zaqatalaya hərəkət edən rus qoşunları ilə əlbəyaxa olub onlan məğlub etdi, ordu generalını öldürdü. Lakin köməyə gələn əlavə qüvvə ilə rus qoşunları yenidən Car-Balakənə divan lutub, ərazini işğal etdilər.

General Sisianov Car-Balakəndən sonra Gəncə xanlığını ələ keçirməyi qetiləşdirdi və Cavad xana təslim olmaq notası göndərdi. Lakin Cavad xan buna qəti e’tirazını bildirdi.

Cavad xanın dövründə Qazax, Şəmkir, Şəmşəddil və başqa yerlər Gəncə xanlığına daxil edildi. Qarabağla münasibətlər sahmana salındı. Cavad xan sədaqət rəmzi olaraq bir qızını və oğlunu İbrahimxəlil xanın yanma göndərdi. Lakin Gürcüstan Rusiya dövlətinin himayəsinə keçərkən Şəmşəddile görə Çar Georgi ilə Çavad xan arasında ixtilaf düşdü.

Lazarevin başçılıq etdiyi ms qoşunlarının Gəncəyə yürüşünü eşidən Cavad xan ms qoşununun Şemşəddildən çıxıb getməsi şərti ilə həm ruslar, həm də gürcülərlə dostluq münasibətləri saxlamaq istə

diyini bildirsə də çarizmin Qafqazdakı müstəmləkə siyasətini zor gücünə həyata keçirən geveral Sisianov onunla razılaşmadı. Necə olursa-olsun Gəncəni zəbt etmək üçün məqam axtarmağa başladı. Lazarev iki nəfər ermənini məktubuna əsaslanaraq 1803-cü il yanvarın 9-da Sisianova yazırdı: «Bütün Gəncə erməniləri rus ordusunun gəlişini səbirsizliklə gözləyirlər. Gəncə xanının ehtiyat tədbiri yalnız ondan ibarətdir ki, Şəmkirədək ojan yola hər gün on nəfərlik süvari mühafizə dəstəsi nəzarət edir».

Sisianov 1803-cü il fevralın 25-də Cavad xana göndərdiyi ilk məktubunda yazırdı: «...Rus imperatoru Sizi və Sizin xalqı öz himayəsinə götürür. Şərafətli e'timadınızın ən gözəl zəmanəti o olardı ki, xahişimizi nəzərə alaraq yüksək mənsəbli böyük oğlunuz Uğurlu ağanı əmanət kimi Tiflisə göndərəydiniz». Cavad xanın ona cavabı Sisianovu razı salmadığı üçün hərbi əməliyyata başlamaq qəranna gəlir. O, 1803-cü il noyabrın 29-da Şəmkirə çatıb Cavad xana tə'cili məktub göndərir: «...Gəlmişəm ki, şəhərinizi Avropa adəti üzrə tutam.. Sizdən ikicə söz tələb edirəm, birini seçin: hə yaxud yox».

Cavad xan elə həmin gün Sisianova ətraflı bir cavab məktubu yollamışdır: «...Müharibə etmək istəyirsənsə, mən hazır. Əgər öz toplarınla öyünürsənsə, mənimkilər ondan heç de geri qalmır. Sizdə top lüləsinin uzunluğu bir arşındırsa, bizdə üç-dörd arşındır. Uğur isə Allahın əlindədir... Menə müharibəyə hazır olmaq təklif edirsən? Sən Şəmşəddilə girən gündən döyüşə hazıram. Savaşmaq istəyirsənsə savaşaq, hədələyirsən ki, təklifini qəbul etməsəm bəlaya düçar olaram. Əslində bədbəxtlik seni Peterburğdan izleye-izleye bura çəkib gətirib. Bunu zaman, bir də döyüş özü göstərəcək».

Sisianov 1803-cü il noyabrın 30-da Gəncə ermənilərinin namərdliyindən istifadə etmək niyyətilə onlara belə müraciət göndərmişdi: «...Hamınızı emin edirəm ki. Ümumrusiya taxt-tacının müdafiəsinə qalxan hər kəs özünün və əmlakının təhlükəsizliyinə tam te'minat alacaq, müsəlmanların soyğunçuluğundan hər cür tə'qib və sıxışdır- malardan canınız qurtaracaq. Sizə Gürcüstanın hər hansı bir kuşəsində Rusiya dövlətinin sakini kimi asudə yaşamaq hüququ veriləcəkdin).

Sisianov 1803-cü ilin dekabnnda təslim olmaq barədə Cavad xana ultimatum verdi. Cavad xan öz cavabım yubatmadı: «Nə hədlə belə danışırsan, mən ki, sənə tabe deyiləm... «Elə bu gün cavab ver»-bu nə deməkdir? Heç nökərlə də belə rəftar etməzlər. Həddini bil. Məktubu hacan istəsəm, onda da yollaram. Bu bir. O ki qaldı şəhərin təhvil

verilməsinə, xam xəyaldan əl çək. Gəncəyə yalnız meyitlərin üstündən keçə bilərsən. Bildin? Mən öləndən sonra. Özgə cürə yox.»

1804- cü il yanvarın 3-də sübh çağı Gəncə qalasına hər tərəfdən od yağdırıldı. Gəncəlilər cəsarətlə müqavimət göstərir, rus qoşunlarının üzərinə dolu kimi güllə, daş və ox yağdırırdılar. Hucum zamanı xanın döyüşçülərindən 250 nəfər həlak oldu, 500-ü isə əsir alındı. Bu döyüşdə Cavad xan və oğlu Hüseynqulu ağa qəhrəmancasına həlak oldular.

Şəhər çar qoşunları tərəfindən zəbt edilib inzibati dairəyə çevrildi və çar I Aleksandrın arvadının şərəfinə Yelizavetpol adlandınidı. Həmin vaxtlar Gəncə adını çəkənlər bir manat cərimə edilirdi.

Gəncənin tutulması rus qoşununun Azərbaycanın içərilərinə doğru irəliləməsini asanlaşdırdı. Gəncə xanlığından asılı olan Samux hökmdarı Şirin bəy də Rusiyanın hakimiyyəti altına keçdi və hər il Rusiyaya 1000 çervon • xərac verməyi öhdəsinə götürdü.

Birinci Rusiya-İran müharibəsi. Qarabağ və Şəki xanlıqları-; nın tabe edilməsi. Rus qoşunlarının Qafqazda hərbi nailiyyətləri Türkiyə və İranla yanaşı, İngiltərə və Fransanı da narahat edirdi. Avropalılar rus qoşunlarını Qafqazdan Türkiyə və İranın vasitəsilə çıxarmaq məqsədilə onlara hərbi yardım göstərərək Rusiyaya qarşı müharibəyə, təhrik edirdilər. İngiltərənin təhriki ilə İran Rusiyaya öz qoşunlarını Qafqazdan çıxarmaq tələbini irəli sürüb lakin rədd cavabı aldıqdan sonra 1804-cü ilin iyununda ona müharibə e’lan etdİ. İran öz qoşunlarını əsasən indiki Ermənistanın şərqində cəmləşdirmişdi. Buna görə də general Sisianov öz qoşunlannı həmin istiqamətdə aparıb İrəvan-qalasını ələ keçirməyi qətiləşdirdi. Lakin çoxsaylı İran qoşunları ile toqquşmada qələbə qazanmayan Sisianov geri çəkilməyə məcbur olmuş, İran qoşunlan isə itkiyə njə'ruz qaldıqlarından hücuma keçə bilməmişdi.

1805- ci ilin yazında Gəncə yaxınlığında düşərgə salnäış Sisianov İbrahimxəlil xandan, onun öz xarici siyasətində kimə arxalanması haqqında mövqeyini müəyyənləşdirməyi-tələb etdi. Beləliklə, İbrahimxəlil xan Rusiyanı seçməyə məcbur edildi. 1805-ci il mayın l4-də Gəncə yaxınlığındakı Kürəkçay adlı yerdə Sisianovla tbrahimxəlil xan. arasında andlı. öhdəlik imzalandı. Bu müqaviləyə görə, Qarabağ xanı Rusiya çarımn vassalı olur, xarici dövlətlərlə müstəqil münasibətlər saxlamaq hüququndan Rusiya çannın xeyirinə imtina edir, çar

' Bir çervon 3 manata bərabər idi. - Red

xəzinəsinə hər il 8 min çervon bac verməyi öhdəsinə götürürdü. Şuşa qalasında və xanlıq ərazisində rus qoşunlarının yerləşdirilmesine şərait yaradılmalı, İbrahimxəlil xan isə öz nəvəsini baş komandanın qərargahında girov saxlanmaq üçün Tiflisə göndərməli idi. Çar qoşunlarının general-leytenantı hərbi rütbəsini alan xan birbaşa çarı baş komandanına tabe edilirdi. Bununla yanaşı, çar hökuməti xanın və onun qanuni varislərinin xanlığı daxili idarə etmək hüquqlarına heç vaxt toxunmayacağmı öhdəsinə götürürdü.

Yeznəsi tbrahimxəlil xandan bir həftə sonra Şəki xanı Selim xan da Sisianovun iqamətgahına gəlmiş və l805-ci il mayın 21-də Şəki xanlığı da Rusiyanın hakimiyyəti altma keçmək barədə müqaviləni imzalamışdı. Bu müqavilənin de şərtləri Qarabağ xanlığı ilə bağlanan müqavilənin şərtləri ilə demək olar ki, eyni idi.

1806- cı ilin iyununda Şuşa qalasında çar zabiti Lisaneviçin əmri ilə Səlim xanın bacısı və onun əri İbrahimxelil xan, bütün ailəsi ilə birlikdə vəhşicəsinə qətlə yetiriləndən sonra, o, Rusiya himayəsindən imtina etmiş və Şəkidəki rus qarnizonunu Gəncəyə qovmuşdu. Bu hadisədən sonra İran şahzadəsi Abbas Mirzə Şəkiyə kömək məqsədilə 300 sarbaz, Səlim xana isə ləzgilərdən ibarət muzdlu qoşun yığmaq üçün 30000 çervon pul göndərmişdi. Sisianov 1806-cı il sentyabrın 9-da general Bulqakova yazırdı ki, «Kür boyu irəliləyərək xəyanət etmiş Şəki xanını cəzalandırmağa gedir. Bu işdə Şamaxı xanı Mustafa xan da ona kömək etməli və bu «xeyirxahlığın» müqabilində Şəki xanlığının bir hissəsi ona verilməli idi. Səlim xan nəyin bahasına olursa-olsun öz hakimiyyətini saxlamağa çalışırdı. Lakin artıq çarizm Səlim xanı kənar etməyi qətiləşdirmişdi; general Nebolsinin başçılığı altındakı rus qoşunu Şəkiyə istiqamət götürmüşdü.

1806-cı il oktyabrın 22-də Şəki yaxınlığında baş vermiş döyüşdə Səlim xan basıldı və ailəsi ile birlikdə öz xanlığının ərazisində olan Göldək kəndinə qaçdı. Nəsli isə xan olmaq hüququndan məhrum edildi. Hər şeyin eldən çıxdığını görən Selim xan Abbas Mirzənin düşərgəsinə pənah aparmışdı. Çar hökuməti İran şahından üz döndərib Rusiyaya köçən Cefərqulu xanı Şəkiyə hakim tə’yin etsə de şəkililər sakitləşməmişdi. Aşağı və Yuxan Göynük kəndlərinin əhalisi üsyan etmiş, Cefərqulu xana tabe olmayacaqlarını bildirmişdi. Hakimiyyət orqanları 40 nəfər üsyançını tutub e'dam edəndən sonra kəndlərdə narazılıq daha da artmışdı. Xalqın bu cür silahlı çıxışları çarizmin müstəmləkə siyasətinə qarşı e'tiraz əlaməti idi.

1807- ci ilin sonlarında Cetərqulu xana qarşı müvət'fəqiyyətsiz sui- qəsdden sonra çar hökuməti əhalini qorxutmaq üçün Şəkiyə əlavə bir batalyon göndərmişdi. Bçleliklə, silah gücünə Şekide çar idarə üsulu bərqərar edildi.

Şirvan, Bakı və Quba xanlıqlarının İşğalı. Qarabağ və Şəki xanlıqlannin Rusiya tərəfindən işğalından bir ay sonra İran qoşunları Qarabağa hücum etsə də, əvvəl burada, daha sonra isə Gəncədə müvəffəqiyyətsizliyə uğrayıb Tiflisə üz tutmuşdular. Yolüstü İrana tabe olmaq təklifini rədd etmiş Qazax camaatını ram etmək fikrinə düşsələr də onlar tərəfindən ciddi müqavimətə rast gətib geriyə qaçmağa məcbur olmuşdular. Bir İran tarixçisi yazır ki, «Qazax əhalisi İrəvana doğru gedən farslara müqavimət göstərdi. Qazaxlılar İrəvan düzünə qədər olan 18 fərsəxlik (hər fərsəx 6 km-ə bərabərdir - *red.)* məsafənin hər fersəxində İran qoşunlanna tələ düzəldirdilər. Onlar o qədər həyasızlaşdılar ki, şahzadəyə (Abbas Mirzəyə - *red.)* silahdan atəş açdılar».

General Sisianov Rusiya-İran müharibəsində rus qoşunları tərəfində iştirak etmək üçün yerli tayfalardan süvari dəstələri təşkil edirdi. Bu dəstələrə əsasən feodallar, onların nökərləri və maaflar daxil idi.

İranla müharibə aparmaqla eyni vaxtda çar qoşunlan Azərbaycanın digər xalqlarını da özünə tabe etmək üçün ölkənin içərilərinə doğıu irəliləyirdi. General Sisianov Şamaxı, Bakı və Quba xanlıqlannı tezliklə ələ keçirmək fikrində idi. «Qarabağnamə» müəllifi yazır ki, «Sisianovun indi qarşıda duran başlıca məqsədi (Kaspi və Qara) dənizlər arasındakı yerləri ələ keçirməkdən ibarət idi. Sisianovun qoşunları Şamaxı üzərinə yeridi. Hələ 1804-cü ildə və 1805-ci ilin yazında Şirvanın Rusiyanın hakimiyyəti altına keçməsi barədə Sisia- novla Şamaxı xanı Mustafa xan arasında danışıqlar olmuşdu. Sisianov Mustafa xandan Qarabağ və Şəki xanlıqlarının qəbul etdikləri şərtləri eynilə qəbul etməsini tələb edirdi. Lakin Mustafa xan gəlirinin bir hissəsinin Rusiya xəzinəsinə verilməsi tələbindən əl çəkməyi və Şəki torpaqlannın Şirvana qatılmasında ona köməklik göstərməyi Sisia- novdan tələb edirdi. Şamaxı xanı eyni zamanda Cavad rayonunun Qarabağ xanının xeyrinə ondan ayrılmağını və Qarabağdan onun torpaqlarına keçənlərin geri qaytanimayacağı haqqında tə’minaq verilməsini də ondan tələb edirdi. Bundan əlavə, ildə Rusiya xəzinəsinə xərac verməkdən boyun qaçırmaqla bərabər, hətta ona daimi maaş tə'yin etməyi xahiş etmişdi. Lakin xanın bu tələbləri çar hökumətini tə’min etmirdi. Ona görə də 1805-ci ilin noyabrında Sisianovun qoşun

dəstəsi indiki Mingəçevir yaxınlığında Kürü keçib Şamaxı üzərinə hərəkət etdi. Mustafa xan Sisianovun şərtlərini qəbul etməyə məcbur oldu. Lakin o Şamaxı xanlığının Rusiyanın hakimiyyəti altına keçməsi barədə müqaviləyə qol çəkmək üçün Sisianovun düşərgəsinə getmədi. Belə olduqda, Sisianov qoşunlanm Şirvan xanlığı rayonunda cəmləşdirməyə başladı. Mustafa xan öz növbəsində Fitdağdakı qalada gizlənərək hücumu dəf etməyə hazırlaşdı. Dekabnn ortalarıkda rus qoşunu ile Şirvan qoşunu arasında ciddi hərbi əməliyyat olmasına baxmayaraq, Mustafa xan Rusiyanın hakimiyyəti altma keçməsinə razılıq verdi. Şəxsi təhlükəsizliyini nəzərə alan xan, müqaviləni Sisianovun düşərgəsində deyil, Fitdağ yaxınlığındakı çöldə imzalamağa razı oldu. Bu müqaviləyə görə, Şamaxı xam başqa dövlətlərlə əlaqələrini kəsməyi, öz gəlirindən Rusiya xəzinəsinə 8 min çervon ayırmağı, Kür çayının mənsəbində ruslar üçün istehkam tikilməsinə şərait yaratmağı, rus qoşununu ərzaqla təchiz etməyi, yollann təhlükəsizliyinə tə’minat yaratmağı Öz öhdəsinə götürürdü. Beləliklə, l805-ci il dekabrın 25-də Şirvan xanlığı da Rusiyanın tərkibinə qatıldı. Şimali Azerbaycan xanlıqları içərisində en böyük və zəngin xanlıqlardan biri olan Şirvan xanlığının Rusiya tərəfindən işğalının Rusiya üçün böyük siyasi-iqtisadi və hərbi-strateji əhəmiyyəti var idi.

Sisianov Şirvan xanlığını tutduqdan sonra Bakıya doğru hərəkət etdi. O öz qoşununu general-mayor Zavalşinin desant dəstəsi ilə birləşdirərək, l806-cı ilin yanvannda Bakıya yaxınlaşdı və Rusiyanın hakimiyyəti altına keçmək haqqında müqavilə layihəsini Hüseynqulu xana göndərdi. Hüseynqulu xan Sisianovun şərtlərini qəbul etdiyini, lakin Bakı qalası darvazalannm açarlannı ona vermək, həmçinin «bir neçə mexti söz demək istədiyini» bildirdi.

Söhbətin səmimi qurtaracağını güman edən Sisianov ordunu kənarda saxlayıb, podpolkovnik E.Eristavinin müşayiəti ilə xanın görüşünə getmişdi. 1806-cı il fevralın 8-də Bakı qalası darvazasının qarşısında açarlan təhvil verərkən Hüseynqulu xanın əmisi oğlu İbrahim bəy güllə ilə Sisianovu'vurdu, gecə isə başını kəsib Təbrizə, Abbas Mirzəyə apardı. Bu xidməti müqabilində şah ona «xan» titulu verdi və İran qoşun dəstəsinin komandanı tə’yin etdi. Sisianovun qətlindən sonra general Zavalşin rus qoşununu Bakıdan geri çəkib Sara adasında yerləşdirmişdi.

Həmin il iyunun 22-də Dərbənd işğal edilmiş və Rusiyaya rəğbəti olan Əlipənah bəyə mayor rütbəsi verilib şəhərin idarəsi ona tapşınlmışdı.

I806-C1 il sentyabrın 5-de general Bulqakovun komandanlığı ile rus qoşunu yenidən Bakıya yürüşə başlamışdı və əhalidən təslim olmağı tələb etmişdi. O, yerli əhaliyə toxunmayacağını bildirmiş və . sözünə tə'minat məqsədilə oğlunu Bakıya göndərmişdi. Lakin şəhər əhalisi onun sözlərinə inanmayıb dağlara çəkilmiş, xan isə əvvəl Qubaya, oradan da İrana qaçmışdı. Beləliklə, 1806-cı il oktyabrın 3-də Bakı işğal olunmuşdu, Bakı xanlığı isə ləğv edilmişdi. Bundan bir qədər sonra Quba xanlığı da döyüşsüz təslim olmuş, Şeyxeli xan dağlara qaçmışdı.

Bakı və Quba xanlıqlarıma işğalından sonra rus qoşunu Şəkidəki üsyanı yatırmağa göndərildi. Oktyabrın 22-de Səlim xanın silahlı qüv- . vətəri məğlub edildi, xan özü isə İrana pənah apardı. Bunun ardınca mslar üsyan etmiş Car-Balaken camaatının üzərinə hücuma keçdilər. Car-Balakənlilerin köməyinə gəlmiş avar xanını və Dağıstan feodallarının süvarilərini də mühasirəyə alıb onları təslim etdilər.

Azərbaycanın şimal xanhqlarındakı üsyanları yatırdıqdan sonra ^ rus qoşununun baş komandanı general Qudoviç bə'zi yerli feodal hökmdarlan dəyişdi. Məsələn, Dərbənd və Quba xanlıqları müvəqqəti olaraq Tarku şamxahna verildi, bir müddət sonra isə bunlar imperiyanın əyalətlərinə çevrildi. İbrahimxəlil xanın oğlu Mehdiqulu . xan isə Qarabağ xanı tə'yin olundu. Talış xanlığının da istila edilməsinə baxmayaraq çox keçmədi ki, həmin erazi İran qoşunları tərəfindən işğal olundu.

Gülüstan müqaviləsi. 1806-cı ilin sonlarında Türkiyə Rusiya əleyhinə müharibəyə başladı. Hərbi əməliyyatlar Balkan yarımadasında və Qafqazda gedirdi. 1810/11-ci illərdə Rusiya Balkan və Qafqaz hərbi əməliyyat meydanlarında qələbələr qazanaraq sultanı 1812-ci il mayın 16-da Buxarestdə Rusiya ile müqavilə imzalamağa məcbur etdi. Həmin müqaviləyə əsasən Türkiyə Qafqazın böyük hissəsinin Rusiya tərəfindən işğal edilməsi faktını təsdiqləməli oldu.

1812-ci ilin yayında rus xalqı Napoleon ordusuna qarşı Vətən müharibəsinə qalxdı. Napoleon yalnız fransız qoşunlarını deyil, ona tabe olan bir sıra dövlətlərin hərbi qüvvələrini də Rusiya üzərinə yeritmişdi. Rusiya-Fransa müharibəsindən istifadə edən İran ordusu Qafqazda fəal hərbi əməliyyatlara başlayaraq 1812-ci ilin iyununda Xudafərindən keçib Qarabağa soxulmuş və Şahbulağı tutmuşdu. Lakin P.Kotlyarevskinin qoşunu Abbas Mirzənin 20 minlik qoşununu geri çəkilməyə məcbur etmişdi. Həmin ilin iyulunda 2 minlik İran

süvarisi Gəncəyə basqın etsə də, yerli əhali tərəfindən məğlubiyyətə uğramışdı. Bunun ardınca 4 minlik İran qoşunu Şəki xanlığına soxulmuş, lakin oktyabnn 19-dan 20-ə keçən gecə general P.Kotlyarevski 2 minlik ordu ile Aslandüz təpəsində Abbas Mirzənin böyük ordusuna hücum edib qələbə qazanmışdı. Bu döyüşdə İran qoşunundan ölənlərin və yaralananların sayı 120 nəfər idi; 16 nəfər zabit əsir alınmışdı. Rus ordusundan da xeyli ölən və yaralanan var idi.

1813-cü ml yanvann l-də Lənkəran qalası ruslar tərəfindən alındı.

Ruslann bölgədəki hərbi-siyasi müvəfjfəqiyyətlərindən və İranın içərilərinə doğru irəliləməsindən qorxuya düşən ingilis məsləhətçiləri şahı sülh bağlamağa təhrik etdilər. Beləliklə, birinci Rusiya-İran müharibəsi İranın tam məğlubiyyəti ilə qurtardı.

1813-cü il oktyabrın 12-də Qarabağın Gülüstan kəndində sülh müqaviləsi imzalandı. Bu müqaviləni tran tərəfindən şahın vəkili Mirzə Əbdülhəsən xan Şirazi, Rusiya tərəfindən isə Qafqazın yeni baş komandanı Ratişev imzaladılar. Gülüstan sülhünün şərtlərinə görə Talış, Şirvan, Quba, Bakı, Gəncə, Qarabağ, Şəki xaniıqlan Rusiya imperiyası tərkibinə qatıldı. Beləliklə, vahid Azərbaycan iki yerə bölündü. İran Şərqi Gürcüstana, Qazax və Şəmşəddil sultanlıqlarına, həmçinin Dağıstana olan iddialarından əl çekdiyini bildirdi. Lakin İrəvan və Naxçıvan xanlıqları hələlik şahın hakimiyyəti altında qalırdı. Xəzər dənizində hərbi donanma saxlamaq hüququ yalnız Rusiyaya məxsus idi. Bu maddə Rusiya-İran ticarəti üçün əlverişli şərait*yaradır, rus tacirlərini daxili gömrük vergisindən azad edirdi.

Gülüstan müqaviləsi Azərbaycanın Rusiya tərəfindən iki yerə bölünməsinin başlanğıcı oldu.

## § 2 AZƏRBAYCANIN İKİ HİSSƏYƏ PARÇALANMASI

### İkinci Rusiya-İrai müharibəsi. Türkmənçay müqaviləsi

Qafqazın əldən verilməsi faktı ilə heç cür razılaşmayan İran Rusiya ilə yeni müharibəyə hazırlaşırdı. Bu işdə İngiltərə bütün vasitələrlə ona yardım edirdi. 1814-cü ildə bağladıqları müqaviləyə əsasən İngiltərə hökuməti İrana ingilis hərbi müşavirləri göndərir, silahla tə'min edir. Təbrizdə və başqa şeherlərdə silah zavodlarının inşasına köməklik gösterirdi. Şah hökuməti bu tədbirlərdən sonra özünü dirçəlmiş hesab edib Rusiya hökumətinə Gülüstan müqaviləsinin şərtlərinə yenidən baxmağı təklif etdi. Lakin danışıqlar nəticə vermədi. Bundan sonra

iran Rusiyaya qarşı birgə mübarizə aparmaq üçün Türkiyə hökuməti ilə danışıqlara başlayaraq Türkiyənin Rusiya ilə münasibətlərini kəskinləşdirmək üçün bütün vasitələrə al atdı. Həmçinin şah hökuməti öz xanlıqlarını itirdikdən sonra İrana pənah gətirmiş xanlardan da istifadə etmək, onların vasitəsilə Azərbaycan əhalisini Rusiyaya qarşı qaldırmaq fikrində idi.

1826-cı ilin əvvəlində baş vemiış dekabristlər üsyanının Rusiyaya daxili çəkişmələr yaradacağını, bununla da nıs dövlətinin zəifləyəcəyini zənn edən şah müharibə hazırlığını daha da sür’etləndirmiş və 1826-cı il iyulun 16-da 60 minlik ordusu ilə Azərbaycanın şimal torpaqlarına soxuldu. Həmişə olduğu kimi, bu dəfə də ilk hədəf Qarabağ, Şuşa qalası oldu. İran qoşunlarının bir-birinin ardınca edilən həmlələrinə. şəhərin top atəşinə tutulmasına baxmayaraq Şuşanın müdafiəsi yarılmadı. Qala 48 gün mühasirədə qalsa da, təslim olmadı, tran qoşunları vəziyyətdən istifadə edib Azerbaycanın digər toıpaqlanna da hücuma keçmiş, Lənkəranı, Salyanı işğal edərək, əhalinin xeyli hissəsini əsir aparmışdı. İran qoşunları ilə Azərbaycana gəlmiş qaçqın xanlar əhalinin köməyilə Gəncə, Şamaxı, Şəki və s. şəhərləri elə keçirib öz xanlıqlarını bəıpa etmiş, rus qoşun dəstələrini geri oturt- muşdular. Azərbaycan ərazisinə girmiş şah qoşunları əhaliyə amansız divan tutur, cavan kişiləri, qız-gəlinləri əsir aparırdılar. Bir müşahidəçi yazırdı; «Şirvan əyalətini tamamilə dağılmış gördüm. İran süvariləri dəhşətli qarətlər törətmişdilər... Bir çox kəndlər boşalmışdı».

Müharibə başlanandan bir neçə ay sonra Qafqazdakı Rusiya ordusu əlavə kömək aldıqdan sonra əks-hücuma keçib 1826-cı il sentyabrın əvvəllərində Şamxor yaxınlığındakı döyüşdə tran qoşunlarını ağır məğlubiyyətə uğratmışdı. Beləliklə, Abbas Mirzə məcbur olub Şuşa qalasının mühasirəsindən əl çəkmiş və Gəncə istiqamətində hərəkətə başlamışdı. Gəncə yaxınlığında da ruslar üstünlük qazandılar. İran qoşunlarının məğlubiyyəti Azərbaycan torpaqlanmn bə’zi yerlərini ələ keçinniş qaçqın xanlann da müqəddəratını həll etdi. Gəncə əhalisi yenidən çar Rusiyasının əsarəti altına düşməmək üçün üsyan qaldırsa da, qüvvələr bərabər olmadığından rus qoşunları üsyanı boğmuş, əhaliyə amansız divan tutmuşdular. Yalnız Lənkəran xanlığı hələlik İran qoşunlarının tabeçiliyində idi. «Çox keçmədi ki, rus qoşunlan İrəvan və Naxçıvan xanlıqlarını da işğal edib, 1827-ci. ilin sonlarında buradan Azərbaycanın cənub torpaqlarına hücuma keçdilər. Rus qoşunlarının köməyilə hakimiyyəti ələ keçirmək istəyən

feodallar, həmçinin İran zülmündən cana gəlmiş əhalinin bir qismi, onların Xoy və Təbrizə yürüşünə təkan verirdilər. Rus qoşun destelerindən birinin başçısı yazırdı: «Əhali hər yerdə... qoşunlanmızı düşmən kimi deyil, öz himayəçiləri kimi qəbul edərək, qarşılamağa çıxırdı». Rus qoşunları tezliklə Urmiya və Ərdebili də tutdular. Vəziyyətin gərginləşdiyini hiss edən şah danışıqlar aparmaq fikrinə düşdü və 1828-ci il fevralın 10-da Təbrizdən bir qədər cənubda yerləşən Türkmənçay kəndində Rusiya ilə müqavilə imzaladı. Türkmənçay danışıqlarında rus yazıçısı A.S.Qriboyedov və Azərbaycan maarifçisi A.A.Bakixanov da iştirak etmişdilər. Müqaviləyə görə çar Rusiyasının qoşunları Azərbaycanın cənub torpaqlarından çıxarıldı. Yenicə işğal edilmiş İrəvan və Naxçıvan xanlıqları isə Rusiyanın tərkibinə qatılırdı. Şah isə bu müqavilə ilə şimal xanlıqlarının Rusiyanın tərkibinə qatılmasını təsdiq edirdi. Müqavilədə, həmçinin Gülüstan müqaviləsi ilə rus tacirlərinə verilmiş imtiyazların. Xəzər dənizində yalnız nıs hərbi donanmasının saxlanması hüququ da təsdiqlənirdi. Bunlar az imiş kimi İran Rusiyaya 20 mln. manat təzmin verməli və təzminat ödənib qurtarana qədər zəbt edilmiş Azərbaycanın cənub vilayətləri Rusiyanın himayəsində qalmalı idi. Müqavilədə əhalinin İrandan Qafqaza və Qafqazdan İrana sərbəst keçməsinə icazə verilirdi.

Rusiya-İran müharibəsi qurtaran ərəfədə Rusiya-Türkiyə münasibətləri kəskinləşməyə başladı və 1828-ci ilin aprelində müharibəyə gətirib çıxardı. Qafqaz cəbhəsində rus qoşunlarının tərkibində dörd Azərbaycan süvari alayı iştirak edirdi. Bu alaylar, əsasən, çara can-başla qulluq edib torpaq sahələri, vəzifələr almağa can atan bəylərdən, onların nökərlərindən və maaflardan təşkil edilmişdi. Müharibədə qənimətlər ələ keçirib varlanmaqla şimikləndirilmiş bu alaylar bir sıra şəhərlərin alınmasında şücaət göstərmişdilər. Türkiyə hökuməti lus qoşunlarının ölkənin içərilərinə doğru yeriyəcəyindən ehtiyatlanıb müqavilə bağlamağa tələsdi. 1829-cu ildə Ədimədə imzalanan müqavilə ilə Türkiyə Ön Qafqazın çar Rusiyası tərəfindən zəbt olunmasını təsdiqləməli oldu.

Azərbaycanın şimal torpaqlarının Rusiya tərəfindən zəbt edilməsilə Azərbaycan xalqı öz dövlət müstəqilliyini itirmiş və zorla iki hissəyə bölünmək kimi tarixi ədalətsizliyə düçar olmuşdur. Beləliklə, Azərbaycan çar Rusiyası zadəganlarının və sənaye sahiblərinin xammal bazası, tacirlərin satış bazarına çevrilmiş, iqtisadiyyatı müstəmləkə iqtisadiyyatı xarakteri almışdı.

## XV fəs H

# AZƏRBAYCAN XIX ƏSRİN 30-40-cı İLLƏRİNDƏ

### § 1. İNZİBATİ İDARƏ SİSTEMİ. TƏSƏRRÜFAT HƏYATİ

İnzibati idarə sistemi. Şimali Azərbaycan xanlıqlan çar qoşunları tərəfindən tutularkən ruslara müqavimət göstermədikləri üçün Qarabağ, Şəki və Şamaxı xanlıqlarında idarə sistemi olduğu kimi saxlanılmışdı. Gəncə, Bakı, Quba xanlıqları isə müqavimət gösterdiklərinə görə ərazilərində xan üsuli-idarəsi ləğv edilmişdi. Lakin hakimiyyətdə qalan xanların da ömrü uzun sürmədi. 1819-1826-cı illər arasında Şəki, Şamaxı, Qarabağ və Lənkəran xanlıqlannda da xan üsuli-idarəsi ləğv edildi. Azerbaycanda mərkəzi şəhəri Şuşa olan «Müsəlman əyalətləri rəisliyi» yaradıldı. Bu idarənin başında rus zabiti dururdu. Keçmiş xanlıqlar və sultanlıqlar əyalətlərə və dairələrə çevrilmiş, 6 eyalət-Bakı, Quba, Şəki, Şirvan, Qarabağ və Talış, 2 daire-Yelizavetpol və Car-Balakən, 2 distansiya - Qazax və Şemşəd- dil təşkil edilmişdi.

Əyalət və dairələrin də başında çar zabiti dururdu. Bu, komendant idarə üsulu adlanırdı. Qafqazın baş komendantı tərəfindən tə’yin olunan həmin komendantlann bəylərə torpaq bağışlamaq, yaxud geri almaq, həmçinin digər siyasi-inzibati hüquqları var idi. Ümumiyyətlə, yerlərdəki komendantlar mütləq hakim hesab olunurdular. Onlann təkcə ölüm hökmü vermək hüquqlan yox idi.

Əyalətlər xanlıqlar dövründə olduğu kimi mahallara bölünürdü. Mahalların başında komendantların yerli bəylərdən tə’yin etdiyi mahal naibləri dururdular. Mahal naibləri vergiləri kəndlər arasında bölüşdürür, camaatı vergiləri vaxtında ödəməyə məcbur edir, kəndlilər arasında baş verən mübahisə və dava-dalaş doğuran məsələləri həll edirdilər. Kəndləri isə ketxudalar idarə edirdilər. Onlann hər birinin yanında bir neçə onbaşı və yasovul olurdu. Mahal naibləri və kətxudalar dövlət xəzinəsindən maaş almırdılar. Onlar vergilərin bir qismini özlərinə götürür, yaxud da komendant onlara boş torpaq və həmin torpaqları becərmək üçün rəncbərlər bağışlayırdı.

Şimali Azərbaycanın bə’zi əyalətlərində və şəhərlərində məhkəmələr yaradılmışdı. Bu məhkəmələrə komendantlar sədrlik edirdilər, iclasçılar isə bəylərdən seçilirdi. Xanlıq zamanında olan gözçıxarma, qulaq, burun kəsmək kimi ağır cismani cəza tədbirləri ləğv edilmişdi. Mülki məhkəmələrlə yanaşı, şəriət məhkəmələri də fəaliyyət göstərirdi. Hər əyalətdə ruhani başçılan qazılar idilər. Onlar eyni zamanda şəriət məhkəmələrinə başçılıq edir, nikah, boşanma, vərəsəlik və s. kimi işlərə baxırdılar.

Komendant üsuli-idarəsi camaatı ağır istismara, zülmə və özbaşınalığa mə’ruz qoyurdu. Həm komendantlar, həm də onların tə’yin etdikləri mahal naibləri vergi toplayarkən zorakılığa yol verir, camaatı soyurdular. Komendantlar onun bir sözünü iki edənlərlə, itaət göstərməyenlərlə amansız rəftar edirdilər. Lənkəran komendantının bu əyalətin bir neçə sakinini suda boğdurması faktı mə’lumdur. Hətta çar mə'murlarınm özləri də komendantların zorakılığını e*tiraf etməyə məcbur olmuşdular «Dairə rəisləri, komendantlar və başqa başçılar mənfəətpərəstlik və qızğın özbaşınalıq əsasında hərəkət etmişlər».

Təsərrüfat həyatı. XIX yüzilliyin əvvəllərində Şimali Azərbaycanın ərazisində baş verən Rusiya-İran müharibələri ölkənin iqtisadiyyatına ciddi ziyan vurmuş, minlərlə adamın öldürülməsi, əsir aparılması, yaxud başını götürüb qaçması nəticəsində əhalinin sayı xeyli azalmışdı.

Məsələn, Rusiyanın işğalından əvvəl Qarabağda 10 minədək ailə yaşayırmış, 1812-ci ilin siyahıyaalma me'lumatına görə isə onların sayı 3 mindən bir qədər çox imiş. Gülüstan müqaviləsindən apnra yaranmış dinclik nəticəsində qaçqınların bir qismi geri qayıtmış, əhalinin sayı yenə artmışdı. Bu qayıdışa o zaman idarə orqanlarında qulluq edən Azərbaycanlı mə’murların da köməyi olmuşdu. Məsələn, kətxuda Hacı Əli 1812-ci ildə Yelizavetpol dairəsinin 2 min əhalisinin öz kəndlərinə qayıtmasına yardım göstərmişdi. Cəbrayıl kətxudası Yaqub ağa 1813-cü ildə Qarabağdan İrana əsir apanlmış 811 ailənin vətənə qayıtmasını təşkil etmişdi. Üç il ərzində təkcə Qarabağa 4 minə qədər ailə qayıtmışdı.

Bu dövrdə Azərbaycana erməni axını da olmuşdu. Həm 1804 - 1813-cü, I826-1828-Cİ illər Rusiya-İran müharibələrinin gedişində, həm də sonralar ermənilərin İran, Türkiyə və Cənubi Azərbaycandan Ön Qafqaza, o cümlədən də Qarabağa göçürülməsi nəticəsində burada onlann sayı sün’i şəkildə artırılışdı. Təkcə 1826-1828-ci illərdə İrandan və Azərbaycanın cənub erazilərindən Ön Qafqaza, o cümle-

Qarabağa 18 min ermeni ailəsi köçürülmüşdü. Çünki Türkmençay müqaviləsinə görə ermənilərin maneəsiz olaraq İrandan köçməsinə icazə verilmişdi. Bu akt ermənilərin İrandan Qafqaza, o cümlədən Qarabağa və Naxçıvan, İrəvan mahalına kompakt halda köçmələrinə imkan yaradırdı. İki il ərzində, «1828-ci ildən 1830-cuilədək, biz Qafqaza 40 mindən çox İran və 84000 Türkiyə ermənisi köçürdük və onları erməni əhalisinin cüzi olduğu Yelizavetpol və İrəvan quberniyalarının ən yaxşı toıpaqlarında yerləşdirdik: onlara 200000 desyatin- dən çox xəzinə torpağı ayrıldı».

Kənd təsərrüfatında sün'i suvarmadan istifadə olunurdu. Azərbaycanın bir çox yerində suvarma arxları var idi. XVIII yüzilliyin sonlarında İran və Rusiya qoşunlaniın Şimali Azərbaycana yürüşləri, XIX yüzilliyin əvvəllərində Azerbaycan ərazisində baş vermiş müharibələr suvarma şəbəkəsinə böyük ziyan vurmuş, suvarma arxlannın çoxunu sıradan çıxarmışdı. Doğrudur, 30-cu illərdən başlayaraq bə'zi arx larin bərpaşına başlanılsa, onlann bir qismi yararlı hala salınsa da. Kür, Araz kimi, onlarla başqa təbii su monbeleri olan Azərbaycan üçün bu arxlar kəndli əkinlərini suvarmağa kifayət etmir, quraqlıq illərində təsərrüfatın məhvinə səbəb olurdu.

Azərbaycanın kənd təsərrüfatında əkinçiliklə yanaşı maldarlıq da mühüm rol oynayırdı. Maldarlığın əsas səhəleri qaramal və qoyun- çuluq olsa da, atçılıq da xeyli inkişaf etmişdi.

İpəkçilik yenə də əhalinin faydalı məşğuliyyətindən biri idi. Şəki əyaləti barama istehsalında bütün Qafqazda birinci yeri tuturdu. XIX yüzilliyin ortalarında Azerbaycan Qafqazda istehsal olunan baramanın 85 faizini verirdi. Şəki ilə yanaşı, Şamaxı,Car-Balakən, Yelizavetpol və Quba əyalətlərində də əhali ipəkçiliklə məşğul olurdu. Baramanın bir hissəsi yerli ipək e'malı fabriklərində e'mal olunurdu i|k belə ipək e'malı müəssisəsi 1827-ci ildə Şəki yaxınlığındakı Xanab.«.'da fəaliyyət göstərirdi. Baramanın çox hissəsi isə Rusiyaya və xaric: ölkələrə ixrac olunurdu.

Azərbaycan kəndində qızılboya, pambıq, tütün də becərilirdi. Lakin bu təsərrüfat sahələri zəif inkişaf etmişdi. Bckı əyalətində zə'fəran istehsalı geniş rəvac tapmışdı. Beş-altı kəndi istisna etməklə, Apşeron yanmadasında olan kəndlərin hamısında zə'fəran becərilirdi.

Kənd əhalisinin məşğul olduğu digər təsərrüfat sahələri bağçılıq və üzümçülük idi. Azərbaycanın iqlimi bu təsərrüfaq sahəsinin hər yerdə, xüsusən Bakı, Yelizavetpol, Şəki, Şamaxı, Quba əyalətlərində. Ordubadda inkişafına yaxşı şərait yaradırdı. Bu regionlarda elə

kəndlər vardı ki, əhalinin başlıca məşğuliyyəti bağçılıq və üzümçülük idi. Azrbaycandan xeyli meyvə qurusu, qoz-fındıq ixrac olunurdu.

Şəhərlər. Sənətkarlıq. Sənaye. Ticarət Azərbaycanın Rusiya tərəfindən işğalından sonra ölkədə sənətkarlıq və ticarət öz inkişafını davam etdirmiş, manufakturalar yaranmışdı. Rəsmi mə’lumata görə Şamaxı, Şəki, Bakı, Qarabağ, Quba və Lənkəran əyalətlərində 8 minədək sənətkar var idi. Sənətkarların böyük əksəriyyəti tək, yaxud ailə üzvləri ilə birlikdə işləyir, bə'zi sənət sahələrində muzdlu fəhlə əıneyindən də istifadə edilirdi. Şəhərlərdə dəmirçi, dabbaqçı, xamut- çu. dulusçu, qalayçı və s. sənətkarlıq sahələri inkişaf etmişdi. Şamaxı əyalətinin Lahıc kəndi silah və mis qablar istehsalı ilə məşhur idi.

Azərbaycan xalçaçılannın şöhrəti bütün dünyaya yayılmışdı. Bu sahədə əsasən qadınlar çalışırdı. Ölkədə ipəksarıma və ipəktoxuma işi də xeyli inkişaf etmişdi. Barama mancalıq adlanan dəzgahlarda açılır və ondan ipək sarınırdı. Şəki bu sahə üzrə də fərqlənirdi. Qafqazda ilk dəfə olaraq məhz Xanabad kəndində ipəksanma fabriki fəaliyyətə başlamışdı. 1830-cu ildə bu fabrikdə 20 ipəkaçan dəzgah var idi. 50-ci illərin ortalannda ilk dəfə məhz bu fabrikdə buxarla işləyən dəzgahlar quraşdırılmışdı. Bu o deməkdir ki, Azərbaycan ipəksanma sənayesinin inkişafında manufaktura mərhələsindən fabrik mərhələsinə qədəm qoyur. Vartaşendə də kiçik ipəksanma müəssisəsi fəaliyyət göstərirdi. Şəki mahalının ipəkçilik sahəsində qazandığı nailiyyətlər 1843-cü ildə burada ipəkçilik təcrübə məktəbi açmağa təkan olmuşdu.

İpəktoxuma sənətinin inkişaf etdiyi Şamaxı əyalətində isə 30-cu illərdə 2 minədək usta və şagirdin çalışdığı 700-dek e'malatxana fəaliyyət gösterirdi. Azərbaycanda istehsal olunan ipək mallar Qafqazın digər şeherlərinə, hətta rus quberniyalarına da ixrac olunurdu. Lakin çarizmin müstəmləkə siyasəti Azerbaycanda sənayenin deyil, xammal bazasının inkişafına maraqlı olduğundan Ölkə dövrün istehsal mexanizmi ilə ayaqlaşa bilmirdi.

Azerbaycan torpaqlan faydalı qazıntılarla zəngindir. Hələ XIX yüzilliyin əvvəllərində Gədəbəy yaxınlığında, mis yataqlarının olması faktı elmə me’lumdur. Lakin Azərbaycanda ən əsas yeraltı sərvət neft idi. Bakiətrafı kəndlərdəki 120-dən çox neft quyusundan ildə 200- 220 min pud neft çıxarılırdı. Azəzbaycan Rusiyaya ilhaq ediləndən sonra bütün neft quyulan çar hökumətinin ixtiyarına keçmişdi. Beləliklə də neft quyulan sənayesində iltizam sistemi başlamışdı. Bu o deməkdir ki, hökumət hər dörd ildən bir bütün neft quyularını müey-

yen mebleğ müqabilində bir neferik-iltizamçının istifadəsinə verirdi. İltizamçıdan başqa heç kim həmin neft quyularını istismar edə bilməzdi. İltizamçımn bu inhisar hüququ neft istehsalının artmasına mane olurdu. Neft mə’dənlərində oraya təhkim edilmiş feodal-asılı kəndlilərin əməyindən istifadə olunurdu. Onlar əsasən Bineqədi və Balaxanı kəndliləri idilər. Mə’dənlerdə işləyən kəndlilər vergilərdən azad edilsələr de çox cüzi əmək haqqı alırdılar.

Quyuların qazılması, təmizlənməsi, neftin çıxailması və daşınması əl ile görülürdü. XIX yüzilliyin ortalarında, ye’ni ABŞ-dan 12 il əvvəl ilk dəfə olaraq Bakıda neftin buruqla qazma yolu ilə çıxarılmasına təşəbbüs göstermişdi. Bakı neft mə’dənlərində Azərbaycandan çox- çox uzaqlarda məşhur olan neftçi ustalar nəsli işləyirdi. Bu ustalar Kubandan neft çıxarmağa də’vət olunmuşdular. Onlar bir müəllifin yazdığı kimi, «Azov denizi yanındakı yarğanda olan qumluqdan neft çıxaraıaq qaydasını kəşf etmişdiləD>. Bakı ustalan «Neft kəşf olunarkən və quyular qazılarkən göstordikleri se’y və zəhmət müqabilində gümüş medallara layiq görülmüşdülər. Dünyada neft e’malı, yə’ni ağ neftin alınması texnikası da hələ XIX yüzilliyin 30-cu illərində Bakıda tətbiq edilmişdi.

Bakiətrafı göllərdə narın xörək duzu da istehsal olunurdu. Xəzər dənizində və Kür çayında balıqçılıqla da məşğul olurdular. Təkcə Salyan vətəgələrində lOOO-dek muzdlu fəhlə çalışırdı.

Azərbaycanda sənətkarlığın inkişafı, yeraltı sərvətlərin istehsalı təkcə rus tacirlərinin deyil, digər əcnəbi tacirlərin və iş adamlaı ının diqqətini cəlb edirdi. Rusiya, həmçinin başqa Avropa ölkələri ilə ticarətdə Bakı limanı da mühüm rol oynayırdı. Gəmiçiliyin inkişafı Həştərxan və s. limanlarla əlaqələrin artmasına, gəmiçiliklə məşğul olan yerli şirkətlərin yaranmasına səbəb olurdu. Xəzər dinizində gəmiçiliklə məşğul olan «Qafqaz və Merkuri» şirkətinin yaranması məhz bu dövrə təsadüf edir. Bir tərəfdən Rusiya ile Qafqaz arasında, digər tərəfdən isə tranla apanlan ticarət üzərində gömrük haqqının az olması Azərbaycanın İranla da geniş ticarət əlaqələri saxlamasına yaxşı şərait yaradırdı. Təkcə 1829-cu ildə trandan Bakıya 2 mln. manatdan çox mal gətirilmişdi. İranla quru yolla da ticaret əlaqələri saxlanılırdı.

Vahid Ümumrusiya pul, ölçü, çeki sisteminin yaradılması, rəhdar gömrüklərinin ləğv edilməsi Azərbaycanda ticarətin inkişafına, ümumiyyətlə, Azərbaycanın iqtisadi həyatına müsbət te’sir göstərmişdi.

Sənətkarlığın və ticarətin inkişafı Azərbaycanda şəhər həyatının canlanmasına səbəb olmuşdu. Şəhər əhalisinin xeyli hissəsini tacirlər və sənətkarlar təşkil edirdi. Şimali Azerbaycanda 1843-cü ilin əvvəlində 4 min sənətkar ustanın yandan çoxu şəhərlərdə yaşayırdı. Şəhər əhalisinin bir hissəsi əkinçiliklə də məşğul olurdu.

## § 2. AZƏRBAYCANDA AQRAR MÜNASİBƏTLƏR. SİNFİ MÜBARİZƏ

Kənddə sosial münasibətlər. Şimali Azərbaycan torpaqları Rusiyanın tərkibinə qatıldıqdan sonra xanların, həmçinin Rusiya tərəfə keçməkdən imtina edib qaçmış feodalların torpaqları dövlət .xəzinəsinin ixtiyarına keçmişdi. Bu toıpaqları becərən kəndlilər də xəzinənin sərəncamında idi. Onları dövlət kəndliləri adlandırırdılar. Dövlət torpaqları ilə yanaşı, feodal və bəy torpaqları da var idi. Həmin toıpaqları becərən kəndlilər isə sahibkar kəndliləri hesab olunurdular. Say e'tibarilə sahibkar kəndliləri dövlət kəndlilərindən təxminən üç dəfə az idi. Sahibkar və dövlət kəndliləri rəiyyətlərə və rəncbərlərə bölünürdülər. Xanlıqlar dövründə olduğu kimi raiyyətlər xəzinə və bəy torpaqlannı öz əmək alətləri ilə becərir, götürdükləri məhsulun bir hissəsini xəzinəyə, yaxud bəylərə verirdilər. Rəncbərlərin isə nə torpağı, nə də əmək aləti var idi. Onlar hüquqi cəhətdən də rəiyyətlərdən fərqlənir, daha ağır vəziyyətdə yaşayırdılar. Rəncbərlər öz ağalarına xidmət edir, onların təsərrüfatlarında çalışırdılar. Rəncbərlərin bir qisminə xəzinə, yaxud bəylər toxum, əmək aləti, qoşqu heyvanı verir, bunun müqabilində rəncbərlərin becərdikləri məhsulun yarısını alırdılar. Lənkəran əyalətində rəncbərləri əkərlər adlandırırdılar. İstər dövlət kəndliləri, istərsə də sahibkar kəndliləri torpaqdan icmalıqla istifadə edirdilər. Bu o deməkdir ki, kəndin istifadəsində müəyyən qeder torpaq olur və kəndlilər vergiləri icmalıqla ödəyirdilər. İcma torpaqları hər 4-5 ildən bir icmalann 15 yaşına çatmış kişiləri arasında bölünürdü. Kənd icması onun payına düşən vergiləri kənddə yaşayan ailələr arasında, bu ailələrdə olan kişilərin sayına, yaxud istifadə etdiyi torpağın miqdarına uyğun olaraq tarazlayırdı.

Bəylərin irsi mülkiyyətində olan torpaqlar xanlıqlar dövründə olduğu kimi mülk, onlara ömürlük və ya müvəqqəti istifadəyə verilmiş torpaqlar isə tiul adlandırılırdı. Ruhanüərnn və ruhani idarələrinin de sərəncamında toıpaqlar var idi. Bu torpaqlar vəqf adlanırdı.

Azərbaycan kəndlilərinin istifadəsində olan torpaq sahəsi onun ailəsinin ehtiyaclarını ödəmirdi: həmin dövrdə az torpaqlıhq geniş yayılmışdı. Digər tərəfdən isə çar hökuməti Rusiyanın müxtəlif yerlərindən hətta İrandan Azərbaycana əhali köçürür, ən yaxşı torpaqları onların istifadəsinə verirdi. Elə hallar olurdu ki, yerli kəndlilərin istifadəsindəki torpaqların bir qismi onlardan alınıb gəlmələrə verilirdi. Bu isə Azərbaycan kəndində az toıpaqlı və tamamilə toıpaqsız kəndlilərin sayının artmasına səbəb olurdu. XIX yüzilliyin birinci yarısında Rusiyadan köçürülənlər Azərbayanda bir sıra kəndlərin əsasını qoymuşdular.

Kəndlilər istifadə etdikləri torpaqların müqabilində dövlət xəzinəsinə və bəylərə vergilər verir, mükəlləfiyyətlər daşıyırdılar. Vergilər əsasən natura ilə ödənirdi. Lakin bə’zi yerlərdə natura ilə ödənilən vergilər pulla əvəz olunmuşdu. Ən geniş yayılmış vergi - malcəhət idi. Bu, kəndlinin becərdiyi məhsulun onda birindən beşdə birinə qədərini təşkil edirdi. Bağ sahiblərindən bağbaşu otlaqlardan istifadə edən maldarlardan çöpbaşı və s. vergilər toplanırdı. Hələ 30-cu illərin əvvəllərində Azərbaycanda vergi sisteminin yoxlanışı keçirilmiş və müəyyənləşdirilmişdi ki, kəndlilərin ödədikləri vergilər və daşıdıqları mükəlləfiyyətlər çox müxtəlifdir. Məsələn, Şirvan əyalətində vergilər hər kəndə, Qarabağda hər evə, Lənkəranda isə hər mahala te’yin olunurdu. Vergi toplanışmdakı belə özbaşınalığın qarşısını müəyyən mə’nada almaq məqsədi ilə çar hökuməti vergi sistemində cüzi dəyişikliklər etmiş, bə’zi əyalətlərdə pulla ödənilən verginin miqdarını artımıışdı. Lakin bu da kəndlilərin vəziyyətini nəinki yaxşılaşdırmamış, əksinə, vergilərin qədərini çoxaltmışdı. Vergilərin pulla ödənilməsi kəndlinin məhsulu satışa çıxarmasına imkan verməklə yanaşı, əmtəə-pul münasibətlərinin inkişafına, feodal məhdudluğuna da zərbə vurur, digər tərəfdən isə kəndliyə ağır başa gəlir, onu müflisləşdirirdi.

Azərbaycan kəndində təhkimçilik hüququ yox idi.

**Müstəmləkə və feodal zülmünə qarşı mübarizə.** Azərbaycanın müstəmləkəyə çevrilməsi, həmçinin feodal istismarı, ağır vergilər xalqın haqlı narazılığına səbəb olur, üsyanlara, silahlı ixtişaşlara gətirib çıxarırdı. Hələ 1826-cı ildə Gəncədə müstəmləkə zülmünə qarşı üsyan olmuş, lakin çar hökumət dairələri onu amansızasına boğmuşdular. 1830-cu ildə müstəmləkə əsarəti ile barışmaq istəməyən Çar- Balaken camaatı da üsyan etmişdi. Üsyançılarla müstəmləkə qoşunları arasında dəfələrlə şiddətli toqquşmalar olsa da, bu üsyan da çar

qoşun ian tərə tindən qan içində boğulmuşdu. Lənkərandakı üsyan iki ayadək davam etsə də amansızcasına yatırılmışdı.

XIX yüzilliyin birinci yarısında müstəmləkə zülmünə qarşı ən böyük üsyan 1837-ci ildə Qubada olmuşdur. 12 mindən çox üsyançının iştirak etdiyi bu böyük hərəkata Quba kəndlərindən birinin kətxudası Hacı Məhəmməd və camaat arasında böyük nüfuzu olan Yarəli başçılıq edirdi. Lakin topla silahlanmış çar qoşunları Quba üsyanını da amansızcasına yatırmış, Hacı Məhəmmədi isə tutub e'dnm etmişdi; Yareli qaçıb canını qurtara bilmişdi. Müstəmləkəçilər üsyanın digər iştirakçılarına da amansız divan tutmuşdular.

1838-ci ildə Şəki əyalətində müstəmləkə zülmünə qarşı, keçmiş Şəki xanlığını bərpa etmək uğrunda üsyan başiammşdı. Üsyana İrana qaçmış Şəki xanı Səlim xanın oğlunun göndərdiyi Məşədi Məhəmməd başçılıq edirdi. O, dağıstanlılarm köməyilə Şəki əyalətinə gəlmiş, yerli əhalini öz ətrafına toplayıb şəhəri tutmuşdu. Ancaq hökumət dairələri əlavə qoşun çağınb Şəki üsyanını yatıra bilmişdilər.

XIX yüzilliyin 30-cu illərində Azerbaycanın başqa yerlərində müstəmləkə və feodal zülmünə qarşı silahlı çıxışlar olmuş, lakin amansızlıqla yatırılmışdı.

## § 340-cı tLLƏRtN tSLAHATLARI

Komendant idarə üsulunun ləğvi. Komendant idarə üsulu rus imperiyasının bu vasitə ilə yerlərdə müstəmləkə hakimmyyetini möhkəmlətmək ümidlərini doğrultmadı. Komendantiann yerlərdəki özbaşınalığı təkcə geniş xalq kütlələrinin deyil, hətta monarxiyanın əsas istinadgahı olan feodal-bəylərin də narazılığına səbəb olmuşdu. Ona görə də çar hökumətinin Qafqazdakı baş nümayəndəsi yerlərdəki idarəçilik sisteminə yenidən baxılması barədə məsələ qaldırmışdı. Beləliklə, 1840-cı ildə çar Ön Qafqazda inzibati islahat barəsində qanun verərak komendant idarə üsulunu ləğv etmiş, quberniyalar və onlann nəzdində mahallar əvəzinə qəzalar yaradılmışdı, ön Qafqaz mərkəz şəhəri Tiflis olan Gürcüstan-İmeretiya quberniyasına və baş şeheri Şamaxı olan Kaspi vilayətinə bölünmüşdü. Yelizavetpol Balakən (keçmiş Car-Balaken camaatı və İlisu sultanlığı) və Ordubad da daxil olan Naxçıvan qəzalarından başqa Şimali Azerbaycan torpaqlanmn hamısı Kaspi vilayəti tərkibinə, sonuncular isə Gürcüstan-İmeretiya quberniyasının tərkibinə daxil edilmişdi. Bütün Azərbaycanlı mə’murlar işdən kənarlaşdırılaraq rus mə'murları ilə əvəz edilmişdi-

ler. Azerbaycanda məhkəmə İşləri de, Ümumrusiya qanunlan əsasında fəaliyyət göstərən quberniya, qəza mehkəmelərinnn ixtiyarına keçmişdi. Şəriət məhkəmələrinin ixtiyarında yalnız kəbin-talaq işləri qalırdı.

Aqrar islahatlar. Azərbaycan Rusiyanın tərkibinə qatılandan sonra çar hökuməti Azerbaycan kəndinin adet-ən’ənəsine torpaq sahibliyinə toxunmamış, yalnız xanların və qaçqm bəylərin toıpaqlarmı müsadirə etmişdi. Bu başlıca məqsədi müstəmləkə əsaretindəki xalqı idarə etmək üçün yerlərdə özünə «arxa» qazanmaq niyyətində olan hakim dairələrin müəyyən siyasi-iqtisadi güzəşti idi. Lakin 40-cı illərin əvvelderinde be’zi yüksək rütbəli çar raə’murları belə bir fikir yürüdürdülər ki, müstəmləkə ölkəsində çarizmin e’tibarlı arxası ancaq həmin ərazidə kök salacaq rus zadəganları ola bilərlər. Ona görə də yerli bəylərə tiul hüququnda verilmiş torpaqlar onların əllərindən alıb rus zadəganlarına verilməlidir. Çar hökuməti bu təklifi bəyənib əvvəl Qazax, Şəmşəddil və Borçah məntəqələrində yaşayan ağaların onlara verilmiş torpaq və həmin torpaqlan becərən kəndlilər üzərindəki hüququnu ləğv etdi. Çar bu qanunu sonra bütün Kaspi vilayəti bəylərinə da şamil etmək fikrində idi. Lakin rus zadəganlan arasında bu yerlərə köçüb gəlmək həvəsində olanlar tapılmadı.

Çarın bu qanunu Öz torpaqlarım və hüquqlannı itirmək təhlükəsi ilə qarşılaşan Kaspi vilayəti bəylərinin böyük narazılığına səbəb oldu. Buna görə də feodallar xalq kütlələrinin silahlı ixtişaşlarından öz mənafeləri üçün istifadə etməyə başladılar. Bu, hökumət dairələrində narahatlıq yaratdı. Çar vəziyyətdən çıxmaq üçün 1844-cü ildə bütün Qafqaz əyalətlərini bir inzibati idarədə - Qafqaz canişinliyində birləşdirib. M.Vorontsovu da oraya canişin te’yin edərək əvvəlki qərarının mənfi nəticələrinin islahına çalışmış və Ön Qafqazın inzibati bölgüsündə dəyişikliklər aparmışdı. Region Tiflis, Kutais, Şamaxı və Dərbənd quberniyalarına bölünmüş, Azərbaycan ərazisi əsasən Şamaxı quberniyası tərkibinə daxil edilmişdi. Bu quberniyaya Şamaxı, Şuşa, Nuxa, Bakı və Lənkəran qəzaları daxil idi. Quba qəzası Dərbənd quberniyası, Yelizavetpol qəzası isə Tiflis quberniyası tərkibində idi. Çar hökuməti inzibati bölgülərdə milli mənsubiyyəti nəzərə almırdı. Car-Balakən torpaqları və İlisu sultanlığı sonralar Zaqatda dairəsi adlandırılmış xüsusi Car-Balakən dairəsini təşkil edirdi. Bir neçə il sonra İrəvan quberniyası yaradılmış və Azerbaycanın Naxçıvan və Ordubad qezalan həmin quberniyanın tərkibinə qatılmışdı.

Bu inzibati tədbirlərdən sonra canişin Azərbaycan feodallarının bir qmpu banəde buraxılmış səhvi düzəltmək və bununla da yerlərdə mo^narxiya üçün e'tibarlı istinadgah yaratmağa girişdi. Vorontsov e'tiraf edirdi ki, «bəylər və ağaların imtiyazlarının təsdiq olunması- onların torpaqlarının özlərinə qaytaniması və gələcəyimiz naminə sakitləşdirilmələr-bizim bu Ölkədəki hakimiyyətimizi, hətta dağlarda Şamilin özü üçün böyük saydığı hər hansı bir təsadüfi qələbədən də artıq möhkəmləndtrəD>.

1846-cı il dekabrın 6-da çar bəy və ağaların hüquqlan barəsində fərman verərək, onların torpaq üzərində xüsusi mülkiyyət hüququnu təsdiq etmiş, beləliklə de, bə'zi güzəştlərə getməklə Azərbaycan feodalları ile münasibətlərini möhkəmlətmişdi. 1846-cı il fərmanına əlavə olaraq 1847-ci il aprelin 20-də və dekabnn 28-də nəşr olunmuş «Kəndli esasnaməleri»ne görə bəy və ağa torpaqlarında yaşayan kəndlilər-rəncbərlər, rəiyyətlər vahid ad-mülkədar tabeliyi adı alır, 15 yaşına çatmış kişilərin hər birinə 5 desyatin pay torpağı almaq hüququ verilirdi. Onun əvəzində isə onlar taxıl məhsulunun onda birini çəltik, meyvə və s. məhsulun 1/3-ni malcehət kimi torpaq sahibinə verməli idilər. Bundan başqa hər ailədən bir nəfər ildə 18 gün, bütün kənd camaatı isə ildə iki gün hamılıqla təhkim olduğu bəy üçün işləməli idi. Sahibkar kəndlilərinə başqa sahibkarın yanına köçmək hüququ verildi. Əsasnamələrə görə, maldar kəndlilər otlaqlardan istifadə üçün ödədikləri vergilərdən azad edilirdilər.

40-cı i Hərədək dövlət torpaqlarında yaşayan kəndlilərin bir kənddən başqa kəndə köçmək hüququ var idi. Bunun üçün onlann həm yaşadığı, həm də köçmək istədiyi kənd icmalannin razılığı olmalı idi; xəzinə - dövlət bu işə qanşmırdı. 1853-cü ildə dövlət kəndlilərinin bu hüququ ləğv edilsə də, kəndlilərin köçmək prosesi davam edirdi.

Çar hökuməti inzibati-hüquqi dəyişikliklərdən sonra vergilərin toplanması mesələlərine də müdaxilə etmiş və bütün vergilərin pulla ödənilməsi tədbirlərini həyata keçirməyə başlamışdı. Çünki vergiləri məhsulla toplamaq çətinlik törədir, tez xarab olurdu. Beləliklə, 1852- ci ildən Azərbaycanda yeni vergi sistemi tətbiq olunmuşdu. Bu tədbir kəndlilərin vəziyyətini ağırlaşdırsa da ölkənin sosial-iqtisadi inkişafı üçün əhəmiyyətli idi, ona görə ki, təsərrüfat qapalılığına ciddi zərbə vuı\ır, kəndliləri əmtəə-pul münasibətlərinə cəlb edirdi.

## X V I I  f ə s i l

# XIX ƏSRİN BİRİNCİ YARISINDA AZƏRBAYCAN MƏDƏNİYYƏTİ

### § 1. MAARİF VƏ ELM

Maarif. XIX yüzilliyin birinci yansı Azerbaycanın maarif işində yeni bir dövrdür. Zəngin mədəni irsə malik olan xalqımızın qabaqcıl ziyalıları dünya mədəniyyətinin nailiyyətlərindən bəhrələnərək müasir mədəni nailiyyətlər və ən'ənəler ruhunda inkişaf edir, Azerbaycanda xalq maarifini yüksəltməklə xalqın savadlanması qayğısına qalır, yeni tipli təhsil ocaqlan açmaq üçün hakim dairələrə müraciətlər edir, çox çətinliklə de olsa, öz niyyətlərinə nail olurdular.

Həmin **dö\T** Azərbaycan ziyalı lan arasında Abbasqulu ağa Bakıxanov (1794-1847) xüsusi yer tutur. Bakı xanlan nəslindən olan A.A.Bakıxanov Əmirhacıyan kəndində doğulmuş, gəncliyi isə Qubada keçmişdi. Öz dövrünün savadlı adamlanndan olan mütəfək- kir-alim Şərq dillərinin, təlsəfə ve ədəbiyyatın gözəl bilicisi idi. Qafqazdakı rus qoşunları baş komandanının tərcüməçisi olan A.A.Bakı- xanov Tiflisdə rus ve Qafqazın diger xalqlannın görkəmli elm və mədəniyyət xadimləri ilə tanış olmuş, rus dilini mükəmməl öyrənmişdi.

Azərbaycan maarifçiliyinin ilk nümayendelərinden biri do böyük maarifçi-demokrat, alim-fılosof, ictimai xadim və dramaturq Mirzə Fətəli Axundov (1812-1878) olmuşdur.

XIX yüzilliyin birinci yarısında Azerbaycanda təhsil ocaqları, əsasən məscidlərin nəzdindəki məktəblər və mədrəsələr idi. Azərbaycanın bir sıra görkəmli maarif və mədəniyyət xadimləri məhz həmin təhsil ocaqlannda maariflənmişdilər. Azərbaycanın, bir çox şəhər və kəndlərində belə təhsil ocaqları fəaliyyət göstərirdi. 1858-ci ildə Şamaxı quberniyasında 4700 nəfərin təhsil aldığı 299 məktəb və mədrəsə var idi. Onlardan 262-äi kənddə, 37-si isə şəhərdə idi. Azərbaycan Rusiyaya ilhaq edildikdən sonra milli maarifçilərin se'yi ile Azərbaycan-rus məktəbləri yaradıldı. Bu tipli ilk-məktəblər keçən

/üzUiiyin 30-cu iliarində Şuşada, Nuxada, Bakıda, Gəncede, Şamaxıda və Naxçıvanda açılmışdı. Əsasan varlılann uşaqlarının təhsil aldığı həmin ibtidai tehsil mektəblərində rus və Azərbaycan dilləri, coğratıya və şəriət tədris olunurdu. Sonrakı illərdə bu məktəblərdən əlavə, dörd sinifli məktəblər də açıldı. Deyilən tədris müəssisələrini açmaqda çar hökumətinin əsas məqsədi yerli inzibati idarələrdə müstəmləkə siyasətini yürütməkdə ona kömək edə biləcək tərcüməçilər, mirzələr-bir sözlə, e’tibarh milli kadrlar yetişdirmək idi.

Elm. XIX yüzilliyin birinci yarısında Azərbaycanda çox inkişaf etmiş elm sahələrindən biri tarix elmi idi. Həmin dövrdə yaşayıb-yaratmış Mirzə Adıgözel bəy. Mirzə Camal, Kərim Ağa Fateh, Seyid Əbdül Həmid bu gün de əhəmiyyətini saxlayan bir sıra qiymətli tarix əsərləri yaratmışlar.

Əsasən xanlıqlar dövrünün tarixinə həsr edilmiş həmin əsərlərdən fərqli olaraq A.Bakıxanovun «Gülüstani-trəm»inde qedim dövrdən başlamış XIX yüzilliyin əvvəllərinədek Şirvanın tarixi öz əksini tapmışdır. Kitab fars dilində yazılmış və müəllif tərəfindən rus dilinə tərcümə olunmuş, lakin çar Rusiyasında nəşr edilməmişdi. Ensiklopedik biliyə malik olan A.Bakıxanov pedaqogika, fəlsəfə, psixologiya, əxlaq, məntiq, coğrafiya, astronomiya, dilşünaslığa dair də əsərlər yazmışdı.

Azərbaycanlı alimlər rus şərqşünaslığının əsasının qoyulması və inkişafında da mühüm rol oynamışlar. XIX yüzilliyin başlanğıcında Mirzə Cəfər Topçubaşov Peterburq universitetində Şərq dillərini tədris etmiş, tran ədəbiyyatı kafedrasının müdiri olmuşdur. O, fars dilinin qrammatikasına dair bir sıra əsərlərin müəllifidir. M.Topçubaşov London Kral Asiya Cəmiyyətinə üzv seçilmişdi. A.S.Qriboyedov M.Topçubaşovun tələbəsi olmuşdu.

Görkəmli şərqşünas alim Mirzə Mehemmedeli Kazımbey Qazan universitetində tran ədəbiyyatı, türk-tatar dilləri müəllimi, professoru, fakültə dekanı olmuşdu. Şərqşünaslıq sahəsində 100-den çox əsər yazmış M.Kazımbey Azərbaycan dilinin qrammatikasını nəşr etdirmişdi. 1845-ci ildə Qazandan Peterburqa köçmüş M.Kazımbey səhhətinə görə İran ədəbiyyatı kafedrasını tərk etmiş M.Topçubaşovun yerini tutmuşdu. N.Q.Çemışevski M.Kazımbeyin mühazirələrini dinləmişdi. Böyük alim V.V.Bartold yazmışdır ki, məhz «Senkovski və Kazımbəy öz mühazirələri ilə rus şərqşünaslığını yaratmışlar, demək olar ki, sonrakı şərqşünaslar nəslinin hamısı bu alimlərdən,

birinin tələbəsi və ya onların tələbələrinin tələbələri olmüşlar». M.Kazımbəyin əsərlərinin çoxu Avropa dillərində də nə^r edilmişdir. O, Rusiya və bir sıra başqa ölkə akademiyalannın kral cəmiyyətlərinin üzvü olmuşdu.

Məşhur səyyah<alim Hacı Zeynalabdin Şirvani Şərq ölkələrinin çoxunu gəzmiş, 36 il müddətində 60 min km qədər yol cfət etmiş, əsərlərində gəzdiyi, gördüyü ölkələrin xalqlarının iqtisadi-mədəni həyatını, məişət və adətlərini təsvir etmişdir.

XIX yüzilliyin 30-cu illərində Azərbaycan mətbuatının əsası qoyulmuşdu. 1832-ci ildə Tiflisdə həftədə bir dəfə «Tatar xəbərləri» qəzeti çıxmağa başlamışdı. «Tiflisskie vedomosti» qəzetinə əlavə kimi nəşr olunan bu qəzetdə əsasən rəsmi sənədlər, sərəncamlar dərc edilirdi. 40-cı illərin əvvəllərində de Tiflisdə «Zaqafkazskiy vestnik» qəzetinə Azərbaycan dilində bir səhifə əlavə olunur və burada da rəsmi sənədlər çap edilirdi. 1850-ci illərin sonlarında Şamaxı quberniyasında iki kiçik mətbəə fəaliyyət gösterirdi.

## § 2. ƏDƏBİYYAT VƏ İNCƏSƏNƏT

Ədəbiyyat. XIX yüzilliyin birinci yansında Azerbaycan ədəbiyyatı iki - romantik və realist cərəyan istiqamətində inkişaf edirdi. Birinci cərəyanın nümayəndələrinin əksəriyyəti feodal ideologiyası ilə bağlı idi. Realist-mütərəqqi cərəyanın nümayəndələri isə ədəbiyyatımızı ölməz əsərlərlə zənginləşdirmişlər. Bu dövr aşıq yaradıcılığında ən’ənevi lirik mövzularla yanaşı, qəhrəmanlıq, vətənpərvərlik motivləri, həmçinin hakim siniflərin və müstemlekeçilerin zülmündən şikayət də üstünlük təşkil edirdi.

Görkəmli mütəfəkkir Mirzə Şefi Vazeh (1794-1852) Gəncədə me'mar ailəsində anadan olmuşdu. O, ilk təhsilini məktəb və mədrəsədə almış, lakin dini xurafatın qatı düşməni olan şair Azərbaycan və Şərqin klassik ədəbiyyatını öyrənmiş, rus ədəbiyyatı ile tanış olmuş- 'du. Gəncədən Tiflisə köçmüş şair burada M.F.Axundovla tanış olmuş, Tiflis qəza məktəbində Azerbaycan dili müəllimi olmuşdur. M.Ş.Vazeh lirik şe’rlər yazmış, əsərlərində azadlıq müjdəçisi kimi çıxış etmişdir. Öz yaradıcılığında şair qadın azadlığı məsələsinə xüsusi yer verirdi, müsəlman qadınlarını çadranı atmağa çağırırdı. Şair cəsarətlə olmasa da yoxsul kütlələrin vəziyyətini kökündən deyişəcək sosial dəyişikliklər barəsində mülahizələr söyləmişdir.

Mirzə Şefinin şe’rləri bizə orijinalda deyil, alman dilində çatmışdır. Onun şe’rlərinin əlyazması alman yazıçısı F.Bodenştedtin əlinə keçmiş, o da bu şe’rleri Berlində alman dilində «Mirzə Şəfinin nəğmələri» adı altında aynca kitab kimi nəşr etdirmişdi. F.Bodenştedt bu şe’rləri özününkü kimi qələmə vermiş və belə uydunua irəli sürmüşdür ki, Mirzə Şəfi onun ləğəbidir. Şəfinin şe’rlərinin bə’zileri hələ 0 vaxt ms dilinə tərcümə edilmiş və görkəmli bəstəkar və pianoçu A.Q.Rubinşteyn həmin şe’rlərə nəğmələr bəstələmişdi.

A.Bakıxanov da Qüdsi ləğebi ile bir çox bədii eserlər yazmışdır. O öz ədəbi yaradıcılığına başlayarkən dinin güclü tə’siri altında idi. Qüdsi Tiflis mühitinə düşdükdən sonra onun dünyagörüşündə dəyişikliklər baş vermiş, maarifçi görüşlü əsərlər yazmış, lirik qəzəllərində məhəb'bəti, dərin insani hissləri tərənnüm etmişdir. Yazıçı Qubada «Gülüstan» adlı ədəbi dərnək təşkil etmişdi.

■ Realist ədəbi cərəyana İsmayıl bəy Qutqaşınlı da daxil idi. Rus ordusunda hərbi qulluq keçmiş, polkovnik, sonra isə general-mayor rütbəsi almış Qutqaşınlı fransız dilində yazılmış «Rəşid bey və Səadət xanım» povestinin müəllifidir. O, Şərq qadınlarının hüquqsuz vəziyyətini tənqid edir, xalqın məişət və adətlərini əks etdirirdi.

Azerbaycan satirik poeziyasının görkəmli nümayəndəsi Qasım bəy Zakir (1786-1857) olmuşdur. Zakirin ədəbi irsinə müxtəlif mövzular və janrlarda yazılmış şe’rlər daxildir. Zakir şe’rlərinin çoxunun çapını görməmişdi. O, ümumiyyətlə çar sisteminin əleyhdan olmuşdu.

XIX yüzillikdə Azərbaycan mədəniyyətinin ən böyük nümayən-. dəsi heç şübhəsiz ki, maarifçi-demokrat, görkəmli ictimai xadim, Azərbaycan realist ədəbiyyatının əsasını qoymuş Mirzə Fətəli Axundov (1812-1878) olmuşdur. Nuxa şəhərində anadan olmuş Fətəli dindar ailədə bö)djmöş, lakin bu yolla getməmiş, dünyəvi təhsilə üstünlük vermişdi. Hələ cavan yaşlarında Tiflisə gəlmiş, burada Qafqazın baş rəisinin dəftərxanasında tərcüməçi olmuş, həm də Tiflis qəza məktəbində Azərbaycan dilini tədris etmişdi. M.F.Axundov Tiflisdə M.Ş.Vazehlə tanış olmuşdu.

M.F.Axundov Azərbaycan klassik ədəbiyyatının ən’ənələri ile yaxından tanış idi. Şərq dillərinə kamil yiyələnmişdi. O, rus ədəbiyyatı və dilini öyrənməyə də böyük əhəmiyyət vermiş, həmin dildə əsərlər də yazmışdı.

M.F.Axundov Azəraycan ədəbiyyatında dramaturgiyanın əsasını qoymuşdur. 50-ci illərdə yazdığı dram əsərlərini o dövrün güzgüsü adlandırmaq olar. Bu dram əsərləri XIX yüzillikdə Azərbaycan ədəbiyyatında realizmin ən yüksək nailiyyətidir. M.F.Axundov özü pyeslərini rus dilinə tərcümə etmişdi. Onun pyesləri 50-ci illərin sonlarında Tiflisdə həm Azərbaycan, həm da rus dillərində nəşr olunmuşdu. Onun komediyaları dünyanın bir çox Şərq və Qərb dillərinə tərcümə olunmuşdur.

İncəsənət. XIX yüzilliyin birinci yarısında Azərbaycanın xalq musiqisi, tesviri və tətbiqi incəsənəti, me'marlığı inkişaf edir, teatr sənəti sahəsində ilk addımlar atılırdı. Bu dövrdə aşıq sənəti ilə sıx bağlı olan musiqili folklor xeyli inkişaf etdi, aşıq dəstələrinin çıxışları kütlələr arasında böyük rəğbətlə qarşılanırdı. Aşıq sənəti ilə yanaşı tar, kamança və qaval çalandan ibarət xanəndə dəstələri də geniş yayıldı. Xanəndə dəstələrinin muğam ifası nəinki Azərbaycanda, bütün Şərqdə məşhur idi. Azerbaycanın gözəl güşəsi Qarabağ xanəndələr məskəni idi. Azərbaycanda ilk teatr tamaşalarının qoyulması da bu dövrdə olmuşdur. Şuşa, Lənkəran və Şamaxı şəhərlərində teatr tamaşaları qoyulurdu.

Təsviri incəsənət sahəsində realist ən'enələr inkişaf edirdi. Bu ən'ənəlor görkəmli rəssam Mirzə Qədim İrəvaninin (1825-1879) yaradıcılığında öz parlaq əksini tapmışdı. Dövrünün savadlı adamlarından biri olan İrəvanı bir çox rəsm əsərlərinin, miniatürlərin müəllifi idi. Bu dövrdə İrəvanı ilə yanaşı Muğanda, Qarabağda, Şekidə də bir neçə rəssam yaşayıb-yaratmışdır. Azərbaycanda yaşamış görkəmli rus rəssamı N.N.Qaqarin də xalqın həyatından alınmış əsərlər yaratmış, A. Bakıxanovun portretini çəkmişdir.

Azərbaycan tətbiqi sənətinin ən gözəl nümunələri ölkənin bir çox yerində geniş inkişaf etmiş xalçaçılıqda, tikmələrdə, təkalduzçuluqda, zərgərlikdə öz əksini tapmışdı. Me'marlıq sənəti sahəsində də görkəmli nailiyyətlər əldə edilmişdi. O dövrdə tikilmiş məscidlər, ovdanlar, sərdabələr gözəl sənət əsərləri olmuşdur. Şəhər tikinti işlərində də canlanma yaranmışdı. Bu dövrdə Şamaxı şəhərinin bərpasına başlanmış, bə'zi inzibati, yeni tipli yaşayış binalan tikilmişdi.

*XVIII* **fesil**

# AZƏRBAYCAN KƏNDİ XIX ƏSRİN İKİNCİ YARISINDA

## § l. 60-70-d tLLƏRtN BURJUA tSLAHATLARI

1870-ci il kəndli islahatı. XIX yüzilliyin 50~60>cı illəri Azerbaycanda feodal sosial-iqtisadi münasibətlərin süquta uğraması və yeni kapitalist münasibətlərinin inkişafı ilə xarakterizə olunur. Rusiyada təhkimçilik, Azerbaycanda isə feodal-asılı münasibətlər məhsuldar qüvvələrin, kapitalizmin inkişafına böyük əngəl idi. Mə’lumdur ki, 1861-ci ildə Rusiyada təhkimçilik hüququnun ləğvi burada kapitalizmin inkişafı üçün əlverişli şərait yaratmışdı.

1864-cü ildə Gürcüstanda təhkimçilik hüququnun ləğvi barədə qanun veriləndən sonra isə Azərbaycanda və Ermənistanda kəndli islahatı keçirmək üçük dörd şəhərdə, o cümlədən Bakı və Şuşa şəhərlərində bəy komissiyaları yaradılmış və veriləcək «Əsasnamə»nin layihəsinin hazırlanmasına başlanılmışdı. 1870-ci il mayın 14-də Ön Qafğaz quberniyaları: Yelizavetpol, Bakı, trevan və qismən Tiflis quberniyaları ali müsəlman silkindən olan şəxslərin, habelə erməni məliklərinin torpaqlarında sakin olan dövlət kəndlilerinin torpaq quruluşu haqqında «Əsasnamə» verilmişdi. Əslində, bu «Əsasnamə»də yeni bir şey yox idi və o 1847-ci il əsasnamələrinin eyni idi. Hemim «Əsasnamə»lerde də kəndlilərin şəxsən asılı olmaması, hər 15 yaşına çatmış kəndliyə (kişiyə) beş desyatin pay torpağı verilməsi nəzərdə tutulmuşdu. 1870-ci il «Əsasnamə»sində de bunlar və'd edilirdi. Əslində torpağı 5 desyatindən az olan kəndlilərin böyük əksəriyyətinə əlavə torpaq payı verilmədi. Kəndlinin pay torpağı xalis əkin torpağı deyildi. Kəndlinin yaşayış binasının, təsərrüfat tikililərinin sahəsi də, həmçinin kol-kos basnuş, əkin üçün yararlı olmayan torpaqlar da kəndlinin pay torpağına daxil idi. Təzə «Əsasname»ni 1847-ci il «Əsasnamə»lerindən fərqləndirən cəhət ondan ibarət idi ki, hər bir kəndlinin 5 desyatindən artıq torpaq sahəsi elindən alınırdı. Bundan

başqa, torpaq sahiblərinə bütün torpaqlannın 1/3 hissəsini öz sərəncamında saxlamaq hüququ verilmişdi. Bu o demək idi ki, kəndlilər torpağın qalan 2/3 hissəsinə yiyələnə bilərdilər. Belə hallarda kəndli nəinki «Əsasname»də gösterilmiş 5 desyatini, çox vaxt heç 1-2 desyatini de ala bilmirdi. Kəndlilərə verilən torpaqlar onun mülkiyyətinə keçmirdi. Doğrudur kəndliyə öz pay torpağını satın alıb öz mülkiyyətinə keçirmək hüququ verilmişdi, lakin kəndlilərin böyük əksəriyyəti zəruri olan məbləği toplamaq iqtidannda deyildi. Rusiyada təhkim- çilik hüququ ləğv ediləndə, dövlət kəndliyə öz torpağını satın almaq hüququ ilə bərabər, bu torpağı almaq üçün ona borc pul da vermişdi. Amma Azerbaycan kəndlisinə borc pul verilməmişdi və onun torpağı satın olmağı məcburi deyildi. Bu, çarizmin milli-müstəmləkə siyasətinin təzahürü idi. Azerbaycan kəndlisinə verilmiş torpaqlar yenə də onun sahibinin mülkiyyəti olaraq qalırdı. Kəndli torpaqdan istifadə müqabilində yenə sahibkara vergi verirdi. Onun hüquqi cəhətdən ancaq bir üstünlüyü var idi: sərbəst başqa yerə köçə bilərdi. Demək, kəndli feodaldan ancaq iqtisadi cəhətcə asılı idi. Lakin onu da qeyd edək ki, l847-ci il «Əsasnamə»sində do kəndli şəxsən azad idi. 1870- ci il islahatından sonrakı şəxsi «azadlıqla» 1847-ci il arasındakı «azadlığın» fərqi ondan ibarət idi ki, əvvəl kəndlinin bir feodalın yanından digerinin yanına köçməsi üçün müəyyən şərtlər vardı; 1870- ci il islahatı ile bu qeyd-şərtsiz oldu.

1870-ci il islahatı ile kəndlilərdən yığılacaq vergilərdə 1847-ci il «Əsasnamə»lərində nəzərdə tutulduğu kimi qaldı. Yə'ni kəndli Öz məhsulunun 1/10 hissəsini malcehet kimi torpaq sahibinə verməli idi. Kəndlilərin bəylərin xeyrinə daşıdıqlan biyar mükəlləfiyyətləri ləğv edilmiş və hər kəndli biyan hər desyatin pay torpağından 30 qəpik hesabile ödəməli idi. 1870-ci il kəndli islahatının yarımçıq olmasına baxmayaraq mahiyyətcə burjua islahatı idi.

Kəndliyə şəxsi azadlığın verilməsi, əlbəttə, feodal istehsal münasibətlərinə ciddi zərbə olmuş, ölkədə kapitalizmin inkişafına şərait yaratmışdı. Ye’ni, kəndlilərin, Rusiyada olduğu kimi, pay torpaqlannı satın alıb onun sahibinə çevrilə bilmələri kapitalizmin inkişafına təkan verərdi. Lakin Azerbaycan kəndliləri yalnız 1870-ci il islahatından 42 il sonra verilmiş «Əsasnamə» üzrə öz torpaqlannı satın alıb mülkiyyətçiyə çevrilə bildilər. 1870-ci il islahatı Quba qəzasına və Zaqatala dairəsinə şamil edilməmişdi. Bu islahat Quba qəzası üzrə 1877-ci, Zaqatala dairəsi üzrə isə 1913-cü ildə keçirilmişdi. 1870-ci il islahatı

yalnız sahibkar kendlilərinə və mülkədar*bəy kəndlilərinə aid idi. Azerbaycan kəndlilərinin isə yalnız beşdə bir hissəsindən bir qədər çoxu sahibkar kəndlilər, qalan böyük kəndli kütləsi isə dövlət kəndliləri olub dövlət-xəzinə torpaqlarından istifadə edirdilər. İslahat bu kəndlilərə toxunmamışdı.

Digər islahatlar. Kəndli islahatı ilə eyni vaxtda Azərbaycanda başqa islahatlar da - məhkəmə, şəhər və inzibati idarə islahatlan da həyata keçirilmişdi. Bu islahatlar bütün Rusiyada, həmçinin onun müstəmləkə ucqarlarında baş verən sosial-iqtisadi dəyişikliklərlə, feodal istehsal münasibətlərinin kapitalist istehsal münasibətləri ilə əvəz olunması ile bağlı idi. Adlarını qeyd etdiyimiz islahatlar əvvəlcə Rusiyanın daxili qubemiyalannda keçirilmişdi; onlann bə'zisi imperiyanın ucqarlanna 70-ci illərin əvvəllərində, bə’zisi isə hətta ondan sonra şamil edilmişdi.

Həmin məhkəmə islahatı ilə keçmiş silki məhkəmələr ləğv edilmiş və məhkəmələr bütün silklər üçün eyniləşdirilmişdi. Bu o deməkdir ki, əgər qabaqlar bəyi və kəndlini başqa-başqa məhkəmələr mühakimə edirdisə, artıq onlann hər ikisi eyni məhkəmədə mühakimə olunacaqdı. Arzu eyləyən şəxslər məhkəmə iclasında iştirak edə bilərdi. Lakin çar hökuməti bu dəfə də özünün milli-müstəmləkə siyasətinə sadiq qalaraq Rusiyaya nisbətən ucqarlarda məhkəmə islahatını yarımçıq keçinnişdi. Rusiyada hakimlər seçildiyi halda, ucqarlarda tə’yin olunur, həm də yalnız ruslardan tə’yin olunur və işlər rus dilində apanhrdı. Xalqın dili, adət-ən’ənəsi ilə tanış olmayan hakimlərin fəaliyyətində özbaşınalıq hökm sürürdü.

Çar hökuməti şəhərlərin idarəsi sahəsində də islahat keçinnişdi. Bütün Rusiya şəhərləri üzrə islahat keçirilməsi haqqında qanun, yalnız 8 ildən sonra-l878-ci ildə Azərbaycana gəlib çatmış və təkcə Bakıya aid edilmişdi. Əgər əvvəllər şəhər dumalanna yalnız imtiyazlı silkə mənsub şəxslərin seçilmək hüququ var idisə, yeni «Əsasna- mə»yə görə hamı, yə’ni şəhərdə yaşayıb vergi verən əhalinin hər biri seçkidə iştirak edə bilərdi. Vergi ödəməyən fəhlələr, qulluqçular, ziyalılar bələdiyyə üzvləri seçkilərində iştirak edə bilməzdilər. Seçkilərdə 25 yaşına çatmayanların və qadınların iştirak etmək hüququ yox idi. Beləliklə, duma üzvlüyünə seçkilərdə, əslində, şəhər əhalisinin çox az hissəsi iştirak edirdi.

Şəhər dumalannm hüququ da məhdud idi; onlann yalnız kiçik təsərrüfat işlərilə məşğul olmaq hüququ vardı. Bu hüquqlar şəhərin

abadlaşdınlması və yanğına qarşı tədbirlərdən, bazarları, ticarət, sənaye, səhiyyə və maarifi himayə etməkdən ibarət idi. Görülən bütün işlərə qubernator nəzarət edirdi. Yüksək vəzifəli çar mə’murlan şəhər başçısı tə’yin edilirlər. XIX yüzilliyin sonunda şəhər «Əsasnamə»si məhdud şəkildə olsa da Yelizavetpol, Nuxa, Gəncə, Naxçıvan, Şuşa və Ordubad şeherlərinə de aid edildi.

Qafqazdakı ali hakimiyyət burada çar canişininin elimizdə cəmlənmişdi. Quberniyaları bütün mülki və hərbi hakimiyyəti əllərində cəmləşdirmiş qubernatorlar idarə edirdilər. Quberniyalar qəzalai'a bölünürdü. Qəzalara qəza rəisləri başçılıq edirdilər.

Yuxanda qeyd etmişdik ki. Şimali Azərbaycan ərazisinin demək olar ki, hamısı mərkəzi Şamaxı şəhəri olan Şamaxı quberniyasına daxil idi. 1859-cu ilda şiddətli zəlzələ nəticəsində Şamaxı şəhəri dağılandan sonra çar hökuməti quberniya mərkəzini Bakı şahərinə köçürmüşdü. Həmin vaxtdan Şamaxı quberniyası Bakı quberniyasına çevrilmiş və əvvəl Dağıstan vilayəti tərkibinə verilmiş Quba qəzası da həmin quberniyanın tərkibinə daxil edilmişdi.

! 867-ci ilin sonunda Bakı, Tiflis və İrəvan qubemiyalan hesabına mərkəzi Yelizavetpol şəhəri olan Yelizavetpol quberniyası yaradılmış və Şuşa, Yelizavetpol, Zəngəzur qəzalan həmin quberniyanın tabeliyinə verilmişdi. Bakı quberniyası isə Bakı, Quba, Şamaxı və Lənkəran qəzalarından təşkil olunmuşdu. Sonralar yeni yaradılmış Cavad və Göyçay qəzaları da Bakı quberniyası tərkibinə daxil olunmuşdu. 1883-cu ildə Yelizavetpol quberniyası tərkibində daha iki qəza- Cəbrayıl və Cavanşir qəzalan yaradılmışdı. Qəza mərkəzlərinin hamısında polis idarələri yaradılmış, Qafqaz canişinliyi ləğv olunmuş və Qafqazın idarəsi buradakı baş hərbi rəisə tanşınlmışdı.

Çarizmin Qafqazda həyata keçirdiyi islahatlar yalnız bir məqsəd güdürdü-yerlərde müstəmləkə hakimiyyətini möhkəmləndirmək. İnzibati-ərazi bölgüləri yaradılarkən bu və ya digər bölgüyə daxil edilən əhalinin milli tərkibi, onun məişəti, iqtisadi həyat tərzi nəzərə alınmırdı. Çar idarələrində mühüm vəzifələrin hamısını ruslar, daha doğrusu, rus irticaçı mə’murlan tuturdular.

## § 2. İSLAHATDAN SONRA KƏND TƏSƏRRÜFATININ VƏZİYYƏTİ SOSİAL MÜNASİBƏTLƏR. SİNFİ MÜBARİZƏ

Kənd təsərrüfatının vəziyyəti. Kəndli islahatının yanmçıq keçirilməsinə baxmayaraq, məhsuldar qüvvələrin inkişafı kapitalizmin sü'rətli inkişafına təkan vermişdi. Rusiyanın tərkib hissəsinə çevrilmiş, iqtisadiyyatı Rusiya iqtisadiyyatı ile üzvi surətdə bağlanmış Azərbaycan da, heç şübhəsiz, bu sosial dəyişikliyin, sosial-iqtisadi inkişafın axınına düşməli idi. Daha dəqiq desək, Azərbaycan iqtisadiyyatı Rusiya sənayesi və bazannın tələbinə tabe olunmuş, onun başica vəzifəsi Rusiya sənayesini xammalla tə'min etmək idi. Rusiya burada daxili quberniyalarında fəaliyyət göstərən tipdə sənaye ocaqları yaratmırdı ki, bu da Azərbaycan iqtisadiyyatının müstəmləkə xarakterinin təbiətindən doğurdu. Müstəmləkə iqtisadiyyatının vəzifəsi isə metropoliya sənayesini xammalla tə'min etmək idi. Azərbaycan iqtisadiyyatının inkişafındakı əskikliklərə baxmayaraq, XIX yüzilliyin ikinci yansında onun kənd təsərrüfatında və sənayesində kapitalist ünsürlərinin yaranıb inkişaf etməsi, feodal istehsal münasibətlərinin sıxışdınıması, şübhəsiz ki, mütərəqqi hal kimi qiymətləndirilə bilər.

Əmtəə-pul münasibətlərinin inkişafı və təsərrüfat qapahlığının ləğvi üçün şosse yollarının qaydaya salınmasının, xüsusən də dəmir yollannın çəkilməsinin böyük əhəmiyyəti olmuşdu. Həmin dövrdə Azərbaycan qəzalarını bir-birilə birləşdirən yollano xeyli hissəsi ya tə'mir olunmuş, yaxud da yeni istiqamətlərdə uzadılmışdı. 1883-cü ildə Qafqaz dəmir yolunun Bakı ilə Tiflisi birləşdirən hissəsinin və 1900-cü ildə isə Bakını Rusiyanın mərkəzi qubemiyalan ilə birləşdirən Bakı-Vladikavkaz dəmir yolunun istismara başlanması heç şübhəsiz ki, ölkənin iqtisadi inkişafında mühüm əhəmiyyətə malik idi. Bu, Rusiya ilə iqtisadi əlaqələrin daha da artmasına, əmtə mübadiləsinin xeyli asanlaşmasına və ucuz başa gəlməsinə səbəb olurdu. Dəmir yol nəqliyyatının işə düşməsi Azərbaycana təkmilləşdirilmiş kənd təsərrüfatı alətlərinin gətirilməsi üçün de əlverişli şərait yaratmışdı. Doğrudur, bu əlaqələr, deniz yolu ilə hələ keçən yüzillikdən yaranmışdı, lakin lazımi səviyyədə deyildi. Kənd təsərrüfatında təkmilləşdirilmiş alətlərin tətbiqində 1850-ci ildə Tiflisdə yaradılmış «Qafqaz kənd təsərrüfatı cəmiyyətinin» ve onun yerlərdəki orqanlarının mühüm rolu olmuşdu. 1885-ci ildə Kürdəmirdə va Gəncədə

kend teserrüfatı maşınları və alətlərinin sınağı keçirilmiş» az sonra Bakıda, Gəncədə, Nuxada, Zaqatalada, Şuşada kənd təsəmifatı maşınları və alətləri satan kontorlar açılmışdı. Beləliklə, çox zəif addımlarla olsa da, yalnız varlıların və Rusiyadan köçürülmüş kəndlilərin təsərrüfatlarında tətbiq edilsə də, Azərbaycanın kənd təsərrüfatına təkmilləşdirilmiş maşın və alətlər yol tapmışdı. Bir sözlə, əkinçilikdə texnikanın tətbiqi tədricən bu təsərrüfata kapitalist xarakteri verir, beləliklə, kapitalist münasibətlərinin əmələ gəlməsinə və bunların daha da inkişafına səbəb olurdu.

Azərbaycanda qabaqcıl kənd təsərrüfatı üsullarının yayılmasında görkəmli maarifpərvər və ictimai xadim Həsən bəy Zərdabinin 1875- ci ildən nəşr etməyə başladığı «Əkinçi» qəzetinin də mühüm rolu olmuşdur. Qəzetdə kənd təsərrüfatı bitkilərinin yetişdirilməsi, suvarma işləri, maşınların tetbiti və s. barəsində qiymətli mə’lumatlar verilirdi.

Şəhərlərin genişlənməsi, əhalinin sayının artması, ixrac üçün əlverişli şəraitin olması XIX yüzilliyin ikinci yarısında Azərbaycanda taxılçılığın inkişafına güclü təkan verdi. Kənd təsərrüfatı istehsalında yenə də birinci yeri buğda və arpa istehsalı tutur, çəltikçilik də geniş inkişaf edirdi. Taxıl məhsullarına olan tələbat onun istehsalının sür’ət- lə artmasına səbəb olmuşdu. Bakı və Yelizavetpol quberniyalarında Bakı-Tiflis dəmir yolu işə düşəndən keçən 15 il ərzində taxıl üçün aynimış əkin sahələri və məhsul iki dəfə yarımdan çox artmışdı. İstehsal olunan məhsulun xeyli hissəsi ixrac olunurdu. 80-ci illərin ortalannda üç il müddətində Azərbaycandan Qara dəniz limanlarına, oradan isə xarici ölkələrə 11 milyon pud taxıl göndərilmişdi. Həmin dövrdə Azerbaycanın kənd təsərrüfatında muzdlu əmək də tətbiq olunmağa başlanmışdı. Kənd təsərrüfatında muzdlu əməyin tətbiqi isə bu sahədə kapitalizmin inkişafının başlıca göstəricisidir.

Özünün keçmiş ən’ənələrine sadiq qalan Azerbaycan kəndliləri barama istehsalına xüsusi fikir verirdilər. Baramaçılığın, ümumiyyətlə, ipəkçiliyin əsas rayonlan yenə də Nuxa və Şamaxı qəzaları idi. Şuşa və Quba qəzalarında, Zaqatala dairəsində, Naxçıvan və Ordubadda da barama yeişdirirdilər. Azerbaycanda ildə 200-250 min puda qədər barama istehsal edilirdi. Barama xam halda və e*mal edildikdən sonra Rusiyaya, həmçinin xarici ölkələrə ixrac olunurdu. Şəkidə bir sıra rus və xarici şirkətlərin baramanı satın alıb göndərən kontorları var idi. Təkcə xarici şirkətlərin kontorlan bir ildə (1873) 126 min puda qədər barama almışdı.

Azerbaycanda qızılboya istehsalı da çox geniş inkişaf etmişdi. Qızılboyadan Quba və Dərbənddə Rusiya toxuculuq fabriklərinin istehsal etdiyi me'mulatı boyamaq üçün geniş istifadə olunurdu. Lakin bu istehsal sahəsi sün'i boyağın-alizarinin kəşfindən sonra iflasa uğradı və tamamilə aradan çıxdı.

Rusiyada toxuculuq sənayesinin sür'etlə inkişafı, onun xammala - pambığa olan tələbatının artması Azərbaycanda pambıqçılığın inkişafına təkan verdi. Tezliklə Azerbaycana rus şirkətlərinin nümayəndələri gəldilər. Pambıqçılığın əsas rayonları Göyçay və Cavad qəzalan idi. Pambığı suvarmasız yetişdirməyin mümkün olmaması Kür-Araz vadisində sün'i suvarmanın genişlənməsinə şərait yaratdı. Pambığa maraq o qədər artmışdı ki, adətən təsərrüfatla məşğul olmayan bəylərin bir qismi de pambıq becərməyə başlamışdılar. Onlar və tesərrüfatlannda bütün işləri muzdlu əmək tətbiq etməklə görürdülər. Pambıq yığımı zamanı təkcə bəylər deyil, bir çox təsərrüfat sahibləri də muzdlu əməkdən istifadə edirdilər. Beləliklə, pambıqçılıq kənd təsərrüfatında kapitalist istehsal münasibətlərinin inkişafına güclü təkan vermişdi.

Pambıqçılıqla yanaşı tütünçülük de inkişaf edirdi. Azerbaycanda tütün Zaqatala dairəsi, Nuxa və Quba qəzalarında daha çox becərilirdi. Bağçılıq və üzümçülük də əhalinin əsas məşğuliyyətlərindən biri idi.

Naxçıvan qəzası və Zaqatala dairəsində, həmçinin Şamaxı, Quba, Göyçay qezalannda bağçılıq daha çox yayılmışdı. Bağçılığa və üzümçülüyə kömək etmək məqsədilə Mərdekanda Hacı Zeynalabdin Tağı- yev bağçılıq məktəbi açmışdı. Belə bir məktəb Qubada da istifadəyə verilmişdi.

Əkinçiliklə yanaşı maldarlıq da geniş inkişaf etmişdi. Azerbaycanda təkcə qoyunların sayı orta hesabla 2-3 mln. başa çatırdı. Qoyun- çuluğun inkişafı yun istehsalına və ixracına (ildə 100 min pud və daha çox) səbəb olmuşdu. Qaramal saxlanması, atçılıq Azərbaycan maldarlığının mühüm sahələri idi. Azərbaycan, xüsusilə Qarabağ atları ölkəmizin sərhədlərindən çox-çox uzaqlarda məşhurlaşmışdı.

Adlarını çekdiyimiz tesəmifat sahələrində müəyyən dərəcədə muzdlu əməkdən istifadə edilirdi. Bu, Azerbaycanın kənd təsərrüfatında kapitalizmin təzahürünü göstərir. Lakin Azərbaycan kəndində hələ feodal istehsal münasibətlərinin qalıqlan güclü idi.

Sosial münasibətlər. Qeyd etdiyimiz kimi, Azerbaycan kəndliləri iki qrupa: sahibkar və dövlət kəndlilərinə bölünürdülər. Dövlət kənd-

lileri torpaqlardan yenə də icmahqla istifadə edirdilər. Lakin artıq əvvəllərdə olduğu kimi, icma torpaqlarının müəyyən müddətdən sonra icma üzvlərinin 15 yaşdan yuxarı kişi üzvləri arasında bölünməsi heyata keçirilmirdi. Torpaqlann çoxu hər kəndin-icmanın varlı üzvlərinin ellərində cəmləşmişdi, kəndlilərin böyük əksəriyyəti isə aztorpaqlı, yaxud torpaqsız idi. Bakı quberniyasında 2-5 desyatin torpaq payı olan dövlət kəndliləri bütün dövlət kəndlilərinin cəmi 4 faizini təşkil edirdilər. Kəndlilərin böyük əksəriyyətinin pay torpağının sahəsi 1-2 desyatindən çox deyildi. Dövlət kəndində yaranmış •bete vəziyyətin əsas səbəbi bir *tərəfdən kəndlilər arasında gedən sinfi* təbəqələşmə, digər tərəfdən isə bəylərin dövlət kəndlilərinin istifadəsində olan torpaqları zəbt etmələri və çar hökumətinin XIX yüzilliyin son 3 ilində rus kəndlilərinin Qafqaza, o cümlədən Azərbaycana köçürülməsinin xeyli artması idi. Rusiyadan köçürülmüş kəndlilərə en yaxşı torpaqlar, həm de gen-bol verilirdi. Bu torpaq ehtiyatı isə yerli kəndlilərin istifadəsində olan torpaqların zorla onların elindən alınması hesabına yaradılırdı.

Belə bir vəziyyətdə olan dövlət kəndlilərinin güzəranını imkansız, ağır vergilər daha da dözülməz edirdi. Vergilər o dərəcədə çox idi ki, kəndlilər əsasən onu ödəyə bilmir və borclu qalırdılar. Belə ki, 1886-cı ilin sonunda təkcə Bakı quberniyası üzrə dövlət kəndlilərinin ödəyə bilmədiyi vergi borcu 11 mln. manatdan artıq idi.

Sahibkar kəndlilərinin vəziyyəti daha ağır idi. Onların istifadəsində olan torpaqlar 1870-ci il islahatından sonra da bəylərin mülkiyyətində qalırdı. Bəylərin mülkiyyətində istifadədə olmayan boş torpaqlar da var idi. Onlar bu torpaqları ağır şərtlərlə icarəyə verirdilər. Sahibkar kəndlilərinin istifadəsində olan adambaşına düşən pay toıpaqlannın sahəsi ilbəil azalırdı. Tutaq ki, 1870-ci il islahatı zamanı bir kəndli ailəsinin istifadəsində 15 desyatin torpaq var idi və bu ailənin kişi,üzvlərinin sayı beş nəfərə çatırdı. Yüzilliyin sonunda da həmin ailənin torpaq sahəsi 15 desyatin olaraq qalırdı. Halbuki keçən otuz il ərzində belə ailələr xeyli böyümüş, onlardan hər birinin *tərkibindən 2-3, bəlkə də daha çox ailə ayrılmışdı. Deməli, hər* ailəyə, onun hər kişi üzvünə artıq əvvəlki kimi 3 desyatin deyil, xeyli az l və ya 1,5 desyatin, bəlkə de daha az torpaq payı düşürdü. XX yüzilliyin lap əvvəllərinə dair mə’lumata görə, Bakı quberniyasında adambaşına düşən torpaq payının sahəsi bir desyatindən az, Yelizavet- pol quberniyasının Cavanşir, Cəbrayıl, Zəngəzur və Şuşa qəzalarında

isə 0,5 desyatindən bir az çox idi. Sahibkar kəndliləri üzərinə düşən vergilər dövlət kəndlilərininkindən də ağır idi. Çünki onlar öz feodallarına - torpaq sahiblərinə verilən məhsuldan dövlət vergilərini də ödəməli, mükəlləfiyyətlər də icra etməli olurdular.

Torpaqlann az olmasından əziyyət çəkən istər dövlət kəndlilərinin, istərsə do sahibkar kəndlilərinin vəziyyətini suvarma suyunun çatışmaması da pisləşdirirdi. Azerbaycanın əksər bölgələrinin iqlim şəraiti elə idi ki, sün’i suvamıa olmadan məhsul yetişdirmək mümkün deyildi. Kəndlilər, xüsusən sahibkar kəndliləri əz sahələrini suvarmaq üçün su aı-xlannın sahiblərinə-bəylərə məhsullarının xeyli hissəsini verməli olurdular. Dövlət kəndlərində vəziyyət nisbətən yaxşı idi, onlar sudan icmalıqla növbə ilə istifadə edə bilərdilər. Lakin burada da mirablarm' Özbaşınalığı vəziyyəti ağırlaşdırırdı. Belə ki, onlar varlı kəndli təsərrüfatlarına qeyri-qanuni su verməkdən çəkinmir və şübhəsiz ki, bunun müqabilində rüşvət alırdılar.

XIX yüzilliyin sonlarında Azərbaycan kəndinin siması xeyli dəyişmiş, artıq kənd əhalisi yeni - kapitalist cəmiyyətinin siniflərinə parçalanmışdı. Bu siniflərdən biri torpaqların xeyli hissəsini əllərində cəmləşdirmiş kənd varlıları, öz torpaqlarını muzdlu əmək tətbiq etməklə becərən qolçomaqlar, həmçinin təsərrüfatla məşğul olub, bu təsərrüfatda muzdlu əmək tətbiq etməklə kapitalistə çevrilmiş bəylər idi. Digər sinfi isə torpaqsız və ya aztorpaqlı kəndlilər təşkil edirdilər. Doğrudur, hələ bəylərin hamısı öz təsərrüfatı ile məşğul olmurdu, kəndlilərin də əksəriyyəti öz təsərrüfatı ile ailə üzvlərinin qüvvəsi ile məşğul olur, öz feodallarına yaxud dövlət xəzinəsinə istifadə etdiyi torpaqların müqabilində vergi ödəyirdilər. Çünki hələ onlar feodallar və dövlət xəzinəsilə feodal-asılı münasibətdə idilər. Lakin bu münasibətləri tədricən yeni yaranan kapitalist münasibətləri əvəz edirdi. Bu isə uzun çəkən proses olmuş, XX yüzillikdə de davam etmişdi.

Sinfi mübarizə. Azerbaycan kəndində milli-müstəmləkə əsarətinə, çar mə’murlannın özbaşınalığına və feodal zülmünə qarşı sinfi mübarizə getdikcə güclənirdi. Bu mübarizə fəal və qeyri-fəal formada gedirdi. Qeyri-fəal mübarizə forması-hökumət orqanlarına şikayət etmək halları daha geniş yayılmışdı. Kəndlilər çar mə’murlanmn, ver- giyığanlann, mirablann özbaşınalığından minlərlə ərizələr yazınlar. Lakin çar inzibati orqanları və məhkəmələr varhlann - qolçomaq-

' Suyun bölünməsinə nəzarət edən mə’mur.

larin, bəylərin mənafeyini güdürdü. Şikayətlərinin heç bir nəticə vermədiyini görən kəndlilər vergi verməkdən boyun qaçınr, hökumət mə’murlanmn, kətxudalarm, bəylərin evlərinə, malikanələrinə hücum edir, vurub dağıdır, yandınrdılar. Kəndlilərin bu sinfi mübarizəsi silahlı toqquşmalara da çevrilirdi. 70-ci illərin sonunda belə silahlı çıxışlardan biri Qazax qəzasının Quşça kəndində baş vermişdi. Bu çıxışı bəylərin çağırışı ilə gəlmiş silahlı kazakların köməyilə yatırmaq mümkün oldu. Yelizavetpol qazasmın Xılxana kəndinin sakinləri mülkədar zülmünə qarşı silahlı üsyana qalxmışdılar, 80-ci illərdə Yelizavetpol qəzasının Qarabulaq kənd sakinləri öz mülkədarlarını silah gücünə kənddən qovub, torpaqlannı zəbt etmişdilər və s. Belə çıxışlar Azərbaycanın çox yerində baş vermişdi.

XIX yüzilliyin son rübündə Azərbaycanda sinfi mübarizənin ən çox yayılmış forması qaçaq hərəkatı idi. Mövcud üsul-idarədən, feodalların özbaşınalığından, hərc-mərclikdən cana doymuş kəndlilər öz feodalını, çar mə'murunu öldürəndən sonra, ələ keçməmək üçün dağlara qaçır, ətraflarına özü kimi narazı kəndlilər toplayaraq silahlı dəstələr düzəldirdilər. Bu qaçaq dəstələri əsl xalq intiqamçılarına çevrilirdilər. Onlar qəflətən bəyin, qolçomağın, çar mə’murunun, sələmçinin mülkünə basqın edir, onların var-ypxlannı ələ keçirərək yoxsullara paylayırdılar, bir qismini isə özlərinin yoxsul ailələri üçün götürürdülər. Qaçaq hərəkatı, demək olar ki, Azərbaycanın hər yerini bürümüşdü. Əhali onların intiqamını bəylərdən, çar mə’murlarından alan qaçaqları həmişə müdafiə edir, onların ələ keçməsinə mane olurdu. Təsadüfi deyil ki, elimizdə belə bir xalq məsəli var ki, əsrlərin sınağından çıxmışdır: «Qaçağı el saxlam.

Azərbaycanda Qaçaq Kərəmin, Qaçaq Nəbinin və ümumiyyətlə onlarla qaçağın adı dillər əzbəri olmuşdur. Nəbi Yelizavetpol quberniyası Zəngəzur qəzasının Aşağı Mollu kəndində (indiki Qubadlı rayonu) yoxsul kəndli ailəsində doğulmuşdu. 16 yaşında ikən bəyin onun atasını döyməsinin şahidi olmuş Nəbinin qəlbində intiqam atəşi alovlanmış, bəyin üstünə atılmışdı. Buna görə de, həbs edilərək 1890- cı ildə katorqa hökmü ilə cəzalandınimışdı. Həbsdən qaçaraq doğma yurduna qayıdan Nəbi başına silahlı dəstə yığaraq bəylərə, çar hökumət dairələrinə qarşı mübarizəyə başlamışdı. Xalq ona Qaçaq Nəbi adını vermişdi. Sevimli arvadı Həcər də silaha sarılaraq qaçaqlarla birlikdə qəhrəmancasına vumşurdu. Qaçaq Nəbinin destəsy tez-tez öz yerini dəyişir, Arazın o tayına keçir, Azərbaycanın cənub torpaqla

rında yaşayan kəndlilere də kömək əlini uzadırdı. Qaçaq Nəbi xalqın qanını zəli kimi soran, var-yoxunu çapıb talayan bəylərin, çar mə'murlanmn, qolçomaqlann, sələmçilərin qəniminə çevrilmişdi. Qaçaq Nəbi öz igidliyi ilə xalq qəhrəmanı, zəhmətkeşlərin mənafeyinin müdafiəçisi kimi şöhrət qazanmış və əqidəsi uğrunda illərlə mübarizə aparmışdı.

Qaçaq Nəbi yalnız yerli bəyləri, çar mə'murlannı deyi, hökumət dairələrini, Qafqaz inzibati idarəsini də narahat edirdi. Çar hökuməti Nəbini öldürənlərə çoxlu pul, qiymətli şeylər ve'd vermişdi. Xainlərə 1896-cı ildə Nəbini öldürmək qismət oldu. Qaçaq Kəbinin öldürülməsi Azərbaycan kəndlilərini hiddətləndirdi və son dərəcə kədərləndirdi. Xalq onu unutmadı, adına dastanlar, nəğmələr qoşdu, öz qəlbində yaşatdı və indi de yaşadır.

Qaçaq dəstələrinin qəhrəmanlıq xariqələri göstərməsinə baxmayaraq, onlar məğlubiyyətə uğradılar. Bunun başlıca səbəbi, hərəkatın kortəbii xarakteri, onlara rəhbərlik edən və istiqamət verən mərkəzin, kəndlilərin əsl müttəfiqi və yol göstəricisinin olmaması idi.

## XIX fesli

## XIX ƏSRİN İKİNCİ YARISINDA AZƏRBAYCAN SƏNAYESİ. SƏNƏTKARLIQ VƏ TİCARƏT

### § 1. SƏNAYE

Neft sənayesi. 1860-cı illərdə, sənayedə neftdən yanacaq kimi istifadə edilməsinin genişləndiyi bir vaxtda, Bakıda istehsal olunan neft azlıq edirdi. Neft istehsalının inkişafına iltizam sistemi mane olurdu. 1872-ci ildə neft sənayesinin inkişafına əngəl törədən və sənayedə kapital axınına mane olan iltizam sistemi ləğv edildi. Neft- verən torpaqlar qruplara bölünüb müzaide (torq) yolu ilə ayrı-ayn kapital sahiblərinə uzun müddətli icarəyə verildi. Bu torpaqları əsasən rus və erməni kapitalının nümayəndələri icarəyə götürdülər, tcarədarlar arasında Azərbaycan burjuaziyasının yeganə nümayəndəsi Hacı Zeynalabdin Tağıyev idi. Sonrakı illərdə isə neft sənayesi sahibləri arasında azərbaycanlı sahibkarlar da meydana çıxdılar. Neftverən torpaqlann bir qismi müzaidəyə qoyulmadan rus ə'yanlanna bağışlandı. Qazılan neft quyularından birində neftin fəvvarə vurması neft sənayesinə diqqəti daha da artırdı, sənayeyə kapital axını artdı, yeni-yeni sahibkarlar neftli torpaqlar əldə etmək üçün dəridən-qabıqdan çıxırdılar. Neftverən torpaqların qiyməti xeyli bahalaşdı. Bir desyatini 1000 man. olan torpağa bir neçə ildən sonra 45 min man. verirdilər. Tezliklə neft istehsalı ile məşğul olan şirkətlər yaradıldı. 1873-cü ildə Bakı rayonunda cəmi 12 şirkət fəaliyyət göstərdiyi halda, yüzilliyin sonlarında onlann sayı i40-a çatdı.

Neftverən torpaqlann müzaidə ilə icarəyə verildiyi vaxt və ondan bir neçə il sonra neft sənayesində apancı qüvvə yerli kapital nümayəndələri idi. Tezliklə neft sənayesinə rus və Xarici kapital axını başlandı, 1879-cu ildə «Nobel qardaşlan birliyi»nin əsası qoyuldu. 80- ci illərdə Bakıya Rotşildin simasında fransız kapitalı nüfuz etdi. 90-cı illərdə ingilis kapitalı Bakı neft sənayesində özünə yer tutdu. Daha sonra digər xarici ölkələrin nümayəndələri də Bakı neft sənayesində müəyyən mövqeyə yiyələndilər.

Neft sənayesinə kapital axını neftin çıxaniması, e'malı texnikasının yaxşılaşdırılmasına, neft məhsullannın daşınma vasitələrinin tekmilləşdirilməsinə səbəb oldu. 1871-ci ildə buruq üsulu ilə ilk neft quyusu qazıldı, nefti quyulardan jelonkalarda^ çıxarmağa başladılar. Əvvəllər jelonkalar əllə qaldırılırdı. Tezliklə əl eməyini buxar mühərrikləri əvəz etdi. Buxar mühərrikləri quyuların qazılmasında da tətbiq edilməyə başladı. Neft sənayesində el əməyinin buxar mühərrikləri ilə əvəz edilməsi neft sənayesinin manufaktura inkişaf mərhələsindən iri fabrik istehsalı səviyyəsinə keçməsi deməк idi. İstehsal edilmiş neft mə'dənlərdən anbarlara üstünə çəlləklər qoyulmuş arabalarda daşınırdı. Bakı neft sənaye rayonunda belə arabalar minlərlə idi.

1870-ci illərin sonunda Balaxanı me'dən rayonu ilə neft e'malı müəssisələri arasında ilk neft kəməri işə salındı. Yüzilliyin sonunda kəmərlərin sayı xeyli artaraq 26-ya çatdı. Onların hamısının bir yerdə uzunluğu 300 km-e qədər idi. Nefti və neft məhsullarını saxlamaq üçün çənlər quruldu, daşımaq üçün vaqon-sisternler yaradıldı. Azərbaycanda mahir neft ustaları nəsli yarandı.

Bütün görülən tədbirlər Bakıda neft sənayesinin sür'ətlə inkişafına səbəb oldu. 1870-1880-ci illərdə neft çıxarılması 10 dəfə artdı.

Neft istehsalının sür'etlə artması neft sənayeçilərinə külli miqdarda qazanc gətirirdi. Az vaxtda Bakıda onlarla neft sənaye milyonçuları meydana çıxdı ki, onların arasında azərbaycanlı kapitalistlərdən H.Z.Tağıyev, Musa Nağıyev, Murtuza Muxtarov, Ş.Əsədullayev və başqaları da var idi.

Neft istehsalının sür'ətlə inkişafı onunla bağlı sənaye sahələrinin, neft e'malı-neftayırma sənayesinin inkişafına səbəb oldu. Ağ neft, sürtkü yağları, qara neft və diger neft məhsullarına tələbat həmin sənaye sahəsinə marağı xeyli artırdı.

Bakıda neft e'mal edən zavodlann sayı xeyli artdı. 1890-cı ildə Bakıda 150-ye qədər neft e'mal zavodu fəaliyyət gösterirdi. Neftin və neft məhsullarının ixraçında da böyük irəliləyiş var idi. Bakı ağ nefti təkcə Rusiyaya deyil, xarici ölkələrə də-Çine, Hindistana, Hind- Çinə, Avstraliyaya ixrac olunurdu. Ağ neft məhsullannın daşınmasını asanlaşdırmaq məqsədilə Bakı ile Batum arasında 1897-ci ildə birbaşa ağ neft kəməri çəkilməsinə başlandı və 10 ildən sonra başa çatdı. Ağ neft kəmərinin çəkilməsi neft ixracını xeyli artırdı.

Vedrəyə oxşar uzunsov qab.

Neft sənayesi inkişaf etdikcə, kanital axını artdıqca, sənayedə təmərküzləşmə, inhisarların yaranması 'prosesi de sür’ətlənirdi. Rusiya sənayesinin bir çox sahələrində olduğu kimi, neft sənayesində də səhmdar cəmiyyətlər yaranır, bu cəmiyyətlər neft istehsalı və ticarətini öz əllərində cəmləşdirirdilər.

Neft sənayesi Bakı şəhərinin şöhrətini təkcə Azerbaycanda deyil, dünya miqyasında artırdı. O dünyanın ən böyük neft sənayesi mərkəzlərindən birinə çevrildi.

Başqa sənaye sahələri. Bakıda və Azərbaycanın be’ziqezalann- da neft sənayesi ile yanaşı onunla bağlı digər sənaye sahələri meydana çıxdı. Bakıda fəaliyyət gösterən mexaniki zavodlar əsasən neft sənayesi ile bağlı idi. Bu sənaye sahələrindən maşınqayırma, buxar qazanları və metal kanat istehsal edən digər müəssisələri göstənnək olar. Bakının həmin sənaye ocaqlannda minlərlə fəhlə çalışırdı. Burada eyni zamanda gəmi te’miri e'malatxanalan, buxar mühərriklərilə hərəkətə gətirilən dəyirmanlar, tütün fabrikləri və yüzlərlə yeyinti, tikinti sənaye sahələri müəssisələri fəaliyyət göstərirdi.

Azerbaycanın digər qəza şəhərlərində de yerli xammal əsasında kapitalist sənaye müəssisələri yaranmışdı. Gədəbeydeki mis mə’dən- ləri buradakı dağ-mə’dən sənayesinin, Şəkidə, Şuşada, Ordubadda və başqa yerlərdə barama istehsalı ipək e’malı sənayesinin, pambıqçılığın inkişafı pambıqtəmizləmə sənayesinin və s. yaranmasına şərait yaratmışdı.

Bakıda və Naxçıvanda duz mə’dənlərində duz istehsalı xeyli artdı. İstehsal olunan duz Qafqaz ölkələrindən başqa İrana, Türkiyəyə, Mərkəzi Rusiya quberniyalarına göndərilirdi. Balıqçılıq da xeyli genişləndi. Bu inkişaf 1880-ci ildə vətəgələrin icarəyə verilməsi ilə xüsusilə sür'ətləndi. Balıq sənayesinə iri kapitalistlər maraq göstərirdilər. Balıq vətəgələri Tağıyev, Mayılov, Lianozov kimi neft maqnatlarının inhisannda idi.

İpək e’malı sənayesinin əsas mərkəzi olan Nuxa şəhərində buxar mühərrikləri ile hərəkətə gətirilən ipək e’malı fabrikləri var idi. Dövrünün iri və müasir texnikası ile təchiz olunmuş belə fabriklərdən birinin əsası hələ 1859-cu ildə Rusiya kapitalistləri tərəfindən qoyulmuşdu. Bu tipli fabriklər Şuşada və Ordubadda da fəaliyyət gösterirdi. Digər bölgələrdə de kiçik ipək e’malı fabrikləri var idi, lakin ipək məhsulunun çoxu fabrik tipli müəssisələrdə istehsal olunurdu. Ön Qafqazdan ixrac olunan ipəyin 90%-i Azerbaycanın payına düşürdü.

Azərbaycanda üzümçülüyün inkişafı burada spirt çəkən və şərabçılıq müəssisəsinin meydana çıxmasına səbəb oldu.

Bakıda, Şəkidə, Şamaxıda tütün fabrikləri var idi.

Sənayenin inkişafı, ona kapital qoyuluşu tələb edirdi. Odur ki, sənayenin inkişafı ile eyni vaxtda Bakıda, qəza mərkəzlərində bank-kredit təşkilatları yaradıldı. Azərbaycan şeherlərində, esasen Bakıda Rusiya banklarının şö’beleri açıldı.

Neft və başqa sənaye sahələrinin genişlənməsi Xəzər dənizində gəmiçiliyin xeyli inkişafına şərait yaratdı. Xəzər dənizində dünyada ilk neft tutumlu gəmilər meydana çıxdı. Gemi sahibkarlarının arasında hərəsinin 5-6 gəmisi olan xeyli azərbaycanlı kapitalist-Aşurov, Hüseynovlar, Zeynalov və b. var idi. XIX yüzilliyin sonlarında Bakı limanı yük dövriyyəsinə görə Rusiyada ikinci yeri tuturdu.

Kapitalist təsərrüfatının inkişafı rabitə vasitələrinin: təkmilləşməsini tələb edirdi, Azərbaycan şeherləri arasında teleqraf xətləri çəkildi. 80-ci illərdə Bakıda ilk telefon rabitəsi yaradıldı.

## § 2. SƏNƏTKARLIQ, TİCARƏT, ŞƏHƏRLƏR

Sənayenin inkişafı Azerbaycanda sənətkarlığın bə'zi sahələrinin tənəzzülünə, hətta aradan çıxmasına səbəb oldu. Lakin buna baxmayaraq, Azərbaycan şəhərlərində və kəndlərində kustar, be’zi hallarda isə manufaktura səviyyəsinə yüksələ bilmiş sənət sahələri var idi. Bu sənət sahələrinin bir çoxunun məhsulu ya fabrik-zavodlarda istehsal olunmurdu, yaxud da xanlıq adet-en’enesi, məişəti ilə bağlı olduğundan onları fabrik-zavod məhsulu ilə əvəz etmək mümkün deyildi. Bunlardan en birincisi və əvəzolunmazı xalçaçılıq idi. Azerbaycan xalçalarını heç bir fabrik-zavod me’mulatı əvəz edə bilməzdi. Bu sənət sahəsi yenə də şəhər və kəndlərdə geniş intişar tapmışdı. Təkcə Quba qəzasında 30 min, Yelizavetpol quberniyasının 4 qəzasında isə 100 minə qədər qadın xalça toxuyurdu. Yüzilliyin sonunda təkcə Xaçmaz stansiyasından bir il ərzində 300 min manatlıq xalça ixrac olunmuşdu. Rusiya toxuculuq sənayesinin pambıq parça və ipək mallarının Azerbaycana axıb gəlməsinə baxmayaraq, onlar xalqın məişətində özünə möhkəm yer tutmuş tafta, qanovuz və bu növdən olan ipək parçaları əvəz edə bilmirdi. Ona görə de bu sənət sahələri əvvəlki kimi inkişaf yolunda idi.

Azərbaycanda yenə də boyaqxanalar, göndəri istehsalı ile məşğul olan e'malatxanalar, dəmirçilik, xarratlıq ve s. sənət sahələri mövcud idi.

Azərbaycanın daxili ticarətində şəhərlərdə və kəndlərdə fəaliyyət göstərən həftə bazarları mühüm rol oynayırdı. Əsasən cümə günləri işləyən bu bazarlara ətraf kəndlərdən müxtəlif məhsullar, mal-qara gətirilirdi. Bu bazarlarda Rusiyadan, hətta xarici ölkələrdən gətirilmiş mallara da rast gəlmək olardı. Belə bazarlardan biri Ağdaşda olmuşdu. Bazan görmüş müasirlərdən biri Tiflisdə çıxan «Qafqaz» qəzetində yazırdı ki, Ağdaş «xaricə, Marsel və İtaliyaya göndərilən həm bütün sarınmış ipəyi, həm de baramanı özündə cəmləşdirən mərkəzdir». Şəhərlərdə yaımarkalar təşkil olunurdu.

Azərbaycanın xarici ticarəti əsasən mərkəzi Rusiya quberniyaları, həmçinin İran, Avropa və Şərq ölkələri ile idi. Bu ixracatda əsas yeri neft, ipək, pambıq, yun, tütün ve s. xammallar tuturdu.

Azərbaycanın şəhərləri arasında en mühümü, XIX yüzilliyin sonlarında artıq yüz mindən artıq əhalisi olan iri kapitalist şəhəri Bakı idi. Bakıda azərbaycanlılarla yanaşı ruslar və başqa millətlərin nümayən-- dəleri yaşayırdılar. Azerbaycanın Gəncə, Şuşa, Nuxa və Şamaxı kimi şəhərlərinin hər birində 20-30 min əhali yaşayırdı.

Şəhərlərin özünüidarə-icra bələdiyyəsinin orqanı şəhər bələdiyyə rəisi və dörd il müddətinə seçilən duma üzvlərindən ibarət idi. Duma üzvləri, əsasən varlı sinif nümayəndələri idi. Şəhərlərin çoxunda, məsələn Qubada ve Lənkəranda yüzilliyin sonlanndan başlayaraq başda şəhər rəisi olmaqla 13 müvəkkildən ibarət məhdud şəhər özünüidarəsi fəaliyyət göstərirdi.

xıx yüzilliyin ikinci yarısında şəhərlərin çoxunun xarici görkəmi xeyli deyişdi, yeni tipli evlər tikildi, yollar salındı. Bu baxımdan Bakı şəhəri xüsusilə fərqlənirdi. Şeher əhalisinin tərkibi də dəyişirdi.

## X X f ə s i l

# AZƏRBAYCANDA BURJUA CƏMİYYƏTİNİN TƏŞƏKKÜLÜ VƏ SİNFİ MÜBARİZƏ

### § 1. BURJUAZİYA VƏ PROLETARİAT

Burjuaziya. XIX yüzilliyin ikinci yarısında Azerbaycanda kapitalist sənayesinin inkişafı, bir çox sənet sahelerinin manufaktura səviyyəsinə yüksəlməsi, kənd təsərrüfatında, kəndli sahibkarlar arasında baş verən sosial dəyişikliklər kənd təsərrüfatının bir çox sahələrinə muzdlu əməyin daxil olması, cəmiyyətin tərkibində əsaslı dəyişikliklərin baş verməsi, yeni kapitalist cəmiyyətinin sinifləri olan burjuaziya və fəhlə sinfinin təşəkkül tapmasına şərait yaratdı. Azərbaycan burjuaziyası neft sənayeçilərindən, fabrik-zavod və manifak- tura səviyyəsində olan, sənətkar e'malatxanalannin sahiblərindən, tacirlərdən, ev sahiblərindən, qolçomaqlardan, teserrüfatlannı niuzdlu emək üzərində quraraq kapitalistə çevrilmiş bəylərdən və b.. ibarət idi. Azərbaycan burjuaziyasının XIX yüzilliyin ikinci yansında başlamış təşəkkül prosesi XX yüzilliyin əvvəllərində de davam etmişdi. Böyük sənaye mərkəzinə çevrilmiş Bakı şəhəri Azerbaycan burjuaziyasının təşəkkül tapdığı ən mühüm mərkəz idi. Ən güclü dəstəsi məhz bu şeherdə cəmləşmiş Azerbaycan burjuaziyası müstəmləkə vəziyyətində olan ölkənin iqtisadi inkişafının xüsusiyyətləri ilə əlaqədar olaraq öz təşəkkülünün lap başlanğıcından çoxmillətli olmuşdur. Çünki neft sənayesinin kapitalist inkişafının ilk illərindən erməni kapitalı burada üstünlük qazanmış, daha sonra isə bu sənaye sahəsinə rus kapitalı axıb gəlmişdi. Ticarət sahəsində də erməni və rus kapitalının rolu az deyildi. Azərbaycanlı sahibkarlar da əsasən Bakının yüngül sənaye, neft e'malı sahələrində, gəmiçilikdə, Azərbaycan qəzalanndakı sənaye müəssisələrində üstünlük təşkil edirdi. Özünün təşəkkül dövründə çoxmillətli burjuaziya sinfinin tərkibində azlıq təşkil edən Azərbaycan burjuaziyası sonrakı illərdə nisbətən qüvvətləndi. Məsələn, XX yüzilliyin lap ilk ilində neft sənayesində olan 167 fımadan 49-u milli kapital nümayəndələrinə məxsus idi. Neft sənayesində 55 firması olan erməni burjuaziyasından sonra ikinci yeri tutan Azerbaycan milli burjuaziyası XIX yüzilliyin sonlarında say

e'tibarile xeyli artsa da, onun sənayedə xüsusi çəkisi həmin sayla uyğun gəlmirdi. Belə ki, burjua nümayəndələrinin böyük əksəriyyətinin kapitallannm miqdanna, iqtisadiyyatda tutduqlan mövqelərinə görə xüsusi çəkisi bir çox iri kapitalistlərə nisbətən xeyli aşağı idi. Ancaq Azərbaycan milli burjuaziyası nümayəndələri arasında çox varlı, sənaye və ticarətdə yüksək xüsusi çəkili kapitalistlər də var idi. Onlardan bu gün böyük ehtiram və sonsuz hörmətlə yad edilən, öz kapitalını eyni zamanda xalqın maariflənməsinə və xeyriyyə işlərinə sərf edən Hacı Zeynalabdinin adını çəkmək olar. Bənna şagirdi işləyə-işləyə öz fərasəti, əməksevərliyi ilə müəyyən məbləğ yığaraq 1872-ci ildə neflveren torpaqlar müzaidə ilə uzunmüddətli icarəyə verilən vaxt bir erməni kapitalisti ilə şərikli neftverən toıpaq sahəsi icai-əyə götürmüş H.Z.Tağıyev neft buruğunun fəvvarə vurması nəticəsində varlanmış, XIX yüzilliyin sonunda Bakının ən böyük milyonerlerindən birinə çevrilmişdi.

Ağıllı, uzaqgörən adam olan Tağıyev öz kapitalını təkcə neft sənayesinə deyil, yeyinti, tikinti sənaye sahələrinə, hətta kənd təsərrüfatına da qoyurdu. H.Z.Tağıyev Azərbaycan burjuaziyası nümayəndələri arasında Azərbaycan iqtisadiyyatının müstəmləkə xarakterinə zərbə vuran, onu sındıran kapitalist olmuşdur. Mə'lumdur ki, müstəmləkə metropoliya sənayesi üçün xammal verməli, onun özündə bu xammalı əşyaya çevirən sənaye sahələri və eyni zamanda rus sənayeçilərinə dünya və Rusiya bazarlannda rəqib olmamalı idi. Bu iqtisadiyyat müstəmləkə iqtisadiyyatı adlanırdı. Azərbaycan iqtisadiyyatı da belə idi. Ağıllı və uzaqgörən Tağıyev böyük zəhmət, uzun illərin mübarizəsindən sonra, öz toxuculuq fabrikini açmaqla Azərbaycan iqtisadiyyatının bir qolunun inkişafını başqa istiqamətə yönəldə bilmişdi.

H.Z.Tağıyevlə yanaşı Azərbaycan milli burjuaziyasının neft sənayesində Şəmsi Əsədullayev, Musa Nağıyev, Murtuza Muxtarov, Manafov, yeyinti sənayesində Ağabala Quliyev, Zülfüqarovlar, Səttar Kərimov, ipək e'malı sənayesində Hacı Kərim Vahaboğlu, Hacı Əbdül Rəhimov, Muradov, balıqçılıqda Əhməd Mustafaoğlu və b. gəmiçilikdə Hüseynovlar, Dadaşovlar və onlarla b. təmsil etmişlər.

**Fəhlələr.** Azərbaycanda kapitalizmin inkişafı burjuaziya ilə eyni vaxtda fəhlə sinfinin meydana çıxıb təşəkkül tapmasına səbəb oldu. Bakıda və Azərbaycanın diger qəzalarında sənaye ocaqları yarandıqca, var-yoxdan çıxmış kəndlilər bir parça çörək dalınca bu şəhərlərə axışırdı. Bakıya iş dalınca təkcə Azərbaycan qəzalannın müflis-

leşmiş kəndlüdri deyil, Ruiiyadan, qonşu Gürcüstaidan, Ermenistandan, həmçinin İran A2erbaycanmdan da gəlirdilər. Lakin iş dalınca gələn kəndlilərin hamısı daimi olaraq Bakıda və digər şəhərlərdə qalmır, fəhlə sinfinin təşəkkülündə iştirak etmirdi. Onlann bir qismi torpağı az olduğundan, təsərrüfat işləri səngiyəndə kesbkariığa gəlir, yə’ni müəyyən müddət bir qədər pul qazandıqdan sonra geri qayıdır, öz təsərrüfatlarında çalışır, torpaqdan ayrılmırdı. Onlara mövsümi fəhlələr deyirdilər. Bakıya və başqa sənaye ocaqlanna iş tapmaq üçün gələnlərin digər qismi isə təsərrüfatla əlaqəsini tamamilə kəsir, sənaye müəssisələrində muzdla işləyən daimi fəhləyə çevrilirdi. Məhz onların hesabına Azərbaycan fəhlə sinfi təşəkkül tapırdı. Bakı nefl sənayesi kapitalist əsaslan üzərində inkişafa başlayanda burada çalışan fəhlələrin böyük əksəriyyətini Abşeron kəndliləri təşkil edirdi. Lakin neft sənayesi genişləndikcə, Abşeron kəndliləri əlbəttə azlıq edirdi və boş yerləri gəlmə kəndlilər tuturdular.

Bakı proletariatının sayı 60-65 min, bütün Azerbaycanda isə 90- 100 min nəfər idi. Bakı proletarları neft-sətlayesi ilə yanaşı yüngül və yeyinti sənaye müəssisələrində, dəniz donanmasında, tikinti işlərində, dəmir yolunda və s. digər bölgələrdə olan fəhlələr isə dağ-mə’dən, ipək e’malı, pambıqtəmizləmə sənaye sahələrində, balıqçılıqda, duz istehsalı sahəsində, yüngül, tikinti və yeyinti sənayesinin müxtəlif müəssisələrində çalışırdılar. Nuxanın ipəksanma müəssisələrində 80-90-cı illərdə 1700-1800, bütün Qarabağda isə 2300 fəhlə işləyirdi. Balıq sənayesi sahəsində çalışan fəhlələrin sayı 7000 nəfərə çatır- dı. Fəhlələr arasında qadınlar da az deyildi. Yelizavetpol quberniyasında ipək C’malı müəssisələrində çalışan fəhlələrin 0,5%-i qadınlar idi. Həm Bakı, həm de qəzalarda sənaye istehsalında yeniyetmə və uşaqların əməyindən istifadə olunurdu.

## § 2. AZƏRBAYCAN BURJUA MİLLƏTLƏRİNİN FORMALAŞMASI. İCTİMAİ HƏYATDAKI CƏRƏYANLAR

Kapitalizmin inkişafı, cəmiyyətin sinfi tərkibində baş vermiş dəyişikliklər, Azərbaycanın ayn-ayn əraziləri arasında iqtisadi birliyin yaranması, iqtisadi və mədəni mərkəzləri yüksəlməsi kimi amillər vahid dili, mədəniyyəti, ərazisi, iqtisadi və mə’nəvi həyatı olan Azərbaycan xalqının buijua milləti kimi formalaşmasına səbəb oldu. Azərbaycan burjua millətinin formalaşması XIX yüzilliyin ikinci yarısında baş vermişdi. Təsadüfi deyil ki, millət məfhumunu dilimizə

həmin dövrün böyük xadimi M.F.Axundov gətirmişdi. Mətbuatda ilk dəfə 80-ci illərdə çıxan «Kəşkül» qəzeti «Azərbaycan milləti» ifadəsim işlətmişdir. Azərbaycan burjua millətinin tərkibinə bnrjııa- /lya və proletariat, bəylər və kəndlilər, tacirlər və sənətkarlar və başqaları daxil idi.

Burjua millətinin yaranması azərbaycanlıların həyatında mühüm hadisə idi. Bu, azərbaycanlıların milli şüurunun da formalaşmasına səbəb oldu. Milli şüurun formalaşması isə müstəmləkə zülmüno qarşı, loıpağın suverenliyi uğıaında mübarizə üçün çox vacib idi.

Şimali Azərbaycanın da daxil olduğu Rusiya imperiyasının tərkibində müstəmləkə əsarəti altında inləyən xalqlar və millətlər yaşayırdılar, «çar Rusiyası xalqlar həbsxanası idi». Çar hökuməti idarələrinin başında oturanların böyük əksəriyyəti qaragüruhçu millətçilər idilər. Onların siyasəti çar Rusiyasının əhalisinin əksəriyyətini təşkil edən xalqların çoxuna qarşı yönəldilmişdi. Çarizm həmin xalqların, sözün əsl mə’nasında cəlladı idi. O ucqarlarda millətlərin baş qaldırmasına, öz azadlığı uğnında mübarizəyə qalxmasına mane olmaq üçün «parçala və hökmranlıq et» prinsiplərindən istifadə edir, xalqlar arasında, o cümlədən azərbaycanlılarla ermənilər arasında qırğınlar törədirdi. Xalqları əsarət altında saxlamaq üçün çarizm onları dini xurafat içində saxlamağa, savadlanmasına mane olmağa çalışır, nıslaşdınna siyasəti aparırdı. Çarizm yerlərdə müstəmləkə zülmünə qarşı hər hansı çıxışı qan içində boğurdu. Belə bir şəraitdə istər Azərbaycan proletariatı, islər Azərbaycan burjuaziyası, istərsə də xalqın digər qabaqcıl nümayəndələri müxtəlif vasitələrdən istifadə edərək xalqı savadlandımtaq, gözünü açmaq, maarilləndirmək üçün əllərindən gələni edirdilər. Lakin XIX yüzilliyin ikinci yarısında hələ zəif olan Azc haycan burjuaziyası kövrək addımlar atırdı. Proletariatın isə hələ v;’"id, istiqamətverici təşkilatı yox idi. Belə bir şəraitdə Azərbaycanın qabaqcıl ziyalı nümayəndələrini millətin taleyi düşündürürdü. Onların isə çarizmin milli-müstəmləkə zülmünü tənqid atəşinə tutmaqdan başqa imkanları yox idi. Bu istiqamətdə M.F.Axundov, H.B.Zərdabi, N.Nərimanov və b. əlbəttə çox mühüm iş görürdülər. Onlar öz əsərləri ilə, mətbuat vasitəsilə xalqın gözünü açmağa, onu cəhalətdən qıırtaiTnağa çalışırdılar.

Azərbaycan burjuaziyasının bir çox liberal fikirli nümayəndələri də xalqı maarifə, elmə çağırır, bunun üçün 70-ci illərin sonundan Tiflisdə çıxmağa başlamış «Ziya» (bir qədər sonra o «Ziyayi-Qafqaziy-

ye» adlandınldı) qəzetinin səhifəlerinden istifadə edirdilər. Bu dövrdə burjuaziyanın bə’zi nümayəndələri xalqın heyatını yenidən qurmaq, ana dilini geniş yaymaq fikirlərini irəli sürür, «Vətən» məfhumunu işlədirdi. Burjuaziyanın Bakıda çıxan «Kaspi» qəzetinin ətrafında toplanmış Əhməd bəy Ağayev, Əli bəy Hüseynzadə, Əlimərdan bəy Topçubaşov kimi nümayəndələri hələ proletariatın bir sinif kimi zəif olduğu bir vaxtda milli hərəkatın başlanğıcını qoydular.

Bu dövrdə Azərbaycanda mütəreqqi>demokratik hərəkat güclənir. Onun nümayəndələri öz eserlərində, publisist yazılannda Azerbaycanın sosial-iqtisadi və siyasi həyatında baş verən hadisələrdən bəhs edir, cəmiyyətin eksikliklərini tənqid atəşinə tuturdular. Lakin XIX yüzilliyin ikinci yarısında Azerbaycanın demokratik ziyalılarının çıxışları milli azadlıq hərəkatı səviyyəsinə yüksələ bilmədi.

### § 3. FƏHLƏ SİNFİNİN VƏZİYYƏTİ VƏ İNQİLABİ MÜBARİZƏSİ

Fəhlələrin vəziyyəti. Avropa ölkələrinin bir çoxu ile müqayisədə çar Rusiyasında, o cümlədən onun müstəmləkə ucqarlannda fəhlə sinfinin vəziyyəti olduqca ağır idi. Müstəmləkə ucqarlarında fəhlələrin hüquqsuzluğu, dilənçi vəziyyəti, maarif və mədəniyyətdən təcrid olunması özünü daha bariz göstərirdi. Ucqarlarda yerli millətlər, Azərbaycanda isə azərbaycanlı fəhlələr eyni zamanda milli əsarətə mə’ruz qalırdılar.

Fəhlə sinfi kapitalistlər tərəfindən istismar edilir, müqabilində isə cüzi əmək haqqı alırdı. İş günü çox uzun və üzücü idi, hətta bə'zi yerlərdə 12-14 saata çatırdı. Fəhlələr üçün istirahət günləri yox idi. Bakının nefl mə’dənlərində iş günlərinin sayı bir ildə 360, Rusiyanın daxili qubemiyalarmda isə 230-300 günə çatırdı. Neft sənayesi ile bağlı olmayan müəssisələrdə də iş günü 12-13 saat idi.

Əmək mühafizəsinin yoxluğu bədbəxt hadisələrin baş verməsinə, ölüm hallanna, fəhlələrin ömürlük şikəst olmalarına səbəb olurdu. Çar Rusiyasının hər yerində olduğu kimi, Azerbaycan fəhlələri de siyasi hüquqdan məhrum idilər. XIX yüzilliyin sonlarında yaradılmış Bakı quberniya fəhlə müfəttişliyi və dağ-me’dən nəzarətinin Azərbaycandakı nümayəndələri fəhlələrin' mənafeyini müdafiə etmir, çar qanunlarında nəzərdə tutulan cüzi güzəştlərin də kapitalistlər tərəfindən pozulmasına göz yumurdular.

Fəhlə hərəkatının başlanması. Azerbaycan fəhlələri artıq 70- 80-ci illərdən öz istismarçılarına qarşı mübarizəyə qalxmışdılar. Bu dövrdə Rusiyada başlanmış fəhlə hərəkatı milli ucqarlara da öz tə’si- rini gösterirdi. Həmin bölgələrdə yaşayan xalqların içərisindən qabaqcıl mübarizlər - maarifçi ve inqilabçılar çıxırdı. İnqilabi iş üstündə Rusiyadan bu yerlərə sürgün edilmiş rus fəhlələri Qafqaz fəhlələrinin milli şüurunun oyanmasına qüvvətli təkan verirdilər.

Artıq 70-80-ci illərdən Bakıda, Gədəbəydə və Azerbaycanın digər sənaye müəssisələrində fəhlələrin iqtisadi tələblər - əmək haqqının artırılması, iş şəraitinin yaxşılaşdınlması ve s. irəli sürülən tə’til- leri baş verirdi.

80-90-cı illərdə Bakıda mə’dənlərdən anbarlara neft daşıyan arabaçı fəhlələrin,, Gədəbəy misəritmə zavodunun, Bakı tütün falırikleri- nin, bə’zi me’den rayonlarının fəhlələri, 189l-ci ildə isə neft mə’dən- lərinden və gəmi tə’miri e’malatxanalanndan işdən çıxarılmış fəhlələr te’til etmişdilər. Bu te’tiller hələlik kortəbii xarakter daşıyırdı.

Bakı fəhlə hərəkatı tarixində 1895-ci ildə Mirzəbekyanın tütün fabrikinin fəhlələri ilk mütəşəkkil te’til keçirdilər. Fəhlələr emək haqlannın artınıması tələbilə çıxış edirdilər. İki həftə sürən bu te’tiİ fəhlələrin qələbəsi ilə başa çatdı. 1896-cı ildə Bankə balıq vetəkelə- rinin, sonra Bülbülə daş karxanasının, Gədəbəy misəritmə zavodunun, daha sonra isə dəmiryol e’malatxanalannm fəhlələri tə’til etdilər.

Azerbaycanda, xüsusən de Bakıda fəhlə çıxışlan çoxaldıqca, fəhlələrin qabaqcıl hissəsinin inqilabi şüuru da formalaşırdı. Artıq həmin qabaqcıl fəhlələr başa düşürdülər ki, kortəbii çıxışlarla sosial əsarətə, milli-müstemleke zülmünə qarşı mübarizə aparmaq, fəhlə sinfinin maddi və iş şəraitini yaxşılaşdırmaq mümkün olmayacaqdır. Rusiyada fəhlə hərəkatı 90-cı illərdən marksist dərnək və qrupluiia əlaqələnməyə başladı. Bu hal müstəmləkə ucqarlarda da yavaş-^^.'.vaş özünü büruze verirdi, bu yerlərdə marksist ədəbiyyat yayılmağa başladı. 80- ci illərin sonunda isə Bakıda artıq gizli fəhlə dəməyi yaradılmışdı.

XIX yüzilliyin sonunda Bakıda fəhlə hərəkatında əvvəlki illərə nisbətən bir qədər mütəşəkkillik əmələ gəlmişdi. Bunun başlıca səbəbi Moskvadan, Peterburqdan və s. şeherlərdən marksist qruplann bə’zi iştirakçılarının Bakıya sürgün edilməsi, onlann Bakı fəhlələri arasında fəaliyyət göstərməsi idi. Həmin illərdə Bakıda da sosial- demokrat deməkləri yaradılmağa başlamışdı.

*X X I f a s i l*

# XIX YÜZİLLİYİN İKİNCİ YARISINDA AZƏRBAYCAN MƏDƏNİYYƏTİ

## § 1. MAARİF, SƏHİYYƏ, MƏTBUAT, ELM

Maarif V» sohiyyo. Azərbaycanın sosial-iqtisadi ve siyasi hoyadnciakı dəyişikliklər Azərbaycan xalqının mədəniyyətində də öz əksini tapırdı. Bu dövrdə iri sənaye şəhəri olan Bakı həm də Azərbaycan mədəniyyətinin mərkəzinə çevrilmişdi.

xıx əsrin ikinci yarısında Azərbaycanda maarif inkişaf edirdi. v)sas tədris ocaqları məktəblər və mədrəsələr idi. Azərbaycanda onların sayı 500-700-ə çatırdı. Osa.sən məscid, yaxud kiçik binalarda yerləşən məktəblərin hər birində ondan yüzə qədər uşaq təhsil alırdı, tədris pullu idi. Dəı-sləri əsasən mollalar aparır və uşaqlara əlifbanı (ərəb hümfatmı) və Qur’anı bir neçə ilə öyrədirdilər. Məktəblərdə uşaqlara kitab oxumağı və fars dilini öyrədir, bə’zilərində tarix fənnini də tədris edirdilər. Bakı, Şamaxı, Şuşa, Nuxa və s. məktəblərdə odobi dərnəklər, məclislər təşkil olunurdu. Bu məclislər uşaqlarda doğma ana dilinə məhəbbətin anmasında, gələcək şairlər nəslinin yetişməsində mühüm rol oynayırdı. Bu məclislərin iştirakçıları olan bo'zi cavanlar gözəl, mə’nah şe’rlər də yazırdılar.

Xüsusi ruhani məktəbləri - mədrəsələr də var idi. Onlar ancaq moscidlərin nozdində təşkil olunurdu. Buraya fars və ana dillərini bilon 16 yaşdan yuxarı uşaqlar qəbul olunurdular. Mədrəsələrdə təhsil pulsuz idi. Burada ərəb dili, şəriət, ədəbiyyat, fəlsəfə, məntiq, psixologiya, xüsusilə də islam dininin tafixini öyrənirdilər. Təhsil müddəti 6- S ildən 10-15 ilə qədər olan mədrəsələr ibtidai ve ali mədrəsələrə böliinürdüior. XIX yüzilliyin sonlarında təhsildə bə’zi dəyişikliklər hoyala keçirildi. Məktəblərdə ana dilinin tədrisinin həyata keçiril- mosindo S.O.Şiı-vaninin xidməti böyük idi. Onun açdığı məktəbdə ms • {ili tl«t todris olunurdu. Hörkənili satirik M.Ə.Sabir bu məktəbdə təh- ;.İİ .lİUUşdi.

Azərbaycanda maarifçiliyin geniş inkişaf tapmasında S.Ə.Şirvani ilə yanaşı görkəmli maarif xadimləri Məhəmməd Tağı Sidqi, xüsusən Həsən bəy Zərdabi, N.B.Vəzirov, S.M.Qənizadə misilsiz xidmət göstərmişlər,

Azərbaycan üçün müəllim kadrlarının hazırlanmasında I876-cı ildə açılmış Qori seminariyasının böyük rolu olmuşdur. 1879-cu ildə bu seminariyanın Azerbaycan şö’bəsi fəaliyyətə başladı. Şö’bənin müdiri A.O.Çemyayevski azərbaycanlı uşaqlann təhsilə cəlb edilməsi və oxuması sahəsində çox mühüm işlər görmüşdü. Azərbaycanın görkəmli maarifçiləri C.Memmedquluzadə, N.Nərimanov, R.Əfəndiyev, H.Mahmudbəyov, F.Köçərli bu seminariyada və Tiflis Aleksan- drovski müəllimlər institutunda təhsil almışdılar. Azərbaycan dili üzrə dərsliklərin yaranması da onların adı ilə bağlıdır.

XIX yüzilliyin ikinci yarısında rus məktəbləri şəbəkəsi də genişlənirdi. Ruslaşdımıa siyasəti yürüdən çar hökuməti ibtidai məktəblərdə təhsili uzun müddət yalnız rus dilində həyata keçirirdi. Bununla belə həmin məktəblərin də şəbəkəsi geniş deyildi. Bakı da daxil olmaqla, Azərbaycanda 1860-cı ildə dördillik cəmi beş qəza məktəbi və üç ibtidai məktəb var idi. Sonrakı illərdə bu məktəblərin şəbəkəsi bir qədər genişləndi. Çünki belə məktəblər təkcə şəhərlərdə deyil, bə'zi kəndlərdə də açılırdı. Şəhərlərdə xüsusi məktəblər - Bakı texniki məktəbi, Gəncə sənət məktəbi və s. kimi məktəblər də fəaliyyətə başlayırdı. Bakıkın neff rayonlarının bə'zisində ibtidai məktəblər açılmışdı. Bakı və Gəncədə realnı məktəblər fəaliyyət göstərirdi. 1896-cı ildə Bakıda H.Z.Tağıyevin açdığı qızlar məktəbini xüsusi qeyd etmək lazımdır. Sayca çox gözəçarpan, əslində isə Azərbaycan əhalisinin sayına görə çox az olan həmin məktəblərin çoxuna fəhlə və kəndli balaları nadir hallarda qəbul olunurdular.

XIX əsrin ikinci yarısında Azəi'baycanda ilk kütləvi kitabxana və qiraətxana açıldı. Belə kitabxana, qiraətxanalardan birini l894-cü ildə Bakıda Nərimanov açmışdı.

Azərbaycanda səhiyyə işi də çox aşağı səviyyədə idi. XIX yüzilliyin son rübündə Şimali Azərbaycanda cəmi 101 həkim işləyirdi. Həkimlərin, demək olar ki, hamısı şəhərlərdə çəmləşmişdi. tik Azərbaycanlı həkimlər - M.R.Vəkilov və A.M.Mehmandarov poliklinika yaratmışdılar. Azərbaycanda ilk apteklərin do açılması bu dövrə təsadüf edir. Onların ümumi sayı 10-u ötüb keçirdi.

Mətbuat. Azərbaycanın ictimai həyatının ən mühüm amillərindən biri mətbuatın meydana çıxması oldu. Azərbaycan mətbuatının banisi xalqımızın görkəmli oğlu, ictimai xadim, alim, maarifpərvər Həsən bəy Məlikov Zərdabi olmuşdur (1842-1807). O, çar üsuli- idnrəsi şəraitində müstəmləkə ucqarında ana dilində «Əkinçi» qəzetini nəşr etmək üçün xeyli əzab çəkməli, mübarizə aparmalı olmuşdu.
1875-ci il iyunun, 22-de bu qəzetin birinci nömrəsinin çapdan çıxması bütün Qafqazda əks səda doğurdu. Qəzetin bütün işlərini görən ll.B.Zərdabi həm naşir, həm redaktor, həm də kon*ektor və mürəttib idi. 1875-1877-ci illərdə qəzetin cemi 56 nömrəsi çıxdı. H.B.Zerdabi qəzetə S.Ə.Şirvani, K.Mehmandarov, A.Adıgözəlov, Gorani və dövrünün başqa görkəmli ziyalılarını cəlb edə bilmişdi. «Əkinçi» qəzetində maarifçi və demokratik ideyalar təbliğ olunur, fanatizm və mövhumat amansız tənqid atəşinə tutulurdu.

1879-cu ildə Tiflisdə «Ziya» qəzeti işıq üzü gördü. 1880-ci ildən «Ziyayi-Qatqaziyyə» adı altında nəşr olunmağa başladı. Cəmi 104 nöınrasi çıxdı və 1884-cü il iyulun 2-də bağlandı, 1880-ci ildə Tiflisdə «Kəşkül» qəzeti dərc edildi. Hər iki qəzetin ideya istiqaməti «Əkinçi» qəzeti ilə uyğun gəlirdi. Həftəlik qəzet olan «Kəşkül» I891-ci ilə kimi nəşr olundu.

80-90-cı illərdə Bakıda «Kaspi», «Bakinskiye izvestiya», «Baku» və başqa rusdilli qəzetlər çıxmağa başladı. Bu qəzetlərin burjua ideya istiqamətli olmasına baxmayaraq, onlarda Azərbaycanın sosial- iqtisadi və mədəni həyatının bə'zi məsələlərinə qabaqcıl nöqteyi-nəzərlə yanaşan məqalələr də nəşr olunurdu.

Elm. İctimai fikir. Azerbaycanın sosial-iqtisadi və mədəni inkişafı elmin də inkişafına müəyyən təkan verirdi. Elmin ayrı-ayrı sahələrinin inkişafı, xüsusilə təbiət elmlərinin inkişafı əsasən Azerbaycanda olan təbii sərvətlərin yataqları, bu yataqların kəşfi və istifadə olunması ilə bilavasitə bağlı idi. Qafqaz dağ-mə'dən idarəsinin hu tşə müdaxiləsi, həmin idarədə çalışan geoloqların Azərbaycanın dağ-mə'dən sərvətlərini tədqiq etmələri, burada geologiya elminin inkişafına əsaslı şərait yaradırdı. Bu işlə məşğul olanlar əsasən rus alim-geoloqları idilər. Azərbaycanda neftlə bağlı olan elm sahələri daha sür'ətlə inkişaf etdi. Hələ 60-cı illərdə Bakıya gəlmiş böyük rus alimi M.İ.Mendeleyev neft işini əsaslı surətdə həm nəzəri, həm də praktiki cəhətdən tədtiq etmiş, sənayenin inkişafı üçün bir sıra loklillər irəli sürmüşdü. M.İ.Mendeteyevdən başqa, onlarla rus alimi

neft işi ilə məşğul olmuşdur. Onların arasında yeganə azərbaycanlı alim kimyaçı Möhsün bəy Xanlarov idi. Almaniyada təhsil alıb, oradaca elmlər doktom dərəcəsinə yiyələnmiş M.Xanlarov 1884-cii ildo Bakıya gələrək öz elmi-tədqiqat işlərini davam etdirirdi.

Azərbaycanda biologiya, kənd təsərrüfat elmləri sahəsində də müəyyən nailiyyətlər əldə olunmuşdu. H.B.Zərdabi, N.B.Vəzirov və b. təbiət elmləri üzrə qazandıqları bilikləri geniş yaymağa sə'y göstərirdilər.

xıx yüzilliyni ikinci yarısında Azərbaycanda tarix elmi sahəsində də müəyyən addımlar atılmışdı. Miraə Yusif Nersesov Qarabaği, Mir Mehdi Xəzani, Rzaqulu bəy Mirzə Camal oğlu, Əhmədbəy Cavanşir kimi görkəmli tarixşünasların qələmindən bir sıra əsərlər çıxmış, onların çoxu isə Qarabağın tarixinə həsr olunmuşdu. Azərbaycan tarixinin bə'zi məsələləri M.F.Axundov, N.Nərimanov, H.B.Zərdabi, S.M.Qənizadə, H.Mtthmudbəyov, F.Köçərli və S.Ə.Şirvaninin əsərlərində də öz əksini tapmışdır. Bu dövrdə Azərbaycan tarixinin bir sıra məsələlərinə dair ıns müəlliflərinin də əsərləri çap olunmuşdu. Bu əsərlərdə çarizmin müstəmləkəçi siyasətinə bəraət qazandınlma- sına baxmayaraq, onlarda xalqımızın sosial-iqtisadi və siyasi tarixinə dair verilmiş materiallar, söylənilmiş mülahizələr qiymətlidir.

## § 2. ƏDƏBİYYAT VƏ İNCƏSƏNƏT

Ədəbiyyat. Azərbaycanın sosial-iqtisadi və siyasi həyatında baş vermiş dəyişikliklər, ədəbiyyatda da öz əksini tapmışdı. Artıq ədəbiyyatda aparıcı cərəyan realizm idi ki, bu da demokratik və maarifçilik ideyalarının təbliğini, ədəbiyyatda sosial həyatla bağlı mövzulara yer verilməsi uğrunda mübarizəni, xəlqilik ideyalarının müdafiəsini qarşısına məqsəd qoymuşdu. Azərbaycan ədəbiyyatında əsası M.F.Axundov tərəfindən qoyulmuş demokratik ideyaları S.Ə.Şirvani, C.Məmmədquluzadə, N.Vəzirov, N.Nərimanov və b. daha da inkişaf etdirdilər. Bu dövmn ədəbiyyatında Azərbaycanda özünə yenicə yol açmış kapitalist cəmiyyətinin, burjua ideologiyasının və sosial bərabərsizliyin tənqidinə geniş yer verilirdi. Yazıçılar öz əsərlərində burjuaziya sinfi nümayəndələrinin tipini yaradaraq, onun həm müsbət, həm də mənfi, xalqa zidd cəhətlərini göstərirdilər.

Azərbaycan ədəbiyyatında realist cərəyanla yanaşı romantik, dini-mistik və s. cərəyanlar da var idi. Bu istiqamətin nümayəndələri qəzəl

yaraOlCitığına geniş yer verir, qeyri-realist xarakter ilə dini sxolastikaya üstünlük verilən əsərlər də yazırdılar.

Realist ədəbiyyatın nümayəndələri ana dilinə, onun saflığına xüsusi əhəmiyyət verirdilər. Milli müstəmləkə əsarəti şəraitində doğma ana dilinin inkişaf yolu üzərində müxtəlif maneələrin yaradılmasına baxmayaraq, təşəkkül tapmaqda olan milli ədəbi dil xalqın qəlbinə geniş yol tapırdı. Xalqımızın görkəmli oğlu Firudin bəy Köçərli dilimiz barəsində yazırdı: «Millətini sevən, onun mə'nəvi dirçəlişinə çalışan, tərəqqisi yolunda əmək sərf edən ədiblərimizdən ve şairlərimizdən çox-çox təvəqqe edirik ki, dillərini asanlaşdırsınlar, ana dilimizdən uzaq düşməsinlər, başqalarını təqlid etməsinlər, fikirlərini açıq və sadə dildə yazsınlar təki, onların yazdıqlarını oxuyan anlasın, düşünsün və ayılsın».

Realist-ədəbiyyatı təmsil edən bədii nəsr bu dö\Tde xeyli inkişaf etdi. Nəsr sahəsində müəyyən irs qoymuş satirik şair S.Ə.Şirvani bir sıra hekayələr yazmış, kiçik yaşlı uşaqlar üçün müntexəbat tərtib etmişdi.

H.B.Zərdabi, S.M.Qənizadə Azərbaycan nəsrinin' inkişafında müəyyən rol oynamışlar. C.Məmmədquluzade öz yaradıcılığında

M. F.Axundovun realist ən'ənələrini*davam etdirirdi.

Azərbaycan ədəbiyyatında ilk realist romanı («Bahadır və Sona»)

N. Nərimanov yaratmışdır.

XIX əsrin ikinci yarısında Azərbaycan dramaturgiyası da inkişaf etdi. M.F.Axundovun yolu ile gedərək, milli həyatdan alınmış əsərləri ilə N.B.Vezirov, Ə.B.Haqverdiyev, N.Nerimanov Azərbaycan dramaturgiyasının formalaşmasında böyük xidmət göstərdilər.

Dövrün görkəmli şairlərindən biri də xalq arasında «Xan qızı» adı ilə şöhrət tapmış Xurşudbanu Natəvan idi. Natəvan irsindən bizə gəlib çatan əsasən onun qəzəlləridir.

S.Ə.Şirvani, X.Natəvanla yanaşı bu dövrdə M.R.Fena, Şirvani, M.Cürmi ve b. şairlər yaşayıb yaratmışlar. Dövrün başlıca xüsusiyyətlərindən biri də ədəbiyyatda aşıq poeziyasının böyük yer tutması, Aşıq Ələsgər, Aşıq Nəcəfqulu, Hüseyn Bozalqanlı kimi qüdrətli aşıqların yetişməsi idi.

İncəsənət. Azerbaycan milli teatrınm yaranması XIX yüzilliyin son 30 ilində incəsənətimizin tarixində en böyük hadisədir. 1873-cü il martın 22-də Novruz bayramı günü Bakı realnı məktəbi həvəskarlar truppasının M.F..Axundovun «Hacı Qara» komediyasının tamaşaya

qoyulmasında H.B.Zərdabi mühüm rol oynamışdır. On il sonra xalqımızın maariflənməsinde öz kapitalı ilə mühüm rol oynamış H.Z.Tağı- yev teatr binası tikdirdi. Bu hadisə Bakıda teatr sənətinin inkişafına ləkan verdi və tezliklə dramaturqlar və artistlər nəslinin yetişməsinə səbəb oldu. Artistlər arasında Cahangir Zeynalov xüsusilə fərqlənirdi. Bakı teatrının repertuarına M.F.Axundov, N.B.Vəzirov, Ə.Haqverdiyev ve N.Nərimanovun pyesləri daxil idi. Az sonra Qubada, Nuxada, Şuşa da, Naxçıvanda, Gəncədə və başqa şəhərlərdə teatr tamaşaları qoyuldu. Bu istiqamətdə Şuşa şəhəri daha böyük nailiyyətlər qazandı. Azərbaycan teatrları yeni dramturqlarla yanaşı, rus və Qərbi Avropa müəlliflərinin pyeslərini də öz repertuarlarına daxil edirdilər.

XIX yüzilliyin ikinci yansmda Azərbaycan musiqisi öz inkişafında daha böyük müvəffəqiyyətlərə nail oldu. Bu dövrdə Hacı Hüsü, Məşədi İsi, Cabbar Qaryağdıoğlu, Ələsgər Abdullayev, Keçəçi Məmməd kimi Azərbaycan hüdudlarından çox-çox uzaqlarda məşhur olan bütöv xanəndələr nəsli, tarzən Sadıqcan kimi ustadlar yetişmişdi.

Kapitalizmin inkişafı ilə Bakı şəhərinin görünüşü ildən-ilə dəyişir, Azərbaycanın digər şəhərlərində də tikinti işləri artır, me’marlıq sahəsində nailiyyətlər əldə edilirdi. Bu dövrdə tikilmiş ictimai binalar, neft sənayeçilərinin inşa etdirdikləri yaşayış evləri me’marlıq üslubu ilə fərqlənirdi. Azərbaycanda öz işinin mahir biliciləri olan nəqqaşlar, ustalar yetişmişdi. Memarlıq abidələrinin bərpası sahəsində də müəyyən işlər görülürdü. Nuxa xan sarayı bu dövrdə bərpa olunmuşdu.

Rəssamlıq sənəti sahəsində qazanılmış nailiyyətlərin bir çoxu bu dövrün iste'dadh rəssamı olan Mir Möhsün Nəvvabın adı ilə bağlıdır.

Azərbaycan mədəniyyətinin bütün sahələri üzrə XIX yüzilliyin ikinci yansmda əldə edilmiş nailiyyətlər müstəmləkə əsarətinin hökm sürdüyü bir şəraitdə geniş xalq kütlələrinin malı ola bilməmişdi.

## *X X I I f ə s i l*

# CƏNUBI AZƏRBAYCAN (1828-1917)

### § 1. CƏNUBİ AZƏRBAYCANIN İNZİBATI-SİYASİ QURULUŞU

Türkmənçay sülh müqaviləsi və «Cənubi Azərbaycan» siyasi məfhumunun meydana gəlməsi. XIX əsrin əvvəllərində Şimali Azərbaycan Rusiya tərəfindən zəbt ediləndən sonra Azərbaycanın cənub torpaqları İranın hakimiyyəti altına düşdü. Bu gün Cənubi Azərbaycan adlandırdığımız ərazi İranla istər əhali, istərsə də rəsmi dairələr tərəfindən sadəcə olaraq Azərbaycan və ya İran Azərbaycanı, orada və ölkənin bütün başqa rayonlarında yaşayan, etnik mənşəyi, dili, dini və adət-ən'ənələrinə görə Şimali Azərbaycanda yaşayan azərbaycanlılarla eyniyyət təşkil edən əhali isə türklər və ya İran türkləri adlandırılır. Hazırda əhalinin milli mənsubiyyətini tə'yin edən bu adlar (türklər və ya azərbaycanlılar) şərti xarakter daşıyır. Belə ki, İranda yaşayan türklər Şimali Azərbaycanda yaşayan azərbaycanlıları türk, sonuncular (Azərbaycanlılar) isə onlan azərbaycanlı adlandırırlar. 1918-ci il mayın 28-de Qafqazda yeni milli dövlətin-Azərbaycan Demokratik Respublikasının yarandığı gündən sonra, onun dövlət parlamenti özünün ilk rəsmi bəyannaməsində Azərbaycan adını işlətmişdir. Bu isə İran tərəfin e'tirazına səbəb oldu. Tehran rəsmi dairələri belə hesab edirdilər ki, yeni respublika rəhbərləri başda Təbriz olmatla, İran Azərbaycanını Türkiyəyə vermək məqsədi güdürlər. Azərbaycan Demokratik Respublikası hökuməti İranın bu qorxusunu aradan qaldırmaq üçün rəsmi dövlət sənədlərində «Qafqaz Azerbaycanı» adını işlətməli oldu. 1920-ci il aprel ayının 28-dən sonra (burada sovet hökuməti eTan olunduqdan sonra) bu ad «Sovet Azərbaycanı» ilə əvəz edildi və beləliklə də «Sovet və ya Şimali Azərbaycan», «İran və ya Cənubi Azərbaycan» terminləri siyasi mə'na kəsb etməyə başladı.

Siyasi status qazanmış «Cənubi Azərbaycan» məfhumunun sovet rəsmi dairələrində, elmi ədəbiyyatlarda və mətbuat orqanlarında işlədilməsinə Tehran rəsmi dairələri müsbət yanaşmır, bunu «sosialist inqilabının ixracı və yaxud da «İranın daxili işlərinə qarışmaq» kimi qiymətləndirirlər.

Həqiqətdə isə «Cənubi Azərbaycan» (eləcə də «Şimali Azərbaycan») termini eyni etnik mənşə, dil, din və adət-ən'ənəyə malik xalqın məskunlaşdığı ərazinin ikiyə bölündüyü gündən (10 fevral I828-ci il) meydana gəlmiş, ilk öncə coğrafi mə'na kəsb etsə də, yenə də siyasi xarakter daşımışdır. Nəticə isə mövcud tarixi şəraitə görə müxtəlif tərəfdən qiymətləndirilə bilər.

Cənubi Azərbaycanın inzibati-ərazi bölgüsü, əhalinin sayı.
İrana qatıldıqdan sonra ölkənin dörd əyalətindən birini təşkil edən Azərbaycan əyaləti ərazisinə ilk dövrlərdə cənubda Həmədan, cənub-şərqdə Zəncan və Qəzvin mahallan da daxil idi. Sonralar Azərbaycan əyalətinin inzibati sərhədləri daraldılmış və 1906-cı ildə qəbul olunmuş seçki nizamnaməsində bu əyalətə Təbriz, Urmiya, Xoy, Deyləm- qan, Maku, Marağa, Binab, Miyandoab, Sonıcbulaq, Dehxarqan, Mərənd, Əhər, Ərdəbil, Meşkin, Astara, Xalxal, Sərab, Miyanə və Sainqala mahalları daxil edilmişdir.*

Say e'tibarilə həmişə farslardan sonra ikinci yerdə dayanan (İranın rəsmi statistika idarələrinin mə'lumatına görə) azərbaycanlılar^ XIX əsrin sonuna doğru əsasən Cənubi Azərbaycan ərazisində yaşayırdılar. Bu zaman Azərbaycanda 2 mln.-a qədər Azərbaycanlı yaşayırdı ki, bundan l mln. nəfəri kənd, əhalisi, təqribən 0,5 mln. nəfəri şəhər əhalisi və 0,5 mln. nəfəri isə yarımköçərilər idi.

Siyasi idarəetmə sistemi. Gülüstan müqaviləsindən sonra İran hökuməti Cənubi Azərbaycan əyalətində bir sıra nüfuzlu və qüvvətli xanların hakimiyyətini tanımaqla, onları ayrı-ayn xanlıqlann hakimi tə'yin etdi və daxili müstəqilliklərini saxlamalı oldu. Dövlət bu xanlıqların daxili işlərinə qarışmır, onlardan vergi ve əsasən silahlı qüvvə tələb edirdi. Qacarların hakimiyyəti dövründə (1736-1925) İran ordusunun əsas piyada və atlı hissələri məhz Cənubi Azərbaycanın müxtəlif təbəqələrindən toplanan qüvvələr idi.

* İranın son rəsmi inzibati-ərazi bölgüsünə uyğun olaraq (1984-cö il) Cənubi Azərbaycan adlandırdığımız əraziyə 142 350,7 kv.km sahəni tutan (ölkə ərazisinin 9 faizə qədəri) Şərqi Azərbaycan (mərkəzi Təbriz), Qərbi Azərbaycan (Urmiya) və Zəncan (Zəncan) ostanları daxildirlər.

^ Hazırda 50. mln. nəfərdən çox əhalisi olan İranda azərbaycanlıların ümumi sayı 16-18 mln. nəfərə yaxındır və bu rəqəm ölkə əhalisinin 32-36 faizə qədərini təşkil edir. Cənubi Azərbaycan ərazisində yaşayan əhalinin sayı isə 7-9 mln. nəfərə yaxındır və bu rəqəm müvafiq olaraq ölkə əhalisinin 20 faizə qədərini təşkil edir.

Cənubi Azərbaycanda Маки, Urmiya, Nəmin və Gərgər kimi güclü xanlıqları istisna etməklə, qalanlan tamamilə ləğv olundu. Dövlət keçmiş xanlıqların yerinə ayrı-ayrı vilayətlərə lazım bildiyi adamları hakim te’yin edirdi. Əyalətdə vali vəzifəsindən tutmuş vilayət hakim- lərinədək şəxslər əsasən mərkəzdən göndərildiyinə görə, yerli xanların Qacarlann narazılığına səbəb olurdu.

Fətəli şahdan başlayaraq, Qacar şahlarının daxili siyasətində Cənubi Azərbaycan xüsusi yer tuturdu. Fətəli şah zamanında Cənubi Azərbaycan «vəliehdneşin» (vəliəhd əyləşən yer) hesab edilmiş, «darüsseltənə» (səltənət evi) adlandınlan Təbrizdə isə bundan sonra həmişə Qacarların rəsmi vəliəhdləri oturmuşdular. Bu isə, şübhəsiz, Azərbaycanın İran üçün iqtisadi, xüsusilə də siyasi əhəmiyyətindən doğurdu. Cənubi Azərbaycan, xüsusilə Təbriz dövlətin xarici siyasətində mühüm rol oynayırdı. Belə ki, vəliəhd burada oturduğu və Təbriz bir növ ikinci paytaxt olduğu üçün xarici diplomatik nümayəndələrin də iqamətgahı ilk dövrdə Təbriz hesab edilirdi.

1828-ci ilin fevralında Türkmənçay müqaviləsi bağlandıqdan və İranla Rusiya arasında diplomatik münasibətlər bərpa edildikdən sonra irana göndərilən Rusiyanın səlahiyyətli səfirinin iqamətgahı ilk dövrdə Təbriz şəhərində idi. Bundan əlavə, Rusiya və Türkiyənin baş konsulluqlan da Təbrizdə yerləşirdi.

Əyalətin idarə olunmasına rəhbərlik rəsmen vəliəhdin ixtiyannda idi, əslində-isə bu işi, adətən, şahsmdələr içərisindən tə’yin olunan vali (qaimməqam) aparırdı. Valinin sərəncamında olan böyük idarə aparatında Təbriz şəhərinin bəylərbəyi, əyalətdə yerləşən bütün nizami qoşun hissələrinin başçısı - əmir nizam, vergilərin toplanması və ümumiyyətlə əyalətin maliyyə işlərinə başçılıq edən mustofi və b* daxil idi. Yerlərdə, yə’ni ayn-ayn vilayətlərdə isə bu göstərilən idarə aparatı nisbətən kiçik miqyasda təkrar edilirdi.

Əyalətin mərkəzi Təbrizə, vilayət və mahallara tə’yin olunan şahzadələr, onlann ətrafındakı vəzir, mustofi, mə’murlar, fərraşlar və s. öz vəzifələrinə gəlir mənbəyi kimi baxır və xalqı soyurdular. Ucqar dağlıq rayonda yerləşən, yaylaq və yanmköçəri təsərrüfatına malik olan Maku kimi yanmmüstəqil xanlıqda qəbilə birliyinin başında duran tayfa başçıları bütün inzibati-maliyyə işlərini, hərbi-siyasi hakimiyyəti öz əllərində cəmləşdirmişdilər. Onlar təsərrüfat işlərinə rəhbərlik edir, vergi toplayır, lazım gəldikdə isə öz silahlı dəstələri ilə dövlətin xidmətində olurdular.

## § 2. CƏNUBİ AZƏRBAYCANDA SOSİAL-İQTİSADİ VƏZİYYƏT

Kənd təsərrüfatı və sənətkarlıq. XIX əsrin 30-60-cı illərində Cənubi Azərbaycanda əhalinin əsas məşğuliyyəti kənd təsərrüfatı- əkinçilik və maldarlıq idi. Təkcə kənd əhalisi deyil, şəhər əhalisinin də bir hissəsi əkinçilik, bağçılıq, bostançılıq və digər kənd təsərrüfatı sahələri ilə məşğul olurdu. Cənubi Azerbaycanda təbii və qismən də sün'i suvarma əsasında buğda, arpa, çəltik və başqa dənli bitkilərlə yanaşı, texniki bitkilər, o cümlədən pambıq, tütün, gənəgərçək əkilir, barama yetişdirilir, müxtəlif meyvələr becərilirdi. Cənubi Azərbaycan İranda ən məhsuldar taxılçılıq və meyvəçilik rayonlarından biri idi və əyalətdən taxılla yanaşı, quru meyvələr də ixrac edilirdi. Əhalinin bir hissəsinin əsas məşğuliyyəti maldarlıq idi. Heç təsadüfi deyil ki, XX əsrin 60-70-ci illərinə qədər de Cənubi Azərbaycan İranın «taxılçılıq və heyvandarlıq bazası» hesab edilirdi. Vilayətin hələ XIX əsrin sonlarından İran iqtisadi həyatında belə bir mövqeyə malik olması burada xüsusilə yerli tələbatı ödəyən və xarici bazarlar uçün də mal ixrac edən müxtəlif sənətkarlıq sahələrinin formalaşması və inkişafı üçün geniş imkanlar açırdı. Şəhərlərdə ayaqqabı, saxsı və ya mis qab-qa- caq, digər məişət şeyləri, təsərrüfat alətləri və s. istehsalı xeyli inkişaf etmişdi.

1804-1813-cü və l826-l828-ci illər Rusiya-İran müharibələrindən sonrakı dövrlərdə İngiltərə və Rusiya dövlətlərinin İranda əldə etdikləri imtiyazlı müqavilələr nəticəsində Cənubi Azərbaycanda sənətkarlığın bir çox sahələrinə böyük ziyan dəydi. Belə ki, xarici malların ölkəyə geniş və maneəsiz axını ilə bağlı Azərbaycandakı bir sıra e'ınalatxana və sexlər rəqabətə davam gətirməyərək öz fəaliyyətlərini dayandıımalı oldular.

Cənubi Azərbaycan şəhərlərində hələ XX əsrin 20-ci illərinin əvvəllərinə qədər de orta əsrlərə xas olan sex quruluşu qalmaqda davam edirdi. Bütün İranda olduğu kimi, Azərbaycanda da e'malat- xanalarda, adətən 2-3 sənətkar işləyirdi. Muzdlu əməkdən istifadə sənətkarlıq üçün səciyyəvi deyildi. Bununla yanaşı, daxili və xarici bazarda rəqibi olmayan malların istehsalı ilə məşğul olan sahələr üzrə muzdlu əməkdən istifadə edən manufakturalann yaranması və onlara xas münasibətlərin formalaşması prosesi inkişaf edirdi.

Xarici kapitalın nüfuzunun artması və yeni sənaye sahələrinin yaryanması. Cənubi Azərbaycan iqtisadi həyatındakı tənəzzülə bax

mayaraq bu vilayət İran üçün böyük əhəmiyyət kəsb edirdi. Şimali Azərbaycan, onun vasitəsilə Qafqaz və Rusiya ilə mədəni, iqtisadi əlaqələrin davam etməsi ilə bağlı Cənubi Azərbaycan XIX və XX əsrin əvvəllərində İranın ictimai-siyasi, mə'nəvi inkişafında mühüm mövqe tuturdu. Bütün bunlara baxmayaraq, Cənubi Azərbaycanın təsərrüfat həyatı, onun məzmun və xarakteri, əsasən ümumölkə iqtisadi strukturu və onun mövcud vəziyyəti ile müəyyənləşirdi. XIX əsrdə və XX əsrin əvvəllərində Cənubi Azerbaycan iqtisadiyyatında, bütün tranda olduğu kimi, durğunluq meyli davam edirdi. Bunun da əsas səbəbi gösterilən dövrdə İran dövlətinin Avropa dövlətləri ilə bir-birinin ardınca bağladığı qeyri-bərabər, aldadıcı müqavilələr, o cümlədən ticarət müqavilələri və onlardan aldıqları yüksək faizli borclar və s. nəticəsində ölkədə təslim rejiminin yaranması idi. tranın, eləcə də Cənubi Azərbaycanın xalq təsərrüfatı müstəmləkə və asılı ölkələrə xas olan yeni xüsusiyyətlər kəsb etdi. Ölkə və onun böyük əyalətlərindən olan Azərbaycan İngiltərə və Rusiyanın sənaye mal- lannm satış bazarına, eyni zamanda bu ölkələrin, başlıca olaraq çar Rusiyasının sənayesini xammalla təchiz edən mənbəyə çevrildi. Beləliklə də İran getdikcə daha yaxından dünya mal mübadiləsinə qoşuldu. Ölkənin ümumdünya bazarına cəlb olunması bə’zi sənaye sahələrinin - dağ-me’den sənayesi, kənd təsərrüfatı mallannm ilk e’mah ile məşğul olan sahələrin yaranmasına və inkişafına müsbət tə'sir gösterdi. Lakin bu, asılı ölkələrə xas olan birtərəfli inkişaf idi.

Coğrafi mövqeyinə görə Cənubi Azərbaycanda təbii olaraq çar Rusiyasının nufuzu daha güclü idi. XIX əsrin sonu - XX əsrin əvvəllərində Cənubi Azərbaycanda kənd təsərrüfatının inkişafı Rusiya bazan ilə münasibətlərin səviyyəsindən və xarakterindən asılı idi. Xarici bazarda, o cümlədən, Rusiya bazannda, pambıq, xammal, boyaq maddəjəri, yun, gön-dəri, bağırsaq və s. kimi əkinçilik və heyvandarlıq məhsullanna, həmçinin be'zi sənətkarlıq mallanna olan tələbatın artması həmin sahələrin qismən Azerbaycanda da inkişafına təkan verirdi.

Cənubi Azərbaycanın ticarət əlaqələrinin şimala yönəlməsinə şərait yaradan daha mühüm bir amil de çar Rusiyasının Avropa mallarının Qafqaza daxil olmasını mehdudlaşdırması idi.

XIXəsrin son rübündə Cənubi Azərbaycanda öz varlığını davam etdirən əsas sənətkarlıq sahələrindən biri xalçaçılıq idi. Xalça (xalı) istehsalı sənayenin kapitalist münasibətləri inkişaf etmiş en başlıca sahəsi idi.

Təbrizdə bir sıra kənd təsərrüfatı mehsuUannın-pambıq, tütün, eyni zamanda İranın başqa əyalətlərindən gətirilmiş xına, tiryək və s. ilkin e'malı üzrə müəssisələr də fəaliyyət göstərirdi.

Təbrizdə, Xalxalda və bə'zi başqa şəhərlərdə istehsal edilən yun və ipək yaylıqlar, şal, yun, ipək, pambıq parçalar və digər toxuculuq məhsullan həm yerli əhalinin tələbatını ödəyir, həm də tranın başqa əyalətlərinə və həm də digər ölkələrə ixrac olunurdu.

XX əsrin əvvəllərinə doğru ayrı-ayn sənət sahələri üzrə yaranmış müəssisələr üçün muzdlu əməkdən istifadə artıq səciyyəvi hal olmuş, bazarla əlaqə daha da genişlənmişdi.

Sosial vəziyyət: aqrar münasibətlər, vergi sistemi, kəsbkarlı- ğın başlanması, tranda xarici kapitalın və feodal üsuli>idarəsinin hökmranlığı Cənubi Azərbaycanda da milli sənayenin inkişafı üçün çox böyük maneələr yaradırdı. Belə bir vəziyyətin yaranması xarici bazarın tələbinə uyğun olaraq burada ticarət əkinçiliyinin artmasına, toıpağın kapital tətbiqi üçün yeganə sabit obyekt və gəlir mənbəyinə çevrilməsinə səbəb olmuşdu. Kənd təsərrüfatının xarici ticarətlə əlaqəsi ona gətirib çıxarmışdı ki, bir çox tacir, sələmçi və varlı mə'mur- lar öz kapitallanni sənaye müəssisələrinin yaradılmasına deyil, torpaq almağa sərf edir, nəticədə isə iri və orta ticarət burjuaziyası ilə feodal torpaq sahibliyi arasında güclü əlaqə yarandı. Yaranmış vəziyyətdən daha çox faydalanmaq istəyən bir sıra iri mülkədarlar müxtəlif yollarla kiçik torpaq sahibləri və kəndlilərin torpaqlarını tuturdular. XIX əsrin sonu və XX əsrin əvvəllərində Azərbaycanda iri torpaq sahibləri sırasına yüzlərlə və onlarla kəndi olan mülkədarlar daxil idi.

Göstərilən dövrdə Azərbaycanda torpaq sahibləri, xüsusilə iri feodallar Tehran, Təbriz və s. şəhərlərdə yaşamaqla kəndlərini yerlərdə olan nümayəndələri - mübaşir, ketxuda, başqa vasitələrlə idarə edirdilər.

Əksərən torpaqsız olan və başqa istehsal vasitələrinə isə qismən malik kəndli əkin üçün sahəni feodaldan paydarlıq icarəsi əsasında icarəyə götürürdü. Kəndli çatışmayan digər istehsal vasitələrini (su, iş heyvanı və aləti, dənlik toxum) da feodaldan almalı olurdu. Bunları hansı tərəfin verməsindən və başqa amillərdən asılı olaraq məhsul bölgüsü aparılırdı. Bundan əlavə, mülkədarlar kəndlinin malik olduğu bütün gəlir mənbələrindən müəyyən hissə alırdılar. Kəndli öz əməyindən başqa heç bir şeyə sahib olmadıqda isə, torpaq sahibi məhsulun 70-85 faizini götürürdü.

Kəndli icarə haqqından başqa, mülkədara əlavə vergilər verir, onun üçün müxtəlif ən’ənəvi feodal mükəlləfiyyətləri də daşıyırdı. Kəndli istifadə etdiyi ev üçün müəyyən məbləğ, təsərrüfatının müxtəlif sahələrindən məhsulla pay (toyuq, yumurta, yağ və s.) verir, biyara işləyir və başqa mükəlləfiyyətlər də daşıyırdı. Bütün bunlardan əlavə kəndlilər feodalın toıpağını idarə edən mübaşir. kətxuda və başqa raə’murlann öz xeyirləri üçün tə’yin etdikləri əlavə vergilər də vennəli olurdular.

XX əsrin əvvəllərində, xüsusilə də İran məşrutə inqilabı (1905-1911-ci illər) ərəfəsində Cənubi Azərbaycanda kəndlilərdən alınan müstəqim və qeyri-müstəqim vergilərin miqdan xeyli (10 dəfədən çox) artınıdı. Nəticədə Azərbaycandan Rusiyanın içərilərinə doğru (Bakı, Tiflis, Petrovski və b. şəhərlərə) kəndlilərin, kəsbkarlığa gedənlərin güclü axını başlandı. Bakıda mövsümi işlərə gələnlərin sayı ildə 50 min nəfərdən 80 min nəfərə çatdı. 1903-cü ilin mə’lumatma görə Bakıda Cənubi Azərbaycandan gəlmiş işçilərin sayı yerli işçilərin 22%-ə qədərini təşkil edirdi.

## § 3. CƏNUBİ AZƏRBAYCANDA SİYASİ VƏZİYYƏT

Hakim dairələrin Azərbaycanda zülm siyasəti. Babilər hərə> katı. Vəliəhdin iqamətgahınm Cənubi Azərbaycanda yerləşməsi bir tərəfdən bu vilayətin ölkə miqyasında xüsusi mövqeyə malik olmasını şərtləndirirsə də, digər tərəfdən də yerli əhalinin yaşayış tərzinin ağırlaşmasına, mə'nəviyyatının ətalətinə səbəb olurdu. Belə ki, başda vəliəhd olmaqla əyalətin müxtəlif inzibati-idarə orqanlarına tə’yin olunmuş şahzadələrin hər biri öz ətrafında böyük bir müftəxorlar dəstəsi toplamışdı. İran tarixçisi Ələsgər Şəminin verdiyi mə’lumata görə. Qacar şahzadələri öz ad, məqam və malik olduqları ixtiyardan istifadə edərək şahın özünün istibdadından daha şiddotli və daha qəddar bir istibdadla xalqı incidirdilər. Azərbaycan valisi və onun ətrafına toplaşan mə’muıiarı dövlət və idarə işləri deyil, vergilərin artıqlaması ilə yığılması və daha çox varlanmaq maraqlandınrdı. Nəticədə onlar Azərbaycanı fəlakətli bir vəziyyətə gətirib çıxarmışdılar.

Azərbaycan əhalisinin, xüsusilə geniş kəndli kütlələrinin c^arşı-qarçıya durduğu əsas istismarçılar yerli feodallar idi. Bir çox xanlar Türkmənçay müqaviləsindön sonra siyasi hakimiyyətdən kənar edil-səlor də, onların kütlələr üzərində ağalığı toxunulmaz qaladrdı. Belə-

likle, əhali həm yerli xanların, həm də hakim sülalənin getdikcə möhkəmlənən hakimiyyətinin zülmünə mə’ruz qalırdı. Azərbaycanda hakim dairələrin zülm siyasəti-qanunsuzluq, soyğunçuluq yerli əhalinin müxtəlif təbəqələri içərisində narazılığın artmasına, kütləvi həyəcan və çıxışların baş verməsinə səbəb olurdu.

30-cu illərin sonu, 40-ci illərin əvvəllərində Təbrizdə, tez yatınisa da, bir neçə dəfə həyəcan və çıxışlar baş verdi. 1847-ci ildə Zəncanda sənətkarlar, xırda tacir və şəhər yoxsullan hakimə qarşı çıxmış və onu şəhərdən qovmuşdular. 1848-ci ildə yenə* də Təbrizdə şəhər yoxsullan və sənətkarlann çıxışları baş verdi.

1850-ci ildə Zəncanda babilər^ üsyana qalxdılar. Şəhərdə babi- lərin sayı 15 min nəfərə çatırdı. Bundan əlavə, yaxınlıqdakı kəndlərin əhalisi də onlara qoşulmuşdu. Babilər şəhər qalasım tutdular. Şəhər iki hissəyə bölündü və babilər onun yandan çox hissəsini ələ keçirdilər. Vuruşlarda babilərin ailə üzvləri də iştirak edirdilər. Əsas e’ti- barilə kəndli və sənətkarlardan ibarət olan babilərin içərisində çoxlu tacir və xırda ruhanilər də var idi. Ətraf kəndlərdən olan əhali üsyan- çılan gizli şəkildə ərzaqla te’min edirdilər.

Şah hökuməti tərəfindən üsyanı yatırmaq üçün göndərilən qoşun dəstələri iyunun əvvəlində Zəncanı mühasirəyə aldılar, lakin üsyançılar tərəfindən ciddi müqavimətə rast gələrək geri çəkilməli oldular. Dekabr ayında 30 minlik şah qoşunu və feodal dəstələri Zəncanı yenidən mühasirəyə alaraq hər tərəfdən hücuma keçdilər. Üsyançıların çoxu həlak oldu, onun başçısı Mehəmmədəli isə ağır

3 Babizmin banisi Seyid Əli Məhəmmad olmuşdur. 1820-ci ildə Şirazda xırda tacir ailəsində anadan olmuşdur. «Şeyxb> təriqətinə mənsub idi və həmin təriqətin son başçısı Seyid Kazım öldükdən sonra ona başçılıq etmiş, xalqa həqiqətlərin çatdırılmasında özünü sonuncu imam Mehdi iio xalq arasında vasitəçi eMan etmiş ve buna görə də 1844-cü .ildən e’tibarən Bab (ərəbcə qapı) ləqəbini götürmüşdür.

Hakim dairələr tərəfindən tə’qib olunmasına, işkəncelərə mə'ruz qalmasına, bir şeherdən digərinə qaçmağa məcbur olmasına və nəhayət, İsfahandan Makuya, oradan İsə Urmiya yaxınlığındakı Çehrik qalasına surgüne çöndərilməsinə, sonra isə Təbrizdə din xadimlərinin mühakiməsinə verilməsinə baxmayaraq, Bab öz əqidəsindən dönməmişdi. Babın əsas ideyaları onun «Bəyan» kitabında öz əlbini tapmışdı. Bab yeni yaradılacaq cəmiyyətdə, o cümlədən qadına münasibətdə bərabərlik, ədalət, şəxsiyyətin toxunulmazlığım e’lan edir, öz fikirlərində tacir, sənətkar və kəndlilərin arzularını əks etdirirdi.

yaralandı və üç gündən sonra vəfat etdi. Babilerden yalnız 100 nəfəri sağ qalmışdı və onlar daha beş gün vuruşduqdan sonra şəhəri tərk etməyə imkan verməк şərtilə mübarizəni dayandırmağa razı olduqlarını bildirdilər. Bu təklifi qəbul etmələri haqqında Qur'ana and içmiş şah ordu başçıları, silahı yerə qoyan üsyançıların hamısını qırdılar. Beləliklə, 1850-ci il dekabnn sonunda Zəncan üsyanı yatınldı,

1848-1852-ci illərdə bütün İranda babiler hərəkatı məğlub edilsə də, ölkədə, o cümlədən Cənubi Azərbaycanda babi tərəfdarlarının sayı daha da artdı. Əhalinin bütün narazı hissələrində babiliyə rəğbət çox güclü idi və şah hökuməti bunun qarşısını ala bilmirdi.

Babi üsyanları öz ictimai-siyasi məzmunu və kütləviliyi ilə İranda və Azərbaycanda baş vermiş ayrı-ayrı çıxışlardan fərqlənir və özünəməxsus yer tuturdu. Təsadüfi deyil ki, babiler hərəkatı zamanı gələcəyin bir çox inqilabçılan yetişmiş, onun inqilabi-demokratik hissəsi ölkədə baş verən xalq çıxışlarda, xususilə 1905-1911-ci illər İran inqilabında fəal iştirak etmişdilər.

XIX əsrin sonu - XX əsrin əvvəllərində geniş xalq kütlələrinin imperializmə qarşı ilk çıxışları. XIX əsrin sonu və XX əsrin əvvəllərində Cənubi Azərbaycanda xarici imperialistlərə və onlarla əlaqədə olan yerli irtica qüvvələrinə, onlann ölkədəki özbaşınalığına və çapqınçılıq siyasətinə qarşı xalqın narazılığı artmağa başlayır, bə'zi yerlərdə kütləvi çıxış ve te'tiller baş verir. 8 mart l890-cı ildə Nəsrəddin şah bütün İranda tütün almaq, satmaq və e'mal etmək üçün ingilislərə konsessiya verilməsi barədə müqavilə imzalayır və bu, xalqın böyük narazılığına səbəb olur. E'tiraz əlaməti olaraq 19 avqust 1891-ci ildə Təbriz bazan bağlanır, 20 min nəfərə yaxın adam silahlanır ve şaha teleqram vururlar ki, heç bir halda bu müqaviləni qəbul etməyəcəklər. Onlar teleqramda bildirirdilər ki, əks təqdirdə Təbrizdəki ingilis konsulluğunu məhv edəcəklər. Şah verilmiş imtiyazları tezliklə ləğv etməyə məcbur oldu və avqust ayının 30-da bu haqda Təbrizə rəsmi teleqram göndərildi.

Cənubi Azərbaycandakı bu hərəkat ingilislərə qarşı İranın başqa yerlərində də xalq mübarizəsinin güclənməsinə bilavasitə tə'sir göstərirdi. İran xalqlarının, o cümlədən azərbaycanlılann mübarizə tarixində «Tənbəki üsyanı» kimi məşqur olan bu hərəkatda Azərbaycanın ticarət burjuaziyası, sənətkarlan, onlara qoşulmuş ruhanilər, digər təbəqələrin nümayəndələri iştirak edirdilər. Bu hərəkat İranda, 0 cümlədən Cənubi Azərbaycanda xarici kapitala, yerli irtica qüvvə

lərinə ve onların hökmranlığına qarşı yönəldilmiş milli-azadlıq mübarizəsinin ilk ve çox te’sir mərhələsini təşkil etmiş ve xalq arasında siyasi, milli şüurun oyanmasına, formalaşmasına və inkişafına güclü təkan vermişdi.

1901-ci ildə Tehranda təşkil edilmiş gizli cəmiyyət və ya inqilabi komitə, 1905-ci ildə isə Tehranda yaranan «Əncümən-e məxfi» («Gizli encümən») iranhlan, o cümlədən azərbaycanlıları, xaricilərin zorakılığı ve yerli hakim dairələrin özbaşınalığı əleyhinə mübarizə aparmağa çağırır, həmçinin burjua ruhunda islahatlar keçirmək tələbini irəli sürürdülər.

XX əsrin əvvəllərində bir neçə il qıtlıq olması ve bundan istifadə edən mülkədar ve alverçilərin taxıl möhtəkirliyinə başlaması nəticəsində İranın, 0 cümlədən Azerbaycanın bir sıra şeherlərində aclıq və bahalığa qarşı həyəcanlar baş verdi.

1903-cü ildə belçikalılarla bağlanmış yeni gömrük sazişinə qarşı çıxışlar başlandı.

Göstərilən dövrdə Cənubi Azərbaycanda demokratik fikrin yayılması, milli və siyasi şüurun oyanması, xarici imperializmə və yerli feodal zülmünə qarşı xalq mübarizəsinin güclənməsində bir sıra başqa amillər də böyük rol oynamışdır. Belə ki, 1904-cü il dekabr ayının 13- də Bakı və onun Balaxanı, Sabunçu, Bibi-Heybət kimi ətraf rayon- lannda başlanan ve 3 l-de qələbə ile nəticələnən fəhlə tə’tilləri nəinki bütün Bakı proletariatını siyasi mübarizəyə çağırdı və Rusiyanın fəhlə hərəkatı tarixində ilk fəhlə - sahibkar müqaviləsinin bağlanmasına gətirib çıxardı, onlar həm də qonşu İranın və xüsusilə Cənubi Azərbaycanın siyasi mühitinə te’sir göstərməklə orada həyəcan ve çıxışların güclənməsinə, inqilabi hərəkatın başlanmasına təkan verdi. Bununla Şimali ve eləcə də Cənubi Azerbaycanda inqilabi hərəkatın və siyasi mübarizənin sonrakı inkişafında Rusiyada baş verən 1905-ci il 9 yanvar hadisələri («Qanlı bazar») və ümumiyyətlə l905-1907-ci illər inqilabının da əhəmiyyətli tə’siri olmuşdur. Xalqın təzyiqi altında çar Rusiyası hökumətinin 1905-ci ilin 17 oktyabrında demokratik azadlıqlar verilməsi haqqında dərc etdiyi «Manifest» Şimali Azerbaycanda (xüsusən Bakıda) «Müsəlman konstitusiya (Məşrutə) partiyası»nın yaranmasına, demokratik azadlıq ve hüquqlar uğrunda mübarizənin genişlənməsinə gətirib çıxardı ve bu hərəkat öz davamını həmin ilin dekabrında İranda, o cümlədən Cənübi Azərbaycanda başlayan «Məşrutə inqilabında» tapdı.

**Cenubi Azərbaycan 1905-1913-ci illər Məşrutə inqilabında.**

1905- 1911-ci illər inqilabı gedişində Cənubi Azərbaycanda İranın başqa rayonlarına nisbətən sosial ziddiyyətlər, siyasi vəziyyət daha gərgin olmuşdu. Xalq ədalətli quruluş yaradılmasını tələb edirdi. Hərəkatın hərəkətverici qüvvələri sənətkarlar, yenicə meydana gələn fəhlələr, tacirlərin xarici rəqabətdən en çox iflasa uğrayan xırda alverçi təbəqələri, dözülməz istismara mə'ruz qalan kəndlilərin qabaqcıl dəstələri və ictimai mövqelərinə görə onlara yaxın xırda ruhanilər idi.

Artmaqda olan hərəkatın təzyiqi altında İran şahı xalqın tələblərini yerinə yetirməyə söz verdi. 1906-cı il avqustun 5-de konstitusiya verilməsi haqqında şah fərmanı e’lan olundu.

1906- cı ilin sonunda Təbrizin gizli siyasi qrup və cəmiyyətləri tərəfindən əsası hələ l904-cü ildən qoyulmuş, RSDFP-nin Bakı təşkilatı və «Hümmət» qrupu ilə yaxın əlaqə və hərəkat birliyi olmuş «İctimaiyyune-amiyyun», yə’ni sosial-demokrat partiyası yarandı. Partiyanın proqramı kimi RSDFP-nin proqramı əsas götürüldü və o yerli siyasi, sosial-iqtisadi şəraitə uyğun şəkildə işlənib hazırlandı. Öz mərkəzini «Mərkəz-e qeybi» («Gizli mərkəz») adlandıran Təbriz sosial-demokrat təşkilatının başında Əli Müsyö dururdu.

1906-cı il sentyabnn 9-da Məclisə seçkilər keçirilməsi haqqında əsasnamə imzalandı. Sentyabnn 20-də Təbriz üsyançılan öz tələblərinə saraydan müsbət cavab aldılar. Bu uğurlar xalqı daha da ruhlandırdı, onlar hərəkat başçıları qarşısında mübarizənin davamı üçün zəruri olan siyasi bir mərkəzin yaradılmasım, kütləələri bu mərkəz ətrafında birləşdirməyi ən vacib məsələ kimi qoydular. Hərəkat başçıları içərisindən 20 nəfər ilk rəsmi siyasi əncümənin əsasını qoydu və həmin əncümen rəsmən «Azəı-baycan əyalət əncüməni» adlandı- nldı. 1906-CI ilin noyabr-dekabr aylannda əyalət əncümənin rəhbərliyi ile Azərbaycanın başqa şəhərlərində (Urmiya, Salmas, Marağa, Ərdəbil, Zəncan, Xalxal, Xoy, Maku, Binab, Astara və b.) vilayət əncümənləri yaradılmağa başladı və beləliklə əncümənin nüfuzu əyalətin bütün rayon və şəhərlərində yayıldı.

1906-cı il oktyabr ayının 20-dən noyabnn 5-nə kimi Azerbaycan seçkilərində qələbə qazanmış nümayəndələr 1907-ci ilin fevral ayının 8-də Azərbaycan elçiləri adı ilə Tehrana gəldilər və əyalət encümə- ninin saraya verdiyi tələblərin məclisdə müzakirəsi zamanı möhkəm dəlillərlə onların heyata keçirilməsi haqqında razılıq əldə etməyə nail oldular. Bu qələbə demokratik qüvvələri ruhlandırmaqla yanaşı şahı qorxudaraq mütləq monarxiyanı bərpa etmək fikrinə saldı. Ölkənin

hər tərəfində feodalların silahlı dəstələri tərəfindən əhaliyə, demokratik qüvvələrə qarşı basqınlar təşkil edilməyə başlandı. Həmin basqınların qarşısını almağa çalışan demokratik qüvvələr məclis tərəfindən xalq üçün əhəmiyyətli maddələrin olduğu «Konstitusiyaya əla- vələr»in qəbul edilməsini ciddi tələb etdilər. Bununla yanaşı sosial- demokratlar irtica qüvvələri qarşısında inqilabın əsas məqsədlərini, qəbul edilmiş konstitusiyanın həyata keçirilməsini tə'min etməyin yolunu kütlələrin gücündə, onların silahlanmasında görürdülər.

Artıq 1907-ci ilin iyun ayında Urmiya şəhərində yüzlərlə silahlı mücahid əncümənin göstərişlərini həyata keçirməyə hazır idi. Azərbaycandakı bu təcrübə İranın başqa şəhərinində, o cümlədən Tehranda da tətbiq olunmağa başladı.

1907- ci ilin oktyabnnda şah tərəfindən məhdud burjua azadlıqlarını nəzərdə tutan Konstitusiyaya «Əlavelən> qəbul edildi və sənədin təsdiqi inqilab cəbhəsində sinfi qüvvələrin təbəqələşməsini sür'ət- ləndirdi. İrtica qüvvələri xalq və inqilab cəbhəsinə qarşı hücuma hazırlaşmağa başladı və bu yolda bütün vasitələrdən - Türkiyə, İngiltərə və çar Rusiyası dövlətlərinin hakim dairələrinin köməyindən istifadə etməkdən də çəkinmədi.

1907-ci ilin noyabnnda şah başda olmaqla, əksinqilabi irtica qüvvələri tədbirlər görməyə başladılar. Demokratik hərəkata qarşı hücum hazırlamaq məqsədilə Tehranda «Fetowat» və «Səadət», eyni zamanda Təbrizdə «İslamiyyə» adlı irticaçı əncümənlər təşkil edildi. İrticaçılar 1908-ci ilin əvvəllərindən Azərbaycanda və İranın başqa yerlərində öz fitnəkarlıqiannı qüvvətləndirdilər. Şah və onun ətrafında toplanmış mürtəce qüvvələr tərəfindən hələ 1908-ci ilin aprel- may aylanndan hazırlanmaqda olan hökumət çevrilişi həmin il iyun ayının 23-də həyata keçirildi. Əksinqilab bütün İranda hücuma keçdi. Lakin Təbrizdə inqilabi hərəkat daha ciddi şəkil aldı, burada Azərbaycan əyalət əncüməni, Təbriz sosial-demokrat təşkilatı və məhəlli əncümənlər yeni inqilabi mübarizəyə, qəti döyüşlərə hazırlaşmağa başladılar. İnqilabi mübarizənin mərkəzi Tehrandan Təbrizə keçdi.

İrticaçılar Əmirxiz məhəlləsi istisna olmaqla Təbrizin şimali-şərq hissəsini tutdular. Əmirxiz məhəlləsini Təbriz üsyanının görkəmli rəhbəri Səttar xanın dəstəsi, şəhərin cənub-şərqində yerləşən Xiyaban məhəlləsini isə Bağır xanın başçılıq etdiyi hissələr müdafiə edirdilər. Üsyanda kəndlilər, fəhlələr şəhər xırda buıjuaziyası və milli burjuaziya iştirak edirdi.

Təbrizin müqaviməti irtica qüvvələrini və şahı çox narahaq edirdi. Buna görə de 1908>ci ilin avqustunda' buraya 40 min nəfərdən artıq silahlı qüvvə göndərildi. Sentyabnn 25-dən Təbriz üzərinə iki günə qədər davam edən hücum başlandı, lakin irtica qüvvələri heç bir uğur qazana bilməyərək, oktyabrın 12*de şəhəri tərk edib qaçmağa məcbur oldular.

Təbriz üsyançılarının qələbə xəbəri tezliklə İrana, Qafqaza və Avropanın bir çox ölkələrinə yayıldı. Paris, İstanbul, Nəcəf, Tiflis, Bakı və digər mühüm şəhərlərdən Azərbaycan əyalət əncüməninə, Səttarxanın ünvamna təbrik teleqramlan göndərildi. Xalq Səttar xanı «Serdar-e milli», Bağır xanı «Salar-e milli» adlandırdı, sonra isə Azərbaycan əyalət əncüməni bu adlan rəsmiləşdirmək üçün qərar qəbul etdi.

1909-cu ilin fevralına qədər Cənubi Azərbaycanın bütün qərb vilayətləri (Maku istisna olmaqla) inqilabçılann əlinə keçdi. Azərbaycanın şərq vilayətlərində de eksinqilaba qarşı e’tiraz güclənirdi. Lakin bütün bunlara baxmayaraq Mehəmmədəli şah İranın bütün əyalət və vilayətlərindən silahli qüvvələr toplayır, Təbriz üzərinə göndərməkdə davam edirdi. Artıq 1908-ci ilin dekabrmda eksinqilab yenidən 40 min silahlı adam toplamışdı, 1909-cu il yanvann axırlarında Təbriz şəhəri yenidən mühasirəyə alındı. Fevral-mart aylannda Təbriz üzərinə eksinqilabın hücumu başladı, lakin bu hücumlar da inqilabçılann qələbəsilə nəticələndi. Bununla belə, mühasirədə olanlar aclıq və qıtlıqdan çox əziyyət çekirdilər. Aprelin 14-də uzun müddət Marağa şəhərinin qubernatoru olmuş Səməd xanın qoşunları Təbrizə hücum etdilər. Yenə də müvəffəqiyyət əldə edilmədi. Belə bir şəraitdə ingilislər və çar Rusiyası açıq müdaxiləyə əl atdılar. Çar Ru-, siyasi xarici konsulluqları və təbəələri müdafiə etmək və guya Təbrizə ərzaq daşınmasını tə*min etmək bəhanəsilə 1909-cu il aprelin 29- da öz qoşunlannı Təbrizə yeritdi. Bununla da Təbriz üsyanı yatınldı.

Təbriz üsyanı və Azərbaycandakı demokratik hərəkat bütün İranda inqilabi hərəkatın yenidən yüksəlişin^ təkan verdi. Təbriz üsyanı Rəşt və İsfahanda üsyanların uğurla başa çatmasına, üsyançılann Tehrana yürüşünə, *eym* zamanda Məhəmmədeli şahın hakimiyyətdən devrilməsinə (16 iyul 1909-cu il) və Konstitusiyanın bərpa olunmasına səbəb oldu.

Fədailəri tərk-silah etmək məqsədilə Tehranın rəsmi dairələri tərəfindən Səttar xan və Bağır xan I910-cu il martın 11-də paytaxta də’vət olundular. Tərksilah haqqında eldə edilmiş razılığa baxma

yaraq, Səttar xan və onun etrafındakılara Tehranda xaincəsinə basqın edildi. Vuruşma nəticəsində 18 nəfər həlak oldu, 40 nəfər, o cümlədən Səttar xan yaralandı. Bununla da inqilabın son səngəri dağıdıldı. Səttar xan və Bağır xana Təbrizə qayıtmağa icazə verilmədi. Bu xəyanət Azərbaycan xalqının derin hiddətinə səbəb oldu, lakin Cənubi Azərbaycanda yerləşən çar Rusiyasının qoşunları əhalinin fəal çıxışına imkan vermədilər. Çar hökuməti Təbrizə yeni hərbi qüvvələr gçndərməklə, dekabrın 28-dən Təbriz fədailərinin müqavimətini qırdılar. Ələ keçən fədailər və Təbriz əncümeni rəhbərlərinə divan tutuldu. İrticaçılar Təbrizə qayıtdılar. Bütün Azerbaycanda terror və irtica hökm sürməyə başladı.

1905-1911-ci illər inqilabının yatınıması nəticəsində çar Rusiyası və İngiltərə tərəfindən İranın, o cümlədən inqilabda mühüm rol oynamış Cənubi Azərbaycanın əsarət altına alınması və istismarı qüvvətləndi.

Cənubi Azərbaycan birinci dünya müharibəsi dövründə. İran Məşrutə inqilabı məğlub edildikdən sonra, 1912-ci ilin əvvəllərində imperialistlər 1907-ci il ingilis-rus sazişinin İran hökuməti tərəfindən rasmən qəbul edilməsinə nail oldular. Sazişə əsasən İranın Qəsri-Şirin-İsfahan-Yəzd-Zülfüqar xəttindən şimaldakı 790 min kv.km sahəsi Rusiyanın nüfiız dairəsi, İranın Bəndər Abbas-Kirman-Bircənd- Qazik xəttindən cənub-şərqdəki 355 min kv.km hissəsi İngiltərənin, İranın bu xətlər arasındakı ərazisi isə «bitərəf» zona e’lan edildi. Bundan sonra İran birinci dünya müharibəsini doğuran imperialist ziddiyyətlərin düyün nöqtələrindən birinə çevrildi. Müharibə başlayanda iranın rəsmi surətdə öz bitərəfliyini eTan etməsinə baxmayaraq, xarici dövlətlər onun bitərəfliyini kobudcasına pozaraq ərazisində hərbi əməliyyatlara başladılar. Bu əməliyyatlar nəticəsində dəfələrlə işğala mə'ruz qalmış və ən çox zərər çəkmiş əyalətlərdən biri də Azərbaycan idi. Cənubi Azərbaycan 1914-cü il dekabrın axırlarında türk ordusu, 1915-ci il yanvarın 15-də Rusiya qoşunları tərəfindən işğal edilərək hərb və zorakılıq meydanına çevrildi. Əldə olan məlumata görə, sosial, iqtisadi və maddi çətinliklər qarşısında qalan yerli əhalinin 15 faizi həlak oldu. Bu vəziyyət xalq kütlələrinin böyük narazılığına və tez-tez baş verən heyəcanlanna səbəb olmuşdu. Bu zaman İran Demokrat partiyasının Təbriz təşkilatı xalq kütlələrinin mübarizəsinə başçılıq, edirdi. Demokratların Azərbaycanda nüfuzu artır və onların mütəşəkkil qrupları ayrı-ayrı şəhərlərdə fəalij'yət göstərirdilər. Beləliklə, Cənubi Azərbaycan İranı müharibə meydanına çevirən

xarici dövlətiəra və mürtəce şah hökumətinə qarşı mübarizənin ən güdü mərkəzinə çevrildi.

**I917-Cİ** ildə Rusiyada baş verən fevral burjua«demokratik inqilabının tə’siri ilə İran Demokrat partiyası (İDP) və onun Azərbaycan əyalət komitəsinin fəaliyyəti xeyli canlandı. Əyalət komitəsi əsasən orta və xırda burjuaziya, orta mülkədarlar, ziyalılar və ruhanilərdən ibaı*ət idi. Azərbaycan demokratlan ölkədə bir sıra dəyişikliklərin yerinə yetirilməsini, o cümlədən məclisə seçkilər keçirilməsini, Azərbaycan əyalətinin irticaçı valisi Sərdar Rəşidin işdən götürülməsini, xarici qoşunların trandan çıxarılmasını tələb edirdilər. İDP-nin Azərbaycan əyalət komitəsi Azərbaycana muxtariyyət almaq uğrunda mübarizəyə çağırırdı. Demokratlar tərənndən Təbrizdə milli azadlıq ideyalarını təbliğ edən «Azərbaycan himni» yaradılmışdı.

1917-ci ilin mayından sonra İran hökumətinin fəaliyyətsizliyi və onun tərkibinə Qevamüssəltənə, Vüsuqqüdövlə kimi mürtəce siyasi dövlət xadimlərinin daxil olması ölkədə demokratik dairələrin böyük e'tirazına səbəb oldu. Elə bu vaxtdan başlayaraq Cənubi Azərbaycan əyalət komitəsi müstəqil hərəkət etməyi və bir partiya (Azərbaycan Demokrat partiyası) halında birleşməyi qərara aldı. ADP-nin yaranması və xalq arasında nüfuz qazanması sahəsində «Təcəddüd» qəzetinin mühüm rolu oldu. 1917-ci il avqust ayının 24-də əyalət komitəsinin geniş konfransı oldu və Şeyx Məhəmməd Xiyabani başda olmaqla ADP-nin MK-sı seçildi, partiyanın qarşısındakı vəzifələrini müəyyənləşdirən qətnamələr qəbul edildi.

Rusiyada oktyabr hadisələrinin İrana və Cənubi Azərbaycana çox böyük tə’siri oldu. Bu hadisələr İranın dövlət müstəqilliyinə və suverenliyinə əhəmiyyətli dərəcədə ziyan vurdu. Belə ki, 1917-ci il dekabrın 15-də Brestdə Rusiya hökuməti, Xayzer Almaniyası və onun müttəfiqləri arasında İrandan xarici qoşunlann çıxaniması barədə sülh müqaviləsi imzalanması haqqında danışıqlar başlandı. 1918-ci il yanvarın 5-də rus qoşunlannin İrandan çıxarılması barədə proqram e’lan edildi. Bununla belə, 1918-ci ilin yayında ingilis hərbi hissələri Cənubi Azərbaycanın Zəncan, Miyane, Urmiya və Xoy şəhərlərinə daxil oldu. Cənubi Azərbaycan erazisinin çox hissəsi osmanlı Türkiyəsinin qoşunları tərəfindən işğal edildi. ADP belə gərgin vəziyyətdə ingilis və türk qoşunlarına, yerli irtica hökumətinə qarşı mübarizə aparırdı. ADP-nin rəhbərləri, o cümlədən Xiyabani dinc yolla mübarizə taktikasının lazımi nəticə verməyəcəyini yəqin edərək, silahlı üsyana başladılar.

## § 4 CƏNUBİ AZƏRBAYCANDA MƏDƏNİYYƏTİN İNKİŞAn

**Maarif.** XIX esrde, bütün İranda olduğu kimi, Cənubi Azerbaycanda da cəmiyyətin əsasən feodal zadəgan təbəqələrinə xidmət edən və dövlət tərəfindən deyil, ayn-ayn şəxslər, dini mərkəzlər vasitəsilə təşkil olunan maarif sistemi xalqın həyatına və onun gələcək inkişafına əsla xidmət edə bilmir, əksinə mane olurdu. Bütün Yaxın və Orta Şərq ölkələrində olduğu kimi. Cənubi Azərbaycanda da başlıca təhsil ocaqları mədrəsələr idi. Bunlar da, adətən, dini idarələr, iri tacirlərin be’zi nümayəndələri tərəfindən və xeyriyyə işləri üçün ianə toplanması hesabına tə’sis edilirdi. XIX əsrdə Cənubi Azerbaysanda mədrəsələr yalnız Təbrizdə və bir neçə başqa şeherdə var idi ki, bunların da çoxunu kiçik (15-30 nəfərlik) medresəler təşkil edirdi. XIX əsrin sonlarında isə Cənubi Azərbaycanın bütün şəhər və rayonlannda 150 ümumi ve xüsusi məktəb, 10 mədrəsə var idi. Bununla belə. Cənubi Azerbaycanda mövcud olan bu məktəb və mədrəsələrin, demək olar ki, əksəriyyəti cəmiyyətin müasir ictimai, siyasi, mədəni inkişafı tələbatına xidmət etməyə əsla qadir deyildi. Həmin məktəbləri başa vurmuş gənclər, inzibati və hərbi mə'murlar, yüksək mənsəbli dövlət xadimlərinin böyük əksəriyyəti bu baxımdan əslində savadsız idilər.

Cənubi Azərbaycanda müasir tipli təhsilin əsası 1875-ci ildə Təbriz dövlət məktəbinin (Təbriz Darülfünunun) açılması ile qoyulmuşdu. Burada əsasən hərbi və mülki mə’murlar, həkimlər hazırlanırdı. Məktəb 20 il fəaliyyət göstərmiş və ildə 40-45 məzunu olmuşdu. Təbrizdə «Dəbestan» (ibtidai məktəb) adlı ilk xüsusi yeni tipli («üsuli-cədid») məktəbi 1888-ci ildə İran maarifinin atası Mirzə Həsən Rüşdiyyə açdırdı. O, Cənubi Azərbaycanda ilk dəfə olaraq əlifbanı yeni sövti-üsul (səs üsulu) ilə Azərbaycan dili əsasında tədris etməyə başlamış, çoxlu dərsliklər, o cümlədən «Vətən dili», «Ana dili» dərsliklərini yazmışdı.

1905-1911-ci illər İran inqilabı dövründə Cənubi Azerbaycanda 37 milli (Təbrizdə 22), 1911-1925-ci illərdə isə 50-den çox (Təbrizdə 29) məktəb açılmışdı. Həmin məktəblərdə Azərbaycan və fars dillərindən əlavə, ərəb, fransız və rus dilləri de tədris olunurdu. 1917-ci ildə isə Cənubi Azerbaycanda ilk orta məktəb tə’sis edilmişdir.

Mətbuat. Cənubi Azerbaycanın mətbuat tarixi XIX əsrin ikinci yarısından başlayır. Cənubi Azerbaycanda fars dilində nəşr edilən ilk

qəzet «Azərbaycan»dır. Qəzet 1858-ci ildə Təbrizdə hökumətin rəsmi orqanı kimi çap olunmuş və tranda nəşr edilmiş ən qədim qəzetlər içərisində üçüncüsüdür.

1905-191 l-ci illər inqilabına qədər Cənubi Azerbaycanda 18 adda qəzet və jurnal buraxılırdı. Onlann be’ziləri isə dövlət tərətlndən rəsmi buraxılan mətbuat orqanlan idi.

1905-191 l-ci illər Məşrutə inqilabı dövründə Cənubi Azərbaycanda ilk dəfə ana dilində bir sıra qəzet və jurnallar («Azərbaycan», «Ana dili», «Məzəli», «Zənbur», «Heşərat-ol-ərz»), Azərbaycan əyalət əncümeninin iki dildə-fars və Azerbaycan dillərində nəşr etdiyi «Naleyi-millet», «Molla Nəsrəddin» dərc olundu və yayılmağa başladı. Bu dövrdə Azerbaycanda çıxan qəzet və jumallann əsas hissəsini inqilabi hərəkatın qələbəsinin tərəfdarı olan demokratik mətbuat təşkil edirdi. İran müəlliflərinin verdiyi mə’lumata görə, Məşrutə inqilabı dövründə Cənubi Azərbaycanda 50-yə yaxın adda qəzet və jurnal nəşr edilmişdir.

Məşrutə inqilabının məğlubiyyətindən sonrakı dövr (1913-l917-ci illər) ərzində Cənubi Azərbaycanda mədəniyyətin Tehran hakim dairələri tərəfindən sıxışdınİması nəticəsində nəşr olunan qəzet və jurnalların sayı xeyli azaldı. Bu dövrdə nəinki Azerbaycanda, hətta bütün İran miqyasında demokratik, o cümlədən fəhlə mətbuatına, hətta onların mənafeyini müdafiə etməyə təmayül göstərən mətbuata belə, təsadüf ölunmur.

1917-ci ildən sonra isə yenidən vilayətdə mətbuat tərəqqi etməyə başlayır. Bu da sözsüz ki, İranın qonşusu olan Rusiyada baş vermiş fevral və xüsusilə oktyabr hadisələri ilə bağlı olmuşdur. Bu dövrdə Cənubi Azerbaycanda ən mühüm qəzetlərdən biri I9l7-ci ildə Əbül- qasim Fiyuzat və Şeyx Məhəmməd Xiyabaninin rəhbərliyi ilə nəşrə başlayan, qısa fasilələrlə 192 l-ci ile qədər çap olunan «Təcəddüd» idi.

Ədəbiyyat XIX əsrin ikinci yansında Cənubi Azərbaycanda maarifçi ədəbiyyat yarandı. Şe’rdə ilk dəfə olaraq xalq həyatının real mənzərələrini, ölkənin həyatındakı real hadisələri (1871-1872-ci illərdəki qıtlıq və aclıq, 1891-1892-ci illər «Tənbəki üsyanı», əcnəbilərin ölkədə ağalığı və s.) əks etdirməklə, bə*zi maarifçilik ideyalannı təbliğ etmək sahəsində əsaslı addımlar atılır. Cənubi Azerbaycanın XIX əsr poeziyasının mübariz cərəyanını yaradan, öz yaradıcılıqla- nnda milli azadlıq ideyalannı geniş təbliğ edən şairlər sırasında Hacı Mehdi Şükuhinin, Rza Sərrafın, Mirzə Əli xan LəMinin, Səid

Səlmasinin, Mirze Əli Mö’cüz Şəbüstərinin və b. adlannı çəkmək olar. Cənubi Azərbaycan poeziyasının XIX-XX əsrin əvvəllərində inkişafının ümumi meyli real həyata yaxınlaşmaq, onun en vacib, təxirəsalınmaz problemlərini əks etdirmək olmuşdur.

Bu dövrdə Cənubi Azerbaycanda M,F.Axundovun bilavasitə lə’siri altında ilk dəfə dram eserləri yazıldı (Mirzağa Təbrizinin pyesləri). M.F.Axundovun davamçılan Zeynalabdin Marağeyi («İbrahim bəyin səyahətnaməsi»), Ə.Talıbovun («Pak adamların məsləkləri») əsərləri 1905-1911-ci illər İran inqilabının ideoloji və siyasi cəhətdən hazırlanmasında mühüm rol oynamışdır. XX əsrin əvvəllərində ictimai-siyasi publisistika («Molla Nesrəddin»çi nəsr) ədəbiyyatın aparıcı janrlarından biri kimi geniş vüs’ət aldı. Bu səpkidə yazılan əsərlər içərisində öncə Əbülziya Şəbüstəri və Seyid Hüseyn Ədalətin «İrane-nou», «Ana dili», «Ədaleb> qəzetlerindəki felyetonlarını, Cəmşid Ərdəşir Əfşann pamflet və ədəbi-fəlsəfi esse xarakterli yazılannı qeyd etmək olar.

Teatr. XIX əsrdə Cənubi Azərbaycanda teatr Qərb mədəniyyətinin müstəqim tə’siri nəticəsində yaranmışdı. Belə ki, 70-80-ci illərdə «maarifpərvəD) Nəsrəddin şahın Avropaya səfərindən sonra Darül-fünun müdavimlərinin qüvvəsi ilə saray ə’yanları üçün vaxtaşın teatr tamaşalan təşkil edilirdi. Buna baxmayaraq, ə’yanlar üçün təşkil olunan bu ilk teatr tamaşalan İranda, o cümlədən de Cənubi Azərbaycanda teatnn inkişafına o qədər də tə’sir göstərə bilməmişdi. Dramaturgiyaya və teatra olan baxış Azerbaycanda (tranda da) M.F.Axundovun yaradıcılığının bilavasitə te’siri altında formalaşmışdı. 1870- 1874-cü illərdə Mirze Cəfər Qaracadaği tərəfindən M.F.Axundov pyesləri fars dilinə tərcümə olunduqdan sonra İranda ilk orijinal dram əsərləri yaratmaq təşəbbüsü meydana çıxdı. Bu təşəbbüsün ilk müdafiəçisi bir neçə pyes müəllifi Mirzağa Təbrizi idi. Lakin onun əsərləri məzmun, ideya və bədii dəyəri e’tibarilə zəif olduğundan səhnə üzü görə bilmədi.

Mədəni həyatın bu sahəsində ilk əhəmiyyətli addımlar yalnız 1905-1911-ci illər inqilabı dövründə atıldı. Bu işdə də Şimali Azərbaycanın mədəniyyət xadimlərinin köməyi və şəxsi iştirakı mühüm rol oynayırdı. 1909-l916-cı illər ərzində görkəmli aktyorlar Sidqi Ruhulla, Abbas Mirzə Şərifzadənin rəhbərliyi ilə Bakı teatr truppalan dəfələrlə İrana gəlmiş Tehranda, Təbrizdə, Rəştdə, Qəzvində, İsfahanda və b. şəhərlərdə tamaşalar vermişlər. Onlann repertuan əsasən

ə.Haqverdiyev, N.Vəzirov və N.Nerimanovun, həmçinin Qərb dramaturqlannın əsərlərindən ibarət idi.

Təbiidir ki, belə əməkdaşlıq xüsusilə Cənubi Azərbaycanda, ilk növbədə Təbrizdə daha geniş vüs*et alır, çünki bu şeherin bir çox ziyalılan və qabaqcıl, fəal gəncləri Şimali Azərbaycanda baş verən ictimai və mədəni hadisələrlə yaxından tanış idilər.

1916-cı ildə Təbrizdə ilk teatr binası tikildi. Cənubi Azərbaycanda qısa müddətdə (10-12 il) milli teatr yaradılması prosesinin təməl daşı qoyuldu. Teatr tamaşalan ana dilində olduğundan xalq tərəfindən tez qavranılır və eyni zamanda Azərbaycan dilinin formalaşmasında, mədəniyyət sahəsində yayılmasında, ədəbi dilin formalaşmasında mühüm rol oynayırdı.

# XRONOLOGİYA*

## AZƏRBAYCAN İBTİDAİ-İCMA QURULUŞU DÖVRÜNDƏ

| | |
|---|---|
| **120-100-40-30-cu minilUklər -** | İbtidai icma quruluşunun formalaşması |
| **12 mln. il əwəl** | tnsanabənzer meymunlarm yaşaması |
| **1,5 mln. ml-150-120 minilUklər** | Quruçay mədəniyyətinin dövrü |
| **Təxm. 40-35 min-12-10 mln il** | -Paleolit dövrü |
| **10-12 min 11 əvvəl** | -Qobustanda həyatın başlanması |
| **10-12 min il-8 min il əwəl** | -Mezolit dövrü |
| **e.ə. 7-6 minilliklər** | -Eneolit dövrü |
| *e.9. 4 minilliyin 9vvəli* | -Bəsit dulus çarxının meydana gəlməsi |
| **e.ə. 4 min. II yarısı-2 min. sonu** | -Tunc dövrü |
| *e,a. 4 min. sonu-S minillik* | -Erkən tünc dövrü. Kür-Araz mədəniyyəti. |
| **e.ə. 3 min. yarısı** | -Əmlak və sosial bərabərsizliyin artması. Birinci böyük ictimai əmək bölgüsü. |
| **e.ə. 3 min. axırıncı rübü 2 min. I yarısı e.ə. II min. I yansı** | -Orta tunc dövrü. İkinci böyük ictimai-əmək bölgüsü. |
| **e.ə. II min.-1 min. əvvəli** | -Şəhərsalma mədəniyyətinin təşəkkülü |
| **e.ə. XIV-VIII əsrlər** | -Naxçıvan mədəniyyəti |
| **e.ə. XIV-VIII əsrlər** | -Son tunc və ilk demir dövrü |
| **e.ə. XIV-VII əsrlər** | -Xocalı-Gədəbəy mədəniyyəti |
| **e.ə. XIII-XII əsrlər** | -Talış-Muğan mədəniyyəti |
| **e.ə. XIII-XI əsrlər** | -Borsunlu kurqanı |
| **e.ə. VII-V əsrlər** | -Sarıçoban kurqanı |

## AZƏRBAYCAN QULDARLIQ DÖVRÜNDƏ

| | |
|---|---|
| **e.ə. III min. I yarısı** | -Erkən dövlət qurumu Aratta |
| **e.ə. XXVIII-XXIV əsrlər** | -Şumer şöher-dövlotleri |
| **e.ə. III min. II yarısı** | -Kuti ve Lullubi dövlətlərinin yaranması |
| **e.ə. təxm. 2240-2220-d İllər** | -Elam hökmdan Kutik-İnşuşinakm hakimiyyəti * |

*N.S.Hüscynova tərtib etmişdir.

| | |
|---|---|
| **e.ə.t. 2236-2200-ci illər** | -Akkad hökmdarı Naram-Suenin hakimiyyəti |
| **e.ə.t. 2230-2200>ci İllər** | -Lullubi hökmdarı Satuninin hakimiyyəti |
| **e.ə.t. 2225-2205-ci illər** | -Kuti hökmdarı Emidavazirin hakimiyyəti |
| **e;ə.t. 2220-2170>ci illər -** | Lullubi hökmdarı İmmaşqunun hakimiyyəti |
| **e.ə.2204-2197-ci illər e.ə.t** | Kuti hökmdarı İmtanın hakimiyyəti |
| **2200-*2175-ci iUər e.ə.t.** | Akkad hökmdan Şarkalişarrinin hakimiyyəti |
| **2198-2192-ci illər - e.ə.t.** | ■Kuti hökmdarı İnqeşauşun hakimiyyəti |
| **2191-85-ci İllər e.ə.** | -Kuti hökmdarı Sarlaqın hakimiyyəti |
| **2184-2178-ci illər e.ə.t.** | Kuti hökmdarı Yarlaqaşın hakimiyyəti |
| **2177-2171-ci illər e.ə.t.** | -Kuti hökmdan Elulumeşin hakimiyyəti |
| **2175-ci U** | -Kuti sülaləsinin İkiçayarasında hakimiyyətə gəlməsi |
| **e.ə.t. 2170-2150-ci illər** | -Lullubi hökmdan Anubaninin hakimiyyəti |
| **e.ə.t. 2135-2133-cü İllər** | -Kuti hökmdan Laharabın hakimiyyəti |
| **e.ə.t. 2127-2120-ci lUər** | -Kuti hökmdarı Puzur-Suenin hakimiyyəti |
| **e.ə.t. 2120-2113-cü illər** | ‘Kuti hökmdan Yarlaqandanın hakimiyyəti |
| **e.ə.t. 2112-210S-Cİ İllər** | -Kuti hökmdan Siumun hakimiyyəti |
| **e.ə.t. 2112-2003-cü illər** | -III Ur sülaləsinin hökmranlığı |
| **e.ə. 2104-cu il e.ə.** | -İkiçayarasında Kuti hakimiyyətinin süqutu |
| **2093-2046-cı illər e.ə. II** | -Ur hökmdan Şulqinin hakimiyyəti |
| **minillik e.ə. II min. I** | -Dövlət qurumlanmn parçalanması |
| **yansı** | -Turukki və su tayfalannın siyasi fəaliyyətinin başlanması |
| **e.ə. 1813-1781-d illər** | -Assur hökmdan 1 Şamşi-Adadın hakimiyyəti |
| **e.ə. 1797-1757-cl illər** | -Assur hökmdan I Işme-Daqanın hakimiyyəti |
| **e.ə. 1792-1750-ci illər** | -Babilistan hökmdan Hammurapinin hakimiyyəti |
| **e.ə. 1307-1275-ci illər** | -Assur hökmdan I Adadnirarinin hakimiyyəti |
| **e.ə. 1274-1245-cI illər** | -Assur hökmdan Salmanasann hakimiyyəti |
| e.ə. *1244-1208-cUUər* | -Assur hökmdan I Tükulti-Ninurtanm hakimiyyəti |
| **e.ə. IX-VIII əsrlər e.ə. IX** | -Midiya ərazisində xırda vilayət hakimləri |
| **əsr. I yansı e.ə.** | -Zamua ölkəsində xırda dövlət qurumlan |
| **883-859-cu illər** | -Assur hökmdan II Aşşumasirpalın hakimiyyəti |
| **e.ə. 880-ci il** | - II Aşşumasirpalın Zamua ölkəsinə yürüşü |
| **e.ə. 859--824-cü illər** | -Assur hökmdan III Salmanasann hakimiyyəti |
| **e.ə. 825'-812-ci illər** | -Urartu hökmdan İşpuininn hakimiyyəti |
| **e.ə. 823-<811-ci illər** | -Assur hökmdan V Şamşi-Adadın hakimiyyəti |
| **e.ə. ci il** | - V Şamşi-Adadın Nairi ölkəsinə hərbi səfəri |
| **820> -783-cü illər** | -Assur hökmdan III Adadnirarinin hakimiyyəti |
| **e.ə. 810--781-ci illər** | -Urartu hökmdan Menuamn hakimiyyəti |
| **e.ə. 810--760-cı illər** | -Urartu hökmdan I Argiştinin hakimiyyəti |
| **781** | |

| | |
|---|---|
| e.ə. 775-ci ii e.ə. | -I Argiştinin Mannaya soxulması |
| 773-693-cü illər e.ə. | -Skit padşahlığının mövcud olması |
| 760-730-cu illər e.ə.t. | -Urartu hökmdan II Sardurinin hakimiyyəo |
| 750-ci il e.ə. | -II Sardurinin Mannada işğalı |
| 744-727-ci illər | -Assur hökmdan III Tiqlatpalasann hakimiy-yəti |
| e.ə. 740-719-cu illər | -Manna hökmdan İranzunun hakimij'yeti |
| e.ə. 730-714-cü illər | -Urartu hökmdan I Rusanın hakimiyyəti |
| e.ə. 722-705-ci illər e.ə. | -Assur hökmdan II Sarqonun hakimiyyəti |
| 719-cu il e.ə. | -Mannada İranzuya qarşı üsyan |
| 7I8-7I6-C1 illər e.ə.t. | -Manna hökmdan Azanın hakimiyyəti |
| 716-680-ci illər e.ə. | -Manna hökmdan Uİlusununun hakimiyyəti |
| 714-cü il e.ə.t. | -II Sarqonun Mannaya böyük yürüşü |
| 712-675-ci illər e.ə. VII | -Midiya hökmdarı Deyokun hakimiyyəti |
| əsr e.ə. 681-668-ci illər | -Sakların Albaniyada məskunlaşması |
| e.ə.t.675-563-cü illər | -Assur hökmdarı Asarhaddonun hakimiyyəti |
| e.ə.t. 675-650-cİ İllər | -Midiya hökmdan Fraortanın hakimiyyəti |
| e.ə. 668-626-cı illər e.ə. | -Manna hökmdan Ahşerinin hakimiyyəti |
| 653-625-ci illər e.ə. | -Assur hökmdarı Aşşurbanipalm haldmiyyeti |
| 650-ci İl | -Midiya skitlerin hakimiyyəti altında |
| e.ə.t. 650-630-cu illər | -Aşşurbanipalm Manna qoşununu məğlub etməsi |
| e.ə. 640-629-cu illər | -Manna hökmdan Uallinin hakimiyyəti |
| e.ə. 625-585-ci illər e.ə. | -Fars hakimi I Kirin hakimiyyəti |
| 615-<512-cl İllər e.ə. | -Midiya hökmdan Kiaksarın hakimiyyəti |
| 585-ci il | -Midiyanın Assuriya ilə müharibəsi |
| | -Kiaksarın Lidiya ilə sülh müqaviləsinin bağ-lanması |
| e.ə. 585--550-cl illər | -Midiya hökmdan Astiaqın hakimiyyəti |
| e.ə. 584--558-ci illər | -Fars hakimi I Kambizin hakimiyyəti |
| e.ə. 558--530-cu İllər | -Fars hökmdan II Kirin hakimiyyəti |
| e.ə. 550--330-cu İllər | -Əhəmənilər sülaləsinin hakimiyyəti |
| e.ə. 550-ci il cu il | -Midiyanın süquta uğraması |
| e.ə. 530--S22-Cİ illər | -II Kirin massaget tayfalanna qarşı yürüşü |
| e.ə. 530--521-ci illər | -Fars hökmdan II Kambizin hakimiyyəti |
| e.ə. 522- | -Qaumata-Bardi və Əhməni dövlətində üsyan-lar |
| e.ə. 522-486-cı illər | -Fars hökmdarı I Daranın hakimiyyəti |
| e.ə. 486-465-ci illər | -Fars hökmdarı Kserksin hakimiyyəti |
| e.ə. 336-323-cü İllər | -Makedoniyalı İsgəndərin hakimiyyəti |
| e.ə. 334-326-cı iUər | -Makedoniyalı İsgəndərin Şərq yürüşü |
| e.ə. 333-cü il e.ə. | -Anadolu İsgəndərin hakimiyyəti altında |
| 331-ci İİ | -Qavqamela (Cancat) düzənliyində döyüş |

| | |
|---|---|
| e.ə. 330-cu il e,ə. | -Əhəməni dövlətinin süqutu |
| 327-ci U | -Baktriya və Soqdanın tsgənder tərəfindən |
| | tutulması |
| e.ə. 327-ci il e.ə. | -İskenderin Hindistana yürüşü |
| 323-cü il | -Adərbayqan (Atropatena) dövlətinin |
| | yaranması |
| e.ə. 321-281-ci illər | -Sələvkiler sülaləsinin hakimiyyəti |
| e.ə. 223-187-ci illər | -Səlevki II Antioxun hakimiyyəti |
| e.ə. 222-220-cl illər | -Midiya satrapı Molonun Səlevkilərə qarşı |
| e.ə. 220-ci il e.ə. | üsyanı |
| 209-205-ci Ulər e.ə. II | -Azerbaycanın sələvkilerdən asılılığı |
| əsr | -III Antioxun Şərq yürüşü |
| | -Albaniyada Araniler sülaləsinin hakimiyyətə |
| e.ə. 189-160-cı illər | gəlməsi |
| e.ə. 175-163-cfi illər | -Ərməniyə hökmdarı I Artaşesin hakimiyyəti |
| e.ə. 171-139-cu illər | -Səlevki hökmdarı IV Antioxun hakimiyyəti |
| e.ə. 148-147-cl illər | -Parfiya hökmdan I Mitridatın hakimiyyəti |
| e.ə. 95-55-cl illər e.ə. | -I Mitridatın Midiyanı zəbt etməsi |
| 74-64-cü illər e.ə. | -Ərməniyə hökmdan I Tiqranın haknmiyyəti |
| 71-cİ İl e.ə.ə 67-d il | -Romanın VI Mitridatla müharibəsi |
| ***e.ə. 63-cü il*** e.ə. | -Lukulun yürüşü |
| 56-34-cü illər e.ə. | - I Tiqranın Kappadokiyanı tutması |
| 37-e. 3-cü İlləri e.ə. | -VI Mitridatın sonu |
| 36-cı il e.ə. 31-ci il e. | -Ərməniyə hökmdan II Tiqranın hakimiyyəti |
| I-II əsrlər I-III əsrləri | -Parfiya şahı IV Fraatm hakimiyyəti |
| 63-cü il 68-cİ il | -Antoninin Parfıyaya yürüşü |
| 81-96-cı İllər | -Antoninin Oktavian ile Aksi yanında döyüşü |
| 96-117-ci illər | -Xristianlığın meydana gəlməsi |
| 114- cü il | -Roma-Parfıya münaqişələri |
| 115- ci il | -Romanın Parfiya ilə sülh müqaviləsi |
| | -Neronun albanlara qarşı yürüşə hazırlaşması |
| | -Roma imperatoru Domisianın hakimiyyəti |
| | -Roma imperatoru Trayanm hakimiyyəti |
| | -Trayan tərəfindən Ərməniyənin tutulması |
| | -Ərmeniyenin Roma vilayətinə çevrilməsi • |

## AZƏRBAYCAN İLKİN FEODALİZM DÖVRÜNDƏ

| | |
|---|---|
| III-V əsrlər | -Azərbaycanda feodalizmə xas olan iqtisadi |
| | münasibətlərin bərqərar olması |
| IIl-VIl əsrlər t. | -Sasanilər sülaləsinin hakimiyyəti |
| 215-2S5-Cİ Ulər | -Alban hökmdan I Vaçaqanm hakimiyyəti |

215-276-c! niər
226>cı il 226-cı U

241- 272-ci illər
242- ci il
t. 255-262-ci illər

260>cı il

270-275-c illər
287-332-ci illər

IV əsr
309-379-cu illər IV
əsr. 30*cu illəri

t. 332-338-ci illər

338-345-ci İllər t.
342-350-ci illər

345-367-ci iUər t.
359-371-ci illər
359-cu il 364-378-ci
illər 369-374-cü
illər 371-ci il 387-ci
il

399-421-cİ İllər
421-438-ci illər
428-ci il

t. 443-451-ci illər
457-459-cu illər
459-484-cu illər
462-ci il
481-484-cu illər

**48I-529-CU** illər
484-488-ci İUər

-Maninin heyaü
-tranda parfların hakimiyVətine son qoyulması
-tranda Sasanilər sülaləsinin hakimiyyət gəlməsi
-Sasani şahı I Şapurun hakimiyyəti
-Mani tə'liminin yayılması
-Alban xristian hökmdarı I Vaçenin hakimiyyəti
-I Şapur tərəfindən Roma ordusunun məğlubiyyəti
-Roma imperatoru Avrelianm hakimiyyəti
-Əmeniyədə Arşaki nümayəndəsi III Trdatm hakimiyyəti
-ön Asiyada xristian dininin yayılması
-Sasani şahı II Şapurun hakimiyyəti
-Xristianlığın Roma imperiyasmda dövlət dininə çevrilməsi
-Ərməniyə hökmdarı II Xosrov Kotakın hakimiyyəti
-Ərməniyə hökmdan Tiranın hakimiyyəti
-Albaniya torpaqlarının Ərməniyə tərəfindən işğalı
-Ərməniyə hökmdan II Arşakin hakimiyyəti
-Alban xristian hökmdarı Umeynn hakimiyyəti
-Amid döyüşü
-Roma imperatoru Valentinin hakimiyyəti
-Ərməniyə hökmdan Papın hakimiyyəti
-Dzirav çölündə döyüş
-Roma və tran arasında Ərməniyənin bölüşdü-rülməsi
-Sasani şahı 1 Yezdəgerdin hakimiyyəti
-Sasani şahı V Bəhram Gürün hakimiyyəti
-Ərməniyənin Sasani dövlətinin canişinliyinə çevrilməsi
-Syuni hakimi Vasakın hakimiyyəti
-tranda hakimiyyət uğrunda mübarizə
-Sasani şahı Firuzun hakimiyyəti
-Haylandur hunlann Albaniyaya gəlməsi
-Ərməniyə xristianlannm Sasani şahına qarşı üsyanları
-Məzdəkilər hərəkatı
-Sasani şahı Balaşın hakimiyyəti

| | |
|---|---|
| 48S-Cİ il | -Nvarsak sülhü |
| 488-53I-Cİ illər | -Sasani I Kavadm hakimiyyəti |
| 493-510-cu illər | -Alban xristian hökmdan 111 Vaçaqanın hakimiyyəti |
| 498-ci ü | -Aquen məclisi |
| V əsr. sonu-VI əsr. əvvəli | -Albaniyada xristianlığın zorla yayılması |
| 510-629-cu illər | -Albaniyada sasani mərzbanlığı dövrü |
| 529-cu il | -Məzdəkin e*dam olunması |
| 531-579-cu illər | -İran şahı 1 Xosrov Ənuşirəvanm hakimiyyəti |
| 570- 590-cı illər | -Mihranm Girdman məskəni |
| 571- 591-ci illər | -İran-Bizans müharibələri |
| 579-590-cı illər | -Sasani şahı IV Hörmüzün hakimiyyəti |
| 582-602-ci illər | -Bizans şahı Mavrikinin hakimiyyəti |
| 591-ci il 591-628-ci | -İranın Bizans ilə müqaviləsi |
| illər | -Sasani hökmdan II Xosrov Pərvizin hakimiyyəti |
| 600-615-ci illər | -Girdman qalasımn tikilməsi |
| 602-cİ il | -İran-Bizans müharibələrinin başlanması |
| 602-610-cu İllər | -Fokanın Bizansda hakimiyyəti |
| 610-641-ci illər | -Bizans hökmdan II İraklinin hakimiyyəti |
| 624-cü 11 | -Bizansların Naxçıvanı tutması |
| t. 625-636-cı illər | -Girdman hökmdan Varaz-Qriqorun hakimiyyəti |
| 628-ci il 628-ci il 3 | -Xəzərlərin Qafqaziyəyə yürüşü |
| aprel | -II Kavadm İrakli ilə sülh müqaviləsini bağlaması |
| 630-632-ci illər | -Albaniya türk xaqanlığının siyasi tə’siri altında |
| 632-634-cü illər | -Abu Bəkrin hakimiyyəti |
| 632-651-ci illər | -tran şahı III Yezdəgerdin hakimiyyəti |
| 634-636-cı illər | -Yərmuo döyüşü |
| 634-644-cii illər | -Xəlifə Ömərin hakimiyyəti |
| 636-680-ci illər | -Albaniya hökmdan Cavanşirin hakimiyyəti |
| 638-cl il | -Qadsiyye döyüşü |
| 641- 668-d illər | -Bizans imperatoru II Konstantinin hakimiyyəti |
| 642- ci il 642-ci 11 | -Nəhavənd döyüşündə İranın qələbə çalması |
| 644-cü il 646-cı il | -Ərəblərin Muğanı işğal etməsi və müqavilənin bağlanması |
| VII əsr. 2-ci yarısı | -İsfəndiyarın ərəblərlə müqaviləsi |
| | -Ərəblərin Arrana hücumu |
| | -İslam dininin yayılması |

65I-d il 654-cü il
656-661^1 U 660*^0
İl 661-680-ci iUər
661-750-ci illər
680-683-cu illər
705-ci ii 705-715-ci
İllər 709^u il

748-ci il 748-752-ci
iUər 750-1258-cİ
illər 778-ci il
786-809-cu illər IX
əsr IX əsr
IX-XI əsrlər

808-ci il 821-822-ci
illər

829- cu il 3 iyun
830- cu il

833-cü ii 25 dekabr
836- cı il
837- ci İl 26
avqust
838- ci 1114 mart

-Sasani imperiyasının süqutu
-II Konstantinin Cavanşir ile birinci görüşü
-Xəlifə Əli İbn Abutalıbın hakimiyyəti
-II Konstantinin Cavanşir ilə ikinci görüşü
-Xəlifə Müaviyənin hakimiyyəti
-Əmevilər sülaləsinin hakimiyyəti
-Xəlifə I Yezidin hakimiyyəti
-Şeruyenin e’dam edilməsi
-Xəlifə I Validin hakimiyyəti
-Ərəblərin xəzərlərlə müharibəsinin *başlan> ması
-Beyleqanda üsyan
-Azərbaycanda çıxışlar
-Abbasilər sülaləsinin hakimiyyəti
-Xürremiİerin ərəblərə qarşı birinci üsyaıı
-Xəlifə Harun Ər-Rəşidin hakimiyyəti
-Rusların Azərbaycana yürüşü
-Xilafətin zəifləməsi
- Azərbaycanda feodal dövlətlərinin istiqlaliy-yətə nail olması
-Xürremilərin orəbloro qarşı ikinci üsyanı
-Azərbaycanda xürromilər hərəkatının geniş-lənməsi
-Həşdadsər dağında döyüş
-Həmədan şəhərinin xürrəmilər tərəfindən tutulması
-Həmədan yaxınlığında döyüş
-Sərkərdə Terxanın öldürülməsi
-Bəzz qalasının süqutu
-Babəkin e’dani edilməsi

## AZƏRBAYCAN FEODALİZM DÖVRÜNDƏ

XI əsrin 60-cı illəri -Şirvanın istiqlaliyyətinin bərpa edilməsi
889-942-ci illər -Sacilər dövləti
889-cu il -Məhəmmədin Azərbaycanın hakimi tə’yin olunması
893-cü İldən başlayaraq-Məhəmmədin Ərməniyəyə yürüşləri
901-ci İİ -Məhəmmədin vəfatı
919-cu il 16 iyul -Ərdebil yaxınlığında döyüş
927-ci il 27 dekabr -Kufa şəhəri yaxınlığında döyüş. Yusifin öldürülməsi

942-981-d iUər
944- cQ İl 24 avqust
945- ci ü 12 avqust
X əsrin II yarısı

953-cü il

957-ci ilin dekabrı
961-981-ci illər 971-ci il

981-ci ü

987- ci il
988- 1030-cu iUər
1010-1080-ci illər
1020-1059-cu illər
I027-1034-CÜ illər
1027-1382-cl illər
XI əsr. 30-40-cı illəri

1038-1063-cu İUər
1038-1157-ci İllər
I042-Cİ ilin oktyabrı
1045-ci ilin oktyabrı
1050-ciil 1050-1067-ci
illər XI əsr. 50-ci illəri
I055-Cİ ilin yazı
I063-1072-Cİ illər
1067-ci il
XI əsr. 70-80-cl illəri
1071- ci il
1072- 1092-cl illər
1074-1088-ci İllər
1088- ci il
1089- 1125-ci illər
1108-1127-ci illər
1108-1146-cr illər
lin-ci il

XII əsr. 20-30-cu illəri

1120-ci il

-Salariler sülaləsinin hakimiyyəti
-Bərdə şəhərinin tutulması
-Ruslann Bərdəni tərk etməsi
-Azerbaycanda Şəddadiler dövlətinin meydana gəlməsi
-Məzrubamn Ərdəbildə hakimiyyəti ələ keçinnesi
-Məzrubamn Ölümü
-İbrahimin hakimiyyəti
-Şoddadilər dövlətinin fəaliyyətinin başlanması
-İbrahimin məğlubiyyəti və Ərdəbilin tutulması
-Əbülheycanın Ərməniyəyo hücumu
-Sultan I Mahmudun hakimiyyəti
-Qətran Təbrizi
-Əbu Mənsur Vəhsudan
-Şirvanşah Mənuçöhrün hakimiyyəti
-Kəsraniler sülaləsi
-Azərbaycanda ruslann hücumlarının geniş-lənməsi
“Toğrul bəyin hakimiyyəti
-Səlcuq imperiyası
-Təbrizdə zəlzələ
-Həmədanın tutulması
-İsfahanın tutulması
-Əbüləsver Şavurun hakimiyyəti
-Səlcuq qoşunlanmn Azərbaycana daxil olması
-Bağdadın tutulması
-Alp Arslanın hakimiyyəti
-Alp Arslanın Arrana gəlməsi
-Şirvanşah Məzyedilər dövlətinin tənəzzülü
-Məlazgird yaxınlığında döyüş
-Məlikşahın hakimiyyəti
-III Fəzmunun hakimiyyəti
-Gəncənin tutulması
-IV Davidin hakimiyyəti
-Ağsunqurilər sülaləsi
-Fələki Şirvani
-Şirvanm talanması
-Qafqaziyədə feodal dövlətinin istiqlaliyyət uğrunda mübarizəsi

1120-1I60-C1 illər
1120-1199-cu illər
1121- 1122-ci illər
1123-cü il 1123-cu il
XII əsr. 30-cu illəri

1136-1225-ci illər
1136-1160-cı illər
1141-1209-cu illər
1160-1234-cü illər
1161-119 Ud illər

1161-ci ilin yayı
1163-cu ilin yan van
1164 və 1166>cı illər
**1174-** cu il
**1175-1186-cı** illər
**I184-1213-CU**
illər **1186.119Ud**
illər
1188>d ilin martı
1190-1245-d illər
1191-1210-cu illər
1191-1225-ci illər
1192-d il
1192-d il
XIII əsr.sonu 1447-d il
1203-1225-d illər
1206-1227-d illər
1210-1225-ci illər
L219-CU İl
1220- d il
1221- d
il 1222>d
il
1224-1244-cu illər
1225-cü il

1225-d il

123 Ud il
1231-ci il

1235-ci il

-III Mənuçöhrün hakimiyyəti
-Əfzələddin Xaqani
-IV Davidin Toğrulla müharibələri
-IV Davidin Şirvana gəlməsi
-Gülüstan qalasının tutulması
-Azərbaycan Atabəylor dövlətinin meydana gəlməsi
-Atabəylər-Eldənizler sülaləsinin hakimiyyəti
-Azərbaycan Eldənizler dövlətinin təşokl^Iü
-Nizami Gəncəvi
-İbn el-Əsir
-Azərbaycan Eldənizlər dövlətinin çiçəklən-məsi
-III Georginin Gəncə və Dəbili qarət etməsi
-Atabəy Eldənizni Gürcüstana hücumu
-Gürcülərin Azərbaycana hücumu
-Eldənizin Gürcüstana hücumu
-Atabəy Cahan Pəhləvanın hakimiyyəti
-Tamaranın hakimiyyəti
-Qızıl Arslanın hakimiyyəti
-Həmədan yaxınlığında döyüş
-Zülfuqar Şirvani
-Əbu Bəkrin hakimiyyəti
-Azərbaycan Eldənizlər dövlətinin tənəzzülü
-Şirvanda zəlzələ
-III Toğrulun Təbrizə hücumu
-Səfəviler tarixinin birinci dövrü
-I Güstasp ibn Fərruxzadm hakimiyyəti
-Çingiz xanın hakimiyyəti
-Özbəyin hakimiyyəti
-Xarəzm dövlətinə basqın
-Monqollann Azərbaycana yürüşü
-Monqollann Təbrizə yürüşü
-Monqolların Şamaxını tutması
-III Fəribürzün Şirvanı idarə etməsi
-Azərbaycanın Xarəzmşah Cəlaləddinin hücumlarına mə’ruz qalması
-Azərbaycanda Atabeylər Eldənizlər dövlə-tinin süqutu
-Gəncədə xalq üsyanı
-Monqolların ikinci dəfə Azərbaycana soxulması
-Gəncənin tutulması

| | |
|---|---|
| XIII əsr. ortaları | –Azərbaycana türk-monqol qəbilələrin gəlməsi |
| 1251–1260-cı illər | –Menku xanın hakimiyyəti |
| 1252–1234-cü illər | –Şeyx Səfiəddin İshaq əl-Musevi-əl-Ərdəbilinin hakimiyyəti |
| 1253-cü il | –I Hetum Alinin Menku xan ilə ittifaqın bağlanması |
| 1256-cı il | –Azərbaycanın istila olunması |
| 1258–1282-ci illər | –Hülakü xanın hakimiyyəti |
| 1265–1282-ci illər | –Abaqa xanın hakimiyyəti |
| 1275-ci il | –Arranda üsyanın baş verməsi |
| 1275–1338-ci illər | –Əvhədi Marağayi |
| 1282–1284-cü illər | –Əhməd xanın hakimiyyəti |
| 1284–1291-ci illər | –Arqun xanın hakimiyyəti |
| 1291–1295-ci illər | –Keyxatu xanın hakimiyyəti |
| 1295–1304-cü illər | –Qazan xanın hakimiyyəti |
| 1304–1306-cı illər | –Sultan Məhəmməd Xudabəndənin hakimiyyəti |
| 1316–1335-ci illər | –Əbu Səidin hakimiyyəti |
| 1319–1320 və 1322-ci illər | –Azərbaycanda ixtişaşların qalxması |
| 1334-cü il | –Sultaniyyədə üsyan |
| 1334–1392-ci illər | –Şeyx Səfiəddin Musanın hakimiyyəti |
| 1335-ci il | –Özbək xanın yenidən Azərbaycana soxulması |
| 1335–1336-cı illər | –Arpa xanın hakimiyyəti |
| 1336-cı il | –Musa xanın hakimiyyəti |
| 1336–1338-ci illər | –Məhəmməd xanın hakimiyyəti |
| 1338–1340-cı illər | –Satı-bəy xatının hakimiyyəti |
| 1338-ci il | –Şirvanşahların yenidən müstəqilliyi əldə etmələri |
| 1340–1344-cü illər | –Süleyman xanın hakimiyyəti |
| 1344-cü il | –Azərbaycanda hakimiyyətin Məlik Əşrəfin əlinə keçməsi |
| 1344–1355-ci illər | –Ənuşirəvanın padşah e'lan edilməsi |
| 1345–1372-ci illər | –Kavusun hakimiyyəti |
| 1347-ci il | –Məlik Əşrəfin Şirvana və Bağdada yürüşü |
| 1350-ci il | *–İsfahana yürüş* |
| 1355-ci il | –Həsən xanın səltənətə çıxması |
| 1355–1433-cü illər | –Qasım Ənvər |
| 1356–1372-ci illər | –Cəlairi Sultan Üveysin hakimiyyəti |
| 1356–1410-cu illər | –Cəlairilərin hakimiyyəti |
| 1357-ci il | –Canı bəyin Azərbaycanda hakimiyyəti ələ alması |

| | |
|---|---|
| 1358- ci ü | -Toxtamışm Təbrizə yaxınlaşması |
| 1359- 1374-CÜ ü | -Şeyx Üveysin hakimiyyəti |
| 1367-ci ü | -Şirvanın zəbt olunması |
| 1370-1388-ci ülər | -Pəhləvan beyin hakimiyyəti |
| 1370-1405-ci illər | -Teymurun (Teymurləngin) hakimiyyəti |
| XIV əsr. 70-cl ülər ' | -Qaraqoyunlulann Ağqoyunlularla C^iairilərə və Teymuriləro qarşı mübarizəsi |
| 1372-1382-ci illər | -Şirvanşah Huşəngin hakimiyyəti |
| 1378-ci il | -Bağdad əmirlərinin Ucana hücum etmələri |
| *1380-I389^u* lY/ər | -Qara *Məhəmmədin hakimiyyəti* |
| 1382-1410-cu illər | -Sultan Əhmədin hakimiyyəti |
| 1382-1417-ci illər | -I İbrahimin Şirvanda hakimiyyəti |
| 1382-1538-cl iUər | -Derbendlilər sülaləsinin hakimiyyəti |
| 1386.« U | -Teymurun Azerbaycana hücumları |
| 1386. « U | -Toxtamışm Azerbaycana hücumu |
| 1387. Cİ U | -Teymurun Azerbaycanı tərk etməsi |
| 1387. «11 | -Oçlük ittifaqının yaranması |
| 1387-1392.Cİ II | -Təbrizə 17 dəfə hücum |
| 1387-1399-cu **illər** | -Əlincə qalasının müdafiəsi |
| 1388. « il | -Qara Məhəmmədin Təbrizi tutması |
| 1389~1321.cl illər | -Qaraqoyunlu Kəmaləddin Qara Yusifm hakimiyyəti |
| **1392-1427.CI** İllər | -Şeyx Xacə Əlinin hakimiyyəti |
| 1394-1434.CÜ İUər | -Qara Yuluq Osman beyin hakimiyyəti |
| 1395-ci il | -Teymurun Səmərqəndə qayıtması v^ Hindistana səfəri |
| **1402-ci 11** | -Anqara yaxınlığında döyüş |
| **1405. Cİ il** | -Teymurun ölümü |
| **1406.« il** | -Qara Yusif və Sultan Əhmədin Azerbaycana qayıtması |
| **1406-1447-« illər** | -Sultan Şahruxun hakimiyyəti |
| **1410-cu il** | -Sultan Əhmədin Təbrizə yürüşü və ölümü |
| **1410-cu İl 30 avqust** | -Şenbi-Qazan adlı yerdə döyüş |
| **1412-ci İlin sonu** | -Kür sahilində döyüş və I İbrahimin ihağlu-biyyeti |
| **1417.1462-ci illər** | -I Xəlilullahın hakimiyyəti |
| **1418 və 1420-ci illər** | -Azərbaycana uğursuz yürüşlər |
| **1422-1429 və 1431-İ438.Cİ illər** | - İskenderin hakimiyyəti |
| **1427-ci il** | -tskəndərin Şirvana hücumu |
| 1427-1447*« illər | -Şeyx İbrahimin hakimiyyəti |
| 1429-cu ilin mayı | -Şahruxun Azərbaycana gəlməsi |

| | |
|---|---|
| 1429-1431-ci illər | -Əbu Səidin hakimiyyəti |
| 1429-cu il | -Əbu Səidin Qarabağda və Ermənistanda |
| | hökmranlırı |
| 1434-1444-cü illər | -Əli bəyin hakimiyyəti |
| 1435-ci il 16 yanvar | -Əli bəyin Diyarbəkrə daxil olması |
| 1435-ci ilin yayı | -Təbriz yaxınlığında döyüşdə İsgəndərin |
| | məğlubiyyəti |
| 1438-467-ci illər | -Cahanşahm hakimiyyəti |
| 1441-1501-cİ illər | -Əlişir Nəvai |
| 1444-1453-cü İllər | -Cahangir beyin hakimiyyəti |
| 1447-1449-cu illər | -Uluq bəyin hakimiyyəti |
| 1447-1460-cı illər | -Şeyx Cüneydin hakimiyyəti |
| 1447-I501-Cİ illər | -Səfovilər tariximin ikinci dövrü |
| 1449-1470-ci illər | -Şeyx Cəfərin ƏrdəbiUn hakimi olması |
| 1453-1478-ci illər | -Uzun Həsənin hakimiyyəti |
| 1455-1535-ci illər | -Kamal əf-din Behzad |
| 1457-ci il | -Cahanşahm Curcanı və Xorasanı tutması |
| 1459- cu ilin yanvarı | -Cahanşahla Əbu Səid arasında müqavilənin |
| 1460- cı il 3 mart | bağlanması |
| 146Ö-1488-Cİ illər | -Cüneydin Dağıstana və Şirvana yürüşü |
| 1461- ci il | -Şeyx Heydərin hakimiyyəti |
| 1462-1501-ci illər | -Yassıçəməndə müqavilənin bağlanması |
| 1463-1479-cu illər | -Fərrux Yasann hakimİ3^eti |
| 1465-ci il 146S-Cİ il | -Venesiya-Türkiyə müharibələri |
| 1467- d ilin mayı | -Təbrizdə «Göy məscid»in tikilməsi |
| 1468-1496-cı illər | -Moskvaya səfirin göndərilməsi |
| 1472-ci ilin yazı | -Muş düzündə döyüş |
| | —Seyfəddin Qayıtbəyin hakimiyyəti |
| **1472-** 1473-cü illər | -Venesiyanın Ağqoyuniu dövləti ilə hərbi. |
| 1470-ci il 1 avqust | ittifaq bağlaması |
| **1473-** cü ilin 11 avqustu | -Ağqoyımlu-Türkiyo müharibələri |
| **1474-** cü **ilin mayı** | -Malatiya döyüşü |
| 1474-1477-Cİ illər | -Otluqbeli döyüşü |
| 1475-1536-cı illər | -Şirazda qiyamın başlanması |
| 1477- ci il | -Uzun Həsənin Gürcüstana yürüşü |
| 1478-1490-cı illər | -Qiyasəddin ibn Hümaməddin əl>Hüseyn |
| 1480- ci il | -Uzun Həsənin VI Baqratla sülh müqaviləsi |
| 1481-1512-ci İllər | -Yaqub Mirzənin fəaliyyəti |
| 1383-cä il | -Urfa yaxınlınnda döyüş |
| | -Türkiyə Sultanı II Bəyazidin hakimiyyəti |
| | -Təbrizdə «hoşt behişt» saray dəstinin |
| | tikilməsi |

| | |
|---|---|
| **1488-ci il 9 iyun** | –Şahdağın ətəyində Şirvanşahların birləşmiş qüvvələri ilə qızılbaşların döyüşü |
| **1488–1495-ci illər** | –Şeyx Sultanəlinin hakimiyyəti |
| **1494–1495-ci illər** | –Ağqoyunluların Ərdəbili və Səfəvilərin mülklərini zəbt etməsi |
| **1498–1500-cü illər** | –İsmayılın Ərzincan səfəri |
| **1494–1556-cı illər** | –Məhəmməd Füzuli |
| **1500-cü ilin sonu** | –İsmayılın Fərrux Yasarla döyüşü |
| **XVI əsrin I yarısı** | –Cülfa beynəlxalq ipək ticarətinin iri mərkəzi kimi |
| **1501–1524-cü illər** | –Şah İsmayılın hakimiyyəti |
| **1501–1587-ci illər** | –Səfəvilər tarixinin üçüncü dövrü |
| **1503-cü ilin 21 iyun** | –Ağqoyunlu Muradın məğlubiyyəti |
| **1504-cü il** | –Türkiyə Sultanı II Bəyazidin Səfəvilər dövlətini tanıması |
| **1510-cu il 1 dekabr** | –Mərv qalası yaxınlığında qızılbaşların özbəklərlə döyüşü |
| **1512–1520-ci illər** | –Sultan Səlimin hakimiyyəti |
| **1514-cü il 23 avqust** | –Çaldıran döyüşü |
| **1516-cı ilin əvvəli** | –Qoçhisarda türklərin qələbəsi |
| **1516–1535-ci illər** | –Mesxi çarı IV Kvarkvarenin hakimiyyəti |
| **1520–1566-cı illər** | –I Süleyman Qanuninin hakimiyyəti |
| **1520–1574-cü illər** | –Kaxetiya çarı Ləvənd xanın (Levan) hakimiyyəti |
| **1524–1535-ci illər** | –II Xəlilullahın Şirvanda hakimiyyəti |
| **1524–1576-cı illər** | –I Təhmasibin hakimiyyəti |
| **1526-cı ilin mayı** | –Səksəncik və Xərzəvil adlı yerlərdə döyüş, Div Sultanın qələbəsi. |
| **1527-ci il 30 iyun** | –Arpaçay sahilində döyüş |
| **1527-ci ilin iyunu** | –Div Sultanın ölümü |
| **1527–1531-ci illər** | –Təkəli ə'yanlarının hökmranlığı |
| **1534-cü il 27 sentyabr** | –I Süleymanın Təbrizi tutması |
| **1534–1612-ci illər** | –Sadıx bəy Əfşar |
| **1535-ci ilin yazı** | –I Süleymanın ikinci dəfə Təbrizə yürüşü |
| **1535–1538-ci illər** | –Şamaxı hakimi Şahruxun hakimiyyəti |
| **1538-ci ilin yayı** | –Səfəvi qoşununun Şirvana daxil olması |
| **1540-cı il** | –I Təhmasibin Bakını tutması |
| **1541-ci il** | –I Təhmasibin Tiflisi tutması |
| **1547–1549-cu illər** | –Şirvanda Səfəvilər əleyhinə üsyanlar |
| **1547–1554-cü illər** | –Şirvanda üsyanların yatırılması |
| **1548-ci il** | –I Süleymanın Azərbaycana üçüncü yürüşü |
| **1551-ci il** | – Şəkinin Səfəvi dövlətinə birləşdirilməsi |

| | |
|---|---|
| **1552-1553-cü İllər** | -Sefevilerin Osmanlı, ərazisinə yürüşü |
| **1554>cu İlin yazı** | -I Süleymanın Azərbaycana dördüncü yürüşü |
| **1555-d U 29 mart** | -Amasiyada Səfəvi-Osmanlı dövlətlər |
| | arasında sülh müqaviləsi |
| **XVI əsr. 70-80-ci illəri** | -Şirvanda və Talışda feodallara qarşı üsyanlar |
| **1571-ci il** | -Təbriz senətkarlan və şəhər yoxsullarının |
| | üsyanı |
| **1574-1595-ci illər** | -Sultan II Muradın hakimiyyəti |
| **1577-ci 11** | -Kürd qiyamı |
| **1577- 1584-cü İllər** | -Knm xanı II Məhəmməd Gərayın hakimiyyəti |
| **1578- ci II** | -Çildir döyüşü |
| **1578-ci il 24 avqust** | -Türklərin Tiflisi tutması |
| **1578>ci U 28 noyabr** | -Ağsu çayı sahilində Mollahəsən adlı yerdə |
| | döyüş. Sefevilərin Şirvanda qələbəsi |
| **1578-1579-cu illər** | -Knm tatarlarının Şirvana və Qarabağa hücumu |
| **1578-1587-cI illər** | -Məhəmməd Xudabəndənin hakimiyyəti |
| **1583-cä ilin yazı** | -tmamqulu xanın Şirvana daxil olması |
| **1583-cfi ilin yazı** | -Fərhad paşanın Azərbaycana yürüşü |
| **1585- ci il** | -Türkmən və təkəli tayfalarmın qiyamı |
| **1586- 589-cu illər** | -Azərbaycanın Sultan III Muradın ordusu tərə- |
| **1587- 1629-cu Ulər** | findən zəbt olunması |
| **I587>ct 11** | -Şah Abbasın hakimiyyəti |
| **1587-1736н:ı lUər 1590** | -Şah Abbasın Qezvini tutması |
| **- 1613-cü illər 1590-cı** | -Səfəvilər tarixinin dördüncü dövrü |
| **11** | -Şirvan ipəyinin Venesiyaya aparılması |
| **1590-cı il** | -Səfəvi-Türkiyə sülh müqaviləsi |
| **.1591-d il** | -Azərbaycanın müstəqilliyinin sonu |
| **1593-cü U** | -Təbriz üsyanı |
| | -«Azərbaycan»ın bəylerbəylik şəklində |
| **XVI əsr. 90-cı illəri** | birləşməsi |
| **-XVII əsr. əwəU** | -Cəialilər hərəkatı |
| **XVI əsr. sonu -** | |
| **XVII əsr. əvvəli** | -Azorbaymanın iqtisadi vəziyyətinin |
| **XVI əsr. sonu-** | ağırlaşması |
| **XVII əsr. əvvəli XVII** | - Azərbaycanda kəndli çıxışlan |
| **əsr. ƏWƏİ1** | |
| | -Osmanlı imperiyasınm tənəzzülü. Səfəvi |
| **XVII əsr. əvvəli XVII** | dövlətinin dirçəlişi |
| **əsr XVU əsr** | -Tərzi Əfşar |
| | -Azərbaycan şəhərlərinin tənəzzülü |
| | -Azərbaycanda Yaxın və Orta Şərqin kənd |
| | təsərrüfatı məhsullarınm bütün növlərinin |
| | yetişdirilməsi |

| | |
|---|---|
| **XVII əsr.** | -Fars ədəbiyyatının tənəzzülü |
| **XVII əsr.** | -Azərbaycan mədəniyyətinin zənginləşməsi |
| **XVII əsr.** | -Sarı Aşıq |
| **XVII əsr.** | -Tufarqanlı aşıq Abbas |
| **1603-cu II21 oktyabr** | -I Şah Abbasm Təbrizi tutması |
| **1603-cfi II16 noyabr** | -İrəvan qalasınm mühasirəyə alınması |
| **1603- 1607K:İ illər** | -Sefəvi-Osmanlı müharibələri |
| **1604- cü il 8 iyun** | -I Abbasm İrəvan qalasmı tutması |
| **1605- ci II7 noyabr** | -Təbriz yaxmhğında Sufiyan ətrafında döyüş |
| **1606^1 il** | -Cəlalilərin Azərbaycan ərazisinə yiyələnməsi |
| **1606- cı il S iyun** | -Gəncənin tutulması |
| **1607- ci ilin yanvan** | -Bakıda üsyan |
| **1697-d ilin marün əv.** | -Nannqalanın tutulması |
| **1608- ci ii** | -Ərzrum ətrafında osmanlı qoşununun cəlalilər ilə toqquşması |
| I610-CU **İlin ortalan** | -Anadolu cəlalilərinin Səfəvi dövlətini təric etməsi |
| 1613-cfi **il** 16 **oktyabr** | -I Şah Abbasın Azərbaycanm şimal vilayət> lərinə və Gürcüstana yürüşü |
| **1615- I616H;I il illər** | -Şirvanda |
| **1616- cı ilin yazı** | -Sultan I Əhmədin Səfəvilərlə müharibəsi |
| **I616-C1 il** | -Səfəvi dövlətində ingilis tacirlərinə ticarət hüququnun verilməsi |
| **1618-ci ilin sentyabn** | -1 Şah Abbasla Xəlil paşa arasında Mərənd sülhünün imzalanması |
| **1623- 1640-cı il** | -IV Muradın hakimiyyəti |
| **1624-** 1626-C1 **iUər** | -Səfəvi qoşununun Bağdad uğrunda qələbəsi |
| **1625- cl ü 30 iyun** | -Şah Abbasın gürcülər üzərində qələbəsi |
| **1628- ci il** | -Şah Abbasm Ost-Hind kompaniyasının nümayəndə heybətini qəbul etməsi |
| **1629- 1642-ci illər** | -I Səfinin hakimiyyəti |
| **1631-1632-ci illər** | -Kazaklann Azərbaycana və Bakıya basqını |
| **1634>cfi il 10 avqust** | -Sultan rV Muradın İrəvan qalasını tutması |
| **1635-cİ il 11 aprel** | -İrəvan qalasmın geri alınması |
| **1638- ci il 25 dekabr** | -Bağdadın Türkiyənin əlinə keçməsi |
| **1639- 1640^1 İUər** | -Dərviş Rzanın tərəfdarlarının mübarizəsi |
| **XVII əsr. ortalan** | -Səfəvilər dövlətində iqtisadi dirçəliş |
| **t. 1684-1760-cı illər** | -Xəstə Qasım |
| **XVIII əsr.** | -Azərbaycan poeziyasmm Qafqaz xalqlannm poeziyasına tə’siri |
| **XVIIl əsr. əwəll** | -Səfəvi dövlətinin ağır iqtisadi və siyasi böhranı |

1703–1730-cu illər –III Sultan Əhmədin hakimiyyəti
1707-ci il –Car və Balakən camaatının üsyanı
1709-cu il –Şəki və Şirvanda kəndlilərin üsyanı
1709 və 1711-ci illər –Təbriz üsyanı
1709–1715-ci illər –Soucbulaq və Muğanda üsyan
1720–1721-ci illər –Azərbaycanda və Cənubi Dağıstanda İrana qarşı mübarizə
1722-ci il 15 iyun –I Pyotrun Azərbaycan dilində «Bəyannamə» nəşr etməsi və Azərbaycan vilayətlərinə göndərilməsi
1722–1732-ci illər –II Təhmasibin hakimiyyəti
1722–1758-ci illər –Hüseynəli xanın hakimiyyəti
1723-cü il 12 iyul –Rus eskadrasının Bakını tutması
1723-cü il 12 sentyabr –Xəzərsahili vilayətlərin zorla Rusiyaya birləşdirilməsi
1723-cü ilin yazı –Ərzrum paşasının Gürcüstana daxil olması
1724-cü il 12 iyul –Rusiya ilə Türkiyə arasında sülh müqaviləsinin imzalanması
1724-cü ilin mayı –Abdulla paşanın Xoy qalasını tutması
1724-cü ilin iyun-avq. –Gəncə və Qarabağ ermənilərinin I Pyotra müraciəti
1724-cü il –Qarabağın Osmanlı Türkiyəsi tərəfindən tutulması
1725-ci il iyul-avqust –Təbrizin qismən tutulması
1725-ci ilin oktyabrı –Sarı Mustafa paşanın Gəncəni tutması
1725-ci ilin payızı –Türkiyənin Gürcüstan, Ermənistan və Azərbaycanı ələ keçirməsi
1726-cı il –Cavad xanlığının Rusiyaya tabe edilməsi
1726-cı il –Zəngəzurda üsyan
1731-ci il –Qarabağın bütünlüklə zəbt edilməsi
1732-ci il 16 yanvar –İranla Türkiyənin sülh müqaviləsi
1732-ci il 21 yanvar –Rusiya-İran müqaviləsi
1733-cü il –Bağdad ətrafında türk qoşununun məğlubiyyəti
1734-cü ilin oktyabrı –Gəncə qalasının mühasirəsi
1735-ci il 10 mart –Gəncə yaxınlığında Rusiya-İran müqaviləsinin imzalanması
1735-ci ilin sonu –Türk qoşununun Qafqaziyədən çıxması
1736–1747-ci illər –Nadir şahın hakimiyyəti
1738-ci il –Carda üsyan
1738-ci il –Pənahəli bəyin Qarabağa qayıtması
1741-ci ilin yazı –Nadir şah ordusunun Azərbaycan və Dağıstanda məğlubiyyəti

| | |
|---|---|
| 1743-cü ilin oktyabrı | –Şirvan üsyançılarının Ağsuyu tutması |
| 1743–1744-cü illər | –Şirvan, Şəki, Təbriz, Xoy və Salmasda yeni üsyanlar |
| 1744-cü il 31 iyul | –Nadir şahın Qars istiqamətində yürüşü |
| 1744-cü il 29 noyabr | –Nadir şahın Şəkiyə yürüşü |
| 1745-ci il 12 fevral | –İran qoşununun Şəkiyə ikinci yürüşü |
| 1745-ci ilin ortaları | –Türkiyə-İran arasında hərbi əməliyyat |
| 1747-ci ilin əvvəli | –Ərdəbil və Təbrizdə İrana qarşı üsyan |
| 1748-ci il | –Bayat qalasının tikilməsi |
| 1748–1763-cü illər | –Pənahəli xanın hakimiyyəti |
| XVIII əsr. ortaları | –Azərbaycanda müstəqil və yarımmüstəqil dövlətlərin meydana gəlməsi |
| XVIII əsr. 2-ci yarısı | –Azərbaycanda Rusiyaya meylin güclənməsi |
| XVIII əsr. 2-ci yarısı | –Azərbaycanın iqtisadiyyatında durğunluq |
| 1752-ci il 21 mart | –II İraklinin xəyanəti. Kartli-Kaxet çarlarının xanlarla Gəncə yaxınlığında görüşü |
| 1755-ci il | –Çələbi xanın Şamaxı və Qubanın birləşmiş qüvvələrilə toqquşmada məğlubiyyəti |
| 1755-ci il | –Hacı Çələbinin ölümü |
| 1756–1757-ci illər | –Şuşa qalasının tikilməsi |
| 1757-ci il | –Məhəmməd Həsən xan Qacarın Qarabağa yürüşü |
| 1757-ci il | –Salyan xanlığının Qubaya birləşdirilməsi |
| 1758–1789-cu illər | –Fətəli xan Əfşarın hakimiyyəti |
| 1759-cu ilin noyabrı | –Dərbəndin Qubaya birləşdirilməsi |
| VIII əsr. 60–80-ci illəri | –Feodal zülmünə qarşı çıxışlar |
| 1760-cı il | –Fətəli xan Əfşarın Qarabağa hücumu |
| 1762-ci il | –Fətəli xan Əfşarın Azərbaycana yürüşü |
| 1762-ci il | –Kərim xan Zəndin Azərbaycana hücumu |
| 1763–1806-cı illər | –İbrahimxəlil xanın hakimiyyəti |
| 1766-cı il | –Bakının Qubaya birləşdirilməsi |
| 1768-ci ilin avqustu | –Fətəli xanın Şamaxını tutması |
| 1768-ci il | –Cavad xanlığının Qubaya birləşdnrilməsi |
| 1668–1774-cü illər | –Rusiya-Türkiyə müharibəsi |
| 1769-cu ilin iyulu | –Fətəli xanın Hüseyn xanla müqaviləsi |
| 1774-cü il | –Birləşmiş qüvvələrin Qubaya hücumu |
| 1774-cü il | –II Yekaterinanın Türkiyə ilə müqaviləsi |
| 1779-cu il | –Nuxa qalasının tutulması |
| 1780–1781-ci illər | –Fətəli xanın Qarabağa yürüşləri |
| 1782-ci il | –İbrahimxəlil xanın Peterburqa elçi göndərməsi |
| 1783-cü il | –Gürcüstanın Rusiyanın tabeliyinə keçməsi |
| 1783-cü il | –Tərkinin Rusiyaya birləşdirilməsi |

| | |
|---|---|
| **1783- cü il** | -Krımın ilhaq edilməsi |
| **1784- cu U** | -Fətəli xanın Azerbaycanın cənubuna yürüşü |
| **1785- ci il** | -Fətəli xanın Şəkini tutması |
| **1785- ci il** | -Quba xanlığının Gürcüstan ilə ittifaqı |
| **1786- 1857-ci illər** | -Qasım boy Zakir |
| **1789-cu il** | -Merənd yaxınlığında döyüş. Qarabağ qoşununun məğlubiyyəti |
| **1789-1791-cl illər** | -Əhmədxanın hakimiyyəti |
| **1791-1810-cu illər** | -Şeyxeli xanın hakimiyyəti |
| **I794>cü il** | -İran qoşunlarının Əsgeran qalası yaxınlığmda məğlubiyyəti |
| **I794-1852-Cİ illər** | -Mirzə Şəfi Vazeh |
| **1794- 1847-ci illər** | -Abbasqulu ağa Bakıxanov |
| **1795- ci il** | -Şuşanın mühasirəsi |
| **1795- ci il** | -Ağa Məhəmməd xan Qacarm Azərbaycana yürüşü |
| **1796- cı il** | -Rus qoşunlannın Azərbaycana hərbi yürüşü |
| **1797- ci il** | -Ağa Məhəmməd xan Qacann Azərbaycana ikinci yürüşü |
| **1797-ci ilin ortaları** | -Ağa Məhəmməd xan Qacann Şuşaya gəlməsi və ona qəsd |

AZƏRBAYCAN KAPİTALİZM DÖVRÜNDƏ

| | |
|---|---|
| 1801-ci il | -Gürcüstanın Rusiyaya birləşdirilməsi |
| 1803- cü ilin yazı | -Rus qoşunlannın Balakəni tutması |
| 1804- cü İlin 3 | -Gəncə qalasının işğalı |
| yanvarı 1804>cü ilin əvvəli | -Rus qoşunlannın Zaqatala yaxınlığında məğlubiyyəti |
| | -Rusiya-İran müharibəsi |
| 1804-1813-cu illər | -Qarabağ xanlığının Rusiyaya ilhaq edilməsi haqqında müqavilənin imzalanması |
| 1805- ci il 14 may | -Şəki xanlığmın Rusiyaya ilhaq edilməsi haqqında müqavilənin imzalanması |
| 1805- **ci il 21 may** | -Şirvan xanlığının Rusiyaya qatılması |
| 1805>ci ilin 25 dekabrı | -General Sisianovun Bakı ətrafında öldürülməsi |
| 1806- cı ilin 8 fevrab | -Dərbəndin işğalı |
| | -Bakınm rus qoşunlan tərəfindən işğalı |
| 1806*cı il iyun | -Rusiya-Türkiyə müharibəsinin başlanması |
| 1806- cı il 3 oktyabr | -Şəkidə çar idarə üsulunun bərqərar olması |
| İ806-CI ilin sonu | -Buxarest müqaviləsi |
| 1807- ci ilin sonu | |

| | |
|---|---|
| 1812-1878>ci illər | -Mirzə Fətəli Axundov |
| 1813>cü il 1 | -Lənkəran qalasının Rus qoşunlan tərəfindən alınması |
| 1813-cü İlin 12 oktyabn | -GüIüstan sülh müqaviləsi |
| 1825-1879-cu il | -Mirzə Qədim Irəvani |
| 1826-1828-ci illər | -II Rusiya-İran müharibəsi |
| 1826- cı ilin sentyabn | -Şamxor yaxınlığında tran qoşunlarının məğlubiyyəti |
| 1827- ci ili | -Şəkidə ilk ipək e’malı fabrikinin tə^sis olunması |
| 1828>ci il fevral | -Türkmənçay müqaviləsi |
| 1828- d ilin apreli | -Rusiya-Turkiyə münasibətlərinin kəskinləşməsi |
| 1828-1830^u illər | -tran və Türkiyə ermənilərinin Qafqaziyeyə köçməsinin mütəşəkkil xarakter alması |
| 1829>cu il | -Ədimədə Rusiya-Türkiyə müqaviləsinin imzalanması |
| 1829-1897-ci illər | -Hacı Mehdi Şükuri * |
| 1830-cu il | -Car-Balaken camaatlarında üsyan |
| 1830-1840-cı illər | -Təbrizdə çıxışların baş verməsi |
| 1837-ci il | -Qubada üsyan |
| 1837-1907-ci illər | -Mirzə Əli xan Lə’li |
| 1838-ci il | -Şəkidə üsyan |
| 1838-1910-cu illər | -Əfhədi Marağayi |
| 1840-^:1 il | -Komendant üsul-idarəsinin ləğvi |
| 1840-cı il | -İnzibati və aqrar islahatlar |
| 1842-1907-ci illər | -Həsən bəy Məlikov Zərdabi |
| 1846-cı il 6 dekabr | -Bəylərin huquqlan haqqında ferman |
| 1848-1852-ci illər | -Babilər hərəkatı |
| 1850-ci il | -Zəncanda babilər üsyanı |
| XIX əsrin 2-ci yansı | -Kapitalizmin yaranması və inkişafı |
| XIX əsrin 2*^i yansı | -Kapitalist sənayesinin inkişafı |
| XIX əsrin 2*ci yansı | -Burjua və fəhlə sinfinin meydana çıxması |
| 1854-1926>cı illər | -Nəcəf bəy Vezirov |
| 1861-1943-cü illər | -Cabbar Qaryağdı |
| 1862-191 l>d illər | -Mirzə Ələkbər Sabir |
| 1864-**1940.CI** illər | -Əlibəy Hüseynzadə |
| 1865-1934>cü illər | -Əliraerdanbəy Topçubaşov |
| 1866-1932-ci iUər | -Cəlil Məmmədquluzadə |
| 1866-1937-ci il | -Sultanməcid Qənizadə |
| 1868-1939^u Ulər | -Əhraədbəy Ağaoğlu |
| 1870- ci ildən başlayaraq | -Fəhlə hərəkatı |

| | |
|---|---|
| **1870-ci il** | –Kəndli və inzibati islahatlar |
| **1870–1925-ci illər** | –Nəriman Nərimanov |
| **1870–1933-cü illər** | –Əbdürrəhim bəy Haqverdiyev |
| **1871-ci il** | –Buruq üsulu ilə neft quyusunun qazılması |
| **1872-ci il** | –Neft sənayesində iltizam sisteminin ləğvi |
| **1872–1950-ci illər** | –Məmməd Səid Ordubadi |
| **1873-cü il 22 mart** | –«Hacı Qara» komediyasının ilk tamaşası |
| **1873–1934-cü illər** | –Mirzə Əli Mö'cüz Şəbüstəri |
| **1875-ci il** | –Təbriz dövlət məktəbinin (Təbriz Darulfünununun) açılması |
| **1875-ci il 22 iyun** | –«Əkinçi» qəzetinin nəşrinin başlanması |
| **1875–1939-cu illər** | –Süleyman Sani Axundov |
| **1876-cı il** | –Qori seminariyasının açılması |
| **1879-cu il** | –Qori seminariyasının Azərbaycan bölməsi |
| **1879-cu il** | –«Ziya» qəzetinin çıxması |
| **1897–1936-cı illər** | –İbrahim bəy Musabəyov |
| **1880-cı il** | –İlk telefon rabitəsinin yaranması |
| **1880–1890-cı illər** | –«Kaspi», «Bakinskiye izvestiya», «Baku» qəzetləri (rus dilində) |
| **1880–1891-ci illər** | –«Keşkül» qəzeti |
| **1880–1919-cu illər** | –Əliqulu Qəmküsar |
| **1880–1943-cü illər** | –Əzim Əzimzadə |
| **1882–1946-cı illər** | –Əli Nəzmi |
| **1883-cü il** | –Qafqaziyədə dəmir yolunun açılması |
| **1884–1950-ci illər** | –Zülfüqar Hacıbəyov |
| **1885–1935-ci illər** | –Müslüm Maqomayev |
| **1885–1948-ci illər** | –Üzeyir Hacıbəyov |
| **1887–1943-cü illər** | –Yusif Vəzir Çəmənzəminli |
| **1888–1909-cu illər** | –Səid Səlmasi |
| **XIX əsr. son rübü** | –Qaçaq hərəkatı |
| **1894-cü il** | –Bakıda ilk kitabxananın açılması |
| **1895-ci il** | –İlk mütəşəkkil tə'til |
| **1896-cı il** | –Qaçaq Nəbinin öldürülməsi |
| **1898–1922-ci illər** | –Bəhruz Kəngərli |
| **1899-cu il** | –Bakıda 6 sosial-demokrat dərnəyi |
| **1900-cu il** | –Bakıda sosial-demokrat hərəkatının genişlənməsi |
| **1900-cu il** | –Bakı-Vladiqafqaz dəmir yolunun işə düşməsi |

# İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT^

## *ÜMUMİ İŞLƏR VƏ GİRİŞ*

Азербайджанская ССР Административно-территориальное деление. Баку, 1968.

Azərbaycan tarixi, I-И cildlər. Bakı, 1958-1960.

Azərbaycan tarixi üzrə qaynaqlar. Bakı, 1989.

Благова Г. Ф. Вариантные заимствования турок тюрк и их лексическое обособление в русском языке.-Тюркологический сборник. Москва, 1973.

Буниятов З. М. Обзор источников по истории Азербайджана. Источники арабские. Баку, 1964.

История Азербайджана. Баку, 1979. История Ирана с древнейших вре.мен до конца XVIII века Лениград, 1958.

Yusifov Y. B. «Azərbaycan» adı haqqında yeni mülahizələr.-Azər- baycan onomastikası problemləri, III Bakı, 1990,

Сумбатзаде А. С. Историческая наука.в Азербайджане. Баку, 1985.

## *AZƏRBAYCANDA İBTİDAİ-İCMA QURULUŞU*

Абибуллаев О. А. Энеолит и бронза на территории Нахичеванской АССР Баку, 1982.

Асланов Г. М., Ваидов Р. М., Ионе Г. И. Древний Мингечаур. Баку, 1959.

Алекперов А. К. Исследование по археологии и этнографии Азербайджан-Баку, 1960.

Бунятов Т. А. Земледелие и скотоводство в Азербайджане в эпоху бронзы. Баку, 1957.

Bünyadov T. Ə. Azərbaycan arxeologiyası oçerkləri. Bakı, 1960.

Гуммель Я. И. Археологические очерки. Баку, 1940.

Гусейнова М. А. Керамика Восточного Закавказья эпохи поздней бронзы и раннего железа. Баку, 1989. Гусейнов М. М. Древний палеолит Азербайджана. Баку, 1985.

Hüseynov M. M. Uzaq daş dövrü. Bakı, 1973.

Hüseynov M. M. Azərbaycan arxeologiyası. Daş dövrü. Bakı, 1976.

Джафаров А. К. Мустьерская культура Азербайджана (по материалам Тагларской пещеры). Баку, 1983.

Джафаров Г Ф. Связи Азербайджана со странами Передней Азии. Баку.

Джафаров Г. Ф. Древнейшие связи азербайджанских племен со странами Ближнего Востока. Баку, 1986.

Джафаров Г. Ф. Борсунлу-погребение племенного вождя. Баку, 1985.

Джафарзаде И. М. Обследование циклопических сооружений Азербайджанской ССР.-Изв. АзФАН ССР, 1939, Ка 37.

Джафарзаде И. М. Древнейший период истории Азербайджана. «Очерки по древней истории Азербайджана». Баку, 1956, с. 7-56.
Джафарзаде И. М. Гобустан. Баку, 1977.

Əliyev V. H. Azərbaycanda boyalı qablar mədəniyyəti. Bakı, 1977. Əliyev V. H. Qədim Naxçıvan, Bakı, 1979.

Иессен А. А. Из исторического прошлого Мильско-КарабахскоЙ степи, МИ А, 125, М.-Л, 1965, с. 10-35.

Иессен А. А. Раскопки большого кургана в укочище Уч-Тепе, МИА. 125, с. 153-193,

İsmayılov Q. S. Quruçay və Kdndələn çaylan vadisində qədim mədəniyyət izləri. Bakı, 1981.

Исмайылов Г. С. Археологические исследования древнего поселения Бабадервиша. Баку, 1978.

Кесаманлы Г. П. Хачбулагский курган с массовым захоронением. АММ. ХИ т. Баку, 1976, с. 4-92.

Кесаманлы Г. П.« Гусейнов М. А. Археологические памятники Келабекского района. Баку 1986.

Махмудов Ф. Р., Мунчаев R М., Нариманов И. Г О древнейшей металлургии Кавказа. «Советская археология», 1968, № 4.

Mahmudov F. R. Talış və Muğanın qədim mədəniyyətinə aid yeni arxeoloji materiallar. Azərb. SSR EA. Xəbərləri (Tarix, hüquq və falsəfə seriyası), 1970, №2.

Mahmudov F. R. Əlikömək təpəsində arxeoloji qazıntıların ilkin yekunları. «Azərbaycanda daş dövrü və eneolit». Bakı, 1984, s. 53-74.

Мешанин нов И. И. К вопросу об ассирийской бусине из Ход- жал инского могильника. ИООИА, 1926, № 3.

Мунчаев Р. М. Кавказ на заре бронзового века. М., 1976.

Muradova F. M. Qobustan tunc dövründə. Bakı, 1979.

Мурадова Ф. Мм Рустамов Дж. Н. Памятники Гобустана. Баку, 1986.

Nərimanov İ. İ. Gəncəçay rayonunun arxeoloji abidələri. Bakı, 1958.
Нариманов И. Г. Культура древнейшего земледельческого сштовод-ческого населения Азербайджана. Баку, 1987. .

Нариманов И. Г, Джафаров Г. Ф. О древнейшей металлургии меди на территории Азербайджана. «Советская археология», 1990. № 1, с. 5- 14.

Нариманов И. Г., Джафаров Г. Ф. Палеолитические находки из Борсунлу. КСИИА, вып. 192, 1986, с. 67-72.

Парсек Т. С., Латынин Б. А. Очерки по истории Северного Азербайджана. ИООИА, 1929, № 3.

Рустамов Дж. Н. Мезолитическая стоянка в Гобустане. «Azerbaycanda daş dövrü va eneolit». Bakı, 1984, s. 40-49.

Xəlilov C. Ə. Qərbi Azərbaycaim tunc dövrü və dəmir dövrünün əvvəllərinə aid arxeoloji abidələri. Bakı, 1959.

## *AZƏRBAYCAN QULDARLIQ QURULUŞU DÖVRÜNDƏ*

Алиев И. История Мидии. Баку, 1960.

Алиев И. Очерк истории Атропатекы. Баку, 1989.

Алиев К. Г. Кавказская Албания. Баку, 1974.

Алиев *К.* К вопросу об источниках и литературе по истории древней Кавказской Албании.-Вопросы истории Кавказской Албании. Баку, 1962.

Аманжолов А. С. Шумеро-тюркские соответствия и изобразительные логограммы.

Арриан. Поход Александра. М.-Л., 1972.

Арутюнян Н. В. Биайнили. Ереван, 1970.

Бабаев И. А. К вопросу о возникновении государства Албания.-Известия Аз. ССР, сер. ист., философ, и права, 1976, № 4.

Hacıyev T. İ., Vəliyev K. N. Azərbaycan dilinin tarixi. Bakı, 1983.

Гаджиева Н. 3. Тюркоязычный ареал Кавказа. Москва, 1979.

Гамкрелидзе Т. В., Иванов В. В. Индоевропейский язык и индоевропейцы, 1-11. Тбилиси, 1984.

Геродот. История. Москва, 1985; Ленинград, 1972.

Грантовский Э. А. Ранняя история иранских племеи Передней Азии, Москва, 1970.

Дандамаев М. А., Луконин В. Г. Культура и экономика древнего Ирана. Москва, 1980,

Дандамаев IVI. А. Политическая история Ахеменидской державы. Москва, 1985.

Дьяконов И. М. Ассиро-вавилонские источники по истории Урарту.-Вестник древней истории, 1953. № 2, 3/

Дьяконов И. М. История Мидии. М.-Л., 1956.

Дьяконов И. IVI. Очерк истории древнего Ирана. Москва, 1961.

Известия древних писаггелей (греческих и латинских) о Скифин и Кавказе. Т. 1. СПБ, 1893; т. ИСПБ, 1904. . *

Иосиф Флавий. Иудейские древности, 1-11. С.-Петербург, 1900.
Иордан. О происхождении и деяниях гетов. Москва. 1960.
Yusifov Y. B., Kərimov S. K. Toponimikamn əsasları. Bakı, 1987.
Кашкаи С. М. Из истории Маннейского царства. Баку. 1977.
Клавдий Птолемей. Географическое руководство.-Вестник древней истории, 1948, №2,
Корнелий Тацит. Анналы. Ленинград. 1969.
Крамер С, И. История начинается в Шумере. Москва, 1965.
Крамер С. Н. Гариш Су.мер' де башлар. Анкара. 1990,
Куртш Руф. Истори.ч Александра Македонского. Москва. 1963.
Латышев В. В. Известия древних писателей о Скифии и Кавказе.-Вестник древней истории, 1947. № 1-4: 1948, № 1-4; 1949. № 1-1.
Меликишвили Г. А. Наири-Урарту. Тбилиси, 1954.
Мсликишоили Г. А. Урартские клинеобразные надписи: Москва. I960.
Мизиев И. М. Шаги к истокам этнической истории Центрального Кавказа Нальчик, 1988.
Мусаев К. М. Лексикология тюркских языков. Москва, 1984.
Нариманов И. Г. Обейдские племена Месопотамии в Азербай-джаие.-Всесоюзная археологическая конференция. Баку. 1985.
Пиотровский Б. Б. Ванское царство (Урарту). Москва, 1959,
Иолибий. История, Москва, 1980.
Помлоний Мела. Землеописание. - Вестник древней истории, 1948 **№1.**
Попов А. И, Названия народов СССР. Ленинград. 1973.
Рамстед Г. М. Введение в алтайское языкознание. Москва. 1957.
Sadi Bayram. Qaynaqlara göro Güney-Doğu Anadolu'da proto-türk izleri. Türk dünyası araşdırmaları vn kifi. Naziran, 1988.
Сарианидн В. И, ПротоэороастриПскиП храм в Маргиане и проблема возникновения зорострizма.-Вестник древней истории. 1989, №1.
Страбон. География. Москва. 1964.
Сулейманов О. Азия. Алма-Ата. 1975.
Туна О. Н. Сумер ня тцрк яннляриииии тарнхи илкиси иля турк лилниин йашы .меселеси. Анкара. 1990.
Халилов Дж. А. Материальная культура Кавказской Албании (IV в. до и. 3.-111 в. и. 3.). Баку, 1985.
Хрестоматия по истории древнею мира. 1-11. Москва. 1980.
Юенфов Ю. Б. О языках древнейших насельников Азербайджана (III тыс. до н. 3.). - Вопросы Азербайджанской филологии. Баку, 1983.
Юенфов Ю. Б. Ранние контакты Месопотамии с севера восточными страна.ми (Приурмннекая юна).-Вестник древней истории. 1987, № 1.
Юенфов Ю. Б. Киммеры. скифы и саки о древнем Азербайджане-кавказско Ближневосточный сборник. Тбилиси. 1988.

Юсифов Ю. Б. Об актуальных проблемах этнической истории Азербайджана. Баку. 1988.

Юсифов Ю. Б., Бабаев И. А. Кавказская Албания в эллинистическую эпоху.-Причериоморье в эпоху эллинизма. Цхалтубо, 1982.

Ямпольский 3. И. Албания в 11I-I вв. до н. э. Баку. 1962.

Ямпольский 3. И. Древние авторы о языке населения Азербайджана, - Известия АН АзССР. 1955. № 8.

Ямпольский и 3. И. Об этиотиетаческои непрерывности на почве Азербайджана. - Вопросы истории Кавказской .Албании. Баку. 1962.

Ямпольский 3. И. О тюрках V в. до н. э. - Ученые записки АГУ им. С. М. Кирова. Сер. языка и литературы. 1979, № 5-6.

## *AZƏRBAYCAN FEODALİZM QVRVLUŞV DÖVRÜNDƏ ERKƏN ORTA ƏSRLƏR*

Атафин. О царствовании Юстиниана. М.-Л, 1953.

Алиев К. Албаиы-кочеоники и басилевс Зобер.-Известия АН АзССР, сер. обш. наук. 1962. № 8.

Алиев К. Г. К вопросу о племенах Кавказской Албании. - VII Международный конгресс антропологических и этнографических наук. Москва, 1964.

Алиев К. Историческая топонимика.-Известия АН АзССР, сер. ист., филос, и права, 1969. Х« 4.

Алияров С. С. «Книга Коркуда»; Проблемы комплексного историко-<|)илологического исследования.-Советская тюркология, 1989, Хй 4.

Аммиан Марселлии. История. Киев, 1906.

Армянская география VII в, С.-Петербрг. 1877.

Артамонов И. М. История хазар. Ленинград, 1962.

Ашурбейлм С. Госу.аарство Ширваншахов (VI-X1V вв.). Баку, 1983.

Бабаев И. А., Ахмедов Г М. Кабала. Баку. (980.

Бернштам А, Н. Очерк истории **ı^ннов.** Ленинград, 1951.

Bünyadov Z. M. Azarbaycan VII-IX əsrlərdə. Bakı, Г989.

Vahldov R. Qədim Mingəçevir. Bakı. 1976.

Византийские историки. СИб.. 1861.

Valixanlı N. IX-Xfl o.sr ərəb coğrafıyaşiinas-səyyalılan Azərbaycan haqqında. Bakı, 1974.

Гевонд. История халифов. СПб.. 1862.

Геюшев Р. Христианство в Кавказской Албании. Баку, 1984.

ГеПбуллаев Г А. Топонимика Азербайджана. Баку, 1986.

Гейбуллайев Г .А. I арабаь (Етиик вя сийаси тарихиня дайр). Бакы, 1990.

Гейбуллаев Г. А. К этногенезу азербайджанцев, Т. I. Баку, 1991,

Гукасян В. Л. Тюркизмы в албанских источниках.-Советская тюркология, 1977, X92.

Гукасян В. Л. Значение закавказских источников в изучении азербайджанского языка дописьменного периода. - Советская тюркология, 1978, №2.

Гусейнов Р. А. О тюрках IV-VII вв. в зоне Кавказской Албании,-Вонросы истории Кавказской Албании. Баку, 1962.

Гусейнов Р. А. Сирийские источники об Азербайджане, Баку, 1960.

Джафаров Ю. Р. Гунны и Азербайджан. Баку, 1985.

Бгише О. Вардане и войне армянской. Ереван, 1971.

Еремеев Д. И. Этногенез турок. Москва, 1970.

Еремян С. Т. Идеология и культура Албании III-VII вв.-Очерки истории СССР. III-IX вв., Москва, 1958.

Ибн Хаукал. Книга путей и царств. СМОМПК. вып. 38 Тифлис, 1908.

Ибн Хордадбех. Книга путей и стран. Баку, 1986.

История Ирана. Москва, 1977.

Yusifov Y. B., Kərimov S. K. Toponimikanın esaslan. Bakı, 1987.

Hacıyev T. İ., Vəliyev K. N. Azərbaycan dilinin tarixi. Bakı, 1983.

Касумова С. Ю. Южный Азербайджан в Ш-VII вв. Баку, 1983.

Климов Г. А. Кавказские языки. Москва, 1965.

Константин Багрянородный. О «фемах» и о «народах». Москва, .1899.

Корюн. Житие Маштоца. Ереван, 1962.

К проблеме этногенеза азербайджанского народа. Баку, 1984.

Крымский А. Е. Страницы из истории Северного или Кавказского Азербайджана (Классической Албании). Ленинград, 1934.

Луконин В. Г. Культура сасанидского Ирана. Москва, 1969.

Мамедов Ф. М. Политическая история и историческая география Кавказской Албании. Баку, 1986.

Масуди. Луга золота и рудники драгоценных камней, СМОМПК, вып. 38. Тифлис, 1908.

Меликсет-Бек Л. М. К истории появления гуннов в Восточном Закавказье.-ДАН АзССР, 1957. №6.

Миллер Б. П. Талышский язык. Москва, 1930.

Миллер Б. П. К вопросу о языке Азербайджана до отуречения этой области. - Ученые записки Ин-та национальной и этнографической культуры народов Востока. Т. 1, Москва, 1930.

Минорский В. Ф. История Ширвана и Дербента X-XI вв. Москва, 1963.

Моисей Каланкатваци. История албан. СПб., 1861, Ереван, 1969.

Моисей Хоренаци. История Армении. Москва, 1893.

Мукаддаси. Самая лучшая книга по разделению климатов. СМОМПК. вып. 38. Тифлис, 1908.

Муравьев С. Н. Три этюда о Кавказско-Албанской письмен кости.- Ежегодник Иберийско-Кавказского языкознания. VIII, Тбилиси, 1981.

Новосельцев А. П., Пашуто В. Г, Черепнин Л. В. Пути развития феодализма. Москва, 1972.

Прокопий. Война с готами. Москва. 1950.

Прокопий. История войн с персами, вандалами и готами. СПб., 1876.

Пигулевская Н. В. Сирийские источники по истории народов СССР. М. - Л,. 1941.

Сумбатзаде А. С. Азербайджанцы-этногенез и формирование народа. Баку, 1990.

Тревер К. В. Очерки по истории и культуре Кавказской Албании (IV в. до и. э. - VII в. н. э.), М.-Л., 1959.

Фавстос Бузанд. История Армении. Ереван, 1953.

Феофилакт Симокатта. История. Москва, 1957.

Халилов Дж., Бабаев И. А. О городах древней Кавказской Албании. - Советская археология, 1974, № 4.

Xudİyev Nizami. Azərbaycan ədəbi dilinin təşəkkülü. Bakı, 1991.

Cəlilov F. A. Azərbaycan dilinin morfolokiyası. Bakı, 1988.

Юсифов Ю. В. О наименованиях «Албания» и «Арран». - Известия АН АзССР, сер. общ. наук, 1961, № 10.

Юсифов Ю. Б. О некоторых языковых элементах тюркского происхождения в сочинении албанского историка. - Советская тюркология, 1974,Хо2.

Юсифов Ю. Б. К этногенезу азербайджанцев. - Фольклор, литература и история Востока. Ташкент, 1984.

Юсифов Ю. Б. Гунны в Закавказье.-Этнические и историко-культурные связи тюркских народов СССР Тезисы докладов и сообщений. Алма-Ата, 1976.

Юсифов Ю. Б. К значению топонимов в этнической истории Азербайджана Известия АН Аз СССР, сер. языка, литературы и искусства, 1987.

Юсифов Ю. Б. Об актуальных проблемах этнической истории Азербайджана. - Проблемы изучения источников по истории Азербайджана. Баку, 1988.

Шанидзе-А. Новооткрытый алфавит албанцев и его значение для наука: - Известия Ин-та языка и материальной культуры I ФАН СССР Т. 4, вын. I Тбилиси, 1938.

Абраам Кретацн. Повествование. Ереван, 1973.

Azərbaycan ədəbiyyatı tarixi. I, Bakı, 1960.

Акты, собранные Кавказской Археологической Комиссией. Архив Главного Управления наместника Кавказа. Тифлис. 1866.

Аракел Даврижеци. «Книга истории». М., 1973.^

Ализаде А. А. Социально-экономическая история Азербайджана X111-X1V вв. Баку, 1956.

Абдуллаев Г Б. Из истории Северно-Восточного Азербайджана в 60-80-х годах XVIII в. Баку, 1958.

Абдуллаев Г. Б. Азербайджан в XVIII в. и его взаимоотношения с Россией. Баку, 1965.

Ашурбейли С. Б. Очерк истории средневекового Баку. Баку, 1964.

Ашурбейлн С. Б. Государство Ширваншахов. Баку, 1983.

Əhməd bəy Cavanşir. Qarabağ xanlığının 1747-1805-ci illərdə siyasi vəziyyətinə dair. 1961.

Əliyev F. M. Şimali Azərbaycan^əhərləri. Bakı, 1960.

Əliyev F. M. XVIII əsrin birinci yansında Azerbaycanda ticarət, Bakı, 1964.

Алиев Ф. М. Антииракские выступления и борьба против турешюй оккупации в Азербайджане в первой половине XVIII в. Баку, 1975.

Алиев Ф. М. Миссия посланника Русского государствах. П. Волынского в Азербайджане. Баку, 1979.

Babayev İ. A., Əhmədov Q. M. Qəbələ (Tarixi-arxeoloji oçerk). Bakı, 1982.

Bakıxanov A. Gülüstani-İrəm. Bakı, 1951.

Бартольд В.В. Место прикаспийских областей в истории мусульманского мира. Баку, 1925.

Бунятов 3. М. Государство Атабеков Азербайджана. Баку, 1986.

Бутков П. Г. Материалы для Новой истории Кавказа с. 1722 по 1803 г. ч. 1-3. СПб., 1869.

Бушев П. П. История посольств и дипломатических отношений русского и ирансгого государств в 1586-1612 гг. (по русским архивам). М.. 1976.

Бушев П. П. Посольство Артемия Волынского в Иране 1715-1718 гг. М. 1978 (по русским архивам).

Vəlixanlı N. M. IX-XII əsr ərəb coğrafiyaşünas-səyyahları Azəi-baycan haqqında. Bakı, 1974.

Вахушти Багратион и. История царства грузинского. Тбилиси, 1978.

Гаджиев В. Г. Сочинения И. Гербера «Описание стран и народов между Астраханью и рекой Курой», находящихся как исторический источник по история народов Кавказа. М., 1979.

Галоян Г.А. Россия и народы Закавказья. М.. 1976.

Гейдаров М. Х. Города и городское ремесло Xlli-XVlIt вв. Баку. 1987.

Гейдаров М Х. Ремесленное производство в городах Азербайджана в XVIII в. Баку, 1967.

Гейдаров М. Х. Социально-экономические отношения н ремесленные организации в городах Азербайджана в XIII-XVIII вв. Баку, 1987.

Quliyev Ə. N. Azerbaycan-Rusiya münasibətləri tarixindən (XV-XVIII əsrlərdə). Bakı, 1958.

Гусейнов Р. А. Сельджукская военная организация.-Палестинский сборник, Й6 17, Ленинград, 1967.

Даранагаци Григор. Хроника. Иерусалим, 1915 (Qədim ermənі dilində).

Джирди Г А. Средневековый город Шемаха IX-XV1I1 вв Баку 1981.

Əbu Bəkr əl-Qutbi Əl-Əhəri. Tarixi Şeyx Uvcys. Bakı, 1984.

Əhmədov Q. M. Orta əsr Beyləqan şəhəri Bakı, 1979

Еремян Е. С. Армения в кн.: «Очерки истории СССР XVII в». М. 1955.

Зевакин £. С. Прикаспийские провинции в эпоху русской оккупации XVIII в. Баку, 1927.

Зейн яд-Днн Гязвннн. Зейд-е тарих-е гозиде. Бакы, 1989.

Зулалян М. К. Движение джелалиев и положение армянского народа в Османской империи (XVI-XVII бв.) (Ермяни дилиндя). Ереван 1966.

İbn əl-Əsir. Əl-Kamil f-t-tarix. Bakı, 1959.

İbrahimov C. M. Sofevilərin Ərdəbil hakimiyyəti tarixinə dair. Bakı, 1960.

Иоанн де Голоннфонтибус. Сведения о народах Кавказа (1404 г). Баку, 1980.

Исмайылов IV1. Я. Шяки (тарихи очерк). Бакы, 1882.

Историческая география Азербайджана. Баку, 1987.

История архитектуры Азербайджана. Москва, 1963.

Кнракос Гандзакеци. История Армении. Баку, 1946; Москва, 1976.

Куканова Н. Г. Очерки по истории русско-иранских торгх)вых отношений в XVI 1-первой половине XIX в. Саранск, 1977.

Mirzə Çamal Cavanşir Qarabaği. Qarabağ tarixi. Bakı, 1959.

Мамедов С. А. Исторические связи азербайджанского и армянского народов во второй половине XVII-первой трети XVIII в. Баку, 1977.

Массе А. Ислам. Бакы, 1964.

Məmmədov S. A. Azərbaycan XV-XVlII əsrin birinci yarısında. Bakı, 1981.

Müsəvi T. M. Orta əsr Azərbaycan tarixinə dair farsdilli sənədlər (XVI-XVIII əsrlər). Bakı, 1977.

Məmmədov R. A. Naxçıvan şeherinin tarix? oçerki. Bakı. 1977.

Mahmudov Y. M. Öyrənilməmiş səhifələr. Bakı» 1972.

Mahmudov У. M. Səyyahlar Azərbaycana gəlir. Bakı, 1977. Mahmudov Y. M. Odlar yurduna səyahət. Bakı» 1980.

Mahmudov Y. M. Səyyahlar, kəşflər, Azərbaycan. Bakı, 1985. Mahmudov Y. M. Səfəvi dövlətinin tarixinə dair yeni sənəd toplusu «Şah tsmayıl Marih Sanudonun gündəliklərində). Azərb. SSR EA «Xəbərləri», 1986, №1.

Mahmudov Y. M. Ağqoyunlu və Səfəvi dövlətlərinin Avropa ölkələri ilə əlaqələrinin öyrənilməsinə dair. (XV əsrin ikinçi yarısı-XVII əsrin əvvadi). Azərb. SSR EA «Xəbərləri», 1987, №3.

Минорский В. Ф. История Ширвана и Дербента X-XI веков Москва, 1963.

Мхитар Гош. Албанская хроника. Баку, 1960.

NəflsÍ Səid. Babək (Azərbaycan qəhrəmanı Babək Xürrəmdin). Bakı, 1989,

Nizamulmök. Siyasətnamə. Bakı, 1987.

Новосельцев А. П. Города Азербайджана и Восточной Армении в XVI 1-XVIII вв. «История СССР». 1959, №1.

Новосельцев А. П. Из истории классовой борьбы в Азербайджане и Армении XVI1-XV1II вв. «Исторические записки» АН СССР, 1960, № 67.

Новосельцев А. П. Освободительная борьба народов Закавказья в XVIII в. «Вопросы истории», 1972, Ха 5.

Ne'mətova M. S. Şirvaim XIV-XVI əsr tarixinin öyrəiilmesinə dair. Bakı, 1959.

Nematova M. S. Azərbaycanın epiqraflk abidələri (XVU-XVIII əsrlər). Bakı, 1963.

Олеарий Адам. Описание путешествия я Московию через Московию в Персию и обратно. Пер. А. М. Ловягина, СПб., 1906.

Олеарий Адам. Описание путешествия а Московию и через Московию в Персию и обратно. Пер. П. Барсова. М. 1870.

Onulİahi S. M. Xin>XVII əsrlərdə Təbriz şəhərinin tarixi. Bakı, 1983.

Папазяи А. Д. Аграрные отношения в Восточной Армении в XVI-XVII вв. Ереван, 1972.

Петрушевский И. П. *Государства Азербайджана* в XV в, Сб. статей по истории Азербайджана. Вып. I. Баку, 1949.

Петрушевский И. П. Очерки по истории феодальных отношений Азербайджана и Армении в XVI-начале XIX вв, 1949.

Петрушевскнй И. П. Ислам в Иране. Ленинград, 1966.

Pnriyev V. Z. Azərbaycan Hülakilər dövlətinin tənəzzülü dövründə (1316-I360-C1 illər). Bakı 1978.

Полиевктов М. А. Европейские путешественники XİII-XVIII вв. по Кавказу. Тифлис, 1935.

Путешественники об Азербайджане. Т. I. Баку, 1961.

Путешествие Алевросия Контарина, после светлейшей Венецианской республики к знаменитому Персидсю>му государю Узун Хасану, совершенное в 1473 г. БИПР, СПб., 1836.

Путешествия и географические открытия в XV-XIX вв. М.-Л., 1965.

Рахмани А. А. «Тарих-и-алам арай-н Абаси» как источник по истории Азербайджана. Баку, 1960.

Рахмани А. А. Азербайджан в конце XVI и в XVJJ веке, Баху, )93),

Рашид ад-Дин. Переписка. Москва, 1971.

Рашид ад-Дин Фаэлуллзх. Джами ат-Таварих. Ш. Баку, 1957.

Рашид ад-Дин Фазлуллах. Огузнаме, Баку, 1987.

Сейфедд'ин М. А. Монетное дело н денежное обращение в Азербайджане XII-XV вв. Баку, 1978.

Симеон Ереванци. Джамбр. М., 1958. Пер. Малхасянца С. С. Под; ред. с предисл. Арутюняна П. Т.

Стрейс Я. Я. Три путешествия. Москва, 1935.

Sumer F. Qaraqoyunlular (başlanğıcdan Cahanşaha qədər). C. I, Ankara 1967 (türkcə).

Fərzəliyev Ş. F. Azərbaycan XV-XVI əsrlərdə. Bakı, 1983.

Xalq ədəbiyyatı, Azərbaycan klassik ədəbiyyatı kitabxanası. C, I, Bakı, 1982.

ХарТ Г. Венецианец Марко Поло. Пер. с анг. М., 1956.

Həmdullah Qəzvinİ. Zeyl-i Tarix-i qozide. Bakı, 1986.

HəmduUah Qazvini. Nüzhət əi-qulub. Tehran, 1336 (farca).

Шловски В. Б. Марко Поло. Бакы, 1972.

Шараф-хан Видлиси. Шарафнаме, Т. 1-2. М. 1967, 1976,

Шахмалиев Э. М. Из истории торговой политики европейских держав на Переднем Востоке в XVI веке. Баку, 1958.

Şərifli M. X. IX əsrin ikinci yansı-XI əsrdə Azərbaycan feodal dövlətləri. Bakı, 1978.

Шихаб ад-Дин Мухаммед ан-Насави. Жизнеописание султана Джалал ад-Дина Манкбурнн. Баку, 1973.

Шильтбергер Ионанн. Путешествие по Европе, Азии и Африке с 1394 по 1427 год. Изд. ред. И примеч. акад. 3. М. Буниятова. Баку, 1984.

Эвлия Челеби. Книга путешествия. Вып. 3. М. М., 1983.

Эфендиев О. А. Образование Азербайджанского государства Сефевидов в начале XVI века. Баку, 1961.

Эфендиев О. А. Азербайджанское государство Сефевидов. Баку, 1981.

Азербайджан в годы первой русской революиии. Баку, 1966.

Алияров С. С. Нефтяные монополии в Азербайджане в период первой мировой войны. Баку, 1974.

Birinci rus inqilabı ərafəsi ve dövrünün Azərbaycan tarixi məsələləri. Bakı, 1985.

Vəliyev T. T. İmperializm dövründə Azərbaycan sənayesi və proletariatı. Bakı, 1987.

Гасанов И. İМ. Частновладельческие крестьяне в Азербайджане в первой половине XIX века. Баку. 1957.

Quliyev Э._ 1903-CÜ ildə Bakıda ümumi iyul tə'tili. Bakı, 1949.

İbraqimov Z. Revolöüiə 1905-1907 qq. v Azerbaydjane. Baku, 1955.

Хаджи Мурат Ибрагимбейли. Россия и Азербайджан в первой трети XIX века. Москва, 1971.

Ибрагимов М. Д. Нефтяная промышленность в период империализма Баку. 1984,

Исмаилов М. Капитализм в сельском хозяйстве Азербайджана в конце X1X-нач. XX в. Баку, 1964.

Исмаилов М. Социально-экономическая структура Азербайджана в эпоху империализма. Баку, 1982.

Казиев М. А. Из истории революционной борьбы бакинского пролетариата. Баку, 1956.

Мильман А. Политический строй Азербайджана в X1X-начале XX веков. Баку, 1966.

Сеидзаде Д. Б. Из истории Азербайджанской буржуазии в начале XX в Баку, 1978.

Сумбатзаде А. С. Кубинское восстание 1937 г, Баку, 1961.

Сумбатэаде А. С. Сельское хозяйство Азербайджана в XIX веке. Баку, 1958.

Talıbzadə İ. Л. Azərbaycanda I912-ci il aqrar islahatı. Bakı, 1965.

Talıbzadə t. A. XIX əsr və XX əsrin əvvəllərində Azerbaycanda suvarma və sudan istifadə. Bakı, 1980.

## *CƏNUBİ AZƏRBA YCAN*

Dadaşzadə M. A. 1905-1911-ci illər tran inqilabı ərəfəsində tran Azərbaycanında kəndlilərin istismar edilməsi haqqmda.-Azəıb. SSR EA-nın Xəbərləri, ictimai elmlər seriyası, 1959, Ns 5.

İbrahimov (Şahin) T. A. İranda siyasi cəmiyyətlər və təşkilatların yaranması və onların fəaliyyəti (1858-1906-cı illər). Bakı, 1967.

Tağıyeva Ş. Ə. XIX əsrin sonu və XX əsrin əvvəllərində tran kəndlilərinin vəziyyəti. Bakı, 1969.
Həbibov Ə. Cənubi Azərbaycanda azadlıq hərəkatı. Bakj, 1988. Həsənov N. tranın ən yeni tarixi (1870-1917). Bakı, 1973.
Cənubi Azərbaycan tarixinin oçerki (1828-1917). Bakı, 1985.
Иванов С. М. Очерки истории Ирана. Москва. 1952.
Парвизпур Б. Х. Великий Октябрь и суверенитет Ирана. Тбилиси, 1984.
Əbdülhäseyn Nahid. Zənan-e tran dər conbeş.e məşrute. Təbriz, 1981.
Əhməd Kəsrəvi. Tarix-e ınəşrutiyyət-e tran, Tehran, 1961.
Əhməd Kavyanpur. Tarix-e omumi-ye Azərbaycan. Tehran. 1967.
İskəndərt Abbas. Tarix-e mofəssər-e Məşrutiyyət-e tran ya ketab-e arzu. Tehran (ilsiz).
Ümmid Hüseyn. Ketab-e tarix-e fərhəng-e Azərbaycan. C. 2, Təbriz, 1955.
Haşemi Sədr. Tarix-e cərayed və ınəcəllat.e İran, tsfahan. C. I-IV.
Tavvakkol Djəfər. Teatr-e. moaser-e tran və əhəmiyyət-e ecteman-ye ai (diss.). Moskva, 1972.

## *DÖVRİ MƏTBUAT*

«Dədə Qorqud» jum. (Təbriz)
«Yoldaş» jum. (Tehi'an)
«Çənlibel» qəz. (Tehran)
«Odlar yurdu» qəz. (Təbriz)
«Azərbaycan səsi» jum. (Tehran).




Azərbaycan e.ə.III-II minilliklərdə




**Manna dövləti**


SİLVLƏR
GİRDİMAN
Kambisena
Xəzər
Partav
(Barda)
Tərtər
İrəvan
Ərsax
Sisakan
(Syuni)
Naxçıvan
Araz
Araksena
Kaspiana
Kür
Kış
Şəki
Qəbələ
Xalxal
(Paytakaran)
BALA
ADA
ABA


Albaniya




**Azərbaycan orta əsrlərdə (VII-IX)**




Azərbaycan feodal dövlətləri




Azərbaycan Atabəyləri dövləti (1136-1125)




Qaraqoyunlu və Ağqoyunlu dövlətləri